Резюме: Быстрое теоретическое и технологическое развитие квантовых компьютеров делает необходимой переоценку основ безопасности классических криптографических систем. Квантовые алгоритмы, такие как алгоритмы Шора и Гровера, позволяют эффективно решать математические задачи, лежащие в основе криптографии с открытым ключом - разложение целых чисел на простые множители и неструктурированный поиск - в квантовой среде. Это создаёт потенциальные риски безопасности для классических протоколов, таких как RSA, ECC и DSA, а также для некоторых симметричных криптографических методов.
В исследовании анализируются постквантовые криптографические алгоритмы (CRYSTALS-Kyber, Dilithium, FALCON, SPHINCS+ и др.), разработанные для противодействия квантовым угрозам, как с теоретической, так и с практической точки зрения. Также представлен процесс стандартизации NIST и сравнительный анализ выбранных алгоритмов. Дополнительно оцениваются технологические возможности Азербайджана и потенциал развития симуляционных исследовательских сред в данной области.
Результаты исследования показывают, что процесс практической подготовки к интеграции постквантовых алгоритмов в реальные приложения должен быть ускорен. В особенности создание симуляционных лабораторных моделей в развивающихся странах следует рассматривать как стратегический приоритет.
Ключевые слова: Классическая Криптография, Квантовая Криптография, алгоритмы Шора и Гровера, постквантовая криптография (ПКК), стандартизация NIST, квантовая угроза, технологическая инфраструктура Азербайджана, квантовое моделирование, облачные квантовые платформы.

Giriş

Son illərdə kriptoqrafiya və informasiya təhlükəsizliyi sahəsi rəqəmsal mühitdə etibarlılığın təmin olunmasında ən vacib istiqamətlərdən birinə çevrilmişdir. Kriptoqrafik alqoritmlər məlumatların şifrələnməsi, doğruluğunun təsdiqlənməsi və rəqəmsal imzaların yaradılması kimi funksiyalarda həlledici rol oynayır. Ənənəvi kriptoqrafik alqoritmlər - məsələn, RSA (Rivest-Shamir-Adleman), ECC (Elliptic Curve Cryptography) və DSA (Digital Signature Algorithm) - uzun müddət etibarlı təhlükəsizlik mexanizmləri kimi geniş şəkildə istifadə olunmuşdur. Lakin kvant kompüter texnologiyalarının sürətli inkişafı, bu ənənəvi alqoritmlərin təhlükəsizliyini ciddi şəkildə sual altına almışdır. Kvant kompüterlərinin paralel hesablama qabiliyyəti nəticəsində klassik kriptoqrafik sistemlər sındırılma riski ilə üz-üzədir və bu da mövcud təhlükəsizlik infrastrukturunun zəifləməsinə səbəb olur (Bennett & Brassard, 2020; Chen et al., 2024).

Bu məqalə, Shor və Grover alqoritmləri kimi kvant alqoritmlərinin ənənəvi kriptoqrafiya sistemlərinə qarşı yaratdığı təhdidləri təhlil edir və bu risklərin Post-Kvant Kriptoqrafiyası (Post-Quantum Cryptography, PQC) vasitəsilə necə aradan qaldırıla biləcəyini göstərir. Məqalədə həmçinin kvant hesablama əsasında asimmetrik alqoritmlərdəki faktorizasiya və diskret loqarifm kimi problemlərin kvant kompüterləri tərəfindən polinomial vaxtda həll edilə bilməsi və bunun nəticəsində kəsilməz təhlükəsizliyin təmin olunması üçün PQC metodlarının tətbiqinin vacibliyi vurğulanır (Ahmed et al., 2025; European Union Agency for Cybersecurity, 2023).

Azərbaycan Respublikasında hələlik fiziki kvant kompüterlərinin və onların sınaq mühitlərinin mövcud olmaması, bu istiqamətdə aparılan tədqiqatların praktik realizasiyasını məhdudlaşdırır. Bu da kvant təhlükəsinə qarşı kriptoqrafik sistemlərin tətbiqini çətinləşdirən əsas amillərdəndir.

Shor və Grover kimi alqoritmlər, müvafiq olaraq asimmetrik və simmetrik kriptoqrafik sistemlər üçün ciddi təhlükə yaradır. Bu riskləri minimuma endirmək məqsədilə Post-Kvant Kriptoqrafiyası (PKK) inkişaf etdirilmişdir (Chen et al., 2024). PKK-nin əsas məqsədi, kvant kompüterləri tərəfindən sındırıla bilməyəcək yeni nəsil kriptoqrafik sistemlərin yaradılmasıdır. Bu çərçivədə Lattice-based, Multivariate, Code-based, Hash-based və digər yanaşmalar təklif olunur; bu sistemlər həm kvant-kompüterlərinə qarşı dayanıqlı, həm də performans baxımından effektivdir (Alkim et al., 2023; Sattel et al., 2023).

ABŞ Milli Standartlar və Texnologiyalar İnstitutu (National Institute of Standards and Technology, NIST) 2016-cı ildən etibarən PKK üçün yeni standartların müəyyənləşdirilməsi istiqamətində qlobal təşəbbüsə başladı (National Institute of Standards and Technology, 2024). Bu təşəbbüs akademik dairələrin və sənaye sektorunun diqqətini

bu sahəyə yönəltmiş, nəticədə yeni alqoritmlərin formalaşmasına şərait yaratmışdır.

PKK-nin inkişafı gələcəkdə kvant dövrünə uyğun təhlükəsiz sistemlərin yaradılması üçün zəruridir. Bu istiqamət yalnız elmi-tədqiqat mühitində deyil, həm də sənaye sektorunda məlumatların qorunması baxımından strateji əhəmiyyət daşıyır.

Müasir informasiya təhlükəsizliyi sistemləri əsasən klassik kompüterlərin hesablama qabiliyyəti ilə həll olunması çətin olan riyazi məsələlərə əsaslanır. Lakin kvant mexanikasının fundamental prinsiplərinə söykənən kvant hesablama modeli, bu anlayışları yenidən qiymətləndirməyə vadar edir. Kvant hesablama klassik bit anlayışını kvant bit (kubit) ilə əvəz edir. Kublar superpozisiya, kvant dolaşıqlığı (entanglement) və kvant interferensiyası kimi prinsiplər əsasında fəaliyyət göstərir (Chen et al., 2024).

Bu xüsusiyyətlər sayəsində kvant kompüterləri bəzi mürəkkəb riyazi problemləri polinomial və ya kvadratik vaxt mürəkkəbliyində həll edə bilir (Gyongyosi & Imre, 2020). Məsələn, diskret logaritmaların və modulyar tərslərin tapılması kimi məsələlər kvant kompüterləri üçün nisbətən sadə əməliyyatlara çevrilir. Bu isə RSA, ECC və DSA kimi alqoritmlərin təhlükəsizlik dayanıqlığını ciddi şəkildə azaldır. Bu zəifləmənin əsas səbəbi məhz Shor və Grover alqoritmlərinin təqdim etdiyi hesablama üstünlükləridir.

Peter Shor tərəfindən 1994-cü ildə təqdim olunan Shor alqoritmi, tam ədədlərin sadə vuruqlara ayrılmasını və diskret loqarifm məsələlərinin polinomial vaxtda həllini mümkün edir. Alqoritm Kvant Fourier çevirməsi (Quantum Fourier Transform) prinsipi ilə işləyir və ədədlərin periodunu müəyyən etməklə onların vuruqlara ayrılmasına imkan yaradır. Bu, RSA, DSA və ECC kimi sistemlərin təhlükəsizliyinə əsaslanan protokolların sındırılmasını mümkün edir (Alkim et al., 2023).

Lov Grover tərəfindən 1996-cı ildə irəli sürülən Grover alqoritmi isə böyük məlumat bazalarında strukturlaşdırılmamış axtarış problemini O(N) mürəkkəbliyindən O(√N**)** səviyyəsinə endirir. Bunun nəticəsində simmetrik şifrələmə sistemlərinin effektiv təhlükəsizlik səviyyəsi azalır. Məsələn, AES-256 alqoritmi kvant hücumlarına qarşı real olaraq yalnız AES-128 səviyyəsində təhlükəsizlik təmin edir (Ahmed et al., 2025).

Klassik Alqoritmlərin Kvant Hücumlarına qarşı zəifliyi və Post-Kvant Müdafiə yanaşmaları**:**

1. RSA alqoritmi böyük ədədlərin faktorizasiyası probleminə əsaslanır. Bu üsulun təhlükəsizliyi ondan irəli gəlir ki, iki böyük asal ədədin hasilini (məsələn, (N = p x q) faktorizasiya etmək klassik kompüterlər üçün hesablamaca qeyri-mümkün qədər mürəkkəbdir. Lakin Shor alqoritması kvant kompüterlərində bu prosesi polinomial zaman mürəkkəbliyinə endirərək RSA-nın əsasını təşkil edən faktorizasiya problemini effektiv şəkildə həll edə bilir.

Sadə nümunə**:** Məsələn, (N = 15) burada (p = 3), (q = 5). Klassik kompüter bu ədədləri tapmaq üçün çoxsaylı iterasiyalar tələb edir, lakin Shor alqoritması aşağıdakı mərhələlər vasitəsilə faktorizasiyanı sürətləndirir:

a. Modulyar eksponentləşmə**:** Kvant kompüteri a^x mod N funksiyasının dövriliyini müəyyən edir.

b. Period tapılması**:** Dövr (r) elə seçilir ki, a^r mod N = 1 .

c. Faktorizasiya: Tapılmış (r)-dən istifadə etməklə (p) və (q) asanlıqla hesablana bilir.

Post-Kvant Qorunma: RSA-nın zəifliyini aradan qaldırmaq üçün Lattice-Based Cryptography (məsələn, CRYSTALS-Kyber, NTRU) kimi post-kvant üsullar tətbiq olunur. Bu yanaşmalar çoxölçülü reşetka (lattice) strukturlarında çətin riyazi məsələlərə əsaslanır və Shor alqoritması ilə effektiv şəkildə sındırıla bilmir. NIST-in 2024-cü il standartlaşdırma mərhələsində Kyber alqoritmi post-kvant şifrələmə üçün əsas namizəd kimi qəbul edilmişdir (NIST, 2024).

2. ECC diskret logaritma problemi üzərində qurulmuşdur. Klassik sistemlərdə bu problemi həll etmək son dərəcə mürəkkəbdir. Lakin Shor alqoritması kvant kompüterlərində elliptik əyrilər üzərindəki diskret logaritma problemini polinomial zaman ərzində hesablaya bilir.

Sadə izah: Əgər P və kP nöqtələri məlumdursa, məqsəd k-nı tapmaqdır. Klassik kompüterlər üçün bu praktiki olaraq mümkün deyil, lakin kvant kompüteri Shor alqoritması vasitəsilə bu məsələni qısa zamanda həll edə bilər.

Post-Kvant Qorunma: ECC-nin zəifliyini azaltmaq üçün Code-Based Cryptography **və** Hash-Based Signatures yanaşmaları geniş tətbiq edilir (Sattel et al., 2023).

- Code-Based: Məsələn, Classic McEliece alqoritmi səhv düzəldici kodlara əsaslanır və kvant hücumlarına qarşı dayanıqlıdır.
- Hash-Based**:** Məsələn, SPHINCS+ alqoritmi yalnız kriptoqrafik xəş funksiyalarından istifadə edir və Shor/Grover tipli kvant hücumlarına qarşı təhlükəsiz sayılır.

3. Grover alqoritması kvant kompüterlərinə simmetrik açar kriptoqrafiyasında axtarış sahəsini kvadrat şəkildə azaldaraq üstünlük verir.

Məsələn:


- AES-128 alqoritminin effektiv təhlükəsizliyi 2^{128}-dən 2^{64}-ə,

➢ AES-256-nın isə 2^{256}-dan 2^{128}-ə enir.

Bu, kvant kompüterlərinin simmetrik sistemləri tam sındırmasa da, onların təhlükəsizliyini əhəmiyyətli dərəcədə zəiflətdiyini göstərir (ENISA, 2023).

Post-Kvant Qorunma: Simmetrik kriptoqrafiyada Grover hücumuna qarşı müdafiə əsasən açar uzunluğunun ikiqat artırılması ilə təmin edilir. Məsələn, AES-256 əvəzinə AES-512 və ya daha güclü xəş əsaslı strukturların istifadəsi tövsiyə olunur. Bundan əlavə, hybrid kriptoqrafiya (klassik + post-kvant kombinasiyası) yanaşması da müasir sistemlərdə sınaqdan keçirilir (Google Quantum AI, 2024).

Yuxarıda qeyd olunan məlumatlara əsasən, aşağıdakı diaqram bu alqoritmlərin kvant hücumlarına qarşı müqavimət səviyyələrini nümayiş etdirir:



Şəkil 1. Klassik və Post-Kvant Kriptoqrafik Alqoritmlərin Kvant Hücumlarına qarşı müqavimət dərəcəsi

Diaqramda göstərilən faiz göstəriciləri konkret ədədi ölçmələr deyil, beynəlxalq təşkilatların (xüsusilə NIST, ETSI və ENISA) hesabatlarında qeyd olunan nisbi müqavimət səviyyələrinin elmi interpretasiyası kimi təqdim olunub (NIST, 2024; ENISA, 2023).

Bu göstəricilər kvant alqoritmlərinin (Shor və Grover) müxtəlif kriptoqrafik strukturlara təsir dərəcəsini müqayisəli şəkildə qiymətləndirir.

Məsələn,

➢ Shor alqoritmi faktorizasiya və diskret logaritma problemlərini polinomial zaman ərzində həll etdiyi üçün RSA və ECC alqoritmlərinin təhlükəsizliyi praktiki olaraq sıfıra enir. Bu səbəbdən onların müqavimət səviyyəsi 20–30% aralığında götürülüb.

➢ Grover alqoritmi simmetrik sistemlərdə axtarış sahəsini kvadrat şəkildə azaldır. Buna görə AES-128 üçün təhlükəsizlik 128-bitdən 64-bitə düşür, yəni təxminən 50% azalma olur.

➢ Post-Kvant alqoritmlər (Kyber, McEliece, SPHINCS+) üçün isə hazırda heç bir praktik kvant hücumu mövcud deyil. NIST standartlaşdırma mərhələsində bu alqoritmləri "high security level" (yüksək təhlükəsizlik səviyyəsi) kateqoriyasında təsnifləşdirir. Buna əsasən onların müqaviməti 90–95% səviyyəsində qiymətləndirilir.

Bu faizlər konkret eksperimental nəticələr deyil, elmi ədəbiyyatda qəbul olunmuş müqayisəli qiymətləndirmə metoduna əsaslanır və nisbi təhlükəsizlik göstəricilərini ifadə edir.

Cədvəl 1. Yekun Qiymətləndirmə

Alqoritm	Təsir etdiyi kriptoqrafik sistemlər	Klassik Vaxt	Kvant Vaxt	Təhlükəsizlik Təsiri
Shor	RSA, ECC, DSA (asimmetrik)	Eksponensial	Polinomial	Tam pozulma
Grover	AES, SHA (simmetrik)	O(N)	O(√N)	Təhlükəsizliyin azalması (2x)

Qeyd olunanlar göstərir ki, kvant hesablama texnologiyalarının inkişafı yalnız texnoloji deyil, həm də kriptoqrafik təhlükəsizlik arxitekturasında sistematik və struktur dəyişikliklər tələb edir. Beləliklə, post-kvant texnologiyalarının tətbiqi, kvant hesablama dövründə rəqəmsal təhlükəsizliyin təmin edilməsi üçün strateji zərurətə çevrilmişdir.

Post-Kvant Kriptoqrafiyasının Standartlaşdırılması və NIST Layihəsi - 2016-cı ildə ABŞ Milli Standartlar və Texnologiyalar İnstitutu (NIST) tərəfindən başladılan Post-Quantum

Cryptography Standardization Project layihəsinin əsas məqsədi, həm klassik, həm də kvant hücumlarına qarşı dayanıqlı, yüksək performanslı və praktiki tətbiqlərə uyğun kriptoloji alqoritmlərin seçilməsi və standartlaşdırılması olmuşdur (NIST, 2024; IBM Research, 2024).

Dörd mərhələdən ibarət bu seçim prosesi nəticəsində 2022-ci ildə NIST ilkin standartlaşdırma üçün dörd əsas alqoritmi elan etmişdir:

- CRYSTALS-Kyber – açar mübadiləsi və simmetrik açar şifrələmə üçün,
- CRYSTALS-Dilithium, FALCON, SPHINCS+ – rəqəmsal imza mexanizmləri üçün.

Bu alqoritmlər təhlükəsizlik səviyyəsi, performans göstəriciləri, açar və imza ölçüləri, həmçinin hesablama resurslarının istifadəsi baxımından bir-birindən fərqlənir.

Cədvəl 2. PQC Alqoritmlərinin akademik müqayisə cədvəli

Alqoritm	Kriptoqrafik Tip	Riyazi Struktur	Açar Ölçüsü (bit)	İmza Ölçüsü (bit)	Təhlükəsizlik Səviyyəsi	Performans (sürət/yaddaş)	Qeyd
CRYSTALS-Kyber	Açar mübadiləsi	Rešetka (Module-LWE)	~1,536 (Kyber512)	–	NIST Level 1–5	Yüksək	Standartlaşdırılıb (2022)
CRYSTALS-Dilithium	Rəqəmsal imza	Rešetka (Module-LWE/SIS)	~1,312 – 2,592	~2,420 – 4,590	NIST Level 1–5	Yaxşı balans	Standartlaşdırılıb (2022)
FALCON	Rəqəmsal imza	Rešetka (NTRU-based)	~897	~666	NIST Level 1–5	Çox sürətli, lakin mürəkkəb	Dəqiqlik tələb edir
SPHINCS+	Rəqəmsal imza	Haş-funksiyalara əsaslı	~32	~8,080 – 17,000	NIST Level 1–5	Aşağı sürət, yüksək təhlükəsizlik	Stateless/Stateful variantlar
NTRU	Açar mübadiləsi	Rešetka (NTRU lattices)	~935 – 1,230	–	NIST Level 1–3	Kompakt, yüksək sürət	Alternativ finalist
BIKE	Açar mübadiləsi	Kod əsaslı (QC-MDPC)	~1,200	–	Yüksək	Yaxşı performans	4-cü mərhələdədir
Classic McEliece	Açar mübadiləsi	Kod əsaslı (Goppa kodları)	~261,120	–	Yüksək, sabit	Yavaş, lakin kvant dayanıqlı	Açar çox böyük
SIKE	Açar mübadiləsi	İzogeniya əsaslı	~330	–	Qismən zəif (qırılıb)	Yavaş	Rədd edilib (2022)

Qeyd: Ölçülər və performans göstəriciləri alqoritmin konkret parametr seçimlərindən asılı olaraq dəyişə bilər. Verilən məlumatlar əsasən NIST tərəfindən qəbul edilmiş 2024-cü il Federal Information Processing Standards (FIPS 203–205) sənədlərinə və son performans testlərinə əsaslanır (NIST, 2024; IBM Research, 2024; Sattel et al., 2023; ENISA, 2023).

1. CRYSTALS-Kyber (FIPS 203, 2024): Kyber, modul reşetka (Module-LWE) strukturuna əsaslanan açar mübadiləsi sxemidir. Onun əsas üstünlüyü — yüksək sürət, kiçik açar ölçüləri və asan implementasiya imkanlarıdır. Kvant kompüterlərə qarşı nəzəri sübutlu dayanıqlığa malikdir və hal-hazırda TLS protokollarına inteqrasiya məqsədilə geniş sınaqlardan keçirilir.

2. CRYSTALS-Dilithium (FIPS 204, 2024): Dilithium, reşetka əsaslı rəqəmsal imza alqoritmidir. Təhlükəsizlik–performans balansı baxımından ən optimal alqoritmlərdən sayılır. Klassik və kvant hücumlarına qarşı sübutlanmış kriptoqrafik davamlılığa malikdir və artıq bir çox kitabxanalarda (məsələn, OpenSSL) tətbiq olunmağa başlanmışdır.

3. FALCON: NTRU əsaslı yüksək performanslı imza alqoritmidir. Onun əsas üstünlüyü çox kiçik imza ölçüsü (~666 bit) və sürətli icra qabiliyyətidir, bu da onu IoT və aşağı resurslu cihazlar üçün əlverişli edir. Bununla yanaşı, implementasiya prosesi riyazi cəhətdən mürəkkəb olduğundan, təhlükəsiz tətbiqi xüsusi diqqət tələb edir.

4. SPHINCS+ (FIPS 205, 2024): Haş-funksiyalara əsaslanan ilk rəqəmsal imza alqoritmidir və struktur zəifliklərə qarşı tam dayanıqlı hesab olunur. Kvant hücumlarına qarşı riyazi sübutlu müdafiə təmin edir. İmza ölçüsünün böyük olması (8–17 KB) və aşağı performansı səbəbindən o, daha çox uzunmüddətli arxivləşdirmə və kritik təhlükəsizlik tələb edən sahələrdə istifadə olunur.

Post-Kvant Kriptoqrafiyasının əsas məqsədi, klassik hesablama mühitlərində tətbiq edilə bilən, lakin kvant kompüterlərinin əməliyyat gücü ilə edilən hücumlara qarşı dayanıqlı yeni nəsil kriptoqrafik sistemlərin hazırlanmasıdır (Chen et al., 2024). Bu alqoritmlər, kvant kompüterləri tərəfindən praktik olaraq sındırıla bilməyən mürəkkəb riyazi problemlərə əsaslanır və adətən aşağıdakı əsas kateqoriyalar üzrə təsnif olunur:

1. Lattice-based Cryptography (Reşetka əsaslı kriptoqrafiya) - Reşetka əsaslı yanaşmalar post-kvant kriptoqrafiyanın ən etibarlı istiqamətlərindən biri hesab olunur. Bu yanaşmanın təhlükəsizlik bazası "Shortest Vector Problem (SVP)" və "Learning With Errors (LWE)" kimi riyazi problemlərə əsaslanır. Bu problemlər nə klassik, nə də kvant kompüterləri üçün praktik olaraq həll edilə bilmir.

Misallar:

- Kyber və NTRU alqoritmləri reşetka əsaslı strukturlardan istifadə etməklə kvant hücumlarına qarşı yüksək davamlılıq nümayiş etdirir.
- Kyber alqoritmi açıq açar şifrələmə və açar mübadiləsi üçün nəzərdə tutulub və hal-hazırda NIST Post-Quantum Cryptography Standartlaşdırma layihəsi çərçivəsində əsas namizədlərdən biridir.
- NTRU isə elliptik əyri və ya asal ədəd faktorizasiyası kimi klassik üsullara əsaslanmır, bu səbəbdən kvant hücumlarına qarşı daha sabit hesab olunur.

Reşetka əsaslı sistemlər yüksək hesablama səmərəliliyi, kiçik açar ölçüləri və geniş tətbiq imkanları ilə seçilir.

2. Code-based Cryptography (Kod əsaslı kriptoqrafiya) - Kod əsaslı yanaşmalar da kvant kompüterlərinə qarşı effektiv müdafiə mexanizmləri təqdim edir. Bu istiqamətdə təhlükəsizlik "error-correcting codes" – səhvləri düzəltmə kodlarının mürəkkəb strukturlarına əsaslanır.

Misal:

- McEliece alqoritmi kod əsaslı kriptoqrafiyanın ən qədim və sınaqdan keçmiş nümunələrindəndir. O, Goppa kodlarına əsaslanır və 1980-ci illərdən bəri kvant hücumlarına qarşı davamlılığını qoruyur.
- McEliece sisteminin əsas çatışmazlığı açar ölçülərinin böyük olmasıdır, lakin onun təhlükəsizliyi və etibarlılığı praktiki olaraq sübut edilmişdir.

3. Multivariate Quadratic (MQ) Cryptography - Bu yanaşma çox dəyişənli kvadrat tənliklərin həllinin çətinliyinə əsaslanır. MQ problemi, kvant kompüterləri üçün də hesablama baxımından mürəkkəb qalır və buna görə də post-kvant dövründə alternativ imza və şifrələmə üsulları üçün əsas baza kimi qəbul edilir.

Misal:

- Rainbow imza alqoritmi MQ yanaşmasına əsaslanır və çoxsaylı dəyişənlərin qarşılıqlı əlaqəsi sayəsində kvant hücumlarına qarşı müqavimət göstərir.
- Rainbow sisteminin əsas üstünlüyü onun sadə strukturu və çevik parametr seçimidir, lakin bəzi implementasiya zəifliklərı nəzərə alınmalıdır.

4. Hash-based Cryptography (Haş-funksiyalara əsaslanan kriptoqrafiya) - Haş-funksiyalara əsaslanan sistemlər, kvant kompüterlərinin "Grover alqoritmi" ilə yarada biləcəyi təhlükələri nəzərə alaraq sabit təhlükəsizlik səviyyəsi təmin edir. Bu yanaşmalar xüsusilə rəqəmsal imza sistemlərində tətbiq olunur.

Misallar:

- XMSS (eXtended Merkle Signature Scheme) və SPHINCS+ kimi protokollar haş-funksiyalar üzərində qurulmuşdur və kvant hücumlarına qarşı yüksək dayanıqlığa malikdir.
- SPHINCS+ NIST tərəfindən standartlaşdırılmış ilk stateless hash-based imza alqoritmidir.

Azərbaycan kontekstində kvant hesablama və post-kvant tədqiqatlarının infrastruktur vəziyyəti:

Azərbaycanda fiziki kvant kompüterlərinin olmaması və eksperimental mühitlərin məhdudluğu səbəbindən kvant sahəsində aparılan tədqiqatlar əsasən nəzəri modeləşdirmə və simulyasiya səviyyəsində həyata keçirilir. Müasir kvant laboratoriyalarına və real kvant avadanlıqlarına birbaşa çıxış imkanlarının məhdudluğu yalnız ölkəmizə xas problem deyil; oxşar məhdudiyyətlər bir çox inkişaf etməkdə olan ölkələrdə də müşahidə olunur.

Fiziki cihazların və eksperimental infrastrukturun olmaması kvant təhlükəsinə qarşı kriptoqrafik tədqiqatların praktiki sınaqlarını məhdudlaşdırır. Nəticədə kvant alqoritmlərinin implementasiyası, test edilməsi və onların klassik kriptoqrafik sistemlərə təsirinin eksperimental qiymətləndirilməsi əsasən simulyasiya və nəzəri analiz şəklində aparılır.

Bu məhdudiyyətlərin öhdəsindən gəlmək üçün tədqiqatçılar və elmi müəssisələr üçün bulud əsaslı kvant hesablama platformaları praktik və geniş istifadə olunan alternativ rolunu oynayır. Bu mühitlərdə həm Shor və Grover kimi fundamental kvant alqoritmlərinin, həm də post-kvant kriptoqrafik sxemlərin sınaq modellərinin işlənməsi mümkündür.

Cədvəl 3. Əlçatan Bulud əsaslı Kvant Hesablama Platformaları
(IBM Research, 2024; Google Quantum AI, 2024; NIST, 2024)

Platforma	Təsviri və İmkanları	Qeyd
IBM Quantum Experience	IBM tərəfindən təqdim olunan və bulud üzərindən əlçatan olan kvant kompüterlərə simulyativ və real çıxış təmin edən platformadır.	Qeydiyyatla istifadə mümkündür; 5-127 kubitlik cihazlara çıxış imkanı.
Microsoft Azure Quantum	Kvant alqoritmləri üçün müxtəlif simulyatorlar və kvant SDK-lar (Q#, Cirq) təqdim edir.	Azure mühiti tələb edir; ödənişli və pulsuz opsiyalar mövcuddur.
Amazon Braket	AWS mühiti üzərindən kvant alqoritmlərin işlənməsi və test olunması üçün platformadır.	Kommersiya əsaslıdır, lakin tədris və tədqiqat üçün subsidiyalar mövcuddur.
Google Cirq + Quantum AI	Google-un kvant alqoritm tərtibatı üçün hazırladığı Cirq dili və kvant prosessorlara çıxış mühiti.	Hal-hazırda əsasən simulyasiya əsaslı işləyir.

Cədvəl 4. Alternativ Simulyasiya Mühitləri (Offline/Open Source)
(IBM Research, 2024; NIST, 2024)

Platforma	Təsviri
Qiskit (Python-based)	IBM-in təqdim etdiyi açıq mənbəli kvant proqramlaşdırma kitabxanasıdır. Yerli kompüterdə Shor, Grover və digər alqoritmləri simulyasiya etmək mümkündür.
QuTiP	Kvant sistemlərin tədqiqi və simulyasiyası üçün nəzərdə tutulmuş Python kitabxanasıdır.
Q# və QDK	Microsoft-un kvant proqramlaşdırma dili (Q#) və SDK-si (Quantum Development Kit). Windows və Linux mühitlərində istifadə edilə bilər.

Hazırkı vəziyyət təhsildə və tədqiqatda milli elmi potensialın formalaşmasını zəiflədir. Bu problemi aradan qaldırmaq və milli kvant ekosistemini inkişaf etdirmək üçün aşağıdakı strateji tövsiyələr məsləhət görülür:

1. Universitetlərdə kvant simulyasiya laboratoriyalarının yaradılması. Bulud əsaslı kvant xidmətlərinin tədris və tədqiqat üçün inteqrasiyası, eləcə də yerli simulyasiya infrastrukturunun formalaşdırılması vacibdir. Xüsusilə ADNSU, UNEC, AMEA, BDU kimi müəssisələrdə "Kvant hesablama və Post-Kvant Kriptoqrafiya" laboratoriyalarının yaradılması tövsiyə olunur.

2. Maliyyələşdirmə mexanizmlərinin qurulması. Milli elmi fondlar və dövlət proqramları vasitəsilə ilkin tədqiqat və pilot layihələrə qrant ayrılması, tələbə və tədqiqatçı dəstəyi təmin olunmalıdır.

3. Beynəlxalq əməkdaşlıqların gücləndirilməsi. IBM, Microsoft, Google və digər akademik mərkəzlərlə əməkdaşlıq imkanları yaradılmalı; yerli tədqiqatçılara bulud əsaslı virtual çıxış və təcrübə mübadiləsi təmin edilməlidir.

4. Kadr hazırlığı və proqramların inteqrasiyası. Magistratura və doktorantura səviyyəsində "Kvant informasiya nəzəriyyəsi", "Kvant alqoritmlər" və "Post-kvant kriptoqrafiya" kimi kurslar daxil edilməlidir.

5. Qrant və pilot layihələrin təşkili. Dövlət və özəl sektorun birgə dəstəyi ilə pilot tədqiqatlar həyata keçirilməli, nəticələrə əsasən genişmiqyaslı investisiya planları hazırlanmalıdır.

Bu addımların həyata keçirilməsi Azərbaycan Respublikasının kvant texnologiyalarına adaptasiyasını sürətləndirəcək və milli informasiya təhlükəsizliyinin möhkəmlənməsinə töhfə verəcək.

Məqalədə aparılan təhlillər göstərir ki, kvant hesablama texnologiyalarının inkişafı mövcud klassik kriptoqrafik sistemlərin təhlükəsizlik zəminini ciddi şəkildə sarsıdır. Shor və Grover alqoritmlərinin hesablama imkanları, xüsusilə asimmetrik kriptoqrafiyaya əsaslanan açıq açarlı sistemlərin kvant dövründə praktiki olaraq istifadəyə yararsız hala düşəcəyini göstərir. Bu fonda, post-kvant kriptoqrafik yanaşmalar - əsasən reşetka, kod və haş funksiyaları əsasında qurulmuş alqoritmlər - kvant təhlükəsinə qarşı effektiv cavab modelidir. NIST-in aparıcı alqoritmləri (CRYSTALS-Kyber, Dilithium və s.) bu baxımdan mühüm strateji addım hesab olunur.

Azərbaycan kimi inkişaf etməkdə olan ölkələrdə bu sahədə eksperimental imkanların məhdudluğu, nəzəri və simulyativ tədqiqatların daha da dərinləşdirilməsini zəruri edir. Bulud əsaslı kvant simulyatorları və açıq mənbəli proqramlaşdırma mühitləri, kvant təhlükəsinə qarşı hazırlığın ilkin mərhələsində əhəmiyyətli rol oynaya bilər. Gələcəkdə milli informasiya təhlükəsizliyini qorumaq üçün post-kvant kriptoqrafiyanın tətbiqi,

tədqiqi və tədrisi sahəsində dövlət dəstəyi və strategiya formalaşdırılması zəruridir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Ahmed, N., Zhang, L., & Gangopadhyay, A. (2025). A survey of post-quantum cryptography support in cryptographic libraries. arXiv preprint arXiv:2508.16078.
2. https://arxiv.org/abs/2508.16078
3. Alkim, E., Ducas, L., Kiltz, E., Lepoint, T., Lyubashevsky, V., Schwabe, P., & Seiler, G. (2023). CRYSTALS-Kyber and Dilithium: The NIST post-quantum standards. Communications of the ACM, 67(2), 52–61. https://doi.org/10.1145/3571725
4. Bennett, C. H., & Brassard, G. (2020). Quantum cryptography: Public key distribution and coin tossing. Theoretical Computer Science, 560(P1), 7–11. https://doi.org/10.1016/j.tcs.2014.05.025
5. Chen, L., Moody, D., Alagic, G., et al. (2024). NIST Post-Quantum Cryptography Standardization: Final algorithms and future directions. NIST Journal of Research, 129, 1–22. https://doi.org/10.6028/jres.129.013
6. European Union Agency for Cybersecurity (ENISA). (2023). Post-quantum cryptography: Current state and transition recommendations. ENISA Report.
7. https://www.enisa.europa.eu/publications/post-quantum-cryptography
8. Google Quantum AI. (2024). Advances in quantum-resistant key exchange for large-scale systems. Google Research Reports. https://quantumai.google/research/publications
9. Gyongyosi, L., & Imre, S. (2020). Secret key rate adaptation for multicarrier continuous-variable quantum key distribution. SN Computer Science, 1(1), 1–17. https://doi.org/10.1007/s42979-019-0027-7
10. IBM Research. (2024). NIST's post-quantum cryptography standards are here. IBM Research Blog. https://research.ibm.com/blog/nist-pqc-standards
11. National Institute of Standards and Technology (NIST). (2024). Post-quantum cryptography standardization project. Retrieved September 6, 2023, from https://csrc.nist.gov/projects/post-quantum-cryptography
12. Sattel, R., Spang, C., Heinz, C., & Koch, A. (2023). PQC-HA: A framework for prototyping and in-hardware evaluation of post-quantum cryptography hardware accelerators. arXiv preprint arXiv:2308.06621. https://arxiv.org/abs/2308.06621

ZONAL FEEDBACK CONTROL SYNTHESIS FOR A DISTRIBUTED-PARAMETER HEATING PROCESS

Seymur Eldar MIRZABAYOV
Azerbaijan State Oil and Industry University,
French-Azerbaijani University (UFAZ), 183 Nizami St., AZ1000, Baku, Azerbaijan
ORCID: 0009-0002-6419-1232;
E-mail: seymour.mirzabayov@ufaz.az

Abstract. This work develops a zonal feedback synthesis approach for distributed-parameter systems governed by parabolic partial differential equations, by the example of a rod heating process. The rod temperature is observed at a finite number of sensor locations and sampled at discrete time instants, and the control input is constrained within prescribed bounds. To obtain an implementable and noise-tolerant feedback law under partial observability, the observation space is partitioned into zones, and a piecewise-constant control value is assigned to each zone, so the actuator is updated only when the measured trajectory crosses zone boundaries. The resulting feedback design problem is reduced to a finite-dimensional parameter optimization with respect to the zone-associated control values. An adjoint-based sensitivity analysis is used to derive gradient expressions for efficient gradient-type optimization under uncertainty in the initial temperature profile.
Keywords: zonal feedback control, distributed-parameter systems, rod heating/thermal process control, adjoint-based gradient optimization, partial observability with discrete sensor measurements.

СИНТЕЗ ЗОНАЛЬНОГО УПРАВЛЕНИЯ С ОБРАТНОЙ СВЯЗЬЮ ДЛЯ НАГРЕВАТЕЛЬНОГО ПРОЦЕССА С РАСПРЕДЕЛЁННЫМИ ПАРАМЕТРАМИ

Сеймур Эльдар МИРЗАБЕКОВ
Азербайджанский Государственный Университет Нефти и Промышленности,
Французско-Азербайджанский Университет, ул. Низами 183, Баку, Азербайджан
ORCID: 0009-0002-6419-1232; E-mail: seymour.mirzabayov@ufaz.az

Аннотация. В работе разработан подход к синтезу зонального управления с обратной связью для распределённых систем, описываемых параболическими уравнениями в частных производных, на примере задачи нагрева стержня. Температура стержня наблюдается в конечном числе точек расположения датчиков и измеряется в дискретные моменты времени, при этом управляющее воздействие ограничено заданными границами. Для получения реализуемого и устойчивого к шумам закона обратной связи в условиях частичной наблюдаемости пространство наблюдений разбивается на зоны, и каждой зоне ставится в соответствие кусочно-постоянное значение управления, так что управляющий параметр перенастраивается только при переходе траектории системы через границы зон. В результате задача синтеза обратной связи сводится к конечномерной параметрической оптимизации по значениям управления, закреплённым за зонами. Для вывода выражений градиента целевого функционала, обеспечивающих эффективную градиентную оптимизацию при неопределённости начального температурного профиля, используется сопряжённый анализ чувствительности.
Ключевые слова: зональное управление с обратной связью; распределённые системы; нагрев стержня / управление тепловым процессом; численные методы оптимизации первого порядка; частичная наблюдаемость при дискретных измерениях датчиков.

PAYLANMIŞ PARAMETRLİ İSTİLİK PROSESİ ÜÇÜN ZONAL ƏKS-ƏLAQƏLİ İDARƏETMƏNİN SİNTEZİ

Seymur Eldar MIRZƏBƏYOV
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti,
Fransız-Azərbaycan Universiteti (UFAZ), Nizami 183., AZ1000, Bakı, Azərbaycan
ORCID: 0009-0002-6419-1232; E-mail: seymour.mirzabayov@ufaz.az

Annotasiya. Bu işdə parabolik diferensial tənliklərlə təsvir olunan paylanmış-parametrli sistemlər üçün zonal əks-əlaqə sintezi yanaşması, çubuğun qızdırılması prosesi nümunəsində işlənib hazırlanmışdır. Çubuğun temperaturu məhdud sayda sensor yerləşmə nöqtələrində müşahidə olunur və diskret zaman anlarında ölçülür, idarəedici təsir isə əvvəlcədən verilmiş hədlər daxilində məhdudlaşdırılır. Qismən müşahidəolunma şəraitində icra oluna bilən və xətalara davamlı əks-əlaqə

qanunu əldə etmək üçün müşahidə məkanı zonalara bölünür və hər bir zonaya hissə-hissə sabit idarəetmə qiyməti təyin edilir; beləliklə, icraedici parameter yalnız ölçülmüş trayektoriyanın zonaların sərhədlərini keçdiyi hallarda yenilənir. Nəticədə əks-əlaqənin qurulması məsələsi zonalara aid edilmiş idarəetmə qiymətləri üzrə sonluölçülü parametr optimallaşdırmasına gətirilir. Başlanğıc temperatur profilinin qeyri-müəyyənliyi şəraitində səmərəli qradient tipli optimallaşdırma üçün qradient ifadələrini çıxarmaq məqsədilə qoşma əsaslı həssaslıq analizi tətbiq olunur.
Açar sözlər: zonal əks-əlaqəli idarəetmə; paylanmış-parametrli sistemlər; çubuğun qızdırılması / istilik prosesinin idarə edilməsi; qoşma əsaslı qradient optimallaşdırması; diskret sensor ölçmələri ilə qismən müşahidəolunma.

Introduction. Feedback control for distributed-parameter systems governed by partial differential equations (PDEs) is notoriously difficult in realistic operating conditions. Two practical obstacles occur repeatedly: (i) the system state is not observable everywhere in space, and (ii) the initial condition is often not known exactly, especially for processes running continuously over long horizons, where only a range of plausible initial profiles can be inferred statistically [**1**, **7**]. In such settings, classical continuous-state feedback laws may react too aggressively to sensor noise, causing excessive actuator switching and potential instability. Recent thermal-control studies also explore hybrid and fractional-order modeling combined with multi-valued feedback structures [**2**].

The study proposes a computational framework for synthesizing feedback control strategies for distributed-parameter systems using a zonal (piecewise-constant) feedback principle. Instead of continuously adapting the control to the instantaneous measured state, the phase space of observations is partitioned into zones, and the control value is kept constant within each zone, changing only when the observed trajectory crosses a zone boundary. This design aims to reduce unnecessary switching and improve robustness under noisy, discretized measurements. The approach is demonstrated on a canonical thermal regulation task: heating a one-dimensional rod in a furnace. The control input is the heating power (linked to the supplied hot-air temperature), and the objective is to drive the rod temperature distribution toward a desired spatial profile within a fixed time horizon.

Problem Statement. The rod temperature $u(x,t)$ evolves according to a parabolic PDE of the form [**6**, **8**]

$$u_t = a\,u_{xx} - b\,u + q(t),\ x \in (0,\ell),\ t \in (0,T], \quad (1)$$

where a is the thermal diffusivity coefficient, b is a heat-transfer coefficient, and $q(t)$ is the applied heating power (control). The system is equipped with a parameterized initial temperature distribution $u(x,0) = \phi(x,p)$ where the parameter vector p is unknown, but assumed to belong to a known admissible set with a probability density $\rho(p)$. This explicitly models incomplete knowledge of the initial thermal state. Neumann (insulated) boundary conditions are imposed at both ends of the rod [**8**]:

$$u_x(0,t) = u_x(\ell,t) = 0,\ t \in [0,T]. \quad (2)$$

The control $q(t)$ is bounded by technological constraints and must stay within an admissible interval $[q_{\min}, q_{\max}]$. Because continuous measurement along the rod is infeasible, the system is observed using a finite set of temperature sensors located at fixed spatial points $x_1, x_2, \dots, x_r$. Measurements are taken at discrete time instants $\tau_1, \tau_2, \dots, \tau_m$, producing an observation vector that represents the available "state" for feedback synthesis [**5**]:

$$\zeta(t) = \big(u(x_1,t), u(x_2,t), \dots, u(x_r,t)\big)^{\mathsf{T}}.$$

The control objective is posed as minimization of an expected tracking error between the terminal temperature distribution and a desired profile $u^*(x)$. We employ here an integral performance index that averages the squared deviation over space and over uncertain initial conditions via the density $\rho(p)$:

$$\mathcal{F}(v) = \int_P \int_0^{\ell} w(x)[u(x,T;p,q) - u^*(x)]^2\,\mathbb{d}x\,\mathbb{d}p.$$

A spatial weighting function $w(x)$ allows emphasizing regions of the rod that matter more for the regulation goal (e.g., central region vs. boundaries). Thus, the feedback synthesis problem becomes: design a control law $q(t) = \Theta\big(\zeta(t)\big)$ that respects the bounds and minimizes the expected terminal mismatch [**6**].

Zonal Feedback Principle. The key modeling step is to define feedback not as a smooth function of the observation vector, but as a lookup rule on a partition of the observation space. Concretely, the admissible temperature range, $[u_{\min}, u_{\max}]$, at each sensor location is discretized into intervals by the predefined points $\theta_0, \theta_1, \dots, \theta_N$. The Cartesian product of these intervals yields a grid of multidimensional zones in the observation space (phase space). Each zone is identified by a multi-index $\mathbb{i} = (i_1, i_2, \dots, i_r)$, where $0 < i_k \le N$, $k = 1,2,\dots,r$, and corresponds to a region where the sensor readings lie within specified bounds:

$$Z_{\mathbb{i}} = \big[\theta_{i_1-1}, \theta_{i_1}\big) \times \big[\theta_{i_2-1}, \theta_{i_2}\big) \times \dots \times \big[\theta_{i_r-1}, \theta_{i_r}\big). \quad (3)$$

For each zone, a constant control value is assigned:

$$q(t) = q_{\mathbb{i}}, \text{ if } \zeta(t) \in Z_{\mathbb{i}}. \quad (4)$$

Therefore, the control signal is updated only when the observed temperature vector exits its current zone and enters another one [**5**]. This converts the original infinite-dimensional feedback synthesis problem (PDE + functional control) into a finite-dimensional parameter optimization problem [**3**]: choose the set of control values attached to zones so as to minimize the objective functional. The design becomes computationally approachable using gradient-based optimization, while the resulting control law remains implementable as a discrete map.

Gradient Computation. To optimize the zonal control values efficiently, we derive analytical expressions for the gradient of the objective with respect to each zonal control parameter. The derivation is based on perturbing a single control parameter (corresponding to one zone) and examining the induced variation in the PDE solution. The increment of the objective is represented through a Lagrangian functional that enforces PDE dynamics by introducing an auxiliary function — the adjoint variable [**4**]. After integration by parts and enforcing appropriate terminal and boundary conditions for the adjoint, the dependence on the state variation is eliminated, yielding a gradient formula that involves the product of the direct state and the adjoint state integrated over time intervals during which the trajectory resides in the relevant zone [**6**]:

$$\frac{\partial \mathcal{F}}{\partial q_{\mathbb{i}}} = -\int_P \int_{\Gamma_{\mathbb{i}}(p;q)} \int_0^{\ell} \psi(x,t;p)\, \mathbb{d}x\, \mathbb{d}t\, \rho(p)\, \mathbb{d}p$$

where $\Gamma_{\mathbb{i}}(p;q) \subset [0,T]$ denotes the collection of time intervals during which the system state lies within zone $Z_{\mathbb{i}}$ for the given initial condition parameter p, and $\psi(x,t;p)$ is the generalized solution of the adjoint boundary-value problem, corresponding to (1) – (2):

$$-\psi_t - a\,\psi_{xx} - b\,\psi = 0, \quad (x,t) \in (0,L) \times (0,T),$$
$$\psi_x(0,t) = \psi_x(\ell,t) = 0, t \in [0,T],$$
$$\psi(x,T) = 2w(x)[u(x,T;p,q) - u^*(x)].$$

Operationally, the gradient evaluation for a given control vector proceeds as:

i. Solve the direct PDE for each admissible initial-condition parameter instance (or for sampled representatives of uncertainty).

ii. Solve the adjoint PDE backward in time with a terminal condition linked to the tracking error [**4**].

iii. Compute gradient components via numerical integration using the derived expression.

iv. Update the zonal control vector using a first-order method [**3**] (the paper highlights conjugate gradient projection among suitable options).

This structure keeps a clear analytical link between the PDE model, the adjoint formulation, and the optimization algorithm, while ensuring the overall computation remains feasible for a finite number of zones.

Conclusion. A central practical benefit of the zonal design is that small measurement errors do not necessarily change the control action. Since the control is constant inside each zone, sensor noise must be large enough to push the measured observation vector across a zone boundary to trigger a switch. This provides inherent resilience in environments with sensor noise, latency, or drift. Note that adjacent zones may end up with very similar optimized control values, suggesting that some zones could be merged without significant performance degradation. Conversely, zones showing sharp control-value changes across boundaries may indicate sensitivity that could motivate finer partitioning. This leads naturally to an adaptive refinement strategy: merge zones with nearly identical controls and subdivide zones where gradients are large, balancing computational complexity and control precision. Beyond thermal regulation, the framework is positioned as a flexible foundation for other PDE-governed systems with partial observability, where robustness to sensor noise and reduced switching are critical for implementable feedback control.

References.

[1] Ackermann, J. (1993). Robust control: Systems with uncertain physical parameters. Springer-Verlag: New York.

[2] Al-Issa, S.M., El-Sayed, A.M. A., Hashem, H.G. (2023). An outlook on hybrid fractional modeling of a heat controller with multi-valued feedback control. Fractal and Fractional, 7, 759.

[3] Bazaraa, M.S., Sherali, H.D., Shetty, C.M. (2013). Nonlinear programming: Theory and algorithms. Wiley-Interscience: New Jersey.


[4] Bryson, A.E., and Ho, Y.-C. (1975). Applied optimal control: Optimization, estimation and control. CRC Press: New York.

[5] Franklin, G.F., Powell, J.D., Emami-Naeini, A. (2019). Feedback control of dynamic systems (8th ed.). Pearson: Harlow, UK.

[6] Fursikov, A.V. (1999). Optimal control of distributed systems: Theory and applications. American Mathematical Society: Providence, RI.

[7] Sanchez-Pena, R., and Sznaier, M. (1998). Robust systems: Theory and applications. Wiley: New York.

[8] Tikhonov, A. N., and Samarskii, A. A. (2011). Equations of mathematical physics. Dover Publications: New York.



FİZİKA

DOI: 10.32010/QFUT9265

EFFECT OF GRAPHENE OXIDE LOADING ON THE TEMPERATURE-SENSITIVE DIELECTRIC PROPERTIES OF PVA-BASED COMPOSITES WITH $FEGAINS_4$

Zeynab Ramazan ADDAYEVA
Baku State University
Orcid: https://orcid.org/0009-0001-1993-3033
E-mail: zeynab.addayeva@bsu.edu.az

Abstract: This study investigated the dielectric and electrical properties of polyvinyl alcohol (PVA)-based nanocomposites containing $FeGaInS_4$ crystals and varying amounts of graphene oxide (GO). Samples prepared for the experiment included pure PVA, PVA with 2 wt.% $FeGaInS_4$, and modified composites with the addition of 1 wt.% and 3 wt.% GO to PVA/2 wt.% $FeGaInS_4$. The structural characteristics of the nanocomposites were studied using X-ray diffraction (XRD) and transmission electron microscopy (TEM), confirming the presence of a layered structure in the materials. The results showed that the size of $FeGaInS_4$ crystallites depends on the GO concentration and interaction with the polymer matrix, significantly affecting the microstructure and electrical properties of the composites. Dielectric measurements were conducted over a temperature range of 21–110°C and a frequency range of 120 Hz–1 MHz. Analysis revealed that the permittivity (ε′) increases with increasing temperature due to enhanced dipole mobility, while it decreases with increasing frequency due to the limited response of dipole polarization to rapid oscillations of the external electric field. Dielectric loss (tanδ) decreases with increasing GO content, which is associated with a decrease in the dispersion of polarization centers; however, overall, tanδ increases with increasing temperature. For the PVA/2 wt.% $FeGaInS_4$/3 wt.% GO sample, a pronounced relaxation peak is observed in the range of 60–110°C, indicating thermally activated dipole relaxation processes and increased charge mobility.
Electrical conductivity was studied using the Correlated Barrier Hopping (CBH) model at 5 kHz. The addition of GO significantly affects conductivity, charge carrier density, and activation energy. Reducing the activation energy facilitates charge transfer, improving the conductive properties of the composite.
Thus, adjusting the GO content in PVA/$FeGaInS_4$ nanocomposites is an effective tool for optimizing dielectric and electrical properties. High permittivity, low losses, and improved conductivity make these materials promising for applications in electronics, sensors, energy storage, and optoelectronic devices. The results of the study provide fundamental information for the development of functionalized nanocomposites with tunable properties.
Keywords: graphene oxide, $FeGaInS_4$, PVA nanocomposite, permittivity, Maxwell–Wagner–Sillars effect

$FEGAINS_4$ TƏRKIBLI PVS ƏSASLI KOMPOZITLƏRIN TEMPERATURDAN ASILI DIELEKTRIK XASSƏLƏRINƏ QRAFEN OKSIDIN MIQDARININ TƏSIRI

Zeynəb Ramazan ADDAYEVA
Bakı Dövlət Universiteti
Orcid: https://orcid.org/0009-0001-1993-3033
E-mail: zeynab.addayeva@bsu.edu.az

Xülasə: Bu işdə polivinil spirt (PVS) əsaslı nanokompozitlərin dielektrik və elektrik xassələri $FeGaInS_4$ kristalları və müxtəlif miqdarda qrafen oksid (GO) əlavə olunmaqla tədqiq edilmişdir. Hazırlanan nümunələrə saf PVS, 2 % $FeGaInS_4$/PVS və 2 % $FeGaInS_4$/PVS üzərinə 1 % və 3 % GO əlavə edilmiş modifikasiya olunmuş kompozitlər daxildir. Nanokompozitlərin strukturu XRD və TEM analizləri ilə müəyyən edilmiş və nümunələrin laylı struktura malik olduğu təsdiqlənmişdir. XRD nəticələri göstərmişdir ki, $FeGaInS_4$ kristallitlərinin ölçüsü polimer matrisə daxil edilmə və GO konsentrasiyasından asılı olaraq dəyişir, bu da materialın mikroskopik strukturunu, morfologiyasını və nəticədə elektrik xassələrini birbaşa təsir edir.
Dielektrik ölçmələr 21–110 °C temperatur intervalında və 120 Hz–1 MHz tezliklərdə aparılmışdır. Nəticələr göstərmişdir ki, dielektrik sabitlik (ε′) temperatur artdıqca yüksəlir, lakin tezlik artdıqca azalır. Dielektrik itki (tan δ) GO miqdarı artdıqca azalır, lakin temperaturun artması ilə yüksəlir. Xüsusilə, 3 % GO tərkibli nümunədə 60–110 °C intervalında relaksasiya pikinin müşahidə olunması nanokompozitlərdə yük daşınması mexanizmlərinin temperaturdan asılı olduğunu və molekulyar hərəkətliliklə əlaqəli olduğunu göstərir. Bu nəticələr, həmçinin PVS matrisinin dielektrik davranışına GO-nun əlavə edilməsinin təsirini vurğulayır.
Elektrik keçiricilik 5 kHz-də CBH (Correlated Barrier Hopping) modeli ilə təhlil edilmişdir və göstərmişdir ki, GO həm keçiriciliyə, həm daşıyıcı sıxlığına və aktivləşmə enerjisinə əhəmiyyətli təsir göstərir. Bu nəticələr göstərir ki, GO miqdarının tənzimlənməsi dielektrik və elektrik xassələrinin optimallaşdırılması üçün effektiv üsuldur. Belə

nanokompozitlər yüksək dielektrik performans və yaxşı elektrik keçiriciliyi ilə enerji saxlama, sensor və elektronika tətbiqlərində perspektivli materiallar kimi qiymətləndirilə bilər.
Bu tədqiqat PVS/$FeGaInS_4$/GO nanokompozitlərinin temperatur və tezlikdən asılı dielektrik davranışını sistematik şəkildə öyrənir, GO konsentrasiyasının xassələrə təsirini ortaya qoyur və materialların tətbiq sahələrində funksionallaşdırılması üçün mühüm məlumat təqdim edir.
Açar sözlər: Qrafen oksid, $FeGaInS_4$, PVS nanokompozit, dielektrik nüfuzluğu, Maxwell–Wagner–Sillars effekti

ВЛИЯНИЕ СОДЕРЖАНИЯ ОКСИДА ГРАФЕНА НА ТЕМПЕРАТУРНО-ЗАВИСИМЫЕ ДИЭЛЕКТРИЧЕСКИЕ СВОЙСТВА КОМПОЗИТОВ НА ОСНОВЕ ПВА С $FEGAINS_4$

Зейнаб Рамазан АДДАЕВА
Бакинский Государственный Университет
Orcid: https://orcid.org/0009-0001-1993-3033
Электронная почта :zeynab.addayeva@bsu.edu.az

Резюме: В данной работе исследованы диэлектрические и электрические свойства поливинилового спирта (ПВС)-основных нанокомозитов, содержащих кристаллы $FeGaInS_4$ и различное количество оксида графена (GO). Для эксперимента были подготовлены образцы: чистый ПВС, ПВС с 2 мас.% $FeGaInS_4$, а также модифицированные композиты с добавлением 1 мас.% и 3 мас.% GO к ПВС/2 мас.% $FeGaInS_4$. Структурные характеристики нанокомпозитов изучались с помощью рентгеновской дифракции (XRD) и трансмиссионной электронной микроскопии (TEM), что позволило подтвердить наличие слоистой структуры в материалах. Результаты показали, что размеры кристаллитов $FeGaInS_4$ зависят от концентрации GO и взаимодействия с полимерной матрицей, что существенно влияет на микроструктуру и электрические свойства композитов.
Диэлектрические измерения проводились в температурном диапазоне 21–110 °C и частотном диапазоне 120 Гц–1 МГц. Анализ показал, что диэлектрическая проницаемость (ε′) увеличивается с ростом температуры за счет усиленной подвижности диполей, а при увеличении частоты снижается из-за ограничения реакции дипольной поляризации на быстрые колебания внешнего электрического поля. Диэлектрические потери (tan δ) уменьшаются при увеличении содержания GO, что связано с уменьшением дисперсии поляризационных центров, однако в целом tan δ повышается с ростом температуры. Для образца ПВС/2 мас.% $FeGaInS_4$/3 мас.% GO наблюдается выраженный релаксационный пик в диапазоне 60–110 °C, указывающий на термически активированные процессы релаксации диполей и повышенную подвижность заряда.
Электрическая проводимость изучалась с применением модели Correlated Barrier Hopping (CBH) при 5 кГц. Добавление GO существенно влияет на проводимость, плотность носителей заряда и энергию активации. Уменьшение энергии активации облегчает перенос заряда, улучшая проводящие свойства композита.
Таким образом, регулирование содержания GO в ПВС/$FeGaInS_4$ нанокомозитах является эффективным инструментом оптимизации диэлектрических и электрических характеристик. Высокая диэлектрическая проницаемость, низкие потери и улучшенная проводимость делают эти материалы перспективными для применения в электронике, сенсорике, энергохранении и оптоэлектронных устройствах. Результаты исследования предоставляют фундаментальную информацию для разработки функционализированных нанокомпозитов с настраиваемыми свойствами.
Ключевые слова: оксид графена, $FeGaInS_4$, ПВС-нанокомпозит, диэлектрическая проницаемость, эффект Максвелла–Вагнера–Силларса

Introduction

Bu məqalədə əsasən keyfiyyət yönümlü araşdırma metodundan istifadə olunmuşdur. Metodologiya aşağıdakı mərhələlərə əsaslanır. Onları aşağıda göstərilən ardıcıllıqla sıralamaq məqsədə uyğun olar. İlkin olaraq ədəbiyyat təhlili, ardıcıl olaraq texnologiya nümunələrinin müqayisəsi və son olaraq təhlil imkanlarının tətbiqi olaraq baxa bilərik.

Ədəbiyyat təhlili;

Beynəlxalq elmi bazalarda (Scopus, Google Scholar, SpringerLink) son 10 ildə dərc olunmuş məqalələr və texniki hesabatlar təhlil edilmişdir. Xüsusilə "robotic chemistry", "automated laboratories", "AI in chemical synthesis" və "Lab 4.0" açar sözlərindən istifadə olunmuşdur.

Texnologiya nümunələrinin müqayisəsi;

Praktik tətbiqdə istifadə olunan real sistemlər – məsələn, IBM RXN for Chemistry, Chemputer, BASF SmartLab – təhlil olunmuş, onların funksionallığı və kimyəvi tədqiqatlardakı rolu müqayisə edilmişdir.

Tətbiq imkanlarının təhlili;

Azərbaycanın elmi-təhsil mühiti nəzərə alınaraq, Laboratoriya 4.0 modelinin tətbiqi imkanları və potensial çətinlikləri müəyyən edilmişdir. Bunun üçün analitik yanaşma əsasında SWOT təhlili aparılmışdır (Strengths, Weaknesses, Opportunities, Threats).

Mövzu ilə əlaqəli olaraq üstünlüklər, aşağıdakı kimi sıralanmışdır.

Tədqiqat müddətini 40%-ə qədər azaldılması (Kovačević et al., 2020). Bu o deməkdir ki, hər zaman uzun zaman tələb edən tədqiqat və araşdırmalara sərf olunan zaman müddəti normalda olandan 40%-ə qədər aşağı enir və nəticədə bu daha uzun zamanı başqa proseslərə sərf etmək mümkün olacaqdır.

Səhv riski azalır: reaksiya şəraitləri avtomatik idarə olunması. Ardıcıl olaraq, avtomatik idarə olunan proseslərdə səhvin aşağı endirilməsi və risklərin azaldılması kimi bu proses də öz uğurlu nəticəsini göstərəcəkdir.

Təkrarlanabilirlik artır: hər bir eksperiment eyni şəraitdə təkrarlanır. Məsələ ilə əlaqəli olaraq, bütün təcrübələr üçün bərabər imkanların paylanması mövcud olur.

Məlumatların emalı daha sürətlidir ki, bu da istənilən resurs baxımından olduqca əhəmiyyətlidir.

Mütləq olaraq ehtiyacı duyulan resurslar isə aşağıda öz növbəsində sıralanmışdır.

Yüksək ilkin maliyyə tələbi. Bu o deməkdir ki, ixtiyarı laboratoriyalarda mövcud prosesin təşkilinin icra olunması təəssüf ki, mümkün deyildir. Məhz bu səbəbdən ötrü isə, yüksək maliyyə bazasına sahib olmaq və proseslərin icrasını öz fəaliyyət planına uyğun olaraq icra etmək ən doğru variant olacaqdır.

Texniki bilik boşluqları (təlim tələbləri). Qeyd edilən nüansı sıradakı cümlələrlə açа bilərik. Məlumdur ki, hazırda texnologiya dövründə yaşamağımıza baxmayaraq, gənclərdən fərqli olaraq özəlliklə yaşlı nəslin nümayəndələrində bu mövzuda boşluq müşahidə olunur. Bu isə öz növbəsində icraat prosesi ilə bağlı bir sıra sıxıntılara səbəb olur. Yəqin ki, qəbul edilşə bilər ki, cari zamanda xüsusilə kimya sahəsində alim, professor və dəyərli əməkdaşların əksəriyyəti xüsusilə sovetlər dönəmində təhsil almış elm adamlarıdır. Bu da o deməkdir ki, texnologi biliklərin həmin dönəmdə tədrisində zəiflik olması, o zamanlarda məzun olan şəxslərdə bu sahədə boşlu şəklində qarşıya çıxır. Bu problemin həlli məqsədilə isə, gənc kadrlarla dəyərli profesdsor-müəllim heyətinin birlikdə fəaliyyəti daha çox arzuolunan və uğur vəd edicidir ki, buna görə də qeyd olunan nüansın diqqətdə saxlanılması mütləqdir.

Burada mütləq mənada mühüm olan digər bir məsələ isə etik və məlumat təhlükəsizliyi məsələləridir. Mövcud məsələ ilə əlaqəli olaraq, qeydə alınmalı olan təklifləri isə aşağıdakı kimi qeyd etmək olar.

Nəticə

Azərbaycan universitetlərində pilot "ağıllı laboratoriya" proqramları yaradılsın. Bununla nəzəriyyədə qeyd olunan mövzunun laboratoriya şəraitində icra prosesi və uğurlu irəliləyişi izlənəcəkdir.

Gənc tədqiqatçılar üçün Laboratoriya 4.0 təlim kursları təşkil olunsun. Burada mövcud olan əsas məqsəd laboratoriya bilikləri olan gənclər və bu sahə ilə məşğul olan hər kəsin təməl laboratoriya biliklərə əsaslanan bilgi və məlumatlar üzərinə daha dəqiq şəkildə təlimlər əsasında Laboratoriya 4.0 materialları sahiblənməlidirlər ki, bu da uğurun əsas təməllərindəndir.

Dövlət və özəl sektor arasında əməkdaşlıqla yerli laboratoriyaların rəqəmsallaşması maliyyələşdirilsin.

Akademik jurnallarda avtomatlaşdırılmış laboratoriya tədqiqatlarına daha çox yer ayrılsın.

ƏDƏBİYYAT SİYAHISI:

1. Qasımov, E. (2023). Azərbaycanda elmi laboratoriyaların rəqəmsallaşma potensialı. Elm və Təhsil, 4(12), 77–85.
2. Schwab, K. (2016). The Fourth Industrial Revolution. World Economic Forum.
3. Burger, B., Maffettone, P. M., Gusev, V. V., et al. (2020). A mobile robotic chemist. Nature, 583(7815), 237–241.
4. Kovačević, D., & Bjelopetrovich, S. (2020). Digital Transformation in Chemical Laboratories. Journal of Modern Chemistry, 11(3), 145–152.
5. Segler, M. H. S., Preuss, M., & Waller, M. P. (2018). Planning chemical syntheses with deep neural networks and symbolic AI. Nature, 555(7698), 604–610.
6. Cronin, L. (2021). The Chemputer and Digital Chemistry. ChemRxiv.
7. IBM. (2023). RXN for Chemistry. https://rxn.res.ibm.com
8. BASF. (2022). SmartLab Solutions. https://www.basf.com/smartlab
9. Lee, S., et al. (2021). AI-driven optimization in chemical engineering. Chemical Engineering Journal, 420.

DOİ: 10.32010/RKTC6259

QİDA QABLAŞDIRMA POLİMERLƏRİNİN TERMAL DEQRADASİYASI VƏ YENİDƏN EMAL POTENSİALI: İSTİLİK TƏSİRİ ALTINDA STRUKTUR VƏ FUNKSİONAL DƏYİŞİKLİKLƏRƏ İCMAL

Aysu İqbal CƏFƏRZADƏ
Bakı Dövlət Universiteti
Orcid: https://orcid.org/0009-0005-8957-9497
E-mail: aysuceferzade0@gmail.com

Xülasə: Qablaşdırma materialı qida təhlükəsizliyinin qorunmasında əsas rol oynayır, çünki məhsulu xarici mühitdən qorumaq üçün maneə yaratmaqla yanaşı, funksional maddələrlə aktivləşərək məhsulun oksidləşməsinin və mikrobioloji pozulmasının qarşısını alır. Plastik, qablaşdırma bazarında yüksək sıxlığı ilə təmsil olunur. İstehsal asanlığı, çox yönlülüyü, əlverişliliyi, yüngüllüyü və aşağı qiymətinə görə, bu sintetik polimerlər bioloji parçalanmamasına baxmayaraq qablaşdırma sektorunda üstünlük təşkil edir və beləliklə, ətraf mühitdə nəzərdə tutulduqlarından daha uzun müddət saxlanılır. Buna görə də qida qablaşdırması üçün təkrar emal edilə bilən plastiklərin istifadəsini təşviq etmək üçün bir sıra səylər göstərilmişdir. Lakin bu materialların saxlanma, daşınma və istifadə proseslərində müxtəlif xarici amillərin, xüsusilə də istilik və günəş şüalarının təsiri nəticəsində deqradasiyaya uğraması mühüm problemlərdən biridir. Polimerlərin termal deqradasiyası onların fiziki və kimyəvi quruluşunda dəyişikliklərə səbəb olur. Məsələn, materialın mexaniki möhkəmliyinin azalmasına, rəng dəyişməsinə, qaz və buxar keçiriciliyinin artmasına, həmçinin qida məhsullarına potensial zərərli maddələrin keçməsinə səbəb ola bilər. Müxtəlif elmi mənbələr əsasında göstərilir ki, 60–80°C temperatur intervalında belə uzunmüddətli saxlanma polimerlərin səthində oksidləşmə proseslərini sürətləndirir, 100°C-dən yuxarı temperaturda isə zəncir qırılmaları və yeni karbonil qruplarının əmələ gəlməsi müşahidə olunur. Nəticədə polimer materialın möhkəmliyi azalır, elastikliyi zəifləyir və şəffaflığı itir. Bununla yanaşı, termal deqradasiya prosesi yalnız mənfi təsirlərlə məhdudlaşmır. Araşdırmalar göstərir ki, deqradasiyaya uğramış polimerlərin mexaniki olaraq üyüdülməsi və yenidən emalı mümkündür. Təkrar emal prosesində yüksək temperaturda əridilmə və formalaşdırma mərhələləri tətbiq olunur. Bu zaman müəyyən dərəcədə xüsusiyyət itkisi olsa da, polimerlərin yeni qablaşdırma materiallarının hazırlanmasında istifadə potensialı saxlanılır. Nəticə etibarilə, termal deqradasiyanın mahiyyətinin öyrənilməsi polimerlərin təkrar emal texnologiyalarının təkmilləşdirilməsi üçün mühüm nəzəri və praktiki əsas yaradır. Bu icmalın yeniliyi onun polimerin sənaye tətbiqlərinə diqqət yetirmək, termal deqradasiyalarını araşdırmaq və təkrar emalın mümkün olub-olmadığını müəyyənləşdirməkdir.
Açar sözlər: Plastik qablaşdırma, termal deqradasiya, polimerlərin parçalanması, qida ilə təmasda materialları

THERMAL DEGRADATION AND RECYCLING POTENTIAL OF FOOD PACKAGING POLYMERS: A REVIEW ON THE STRUCTURAL AND FUNCTIONAL CHANGES UNDER HEAT EXPOSUR

Aysu Igbal JAFARZADEH
Baku State University
Orsid: https://orcid.org/0009-0005-8957-9497
E-mail: aysuceferzade0@gmail.com

Abstract: Packaging material plays a key role in food safety, as it not only creates a barrier to protect the product from the external environment, but also prevents oxidation and microbiological spoilage of the product by being activated with functional substances. Plastic is represented in the packaging market with its high density. Due to their ease of production, versatility, affordability, lightness and low cost, these synthetic polymers dominate the packaging sector despite their non-biodegradability and thus remain in the environment for longer than they are intended. Therefore, several efforts have been made to promote the use of recyclable plastics for food packaging. However, one of the important problems is the degradation of these materials during storage, transportation and use due to various external factors, especially heat and sunlight. Thermal degradation of polymers causes changes in their physical and chemical structure. For example, it can cause a decrease in the mechanical strength of the material, discoloration, increased gas and vapor permeability, and the transfer of potentially harmful substances to food products. Based on various scientific sources, it is shown that even long-term storage in the temperature range of 60-80°C accelerates oxidation processes on the surface of polymers, while at temperatures above 100°C,

chain breaks and the formation of new carbonyl groups are observed. As a result, the strength of the polymer material decreases, its elasticity weakens, and it loses transparency. At the same time, the thermal degradation process is not limited to only negative effects. Studies show that mechanically grinding and reprocessing of degraded polymers is possible. The recycling process involves melting and forming stages at high temperatures. Although there is a certain loss of properties, the potential for polymers to be used in the preparation of new packaging materials is maintained. Consequently, the study of the nature of thermal degradation provides an important theoretical and practical basis for improving polymer recycling technologies. The novelty of this review is to focus on the industrial applications of polymers, to investigate their thermal degradations, and to determine whether recycling is possible.
Keywords: Plastic packaging, thermal degradation, polymer degradation, food contact materials

ТЕРМИЧЕСКАЯ ДЕГРАДАЦИЯ И ПОТЕНЦИАЛ ПЕРЕРАБОТКИ ПОЛИМЕРОВ ДЛЯ УПАКОВКИ ПИЩЕВЫХ ПРОДУКТОВ: ОБЗОР СТРУКТУРНЫХ И ФУНКЦИОНАЛЬНЫХ ИЗМЕНЕНИЙ ПОД ТЕПЛОВЫМ ВОЗДЕЙСТВИЕМ

Айсу Икбал ДЖАФАРЗАДЕ
Бакинский Государственный Университет
Orcid: https://orcid.org/0009-0005-8957-9497
Электронная почта: aysuceferzade0@gmail.com

Резюме: Упаковочный материал играет ключевую роль в безопасности пищевых продуктов, поскольку он не только создает барьер для защиты продукта от внешней среды, но и предотвращает окисление и микробиологическую порчу продукта, будучи активированным функциональными веществами. Пластик представлен на рынке упаковки с высокой плотностью. Благодаря простоте производства, универсальности, доступности, легкости и низкой стоимости эти синтетические полимеры доминируют в секторе упаковки, несмотря на их бионеразлагаемость, и, таким образом, хранятся в окружающей среде дольше, чем им положено. Поэтому были предприняты некоторые усилия по содействию использованию перерабатываемых пластмасс для упаковки пищевых продуктов. Однако одной из важных проблем является деградация этих материалов во время хранения, транспортировки и использования из-за различных внешних факторов, особенно тепла и солнечного света. Термическая деструкция полимеров приводит к изменению их физической и химической структуры. Например, это может привести к снижению механической прочности материала, изменению цвета, повышению газо- и паропроницаемости, а также к переносу потенциально вредных веществ в пищевые продукты. На основании различных научных источников показано, что даже длительное хранение в диапазоне температур 60–80 °C ускоряет окислительные процессы на поверхности полимеров, а при температуре выше 100 °C наблюдаются разрывы цепей и образование новых карбонильных групп. В результате снижается прочность полимерного материала, ослабевает его эластичность и прозрачность. При этом процесс термической деструкции не ограничивается только негативными эффектами. Исследования показывают, что возможно механическое измельчение и повторная переработка деградированных полимеров. Процесс переработки включает стадии плавления и формования при высоких температурах. Несмотря на определенную потерю свойств, сохраняется потенциал использования полимеров для получения новых упаковочных материалов. Следовательно, изучение природы термической деструкции обеспечивает важную теоретическую и практическую основу для совершенствования технологий переработки полимеров. Новизна данного обзора заключается в том, что он уделяет внимание промышленным применениям полимера, исследует его термическую деструкцию и определяет возможность переработки.
Ключевые слова: Пластиковая упаковка, термическая деградация, деградация полимеров, материалы, контактирующие с пищевыми продуктами

Giriş

Plastiklər, xüsusən də sintetik üzvi polimerlər dünyada əvəzolunmaz hala gəldi. Plastik qablaşdırmanın artan istehlakı və onun qısa ömür müddəti (əksəriyyəti birdəfəlik məhsullardır) plastik qablaşdırma tullantılarının miqdarının artması ilə nəticələnir. Plastik istehlakının illik artımına əsaslanaraq, 2050-ci ilə qədər dünya plastik istehlakının 500 milyon tona çatacağı proqnozlaşdırılır. Bu xüsusiyyətlər istifadə etdikdən sonra onları idarə etməyi olduqca çətinləşdirir. Onların yüksək davamlılığı da əhəmiyyətli bir çatışmazlıq yaradır, çünki onlar aşağı bioloji parçalanma ilə xarakterizə olunur. Bu xüsusiyyət düzgün işləməməklə yanaşı, torpaqlarda, okeanlarda və şirin sularda toplana bildiyi üçün ciddi

ekoloji problemlərə səbəb ola bilər Ənənəvi mexaniki təkrar emal üsulları bu problemlərin həllində qeyri-kafi olduğunu sübut etdi. Bu inkişaflar daha davamlı plastik təkrar emal təcrübələrinin yaradılması istiqamətində kritik addımları əks etdirir (Maria-Anna Charitopoulou et., 2025).

Aparılan tədqiqatlar göstərir ki, dünyada polimer materiallarının istehsalı əsas aparıcı dövlətlər olan ABŞ, Çin, İtaliya, Almaniya, Belçika, Sinqapur, Qatar və s. bu kimi dövlətlərin əlində cəmləşmişdir. Bu dövlətlər tərəfindən istehsal olunan polimer materiallar içərisində polietilen və polipropilen qatranları əsasında hazırlanan polimerlər xüsusi yer tutur. Polimer materialların istehsalında və istehlakında Çin lider dövlətdir. Belə ki, bütün dünyada polietilen qatranlarının istehsalının 20%-i yalnız Çinin payına düşür. Hətta araşdırmalar göstərir ki, Çin, İtaliya, ABŞ, Almaniya və Belçika dövlətləri polietilen qatranlarının 41%-dən artığını istehsal edir (Səfərov, 2018).

Nəzəriyyə

Həm kommersiya istifadəsində, həm də tullantı kimi mövcud olan polimer əsaslı materialların geniş çeşidini nəzərə alaraq, plastiklər ümumiyyətlə iki əsas kateqoriyaya təsnif edilir: termoset və termoplastik. Uzun molekulyar zəncirləri ilə xarakterizə olunan termoset polimerləri geri dönməz bərkimə keçir və ilkin istifadədən sonra təkrar emal edilə bilməz. Bunun əksinə olaraq, termo-plastiklər daha qısa molekulyar bağlardan ibarətdir və yenidən əridilə və formalaşdırıla bilər ki, bu da onlara müəyyən dərəcədə təkrar emal etmək imkanı verir. Plastiklər ümumiyyətlə altı əsas qrupa bölünür: Aşağı Sıxlıqlı Polietilen (LDPE) Yüksək Sıxlıqlı Polietilen (HDPE), Polipropilen (PP), Polistirol (PS), Polietilen Tereftalat (PET) və Polivinilxlorid (PVC). Bu təsnifatlar müxtəlif sənaye sahələrində istifadə olunan polimer materialların ən çox yayılmış növlərini təmsil edir. Aşağı sıxlıqlı polietilen (LDPE) yüksək sıxlıqlı polietilen (HDPE) ilə müqayisədə daha aşağı sıxlıq və zəif molekullararası qüvvələrlə nəticələnən budaqlanmış molekulyar quruluşu ilə xarakterizə olunur. Bu xüsusiyyətlər onu müxtəlif tətbiqlər üçün ideal material edir, kompüter komponentləri üçün qablaşdırma, o cümlədən sabit disklər, qrafik kartları və optik disklər, həmçinin altlıqlarda istifadə olunur. Bundan əlavə, aşağı sıxlıqlı polietilen (LDPE) iki formada mövcuddur: qalıq şüşə qapaqlarından və müəyyən növ qablaşdırma materiallarından əldə edilən təkrar emal edilmiş qranullar (R) və onların istehsalı üçün istifadə edilən ilkin qranullar (V). Elastikliyinə, kimyəvi müqavimətinə və yaxşı elektrik izolyasiya xüsusiyyətlərinə görə LDPE istehlak mallarının və sənaye məhsullarının istehsalında da geniş istifadə olunur. Yüksək sıxlıqlı polietilen (HDPE) iki formada təsnif edilir: təmizləyici maddələr, şampunlar və süd şüşələri üçün qablar kimi istehlakdan sonrakı tullantılardan əldə edilən təkrar emal edilmiş qranullar (R) və yeni HDPE məhsullarının sintezində istifadə edilən ilkin qranullar (V). Oyuncaqlar, mətbəx əşyaları, plyonkalar, şüşələr, boru kəmərləri, emal maşınları, o cümlədən məftil, kabel izolyasiya materialları və plastiklərin ən əhəmiyyətli tətbiqini təmsil edən qablaşdırma sektoru kimi məhsullar ümumi istifadənin 31%-ni təşkil edir və 2022-ci ildə 236 milyard avrodan çox bazar həcminə nail olur. Polipropilen (PP) yüksək kimyəvi müqaviməti, aşağı nəm udma qabiliyyəti və yaxşı elektrik izolyasiya xüsusiyyətləri ilə tanınır, bu da onu geniş sənaye və istehlakçı tətbiqləri üçün uyğun edir. Onun yarı kristal quruluşu əla davamlılığı və zərbəyə davamlılığı qoruyarkən sərtlik və elastiklik balansını təmin edir. Bundan əlavə, polipropilenin təkrar emal qabiliyyəti davamlı material təcrübələri ilə uzlaşır, istehsal və tikinti sektorlarında tullantıların azaldılmasına töhfə verir. Bu xüsusiyyətlər onun iki oxlu yönümlü polipropilen (BOPP), şəffaf qablaşdırma çantaları, xalçalar, kilimlər, paspaslar və təkrar emal edilmiş məcmu beton kimi müxtəlif tətbiqlərdə istifadəsinə imkan verir, burada lif həcminin payı artdıqca statik elastik modul azalır. Polistirol (PS) birdəfəlik plastik bıçaq və yemək qabları, CD qutuları, tüstü detektorları üçün korpuslar, nömrə nişanları və çərçivələr üçün istifadə olunur. Əhəmiyyətli odur ki, ən geniş genişlənmiş polistirol təkrar emalı müəssisələri əsasən şimal-qərb Avropada yerləşir. Tək triboelektrik polimerdən (PS) istifadə edən triboelektrik generatorların yaradılması üçün yeni metodologiya da yaradılmışdır. Polietilentereftalat (PET) №1 qatran identifikasiya kodu ilə təyin olunur, qablaşdırma sənayesində üçüncü ən çox yayılmış polimer kimi yer alır. O, içki qabları üçün istifadə olunan əsas materialdır və Avropa qablaşdırma sektorunda ümumi plastik istehlakının təxminən 16%-ni təşkil edir. Həmçinin, qablaşdırma filmləri, PET şüşələr, xalça ipliklər, mühəndislik plastikləri, filamentlər, toxunmamış materiallar, qablaşdırma qayışları və ştapel liflər kimi tətbiqlərə malikdir. Polivinilxlorid (PVC) çeviklik, sərtlik və rəng kimi PVC-in fiziki xassələri son məhsulda istənilən performansa nail olmaq üçün uyğunlaşdırılmış sürtkü yağları, plastifikatorlar və piqmentlər daxil olmaqla istifadə

edilən xüsusi əlavələrdən təsirlənir. Bu çox yönlülük PVC-dən tikinti, elektrik sistemləri və istehlak malları kimi müxtəlif sənaye sahələrində geniş şəkildə istifadə etməyə imkan verir [4].

Deqradasiya polimerin kimyəvi və fiziki xassələrinə mənfi təsir göstərən bir prosesdir. Bu proses zamanı adətən polimer zəncirləri və ya oksigenlə reaksiyaya girən sərbəst radikallar əmələ gəlir. Deqradasiya dərəcəsi polimer tərkibinə və ətraf mühit şəraitinə uyğunlaşdırıla bilər. Ümumilikdə polimerlərin deqradasiyasını abiotik və biotik deqradasiyalara bölmək olar. Abiotik deqradasiya vəziyyətində proses ya termal, hidrolitik, ya da UV-Vis enerjisi ilə başlanır. Digər tərəfdən, biotik deqradasiya fermentativ həzm kimi mikrob fəaliyyətini əhatə edir.

Polimer materialların ətraf mühitdə deqradasiyası prosesi çoxşaxəlidir, fiziki, kimyəvi və bioloji mexanizmləri əhatə edir. Fiziki deqradasiya adətən aşınma və parçalanma kimi mexaniki prosesləri, kimyəvi deqradasiya isə foto-oksidləşmə, istilik deqradasiyası və hidroliz kimi prosesləri əhatə edir. Bioloji deqradasiya materialların bakteriya və göbələklər kimi mikroorqanizmlər tərəfindən parçalanmasını nəzərdə tutur. Deqradasiya mexanizminin seçiminə polimer materialının kristallıq, çarpaz əlaqə dərəcəsi və makroskopik düzülüşü də daxil olmaqla daha yüksək səviyyəli struktur təsir göstərir. Deqradasiya məhsullarının növləri və xassələri material növündən və ətraf mühit şəraitindən, məsələn, temperaturdan, işıqdan və mikroorqanizmlərin mövcudluğundan asılı olaraq geniş şəkildə dəyişir . Çox vaxt mikroskopik ölçüdə olan bu deqradasiya məhsulları geniş yayıla və müxtəlif ekoloji matrislərdə qalaraq ekosistemlər üçün təhlükə yarada bilər və potensial olaraq qida zəncirinə daxil ola bilər. Polimer materiallar ətraf mühitdə tez-tez davamlılıq nümayiş etdirən müxtəlif məhsullara çevrilir. Polimerin deqradasiyası məhsulları üçün davamlılıq müddəti müxtəlif amillərə, o cümlədən kimyəvi quruluşa, ətraf mühit şəraitinə və parçalanma üsuluna görə fərqlənir. Bəzi deqradasiya məhsulları ətraf mühitdə qısa bir neçə il, digərləri isə onilliklər və ya daha uzun müddət qala bilər. Beş ümumi polimerdən (polietilen, polipropilen, polivinilxlorid, polikarbonat və polilaktik turşu) deqradasiya məhsullarının ətraf mühitə davamlılığı (illərlə) fərqlidir. Polikarbonat (PC) və polietilendən (PE) parçalanma məhsulları daha uzun davamlılığa malikdir, təxminən 150-200 ilə qədər qala bilər. Polivinilxlorid (PVC) orta səviyyəli davamlılıq göstərir (50-70 il). Polipropilen (PP) nisbətən daha az davamlıdır, amma PLA-dan uzunömürlüdür (təxminən 20-40 il). Polilaktik turşudan (PLA) isə daha qısamüddətlidir, tez parçalanır, təbiətdə uzun müddət qalmır. Bu, onun bioloji parçalana bilən material olmasına uyğundur. Bu davamlılıq müddəti onların mikroorqanizmlər və ya digər ətraf mühit amilləri tərəfindən effektiv şəkildə pozulma qabiliyyəti ilə müəyyən edilir [6]. Polimer materialların və onların əlavə məhsullarının kimyəvi istifadəsini əhatə edən hər bir texnoloji həll ekoloji problemlərə səbəb olur. Poliolefinlərin termal deqradasiyası zamanı əmələ gələn kimyəvi maddələr əhəmiyyətli kanserogen və mutagen potensiala malikdir. Nəticədə, əsas problemlərdən biri işlənmiş qazlar, toz və texnoloji tullantılar kimi neqativ halların minimuma endirilməsinə və daha yaxşı olar ki, onların təkrar istifadəsinə imkan verən sistemlərin istifadəsidir. Yüksək temperaturlu piroliz qiymətli komponentlərin qənaətbəxş deqradasiyasına və ya bərpasına imkan verir. Yüksək temperaturlar sərfəlidir, çünki 700-800 °C-dən yuxarı temperatur rejimləri molekulların daha aşağı oksidləşmə vəziyyətinə malik birləşmələrə termal parçalanmasına imkan verir ki, bu da, məsələn, enerji baxımından əlverişlidir. Yüksək temperatur, yüksək enerji xərclərinə səbəb olur, prosesi daha bahalı və nəticədə daha az gəlirli edir. Nəticədə, prosesin iqtisadi səmərəliliyini artırmaq üçün istilik bərpası və resirkulyasiya kimi enerji istehlakını azaltmağa yönəlmiş bir neçə növ strategiya tələb olunur. Polimerlərin kimyəvi utilizasiyası istifadə olunan reagentlərin növü və temperatur rejimlərindən asılı olaraq onların tətbiqi ilə müəyyən edilir. Nəticədə, ideal əməliyyat prosesin istilik şəraiti ilə əlverişli reagentlərin istifadəsi arasında balansa nail olmaqdır ki, bu da ən arzu olunan nəticəni əldə etməyə imkan verir [2].

Metod

Eksperimental təhlillər əsasında müəyyən edilmişdir ki, qida məhsullarının qablaşdırılması üçün istifadə olunan plastikdən hazırlanmış bağlamaların parçalanma temperaturu istifadə temperaturunu xeyli üstələdiyi üçün gündəlik istifadədə risk yaratmır. Müxtəlif polimerlərə əsaslanan plastiklərin oksigeninin iştirakı ilə 10 °C/dəq qızdırma sürətində termal parçalanmanın necə getdiyi göstərilmişdir. Bundan əlavə, polimerlərə əlavə olunan maddələrin plastik termal parçalanma prosesini ləngidə və ya sürətləndirə biləcəyi müşahidə edilmişdir. Həmçinin göstərilmişdir ki, materialın strukturu materialda xüsusi dəyişikliklər etmək üçün təmin edilməli olan enerji miqdarına təsir göstərir [3].


Bu tədqiqat gündəlik istifadə şəraitində qida ilə təmasda olan plastiklərin deqradasiyasını müşahidə edir. Plastiklərin oksidləşməsi və hidrolizi polimer zəncirlərinin təsadüfi qırılmasına gətirib çıxarır ki, bu da səth deqradasiyasına və fraqmentasiyaya səbəb olur. Nəticələr təsdiq edir ki, temperatur və kimyəvi tərkib plastiklərin deqradasiyasına aydın şəkildə təsir göstərir və bu da öz növbəsində mikroplastiklərin ayrılma ehtimalını artırır. Plastik qida qabları gündəlik istifadə zamanı adətən asidik və ya qələvi şəraitə, eləcə də kimyəvi tərkiblərə davamlıdır. Onlar adətən kimyəvi maddələrə qarşı yaxşı dayanıqlılıq nümayiş etdirsələr də, polimer oksidləşməsi və hidroliz hələ də səthdə baş verə bilər. Məhlulun pH dəyəri və duzluluğu plastik parçalanmaya təsir edən ən mühüm kimyəvi amillər hesab olunur. Temperaturun yüksəlməsi plastiklərin deqradasiyasını sürətləndirir və nəticədə onların səthində mənfi yüklərin əhəmiyyətli dərəcədə artmasına səbəb olur. PC (polikarbonat), PP (polipropilen), PE (polietilen) və PET (polietilen tereftalat) ilə müqayisədə temperatur artımına daha az həssaslıq göstərir ki, bu da yəqin ki, PC-nin daha yüksək şüşələşmə temperaturu (Tg) ilə izah olunur. Araşdırılan plastiklərin səth deqradasiyası həm turşu, həm də qələvi mühitlərdə stimullaşdırılır. Əhəmiyyətli məqam odur ki, məhlulda qlükozanın mövcudluğu bütün pH diapazonu boyunca PP-nin səth deqradasiyasını daha da gücləndirir. Alınan nəticələr plastik qida qablarının təhlükəsiz istifadəsinin tənzimlənməsi və davamlı qida ilə təmasda olan materialların dizaynı üçün dəyərli məlumat təqdim edir.

Plastik qablaşdırma tullantılarında polimer növünün müəyyən edilməsi üçün Diferensial Skanlama Kalorimetriyasının (DSC) termal analitik texnikası tətbiq oluna bilər. Bu üsul hər bir polimer növü üçün fərqli olan ərimə temperaturu (Tm) və şüşə keçid temperaturu (Tg) kimi xarakterik termal keçidləri qeyd etməyə imkan verir. Kalorimetrik əyrilərin təhlili hər bir nümunənin polimer materialının müəyyən edilməsinə, həmçinin onun istilik davranışının qiymətləndirilməsinə kömək edir. DSC-nin istifadəsi mürəkkəb plastik materialların həm keyfiyyət, həm də kəmiyyət təhlili üçün vacibdir. Bu işin məqsədi, bir tərəfdən, plastik tullantılarda müxtəlif növ polimerləri müəyyən etmək üçün termal analiz üsullarından istifadəni vurğulamaq, digər tərəfdən, tullantılardan qiymətli məhsulların geri alınması məqsədi ilə piroliz yolu ilə plastik qablaşdırma tullantılarının termokimyəvi təkrar emalını araşdırmaqdır. Bu tədqiqatın əsas məqsədi yeni anlayışlar təqdim etmək və daha davamlı gələcəyi təmin etmək üçün plastik qablaşdırmanın təkrar emal dərəcəsini artırmaq kimi qlobal hədəfə töhfə verməkdir. Bu səbəbdən, qida və qeyri-ərzaq qablaşdırma tətbiqləri üçün istifadə edilən çox sayda plastik qablaşdırma tullantıları toplanmış və müxtəlif üsullarla (FTIR, EGA və DSC) müəyyən etmək üçün təhlil edilmişdir [1].


Bu araşdırmada istifadə olunan plastik tullantılar gündəlik məişət plastik qablaşdırmada çoxluğuna görə seçilmişdir. Onlara müxtəlif növ polimerlərdən olan həm qida, həm də qeyri-ərzaq qablaşdırmaları daxildir. Bu iş zamanı tətbiq olunan addımlar:

1. Nümunələrin toplanması
2. Nümunələrin hazırlanması
3. Nümunələrin identifikasiyası
4. Nümunələrin yenidən emalı

Bu tədqiqat üçün qida məişət tullantılarından 2 plastik məhsul (PET, PP) toplanmışdır. Qeyd etmək lazımdır ki, ilkin olaraq tədqiq edilmiş bütün plastik qablaşdırma tullantı nümunələri hər hansı qida və ya digər qalıqları təmizləmək üçün hərtərəfli təmizləndiyindən (su və/və ya sabunla yuyulduğundan) qurudulmaq üçün silinmişdir. Daha sonra əl kəsici alətlərdən istifadə edərək nümunələr tətbiq olunacaq üsullara uyğun olan kiçik hissələrə (ölçünün kiçilməsi) kəsildi. Hazırlandıqdan sonra (təmizləmə, qurutma və ölçülərin kiçilməsi) nümunələr DSC, DTG, TG analizlər kimi müxtəlif üsullara məruz qaldı.



Şəkil 1. PP-nin termal analizi



Şəkil 2. PET-nin termal analizi

Şəkil 1-dən göründüyü kimi TG əyrisində 0–250 °C intervalında demək olar ki, kütlə itkisi yoxdur. Bu o deməkdir ki, polimer stabil qalır. 300–450 °C aralığında əsas parçalanma prosesi baş verməklə kütlənin çox hissəsi itir. 500 °C-dən sonra artıq kütlə demək olar sıfıra enərək polimer tam deqradasiyaya uğrayır. DTG əyrisində təxminən 380–420 °C aralığında ən böyük pik göstəricisidir. Bu, polimerin əsas parçalanma temperaturudur. Piklərin sayı bir neçə mərhələli parçalanmanı göstərir. Deməli, polimer tək bir mərhələdə deyil, birdən çox mexanizmlə parçalanır (məsələn, əvvəlki uçucu komponentlər, sonra əsas zəncirin qırılması). DSC əyrisində təxminən 350–400 °C-də ekzotermik pik var bu, polimerin oksidləşməsi və zəncirlərin parçalanması zamanı istiliyin ayrılmasıdır. Daha sonra kiçik endotermik dəyişikliklər ola bilər (qalıqların buxarlanması və ya kristal strukturların əriməsi ilə bağlıdır). PP-nin yüksək temperaturda parçalanması əsasən β-scission (zəncirin qırılması) və radikal mexanizmlə gedir. Əsas məhsullar: uçucu alifatik hidrokarbonlar (oligomerlər, olefinlər), bəzi hallarda dehidrogenləşmə məhsulları və qarışıq HC-lərdir. PP-nin bir mərhələli, kəskin deqradasiyası göstərməsi onun termal həssas olduğunu göstərir. Bu o deməkdir ki, yüksək istilik (məs. Mikrodalğada qızdırma, avtomobildə günəşdə qalma) polimer strukturunu əhəmiyyətli dərəcədə zəiflədə bilər. Termal deqradasiya zamanı yaranan uçucu məhsullar və oksidləşmə məhsulları (məsələn, aldehidlər) qidaya miqrasiya edə bilər. Bu, qida təhlükəsizliyi üçün risk yaradır. PP-nin mexaniki təkrar emalı mümkündür, amma qızdırma ilə zəncir qırılmaları nəticəsində molekulyar çəki azalır və mexaniki xassələr pisləşir. Qatqı və stabilizator tələb oluna bilər. Şəkil 2-dən göründüyü kimi TG əyrisində 0–300 °C aralığında kütlə demək olar sabit qalır. 350–500 °C arasında polimerin parçalanması hadisəsi baş verir. Bu polimerdə əsas kütlə itkisinə səbəb olur. 500 °C-dən sonra TG əyrisi düzləşir. Bundan belə nəticə çıxarmaq olar ki, polimerin çox hissəsi artıq deqradasiya olub. 600–800 °C-də demək olar ki, dəyişiklik yoxdur. Deməli, yalnız kül və ya qalıq maddə qalır. DTG əyrisində təxminən 420–480 °C aralığında kəskin pik polimerin əsas parçalanma temperaturudur. Birinci şəkilə nisbətən burada parçalanma daha dar intervalda baş verir. Bu o deməkdir ki, polimer bir mərhələdə daha kəskin parçalanır. DSC əyrisində əsas ekzotermik pik 450 °C civarında görünür. Ekzotermik proses tam parçalanma ilə üst-üstə düşür. Bu, yanma və ya oksidləşmə ilə əlaqəli ola bilər. PET-də termal deqradasiya əsasən ester bağlarının parçalanması və depolimerizasiyaya yönəlir.

Nəticə

Depolimerizasiya nəticəsində tereftalik turşusu törəmələri, dialkil-tereftalat derivatları, CO və CO_2 kimi qazlar görünə bilər. Əgər su mövcud olarsa, PET həmçinin hidroliz ilə də parçalanır. Qida qablaşdırılması üçün əhəmiyyətli olan yüksək temperatur və rütubət şəraitində bu hadisə baş verir. PET-in daha yüksək parçalanma temperaturları onu müəyyən mənada termal baxımdan daha dayanıqlı edir, amma depolimerizasiya məhsulları (məsələn, tereftalik turşu və ya asetaldehid) qida dadına və təhlükəsizliyə təsir edə bilər. PET üçün yenidən emal kimyəvi və mexaniki təkrar emala uyğundur.

ƏDƏBIYYAT SIYAHISI:

1. Charitopoulou, M.-A., Koutroumpi, S., Achilias, D.S. (2025). Thermal Characterization and Recycling of Polymers from Plastic Packaging Waste. Polymers, 17, 1786, 2-3
2. Gałko, G., Sajdak, M. (2022). Trends for the Thermal Degradation of Polymeric Materials: Analysis of Available Techniques, Issues, and Opportunities. Appl. Sci., 12, 9138, 14-15
3. Majder-Łopatka, M., W˛esierski, T., Ankowski, A., Ratajczak, K., Duralski, D., Piechota-Polanczyk, A., Polanczyk, A. (2022). Thermal Analysis of Plastics Used in The Food Industry. Materials, 15, 248, 3-4
4. Peti, D., Dobránsky, J., Michalík, P. (2025). Recent Advances in Polymer Recycling: A Review of Chemical and Biological Processes for Sustainable Solutions. Polymers, 17, 603, 4-7
5. Səfərov H.E., Məişətdə istifadə edilən polimer qablaşdırıcı materialların istehlak mallarının keyfiyyətinə təsirinin tədqiqi, 2018, 6-7
6. Zhang, X., Yin, Z., Xiang, S., Yan, H., Tian, H. (2024). Degradation of Polymer Materials in the Environment and Its Impact on the Health of Experimental Animals: A Review. Polymers, 16, 2807, 4-5

DOİ: 10.32010/DRIU2665

$BaTiO_3$ NANOTELLƏRİNİN HİDROTERMAL SİNTEZİNİN OPTİMALLAŞDIRILMASI VƏ KOMPLEKS XARAKTERİZASİYASI

Səxavət Ədalət DADAŞOV
Qarabağ Universiteti
Orcid: https://orcid.org/0000-0002-1441-8454
E-mail: sexavet.dadashov@karabakh.edu.az

Xülasə: Bu tədqiqatın əsas problemi qurğuşunsuz, ultra uzun, piezoelektrik xassələrə və perovskite quruluşuna sahib $BaTiO_3$ nano tellərinin iki mərhələli hidrotermal sintez şəraitindəki parametrlərinin optimallaşdırılmasıdır. Bu istiqamətdə ilk olaraq, birinci hidrotermal mərhələdə $BaTiO_3$ nano tellərinin sintezlənməsi üçün $Na_2Ti_3O_7$ ara faza olaraq müəyyən edilmiş və sintezlənmişdir. Ara fazanın inkişaf etidirilməsi zamanı, bu fazanın istənilən $BaTiO_3$ nanotellərinə uyğun olaraq ultra uzun və nano tel quruluşunda olmasına diqqət yetirilmişdir. Bundan əlavə, birinci Hidrotermal mərhələdə $Na_2Ti_3O_7$ ara fazasının sintez prosesində effektiv olan sintez parametrlərinin optəmallaşdırılması həyata keçirilmişdir. Bunun məqsədlə, NaOH:TiO_2 molyar nisbətinin, sintez temperaturunun və məhlulun qarışdırılma sürətinin sintezlənən nano tozların morfologiyası və fazası üzərindəki təsirləri sistematik bir şəkildə araşdırılmışdır. Bu istiqamətdə, hədəflənən quruluşa və fazaya sahib $Na_2Ti_3O_7$ öncü nano tozlarının əldə edilməsi üçün sintez parametrlərinin optimum nöqtələri müəyyən edilmişdir. Bunun nəticəsində, NaOH:TiO_2 molyar nisbətini, sintez temperaturu və məhlulun qarışdırılma sürəti parametrləri üçün sıra ilə 48:1,190^oC və 85rpm müəyyən edilmişdir. Verilmiş sintez şəraitində və optimum sintez nöqtələri olaraq müəyyən edilmiş bu nöqtələrdə aparılan təcrübə nəticəsində istənilən $Na_2Ti_3O_7$ fazasında və istənilən nanotel qruluşuna sahib öncü ara faza uğurla əldə edilmişdir. Sintezlənmiş tozların xarakterizasiyasını həyata keçirmək üçün XRD, SEM kimi müxtəlif analiz metodlarından istifadə edilmiş və nəticələrin doğruluğu analitik olaraq doğrulanmışdır. İkinci hidrotermal mərhələdə isə, birinci mərhələdə optimallaşdırılmış sintez şəraitində uğurla əldə olunmuş öncü $Na_2Ti_3O_7$ ara fazası $BaTiO_3$ nanotellərinə çevrilmişdir. Birinci hidrotermal mərhələdə olduğu kimi, bu mərhələdə də, sintez şərtlərinin optimallaşdırılması istiqamətində təcrübi işlər həyata keçirilmişdir. Bənzər olaraq, sintez temperaturunun öncü $Na_2Ti_3O_7$ fazasının $BaTiO_3$ fazasına çevrilməsi üzərindəki təsirləri XRD analizi ilə müşahidə olunmuşdur. Son olaraq, XRD, SEM kimi analiz metodlarından və digər analiz metodlarından istifadə edərək öncü ara fazanın uğurlu bir şəkildə istənilən $BaTiO_3$ nanotellərində çevrildiyi təsdiqlənmişdir.
Açar sözlər: Mikroelektronika, Enerji, Toz Sintezi, Hidrotermal Sintez, Nanogenerator.

OPTIMIZATION AND COMPREHENSIVE CHARACTERIZATION OF HYDROTHERMALLY SYNTHESIZED $BaTiO_3$ NANOWIRES

Sakhavat AdalatDADASHOV
Karabakh University
Orcid: https://orcid.org/0000-0002-1441-8454
E-mail: sexavet.dadashov@karabakh.edu.az

Abstract: The main objective of this study is the optimization of synthesis parameters for lead-free, ultra-long $BaTiO_3$ nanowires possessing piezoelectric properties and a perovskite structure under a two-step hydrothermal synthesis process. In this direction, in the first hydrothermal stage, $Na_2Ti_3O_7$ was identified and synthesized as an intermediate phase for the formation of $BaTiO_3$ nanowires. During the development of this intermediate phase, special attention was paid to ensuring that it exhibited an ultra-long nanowire morphology suitable for the desired $BaTiO_3$ structure. Furthermore, in the first hydrothermal stage, the synthesis parameters effective in the formation of the $Na_2Ti_3O_7$ intermediate phase were optimized. For this purpose, the effects of the NaOH:TiO_2 molar ratio, synthesis temperature, and stirring rate of the solution on the morphology and phase composition of the synthesized nanopowders were systematically investigated. Consequently, the optimal synthesis parameters for obtaining $Na_2Ti_3O_7$ precursor nanopowders with the targeted structure and phase were determined as follows: NaOH:TiO_2 molar ratio of 48:1, synthesis temperature of 190 °C, and stirring rate of 85 rpm. Under these optimized conditions, the desired $Na_2Ti_3O_7$ phase with a nanowire morphology was successfully synthesized. The synthesized powders were characterized using XRD and SEM analyses, and the obtained results were analytically verified. In the second hydrothermal stage, the optimized $Na_2Ti_3O_7$ intermediate phase obtained in the first stage was converted into $BaTiO_3$ nanowires. Similar to the first stage, experimental studies were also conducted to optimize the synthesis conditions

in this step. The effect of synthesis temperature on the conversion of the $Na_2Ti_3O_7$ intermediate phase into the $BaTiO_3$ phase was examined by XRD analysis. Finally, XRD, SEM, and other characterization techniques confirmed that the intermediate phase was successfully transformed into the desired $BaTiO_3$ nanowires.
Keywords: Microelectronics, Energy, Powder Synthesis, Hydrothermal Synthesis, Nanogenerator

ОПТИМИЗАЦИЯ И КОМПЛЕКСНАЯ ХАРАКТЕРИСТИКА ГИДРОТЕРМАЛЬНОГО СИНТЕЗА НАНОПРОВОДОВ $BaTiO_3$

Сахават Эдалет ДАДАШОВ
Карабахский университет
Orcid: https://orcid.org/0000-0002-1441-8454
Электронная почта: sexavet.dadashov@karabakh.edu.az

Резюме: Основная цель данного исследования заключается в оптимизации параметров синтеза безсвинцовых, ультрадлинных нанонитей $BaTiO_3$, обладающих пьезоэлектрическими свойствами и перовскитной структурой, в условиях двухстадийного гидротермального синтеза. На первом этапе гидротермального процесса в качестве промежуточной фазы для синтеза нанонитей $BaTiO_3$ была определена и синтезирована фаза $Na_2Ti_3O_7$. При разработке этой промежуточной фазы особое внимание уделялось тому, чтобы она имела ультрадлинную нанонитевидную морфологию, соответствующую требуемой структуре $BaTiO_3$. Кроме того, на первом гидротермальном этапе была проведена оптимизация параметров синтеза, влияющих на образование промежуточной фазы $Na_2Ti_3O_7$. С этой целью систематически исследовалось влияние молярного соотношения $NaOH:TiO_2$, температуры синтеза и скорости перемешивания раствора на морфологию и фазовый состав синтезированных нанопорошков. В результате были определены оптимальные параметры синтеза для получения предшественников $Na_2Ti_3O_7$ с требуемой структурой и фазой: молярное соотношение $NaOH:TiO_2$ — 48:1, температура синтеза — 190 °C и скорость перемешивания — 85 об/мин. При указанных оптимальных условиях удалось успешно получить требуемую фазу $Na_2Ti_3O_7$ с нанонитевидной структурой. Синтезированные порошки были охарактеризованы с использованием методов XRD и SEM, а результаты были аналитически подтверждены. На втором гидротермальном этапе оптимизированная промежуточная фаза $Na_2Ti_3O_7$, полученная на первом этапе, была преобразована в нанонити $BaTiO_3$. Аналогично первому этапу, были проведены экспериментальные исследования для оптимизации условий синтеза. Влияние температуры синтеза на превращение промежуточной фазы $Na_2Ti_3O_7$ в фазу $BaTiO_3$ изучалось с помощью анализа XRD. В заключение, результаты XRD, SEM и других методов анализа подтвердили успешное превращение промежуточной фазы в требуемые нанонити $BaTiO_3$.
Ключевые слова: Микроэлектроника, Энергия, Синтез порошков, Гидротермальный синтез, Наногенератор

Giriş

Son illərdə ağıllı materialların tətbiqinə əsaslanan miniatür ölçülü mikrocihazların və aşağı enerji sərfiyyatlı deyilə bilən texnologiyaların biotexnologiya, xəstə səhhətinin monitorinqi, əşyaların interneti, dərman daşıma sistemləri, maşın öyrənməsi və sensor tətbiqləri kimi müasir texnoloji sahələrdə istifadəsinə maraq artmaqdadır [2;3;1]. Nəticə etibarilə, bu miniatür ölçülü texnologiyaların işinin təmin edilməsi üçün ağır, kimyəvi cəhətdən təhlükəli və ətraf mühit üçün əlverişli olmayan ənənəvi batareyalarla müqayisədə yeni mikro ölçülü və davamlı enerji mənbələrinə ehtiyac günü-gündən artmaqdadır. Bu nöqteyi nəzərdən, mexaniki hərəkətləri elektrik enerjisinə çevirə bilən piezoelektrik materiallar əsasında hazırlanmış nanogeneratorlar mikrocihazların enerji tələbatını ödəmək üçün ümidverici alternativ olaraq önə çıxmaqdadır [4;5;6]. Bu istiqamətdə Bai və həmkarları, Wang və tədqiqat qrupu, Xie və digərləri tərəfindən elmi araşdırmalar aparılmış və qurğuşun əsaslı piezoelektrik materiallardan istifadə etməklə müxtəlif mikrotətbiqlər üçün piezoelektrik nanogeneratorların hazırlanması haqqında nəticələr təqdim edilmişdir [7;9;8]. Lakin, qurğuşun əsaslı piezoelektrik maddələrin toksikliyi və Avropa İttifaqının Elektronik Avadanlıqlarda Zərərli Maddələrin İstifadəsinin Məhdudlaşdırılması (RoHS) qaydaları nəzərə alınarsa, son illərdə ətraf mühitin və ictimai sağlamlığın qorunması, həmçinin dayanıqlı gələcəyin təmin edilməsi məqsədilə qurğuşunsuz piezoelektrik keramika materiallarının inkişafı təşviq edilməkdədir. Bundan əlavə, $PbTiO_3$, $ZnSnO_3$ və maqnezium niobat–qurğuşun titanatı (PMN-PT) kimi digər elektroseramik materiallar da insan sağlamlığı

üçün təhlükə yaradan və dayanıqlı texnoloji inkişafı məhdudlaşdıran zərərli ağır metallar və toksik elementlər ehtiva edir. Buna görə də, dayanıqlı gələcək şüurunun artması ilə əlaqədar olaraq, tədqiqatçılar ekoloji cəhətdən təmiz və yüksək potensiala malik piezoelektrik materiallardan istifadə etməklə piezoelektrik nanogeneratorların (PENG-lərin) istehsal edilməsi istiqamətində aparılan aktiv tədqiqatların miqyası sürətlə artmaqdadır [10;11]. Bu istiqamətdə aparılan tədqiqatlar yüksək piezoelektriklik xassələrinə, biouyğunluğa və toksik olmayan element tərkibinə malik olan barium titanatın ($BaTiO_3$, (BTO), az enerji sərfiyyatına sahib mikroqurğular üçün enerji təmin edə bilən piezoelektrik nanogeneratorların (PENG-lərin) istehsalında yüksək potensiala sahib olduğunu ortaya qoymuşdur. Shi və həmkarları, Zhou və onun tədqiqat qrupu, Zhang və həmkarları, Ni və həmkarları, eləcə də Park və tədqiqat qrupu $BaTiO_3$ nanotellərindən piezoelektrik dolğu maddəsi kimi istifadə edərək polimer əsaslı piezoelektrik nanogeneratorlar hazırladıqlarını və öz-özünü enerji ilə təmin edən qurğuların inkişaf etdirilməsi üçün ümidverici nəticələr əldə etdiklərini bildirmişlər [15;11;14;12]. Digər bir tədqiqatda isə Wu və həmkarları (2018) $BaTiO_3$ nanoparçacıqlarının morfologiyasının onların piezoelektrik davranışına təsirini araşdırmışdır. Nəticədə müəyyən etmişlər ki, telvari morfologiyaya malik tozlar sferik formalı tozlarla müqayisədə daha yüksək piezoelektrik aktivlik nümayiş etdirir. Onlar bu yüksək piezoelektrik aktivliyi $BaTiO_3$ nanotellərinin polar ox boyunca daha böyük piezoelektrik potensiala, və telvari quruluşundan irəli gələn böyük səth sahəsinə malik olması ilə izah etmişdir. Digər tərəfdən, Tang və həmkarları göstərmişdir ki, ölçülərin nisbəti (boy/en nisbəti ratio) artdıqca $BaTiO_3$ tozlarının dielektrik sabiti və Herman Oriyentasiya Faktoru (HOF) də artır [18;19].

Nəzəriyyə


Nəticə etibarilə, müasir tədqiqatlar göstərmişdir ki, yüksək ölçülər nisbətinə, geniş səth sahəsinə və elastikliyə malik tək fazalı birölçülü (1D) $BaTiO_3$ nanotelləri elektronika, optoelektronika, enerji yığımı, enerji saxlama, sensor sistemləri və digər tətbiqlər üçün olduqca əlverişlidir. İstənilən quruluş–xüsusiyyət göstəricilərinə və son tətbiq sahələrinə uyğun olaraq aparılan tədqiqatlarda (1D) nanostrukturlu $BaTiO_3$ nanotellərinin hidrotermal sintez (HT) sol-gel prosesi, ərimiş duz üsulu və topokimyəvi metod kimi müxtəlif üsulları ilə əldə olunduğu bildirilmişdir [20;21;22;19]. Bu istehsal üsulları arasında ion mübadiləsi prosesinə əsaslanan iki mərhələli hidrotermal sintez metodu xüsusi əhəmiyyətə malikdir. Bunun əsas səbəbi sintez prosesinin ucuz olması, aşağı temperatur və aşağı təzyiq şəraitində sintezin mümkünlüyü, ekoloji cəhətdən təmiz olması və əmələ gələn nanotellərin morfologiyasına nəzarət etməyə imkan verməsidir [21;22]. Belə ki, ikimərhələli hidrotermal sintezin ilk mərhələsində ara faza əldə edilir. İkinci mərhələdə isə, bu ara faza ion mübadilə reaksiyası sayəsində $BaTiO_3$ fazasına çevrilir. Məhz bu səbəblə birölçülü (1D) $BaTiO_3$ nanotellərin ikimərhələli hidrotermal sintezinin uğurla həyata keçirilməsinin əsas amili birinci mərhələdə nanotel morfologiyasına sahib və eyni zamanda yüksək ion mübadilə qabiliyyətinə malik ilkin aralıq fazanın əldə edilməsidir. Çünki ion mübadiləsi nəticəsində alınan son $BaTiO_3$ (BT) tozlarının faza tərkibi və morfoloji parametrləri bu aralıq fazadan güclü şəkildə asılıdır [27;25;26]. Təəssüf ki, bu ara fazanın həm ion mübadiləsi reaksiyası zamanı $BaTiO_3$ nanotellərinə çevrilmə səmərəliliyinə, həm də yüksək xassələrə malik nanotel morfologiyasının əldə edilməsinə əhəmiyyətli təsirinə baxmayaraq, bu mövzu üzrə çox az sayda tədqiqat aparılmış və onların nəticələri tam əhatəli olmamışdır. Bu səbəbdən, tədqiqatçılar tərəfindən natrium titanatlar, kalium titanatlar, titanyum dioksid və s. kimi müxtəlif aralıq fazalar istifadə edilmişdir. Məsələn, Nie və həmkarları 2021-ci ildə apardıqları tədqiqatda $BaTiO_3$ nanotellərini ara faza olaraq kalium titanat ($K_2Ti_8O_{17}$) istifadə etməklə sintez etdiklərini bildirmişdilər. Lakin əldə edilən $BaTiO_3$ nanotellərinin X-şüaları Difraksiyası (XRD) faza analizində struktur safsızlıqların mövcudluğu müşahidə edilmişdir. Bundan əlavə, BaTiO nanotellərində müşahidə olunan aqreqasiya onların potensial tətbiq imkanlarını məhdudlaşdıran amil kimi dəyərləndirilə bilər. Digər bir tədqiqatda Cao və həmkarları $BaTiO_3$ nanotelləri əldə etmək üçün ara faza kimi $K_2Ti_4O_9$ fazasından istifadə etmişdir. Hesabatda təqdim olunan nəticələrə əsasən, əldə edilən $BaTiO_3$ nanotellərinin ölçü nisbətinin (boy/en) yüksək olmadığı müəyyən edilmişdir . Başqa bir tədqiqatda Zhou və həmkarları ilkin mərhələdə TiO_2 nanotellərini aralıq faza kimi sintez edərək onları $BaTiO_3$ nanotellərinə çevirmişdir. Lakin araşdırmaların nəticələrinin incələnməsindən aydın olur ki, əldə edilən bu aralıq fazaların ölçüləri nanometr səviyyəsində qalmışdır. Digər tərəfdən, $Na_2Ti_nO_{2n+1}$ stexiometriyasına malik natrium titanat strukturları öz quruluşu, kristal qəfəs parametrləri və ion mübadilə qabiliyyəti baxımından daha uyğun ara

faza potensiyalına sahibdir. Natrium titanat sinfindən $BaTiO_3$ nano tellərinin iki mərhələli hidrotermal sintezində ən çox istifadə olunan iki nümayəndəsi $Na_2Ti_3O_7$ və $Na_2Ti_6O_{13}$ olaraq ön plana çıxmaqdadır. Bu iki nümayəndənin kristalloqrafiq strukturu və digər parametrləri nəzərdən keçirildikdə, $Na_2Ti_3O_7$ stexiometriyasına malik fazanın $Na_2Ti_6O_{13}$ kimi daha çox istifadə edilən digər natrium titanat fazalarına nisbətən ion mübadiləsi baxımından daha yüksək potensialına malik olduğu aydın olur. Çünki $Na_2Ti_3O_7$ fazası bir-birinə bağlı açıq uclu tunelvari struktura malik olduğu halda $Na_2Ti_6O_{13}$ qapalı və məhdud tunel strukturuna sahibdir. Bu xüsusiyyət sintez zamanı ionların strukturu tərk etməsini və digər ionların onun struktura daxil olmasını, yəni ion mübadiləsini çətinləşdirir. Bu kontekstdə Paap və həmkarları tərəfindən aparılan tədqiqatda, $Na_2Ti_3O_7$ fazasında təbəqələr arasındakı məsafənin 8.3 Å olduğu, ancaq $Na_2Ti_6O_{13}$ fazasında isə bu dəyərin 7.4 Å təşkil etdiyi bildirilmişdir. Bu fərq $Na_2Ti_6O_{13}$ strukturunda kationların hərəkətliliyini azaldan və struktur daxilində qarşılıqlı ion mübadiləsini çətinləşdirən səbəb olaraq qiymətləndirilir. Bundan əlavə, həmin tədqiqatda müəyyən edilmişdir ki, $Na_2Ti_3O_7$ strukturunda Na^+ ionlarının 94%-i ion mübadiləsi daxil olduğu halda, $Na_2Ti_6O_{13}$ heksa-titanatlarında ion mübadiləsi reaksiyasından sonra ilkin Na^+ ionlarının 99%-i struktur daxilində (dəyişməz halda) qalmışdır. Buna görə də hidrotermal üsulla təkfazalı və morfologiyası idarə olunan $BaTiO_3$ nanotellərinin sintezi üçün optimallaşdırılmış təkfazalı ara fazanın formalaşmasının və onun $BaTiO_3$ nanotellərinə çevrilmə mexanizminin başa düşülməsi son dərəcə vacibdir. Belə bir elmi anlayışın əldə olunması sayəsində öz-özünü enerji ilə təmin edən mikroqurğular üçün piezoelektrik nanogeneratorların istehsalında $BaTiO_3$ nanotellərinin geniş şəkildə sintezini və tətbiqini mümkün edəcəkdir. Nəticə etibarilə, bu tədqiqatın əsas məqsədi çeşidli sintez parametrlərinin aralıq natrium titanat nanotellərinin morfologiyasına və fazasına təsiri arasındakı fundamental əlaqəni müəyyənləşdirmək və sintez şəraitinin optimallaşdırılması olaraq müəyyən edilmişdir. Əldə edilən bu elmi biliklər, vahid morfologiyaya malik tək fazalı $BaTiO_3$ nanotellərinin etibarlı sintezini təmin etmək üçün istifadə olunacaqdır.


Eksperimental hissə

Materiallar və Tozun Sintezi

- su hövzələrinin, torpağın, xam neftin, ağır və yüngül yanacaq növlərinin, bitki, heyvan və mineral yağların, üzvi həlledicilərin təmizlənməsi üçün.

Nəticə olaraq demək olar ki, 5-7 q/q udma qabiliyyəti olan poliuretan köpük və işlənmiş polistirol köpük məhsulları əsasında neft dağılmalarını toplamaq üçün sorbent hazırlanmışdır. Nominal diametri 2-3 mm olan qırıntılar şəklində 10 küt. % -li polistirol köpük doldurulması ilə hazırlanmış sorbent daha təsirli olmuşdur. Sorbent strukturunda qapalı məsaməli polistirol köpüyünün olması səbəbindən sorbent yüksək üzmə qabiliyyətinə və ~15 dəqiqə yüksək sorbsiya sürətinə malik olmuşdur.

Nəticələr

1. Ədəbiyyatların analitik icmalı və eksperimental dəlillərə əsasən kapilyar mexanizmlə udulan, elastik xassələrə malik və mexaniki regenerasiya üçün yararlı olan çoxdövrəli neft sorbentlərinin yeni növünün müəyyən edilməsi təklif olunmuşdur. Bu tip neft sorbentlərinin öyrənilməsi üçün çoxdövrlü əməliyyat zamanı, məsələn, neft tutumlarının dəyişdirilməsi və uduculardа su və yağın qalıq tərkibi kimi əməliyyat xassələrini qiymətləndirməyə və müqayisə etməyə imkan verən yeni üsul təklif edilmişdir.

2. Göstərilir ki, sorbsiya ilə təmizlənmə zamanı neft məhsullarının əsas hissəsi kapilyar udma mexanizmi ilə damcı və emulsiyalaşmış formada sorulur və adsorbsiya mexanizmi ilə neft məhsullarının yalnız cüzi bir hissəsi udulur.

3. Tədqiq olunan neft sorbentlərinin çoxdövrəli rejimdə işlək xassələrinin işlənib hazırlanmış metodologiya ilə aparılmış müqayisəsi göstərmişdir ki, absorberlərin sabit iş rejiminə çatması üçün üç-beş regenerasiya dövrü kifayətdir; birdəfəlik istifadə rejimində suda neft məhsullarının plyonka tökülmələrini toplamaq üçün yeni sorbentdən istifadə edərkən daha böyük fraksiyaların istifadəsinə üstünlük verilir; "Unipolimer-M"-in regenerasiya dövrlərinin sayının artması ilə sorbentdə qalıq suyun həcmi artır və nefti udmaq qabiliyyəti azalır və sorbent hidrofil olur; birinci dövrdə genişlənmiş qrafit digər nümunələrlə müqayisədə ən böyük neft həcmini udmaq qabiliyyətinə malikdir və yalnız bir dəfə istifadə ilə maksimum səmərəli udulma effekti verir.

4. Texnogen köpük polistirol tullantılarına əsaslanan neft sorbentləri çoxdövrəli əməliyyat zamanı daha stabil göstəricilərə malikdir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Якубовский С.Ф. Особенности микроструктуры отходов сухой окорки сосны как сырья для получения нефтяных сорбентов/ С.Ф. Якубовский, Н.В, Ощепкова Ю.А. Булавка, С.С. Писарева, Л.А, Попкова// Вестник Полоцкого государственного университета. – 2011. - №11 – с.154-158.

2. Павленко В.И. Фундаментальные научные исследования в интересах локализации и ликвидации разливов нефти в Арктике // Вестник Совета безопасности Российской Федерации. 2011. № 5 (17). С. 154–161.


3. Организация локализации разлива нефтепродуктов / Ю.Ф. Кайзер [и др.] // Актуальные проблемы внедрения энергоэффективных технологий в строительство и инженерные системы городского хозяйства: материалы II Междунар. науч.-практ. конф. 2015. С. 61–63.

4. Техника и технологии локализации и ликвидации аварийных разливов нефти и нефтепродуктов: справ. / И.А. Мерициди [и др.]; под ред. И.А. Мерициди. СПб.: НПО «Профессионал», 2008. С. 824.

5. Захматов В.Д., Пророк В.Я., Клеймѐнов А.В. Анализ разработок специализированных пожарных машин для защиты объектов нефтегазового комплекса (часть 1) // Проблемы управления рисками в техносфере. 2017. № 4 (44). С. 17–25.

6. Анализ существующих и обоснование применения новой автоматической системы пожаровзрывозащиты судов, кораблей, нефтедобывающих платформ / В.Д. Захматов [и

др.] // Пожаровзрывобезопасность. 2018. n. 27. № 9. С. 50–63. DOI: 18322 / PVB.2018.27.05.
7. Технология импульсной ликвидации разливов нефти на море, океане // Успехи современного естествознания. 2015. № 10. С. 92–99.
8. Киреева, Н.А. Биологическая очистка нефтезагрязнённого водоёма / Н.А. Киреева, Т.С. Онегова // Вода и экология: проблемы и решения. 2004. - № 2. — С. 67-69.
9. Ахметова, Я.Ю. Испытание нефтесорбентов для ликвидации аварийных разливов нефти / Я.Ю. Ахметова, М.Х. Мурзагалиев // Тез. 5-го Всероссийского конкурса научно-образовательных проектов «Энергия будущего-2007». Уфа, 2007. - 78 с.
10.Ахметова, Я.Ю. Испытание нефтесорбентов для ликвидации аварийных разливов нефти / Я.Ю. Ахметова, М.Х. Мурзагалиев // Тез. 5-го Всероссийского конкурса научно-образовательных проектов «Энергия будущего-2007». Уфа, 2007. - 78 с.
11.Артемов, А.В. Современные технологии очистки нефтяных загрязнений / А.В. Артемов // Нефть. Газ. Промышленность. 2004. - №2. - С. 340.
12.Гальблауб О. А. Очистка водных сред от нефтепродуктов модифицированным отходом переработки ячменя: дисс. к. т. н. казан. гос. технол. ун-т / О. А. Гальблауб. – Казань. – 2013. – 125 с.
13.Чикина Н. С. Снижение экологической нагрузки от разливов нефти и нефтепродуктов с помощью сорбента на основе пенополиуретана и отходов зерновых культур / Н. С. Чикина, А. В. Мухамедшин, А. В. Анкудинова, Л. А. Зенитова, А. С. Сироткин, А. В. Гарабаджиу // Вестник Казанского технологического университета. – 2009. – № 6. – С. 184-192.
14.Иванова М. А. Ликвидация нефтяных загрязнений / М. А. Иванова, Н. С. Чикина, Л. А. Зенитова // Бутлеровские сообщения. – 2012. – Т. 29. – № 3. – С. 1-12.
15.Воробьев Ю.Л. Предупреждение и ликвидация аварийных разливов нефти и нефтепродуктов/ Ю.Л. Воробьев, В.А. Акимов, Ю.И. Соколов.– М.:Ин-октаво, 2005.-368 с.
16.Вылкован А.И., Венцюлис Л.С, Зайцев В.М., Филатов В.Д. Современные методы и средства борьбы с разливами нефти: Научно-практическое пособие. - СПб.: ЦентрТехинформ, 2000.- 155 с.
17.Сакович, Н.Е.: Методы и средства ликвидации последствий разливов нефти и нефтепродуктов: МОНОГРАФИЯ/, Н.Е. Сакович. – Брянск. Издательство Брянской ГСХА, 2012. – 198 с.
18.Шведчиков Г.В. Новая технология борьбы с нефтяными загрязнениями на основе гидрофобных и олеофильных сорбентов// Общество. Среда. Развитие. – 2010. – С.225-228.



MÜHƏNDİSLİK
VƏ
İKT

DOI: 10.32010/MVDU3169

ELEKTRİK MÜHƏRRİKLƏRİNDƏ QEYRİ-BƏRABƏR MAQNETİK DARTISININ DAİRƏVİ ZAMAN İNTERVALI QRAFİKİ VASİTƏSİLƏ İDENTİFİKASİYASI

Xəyal Rauf ABBASLI
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
"Elektromexanika" kafedrası, doktorant,
E-mail: abbaslixeyal@gmail.com

Xülasə: Qeyri-bərabər maqnit dartısı (QBMD) fırlanan elektrik maşınlarının etibarlılığına, enerji səmərəliliyinə və uzunmüddətli istismar dayanıqlığına əhəmiyyətli dərəcədə təsir göstərən mürəkkəb elektromaqnit hadisədir. Bu hadisə, əsasən, rotorun mexaniki mərkəzi ilə maqnit oxunun üst-üstə düşməməsi nəticəsində yaranır və hava boşluğunun qeyri-bərabər paylanması ilə müşahidə olunur. Bu məqalədə sənaye şəraitində quraşdırılmış böyük gücə malik üç fazalı induksiya mühərrikinin yüksüz işləmə sınağı zamanı qeydə alınmış QBMD-nin müşahidəsi və analizi təqdim olunur. Sınaq prosesində qeyri-adi vibrasiya göstəriciləri, maqnit sahəsinin qeyri-simmetrik paylanması və elektrik parametrlərindəki (cərəyan və gərginlik) qiymətləri vasitəsilə dartı hadisəsi müəyyən edilmişdir. Analiz nəticəsində QBMD-nin əsas səbəbləri kimi rotorun stator mərkəzinə nəzərən ekssentrik yerləşməsi, həmçinin hava boşluğunun mexaniki deformasiyalar və montaj xətalarından irəli gələn qeyri-bərabər paylanması müəyyən edilmişdir. Bu amillərin mühərrikin istismar dövründə yastıqlara əlavə mexaniki yüklər yaratdığı, vibrasiyanı artırdığı və enerji itkilərinə səbəb olduğu müəyyənləşdirilmişdir. Tədqiqat nəticələri göstərir ki, belə halların vaxtında aşkarlanması və aradan qaldırılması mühərriklərin uzunömürlülüyünün və təhlükəsiz işləməsinin təmin edilməsində mühüm rol oynayır. Məqalə həmçinin QBMD-nin diaqnostikası, monitorinqi və azaldılması üçün vibrasiya və elektromaqnit analizinə əsaslanan təcrübə yönümlü metodoloji yanaşmalar təklif edir.
Açar sözlər: Qeyri-Bərabər Maqnit Dartısı, ekssentriklik, vibrasiya, FMADA (Fırlanan Maşınların Avtomatik Diaqnostika Avadanlığı-ADRE), Orta Kvadratik Kök dəyəri (OKK)

IDENTIFICATION OF UNEQUAL MAGNETIC PULL IN ELECTRIC MOTORS BY CIRCULAR TIME INTERVAL GRAPH

Khayal Rauf ABBASLI
Azerbaijan State Oil and Industry University
Department of "Electromechanics", PhD student,
E-mail: abbaslixeyal@gmail.com

Abstract: Uneven magnetic pull (UMP) is a complex electromagnetic phenomenon that significantly affects the reliability, energy efficiency, and long-term operational stability of rotating electrical machines. This phenomenon is primarily caused by the misalignment of the rotor's mechanical centre with the magnetic axis and is characterised by an uneven distribution of the air gap. This paper presents the observation and analysis of the Magnetic Bearing Misalignment (MBMD) recorded during the no-load running test of a large-power, three-phase induction motor installed under industrial conditions. During the test, the pulling phenomenon was identified through abnormal vibration indicators, an asymmetrical distribution of the magnetic field, and the values of the electrical parameters (current and voltage). The analysis revealed that the main causes of the FCM are the eccentric position of the rotor relative to the stator centre, as well as the uneven distribution of the air gap, which is a result of mechanical deformations and assembly errors. It was determined that these factors create additional mechanical loads on the bearings, increase vibration, and cause energy losses during the motor's operational period. The research results indicate that the timely detection and elimination of such cases plays a crucial role in ensuring the long service life and safe operation of engines. The article also presents a practical approach based on vibration and electromagnetic analysis for the diagnostics, monitoring, and mitigation of QBMD.
Keywords: Uneven Magnetic Pull, eccentricity, vibration, FMADA (Failing Machines Automatic Diagnostic Apparatus), Root Mean Square (RMS)

ИДЕНТИФИКАЦИЯ НЕРАВНЫХ МАГНИТНЫХ МОМЕНТОВ В ЭЛЕКТРОДВИГАТЕЛЯХ С ПОМОЩЬЮ ГРАФИКА КРУГОВОГО ВРЕМЕННОГО ИНТЕРВАЛА

Хаял Рауф АББАСЛИ
Азербайджанский государственный нефтегазовый университет
кафедра «Электромеханика»
Электронная почта: abbaslixeyal@gmail.com

Резюме: Неравномерное магнитное притяжение (UMP) — это сложное электромагнитное явление, которое существенно влияет на надежность, энергоэффективность и долгосрочную эксплуатационную стабильность вращающихся электрических машин. Это явление в основном вызвано несовпадением механического центра ротора с магнитной осью и характеризуется неравномерным распределением воздушного зазора. В данной статье представлены наблюдения и анализ несоосности магнитного подшипника (MBMD), зарегистрированной во время испытания без нагрузки трехфазного асинхронного двигателя большой мощности, установленного в промышленных условиях. Во время испытания явление тяги было выявлено по аномальным показателям вибрации, асимметричному распределению магнитного поля и значениям электрических параметров (тока и напряжения). Анализ показал, что основными причинами FEM являются эксцентричное положение ротора относительно центра статора, а также неравномерное распределение воздушного зазора, которое является результатом механических деформаций и ошибок сборки. Было установлено, что эти факторы создают дополнительные механические нагрузки на подшипники, усиливают вибрацию и приводят к потерям энергии в период эксплуатации двигателя. Результаты исследования показывают, что своевременное выявление и устранение таких случаев играет решающую роль в обеспечении длительного срока службы и безопасной эксплуатации двигателей. В статье также представлен практический подход, основанный на вибрационном и электромагнитном анализе, для диагностики, мониторинга и смягчения последствий QBMD.
Ключевые слова: неравномерное магнитное притяжение, эксцентриситет, вибрация, FMADA (автоматический диагностический прибор для летательных аппаратов — ADRE), среднеквадратичное значение (RMS)

Giriş

İndiki dövrdə asinxron mühərriklərə tələbat çox yüksəkdir, buna səbəb onların mexaniki intiqal kimi istifadəsinin asanlğı səmərəliliyi, qoşulma üsullarının asanlığını göstərmək olar. Amma eyni zamanda bu mühərriklərlə bağlı bəzi problemlər mövcuddur. Bu problemlərə, texnoloji proses səbəbindən dəyişən tezlik çeviricili idarəedicilərin mühərrikə göstərdiyi stresləri misal göstərmək olar [3].Yeni asinxron mühərriklərdə həmçinin zamanla mexaniki avadanlığın sərtliyinin dəyişilməsindən irəli gələn bəzi problemlər də mövcuddur, bunlara misal olaraq qeyri-bərabər maqnit dartısını misal göstərmək olar [4]. QBMD anlaşılması çətin olan nasazlıqlardan biridir.

QBMD necə təyin etmək üçün ilk olaraq elektrik mühərrikin iş prinsipinə baxaq. Elektrik mühərriklərinin rotoru ilə stator dolaqları arasında müəyyən hava boşluğu mövcuddur. Yağ yastığlı böyük güclü eletrik mühərriklərində, mühərrikin rotoru sönlü vəziyyətdə statorun alt hissəsindəki dolağa daha yaxın vəziyyətdə yerləşmiş şəkildə olur [13]. Stator dolağı üçfazlı cərəyan mənbəyinə qoşulduqda hava boşluğunda fırlanan maqnit sahəsi yaranır. Sahə statordan, statorla rotor arasındakı hava aralığında və rotordan qapanır yəni maqnit seli statordan rotora axır. Sahənin fırlanma tezliyi (sürəti) stator dolağının cüt qütblər sayı ilə təyin olunur:

$$n_1 = \frac{60 f_1}{p},$$

Fırlanan sahə rotor dolağını kəsərək burada EHQ induksiyalanır və dolaqdan cərəyan axır. Rotor cərəyanı ilə fırlanan sahənin qarşılıqlı təsiri nəticəsində rotor naqillərinə qüvvə təsir edir və elktromaqnit moment yaranır. Bu elektromaqnit momentin təsiri altında rotor fırlanmağa başlayır, tam sürətə çatdığında statorun elektromaqnit sahəsində öz dayanıqlı pozisiyasını almağa çalışır.

QBMD asinxron maşınlarda yaranan radial elektromaqnit qüvvədir. Bu qüvvə rotorun stator hava aralığında ideal şəkildə mərkəzləşdirilməməsindən əmələ gəlir. Sağlam mühərriklərdə rotor və stator hava aralığı yekcins-bərabər olur, bu səbəbdən maqnit sahəsi (və ya maqnit cazibəsi) bərabər paylanır. Amma əgər rotor statorun həndəsi mərkəzindən kənara meyl edirsə (yastıqlarda olan problemlər olarsa, rotorun mexaniki problemləri, rotorun əyilməsi və s. səbəbindən), rotorla stator arasındakı hava boşluğu bir hissədə kiçik, digər hissələrdə isə daha böyük olacaqdır. Bu hadisə maqnit selinin sıxılığının hava aralığı kiçik olan sahələrdə daha çox olmasına gətirib çıxaracaq, bu da öz növbəsində lateral elektromaqnetik qüvvə - QBMD əmələ gətirəcəkdir. QBMD ən kiçik hava aralığı olan tərəfə hərəkət edir, əgər rotor müəyyən

problemlər səbəbindən statorun həndəsi mərkəzindən kənara meyl edirsə bu qeyri-bərabər dartı onu daha çox mərkəzdən kənara itələyəcəkdir. Bu hadisə sistemə neqativ sərtlik gətirir ki, nəticədə rotor ekssentrikliyi kompensasiya etmək əvəzinə qüvvətlənir. Bu qüvvəyə belə bir ifadə verə bilərik:


$$F_{qt} = k\frac{\partial}{g_0}$$

∂-hava boşluğundakı ekssentriklik;

g_0-nominal hava boşlığu;

k-mütənasiblik sabiti maşının dizaynından asılıdır.

Şəkil 1-də qeyri-bərabər maqnit dartısının rotor üzərindəki qüvvələri dekart 2-li koordinat sistemində göstərilmişdir. Burada yastıqdakı qüvvələr və ağırlıq qüvəsi qeyri-bərabər maqnit dartısını stabilləşdirməyə çalışır. Maqnit sahəsi isə dartını gücləndirir.



Şəkil 1. Dekart 2-li koordinat sistemində qeyri-bərabər maqnit dartısının rotor üzərindəki qüvvələri.

Elektrik Mühərriklərində QBMD-nin müəyyən olunması

Yuxarıda qeyd etdiyimiz kimi QBMD rotoun ekssentrikliyini artıran bir qüvvədir, rotorun ekssentrikliyi artdığı üçün bu qüvvə mühərrikin yastıqlarına ötürülür və valın yastıq daxili yerdəyişməsini artırır, bu vibrasiya həmçinin stator gövdəsinə də ötürülür. Ona görə də bu problemi müəyyən etmək üçün, elektrik və mexaniki parametrləri ölçə bilərik. QBMD-nin müəyyən olunmasında müxtəlif teoretik üsullar mövcuddur. Maksvell Gərginlik tensoru üsulunu; Dolaq Funksiyası yanaşması, 2D və 3D sonlu element metodunu və s. bunlara misal gətirə bilərik [4-11]. Biz problemin tapılması üçün empirik metodu - vibrasiyaya nəzarət cihazı və dairəvi zaman intervalı qrafikini nəzərdən keçirəcəyik.

Baxılacaq mühərrikin gücü 4 MW, fırlanma sürəti isə 3000 RPM dir. Mühərrikdə nasazlığı müəyyən etmək üçün istifadə olunmuş vibrasiyaya nəzarət cihazları; fırlanan maşınların avtomatik diaqnostika avadanlığı (FMADA 408) və ona qoşulu olan 330500 tipli pyezoelektrik vibrasiyanın sürətini ölçən vericilərdir. Bundan başqa test zamanı, rotorun yastıqdaxili val vibrasiyasına nəzarət üçün yaxınlıq (proximity) vericilərindən də istifadə olunmuşdur. Ümumilikdə 8 vericidən istifadə edilmiş, bunlardan 4-ü yaxınlıq vericiləri və 4 vibrasiyanın sürətini olçən vericilərdir.


Bu vibrasiya sürəti vericiləri, MTR NDE (mühərrik fırlanmayan son), MTR DE (mühərrik fırlanan son-yükə qoşulan hissə), mühərrik mərkəz və MTR X-oxu ölçüsü kimi aşağıdakı şəkil 2-də göstərilmişdir.

MTR NDE vericisi yuxarıdan baxdığımızda yastıq korpusunun üzərində 45 dərəcə sol, MTR DE yastıq korpusunun üzərində 45 dərəcə sağ kimi maqnit əsası vasitəsilə quraşdırılıb. Mühərrik Mərkəz vericisi rotorun mərkəz finlərinə maqnit ilə bərkidilib. Rotorun, statorun elektromaqnit sahəsinin mərkəzində dayanıqlı yerini müəyyən etmək üçün MTD DE (fırlanan son) yastlğın korpusuna X-oxu istiqamətində verici bərkidilmişdir [7-10]. Bundan əlavə məlumatların mühərrikin sürəti ilə sinxron toplanması üçün vala sürət ölçən yaxınlıq(proximity) vericiləri də bərkidilmişdir.Vericilərin mühərrik üzərində yerləşməsini aşağıda göstərilmiş sxematik diaqramda görə bilərik.

Ölçülər alınmamışdan öncə rotor mexaniki yükdən açılmış, yuxarıda göstərilən vericilər mühərrikin üzərində quraşdırılmışdır. Mühərrik işə DOL (birbaşa işə salma metodu) ilə qoşulmuşdur [15,16]. Mühərrikin vibrasiyasına aşağıdakı rejimlərdə baxılmışdır: işə düşmə, tam sürət və söndürülmə (sürətin azalması). Elektromaqnit sahəsinin rotordakı effektini müəyyən etmək üçün, sürət azaldılmadan öncə, elektrik enerjisinin stator dolaqlarına verilməsi test məqsədi ilə ani olaraq kəsilmişdir. Elektrik enerjisi rotor tam dayanana qədər bir daha verilməmişdir.

Vericilərdən toplanmış vibrasiya ölçüləri FMADA SXP proqram təminatı vasitəsilə vizualizə

edilmiş və baxılmışdır. Məlumatların analizi üçün FMADA SXP proqram təminatındaki qrafiklərdən istifadə olunmuşdur. Bu qrafiklərə misal olaraq zaman intervalı (timebase) qrafikini və dairəvi (wrapped timebase) zaman intervalı qrafikini göstərmək olar [5].



Şəkil 2. Vibrasiyaya nəzarət vericilərinin ölçmə nöqtələri.

Bütün vericilər mühərrik üzərində bərkidildikdən sonra onların siqnal kabelləri məlumatların toplanması və gələcək qrafik təsviri üçün FMADA 408 avadanlığına birləşdirilmişdir [11-14].




Şəkil 3. FMADA 408 (ADRE)

Zaman intervalı qrafiki vibrasiyanın amplitudunun zamana görə dəyişməsini göstərir, başqa dildə desək - zaman intervalı qrafiki siqnalın ani amplitudasının zaman funksiyası kimi təqdimatıdır. Ani rəqəmsal qiymətlər birləşdirildikdə, bərpa olunan dalğa forması siqnalın zaman oblastında klassik osiloskop görüntüsünə uyğun gəlir. Zaman intervalı qrafikləri FMADA Sxp və System 1* kimi proqram təminatlarında vibrasiya məlumatlarını göstərmək üçün çox geniş istifadə olunur. Sxp proqramında "dairəvi zaman intervalı" qrafiki dalğa forması məlumatlarını x-y qrafiki əvəzinə dairəvi formatda göstərir. İzlənilən rotorda hər bir fırlanma tam bir dairə ilə təsvir olunur. Vibrasiya siqnalının tam miqyaslı diapazonu daxili və xarici dairələr arasındakı məsafə ilə qrafik şəklində ifadə edilir. Akselerometr siqnalı "+" (sensor istiqamətində) və "–" (sensor istiqamətindən uzaq) olaraq, "0" dəyərini göstərən kəsikli dairə ətrafında əks olunur [3].


İndi isə toplanmış məlumatların dairəvi zaman intervalı qrafiki ilə vizualizasiyasına baxaq.

İşə düşmə: İlkin olaraq işə düşmə anında vibrasiya sürət vericilərinin siqnallarının güclü şəkildə təhrif olduğunu görə bilərik. Burada qırmızı dairə şəklində göstərilmiş qrafik, gözlənilən dairəvi zaman intervalı qrafikidir. Ümümi olaraq ölçülən nöqtələrdə vibrasiya amplitudunun və fazasının zamana görə dəyişməsində yüksək qiymətlər MTR DE nöqtəsində 4 mm/s OKK (Orta Kvadratik Kök dəyəri-RMS) və Mühərrik mərkəz nöqtəsinin 5 mm/s OKK civarında dəyişir. Cərəyan və gərginliyin (şəkil 4.) qiymətlərinin fazalara görə bərabər olduğunu görə bilərik bu da statorda dolaqlarla bağlı bir problemin olmadığını söyləməyə əsas verir.




Şəkil 4. İşə düşmə zamanı fazalara görə gərginlik çəhrayı rəngdə və cərayan mavi rəngdə

Şəkil 5-də vibrasiyanın amplitudunun və fazasının zamana görə dəyişməsi, Şəkil 6-da isə elektrik mühərrikin işə düşməsi anında dairəvi zaman intervalı qrafiki göstərilmişdir.




Şəkil 5. Vibrasiyanın amplitudunun və fazasının zamana görə dəyişməsi




Şəkil 6: Elektrik mühərrikinin işə düşməsi anında dairəvi zaman intervalı qrafiki

Tam sürətdə çalışma:

Şəkil 7-də tam sürətdə çalışma zamanı fazalara görə gərginlik çəhrayı rəngdə və cərayan-mavi rəngdə göstərilmişdir. Mühərrik tam sürətdə çalışan zaman vibrasiya sürəti ölçən vericilərin siqnalları işə düşmə anına nisbətdə daha az təhrif olunmuş şəkildə görə bilərik. Burada dairəvi zaman intervalı qrafiki, dairəvidən daha çox ellipsvari şəklində özünü göstərir. Vericilərdən alınan siqnalların amplitudunun və fazasının zamana görə dəyişməsi qrafikində periodik dəyişən amplituda və faza qiymətləri müşahidə olunur (şəkil 8).




Şəkil 7: Tam sürətdə çalışma zamanı fazalara görə gərginlik çəhrayı rəngdə və cərayan - mavi rəngdə.




Şəkil 8. Tam sürətdə çalışma zamanı vibrasiyanın amplitudunun və fazasının zamana görə dəyişməsi

Şəkil 9-da elektrik mühərrikinin tam sürətdə çalışması zamanı dairəvi zaman intervalı qrafiki göstərilmişdir. Elektrik enerjisinin kəsilməsi, sürət azalması: elektrik enerjisi kəsildikdə statorun fırlanan sahəsi dayanır və rotordan EHQ induksiyalanmır və maqnit sahəsi zəifləməyə doğru gedir. Bu rejim zamanı, əvvəlki rejimlərdən fərqli olaraq rotorun fırlanması zamanı qeyri-bərabər maqnit dartısı azalır. Mühərrik sürətinin 100 dovr/san azalması zamanı şəkil 10- da ölçülən, vibrasiya göstəricilərinin şəkil 8 göstəricilərinə nisbətən 4 dəfə azaldığını müşahidə edə bilərik.




Şəkil 9. Elektrik mühərrikinin tam sürətdə çalışması zamanı dairəvi zaman intervalı qrafiki



Şəkil 10. Sürətin azılması zamanı vibrasiyanın amplitudunun və fazasının zamana görə dəyişməsi

Şəkil 11-də isə elektrik mühərrikinin elektrik enerjisinin kəsilməsi anı dairəvi zaman intervalı qrafiki göstərilmişdir.



Şəkil 11. Dairəvi zaman intervalı qrafiki elektrik mühərrikinin elektrik enerjisinin kəsilməsi anında

Nəticə

Mühərrikin vibrasiyanın sürəti ölçülərindən alınmış dairəvi zaman intervalı qrafiki onu deməyə əsas verir ki, baxılan mühərrik çalışan zaman qeyri-bərabər maqnit dartısına məruz qalır. Dairəvi zaman intervalı qrafikindən daha çox siqnal təhrifi; işə düşmə və tam sürətdə çalışma zamanı Mühərrik DE-də (fırlanan son-yükə qoşulan hissə) görünür. Bu müşahidə onu deməyə əsas verir ki, mühərrikin fırlanan son yastığında mühərrikin korpusuna nəzərən mexaniki boşluq və ya yastığın korpus daxili düzgün mərkəzləşdirilməməsi ola bilər. Aparılan mexaniki araşdırmalar bu problemin hər ikisinin mövcudluğunu sonrakı etaplarda təsdiqləmişdir.

Məqalədə ilk dəfə olaraq dairəvi zaman intervalı qrafiki vasitəsilə qeyri-bərabər maqnit dartısının müəyyən olunması göstərilmişdir. Eksperimental metod öz doğruluğunu empirik testlər zamanı sübuta yetirmişdir.

ƏDƏBIYYAT SIYAHISI:

1. Пириева Н.М., Аббасли Х.Р. Диагностика асинхронных двигателей: методы и применение Международный научный журнал «ВЕСТНИК НАУКИ» № 8 (89) Том 2. АВГУСТ 2025 г. Стр. 434 - 439// DOI 10.24412/2712-8849-2025-889-434-439

2. Piriyeva N.M., Abbaslı X.R. Asinxron mühərrikin “yumşaq” işəburaxılmaqla işləmə xüsusiyyətlərinin təhlili. AMEA Fizika İnistutu, Energetikanın problemləri, Bakı, 2025, 3, 6 səh.

3. Stephen J. Chapman. Electric Machinery Fundamentals. 2005, 380-387.

4. Unbalanced Magnetic Pull effects on rotordynamics of a High-Speed Induction Generator Supported by Active Magnetic Bearings – Analysis and experimental Verification Heesoo Kim et al.

5. Visualising anomalies, wrapped timebase plot. Orbit Magazine, April 7, 2014.

6. Zhang, A.; Bai, Y.; Yang, B.; Li, H. Analysis of Nonlinear Vibration in Permanent Magnet Synchronous Motors under Unbalanced Magnetic Pull. Appl. Sci. 2018, 8, 113. [CrossRef].

7. Liangyuan Huang et al.Coupled Electromagnetic-Dynamic Modelling and Bearing Fault Characteristics of Induction Motors considering Unbalanced Magnetic Pull

8. Hawwooi Chuan, Jonathan K.H. Shek. Calculation of unbalanced magnetic pull in induction machines through the empirical method. IET Electr. Power Appl., 2018, Vol. 12 Iss. 9, pp. 1233-1239

9. Dorrell, D., Smith, A. Calculation and measurement of unbalanced magnetic pull in cage induction motors with eccentric rotors. Part 2: Experimental investigation. IEE Proc.-Electr. Power Appl. 1996, 143, 202–210.

1. 10. Pennacchi, P., Frosini, L. Dynamical Behaviour of a Three-phase Generator due to Unbalanced Magnetic Pull. IEE Proc. Electr. Power Appl. 2005, 152, 1389–1400. [Google Scholar] [CrossRef]

11. Zhu, Z.Q., Ishak, D., Howe, D., Chen, J. Unbalanced Magnetic Forces in Permanent-Magnet Brushless Machines with Diametrically Asymmetric Phase Windings. IEEE Trans. Ind. Appl. 2007, 43, 1544–1553. [Google Scholar] [CrossRef]

12. Covo, C. Unbalanced Magnetic Pull in Induction Motors with Eccentric Rotors. Trans. Am. Inst. Electr. Eng. 1954, 73, 1421–1425. [Google Scholar] [CrossRef]

13. Xu, X.; Han, Q.; Chu, F. A Four Degrees-Of-Freedom Model for a Misaligned Electrical Rotor. J. Sound Vib. 2015, 358, 356–374. [Google Scholar] [CrossRef]

14. Robert C. Eisenmann, SR., P.E. , Robert C. Eisenmann, Jr. Machinery Malfunction Diagnosis and Correction.

15. Charles T. Hatch, Donald E. Bently Fundamentals of Rotating Machinery Diagnostics.

16.Н.М.Пириева. Асинхронный электродвигатель с эффективной системой охлаждения. Проблем Энергетика №4, Баку, 2020, 34-

DOİ: 10.32010/JYWZ1014

NƏQLİYYAT SİSTEMLƏRİNDƏ TERMOMEXANİK GƏRGİNLİYİ AZALTMAQ ÜÇÜN SÜNİ İNTELLEKTƏ ƏSASLANAN PROQNOSTİK TEXNİKİ XİDMƏTİN TƏTBİQİ

Gündüz ABBASOV[1]
Əmir MUSTAFAYEV[2]
[1]Naxçıvan Dövlət Universiteti
E-mail: gunduzabbasov@outlook.com
[2]Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
E-mail: mustafaev-1959@mail.ru

Xülasə: Müasir nəqliyyat sistemləri əhəmiyyətli termomexaniki yüklərin təsiri altında qalaraq qaçılmaz şəkildə sürətlənmiş aşınma, etibarlılığın azalması və istismar xərclərinin artması ilə üzləşir. Bu isə ənənəvi texniki xidmət metodlarının yenidən nəzərdən keçirilməsini zəruri edir**.** Bu araşdırmada süni intellekt əsaslı proqnostik texniki xidmətə (Predictive Maintenance, PdM) xüsusi diqqət yetirilir. Bu yanaşma komponentlərin aşınmasını və zədələnməsini kritik vəziyyətə çatmadan əvvəl proqnozlaşdırmağa imkan verir. Maşın öyrənməsi, neyron şəbəkələri, böyük məlumatların analizi və rəqəmsal proqramlardan istifadə etməklə istismar rejimlərinin optimallaşdırılması, termomexaniki yüklərin azaldılması və nəqliyyat sistemlərinin vəziyyətinin sensorlar, IoT cihazları və bulud hesablama texnologiyaları vasitəsilə operativ monitorinqi mümkün olur. Tədqiqatın nəticələri göstərir ki, süni intellektin tətbiqi qəza riskini azaldır, avadanlığın istismar müddətini uzadır, təmir xərclərini minimuma endirir və iqtisadi, ekoloji göstəriciləri yaxşılaşdırır. Gələcək inkişaf perspektivləri arasında rəqəmsal prototiplər inteqrasiya, alqoritmlərin avtomatik yenilənməsi və proqnozlaşdırmanın dəqiqliyini artırmaq üçün kvant hesablamalarının tətbiqi yer alır.
Açar sözlər: nəqliyyat sistemləri, termomexaniki yük, süni intellekt, neyron şəbəkələr, proqnostik texniki xidmət.

APPLICATION OF ARTIFICIAL INTELLIGENCE-BASED PROGNOSTIC MAINTENANCE TO REDUCE THERMOMECHANICAL STRESS IN TRANSPORT SYSTEMS

Gunduz ABBASOV[1]
Amir MUSTAFAYEV[2]
[1]Nakhchivan State University
E-mail: gunduzabbasov@outlook.com
[2]Azerbaijan State Oil and Industry University
E-mail: mustafaev-1959@mail.ru

Abstract: Modern transport systems, being exposed to significant thermomechanical loads, inevitably face accelerated wear, reduced reliability and increased operating costs, which requires a revision of traditional maintenance methods. This paper pays special attention to predictive maintenance (PdM) based on artificial intelligence, which allows predicting wear and damage to components before reaching critical conditions. The use of machine learning, neural networks, big data analysis and digital twins makes it possible to optimize operating modes, reduce thermomechanical loads and promptly monitor the state of transport systems using sensors, IoT devices and cloud computing. The results of the study show that the introduction of AI helps to reduce accidents, extend the service life of equipment, reduce repair costs and improve economic and environmental performance. Promising areas include integration with digital twins, automatic updating of algorithms and the use of quantum computing to improve forecasting accuracy.
Keywords: transportation systems, thermomechanical load, artificial intelligence, neural networks, predictive maintenance.

ПРИМЕНЕНИЕ ПРОГНОСТИЧЕСКОГО ТЕХНИЧЕСКОГО ОБСЛУЖИВАНИЯ НА ОСНОВЕ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА ДЛЯ СНИЖЕНИЯ ТЕРМОМЕХАНИЧЕСКИХ НАПРЯЖЕНИЙ В ТРАНСПОРТНЫХ СИСТЕМАХ

Гюндюз АББАСОВ[1]
Амир МУСТАФАЕВ[2]
[1]Нахчыванский государственный университет
E-mail: gunduzabbasov@outlook.com
[2]Азербайджанский государственный университет нефти и промышленности
Электронная почта: mustafaev-1959@mail.ru

Резюме: Современные транспортные системы, находясь под воздействием значительных термомеханических нагрузок, неизбежно сталкиваются с ускоренным износом, снижением надежности и ростом эксплуатационных затрат, что требует пересмотра традиционных методов обслуживания. В данной работе особое внимание уделяется предиктивному обслуживанию (Predictive Maintenance, PdM) на основе искусственного интеллекта, которое позволяет прогнозировать износ и повреждения компонентов до достижения критических состояний. Применение машинного обучения, нейронных сетей, анализа больших данных и цифровых двойников обеспечивает возможность оптимизации режимов эксплуатации, снижения термомеханической нагрузки и оперативного мониторинга состояния транспортных систем с помощью датчиков, IoT-устройств и облачных вычислений. Результаты исследования показывают, что внедрение ИИ способствует снижению аварийности, продлению срока службы оборудования, сокращению затрат на ремонт и улучшению экономических и экологических показателей. Перспективными направлениями являются интеграция с цифровыми двойниками, автоматическое обновление алгоритмов и применение квантовых вычислений для повышения точности прогнозирования.

Ключевые слова: транспортные системы, термомеханическая нагрузка, искусственный интеллект, нейронные сети, прогнозирующее техническое обслуживание.

Giriş

Müasir nəqliyyat sistemləri istismar prosesində meydana çıxan intensiv termomexaniki yüklərlə bağlı ciddi çətinliklərlə üzləşir. Yüksək temperatur, mexaniki gərginliklər, vibrasiyalar və dinamik yüklər komponentlərin sürətlə aşınmasına səbəb olur ki, bu da nasazlıq ehtimalını artırır və texniki xidmət xərclərinin əhəmiyyətli dərəcədə artmasına gətirib çıxarır.

Ənənəvi texniki xidmət metodları – əvvəlcədən müəyyən edilmiş cədvəl əsasında həyata keçirilən reglamentli yanaşma və ya avadanlıq sıradan çıxdıqdan sonra yerinə yetirilən reaktiv yanaşma – əksər hallarda yetərincə effektiv olmur, çünki texnikanın faktiki vəziyyətini real vaxt rejimində nəzərə almır. Nəticədə nəqliyyat şirkətləri gözlənilməz nasazlıqlar, yüksək təmir xərcləri və texnikanın uzunmüddətli fəaliyyətsizliyi ilə qarşılaşır ki, bu da ümumi etibarlılığa və istismarın iqtisadi səmərəliliyinə mənfi təsir göstərir.

Bu kontekstdə ən perspektivli həll yollarından biri süni intellekt və maşın öyrənməsi metodlarından istifadə edən proqnostik texniki xidmətin (Predictive Maintenance, PdM) tətbiqidir. Bu yanaşma sensorlar və IoT qurğularından toplanan məlumatların təhlili əsasında mümkün nasazlıqları və qüsurları əvvəlcədən proqnozlaşdırmağa imkan verir. Bunun sayəsində istismar rejimlərinin optimallaşdırılması ilə nəqliyyat sistemlərinin komponentlərinə düşən termomexaniki yük, əhəmiyyətli dərəcədə azalır. Beləliklə, süni intellekt əsaslı proqnostik texniki xidmət nəqliyyat sistemlərinin etibarlılığını artırmaqla yanaşı, istismar xərclərini azaltmağa, avadanlığın xidmət müddətini uzatmağa və təhlükəsizlik səviyyəsini yüksəltməyə imkan yaradır. [20]

Bu tədqiqatın məqsədi nəqliyyat sistemlərində termomexaniki yükün azaldılması üçün süni intellekt əsaslı proqnostik texniki xidmət metodlarının hazırlanması və təhlilidir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- Termomexaniki yüklərin təhlili və onların avadanlıq etibarlılığına təsirinin araşdırılması;
- Mövcud proqnostik texniki xidmət yanaşmalarının üstünlükləri və çatışmazlıqlarının müəyyən edilməsi;
- Nəqliyyat komponentlərində nasazlıqları proqnozlaşdırmaq üçün maşın öyrənməsi alqoritmlərinin işlənib hazırlanması;
- Təklif olunan modellərin effektivliyinin real məlumatlar əsasında qiymətləndirilməsi;
- Proqnostik texniki xidmətin müxtəlif nəqliyyat növlərində tətbiq perspektivlərinin nəzərdən keçirilməsi. [13, c. 2-14]

Tədqiqat metodologiyası süni intellekt və məlumatların analizinə aid müasir yanaşmalara əsaslanır. Buraya maşın öyrənməsi, neyron şəbəkələr, zaman sıralarının analizi, IoT sensorlarından toplanan məlumatların emalı, nəqliyyat komponentlərinin

davranışını modelləşdirmək və proqnostik modelləri sınaqdan keçirmək üçün rəqəmsal prototiplərin tətbiqi daxildir. Xüsusilə, məlumatların filtrasiya edilməsi, normallaşdırılması, səs-küyün aradan qaldırılması və natamam məlumatlarla işləmə kimi ilkin emal üsullarına xüsusi diqqət yetirilir ki, bu da proqnozların yüksək dəqiqliyini və operativliyini təmin edir.

Tədqiqatın nəticələri proqnostik texniki xidmətin effektivliyini əhəmiyyətli dərəcədə artırmağa və termomexaniki yüklərin mənfi təsirini azaltmağa imkan verəcək. Bu isə daha etibarlı, təhlükəsiz və iqtisadi cəhətdən səmərəli nəqliyyat sistemlərinin yaradılmasına töhfə verəcək.

Nəzəriyyə

Nəqliyyat sistemlərində neyroşəbəkə modellərindən istifadə etməklə gərginliklərin proqnozlaşdırılması müasir mühəndislik təcrübəsinin ən perspektivli və aktual məsələlərindən biridir. Bu yanaşma avadanlığın etibarlılığını əhəmiyyətli dərəcədə artırmağa, konstruksiyaların dağılma riskini minimuma endirməyə və texniki xidməti optimallaşdırmağa imkan verir.

İlk növbədə qeyd etmək lazımdır ki, bu modellərin tətbiqi statik və dinamik yüklər, temperatur təsirləri, aşınma və korroziya prosesləri, eləcə də konstruksiya elementlərində daxili gərginliklərin yaranmasına səbəb olan rezonans hadisələri kimi fiziki-mexaniki proseslərin dərindən anlaşılmasına əsaslanır. Ənənəvi metodlar, məsələn, sonlu elementlər üsulu və analitik modellər, yüksək dəqiqliyi ilə seçilsə də, onların mürəkkəb hesablamalar tələb etməsi və qeyri-xətti asılılıqlara kifayət qədər uyğunlaşa bilməməsi tətbiq imkanlarını məhdudlaşdırır. Bu isə, şübhəsiz ki, süni intellektə əsaslanan daha çevik və hesablama baxımından səmərəli yanaşmaların işlənib hazırlanmasını zəruri edir.

Bundan əlavə, dərin öyrənmə, konvolyusiya neyron şəbəkələri (CNN), uzunmüddətli yaddaşa malik rekurrent neyron şəbəkələri (LSTM-RNN) və qraf neyron şəbəkələri (GNN) kimi müasir süni intellekt metodları bu sahədə böyük potensiala malikdir. Çünki onlar böyük həcmli məlumatları emal etmək, gizli qanunauyğunluqları aşkar etmək və dəyişən istismar şəraitinə tez uyğunlaşmaq qabiliyyətinə malikdir. Belə modellərin öyrədilməsi müxtəlif sensorlardan, rəqəmsal prototiplərdən və eksperimental laboratoriya sınaqlarından əldə edilən məlumatlar əsasında həyata keçirilir. Bu isə filtrasiya, normallaşdırma, artırma (data augmentation) və ölçü azaldılması kimi ilkin emal metodlarından istifadə etməklə yüksək dəqiqlik və sürətli proqnozlaşdırmanı təmin etməyə imkan verir. [3, c. 3-12]

Cədvəl 1. Ənənəvi metodları və neyroşəbəkə modelləri ilə gərginlik proqnozlaşdırılmasının müqayisəsi

Kriteriya	**Ənənəvi metodlar**	**Neyroşəbəkə modelləri**
Dəqiqlik	Deterministik şərtlərdə yüksək dəqiqlik təmin edir, lakin qeyri-xətti asılılıqlar olduqda effektivliyi azalır.	Gizli qanunauyğunluqları aşkar edə bilir və qeyri-xətti asılılıqlarla işləyə bilir, yüksək dəqiqlik təmin edir.
Hesablama mürəkkəbliyi	Xüsusilə mürəkkəb konstruksiyaların modelləşdirilməsində böyük hesablama resursları tələb edir.	Öyrənmə mərhələsində yüksək hesablama xərcləri tələb edir, lakin öyrədildikdən sonra proqnozların hesablanma sürəti xeyli yüksəkdir.
Adaptivlik	Dəyişən istismar şərtlərinə və mürəkkəb qeyri-xətti proseslərə uyğunlaşmaqda məhduddur.	Dinamik istismar şərtlərinə çevik uyğunlaşa bilir və böyük həcmli məlumatları emal edə bilir.
Emal sürəti	Yüksək hesablama yükünə görə real vaxt rejimində istifadəsi çətindir.	Öyrənmə mərhələsindən sonra real vaxt rejimində proqnozlaşdırma imkanı yaradır.
Şərh edilə bilmək	Fiziki-mexaniki model baxımından daha şəffafdır, lakin elastikliyi azdır.	Çox vaxt "qara qutu" kimi qəbul edilir, nəticələrin izahı çətin keçir, lakin yüksək çevikliyə malikdir.

İstinad: müəllif

Metod

Tədqiqatda xüsusi diqqət süni intellekt əsaslı proqnostik texniki xidmətin (Predictive Maintenance, PdM) tətbiqinə yönəldilmişdir. Bu yanaşma mümkün nasazlıqları kritik vəziyyətə çatmadan əvvəl proqnozlaşdırmağa imkan verir, bununla da termomexaniki yüklənməni azaldır və qəza riskini minimuma endirir.

Belə həllərin dəmir yolu, avtomobil, aviasiya və dəniz nəqliyyatı kimi müxtəlif nəqliyyat növlərində tətbiqi texnikanın fasiləsiz fəaliyyətini təmin etməklə yanaşı, planlaşdırılmamış təmir xərclərini azaldır, avadanlığın xidmət müddətini uzadır və ümumi istismar təhlükəsizliyini artırır.

Xüsusilə, neyroşəbəkə modelləri təkər cütləri və rels yollarında gərginliklərin təhlilini aparmağa, CNN vasitəsilə mikroçatları aşkar etməyə, LSTM modellərindən istifadə edərək qaynaq birləşmələrində yaranan dağılmaları proqnozlaşdır-

mağa, həmçinin IoT sensorları və rəqəmsal prototiplərdən əldə edilən məlumatlar əsasında istismar rejimlərini optimallaşdırmağa imkan verir.[22]

Cədvəl 2. Süni intellekt əsaslı proqnostik texniki xidmətin nəqliyyat sistemlərində tətbiqinin əsas üstünlükləri və perspektivləri

Aspekt	Təsvir
İstismar xərclərinin azaldılması	Proqnostik texniki xidmət potensial nasazlıqları vaxtında aşkar etməklə və istismar rejimlərini optimallaşdırmaqla təmir və texniki xidmət xərclərini azaldır.
Etibarlılığın və təhlükəsizliyin artırılması	Süni intellekt vasitəsilə gərginliklərin proqnozlaşdırılması konstruksiyaların dağılma riskini azaldır, qəza hallarının qarşısını alır və nəqliyyat sistemlərinin ümumi təhlükəsizliyini artırır.
Avadanlığın xidmət müddətinin uzadılması	Defektlərin erkən aşkar edilməsi və istismar rejimlərinin optimallaşdırılması sayəsində avadanlığın istismar müddəti uzanır, bu da bahalı təmir ehtiyacını azaldır və nəqliyyat infrastrukturunun dayanıqlığını artırır.
Rəqəmsal prototiplər və IoT ilə inteqrasiya	Sensorların, IoT qurğularının və rəqəmsal prototiplərin istifadəsi avadanlığın vəziyyətinə real vaxt rejimində nəzarət etməyə imkan verir ki, bu da istismar parametrlərinin operativ tənzimlənməsini və proqnozların dəqiqliyinin artırılmasını təmin edir.
Texnologiyaların inkişaf perspektivləri	Gələcəkdə proqnostik texniki xidmət modellərinin avtomatik yenilənməsi, analiz sürətinin artırılması üçün kvant hesablamalarının tətbiqi və fiziki-mexaniki hesablamalarla maşın öyrənməsini birləşdirən hibrid modellərin işlənib hazırlanması gözlənilir.

İstinad: müəllif

Beləliklə, dərin öyrənmə və maşın öyrənməsi alqoritmlərinə əsaslanan proqnostik modellərin inteqrasiyası nəqliyyat sistemlərinin real vaxt rejimində monitorinqi və idarə edilməsi üçün yeni perspektivlər açır.

Gələcək inkişaf istiqamətləri arasında daxil olan yeni məlumatlar əsasında alqoritmlərin avtomatik yenilənməsi, hesablamaların sürətləndirilməsi üçün kvant hesablamalarının tətbiqi, eləcə də fiziki-mexaniki hesablamaları süni intellektlə birləşdirən hibrid modellərin hazırlanması yer alır. Şübhəsiz ki, bu yanaşmalar nəqliyyat sistemlərinin istismar səmərəliliyinin artırılmasına, istismar xərclərinin azaldılmasına, təhlükəsizlik və ekoloji dayanıqlılığın yüksəldilməsinə töhfə verəcək. Xüsusilə, daim artan yüklənmə şəraitində nəqliyyat infrastrukturunun effektivliyini qorumaq üçün bu həllər mühüm rol oynayacaq. [15]

Müasir nəqliyyat sistemləri, növündən asılı olmayaraq, ciddi termomexaniki yüklərlə qarşılaşır ki, bu da avadanlığın xidmət müddətini əhəmiyyətli dərəcədə azaldır və istismar xərclərini artırır. Bu baxımdan süni intellekt əsaslı proqnostik texniki xidmət xüsusi əhəmiyyət kəsb edir, çünki bu yanaşma təkcə mümkün nasazlıqları proqnozlaşdırmağa deyil, həm də əsas komponentlərə düşən yükü azaltmağa imkan verir. Bu metod məlumatların intellektual analizi sistemlərinin, maşın öyrənməsinin və rəqəmsal prototipləri tətbiqi vasitəsilə həyata keçirilir ki, bu da aşınma və nasazlıqların yüksək dəqiqliklə proqnozlaşdırılmasını təmin edir. Proqnostik texniki xidmətin müxtəlif nəqliyyat növlərində praktiki tətbiqi avadanlığın uzunömürlülüyünü təmin etməkdə və ümumi istismar təhlükəsizliyini artırmaqda yüksək effektivliyə malik olduğunu göstərir.

İlk növbədə, proqnostik texnologiyaların dəmir yolu nəqliyyatına tətbiqi relslərin və təkər cütlərinin vəziyyətinin monitorinqi ilə bağlı problemlərin həllinə imkan verir. Dəmir yolu magistralları hər gün böyük mexaniki və temperatur yüklərinə məruz qalır ki, bu da infrastruktur elementlərinin tədricən aşınmasına səbəb olur. Vibrasiya sensorları və ultrasəs skanerlərinin istifadəsi mikroçatların və deformasiyaların vaxtında aşkar edilməsinə kömək edir və bununla da qəza riskinin qarşısını almağa imkan verir. Bundan əlavə, neyroşəbəkə modelləri yüklənmə ilə bağlı toplanmış məlumatları təhlil edərək vaxtından əvvəl aşınma ehtimalını proqnozlaşdırmağa və optimal istismar rejimlərini təyin etməyə imkan yaradır.

Digər vacib məqam aşınma nəticəsində yaranan zədələnmələrin müəyyən edilməsidir. Bu, maşın öyrənməsi vasitəsilə fiziki xarakteristikaların dəyişməsindəki qanunauyğunluqları aşkar etməklə həyata keçirilir. Bu prosesdə rəqəmsal prototiplər mühüm rol oynayır, çünki onlar real yüklənmə şəraitində elementlərin davranışını modelləşdirir və zədələnmələri minimuma endirmək üçün istismar parametrlərinin optimallaşdırılmasına imkan verir. [26]

Cədvəl 3. Süni intellekt əsaslı proqnostik texniki xidmətin üstünlükləri

Üstünlüklər	Təsvir
İstismar xərclərinin azaldılması	Proqnostik texniki xidmət istismar rejimlərini optimallaşdırmağa, planlaşdırılmamış təmir ehtiyacını minimuma endirməyə və texniki xidmət xərclərini azaltmağa imkan verir.
Avadanlığın etibarlılığının artırılması	Aşınma və defektlərin erkən diaqnostikası mümkün nasazlıqların qarşısını alır və nəqliyyat sistemlərinin komponentlərinin xidmət müddətini uzadır.
Texniki xidmətin optimallaşdırılması	Təmir işləri sabit cədvələ əsasən deyil, avadanlığın faktiki vəziyyətinə uyğun planlaşdırılır ki, bu da texniki xidmətin effektivliyini artırır.
İstismar təhlükəsizliyinin yaxşılaşdırılması	Potensial nasazlıqların vaxtında aşkar edilməsi qəza riskini azaldır və nəqliyyat sistemlərinin ümumi təhlükəsizlik səviyyəsini artırır.
Ekoloji üstünlüklər	Planlaşdırılmamış təmir ehtiyacının azalması və avadanlığın xidmət müddətinin uzadılması emissiyaların azalmasına və təmir zamanı material istehlakının minimuma endirilməsinə kömək edir.

İstinad: müəllif

Oxşar texnologiyalar avtomobil nəqliyyatında da geniş tətbiq olunur, burada yüksək temperatur və mexaniki yüklər əsas komponentlərin aşınma prosesini sürətləndirir. Xüsusilə, mühərrik və transmissiyanın vəziyyətinin diaqnostikası IoT sensorları vasitəsilə həyata keçirilir. Bu sensorlar temperatur dəyişikliklərini, yağ təzyiqini və vibrasiya xarakteristikalarını qeydə alır. Əldə edilən məlumatlar dərin neyroşəbəkələr (LSTM, CNN) tərəfindən təhlil edilir ki, bu da mümkün nasazlıqları yüksək dəqiqliklə proqnozlaşdırmağa və qəfil sıradan çıxma ehtimalını azaltmağa imkan verir.

Əhəmiyyətli istiqamətlərdən biri də təkərlərin və əyləc sistemlərinin aşınmasının proqnozlaşdırılmasıdır. Bu, əyləcləmə dinamikası, yük bölgüsü və əyləc disklərinin temperatur rejimi haqqında məlumatların kompleks analizi vasitəsilə həyata keçirilir. İntellektual idarəetmə sistemlərinə inteqrasiya olunmuş proqnostik alqoritmlər əyləc gücünü tənzimləməyə imkan verir ki, bu da aşınmanı azaldır və təhlükəsizlik səviyyəsini artırır.

Aviasiya sənayesi təhlükəsizlik baxımından ən kritik sahələrdən biri olduğu üçün avadanlığın vəziyyətinə xüsusi nəzarət tələb edir. Bu baxımdan, proqnostik texniki xidmət hava gəmisinin mühərriklərinin və digər komponentlərinin etibarlılığını təmin etməkdə mühüm rol oynayır. Əsas vəzifələrdən biri aviamühərriklərdə aşınma nəticəsində yaranan zədələnmələrin qiymətləndirilməsidir. Bu, akustik və temperatur məlumatlarının analizi əsasında həyata keçirilir və çatların, deformasiya proseslərinin erkən mərhələdə aşkar edilməsinə imkan yaradır.[19]

Cədvəl 4. Proqnostik texniki xidmətin müxtəlif nəqliyyat növlərində tətbiqi

Nəqliyyat sahəsi	Əsas tətbiq sahələri	İstifadə olunan texnologiyalar
Dəmir yolu nəqliyyatı	Relslərin və təkər cütlərinin vəziyyətinin monitorinqi; mikroçatların və deformasiyaların aşkar edilməsi; aşınma nəticəsində yaranan zədələnmələrin proqnozlaşdırılması.	Vibrasiya sensorları və ultrasəs skanerləri; neyroşəbəkə modelləri (GNN, CNN, LSTM); yüklənmələrin modelləşdirilməsi üçün rəqəmsal prototiplər
Avtomobil nəqliyyatı	Mühərrik və transmissiyanın vəziyyətinin diaqnostikası; təkərlərin və əyləc sistemlərinin aşınmasının proqnozlaşdırılması; yük bölgüsünün optimallaşdırılması.	Temperatur, təzyiq və vibrasiya monitorinqi üçün IoT sensorları; RNN, LSTM və CNN vasitəsilə məlumatların analizi; fiziki-matematik hesablamalarla süni intellekti birləşdirən hibrid modellər.
Aviasiya nəqliyyatı	Təyyarə gövdəsində aşınma nəticəsində yaranan çatların proqnozlaşdırılması; aviamühərriklərdə yük səviyyəsinin qiymətləndirilməsi; temperatur və mexaniki parametrlərə nəzarət.	Zaman sıralarının təhlili üçün LSTM modelləri; diaqnostik görüntülərin işlənməsi üçün CNN; aviamühərriklərin rəqəmsal prototipləri; fiziki-matematik modellərlə maşın öyrənməsini birləşdirən hibrid İİ-modellər.
Dəniz və çay nəqliyyatı	Gəmi gövdəsinin korroziya və mexaniki yüklənməyə nəzarəti; mühərriklərin iş rejiminin optimallaşdırılması; vibrasiya və korroziyanın monitorinqi.	Temperatur, rütubət və vibrasiya ölçən sensorlar; gəmi gövdəsinin görüntülərinin analizi üçün CNN; dalğa, cərəyan və temperatur dəyişikliklərinin təsirini nəzərə alan hibrid modellər; gəminin vəziyyətini modelləşdirmək üçün rəqəmsal prototiplər

İstinad: müəllif

Proqnostik modellər qalxma-enmə dövrlərini və turbin qanadlarına düşən dinamik yükləri nəzərə alaraq mühərriklərin iş rejimlərini əvvəlcədən optimallaşdırmağa və bununla da kritik nasazlıqların ehtimalını azaltmağa imkan verir. Bundan əlavə, temperatur və mexaniki yüklərə nəzarət aviamühərriklərin rəqəmsal prototiplərindən istifadə etməklə həyata

keçirilir. Bu texnologiya istilik və mexaniki prosesləri modelləşdirərək həddindən artıq qızmanın və vaxtından əvvəl aşınmanın qarşısını alır.

Xüsusi əhəmiyyət daşıyan digər bir aspekt isə fiziki-riyazi hesablamalarla maşın öyrənməsi metodlarını birləşdirən hibrid süni intellekt modellərinin tətbiqidir. Bu yanaşma yüksək dəqiqlikli proqnozlaşdırmanı təmin etməklə yanaşı, aviasiya avadanlığının istismar etibarlılığını əhəmiyyətli dərəcədə artırmağa imkan verir.

Proqnostik texniki xidmətin tətbiqi dəniz və çay nəqliyyatında da mühüm istiqamətlərdən biridir. Bu sahədə gəmi sistemləri güclü temperatur dəyişikliklərinə, vibrasiyalara və korroziya proseslərinə məruz qalır. Bu kontekstdə mühərriklərin iş parametrlərinin, o cümlədən temperaturun, təzyiqin və yanacaq sərfiyyatının təhlili əsasında onların iş rejimlərinin optimallaşdırılması xüsusi əhəmiyyət daşıyır. Neyroşəbəkə modelləri əsasında əldə edilən məlumatlara əsasən istismar rejimlərinin tənzimlənməsi mühərrik detallarının xidmət müddətini uzatmağa və qəza riskini minimuma endirməyə imkan verir.

Digər vacib aspekt gəmi gövdəsində vibrasiya və korroziyanın monitorinqidir. Bu proses mühərriklərin və val ötürücülərinin işindəki dəyişiklikləri qeydə alan sensorlar vasitəsilə həyata keçirilir. Bundan əlavə, CNN alqoritmlərinə əsaslanan kompüter görmə texnologiyaları gəmi gövdəsinin görüntülərini təhlil edərək korroziya əlamətlərini vaxtında aşkar etməyə imkan verir ki, bu da ciddi konstruktiv nasazlıqların qarşısının alınmasına kömək edir.

Proqnostik texniki xidmətin tətbiqi nəqliyyat sistemlərində termomexaniki yüklənməni əhəmiyyətli dərəcədə azaldaraq onların daha səmərəli işləməsini təmin edir. Xüsusilə, intellektual məlumat analizi sayəsində istismar rejimlərini optimallaşdırmaq və nəqliyyat vasitələrinin iş parametrlərini real vaxt rejimində tənzimləmək mümkün olur. Bu yanaşma aşınmanın ilkin əlamətləri aşkar edildikdə əsas komponentlərə düşən yükü azaltmağa, mühərriklərdə temperatur və təzyiqi tənzimləməyə, eləcə də sürət rejimlərini və hərəkət trayektoriyalarını optimallaşdıraraq yüklərin bərabər paylanmasını təmin etməyə imkan verir. [23]

Uzunmüddətli perspektivdə bu tədbirlər nəqliyyat sistemlərinin istismar resurslarını artırır, çünki mikro-zədələnmələri vaxtında aşkar etməklə onların kritik vəziyyətə çatmasının qarşısını alır. Bundan əlavə, resurslardan optimal istifadə və lazımsız yüklənmələrin azaldılması sayəsində həddindən artıq qızmanın qarşısını almaq və ümumi enerji səmərəliliyini yüksəltmək mümkün olur. Texniki xidmətin effektiv planlaşdırılması da qəfil nasazlıq ehtimalını azaldaraq, gözlənilməz sıradan çıxma hallarının sayını minimuma endirir, təmir xərclərini azaldır və ümumi istismar təhlükəsizliyini artırır. [24]

Cədvəl 5. Proqnostik texniki xidmətin inkişaf istiqamətləri və tətbiq perspektivləri

İnkişaf istiqaməti	**Təsviri və perspektivləri**
The rate-controlling mechanism during vacuum refining depends on both pressure and gas type. At moderate vacuum levels (1–10 kPa), nitrogen removal is mainly governed by surface reactions at the gas–metal interface, where chemical activation dominates. However, when the vacuum deepens below 1 kPa (≈10^{-3}–10^{-4} MPa), the process becomes controlled by liquid-phase diffusion, particularly for hydrogen, as the partial pressure gradient inside the melt limits the overall rate. This means that hydrogen removal is typically diffusion-controlled, while nitrogen removal is surface-reaction-controlled under similar thermodynamic conditions.

Sensitivity Analysis. To further evaluate the robustness of the proposed model, a sensitivity analysis was performed to study the influence of temperature and pressure fluctuations on the overall energy efficiency. The results revealed that a ±50 °C variation in temperature changes the degassing rate by approximately 6%, while a ±20% deviation in vacuum pressure results in nearly 10% variation in energy demand. These observations confirm that the process is more sensitive to pressure changes than to moderate temperature deviations.

Moreover, parametric analysis indicated that optimal energy savings are achieved when vacuum level and temperature are jointly optimized. The combined adjustment of these parameters, rather than individual tuning, enhances both degassing kinetics and thermodynamic stability. Therefore, future control systems should adopt multi-variable optimization algorithms to maintain energy efficiency even under fluctuating process conditions. Furthermore, the analysis suggests that moderate superheating combined with enhanced hydrodynamic flow gives the most stable results. Increasing temperature beyond 1650 °C does not significantly improve degassing efficiency but may increase total energy consumption by 10–15%. Therefore, the simultaneous regulation of both thermodynamic and kinetic factors enables achieving optimal performance with minimal thermal input.

Industrial Case Application. To demonstrate the practical applicability of the proposed optimization model, a pilot-scale case based on industrial parameters at Baku Steel Company was considered. The plant typically operates a 120-ton ladle furnace for low-carbon steel production. The model simulation assumed a baseline vacuum level of 1.0 kPa and an optimized level of 0.1 kPa. Results indicated that by lowering the vacuum pressure and maintaining a stable temperature at 1600 °C, hydrogen removal increased from 82% to 94%, while nitrogen removal improved by approximately 11%.

The validation data were obtained from operational measurements at Baku Steel Company's 120-ton ladle furnace. Hydrogen and nitrogen concentrations were analyzed using a LECO TCH-600 gas analyzer at the beginning and end of each refining cycle. Temperature was monitored with calibrated thermocouples (±5 °C), and vacuum levels were recorded by the plant's digital pressure sensors. Electrical energy input was measured through the ladle furnace power meter for each heat. Annual energy savings and cost reductions were estimated using an average electricity tariff of 0.08 USD/kWh and a production rate of approximately 950 heats per year.

Table 2 summarizes the main process parameters and corresponding measurement sources. These data confirm that the proposed thermodynamic–kinetic optimization model is consistent with industrial observations and provides reliable energy-saving predictions.

Table 2. Industrial-scale data used for model validation

Parameter	Symbol / Unit	Baseline (1 kPa)	Optimized (0.1 kPa)	Measurement / Source
Vacuum level	Pv (kPa)	1	0.1	Plant pressure sensors
Temperature	T (°C)	1600	1600	Thermocouple (±5 °C)
Hydrogen removal	ηH_2 (%)	82	94	LECO TCH-600 gas analyzer
Nitrogen removal	ηN_2 (%)	73	84	LECO TCH-600 gas analyzer
Electrical energy	E (MWh/heat)	3.8	3.3	Power meter data
Annual heats	—	950	—	Plant log (2024)
Annual energy saving	ΔE (GWh/yr)	—	≈ 0.5	Calculated
Electricity tariff	—	—	0.08 USD/kWh	Market average
Cost saving	—	—	≈ 38 000 USD/yr	Derived from tariff

In terms of energy performance, the total electric power input required for ladle reheating decreased by approximately 14%, corresponding to an annual energy saving of about 0.5 GWh for the plant. Considering an average electricity cost of 0.08 USD/kWh, this translates to nearly 38,000 USD in annual operational savings. These results confirm that the proposed thermodynamic–kinetic optimization model is not only theoretically consistent but also economically viable for industrial-scale applications in vacuum metallurgy.

A comparative analysis between the model predictions and industrial measurements was performed to validate the proposed thermodynamic–kinetic optimization framework. The close agreement between simulated and measured data verifies that the optimization results are not only theoretical but experimentally validated under real industrial conditions. As shown in Figure 3, the model closely matches the practical data obtained from Baku Steel Company. The hydrogen and nitrogen removal efficiencies predicted by the model differ by less than 2% from the observed industrial results, confirming its high predictive accuracy. Similarly, the estimated 17% energy saving corresponds well with the 14% reduction measured in plant operations, further demonstrating the model's applicability to real production conditions.




Figure 3. Comparison between model prediction and industrial observations at Baku Steel Company. The close agreement between theoretical and practical results verifies the reliability of the proposed optimization model (see Table 2 for detailed process parameters).

Environmental Impact Assessment. Energy optimization during vacuum refining directly contributes to reducing greenhouse-gas emissions. According to the World Steel Association (WSA), each ton of crude steel produced releases approximately 1.85 tCO_2. However, this figure represents the entire production chain, including coking, reduction, and casting stages. Since the proposed optimization affects only the secondary refining stage, CO_2 reduction was recalculated based on the specific emission factor for electricity consumption.

Using an average grid emission factor of 0.5 $kgCO_2/kWh$ and the measured annual energy saving

of ≈ 0.5 GWh, the reduction potential corresponds to approximately ≈ 238 tCO_2 per year. For a plant producing 500 000 tons of steel annually, this translates to an equivalent decrease of about 0.0005 tCO_2 per ton of steel, which represents a realistic and verifiable contribution to decarbonization at the ladle-refining stage.

This value reflects only the electricity-related emissions of the ladle furnace stage and does not account for upstream carbon footprints of raw materials or combustion processes. These findings demonstrate that the proposed thermodynamic–kinetic optimization model not only provides measurable economic benefits but also contributes to realistic decarbonization targets aligned with the European Union's 2030 climate goals.

Energy assessments based on these thermodynamic–kinetic correlations indicate that optimizing vacuum refining parameters can reduce total energy consumption by about 12–18% compared to conventional refining operations. This result aligns with industrial case studies, where improved coordination of temperature, vacuum level, and circulation dynamics led to significant reductions in power demand and CO_2 emissions (Holappa, 2017; Mastrullo et al., 2024).

Additionally, the integration of analytical modeling with digital monitoring systems offers a promising avenue for adaptive control of the refining process. Advanced analytics and machine learning approaches, such as those proposed by Liu, Tang, and Zhao (2024), can provide real-time adjustments to optimize process efficiency and sustainability. The findings of this study therefore provide a scientific and technological foundation for developing intelligent vacuum refining systems that simultaneously enhance product quality and minimize environmental impact (Keshetti, Reddy, & Kumar, 2025; Khaidarov et al., 2025).

To further highlight the scientific contribution of this study, a comparative analysis between the proposed model and representative literature models was carried out, as summarized in Table 3. Previous models have either focused on thermodynamic equilibrium or kinetic simulation separately, without integrating the two aspects into a unified energy optimization framework. In contrast, the current study combines both thermodynamic stability and kinetic activation, linking them directly to measurable energy efficiency and industrial validation. This integration represents a novel approach in the field of vacuum refining research.

Table 3. Comparative analysis between proposed and literature models in vacuum refining.

Source / Model	Key Focus	Pressure Range (kPa)	Temperature (°C)	Kinetic Control	Energy Consideration	Innovation Aspect
Fruehan et al., 2005	Thermodynamic equilibrium of gas-metal systems	1–0.1	1600–1700	Not emphasized	No	Classical equilibrium modeling
Li et al. (2022)	Modeling gas–metal interactions	0.1	1550–1650	Partial (surface reaction)	No	Numerical simulation only
Zhang et al. (2022)	Kinetic simulation of degassing	0.1	1600	Liquid-phase diffusion	No	Diffusion model
Mastrullo et al. (2024)	Data-driven ladle optimization	—	1500–1650	Empirical	Partial	AI-assisted process model
This study (Behbudlu, 2025)	Integrated thermodynamic–kinetic optimization	0.1	1550–1650	Liquid-phase diffusion	Yes (12–18% saving)	Unified energy–kinetic model validated by industrial data

Comparative Evaluation of Refining Methods. To place the developed model within the broader context of steel refining technologies, Table 4 presents a comparative analysis between conventional and optimized vacuum refining methods.

Table 4. Comparison of refining methods in terms of energy efficiency and metallurgical performance.

Process Type	Vacuum Level (kPa)	Temperature (°C)	Energy Savings (%)	Gas Removal Efficiency (%)
Conventional LF refining	10	1600	—	60
RH vacuum degassing	1.0	1600	8–10	80
Proposed thermodynamic–kinetic model	0.1	1550–1650	12–18	90–94

The comparison shows that the proposed model provides 30–40% higher degassing efficiency compared to conventional refining and nearly doubles the energy savings observed in standard RH vacuum processes. This confirms the industrial and environmental relevance of the model and its potential for wide-scale adoption in next-generation steelmaking plants.

Conclusion and Recommendations

This study demonstrates that the optimization of thermodynamic and kinetic parameters during vacuum refining plays a decisive role in enhancing energy efficiency and metallurgical performance in steelmaking. Analytical and theoretical modeling results indicate that maintaining a vacuum level within the range of 0.1–1.0 kPa and a temperature of 1550–1650 °C provides the best balance between degassing efficiency and total energy demand. Operating below 0.1 kPa offers negligible metallurgical improvement but increases system energy cost and operational complexity. Therefore, optimizing within this interval achieves maximum efficiency with realistic industrial feasibility. Under these conditions, the removal of dissolved gases such as hydrogen and nitrogen can be improved by 15–20%, while overall energy consumption can be reduced by approximately 12–18%.

The results confirm that the key to achieving high refining efficiency lies in synchronizing thermodynamic equilibrium with kinetic activation. Excessive heating leads to unnecessary energy losses, whereas insufficient temperature limits the rate of mass transfer. By optimizing hydrodynamic circulation and controlling vacuum levels, the process can reach higher efficiency with lower thermal input.

From an industrial perspective, implementing this optimization framework may also extend refractory life, reduce CO_2 emissions, and improve overall process sustainability. The findings support the integration of real-time data analytics and digital control systems into vacuum refining operations, paving the way for adaptive and energy-conscious steel production (Holappa, 2017; Liu, Tang, & Zhao, 2024; Mastrullo, Mauro, Pelella, & Viscito, 2024). The outcomes of this study also have practical significance for industrial operations. In facilities where secondary refining stages are energy-intensive, adopting the proposed optimization strategy could lead to measurable economic benefits. Preliminary cost analysis suggests that reducing energy consumption by even 10% can decrease total production costs by approximately 2–3%, depending on plant capacity. Moreover, integrating real-time monitoring systems enables dynamic adjustment of vacuum pressure and temperature, ensuring that the process operates near the theoretical optimum under varying charge compositions.

The primary scientific novelty of this study lies in integrating thermodynamic equilibrium and kinetic activation mechanisms into a single optimization framework, quantitatively linking them with measurable energy efficiency.

Future studies should focus on coupling the proposed thermodynamic–kinetic model with computational fluid dynamics (CFD) simulations to better capture turbulence, bubble nucleation, and interfacial mass transfer in the vacuum chamber. Additionally, reinforcement-learning-based controllers can be used for automatic set-point tracking of pressure and temperature, minimizing variability and enabling predictive maintenance. Finally, industrial pilots that log high-frequency vacuum, temperature, and gas-content signals would allow data assimilation to refine activation energies and pressure exponents used in the model. These research directions will strengthen the predictive capability of the model and support the transition toward fully automated, energy-optimized, and environmentally sustainable steelmaking systems.

REFERENCES:

1. Fruehan, R. J., et al. (2005). The making, shaping and treating of steel (11th ed.). AISE Steel Foundation.

2. Ghosh, A., & Chatterjee, A. (2015). Ironmaking and Steelmaking: Theory and Practice. PHI Learning Pvt. Ltd.

3. Guan, X., Li, S., & Chen, T. (2024). Optimization strategy of LF refining process under low-carbon and energy-saving requirements. Proceedings of Engineering Research, 5(7), 112–118. Clausius Scientific Press.

4. Holappa, L. E. K. (2017). Energy efficiency and sustainability in steel production. In Applications of Process Engineering Principles in Materials Processing, Energy and Environmental Technologies (pp. 401–410). Springer.
5. Keshetti, A. R., Reddy, K. M., & Kumar, R. (2025). Advanced analytics to improve energy efficiency of steel plants. Journal of Energy and Environmental Management, 17(1), 45–57.
6. Khaidarov, T. B., Khanna, R., Khaydarov, B. B., Li, K., Suvorov, D. S., Metlenkin, D., Burmistrov, I. N., Gorokhovsky, A. V., Volokhov, S. V., & Kuznetsov, D. V. (2025). An innovative approach toward enhancing the environmental and economic sustainability of resource recovery from hazardous Zn-bearing dusts from electric arc furnace steelmaking. Sustainability, 17(6), 2773. https://doi.org/10.3390/su17062773
7. Li, M., Yang, Y., & Zou, Z. (2023). A numerical study on dehydrogenation of liquid steel supersaturated with hydrogen in a vacuum degasser (VD). Metallurgical and Materials Transactions B, 54(4), 1819–1830. https://doi.org/10.1007/s11663-023-02796-3
8. Li, Y., Zhang, J., & Wang, X. (2022). Modeling gas–metal interactions in vacuum refining processes. Journal of Materials Processing Technology, 305, 117619.
https://doi.org/10.1016/j.jmatprotec.2022.117619
9. Li, Y., Zhang, Z., & Wang, L. (2024). Kinetics of nitrogen absorption and vacuum denitrogenization in molten 42CrMoA steel. Steel Research International. Advance online publication. https://doi.org/10.1002/srin.202400071
10. Liu, C., Tang, L., & Zhao, C. (2024). A novel dynamic operation optimization method based on multiobjective deep reinforcement learning for steelmaking process. IEEE Transactions on Neural Networks and Learning Systems, 35(3), 3325–3339. https://doi.org/10.1109/TNNLS.2023.3244945
11. Mammadov, A., Babayev, A., Huseynov, M., Musurzayeva, B., Ismayilov, N., & Verkhovliuk, A. (2024). Azerbaijan metallurgical industry: Current situation and new goals. Machine Science Journal, 4(2), 42–49. https://doi.org/10.61413/FBID1194
12. Mastrullo, R., Mauro, A. W., Pelella, F., & Viscito, L. (2024). Process control and energy saving in the ladle stage of a metal casting process through physics-based and ANN-based modelling approaches. Applied Thermal Engineering, 248, 123135.
https://doi.org/10.1016/j.applthermaleng.2024.123135
13. Prithiv, T. S., Thirumurugan, G., & Madan, M. (2020). Thermodynamic assessment of steelmaking practices for the production of re-sulfur steels. Transactions of the Indian Institute of Metals, 73(6), 1449–1461. https://doi.org/10.1007/s12666-020-01941-9
14. Szekely, J., & Themelis, N. J. (2020). Rate Phenomena in Process Metallurgy. Wiley.
15. Turkdogan, E. T. (2019). Fundamentals of steelmaking. The Institute of Materials.
16.Zhang, G., Liu, H., & Wang, J. (2022). Simulation research on the degassing process of molten steel in a vacuum. Chinese Journal of Engineering, 44(2), 320–329.
17. Zhang, J., Liu, T., & Xu, Q. (2021). Kinetic analysis of hydrogen removal from liquid steel under vacuum conditions. Metallurgical and Materials Transactions B, 52(3), 1228–1241.

DOİ: 10.32010/KICY2160

QEYRİ-MÜƏYYƏN İNTEQRALIN KÖMƏYİ İLƏ HƏLL OLUNAN PRAKTİK MƏZMUNLU MƏSƏLƏLƏR VASİTƏSİ İLƏ ŞAGİRDLƏRİN TƏTBİQETMƏ BACARIQLARININ FORMALAŞDIRILMASI

Murad Elxan BƏKİROV
Mingəçevir Dövlət Universiteti, magistrant
E-mail: bekirovmurad28@gmail.com

Sahib Mustafa MUSTAFAYEV
Mingəçevir Dövlət Universiteti, dosent
E-mail: sahibmustafayev1954@gmail.com

Xülasə: Məqalədə qeyri-müəyyən inteqralın köməyi ilə həll olunan həyati situasiya məzmunlu məsələlər vasitəsi ilə şagirdlərin tətbiqetmə bacarıqlarının formalaşdırılması məsələsi araşdırılır. Əvvəlcə həyati situasiya məzmunlu məsələlərin didaktik və praktiki əhəmiyyəti qeyd olunur. Müxtəlif elm sahələrinə aid qeyri-müəyyən inteqralın köməyi ilə həll olunan həyati situasiya məzmunlu məsələlərin həlli nümunələri illüstrasiya olunur.
Gündəlik həyatda insanlar daim müəyyən situasiyaların həlli ilə üzləşirlər. Çox vaxt məktəblilər real həyatda yaranan çətinlikləri həll etmək üçün çox səy göstərməli olurlar: haradan başlayacaqlarını, necə hərəkət edəcəklərini, hansı qərarın ən yaxşısı olduğunu bilmirlər. Şagirdlərin real həyatda qarşılaşdıqları problemlərdən qorxmaması üçün məktəb riyaziyyat təlimi prosesində real həyatı situasiyaları əks etdirən və riyazi üsullarla asanlıqla həll oluna bilən məsələlərin təhlili və həll edilməsi zəruridir.
Bu gün "həyati situasiya" məzmunlu məsələlərə maraq yalnız artır, çünki onlar həm Dövlət Təhsil Standartlarının (DTS) məzmununa, həm də buraxılış imtahan materiallarının məzmununa daxildir[1].
Açar sözlər: riyaziyyat məsələsi, qeyri-müəyyən inteqral, həyati situasiya məsələləri, elm sahələri üzrə praktik məzmunlu məsələlər, şagird bacarıq və vərdişlərinin formalaşdırılması.

Giriş:
Məktəbin riyaziyyat kursuna riyazi analiz elementlərinin daxil edilməsini fəal şəkildə müdafiə edən və bu bölməni məktəb dərslikləri çərçivəsində təkmilləşdirən XX-XXI əsrlərin məşhur riyaziyyatçı və metodistlərinin əsərlərinin təhlili göstərir ki, onlar diferensial və inteqral hesabına aid biliklərin dərk olunması prosesində xüsusi rol oynamışlar. Həqiqətən, anlayışlar, üsullarla və riyazi analizin tətbiqləri ilə tanışlıq bizə elm və texnikanın müxtəlif sahələrindən götürülmüş çoxsaylı nümunələrdən istifadə edərək nəzəri tədqiqat metodlarının gücünü nümayiş etdirməyə və bununla da dünyanın dərk edilməsi bilinməsi probleminin öyrənilməsinə mühüm töhfə verməyə imkan verir. Praktiki məsələlərin riyazi modelləri real dünyada mövcud olan dialektik əlaqələri və ziddiyyətləri kifayət qədər dəqiq əks etdirir və bununla da dialektikanın əsas qanunlarının hərəkətinin inandırıcı təsviri kimi çıxış edir.

Riyazi analizi öyrənərək, biz reallığın elmi idrak metodlarının konkret illüstrasiyasına baxırıq; praktiki məsələlərin həlli zamanı idrakın bütün mərhələləri məlum düstura uyğun olaraq öz əksini tapır: «... abstraksiyalar təbiəti daha dərin, daha dəqiq, dolğun əks etdirir. Canlı müşahidədən mücərrəd təfəkkürə və ondan praktikaya - həqiqəti dərk etmənin dialektik yolu budur..."[4, s.152].

Elmi dünyagörüşünün tərbiyəsi məsələsində riyazi analizin müstəsna əhəmiyyətini bir çox məşhur riyaziyyatçı və metodistlər - Ya.S. Dubnov, B.V. Qnedenko, A.N. Kolmogorov, A.I. Markuşeviç, A.Ya. Xincin- qeyd edilmişdir.

Məktəb riyaziyyat kursunda riyazi analiz elementlərinin başqa daha mühüm rolunu fərqləndirmək zəruridir.

İstər riyaziyyatın, istərsə də digər təbiət elmlərinin inkişafının tarixi təcrübəsi ilə tanışlıq göstərir ki, riyazi analiz dəqiq olaraq riyaziyyat elminin əsaslarına istinad edir. Həqiqətən, 17-ci əsrin sonu - 18-ci əsrin əvvəllərində İ.Nyuton və Q.Leybnisin əsərləri nəticəsində yaranan diferensial və inteqral hesabı müasir riyaziyyatın formalaşmasında böyük rol oynamışdır. Funksional analiz və ehtimal nəzəriyyəsi,

topologiya və ədədlər nəzəriyyəsi, variasiya hesabı və xətti proqramlaşdırma və s. Bu, müasir riyaziyyatın riyazi analizlə birbaşa əlaqəli olan bölmələrinin tam siyahısı deyildir. Analizin başlanğıcı ilə tanış olmadan müasir riyaziyyatın mahiyyəti haqqında təsəvvür əldə etmək mümkün deyil.

Gündəlik həyatda insanlar daim müəyyən situasiyaların həlli ilə üzləşirlər. Çox vaxt məktəblilər real həyatda yaranan çətinlikləri həll etmək üçün çox səy göstərməli olurlar: haradan başlayacaqlarını, necə hərəkət edəcəklərini, hansı qərarın ən yaxşısı olduğunu bilmirlər. Şagirdlərin real həyatda qarşılaşdıqları problemlərdən qorxmaması üçün məktəb riyaziyyat təlimi prosesində real həyatı situasiyaları əks etdirən və riyazi üsullarla asanlıqla həll oluna bilən məsələlərin təhlili və həll edilməsi zəruridir.

Bu gün "həyati situasiya" məzmunlu məsələlərə maraq yalnız artır, çünki onlar həm Dövlət Təhsil Standartlarının (DTS) məzmununa, həm də buraxılış imtahan materiallarının məzmununa daxildir[1].

Şagirdlərlə həyati situasiya məzmunlu məsələlərin təhlili və həllinin öyrədilməsi:

1) məktəbdə riyaziyyatın öyrənilməsinin praktik əhəmiyyətini artırmağa kömək edir;

2) bu kimi məsələlərin həlli üçün zəruri olan bacarıq və vərdişlər formalaşır;

3) məsələnin məzmununda verilmiş kəmiyyətlərin qiymətlərini hesablamaq bacarığı formalaşır;

4) şagirdin riyaziyyatı öyrənməyə marağı və motivasiyası artır;

5) məktəb riyaziyyat kursunun tədrisinin səmərəliliyini artırır.

Riyaziyyatın tədrisi prosesində həyati situasiya məzmunlu məsələlərin rolunu və yerini müəyyən etmək üçün onların hansı funksiyaları yerinə yetirdiyini nəzərə almaq lazımdır.

L.V. Vinogradova situasiya məsələlərinin təhsil, inkişaf və təlim funksiyalarını belə müəyyən edir. situasiya məsələlərin təhsil funksiyası ondan ibarətdir ki, onlar müxtəlif bilik sahələrindən müxtəlif məlumatları ehtiva edə bilər. Bu məsələlərin köməyi ilə şagirdlərin bilik üfüqləri genişlənir, idrak qabiliyyətləri artır. İnkişaf funksiyası ondan ibarətdir ki, həyati situasiya məsələləri nəzəri və riyazi bilikləri praktikada tətbiq etmək bacarığını inkişaf etdirir, ümumi həll üsullarını müəyyənləşdirməyi və yeni problemlərə tətbiq etməyi öyrədir, şagirdlərin diqqətini, yaddaşını, məntiqi təfəkkürünü, təxəyyülünü inkişaf etdirir. Tədris funksiyası yeni materialın öyrənilməsinin hər bir mərhələsində, yəni öyrənməyə hazırlıq mərhələsində, mənimsəmə mərhələsində, əldə edilmiş biliklərin ilkin tətbiqi mərhələsində və nəzarət və konsolidasiya mərhələsində özünü göstərir [3].

Buradan belə nəticəyə gəlmək olar ki, həyati situasiya məsələlərin rolu böyükdür və aşağıdakı bilik, bacarıq və vərdişlərin formalaşmasına imkan yaradır:

1) Belə məsələlər dərslərdə əldə edilmiş riyazi biliklərin praktiki tətbiqlərinin tam spektrini açır;
2) qazanılmış bilikləri praktikada möhkəmləndirilir və dərinləşdirilir;
3) tədris materialını aydın şəkildə təsvir etmək bacarıqları formalaşır;
4) şagirdlərin məntiqi, idrak təfəkkürü inkişaf etdir;
5) Şagirdlər müstəqil qərar qəbul etməyi öyrənməklə, ümumilikdə riyaziyyatı öyrənməyin vacibliyini dərk edirlər.

Fikrimizi ayrı-ayrı elm sahələrinə aid qeyri-müəyyən inteqralın köməyi ilə həll olunan həyati situasiya məzmunlu məsələlərin həlli üzərində illüstrasiya edək.

Məsələ 1. $M(2;4)$ nöqtəsindən keçən və istənilən $(x;y)$ nöqtəsində əyriyə çəkilən toxunanın bucaq əmsalı x^2-3x+2 bərabər olan bu əyrinin tənliyini tapın.

Həlli. məlumdur ki, əyriyə verilmiş nöqtəsində çəkilən toxunanın bucaq əmsalı $k=y'=\frac{dy}{dx}$ düsturu ilə hesablanır. Məsələnin şərtinə görə

$$\frac{dy}{dx}=x^2-3x+2.$$

Buradan $dy=(x^2-3x+2)dx$. Bu bərabərliyin hər iki tərəfinin inteqrallayaq.

$$\int dy=\int(x^2-3x+2)dx,$$

$$y=\frac{x^3}{3}-3\cdot\frac{x^2}{2}+2x+C. \qquad (1)$$

Beləliklə, biz məsələnin şərtinə uyğun inteqral əyriləri çoxluğunu almış olduq. İndi bu inteqral əyriləri içərisindən $M(2;4)$ nöqtəsindən keçən inteqral əyrisini tapaq. Bunun üçün (1) tənliyində M nöqtəsinin koordinatlarını yerinə yazaq. Onda

$$y(2)=\frac{2^3}{3}-3\cdot\frac{2^2}{2}+2\cdot2+C=4,$$

$$\frac{8}{3}-\frac{12}{2}+4+C=4, C=6-\frac{8}{3}=3\frac{1}{3}.$$

$C=3\frac{1}{3}$ qiymətini (1) bərabərliyində yerinə yazaq. Onda məsələnin şərtinə uyğun əyrinin tənliyi

$$y=\frac{x^3}{3}-3\cdot\frac{x^2}{2}+2x+3\frac{1}{3}$$

olacaq.

Cavab: $y=\frac{x^3}{3}-3\cdot\frac{x^2}{2}+2x+3\frac{1}{3}$.

Məsələ 2. Yerin səthindən şaquli olaraq yuxarıya doğru v_0 sürətlə cisim atılmışdır. Cismin t zaman anındakı sürətini tapın.

Həlli. Düzbucaqlı koordinat sistemində Ox oxunun istiqamətini şaquli olaraq yuxarıya yönəldək. Onda cismin başlanğıc sürətinin Ox oxu üzərində proyeksiyası $\vartheta_{Ox}=v_0$, sərbəst düşmə təcilinin isə

həmin ox üzərində proyeksiyası $g_x = -g$ olar, yəni cismin sərbəst düşmə təcilinin istiqaməti aşağıya doğrudur. Buradan alırıq ki, $\frac{d\vartheta_x}{dt} = g_x$ və yaxud $\frac{dv}{dt} = -g$, buna görə $d\vartheta_x = -gdt$. Sonuncu bərabərliyi inteqrallayaq.

$$\int d\vartheta_x = \int (-gdt),$$
$$\vartheta_x = -gt + C \qquad (2)$$

Məsələnin şərtinə görə $t = 0$ olduqda $\vartheta_x = \vartheta_{Ox} = v_0$. Bu qiymətləri (2) bərabərliyində yerinə yazsaq, alarıq:

$$\vartheta_0 = -g \cdot 0 + C \Rightarrow C = \vartheta_0.$$

$C = \vartheta_0$ qiymətini (2) bərabərliyində yerinə yazaq, onda

$$\vartheta_x = \vartheta_0 - gt$$

olduğunu alarıq.

Cavab: $\vartheta_x = \vartheta_0 - gt$.

Məsələ 3. Maddi nöqtə a =təcili ilə düzxətli hərəkət edir. Zamanın $t = 0$ anında başlanğıc sürəti $2\frac{m}{san}$-dir və hesablama başlanğıcından $S_0 = 5m$ məsafədədir. Zamanın $t = 3san$ anında gedilən yolu və sürəti tapın.

Həlli. maddi nöqtənin zamanın t anında sürətinin və getdiyi yolu tapaq. Bilirik ki, $a = \frac{d\vartheta}{dt}$. Buradan $d\vartheta = adt = (3t^2 - 3t + 1)dt$. Bu bərabərliyin hər iki tərəfini inteqrallayaq.

$$\int d\vartheta = \int (3t^2 - 3t + 1)dt,$$
$$\vartheta = t^3 - \frac{3}{2}t^2 + t + C. \qquad (3)$$

Məsələnin şərtinə görə $t = 0$ anında maddi nöqtənin başlanğıc sürəti

$\vartheta_0 = 2\,m/san - dir.$ Bu qiymətləri (3) bərabərliyində yerinə yazıb C-ni tapaq.

$$2 = 0^3 - \frac{3}{2} \cdot 0^2 + 0 + C \Rightarrow C = 2.$$

$C = 2$ qiymətini (3) bərabərliyində yerinə yazaq. Onda maddi nöqtənin zamanın istənilən t anında sürəti

$$\vartheta = t^3 - \frac{3}{2}t^2 + t + 2$$

düsturu ilə hesablanacaq. $t = 3\,san$ anında maddi nöqtənin sürətini hesablayaq.

$$\vartheta(3san) = 3^3 - \frac{3}{2} \cdot 3^2 + 3 + 2 = 27 - 13{,}5 + 5$$
$$= 18{,}5\left(\frac{m}{san}\right).$$

İndi zamanın t anında maddi nöqtənin getdiyi yolu tapaq. Bilirik ki,

$$\vartheta = \frac{dS}{dt} \Rightarrow dS = \vartheta dt.$$

Sonuncu bərabərliyin hər iki tərəfini inteqrallayaq.

$$\int dS = \int \vartheta dt \Rightarrow S = \int \left(t^3 - \frac{3}{2}t^2 + t + 2\right)dt,$$

$$S = \frac{t^4}{4} - \frac{t^3}{2} + \frac{t^2}{2} + 2t + C \qquad (4)$$

Məsələnin şərtinə görə, maddi nöqtə zamanın $t = 0$ anında getdiyi yol $S = S_0 = 5\,(m)$ olmuşdur. Bu şərti (4) bərabərliyində nəzərə alaq və C-nin qiymətini tapaq.

$$S(0) = \frac{0^4}{4} - \frac{0^3}{2} + \frac{0^2}{2} + 2 \cdot 0 + C = 5 \Rightarrow C = 5.$$

$C = 5$ qiymətini (4) bərabərliyində yerinə yazaq. Onda maddi nöqtənin zamanın ixtiyari t anında getdiyi yolun uzunluğu

$$S = \frac{t^4}{4} - \frac{t^3}{2} + \frac{t^2}{2} + 2t + 5$$

düsturu ilə hesablanacaq.$t = 3\,san$ anında gedilən yolun uzunluğunu tapaq.

$$S(3) = \frac{3^4}{4} - \frac{3^3}{2} + \frac{3^2}{2} + 2 \cdot 3 + 5 = 22{,}25(m)$$

Cavab: $22{,}25m,\ 18{,}5\,m/san.$

Məsələ 4. Əgər kütləsi 2kq, sürəti isə $t = 0$ olduqda $1\frac{m}{san}$ olan cisim $a = t^2 - 2t + 2$ təcili ilə hərəkət edərsə, zamanın $t = 3san$ anında onun kinetik enerjisini tapın.

Həlli. $a = \frac{dv}{dt} \Leftrightarrow dv = adt$. Yaxud $dv = (t^2 - 2t + 2)dt$. Bu bərabərliyin hər iki tərəfinin inteqrallayaq.

$$\int dv = \int (t^2 - 2t + 2)dt,$$
$$v = \frac{t^3}{3} - 2 \cdot \frac{t^2}{2} + 2t + C,$$
$$v = \frac{t^3}{3} - t^2 + 2t + C \qquad (5)$$

Məsələnin şərtinə görə cisim $t = 0$ olduqda $v(0) = 1\,(\frac{m}{san})$ yol gedir. Bu şərti nəzərə alaq və C-ni tapaq.

$$v(0) = \frac{0^3}{3} - 0^2 + 2 \cdot 0 + C = 1 \Rightarrow C = 1.$$

$C = 1$ qiymətini (5) düsturunda nəzərə alaq. Onda

$$v = \frac{t^3}{3} - t^2 + 2t + 1.$$

İndi cismin kinetik enerjisini hesablayaq. Bunun üçün $t = 3\,san$ olduqda cismin hərəkət sürətini tapmaq lazımdır.

$$v(3) = \frac{3^3}{3} - 3^2 + 2 \cdot 3 + 1 = 7(\frac{m}{san}).$$

İndi kinetik enerjini hasablaya bilərik.

$$E = \frac{mv^2}{2} = \frac{2 \cdot 7^2}{2} = 49\ (Coul)$$

Cavab: 49 $coul$.

Məsələ 5. ***Əhali artımı***[2]. Statistik araşdırmalar şəhərdəki əhalinin sayının illik dəyişməsinin $P'(t) = 11{,}7e^{0{,}026t}$ münasibəti ilə müəyyən edilə bildiyini aşkar etdi. Burada t 1960-cı ildən sonrakı illərin sayını, P(t) verilən ildəki əhalinin sayını (min nəfərlə) göstərir. 1990-cı ildə əhalinin sayı 820 min nəfər olmuşdursa, 2020-ci ildə bu şəhərdə əhalinin sayının neçə nəfər olacağını təxmin edin.

Həlli. $P'(t) = 11{,}7e^{0{,}026t}$ funksiyasının ibtidai funksiyasını tapmaqla əhalinin sayını göstərən $P(t)$ funksiyasını tapa bilərik.

$$P(t) = \int 11{,}7e^{0{,}026t}\,\mathrm{dt} = \frac{11{,}7}{0{,}026}e^{0{,}026t} + C = 450e^{0{,}026t} + C.$$

$$P(t) = 450e^{0{,}026t} + C.$$

Məsələnin şərtinə görə $t = 30$ olduqda (1960-1990) əhalinin sayı 820 min nəfər olmuşdur. Bunları $P(t) = 450e^{0{,}026t} + C$ düsrurunda yerinə yazıb C-ni tapaq.

$$820 = 450e^{0{,}026 \cdot 30} + C \Leftrightarrow C \approx -161{,}7.$$

Onda əhalinin sayını göstərən P(t) funksiyası

$$P(t) = 450e^{0{,}026t} - 161{,}7$$

Kimi hesablanar.

2020-ci ildə əhalinin sayı P(t) funksiyasının $t = 60$ qiymətinə uyğundur.

$$P(60) = 450e^{0{,}026 \cdot 60} - 161{,}7 \approx 1979{,}8.$$

Yəni 2020-ci ildə bu şəhərdəki əhalinin sayı təxminən 1979800 nəfər olacaq.

Cavab: təxminən 1979800 nəfər.

Məsələ 6. ***Bakteriyaların çoxalması***[2]. Müşahidə ilə bakteriyaların P(t) sayının artım sürətinin $\frac{dP}{dt} = 200e^{0{,}1t} + 150e^{-0{,}03t}$ kimi olduğu müəyyən edildi. Burada t zamanı (saatla) göstərir. Müşahidənin başlanğıcında bakteriyaların sayı 200 000 olarsa, 12 saat sonra onların sayı nə qədər olar?

Həlli. Məsələnin şərtinə görə bakteriyaların t zaman anında artım sürəti

$\frac{dP}{dt} = 200e^{0{,}1t} + 150e^{-0{,}03t}$düsturu

ilə hesablanır.

$$dP = (200e^{0{,}1t} + 150e^{-0{,}03t})dt$$

Bakteriyaların P(t) sayını tapmaq üçün bərabərliyin hər iki tərəfini inteqrallayaq.

$$P(t) = \int (200e^{0{,}1t} + 150e^{-0{,}03t})dt = 2000\,e^{0{,}1t} - 5000e^{-0{,}03t} + C.$$

$$P(t) = 2000e^{0{,}1t} - 5000e^{-0{,}03t} + C.$$

Müşahidənin başlanğıcında $t = 0$ anında bakteriyaların sayı 200 000 olduğuna görə C-ni tapaq.

$$P(0) = 2000e^{0{,}1 \cdot 0} - 5000e^{-0{,}03 \cdot 0} + C = 200\,000$$
$$C = 200\,000 + 5000 - 2000 = 203\,000.$$

$C = 203\,000$ qiymətini $P(t) = 2000e^{0{,}1t} - 5000e^{-0{,}03t} + C$ düsturunda yerinə yazaq. Onda $P(t) = 2000e^{0{,}1t} - 5000e^{-0{,}03t} + 203\,000$.

$t = 12\,saat$ sonra bakteriyaların sayını tapaq.

$$P(12) = 2000e^{0{,}1 \cdot 12} - 5000e^{-0{,}03 \cdot 12} + 203\,000 +$$
$$= 2000e^{1{,}2} - 5000e^{-0{,}36} + 203\,000.$$

Məlumdur ki, e^xfunksiyasının qüvvət sırasına ayrılışına görə, x dəyişənin kiçik qiymətlərində $e^x \approx 1 + x$ hesab etmək olar. Onda aşağıdakı çevirmələrdən istifadə edək.

$$e^{1{,}2} = e \cdot e^{0{,}2} \approx 2{,}71 \cdot (1 + 0{,}2) = 2{,}71 \cdot 1{,}2 = 3{,}252,$$

$$e^{-0,36} = \frac{1}{e^{0,36}} \approx \frac{1}{1+0,36} = \frac{1}{1,36} = 0,735.$$

Onda

$$P(12) = 2000e^{1,2} - 5000e^{-0,36} + 203\,000 \approx$$
$$\approx 2000 \cdot 3,252 - 5000 \cdot 0,735 + 203\,000 =$$
$$= 6504 - 3675 + 203\,000 = 205829.$$

Cavab:≈ 205829.

Məsələ 7. ***Ekologiya***[2]. Maralların artımı üzərində müşahidə aparan tədqiqat qrupu hesabatında maralların sayının dəyişməsini aşağıdakı tənliklə vermişlər: $\frac{dN}{dt} = 3t^3 + 2t,\ 0 \leq t \leq 5$, burada N maralların sayını, t zamanı (illə) göstərir. Müşahidəyə başlayanda 200 maral var idisə, müşahidənin sonunda onların sayı təxminən neçə olmuşdur?

Həlli. $\frac{dN}{dt} = 3t^3 + 2t,\ 0 \leq t \leq 5$, burada N maralların sayını, t zamanı (illə) göstərir.

$$dN = (3t^3 + 2t)dt$$

Bərabərliyin hər iki tərəfini inteqrallayaq.

$$N = \int (3t^3 + 2t)dt \Rightarrow N(t) = \frac{3}{4} \cdot t^4 + t^2 + C.$$

$$N(0) = \frac{3}{4} \cdot 0^4 + 0^2 + C = 200 \Rightarrow C = 200.$$

$$N(t) = \frac{3}{4} \cdot t^4 + t^2 + 200$$

$$N(5) = \frac{3}{4} \cdot 5^4 + 5^2 + 200$$
$$= 0,75 \cdot 625 + 25 + 200$$
$$= 695,75 \approx 696.$$

Cavab: 696 maral.

Məsələ 8. **Maya dəyəri**[2]. x sayda məhsulun marjinal maya dəyəri $C'(x) = 50 - 0,05x$ funksiyası ilə verilmişdir. Məhsulun bir vahidinin maya dəyəri 40 manat olarsa, 150 məhsulun maya dəyəri neçəyə başa gələr?

Həlli. $C'(x) = 50 - 0,05x \Leftrightarrow \frac{dC(x)}{dx} = 50 - 0,05x \Leftrightarrow dC(x) = (50 - 0,05x)dx$

Sonuncu bərabərliyin hər iki tərəfini inteqrallayaq.

$$\int dC(x) = \int (50 - 0,05x)dx,$$

$$C(x) = 50x - 0,05 \cdot \frac{x^2}{2} + B$$

Məsələnin şərtinə görə bir vahid məhsulun maya dəyəri 40 manatdır. Onda

$$C(1) = 50 \cdot 1 - 0,05 \cdot \frac{1^2}{2} + B = 40 \Longrightarrow B$$
$$= -10 + 0,025 = -9,975$$

$B = -9,975$ qiymətini C(x)-in ifadəsində yerinə yazaq.

$$C(x) = 50x - 0,025 \cdot x^2 - 9,975$$

İndi 150 məhsulun maya dəyərini hesablayaq.

$$C(150) = 50 \cdot 150 - 0,025 \cdot 150^2 - 9,975$$
$$= 7500 - 562,5 - 9,975$$
$$= 6927,525 \approx 6928\ (man)$$

Cavab: ≈ 6928 (man)

ƏDƏBİYYAT SİYAHISI:

1.Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün riyaziyyat fənni kurikulumu (V-XI siniflər). «Kurikulum» jurnalı, 2011, No4.

2. N. M. Qəhrəmanova, M. A. Kərimov, Ə F. Quliyev. Riyaziyyat 11. Ümumtəhsil məktəblərinin11-ci sinfi üçün Riyaziyyat fənni üçün Dərslik. "Radius nəşriyyatı". Bakı 1018. 320 səh.

3. Виноградова Л.В. Методика преподавания математики в средней школе: учебное пособие / Л.В. Виноградова. — Ростов н/Д.: Феникс, 2005. – 252 с.

4. Колягин, Ю.Н. О прикладной и практической направленности обучения математике // Математика в школе. - №6. - 2005. – С. 5-17.

DOİ: 10.32010/PKQK4455

HÜNDÜRMƏRTƏBƏLİ BİNALARIN YANĞIN TƏHLÜKƏSİZLİYİ PROBLEMLƏRİNİN ANALİZİ VƏ ONLARIN HƏLLİ YOLLARI

Ruslan Tofiq DADAŞOV
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
ORCID: 0000-0003-0207-4268
Email: ruslan.dadashov@asoiu.edu.az

Xülasə: Müasir şəhərlər sürətlə inkişaf edir və bu urbanizasiyanın əsas göstəricilərindən biri çoxmərtəbəli və hündür binaların artmasıdır. Torpaq ehtiyatlarının məhdud olduğu, xüsusilə sıx məskunlaşmış meqapolislərdə hündürmərtəbəli tikinti hazırda ən rasional həll yoluna çevrilmişdir. Çoxmərtəbəli binalar təkcə memarlıq tərəqqisinin simvolu deyil, həm də təhlükəsizlik məsələlərinə xüsusi yanaşma tələb edən mürəkkəb mühəndis konstruksiyalarıdır. Belə binalarda təhlükəsizliyin təmin olunmasında ən vacib istiqamətlərdən biri isə yanğın və qaz təhlükəsizliyi sistemləridir. Binanın mərtəbə sayı artdıqca yanğınların baş vermə və yayılma riski, eləcə də məişət və texniki qazın sızma ehtimalı dəfələrlə artır. Bundan əlavə, fövqəladə hallarda çoxmərtəbəli binalardan insanların təxliyəsi azmərtəbəli binalara nisbətən qat-qat daha çətin bir prosesdir. Məhz buna görə çoxmərtəbəli yaşayış və inzibati binalarda yanğın və qaz təhlükəsizliyi sistemləri birinci dərəcəli əhəmiyyət daşıyır.
Məqalənin yazılmasında əsas məqsəd yüksək çoxmərtəbəli binaların yanğın təhlükəsizliyi baxımından effektivliyinin artırılması üçün müxtəlif texniki qurğulardan istifadə edilməsinin analizi və problemlərin həllinin mümkün yollarllarının verilməsi təşkil edir. Məqalədə Azərbaycan Respublikası və müxtəlif xarici ölkələrdə çoxmərtəbəli binaların istismarı zaman yaranan müxtəlif yanğın təhlükəsizlik problemlərinin həlli yollarının təhlili və bu təhlilə əsaslanaraq daha optimal praktiki həllərin tapılması nəzərdən keçirilmişdir.
Açar sozlər: yanğın, yanğın təhlükəsizliyi, qaz sizması, qaz zəhərlənməsi, tüstüxaricetmə sistemləri, yanğın xəbərdarlıq sistemləri, yanğın sensorları, bina avtomatikası, videoanalitika, spektroskopiya.

ANALYSIS OF FIRE SAFETY ISSUES IN HIGH-RISE BUILDINGS AND THEIR SOLUTIONS

Ruslan Tofig DADASHOV
Azerbaijan State Oil and Industry University
ORCID: 0000-0003-0207-4268
Email: ruslan.dadashov@asoiu.edu.az,

Abstract: Modern cities are rapidly developing, and one of the main indicators of this urbanization is the increase in the number of high-rise and multi-story buildings. In areas with limited land resources, particularly in densely populated megacities, high-rise construction has become the most rational solution. Multi-story buildings are not only symbols of architectural progress but also complex engineering structures that require special attention to safety issues. One of the most important aspects of ensuring safety in such buildings is the fire and gas safety systems. As the number of floors in a building increases, the risk of fire occurrence and spread, as well as the likelihood of household and technical gas leaks, grows significantly. Moreover, during emergencies, evacuating people from high-rise buildings is a much more complicated process than from low-rise buildings. Therefore, fire and gas safety systems in high-rise residential and administrative buildings are of paramount importance.
The main goal of this article is to analyze the use of various technical devices to increase the effectiveness of fire safety in high-rise buildings and to provide possible solutions to the problems. The article considers the analysis of solutions to various fire safety problems encountered during the operation of high-rise buildings in the Republic of Azerbaijan and different foreign countries, and based on this analysis, seeks more optimal practical solutions.
Keywords: fire, fire safety, gas leakage, gas poisoning, smoke exhaust systems, fire alarm systems, fire sensors, building automation, video analytics, spectroscopy.

АНАЛИЗ ПРОБЛЕМ БЕЗОПАСНОСТИ ПРИ ПОЖАРЕ В МНОГОЭТАЖНЫХ ЗДАНИЯХ И ПУТИ ИХ РЕШЕНИЯ

Руслан Тофик ДАДАШОВ
Азербайджанский Государственный Университет Нефти и Промышленности
ORCID: 0000-0003-0207-4268
Электронная почта: ruslan.dadashov@asoiu.edu.az

Резюме: Современные города быстро развиваются, и одним из основных показателей этой урбанизации является увеличение числа многоэтажных и высоких зданий. В условиях ограниченных земельных ресурсов, особенно в густонаселенных мегаполисах, строительство высотных зданий стало наиболее рациональным решением. Многоэтажные здания являются не только символом архитектурного прогресса, но и сложными инженерными конструкциями, которые требуют особого подхода к вопросам безопасности. Одним из самых важных аспектов обеспечения безопасности в таких зданиях являются системы пожарной и газовой безопасности. По мере увеличения числа этажей в здании риск возникновения и распространения пожара, а также вероятность утечек бытового и технического газа многократно возрастает. Кроме того, в экстренных ситуациях эвакуация людей из многоэтажных зданий гораздо сложнее, чем из малоэтажных. Именно поэтому системы пожарной и газовой безопасности в многоэтажных жилых и административных зданиях имеют первостепенное значение.
Основная цель статьи — анализ использования различных технических устройств для повышения эффективности пожарной безопасности в высоких многоэтажных зданиях и представление возможных путей решения проблем. В статье рассматривается анализ решений различных проблем пожарной безопасности, возникающих при эксплуатации многоэтажных зданий в Азербайджанской Республике и других странах, и на основе этого анализа предлагаются более оптимальные практические решения.
Ключевые слова: пожар, пожарная безопасность, утечка газа, отравление газом, системы дымоудаления, системы пожарной сигнализации, пожарные датчики, автоматика зданий, видеоаналитика, спектроскопия.

Giriş

Hündürmərtəbəli binalarda baş verən yanğınlar tez-tez faciəvi nəticələrə – çoxsaylı insan tələfatına və ciddi maddi itkilərə səbəb olur. Belə hallarda yanğın binanın daxilində intensiv tüstülənmə və yüksək temperatur ilə müşahidə olunur. Bu kimi vəziyyətlərdə yanğının avtomatik aşkarlanması, sakinlərin dərhal xəbərdar edilməsi, yanğından mühafizə sistemlərinin işə salınması və insanların təhlükəsiz təxliyəsinin təşkil edilməsi həyati əhəmiyyət daşıyır. Yanğın təhlükəsizliyi dedikdə təkcə yanğınsöndürən alətlərin və yanğın pilləkənlərinin mövcudluğu yox, həm də avtomatik yanğınsöndürmə sistemləri, tüstünün xaricedilməsi, xəbərdarlıq və təxliyəyə nəzarət sistemləri, monitorinq və dispetçerizasiya sistemləri nəzərdə tutulur.

Qaz sızmaları da az təhlükə yaratmır. Müasir binalarda qaz avadanlıqları – isitmə, yemək bişirmə və digər ehtiyaclar üçün geniş istifadə olunur. Qaz sistemində nasazlıqlar, istismar qaydalarının pozulması və ya boru xətlərində yaranan zədələnmələr partlayışlara, binanın konstruktiv elementlərinin zədələnməsinə və eləcə də yanğınlara səbəb ola bilər. Çoxmərtəbəli binalarda baş verən qaz qəzası daha təhlükəlidir, çünki sakinlərin sayı çox olur, qaz avadanlıqlarına çıxış çətinləşir və operativ müdaxilə imkanları məhdud olur. Buna görə də müasir binaların mühəndis sistemlərinə avtomatik qaz sızmasının aşkarlanması, qaz təchizatının fövqəladə dayandırılması, havalandırma və xəbərdarlıq sistemləri mütləq daxildir.

Binaların avtomobil parklanma hissələrində çoxlu sayda avtomobillərin toplanması və oranın qapalı məkan olması da dəm qazından zəhərlənmə hallarına gətiriş çıxara bilər ki, bildiyimiz kimi bu da insan həyatı üçün çox təhlükəlidir. Buna görə bu sahələrdə də dəm qazının yoxlanması və onun həcminin çox olması halında havalandırma sistemi vasitəsi ilə dəm qazının parklanma sahəsindən xaric edilməsi və təmiz havanın sahəyə verilməsi təmin edilməlidir.

Qeyd etmək lazımdır ki, yanğın və qaz təhlükəsizliyinin təmin olunması yalnız texniki mühafizə sistemlərin quraşdırılması ilə bitmir. Burada həll üsulları texniki və təşkilati hissələrə bölünür. Bu, həm də düzgün layihələndirmə, dövri texniki xidmət və bina işçilərinin və sakinlərin fövqəladə hallarda davranış qaydaları ilə tanış olması deməkdir. Mühəndislik həlləri yalnız normativ tələblərə cavab verməklə kifayətlənməməli, həm də konkret binanın xüsusiyyətlərini – planlaşdırılması, otaqların təyinatı, istismar intensivliyi və s. nəzərə almalıdır, belə ki, bütün binalar unikal obyektlər olub bir-birindən fərqlənirlər.

Texnologiyanın inkişafı ilə yanaşı, yanğın və qaz təhlükəsizliyi sistemləri daha çox ağıllı sistemlərə inteqrasiya olunur. Belə sistemlər bəzən birləşdirilərək “bina idarəetmə sistemi” (ing. BMS – Building Management System) formasında fəaliyyət

göstərir. Bu cür inteqrasiya olunmuş yanaşmalar təhlükəsizlik səviyyəsini artırır, reaksiya müddətini azaldır və fövqəladə halların ilkin mərhələlərində insan faktoruna ehtiyacı minimuma endirir – bu isə çox vaxt insan həyatını xilas etmək baxımından həlledici rol oynayır.

Bu işin məqsədi – hündürmərtəbəli binalarda yanğın və qaz təhlükəsizliyi sistemlərinin əhəmiyyətini və xüsusiyyətlərini təhlil etmək, bu sahədə tətbiq olunan müasir texniki həlləri nəzərdən keçirmək və mövcud problemləri araşdırmaqla onların həlli yollarını təklif etməkdir. Artan urbanizasiya və bina mərtəbələrinin çoxalması şəraitində əhalinin təhlükəsizliyinin təmin olunması daha da aktuallaşır və bu, yalnız mövcud norma və standartların qorunması ilə deyil, həm də innovativ yanaşmaların tətbiqi ilə mümkündür.

Hal-hazırda yanğın səbəbindən insanların tələf olması və onların mülkiyyətinə zərər gəlməsi halları az deyil. Mütəxəssislər hesab edirlər ki, yanğının baş verməsinin əsas səbəbləri aşağıdakılardır:

- odla ehtiyatsız davranış (41-48%);
- elektrik avadanlığı və qurğulardakı nasazlıqlar (22-23%)
- qızdırıcı avadanlıqlardakı nasazlıqlar (10-11%);
- yeniyetmələrin odla dəcəlliyi (8-9%);
- qəsdən yandırılmalar (5-7%).

Statistik hesabatlara görə yanğınların 70%-i yaşayış sektorunda baş verir. Bu sektorda həlak olanların sayı 70%-dən artıqdır. Həlak olanların 80%-i yanğın toksik yanma məhsullarının təsirindən, 15%-i isə birbaşa yüksək temperatur təsirindən həyatlarını itirirlər (В.И. Евдокимов etc., 2016).

Müasir yaşayış sektorunda kifayət qədər yanğının baş verməsi mənbələri vardır. Bunlara aşağıdakıları misal gətirmək olar:

- nasaz elektrik qurğuları və şəbəkələri;
- baxımsız qoyulmuş qaz, elektrik plitələri və məişət texnikası;
- söndürülməmiş siqaret kötükləri və s.

Yuxarıda göstərilənlərdən belə nəticəyə gəlirik ki, nəzarətsiz yanma prosesi çox böyük fəsadlara səbəb ola bilər və statistik hesabatlardan göründüyü kimi həlak olanların əksəriyyəti bilavasitə yanma məhsullarının nəfəs borularına daxil olması ilə baş verir, yəni əsas yanğın faktorlarından biri olan tüstü ən təhlükəli amildir. Qeyd etməliyik ki, dediklərimiz yanğının yüksək temperatur yaratması amilinə də şamil edilməlidir. Belə ki, insanlar böyük temperatur təsirindən həlak olmaları ilə bərabər yüksək temperatur tikililərin konstruktiv elementlərinə də ciddi təsir göstərir ki, nəticədə tikililərin konstruktiv elementlərinin sıradan çıxması nəticəsinə binanın çökməsi əlavə olaraq mexaniki təsir nəticəsində insan tələfatına yol açır (Холщевников В. В. etc,).

Yanğın Təhlükəsizliyi problemi

Yanğından qorunmaq üçün istifadə edilən avadanlıq və metodların analizini verməzdən əvvəl bir qədər yanğını fiziki proses olaraq araşdıraq. Yanğın, yanan maddənin oksidləşmə ekzotermik reaksiyasıdır. O, adətən tüstü və elektromaqnit şüalanması ilə müşayiət olunur. Yanmanın əsasını yanma maddəsinin oksidləşdirici ilə (çox vaxt oksigen ilə) təmasda olmasıdır.

Yanmanın baş verməsi üçün 3 əsas faktorun olması vacibdir:

1. İstilik;
2. Oksidləşdirici;
3. Yanma maddəsi.

Yanğın prosesinin baş verməsi üçün adları çəkilmiş bu 3 faktorun müəyyən nisbətdə olması tələb olunur. Bəzən bu 3 faktorlara "yanğın üçbucağı" da deyirlər. Əslində yanğın mürəkkəb bir proses olub bir neçə mərhələdən ibarətdir. Xarici mənbənin təsiri nəticəsində maddənin səthinin qızması baş verir və bu da nəticədə maddədən uçucu qazvari maddələrin ayrılmasına səbəb olur. Bu proses bərk maddələrdə onların səthinin əriməsi ilə və ya ərimə prosesi olmadan qazların əmələ gəlməsi ilə davam edə bilər. Havadakı yanıcı qazların konsentrasiyasının müəyyən həddə çatması onların alovlanmasına və əmələ gələn istilik özü maddənin üst səthinə təsir edərək onun əriməsinə və bərk maddənin yeni qaz buxarlanmasına səbəb olur. Gördüyümüz kimi yanma prosesi zəncirvari kimyəvi reaksiyadır.

Bu prosesi araşdırmaq üçün odunun yanma prosesinə müraciət edək. Artıq 110°C temperaturda qızdırılma zamanı kiçik miqdarda qatran maddəsinin buxarlanması baş verir. Bu zaman kiçik miqdarda bu maddənin buxarlanması prosesi baş verir. Kiçik ayrılma prosesi 130°C-də, böyük dəyişiliklər isə 130°C-dən yuksək temperaturda baş verir. Temperaturun sonrakı artımı zamanı, 150°C - 200°C temperaturlarda əmələ gələn yanma maddələri əsasən, su və dəm qazı olduğundan onlar yana bilmirlər, lakin 200°C-dən artıq temperaturlarda odunun əsasını təşkil edən hüceyrələr artıq bölünməyə başlayır. Bu zaman əmələ gələn qazlar artıq yanar qazlardır, çünki onların tərkibində hidrogen, hidroksid, hidrokarbonat və digər maddələr olur. Onların konsentrasiyasının havada kifayət qədər olması yanmaya səbəb olur.

Oksidləşdirici kimi yanğın zamanı adətən, oksigen iştirak edir. Belə ki, onun havada kütləsi 21% təşkil edir. Güclü oksidləşdirici kimi azot və sulfat turşusu, xlor, brom, xrom angidridi, kalium permanqanat, xlorat və digər birləşmələr də ola bilər.

Əgər partlama və qığılcımlanmanı nəzərə almasaq, yanma prosesini aşağıdakı 4 hissəyə bölmək olar:

- yanmanın başlanması periodu;
- yanmanın inkişafı;
- yanma periodu;
- yanmanın sönməyə başlaması.

Yanğının təhlükəli faktorları aşağıdakılardır:

- od və qığılcımlar;
- istilik seli;
- ətraf mühitin temperaturunun artması;
- yanma zamanı toksik qazların konsentrasiyasının artması;
- oksigenin miqdarının azalması;
- tüstü zamanı görmə məsafəsinin azalması.

Maye, qaz və bir çox sayda bərk maddələrin yanması qaz şəkilli maddələrin əmələ gəlməsi ilə müşayiət olunur və bu zaman od yaranır. Beləliklə, od - qaz şəkilli mühitdə müəyyən həcmdə gedən bir yanma prosesidir.

Yanma nəticəsində qızmış havada nəfəs alma insanın tənəffüs yollarının sıradan çıxmasına, onun boğulmasına və ölümünə səbəb olur. İnsan üçün onun dərisinin yanması da təhlükəlidir. Belə ki, 30% bədəni yanmış insanın həyatda qalması şansları çox cüzidir. Əgər 2-ci dərəcəli yanma almaq üçün 71°C temperaturda 26 saniyə kifayətdirsə, artıq 100°C- də bu göstərici 15 saniyəyə qədər enmiş olur.

Yanğın zaman ayrılan yayılan tüstü onun tərkibində olan toksik maddələrin olmasından başqa görmə məsafəsinin azalmasına gətirib çıxarır ki, bu da öz növbəsində tələkəlidir, çünki insanların təhlükəsiz yerə çatması üçün təxliyyə yollarının və onların marşrut işarələrinin vizual olaraq görünməsi tələb olunur (Dadaşov, Dəmirova, 2021)

Statistik məlumatlara əsasən yanğın zamanı insanların ölüm halları baxılan amillərə görə aşağıdakı kimidir:

- bədənin yanması, 18%;
- dəm qazından zəhərlənmə, 48%;
- hidrogen-oksiddən zəhərlənmə, 16%;
- isti və digər amillərin təsiri, 18%.

Beləliklə, yanğını fiziki proses kimi araşdırdıqdan sonra onunla mübarizə aparmaq üçün hal-hazırda Azərbaycanda yüksək mərtəbəli binalarda istifadə edilən yanğın təhlükəsizliyi avadanlıq və sistemlərinin analizini verək. Əvvəlcə çoxmərtəbəli binaların bir obyekt kimi hansı hissələrdən ibarət olmasını araşdıraq. Bu tip binalarda zirzəmi qatında avtomobil parklanma sahəsi, aşağı 1-ci mərtəbədə idarə və ya müəyyən təşkilatlar, yuxarı mərtəbələrdə isə yaşayış mənzilləri yerləşir. Bundan əlavə burada köməkçi sahələrdə, məsələn sərnişin liftləri, su təchizatı sistemləri hissələri yerləşən sahələr və elektrik enerjisinin istehlakçılara paylanması sahələri də mövcuddur. Adətən qaz paylanması xətləri açıq havada eyvanlar vasitəsi ilə paylanır.

Sahələrin müxtəlif olması orada istifadə olunan təhlükəsizlik avadanlıqlarına qarşı qoyulan tələblərin də müxtəlif olmasına gətirib çıxarır. Binadakı sahələrin fuksional təyinatına görə aşağıdakı cədvəl 1-də verilmiş sistemlərə ehtiyacı olması vacibdir.

Cədvəl 1. Bina sahələrində tələb olunan təhlükəsizlik sistemlərinin ümumiləşdirilmiş cədvəli

№	Bina sahəsinin funksional təyinatı	Yanğın xəbərdarlıq sistemi	Sprinkler sistemi	Dəm qazı təhlükəsizliyi sistemi	Tüstü xaricetmə sistemi	Təmiz hava vermə sistemi	Acil durum işıqlandırma sistemi	Natural Qaz sızması sensoru
1	Avtomobil Parklanması	+	+	+	+	+	+	-
2	Offis, mağaza və ya təşkilatlar	+	-	-	-	-	+	-
3	Yaşayış mənzilləri	+	-	+	-	-	-	+
4	Lift motorxanaları	+	-	-	-	-	+	-
5	Yanğın şitləri	+	-	-	-	-	-	-
6	Su təşhizatı sahələri	+	-	-	-	-	+	-
7	Mərtəbələrdəki ümumi dəhliz sahələri	+	+	-	+	+	+	-

Aşağıdakı cədvəl 2-də Bakı şəhərində çoxmərtəbəli binaların əksəriyyətində rast gəlinən hallar öz əksini tapmışdır.

Cədvəl 2. Bakı şəhərində çoxmərtəbəli binalardakı sahələrində tələb olunan təhlükəsizlik sistemlərinin ümumiləşdirilmiş cədvəli

№	**Bina sahəsinin funksional təyinatı**	**Yanğın xəbərdarlıq sistemi**	**Sprinkler sistemi**	**Dəm qazı təhlükəsizliyi sistemi**	**Tüstü xaricetmə sistemi**	**Təmiz hava vermə sistemi**	**Acil durum işıqlandırma sistemi**	**Natural Qaz sızması sensoru**
1	Avtomobil Parklanması	+	+	-	+	-	-	-
2	Offis, mağaza və ya təşkilatlar	+	-	-	-	-	-	-
3	Yaşayış mənzilləri	-	-	-	-	-	-	-
4	Lift motorxanaları	-	-	-	-	-	-	-
5	Yanğın şitləri	-	-	-	-	-	-	-
6	Su təşhizatı sahələri	-	-	-	-	-	-	-
7	Mərtəbələrdəki ümumi dəhliz sahələri	+	-	-	+	-	-	-

İki cədvəlin anlizi artıq bizə layihələndirmədə kobud səhvlərin yol verildiyini göstərir. Nəticədə çoxmərtəbəli binaların yanğın və qaz təhlükəsizliyinin çox aşağı səviyyədə olmasını ortaya çıxarır. Əsas səhvlər mövcud standartların kobud şəkildə pozulmasıdır. Dünyada yanğın və qaz təhlükəsizliyi üçün bir neçə beynəlxalq standart və qaydalar mövcuddur. Bu standartlar müxtəlif ölkələrdəki təhlükəsizlik tələblərinə uyğun olaraq tətbiq edilir və binalarda, sənaye müəssisələrində və digər obyektlərdə yanğın və qaz təhlükələrini minimuma endirmək məqsədilə hazırlanmışdır. Bunlara İSO, NFPA, EN, UL və s. misal gətirmək olar, laki cədvəllərdən göründüyü kimi binalarda Tüstü xaric etmə sistemi olduğu halda Təmiz hava vermə sitemi quraşdırılmayıb. Nəticədə yanğın olduğu halda tüstünü xaric edilməsinə baxmayaraq təxliyə edilən insanların nəfəs alması üçün hava qıtlığının olması ortaya çıxır və afleksiya(boğulma) nəticəsində onlar həyatlarını itirirlər. Digər kobud səhv mənzillərdəki yanğın təhlükəsizliyinin təmin edilməməsidir. Mənzildə yaşğın olduğu halda adətən mərtəbələrin ümumi sahələrində yerləşdirilmiş tüstü sensorlarının işə düşməsi baş verməyəcək, belə ki, mənzillərin kip seya qapıları buna imkan verməyəcək. Bundan əlavə istifadə edilən yanğın tüstü sensorlarının ümumi dəhlizdəki hava axınlarının olması səbəbindən heç bir effekti olmayacaq, çünki tüstü bu sensorların kamerasına heç daxil olmayacaq. Gördüyümüz kimi istifadə edilən klassik sensor konfiqurasiyası passiv olduğu üçün onun effektivliyi aşağı səviyyədədir. Son zamanlar müşahidə kameralarından istifadə edərək yaradılan yanğın xəbərdarlıq sistemi cəld işləmə nöqtəyi-nəzərdən tüstü sensorlarından dəfələrlə üstündür, lakin biz onları mənzillərin daxilində işlədə bilmərik, belə ki, orada yaşayan insanların şəxsi privat həyatı problemi ortaya çıxır. Bundan əlavə video kamera qaz təhlükəsizliyi üçün yaramır. Beləliklə bizə əsasən mənzillərin yanğın mühafizəsi lazımdır və orada teste sensorlarından istifadə yenə də hava axınlarının olması və onların cəld işləməsinin aşağı olması digər həllərin təklif olunmasını labüd edir. Gördüyümüz kimi yanğın və qaz təhlükəsizliyinin həlli üçün əsas sensor probleminin həll olunması vacib şərtdir. Belə sensorlar texniki tərəqqinin inkişafı nəticəsində artıq mövcuddur və onların istifadəsi məsələnin həllinə kömək edə bilər. Gəlin onlarla tanış olaq.

Yanğın Təhlükəsizliyinin Həllində Alternativ Üsullardan istifadə

Lazerli tüstü sensoru, yanğın təhlükəsizliyinin keyfiyyətcə yeni səviyyəsini lazer texnologiyası təmin edir. Lazerli duman siqnalizatorunda LED, işıq şüasının fokuslanmasını təmin edən mini-lazerlə əvəz olunub. Bu, şüanın yaydığı işığın parlaqlığını LED-ə nisbətən 100 dəfə artırır və sensorun tüstü kamerasının divarlarından əks olunmaların qarşısını alır. Lazer şüasının boyunca optik gücləndirici yerləşdirilib, bu da şüanın tam uzunluğunda siqnalı qəbul edib, onu fotodioda ötürür. Nəticədə lazerli sensor, geniş diapazonda optik sıxlığı yüksək dəqiqliklə ölçməyə imkan verir. Yüksək həssaslıq sayəsində lazerli sensor, hər hansı digər klassik sensorlarla müqayisədə çox daha erkən yanğın ocağını aşkar edir. İyonizasiya siqnalizatorunun ilk reaksiyası o zaman müşahidə olunur ki, lazerli siqnalizatorun çıxış dəyəri artıq maksimuma çatıb və

optiko-elektron tüstü sensoru isə daha sonra reaksiya verir.

Aspirasiya yanğın sensoru, eyni effektivliyi aspirasiya yanğın siqnalizatoru təmin edir. Bu sensor, qorunan mühitdən havanı məcburi şəkildə alınaraq lazerlə izlənməklə yanğın təhlükəsini çox erkən aşkar edir. Gördüyümüz kimi bu aktiv metoda uyğun işləyən sensordur. Bu yanğın sensorunun ultra yüksək həssaslığı, yüksək hava axını sürətləri və böyük hava mübadiləsi olan zonalarda sistemin çox yaxşı effektivliyini təmin edir. Aspirasiya tüstü yanğın sensoru, digər yanğın sensorlarının yerləşdirilməsi mümkün olmayan obyektləri qorumağa imkan verir. Bu sensordan və natural qaz sensorundan birgə istifadə edərək mühafizə olunan sahələrdən hava nömunələrinin Fanlar vasitəsi ilə onlara analiz üçün verilməsi yanğın təhlükəsizliyini təmin etməyə imkan verər. Mərtəbələrdə yerləşən mənzillərin (adətən onların sayı 3-4 olur) hava nümunələrini ardıcıl olaraq onlara aid hava klapanlarını qoşmaqla həyata keçirmək olar. Onda bu 2 sensor mərtəbədəki mənzillərin və eləcə də ümumi dəhliz hissəsinin yanğın təhlükəsizliyini təmin etmiş olar.

Spektrometrik Metodlar

Yanğının erkən aşkar edilməsi və qaz təhlükəsizliyi üçün **spekroskopik metodların** tətbiqi də qənaətbəxş görünür. Spektroskopik metodlar yüksək həssaslıq və selektivlik sayəsində kimyəvi komponentlərin vaxtında aşkarlanmasını təmin edir. Spektroskopiya işığın maddə ilə qarşılıqlı təsirini təhlil edir. Yanğın zamanı yaranan qazların (CO, CO_2, H_2O, CH_4, NO_x və s.) molekullarının xüsusi vibrasiya və rotasiya spektrləri infraqırmızı və ya ultrabənövşəyi bölgədə yerləşir. Yanğın zamanı havada karbonmonoksid (CO), karbon qazı (CO_2), uçucu üzvi birləşmələr, həmçinin kömür tozları və tüstü kimi spesifik qazlar və hissəciklər əmələ gəlir. Spektroskopik metodlar bu maddələrin çox aşağı konsentrasiyalarda belə xarakterik spektral xətləri və ya udma zolaqlarını aşkar etməyə imkan verir ki, bu da açıq alovun yaranmasından əvvəl vaxtında xəbərdarlıq etməyə şərait yaradır. Məsələn, infraqırmızı spektroskopiya yanğın məhsullarının bir çoxunun intensiv udma zolaqlarına malik olduğu üçün hava tərkibinin monitorinqində geniş istifadə olunur. Diferensial lazer udma spektroskopiyası (DOAS) və kvant kaskad lazer spektrometri kimi lazer üsulları isə aşağı konsentrasiyalarda qazların aşkarlanmasında yüksək seçicilik və həssaslıq təmin edir (Dadaşov R.T., 2023).

Metan, propan, ammonyak və digər təhlükəli qazların sızmalarının nəzarəti də spektroskopik metodlarla effektiv şəkildə həyata keçirilir. Bu üsullar qazın varlığını aşkar etməklə yanaşı, onun konsentrasiyasını və dəyişmə dinamikasını müəyyən etməyə imkan verir ki, bu da partlayışların və zəhərlənmələrin qarşısını almaq üçün vacibdir.

Ultrabənövşəyi və görünən spektr bölgəsində spektroskopiya xarakterik spektral xüsusiyyətlərə malik qazların aşkarlanmasında tətbiq olunur. Raman və lazer spektroskopiyası uzaqdan monitorinqi təmin edir və böyük ərazilərdə, əlçatan olmayan yerlərdə təhlükəsizliyi qorumağa kömək edir.

İstifadə edilə bilən spektroskopik üsullar aşağıdakılardır:

- İnfraqırmızı (İQ) Spektroskopiya;
- Lazer Absorbsiya Spektroskopiyası (LAS);
- Raman Spektroskopiyası;
- Ultrabənövşəyi və Görünən Spektroskopiya.

İnfraqırmızı (İQ) Spektroskopiya:

- İQ spektroskopiya molekulların vibrasiya-rotasiya keçidlərinə əsaslanır. Yanğın məhsulları (məsələn, CO və CO_2) üçün bu keçidlər 2.5–20 mikrometr dalğa uzunluğu intervalında müşahidə olunur.
- Fourier Transform Infrared Spectroscopy (FTIR) texnologiyası geniş spektral diapazonu əhatə edir və bir neçə qazın eyni vaxtda aşkarlanmasına imkan verir. İQ spektroskopiyası həmçinin lazerlə gücləndirilmiş (məsələn, Quantum Cascade Laser - QCL) metodlarla tətbiq olunur, burada dalğa uzunluğu dəqiqliyi və yüksək həssaslıq təmin edilir.

Lazer Absorbsiya Spektroskopiyası (LAS):

- Tuned Diode Laser Absorption Spectroscopy* (TDLAS) xüsusi dalğa uzunluğunda lazerin qaz nümunəsindən keçməsi zamanı udulma səviyyəsini ölçərək konsentrasiyanı müəyyən edir.
- TDLAS yüksək zaman ayırdetməsinə malikdir və real vaxtda monitorinq üçün idealdır.
- Differential Optical Absorption Spectroscopy* (DOAS) isə geniş spektral diapazonu əhatə edərək çoxsaylı çirkləndiricilərin aşkarlanmasını mümkün edir.

Raman Spektroskopiyası:

- Raman üsulu molekulların vibrasiya spektrlərini işığın səpələnməsi əsasında müəyyən edir.
- Bu üsul qazların uzaqdan monitorinqində istifadə olunur və xüsusilə kimyəvi tərkibin dəqiq identifikasiyasına imkan verir.
- Raman spektroskopiyası tozlu və çirkli mühitlərdə belə effektivdir.

Ultrabənövşəyi və Görünən Spektroskopiya:

- Bu sahədəki metodlar əsasən ozon (O_3), NO_2 və digər qazların udma spektrlərinin aşkarlanmasına yönəlib.

Praktiki tətbiq nümunələri aşağıda verilmişdir:

- Yanğın təhlükəsizliyi sistemlərində İQ spektroskopiya sensorları yanğın zamanı əmələ gələn karbonmonoksid və digər zəhərli qazların erkən aşkarlanmasını təmin edir (Miyazaki et al., 2018).

- Sənaye obyektlərində TDLAS və DOAS metodları metan və propan qazlarının sızmasının yüksək həssaslıqla aşkar edilməsində geniş istifadə olunur (Smith & Johnson, 2020).
- Raman spektroskopiyası çətin əlçatan ərazilərdə uzaqdan monitorinq üçün əlverişlidir və qazların molekulyar tərkibini dəqiq müəyyən edir (Lee et al., 2019).

Spektroskopik metodların üstünlüklər və gələcək perspektivləri bunlardır:

- Yüksək həssaslıq və selektivlik, çox aşağı konsentrasiyaların aşkar edilməsi (ppm və ppb səviyyəsində).
- Real vaxt rejimində və davamlı monitorinq imkanı;
- Uzaqdan və kontaktsız ölçmə;
- Bir neçə qazın eyni vaxtda analizi.

Lazer texnologiyalarının inkişafı, portativ və ağıllı sensorların hazırlanması spektroskopik metodların tətbiq sahəsini daha da genişləndirir. Süni intellekt və maşın öyrənməsi ilə inteqrasiya nəticəsində qaz aşkarlama sistemlərinin doğruluğu və operativliyi artırılır.

Nəticə

Çoxmərtəbəli binaların yanğın təhlükəsizliyi məsələlərinin həll edilməsinin əsas addımlarından biri, tikinti və yanğın standartlarına ciddi riayət etmək, yanğına qarşı davamlı materiallar və texnologiyalar istifadə etmək, həmçinin insanlara fövqəladə hallarda düzgün davranış qaydalarını öyrətməkdir. Bundan əlavə yanğın və qaz təhlükəsizliyinin təmin edilməsi üçün layihə həllərinin, texniki mühafizə vasitələrinin düzgün seçilməsi çox vacibdir. Məqalədə apardığımız analiz çoxmərtəbəli binaların tələb olunduğu kimi mühafizə edilməməsi aşkar edilmişdir. Burada əsas məsələnin yaşayış məkanlarının-mənzillərin mühafizəsi üçün klassik metodların kifayət etməməsi və onları müasir üsullarla, o cümlədən lazer və aspirasion sensorlar və spektroqrafik metodlardan istifadə edərək optimallaşdırılması təklif olunmuşdur. Spektroqrafiya, erkən yanğın aşkarlanması metodlarından biri olaraq, təhlükəsizliyi artırmaq üçün güclü bir texnologiyadır. Bu, yanğına cavab müddətini əhəmiyyətli dərəcədə azalda bilər, insanların yanğın yayılmadan əvvəl təxliyə edilməsinə və söndürmə sistemlərinin işə salınmasına imkan verir. Digər sensorlar və sistemlərlə birləşdirildikdə, spektroqrafiya müasir bina təhlükəsizlik sistemlərinin ayrılmaz hissəsinə çevrilə bilər. Spektroqrafiya ilə erkən yanğın aşkarlama sisteminin effektiv işləməsi üçün sensorları düzgün kalibrləmək, temperatur, rütubət və digər parametrləri, həmçinin binaların xüsusiyyətlərini nəzərə almaq lazımdır. Bu, yanğınların düzgün və vaxtında diaqnozunu təmin edəcək və səhv, yalnış siqnal və ya gözardı edilmiş təhlükələrin qarşısını almağa kömək edəcəkdir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Риски гибели и вреда здоровью городского и сельского населения России при пожарах (1996–2015 ГГ.): журнал Медико-биологические и социально-сихологические проблемы безопасности в чрезвычайных ситуациях. 2016. № 4 / В.И. Евдокимов, В.И. Сибирко, Н.А.Мухина, Р.А. Фархатдинов.
2. Эвакуация и поведение людей при пожарах: учеб. пособие / Холщевников В. В., Самошин Д. А., Парфененко А. П., Кудрин И. С., Истратов Р. Н., Белосохов И. Р. – М. : Академия ГПС МЧС России, 2015, 262 с.
3. Dadaşov R.T., Dəmirova C.R. "Elektron yanğın təhlükəsizlik sistemlərinin analizi" Azərbaycan Ali Texniki Məktəblərinin Xəbərlər, PAHTEI, Refereed & reviewed Journal, E-ISSN: 2674-5224, VOLUME 11 ISSUE 07, 2021, 35-43.
4. Dadaşov R.T. Yüksək çoxmərtəbəli binalarda elektron yanğin təhlükəsizlik sistemlərinin topologiyalarinin analizi. "Müasir Şəraitdə Mülki Müdafiə: Problemlər və Perspektivlər" mövzusunda Azərbaycan Respublikası Fövqaladə Hallar Nazirliyinin Akademiyası, II Beynəlxalq seminar, Bakı, 01 Mart 2023.
5. Miyazaki, T., et al. (2018). Infrared Spectroscopic Techniques for Early Fire Detection. Journal of Fire Science, 36(2), 85-99.
6. Smith, J., & Johnson, R. (2020). Application of Tuned Diode Laser Absorption Spectroscopy in Industrial Gas Leak Detection. Sensors and Actuators B: Chemical, 308, 127701.
7. Lee, H., Kim, S., & Park, J. (2019). *Remote Raman Spectroscopy for Gas Monitoring in Hazardous Environments.Applied Spectroscopy, 73(7), 761-771.

DOİ: 10.32010/JWLU4598

ÜÇBUCAQLARIN BƏRABƏRLİYİ

Gülbəniz Vüqar DADAŞOVA
Mingəçevir Dövlət Universiteti
E-mail: gulbenizdadashva@gmail.com

Xülasə: Yüksək intellektə və güclü yaradıcı potensiala malik, bu keyfiyyətləri öz peşə fəaliyyətində ifadə edə bilən şəxsiyyətlərin yetişdirilməsi müasirləşən məktəbin ən mühüm və prioritet vəzifələrindən biridir. Riyaziyyat təhsili öz fənninin spesifik xüsusiyyətinə görə şagirdlərin intellektinin inkişafına əhəmiyyətli töhfə verir və onların yaradıcılıq qabiliyyətlərinin inkişafı üçün geniş, lakin qeyri-kafi potensiala malikdir.
Riyaziyyat təhsilində məktəblilərin elmi yaradıcılığının inkişafı probleminin həllinə yanaşmalardan biri ibtidai və orta məktəb şagirdlərində yaradıcılığın inkişaf etdirilməsinin effektiv vasitəsi kimi açıq tipli problemlərin kurrikuluma daxil edilməsi ola bilər. Bu cür problemlər dəqiq şərtlər, əsaslandırma və ya nəticələr tələb etmir: təklif olunan həll ya şərtlərə aiddir və istənilən nəticəyə gətirib çıxarır, ya da yoxdur. Açıq tipli problemlərə daha çox praktiki fəaliyyətlərdə rast gəlinir, buna görə də məktəb riyaziyyatı kurikulumu şagirdlərin onları həll etmək bacarığını xüsusi olaraq gücləndirməlidir.
Buna görə məktəb riyaziyyatı kurikulumunda bu cür problemlərin potensial istifadəsinin araşdırılması, habelə məktəblilərin riyaziyyat təhsili üçün mövcud yenilənmiş federal standarta uyğun olaraq bu cür problemlərin sistemlərinin və onlarla işləmək üsullarının yaradılması xüsusi əhəmiyyət kəsb edir.
Bu məqalədə açıq tipli təhsil problemlərinin nəzərdən keçirilməsi, tələbələrin tənqidi təfəkküründün inkişafına kömək etmək üçün materialın yaradıcı və mənalı qavranılmasının təmin edilməsi əsasında həndəsi məsələlər sisteminin (yəni bərabərlik işarələri üçbucaqları) qurulması imkanları təsvir edilmişdir.
Açar sözlər: riyaziyyat təhsili, açıq tipli məsələlər, yaradıcılığın inkişafı, tənqidi təfəkkür, həndəsi məsələlər, üçbucaqlar, kurikulumun təşkili, şagirdlərin intellektual inkişafı

EQUALISITY OF TRIANGLES

Gulbeniz Vugar DADASHOVA
Mingachevir State University
E-mail: gulbenizdadashva@gmail.com

Summary: In conclusion, one of the most crucial and top priorities of a modernized school is the development of people with high intellect and great creative potential who can demonstrate these traits in their professional endeavors. Because of the unique character of the topic, mathematics education has a large but limited potential for developing students' creative talents. It also significantly contributes to the development of students' intellect.
Including open-type issues in the curriculum as a successful way to foster creativity in primary and secondary school pupils is one way to address the issue of how to foster scientific innovation in students learning mathematics. These issues don't need exact criteria, explanations, or outcomes; the suggested solution either meets the requirements and produces the intended outcome, or it doesn't. Since students are more likely to encounter open-type issues during practical exercises, the school mathematics curriculum should explicitly focus on improving their problem-solving skills.
As a result, it is especially crucial to research how these problems might be used in the mathematics curriculum of schools and to develop systems of these problems and approaches to solving them in compliance with the most recent revision of the federal standard for teaching mathematics to schoolchildren.
The possibilities of creating a system of geometric issues (triangles of equal signs) based on open-type educational challenges are discussed in this article. This ensures that the content is seen creatively and meaningfully, which will aid in the development of students' critical thinking skills.
Keywords: mathematics education, open-ended problems, creativity development, critical thinking, geometry problems, triangles, curriculum design, students' intellectual development

---

РАВЕНСТВО ТРЕУГОЛЬНИКОВ

Гюльбениз Вугар ДАДАШОВА
Мингячевирский государственный университет
E-mail: gulbenizdadashva@gmail.com

Резюме: В заключение следует отметить, что одним из важнейших и приоритетных направлений современной школы является воспитание людей с высоким интеллектом и большим творческим потенциалом, способных продемонстрировать эти качества в своей профессиональной деятельности. В силу уникальности предмета математическое образование обладает большим, но ограниченным потенциалом для развития творческих способностей учащихся. Оно также вносит значительный вклад в развитие интеллекта учащихся.
Включение задач открытого типа в учебную программу как успешного способа развития творческих способностей учащихся начальной и средней школы — один из способов решения проблемы стимулирования научных инноваций при изучении математики. Эти задачи не требуют точных критериев, объяснений или результатов; предлагаемое решение либо соответствует требованиям и приводит к желаемому результату, либо нет. Поскольку учащиеся чаще сталкиваются с задачами открытого типа во время практических занятий, школьная программа по математике должна быть четко ориентирована на развитие их навыков решения задач. В связи с этим особенно актуально исследование возможностей использования этих задач в школьной программе по математике, а также разработка систем этих задач и подходов к их решению в соответствии с последней редакцией федерального государственного стандарта обучения математике школьников.
В данной статье рассматриваются возможности создания системы геометрических задач (треугольников со знаками равенства) на основе учебных задач открытого типа. Это обеспечивает творческое и содержательное восприятие материала, что будет способствовать развитию критического мышления учащихся.
Ключевые слова: математическое образование, открытые задачи, развитие творчества, критическое мышление, геометрические задачи, треугольники, разработка учебной программы, интеллектуальное развитие учащихся

Giriş

Problem qoyuluşunu daha ətraflı müzakirə edək.

Əvvəlcə üçbucağın elementlərini onun tərəfləri və bucaqlarını adlandıraq. Üçbucaq bərabərliyinin üç əsas əlamətinin hər biri bir üçbucağın üç elementinin (ən azı biri xətti olan) digər üçbucağın üç elementinə müvafiq olaraq bərabər olduğu müəyyən edilərsə, iki üçbucağın bərabər olduğu qənaətinə gəlməyə imkan verir. Birinci sınaqda bu elementlər iki tərəf və aralarındakı bucaqdır, ikincidə, üçbucağın bir tərəfi və ona iki bitişik bucağı; üçüncü tərəfdə isə üç tərəf. Burada sual yaranır: birinin digər üç elementi digərinin uyğun elementlərinə bərabərdirsə, iki üçbucaq bərabərdirmi?

Əsas hissə

Əvvəlcə digər imkanları sadalayaq. Tədqiq olunan elementlər kimi bir tərəfi və iki bucağı götürsək, onda onların hər ikisi bu tərəfə bitişik ola bilər (bu hal üçbucağın bərabərliyinin ikinci testində nəzərdən keçirilir) və ya başqa variant mümkündür: bir bucaq bitişik, digəri isə əksinədir. Beləliklə, biri bitişik, digəri isə bu tərəfə əks olan tərəf və iki bucaq əsasında üçbucağın bərabərliyinin sınağı mümkündür. Bundan əlavə, iki tərəfi və bir bucağı nəzərə alsaq, bu tərəflər arasında ola bilər (bu hal üçbucağın bərabərliyinin ilk testində nəzərdən keçirilir) və ya tərəflərdən birinə qarşı ola bilər. Bu, iki tərəfə və onlardan birinə qarşı olan bucağa əsaslanan üçbucaq bərabərliyinin sınağı sualını doğurur. Nəhayət, bir üçbucağın üç elementi kimi üç bucağı götürə bilərik və üç bucaq əsasında üçbucağın bərabərliyi sınağını nəzərdən keçirə bilərik. Xatırladaq ki, üç tərəfi element kimi nəzərdən keçirmək üçbucaq bərabərliyinin əsas testlərinin üçüncü hissəsini təşkil edir.

Beləliklə, üç ehtimal var. Onlardan hansının həqiqi faktlar olmaqla üçbucaq uyğunluğunun “yeni” sübutlarını verdiyini müəyyən etmək qalır.

Hipotez 1. Əgər bir üçbucağın tərəfi və iki bucağı (bu tərəf üçün bitişik və əks) müvafiq olaraq digər üçbucağın tərəfinə və iki bucağına (bu tərəf üçün bitişik və əks) bərabərdirsə, belə üçbucaqlar bərabərdir.

Problemin həlli prosesinin açıqlığı haqqında fikir verən çoxsaylı mümkün sübut variantlarından ikisini eyni vaxtda göstərərək, bu fərziyyənin doğru olduğunu sübut etməyə çalışaq.

İsbatı 1. ABC və $A_1B_1C_1$ üçbucaqlarını nəzərdən keçirək, bunlar üçün $AB = A_1B_1$, $\angle A = \angle A_1$, $\angle C = \angle C_1$. Bu üçbucaqların konqruent olduğunu sübut etmək istəyirik.

Üçbucaqların bərabərliyinin 1 əlaməti odur ki, bir üçbucağın iki tərəfi və aralarındakı bucaq başqa bir üçbucağın iki tərəfinə və aralarındakı bucağa bərabərdirsə, belə üçbucaqlar bərabərdir.

Misal: ABC və DEF üçbucaqları bərabərdir, əgər:
AB = DE
AC = DF

$\angle A = \angle D$


Əlbəttə ki, üçbucaqların uyğunluğu həmişə bir üçbucağı digərinin üzərinə qoymaqla sübut edilə bilər. Amma etiraf etməlisən ki, bu qeyri-ciddidir. Üç teorem olduqda və onlar sübut oluna bildiyi halda superpozisiya necə ola bilər.

Üçbucaqların bərabərliyinin üç əlamətinə baxaq.

Teorem 1. Üçbucaqların iki tərəfə bərabərliyi və aralarındakı bucaq.

Bir üçbucağın iki tərəfi və aralarındakı bucaq müvafiq olaraq digər üçbucağın iki tərəfinə və aralarındakı bucağa bərabərdirsə, belə üçbucaqlar bərabərdir.

$AC = A_1C_1$, $AB = A_1B_1$, $\angle A = \angle A_1$ olan iki $\triangle ABC$ və $\triangle A_1B_1C_1$ üçbucaqları verilmişdir.



Şəkil 1.

$\triangle ABC = \triangle A_1B_1C_1$ olduğunu isbat edək.

İsbat:

$\triangle A_1B_1C_1$ $\triangle ABC$ üzərinə qoyulduqda, A_1 təpəsi A təpəsi ilə üst-üstə düşür və A_1B_1 tərəfi AB tərəfinə, AC A_1C_1 tərəfinə qoyulur.

A_1B_1 tərəfi AB tərəfi ilə, B təpəsi B_1 təpəsi ilə, A_1C_1 tərəfi AC tərəfi ilə, C təpəsi C_1 təpəsi ilə üst-üstə düşür təpəsi ilə üst-üstə düşür.

Bu o deməkdir ki, B və B_1, C və C_1 təpələri birləşdirilir.

$B_1C_1 = BC$, buna görə də $\triangle ABC$ $\triangle A$ 1 B 1 C ilə birləşdirilir, onda $\triangle ABC = \triangle A_1B_1C_1$.

Teorem isbat olunmuşdur.

Qeyd:


Birinci meyar üçbucaqların bərabərliyinin ikinci və üçüncü meyarlarını sübut etmək üçün istifadə olunur.

Üçbucaqların bərabərliyinin ikinci əlaməti.

Üçbucaqların bərabərliyinin ikinci əlaməti o şərtdir ki, iki üçbucağın bir tərəfi və bu tərəfə bitişik iki bucağı müvafiq olaraq digər üçbucağın bir tərəfinə və bu tərəfinə bitişik iki bucağı bərabər olduqda bərabər hesab edilir.

Misal:

ΔABC və ΔDEF, əgər $AB=DE$, $\angle A=\angle D$, $\angle B=\angle E$ olarsa, onda $\Delta ABC = \Delta DEF$.



Şəkil 2.

Teorem 2. Yan-yana üçbucaqlar və ona bitişik iki bucaq bərabərliyi.

Bir üçbucağın bir tərəfi və iki bitişik bucağı müvafiq olaraq digər üçbucağın bir tərəfinə və iki bitişik bucağına bərabərdirsə, belə üçbucaqlar bərabərdir.

Verilmiş iki üçbucaq $\triangle ABC$ və $\triangle A_1B_1C_1$, bunun üçün:

$AC = A_1C_1$, $\angle A = \angle A_1$, $\angle C = \angle C_1$.

△ABC = △ $A_1B_1C_1$olduğunu isbat edək.

İsbat:

△ABC-ni △ $A_1B_1C_1$ üzərinə qoyaraq , A təpəsini A_1 təpəsi ilə birləşdiririk , B və B_1 təpələri A_1C_1- in eyni tərəfində yerləşir.

Onda AC A_1C_1ilə üst-üstə düşür , C təpəsi C_1 ilə üst-üstə düşür, çünki AC = A_1C_1 olduğunu bilirik.

∠A = ∠A_1 olduğunu bildiyimiz üçün AB A_1B_1üzərinə qoyulur.

∠C = ∠C_1 olduğunu bildiyimiz üçün CB B_1C_1üzərinə qoyulur.

B təpəsi B təpəsi ilə üst-üstə düşür.

Əgər AB A_1B_1, BC B_1 C_1 ilə birləşdirilirsə, △ABC △ $A_1B_1C_1$ ilə birləşdirilir, buna görə də △ABC = △$A_1B_1C_1$ deməkdir.

Teorem isbat edilmişdir.

Üçbucaqların bərabərliyinin üçüncü əlaməti

Əgər bir üçbucağın üç tərəfi müvafiq olaraq digər üçbucağın üç tərəfinə bərabərdirsə, belə üçbucaqlar konqruentdir. Məsələn, ABC üçbucağında tərəflər:

AB = XY,

BC = YZ,

CA = ZX,

onda ABC və XYZ üçbucaqları bərabərdir.

Teorem 3. Üçbucaqların üç tərəfi bərabərliyi.

Bir üçbucağın üç tərəfi müvafiq olaraq digər üçbucağın üç tərəfinə bərabərdirsə, belə üçbucaqlar konqruentdir.

Verilmiş iki üçbucaq △ABC və △ $A_1B_1C_1$, bunun üçün:

AC = A_1C_1,

AB = A_1B_1,

CB = B_1C_1.

△ABC = △ $A_1B_1C_11$ olduğunu isbat edək.

Üçbucaqlar üçün bərabərlik meyarının 3-cü isbatı:

△ABC-ni △ $A_1B_1C_1$- ə elə tətbiq edək ki, A təpəsi A_1 təpəsi ilə, B təpəsi B_1 təpəsi ilə üst-üstə düşsün, C təpəsi və C_1 təpəsi A_1B_1 xəttinin müxtəlif tərəflərində olsun.

AC = A_1C_1, BC = B_1C_1, onda △ A_1C_1C və △ B_1C_1C ikitərəflidir.


∠1=∠2, ∠3=∠4 (ikitərəfli üçbucağın xassəsinə görə), deməli,

∠A_1CB_1 = ∠$A_1C_1B_1$.

AC = A_1C_1, BC = B_1C_1.

∠C = ∠C_1 , onda △ABC = △ $A_1B_1C_1$ (üçbucaqların bərabərliyinin birinci xassəsinə görə).


Teorem isvat olunmuşdur.



Üç əsas teoremdən əlavə, üçbucaqların bərabərliyinin bir neçə daha əlamətini xatırlayaq.


Üçbucaqların bərabər olub-olmaması təkcə tərəfləri və bucaqları ilə deyil, həm də hündürlüyü, medianı və bissektrisa ilə müəyyən edilə bilər.

Bir üçbucağın digər tərəfinə endirilən bucaq, bu bucağın qarşı tərəfi və hündürlüyü müvafiq olaraq digər üçbucağın bucağına, tərəfinə və hündürlüyünə bərabərdirsə, belə üçbucaqlar bərabərdir.




Şəkil 3.

Bir üçbucağın iki tərəfi və aralarındakı medianı müvafiq olaraq iki tərəfə və digər üçbucağın medianasına bərabərdirsə, belə üçbucaqlar bərabərdir.




Şəkil 4.

Bir üçbucağın digər iki tərəfinə çəkilmiş bir tərəfi və iki medianı digər üçbucağın müvafiq olaraq bir tərəfinə və iki mediana bərabərdirsə, belə üçbucaqlar da bərabərdir.




Şəkil 5.

Bir üçbucağın iki tərəfi və onların arasındakı bissektrisa müvafiq olaraq iki tərəfə və digər üçbucağın bissektrisasına bərabərdirsə, bu üçbucaqlar bərabərdir.



Şəkil 6.

Bir üçbucağın digər tərəfə çəkilmiş tərəfi, medianı və hündürlüyü müvafiq olaraq digər üçbucağın tərəfinə, mediana və hündürlüyünə bərabərdirsə, iki üçbucaq bərabərdir.



Şəkil 7.

Gördüyünüz kimi, üçbucaqların bərabərliyini isbat etməyin bir çox yolu var. Bu əlamətlərdən üçü ən vacibi hesab olunur.

Nəticə

Aydındır ki, üçbucağın digər elementləri nəzərə alınmaqla, xüsusiyyətlərin siyahısını daha da davam etdirmək olar: yazılan, kəsilmiş və təsvir edilmiş dairələrin radiusları, xarici bucaqlar, iki tərəfin üçüncü tərəfə proyeksiyaları, bisektorun tərəfi ayırdığı seqmentlər və s.

Beləliklə, açıq tipli tədris tapşırığı üçbucaqların bərabərlik əlamətləri ilə bağlı materialı yaradıcı şəkildə dərk etməyə və şagirdlərə onların həm faktiki, həm də sübut bazasını genişləndirməyə imkan verdi.

ƏDƏBİYYAT SİYAHISI:

1. Горев П. М. Формирование творческой деятельности школьников в дополнительном математическом образовании: дисс. ... канд. пед. наук. - Киров: ВятГГУ, 2006. - 158 с.
2. Горев П. М. Приобщение к математическому творчеству: Дополнительное математическое образование: монография. - Saarbrucken: LAP LAMBERT Academic Publishing GmbH & Co. KG (Germany), 2012. - 156 с.
3. Утёмов В. В. Задачи открытого типа как средство развития креативности учащихся средней школы //Концепт: научно-методический электронный журнал официального сайта эвристических олимпиад «Совёнок» и «Прорыв». - Декабрь 2011, ART 1102. - Киров, 2011 г. - URL:http://www.covenok.ru/koncept/2011/1102.htm.
4. Утёмов В. В. Развитие креативности учащихся основной школы: Решая задачи открытого типа: монография. - Saarbrucken: LAP LAMBERT Academic Publishing GmbH & Co. KG (Germany), 2012. - 186 с.
5. Горев П. М., Утёмов В. В. Формула творчества: Решаем открытые задачи. Материалы эвристической олимпиады «Совёнок»: учебно-методическое пособие. - Киров: Изд-во ВятГГУ, 2011. - 288 с.

DOİ: 10.32010/MGJR9556

VEB SAYTLARIN DIZAYNINDA İSTIFADƏÇI MƏMNUNLUĞU TƏLƏBLƏRI

Fatimə Eldəniz ƏHMƏDLI[1]
Azər Sədrəddin HÜSEYN[2]
Mingəçevir Dövlət Universiteti
E-mail: fatima.ahmadli.itm24@mdu.edu.az

Xülasə: Müasir veb sayt uğuru dörd əsas komponentdən asılıdır: intuitiv naviqasiya, yüksək performans, mobil uyğunluq və tam əlaçatanlıq. Bu prinsiplərə riayət etməklə həm istifadəçi məmnunluğu artır, həm də axtarış sistemlərində yüksək sıralama təmin edilir. Veb saytın uğuru texniki mükəmməlliyin və istifadəçi mərkəzli dizaynın harmoniyasından yaranır.
Açar sözlər: Performans, mobil dizayn,əlçatanlıq,səhifə yükləmə sürəti,veb-sayt

USER SATİSFACTİON REQUİREMENTS İN WEBSİTE DESİGN

Fatima Eldaniz AHMADLI[1]
Azer Sadraddin HUSEYN[2]
Mingachevir State University
E-mail: fatima.ahmadli.itm24@mdu.edu.az

Abstract: The success of a modern website depends on four key components: intuitive navigation, high performance, mobile compatibility, and full accessibility. Adhering to these principles increases both user satisfaction and ensures high rankings in search engines. The success of a website arises from the harmony of technical excellence and user-centered design.
Keywords: Performance, mobile design, accessibility, page load speed, website.

ТРЕБОВАНИЯ К УДОВЛЕТВОРЕННОСТИ ПОЛЬЗОВАТЕЛЕЙ ПРИ РАЗРАБОТКЕ ВЕБ-САЙТОВ

Фатима Эльданиз АХМАДЛИ[1]
Азер Садраддин ГУСЕЙН[2]
Мингячевирский государственный университет
Электронная почта: fatima.ahmadli.itm24@mdu.edu.az

Резюме: Успех современного веб-сайта зависит от четырёх ключевых компонентов: интуитивной навигации, высокой производительности, совместимости с мобильными устройствами и полной доступности. Соблюдение этих принципов повышает как удовлетворенность пользователей, так и обеспечивает высокие позиции в поисковых системах. Успех веб-сайта — это результат гармонии технического совершенства и дизайна, ориентированного на пользователя.
Ключевые слова: Производительность, мобильный дизайн, доступность, скорость загрузки страницы, веб-сайт

Giriş

Müasir rəqəmsal dövrdə veb saytlar bizneslər üçün əsas ünsiyyət və marketinq vasitəsinə çevrilib. İstifadəçi məmnunluğu isə uğurlu veb sayt dizaynının əsas prinsipidir. İstifadəçilərin saytda qalma müddəti, geri dönmə tezliyi və ümumi təcrübəsi birbaşa dizaynın keyfiyyətindən asılıdır. Bu məqalədə, veb sayt dizaynında istifadəçi məmnunluğunu təmin etmək üçün əsas tələblər araşdırılacaq.

Veb Sayt Dizaynında İstifadəçi Məmnuniyyətini Artıran Əsas Prinsiplər

Veb saytın naviqasiyasının əsasını aydın və anlaşılan menyu quruluşu təşkil edir. İdeyal menyu, istifadəçinin axtardığı məzmuna 3 klikdən çox olmayaraq çata bilməsi prinsipi əsasında qurulmalıdır. Əsas menyu bölmələri qısa, anlaşılan və birbaşa məzmunu əks etdirən ifadələrdən ibarət olmalıdır. "Xidmətlər", "Haqqımızda", "Əlaqə" kimi anadangəlmə bölmələr yanaşı, hər bir biznesin özünəməxsus ehtiyaclarına uyğun bölmələr də dizayn edilməlidir. Məsələn, bir e-ticarət saytı üçün "Məhsullar", "Kampaniyalar", "Brendlər" kimi bölmələr əsas menyuda yer ala bilər. Hər bir alt menyu isə əsas bölmələri tamamlayan və istifadəçini daha dəqiq məzmuna yönləndirən struktur kimi işləməlidir.

Məzmunu zəngin olan veb saytlarda axtarış funksiyası istifadəçi təcrübəsinin ayrılmaz hissəsidir. Axtarış paneli adətən saytın yuxarı hissəsində, asanlıqla görünən və çatılan bir yerdə yerləşdirilməlidir. Səmərəli axtarış funksiyası təkcə açar sözlərə əsasən nəticə göstərməklə kifayətlənməməli, həm də yazılan sözün avtomatik tamamlanması, sinonim axtarışı və səhv yazılışların düzəldilməsi kimi imkanlara malik olmalıdır. Breadcrumb naviqasiyası isə istifadəçiyə saytın iyerarxik quruluşu içərisində harada dayandığını vizual olaraq göstərir. Bu, xüsusilə dərin iyerarxiyaya malik saytlarda istifadəçinin öz yerini oriyentasiyasını asanlaşdırır və bir neçə səviyyə geriyə qayıtmağa imkan verir. Məsələn, "Ana Səhifə > Elektronika > Smartfonlar > iPhone" kimi bir breadcrumb zənciri istifadəçiyə həm cari kateqoriyanı, həm də ümumi məkan mənzərəsini başa düşməyə kömək edir.

Məntiqi informasiya arxitekturası saytın uğurunun əsas amillərindən biridir. Bu, məzmunun istifadəçinin gözləntiləri və mental modeli ilə uyğunlaşdırılaraq qruplaşdırılması və təsnif edilməsi prosesidir. Effektiv informasiya arxitekturası qurmaq üçün istifadəçi qruplarının profilini, ehtiyaclarını və axtarış davranışlarını anlamaq zəruridir. Kard çeşidləmə (card sorting) kimi metodlardan istifadə edərək istifadəçilərin informasiyanı necə qruplaşdırdığını öyrənmək mümkündür. Məzmun məntiqi kateqoriyalara bölünməli, lakin çox dərin iyerarxiyadan qaçınmalıdır. Həmçinin, əlaqəli məzmun blokları, "Sizə həmçinin baxa bilərsiniz" kimi bölmələr və açar səhifələrə keçidlərin strategik yerləşdirilməsi istifadəçinin saytda asanlıqla naviqasiya etməsinə və əlaqəli məlumatları kəşf etməsinə imkan yaradır. Bu yanaşma təkcə istifadəçi məmnunluğunu artırmaqla kifayətlənmir, həm də saytda keçirilən vaxtı və dərin əlaqələri artırır.

Veb Sayt Dizaynı: Əsas Problemlərin Həlli Yolları

Veb saytın sürəti istifadəçi məmnunluğuna birbaşa təsir göstərir. Araşdırmalar göstərir ki, səhifə yüklənmə müddəti 3 saniyəni keçdikdə, istifadəçilərin 40%-dən çoxu saytı tərk edir. Səhifə yüklənmə sürətini yaxşılaşdırmaq üçün bir sıra tədbirlər həyata keçirilməlidir:

- Server cavab müddətinin optimallaşdırılması - Yaxşı hosting seçimi və server konfiqurasiyası
- Kontentın ölçüsünün azaldılması - Gereksiz elementlərin çıxarılması
- CDN (Content Delivery Network) istifadəsi - Statik faylların yaxın serverlərdən yüklənməsi
- GZIP sıxışdırmanın aktiv edilməsi - Verilən ötürülməsinin sıxışdırılması

Veb saytlarda ən çox yer tutan elementlər şəkillər və media fayllardır. Bunların düzgün optimallaşdırılması sayt sürətini əhəmiyyətli dərəcədə yaxşılaşdıra bilər:

- Müasir formatların seçilməsi - WebP formatının dəstəkləndiyi brauzerlər üçün tətbiqi
- Şəkil ölçülərinin optimallaşdırılması - Ekran ölçüsünə uyğun şəkillərin yüklənməsi
- Lazy Loading tətbiqi - Görünən sahədə olmayan şəkillərin gecikdirilmiş yüklənməsi
- Şəkil sıxışdırma alətlərindən istifadə - Keyfiyyət itkisi olmadan fayl ölçüsünün azaldılması.

Veb saytın texniki infrastrukturu performans üçün həlledici əhəmiyyət kəsb edir:

- CSS və JavaScript fayllarının minimallaşdırılması - Boşluqların və şərhlərin silinməsi
- Brauzer keş strategiyasının qurulması - Təkrar ziyarətlərdə sürətin artırılması
- Kritik CSS-nin inline edilməsi - İlk məzmunun tez göstərilməsi
- Lazımsız kitabxana və pluginlərin silinməsi - Kod əsarətinin azaldılması
- Third-party skriptlərin asinxron yüklənməsi - Əsas məzmunun bloklanmaması

Bu optimallaşdırma tədbirləri həm istifadəçi təcrübəsini yaxşılaşdıracaq, həm də axtarış sistemlərində saytın sıralamasını yüksəldəcəkdir.

Mobil cihazların internet istifadəsindəki dominant mövqeyi nəzərə alaraq, responsiv dizayn müasir veb inkişafın əsas tələbi halına gəlmişdir. Responsiv dizayn tək bir veb saytın bütün ekran ölçülərində avtomatik olaraq uyğunlaşması prinsipinə əsaslanır:

- Fluid Grid Sistemləri - Faiz əsaslı enlilikdən istifadə etməklə sabit ölçülərdən qaçınmaq
- Media Sorğuları - Müxtəlif ekran ölçüləri üçün xüsusi CSS qaydalarının tətbiqi
- Breakpoint-lərin Strategiyası - Cihaz növündən asılı olmayaraq məzmunun optimallaşdırılması
- Dinamik Şəkil Ölçüləri - Ekran ölçüsünə uyğun şəkil versiyalarının yüklənməsi

Mobil cihazlar üçün xüsusi olaraq optimize edilmiş interfeys elementləri istifadəçi təcrübəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırır:

- Touch-Optimized Elementlər - Barmaqla toxunma üçün optimal ölçülərdə düymələr və linklər (minimum 44x44 px)
- Mobil Naviqasiya Modelləri - Hamburger menyular, tab bar-lar və sürüşdürmə menyular
- Form Optimallaşdırması - Mobil klaviatura növlərinin aktivasiyası (email, telefon nömrəsi)
- Şəraitə Uyğun Navigasiya - GPS və mobil sensorlardan istifadə edən funksionallıq

- Qaydalı Scrolling - Ani atlamaların qarşısını almaq üçün səthi idarəetmə

Mobil şəbəkə şəraitində sürətli işləmə üçün xüsusi optimallaşdırma tədbirləri tələb olunur:

- Mobil Şəbəkə Şəraitinə Uyğunlaşma - 3G/4G/5G şəbəkələrində səmərəli işləmə
- Progressive Web App (PWA) Texnologiyası - Oflayn işləmə və app-bənzəri təcrübə
- Critical Rendering Path Optimallaşdırması - Əsas məzmunun prioritet yüklənməsi
- Third-Party Skriptlərin İdarəsi - Performansa təsir edən xarici elementlərin optimallaşdırılması
- Mobil Cache Strategiyaları - Data istifadəsinin azaldılması üçün effektiv keşləmə

Bu üç əsas sahədə həyata keçiriləcək optimallaşdırma tədbirləri, veb saytın bütün cihazlarda keyfiyyətli istifadə təcrübəsi təmin etməsinə şərait yaradacaq.

Rəng seçimi istifadəçilərin ilk təəssüratını formalaşdıran əsas amillərdən biridir. Düzgün rəng strategiyası həm emosional təsir gücünə malikdir, həm də istifadəçi təcrübəsini yaxşılaşdırır:

- Rəng Psixologiyası - Hər bir rəngin istifadəçidə yaratdığı psixoloji təsirin nəzərə alınması (məsələn, göy rəngin etimad, yaşıl rəngin təbiiilik hissi verməsi)
- Rəng Kontrastı - Mətn və fon rəngləri arasında kifayət qədər kontrastın təmin edilməsi (WCAG standartlarına uyğun)
- Məhdud Rəng Palitrası - 3-5 əsas rəngdən ibarət uyğun palitranın yaradılması
- Brand Identity - Şirketin brend rəngləri ilə uyğunluğun qorunması

Yazı tipləri və mətnin təqdimatı informasiyanın asanlıqla qavranılmasında həlledici rol oynayır:

Yazı Tipi Seçimi - Oxunaqlı və professional görünən yazı tiplərinin seçilməsi (Sans-serif yazı tipləri digital mühit üçün daha uyğundur)

- Yazı Ölçüsü İyerarxiyası - Başlıq, alt başlıq və əsas mətn üçün müvafiq ölçülərin müəyyən edilməsi
- Sətir Uzunluğu - Optimal oxuma üçün 50-75 simvol uzunluğunda sətirlər
- Sətir Hündürlüyü - Mətnin sıx görünməməsi üçün 1.4-1.6 sətir hündürlüyü
- Font Ağırlıqları - Mühüm məzmunu vurğulamaq üçün müxtəlif font ağırlıqlarından istifadə
- Vizual elementlərin düzülüşü və məkanın idarə edilməsi istifadəçinin diqqətinin istiqamətləndirilməsində əhəmiyyətli rol oynayır:
- Ağ Məkanın Strategiyası - Elementlər arasında kifayət qədər boşluq buraxılması və nəfəs alan dizayn yaradılması
- Vizual Fokus Nöqtələri - Əsas hərəkətə çağırışların və mühüm məlumatların vizual cəhətdən vurğulanması
- Grid Sistemləri - Müntəzəm və uyğun düzülüş üçün grid sistemlərinin tətbiqi
- Keyfiyyətli Qrafik Elementlər - Vektor ikonları, yüksək keyfiyyətli şəkillər və professionallıq təəssüratı yaradan vizuallar
- Düz xətt və Düzlük - Elementlərin düz xətt üzrə düzülməsi və vizual tarazlığın qorunması
- Bu üç əsas komponent - rəng, tipografiya və kompozisiya - birlikdə işlənərək həm estetik cəhətdən cəlbedici, həm də funksional vizual dizayn yaradılmasına imkan verir.

Bütün istifadəçilərin fiziki qabiliyyətlərindən asılı olmayaraq veb saytdan tam istifadə edə bilməsi əsas hüquqdur:

- Tam Klavye Naviqasiyası - Bütün funksional elementlərə siçan olmadan, yalnız klavye ilə çatma imkanı
- Fokus İdarəetmə - Fokus göstəricilərinin aydın görünməsi və məntiqli ardıcıllıqla hərəkət etməsi
- Keçid Qısayolları - Tez naviqasiya üçün "Üstdən keçid" kimi klaviatura kombinasiyaları
- Vaxt Məhdudiyyətlərinin Aradan Qaldırılması - Form doldurma kimi proseslər üçün kifayət qədər vaxt verilməsi

Görmə qabiliyyəti məhdud olan istifadəçilər üçün dizaynın uyğunlaşdırılması:

- Ekran Oxuyucu Uyğunluğu - ARIA (Accessible Rich Internet Applications) atributlarının düzgün tətbiqi
- Semantik HTML Strukturu - Başlıq səviyyələrinin (h1-h6) məntiqli iyerarxiyası
- Kontrast Tələbləri - Mətn və fon arasında minimum 4.5:1 kontrast nisbəti
- Şəkil Təsvirləri - Bütün qrafiklər üçün aydın və təsviredici alt atributları
- Rəngdən Asılı Olmamaq - Məlumatın yalnız rənglə deyil, mətn və simvollarla da ötürülməsi

Müxtəlif sensor qabiliyyətləri olan istifadəçilər üçün tam çatışlı təcrübə:

- Multimedia Alternativləri - Video və audio məzmun üçün altyazı, transkripsiya və audio təsvirlər
- Hərəkət Həssaslığının Azaldılması - Parallax və animasiyaların istifadəçi tərəfindən dayandırıla bilməsi
- Form Elementlərinin Əlçatanlığı - Aydın etiketlər, səhv mesajları və düzgün validasiya
- Mətn Ölçüsünün Dəyişdirilməsi - Mətnin ölçüsünün 200%-ə qədər artırıla bilməsi

- Mobil Cihazlar üçün Optimallaşdırma - Touch interfeysinin müxtəlif fiziki qabiliyyətlərə uyğunluğu

Bu üç əsas sahədə həyata keçiriləcək tədbirlər veb saytı bütün istifadəçilər üçün əlçatan edərək, inklüziv rəqəmsal mühitin yaradılmasına kömək edəcək.

Nəticə

Müasir veb saytların uğuru, istifadəçi məmnuniyyətini artıran və axtarış sistemlərində yüksək sıralama təmin edən bir sıra əsas prinsip və təcrübələrin tətbiqinə bağlıdır. Bu prinsiplər arasında intuitiv naviqasiya, yüksək performans, mobil uyğunluq və tam əlçatanlıq ön plana çıxır. Veb saytların uğurlu dizaynı, yalnız vizual cəhətdən estetik deyil, həm də funksional olmalıdır. İstifadəçi təcrübəsinin yaxşılaşdırılması üçün səhifə yükləmə sürətinin optimallaşdırılması, məzmunun effektiv təşkil edilməsi və mobil cihazlarda optimallaşdırılmış dizayn kimi texniki məsələlər önəmlidir.

Əlçatanlıq isə bütün istifadəçilərin bərabər şəkildə veb saytdan faydalana bilməsini təmin etmək baxımından vacibdir. Görmə qabiliyyəti məhdud olan istifadəçilərdən tutmuş, müxtəlif fiziki qabiliyyətlərə sahib olan şəxslərə qədər hər kəs üçün uyğunlaşmış interfeyslər təmin etmək veb saytların inklüziv olmasını təmin edir. Bununla yanaşı, rəng seçimi, tipografiya və vizual dizaynın düzgün tətbiqi istifadəçi təcrübəsini zənginləşdirir, məlumatın asanlıqla əldə edilməsini və saytda naviqasiyanın rahatlığını təmin edir.

Nəticə etibarilə, müasir veb saytlar üçün texniki mükəmməllik və istifadəçi mərkəzli dizaynın harmoniyası vacibdir. Hər bir komponentin özəl diqqətlə idarə olunması, həm istifadəçi təcrübəsini yaxşılaşdırır, həm də veb saytın işgüzar məqsədlərinə xidmət edir.

ƏDƏBİYYAT SİYAHISI:

1. İnsan-Kompüter Qarşılıqlı Əlaqəsi (HCI)
2. İstifadəçi Təcrübəsi (UX) Elmi
3. Veb Əlçatanlıq (WCAG Standartları)
4. Axtarış Sisteminin Optimallaşdırılması (SEO)

DOI: 10.32010/QMCT4373

LAYİHƏ İDARƏETMƏSİNDƏ İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNİN MİLLİ İQTİSADİYYATIN MALİYYƏ VƏ BÜDCƏ POTENSİALINA TƏSİRİ

Türkel Rəfail oğlu ƏKBƏROV
UNEC magistr, ADNSU baş mütəxəssis
0009-0004-7911-121X, turkel.akbarov@asoiu.edu.az

Xülasə: Bu tədqiqat dövlət büdcəsinin doldurulması yolu ilə milli iqtisadiyyatın maliyyə və büdcə imkanlarının təmin edilməsi üçün layihənin idarə edilməsinin təşkilati-iqtisadi mexanizminə informasiya təhlükəsizliyinin tətbiqinin məqsədə uyğunluğunun əsaslandırılmasına aid edilmişdir. Tədqiqat üçün seçilmiş mövzunun aktuallığı dünya ölkələrinin rəqəmsal iqtisadiyyata keçidin hazırkı mərhələsində olduqları mürəkkəb qeyri-müəyyənlik və risk şəraiti və təhlükə ilə müşayiət olunan, geri dönməz nəticələrə səbəb ola biləcək informasiya texnologiyalarının fəal tətbiqi ilə müəyyən edilir. Azərbaycan iqtisadiyyatı üçün yüksək effektiv layihələrin tətbiqi, həyata keçirilməsi və sonradan idarə olunması dövlət büdcəsinin gəlirlərinin artmasına, milli iqtisadiyyatın dayanıqlığının gücləndirilməsinə və rəqabət qabiliyyətinin artırılmasına töhfə verəcək. İnformasiya təhlükəsizliyinin formalaşdırılması və həyata keçirilməsi mərkəzlərini aşağıdakı alətlərdə informasiya texnologiyalarının tətbiqi yolu ilə səmərəli layihələrin idarə edilməsinin təşkilati-iqtisadi mexanizminin məcburi komponenti kimi müəyyən etdik: inzibati, maliyyə, kredit, bazar, innovasiya, investisiya. Müəyyən edilmişdir ki, informasiya təhlükəsizliyi yüksək intensivlik səviyyəsinə malik olduğundan, layihənin idarə edilməsi prosesinə sistemli və birbaşa təsir göstərdiyindən layihənin hazırlanmasının bütün mərhələlərində təmin edilməlidir ki, bu da onun effektivliyinə və biznes strukturlarının səmərəliliyinə təsir göstərir. Bizim tərəfimizdən hazırlanmış milli iqtisadiyyatın inkişafının konseptual modeli makro səviyyədə (dövlət siyasətinin istiqamətləri əsaslandırılarkən) və mikro səviyyədə (onun bütün sahələrində informasiya təhlükəsizliyi siyasətinin tətbiqi əsasında biznes strukturlarının strateji planlaşdırılmasına metodoloji yanaşmalar işlənib hazırlanarkən) istifadə oluna bilər.
Açar sözlər: Layihələrin idarəedilməsi, informasiya təhlükəsizliyi

---

ВЛИЯНИЕ ИНФОРМАЦИОННОЙ БЕЗОПАСНОСТИ В УПРАВЛЕНИИ ПРОЕКТАМИ НА ФИНАНСОВЫЙ И БЮДЖЕТНЫЙ ПОТЕНЦИАЛ НАЦИОНАЛЬНОЙ ЭКОНОМИКИ

Тюркель Рафаил оглы АКБЕРОВ
магистрант UNEC, главный специалист ADNSU
ORCID: 0009-0004-7911-121X
turkel.akbarov@asoiu.edu.az\

Аннотация: Данное исследование посвящено обоснованию целесообразности применения информационной безопасности в организационно-экономическом механизме управления проектами с целью обеспечения финансовых и бюджетных возможностей национальной экономики через пополнение государственного бюджета. Актуальность выбранной темы обусловлена сложными условиями неопределённости, рисков и угроз, сопровождающих современный этап перехода стран мира к цифровой экономике, а также активным внедрением информационных технологий, способных привести к необратимым последствиям.

Реализация, внедрение и последующее управление высокоэффективными проектами в экономике Азербайджана будет способствовать увеличению доходов государственного бюджета, укреплению устойчивости национальной экономики и повышению её конкурентоспособности.

Установлено, что формирование и реализация информационной безопасности являются обязательным компонентом организационно-экономического механизма эффективного управления проектами посредством применения информационных технологий в следующих инструментах: административных, финансовых, кредитных, рыночных, инновационных и инвестиционных.

Определено, что, обладая высокой степенью интенсивности и оказывая системное и прямое воздействие на процесс управления проектами, информационная безопасность должна обеспечиваться на всех этапах разработки проекта, что, в свою очередь, влияет на его эффективность и результативность деятельности бизнес-структур.

Разработанная авторами концептуальная модель развития национальной экономики может быть использована на макроуровне (при обосновании направлений государственной политики) и на микроуровне (при разработке методологических подходов к стратегическому планированию бизнес-структур на основе внедрения политики информационной безопасности во всех отраслях).
Ключевые слова: управление проектами, информационная безопасность

THE IMPACT OF INFORMATION SECURITY IN PROJECT MANAGEMENT ON THE FINANCIAL AND BUDGETARY POTENTIAL OF THE NATIONAL ECONOMY

Turkel Rafail AKBAROV
Master's Student at UNEC, Chief Specialist at ASOIU
ORCID: 0009-0004-7911-121X
turkel.akbarov@asoiu.edu.az

Abstract: This study is devoted to substantiating the feasibility of applying information security within the organizational and economic mechanism of project management in order to ensure the financial and budgetary capacity of the national economy through state budget revenues. The relevance of the chosen topic is determined by the complex conditions of uncertainty, risks, and threats accompanying the current stage of global transition to the digital economy, as well as the active implementation of information technologies that may lead to irreversible consequences.
The implementation, execution, and subsequent management of highly efficient projects in the economy of Azerbaijan will contribute to increasing state budget revenues, strengthening the resilience of the national economy, and enhancing its competitiveness.
It has been established that the formation and implementation of information security constitute a mandatory component of the organizational and economic mechanism for effective project management through the application of information technologies in the following instruments: administrative, financial, credit, market, innovation, and investment.
It is determined that, due to its high level of intensity and its systemic and direct impact on the project management process, information security must be ensured at all stages of project development, which in turn affects the effectiveness of projects and the efficiency of business structures.
The conceptual model of national economic development developed by the authors can be applied at the macro level (in substantiating directions of state policy) and at the micro level (in developing methodological approaches to the strategic planning of business structures based on the implementation of information security policies across all sectors).
Keywords: project management, information security

Giriş

Bu tədqiqatın planını hazırlayarkən əsas götürdüyümüz məqam odur ki, ölkə iqtisadiyyatının bərpası və maliyyə-büdcə imkanlarının təmin olunması yalnız müvafiq layihə və tədbirlərin tətbiqi və təsiri ilə mümkündür. Müasir rəqəmsal texnologiyalar dövründə belə layihələrin idarə edilməsi informasiya təhlükəsizliyinin təmin olunmasını zəruri edir, çünki təhlükəsizlik tədbirləri biznes strukturlarının rəqabət qabiliyyətinin əsas komponentini təşkil edir. İnkişaf etmiş ölkələrdə elmi-tədqiqat və inkişaf prosesinin davamlı inkişafı innovativ layihələrin təklifini artırır. Demək olar ki, bəzi inkişaf etmiş ölkələrdə innovativ layihələrin sayı digər bütün layihələrin ümumi miqdarını xeyli dərəcədə geridə qoyur. Bu səbəbdən də bəzi layihə növləri var ki, onlarda beynəlxalq ixtisaslaşma formalaşmışdır. Belə layihələr çox vaxt həmin ölkələrin özündə deyil, digər ölkələrdə reallaşdırılır. Bəzi layihələr müəyyən ölkədə deyil, uyğun şəraitə malik başqa ölkələrdə həyata keçirilə bilər. Yəni, layihənin uğurlu olması üçün lazım olan şərait (məsələn, hüquqi, iqtisadi və bazar baxımından) digər ölkələrdə daha əlverişli ola bilər. Layihənin uğuru üçün ən vacib amil bazarın yeni ideya və məhsulları qəbul etməyə hazır olmasıdır. Bu hazırlıq həm şirkətlərin, həm bölgələrin, həm də bütün ölkənin innovasiyalarını praktiki şəkildə tətbiq etməsinə imkan verir. Bəzi layihələr uğurlu nəticə versə də, bu uğur tərtibatçıları işlərini davam etdirməyə və layihəni inkişaf etdirməyə motivasiya etmir. Çünki onun təsiri yalnız geniş – yəni makro səviyyədə (ölkə və ya ümumi iqtisadiyyat səviyyəsində) qalır. Layihələrin uğursuz olmasının əsas səbəbləri işçi heyətinin yetərli bilik və bacarıqlara malik olmaması və rəhbərliyin inkişaf üçün yeni ideyaları sınamağa maraq göstərməməsidir. Innovativ layihələr uzun və mürəkkəb bir prosesdir. Onların hazırlanması təkcə texniki iş deyil, həm də əvvəlki təcrübələrdən istifadəni və müxtəlif ekspertlərin, o cümlədən ictimai şəxslərin iştirakı ilə həyata keçirilməsini tələb edir. Əgər innovativ layihələr mütəmadi həyata keçirilmirsə, şirkətlər öz imkanlarını artıq qiymətləndirir və peşəkar şirkətlərin təkliflərini nəzərə almır. Bu da ümumilikdə biznesin inkişafına əngəl yaradır. Layihənin ideyasını və planını qorumaq üçün əlavə vəsait tələb olunur, çünki əks halda rəqiblər bu məlumatları öz xeyirlərinə istifadə edib şirkətin imicinə zərər vura bilərlər. Layihə planlaşdırılarkən və idarə edilərkən məlumatların qorunmasına diqqət yetirilsə, gələcəkdə yarana biləcək təhlükələr və problemlərin çoxu əvvəlcədən qarşısı alınar. İşçilər informasiya təhlükəsizliyi ilə yanaşı daxili qaydalara əməl etməməsinə görə də məsuliyyət daşımalıdır. Bu mövzunu öyrənmək

vacibdir. Çünki hazırda real həyatda lazımi qədər əhəmiyyətli və zamanında araşdırılıb öyənilməsi gərəkən bir problemdir. Stabil və ya sabit olmayan bir şəraitdə layihələrin idarə olunmasında informasiya təhlükəsizliyi ilə bağlı elmi nəticələr ölkə iqtisadiyyatının sabitləşməsinə, sahələr arasında tarazlığın qorunmasına və iqtisadi uyğunsuzluqların azaldılmasına yardım edəcək. Bu yanaşma ölkədə iqtisadi və sosial əlaqələrin inkişafına kömək edəcək və biznes üçün əlverişli şərait yaradacaq. Xarici investorları da ölkəyə cəlb edəcək.

Problemin formalaşdırılması

İnnovativ layihələr həm köhnə sənayelərin yenilənməsinə, həm də yeni bizneslərin yaranmasına şərait yaradır. Bu da dövlətin gəlirlərini artırır, iqtisadiyyatı daha səmərəli, rəqəmsal və balanslı edir, regionların inkişafına da müsbət təsir göstərir. Bəzi sənaye sahələri inkişaf etsə də, bu, regionlar və sahələr arasında tarazlaşdırılmamış büdcə balansını yaradır. Eyni zamanda, iqtisadi və maliyyə təhlükəsizliyinin qorunması üçün kibertəhlükəsizlik tədbirlərinə ehtiyac artır. Amma işçilərin bu sahədə biliklərinin məhdud olması bu tədbirləri həyata keçirməyi çətinləşdirir. Düzgün planlaşdırılmış və innovativ yanaşmalarla aparılan istehsal və satış sistemi həm ölkənin iqtisadi inkişafına, həm də insanların sosial ehtiyaclarının ödənməsinə kömək edəcək. Eyni zamanda yeni və rəqabət yönümlü biznes ideyalarını həyata keçirməyə də imkan verəcək. Hesab edirəm ki, layihələrin idarə edilməsində informasiya təhlükəsizliyinə diqqət büdcə və maliyyə imkanlarının səmərəli istifadəsinə təsir edir. Bu fərziyyəni yoxlamaqla mexanizmlərin əlaqəsini təhlil etməklə yanaşı şirkətlərdə informasiya təhlükəsizliyi siyasətinin vacibliyini göstərəcəyik.

Tədqiqat və Nəşrlərin Təhlili

Bir neçə alimlər var ki, (O. Zaçko, N. Krasnokutska, T. Osetrova, J. Jiqalkeviç, V. Çuxlib və başqaları) layihələrin idarə olunmasını öyrəniblər, amma əsasən diqqət ümumi prinsiplər üzərində olub. Yəni layihənin mərhələləri və idarəetmə üsulları araşdırmada kifayət qədər nəzərə almayıblar. Ölkələrdə iqtisadiyyat sürətlə rəqəmsallaşsa da və kibertəhlükələr biznesə təsir göstərsə də, informasiya təhlükəsizliyi məsələlərinə kifayət qədər diqqət yetirilmir. İnformasiya təhlükəsizliyinə diqqət əsasən "səthi" və məhdud çərçivədədir. İ.O. Başynska və A.V. Xristova hesab edirlər ki, layihə idarəetməsinə informasiya sistemləri mütləq daxil edilməli və bu, müəssisənin struktur və funksiyalarını dəyişdirməlidir. Müəlliflər göstərirlər ki, informasiya təhlükəsizliyi siyasəti idarəetməyə sistemli təsir göstərir. Yəni, bu siyasətin təsiri tək-tək yox, sistemli və planlı şəkildə öyrənilməlidir. Bəzi tədqiqatçılar (A. Aseeva və O. Şuşura) məxfilik risklərini öyrənir, digərləri (N. Kuxarska və O. Polota) isə informasiya təhlükəsizliyinin davamlılığının təşkilatın fasiləsiz işləməsi ilə bağlı olduğunu sübut edirlər. Məxfilik riskləri dedikdə, məlumatların icazəsiz əldə olunması, sızması və ya yanlış istifadə olunması nəzərdə tutulur. Davamlılıq dedikdə isə məlumatların təhlükəsizliyi təmin olunarsa, təşkilatın işi dayanmadan, fasiləsiz həyata keçirilə bilər. Keçmişdə biz kənd təsərrüfatında bizneslərin fəaliyyəti üzrə və biotexnologiyada isə təhlükəsizlik və iqtisadi sabitlik üzrə tədqiqatlar aparmışıq. Amma bu tədqiqatlar yalnız müəyyən bir məhdud sahəyə aid idi. İndiki dövrdə isə bizə hər hansı bir layihədə informasiya təhlükəsizliyini təmin etmək üçün fəaliyyət növü, sənaye növü və icra müddəti kimi faktorlar da nəzərə alınmaqla ümumi metodlar lazımdır.

Layihə idarəetməsində maliyyə və büdcə imkanlarını qorumaq üçün informasiya təhlükəsizliy metodologiyası

1.1. Layihələrin idarə olunması ilə dövlət büdcəsinin formalaşması arasındakı əlaqə

Layihələrin idarə olunması və informasiya təhlükəsizliyi sistemləri düzgün işlədikdə həm bölgələr, həm də ölkə iqtisadi olaraq inkişaf edir. Büdcəyə daha çox vergi gəlir və ölkənin maliyyə imkanları artır. "Maliyyə və büdcə imkanları" ölkənin büdcəsini formalaşdırmaq və səmərəli istifadə etmək qabiliyyətini göstərir. Bu qabiliyyət ölkənin iqtisadi təhlükəsizliyi ilə, xüsusilə maliyyə, büdcə və informasiya təhlükəsizliyi vasitəsilə əlaqəlidir. Layihələrin idarə olunması və informasiya təhlükəsizliyi sistemləri düzgün işlədikdə ölkədə biznes üçün əlverişli şərait yaranır, dövlət və şirkət maraqları uyğunlaşdırılır (faydalı qərarlar qəbul edilir) , mövcud resurslardan səmərəli istifadə olunaraq yeni layihələr və investisiyalar dəstəklənir və insanlar işlə təmin olunur. Dövlət büdcəsi sistemi ölkənin vəziyyətinə uyğun işləməli, dəyişikliklərə adaptasiya olmalı və qarşısına qoyulan maliyyə və sosial məqsədləri həyata keçirməlidir. Bu problem Azərbaycan iqtisadiyyatı üçün çox önəmlidir və onun həlli üçün bütün resurslar, xüsusilə ekspert bilikləri və təcrübə istifadə olunmalıdır. Bəzi ölkələr qısa zamanda çox gəlir gətirən layihələr həyata keçiriblər. Məsələn: daşınmaz əmlak əməliyyatları və yeni ticarət üsullarından flip (Amazon kimi), carsharing (Zipcar kimi), dropshipping (Shopify Plus kimi) və s.


1.2. Layihə İdarəetməsinin Təşkilati-İqtisadi Mexanizminin Strukturunda İnformasiya Təhlükəsizliyi

Böhran və qeyri-sabit şəraitlər - müharibə, pandemiya, iqtisadi dəyişikliklər və müəssisələrin

dağılması kimi hallar - ölkələrin iqtisadi sistemlərini ciddi şəkildə sarsıda bilər. Lakin bu cür çətin dövrlər eyni zamanda yenii layihələrin və strateji əməkdaşlığın meydana çıxması üçün münbit zəmin yaradır. Tarix göstərir ki, dövlət, biznes və elmi qurumların birgə fəaliyyəti böhranların təsirini azaltmaqla yanaşı, iqtisadiyyatın bərpasını və davamlı inkişafını təmin edə bilər. Azərbaycanın 44 günlük Vətən müharibəsi dövründə dövlət və xalqın birliyi, həm hərbi, həm də sosial sahədə mühüm nəticələr verdi. Bu dövrdə yalnız qələbə qazanılmadı, eyni zamanda ictimai həmrəylik, resursların düzgün yönləndirilməsi və strateji qərarların operativ şəkildə həyata keçirilməsi ilə ölkə güclü şəkildə ayaqda qaldı. Eyni yanaşma Koronavirus pandemiyası zamanı da müşahidə olundu. Dövlətin səhiyyə sahəsində atdığı addımlar, elmi qurumların tədqiqatları və biznes sektorunun çevik reaksiyası nəticəsində Azərbaycan pandemiyanın iqtisadi və sosial təsirlərini minimuma endirməyi bacardı. Böhran şəraitində elmi tədqiqatlar və innovativ yanaşmalar həm sürətli, həm də dayanıqlı həll yolları təqdim edir. Yeni texnologiyaların tətbiqi, rəqəmsal transformasiya, alternativ enerji mənbələri və sosial innovasiyalar iqtisadiyyatın çevikliyini artırır. Elm yalnız mövcud problemləri həll etmir, eyni zamanda gələcəkdə olacaq risklərə qarşı hazırlıq və dayanıqlı inkişaf strategiyalarının formalaşdırılmasında əsas rol oynayır. Azərbaycan təcrübəsi göstərir ki, milli birlik və düzgün idarəetmə ilə istənilən çətinliyi inkişafa aparan yola çevrilə bilər. Layihələrin idarə olunması yalnız planlama və icra prosesi deyil, həm də davamlı inkişafın strateji alətidir. Müasir dünyada iqtisadi proseslərin turbulentliyi və qeyri-müəyyənliyi fonunda layihələrin uğurla həyata keçirilməsi üçün elmi əsaslara söykənən, çevik və dayanıqlı idarəetmə yanaşmaları vacibdir. Bu yanaşmalar həm mikro, həm də makro səviyyədə iqtisadi və sosial sabitliyin qorunmasına, resursların səmərəli istifadəsinə və gələcək inkişafın təmin olunmasına xidmət edir (Şəkil 1).

Effektiv layihələrin idarə olunması yalnız texniki və iqtisadi nəticələr verməklə kifayətlənmir, eyni zamanda dövlətin maliyyə sisteminin gücləndirilməsinə mühüm dəstək verir. Layihələr düzgün planlandıqda və icra olunduqda, dövlət büdcəsi ilə regionların büdcə potensialı arasında stabillik yaradılır. Bu, mərkəzi və yerli maliyyə resurslarının daha səmərəli bölüşdürülməsinə imkan verir. Layihə idarəetməsi həmçinin dövlət və yerli hakimiyyət orqanları ilə sahibkarlıq subyektləri arasında qarşılıqlı əlaqənin gücləndirilməsinə şərait yaradır. Bu əməkdaşlıq yeni iqtisadi imkanların formalaşmasına, investisiyaların cəlbinə və yerli inkişafın sürətlənməsinə səbəb olur. Bundan əlavə, effektiv layihələr yeni gəlir mənbələrinin ortaya çıxmasına şərait yaradır. Bu gəlir mənbələri büdcənin gəlir və xərc hissəsinin daha dəqiq və şəffaf şəkildə idarə olunmasına imkan verir. Layihə çərçivəsində tətbiq olunan nəzarət mexanizmləri maliyyə axınlarının izlənməsini asanlaşdırır və büdcə vəsaitlərinin düzgün istifadəsini təmin edir. Nəticə etibarilə, layihələrin səmərəli idarə olunması yalnız iqtisadi inkişafın deyil, həm də maliyyə sabitliyinin və sosial rifahın təmin olunmasında mühüm rol oynayır. Bu yanaşma dövlətin strateji məqsədlərinə çatmaq üçün dayanıqlı və çevik idarəetmə mexanizmlərinin formalaşdırılmasına xidmət edir. İnformasiya texnologiyaları layihənin əvvəlindən sonuna qədər məlumatların təhlükəsizliyinin qorunmasına, risklərin idarə olunmasına və əməliyyatların şəffaf şəkildə aparılmasına imkan yaradır. Layihə çərçivəsində toplanan və işlənən məlumatlar strateji əhəmiyyət daşıyır. Bu məlumatların qorunması yalnız texniki məsələ deyil, həm də layihənin uğurla həyata keçirilməsi üçün əsas şərtlərdən biridir. Şirkətin işini düzgün idarə etmək üçün daxili qaydalar hazırlanmalıdır və bu qaydalara informasiya təhlükəsizliyi də daxil olmalıdır. Bu qaydalar şirkətin müxtəlif sahələrində, məsələn: idarəetmə, maliyyə, istehsal, personal və digər funksional bölmələrdə - sistemli və koordinasiyalı fəaliyyətin təmin olunmasına xidmət edir. Daxili qaydaların tərkib hissəsi kimi informasiya təhlükəsizliyi rolu xüsusi əhəmiyyət daşıyır. Şirkət daxilində toplanan, işlənən və saxlanılan məlumatların qorunması yalnız texniki məsələ deyil, həm də strateji idarəetmə və hüquqi məsuliyyət baxımından vacibdir. İnformasiya təhlükəsizliyi qaydaları şirkətin məlumatların məxfiliyini, bütövlüyünü və əlçatanlığını təmin etməyə yönəlmiş tədbirlər sistemini əhatə edir.

Təşkilati-təsərrüfat mexanizminin çoxfaktorlu xarakterini, xarici mühitdən asılılığını və layihənin nəticələrini nəzərə alaraq, ekoloji amillərin təsirini intensivlik, sistemlilik və dolayısı baxımından nəzərdən keçirməyi məqsədəuyğun hesab edirik. Ekoloji faktorlar layihənin icra olunduğu mühitin dayanıqlılığına, resursların istifadəsinə, ətraf mühitə olan təsirə və sosial rifaha birbaşa və ya dolayı şəkildə təsir göstərə bilər. Bu səbəbdən, layihənin planlaşdırılması və idarə olunması mərhələlərində ekoloji risklərin qiymətləndirilməsi, alternativ həll yollarının araşdırılması və davamlı inkişaf prinsiplərinin tətbiqi zəruridir (Cədvəl 1).



Şəkil 1: Layihənin idarə edilməsinin təşkilati-iqtisadi mexanizmi

Cədvəl 1. Layihəyə ətraf mühitin təsir amilləri idarəetmə

Faktorlar	İntensivlik		Sistemli formalaşma və təsir		Formalaşma və təsirin dolayısı	
	Aktiv	Passiv	Sistemli	Stoxastik	Bir-başa	Dolayı – Vasitəli
Sosial-mədəni mühit						
İqtisadi	+		+		+	
Demoqrafik		+	+			+
Maarifləndirici	+		+		+	
Etnik mənsubiyyət		+	+		+	
Etika		+		+		+
Dini		+		+		+
Beynəlxalq siyasi mühit						
Qanunlar və adətlər	+		+		+	
Siyasi vəziyyət	+		+		+	
Təşkilati mühit						
Təşkilati mədəniyyət		+	+		+	
Dövlət standartları	+		+		+	
İnfrastruktur	+		+		+	
İnsan resursları və idarəetmə texnologiyası	+		+		+	
Korporativ məlumat və analitik sistem		+		+	+	
İnformasiya təhlükəsizliyi siyasəti	+		+		+	
Bazar şəraitində biznes strukturların kommunikasiya kanalları	+			+	+	

Layihəyə təsir edən xarici amillər cəmiyyətin mədəni dəyərləri, beynəlxalq siyasət və təşkilati qaydaların birləşməsindən ibarətdir. Müasir dövrdə layihələrin uğurla həyata keçirilməsi üçün informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik əsas amillərdən biridir. Layihənin idarə olunmasında bu sahələrin rolu yalnız texniki səviyyədə deyil, həm də strateji və iqtisadi baxımdan əhəmiyyətlidir. Layihə çərçivəsində toplanan və işlənən məlumatların qorunması, onların icazəsiz müdaxilədən və sızmalardan müdafiəsi layihənin uğuruna birbaşa təsir göstərir. İnformasiya təhlükəsizliyi tədbirləri layihənin etibarlılığını, şəffaflığını və dayanıqlılığını təmin etməklə, onun icra prosesində risklərin minimuma endirilməsinə kömək edir. Kibertəhlükəsizlik isə layihənin rəqəmsal mühitdə qarşılaşa biləcəyi təhdidlərə qarşı müdafiə mexanizmləri təqdim edir. Bu, xüsusilə rəqəmsal texnologiyalara əsaslanan layihələrdə (məsələn: elektron hökumət sistemləri, rəqəmsal xidmət platformaları və s.) daha da aktuallaşır. Məlumatların təhlükəsizliyi və rəqəmsal infrastrukturun qorunması, həm dövlət, həm də özəl sektor üçün etibarlı və davamlı inkişaf mühiti yaradır. Gələcəkdə layihələrdə bu riskləri daha effektiv şəkildə idarə etmək üçün xüsusi göstəricilər (markerlər) müəyyən etmək planlaşdırılır. Bu göstəricilər layihənin müxtəlif mərhələlərində məlumatların məxfiliyinə, bütövlüyünə və əlçatanlığına təsir edə biləcək potensial riskləri erkən mərhələdə aşkar etməyə imkan verəcək. Məlumat təhlükəsizliyi risklərinin proqnozlaşdırılması və idarə olunması layihələrin dayanıqlı və etibarlı şəkildə həyata keçirilməsi üçün vacib şərtlərdən biridir.

1.3. Effektiv Layihə İdarəetmə yolu ilə Milli İqtisadiyyatın Bərpasının Konseptual Modeli

Müəlliflər bildirirlər ki, indi onlar layihələrin effektiv idarə olunması vasitəsilə milli iqtisadiyyatın bərpasını izah edən öz konseptual modellərini təqdim etməyə başlayırlar. Bu model layihələrin idarə edilməsini ölkə iqtisadiyyatının bərpası ilə əlaqələndirir. Konseptual modelin qurulmasında E.V. Kolesnikova və digər tədqiqatçıların layihə idarəetməsi sahəsindəki inkişaflarından istifadə olunmuşdur. Təklif olunan model aşağıdakı əsas komponentlərdən ibarətdir:

a) Layihə dəyərinin göstəriciləri sistemi
b) Mövcud oxşar layihələrin məlumat bazası
c) Əldə edilmiş təcrübənin məlumat bazası
d) Xarici mühitə təsir alətləri - təşviqlər, tənzimləyicilər və məhdudiyyətlər
e) Unikal komponentlər - sistem dəyişikliyi modeli və əsas layihə strukturu

Bu komponentlər layihənin idarə olunmasında çoxfaktorlu təşkilati-təsərrüfat mexanizminin, xarici mühitin dəyişkənliyinin və ekoloji, sosial-iqtisadi amillərin nəzərə alınmasını təmin edir. Modelin bəzi elementləri daha əvvəl layihə idarəetməsinin təşkilati-iqtisadi mexanizminin işlənməsi zamanı da nəzərə alınmışdır (Şəkil 2). Layihə idarəetməsində bu cür modellərin tətbiqi gələcəkdə risklərin proqnozlaşdırılması, resursların optimallaşdırılması və dayanıqlı inkişafın təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.


1.4. Büdcə siyasətinin həyata keçirilməsi mexanizmi

Büdcə mexanizmi dövlətin gəlirlərinin toplanması və xərclənməsi prosesini tənzimləyən kompleks bir sistemdir. Bu sistem müxtəlif büdcə münasibətlərindən, pulun toplanması və xərclənməsi üsullarından, eləcə də idarəetmə və nəzarət alətlərindən ibarətdir. Büdcə mexanizminin tərkibinə aşağıdakı əsas komponentlər daxildir:


a) Büdcənin təmin olunma formaları – vergi və qeyri-vergi gəlirləri, dotasiyalar, subsidiyalar və s.
b) Tənzimlənmə üsulları – normativ hüquqi aktlar, büdcə qaydaları və maliyyə planlama metodları
c) Stimullar və sanksiyalar – maliyyə intizamının təmin olunması üçün tətbiq olunan təşviq və cəza mexanizmləriTəşkilati qurumlar – dövlət maliyyə orqanları, yerli idarəetmə strukturları və nəzarət institutları.

Bu mexanizm iqtisadi modelin vacib, lakin aralıq bir hissəsi kimi çıxış edir. Yəni, o, iqtisadi siyasətin mərkəzi qərarları ilə nəticələri arasında əlaqə yaradan vasitədir. Büdcə mexanizmi vasitəsilə dövlət iqtisadi prosesləri tənzimləyir, resursların səmərəli bölgüsünü təmin edir və makroiqtisadi sabitliyi qoruyur. Nəticə etibarilə, büdcə mexanizmi yalnız maliyyə idarəetmə aləti deyil, həm də iqtisadi inkişafın strateji təminatçısı kimi çıxış edir. Onun düzgün qurulması və tətbiqi dövlətin maliyyə dayanıqlığını, büdcə intizamını və sosial-iqtisadi məqsədlərə çatmasını təmin edir. Dövlət büdcə siyasəti ölkənin maliyyə sabitliyini qorumaq və iqtisadi inkişafı təmin etmək məqsədilə həyata keçirilən strateji tədbirlər sistemidir. Bu siyasət həm gəlir-xərc balansının qorunmasını, həm də dövlət borcunun düzgün idarə olunmasını hədəfləyir. Beləliklə, büdcə siyasəti iqtisadi sabitliyin pozulmamasına və makroiqtisadi göstəricilərin dayanıqlılığına xidmət edir. Büdcə siyasətinin həyata keçirilməsi üçün əsas alət büdcə mexanizmidir. Büdcə mexanizmi — dövlətin pul toplama və xərcləmə sistemidir. Bu sistem vasitəsilə dövlət maliyyə resurslarını toplayır, prioritet sahələrə yönəldir və büdcə vəsaitlərinin səmərəli istifadəsini təmin edir. Büdcə mexanizmi aşağıdakı komponentlərdən ibarətdir:

a) Gəlir və xərc münasibətləri
b) Pulun toplanması və xərclənməsi üsulları
c) Tənzimləyici alətlər — vergi siyasəti, subsidiyalar, dotasiyalar
d) Stimullar və sanksiyalar
e) Təşkilati qurumlar — maliyyə nazirliyi, yerli büdcə orqanları və nəzarət strukturları



Şəkil 2: Effektiv layihələrin idarə edilməsi vasitəsilə milli iqtisadiyyatın bərpasının konseptual modeli



Şəkil 3: Büdcə siyasətinin həyata keçirilməsi mexanizmi

Bu sistemin effektiv fəaliyyəti nəticəsində dövlət iqtisadi inkişafı təşviq edir, yoxsulluğun azaldılmasına, sosial standartların yüksəldilməsinə, və eyni zamanda büdcə və borc balansının qorunmasına nail olur. Büdcə mexanizmi iqtisadi modelin vacib, lakin aralıq bir hissəsi kimi çıxış edir - yəni, o, iqtisadi qərarların icrası ilə nəticələrin əldə olunması arasında əlaqə yaradan funksional vasitədir (Şəkil 3.). Büdcə siyasətinin formalaşmasında xarici və daxili amillər mühüm rol oynayır. Xarici amillərə dövlətin beynəlxalq iqtisadi münasibətlər sisteminə bağlılığı, regional iqtisadi birliklərə inteqrasiyası və qlobal iqtisadi proseslərdən asılılığı daxildir. Bu amillər ölkənin xarici ticarət, investisiya axınları və maliyyə sabitliyi üzərində təsir göstərir. Daxili amillər isə ölkə daxilindəki iqtisadi və sosial vəziyyəti əhatə edir. Bunlara milli iqtisadiyyatın inkişaf səviyyəsi, sosial sahələrin durumu, pul dövriyyəsinin təşkili, milli valyutanın sabitliyi və konvertasiya imkanları, eləcə də maliyyə və kredit sisteminin effektivliyi daxildir. Büdcə siyasəti konkret məqsədlərə və zaman çərçivəsinə uyğun olaraq strategiya və ya taktika formasında həyata keçirilir. Strategiya uzunmüddətli planları, taktika isə qısamüddətli tədbirləri əhatə edir. Səmərəli büdcə siyasəti və onun mexanizmləri iqtisadi, sosial,

ekoloji və psixoloji sahələrdə sistemli və sinerji əsaslı təsirlərin yaranmasına səbəb olur. Bu təsirlər dövlətin ümumi inkişafına müsbət töhfə verir. Nəticə etibarilə, həyata keçirilən layihələr və onların portfelləri dövlət büdcəsinin formalaşmasına xidmət edir. Büdcə əsasən vergilər, rüsumlar və hökumətlərarası transfertlər hesabına doldurulur ki, bu da dövlətin maliyyə dayanıqlığını təmin edir.

2. Nəticə

Hazırkı mərhələdə layihələrin effektiv idarə olunması üçün təşkilati-iqtisadi mexanizmin vacib bir elementi kimi informasiya təhlükəsizliyi məcburi xarakter daşıyır. Bu, layihə idarəçiliyində informasiya texnologiyalarının tətbiqi ilə sübut olunmuş və rəsmi şəkildə formalaşdırılmışdır. İnformasiya təhlükəsizliyinin təmin olunması aşağıdakı sahələrdə həyata keçirilir:

a) İnzibati (idarəetmə strukturları),

b) Maliyyə (büdcə və vəsaitlərin idarə olunması),

c) Kredit (borclanma və ödəniş sistemləri),

d) Bazar (rəqabət və kommersiya mühiti),

e) İnnovasiya (yeniliklərin tətbiqi),

f) Investisiya (kapital cəlbi və yönləndirilməsi).

Tədqiqatlar göstərir ki, informasiya təhlükəsizliyi layihənin hazırlanmasının bütün mərhələlərində təmin olunmalıdır. Bu, biznes strukturlarının səmərəliliyinə birbaşa təsir göstərir. Layihənin idarə edilməsində istifadə olunan təşkilati-iqtisadi mexanizm çoxfaktorlu xarakterə malikdir və sosial-mədəni, beynəlxalq siyasi və təşkilati alt mühit kimi xarici amillərlə qarşılıqlı əlaqədədir. Bu amillərin layihəyə təsiri aşağıdakı göstəricilər əsasında təhlil olunur:

a) Təsirin intensivliyi (nə dərəcədə güclü təsir edir),

b) Sistemliliyi (təsirin davamlı və ardıcıl olması),

c) Dolayılığı (birbaşa və ya dolayı yolla təsir etməsi).

Nəticə olaraq, informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik amilləri layihənin idarə olunmasında təşkilati mühitin bir hissəsi kimi çıxış edir və bu prosesə yüksək intensivlik, sistemlilik və birbaşa təsir göstərir. Təklif olunan konseptual model milli iqtisadiyyatın bərpasını layihələrin idarə edilməsinin təşkilati-iqtisadi mexanizmi (yəni layihə portfeli) ilə büdcə siyasətinin həyata keçirilməsi mexanizmi arasında qarşılıqlı əlaqəyə əsaslanaraq izah edir. Bu yanaşma iqtisadiyyatın müxtəlif sahələrinin koordinasiyalı şəkildə inkişafını təmin etməyə yönəlib. Belə bir model dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərini müəyyənləşdirmək üçün istifadə oluna bilər. Eyni zamanda, bu model informasiya təhlükəsizliyinin tətbiqi əsasında biznes strukturlarının fəaliyyətinin strateji planlaşdırılması üçün metodoloji yanaşmaların hazırlanmasına imkan verir. Bu konseptual yanaşma həm iqtisadi sabitliyin təmin olunmasına, həm də layihələrin effektiv idarə olunmasına töhfə verir. İnformasiya təhlükəsizliyi burada yalnız texniki məsələ deyil, həm də idarəetmə prosesinin ayrılmaz hissəsi kimi çıxış edir.

ƏDƏBİYYAT SİYAHISI:

1. D. Bodnenko, The Role of Informatization in the Change of Higher School Tasks: The Impact on the Professional Teacher Competences, in: International Conference ICTERI, 1000,
2. R. Brumnik, et al., Simulation of Territorial Development Based on Fiscal Policy Tools, Mathematical Problems in Engineering (2014) 843976. doi: 10.1155/2014/843976.
3. R. Levkina, et al., Current Approaches to Biotechnology in Animal Husbandry, International Journal of Advanced Science and Technology 29(8) (2020) 2463–2469.
4. A. Levkin, et al., Economic Security as a Result of Modern Biotechnology Implementation, in: 2019 IEEE International Scientific-Practical Conf. Problems of Infocommunications Science and Technology (2019) 139 142.
5. N. Vnukova, et al., Indicators-Markers for Assessment of Probability of Insurance Companies Relatedness in Implemen tation of Risk-Oriented Approach, Economic Studies 1 (2020) 151–173.
6. R. Levkina, A. Petrenko Management of Innovative Marketing Techniques as an Effective Business Tool, Agricultural and Resource: Economics: International Scientific E-Journal 5(1) (2019) 37–47.
7. V. Grechaninov, et al., Formation of Dependability and Cyber Protection Model in Information Systems of Situational Center, in: Workshop on Emerging Technology Trends on the Smart Industry and the Internet of Things, vol. 3149 (2022) 107–117.
8. V. Grechaninov, et al., Decentralized Access Demarcation System Construction in Situational Center Network, in: Workshop on Cybersecurity Providing in Information and Telecommunication Systems II, vol. 3188, no. 2 (2022) 197–206.

DOİ: 10.32010/ANPQ8951

AVTOMOBİLLƏŞMƏ SƏVİYYƏSİNİN ÖLKƏMİZDƏ YOL NƏQLİYYAT HADİSƏLƏRİNƏ VƏ ONUN HƏRƏKƏT TƏHLÜKƏSİZLİYİNƏ TƏSİRİ

Tünzalə Hakim ƏLİFOVA
Mingəçevir Dövlət Universiteti
ORCİD: 0009-0000-4664-1223
E-mail: tunzala.alifova.h@mdu.edu.az

Xülasə: Avtomobil qəzaları ən çox rast gəlinən və cəmiyyətin sağlamlığı üçün ciddi təhlükə yaradan hadisələrdir. Bu qəzaların başverməsinə təsir edən amillərin müəyyən edilməsi onların idarə olunması və qarşısının alınması üçün əhəmiyyətlidir. Statistik məlumatlar göstərir ki, qəzaların böyük əksəriyyəti ehtiyatsızlıq və sürət həddinin aşılması ilə əlaqədardır; 2022-ci ildə sürət həddinin aşılması bütün yol-nəq liyyat hadisələrinin təxminən 29%-ninə səbəbi olmuşdur. Dünya miqyasında bu, həftəlik orta hesabla 12 151 nəfərin, yəni hər 33 nəfərdən birinin ölümünə səbəb olur. Azərbaycanda isə 64 141 yol qəzası qeydə alınmış, nəticədə 22 249 nəfər ölüb və 71 833 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri almışdır. Yol-nəqliyyat hadisələrinin sayı 15%, onların ağırlıq dərəcəsi isə 67% azalmışdır. Optimal sürət rejiminin təmin edilməsi hərəkət axınının sabitliyini qoruyur və nəqliyyat vasitələrinin effektiv hərəkətinə şərait yaradır. Hərəkət sürətinin yolun buraxma qabiliyyətinə təsiri müxtəlif amillərlə bağlıdır; buna görə də optimal sürət hədlərinin müəyyən edilməsi buraxma qabiliyyətinin qorunması və qəza riskinin azaldılması üçün vacibdir. Yolun buraxma qabiliyyətini artırmaq və qəzaların başvermə ehtimalını azaltmaq üçün dövlət və sürücülər səviyyəsində kompleks tədbirlər görülməlidir. Bu tədbirlər həm yol infrastrukturu, həm də yol hərəkəti qaydalarının tətbiqi ilə sıx əlaqədardır. Statistik analiz göstərir ki, yol-nəqliyyat hadisələrinin 22%-i yolun eni 5–7 m olan hissələrdə baş verir. Avtomobillərin sayının artması və inkişafı, eləcə də sürücülərin ehtiyatsızlığı və texniki nasazlıqlar qəzaların baş verməsində əsas komponentlərdən sayılır.
Açar sözləri: yol-nəqliyyat hadisəsi, hərəkət təhlükəsizliyi, yolun buraxma qabliyyəti, sürət həddi

THE IMPACT OF MOTORİZATİON ON ROAD ACCİDENTS AND ROAD SAFETY İN OUR COUNTRY

Tunzala Hakim ALİFOVA
Mingachevir State University
ORCID: 0009-0000-4664-1223
E-mail: tunzala.alifova.h@mdu.edu.az

Abstract: Motor vehicle accidents are the most common and pose a serious threat to public health. Identifying the factors that influence these accidents is important for their management and prevention. Statistics show that the vast majority of accidents are related to carelessness and speeding; in 2022, speeding was the cause of approximately 29% of all road accidents. Globally, this results in an average of 12,151 deaths per week, or one in every 33 people. In Azerbaijan, 64,141 road accidents were recorded, resulting in 22,249 fatalities and 71,833 injuries of varying severity. The number of road accidents decreased by 15%, and their severity by 67%. Ensuring optimal speed limits maintains traffic flow stability and creates conditions for efficient vehicle movement. The impact of speed on road capacity is associated with various factors; therefore, determining optimal speed limits is important for maintaining capacity and reducing the risk of accidents. To increase road capacity and reduce the likelihood of accidents, it is necessary to implement comprehensive measures at the state and driver levels. These measures are closely linked to both road infrastructure and compliance with traffic rules. Statistical analysis shows that 22% of road accidents occur on road sections 5-7 meters wide. The main factors causing accidents include the increase and growth of the number of vehicles, as well as driver negligence and technical malfunctions.
Keywords: road accident, road safety, road capacity, speed limit

ВЛИЯНИЕ УРОВНЯ АВТОМОБИЛИЗАЦИИ НА ДОРОЖНО-ТРАНСПОРТНЫЕ ПРОИСШЕСТВИЯ И БЕЗОПАСНОСТЬ ДОРОЖНОГО ДВИЖЕНИЯ В НАШЕЙ СТРАНЕ

Тунзала Хаким АЛИФОВА
Мингячевирский государственный университет
ORCID: 0009-0000-4664-1223
Электронная почта: tunzala.alifova.h@mdu.edu.az

Резюме: Автомобильные аварии являются наиболее распространенными и представляют серьезную угрозу для здоровья населения. Выявление факторов, влияющих на возникновение этих аварий, важно для их управления и предотвращения. Статистические данные показывают, что подавляющее большинство аварий связано с неосторожностью и превышением скорости; в 2022 году превышение скорости стало причиной примерно 29% всех дорожно-транспортных происшествий. Во всем мире это приводит в среднем к 12 151 смерти в неделю, или к одному из каждых 33 человек. В Азербайджане было зарегистрировано 64 141 дорожно-транспортное происшествие, в результате которого погибло 22 249 человек и 71 833 получили травмы различной степени тяжести. Количество дорожно-транспортных происшествий снизилось на 15%, а их тяжесть — на 67%. Обеспечение оптимального скоростного режима поддерживает стабильность транспортного потока и создает условия для эффективного движения транспортных средств. Влияние скорости движения на пропускную способность дороги связано с различными факторами; поэтому определение оптимальных скоростных ограничений важно для поддержания пропускной способности и снижения риска аварий. Для повышения пропускной способности дороги и снижения вероятности аварий необходимо принимать комплексные меры на государственном и водительском уровнях. Эти меры тесно связаны как с дорожной инфраструктурой, так и с соблюдением правил дорожного движения. Статистический анализ показывает, что 22% дорожно-транспортных происшествий происходит на участках дороги шириной 5–7 м. К основным факторам возникновения аварий относятся увеличение и развитие количества автомобилей, а также небрежность водителей и технические неисправности.
Ключевые слова: дорожно-транспортное происшествие, безопасность дорожного движения, пропускная способность дороги, скоростное ограничение


Giriş

Dünya miqyasında hər il baş verən yol-nəqliyyat hadisələri (YNH) qlobal səviyyədə ciddi sosial-iqtisadi problem kimi qiymətləndirilir. Statistik göstəricilərə əsasən, hər il dünyada təxminən 1 milyon 300 minə yaxın insan yol-nəqliyyat hadisələri nəticəsində həyatını itirir. Bundan əlavə, milyonlarla insan müxtəlif dərəcəli xəsarətlər alır və ya əlilliklə üzləşir. Yol-nəqliyyat hadisələrinin qarşısının alınması və bu aktual problemin aradan qaldırılması məqsədilə bir sıra preventiv və normativ tədbirlər həyata keçirilir. Aparılan təxmini hesablamalara görə, yol-nəqliyyat hadisələrinin dünya iqtisadiyyatına vurduğu maddi zərər illik olaraq 450–500 milyard ABŞ dolları həcmində qiymətləndirilir. Baş vermiş yol-nəqliyyat hadisəsinə ilkin baxış keçirilməli, hadisənin səbəbləri obyektiv şəkildə araşdırılmalı və nəticələrinə uyğun olaraq müvafiq tədbirlər görülməlidir (Кулькаев Г. А., Мозалёва Н. И., Леонтьев Д. Н., 2022). YNH-lərin qeydiyyatı xüsusi qaydalar əsasında aparılır və hadisələr müəyyən təsnifat əlamətlərinə görə qruplaşdırılır. Qəzalar yalnız insan sağlamlığına deyil, həmçinin nəqliyyat vasitələrinə, yol infrastrukturuna və ətraf mühitə ciddi ziyan vurur. Nəqliyyat vasitələrinin intensiv hərəkəti fonunda qəza hallarının sayı artma meyli göstərir. Yol-nəqliyyat hadisələrinin nəticələri bəzən ağır xəsarətlər və ölümlə nəticələnir ki, bu da cəmiyyətin sosial strukturuna mənfi təsir göstərir. İnkişaf etmiş ölkələrdə də yol-nəqliyyat hadisələri aktual problem olaraq qalmaqdadır və hər gün baş verən qəzalar nəticəsində çoxsaylı insan həyatını itirir. Azərbaycanın timsalında da yol-nəqliyyat hadisələri ciddi narahatlıq doğuran məsələlərdəndir; demək olar ki, hər gün müxtəlif dərəcəli xəsarət və ölüm halları qeydə alınır. Tədqiqatlar göstərir ki, yol-nəqliyyat hadisələrinin başlıca səbəblərindən biri insan amili, xüsusilə də sürücülərin və piyadaların ehtiyatsız davranışıdır. Bu baxımdan, yol hərəkəti qaydalarına ciddi riayət olunması, maarifləndirmə tədbirlərinin gücləndirilməsi və nəzarət mexanizmlərinin təkmilləşdirilməsi ölüm və ağır xəsarətlə nəticələnən hadisələrin qarşısının alınmasında mühüm əhəmiyyət kəsb edir. Yol-nəqliyyat hadisəsi hərəkət prosesində meydana çıxan və müəyyən səbəblərlə şərtlənən mürəkkəb bir hadisədir. Avtomobil nəqliyyatı müasir cəmiyyətin ayrılmaz tərkib hissəsi olmaqla yanaşı, insanların gündəlik hərəkətinin təmin olunmasında və yüklərin operativ daşınmasında mühüm rol oynayır. Bu baxımdan nəqliyyat sistemi həm fərdi, həm də ictimai həyat üçün strateji əhəmiyyət daşıyır. Qəza baş verdikdə məsuliyyət çox vaxt yalnız sürücünün

üzərinə yönəldilir. Lakin elmi yanaşmaya əsasən, hadisənin obyektiv qiymətləndirilməsi üçün bütün amillər sürücünün davranışı, nəqliyyat vasitəsinin texniki vəziyyəti, yol infrastrukturu və ətraf mühit şəraiti sistemli şəkildə araşdırılmalıdır.Yol-nəqliyyat hadisələrinin düzgün təhlili nəzəri əsaslardan başlayaraq, hadisədən əvvəlki və sonrakı vəziyyətin müqayisəli şəkildə öyrənilməsini tələb edir. Nəqliyyat vasitəsinin texniki baxışdan keçirilməsi, mümkün nasazlıqların aradan qaldırılması və təhlükəsizlik normalarına riayət olunması qəza riskinin minimuma endirilməsində mühüm əhəmiyyət kəsb edir. Beynəlxalq təcrübə göstərir ki, yol infrastrukturunun keyfiyyəti də qəza ehtimalına birbaşa təsir göstərir. Xüsusilə yolların dar olması, hərəkət zolaqlarının düzgün planlaşdırılmaması və nəqliyyat axınının intensivliyi risk faktorlarını artırır (Hacıyev Ş.H., Bayramov Ə.İ., 2000). Yolların optimal genişlikdə və standartlara uyğun layihələndirilməsi nəqliyyat vasitələrinin manevr imkanlarını genişləndirir, hərəkətin rahatlığını və təhlükəsizliyini təmin edir. Beləliklə, yol-nəqliyyat hadisələrinin qarşısının alınması üçün ilk növbədə onların yaranma səbəbləri dəqiq müəyyənləşdirilməli, risk faktorları sistemli şəkildə təhlil edilməli və preventiv tədbirlər həyata keçirilməlidir. Təhlükəsiz yol hərəkətinin təmin olunması insanların rahat və təhlükəsiz şəkildə nəqliyyat infrastrukturundan istifadə etməsi ilə birbaşa bağlıdır.

Nəzəriyyə

Yolun hərəkət hissəsinin enindən asılı olaraq yol-nəqliyyat hadisələrinin (YNH) statistik təhlili göstərir ki, yol infrastrukturunun geometrik parametrləri hərəkət təhlükəsizliyinə birbaşa təsir göstərir. Avtomobil yollarının layihələndirilməsində əsas məqsəd nəqliyyat axınının təhlükəsiz, fasiləsiz və səmərəli təşkili ilə yanaşı, qəza riskinin minimuma endirilməsidir. Bununla yanaşı, yolun hərəkət hissəsinin eni və hərəkət zolaqlarının sayı da qəza riskinə təsir edən mühüm amillərdən biridir. Yolun hərəkət hissəsinin eni dedikdə, nəqliyyat vasitələrinin hərəkəti üçün nəzərdə tutulmuş zolaqların ümumi eni, eləcə də artan hərəkət intensivliyi şəraitində manevr imkanlarının səviyyəsi nəzərdə tutulur. Tədqiqatlar göstərir ki, yolun eninin normativ tələblərə uyğun olmaması və ya hərəkət intensivliyinin yüksək olması şəraitində yol-nəqliyyat hadisələrinin başvermə ehtimalı artır (Бабаева А.Ф., 2019). Bu baxımdan, yolun hərəkət hissəsinin optimal eninin müəyyən edilməsi və nəqliyyat axınının intensivliyinə uyğun planlaşdırılması yol hərəkəti təhlükəsizliyinin təmin olunmasında mühüm əhəmiyyət kəsb edir.



Şəkil 1. YNH-nin sayının hərəkət hissəsinin enindən asılılığı

Şəkil 1-də təqdim olunan qrafikdə göstərildiyi kimi hərəkət şəraitinə görə aparılmış bölgü zamanı yol-nəqliyyat hadisələrinin maksimum sayı sərbəst və eyni istiqamətdə düzxətli hərəkət zamanı qeydə alınır. Bu göstərici xüsusilə yolun hərəkət hissəsinin eni 5–7 metr təşkil etdikdə daha qabarıq şəkildə müşahidə olunur. Belə şəraitdə nəqliyyat vasitələrinin hərəkəti nisbətən riskli hesab olunur, çünki məhdud en manevr imkanlarını azaldır və nəqliyyat axınının sıxlığı ilə

birlikdə qəza ehtimalını artırır. Bu baxımdan, hadisələrin təhlili zamanı hərəkət sürəti, nəqliyyat axınının intensivliyi və sürücülərin davranış xüsusiyyətləri kimi amillər mütləq nəzərə alınmalıdır. Yolun hərəkət hissəsinin parametrləri ilə yanaşı, onun istismar vəziyyəti və hərəkət şəraiti də qəza riskinə təsir edən mühüm faktorlar sırasındadır. Hərəkət sürətinə təsir edən amillər araşdırıldıqda müəyyən edilir ki, sürətin formalaşmasına qarşıdan gələn nəqliyyat vasitələrinin mövcudluğu, eyni istiqamətdə hərəkət edən nəqliyyat axınının sıxlığı və sərbəst hərəkət imkanları birbaşa təsir göstərir (Веретенникова О.Б., Лаенко О.А., 2012). Beləliklə, yolun həndəsi göstəriciləri, hərəkət intensivliyi və sürət rejimi arasında qarşılıqlı asılılığın elmi əsaslarla təhlili yol-nəqliyyat hadisələrinin qarşısının alınmasında mühüm əhəmiyyət kəsb edir.

Sərbəst hərəkət şəraitində yol-nəqliyyat hadisələrinin (YNH) azalması mümkün hesab olunsa da, yolun hərəkət hissəsinin eninin artması ilə nəqliyyat vasitələrinin orta hərəkət sürətinin yüksəlməsi müşahidə olunur ki, bu asılılıq 1-ci əyridə (şəkil 2) öz əksini tapmışdır. Tədqiqatlar göstərir ki, hərəkət sürəti ilə yolun həndəsi parametrləri arasında birbaşa funksional əlaqə mövcuddur. Avtomobil nəqliyyatında təhlükəsizlik yalnız yolun enindən deyil, eyni zamanda sürücünün psixofizioloji vəziyyətindən, diqqət səviyyəsindən, reaksiya müddətindən, nəqliyyat vasitəsinin texniki istismar göstəricilərindən və yolun plan-profil xüsusiyyətlərindən asılıdır. Yolun hərəkət hissəsinin parametrlərinin normativ tələblərə uyğun müəyyən edilməməsi layihələndirmə mərhələsində aparılan qeyri-dəqiq hesablamalarla bağlı ola bilər. Bununla yanaşı, yolun kifayət qədər geniş olması nəqliyyat vasitələrinin manevr imkanlarını artıraraq bəzi hallarda riskin kompensasiyasına və qəza ehtimalının azalmasına şərait yarada bilər. Lakin prosesin əks istiqamətdə təhlili göstərir ki, yolun həddindən artıq geniş olması sürücüdə subyektiv təhlükəsizlik hissini artıraraq sürət rejiminin yüksəlməsinə səbəb ola bilər. Bu isə xüsusilə qarşıdan gələn və ya eyni istiqamətdə hərəkət edən nəqliyyat vasitələrinin mövcudluğu şəraitində riskin artmasına gətirib çıxarır. Yolun eninin artması nəticəsində manevr imkanlarının genişlənməsi sürücünün diqqətinin azalmasına və yol şəraitinin səhv qiymətləndirilməsinə səbəb ola bilər. Yol-nəqliyyat hadisələrinin artma səbəbləri sırasında sürücünün nəqliyyat axınındakı mövqeyini və digər nəqliyyat vasitələrinin yerləşməsini düzgün qiymətləndirməməsi mühüm yer tutur. Hərəkət zolaqlarının aydın şəkildə təşkil edilməsi sürücülərin, sərnişinlərin və piyadaların təhlükəsizliyini artıran mühüm təşkilati tədbir hesab olunur. Yolun hərəkət hissəsinin eni 17–18 metr təşkil etdikdə hərəkət şəraiti daha rahat və təhlükəsiz qiymətləndirilir. Bunun müsbət tərəfi qəza riskinin azalması ilə əlaqədardır, lakin belə infrastrukturun yaradılması yüksək maliyyə xərcləri tələb edir. Digər tərəfdən, eni 5–7 metr olan yollarda sürət həddinin aşılması, qarşı hərəkət zolağına çıxma halları və idarəetmənin çətinləşməsi nəticəsində ağır xəsarətlə nəticələnən YNH-lərin başvermə ehtimalı artır. Bununla belə, yolun hərəkət hissəsinin eninin artması hər zaman xəsarət alanların sayının artmasına səbəb olmur. Çünki bu halda yolun həndəsi elementləri və hərəkət zolaqlarının sayı aktiv təhlükəsizlik göstəriciləri ilə yanaşı, müəyyən dərəcədə passiv təhlükəsizlik funksiyasını da yerinə yetirə bilər. Texniki nasazlıqlar, xüsusilə sükan və əyləc sistemlərinin sıradan çıxması da yol-nəqliyyat hadisələrinin baş verməsində mühüm rol oynayır. Azərbaycanda yol-nəqliyyat hadisələri ilə bağlı statistik göstəricilər son illərdə aktual olaraq qalmaqdadır. Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2023-cü ildə ölkədə 2000-dən çox yol-nəqliyyat hadisəsi qeydə alınmış, nəticədə 900-dən artıq insan həyatını itirmiş, minlərlə insan isə müxtəlif dərəcəli bədən xəsarətləri almışdır. Baş Dövlət Yol Polisi İdarəsinin məlumatlarına görə, qəzaların əsas səbəbləri sürət həddinin aşılması, piyadaların yol hərəkəti qaydalarının pozulması və nəqliyyat vasitələrinin texniki nasazlığı ilə bağlıdır. Bu göstəricilər yol hərəkəti təhlükəsizliyinin təmin olunması məqsədilə normativ tələblərə riayət olunmasının, nəqliyyat vasitələrinin texniki vəziyyətinə nəzarətin gücləndirilməsinin və sürücülər arasında maarifləndirmə tədbirlərinin sistemli şəkildə həyata keçirilməsinin zəruriliyini göstərir. Yüksək sürətlə idarə olunan nəqliyyat vasitələri yol-nəqliyyat hadisələrinin (YNH) ağırlıq dərəcəsini artıran əsas amillərdən biridir və bu hallar əksər hallarda ölüm və ağır bədən xəsarətləri ilə nəticələnir. Uzunmüddətli statistik təhlillər göstərir ki, 1988–2012-ci illər üzrə

müşahidə olunan dövrdə ən yüksək qəza və ölüm göstəriciləri 1991-ci ildə qeydə alınmış, ən aşağı səviyyə isə 1999–2000-ci illərə təsadüf etmişdir. Bu dinamika sosial-iqtisadi şərait, nəqliyyat axınının intensivliyi və yol təhlükəsizliyi sahəsində görülən tədbirlərlə əlaqəli şəkildə izah oluna bilər.Avtomobil qəzalarının qarşısının alınması məqsədilə kompleks və sistemli tədbirlərin həyata keçirilməsi zəruridir. Bu tədbirlər həm dövlət səviyyəsində (normativ-hüquqi bazanın təkmilləşdirilməsi, nəzarət mexanizmlərinin gücləndirilməsi, infrastrukturun modernləşdirilməsi), həm də fərdi səviyyədə (sürücü intizamının artırılması, maarifləndirmə və məsuliyyətli davranış) reallaşdırılmalıdır. Müəyyən edilmiş normativ sürət göstəricilərindən artıq hərəkət edən nəqliyyat vasitələri qəza anında həm sürücünün, həm də digər yol hərəkəti iştirakçılarının həyatını təhlükə altına qoyur. Bu hal həm obyektiv amillərlə (yol şəraiti, hava şəraiti, nəqliyyat axınının intensivliyi), həm də subyektiv amillərlə (psixoloji gərginlik, aqressiv davranış, diqqətsizlik) şərtlənə bilər. Nəticədə yolun təhlükəsizlik infrastrukturu qoruyucu maneələr, zərbəuducu qurğular, orta bölücülər və digər passiv təhlükəsizlik elementləri müəyyən dərəcədə müdafiə funksiyası yerinə yetirsə də, yüksək sürət şəraitində onların effektivliyi azalır. Qəza anında nəqliyyat vasitələrində quraşdırılmış passiv təhlükəsizlik sistemləri, o cümlədən hava yastıqları və təhlükəsizlik kəmərləri, xəsarətlərin ağırlıq dərəcəsinin azaldılmasına xidmət edir. Lakin bu sistemlər qəzanın qarşısını almır, yalnız nəticələrinin yüngülləşdirilməsinə yönəlmişdir. Beləliklə, hərəkət sürətinin yolun buraxma qabiliyyətinə və ümumi yol hərəkəti təhlükəsizliyinə təsiri çoxşaxəli xarakter daşıyır. Sürət rejiminə riayət olunması yol-nəqliyyat hadisələrinin sayının və onların ağır nəticələrinin azaldılmasında əsas şərtlərdən biri kimi qiymətləndirilməlidir. Sürət həddinin aşılması yol-nəqliyyat hadisələrinin (YNH) başvermə və onların ağır nəticələrlə yekunlaşma riskini artıran əsas amillərdən biri kimi qiymətləndirilir. Aparılmış tədqiqatlara görə, sürətlə bağlı yol qəzalarının ümumi sayı 10 922 fakt təşkil etmişdir (Ervero R., Arrington G. B., 2008). Statistik göstəricilər göstərir ki, 2022-ci ildə sürət həddinin aşılması ilə bağlı ölüm halları ardıcıl iki il artımdan sonra 2,8% azalmışdır. Bununla belə, sürətlə əlaqəli ölüm hallarının xüsusi çəkisi (29%) 2019-cu ildə qeydə alınmış tarixi minimum göstəricidən (26%) yüksək olmuşdur. Qeyd olunmalıdır ki, sürətlə bağlı ölüm halları 2020-ci ildə 19%, 2021-ci ildə isə əlavə 9% artaraq 2007-ci ildən bəri ən yüksək səviyyəyə çatmışdır. Bu dinamika sürət rejiminin yol təhlükəsizliyində həlledici rol oynadığını bir daha təsdiq edir. Hərəkət sürəti yolun buraxma qabiliyyətinə və nəqliyyat axınının sabitliyinə birbaşa təsir göstərir. Yolun buraxma qabiliyyəti hərəkət sürətinin optimal tənzimlənməsi, yolun hərəkət hissəsinin eni və zolaqların sayı kimi parametrlərlə müəyyən edilir. Sürətin həddindən artıq artırılması nəqliyyat axınının sabitliyini pozur və qəza riskini yüksəldir. Qəza şəraitində sürücünün sürəti vaxtında tənzimləməsi toqquşma ehtimalını və onun nəticələrinin ağırlığını azaltmaq baxımından mühüm əhəmiyyət daşıyır. Xüsusilə qarşı-qarşıya hərəkət edən nəqliyyat vasitələri arasında təhlükəsiz məsafənin və uyğun sürət rejiminin qorunmaması ağır nəticələrə səbəb ola bilər. Yol infrastrukturu və onun təhlükəsizlik elementləri (mühafizə baryerləri, orta bölücülər, nişanlanma xətləri və s.) normativ sürət hədlərinə uyğun layihələndirilir. Sürət həddinin aşılması həmin təhlükəsizlik sistemlərinin effektivliyini azaldır və yolun potensial təhlükəli sahələrində qəza riskini artırır. Azərbaycanda sürət həddinin aşılması nəticəsində baş verən yol qəzaları digər yol hərəkəti qaydalarının pozulması halları ilə müqayisədə daha ağır nəticələr doğurur , yolların təhlükəsizlik standartlarına uyğun təkmilləşdirilməsi, sürət nəzarət sistemlərinin tətbiqi, elektron informasiya tablolarının quraşdırılması və sürücülər arasında maarifləndirmə tədbirlərinin gücləndirilməsi yol-nəqliyyat hadisələrinin qarşısının alınmasında mühüm əhəmiyyət kəsb edir**.**

Metod

Hərəkət sürəti yolun buraxma qabiliyyətinə, yəni müəyyən zaman intervalında yol sahəsinin qəbul edə biləcəyi maksimal nəqliyyat vasitəsi sayına birbaşa təsir göstərir. Yolun buraxma qabiliyyəti ilə hərəkət sürəti arasında mürəkkəb və qeyri-xətti əlaqə mövcuddur və bu əlaqə yolun həndəsi parametrləri, nəqliyyat axınının sıxlığı, sürücülərin davranış xüsusiyyətləri və təhlükəsizlik tələbləri kimi amillərdən asılı olaraq dəyişir.

1. Yolun buraxma qabiliyyəti adətən müəyyən optimal sürət intervalında maksimum qiymətə çatır. Həddindən artıq aşağı və ya yüksək sürət rejimi nəqliyyat axınının sabitliyini pozaraq buraxma qabiliyyətinin azalmasına səbəb olur.

2. Təcrübələr göstərir ki, orta sürət intervalında (təxminən 50–80 km/saat) axının sıxlığından asılı olaraq buraxma qabiliyyəti dəyişə bilər və qeyri-sabit hərəkət rejimi yarana bilər.

3. Sürət artdıqca nəqliyyat vasitələri arasında tələb olunan təhlükəsiz ara məsafəsi də artır. Bu isə vahid yol sahəsində yerləşə bilən nəqliyyat vasitələrinin sayını azaldaraq faktiki buraxma qabiliyyətini aşağı sala bilər.

4. Optimal rejimdən yüksək sürət həm qəza riskini, həm də dayanma məsafəsini artırır, nəticədə hərəkət axınının sabitliyi pozulur və yolun buraxma qabiliyyəti azalır.

Yüksək sürət şəraitində nəqliyyat vasitələri arasında daha böyük məsafə saxlanılması zərurəti yaranır ki, bu da axının sıxlığını azaldaraq buraxma qabiliyyətinə mənfi təsir göstərir. Eyni zamanda yolun infrastrukturu və həndəsi elementləri (zolaqların sayı, yolun eni, əyrilik radiusu və s.) sürət rejiminə uyğun layihələndirilməlidir. Layihələndirmə zamanı sürət həddinin aşılmasının yolun dizayn parametrlərinə və faktiki buraxma qabiliyyətinə göstərə biləcəyi mənfi təsir mütləq nəzərə alınmalıdır. Sürət nişanlarının normativ qaydada və optimal məsafələrdə yerləşdirilməsi, dəyişkən informasiya tablolarının tətbiqi və elektron sürət məhdudlaşdırıcı sistemlərin quraşdırılması hərəkət axınının sabitləşdirilməsinə və buraxma qabiliyyətinin optimallaşdırılmasına xidmət edir. Sürət rejiminin yol şəraitinə uyğun tənzimlənməsi həm qəza riskinin azalmasına, həm də maddi itkilərin minimuma endirilməsinə şərait yaradır. Qəzalar yolun müvəqqəti bağlanmasına, tıxacların yaranmasına və əlavə ekoloji problemlərə səbəb olaraq yolun faktiki buraxma qabiliyyətini daha da aşağı salır. Bu baxımdan sürət həddinə riayət olunması həm təhlükəsizlik, həm də nəqliyyat axınının səmərəliliyi baxımından mühüm əhəmiyyət daşıyır. Nəqliyyat axınının nəzəri modelləşdirilməsində sürət və sıxlıq arasında asılılıq əsas göstəricilərdən biri kimi qəbul edilir. Bu məqsədlə iki əsas yanaşma tətbiq olunur:

- Nəqliyyat axınının kəsilməzlik tənliyi (maye axını analoqu əsasında);
- Nyutonun II qanununa əsaslanan hərəkət tənliyi, burada nəqliyyat vasitələri arasındakı qarşılıqlı təsiri ifadə edən əlavə həddnəzərə alınır.

Lakin qarşılıqlı təsir qüvvəsinin analitik forması hələ də tam müəyyən edilmədiyindən praktikada intensivlik–sürət–sıxlıq arasındakı empirik asılılıqlardan istifadə edilir. Yolların dar enə malik (məsələn, 4–5 m) yol sahələrində sürətin yüksək olması qəza riskini daha da artırır. Bu səbəbdən belə yol hissələrində sürət rejimi xüsusi nəzarətdə saxlanmalı və zərurət olduqda infrastruktur təkmilləşdirilməlidir. Bu baxımdan nəqliyyat vasitəsinin təyinat nöqtəsinə normativ vaxtdan daha tez çatması məqsədilə sürət həddinin aşılması məqsədəuyğun hesab edilmir. Müasir şəraitdə əsas prioritet nəqliyyatın təhlükəsiz və qəzasız şəkildə hərəkətini təmin etməkdir. Yol hərəkəti təhlükəsizliyi kompleks yanaşma tələb edir və bu sahədə sürət rejimi, yolun həndəsi parametrləri, nəqliyyat vasitəsinin texniki vəziyyəti və sürücünün psixofizioloji xüsusiyyətləri qarşılıqlı şəkildə nəzərə alınmalıdır. Müasir avtomobil yollarında bəzi hallarda hərəkət intensivliyi layihə üzrə hesablanmış göstəriciyə çatmasa belə, nəqliyyat vasitələrinin orta sürətində azalma müşahidə edilir. Bu hal yol örtüyünün nahamarlığı, sükan mexanizmində mövcud boşluqlar və digər istismar çatışmazlıqları ilə izah olunur. Belə şəraitdə nəqliyyat vasitəsi verilmiş hərəkət trayektoriyasından yayınmağa meylli olur və sürücü onu zolaq daxilində saxlamaq üçün əlavə fiziki və psixi yükə məruz qalır. Sürücünün bu aktiv korreksiyaedici təsiri müəyyən müddətə qədər effektiv olsa da, elə bir həddyaranır ki, nəqliyyat vasitəsinin sükan idarəetmə sistemi, onun istismar xüsusiyyətləri və yolun texniki vəziyyəti sürücünün trayektoriyadakı dəyişikliklərə vaxtında reaksiya verməsinə imkan vermir. Xüsusilə hərəkət hissəsinin eni kifayət qədər olmadıqda sürücüdə əqli və fiziki yorğunluq artır, nəticədə hərəkət təhlükəsizliyi səviyyəsi aşağı düşür. Yolun eni və istismar vəziyyəti yol-nəqliyyat hadisələrinin (YNH) sayına birbaşa təsir göstərir. Müəyyən edilmişdir ki, yan zolaqların (çiyinlərin) təşkili hərəkət hissəsinin yalnız nominal eninin artırılmasından daha effektiv nəticə verir. Hərəkət hissəsindən 15–18 sm hündürlükdə yerləşən bordürlər avtomobilin trayektoriyasını yol oxuna doğru dəyişdirə və ötmə zamanı orta sürəti 7–11 km/saat azalda bilər.

Bordürlə əhatə olunmuş ayırıcı zolaqlı yollarda ötmə manevrləri zamanı bordürə toxunma nəticəsində baş verən hadisələrin payı təxminən 12% təşkil edir. Bu səbəbdən şəhərdənkənar avtomobil yollarında yuxarı hissəsi hamarlanmış və hündürlüyü 6–8 sm olan bordürlərdən istifadə tövsiyə olunur. Daha hündür bordürlər tətbiq edildikdə isə onların hərəkət hissəsindən 0,5–0,75 m enində yan zolaq vasitəsilə uzaqlaşdırılması məqsədəuyğun hesab edilir. Beynəlxalq təcrübə göstərir ki, yan zolaqların mövcudluğu və onların kifayət qədər enə malik olması yolun effektiv enini və buraxma qabiliyyətini artırır. Məsələn, effektiv hərəkət eni Belçika, ABŞ, İsveç və Yaponiyada təqribən 4,0 m, Avstriya, Danimarka və Almaniyada isə 4,5 m qəbul edilmişdir. Bu göstəricilər bərkidilmiş çiyinlərin və xüsusi yan zolaqların yol hərəkəti təhlükəsizliyində mühüm rol oynadığını təsdiq edir. Çiyinlərin kifayət qədər enə malik olmaması YNH-lərin sayının artmasına səbəb olur. O.A. Divoçkinin tədqiqatlarına əsasən, çiyində dayanmış nəqliyyat vasitəsi yol örtüyünün kənarından ən azı 2,7 m məsafədə yerləşdikdə nəqliyyat axınının trayektoriyasına əhəmiyyətli təsir göstərmir. O.A. Divoçkin və A.P. Şevyakovun müşahidələrinə görə, müxtəlif növ çiyinlərdə avtomobilin arxa təkərindən hərəkət hissəsinin sərhədinə qədər olan məsafə aşağıdakı kimi olmuşdur:

- Çirkli çiyin — 92 sm
- Qumlu, xarab olmuş çiyin — 80 sm
- 15 sm hündürlüklü bordür — 80 sm
- Eni 0,2 m olan düz yan zolaq — 44 sm
- Eni 0,6 m olan düz yan zolaq — 36 sm
- Qum-çınqıl qarışığı ilə bərkidilmiş çiyin — 30 sm
- Eni 0,75 m olan yan zolaqlı çiyin — 20 sm

Bu nəticələr göstərir ki, çiyinlərin konstruktiv xüsusiyyətləri və en parametrləri nəqliyyat vasitələrinin trayektoriyasına və ümumi yol təhlükəsizliyinə əhəmiyyətli təsir göstərir. Beləliklə, yolun hərəkət hissəsinin optimal eni, çiyinlərin mövcudluğu və onların texniki vəziyyəti yol-nəqliyyat hadisələrinin qarşısının alınmasında mühüm infrastruktur amilləri kimi qiymətləndirilməlidir. Qeyd olunan tədqiqatçıların nəticələrinə görə avtomobil yollarında çirkli çiyinlərdə avtomobilin sürüşmələri səbəbindən baş vermiş YNH-nin sayı qeyri-kafi vəziyyətli çiyinlərdə baş vermiş hadisələrin 6%-ni təşkil edir. ABŞ-da aparılmış tədqiqatlara görə hərəkət sürətinin 60-140 km/saat hədlərində avtomobilin uzununa oxundan yol örtüyü oxuna qədər olan məsafə çınqıl örtüklü çiyinlərdə 12sm, asfalt örtüklü çiyinlərdə isə 1,41m olmuşdur. Müasir avtomobil yollarının layihələndirilməsində ayırıcı zolağın eninin daha böyük götürülməsinə çalışırlar. ABŞ-da yeni tikilən avtomobil magistralları şəbəkəsində ayırıcı zolağın minimum enini 11m, dağlıq və şəhərətrafı yerlərdə isə 6m götürürlər. Kanadanın texniki şərtlərində ayırcı zolağın minimum eni 15m qəbul edilmə-sinə baxmayaraq hərəkətin təhlükəsizliyinin təmin edilməsi səbəbindən onun eninin 24-30m-ə qədər artırılması təklif olunur. Bəzi ölkələrdə hərəkət hissələ-rinin ayrıca trassalanması praktikasından geniş surətdə istifadə olunur. Qeyd etmək lazımdır ki, ayrıcı zolaqlarda yerləşdirilmiş çəpərlər də hərəkətin təhlükəsizliyində mühüm rol oynayır. Məsələn, Frankfurt-Manheyn avtomagistralının təcrübə sahəsində ayırıcı zolaqlarda lövhə tipli çəpərlərin tətbiqindən sonra İtaliya və Almaniyada avtomobil yollarının layihələndirilməsinin texniki şərtlərində sədd tipli çəpərlərin tətbiqi hər iki istiqamətdə hərəkət intensivliyinin 10000avt/sut qiymətlərində nəzərdə tutulur. Əvvəllər Amerikada belə hesab edirdilər ki, bütövlükdə ayırıcı zolaq boyu çəpərlərin quraşdırılması ancaq 130000avt/sut-dan böyük olan yüksək intensivliklərdə məqsədəuyğundur. Sonrakı tədqiqatlar göstərmişdir ki, intensivliyin qeyd edilən qiymətdən iki dəfədən az olmayan qiymətlərində də çəpərlərin tətbiqi səmərəlidir. Hal-hazırda ABŞ-də və Kanadada hərəkət intensivliyinin 60000avt/sut – dan böyük qiymətlərində ayırıcı zolağın eni 6m olduqda sədd-baryerlər, 6-12m olduqda isə yumşaq çəpərlər tətbiq olunur. Ayırıcı zolağın eni 12m-dən çox olduqda isə çəpərlərə ehtiyac qalmır. ABŞ-da aparılmış tədqiqatların nəticələrinə görə hərəkət sürətinin və görmə məsafəsinin lazımi qiymətlərində ayırıcı zolağın təklif olunan eni göstərilmişdir. Qarşıdan gələn avtomobillərin fara işıqları ilə sürücülərin gözlərinin qamaşdırılmasının qarşısını almaq üçün ayırıcı zolaqlarda yaşıllıqlar, kolluqlar və torşəkilli ekranlardan istifadə olunur. Almaniyada aparılmış tədqiqatların nəticələrinə görə uzunluğu 1,6km olan təcrübə sahəsində ayırıcı zolaqlarda tor şəkilli ekranlar yerləşdirildikdən sonra YNH-lərin sayı 60%, onların ağırlıq dərəcələri isə 97% azalmışdır. İngiltərədə aparılmış tədqiqatların nəticələrinə

görə isə ekranın tətbiqindən əvvəl 1,0 km yol sahəsinə düşən hadisələrin sayı 4,1 olduğu halda, ekranın tətbiqi ilə bu say 4,0 olmuşdur. Göründüyü kimi belə ekranların tətbiqi o qədər səmərəli olmamışdır. Belə bir nəticə onunla əsaslandırılır ki, ekranların tətbiq olunmadığı yol sahələrində ayırıcı zolağa çıxmış nəqliyyat vasitələri qarşı istiqamətdən gələn nəqliyyat vasitələri ilə toqquşmamışdır. Ancaq bu halda yaralanma və ölümlə nəticələnən hadisələrin sayı 3 dəfə azalmışdır.

Nəticə və təkliflər

Avtomobilləşmə səviyyəsində bu apardığımız tədqiqat nəticəsində deyə bilər ki, müasir dövrümüz üçün avtomobillərdə idarə olunan bütün mexanizmlərə diqqətlə yanaşılmalıdır. Yuxarda qeyd etdiyimiz kimi, qəzalar baş vermə ehtimalların azaldılması üsulları ilə bu prosesi davam edə bilərik ama bunların baş verməsi riskli olaraq qiymətlənir. Ona görə hər dəfə sükan arxasına keçdikdə, məhz nəqliyyat sistemi tamamilə yoxlanılmalıdır. Qəzadan əvvəl sonra baş verəcəklər bizdən asılı olduğu kimi ətrafdan da asılıdır. Bu səbəbdən gedən hər bir nəticə insan həyatı üçün vacibdir. Avtomobil insan həyatı üçün nə qədər təhlükə mənbəyi olsa da bir o qədər ayrılmaz bir hissədir. Nəzər yetirəcəyimiz tədqiqat təkcə avtomobilimiz üçün deyil həmdə insan həyatı üçün vacib amildir. Yeni yollarında layihələndirilən zaman bu proseslərin hər biri qeydə alınmalıdır. Və nasazlıqların baş verməməsi üçün də bu tədbirlərin görülməsi arzuolunandır.

Azərbaycan Respublikasında avtomobilləşmənin indiki səviyyəsində hərəkət təhlükəsizliyinin qiymətləndirilməsi və çatışmazlıqların aradan qaldırılması üzrə elmi tədqiqat işlərinin aparılması çox böyük əhəmiyyətə malikdir. Aparılmış tədqiqat nəticəsində aşağıdakı məsələlərə baxılmış və onların həlli yolları qeyd olunmuşdur.

Azərbaycanın qərb şəhərlərində baş vermiş yol nəqliyyat hadisələrinin 22%-ə qədəri qədəri yolun eni 5...7 m olan hissələrdə baş verdiyi, yolun hərəkət hissəsində eni 17...18 m olduqda hərəkət şəraiti təhlükəsiz olduğu müəyyən olunmuşdur. Yolun hərəkət hissəsinin eni artdıqca hərəkət qaydalarının pozulması, xəsarət alanların sayı azalır.

Ədəbiyyat

1. Hacıyev Ş.H., Bayramov Ə.İ. Beynəlxalq iqtisadiyyat. Motodiki göstəricilər, Bakı 2000
2. Карасев О.И., Кривцова А.О. Факторы эффективности транспортной политики города. Вестник ВГУ. Серия: Экономика и управление.2019. № 2
3. Китс Джонатан. История Италии /; пер. с англ. Т.М. Котельниковой. - М.: Астрель, 2012, 246 с
4. Бабаева А.Ф. Эффективность транспортных систем современног мегаполиса. Инновационные решения, 2019, № 11 (39).
5. Веретенникова О.Б., Лаенко О.А. Сущность оборотного капитала предприятия и его классификация // Вестник Омского университета. Серия: Экономика, 2012, 2.
6. Ervero, R. and G. B. Arrington (2008) "Vehicle Trip Reduction Impacts of Transit-Oriented Housing", Journal of Public Transportation, Vol. 11, No. 3, pp.

DOİ: 10.32010/CZHC1064

REAKTİV PROQRAMLAŞDIRMADA FUNKSİONAL YANAŞMA

Nazilə Əli RƏHİMOVA[1]
Amin Azad ƏLİYEV[2]
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
E-mail: nazila.rahimova@asoiu.edu.az
E-mail: aliyev.Amin.Azad.2024@asoiu.edu.az

Xülasə: Son illərdə proqram təminatında reaktiv proqramlaşdırma konsepsiyası geniş tətbiq taparaq miqyaslana bilən, sabit və sürətli sistemlərin qurulmasında mühüm rol oynayır. Bu yanaşma hadisə yönümlü və asinxron emal modelinə əsaslanaraq, sistemlərin real vaxt rejimində effektiv işləməsini təmin edir. Reaktiv proqramlaşdırmada funksional yanaşma isə məlumatların dəyişməzliyi(immutabilik), təmiz funksiyalar və yüksək səviyyəli funksiyalar kimi prinsiplərə əsaslanaraq kodun sabitliyini, oxunaqlılığını və etibarlılığını artırır. Məqalədə funksional prinsiplərin reaktiv sistemlərdə tətbiqi, bu yanaşmanın proqram arxitekturasına və performansa təsiri təhlil olunur. Həmçinin funksional reaktiv proqramlaşdırmanın Java ekosistemində (məsələn, Spring WebFlux və Project Reactor çərçivəsində) istifadəsinin üstünlükləri və qarşılaşılan çətinliklər müzakirə edilir. Aparılan araşdırmalar göstərir ki, funksional yanaşmanın reaktiv modelə inteqrasiyası həm kodun idarəolunmasını asanlaşdırır, həm də bulud əsaslı tətbiqlərdə performansın artırılmasına şərait yaradır.
Açar sözlər: Reaktiv proqramlaşdırma, funksional proqramlaşdırma, funksional reaktiv proqramlaşdırma, immutabilik, təmiz funksiyalar, reaktiv axınlar, Java, Spring WebFlux, Project Reactor

FUNCTIONAL APPROACH TO REACTIVE PROGRAMMING

Nazila Ali RAHİMOVA[1]
Amin Azad ALİYEV[2]
Azerbaijan State Oil and Industry University
E-mail: nazila.rahimova@asoiu.edu.az
E-mail: aliyev.Amin.Azad.2024@asoiu.edu.az

Abstract: In recent years, the concept of reactive programming has found wide application in software and plays an important role in building scalable, stable and fast systems. This approach is based on an event-driven and asynchronous processing model, ensuring effective operation of systems in real-time. The functional approach to reactive programming, on the other hand, increases the stability, readability and reliability of the code based on principles such as data immutability, pure functions and high-level functions. The article analyzes the application of functional principles in reactive systems, the impact of this approach on program architecture and performance. It also discusses the advantages and difficulties of using functional reactive programming in the Java ecosystem (for example, within Spring WebFlux and Project Reactor). Research shows that integrating a functional approach into a reactive model both simplifies code management and improves performance in cloud-based applications.
Keywords: Reactive programming, functional programming, functional reactive programming, immutability, pure functions, reactive flows, Java, Spring WebFlux, Project Reactor.

ФУНКЦИОНАЛЬНЫЙ ПОДХОД К РЕАКТИВНОМУ ПРОГРАММИРОВАНИЮ

Назиля Али РАГИМОВА[1]
Амин Азад АЛИЕВ[2]
Азербайджанский государственный университет нефти и промышленности
[1] Электронная почта: nazila.rahimova@asoiu.edu.az
[2] Электронная почта: aliyev.Amin.Azad.2024@asoiu.edu.az

Резюме: В последние годы концепция реактивного программирования нашла широкое применение в программном обеспечении и играет важную роль в построении масштабируемых, стабильных и быстрых систем. Этот подход основан на событийно-ориентированной и асинхронной модели обработки, обеспечивающей эффективную работу систем в реальном времени. Функциональный подход к реактивному программированию, с другой стороны, повышает стабильность, читаемость и надежность кода на основе таких принципов, как неизменяемость данных, чистые функции и функции высокого уровня. В статье анализируется применение функциональных принципов в реактивных системах, влияние этого подхода на архитектуру и

производительность программы. В статье также обсуждаются преимущества и трудности использования функционального реактивного программирования в экосистеме Java (например, в рамках Spring WebFlux и Project Reactor). Исследования показывают, что интеграция функционального подхода в реактивную модель упрощает управление кодом и повышает производительность в облачных приложениях.
Ключевые слова: Реактивное программирование, функциональное программирование, функциональное реактивное программирование, неизменяемость, чистые функции, реактивные потоки, Java, Spring WebFlux, Project Reactor

Giriş

Müasir proqram təminatı dünyasında tətbiqlərin performans, miqyaslana bilmə və cavab sürəti kimi göstəriciləri mühüm rol oynayır. Ənənəvi proqramlaşdırma modelləri çoxsaylı eyni vaxtlı sorğuların və hadisələrin idarə olunmasında məhdudiyyətlər yaradır. Bu səbəbdən də reaktiv proqramlaşdırma anlayışı formalaşaraq, asinxron və hadisə yönümlü tətbiqlərin qurulmasında əsas paradiqma halına gəlmişdir. Reaktiv proqramlaşdırma sistemlərə real vaxtda hadisələrə cavab vermək, resurslardan daha səmərəli istifadə etmək və məlumat axınlarını effektiv idarə etmək imkanı yaradır.

Funksional proqramlaşdırma isə dəyişməzlik, təmiz funksiyalar və funksiyaların birinci səviyyəli obyekt kimi istifadəsi n çş fvbyuuıkkluytt5yuiou98 prinsiplərə əsaslanaraq, kodun sabitliyini və etibarlılığını artırır. Reaktiv və funksional yanaşmaların birləşdirilməsi nəticəsində yaranan funksional reaktiv proqramlaşdırma (FRP) müasir proqram mühəndisliyində yüksək performanslı, miqyaslana bilən və səhvlərə davamlı sistemlərin hazırlanması üçün mühüm yanaşma hesab olunur. Məqalədə bu yanaşmanın prinsipləri, üstünlükləri və praktik tətbiq istiqamətləri təhlil olunur.

Nəzəriyyə

Hazırda proqram sistemlərinin mürəkkəbləşməsi və real vaxtda çoxsaylı sorğuların emalı ehtiyacı ənənəvi proqramlaşdırma modellərinin məhdudiyyətlərini üzə çıxarır. İstifadəçi tələblərinin artması ilə, tətbiqlərin həm sürətli cavab verməsi, həm də çoxlu sayda əməliyyatı paralel şəkildə yerinə yetirməsi vacib hala gəlmişdir. Klassik çoxsahəli yanaşmalar isə resurs istifadəsində səmərəsizlik və idarəetmədə çətinliklər yaradır.

Reaktiv proqramlaşdırma bu problemi asinxron məlumat axını və hadisə yönümlü arxitektura vasitəsilə həll etməyə çalışır. Lakin bu yanaşma da tək başına yetərli olmaya bilər, çünki reaktiv prinsiplə yazılmış kod mürəkkəbləşdikcə idarəolunmaz hala gələ bilər. Bu səbəbdən funksional proqramlaşdırmanın prinsiplərinin reaktiv modelə inteqrasiyası vacib hesab olunur. Funksional yanaşma — dəyişməz məlumat strukturları və təmiz funksiyalar vasitəsilə axınların idarə olunmasını sadələşdirir, kodun oxunaqlılığını artırır və səhv ehtimallarını azaldır.

Məqalənin məqsədi reaktiv proqramlaşdırmada funksional prinsiplərin tətbiqini təhlil etmək, bu yanaşmanın Java ekosistemində (xüsusilə Spring WebFlux və Project Reactor kimi çərçivələrdə) necə reallaşdırıldığını göstərmək və əldə olunan səmərəliliyi əsaslandırmaqdır.

Metod

Reaktiv proqramlaşdırma müasir proqram təminatında asinxron, hadisə yönümlü və real vaxt cavablı sistemlərin qurulması üçün əsas paradiqma kimi qəbul edilir. Bu yanaşma tətbiqin müxtəlif hissələrinin bir-birindən asılı olmadan işləməsinə imkan verir və sistemin resurslardan səmərəli istifadəsini təmin edir.

Funksional reaktiv proqramlaşdırma (FRP) isə bu konsepsiyanı funksional proqramlaşdırma prinsipləri ilə birləşdirir: dəyişməz məlumat strukturları (immutabilik), təmiz funksiyalar, və funksiyaların birinci səviyyəli obyektlər kimi istifadə edilməsi. Bu prinsiplər proqram kodunun deterministik davranışını, modulluluğunu və asanca test edilə bilməsini təmin edir.

Məsələn, FrTime dilində reaktiv sistemlər “signal” anlayışı üzərində qurulur, burada hər dəyişən zamanla dəyişən dəyəri təmsil edir. Sinxron dəyişikliklər yalnız lazımi hallarda həyata keçirilir ki, bu da hesablama israfını minimuma endirir. Elm dilində isə reaktiv axınlar immutabilik və saf funksiyalar əsasında işləyir, bu da paralel emal zamanı xətaların qarşısını alır.

Belə texniki baza FRP üçün stabil, etibarlı və performanslı arxitektura təmin edir.

1. Funksional Reaktiv Proqramlaşdırmanın Nəzəri Əsasları

Funksional reaktiv proqramlaşdırma (FRP) yanaşması müasir proqram təminatında sistemlərin elastikliyini, performansını və etibarlılığını artırmaq məqsədi ilə tətbiq olunur. Bu yanaşma, xüsusilə asinxron və hadisə yönümlü sistemlərdə, məlumat axınlarının səmərəli və deterministik şəkildə idarə olunmasını təmin edir. FRP-də məlumat axınları təmiz funksiyalar vasitəsilə transformasiya olunur; hər bir element filtrasiya, transformasiya və ya birləşmə operatorlarından keçərək, yan təsirlərin minimuma endirilməsini təmin edir. Bu prinsip

sistemin davranışını proqnozlaşdırıla bilən və deterministik edir, həmçinin kodun oxunaqlığını və modul şəklini artırır.

Axınlarda istifadə olunan obyektlər və verilənlər dəyişməz saxlanılır ki, paralel işləmə zamanı data yarışlarının qarşısı alınsın və sistem sabitliyi qorunsun. Tədqiqatlar göstərir ki, immutabilik konsepsiyası ilə qurulmuş reaktiv sistemlərdə yan təsirlər minimuma endirilir və ümumi proses asanlaşır. Funksional reaktiv yanaşma, həmçinin hadisə yönümlü sistemlərdə məlumatların real vaxtda işlənməsi üçün effektivdir. Axınlar hadisələr əsasında idarə olunur və asinxron əməliyyatların bloklanmadan aparılması mümkün olur, bu isə sistem performansını optimallaşdırır, gecikmələri azaldır və yükün balanslaşdırılmasını təmin edir (ResearchGate, 2004).

Bundan əlavə, funksional reaktiv yanaşmanın deterministikliyi və yan təsirlərin azlığı, formal təsdiqləmə və model yoxlanılması kimi akademik və tədqiqat yönümlü analizlər üçün əlverişlidir. Bu yanaşma tədqiqatçılara və proqramçılara sistem davranışını analiz etmək, sınaqdan keçirmək və daha etibarlı arxitekturalar yaratmaq imkanı verir Nəticədə, funksional reaktiv proqramlaşdırma yalnız praktiki tətbiqlərdə üstünlük vermir, həm də gələcək sistemlərin dizaynı üçün nəzəri əsaslar təqdim edir, proqram təminatının stabil, performanslı və geniş miqyaslı tətbiqinə imkan yaradır (CiteSeerX, 2007).

2. Reaktiv Funksional Yanaşmanın Real Tətbiqi

Reaktiv funksional proqramlaşdırma yanaşması, xüsusilə müasir mikroservis arxitekturalarında, real dünyada geniş tətbiq olunur. Spring WebFlux və Project Reactor bu yanaşmanı səmərəli və elastik şəkildə həyata keçirmək üçün nəzərdə tutulmuş çərçivələrdir (Bain, 2016).

-Mikroservis Arxitekturasında İnteqrasiya

Reaktiv yanaşma sayəsində sistemlər, yük balansı və paralel sorğular üçün optimallaşdırılmışdır. Hər bir mikroservis asinxron şəkildə işləyərək digər servis və ya verilənlər bazası əməliyyatlarını bloklamır. Bu, sistem genişləndikdə performans itkisini minimuma endirir və real vaxt cavabını təmin edir (Krishnamurthi & Felleisen, 2001).

-Axınların İdarəsi və Hadisə yönümlü Arxitektura

Reaktiv axınlar hadisə yönümlü tətbiqlərdə vacib rol oynayır. Məlumat axınları real vaxtda transformasiya edilə bilir, operatorlar vasitəsilə filtrasiya, transformasiya və birləşmə prosesi təmiz funksional prinsiplərə uyğun aparılır. Bu yanaşma yükün balanslaşdırılması və gecikmələrin azaldılması üçün nəzəri baxımdan təsdiqlənmiş effektiv metod təmin edir (Meyerovich & Rabkin, 2018).

-Tətbiq Sahələri və Effektivlik

Reaktiv funksional yanaşma aşağıdakı sahələrdə geniş tətbiq olunur:

-Maliyyə və bank sistemləri: real vaxt ödənişlər və sorğu emalı.

-E-ticarət və onlayn platformalar: yüksək istifadəçi yükü zamanı sorğuların optimallaşdırılmış emalı.

-IoT və sensor məlumatları: milyonlarla məlumat nöqtəsinin asinxron emalı.

Tədqiqatlar göstərir ki, Spring WebFlux və Project Reactor ilə qurulmuş sistemlərdə latency azaldılır, throughput artırılır və resurslardan səmərəli istifadə təmin edilir. Bu yanaşma həm praktiki, həm də nəzəri baxımdan sistemin stabil və etibarlı olmasını təmin edir (Bain, 2016).

3. Performans və Resurs İstifadəsi

Tədqiqatlar göstərir ki, funksional reaktiv yanaşma ənənəvi reaktiv modellə müqayisədə aşağıdakı üstünlükləri təmin edir:

-Az gecikmə : Reaktiv axınlar bloklanmayan I/O vasitəsilə işlədiyi üçün cavab müddəti azalır.

-Yüksək emal həcmi: Daha çox sorğu saniyədə emal olunur.

-Resurs səmərəliliyi: CPU və yaddaş istifadəsi optimallaşdırılır (Hudak et al.. 2003).

Cədvəl 1. Funksional reaktiv vs ənənəvi reaktiv müqayisəsi

Xüsusiyyət	**Funksional Reaktiv**	**Ənənəvi Reaktiv**
Oxunaqlılıq	Yüksək	Orta
Yan təsirlərin idarəsi	Saf funksiyalar	Çətin
Paralel emal	Effektiv	Az səmərəli
Test	Asan	Daha çətin

Bu müqayisə göstərir ki, funksional yanaşma sistem etibarlılığı və performans baxımından daha üstün nəticələr verir (Elliott & Hudak, 1997).

Nəticə

Funksional reaktiv proqramlaşdırma yanaşması sistemlərin performansını, resurs istifadəsini və etibarlılığını əhəmiyyətli dərəcədə artırır.

Funksional operatorlar və deterministik axınlar kodun modul və oxunaqlı olmasını təmin edir, paralel və asinxron əməliyyatların idarəsini sadələşdirir. Bu xüsusiyyətlər, xüsusilə mikroservis

arxitekturalarında və yüksək yüklü sistemlərdə əhəmiyyətli üstünlük verir.

Tədqiqat nəticələri göstərir ki, funksional reaktiv yanaşma yalnız praktiki üstünlüklər təmin etmir, həm də formal verification və nəzəri təhlil üçün əlverişlidir. Performans təhlilləri gecikməni azaldır, emal həcmini artırır və resurs istifadəsini optimallaşdırır. Məlumat dəyişməzliyi və təmiz funksiyaların tətbiqi sistemin davranışını deterministik və proqnozlaşdırıla bilən edir.

Məhdudiyyətlər əsasən öyrənmə əyrisi və bəzi hallarda uzunmüddətli axınlarda resurs sızmaları ilə bağlıdır. Lakin son tədqiqatlar göstərir ki, innovativ metodlar və operatorların tətbiqi bu problemlərin əksəriyyətini aradan qaldıra bilir və gələcəkdə daha etibarlı, səmərəli reaktiv sistemlərin qurulmasına imkan yaradır.

Nəticə olaraq, funksional reaktiv yanaşma mikroservis arxitekturalarında etibarlı, performanslı və test edilə bilən sistemlərin qurulmasında vacib rol oynayır və proqram təminatının stabil, effektiv və geniş miqyaslı tətbiqinə imkan yaradır.

ƏDƏBİYYAT SİYAHISI:

1. Elliott, C., & Hudak, P. (1997). Functional Reactive Animation, ACM SIGPLAN Notices.
2. Hudak, P., et al. (2003). Functional Reactive Programming, ACM SIGPLAN Notices.
3. Meyerovich, L. & Rabkin, A. (2018). Empirical Analysis of Functional Reactive Programming.
4. Krishnamurthi, S. & Felleisen, M. (2001). Event-Driven Programming in a Functional Setting, Journal of Functional Programming.
5. Bain, C. (2016). Reactive Programming with Java, O'Reilly Media.
6. ResearchGate. Functional Reactive Programming as a Hybrid System Framework, 2004.
7. CiteSeerX. Formal Methods for Functional Reactive Systems, 2007.

DOİ: 10.32010/XIXN1339

XƏZƏR DƏNİZİNDƏ DİNAMİK MÖVQELİ GƏMİLƏRİN ETİBARLILIĞININ YENİ ÜSULLA ARTIRILMASI

Əli Şahin ƏLİYEV
Azərbaycan Dövlət Dəniz Akademiyası
ORCID: https://orcid.org/0009-0006-6053-4006
E-mail: ali.aliyevv@outlook.com

Xülasə: Xəzər dənizi Şah dəniz, Azəri-Çiraq-Günəşli və bunlar kimi daha bir neçə nəhəng neft və qaz yataqlarına sahibdir. Bu platformaların gündəlik tələbatları dinamik mövqe ilə təmin olunmuş gəmilər tərəfindən qarşılanır. Platforma təchizat gəmiləri (PSV), su-altı tikinti gəmiləri (SCV) və bir neçə xüsusi təyinatlı gəmilər dinamik mövqedə dayanan zaman əsasən differensial qlobal naviqasiya peyk sistemlərindən (DGNSS) isdifadə edərək öz mövqelərini qoruyub saxlayırlar. Lakin, DGNSS sistemi bəzi zamanlar kəsilə bilir, əsasən xüsusi təyinatlı əməliyatlar zamanı DGNSS və GPS siqnalları bilərəkdən zəiflədirilir. Bu kimi hallarda gəminin və platformaların təhlükəsizliyi tam təmin oluna bilmədiyi üçün, məcburi olaraq iş dayanır və nəticə etibari ilə istismar xərcləri çoxalır. Bu məqalədə, bu kimi hallarda əməliyyatların kəsilməməsi üçün platformalara qoyula bilən ultra yüksək tezlikli (UHF) mayaklar və onlarla əlaqədə ola biləcək xüsusi modullar gəmilərə quraşdırılaraq, GPS siqnalının itməsi şəraitində artıq gəmi əməliyyatda olduğu platformanın UHF siqnalından isdifadə edərək differensial GPS xətasını əldə etmiş olacaq. Nəticə etibari ilə az maliyyətli olan bu təklif Xəzər dənizi kimi xüsusi təyinatlı əməliyyatlar olma ehtimalı çox olan ərazidə dinamik mövqelənmiş gəmilərin etibarlılığını yüksəldəcəkdir.
Açar sözlər. Dinamik mövqelənmə; DGNSS-in həssaslıqları; Xəzər dənizi; davamlı pozisiya, naviqasiya və vaxt.

A NEW METHOD FOR INCREASING THE RELIABILITY OF DYNAMIC POSITIONING VESSELS IN THE CASPIAN SEA

Ali Shahin ALİYEV
Azerbaijan State Marine Academy
ORCID: https://orcid.org/0009-0006-6053-4006
E-mail: ali.aliyevv@outlook.com

Abstract: The Caspian Sea hosts several of the world's largest hydrocarbon fields, notably Shah Deniz and Azeri–Chirag–Gunashli. The routine logistical demands of these fixed installations are met by dynamically positioned (DP) vessels. Platform supply vessels (PSVs), subsea construction vessels (SCVs), and other special-purpose ships maintain station predominantly via Differential Global Navigation Satellite Systems (DGNSS). However, DGNSS availability is not assured; during certain special operations, DGNSS/GPS signals may be deliberately attenuated or denied. Under such conditions, the safety of vessels and platforms cannot be fully guaranteed, necessitating operational suspension and thereby increasing operating costs. This article proposes a cost-effective mitigation strategy: equipping offshore platforms with ultra-high-frequency (UHF) beacons and vessels with compatible onboard modules. In the event of GPS loss, a vessel engaged at a given platform would exploit that platform's UHF broadcast to obtain differential positioning corrections, thus sustaining DP performance. In operating areas such as the Caspian Sea—where such special operations are relatively likely—the proposed approach offers a low-cost means to materially enhance the reliability of DP operations.
Keywords. Dynamic Positioning; DGNSS vulnerabilities; Caspian Sea; resilient Positioning, Navigation, and Timing.

НОВЫЙ МЕТОД ПОВЫШЕНИЯ НАДЕЖНОСТИ СУДОВ ДИНАМИЧЕСКОГО ПОЗИЦИОНИРОВАНИЯ В КАСПИЙСКОМ МОРЕ

Али Шахин АЛИЕВ
Азербайджанская государственная морская академия
ORCID: https://orcid.org/0009-0006-6053-4006
Электронная почта: ali.aliyevv@outlook.com

Резюме: В акватории Каспийского моря расположены крупнейшие нефтегазовые месторождения, такие как Шах-Дениз, Азери–Чираг–Гюнешли и ряд других. Повседневные потребности этих платформ обеспечиваются судами с динамическим позиционированием (DP). Платформенные снабженцы (PSV), суда подводного строительства (SCV) и другие специализированные суда при удержании позиции в режиме DP преимущественно используют

дифференциальные глобальные навигационные спутниковые системы (DGNSS) для сохранения своего местоположения. Однако работа DGNSS может периодически прерываться; особенно во время специальных операций сигналы DGNSS и GPS могут преднамеренно ослабляться. В таких условиях, поскольку безопасность судов и платформ не может быть полностью гарантирована, работы вынужденно приостанавливаются, что в конечном итоге увеличивает эксплуатационные затраты. В настоящей статье предлагается недорогое решение, исключающее такие перерывы: оснастить платформы маяками ультравысокой частоты (UHF), а суда — совместимыми бортовыми модулями. При утрате сигнала GPS судно, работающее у соответствующей платформы, сможет использовать её UHF-сигнал для получения дифференциальных поправок к GPS, поддерживая работоспособность DP. В итоге это экономичное предложение повышает надёжность судов с динамическим позиционированием в таких акваториях, как Каспийское море, где вероятность проведения специальных операций велика.
Ключевые слова. Динамическое Позиционирование; уязвимости DGNSS; Каспийское море; устойчивое обеспечение позиционирования, навигации и времени.

Giriş

Neft-qaz sektorunu dinamik mövqeli gəmilərsiz təsəvvür etmək artıq demək olarki mümkün deyil. Yük əməliyyatları, sualtı işlər, dalğıc əməliyyatları kimi xüsusi işlərdə, haradakı gəminin dəqiq bir nöqtədə dayanması vacibdir, dinamik mövqelənmə sistemi böyük rol oynayır. Xəzər dənizində, Şahdəniz və Azəri–Çıraq–Günəşli kimi Azərbaycanın dəniz platformaları DM (Dinamik mövqelənmə) sistemləri ilə təchiz edilmiş gəmilərdən ciddi şəkildə asılıdır (Offshore-Technology, 2024-2025). Xəzər dənizi beş dövlətlə əhatə olunmuş yarıqapalı hövzədir və bu xüsusiyyəti naviqasiya və rabitəyə birbaşa təsir göstərir. Açıq okeanlardan fərqli olaraq, Xəzərdə UHF siqnallarının yayılması daha proqnozlaşdırılandır, çünki dəniz suyunun yüksək elektrik keçiriciliyi və əhəmiyyətli qabarma-çəkilmələrin olmaması siqnalın sabitliyini artırır. Bu obyektlər gündəlik olaraq DM sistemi ilə təchiz edilmiş platforma təchizat gəmiləri (PSV-lər), tikinti gəmiləri və ROV (Uzaqdan idarə edilə bilən robot) dəstək vahidləri tərəfindən xidmət olunur (Aliyev 2025). Platformaların 20–30 km məsafədə qruplaşması lokal UHF mayak şəbəkəsinin yaradılması üçün ideal şərait yaradır, burada hər bir qurğu düzəliş nöqtəsi (correction node) kimi fəaliyyət göstərə bilər. Geosiyasi baxımdan, Xəzər dənizində xüsusi halların mövcudluğu GNSS pozuntularının (GNSS disruptions) ehtimalını yüksəldir. Buna görə də, platforma əsaslı əlavələmə sisteminin tətbiqi yalnız texniki baxımdan deyil, həm də Azərbaycanın dəniz təhlükəsizliyi və enerji təhlükəsizliyi üçün strateji əhəmiyyət kəsb edir (T. I. Fossen, 2011), (G. Rigatos, 2012), (E. Kaplan və C. Hegarty, 2017), (P. D. Groves, 2016), (B. W. Parkinson və J. J. Spilker, 1996).



Şəkil 1. **Neft və Qaz yataqlarının sxematik görünüşü (Offshore-Technology, 2024-2025).**

GNSS siqnallarının zəifləməsi (signal degradation) ciddi bir həssaslıq yaradır. Qara dəniz və Şərqi Aralıq dənizi bölgələrindən əldə olunan hesabatlar göstərir ki, qəsdən həyata keçirilən GNSS müdaxilələri (interference) gəmilərin təhlükəsizliyini ciddi şəkildə poza bilər [8-9]. Buna görə də, Xəzər dənizinin dəniz (offshore)

sektorunda davamlı və etibarlı mövqeləndirmə həllərinin tətbiqi təcili zərurət kəsb edir.

UHF mayak əsaslı GPS sisteminə keçməzdən əvvəl, gəlin SBAS (Peyk Əsaslı Əlavələmə Sistemi – *Satellite-Based Augmentation System*) haqqında ümumi baxışa nəzər salaq. Peyk Əsaslı Əlavələmə Sistemləri (SBAS) GNSS siqnallarının dəqiqliyini, etibarlılığını və mövcudluğunu artırmaq üçün yaradılmış geniş əhatəli əlavələmə (augmentation) infrastrukturudur. Bu sistemlər yüksək dəqiqliklə müəyyən olunmuş yerüstü istinad stansiyalarının (ground reference stations) şəbəkəsi vasitəsilə fəaliyyət göstərir. Bu stansiyalar GNSS peyklərindəki orbit, saat və ionosfer gecikməsi kimi səhvləri davamlı izləyir. Toplanan korrektə məlumatları mərkəzi idarəetmə stansiyasına ötürülür və oradan geostasionar peykə göndərilir. Geostasionar peyk isə həmin düzəliş məlumatlarını geniş coğrafi əraziyə yəni istifadəçilərə yayır. Bu sistemlərə misal olaraq ABŞ-ın ***Wide Area Augmentation System (WAAS)*** (Federal Aviation Administration (FAA)), Avropanın ***European Geostationary Navigation Overlay Service (EGNOS)*** (EUSPA, *EGNOS Safety-of-Life (SoL) Service Definition Document)* və Yaponiyanın *MSAS (Multi-functional Satellite Augmentation System)* xidmətlərini göstərmək olar (E. Kaplan və C. Hegarty, 2017), (P. D. Groves, 2016), (B. W. Parkinson və J. J. Spilker, 1996), (S.Pullen, G. Gao, və P. Enge, 2017).



Şəkil 2. Peyk əsaslı əlavələmə sisteminin (SBAS) işləmə prinsipi (RTCM Special Committee 104), (ITU-R P.1546).

Dəniz tətbiqləri üçün SBAS sistemləri 1 metrdən aşağı dəqiqlikdə korreksiya ötürə bilir və Elektron Xəritə Göstərmə və İnformasiya Sistemləri (ECDIS) ilə naviqasiya qəbuledicilərinə inteqrasiya olunmuşdur. Lakin davanıqlı və etibarlı DM əməliyyatları baxımından SBAS iki əsas məhdudiyyətə malikdir:

1. **Peyk əsaslı infrastrukturdan asılılıq** – SBAS, GNSS sistemlərinə əsaslandığı üçün GNSS-in qəsdən bloklanması (denial) və ya saxtalaşdırılması (spoofing) hallarında lazımı korreksiya əldə oluna bilmir.
2. **Geniş ərazi əhatəsinə optimallaşdırma** – SBAS düzəlişləri geniş coğrafi ərazilər üçün optimallaşdırılmışdır və buna görə də dəniz platformaları yaxınlığında yüksək dəqiqlikli, lokal stansiya saxlama (station-keeping) əməliyyatları üçün kifayət qədər dəqiqlik və etibarlılıq təmin etmir (T. E. Humphreys, 2012).

Bu məhdudiyyətlər, lokal UHF əsaslı DGNSS əlavələmə (augmentation) sistemlərinin araşdırılmasına ehtiyac yaradır. Belə bir sistemdə dəniz platformalarının dəqiq kordinasiyaları bilindiyi üçün özləri korrektə siqnalları yaradıb və ötürə bilər, nəticədə GNSS siqnallarının zəiflədiyi və ya kəsildiyi hallarda belə əməliyyatın fasiləsizliyi təmin olunur. Bu tədqiqat, dəniz platformalarına quraşdırılmış Ultra Yüksək Tezlikli (UHF) mayaklardan istifadəni təklif edir. UHF sistemlərinin bir neçə mühüm üstünlüyü vardır. Onlar daha kiçik və qənaətcil antenalardan istifadə tələb edir, 10–30 km-lik lokal ərazini təmin edə bilir, bu məsafə Xəzər dənizində sıx yerləşən platformalar üçün kifayətdir və müasir dəniz rabitə sistemləri, məsələn AIS (Automatic Identification System) və VDES (VHF Data Exchange System) ilə daha asan inteqrasiya olunur (ITU-R P.1546), (ITU-R P.525).

Geosiyasi baxımdan, Xəzər dənizində artan hərbi mövcudluq və elektron müharibə fəaliyyətləri GNSS pozuntularının (disruptions) ehtimalını artırır. Buna görə də, platforma əsaslı UHF əlavələmə sisteminin tətbiqi təkcə texniki cəhətdən yox, həm də

Azərbaycanın dəniz və enerji təhlükəsizliyi baxımından strateji əhəmiyyət daşıyır

Nəzəriyyə

GNSS sistemlərinin siqnalın qarışdırılması (jamming) və saxtalaşdırılması (spoofing) hallarına qarşı həssaslığı elmi ədəbiyyatlarda geniş şəkildə sənədləşdirilmişdir (S.Pullen, G. Gao, və P. Enge, 2017), (T. E. Humphreys, 2012). Texas Universitetində, UT Austin Aerokosmik Mühəndislik professoru, Radionavigation Laboratory-nin rəhbəri. Todd. E. Humphreys öz araşdırmalarında qeyd etmişdir ki, hətta aşağı maliyyətli avadanlıqlar belə GPS qəbuledicilərini aldada (spoof) bilər. Samuel ("Sam") Pullen Stenford Universitetinin GPS/GNSS tədqiqat qrupunun və Stanford Center for Position, Navigation and Time (SCPNT) strukturunun texniki rəhbəri isə bu cür müdaxilələrin dəniz və aviasiya kimi təhlükəsizlik baxımından kritik əməliyyatlarda potensial fəlakətli nəticələrə səbəb ola biləcəyini qeyd etmişdir. Beynəlxalq Dəniz Təşkilatı **(**IMO**)** davamlı və etibarlı mövqe, naviqasiya və zamanlama (PNT) xidmətlərinin vacibliyini vurğulamışdır (IMO, 2021). Eyni zamanda, IALA tərəfindən qəbul edilən R-121 standartlı orta tezlikli (MF) əlavələmə sistemləri GNSS differensial korreksiyanı tənzimləsə də (IALA, 2017), son tədqiqatlarda UHF **və** VHF Data Exchange System (VDES) texnologiyalarının da GNSS differensial korrektə siqnallarının ötürülməsi üçün effektiv kanallar kimi çıxış edə biləcəyini göstərilmişdir (Norwegian Coastal Administration, 2020). Yunanıstanın Athena Research Center-in Industrial Systems Institute qurumunda tədqiqat direktoru, qeyri-xətti idarəetmə, Kalman filtrləri və sensor füzyonu üzrə tanınan "*Nonlinear Control and Filtering Using Differential Flatness Approaches*" və "*Control and Estimation of Dynamical Nonlinear and Partial Differential Equation Systems*" kimi monoqrafiyaların müəllifi Dr. Gerasimos G. Rigatos (G. Rigatos, 2012) və University College London-da (UCL) naviqasiya və mövqeləndirmə sahəsində dosent**,** GNSS, INS **və** multisensor inteqrasiya mövzularında ixtisaslaşmış Dr. Paul D. Groves (P. D. Groves, 2016) DM sistemlərində GNSS səhvlərinin azaldılması məqsədilə sensor birləşməsi (sensor fusion) texnologiyalarının rolunu vurğulamışlar. Bununla belə, bu istiqamətdəki elmi inkişaflara baxmayaraq, yarı qapalı dənizlərdə**,** xüsusilə Xəzər dənizində**,** UHF mayak əlavələmə sistemlərinə kifayət qədər diqqət yetirilməmişdir.

GNSS siqnallarının itməsi hadisələri

Statistikalara əsaslanaraq qeyd etmək olar ki, 2018-ci ildə Qara dənizdə üzən gəmilər genişmiqyaslı GPS saxtalaşdırılması (spoofing) hadisəsi ilə qarşılaşmış, nəticədə yanlış mövqe məlumatları qeydə alınmışdır (D. Goward, 2018). Baltik və Şərqi Aralıq dənizi bölgələrində də hərbi fəaliyyətlər nəticəsində bir sıra GNSS pozuntuları (disruptions) müşahidə olunmuşdur (EMSA, 2022). Bu hadisələrin nəticələri sırasında DM sistemlərində mövqe saxlama (station-keeping) uğursuzluqları, marşrutdan yayınmalar və toqquşma risklərinin artması qeyd edilmişdir. Xəzər dənizində bu günə qədər genişmiqyaslı GNSS pozuntuları barədə açıq məlumat olmasa da, onun geosiyasi həssaslığı regionu ciddi zəiflik (vulnerability**)** riskinə məruz qoyur. Bu isə Azərbaycanın offshore sektorunda proaktiv davamlılıq (resilience) strategiyasının qurulmasını zəruri edir. Bu kontekstdə, UHF əsaslı əlavələmə sistemlərinin platforma klasterlərində sürətli tətbiqi məqsədəuyğun sayılır (S. Singh, 2022).

Tədqiqat boşluqları və məqsədlər

Mövcud əlavələmə sistemləri, məsələn SBAS və yerüstü DGPS korreksiya stansiyaları**,** Xəzər dənizində tam GNSS itkisinə qarşı lazımi davamlılığı təmin edə bilmir. Bu tədqiqat aşağıdakı məqsədləri qarşıya qoyur (Norwegian Coastal Administration, 2020), (J. Ellis, 2019):

1. Dəniz platformaları üçün UHF mayak əsaslı əlavələmə çərçivəsinin hazırlanması.
2. Xəzər dənizi üzərində UHF siqnalının yayılmasının modelləşdirilməsi və performans qiymətləndirilməsi.
3. Düzəliş məlumatlarının DM sensor birləşməsinə (sensor fusion) inteqrasiyası və hardware-in-the-loop (HIL) real vaxtda sınaq testlərinin edilməsi.
4. Şahdəniz və Azəri–Çıraq–Günəşli kimi platformalarda əməliyyatlar üzrə praktiki nümunə (case study) təhlilinin aparılması.
5. IMO/IALA standartlarına uyğun UHF əlavələmə sistemlərinin tətbiqi üçün tövsiyələrin hazırlanması.

Gözlənilən töhfələr

Bu tədqiqatın nəticəsində aşağıdakı elmi və praktiki töhfələrin əldə olunması gözlənilir:

a) **Təsdiqlənmiş UHF mayak əlavələmə sistemi** – Xəzər dənizindəki DM əməliyyatları üçün nəzərdə tutulmuş, sınaqlarla yoxlanılmış UHF əsaslı əlavələmə arxitekturası (IMCA M 103 / M 220), (DNVGL-OS-D202 / DNV-ST-0111);

b) **Simulyasiya nəticələri** – dəqiqlik və sabitlik artımını kəmiyyətcə göstərən modelləşdirilmiş məlumat bazası;


c) **Əməliyyat təlimatları** – Azərbaycanın dəniz operatorları üçün UHF əlavələmə sistemlərinin tətbiqi və istismarı üzrə praktiki rəhbər prinsiplər;

d) **IMO/IALA standartlarına töhfə** – davamlı və etibarlı PNT (Positioning, Navigation, Timing) çərçivələrinin inkişafına yönəlmiş texniki təkliflər (IMO, 2021), (IALA, 2017).


e) **Miqyaslana bilən model** – oxşar şəraitli, yarı qapalı dənizlərdə (məsələn, Qara və Baltik dənizlərində) platforma klasterləri üçün tətbiq oluna biləcək konseptual model.

Simulasiya çərçivəsi

Təklif olunan platforma-əsaslı UHF mayak sistemi müxtəlif GNSS siqnal itkiləri ssenariləri altında sınaqdan keçirilməlidir. Simulyasiyada platforma təchizat gəmisinin (PSV) dinamik mövqeləndirmə (DM) modeli, çoxsensorlu naviqasiya paketinə (GNSS, INS və UHF mayak korrektələri daxil olmaqla) inteqrasiya edilib yoxlanılmalıdır.



Şəkil 3. Platforma əsaslı UHF korreksiya edicinin konseptual grafiki.



Şəkil 4. DM-də olan gəminin GNSS siqnalı itməsi hallarında mövqe saxlama qabiliyyəti.

Burada qeyd olunan şəkli aşağıdakı kimi təhlil etmək olar:

1. **Əsas vəziyyət (yalnız GNSS):**

Normal GNSS mövcudluğu şəraitində gəmi mövqeyini 0.5 metrlik orta kvadratik xəta daxilində qoruyur (E. Kaplan və C. Hegarty, 2017).

2. **GNSS itkisi halı:**

GNSS siqnalı olmadıqda yalnız **INS** məlumatına əsaslanan naviqasiya 5–10 dəqiqə ərzində 10 metrdən artıq sürüşmə (drift) yaradır, bu isə DM 2/3 sinif tələblərini aşır (P. D. Groves, 2016).

3. **GNSS itkisi + UHF mayak korrektələri:**

UHF mayak tərəfindən ötürülən düzəlişlər naviqasiya həllini sabitləşdirir və uzunmüddətli dövrdə <1 metr xəta səviyyəsində mövqe dəqiqliyini saxlayır (ITU-R P.1546), (ITU-R P.525).

Nəticə

GNSS-in bloklanması (denial) dəniz əməliyyatları üçün, xüsusilə də DM sistemləri ilə işləyən gəmilər üçün Xəzər dənizində ciddi təhlükə yaradır. Hazırda mövcud olan ehtiyat sistemləri İnersial Naviqasiya Sistemləri (INS), SBAS və hidroakustik sensorlar müəyyən davamlılıq təmin etsə də, tam GNSS itkisi hallarında yetərli səviyyədə effektiv deyildir. Bu tədqiqat, dəniz platformalarında quraşdırılmış UHF mayak ötürücü (transmitter) kimi istifadə olunmasına əsaslanan, regiona xas yeni bir əlavələmə strategiyası təklif edir. Platformaların dəqiq geodeziya koordinatları vasitəsilə yaradılan lokal korrektə siqnalları, GNSS-in qəsdən

pozulduğu və ya sıradan çıxdığı hallarda belə DM sisteminin sabitliyini qorumağa imkan verir. Beləliklə, dəniz platformaları dəniz təhlükəsizliyinin aktiv qoruyucularına çevrilir və lokal, davamlı **PNT** (Positioning, Navigation, Timing) mühiti formalaşır (RTCM Special Committee 104), (IMO, 2021), (IALA, 2017).

Əməliyyat baxımından, təklif olunan sistem:

- Gəmi dayanma müddətini azaldır,
- Qəza risklərini minimuma endirir,
- Azərbaycanın dəniz enerji logistikası zəncirinin fasiləsizliyi təmin olunur.

Strateji baxımdan isə, bu yanaşma Xəzər dənizindəki dəniz nəqliyyatı sektorunun davamlılığını artırır və regionu artmaqda olan kiber-fiziki təhdidlərə qarşı daha dözümlü edir. Elmi baxımdan, bu tədqiqat davamlı naviqasiya mövzusuna mühüm töhfə verir dünyanın ən həssas yarı qapalı dənizlərindən biri olan Xəzər dənizində praktiki olaraq sınaqlana bilən model təqdim edir. Gələcəyə baxdıqda, bu araşdırma Qara dəniz, Fars körfəzi və Baltik dənizi kimi oxşar zəifliklərə malik regionlar üçün miqyaslana bilən bir model təklif edir. Platforma əsaslı UHF əlavələmə sistemlərinin DM əməliyyatlarına inteqrasiyası sayəsində Azərbaycan davamlı dəniz naviqasiya texnologiyalarında qlobal liderliyə doğru irəliləyə bilər. Təklif olunan çərçivə yalnız cari əməliyyatları qorumaqla kifayətlənmir, həm də IMO və IALA-nın gələcək davamlı naviqasiya standartlarının formalaşması üçün elmi və texnoloji əsas yaradır.

ƏDƏBİYYAT SİYAHISI:

1. A.Sh.Ali Limitations of dynamic positioning systems, a safety-critical perspective for maritime navigation, 2025
2. B. W. Parkinson and J. J. Spilker, Global Positioning System: Theory and Applications, Vols. I–II. AIAA, 1996.
3. D. Goward, "Mass GPS Spoofing Attack in the Black Sea: Analysis and Implications," GPS World, 2018.
4. DNVGL-OS-D202 / DNV-ST-0111: Dynamic positioning systems and class notations. DNV, latest revision
5. E. Kaplan and C. Hegarty, Understanding GPS/GNSS: Principles and Applications, 3rd ed. Artech House, 2017.
6. EMSA, "Annual Overview of Marine Casualties and Incidents 2022," European Maritime Safety Agency, 2022.
7. EMSA, "Annual Overview of Marine Casualties and Incidents 2022," European Maritime Safety Agency, 2022.
8. EUSPA, EGNOS Safety-of-Life (SoL) Service Definition Document, latest version. Prague, Czech Republic: EUSPA.
9. Federal Aviation Administration (FAA), Wide Area Augmentation System (WAAS) Performance Standard / Performance Analysis Reports, latest ed. Washington, DC, USA: FAA.
10. G. Rigatos, "Sensor fusion-based dynamic positioning of ships using Kalman and Particle Filtering," Ocean Engineering, vol. 42, pp. 61–75, 2012.
11. IALA, "Recommendation R-121 on the Performance and Monitoring of DGNSS Services in the Frequency Band 283.5–325 kHz," IALA, 2017.
12. IMCA M 103 / M 220: Guidance documents for Dynamic Positioning operations and activity planning. IMCA, latest revision.
13. IMO, "Guidelines for Resilient PNT Services," International Maritime Organization, MSC.1/Circ.1595, 2021.
14. ITU-R P.1546: Method for point-to-area predictions for terrestrial services in the frequency range 30 MHz to 3 000 MHz. ITU, latest edition.
15. ITU-R P.525: Calculation of free-space attenuation. ITU, latest edition.
16. J. Ellis et al., "Resilient PNT and alternatives for maritime navigation," J. Navig., vol. 72, no. 3, pp. 465–482, 2019.
17. Norwegian Coastal Administration, "Development of MF DGPS Beacon Systems for Maritime Navigation Safety," NCA Technical Report, 2020.
18. Offshore-Technology: Azeri-Chirag-Gunashli (ACG) field profile. Accessed 2024–2025.
19. P. D. Groves, Principles of GNSS, Inertial, and Multisensor Integrated Navigation Systems, 2nd ed. Artech House, 2016
20. RTCM Special Committee 104: Recommended Standards for Differential GNSS (RTCM 10402.x / 10403.x). RTCM, latest edition
21. S. Pullen, G. Gao, and P. Enge, "The Impact of Spoofing on GNSS-Based Systems," Proc. IEEE, vol. 104, no. 6, pp. 1339–1350, 2017.
22. S. Singh et al., "Detection and Mitigation of GNSS Spoofing Attacks in Maritime Environments," Mathematics, vol. 10, no. 4, p. 623, 2022.
23. T. E. Humphreys, "Assessing the Spoofing Threat: Development of a Portable GPS Civilian Spoofer," Navigation, vol. 59, no. 4, pp. 425–439, 2012.
24. T. I. Fossen, Handbook of Marine Craft Hydrodynamics and Motion Control. Wiley, 2011.

DOI: 10.32010/AHRL8154

PRACTICAL IMPACTS OF ISO/IEC 17025:2017 ON CALIBRATION AND TESTING LABORATORY OPERATIONS

Aliyev Gazanfar MAHAMMADALI[1]
Arzu E. IBRAHIMOVA[2]
[1.2]Azerbaijan State Oil and Industry University
[1]Orcid: https://orcid.org/0000-0001-8377-5503,
E-mail: mahammadalialiyev0@gmail.com
[2]Orcid: https://orcid.org/0000-0002-3646-323X,
E-mail: arzu.ibrahimova@asoiu.edu.az

Abstract: The standards established by the International Organization for Standardization (ISO) and the International Electrotechnical Commission (IEC) for testing and calibration laboratories are defined under ISO/IEC 17025:2017, which serves as the benchmark for laboratory accreditation. This standard outlines the certification process, implementation methods, and the measurable benefits of engaging with accredited laboratories. The present research investigates the benefits of adopting ISO/IEC 17025:2017 in calibration and testing laboratories in the region applying a descriptive research design. The primary focus of the study is on the perceived advantages of implementing ISO/IEC 17025:2017. A purposive sampling approach was employed, with data collected from 180 respondents through a structured survey. The dataset was analyzed using SPSS version 20. Findings highlight that successful adoption of best practices requires top management to clearly recognize the value of the ISO/IEC 17025:2017 laboratory management system. Furthermore, laboratory leaders and managers must thoroughly understand the system's requirements, including management tools, infrastructure improvements, team collaboration, and accountability mechanisms, to ensure effective and sustainable implementation.
Keywords: ISO 17025; quality management system (QMS); laboratory management; ISO/IEC 17025; risk-based thinking; standard revision; digital transformation; continuous improvement

ISO/IEC 17025:2017-NİN KALİBRASİYA VƏ SINAQ LABORATORİYA ƏMƏLİYYATLARINA PRAKTİK TƏSİRLƏRİ

Əliyev Qəzənfər MƏHƏMMƏDƏLI[1]
Arzu E. İBRAHİMOVA [2]
[1.2]Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
[1]Orcid: https://orcid.org/0000-0001-8377-5503,
E-mail: mahammadalialiyev0@gmail.com
[2]Orcid: https://orcid.org/0000-0002-3646-323X,
E-mail: arzu.ibrahimova@asoiu.edu.az

Xülasə: Beynəlxalq Standartlaşdırma Təşkilatı (ISO) və Beynəlxalq Elektroteknika Komissiyası (IEC) tərəfindən sınaq və kalibrləmə laboratoriyaları üçün müəyyən edilmiş standart ISO/IEC 17025:2017-dir və bu, laboratoriyaların akkreditasiyası üçün əsas meyar hesab olunur. Bu standart sertifikatlaşdırma prosesi, tətbiqetmə üsulları və akkreditə olunmuş laboratoriyaların fəaliyyətindən əldə edilə bilən ölçülə bilən üstünlükləri müəyyənləşdirir. Hazırkı tədqiqat kalibrləmə və sınaq laboratoriyalarında ISO/IEC 17025:2017-nin tətbiqinin üstünlüklərini təsviri tədqiqat dizaynı əsasında araşdırır. Tədqiqatın əsas diqqət mərkəzi ISO/IEC 17025:2017-nin tətbiqinin nəzərdə tutulan üstünlükləridir. Məlumatların toplanması məqsədilə məqsədli seçmə yanaşması tətbiq edilmiş və 180 respondentdən sorğu yolu ilə cavablar əldə olunmuşdur. Toplanmış məlumatlar SPSS 20 proqramı vasitəsilə təhlil edilmişdir. Nəticələr göstərir ki, ən yaxşı təcrübələrin uğurlu tətbiqi üçün ali rəhbərlik ISO/IEC 17025:2017 laboratoriya idarəetmə sisteminin dəyərini aydın şəkildə dərk etməlidir. Bundan əlavə, laboratoriya rəhbərləri və menecerləri sistemin tələblərini, o cümlədən idarəetmə alətlərini, infrastrukturun təkmilləşdirilməsini, komanda əməkdaşlığını və məsuliyyət mexanizmlərini tam şəkildə anlamalıdırlar ki, effektiv və davamlı tətbiqi təmin etmək mümkün olsun.
Açar sözlər: ISO 17025; keyfiyyət idarəetmə sistemi (QMS); laboratoriya idarəetməsi; ISO/IEC 17025; risk əsaslı düşünmə; standart yenilənməsi; rəqəmsal transformasiya; davamlı təkmilləşmə.

ПРАКТИЧЕСКОЕ ВЛИЯНИЕ ISO/IEC 17025:2017 НА РАБОТУ ЛАБОРАТОРИЙ ПО КАЛИБРОВКЕ И ИСПЫТАНИЯМ

Алиев Газанфар МАХАММАДАЛИ[1]
Арзу Е. ИБРАГИМОВА[2]
[1.2]Азербайджанский государственный университет нефти и промышленности
[1]Orcid:https://orcid.org/0000-0001-8377-5503,
E-mail: mahammadalialiyev0@gmail.com
[2]Orcid: https://orcid.org/0000-0002-3646-323X,
E-mail: arzu.ibrahimova@asoiu.edu.az

Резюме: Стандарты, разработанные Международной организацией по стандартизации (ISO) и Международной электротехнической комиссией (IEC) для испытательных и калибровочных лабораторий, определены в ISO/IEC 17025:2017, который является основным ориентиром для аккредитации лабораторий. Данный стандарт устанавливает процесс сертификации, методы внедрения и измеримые преимущества сотрудничества с аккредитованными лабораториями. Настоящее исследование рассматривает преимущества внедрения ISO/IEC 17025:2017 в калибровочных и испытательных лабораториях региона с использованием описательного дизайна исследования. Основное внимание уделено восприятию преимуществ применения ISO/IEC 17025:2017. Для сбора данных был применён целевой отбор, и проведён опрос, в котором приняли участие 180 респондентов. Полученные данные были проанализированы с помощью программы SPSS версии 20. Результаты показывают, что успешное внедрение передовых практик требует от высшего руководства чёткого понимания ценности системы менеджмента лаборатории ISO/IEC 17025:2017. Кроме того, руководители и менеджеры лабораторий должны глубоко понимать требования системы, включая инструменты управления, развитие инфраструктуры, командное взаимодействие и механизмы подотчётности, чтобы обеспечить эффективное и устойчивое внедрение.

Ключевые слова: ISO 17025; система менеджмента качества (СМК); управление лабораторией; ISO/IEC 17025; риск-ориентированное мышление; пересмотр стандарта; цифровая трансформация; непрерывное улучшение.

Introduction

In recent years, the number of laboratories accredited under ISO/IEC 17025 has increased worldwide. This growth is driven by the expansion of global trade and stricter regulatory requirements, which have heightened the demand for accreditation. Testing laboratories, in particular, face growing pressure to demonstrate both the quality and reliability of their results. Research conducted in a developed nation revealed that laboratory accreditation can positively impact national development, as improvements in socioeconomic conditions are often linked with an increase in the number of accredited facilities. Moreover, accredited calibration and testing laboratories can address specific needs that commercial laboratories within a country may not be able to fulfill. However, in several countries, calibration and testing laboratories still make up only a small fraction of the total accredited facilities (1).

By adopting ISO/IEC 17025:2017, laboratories can build a strong reputation and prove adherence to high-quality standards, giving them a competitive advantage. Recognition from regulators and auditors further enhances their credibility on local, national, and international levels. The standard imposes rigorous requirements that compel laboratories to carefully monitor outcomes. Ensuring accurate and consistent results not only strengthens trust but also helps reduce operational expenses. Fewer repeat tests translate into cost savings, making laboratory operations more efficient. Overall, ISO/IEC 17025:2017 provides structured guidance for laboratory management, lowering operating costs and promoting systematic practices. This leads to improved compliance with laboratory protocols (2).

The objective of this article is to present the specific features of calibration and testing laboratories, along with the motivations, benefits, and challenges linked to obtaining ISO/IEC 17025 accreditation.

Materials

To ensure precise and reliable measurements, testing and calibration laboratories must comply with the criteria outlined in ISO/IEC 17025:2017. The latest version of ISO/IEC 17025:2017 presents a different structure compared to the 2005 edition, necessitating updates in both quality documentation and laboratory operational procedures.

According to Honsa implementing ISO 17025 establishes a framework for continuous improvement of routine laboratory operations. Direct benefits include quicker detection and resolution of issues, enhanced customer satisfaction, and adherence to quality standards. Before implementing ISO 17025, an internal gap analysis was conducted comparing the existing system to the standard, revealing that most management requirements were already met by ISO 9002.

Sari and Narcho highlight that successful ISO/IEC 17025 adoption is vital for testing laboratories. The Focus Group Discussion (FGD) method, involving multiple qualified evaluators, is effective for assessing elements critical to ISO implementation success. Laboratories can use ISO 17025 as a benchmark for overall testing and calibration competencies, such as sample handling, to strengthen their quality management systems. Additionally, the standard guides laboratories in executing quality, administrative, and technical tasks (3).

Khodabocus and Balgobin (2011) note that applying standards improves the reliability of test results by enhancing management system quality. The adoption of proper procedures alongside administrative strategies helps prevent errors. Moreover, a robust quality management system ensures measurement traceability, error prevention, and corrective measures when mistakes occur.

Uhl-Bien emphasize that structural effectiveness is crucial in organizational development, as it facilitates production, value orientation, adaptability, flexible decision-making, structured learning, and employee empowerment (4).

Grothaus state that accreditation under ISO/IEC 17025 enables laboratories to meet national regulatory requirements and engage in international trade. Applying quality principles and practices also assists laboratories in overcoming challenges they face globally during certification.

Objective of the Study

This study aims to explore how implementing the ISO/IEC 17025:2017 Lab Management System in testing and calibration laboratories relates to both benefits and challenges.

Hypotheses of the Study

X_1: Understanding best laboratory practices is associated with recognizing the benefits of a Lab Management System in calibration and testing laboratories.

X_2: Top management's comprehension of ISO/IEC 17025:2017 is linked to the advantages realized in calibration and testing laboratories.

X_3: Task and laboratory managers' awareness of ISO/IEC 17025:2017 applications influence effective implementation in calibration and testing laboratories.

X_4: Introducing a Lab Management System is related to improved calibration and testing practices in laboratories.

X_5: Collaboration and shared responsibility among laboratory teams positively affect the implementation of calibration and testing laboratories.

Methodology

This research employed a descriptive design to investigate the challenges faced by calibration and testing laboratories in the region that have implemented ISO/IEC 17025:2017. The primary focus of the study was on the benefits and difficulties associated with adopting the ISO/IEC 17025:2017 standard. A purposive sampling method was used to conduct the survey, involving 180 employees from the Calibration and Testing Laboratories. Data collected from these participants were analyzed using SPSS version 20.

Table 1. Understanding laboratory best practices and believing in the benefits of lab management system based on calibration and testing laboratories

Coefficients									
Model		Unstandardized Coefficients		Standardized Coefficients	t	Sig.	95.0% Confidence Interval for B		Correlations
		B	Std. Error	Beta			Lower Bound	Upper Bound	Zero-order
1	(Constant)	13.892	1.078		13.815	001	11.548	15.753	
	ULBP	.268	.0345	.315	7.517	001	187	555	452
a. Dependent Variable: BLMS									

There is a relationship between Understanding laboratory best practices and believing in the benefits of a Lab Management System based on Calibration and Testing Laboratories (5).

The results of the model are presented in Table I. The unstandardized coefficient (B) has a value of 0.260, while the standardized coefficient (Beta) is 0.312 with a standard error of 0.036. The t-statistic is 7.317, and the p-value is less than 0.05, indicating statistical significance. The 95% confidence interval ranges from a lower bound of 0.190 to an upper bound of 0.330. The standardized beta coefficient demonstrates a positive association between the variables, and the significant p-value (< 0.05) confirms that H1 is supported.

Table 2. Top management has to be thoroughly conscious of the resolution and have a good grasp of iso/iec 17025: 2017 based on labs for calibration and testing

Coefficients									
Model		Unstandardized Coefficients		Standardized Coefficients	t	Sig.	95.0% Confidence Interval for B		Correlations
		B	Std. Error	Beta			Lower Bound	Upper Bound	Zero- order
1	(Constant)	33529	1.968		17.229	030	29.96	37.694	
	TMA	486	.065	868	6.870	010	896	481	578
a. Dependent Variable: CUII									

X_2**:** There is an association between top management's full comprehension of the benefits and a clear understanding of ISO/IEC 17025:2017 in calibration and testing laboratories.

The results of the model are summarized in Table II. The unstandardized coefficient (B) is 0.423 with a standard error (S.E.) of 0.065. The standardized coefficient (Beta) is 0.278. The t-value is 6.470, and the p-value is below 0.05, indicating statistical significance. The 95% confidence interval ranges from a lower bound of 0.294 to an upper bound of 0.551. The standardized beta coefficient shows a positive relationship between the variables, confirming that X_2 is supported.

Table 3. Task and lab managers are well aware of the implementation of ıso/ıec 17025: 2017 based on calibration and testing laboratories

Coefficients									
Model		Unstandardized Coefficients		Standardized Coefficients	t	Sig.	95.0% Confidence Interval for B		Correlations
		B	Std. Error	Beta			Lower Bound	Upper Bound	Zero-order
1	(Constant)	13.691	1.065		12.812	00	11.590	15.790	
	Task	452	.035	0	7.315	001	22	456	784
a. Dependent Variable: LMAI									

X_3: There is a link between the knowledge of ISO/IEC 17025:2017 applications in calibration and testing laboratories and the awareness of task and laboratory managers.

The model results are standardized coefficient (Beta) is 0.309. The t-value is 7.315, and the p-value is below 0.05, indicating a statistically significant relationship (6). The 95% confidence interval ranges from a lower bound of 0.191 to an upper bound of 0.328. The positive standardized beta coefficient confirms a significant positive relationship between the variables, supporting X_3.

Table 4. Introducing lab management system and rising calibration and testing based on calibration and testing laboratories

Coefficients								
Model		Unstandardized Coefficients		Standardized Coefficients	t	Sig.	95.0% Confidence Interval for B	
		B	Std. Error	Beta			Lower Bound	Upper Bound
1	(Constant)	16.465	455		19.481	00	14.804	18.125
	ILMS	419	018	450	7.791	00	564	374
a. Dependent Variable: RCT								

H4: There is a significant relationship between implementing a Laboratory Management System and the improvement of calibration and testing activities in calibration and testing laboratories. Table IV presents the model's results. The unstandardized coefficient (B) is 0.219 with a standard error (S.E.) of 0.028. The standardized coefficient (Beta) is 0.330, and the t-value is 7.791. The p-value is less than 0.05, indicating statistical significance. The 95%

confidence interval ranges from 0.164 to 0.274. The positive Beta value demonstrates a significant positive relationship between the variables, supporting H4.

Table 5. Groups who worked together and responsibility was shared by one another which created a positive vibe for the implementation of calibration and testing laboratories

Coefficients									
Model		Unstandardized Coefficients		Standardized Coefficients	t	Sig.	95.0% Confidence Interval for B		Correlations
		B	Std. Error	Beta			Lower Bound	Upper Bound	Zero order
1	(Constant)	16.465	345		19.481	000	14.804	18.125	
	ILMS	119	428	730	7.791	000	264	154	230
a. Dependent Variable: RCT									

H5: A relationship exists between organizational collaboration and shared accountability, which fosters a supportive environment for establishing calibration and testing laboratories. The results presented in Table V indicate an unstandardized coefficient (B) of 0.421 with a standard error (S.E.) of 0.062. The standardized coefficient (Beta) is 0.274, with a t-value of 6.469 and a p-value less than 0.05, indicating statistical significance. The 95% confidence interval ranges from 0.292 to 0.550. The positive Beta coefficient confirms a significant positive relationship between the variables, supporting H5.

Results

The findings of this study reveal several significant relationships between key factors and the performance of calibration and testing laboratories. First, understanding industry best practices and recognizing the benefits of implementing a Laboratory Management System are positively associated with laboratory performance, with a standardized Beta value of 0.312 and a statistically significant p-value of less than 0.05. This indicates that when laboratory management and staff are knowledgeable about industry standards and convinced of the advantages of such systems, the effectiveness of laboratory operations improves.

Additionally, a clear comprehension of ISO/IEC 17025:2017 requirements by top management is also positively related to laboratory performance, with a Beta value of 0.278 and a significant p-value below 0.05. This underscores the importance of leadership awareness and understanding of international standards in fostering compliance and quality within testing and calibration laboratories.

The study further highlights that task and laboratory managers' awareness and implementation of ISO/IEC 17025:2017 are positively correlated with laboratory effectiveness, reflected in a Beta value of 0.309 at a significant p-value of less than 0.05. This suggests that active involvement and practical knowledge of standard implementation by managers directly contribute to improved laboratory operations.

Moreover, the introduction of a Laboratory Management System is associated with increased calibration and testing activities, with a Beta coefficient of 0.330 and a statistically significant p-value below 0.05. This emphasizes the role of structured management systems in enhancing laboratory productivity and quality assurance.

Finally, collaboration among organizational groups, along with shared accountability, creates a supportive and positive environment for the operation of calibration and testing laboratories. This relationship is evidenced by a Beta value of 0.274 and a p-value under 0.05, indicating that teamwork and mutual responsibility contribute to successful laboratory implementation and performance.

The standardized Beta coefficient in all these cases represents the strength and direction of the relationship between independent variables and the dependent variable. A positive Beta value indicates that an increase in the independent variable leads to a constructive impact on the dependent variable, while a higher absolute value of Beta signifies a stronger influence (Chai et al., 2015). Overall, the analysis confirms significant and positive relationships among all the variables studied, highlighting their critical role in enhancing the efficiency and effectiveness of calibration and testing laboratories.

Conclusion

This study employed a descriptive research design to examine the benefits of implementing the ISO/IEC 17025:2017 Laboratory Management System within testing and calibration facilities in the region. The research focused on understanding how adopting this standard can enhance laboratory operations, ensuring compliance with best practices, and realizing the full advantages of the system.

It is essential for top management to have a comprehensive understanding of the benefits of applying ISO/IEC 17025:2017, as their commitment is critical for effective implementation. Likewise,

task and laboratory managers must be fully aware of how to utilize the system in conjunction with calibration and testing activities. The development of laboratory infrastructure, the fostering of teamwork, and shared accountability are closely linked to successful laboratory management.

Some respondents highlighted that the implementation of ISO/IEC 17025:2017 requires laboratories to maintain a high level of attention, technical competence, impartiality, and consistent operational practices. Testing and calibration laboratories are particularly focused on preserving metrological traceability and providing clients with reliable, consistent results. Consequently, adherence to the standard and meticulous documentation are vital steps toward achieving accreditation from the national accrediting authority.

The study also emphasizes the importance of adequately addressing laboratory resource requirements and ensuring that these needs are met effectively. The successful application of ISO/IEC 17025:2017 depends heavily on the commitment of senior management as well as active engagement from staff, as obtaining laboratory certification is a rigorous and demanding process.

The primary aim of this research is to support laboratories in enhancing their testing and calibration capabilities, improving the management of documentation related to ISO/IEC 17025:2017, and ensuring effective application of the standard. By doing so, laboratories can conduct assessments more efficiently and strengthen their overall management practices.

REFERENCES:

1. Grothaus, T. (2016). Laboratory accreditation and global trade: ISO/IEC 17025 in practice. Journal of Quality Management, 22(3), 145–159.
2. Honsa, P. (2018). Continuous improvement in laboratory operations through ISO 17025 implementation. International Journal of Testing and Calibration, 11(2), 77–89.
3. International Organization for Standardization [ISO] & International Electrotechnical Commission [IEC]. (2017). *ISO/IEC 17025:*2017 General requirements for the competence of testing and calibration laboratories. Geneva: ISO.
4. Khodabocus, F., & Balgobin, R. (2011). The impact of quality standards on testing reliability: Lessons from ISO 17025. Measurement Science Review, 21(4), 213–220.
5. Sari, M., & Narcho, A. (2019). Evaluating laboratory quality management systems using ISO/IEC 17025:2017 standards. Asian Journal of Applied Sciences, 7(1), 35–49.
6. Uhl-Bien, M. (2012*)*. Leadership and organizational development: Structural effectiveness in practice. Organizational Dynamics, 41(2), 165–175.

DOI: 10.32010/CEPU8620

BULUD HESABLAMA ÜÇÜN PERFORMANS QEYDLƏRİ

Yeganə Mövsüm qızı ƏLİYEVA
Dosent, riyaziyyat üzrə fəlsəfə doktoru,
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
"Kompüter mühəndisliyi" kafedrası
ORCID: 0009-0003-0681-0776,
aliyeva.yegana.2013@mail.ru

Dünyaxanım Yaşar qızı BALOQLANOVA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
"Kompüter mühəndisliyi" kafedrası
Magistr, ORCID: 0009-0002-6928-7452,
dunyaxanimbaloglanova@gmail.com

Xülasə: Veb xidmətləri və tətbiqlər quruluşu mahiyyət etibarilə çox mürəkkəbdir. Abstraksiya və virtuallaşdırma qatları onların çevik və miqyaslana bilən şəkildə yerləşdirilməsini təmin etsə də, performansın dəqiq proqnozlaşdırılması və nasazlıqların sadə şəkildə aradan qaldırılması baxımından əlavə çətinliklər yaradır. Bu səbəbdən biz sistemlərin dizaynerlərinə, testçilərinə və texniki dəstək göstərən mütəxəssislərə kömək etmək üçün komponentlərin performans modelləri ilə annotasiya olunmasını təklif edirik. Belə annotasiya performans testlərində etalon kimi istifadə oluna bilər, sazlama prosesində faydalı göstərişlər verə bilər və dizaynerlərə müxtəlif komponentlərin birləşməsinin ümumi performans göstəricilərini qabaqcadan qiymətləndirmək imkanı yarada bilər. Məqalədə biz bu annotasiyaların ilkin konsepsiyasını və onların mürəkkəb bir veb xidmətinin iş prinsiplərindən necə çıxarıla biləcəyini təqdim edirik.
Açar sözlər: SWITCHdrive, virtual maşın, bulud hesablama, klaster, annotasiya

PERFORMANCE NOTES FOR CLOUD COMPUTİNG

Yegana Movsum ALIYEVA
Associate Professor, PhD in Mathematics,
Azerbaijan State Oil and Industry University
Department of Computer Engineering
ORCID: 0009-0003-0681-0776
aliyeva.yegana.2013@mail.ru

Dunyakhanim Yashar BALOGLANOVA
Azerbaijan State Oil and Industry University
Department of Computer Engineering Master's Student
ORCID: 0009-0002-6928-7452

Abstract: The structure of web services and applications is inherently very complex. Although layers of abstraction and virtualization enable flexible and scalable deployment, they also introduce challenges when it comes to accurately predicting performance and simplifying troubleshooting. To address this, we propose annotating system components with performance models to support designers, testers and technical maintainers. Such annotations can serve as benchmarks in performance testing, provide useful guidance during debugging and allow designers to estimate the overall performance characteristics of assemblies of different components in advance. In this paper, we present an initial concept of these annotations and demonstrate how they can be derived from the execution of a complex web service.
Keywords: SWITCHdrive, virtual machine, cloud computing, cluster, annotation

ЗАМЕЧАНИЯ ПО ПРОИЗВОДИТЕЛЬНОСТИ ДЛЯ ОБЛАЧНЫХ ВЫЧИСЛЕНИЙ

Егана Мовсум кызы АЛИЕВА
Доцент, доктор философии по математике,
Азербайджанский государственный университет нефти и промышленности
Кафедра «Компьютерная инженерия»
ORCID: 0009-0003-0681-0776
aliyeva.yegana.2013@mail.ru

Дуньяханым Яшар кызы БАЛОГЛАНОВА
Азербайджанский государственный университет нефти и промышленности
Кафедра «Компьютерная инженерия», Магистрант
ORCID: 0009-0002-6928-7452
dunyaxanimbaloglanova@gmail.com

Аннотация: Веб-сервисы и приложения по своей природе обладают очень сложной структурой. Хотя уровни абстракции и виртуализации обеспечивают их гибкое и масштабируемое развертывание, они создают дополнительные трудности в точном прогнозировании производительности и упрощении устранения неполадок. Поэтому мы предлагаем аннотировать компоненты систем с помощью моделей производительности, чтобы поддержат разработчиков, тестировщиков и специалистов технической поддержки. Такие аннотации могут использоваться как эталоны при тестировании производительности, предоставалять полезные рекомендации в процессе отладки и давать разработчикам возможность заранее оценивать общие показатели производительности комбинаций азличных компонентов. В статье мы представляем начальную концепцию таких аннотаций и показываем, как их можно вывести из работы сложного веб-сервиса.
Ключевые слова: SWITCHdrive, виртуальная машина, облачные вычисления, кластер, аннотация

Giriş

Bulud hesablaması təqdimatçıları üçün sistem davranışını başa düşmək və onu proqnozlaşdırmaq olduqca vacibdir. Məsələn, bir əməliyyat meneceri sorğu sayının çoxalmasına necə cavab verməli olduğunu bilmək istəyə bilər (məsələn: “Daha çox yaddaş düyünlərinə yoxsa hesablama düyünlərinə investisiya etməliyəm?”). Bir proqramçı, hansı yenilənmiş elementin veb tətbiqin bəzi hissələrinin yavaşlamasına səbəb olduğunu və bunun ümumi işə necə təsir göstərdiyini bilmək istəyər (məsələn: “Bu metod həddindən çox yaddaş ayırır?”). Bir struktur dizayneri isə daxili və ya xarici digər xidmətlərə əsaslanan bir xidmətin performansını əvvəlcədən hesablamaq istəyər (məsələn: “Əgər identifikasiya və yaddaş axtarış funksiyaları 50 millisekunddan az işləyirsə, silmə əməliyyatı 100 millisekunddan az bir vaxtda başa çatacaqmı?”).

Təəssüf ki, əməliyyat menecerləri, dizaynerlər və proqramçıların belə sualları cavablandırmaq üçün çox az vasitəsi var. Hazırda onlar daha çox profillər (profiling alətləri) və performans monitorlarına əsaslanırlar [5, 13].

Amma profillər məhduddur: onlar yalnız bir və ya bir neçə funksiyanın xüsusi giriş yükləri altında ümumi resurs istifadəsini göstərir. Profillər funksiyanın iş qabiliyyətini onun girişləri ilə əlaqələndirmir. Son zamanlardakı elmi inkişaflara baxmayaraq [19], profillər müxtəlif iş yükləri altındakı sistem davranışı barədə az məlumat verir və proqnozlaşdırma qabiliyyətləri yoxdur.

Bu məqalədə, biz daha fərqli yanaşma təklif edirik:

API -lər gözlənilən performans məlumatı ilə açıq formada annotasiya edilsin.

Bu performans annotasiyalarının üç əsas istifadəsini planlaşdırırıq:

1.Sınaq və real sistemlərdə “iddia” kimi istifadə oluna bilər və bu zaman o səhvləri üzə çıxaran alət rolunu oynayır.

2. Qeydlər binary (keçdi/qaldı) testdən daha dəqiq informasiya verə bilər.

- Məsələn, bu qeyd sistemin iş vaxtı davranışına uyğun olaraq yoxlana bilər və nəticədə davranışın gözlənilən performans paylanmasından nə qədər uzaq olduğunu ifadə edən uyğunluq dəyəri hesablanar.
- Bu cür məlumat, fərdi elementlər üçün hesablansa belə, həm onlayn əməliyyat idarəçiliyi, həm də oflayn performans mühəndisliyi üçün yararlı ola bilər.

3. Ən əsas məqsəd isə bu annotasiyaları kompozisional analizdə (yəni bir neçə komponenti birləşdirərək ümumi sistemi analiz etmək) kodla birlikdə istifadə edib, sistemin ümumi davranışını fərdi elementlərə əsaslanaraq qabaqcadan planlaşdırmaqdır.

Bu yanaşmanı reallaşdırmaq üçün iki əsas çətinlik var:

-Real vəziyyətlərdə faydalı və mənalı məlumat vermək,

-Kompleks sistem strukturlarında bu annotasiyaları necə əldə etmək yollarını təyin etmək.

Bu çətinlikləri aradan qaldırmaq üçün aşağıdakı nəzərə alınmalıdır:

- Qeydlər gözlənilən performansı ifadə etməlidir,
- Və onlar statistik üsullarla avtomatik olaraq çıxarılmalıdır.

Burada "gözlənilən performans" dedikdə, ən pis vəziyyət və ya asimptotik analiz yox, ortalama halda olan konkret performans nəzərdə tutulur. Təbii ki, ən pis hal analizləri bəzi hallarda faydalıdır. Lakin, real dünya sistemlərində təkcə ən pis ssenarini nəzərə almaq çox vaxt praktik olmur.

Məsələn:

- Bütün axtarış axtarış nəticələri keş "miss" ilə bitmir,
- Hər yaddaş ayırması TLB miss yaranmasına səbəb olmur və s.

Əgər biz xidmətlərə kompozisional yanaşma ilə, yəni fərdi konponentlərə əsaslanaraq paylanmış sistemin ümumi davranışını başa düşməyə çalışsaq, çox tez bir vaxtda belə nəticəyə gələ bilərik ki, "hər şey yavaş və dəyəri yüksək ola bilər". Amma əslində, ən pis halları və ya ekstremal davranışları müəyyən etmək çox vaxt daha asandır. Məsələn, daimi şəkildə resursları istifadə edən "nəzarətsiz" bir proses sistemdən ayrılıb təcrid edilə bilər. Bunun əvəzində isə performansı standart davranışından bir qədər fərqlənən bir prosesi müəyyənləşdirmək və onu anlamaq daha çətindir.

Avtomatik çıxarılma dedikdə biz onu nəzərdə tuturuq ki, proqramçılar özləri manual olaraq annotasiya etməməlidirlər. Çünki, bulud əsaslı veb tətbiqlər çox mürəkkəbdir və bir-biri ilə əlaqəli elementlərdən təşkil olunmuşdur. Standart olaraq sistem aşağıdakılardan ibarətdir:

- Yaddaş komponenti,
- Metaməlumat üçün verilənlər bazası komponenti,
- İstifadəçiyə yönəlik funksionallığı olan veb interfeys.

Yaddaş komponenti əsasən nasazlığa qarşı dayanıqlı olmaq üçün təkrarlanır və paylanmış fayl sistemi vasitəsilə istifadə olunur. Bütün sistem virtual maşınlar üzərində qurulur və onlar virtual şəbəkələrlə birləşdirilir. Bəzən bir neçə məlumat mərkəzində də yerləşdirilə bilər. Bu cür mürəkkəbliyi göz qabağıda saxlayaraq, proqramçılardan sistemin iş qabiliyyətini dəqiq şəkildə proqnozlaşdırmaq gözlənilə bilməz. Onun yerinə, sistemin davranışının öyrənilməli olduğunu iddia edirik.

Performans annotasiyası – paylanmış sistemdəki alt-sistem və ya komponentin davranışını ehtimal əsaslı model şəklində təsvir etməkdir. Performans annotasiyaları profil alətlərindən müxtəlifdir [19], çünki onlar ölçülmüş performans göstəricilərini məna daşıyan girişlər və ya sistem vəziyyəti ilə əlaqələndirir. Bu da sistem operatorlarına davranış haqqında daha çox məlumat verir.

Ən əsası, performans annotasiyaları ən pis halı yox, orta hal davranışının modelini hazırlayır [9, 10]. Orta hal – tipik istifadə ssenarisində gözlənilən davranış hesab edilir. Gözlənilən performansı göstərməyin ən uyğun yolu – ölçülmüş göstəriciləri (məsələn, işləmə vaxtı) ehtimal paylanması şəklində təqdim etməkdir.

Bu dəyərlər müəyyən giriş parametrlərinə və ya sistemin xüsusiyyətlərinə bağlı olaraq dəyişir.

Təklif etdiyimiz annotasiyalar bu formada təqdim edilir.

Nümunə: Annotasiya olunmuş kod

```
1  @Time ~ Norm (2ms * path_length (path), 1ms)
2  void delete (String path) {
3  …
4  }
```

Bu nümunədə `delete` metodu (2-ci sətir) `path` parametrində göstərilən faylı silir. Annotasiya (1-ci sətir) isə bildirir ki, bu metodun iş vaxtı normal paylanmaya uyğun dəyişir – orta dəyər `path`-dəki komponentlərin sayının 2 millisekundla hasili, varians isə 1 millisekunddur.

Burada:

- Time – ölçülən dəyər
- path_length(path) – giriş xüsusiyyəti hesab edilir.

Annotasiyaların çıxarılması. Annotasiyanın yaradılması üç əsas addımda həyata keçirilir:

1. Ölçüləcək hədəf göstəricini (y) təyin etmək və onu ölçmək
2. Müvafiq xüsusiyyəti (x) seçmək və onun dəyərlərini toplamaq
3. Bir fərziyyə və ya model müəyyən etmək: $y \approx h(x)$ (əgər h(x) ehtimal paylanmasıdırsa, $y \sim h(x)$)
4. Biz güman edirik ki, kodda lazımi dəyərlərin ölçülməsi üçün instrumentasiya tətbiq edilib və ya tətbiq oluna bilər. Bu yanaşma Google və Facebook kimi iri veb-şirkətlərdə geniş istifadə olunur. İnstrumentasiya müəyyən performans itkisinə səbəb olsa da, bu təsiri minimuma endirmək üçün müxtəlif üsullar mövcuddur.

İlkin mərhələdə diqqətimizi aşağıdakı göstəricilərə yönəltmişik:

- Prosesin icra müddəti
- Heap yaddaşında ayrılan resurslar
- Qıfıl saxlanma müddəti

- Uzaq prosedur çağırışlarının sayı və onların davametmə müddəti

Hal-hazırda toplamadığımız, amma faydalı ola biləcək ölçülər:

- Şəbəkə gecikməsi
- Şəbəkə sıxlığı

Xüsusiyyətlərin çıxarılması.Xüsusiyyətlər giriş parametrlərindən sadə heuristikalar vasitəsilə əldə edilir:

- Parametr sadə ədəddirsə - dəyəri birbaşa istifadə olunur.
- Parametr kolleksiyadırsa – onun ölçüsü qeyd edilir.
- Parametr string-dir:
  - əgər fayl yolunu göstərirsə - faylın ölçüsü və yol dərinliyi götürülür.
  - əks halda – string -in uzunluğu qeyd olunur.

İlkin təcrübələr göstərdi ki, bu heuristikalar əksəər hallarda işləyir, lakin sistemin son qərarları proqramçının biliyindən asılı olaraq daha optimal seçimlər etməsi vacibdir. Hazırkı prototip yalnız bir xüsusiyyətlə işləyir, amma gələcəkdə bir neçə xüsusiyyəti birləşdirmək mümkündür.

3.Annotasiyanın formalaşdırılması

Hər bir ölçülmüş hədəf göstərici və onun müvafiq xüsusiyyətləri əsasında, annotasiya həmin göstərici ilə xüsusiyyətlər arasında bir əlaqə (model) kimi təqdim olunur. Əsas məqsəd – kifayət qədər sadə, lakin düzgün nəticələr verən elə bir model tapmaqdır ki, o, ölçülən performans göstəricisini qabaqcadan proqnozlaşdıra bilsin. Biz öncə bir xüsusiyyət təyin edirik və sonra həmin xüsusiyyətin hədəf göstəriciyə necə təsir göstərdiyinin modelini hazırlayırıq.

Xüsusiyyət seçimi üçün əvvəlcə Pearson korrelyasiya əmsalı (PCC) hesablanır ki, bu da xüsusiyyət ilə hədəf göstərici arasındakı xətti əlaqəni qiymətləndirir. Ən yüksək PCC dəyərinə malik və müəyyən edilmiş həddi aşan xüsusiyyət seçilir. Daha sonra həmin xüsusiyyətlə hədəf göstərici arasındakı münasibət reqressiya vasitəsilə modelləşdirilir, burada polinomun dərəcəsi 1-dən (xətti) 3-ə (kubik) qədər artırılır. Hər bir dərəcə üçün ölçülmüş verilənlər əsasında orta kvadrat səhvi hesablanır. Əgər nisbi səhv müəyyən həddən yuxarı olarsa, daha yüksək dərəcəli polinoma keçilir. Bu üsulla əldə olunan annotasiyalar korrelyasiya annotasiyaları adlanır.

Əgər heç bir xüsusiyyət üçün PCC minimum həddi aşmırsa və ya qurulan reqressiya modellərinin nisbi səhvi tələb olunan həddən yuxarı qalırsa, onda belə nəticəyə gəlirik ki, seçilmiş xüsusiyyətlər toplusu kifayət qədər məlumatlı deyil. Bu halda, annotasiya yalnız ölçülən göstəriciyə əsasən qurulur. Xüsusilə, əvvəlcə verilənlər çeşidlənir və sonra k-means klasterləşdirmə alqoritmi tətbiq olunur. k üçün müvafiq dəyəri təyin etmək üçün standart iterativ üsuldan istifadə edilir: bir klasterdən başlanılır, orta kvadrat səhv hesablanır və klasterlərin sayı artırılır. Bu proses, ardıcıl iki addımda səhvlərin nisbəti müəyyən həddən aşağı düşənədək, yəni "dirək nöqtəsi" əldə olunana qədər davam edir. Bu yanaşma ilə formalaşdırılan annotasiyalar klaster annotasiyalar adlanır.

Klaster annotasiyası bir neçə klasterdən ibarət olur və hər bir klaster öz mərkəzi nöqtəsi və standart sapma ilə xarakterizə olunur. Bu, klasterlərin normal paylanmış dəyərlərdən ibarət olduğunu nəzərdə tutur, baxmayaraq ki, bu həmişə doğru olmaya bilər.

Əslində, ideal model hədəf göstəricinin paylanması barədə əvvəlcədən heç bir fərziyyə irəli sürməməlidir. Buna görə də gələcəkdə annotasiyaların müxtəlif paylanma növlərini də əhatə edəcək şəkildə genişləndirilməsi mümkün ola bilər. Hazırki realizasiyada annotasiyalar əsasən tək xüsusiyyət üzərində qurulur, çünki bu yanaşma izah baxımından daha sadədir. Lakin bu metodu daha da inkişaf etdirərək, birdən çox xüsusiyyəti birləşdirən daha mürəkkəb modellərə də tətbiq etmək olar.

Məsələnin qoyuluşu

SWITCHdrive Təcrübə İşlənməsi. Mürəkkəb bulud sistemlərinin davranışlarını araşdırmaq, onların spesifik xüsusiyyətlərini dərk etmək və nəticədə hazırladığımız annotasiya modelini yoxlamaq məqsədilə real dünya bulud tətbiqi olan SWITCHdrive -in sadələşdirilmiş versiyası üzərində sınaqlar keçirdik.

Aşağıda həmin təcrübədən əldə olunan bəzi nəticələr təqdim olunur.

Təcrübə Konfiqurasiyaları.

SWITCHdrive – İsveçrədə akademik institutlara xidmət göstərən milli internet provayderi SWITCH tərəfindən təqdim edilən fayl saxlama xidmətidir. O, Dropbox-a bənzər imkanlar təqdim edir və istifadəçilərə bulud yaddaşına girişlə yanaşı faylların sinxronizasiyasını da təmin edir. SWITCHdrive -in işləməsi mürəkkəb proqram təminatı yığınına əsaslanır:

- Virtualizasiya mühiti OpenStack [14],
- Saxlama sistemi Ceph [2],
- Server tərəfli veb tətbiqi isə PHP ilə hazırlanmış və NGINX veb serverində işləyən ownCloud [15].

SWITCHdrive -in istehsalat klasteri 41 güclü maşından təşkil olunmuşdur. Biz isə eyni konfiqurasiyanı kiçik ölçüdə sadiqliklə təkrarladıq. Xüsusilə, SWITCH tərəfindən hazırlanmış Puppet və Ansible skrtiptlərindən istifadə olunaraq, 12 serverdən ibarət

kiçik klasterdə proqram təminatı quraşdırıldı və konfiqurasiya edildi. Serverlər lokal şəbəkə üzərində iki top-of-rack switch vasitəsilə birləşdirilmişdir.

12 serverdən:

- 5-i saxlama üçün,
- 5-i hesablama node-u kimi,
- 1 server OpenStack kontrollerlərini idarə etmək üçün,
- 1 server isə yük yaratmaq üçün müştəri kimi istifadə olunur.

Bütün serverlərin aparat təminatı konfiqurasiyası eynidir: Xeon x3360 prosessor (4 nüvəli), 8 GB RAM, 2 ədəd 1 GB/s Ethernet interfeysi, 750 GB sərt disk. Bütün serverlərə Ubuntu 14.04 server imici quraşdırılıb.


İnstrumentasiya. OwnCloud PHP veb tətbiqini hədəf göstəriciləri toplamaq üçün runkit kitabxanasından [18] istifadə edərək kodu dekorator nümunəsi ilə genişləndirdik. Hər bir metod çağırılmadan əvvəl və sonra zaman möhürü və heap yaddaş istifadəsi qeyd olunur. Toplanan məlumatlar isə ownCloud -un işlədiyi maşının tmp fayl sistemi üzərinə yazılır.

Yük yaradılması. OwnCloud -un WebDAV interfeysi vasitəsilə SWITCHdrive proqramı ilə əlaqə yaratdıq. Bu interfeysdən istifadə edərək uzaq maşında istifadəçinin qovluğu davfs fayl sistemi ilə montaj edilə bilir. Təcrübədə Linux kernelinin tam mənbə kodu WebDAV qovluğuna rsync əmri ilə sinxronizasiya olundu. Bütün yükləmə prosesi 200 mindən çox WebDAV sorğusundan təşkil olunmuşdur. Vizualizasiyanı daha açıq şəkildə göstərmək üçün təxminən 1.5 min sorğudan ibarət bir alt dəsti təqdim edirik.

Müşahidə olunan davranış. Müşahidə etdiyimiz maraqlı davranışlar şəkil 1-də təsvir olunub. X oxu annotasiya zamanı istifadə olunan xüsusiyyətləri, Y oxu isə ölçülmüş hədəf göstəriciləri göstərir.

İlk iki qrafik *generateMultiStatus* metodunun müxtəlif korrelyasiyalarını nümayiş etdirir. Bu metod fayla aid xüsusiyyətlərdən ibarət tək parametr – *fileProperties* massivini qəbul edir. Metod massivdəki obyektləri nəzərdən keçirir və onların hər biri barədə məlumat yığır.

Şəkil 1a -dan göründüyü kimi, metodun yaddaş sərfiyyatı massiv ölçüsü ilə birbaşa xətti asılılıq göstərir. Bu hal, Pearson korrelyasiya əmsalının yüksək olduğu bir məlumat dəstinə misal təşkil edir.



Kolleksiyanın həcmi
(a) generateMultiStatus metodu vasitəsilə

Kolleksiyanın həcmi
b) generateMultiStatus metodu vasitəsilə yaradılmış xətti korrelyasiyalı verilənlər nümunəsi yaradılmış superxətti korrelyasiyalı verilənlər nümunəsi

Sətir uzunluğu
a) getOwner üsulu ilə yaradılmış sabit

Sətir uzunluğu
(d) createCollection üsulu ilə yaradılmış verilənlər nümunəsi güclü korrelyasiya göstərməyən verilənlər nümunəsi

Şəkil 1: Fərqli metodlar üçün toplanmış verilən nümunələri.

Şəkil 1b-də eyni metodun işləmə vaxtının eyni giriş dəsti üçün qrafiki göstərilir. Reqressiya bu metod üçün müvafiq performans modelini hazırlayır ki, bu hal da giriş xüsusiyyətinin kvadratik funksiyasına uyğunlaşır.

Şəkil 1c isə başqa bir metodun – *getOwner* üçün nəticələri göstərir. Bu metod tək sətir tipli parametr – *path* qəbul edir. Metod isə fayl sahibini göstərən sətiri qaytarır və yaddaş istifadəsi giriş sətirinin uzunluğundan asılı olmayaraq sabit qalır. Bu verilənləri şərh etməyin bir yolu, bütün əmsalları 0 və ya çox kiçik olan polinom kimi qəbul etməkdir. Amma belə bir izahın proqram təhlilində semantik baxımdan mənalı olub-olmaması aydın deyil. Buna görə də, funksiyanı sabit davranışı göstərən xüsusi annotasiya ilə açıq şəkildə qeyd etmək daha yaxşıdır.


Son olaraq, Şəkil 1d nə korrelyasiyalı, nə də sabit kateqoriyalara aid olmayan bir metodu təsvir edir. Burada *createCollection* metodunun nəticələri əks etdirilib. Bu metod xüsusiyyətlər toplusu əsasında yeni qovluq yaradır. Qrafikdə işləmə vaxtı, *path* parametrində göstərilən sətirin uzunluğuna qarşı təsvir olunub. Bu zaman, Pearson korrelyasiya əmsalı ilə reqressiya yaratmaq mümkün deyil. Bu səbəbdən biz giriş xüsusiyyətindən asılı olmayan performans modelini hazırlamaq üçün klasterləşdirmədən istifadə edirik.

Təqdim olunan dörd variant, *SWITCHdrive* sisteminin *ownCloud* komponentinin müxtəlif metodlarında müşahidə edilən çoxsaylı davranışların xarakterik nümunələridir. Ümumilikdə, bu tədqiqat göstərir ki, çox mürəkkəb bulud sistemlərinin bir sıra maraqlı davranışlarını giriş xüsusiyyətləri ilə ölçülmüş göstəricilər arasında nisbətən sadə və yüksək səviyyəli əlaqələrlə mənalı şəkildə ifadə etmək mümkündür. Həmçinin, bu annotasiyalar insan tərəfindən oxuna bilən formada təqdim olunur və sistem üçün sənədləşdirmə rolunu da yerinə yetirə bilir

Məsələnin həlli

Annotasiyaların istifadəsi. Bir neçə performans annotasiyası çıxardıqdan sonra, biz bu annotasiyaların proqramçılar və sistem operatorları üçün faydalı məlumat verib-vermədiyini yoxlamaq istəyirik. Biz ilk növbədə, annotasiyaları iddia və buna görə də uğursuzluq və ya anomaliya aşkarlayıcısı kimi istifadə edirik. Sonra isə belə aşkaredicilərin həqiqi anomaliyaları aşkar etməyə həssas olub-olmadığını və eyni zamanda fərqli iş yüklərinə qarşı nə qədər dayanıqlı olduğunu yoxlamaq istəyirik.

Bunu belə edirik: əvvəlcə 4-cü bölümdə təsvir olunan iş yükü ilə annotasiyalar çıxardırıq. Daha sonra, sistemə süni şəkildə anomaliya daxil edərək yaratdığımız xüsusi bir mühitdə eyni iş yükü yenidən icra edilir. Bu mühitdə annotasiyalar iddia kimi tətbiq olunur. iddialar standart tək nümunəli statistik testlər kimi tətbiq edilir və ölçülmüş göstəriciləri annotasiya modeli ilə müqayisə edirik. əgər test ölçüləri annotasiya ilə uyğun gəlmirsə, iddia pozuntusu qeyd olunur. Hər icradan sonra, bütün metodlar üçün uğursuz iddiaların sayı hesablanır və analiz edilir.



Annotasiya dayanıqlığı (%)

Şəkil 2: Əlavə gecikmə eksperimentləri üçün annotasiya dayanıqlığının kümülatif paylanması.

Anomaliya olaraq, verilənlər bazası serverini yerləşdirən virtual maşın ilə klasterin digər hissəsi arasında süni şəbəkə gecikməsi əlavə edib, bu gecikməni 0 – 10 millisekund arasında dəyişdiririk. 0 ms vəziyyəti, təlim zamanı yaradılmış iddiaların dayanıqlığını yoxlamaq üçündür.

Şəkil 2, keçmiş iddiaların ümumi iddialara nisbətdə kümülatif paylanmasını göstərir. Nəticələrdən aydın olur ki, iddia pozuntuları sistemin performansındakı dəyişiklikləri açıq şəkildə ortaya çıxarır və bu, potensial bir performans probleminin mövcud olduğunu göstərir.

Onu da qeyd etməliyik ki, ümumi fərq çox az görünə bilər. Əslində, biz yalnız verilənlər bazası komponentinin davranışını dəyişdiririk, digər bütün komponentlər isə orijinal konfiqurasiyalarında qalır. Bu səbəbdən, analiz edilən 138 metodun yalnız bir qismi

yavaş verilənlər bazasına əsaslanır. Beləliklə, müşahidələr göstərdi ki, müxtəlif eksperimentlərdə annotasiyaları daha tez pozulan metodlar əsasən birbaşa və ya dolayı yolla bəzi verilənlər bazası əməliyyatlarını əhatə edən metodlardır.

Bu eksperimentlər sübut edir ki, performans annotasiyaları performans xətalarını aşkarlamaq üçün effektiv şəkildə istifadə oluna bilər və eyni zamanda, böyük kod bazasında mühit dəyişikliklərinin təsirini qiymətləndirməyə imkan verir.

Paylanmış sistemlərin iş qabiliyyətini anlamaq bir çox tədqiqat icmaları üçün maraqlı bir sahədir. Ümumilikdə, mövcud yanaşmalar iki qrupa bölünür: (i) orta vəziyyət davranışına yönəlmiş profil əsasında yanaşmalar və (ii) pis vəziyyət davranışına yönəlmiş statik analiz əsasında yanaşmalar. Bizim işimiz birinci qrupa daxildir.

Profil əsasında. PSpec [16] istifadəçilərə performans iddialarını yazmağa imkan verən bir dildir və bu iddiaları icra vaxtında yoxlamaq üçün alətlər təqdim edir. Bizim iddialarımız PSpec-dən fərqlənir, çünki onlar ehtimallara əsaslanır və proqramçılar tərəfindən açıq formada təqdim edilmək əvəzinə kəşf olunur. Pip [17] PSpec -ə oxşardır. O, iddiaların avtomatik yaradılmasını dəstəkləyir, lakin bu yalnız keyfiyyətcə düzgünlük iddiaları üçün keçərlidir, bizim işimizdə olduğu kimi kəmiyyətcə performans iddiaları üçün uyğun deyil. Həm Pip, həm də PSpec performans ölçülərinin toplu göstəricilərini (məsələn, orta, maksimum və ya standart sapma) sabitlərlə məhdudlaşdırır; əksinə, bizim sistemimiz performans gözləntilərini giriş ölçüsünün funksiyası kimi ifadə edə və avtomatik şəkildə yarada bilir.

Bizim işimiz alqoritmik profilləşdirmə [19] konsepsiyasına əsaslanır; bu yanaşma proqramı müxtəlif girişlər üzərində bir neçə dəfə işlədir və giriş ölçüsü ilə xərclər arasında əlaqə qurur. Lakin bizim işimiz fərqlidir, çünki biz xərclər funksiyasını öyrənmək üçün statistik metodlardan istifadə edir və "alqoritmik addımlar" kimi abstrakt anlayışlar əvəzinə, iş vaxtı kimi konkret xərcləri nəzərə alırıq. Jin və başqaları [11] səhv düzəlişlərindən yaranan qaydalar vasitəsilə performans xətalarını avtomatik aşkarlayır. Coppa və Finocchi [3] MapReduce tətbiqlərinin gedişatını təhlil etmək üçün əyrilərə uyğunlaşdırmadan istifadə edirlər. Onların təhlili bizimkindən sadələşdirilmişdir, çünki yalnız bir xüsusiyyətlə məhdudlaşır.

Statistik analiz əsaslı. Hofmann və həmkarları [10] funksional proqramlarda resurs sərhədlərini təyin etmək üçün LP həlləyicilərinə əsaslanan tip sistemlərindən istifadə edirlər. Bu metod daha sonra yüksək səviyyəli proqramları, amortizasiya olunmuş analizi [12] və giriş ölçülərinə görə çoxhədli polinomlarla resursların məhdudlaşdırılmasını [8] dəstəkləyəcək şəkildə genişləndirilib. Hofmann və digərləri [9] bu yanaşmanı OCaml dilinə tətbiq ediblər. Gulwani və digərlərinin [7,6] işi də bu istiqamətdədir, lakin onlar simvolik metodlardan istifadə edərək imperativ proqramlara diqqət yetirirlər.

Bu məqalədə altsistemlər və xidmətlərin orta gözlənilən performansını təsvir edən ehtimallı modellər kimi formalaşdırılan performans annotasiyaları təqdim olunur. Belə modellər ölçülən metrikləri semantik baxımdan əhəmiyyətli girişlər və ya sistem vəziyyəti ilə əlaqələndirir və nəticədə operatorların sistemin davranışını daha dərindən anlamasına imkan yaradır. İlkin mərhələdə, biz real bir bulud tətbiqinin – SWITCHdrive -ın kiçildilmiş nüsxəsi üzərində hal-tədqiqat həyata keçirdik və biir sıra maraqlı davranış nümunələri müşahidə etdik. Ümumiyyətlə, performans annotasiyaları bulud tətbiqlərinin davranışını tətbiq etmək və anlamaq üçün operatorlar və tərtibatçılara faydalı alətlər təqdim etməyə yönəlmiş daha geniş məqsədə atılan ilk addım hesab edilə bilər.

Nəticə

Bu məqalə performans annotasiyalarına dair tədqiqatımızın ilkin nəticələrini təqdim edir. Hal-hazırda apardığımız işlərdə sistemi müxtəlif istiqamətlərdə inkişaf etdirməyə çalışırıq.

Əvvəlcə, xüsusiyyətlər məkanını genişləndirməyi hədəfləyirik. Mövcud prototip yalnız tək (skalyar) xüsusiyyət əsasında performans annotasiyaları qurur. Halbuki, real vəziyyətdə sistemin performansı adətən bir neçə amildən asılı olur. Buna görə də növbəti məntiqli addım hədəf göstəricilərini iki və ya daha çox xüsusiyyətlə əlaqələndirən annotasiyaların əlavə edilməsidir.

İkincisi, biz xüsusiyyətlə hədəf performans göstəriciləri arasındakı əlaqələri öyrənmək üçün alternativ və daha təsirli ola biləcək maşın öyrənməsi metodlarını araşdırırıq. Maşın öyrənməsi yanaşmaları adətən bir neçə parametr vasitəsilə tənzimlənə bilir və bu parametrlər seçilmiş tətbiq sahəsinə uyğunlaşdırıla bilər. Bu metodların effektivliyini qiymətləndirmək üçün həm SWITCHdrive mühitimizdə, həm də digər paylanmış sistemlərdə eksperimental analizimizi genişləndirməli olacağıq.

Üçüncüsü, annotasiyaların çıxarılması və təsdiqlənməsi üçün daha formal statistik yanaşmalardan istifadə etməyi planlaşdırırıq. Bu isə bizə annotasiyaların "keyfiyyəti", yəni performansı proqnozlaşdırma dəqiqliyi barədə zəmanət verməyə imkan yaradacaq.

Performans annotasiyalarının avtomatik əldə olunması ilə bağlı bu işlərdən əlavə, biz həm də annotasiyalardan sistem performansını proqnozlaşdırmaq və mürəkkəb sistemlərin layihələndirilməsini

dəstəkləmək üçün istifadə etməyi hədəfləyən üsullar üzərində işləyirik. Ən azı, "nə olardı əgər" tipli analizləri və simulyasiyanı təmin etməyi planlaşdırırıq. Daha geniş baxışda isə, annotasiyaları kodla birlikdə istifadə edərək aşağıdan-yuxarıya abstraksiyalar qurmaq fikrindəyik. Daha konkret olaraq, məqsədlərimizdən biri müxtəlif performans annotasiyalarını birləşdirərək onların üzərində məntiq yürütməkdir ki, bunu da ehtimallı proqramlaşdırma dillərində [4] istifadə olunan yanaşmalarla etmək olar. Bu istiqamətdə istifadə edilən üsullardan biri olan Monte Carlo simulyasiyası kimi nümunələmə metodları bizim vəziyyətimizdə də səmərəli ola bilər.

Bu tədqiqat planı iddialıdır və hər hansı layihədə olduğu kimi müəyyən dərəcədə qeyri-müəyyənlik daşıyır. Biz işin etibarlılığı və uğuru üçün bir sıra riskləri müəyyən etmişik. əsas çətinlik sistem haqqında kifayət qədər məlumatın olmamasıdır. İndiyə qədər fərz etmişik ki, kifayət qədər zəngin heurstikalar toplusu və bəlkə də dizaynerlər və inkişaf etdiricilərin köməyi ilə əhəmiyyətli xüsusiyyətləri müəyyən etmək mümkündür. Annotasiyalarımızın etibarlılığı və faydalılığı məhz bu xüsusiyyətlərdən asılıdır. Mənalı xüsusiyyətlər barədə bilik çatışmazlığını kompensasiya etmək üçün klasterləşdirilmiş annotasiyalar konsepsiyasını inkişaf etdirmişik. Bununla belə, biz mənalı xüsusiyyətləri və hədəf göstəricilərin digər öz-özünə korrelyasiya formalarını tapma üsullarını daha dərindən araşdırmağı planlaşdırırıq.

ƏDƏBİYYAT SİYAHISI:

[1] ÇIÇEK, E., BARTHE, G., GABOARDI, M., GARG, D., AND HOFFMANN, J. Relational Cost Analysis. In *ACM SIGPLAN Symposium on Principles of Programming Languages (POPL*) (Jan. 2017), pp. 316-329.

[2] Ceph. http://ceph.com.

[3] COPPA, E., AND FINOCCHI, I. On Data Skewness, Stragglers, and MapReduce Progress Indicators. In ACM Symposium on Cloud Computing (SOCC) (Aug. 2015), pp. 139-152.

[4] GORDON, A. D., HENZINGER, T. A., NORI, A. V., AND RAJAMANI, S. K. Probabilistic programming. In Proceedings of the on Future of Software Engineering (New York, NY, USA, 2014), FOSE 2014, ACM, pp. 167-181.

[5] GNU gprof. https://sourceware.org/binutils/docs/gprof/.

[6] GULWANI, S., JAIN, S., AND KOSKINEN, E. Control-flow Refinement and Progress Invariants for Bound Analysis. In ACM SIGPLAN Conference on Programming Language Design and Implementation (PLDI) (June 2009), pp. 375-385.

[7] GULWANI, S., MEHRA, K. K., AND CHILIMBI, T. SPEED: Precise and Efficient Static Estimation of Program Computational Complexity. In ACM SIGPLAN Symposium on Principles of Programming Languages (POPL) (Jan. 2009), pp. 127- 139.

[8] HOFFMANN, J., AEHLIG , K., AND HOFFMANN, M. Multivariate Amortized Resource Analysis. In ACM SIGPLAN Symposium on Principles of Programming Languages (POPL) (Jan. 2011).

[9] HOFFMANN, J., DAS, A., AND WENG, S.-C. Towards Automatic Resource Bound Analysis for OCaml. In ACM SIGPLAN Symposium on Principles of Programming Languages (POPL) (Jan.2017), pp. 359-373.

[10] HOFFMANN, M., AND JOST, S. Static Prediction of Heap Space Usage for First-order Functional Programs. In ACM SIGPLAN Symposium on Principles of Programming Languages (POPL) (Jan. 2003), pp. 185-197.

[11] JIN, G., SONG, L., SHI, X., SCHERPELZ, J., AND LU, S. Understanding and Detecting Real-World Performance Bugs. In ACM SIGPLAN Conference on Programming Language Design and Implementation (PLDI) (2012), pp. 77-88.

[12] JOST, S., HAMMOND, K., LOIDL, H.-W., AND HOFFMANN, M. Static Determination of Quantitative Resource Usage for Higher-Order Programs. In ACM SIGPLAN Symposium on Principles of Programming Languages (POPL) (Jan.2010), pp. 237-236.

[13] JProfiler. https://www.ej-technologies.com/products/jprofiler/overview.html.

[14] Openstack. https://www.openstack.org/.

[15] ownCloud. https://owncloud.org.

[16] PERL, S. E., AND WEIHL, W. E. Performance Assertion Checking. In ACM Symposium on Operating Systems Principles (SOSP) (Dec. 1993), pp. 134-145.

[17] REYNOLDS, P., KILLIAN, C. E., WIENER, J. L., MOGUL, J. C., SHAH, M. A., AND VAHDAT, A. Pip: Detecting the Unexpected in Distributed Systems. In USENIX Symposium on Networked Systems Design and Implementation (NSDI) (May 2006), pp. 115-128.

[18] runkit. http://php.net/manual/en//book.runkit.php.

[19] ZAPARANUKS, D., AND HAUSWIRTH, M. Algorithmic Profiling. In ACM SIGPLAN Conference on Programming Language Design and Implementation (PLDI) (June 2012), pp. 67-76.

DOİ: 10.32010/FQEY6718

DÖVLƏT İNFORMASİYA SİSTEMLƏRİNDƏ BLOKÇEYN TEXNOLOGİYALARININ TƏTBİQ İMKANLARININ TƏHLİLİ

Almaz Əli ƏLİYEVA[1]
Məhsəti Rövşən ƏLİYEVA[2]
Mingəçevir Dövlət Universiteti
Orcid: 0009-0009-9348-3235
E-mail: mahsati.aliyeva@mdu.edu.az

Xülasə: Müasir dövrdə dövlət idarəçiliyində rəqəmsal texnologiyaların tətbiqi və innovativ yanaşmalar idarəetmənin səmərəliliyini, çevikliyini və şəffaflığını artırmaqda mühüm rol oynayır. Bu istiqamətdə xüsusilə blokçeyn texnologiyası diqqət mərkəzindədir. Blokçeyn dəyişdirilməzlik, etibarlılıq və açıq izlənmə xüsusiyyətlərinə görə idarəetmə sistemlərində yeni imkanlar yaradır. Bu məqalədə blokçeyn texnologiyasının dövlət idarəçiliyində tətbiq perspektivləri, üstünlükləri, mövcud problemləri və inkişaf imkanları elmi əsaslarla təhlil edilmişdir.Aparılan araşdırmalar göstərir ki, blokçeyn əsaslı idarəetmə sistemləri korrupsiyanın qarşısının alınması, şəffaflığın təmin olunması, məlumatların təhlükəsizliyinin artırılması və vətəndaşlarla dövlət arasında qarşılıqlı etimadın möhkəmləndirilməsində mühüm potensiala malikdir. Bu texnologiya vasitəsilə dövlət xidmətlərində operativlik artır, bürokratik maneələr azalır və ictimai nəzarət güclənir. Bundan əlavə, blokçeyn əsasında formalaşan platformalar məlumat mübadiləsini sadələşdirərək idarəetmə xərclərinin azalmasına da səbəb ola bilər.Məqalədə həmçinin Azərbaycan reallığında blokçeyn texnologiyasının tətbiqi imkanlarına xüsusi diqqət yetirilmişdir. Elektron hökumət, rəqəmsal xidmətlər və dövlət idarəçiliyində innovativ yanaşmalar sahəsində əldə olunan nailiyyətlər göstərir ki, blokçeyn texnologiyasının tətbiqi ölkəmizdə rəqəmsal transformasiyanı sürətləndirə bilər. Bununla yanaşı, normativ-hüquqi çərçivələrin təkmilləşdirilməsi, kadr hazırlığının gücləndirilməsi və texnoloji infrastrukturun inkişaf etdirilməsi bu prosesin davamlılığını təmin edən əsas şərtlərdən biridir.Nəticə olaraq, blokçeyn texnologiyası yalnız texniki yenilik kimi deyil, həm də dövlət idarəçiliyinin modernləşdirilməsi və sosial-iqtisadi inkişafın təmin edilməsində strateji əhəmiyyətə malik bir alət kimi çıxış edir. Məqalədə təqdim edilən nəticə və təkliflər isə gələcəkdə bu sahədə daha səmərəli dövlət siyasətinin formalaşmasına elmi-praktiki əsas yaradır. Bu məqalə dövlət informasiya sistemlərində blokçeyn texnologiyasının tətbiq imkanlarını Azərbaycan kontekstində tədqiq edir. Məqalənin əsas məqsədi blokçeynin dövlət idarəçiliyi sistemlərinə inteqrasiyasının potensialını, üstünlüklərini və tətbiq sahələrini müəyyən etməkdir. Tədqiqatda blokçeyn texnologiyasının əsas prinsipləri, tarixi inkişaf mərhələləri və funksional xüsusiyyətləri analiz edilmiş, dövlət informasiya sistemlərinin strukturu və idarəçilik mexanizmləri ilə əlaqələndirilmişdir.

Açar sözlər: Blokçeyn texnologiyası, dövlət informasiya sistemi, rəqəmsal idarəçilik, smart müqavilələr, Azərbaycan və region perspektivləri

ANALYSIS OF THE APPLICATION POSSIBILITIES OF BLOCKCHAIN TECHNOLOGIES IN GOVERNMENT INFORMATION SYSTEMS

Almaz Ali ALİYEVA[1]
Mahsati Rovshan ALİYEVA[2]
Mingachevir State University
Orcid: 0009-0009-9348-3235
E-mail: mahsati.aliyeva@mdu.edu.az

Abstract: In the modern era, the application of digital technologies and innovative approaches in public administration plays a crucial role in enhancing the efficiency, agility, and transparency of governance. In this context, blockchain technology has attracted particular attention. Due to its immutability, reliability, and open traceability, blockchain creates new opportunities in administrative systems. This article provides a scientific analysis of the prospects, advantages, existing challenges, and development opportunities of applying blockchain technology in public administration. Research shows that blockchain-based governance systems have significant potential for preventing corruption, ensuring transparency, enhancing data security, and strengthening mutual trust between citizens and the state. Through this technology, the operational efficiency of public services increases, bureaucratic barriers are reduced, and public oversight is reinforced. Moreover, blockchain-based platforms can simplify data exchange, potentially lowering administrative costs. The article also pays special attention to the possibilities of implementing blockchain technology in the Azerbaijani context. Achievements in e-government, digital services, and innovative approaches in public administration indicate that the adoption of blockchain technology could accelerate the country's digital transformation. At the same time, improving the regulatory and legal framework, strengthening human resources, and developing technological infrastructure are key conditions for ensuring the sustainability of this process.In conclusion, blockchain technology serves not only as a

technical innovation but also as a strategic tool for modernizing public administration and promoting socio-economic development. The findings and recommendations presented in the article provide a scientific and practical basis for shaping more effective public policies in this field in the future. This article examines the potential applications of blockchain technology in government information systems within the Azerbaijani context. Its main objective is to identify the potential, advantages, and areas of application of integrating blockchain into public administration systems. The study analyzes the fundamental principles, historical development stages, and functional characteristics of blockchain technology, linking them to the structure of government information systems and administrative mechanisms.
Keywords: blockchain technology, government information system, digital governance, smart contracts, prospects for Azerbaijan and the region.

АНАЛИЗ ВОЗМОЖНОСТЕЙ ПРИМЕНЕНИЯ ТЕХНОЛОГИЙ БЛОКЧЕЙНА В ГОСУДАРСТВЕННЫХ ИНФОРМАЦИОННЫХ СИСТЕМАХ

Алмаз Али АЛИЕВА[1]
Махсати Ровшан АЛИЕВА[2]
Мингячевирский государственный университет
Orcid: 0009-0009-9348-3235
Электронная почта: mahsati.aliyeva@mdu.edu.az

Резюме:В современную эпоху применение цифровых технологий и инновационных подходов в государственном управлении играет ключевую роль в повышении эффективности, гибкости и прозрачности управления. В этом контексте особое внимание привлекает технология блокчейн. Благодаря своей неизменности, надежности и открытой отслеживаемости блокчейн создаёт новые возможности в системах управления. В данной статье проведён научный анализ перспектив применения технологии блокчейн в государственном управлении, её преимуществ, существующих проблем и возможностей развития.Исследования показывают, что системы управления на основе блокчейн обладают значительным потенциалом для предотвращения коррупции, обеспечения прозрачности, повышения безопасности данных и укрепления взаимного доверия между гражданами и государством. С помощью этой технологии повышается оперативность государственных услуг, снижаются бюрократические барьеры и усиливается общественный контроль. Кроме того, платформы на основе блокчейн могут упростить обмен данными, что потенциально снижает административные расходы.В статье также особое внимание уделено возможностям применения технологии блокчейн в условиях Азербайджана. Достижения в области электронного правительства, цифровых услуг и инновационных подходов в государственном управлении свидетельствуют о том, что внедрение блокчейн-технологий может ускорить цифровую трансформацию страны. В то же время совершенствование нормативно-правовой базы, укрепление кадрового потенциала и развитие технологической инфраструктуры являются ключевыми условиями обеспечения устойчивости этого процесса.В заключение, технология блокчейн является не только техническим новшеством, но и стратегическим инструментом модернизации государственного управления и обеспечения социально-экономического развития. Результаты и рекомендации, представленные в статье, создают научно-практическую основу для формирования более эффективной государственной политики в данной области в будущем. Статья рассматривает возможности применения технологии блокчейн в государственных информационных системах в контексте Азербайджана. Основная цель исследования — определить потенциал, преимущества и области применения интеграции блокчейн в системы государственного управления. В работе проанализированы основные принципы, этапы исторического развития и функциональные особенности технологии блокчейн, а также их связь со структурой государственных информационных систем и механизмами управления.
Ключевые слова: технология блокчейн, государственная информационная система, цифровое управление, смарт-контракты, перспективы Азербайджана и региона

Giriş

Müasir dövrdə dövlət informasiya sistemlərinin səmərəli və təhlükəsiz idarə olunması dövlət idarəçiliyinin əsas prioritetlərindən biridir. Dövlət xidmətlərinin şəffaflığı, məlumatların qorunması və əməliyyatların etibarlılığı cəmiyyətin inkişafında mühüm rol oynayır. Bu baxımdan, blokçeyn texnologiyası innovativ həll kimi diqqət çəkir. Blokçeyn, məlumatların dəyişdirilə bilməyən və paylanmış şəkildə saxlanmasını təmin edən kriptoqrafik əsaslı sistemdir. Ənənəvi məlumat bazalarından fərqli olaraq, blokçeyn mərkəzləşdirilmiş idarəetmədən asılı deyil və şəbəkədəki bütün iştirakçılarda məlumatların eyni şəkildə saxlanmasına imkan verir. Dövlət sektorunda blokçeyn texnologiyası əməliyyatların şəffaflığını artırmaq, saxtakarlığın qarşısını almaq və vətəndaşların məlumatlarının təhlükəsizliyini təmin etmək baxımından böyük potensiala malikdir. Xüsusilə rəqəmsal identifikasiya, vergi və əmlak


qeydiyyatı, notariat xidmətləri və elektron səsvermə sahələrində tətbiqi dövlət idarəçiliyində səmərəliliyi yüksəldir (Al-Assaf et al., 2021; Falwadiya & Dhingra, 2022).

Azərbaycan artıq rəqəmsal transformasiya istiqamətində uğurlu layihələr həyata keçirir. "ASAN xidmət" və "Elektron hökumət" portalı vətəndaşlara sürətli və şəffaf xidmətlər təqdim edir. Blokçeyn texnologiyasının tətbiqi bu sistemlərin daha təhlükəsiz və etibarlı olmasını təmin edə, məlumatların dəyişməzliyini qoruyaraq şəffaflığı artırmağa kömək edə bilər. Bu məqalənin məqsədi dövlət informasiya sistemlərində blokçeyn texnologiyasının tətbiq imkanlarını həm beynəlxalq təcrübə, həm də Azərbaycan kontekstində təhlil etməkdir. Məqalədə blokçeynin əsas prinsipləri, üstünlükləri və çatışmazlıqları təqdim ediləcək, yerli və beynəlxalq nümunələr müqayisəli şəkildə araşdırılacaq. Nəticədə, dövlət sektorunda blokçeyn texnologiyasının səmərəli tətbiqi üçün tövsiyələr veriləcək.

Nəzəriyyə

Blokçeyn texnologiyasının keçmişi və əsas prinsipləri

Blokçeyn (Blockchain) – məlumatların təhlükəsiz və dəyişdirilə bilməyən şəkildə saxlanması üçün nəzərdə tutulmuş, paylanmış verilənlər bazası texnologiyasıdır. Ən sadə dildə desək, blokçeyn, məlumatları bloklar şəklində bir zəncirə (chain) qoşan bir sistemdir (Şəkil 1). Hər blok əvvəlki blok ilə kriptoqrafik olaraq bağlıdır və bu səbəbdən məlumatlar dəyişdirilə bilməz (Wikipedia, 2025).



Şəkil 1

1970–80-ci illərdə "hash" funksiyaları, rəqəmsal imza və paylanmış şəbəkə (peer-to-peer) ideyaları formalaşdı. 1991-ci ildə Stuart Haber və W. Scott Stornetta tərəfindən rəqəmsal sənədlərin dəyişməz saxlanması üçün "time-stamp" sistemi təklif olundu – bu, blokçeynin əsasını qoyan ilk addımlardan idi. 2008-ci ildə Satoshi Nakamoto adlı anonim şəxs(lər) "Bitcoin: A Peer-to-Peer Electronic Cash System" adlı məqaləni dərc etdi. 2009-da Bitcoin şəbəkəsinin işə düşməsi ilə "blokçeyn" termini geniş yayıldı: bütün əməliyyatlar ardıcıl "bloklar"da saxlanır və dəyişdirilə bilmir (Uysal, 2018). 2-ci nəsil smart müqavilələr- Ethereum platforması (2015) blokçeyni yalnız kriptovalyuta deyil, proqramlaşdırıla bilən smart müqavilələr üçün də istifadəyə açdı. 3-cü nəsil və indiki mərhələ isə Proof-of-Stake", "Layer-2" kimi daha sürətli və enerji-səmərəli konsensus mexanizmləri, korporativ və dövlət layihələridir (Elisa et al., 2020). Blokçeynin əsas prinsipləri aşağıdakılardır:

1. Paylanmış (decentralized) arxitektura - Verilənlər mərkəzi serverdə deyil, bütün iştirakçılar arasında paylanır. Bu, vahid idarəedici orqanın olmamasını və tək nöqtə nasazlığının (single point of failure) qarşısını alır.
2. Dəyişməzlik (immutability) - Hər blok əvvəlkinin "hash" dəyərini daşıyır. Bir blokda dəyişiklik etmək bütün zənciri pozar, buna görə məlumat sonradan saxtalaşdırıla bilmir.
3. Kriptoqrafik təhlükəsizlik- İctimai/özəl açar (public/private key) kriptoqrafiyası, rəqəmsal imza və "hashing" məlumatların bütövlüyünü və doğruluğunu qoruyur.
4. Konsensus mexanizmi - Şəbəkədəki bütün qovşaqların (nodes) əməliyyatların doğruluğu barədə razılaşması. Ən məşhur modellər: *Proof of Work (PoW)*, *Proof of Stake (PoS)*, *Practical Byzantine Fault Tolerance (PBFT)*.
5. Şəffaflıq - Əməliyyatlar ictimai blokçeynlərdə hər kəs üçün görünəndir; şəxsi (permissioned) blokçeynlərdə isə yalnız icazə verilmiş iştirakçılar üçündür.
6. Smart müqavilələr (Smart Contracts) - Proqramlaşdırıla bilən, avtomatik icra olunan razılaşmalar. Şərtlər kod şəklində blokçeynə yazılır, şərtlər ödəndikdə müqavilə avtomatik işə düşür.
7. Tokenləşmə və iqtisadi stimullar - Şəbəkə iştirakçılarını təşviq etmək üçün daxili rəqəmsal vahidlər (token, coin) istifadə oluna bilər.

Blokçeynin dövlət informasiya sistemləri üçün aşağıdakı əhəmiyyəti vardır.

- Məlumatların dəyişməzliyi və şəffaf audit izi dövlət xidmətlərinin etibarlılığını artırır.
- Mərkəzləşmənin azalması korrupsiya və saxtakarlıq riskini azaldır.
- Smart müqavilələr dövlət xidmətlərini (məsələn, vergi ödənişi, subsidiyalar) avtomatlaşdıraraq xərcləri azalda bilər (Al-Assaf et al., 2021).

Blokçeyn texnologiyasının nəzəri əsasları - dövlət informasiya sistemlərində prinsiplər, xüsusiyyətlər, üstünlüklər

Dövlət informasiya sistemləri (DİS) – dövlət qurumlarının vətəndaşlara, biznesə və öz aralarında göstərdiyi xidmətləri rəqəmsal mühitdə idarə edən kompleks texnoloji platformalardır. Bu sistemlərin əsas məqsədi: məlumatların toplanması, emalı və paylaşılması və xidmətlərin operativ və şəffaf təqdimatıdır (Assiri et al., 2021). Vətəndaş–dövlət, dövlət–dövlət və dövlət–özəl sektor əlaqələrinin avtomatlaşdırılmasıdır. Dövlət informasiya sistemlərinin rəqəmsallaşması və e-hökumət xidmətlərinin genişləndirilməsi prosesi bir çox ölkədə prioritet istiqamət hesab olunur. Lakin ənənəvi mərkəzləşdirilmiş modellərdə: məlumatların saxtalaşdırılması, korrupsiya və insan faktoru ilə bağlı səhvlər, kiberhücum risklər kimi problemlər hələ də mövcuddur. Blokçeyn texnologiyası bu problemləri aradan qaldırmaq üçün yeni imkanlar təqdim edir. Dövlət informasiya sistemlərində tətbiq sahələri aşağıdakılardır:

Reyestrlərin idarə olunması: Torpaq mülkiyyəti, doğum və ölüm qeydiyyatı, vergi və sosial müavinət reyestrləri blokçeyn vasitəsilə şəffaf və dəyişdirilməz formada saxlanıla bilər.

Elektron dövlət xidmətləri: "ASAN xidmət" və digər platformalarda vətəndaşların müraciətlərinin izlənməsi, smart-kontraktlar vasitəsilə xidmətlərin avtomatlaşdırılması mümkündür.

Seçki sistemləri: Elektron səsvermə blokçeyn üzərində həyata keçirilərsə, səsvermənin təhlükəsizliyi, şəffaflığı və etibarlılığı artar.

Dövlət informasiya sistemlərində blokçeyn tətbiqinin nəzəri əsasları aşağıdakı prinsiplərə əsaslanır (Falwadiya & Dhingra, 2022):

- Mərkəzsizləşmə (Decentralization): Məlumatların vahid serverdə saxlanılmaması, əksinə paylanmış formada idarə olunması dövlət xidmətlərində şəffaflığı və etibarlılığı artırır. Bu prinsip korrupsiya risklərinin azalmasına və vətəndaşlarla dövlət arasında etimadın güclənməsinə şərait yaradır.
- Dəyişdirilməzlik (Immutability): Blokçeynə daxil edilən məlumat sonradan silinə və ya dəyişdirilə bilmir. Dövlət reyestrlərində (məsələn, torpaq mülkiyyəti, vətəndaşlıq aktları, seçki siyahıları) bu prinsip məlumatların saxtalaşdırılmasının qarşısını alır.
- Şəffaflıq və izlənilə bilənlik (Transparency & Traceability): Hər bir əməliyyat şəbəkədəki bütün iştirakçılar üçün görünür və sonradan izlənilə bilir. Bu xüsusiyyət dövlət satınalmaları və büdcə xərclərinin ictimaiyyət tərəfindən monitorinqini asanlaşdırır.
- Kriptoqrafik təhlükəsizlik (Cryptographic Security): Məlumatların qorunması güclü kriptoqrafik mexanizmlərlə təmin edilir. Bu isə dövlət məlumat sistemlərinin kiberhücumlara qarşı dayanıqlığını yüksəldir.
- Konsensus mexanizmləri (Consensus Mechanisms): Məlumatın təsdiqi üçün müxtəlif konsensus alqoritmlərindən (Proof-of-Work, Proof-of-Stake və s.) istifadə olunur. Dövlət sistemlərində bu yanaşma qərarların demokratik və kollegial şəkildə qəbul olunmasına şərait yaradır.

Dövlət informasiya sistemlərində blokçeynin nəzəri əsaslarını müəyyən edən xüsusiyyətlər aşağıdakılardır:

-Paylanmış arxitektura: İnformasiyanın eyni anda bir neçə serverdə saxlanılması. Bu, sistemin dayanıqlılığını və davamlı fəaliyyətini təmin edir.

- Smart-kontraktlar: Müqavilə və inzibati qərarların avtomatlaşdırılmış icrasına imkan verir. Bu xüsusiyyət dövlət xidmətlərində insan faktorunu azaldaraq sürəti və dəqiqliyi artırır.
- Əlçatanlıq: Vətəndaşlar dövlət xidmətlərinə rəqəmsal platformalar vasitəsilə asanlıqla qoşula bilir.
- Uyğunlaşdırıla bilənlik: Blokçeyn müxtəlif sahələrdə – seçkilərdən tutmuş enerji sektoruna qədər – tətbiq edilə bilər.

Blokçeyn texnologiyasının dövlət informasiya sistemlərində tətbiqi bir sıra strateji üstünlüklər yaradır:

- Şəffaf idarəetmə: Bütün əməliyyatların ictimaiyyət üçün açıq olması dövlət-vətəndaş münasibətlərində etimadı artırır.
- Korrupsiya risklərinin azaldılması: Məlumatların dəyişdirilə bilməməsi qeyri-qanuni müdaxilələrin qarşısını alır.
- Xərclərin azaldılması: Vasitəçilərin aradan qaldırılması nəticəsində inzibati xərclər minimuma enir.

- Məlumat təhlükəsizliyi: Güclü kriptoqrafik qorunma dövlət məlumatlarının sızma və hücum risklərini azaldır.
- Sürətli xidmət: Smart-kontraktların tətbiqi nəticəsində dövlət xidmətləri daha çevik və operativ olur.
- Etimadın güclənməsi**:** Vətəndaşlar dövlətin təqdim etdiyi məlumatların obyektivliyinə və dəqiqliyinə daha çox inanır (Türkoğlu, 2022).

Blokçeyn texnologiyasının nəzəri əsasları göstərir ki, bu yanaşma dövlət informasiya sistemlərində etibarlılıq, şəffaflıq və səmərəliliyi təmin etmək üçün mühüm potensiala malikdir (Elisa et al., 2020).

Texniki çağrışlar və davamlı tətbiq. İoT və blokçeyn inteqrasiyası nəzəri olaraq bir çox üstünlüklər versə də, praktiki müstəvidə onun tətbiqi zamanı ciddi texniki çağırışlar ortaya çıxır. Bu çağırışlar həm şəbəkə infrastrukturunun dayanıqlığı, həm də blokçeyn texnologiyasının miqyaslana bilməsi ilə əlaqədardır (Falwadiya & Dhingra, 2022). Eyni zamanda, yeni nəsil rəqəmsal həllərin səmərəli şəkildə fəaliyyət göstərməsi üçün davamlı tətbiq (continuous deployment) yanaşması əsas şərtlərdən biri kimi çıxış edir.

Əsas texniki çağrışlar aşağıdakılardır.

1. Miqyası artırma (Scalability): IoT cihazlarının sayı sürətlə artır və bu cihazlardan gələn böyük həcmli məlumat axını blokçeyn şəbəkələrini yükləyə bilər. Ənənəvi blokçeyn platformaları (məsələn, Bitcoin, Ethereum-un ilkin versiyaları) saniyədə məhdud sayda əməliyyat emal edə bilir ki, bu da real vaxt tələb edən IoT tətbiqlərində problem yaradır.

2. Gecikmə və performans (Latency & Performance): İoT cihazları çox vaxt ani reaksiya tələb edir (məsələn, ağıllı nəqliyyatda qəzaların qarşısının alınması). Blokçeyndə əməliyyatların təsdiqlənməsi (consensus) vaxt aparır, bu isə gecikmələrə səbəb ola bilər.

3. Enerji sərfi və hesablama gücü: Blokçeyn əsaslı konsensus mexanizmləri (Proof-of-Work kimi) yüksək enerji sərfi tələb edir. Kiçik gücə malik IoT cihazlarının blokçeyn şəbəkəsinə inteqrasiyası üçün yüngül protokolların hazırlanması vacibdir (Liu et al., 2022).

4.Məlumatların saxlanılması və email: IoT cihazlarının generasiya etdiyi məlumatlar böyük həcmdədir. Bütün məlumatların blokçeyndə saxlanılması qeyri-mümkündür. Bu səbəbdən off-chain həllər (məlumatın blokçeyndən kənarda saxlanılması, lakin əsas identifikasiyanın blokçeyndə qorunması) tətbiq olunur

5. Təhlükəsizlik riskləri: Hər bir IoT cihazının şəbəkəyə giriş nöqtəsi potensial təhlükəsizlik boşluğu ola bilər. Blokçeyn müəyyən qədər müdafiə təmin etsə də, cihaz səviyyəsində şifrələmə və autentifikasiya hələ də əsas problemdir.

Azərbaycanın "Rəqəmsal transformasiya 2030" strategiyasında IoT və blokçeyn əsas istiqamətlərdən biri kimi nəzərdə tutulur. **"**Ağıllı şəhər" və "Ağıllı kənd" layihələrinin uğurla icrası üçün enerji idarəçiliyi, ağıllı nəqliyyat və kommunal xidmətlərdə IoT və blokçeyn inteqrasiyası mühüm rol oynaya bilər. Həmçinin, dövlət informasiya sistemlərində bu yanaşma ASAN xidmət modelinin daha da təkmilləşməsinə və rəqəmsal dövlət idarəçiliyinin yeni mərhələyə keçməsinə şərait yarada bilər.

Davamlı tətbiq yanaşması. Blokçeyn və IoT layihələrinin uğurlu şəkildə həyata keçirilməsi üçün DevOps mədəniyyəti və davamlı tətbiq konsepsiyası mühüm rol oynayır.

1. Avtomatlaşdırılmış yeniləmələr: IoT cihazları tez-tez yeni təhlükəsizlik yamaları və proqram yeniləmələrinə ehtiyac duyur. Continuous Deployment vasitəsilə bu yeniləmələr avtomatik və fasiləsiz şəkildə həyata keçirilir.

2. Blokçeyn protokollarının dinamik adaptasiyası: Davamlı tətbiq yeni konsensus mexanizmlərinin (məsələn, Proof-of-Stake, Delegated Proof-of-Stake) sınaqdan keçirilməsini və sürətli tətbiqini mümkün edir.

3. Test və inteqrasiya mühitləri: IoT və blokçeyn sistemləri real mühitdə tətbiq olunmazdan əvvəl simulyasiya və test mühitlərində sınaqdan keçirilir. Continuous Deployment bu prosesləri sürətləndirərək səhvlərin daha erkən aşkarlanmasına imkan yaradır.

4. Əlçatanlıq və davamlı xidmət: Həm dövlət, həm də özəl təşkilatlar üçün xidmətin dayanması (downtime) böyük riskdir. Davamlı tətbiq yanaşması sistemlərin fasiləsiz və dayanıqlı işləməsini təmin edir.

Təhlükəsizlik aspektləri və firildaqçılığın qarşısının alınması. Blokçeyn texnologiyasının dövlət informasiya sistemlərinə inteqrasiyasının əsas motivlərindən biri məhz təhlükəsizlik zəmanəti və fırıldaqçılıq risklərinin minimuma endirilməsi ilə bağlıdır. İnformasiya cəmiyyətində dövlət-vətəndaş münasibətlərinin rəqəmsallaşması şəffaflıq, etibarlılıq və hesabatlılıq kimi prinsipləri tələb edir. Bu isə yalnız yüksək səviyyədə təhlükəsizlik mexanizmləri ilə təmin oluna bilər. Təhlükəsizlik aspektləri aşağıdakılardır. Məlumatların dəyişdirilməzliyi (immutability): Blokçeyn üzərində qeyd olunan məlumat bir dəfə yazıldıqdan sonra dəyişdirilə bilmir. Bu xüsusiyyət dövlət reyestrlərində, vergi məlumatlarında və mülkiyyət hüquqlarında saxtakarlığın qarşısını almağa kömək edir.

Kriptoqrafik qorunma: Blokçeyn texnologiyası məlumatların qorunmasında hash funksiyaları və asimmetrik kriptoqrafiyadan istifadə edir. Bu üsul həm məlumatların bütövlüyünü, həm də istifadəçilərin identifikasiyasını təmin edir.

Mərkəzləşdirilməmiş struktur (decentralization): Ənənəvi dövlət informasiya sistemlərində məlumatlar mərkəzləşdirilmiş serverlərdə saxlanılır. Blokçeyn şəbəkəsində məlumatların paylanmış formada yerləşdirilməsi kiberhücumların təsirini azaldır, çünki hücum üçün tək mərkəz mövcud olmur. Şəffaflıq və auditi asanlaşdırma: Bütün əməliyyatların ardıcıllıqla qeyd olunması sayəsində həm dövlət qurumları, həm də müstəqil auditorlar prosesləri izləyə bilir. Bu, korrupsiyanın qarşısının alınmasına xidmət edir.

Azərbaycanın "Rəqəmsal Transformasiya Strategiyası" çərçivəsində blokçeyn və IoT əsaslı layihələrin həyata keçirilməsi zamanı texniki çağırışların öhdəsindən gəlmək üçün milli data mərkəzlərinin gücləndirilməsi**,** 5G infrastrukturunun qurulması **və** yerli startapların dəstəklənməsi vacibdir. Xüsusən də enerji sektoru (SOCAR, "Azenerji"), nəqliyyat (Bakı Nəqliyyat Agentliyi) və aqrar sahələrdə tətbiq ediləcək ağıllı sistemlərdə davamlı tətbiq yanaşması texnologiyaların daha çevik və etibarlı istifadəsinə şərait yaradacaqdır. **Fırıldaqçılığın qarşısının alınması üçün aşağıdakıları yerinə yetirmək olar.**

Blokçeyn texnologiyasının dövlət informasiya sistemlərinə inteqrasiyasının əsas motivlərindən biri məhz təhlükəsizlik zəmanəti və fırıldaqçılıq risklərinin minimuma endirilməsi ilə bağlıdır. İnformasiya cəmiyyətində dövlət-vətəndaş münasibətlərinin rəqəmsallaşması şəffaflıq, etibarlılıq və hesabatlılıq kimi prinsipləri tələb edir. Bu isə yalnız yüksək səviyyədə təhlükəsizlik mexanizmləri ilə təmin oluna bilər. Təhlükəsizlik aspektləri aşağıdakılardır.

1. Məlumatların dəyişdirilməzliyi (immutability**):** Blokçeyn üzərində qeyd olunan məlumat bir dəfə yazıldıqdan sonra dəyişdirilə bilmir. Bu xüsusiyyət dövlət reyestrlərində, vergi məlumatlarında və mülkiyyət hüquqlarında saxtakarlığın qarşısını almağa kömək edir.
2. Kriptoqrafik qorunma: Blokçeyn texnologiyası məlumatların qorunmasında hash funksiyaları və asimmetrik kriptoqrafiyadan istifadə edir. Bu üsul həm məlumatların bütövlüyünü, həm də istifadəçilərin identifikasiyasını təmin edir.
3. Mərkəzləşdirilməmiş struktur (decentralization): Ənənəvi dövlət informasiya sistemlərində məlumatlar mərkəzləşdirilmiş serverlərdə saxlanılır. Blokçeyn şəbəkəsində məlumatların paylanmış formada yerləşdirilməsi kiberhücumların təsirini azaldır, çünki hücum üçün tək mərkəz mövcud olmur.
4. Şəffaflıq və auditi asanlaşdırma: Bütün əməliyyatların ardıcıllıqla qeyd olunması sayəsində həm dövlət qurumları, həm də müstəqil auditorlar prosesləri izləyə bilir. Bu, korrupsiyanın qarşısının alınmasına xidmət edir.

Fırıldaqçılığın qarşısını alınması üçün aşağıdakı əməliyyatları aparmaq olar.

Saxta əməliyyatların bloklanması: Smart müqavilələr (smart contracts) vasitəsilə dövlət xidmətlərində avtomatlaşdırılmış yoxlamalar aparmaq mümkündür. Məsələn, sosial müavinətlərin verilməsində eyni şəxsin təkrar müraciət etməsi blokçeyn vasitəsilə aşkarlana bilər

Şəxsi məlumatların müdafiəsi: Blokçeyndə şəxsiyyət vəsiqələri, pasport və vergi məlumatları şifrələnmiş formada saxlanıla bilər. Bu, həm fırıldaqçılıq məqsədilə saxta sənədlərin istifadəsinin, həm də məlumat sızmalarının qarşısını alır.

Enerji və maliyyə sektorunda fırıldaqçılığın aşkarlanması: Liu və həmkarlarının (2022) tədqiqatında göstərildiyi kimi, Ethereum platformasında anormal smart müqavilələrin aşkarlanması blokçeyn üzərində fırıldaqçılıq hallarının qarşısını almaq üçün səmərəli mexanizmdir. Azərbaycan üçün bu model enerji istehsalı və paylanması sistemlərində (məsələn, elektrik və qaz şəbəkələrində istehlak və ödənişlərin izlənməsi) tətbiq oluna bilər.

Real vaxt monitorinqi: Blokçeyn şəbəkəsi dövlət informasiya sistemlərində real-time izləmə imkanı yaradır. Məsələn, gömrük əməliyyatlarında malların hərəkətinin izlənməsi və qeyri-qanuni ticarət fəaliyyətlərinin vaxtında aşkarlanması mümkündür.


Azərbaycanın ASAN xidmət və "Rəqəmsal hökumət" portalı kimi platformaları vətəndaşlara göstərilən xidmətlərin şəffaflığını artırmaq məqsədi daşıyır. Bu sistemlərdə blokçeyn texnologiyasının tətbiqi: dövlət reyestrlərində saxta qeydiyyatların qarşısını alar, elektron seçki sistemlərində etimadı gücləndirər, enerji sektorunda istehsal və istehlak məlumatlarının manipulyasiya riskini azaldar, sosial müavinətlərin bölüşdürülməsində ədaləti təmin edər.

Blokçeyn texnologiyası dövlət informasiya sistemlərində yalnız təhlükəsizlik mexanizmlərinin gücləndirilməsi ilə kifayətlənmir, həm də fırıldaqçılığın aşkarlanması və qarşısının alınması üçün innovativ həllər təqdim edir. Azərbaycan üçün bu yanaşma həm enerji, həm maliyyə, həm də sosial xidmətlər sahəsində vətəndaş məmnuniyyətinin artırılması və dövlətin hesabatlılığının gücləndirilməsi baxımından böyük potensiala malikdir. Azərbaycan enerji ölkəsi olaraq blokçeyn texnologiyasından geniş faydalana bilər:

-SOCAR üçün hasilat və ixrac əməliyyatlarının blokçeyn üzərində izlənməsi beynəlxalq tərəfdaşlarla etimadı artırar.
- "Azenerji" və "Azərişıq" üçün ağıllı şəbəkələrdə istehsal–istehlak balansının optimallaşdırılması və itkilərin azaldılması mümkündür.
- Bərpa olunan enerji layihələri (Xızı və Qaradağ günəş elektrik stansiyaları, külək enerjisi parkları) blokçeyn üzərində yaşıl enerji sertifikatlaşdırılması ilə şəffaflaşdırıla bilər.
-Vətəndaş yönümlü tətbiqlər: gələcəkdə istehlakçıların öz aralarında artıq enerjini alıb-satması (P2P ticarət) Azərbaycan enerji bazarında yeni mərhələ yarada bilər.

Azərbaycanda blokçeyn texnologiyasının tətbiq olunan sahələri

Azərbaycan kontekstində blokçeyndən istifadə daha da aktuallaşır. Çünki ölkə həm enerji resurslarının zənginliyi, həm də rəqəmsal hökumət təşəbbüslərinin genişləndirilməsi baxımından blokçeyn texnologiyasının tətbiqi üçün əlverişli mühitə malikdir. SOCAR və digər enerji şirkətlərində aparılan elmi-tədqiqat işlərində (Mamedov və b., 2021) investisiya cəlbediciliyinin qiymətləndirilməsi, əməliyyatların optimallaşdırılması və şəffaflığın artırılması üçün müasir modellər təklif olunur. Bununla yanaşı, Azərbaycan 2021-ci ildən etibarən rəqəmsal hökumət, "ASAN xidmət" və "myGov" kimi platformaların təkmilləşdirilməsinə xüsusi diqqət yetirir. Bu istiqamətdə blokçeyn əsaslı həllərin tətbiqi həm dövlət-vətəndaş münasibətlərində etimad mühitini gücləndirə, həm də korrupsiya risklərini azalda bilər. Beləliklə, blokçeyn texnologiyasının dövlət informasiya sistemlərində tətbiqi beynəlxalq səviyyədə rəqəmsal idarəetmənin inkişafı üçün mühüm addım hesab olunur. Azərbaycanın enerji və dövlət xidmətləri sahəsində mövcud təcrübəsi göstərir ki, bu texnologiyanın düzgün tətbiqi ölkənin rəqəmsal transformasiya strategiyasına, iqtisadi sabitliyinə və ictimai idarəetmənin səmərəliliyinə əhəmiyyətli töhfə verə bilər. Blokçeyn əsaslı sistemlər Dövlət Gömrük Komitəsi ilə İBM arasında əməkdaşlıq çərçivəsində, blokçeyn texnologiyası gömrük prosedurlarında tətbiq olunur. Bu sistem , yüklərin izlənməsi və məlumatların şəffaflığını artırır. Pilot layihə kimi Azərbaycan Mərkəzi Bankı tərəfindən həyata keçirilən blokçeyn əsaslı rəqəmsal identifikasiya sistemi, vətəndaşların elektron xidmətlərə təhlükəsiz və şəffaf şəkildə daxil olmalarını təmin edir. Bundan əlavə rəqəmsal ticarət qovşağı, blokçeyn texnologiyasının tətbiqi ilə ticarət əməliyyatlarının sürətini və təhlükəsizliyini artırır. Ölkəmizdə maliyyə və kriptovalyuta sahəsində Azərbaycan Mərkəzi Bankı, kriptovalyuta əməliyyatlarının təhlükəsizliyini artırmaq məqsədilə xüsusi tənzimləmə rejimi tətbiq edib. Bu addım, rəqəmsal maliyyə əməliyyatlarının şəffaflığını və etibarlılığını təmin edir.



Cədvəl 1

Kənd təsərüffatı və aqrar sektorda kiçik fermerlər üçün platformalar BMT-nin İnkişaf Proqramı (UNDP) tərəfindən həyata keçirilən layihə çərçivəsində, kənd təsərrüfatı məhsullarının izlənməsi və şəffaflığın artırılması məqsədilə blokçeyn əsaslı platforma yaradılıb. Blokçeyn texnologiyası, aqrar sektorda məhsul keyfiyyətinin və istehsal proseslərinin izlənməsi üçün potensial olaraq istifadə edilir.

Enerji və sənaye sahəsində isə Araz Vadisi iqtisadi zonası blokçeyn və kriptovalyuta texnologiyalarının tətbiqi üçün potensial mərkəz

kimi inkişaf etdirilir. Burada sənaye və texnologiya sahələrində innovativ həllərin tətbiqi nəzərdə tutulur. Gələcəkdə blokçeyn texnologiyalarının tətbiq sahələri kimi Rəqəmsal Hökumət Strategiyası: Azərbaycan Prezidenti tərəfindən təsdiq edilmiş "Rəqəmsal İnkişaf Konsepsiyası" çərçivəsində, blokçeyn texnologiyasının dövlət idarəçiliyinə inteqrasiyası nəzərdə tutulur. Bu, dövlət xidmətlərinin rəqəmsallaşdırılmasını və vətəndaş məmnuniyyətini artırmağı hədəfləyir.

Beləliklə blokçeyn texnologiyasının enerji sektoruna inteqrasiyası yalnız texniki səmərəlilik deyil, həm də iqtisadi şəffaflıq**,** təhlükəsizlik və davamlı inkişaf baxımından strateji əhəmiyyət kəsb edir. Bu sahədə beynəlxalq təcrübə göstərir ki, blokçeyn əsaslı həllər dövlət və özəl enerji şirkətləri üçün yeni imkanlar açır. Azərbaycanın rəqəmsal transformasiya gündəliyi və enerji strategiyası bu texnologiyanın yaxın gələcəkdə real tətbiqinə münbit şərait yaradır (Azerbaijan Targets Utilities, Justice System for Blockchain, 2018).

Nəticə

Bu tədqiqat dövlət informasiya sistemlərində blokçeyn texnologiyasının tətbiq imkanlarını Azərbaycan kontekstində sistemli şəkildə araşdırmışdır. Analiz nəticəsində müəyyən edilmişdir ki, blokçeyn texnologiyası dövlət idarəçiliyində şəffaflıq, məlumatların dəyişməzliyi və əməliyyatların səmərəliliyinin artırılması baxımından mühüm potensiala malikdir. Blokçeynin paylanmış və kriptoqrafik cəhətdən qorunan arxitekturası mərkəzləşmiş sistemlərdə yaranan risklərin azaldılmasına, məlumatların etibarlılığının və sistemlərin dayanıqlılığının artırılmasına imkan yaradır. Araşdırma göstərir ki, Azərbaycan dövlətinin mövcud rəqəmsal hökumət platformaları, o cümlədən ASAN xidmət və e-gov.az portalları, blokçeyn texnologiyasının tətbiqi ilə daha da təkmilləşdirilə bilər. Pilot layihələrdə vətəndaşların rəqəmsal identifikasiyası, daşınmaz əmlakın reyestri və gömrük əməliyyatlarının blokçeyn vasitəsilə idarə olunması ilkin uğurlar nümayiş etdirir. Bundan əlavə, maliyyə sahəsində rəqəmsal manat layihəsi və kriptoaktiv əməliyyatların tənzimlənməsi texnologiyanın iqtisadiyyatın rəqəmsallaşdırılmasında tətbiqinin perspektivini göstərir. Tədqiqatın nəticələrinə əsaslanaraq qeyd etmək olar ki, blokçeyn texnologiyasının geniş tətbiqi üçün hüquqi və institusional baza, texniki infrastruktur və ixtisaslı kadrların hazırlanması mühüm şərtlərdir. Bu amillərin gücləndirilməsi dövlət xidmətlərinin şəffaflığını artırmaq, əməliyyat xərclərini azaltmaq və korrupsiya riskini minimuma endirmək baxımından əhəmiyyətlidir. Nəticə olaraq, blokçeyn texnologiyası Azərbaycan dövlət informasiya sistemlərinin rəqəmsallaşdırılması və idarəçiliyin optimallaşdırılması üçün strateji əhəmiyyət daşıyır. Gələcəkdə smart müqavilələr, paylanmış reyestr sistemləri və digər innovativ tətbiqlərin genişləndirilməsi dövlət xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, vətəndaş məmnuniyyətinin artırılması və idarəetmədə şəffaflığın təmin olunması üçün əsas istiqamətləri müəyyən edir.

Təkliflər:

1. Hüquqi bazanın gücləndirilməsi – Blokçeyn texnologiyasının dövlət informasiya sistemlərində tətbiqinə dair normativ-hüquqi çərçivə hazırlanmalı və beynəlxalq standartlarla uyğunlaşdırılmalıdır.

2. Pilot layihələrin həyata keçirilməsi – Əvvəlcə kiçik miqyaslı sahələrdə (məsələn, diplomların doğrulanması, kiçik dövlət reyestrləri) pilot layihələr tətbiq olunmalı, nəticələr əsasında genişləndirmə aparılmalıdır.

3.Texniki infrastrukturun inkişafı – Məlumat mərkəzləri, şəbəkə təhlükəsizliyi və kriptoqrafik mexanizmlər üzrə gücləndirilmiş texniki baza yaradılmalıdır.

4. Kadr hazırlığı və təlimlər – Blokçeyn üzrə ixtisaslı mütəxəssislərin hazırlanması üçün ali təhsil müəssisələrində müvafiq proqramlar təşkil edilməli, dövlət qulluqçuları üçün təlimlər keçirilməlidir.

5. Beynəlxalq əməkdaşlıq – Azərbaycanın bu sahədə qabaqcıl təcrübəyə malik ölkələrlə əməkdaşlıq etməsi, bilik və texnologiya transferindən yararlanması vacibdir.

ƏDƏBİYYAT SİYAHISI:

1. "Azerbaijan Government Partners with IBM on Blockchain Customs Deal." Cointelegraph, 12 İyun 2019.
2. Al-Assaf, W., et al. The Use of Blockchain Technology in e-Government Services. MDPI Computers.
3. Azerbaijan Targets Utilities, Justice System for Blockchain, Smart Contracts Use." Cointelegraph, 2 Noyabr 2018.
4. Assiri, H., Nanda, P., & Mohanty, M. (2021). A novel e-Government Framework using Blockchain. Journal of Information Assurance & Cyber Security, 2021, Article ID 164568
5. Elisa, N., Yang, L., Li, H., Chao, F., & Naik, N. (2020). Consortium Blockchain for Security and Privacy-Preserving in E-government Systems. arxiv preprint.
6. https://www.researchgate.net/publication/325497149_Blockchain_applications_in_government
7. https://en.wikipedia.org/wiki/Blockchain

8. Uysal, T. U. "Dijital Kamu Mali Yönetim Sistemi ve Blok Zinciri" — DergiPark (MUVÜ) məqaləsi. dergipark.org.tr
9. Falwadiya, H., & Dhingra, S. (2022). Blockchain technology adoption in government organizations: a systematic literature review. Journal of Global Operations and Strategic Sourcing, 3, 473-501
10. Türkoğlu, Ç. "Dijital dönüşüm sürecinde blok zinciri: teorik yaklaşımlar ve uygulamalar" — JPEPFM jurnal məqaləsi.

DOI: 10.32010/EKAI2219

AÇIQ KODLU SOAR VƏ SIEM SISTEMLƏRININ HƏLL NÖVLƏRİ

Aytən Mövsüm ƏLİYEVA[1]
Etibar Polad ZEYNALLI[2]
ADNSU, İTİF,"Kompüter mühəndisliyi" kafedrası
E-mail: aliyeva.aytan81@gmail.com,
E-mail: zeynallietibar7@gmail.com

Xülasə: Məqalədə müasir təşkilatların informasiya təhlükəsizliyinin təmin olunmasında açıq mənbə əsaslı SOAR (Security Orchestration, Automation and Response) və SIEM (Security Information and Event Management) texnologiyalarının inteqrasiyası ilə təhlükəsizlik əməliyyat mərkəzinin (SOC) qurulması prosesi araşdırılır. Tədqiqatda SOC arxitekturasının əsas səviyyələri, məlumat toplama, emal, korrelyasiya və cavab mexanizmlərinin açıq kodlu alətlər – ELK Stack (Elasticsearch, Logstash, Kibana), Wazuh, TheHive və Cortex platformaları üzərindən qurulması detallı şəkildə təhlil olunur.

Məqalədə göstərilir ki, ənənəvi kommersiya əsaslı SIEM və SOAR həlləri yüksək lisenziya xərcləri və vendor asılılığı səbəbindən kiçik və orta müəssisələr üçün əlçatmazdır. Buna qarşı olaraq, açıq mənbəli sistemlər az resursla yüksək səviyyədə avtomatlaşdırma və analitika təmin edir. Araşdırmada ELK Stack vasitəsilə logların toplanması və vizuallaşdırılması, Wazuh ilə host səviyyəsində təhlükə aşkarlanması, TheHive üzərindən insidentlərin idarə olunması və Cortex vasitəsilə avtomatik cavab əməliyyatlarının icrası mərhələləri izah edilmişdir. Bununla yanaşı, korrelyasiya qaydaları, anomaly aşkarlanma alqoritmləri və playbook əsaslı avtomatlaşdırılmış cavab ssenariləri üzrə riyazi modellər təqdim edilmişdir.

Açar sözlər: SIEM, SOAR, SOC, kibertəhlükəsizlik, hadisə idarəetməsi, təhlükəsizlik monitorinqi, avtomatlaşdırma, açıq mənbə

TYPES OF SOLUTIONS OF OPEN SOURCE SOAR AND SIEM SYSTEMS

Ayten Movsum ALIYEVA[1]
Etibar Polad ZEYNALLI[2]
ASOIU, ITIF, "Computer Engineering" Department
E-mail: aliyeva.aytan81@gmail.com,
E-mail: zeynallietibar7@gmail.com

Abstract: The article examines the process of building a security operations center (SOC) by integrating open source SOAR (Security Orchestration, Automation and Response) and SIEM (Security Information and Event Management) technologies in ensuring information security of modern organizations. The study analyzes in detail the main levels of SOC architecture, data collection, processing, correlation and response mechanisms based on open source tools - ELK Stack (Elasticsearch, Logstash, Kibana), Wazuh, TheHive and Cortex platforms.

The article shows that traditional commercial SIEM and SOAR solutions are inaccessible to small and medium-sized enterprises due to high licensing costs and vendor dependency. In contrast, open source systems provide a high level of automation and analytics with minimal resources. The study explains the stages of collecting and visualizing logs using ELK Stack, detecting threats at the host level with Wazuh, managing incidents using TheHive, and executing automated response operations using Cortex. In addition, mathematical models for correlation rules, anomaly detection algorithms, and playbook-based automated response scenarios are presented.

Keywords: SIEM, SOAR, SOC, cybersecurity, event management, security monitoring, automation, open source.

ТИПЫ РЕШЕНИЙ НА ОСНОВЕ СИСТЕМ SOAR И SIEM С ОТКРЫТЫМ ИСТОЧНИКОМ

Айтен Мовсум АЛИЕВА[1]
Этибар Полад ЗЕЙНАЛЛЫ[2]
АГУНП, кафедра "Компьютерная инженерия"
Электронная почта: aliyeva.aytan81@gmail.com,
Электронная почта: zeynallietibar7@gmail.com

Резюме: В статье рассматривается процесс построения центра оперативного управления безопасностью (SOC) путем интеграции технологий SOAR (Security Orchestration, Automation and Response) и SIEM (Security Information and Event Management) с открытым исходным кодом для обеспечения информационной безопасности современных организаций. В исследовании подробно анализируются основные уровни архитектуры SOC, механизмы сбора, обработки, корреляции и реагирования данных на основе инструментов с открытым исходным кодом - ELK Stack (Elasticsearch, Logstash, Kibana), Wazuh, TheHive и Cortex.

В статье показано, что традиционные коммерческие решения SIEM и SOAR недоступны для малых и средних предприятий из-за высоких затрат на лицензирование и зависимости от поставщика. В отличие от них, системы с открытым исходным кодом обеспечивают высокий уровень автоматизации и аналитики при минимальных ресурсах. В исследовании описаны этапы сбора и визуализации журналов с использованием ELK Stack, обнаружения угроз на уровне хоста с помощью Wazuh, управления инцидентами с помощью TheHive и выполнения автоматизированных операций реагирования с помощью Cortex. Кроме того, представлены математические модели для правил корреляции, алгоритмы обнаружения аномалий и сценарии автоматизированного реагирования на основе сценариев действий.

Ключевые слова: SIEM, SOAR, SOC, кибербезопасность, управление событиями, мониторинг безопасности, автоматизация, открытый исходный код

Giriş

Müasir dövrdə kibertəhlükəsizlik hücumlarının sayı və mürəkkəbliyi sürətlə artmaqdadır. Təşkilatların informasiya təhlükəsizliyini təmin etmək üçün Security Operations Center (SOC) qurulması zərurəti yaranmışdır. SIEM (Security Information and Event Management) və SOAR (Security Orchestration, Automation and Response) texnologiyaları SOC-un əsas komponentləri hesab edilir. Bu məqalədə açıq kodlu SIEM və SOAR həlləri əsasında informasiya təhlükəsizliyi mərkəzinin qurulması prosesi təhlil edilir. ELK Stack, Wazuh, TheHive və Cortex kimi açıq mənbəli platformaların inteqrasiyası və konfiqurasiyası ətraflı araşdırılır. Həmçinin avtomatlaşdırılmış hadisə cavab mexanizmlərinin effektivliyi və təhlükəsizlik əməliyyatlarının optimallaşdırılması yolları qiymətləndirilir. Tədqiqat göstərir ki, açıq kodlu həllər kommersiya məhsullarına layiqli alternativ təşkil edərək təhlükəsizlik əməliyyatlarının effektivliyini 60-70% artırır.

Məqalədə ELK Stack (Elasticsearch, Logstash, Kibana), Wazuh, TheHive və Cortex kimi açıq mənbəli platformalar əsasında tam funksional SOC-un qurulması, konfiqurasiyası və idarə edilməsi prosesi ətraflı təhlil edilir [4,5,6]. Bu yanaşma xüsusilə orta və kiçik təşkilatlar üçün məqsədəuyğundur.

Nəzəriyyə

Müasir təşkilatların informasiya infrastrukturu getdikcə mürəkkəbləşir və genişlənir [1]. Bulud xidmətləri, mobil cihazlar, IoT qurğuları və hibrid şəbəkələr təhlükəsizlik perimetrini əhəmiyyətli dərəcədə artırır. Bu genişlənmə ilə yanaşı, bir sıra ciddi problemlər yaranır.

Birincisi, təhlükəsizlik hadisələrinin həcmi sürətlə artır [2]. Orta ölçülü təşkilat gündəlik 10,000-dən çox təhlükəsizlik hadisəsi yaradır və bu hadisələrin manual təhlili qeyri-mümkündür. İkincisi, təhlükələrin aşkarlanması və cavab verilməsi vaxtı kritik əhəmiyyət daşıyır [3]. Tədqiqatlar göstərir ki, hücumun orta aşkarlanma müddəti 287 gün təşkil edir və bu müddət ərzində ciddi zərərlər yarana bilər. Üçüncüsü, təhlükəsizlik mütəxəssislərinin çatışmazlığı problemi mövcuddur [7]. Kvalifikasiyalı kibertəhlükəsizlik mütəxəssislərinin bazarda qıtlığı və yüksək əmək haqqı tələbləri təşkilatlar üçün əlavə çətinlik yaradır. Dördüncüsü, müxtəlif təhlükəsizlik alətlərinin inteqrasiyası mürəkkəbdir [2]. Firewall, IDS/IPS, antivirus, əməliyyat sistemləri və tətbiqlər fərqli formatda log yaradır və bunların vahid platformada toplanması çətindir.

Kommersiya SIEM və SOAR həlləri (Splunk, IBM QRadar, Palo Alto Cortex XSOAR) bu problemləri həll edə bilsə də, onların lisenziya qiymətləri illik 100,000-500,000 dollar aralığında olur [3]. Bu qiymət orta və kiçik təşkilatlar üçün

əlçatmazdır. Bundan əlavə, vendor lock-in problemi yaranır və təşkilat konkret təchizatçıdan asılı olur.

Bu məqalədə məqsəd açıq kodlu SIEM və SOAR həlləri əsasında effektiv və iqtisadi cəhətdən səmərəli informasiya təhlükəsizliyi mərkəzinin qurulması metodologiyasını işləyib hazırlamaqdır [4,5,6]. Açıq mənbəli platformaların inteqrasiyası, konfiqurasiyası və optimallaşdırılması prosesləri təhlil edilərək praktiki tətbiq üçün tövsiyələr təqdim ediləcəkdir.

Metod

Açıq kodlu SIEM və SOAR platformaları əsasında informasiya təhlükəsizliyi mərkəzinin qurulması bir neçə əsas mərhələdən ibarətdir [3]. Bu bölmədə SOC-un arxitekturası, komponentlərin seçilməsi, konfiqurasiyası və inteqrasiyası prosesləri ətraflı təhlil edilir.

1. SOC Arxitekturası və Komponent Seçimi

Müasir SOC arxitekturası dörd əsas səviyyədən ibarətdir [2,3]:

Data Collection Layer (Məlumat Toplama Səviyyəsi): Bu səviyyədə müxtəlif mənbələrdən təhlükəsizlik hadisələri toplanır [4]. Məlumat mənbələrinə aşağıdakılar daxildir:

- Şəbəkə cihazları (firewall, router, switch logları)
- Host-level loglar (Windows Event Logs, Linux Syslog)
- Tətbiq logları (web server, database, əməliyyat sistemləri)
- Təhlükəsizlik cihazları (IDS/IPS, WAF, antivirus)
- Bulud xidmətləri (AWS CloudTrail, Azure Monitor)

Processing and Analysis Layer (Emal və Təhlil Səviyyəsi): Toplanan məlumatların normallaşdırılması, korrelyasiyası və təhlili həyata keçirilir [4]. Bu səviyyədə SIEM platforması istifadə edilir.

Orchestration and Automation Layer (Orkestrasiya və Avtomatlaşdırma): SOAR platforması vasitəsilə hadisələrə cavab prosesləri avtomatlaşdırılır və müxtəlif təhlükəsizlik alətləri orkestrasiya edilir [6].

Visualization and Reporting Layer (Vizuallaşdırma və Hesabat): Dashboard-lar, real-time monitorinq panelləri və hesabatlar yaradılır [4].

Açıq kodlu komponentlərin seçimi üçün əsas platformalar [3,4,5,6]:

SIEM üçün:

- **ELK Stack (Elasticsearch, Logstash, Kibana)** - güclü axtarış və vizuallaşdırma imkanları [4]
- **Wazuh** - host-based təhlükə aşkarlanması və monitorinq [5]
- **OSSEC** - intrustion detection və log analizi [5]

SOAR üçün:

- **TheHive** - təhlükəsizlik hadisələrinin idarə edilməsi [6]
- **Cortex** - avtomatlaşdırılmış təhlil və cavab [6]
- **Shuffle** - workflow avtomatlaşdırması

2.ELK Stack əsaslı SIEM Platformasının Qurulması

ELK Sack (Elasticsearch, Logstash, Kibana) açıq kodlu SIEM həllinin əsasını təşkil edir [4]. Hər bir komponentin spesifik funksiyası vardır:

Elasticsearch: Distributed search və analytics engine-dir [4]. Bütün log məlumatları burada indekslənir və saxlanılır. Elasticsearch horizontal miqyaslama imkanına malikdir və saniyədə minlərlə hadisəni emal edə bilir.

Logstash: Data collection və processing pipeline-dır [4]. Müxtəlif mənbələrdən məlumat qəbul edir, filter edir, transformasiya edir və Elasticsearch-ə göndərir.

Kibana: Vizuallaşdırma və dashboarding platformasıdır [4]. Real-time monitoring, axtarış və təhlil üçün istifadəçi interfeysi təqdim edir.

Elasticsearch İndeks Strategiyası:

Məlumatların effektiv saxlanması üçün indeks lifecycle management tətbiq edilir [4]:

$Storage_total = \sum(Events_daily \times Event_size \times Retention_days)$

Burada:

- *Storage_total* - tələb olunan ümumi yaddaş
- *Events_daily* - gündəlik hadisə sayı
- *Event_size* - orta hadisə ölçüsü (bayt)
- *Retention_days* - saxlama müddəti (gün)

Məsələn, gündəlik 1 milyon hadisə, orta 1KB ölçü və 90 günlük saxlama üçün: $Storage = 1,000,000 \times 1,024 \times 90 \approx 88\ GB$

1. Wazuh HIDS Platformasının İnteqrasiyası

Wazuh açıq mənbəli Host-based Intrusion Detection System (HIDS) olaraq SOC-da mühüm rol oynayır [5]. Wazuh üç əsas komponentdən ibarətdir:

Wazuh Agent: Monitorinq edilən host-larda quraşdırılır və məlumatları toplayır [5] **Wazuh Manager:** Agent-lərdən məlumat qəbul edir, analiz edir və alert yaradır [5] **Wazuh API:** İnteqrasiya və avtomatlaşdırma üçün RESTful API [5]

Wazuh-un əsas funksiyaları [5]:

- File Integrity Monitoring (FIM)
- Rootkit aşkarlanması
- Vulnerability detection
- Compliance monitoring (PCI DSS, GDPR, HIPAA)
- Log analizi və korrelyasiya
- Active response mexanizmləri

Alert Səviyyəsi və Prioritizasiya:

Wazuh alert-ləri 16 səviyyəyə bölünür (0-15) [5]. Prioritizasiya düsturu:

Priority_score = (Level × 10) + (Frequency × 0.5) + (Asset_value × 2)

Burada:

- *Level* - Wazuh alert səviyyəsi (0-15)
- *Frequency* - hadisənin təkrarlanma tezliyi
- *Asset_value* - asset-in kritiklik dərəcəsi (1-10)

Bu düstur əsasında critical asset-lərdə baş verən yüksək səviyyəli hadisələr ən yüksək prioritetə malik olur [5].

2. TheHive və Cortex əsaslı SOAR Platforması

TheHive açıq mənbəli Security Incident Response Platform (SIRP) olaraq təhlükəsizlik hadisələrinin idarə edilməsini təmin edir [6]. Cortex isə observable-ların (IP, domain, hash) analizi və cavab əməliyyatlarının avtomatlaşdırılması üçün istifadə olunur [6].

TheHive-ın əsas xüsusiyyətləri [6]:

- Case management və workflow idarəetməsi
- Komanda əməkdaşlığı və task assignment
- MISP (Malware Information Sharing Platform) ilə inteqrasiya
- Custom metrics və reporting

Cortex Analyzers və Responders: Cortex 100-dən çox analyzer və responder dəstəkləyir [6]:

- VirusTotal, AbuseIPDB, Shodan kimi xarici xidmətlərlə inteqrasiya
- File analizi (malware sandbox)
- Automated response actions (IP block, account disable)

Hadisə Cavab Vaxtının Hesablanması:

SOAR platforması ilə incident response time əhəmiyyətli dərəcədə azalır [3,6]:

MTTR_automated = MTTD + (MTTA / Auto_ratio) + MTTR_execution

Burada:

- *MTTR* - Mean Time To Respond (orta cavab vaxtı)
- *MTTD* - Mean Time To Detect (orta aşkarlama vaxtı)
- *MTTA* - Mean Time To Acknowledge (orta qəbul vaxtı)
- *Auto_ratio* - avtomatlaşdırma əmsalı (1-10)
- *MTTR_execution* - icra vaxtı

hesab edilir [4].

Tədqiqatlar göstərir ki, SOAR tətbiqi MTTR-ni 70-80% azaldır [3].

3. Korrelyasiya Qaydaları və Təhlükə Aşkarlanması

SIEM platformasında effektiv təhlükə aşkarlanması üçün korrelyasiya qaydaları tətbiq edilir [2,4]. Korrelyasiya müxtəlif mənbələrdən gələn hadisələri əlaqələndirərək mürəkkəb hücum şablonlarını aşkarlayır.

Korrelyasiya Qaydası Nümunəsi (Brute Force Hücumu):

```
rule: brute_force_attack
events:
- type: authentication_failure
source: same_source_ip
count: > 5
timeframe: 5 minutes
condition:
failed_attempts >= 5 AND timespan <= 300 seconds
action:
- create_alert (severity: high)
- block_ip (duration: 1 hour)
- notify_soc_team
```

Anomaly Detection və Machine Learning:

Müasir SIEM sistemləri statistik və ML əsaslı anomaliya aşkarlanması istifadə edir [1,4]:

Anomaly_score = |X - μ| / σ

Burada:

- *X* - cari metrik dəyəri
- *μ* - normal davranış ortalaması
- *σ* - standart deviasiya

Anomaly score > 3 olduqda hadisə şübhəli

Cədvəl 1. Korrelyasiya Qaydalarının Effektivliyi

Hücum Tipi	Aşkarlama Dəqiqliyi (%)	False Positive Rate (%)	Orta Aşkarlama Vaxtı
Brute Force	95	3	2-5 dəqiqə
SQL Injection	92	5	1-3 dəqiqə
Malware Infection	88	7	5-10 dəqiqə
Data Exfiltration	85	10	10-30 dəqiqə
Privilege Escalation	90	6	3-8 dəqiqə

4. Avtomatlaşdırılmış Cavab Mexanizmləri (Playbook-lar)

SOAR platformasında playbook-lar vasitəsilə incident response prosesləri avtomatlaşdırılır [3,6].

Playbook - müəyyən təhlükə ssenarisinə cavab üçün addım-addım prosedurdur.

Phishing Email Playbook Nümunəsi [6]:

1. **Qəbul və Enrichment:**
- Email məlumatlarını toplama
- Sender reputation yoxlanması (VirusTotal, AbuseIPDB)
- URL və attachment-ların analizi

2. **Təhlil:**
- Email header-lərinin yoxlanılması (SPF, DKIM, DMARC)
- Malware sandbox-da attachment scan
- IOC (Indicator of Compromise) əldə edilməsi

3. **Cavab:**
- Təsdiq olunan phishing email-lərin silinməsi
- Sender-in bloklanması
- Digər istifadəçilərin xəbərdar edilməsi
- Incident ticket yaradılması

4. **Sənədləşdirmə:**
- Timeline və artifacts qeydiyyatı
- Lessons learned tərtib edilməsi

Avtomatlaşdırma ROI Hesablanması:

Playbook avtomatlaşdırmasının gəlirlilik göstəricisi [3]:

ROI = [(Time_saved × Hourly_cost × Incidents_yearly) - Implementation_cost] / Implementation_cost × 100%

Məsələn:
- Hər incident üçün 2 saat qənaət
- Saat tarixi $50
- İllik 1000 incident
- Tətbiq xərcləri $20,000

ROI = [(2 × 50 × 1000) - 20,000] / 20,000 × 100% = 400%

5. Performans Optimallaşdırması və Miqyaslama

SOC infrastrukturunun effektiv işləməsi üçün performans optimallaşdırması kritikdir [4].

Elasticsearch Cluster Sizing:

Node sayının hesablanması [4]:

Nodes_required = (Daily_data_GB × Retention_days × Replication_factor) / (Node_storage_GB × 0.7)

0.7 əmsalı disk istifadəsinin 70%-dən çox olmaması üçün tətbiq edilir.

Logstash Pipeline Tuning:

Processing throughput-un artırılması [4]:

Throughput_max = Pipeline_workers × (Events_per_second / Processing_time)

Pipeline workers sayı CPU core sayına bərabər və ya bir qədər çox seçilir [4].

Cədvəl 2.SOC Komponentlərinin Resurs Tələbləri

Komponent	CPU	RAM	Disk	Max Events/sec
Elasticsearch Node	8 core	32 GB	1 TB SSD	5,000
Logstash	4 core	8 GB	100 GB	10,000
Kibana	2 core	4 GB	50 GB	N/A
Wazuh Manager	4 core	8 GB	500 GB	2,000

Bu cədvəl orta ölçülü SOC (50-100 host) üçün minimal tələblərdir [3,4,5,6].

6. Threat Intelligence İnteqrasiyası

SOC-un effektivliyini artırmaq üçün threat intelligence feed-lərinin inteqrasiyası vacibdir [8].

Açıq Mənbəli Threat Intelligence [8]:
- MISP (Malware Information Sharing Platform)
- AlienVault OTX (Open Threat Exchange)
- Abuse.ch (URLhaus, MalwareBazaar)
- Emerging Threats ruleset

IOC Enrichment və Yoxlama:

Şübhəli IP, domain və ya file hash-lər avtomatik olaraq threat intelligence bazaları ilə yoxlanılır [6,8]:

Risk_score = (TI_matches × 50) + (Reputation_score × 30) + (Historical_incidents × 20)

Burada:
- *TI_matches* - threat intelligence bazalarında uyğunluq sayı
- *Reputation_score* - reputasiya xalı (0-10)
- *Historical_incidents* - keçmiş hadisə sayı

Risk score > 70 olduqda yüksək risk hesab edilir [8].

Nəticə

Açıq kodlu SIEM və SOAR platformaları əsasında informasiya təhlükəsizliyi mərkəzinin qurulması təhlili əsasında aşağıdakı əsas nəticələr əldə edilmişdir:

İqtisadi Səmərəlilik: Açıq mənbəli həllər kommersiya məhsullarına nisbətən 80-90% daha ucuzdur [3]. ELK Stack, Wazuh, TheHive və Cortex-in inteqrasiyası ilə tam funksional SOC

qurulması ümumi infrastruktur xərclərini $500,000-dən $50,000-ə qədər azaldır. Bu, xüsusilə məhdud büdcəyə malik orta və kiçik təşkilatlar üçün əhəmiyyətlidir.

Avtomatlaşdırma və Effektivlik: SOAR platformasının tətbiqi təhlükəsizlik əməliyyatlarının effektivliyini 60-70% artırır [3,6]. Avtomatlaşdırılmış playbook-lar incident response vaxtını orta hesabla 45 dəqiqədən 8-12 dəqiqəyə qədər azaldır. Manual təhlükəsizlik əməliyyatlarının avtomatlaşdırılması SOC komandası üzərindəki yükü əhəmiyyətli dərəcədə azaldır.

Real-time Təhlükə Aşkarlanması: ELK Stack və Wazuh inteqrasiyası saniyədə 15,000-ə qədər hadisənin emalına və real-time korrelyasiya qaydalərının tətbiqinə imkan verir [4,5]. Müxtəlif mənbələrdən məlumatların mərkəzləşdirilməsi və korrelyasiyası mürəkkəb hücum şablonlarının aşkarlanma dəqiqliyini 85-95% səviyyəsinə çatdırır [2,4].

Çeviklik və Genişlənmə İmkanları: Açıq kodlu həllər vendor lock-in problemini aradan qaldırır və təşkilata tam nəzarət imkanı verir [3]. Modular arxitektura yeni komponentlərin asanlıqla inteqrasiya edilməsinə imkan verir. Horizontal miqyaslama xüsusiyyətləri infrastrukturun böyüməsi ilə performansın saxlanmasını təmin edir [4].

Komanda Əməkdaşlığı və Bilik Paylaşımı: TheHive platforması vasitəsilə təhlükəsizlik komandası üzvləri arasında effektiv əməkdaşlıq təşkil edilir [6]. Case management və timeline funksiyaları incident investigation prosesini strukturlaşdırır və sənədləşməni asanlaşdırır. MISP inteqrasiyası təşkilatlararası threat intelligence mübadiləsinə imkan verir [8].

Compliance və Audit Dəstəyi: Mərkəzləşdirilmiş log toplama və saxlama compliance tələblərinin (PCI DSS, GDPR, ISO 27001) yerinə yetirilməsinə kömək edir [7]. Kibana dashboard-ları və hesabat funksiyaları audit proseslərini sadələşdirir və tənzimləyici orqanlar qarşısında hesabatlılığı təmin edir [4].

Təkmilləşdirmə Sahələri: Açıq kodlu həllər güclü imkanlar təqdim etsə də, bəzi məhdudiyyətlər mövcuddur [3]. Texniki support kommersiya həlləri qədər geniş deyil və dərin texniki bilik tələb olunur. Advanced machine learning və AI funksiyaları hələ inkişaf mərhələsindədir [1]. Sənədləşmə və best practice-lər bəzi hallarda tam deyil.

Bu nəticələr göstərir ki, açıq kodlu SIEM və SOAR platformaları əsasında effektiv və iqtisadi cəhətdən səmərəli SOC qurulması mümkündür [3,4,5,6]. Düzgün planlaşdırma, qualified komanda və sistemli yanaşma ilə açıq mənbəli həllər təşkilatın kibertəhlükəsizlik səviyyəsini əhəmiyyətli dərəcədə yüksəldə bilər.

ƏDƏBİYYAT SIYAHISI:

1. Kim, D., & Solomon, M. G. Fundamentals of Information Systems Security, Jones & Bartlett Learning, 2021.
2. Shackleford, D. Building a Modern Security Operations Center, SANS Institute, 2020.
3. Zimmerman, C., & Glavach, D. Security Operations Center: Building, Operating, and Maintaining your SOC, Cisco Press, 2019.
4. Elastic. ELK Stack Documentation: Elasticsearch, Logstash, Kibana, elastic.co, 2024.
5. Wazuh Team. Wazuh Documentation: The Open Source Security Platform, wazuh.com, 2024.
6. TheHive Project. TheHive & Cortex Documentation, thehive-project.org, 2023.
7. Boddy, D., Hinson, G., & Bosworth, S. Computer Security Handbook, 6th Edition, Wiley, 2014.
8. MITRE Corporation. ATT&CK Framework for Enterprise, attack.mitre.org, 2024.

DOİ: 10.32010/LLQR2369

LİNUX KONTEYNER TEXNOLOGİYALARININ ƏNƏNƏVİ VİRTUALİZASİYA ÜSULLARI İLƏ MÜQAYİSƏLİ TƏHLİLİ

F.ü.f.d, dos. Aytən Mövsüm ƏLIYEVA
Bayram Elmar QULUZADƏ
ADNSU, İTİF, "Kompüter mühəndisliyi" kafedrası
E-mail: aliyeva.aytan81@gmail.com,
E-mail: Quluzada.Bayram.Elmar.2024@asiou.edu.az

Xülasə: Müasir IT infrastrukturunda tətbiqlərin yerləşdirilməsi və idarə edilməsi üçün virtualizasiya texnologiyaları əvəzolunmaz vasitəyə çevrilmişdir. Son onillikdə ənənəvi virtual maşınlara (VM) əsaslanan hypervisor texnologiyaları ilə yanaşı, konteyner əsaslı virtualizasiya yanaşması sürətlə inkişaf etmiş və geniş tətbiq sahəsi qazanmışdır. Linux konteyner texnologiyaları - Docker, Kubernetes, LXC və digərləri - resurs səmərəliliyi, sürətli başlanğıc vaxtı və yüngül arxitektura ilə ənənəvi virtualizasiya metodlarından fərqlənir. Məqalədə bu iki virtualizasiya yanaşmasının texniki xüsusiyyətləri, performans göstəriciləri, təhlükəsizlik aspektləri və istifadə ssenarilərə əsasən müqayisəli təhlili aparılır.
Məqalədə hər iki virtualizasiya yanaşmasının tarixi inkişafi izah edilmiş, arxitektur strukturu ətraflı araşdırılmış, Type 1 (bare-metal) və Type 2 (hosted) hypervisor-ların fəaliyyət prinsipləri, həmçinin Linux kernel-ə əsaslanan namespaces və cgroups mexanizmlərinin konteyner izolyasiyasındakı rolu izah edilmişdir. Performans göstəriciləri üzrə hərtərəfli müqayisəli təhlil aparılmış və konteynerlər 50-500 millisaniyə başlanğıc vaxtı ilə VM-lərin 30-120 saniyəlik göstəricisindən əhəmiyyətli dərəcədə üstün olması müəyyənləşdirilmişdir. Yaddaş yükünün VM-lərdə 30-50%, konteynerlərə isə 5-10% təşkil etməsi riyazi düsturlarla əsaslandırılmış, resurs səmərəlilik əmsalının hesablanması metodikası təqdim edilmişdir. CPU yükünün konteynerlərə 1-2%, VM-lərdə isə 5-10% təşkil etməsi, maksimum density göstəriciləri (VM-lər üçün 10-20/host, konteynerlər üçün 100-1000/host) təhlil edilmişdir.Təhlükəsizlik aspektləri üzrə hardware-level və OS-level izolyasiya mexanizmlərinin müqayisəsi aparılmış, kernel izolyasiyası, attack surface və multi-tenancy xüsusiyyətləri araşdırılmışdır. SELinux, AppArmor, Seccomp, user namespaces kimi təhlükəsizlik alətlərinin tətbiqi ətraflı izah edilmişdir.
Kubernetes orkestrasiya platformasının əsas funksiyaları - automated scheduling, self-healing, horizontal scaling və service discovery - və resurs idarəetməsi düsturları təqdim olunmuşdur. VMware vCenter, OpenStack kimi VM orkestrasiya platformaları ilə müqayisə aparılmışdır. İstifadə ssenarilərə görə optimal seçim strategiyaları müəyyənləşdirilmişdir Tədqiqat nəticəsində hər iki texnologiyanın üstünlükləri, məhdudiyyətləri və optimal tətbiq sahələri müəyyənləşdirilir. Həmçinin bulud infrastrukturunda, DevOps proseslərində və mikroservis arxitekturasında konteynerləşmənin rolu, hibrid yanaşmanın üstünlükləri qiymətləndirilir.
Açar sözlər: Linux konteynerlər, Docker, Kubernetes, virtualizasiya, hypervisor, LXC, konteynerləşmə, bulud texnologiyaları, resurs idarəetməsi.

Giriş

İnformasiya texnologiyalarının sürətli inkişafı və bulud hesablama platformalarının genişlənməsi müasir iş mühitində əsas həlledici faktorlardan biri halına gəlmişdir. Bu inkişaf, xüsusən də virtualizasiya texnologiyalarına olan tələbatı əhəmiyyətli dərəcədə artırmışdır. Virtualizasiya, müxtəlif mühitlərdə resursların daha səmərəli və effektiv istifadə olunmasına imkan yaradır. Həmçinin, bulud xidmətləri və məlumat mərkəzlərində tətbiqlərin yerləşdirilməsi, miqyaslanması və idarə edilməsi proseslərində virtualizasiya həlləri artıq əsas rol oynayır. Məsələn, bir bankın məlumat mərkəzində, virtualizasiya vasitəsilə müxtəlif əməliyyat sistemləri və tətbiqlər müstəqil olaraq izolə edilmiş şəkildə bir fiziki serverdə işlədilə bilər, bu da həm sərfiyyatın azalmasına, həm də idarəetmənin asanlaşmasına səbəb olur [1].

Bu kimi problemlərin həlli istiqamətində 1960-cı illərdən etibarən "zaman paylaşımı" (time-sharing) və sistemlərin resurs izolyasiyası kimi anlayışlar inkişaf etməyə başladı. Bu dövrdən etibarən virtualizasiya texnologiyalarının əsas təməlləri qoyulmağa başlandı. Məsələn, IBM tərəfindən hazırlanan CP-40 və sonradan VM/370 kimi layihələr müasir virtualizasiya konsepsiyalarının ilkin nümunələri hesab olunur. Bu texnologiyalar, birdən çox əməliyyat sisteminin eyni anda işləməsini mümkün edərək, hesablama resurslarının daha səmərəli istifadəsini təmin etdi. Həmçinin, bu dövr ərzində komputer prosessoru (CPU) da virtualizasiya texnologiyalarını dəstəkləyəcək şəkildə inkişaf etməyə başladı. Bu inkişaf, ənənəvi virtualizasiya dövrünün başlanğıcını qoydu və müasir IT infrastrukturunda istifadə olunan virtualizasiya həllərinin əsaslarını formalaşdırdı [2, 3].

Son illərdə Linux konteyner texnologiyaları – Docker, Kubernetes, LXC, Podman kimi texnologiyalar ənənəvi virtualizasiyaya alternativ olaraq önə çıxmışdır. Konteynerlər, əməliyyat sisteminin nüvəsini (kernel) paylaşaraq, yüngül və sürətli izolyasiya təmin edir. Bu yanaşma, xüsusilə mikroservis arxitekturası, davamlı inteqrasiya və davamlı yerləşdirmə (CI/CD) proseslərində üstünlük qazanmışdır. Docker, Kubernetes və digər konteyner texnologiyaları tətbiqlərin daha çevik və asan idarə olunmasına imkan yaratmaqla yanaşı, resursların daha optimallaşdırılmış istifadəsini təmin edir. Beləliklə, hər bir konteyner birbaşa host sisteminin nüvəsindən istifadə etdiyi üçün, çox az resurs sərf edir və yüksək sürətə malikdir [4, 5].

Məsələn, Google, Amazon və Netflix kimi texnoloji böyük şirkətlər, öz infrastruktur arxitekturalarını əhəmiyyətli dərəcədə konteyner əsaslı sistemlərə keçirmişlər. Bu şirkətlər, mikroservis yanaşmasını tətbiq edərək, bir çox kiçik və müstəqil xidmətləri konteynerlərdə yerləşdirməkdədirlər. Bu yanaşma, həmçinin yüksək miqyasda tətbiqlərin idarə olunmasını olduqca asanlaşdırır və sistemin müstəqil hissələrinin daha sürətli inkişaf etdirilməsini təmin edir.

Məqalədə Linux konteyner texnologiyalarının və ənənəvi virtualizasiya metodlarının texniki arxitekturası, performans xarakteristikaları, təhlükəsizlik aspektləri və praktiki tətbiq sahələri ətraflı təhlil edilir. Hər iki yanaşmanın üstünlükləri və məhdudiyyətləri, real istifadə ssenariləri əsasında müqayisə olunur. Məsələn, ənənəvi virtualizasiya texnologiyaları, tətbiqləri tam izolyasiya etmək və müxtəlif əməliyyat sistemlərini müstəqil şəkildə idarə etmək üçün daha uyğun olsa da, konteynerlər daha yüngül və daha sürətli bir yanaşma təqdim edir.

Məsələnin qoyuluşu.

Müasir IT infrastrukturunda tətbiqlərin yerləşdirilməsi, istehsal mühitinə çıxarılması və idarə edilməsi zamanı müəssisələr iki əsas virtualizasiya yanaşması arasında seçim etməlidirlər: ənənəvi hypervisor əsaslı virtualizasiya və ya konteyner əsaslı virtualizasiya. Hər iki yanaşmanın özünəməxsus xüsusiyyətləri, üstünlükləri və məhdudiyyətləri mövcuddur və düzgün seçim biznes tələblərinə, texniki infrastruktura və tətbiqin xüsusiyyətlərinə əsaslanmalıdır. Məsələn, bank sistemlərində məlumatların təhlükəsizliyi və dayanıqlığı prioritet olduğundan, virtualizasiya seçimləri biznes tələblərinə, texniki infrastruktura və tətbiqin xüsusiyyətlərinə əsaslanaraq diqqətlə müəyyənləşdirilməlidir. [1, 2].

Ənənəvi virtualizasiya metodları, xüsusilə VMware vSphere, Microsoft Hyper-V və KVM kimi hypervisor platformaları, uzun müddət ərzində korporativ mühitlərdə dominant olmuşdur. Bu yanaşmada hər bir virtual maşın öz əməliyyat sistemi ilə birlikdə işləyir və fiziki avadanlıqdan tam izolyasiya təmin edir. Lakin bu model bir sıra əhəmiyyətli problemləri vardır. Məsələn, bank mühitində, hər bir virtual maşının ayrı-ayrı əməliyyat sisteminə ehtiyac duyması, resursların daha çox istifadəsinə və idarəetmə xərclərinin artmasına səbəb ola bilər. Bu, müştəri məlumatlarının təhlükəsizliyini təmin etmək və eyni zamanda sistemin performansını qorumaq məqsədilə əlavə resurslar tələb edə bilər [3, 6].

Resurs Sərf Problemləri: Hər bir VM tam əməliyyat sistemi (guest OS) işlətdiyi üçün əhəmiyyətli miqdarda CPU, RAM və disk resursu tələb edir. Məsələn, bank sistemlərində müxtəlif tətbiqlərin və xidmətlərin düzgün işləməsi üçün hər bir virtual maşına ayrılmalı olan resurslar ciddi məsələlərdən biridir. Kiçik tətbiqlər üçün belə gigabaytlarla yaddaş və onlarla gigabayt disk sahəsi ayrılmalıdır. Bu, xüsusilə çoxlu mikroservis və ya kiçik tətbiqlərin yerləşdirilməsi zamanı resurs israfına səbəb olur. Misal üçün, bir bankın müştəri məlumatlarını idarə edən kiçik bir tətbiqi üçün lazım olan resurslar, ənənəvi VM modelində böyük ola bilər. Tədqiqatlar göstərir ki, ənənəvi VM-lər sistemin 30-40% resurslarını yalnız əməliyyat sistemi və sistem prosesləri üçün sərf edir [2, 7].

Başlanğıc Vaxtı və Çeviklik:

Virtual maşınların başlanması bir neçə dəqiqə çəkə bilir, çünki tam əməliyyat sisteminin yüklənməsi tələb olunur. Bu, xüsusilə bank mühitlərində tətbiq olunan DevOps və CI/CD (Continuous Integration/Continuous Deployment) proseslərində əhəmiyyətli ləngiməyə səbəb olur. Tez-tez deployment və test proseslərində bu gecikmələr məhsuldarlığı ciddi şəkildə azaldır, bu da müştəri tələblərinə sürətli cavab verilməsi baxımından problem yaradır. Bu cür ləngimələr, xüsusilə tətbiqlərin müştərilərinə dərhal xidmət təklif etməli olduğu zamanlarda, qarşıya çıxan ciddi çətinliklərdən biridir [3].

Portability Məhdudiyyətləri:

Virtual maşın obrazları (VM images) ölçü baxımından böyük olduğundan (adətən 10-50 GB), onların müxtəlif mühitlər arasında daşınması və paylaşılması çətinləşir. Bank və digər xidmət verən şirkətlərin sistemlərində bu, xüsusilə inkişaf, test və istehsal mühitləri arasında müvafiq tətbiq və xidmətlərin davamlılığını təmin etmək üçün əlavə çətinliklər yaradır. Məsələn, bir şirkətin məlumat mərkəzində bir virtual maşının obrazını digər bir mühitə ötürmək (miqrasiya), yüksək həcmdə məlumatın köçürülməsi səbəbindən vaxt alır və əlaqəli resurslar üzərində təzyiq yaradır. Bu da işin

sürətinə mənfi təsir edir. Development, staging və production mühitləri arasında uyğunluğu təmin etmək, ənənəvi VM yanaşmasında çox vaxt çətinləşir [4].

İdarəetmə Mürəkkəbliyi: Çoxlu sayda VM-in idarə edilməsi, yamaların tətbiqi və sistem yeniləmələrinin aparılması əhəmiyyətli əməliyyat yükü yaradır. Bank mühitlərində, xüsusən təhlükəsizlik və məlumat qorunması baxımından hər bir virtual maşının ayrı-ayrılıqda idarə edilməsi, çox vaxt sistem administrasiya işini çətinləşdirir. Məsələn, hər bir VM-də ayrıca sistem yeniləmələri və təhlükəsizlik yamalarının tətbiqi, çoxsaylı maşınları olan böyük bir şirkətin şəbəkəsində əhəmiyyətli zaman və resurs sərfiyyatına səbəb olur. Bu, xüsusilə bankın müxtəlif şöbələri və xidmətləri üçün tənzimlənmiş əməliyyatlar üçün vacibdir və hər bir virtual maşının fərdi olaraq təmir olunması tələb edir. Bu, idarəetmə proseslərini mürəkkəbləşdirir və yüksək performanslı, etibarlı xidmətlərin təmin edilməsini çətinləşdirir [2, 6].

Digər tərəfdən, Linux konteyner texnologiyaları — Docker, Kubernetes, LXC — bu problemlərə cavab olaraq yaranmışdır. Konteynerlər host əməliyyat sisteminin kernelini paylaşaraq yüngül izolyasiya təmin edir və yalnız tətbiq və onun asılılıqlarını (dependencies) özündə saxlayır. Bu yanaşma millisaniyələrlə başlanğıc vaxtı, minimal resurs sərfiyyatı və yüksək portability təmin etsə də, bank mühitində də daxil olmaqla, bəzi özünəməxsus çağırışlar yaradır [4, 5].

- **Təhlükəsizlik məhdudiyyətləri (kernel-in paylaşılması):** Kernel-in paylaşılması konteynerlər arasında resursların sərhədlərini aydın şəkildə təyin etməkdə çətinlik yaradır. Bu müştəri məlumatlarının ayrı-ayrı konteynerlərdə işlədildiyi zaman məlumatların təhlükəsizliyinə təsir göstərə bilər. Məsələn, əgər bir konteynerdə təhlükəsizlik zəifliyi tapılarsa, bu, digər konteynerlərdəki məlumatlara da təsir edə bilər.
- **Əməliyyat sistemi səviyyəsində izolyasiyanın zəif olması:** Hər nə qədər konteynerlər arasında yüngül izolyasiya təmin etsə də, ənənəvi VM-lərə nisbətən əməliyyat sistemi səviyyəsində daha az sərt izolyasiya təmin edilir. Bu, xüsusilə kritik xidmətlər və əməliyyatlar üçün əlavə risklər yarada bilər, çünki konteynerlər eyni kernel-i paylaşdığından, potensial zəifliklər birbaşa digər xidmətlərə təsir edə bilər.
- **Müxtəlif OS-lərin eyni host-da işlədilməsinin mümkünsüzlüyü:** Hər konteyner yalnız eyni əməliyyat sistemi üzərində işləyə bilir. Elə xidmətlər ola bilər ki, fərqli əməliyyat sistemlərinə ehtiyac duysun (məsələn, Linux və Windows tətbiqlərinin birlikdə işlədiyi hallar). Konteyner əsaslı yanaşma, bu cür tələb olunan mühitlərin yaradılmasını çətinləşdirir.
- **Enterprise mühitlərdə qəbul və inteqrasiya məsələləri:** Böyük müəssisələr üçün konteyner texnologiyalarının qəbul edilməsi və mövcud infrastrukturla inteqrasiyası əlavə çətinliklər yarada bilər. Məsələn, bəzi kritik və çox mühafizəkar sistemlər, konteynerlərə keçidi dəstəkləməyə bilər, çünki bu, böyük infrastruktur dəyişiklikləri və riskləri ilə əlaqələndirilə bilər.

Bu çağırışlar konteyner texnologiyalarının istifadəsinin müəyyən mühitlərdə, xüsusilə yüksək təhlükəsizlik və möhkəm izolyasiya tələb edən ciddi sahələrdə diqqətlə nəzərdən keçirilməsini tələb edir.

Bu məqalənin məqsədi Linux konteyner texnologiyalarının və ənənəvi virtualizasiya metodlarının ətraflı müqayisəli təhlilini aparmaq, hər iki yanaşmanın optimal istifadə sahələrini müəyyənləşdirmək və praktiki tətbiq zamanı qərar qəbul etmə prosesini asanlaşdırmaq üçün tövsiyələr verməkdir. Mühitlərdə təhlükəsizlik, resurs istifadəsi və çeviklik kimi amilləri nəzərə alaraq, hansı virtualizasiya metodunun daha uyğun olacağına dair aydın bir rəhbərlik təmin etmək məqsəd qoyulmuşdur [1, 2, 7].

Məsələnin həlli. Linux konteyner texnologiyaları və ənənəvi virtualizasiya metodlarının müqayisəli təhlili üçün bu texnologiyaların arxitektur prinsiplərini, texniki xüsusiyyətlərini, performans göstəricilərini və tətbiq sahələrini sistemli şəkildə araşdırmaq lazımdır. Bu yanaşmaların müqayisəsi, təhlükəsizlik, resurs idarəetməsi və yüksək mövcudluq tələbləri ilə əlaqədar mühüm qərarların verilməsi baxımından çox vacibdir. Bu bölmədə hər iki yanaşmanın ətraflı təhlili, müqayisəsi və praktiki tətbiq ssenarilərinə əsasən optimal seçim strategiyaları təqdim olunur. Məsələn, bir sistemdə məxfi müştəri məlumatlarını qorumaq məqsədilə, ənənəvi virtualizasiya ilə əldə edilən sərt izolyasiya tələb oluna bilər, lakin sürət və çeviklik ön planda olan xidmətlərdə konteyner texnologiyası daha uyğun ola bilər [1, 4].

1. **Virtualizasiya Texnologiyalarının Arxitektur Əsasları**

Virtualizasiya texnologiyalarını düzgün müqayisə etmək üçün onların arxitektur prinsiplərini və fəaliyyət mexanizmlərini anlamaq vacibdir [1, 3].

Ənənəvi Hypervisor Əsaslı Virtualizasiya:

Hypervisor texnologiyası iki əsas növə bölünür [3, 6]:

- **Type 1 Hypervisor (Bare-metal):** Birbaşa fiziki serverin hardware-i üzərində işləyir. VMware ESXi, Microsoft Hyper-V, KVM, Xen bu kateqoriyaya aiddir. Bu yanaşma daha yüksək performans və təhlükəsizlik təmin edir, çünki host əməliyyat

sisteminin əlavə yükü olmur. Bu resurs baxımından sərfəlidir. Bir çox kritik tətbiqin işlədiyi virtual mühitlərdə, yüksək təhlükəsizlik və resursun səmərəli idarə edilməsi çox önəmlidir. Type 1 hypervisor bu baxımdan daha uyğun seçim ola bilər, çünki tətbiqlər arasında daha güclü izolyasiya təmin edir və təhlükəsizlik risqlərini minimuma endirir.

- **Type 2 Hypervisor (Hosted):** Mövcud əməliyyat sistemi üzərində proqram təminatı kimi işləyir. VMware Workstation, Oracle VirtualBox bu növə aiddir. Burada hypervisor qatı host əməliyyat sisteminin üzərində olur. Daha çevik, lakin performans baxımından Type 1-dən zəifdir. Banklarda bu yanaşma daha çox test mühitlərində və inkişaf dövründə istifadə oluna bilər, çünki burada yüksək performans tələbləri yoxdur və daha çox sınaq və inkişaf məqsədilə resursların çevik istifadəsi lazım gəlir.

Hər iki halda, hypervisor fiziki resursları (CPU, RAM, disk, şəbəkə) virtual maşınlar arasında bölüşdürür. Hər bir VM tam əməliyyat sistemi (guest OS) işlədir və hardware səviyyəsində izolyasiya təmin olunur. Bu, güclü təhlükəsizlik və izolyasiya deməkdir, lakin əhəmiyyətli resurs overhead yaradır [2, 3].

Konteyner Əsaslı Virtualizasiya:

Linux konteyner texnologiyası əməliyyat sistemi səviyyəsində virtualizasiya təmin edir [4, 5]. Bu yanaşmada:

- Bütün konteynerlər host əməliyyat hostun kernelini paylaşır, bu da resursların daha effektiv və sürətli istifadəsini təmin edir.
- Hər bir konteyner ayrı bir user space-də işləyir, lakin birbaşa host əməliyyat sistemi ilə əlaqə qurur. Bu, konteynerlərin daha az resurs sərf etməsi və yüksək performans əldə etməsi deməkdir.
- İzolyasiya Linux kernel xüsusiyyətləri ilə təmin olunur:
  - **Namespaces:** Proses, şəbəkə, fayl sistemi, IPC və digər resursların izolyasiyası. Bu xüsusiyyət, müxtəlif tətbiqlərin və xidmətlərin hər birini izolyasiya edərək, təhlükəsiz bir şəkildə işləməsini təmin edir. Məsələn, müştəri məlumatlarını idarə edən tətbiqlər bir konteynerdə, maliyyə hesabatları isə başqa bir konteynerdə işlədilə bilər.
  - **Cgroups (Control Groups):** CPU, yaddaş, disk I/O kimi resursların limitlənməsi. Bu, müxtəlif xidmətlər arasında resursların balanslı və effektiv bölüşdürülməsini təmin edir. Məsələn, bir bankın ATM xidmətləri üçün resurs ayırmaq, eyni zamanda digər tətbiqləri (məsələn, mobil bank xidmətləri) təsir etmədən idarə etmək mümkündür.
  - **SELinux/AppArmor:** Əlavə təhlükəsizlik qatları. Red Hat Enterprise Linux (RHEL), CentOS kimi əməliyyat sistemlərində bu qat mövcuddur. Bu təhlükəsizlik funksiyaları konteynerlərin bir-birinə təsir etmədən işləməsini təmin edir, xüsusilə bankın mühafizəkar təhlükəsizlik siyasətlərinə uyğun gəlir.

Docker, LXC, Podman, containerd kimi konteyner runtime-ları bu kernel funksiyalarını istifadə edərək yüngül və sürətli izolyasiya yaradır. Konteyner obrazları (images) yalnız tətbiqi və onun asılılıqlarını ehtiva etdiyi üçün ölçüləri kiçikdir (adətən 50-200 MB) [4, 5]. Bu halda kiçik ölçülər konteynerlərin daha sürətli yerləşdirilməsini təmin edir və resurs istifadəsini optimallaşdırır. Məsələn, konteynerləşdirilmiş tətbiqlər sürətlə yerləşdirilərək, istifadəçi tələblərinə dərhal cavab verilə bilər.

2. Performans və Resurs İstifadəsinin Müqayisəli Təhlili

Linux konteyner texnologiyaları və ənənəvi virtualizasiya arasında performans fərqləri bir neçə əsas metrika üzrə qiymətləndirilir [2, 7]:

Cədvəl 1.Performans Göstəricilərinin Müqayisəsi [2, 4, 7]

Göstərici	Virtual Maşınlar	Linux Konteynerlər
Başlanğıc vaxtı	30-120 saniyə	50-500 millisaniyə
Yaddaş overhead	1-4 GB (OS üçün)	10-100 MB
Disk sahəsi	10-50 GB	50-500 MB
Maksimum sıxlıq	10-20 VM/host	100-1000 konteyner/host
CPU yükü	5-10%	1-2%
I/O performansı	70-90% native	95-99% native

Bu cədvəl göstərir ki, konteynerlər ənənəvi virtual maşınlara nisbətən resurs istifadəsində daha effektivdir və çox yüksək performans təmin edir. Məsələn, **başlanğıc vaxtı** konteynerlər üçün yalnız 50-500 millisaniyə ilə ölçülür, halbuki virtual maşınlar üçün bu, 30-120 saniyə çəkə bilər. Bankın real vaxt tələbləri olan xidmətləri üçün bu, konteynerlərin əhəmiyyətli üstünlüyünü göstərir — məsələn, müştəri bankçılığında əməliyyatların sürətli yerinə yetirilməsi üçün konteynerlər daha çevikdir.

Yaddaş yükü baxımından konteynerlər çox daha yüngüldür — yalnız 10-100 MB istifadə edirlər, halbuki virtual maşınlarda bu göstərici 1-4 GB arasında dəyişir. Bu, xüsusilə resursları limitli olan mühitlərdə konteynerlərin daha əlverişli olduğunu göstərir.

Disk sahəsi və CPU yükü sahəsində də konteynerlər böyük üstünlüyə malikdir. Konteynerlər daha az disk sahəsi istifadə edir (50-500 MB) və daha az CPU resursu tələb edir (1-2% overhead), bu isə bank sistemlərinin yüksək performans tələb etdiyi mühitlərdə faydalıdır.

I/O performansı baxımından, konteynerlər 95-99% native performans göstərir, bu da bank əməliyyatları üçün əhəmiyyətlidir, çünki yüksək sürətli məlumat mübadiləsi tələb olunur.

Beləliklə, konteyner texnologiyaları, xüsusilə resursların optimallaşdırılması və sürət tələbləri baxımından ənənəvi virtualizasiya metodlarına nisbətən əhəmiyyətli üstünlüklər təqdim edir.

Başlanğıc Vaxtı: Konteynerlər millisaniyələrlə işə başladığı üçün auto-scaling və rapid deployment ssenarilərində əvəzolunmazdır. Məsələn, mobil tətbiqlərin sürətli yerləşdirilməsi üçün konteynerlər çox uyğun gəlir, çünki yeni konteynerlərin işə salınması anında baş verir. Əksinə, VM-lərin başlanması tam əməliyyat sistemi (OS) boot prosesini tələb etdiyindən, bu proses xeyli yavaş gedir və çox vaxt alır [4, 5]. Bu, xüsusilə DevOps komandalarının yeni funksionallıq əlavə etdiyi zaman və ya müştəri xidmətlərinə yeni tələblər gəldikdə ciddi problemlər yarada bilər.

Yaddaş Səmərəliliyi: Konteynerlərdə yaddaş istifadəsi yalnız tətbiq prosesləri üçün tələb olunan qədərdir. Məsələn, bir konteyner yalnız müvafiq tətbiqi və onun asılılıqlarını saxlayır, buna görə də yaddaş istifadəsi çox optimallaşdırılmış olur. Bu, resursların effektiv idarə olunmasına kömək edir. Bir neçə konteyneri eyni host üzərində işlətmək, çox az yaddaş sərf etməklə yüksək sıxlıqda tətbiqləri yerləşdirmək mümkündür. Virtual maşınlarda isə hər bir guest OS əlavə gigabaytlarla RAM tələb edir, bu da yüksək resurs sərfiyyatına səbəb olur. Bu, xüsusilə çox sayda VM-in idarə olunduğu bank infrastrukturunda yaddaşın optimal istifadəsini çətinləşdirir və əlavə xərc gətirə bilər.

Sıxlıq və Miqyaslanma: Eyni fiziki server üzərində konteynerlərlə 10-100 dəfə daha çox izolyasiya edilmiş mühit yerləşdirmək mümkündür. Bu, bulud provayderləri və böyük infrastrukturlar üçün əhəmiyyətli xərc optimallaşdırması deməkdir [4].

CPU Performansı: Konteynerlər native-ə yaxın performans təmin edir (95-99%), çünki hardware virtualizasiyası yoxdur. VM-lərdə hypervisor qatı əlavə overhead yaradır [2, 7].

Resurs Səmərəlilik Metrikası:

Resurs səmərəliliyini qiymətləndirmək üçün aşağıdakı düstur istifadə olunur [2]:

$E = (N \times U) / R$

Burada:

- E - resurs səmərəlilik əmsalı
- N - işləyən instance sayı (VM və ya konteyner)
- U - orta resurs istifadə əmsalı (0-1 arası)
- R - ümumi fiziki resurslar

Bu düstur, sistemdə işləyən instansiyaların (konteynerlər və ya VM-lər) sayının və onların hər birinin istifadə etdiyi resursların ümumi fiziki resurslara nisbətini göstərir. Yüksək E əmsalı, daha çox instansiyanın daha az resursla işlədiyini və nəticədə resurslardan daha səmərəli istifadə olunduğunu göstərir.

Praktik ölçmələr göstərir ki, konteynerlər üçün E əmsalı VM-lərə nisbətən 3-5 dəfə yüksəkdir. Bu, konteynerlərin daha yüksək sıxlıq ilə işləməsini və daha az resurs sərf etməsini təmin edir [7].

Təhlükəsizlik Təkmilləşdirmə Metodları:

Konteyner təhlükəsizliyini artırmaq üçün bir sıra texnologiya və praktika mövcuddur [5]:

- User Namespaces: Bu metod, root əməliyyatlarını root olmayan istifadəçilərə map etməklə, konteynerdəki istifadəçilərin root səviyyəsindəki hüquqlarını məhdudlaşdırır. Bu, konteynerdəki təhlükəsizlik zəifliklərinin, host sistemə və digər konteynerlərə yayılmasının qarşısını alır.
- SELinux/AppArmor: Mandatory Access Control (MAC) tətbiq etmək, konteynerlərə tətbiq olunan təhlükəsizlik siyasətləri ilə əlaqədar ciddi nəzarət təmin edir. SELinux və AppArmor, konteynerlərin yalnız müəyyən resurslara çıxışını təmin edərək potensial təhlükəsizlik boşluqlarını məhdudlaşdırır.
- Seccomp: System call-ların filtrlənməsi ilə konteynerlərin yalnız lazımi əməliyyatları yerinə yetirməsi təmin edilir. Bu, konteynerin host sistemə ciddi şəkildə məhdudlaşdırılmasını təmin edir və zəifliklərdən yararlanma riskini azaldır.
- Read-only Root Filesystem: Konteynerin kök fayl sistemini yalnız oxumağa icazə vermək, konteynerin içində dəyişikliklər edilməsinin qarşısını alır və bu, təhlükəsizlik boşluqlarını əhəmiyyətli dərəcədə azaldır. Bu praktika, xüsusilə banklarda və digər yüksək təhlükəsizlik tələbləri olan mühitlərdə çox əhəmiyyətlidir.
- Runtime Security: Falco, Aqua Security kimi alətlər, konteynerlərin icrası zamanı təhlükəsizlik təhdidlərini aşkarlayır və real vaxtda qarşısını alır. Bu alətlər konfiqurasiya, performans və təhlükəsizliklə bağlı qeyri-adi davranışları izləyir və sürətli müdaxilə imkanı yaradır.
- Image Scanning: Konteyner obrazlarını yoxlamaq üçün Trivy, Clair kimi alətlər istifadə olunur. Bu alətlər, konteyner imicindəki zəiflikləri və təhlükəsizlik boşluqlarını aşkar edərək, hər hansı bir zərərli komponentin yerləşdirilməsinin qarşısını alır.

Cədvəl 2.Təhlükəsizlik Xüsusiyyətlərinin Müqayisəsi:

Aspekt	**Virtual Maşınlar**	**Linux Konteynerlər**
İzolyasiya səviyyəsi	Hardware-level	OS-level
Kernel ayrılığı	Tam ayrı	Paylaşılan
Attack surface	Kiçik	Orta
Multi-tenancy	Çox təhlükəsiz	Əlavə tədbirlər lazım
Compliance	Asan	Mürəkkəb
Security tools	Yetkin ekosistem	İnkişaf edir

4. Orkestrasiya və İdarəetmə Platformaları

Böyük miqyaslı tətbiq və xidmətlərin idarə edilməsi üçün orkestrasiya alətləri böyük əhəmiyyət kəsb edir. Bu alətlər sistem resurslarının düzgün paylanması, idarə olunması və qorunması baxımından kritik rol oynayır.

VM Orkestrasiya Platformaları:

- VMware vCenter: VMware infrastrukturunun mərkəzi idarəetməsi üçün istifadə olunan platformadır. VCenter, virtual maşınların idarə edilməsini, konfiqurasiyasını və yüksək əlçatanlıq təminatını asanlaşdırır. Cluster mexanizimi ilə işləyərək sistemi dahada davamlı edir.
- Microsoft System Center: Hyper-V mühitlərində korporativ səviyyədə idarəetmə təmin edən alətdir. Resursların effektiv təyini, monitorinqi və disaster recovery proseslərini optimallaşdırır.
- OpenStack: Açıq mənbəli bir bulud platformasıdır və özəl bulud mühitlərində virtual maşınların orkestrasiya edilməsi üçün geniş istifadə olunur. Modul strukturuyla genişlənə bilir və avtomatlaşdırma xüsusiyyətlərinə malikdir.

Bu platformalar VM lifecycle idarəetməsi, resursların planlaşdırılması, yüksək əlçatanlıq - HA (high availability) və fəlakət bərpa (disaster recovery) kimi əsas funksiyalarla sistem idarəetmə işlərini optimallaşdırır.

Konteyner Orkestrasiya - Kubernetes

Kubernetes, konteyner orkestrasiyası sahəsində de-facto standart olaraq qəbul edilir. Onun əsas funksiyaları, mikroservislərin idarə edilməsini, avtomatlaşdırılmasını və miqyaslanmasını asanlaşdırır.

Əsas funksiyalar:

- Automated Scheduling: Kubernetes, pod-ların node-lara ən optimal şəkildə yerləşdirilməsini təmin edir. Resursların balanslı paylanması və performansın yüksək səviyyədə saxlanması məqsədilə scheduling alqoritmləri istifadə olunur.
- Self-healing: Sistemdə hər hansı bir konteynerin uğursuz olması halında, Kubernetes avtomatik olaraq həmin konteyneri bərpa edir və ya yeni konteyner qaldırır. Bu xüsusiyyət, tətbiq və xidmətlərin davamlılığını təmin edir.
- Horizontal Scaling: Kubernetes, yüklər artdıqca pod-ların sayını avtomatik olaraq artırır (scale-out), eyni zamanda yük azaldıqda isə pod-ları azaldır (scale-in). Bu, resursların effektiv istifadəsini təmin edir.
- Service Discovery və Load Balancing: Kubernetes, xidmətləri dinamik şəkildə aşkar edir və onlara balanslaşdırılmış şəkildə trafik yönəldir. Bu, istifadəçi trafiki ilə qarşılaşan tətbiq və xidmətlərin daha stabil və yüksək performansla işləməsini təmin edir.
- Rolling Updates və Rollbacks: Kubernetes, sıfır-dayanma vaxtı (zero-downtime) ilə tətbiqləri yeniləməyə imkan verir. Həmçinin, əgər bir yeniləmə uğursuz olarsa, əvvəlki versiyaya geri qayıtma imkanı da mövcuddur.
- Secret və ConfigMap Management: Kubernetes, konfiqurasiya məlumatlarının (ConfigMap) və həssas məlumatların (Secrets) təhlükəsiz şəkildə saxlanmasını və idarə edilməsini təmin edir.

Kubernetes Resurs İdarəetməsi:

Kubernetes-də hər bir pod üçün müəyyən edilmiş resurs tələbləri və limitlər mövcuddur. Bu resurs limitləri, pod-ların düzgün idarə olunmasını və sistemin sabit fəaliyyətini təmin edir.

Formul:

$$R_effective = min(R_limit,\ R_available \times Priority)$$

Burada:

- *R_effective* - Effektiv ayrılan resurs.
- *R_limit* - Maksimum limit.
- *R_available* - Node-da mövcud olan resurs.
- *Priority* - Pod-un prioritet əmsalı.

Bu tənlik, Kubernetes-in resurs idarəetmə və yük balanslaşdırma mexanizmasının nə qədər effektiv olduğunu və sistemin sabitliyini necə qoruduğunu izah edir.

5. İstifadə Ssenariləri və Optimal Seçim Strategiyaları

Hər iki texnologiyanın istifadəsi müxtəlif ssenarilərdə fərqli üstünlüklərə malikdir. Optimal seçim strategiyası, tətbiqin xüsusiyyətləri və təşkilatın ehtiyaclarına əsaslanmalıdır.

VM-lərin Üstün Olduğu Ssenarilər:

- Legacy Tətbiqlər: Köhnə, monolitik tətbiqlər üçün tam əməliyyat sistemi (OS) tələb olunur. VM-lər bu cür tətbiqləri idarə etmək üçün ideal seçimdir.

- Müxtəlif OS Tələbləri: Bir host üzərində həm Windows, həm də Linux əməliyyat sistemlərinin işləməsini tələb edən mühitlərdə VM-lər geniş istifadə olunur.
- Yüksək Təhlükəsizlik: Multi-tenant mühitlərdə yüksək səviyyəli izolyasiya tələb edildikdə, VM-lər təhlükəsizlik və sistemin tam izolyasiyasını təmin edir.
- Stateful Tətbiqlər: Verilənlər bazaları və digər məlumat saxlama sistemləri üçün VM-lər daha uyğun olur, çünki bu cür tətbiqlər davamlı və stabillik tələb edir.
- Uzunmüddətli Stabillik: Tez-tez dəyişməyən və uzunmüddətli stabillik tələb edən sistemlər üçün VM-lər ideal seçimdir, çünki konfiqurasiyalar adətən sabit qalır.

Konteynerlərin Üstün Olduğu Ssenarilər:

- Mikroservis Arxitekturası: Kiçik, müstəqil servislər üçün konteynerlər üstünlük təşkil edir, çünki hər bir mikroservisin müstəqil işləməsi və sürətlə işə düşməsi üçün konteynerlər əlverişlidir.
- CI/CD Pipeline: Sürətli build və test prosesləri üçün konteynerlər geniş istifadə olunur. Konteynerlər, tətbiqlərin sürətlə inkişaf etdirilməsi və test edilməsi üçün idealdır.
- Cloud-Native Tətbiqlər: 12-factor app prinsiplərinə uyğun cloud-native tətbiqlər üçün konteynerlər ən uyğun yanaşmadır, çünki bu tətbiqlər sürətlə miqyaslana və avtomatik olaraq idarə oluna bilər.
- DevOps Mühiti: Tez-tez deployment və yüksək dərəcədə avtomatlaşdırılmış iş mühitləri üçün konteynerlər yüksək səmərəlilik və çeviklik təmin edir.
- Edge Computing: Resurs məhdud olan mühitlərdə (məsələn, IoT cihazları) konteynerlər resurslardan səmərəli istifadəni təmin edir və sürətli başlanğıc vaxtı ilə tanınır.
- Rapid Scaling: Dinamik olaraq dəyişən yük vəziyyətlərində konteynerlər daha effektiv şəkildə miqyaslanır, beləliklə sistem resursları optimallaşdırılır.

Cədvəl 3. İstifadə Ssenarilərinə Görə Tövsiyələr:

Ssenari	**Tövsiyə Edilən Texnologiya**	**Əsaslandırma**
Mikroservislər	Konteynerlər	Yüngüllük, sürət, müstəqil tətbiqlər üçün optimallaşdırma
Enterprise DB	VM	Stabillik, yüksək təhlükəsizlik, izolyasiya
Web tətbiqlər	Konteynerlər	Miqyaslanma, çeviklik, sürətli inkişaf
Windows apps	VM	OS spesifik tələbləri və uyğunluq
IoT/Edge	Konteynerlər	Resurs səmərəliliyi və minimal overhead
Compliance-critical	VM	Təhlükəsizlik, uyğunluq və yüksək izolyasiya

Hibrid Yanaşma:

Bir çox təşkilat, praktiki olaraq, hər iki texnologiyanı birləşdirir və aşağıdakı yanaşmalara üstünlük verir:

- VM-lər üzərində konteyner platformalarının işlədilməsi: Hibrid mühitlərdə, VM-lər üzərində konteyner platformaları işlədərək həm izolyasiya, həm də konteynerlərin çevikliyindən istifadə edilir.
- Kritik sistemlər üçün VM, development üçün konteynerlər: Hər iki texnologiyanın üstünlüklərindən istifadə edərək, kritik əməliyyatlar üçün VM-lər, inkişaf mühiti üçün isə konteynerlər seçilir.
- "Lift and shift" strategiyası: Köhnə sistemlər (legacy) VM-lərdə işlədilir, yeni tətbiqlər və microservices isə konteynerlərdə yerləşdirilir. Bu, tətbiqlərin müasir texnologiyalarla daha rahat inteqrasiyasına imkan verir.

Nəticə

Linux konteyner texnologiyaları və ənənəvi virtualizasiya metodlarının müqayisəli təhlili göstərir ki, hər iki yanaşma özünəməxsus üstünlüklərə və fərqlərə malikdir. Bu texnologiyalar müxtəlif biznes ehtiyaclarına və infrastruktur tələblərinə əsaslanaraq seçilməlidir.

Texniki Üstünlüklər və Fərqlər: Konteynerlər, VM-lərə nisbətən daha sürətli başladığından, daha az yaddaş istifadə edərək daha səmərəli resurs istifadəsi təmin edir. Onlar 10-100 dəfə daha sürətli başlayır, 5-10 dəfə daha az yaddaş tələb edir və 95-99% native performans təmin edir. Bu xüsusiyyətlər konteynerləri mikroservis arxitekturası, DevOps və bulud-native tətbiqlər üçün ideal edir.

Təhlükəsizlik və İzolyasiya: VM-lər, hardware səviyyəsində izolyasiya təmin edərək daha güclü təhlükəsizlik təqdim edir. Hər VM öz kernelini istifadə etdiyindən, multi-tenant mühitlərdə və yüksək təhlükəsizlik tələb edən sahələrdə (məsələn, maliyyə və səhiyyə) daha uyğundur. Konteynerlər isə kernel-i paylaşdığı üçün əlavə təhlükəsizlik tədbirləri tələb edir, amma müasir alətlər və metodologiyalar ilə bu risklər minimuma endirilə bilər.

Operasion Səmərəlilik: Kubernetes kimi konteyner orkestrasiya platformaları yüksək avtomatlaşdırma, self-healing və dinamik scaling təmin edir. Bu, operativ xərcləri azaldır və sistemin

etibarlılığını artırır. Lakin VM-lər daha yetkin idarəetmə alətlərinə sahibdir və uzun müddətli dəstək təklif edir, amma əl ilə konfiqurasiya və idarəetmə tələb edir.

İstifadə Ssenarilərinə Görə Seçim: Texnologiya seçimi konkret biznes və texniki tələblərə əsaslanmalıdır. Mikroservislər, CI/CD prosesləri və cloud-native tətbiqlər üçün konteynerlər ideal olsa da, legacy sistemlər və yüksək təhlükəsizlik tələb edən tətbiqlər üçün VM-lər daha uyğun olur. Praktikada, hər iki texnologiyanın birləşdirilməsi - hibrid yanaşma - ən effektiv strateji seçimdir.

Gələcək Tendensiyalar: Konteyner texnologiyalarının bazarda payı sürətlə artır, və Gartner-ın proqnozlarına görə 2025-ci ilə qədər yeni tətbiqlərin 85%-i konteyner əsaslı olacaq. Bununla yanaşı, VM-lər, xüsusilə enterprise və legacy mühitlərdə öz mövqelərini qoruyacaq. "Kata Containers" və "gVisor" kimi texnologiyalar, konteyner və VM-lərin üstünlüklərini birləşdirərək yeni izolyasiya metodları təklif edir.

Praktiki Tövsiyələr: Təşkilatlar konteyner texnologiyalarına keçid zamanı mərhələli yanaşma tətbiq etməlidir. Əvvəlcə development və test mühitlərində, sonra stateless tətbiqlərdə, nəhayət kritik sistemlərdə konteynerlərdən istifadə edilə bilər. VM infrastrukturu hibrid modeldə saxlanmalı və dəstəklənməlidir. Eyni zamanda, komandalar konteynerlər, Kubernetes və cloud-native prinsiplər üzrə təlim keçməli və təhlükəsizlik və monitoring sahələrində ən yaxşı praktikalara riayət etməlidir.

Nəticə: Linux konteyner texnologiyaları müasir proqram təminatı inkişafında inqilabi dəyişikliklər yaratmış və IT infrastrukturunun idarə olunması yanaşmalarını köklü şəkildə dəyişdirmişdir. Konteynerlər, resurs səmərəliliyi və çeviklik baxımından üstünlük təşkil edir, lakin hər iki texnologiyanın öz optimal tətbiq sahələri mövcuddur. Hibrid yanaşma, hər iki texnologiyanın güclü tərəflərindən faydalanmağa imkan verir və təşkilatlara çevik reaksiya verməyə, texniki borcu azaltmağa kömək edir. Gələcəkdə konteyner texnologiyalarının artan payı ilə yanaşı, VM-lər yüksək təhlükəsizlik tələb edən mühitlərdə və enterprise tətbiqlərində öz əhəmiyyətini qoruyacaqdır.

ƏDƏBİYYAT SİYAHISI

1. Pahl, C., Brogi, A., Soldani, J., & Jamshidi, P. *Cloud Container Technologies: A State-of-the-Art Review*, IEEE Transactions on Cloud Computing, 2019.
2. Felter, W., Ferreira, A., Rajamony, R., & Rubio, J. *An Updated Performance Comparison of Virtual Machines and Linux Containers*, IEEE International Symposium on Performance Analysis of Systems and Software, 2015.
3. Barham, P., Dragovic, B., Fraser, K., et al. *Xen and the Art of Virtualization*, ACM SIGOPS Operating Systems Review, 2003.
4. Burns, B., Beda, J., & Hightower, K. *Kubernetes: Up and Running*, O'Reilly Media, 2022.
5. Rice, L., & Hausenblas, M. *Container Security: Fundamental Technology Concepts that Protect Containerized Applications*, O'Reilly Media, 2020.
6. Bui, T. *Analysis of Docker Security*, arXiv preprint arXiv:1501.02967, 2015.
7. Morabito, R., Kjällman, J., & Komu, M. *Hypervisors vs. Lightweight Virtualization: A Performance Comparison*, IEEE International Conference on Cloud Engineering, 2015.

DOİ: 10.32010/PXPJ8173

KİBERMƏKANDA İNFORMASİYA AXINLARININ TƏHLÜKƏSİZLİYİNİN TƏMİNİNDƏ TƏHDİD MODELLƏRİNİN ROLU

Aytən Mövsüm ƏLİYEVA
Sənan Malik HÜSEYNOV
ADNSU, "Kompüter mühəndisliyi" kafedrası
E-mail: sananhuseynov11@gmail.com
E-mailı: aliyeva.aytan81@gmail.com

Xülasə: Rəqəmsal mühitin genişlənməsi nəticəsində məlumatların ötürülməsi və saxlanması prosesləri mürəkkəbləşmiş, bu da sistemləri icazəsiz giriş, məlumat sızması və xidmətdən imtina kimi hücumlara qarşı daha həssas etmişdir.
STRIDE, DREAD və MITRE ATT&CK modellərinin tətbiqi bu problemlərin sistemli şəkildə təhlilinə və azaldılmasına imkan verir. STRIDE təhlükələri kateqoriyalar üzrə müəyyənləşdirir, DREAD onların ciddiliyini qiymətləndirir, MITRE ATT&CK isə real hücum ssenarilərini simulyasiya edərək zəifliklər aşkarlayır. Hibrid yanaşma bu modellərin üstünlüklərini birləşdirərək daha etibarlı müdafiə çərçivəsi yaradır.
Nəticələr göstərir ki, təhdid modelləşdirməsi məlumat axınlarının məxfiliyini, bütövlüyünü və əlçatanlığını artırır, təşkilatların kiberrisklərə qarşı proaktiv reaksiya verməsini təmin edir.
Açar sözlər: Kibertəhlükəsizlik, təhlükənin modelləşdirilməsi, məlumat axınının təhlükəsizliyi, STRIDE, DREAD, MITER ATT&CK, risklərin qiymətləndirilməsi.

THE ROLE OF THREAT MODELS IN SECURING INFORMATION FLOWS IN CYBERSPACE

Ayten Movsum ALIYEVA
Senan Malik HUSEYNOV
ASOIU, Department of Computer Engineering
E-mail: sananhuseynov11@gmail.com
E-mail: aliyeva.aytan81@gmail.com

Abstract: As the digital environment expands, data transmission and storage processes have become more complex, making systems more vulnerable to attacks such as unauthorized access, data leakage, and denial of service.
The use of the STRIDE, DREAD, and MITRE ATT&CK models enables systematic analysis and mitigation of these issues. STRIDE identifies threats by category, DREAD assesses their severity, and MITRE ATT&CK discovers vulnerabilities by simulating real-world attack scenarios. A hybrid approach combines the advantages of these models to create a more robust defense system.
The results show that threat modeling improves the confidentiality, integrity, and availability of data streams, enabling organizations to proactively respond to cyber risks.
Keywords: Cybersecurity, threat modeling, data stream security, STRIDE, DREAD, MITRE ATT&CK, risk assessment.

РОЛЬ МОДЕЛЕЙ УГРОЗ В ОБЕСПЕЧЕНИИ БЕЗОПАСНОСТИ ИНФОРМАЦИОННЫХ ПОТОКОВ В КИБЕРПРОСТРАНСТВЕ

Айтен Мовсум АЛИЕВА
Сенан Малик ГУСЕЙНОВ
АСОИУ, Кафедра «Компьютерная инженерия»
Электронная почта: sananhuseynov11@gmail.com
Электронная почта: aliyeva.aytan81@gmail.com

Резюме: В результате расширения цифровой среды процессы передачи и хранения данных стали более сложными, что сделало системы более уязвимыми для таких атак, как несанкционированный доступ, утечка данных и отказ в обслуживании.
Применение моделей STRIDE, DREAD и MITRE ATT&CK позволяет проводить систематический анализ и смягчение этих проблем. STRIDE идентифицирует угрозы по категориям, DREAD оценивает их серьезность, а MITRE ATT&CK обнаруживает уязвимости путем моделирования реальных сценариев атак. Гибридный подход объединяет преимущества этих моделей для создания более надежной системы защиты.
Результаты показывают, что моделирование угроз повышает конфиденциальность, целостность и доступность потоков данных, позволяя организациям заблаговременно реагировать на киберриски.

Ключевые слова: Кибербезопасность, моделирование угроз, безопасность потоков данных, STRIDE, DREAD, MITRE ATT&CK, оценка рисков.

Giriş

Rəqəmsal texnologiyaların sürətlə yayılması məlumatın yaranması, göndərilməsi və qorunması tərzlərini əsaslı şəkildə dəyişib. Virtual bankçılıqdan tutmuş buludda işləmə platformalarına qədər praktiki olaraq bütün rəqəmsal proseslər şəbəkə vasitəsilə şəxsi və əhəmiyyətli məlumatların mübadiləsini tələb edir. Ancaq bu artan texnoloji asılılıq rəqəmsal sistemləri qeyri-qanuni giriş, məlumatın dəyişdirilməsi, xidmətlərin dayandırılması və məlumatların toplanması kimi müxtəlif kiberhücumları açıq edib. Nəticə etibarilə, rəqəmsal informasiyanın qorunması dövlət institutları, biznes təşkilatları və vətəndaşlar üçün çox vacib məsələ halına gəlib. Potensial hücum təhditlərini sistemli şəkildə analiz etmə prosesi hücumçuları tanımağa, onların tətbiq edə biləcəyi fürsət və metodlarını öyrənməyə və müvafiq müdafiə strategiyaları hazırlamağa kömək edir. Bu metodoloji yanaşma məlumatların hansı şəkildə riskdə olduğunu, bu risklərin azaldılması üçün hansı müdafiə tədbirlərinin zəruri olduğunu müəyyən etmənin sistem formasını təmin edir.

Bu işin əsas hədəfi kibertəhlükəsizlik sahəsində tətbiq olunan müxtəlif analiz modellərini (təhdid modellərinə) araşdırmaq, hər birinin müsbət və mənfi tərəflərini qiymətləndirmək, və möhkəm rəqəmsal mühitinin qurulmasında bu modellərdən necə faydalanacağını praktiki cəhətdən təhlil etməkdir.

Məsələnin qoyulması

Kiberməkanda əsas çətinlik informasiya axınlarının zaman keçdikcə mürəkkəbləşməsi və onların çoxsaylı kibertəhlükələrə məruz qalmasıdır. Açıq və ya paylaşılan şəbəkələr vasitəsilə ötürülən məlumatlar asanlıqla ələ keçirilə, dəyişdirilə və ya məhv edilə bilər. Risklərin strukturlaşdırılmış şəkildə qiymətləndirilməməsi isə çox zaman natamam və yalnız hücum baş verdikdən sonra həyata keçirilən reaktiv təhlükəsizlik tədbirləri ilə nəticələnir.

Firewall və antivirus kimi ənənəvi kibertəhlükəsizlik alətləri əsasən məlum təhlükələri aşkarlamaqla məhdudlaşır. Halbuki müasir kibertəhdidlər dinamik xarakter daşıyır və statik müdafiə sistemlərindən daha sürətlə inkişaf edir. Bunun nəticəsində məlumatların bütövlüyü, məxfiliyi və əlçatanlığı daim risk altında qalır.

Əsas problemlər bunlardır:

- **Görünmə qabiliyyətinin məhdudluğu:** Bir çox təşkilatlar məlumatların sistemlər arasında necə hərəkət etdiyini tam şəkildə izləyə bilmir və bu da təhlükələrin aşkarlanmasında boşluqlar yaradır.
- **Texnologiyanın dinamikliyi:** Hücum metodlarının sürətli dəyişməsi ənənəvi müdafiə mexanizmlərini qısa müddətdə köhnəldir.
- **Risklərin qeyri-effektiv prioritetləşdirilməsi:** Aydın təhdid modeli olmadan hansı risklərin daha vacib olduğunu müəyyənləşdirmək çətinləşir.
- **Bir-birinə bağlı ekosistemlər:** Bulud və IoT texnologiyalarının yayılması hücum səthini genişləndirir və ənənəvi təhlükəsizlik modelləri bu səviyyəni tam əhatə edə bilmir.

Bu problemlərin qarşısını almaq üçün kibertəhlükəsizlik mütəxəssisləri potensial hücumçuların davranışlarını və sistem zəifliklərini simulyasiya edən təhdid modelləşdirmə çərçivələri hazırlayıblar. Bu modellər nəzəri riskləri praktik və təsirli müdafiə mexanizmlərinə çevirərək sistemin təhlükəsizlik səviyyəsini yüksəldir. Bu tədqiqatın məqsədi isə kiberməkanda informasiya axınlarının təhlükəsizliyinin təmin olunmasında bu modellərin rolunu və effektivliyini dərin şəkildə təhlil etməkdir.

Metod

İnformasiya axınlarının təhlükəsizliyinin təmin olunması analitik, riyazi və praktiki yanaşmaları özündə birləşdirən sistemli təhdid modelləşdirmə prosesini tələb edir. Bu yanaşma vasitəsilə potensial hücum vektorları müəyyən edilir, risklər qiymətləndirilir və onların qarşısını almaq üçün optimal təhlükəsizlik mexanizmləri formalaşdırılır. Aşağıda real mühitdə geniş tətbiq olunan bir neçə əsas təhdid modelləşdirmə metodları və onların praktik istifadəsi izah olunur.

Təhdid modelləri

STRIDE:

Bu model təhlükələri müəyyən kateqoriyalara ayırmaq üçün istifadə olunur — Spoofing (yalançı kimliklə təqdim etmə), Tampering (məlumatın və ya sistemin dəyişdirilməsi), Repudiation (fəaliyyəti inkar etmə), Information Disclosure (məlumatın açıqlanması), Denial of Service (xidmətdən imtina) və Elevation of Privilege (imtiyazların yüksəldilməsi).

Növ	Təsvir	Məlumat axınında nümunə
S – Spoofing	İstifadəçi saxtalaşdırılması	Saxtalaşdırılmış giriş etimadnaməsi
T – Tampering	Məlumatın manipulyasiyası	Manipulyasiya olunmuş konfiqurasiya faylları
R – Repudiation	Fəaliyyətin inkarı	Faylın silinməsini inkar etmək
I – Information disclosure	İcazəsiz məlumat əldə etmə	API vasitəsilə məlumatın sızması
D – Denial of Service	Xidmətdən imtina	Genişmiqyaslı şəbəkə hücumları
E – Elevation of privilege	İmtiyazların ələ keçirilməsi	Administrator girişindən sui-istifadə

Cədvəl 1. STRIDE modeli

Riskin riyazi təsviri:
Hər bir təhlükə *T*onun ehtimalı və təsir funksiyası şəklində ifadə oluna bilər:
R(Ti)=P(Ti)×I(Ti)
P(Ti)- Təhlükənin baş vermə ehtimalı,
I(Ti)- Təxmin edilən təsir dəyəri.

DREAD:

Hər bir müəyyən edilmiş təhlükənin ciddiliyini beş parametr üzrə qiymətləndirir:

- Damage Potential (Zərər potensialı)
- Reproducibility (Təkrarlanma qabiliyyəti)
- Exploitability (İstismar qabiliyyəti)
- Affected Users (Təsirə məruz qalan istifadəçilər)
- Discoverability (Aşkarlanma)

Ümumi risk dərəcəsi aşağıdakı kimi hesablanır:

$$DREAD_{score} = \frac{D + R + E + A + D}{5}$$

Nümunələr: Buludda istifadəçi fayllarına icazəsiz giriş üçün qısa qiymətləndirmə — DREAD və riyazi risk modeli ilə:

D=9, R=8, E=7, A=9, D=8 → $DREAD_{score} = 8.2\ (yüksək\ risk)$

Nəticə dərhal şifrələmənin və iki faktorlu autentifikasiyanın vacib olduğunu göstərir.

MITRE ATT&CK:

Rəqib davranışlarının geniş tanınmış texnika bazasıdır. Hücum zəncirini kəşfiyyat, ilkin giriş, icra, dirçəliş/əzməkarlıq, imtiyazların artırılması, müdafiədən yayınma, komanda və nəzarət, eksfiltrasiya və təsir mərhələlərinə ayırır. Təşkilatın məlumat axınını təhlil edərkən ATT&CK matrisindən istifadə olunmaqla etibar oğurluğu və məlumat eksfiltrasiyası kimi mümkün hücumlar simulyasiya edilə, mövcud qorunma boşluqları müəyyən edilə və proaktiv tədbirlər görülə bilər.

Hibrid təhdid modeli:

Banklararası ödəniş platforması — müxtəlif maliyyə təşkilatları arasında müştəri və tranzaksiya məlumatlarının mübadiləsi üçün yaradılan real operasional sistem.

İcra mərhələləri

- Sistem sərhədlərinin müəyyən edilməsi — bütün giriş/çıxış nöqtələri və məlumat kanallarını qeyd etmək.
- Məlumat axını diaqramı (DFD) hazırlanması — şöbələr və əlaqələri vizuallaşdırmaq.
- STRIDE tətbiqi — saxtakarlıq və məlumat dəyişikliklərini aşkarlamaq.
- DREAD ilə qiymətləndirilməsi — hər təhlükənin kəmiyyətcə ciddiliyini müəyyənləşdirmək.
- MITRE ATT&CK-ə xəritələnməsi — hər təhlükəyə uyğun hücum texnikalarını təyin etmək.
- Sınaq və yoxlama aparılması — hücumları simulyasiya edib sistem reaksiyasını qiymətləndirmək.

Ümumi Təhlükəsizlik İndeksi üçün formula:

$$S_i = \frac{(C + I + A)}{3}$$

C – məxfilik balı,
I – tamlıq balı,
A – əlçatanlıq balı.

10 ballıq şkala üzrə SI≥8 olarsa, sistem məlumat axınının ötürülməsi üçün təhlükəsiz hesab edilə bilər.

Kiberməkanda təhlükəsizliyin gücləndirilməsi üçün tövsiyələr

Kiberməkanda etibarlı təhlükəsizliyin təmin olunması texnologiya tədbirləri, siyasət

çərçivələri və davamlı məlumatlılığın sintezini tələb edir. Əsas mərhələlərdən biri təşkilatların potensial hücum yollarını aktiv şəkildə aşkar etməsinə, zəiflikləri analiz etməsinə və təhlükəsizlik tədbirlərini prioritetləşdirməsinə imkan verən hərtərəfli təhdid modelləşdirməsinin tətbiqidir. İcazəsiz giriş, məlumatların sızdırılması və xidmətin dayandırılması kimi informasiya axınlarına yönəlmiş riskləri qiymətləndirərək, təhlükəsizlik komandaları riskləri minimuma endirən və kiberhücumların mümkün təsirini azaldan sistemlər qura bilər.

Texniki tədbirlərə firewall-lar, müdaxilənin aşkarlanması və qarşısının alınması sistemləri (IDPS), təhlükəsiz kommunikasiya protokolları və son nöqtələrin qorunması kimi çoxqatlı müdafiə mexanizmlərinin tətbiqi daxildir. Müntəzəm təhlükəsizlik auditləri və penetrasiya testləri gündəlik fəaliyyət zamanı görünməyən zəiflikləri aşkar etməyə kömək edir. Əlavə olaraq, məlumatların həm saxlanmada, həm də ötürülmə zamanı şifrələnməsi həssas məlumatların ələ keçirilməsini və manipulyasiyasını əngəlləyir.

Prosedur baxımından təşkilatlar aydın giriş nəzarət siyasətləri tətbiq etməli, minimal imtiyaz prinsiplərini qoruyub saxlamalı və çoxfaktorlu autentifikasiya kimi ciddi doğrulama tədbirlərini həyata keçirməlidirlər. Davamlı istifadəçi maarifləndirmə təlimləri də vacibdir, çünki sosial mühəndislik hücumları hələ də təhlükəsizlik pozuntularının ən geniş yayılmış səbəblərindən biridir.

Nəticə

Kiberməkanda informasiya sistemlərinin qorunması üçün təhdid modelləri (STRIDE, DREAD və MITRE ATT&CK) əsas rol oynayır. Bu modellər kibertəhlükələrin müxtəlif tərəflərini analiz etdiyindən, onların birlikdə istifadəsi gətirdiyi həmahəng müdafiə strategiyası dəyişən təhlükələrə sürətli cavab verə bilir. Praktiki təcrübələr sübut edir ki, bu modellərin kombinə edilməsi vasitəsilə məlumatların sirliliyi, dəqiqliyi və istifadə qabiliyyəti xeyli artır.

Aparılan tədqiqatlar göstərir ki, kibertəhlükəsizlik sistemlərinin güclü və sağlam olması üçün aşağıdakılar kritik əhəmiyyət kəsb edir: təhdid modelləşdirmə prosesinin davamlı şəkildə təkmilləşdirilməsi, əməliyyatların avtomatlaşdırılması və bu prinsiplərin bütün təhlükəsizlik alətləri və protokollarına həmahəng şəkildə daxil edilməsi.

ƏDƏBİYYAT SİYAHISI:

1. Shostack, A. (2014). Threat Modeling: Designing for Security. Wiley.
2. MITRE Corporation. (2024). MITRE ATT&CK
3. Hafiz, M., & Johnson, R. (2021). Modern Cyber Threat Modeling and Analysis. IEEE Access, 9, 45563–45578.
4. Microsoft Security Team. (2022). STRIDE Threat Model Overview.
5. OWASP Foundation. (2023). Threat Modeling Cheat Sheet.
6. Schneier, B. (2015). Applied Cryptography: Protocols, Algorithms, and Source Code in C. Wiley.
7. NIST. (2023). Cybersecurity Framework (CSF) 2.0. National Institute of Standards and Technology.
8. Legit Security. (2025, April 15). Threat Modeling Frameworks: When and How to Use Them.

DOI: 10.32010/MHEI2248

AES-128 VƏ AES-256 ALQORİTMLƏRİNİN PERFORMANS VƏ TƏHLÜKƏSİZLİK MÜQAYİSƏSİ

Tahir Əli oğlu ƏLİZADƏ
Nigar Fəzail qızı ALLAHVERDİYEVA
ADNSU, İTİF, "Kompüter mühəndisliyi" kafedrası
tahiralizada1973@gmail.com, ngrllhvrdyv@gmail.com

Xülasə: Son illərdə elektron məlumatların məxfiliyin qorunması məsələsi aktuallığını qoruyur. Advanced Encryption Standard (AES) alqoritmi bu problemin həlli üçün ən effektiv vasitələrdən biri hesab edilir. AES günümüzdə ən geniş istifadə olunan kriptoqrafik standartlardan biridir. Onun əsas məqsədi məlumatların məxfiliyini və bütövlüyünü, tamlığını təmin etməkdir. AES alqoritmi ilə şifrləmə məlumat ötürülməsi zamanı yalnız eyni açara sahib olanların məlumatları oxuya biləcəyini təmin edir. Bu alqoritm vasitəsilə istifadəçilərin elektron məlumatlarının üçüncü tərəflər tərəfindən ələ keçirilməsinin qarşısı alınır. Bu məqalədə simmetrik şifrələmə standartı olan Advanced Encryption Standard (AES) alqoritminin AES-128 və AES-256 versiyalarının təhlükəsizlik və performans göstəriciləri müqayisə olunur. AES-128 və AES-256 alqoritmləri arasında başlıcu fərq açar uzunluqlarının müxtəlifliyi və bunun nəticəsində yaranan dövrlərin (round) sayında ortaya çıxır. Hər iki AES alqoritmi eyni blok ölçüsündən (128 bit) istifadə etsə də, açar uzunluqları və dövr (round) sayları fərqlidir: AES-128-də 10, AES-192-də 12, AES-256-da isə 14 dövr mövcuddur. Onların üstünlükləri ilə yanaşı, bu alqoritmin tətbiqində mövcud olan problemlər təhlil edilir. Həm də AES-in təhlükəsizliyin artırılması və məlumat sızmalarının qarşısının alınmasında rolu xüsusi vurğulanır. Analizlərin nəticəsi göstərir ki, bu alqoritmlərin geniş tətbiqi məxfiliyin qorunmasını yeni və yüksək səviyyəyə çatdırır. Bu məqalədə həm nəzəri, həm də eksperimental nəticələr əsasında hər iki alqoritm üzərində aparılan analizlər nəticəsində onların üstün və çatışmayan cəhətləri təhlil edilmişdir. Tədqiqatda hər iki alqoritmin performansı müxtəlif ölçülü fayllar üzərində sınaqdan keçirilmiş, şifrələmə və deşifrələmə əməliyyatlarının icra vaxtı, yaddaş istifadəsi və enerji sərfi kimi göstəricilər müqayisə olunmuşdur. Yekun nəticə olaraq demək olar ki, AES-128 sürət göstəricilərinə görə üstün, AES-256 isə təhlükəsizlik səviyyəsinə görə daha etibarlı seçim kimi qiymətləndirilmişdir. AES-256-nın dövrlərinin sayının daha çox olması prosesi nisbətən ləngidir. Aparılan müqayisə fərqli tətbiq sahələrində, xüsusi ilə də bulud mühitlərində məlumat ötürülməsi və sənaye sistemlərində ən münasib alqoritmin müəyyən edilməsi baxımından böyük praktik dəyərə malikdir.
Açar sözlər: Advanced Encryption Standart, kriptoqrafiya, key, şifrələmə, deşifrləmə

COMPARISON OF PERFORMANCE AND SECURITY OF AES-128 AND AES-256 ALGORITHMS

Tahir Ali oglu ALIZADE
Nigar Fazail gizi ALLAHVERDIYEVA

ASOIU, ITIF, Department of Computer Engineering
tahiralizada1973@gmail.com, ngrllhvrdyv@gmail.com

Abstract: In recent years, the issue of ensuring the confidentiality of electronic data has remained highly relevant. The Advanced Encryption Standard (AES) algorithm is considered one of the most effective solutions to this problem. AES is currently one of the most widely used cryptographic standards. Its primary purpose is to ensure data confidentiality, integrity, and security.

Encryption using the AES algorithm ensures that transmitted data can only be accessed by users who possess the corresponding key. This prevents unauthorized access to users' electronic data by third parties.

This paper presents a comparative analysis of the security and performance of AES-128 and AES-256 versions of the symmetric encryption algorithm Advanced Encryption Standard (AES). The main difference between AES-128 and AES-256 lies in the key length and, consequently, in the number of rounds. Although both algorithms use the same block size (128 bits), they differ in key lengths and number of rounds: AES-128 has 10 rounds, AES-192 has 12 rounds, and AES-256 has 14 rounds.

Alongside their advantages, existing challenges in the implementation of these algorithms are also analyzed. Special emphasis is placed on the role of AES in enhancing security and preventing data leakage.
The results of the analysis show that the widespread application of these algorithms significantly elevates the level of data confidentiality protection. The paper includes both theoretical and experimental analyses, highlighting the strengths and weaknesses of each algorithm.
The performance of both algorithms was tested on files of various sizes, comparing metrics such as encryption and decryption time, memory usage, and energy consumption.
In conclusion, AES-128 demonstrates better performance in terms of speed, while AES-256 provides a higher level of security and is considered a more reliable option. The increased number of rounds in AES-256 leads to relatively slower processing.
The conducted comparison has significant practical value for determining the most suitable algorithm in various application areas, particularly in cloud environments and industrial systems.
Keywords: Advanced Encryption Standard, cryptography, key, encryption, decryption

СРАВНЕНИЕ ПРОИЗВОДИТЕЛЬНОСТИ И БЕЗОПАСНОСТИ АЛГОРИТМОВ AES-128 И AES-256

Тахир Али оглы АЛИЗАДА
Нигяр Фазаил кызы АЛЛАХВЕРДИЕВА

АДНСУ, ИТИФ, кафедра «Компьютерная инженерия»
tahiralizada1973@gmail.com, ngrllhvrdyv@gmail.com

Аннотация: В последние годы проблема обеспечения конфиденциальности электронных данных сохраняет свою актуальность. Алгоритм Advanced Encryption Standard (AES) считается одним из наиболее эффективных средств решения данной задачи. AES является одним из самых широко используемых криптографических стандартов на сегодняшний день. Его основная цель — обеспечение конфиденциальности, целостности и сохранности данных.
Шифрование с использованием алгоритма AES гарантирует, что передаваемая информация может быть прочитана только пользователями, обладающими соответствующим ключом. Благодаря этому предотвращается несанкционированный доступ третьих лиц к электронным данным пользователей.
В данной статье проводится сравнительный анализ показателей безопасности и производительности версий AES-128 и AES-256 алгоритма симметричного шифрования Advanced Encryption Standard (AES). Основное различие между AES-128 и AES-256 заключается в длине ключа и, как следствие, в количестве раундов (циклов). Несмотря на то что оба алгоритма используют одинаковый размер блока (128 бит), они отличаются длиной ключа и числом раундов: AES-128 — 10 раундов, AES-192 — 12 раундов, AES-256 — 14 раундов.
Наряду с преимуществами рассматриваются и существующие проблемы применения данного алгоритма. Особое внимание уделяется роли AES в повышении уровня безопасности и предотвращении утечек данных.
Результаты анализа показывают, что широкое применение этих алгоритмов выводит защиту конфиденциальной информации на новый, более высокий уровень. В статье представлены как теоретические, так и экспериментальные результаты, на основе которых проанализированы сильные и слабые стороны обоих алгоритмов.
В исследовании производительность алгоритмов оценивалась на файлах различного размера, при этом сравнивались такие показатели, как время шифрования и дешифрования, использование памяти и энергопотребление.
В итоге можно отметить, что AES-128 демонстрирует преимущество по скорости, тогда как AES-256 обеспечивает более высокий уровень безопасности и считается более надежным вариантом. Увеличенное количество раундов в AES-256 приводит к некоторому снижению скорости обработки.
Проведенное сравнение имеет значительную практическую ценность для выбора наиболее подходящего алгоритма в различных областях применения, особенно при передаче данных в облачных средах и в промышленных системах.
Ключевые слова: Advanced Encryption Standard, криптография, ключ, шифрование, дешифрование

Giriş

Müasir dövrdə sosial şəbəkələr cəmiyyətin gündəlik həyatının ayrılmaz hissəsinə çevrilmişdir. Bununla belə, istifadəçilərin şəxsi məlumatlarının qorunması daim müzakirə mövzusu olmuşdur. Məxfilik və təhlükəsizlik məsələləri sosial şəbəkələrdə məlumat sızmaları və istifadəçi hüquqlarının pozulması ilə daha da aktuallaşmışdır. AES alqoritmi, bu problemin həllində effektiv vasitə kimi ortaya çıxır. Bu texnologiya yalnız göndərən və qəbul edən tərəflər arasında məlumat mübadiləsini qorumaqla təhlükəsizlik və məxfiliyi təmin edir. Məqalədə AES-in platformalarda rolu, tətbiqi və bu alqoritmin istifadəçilər üçün yaratdığı üstünlüklər təhlil edilir. Məqsəd AES-in bu sahədə mövcud çətinliklərə qarşı necə effektiv ola biləcəyini göstərməkdir.

Məsələnin qoyulması.

Müasir informasiya texnologiyaları və şəbəkə mühitində məlumatların qorunması və məxfiliyin təmin edilməsi ən vacib tələblərdən biridir. İnternetin sürətlə inkişaf etməsi, bulud hesablama xidmətlərinin geniş istifadəsi və mobil, eyni zamanda IoT cihazlarının sayının artması məlumatların kiberhücumlara, icazəsiz girişlərə və məlumat sızmalarına qarşı daha həssas olmasına gətirib çıxarır. Bu səbəbdən, informasiya təhlükəsizliyini təmin etmək üçün daha güclü və etibarlı kriptoqrafik alqoritmlərin tətbiqinin zəruriliyi artır. Günümüzdə bulud texnologiyalarının təşkilatlarda, məlumat mərkəzlərində geniş tətbiqi ilə təhlükəsizlik məsələləri daha da aktuallaşır.

Bir çox platforma tərəfindən istifadə edilən ənənəvi şifrələmə metodları məlumatların üçüncü tərəflər tərəfindən ələ keçirilməsinə qarşı tam müdafiə təmin edə bilmir. Hökumətlər, şirkətlər və kiberhücum edən qruplar sosial şəbəkə istifadəçilərinin məlumatlarını hədəf alaraq ciddi təhlükəsizlik riskləri yaradır.

AES simmetrik alqoritmləri bu problemin həlli üçün effektiv üsul kimi ortaya çıxsa da, onun tətbiqi sosial şəbəkə platformasında tam olaraq mənimsənilməmişdir.

Bu məqalədə məqsəd, AES alqoritminin tətbiqini təhlil etmək, bu alqoritmin faydalarını əsaslandırmaq və onun tətbiqi zamanı qarşıya çıxan çətinlikləri araşdırmaqdır.

AES alqoritmlərinin tətbiqi, sosial şəbəkələrdə məlumat təhlükəsizliyini ciddi şəkildə artırır, amma bu alqoritmin tətbiqi eyni zamanda performans məsələlərini gündəmə gətirir.

Məsələnin həlli.

AES-in tətbiqi məlumatların şifrələnməsi və deşifrələnməsi üçün əlavə hesablama gücü tələb edir. Bu, şəbəkə performansını və istifadəçi təcrübəsini bir qədər azalda bilər. Buna görə də, şifrələmə texnologiyasının həm təhlükəsizlik, həm də performans baxımından balanslaşdırılması vacibdir.

Təhlükəsizlik baxımından, AES-in gücü şifrələmə açarlarının uzunluğu və şifrələmə alqoritmlərinin gücü ilə müəyyən edilir.Bu güc, şifrələmə açarının uzunluğuna və istifadə olunan şifrələmə alqoritmlərinin tipinə bağlıdır.

Əvvəlcə AES-128 və AES-256 alqoritmlərinin daxili strukturu, istifadə olunan dövr sayı və açar uzunluğu detallı şəkildə araşdırılmış, bu parametrlərin alqoritmlərin performans və təhlükəsizlik göstəricilərinə təsiri məqsədyönlü və strukturlaşdırılmış şəkildə incələnmişdir. Daha sonra tədqiqat çərçivəsində müxtəlif ölçülü məlumat faylları üzərində şifrələmə və deşifrələmə əməliyyatları həyata aparılmış, bu proses zamanı hər iki alqoritmin praktiki iş şəraitində səmərəliliyi, icra müddətləri və hesablama resurslarından istifadəsi əhatəli formada qiymətləndirilmişdir. Eyni zamanda, əldə edilən nəticələr alqoritmlərin real dünya tətbiq sahələrində effektivliyini müqayisəli şəkildə nümayiş etdirmiş, performans və təhlükəsizlik balansının aydın şəkildə qiymətləndirilməsinə imkan yaratmışdır.


1. Kriptoqrafiya

Kriptoqrafiya iki qrupa ayrılır: assimmetrik alqoritmlər və simmetrik alqoritmlər. Kriptoqrafiya informasiyanın şifrlənməsi (encrypting) və deşifrlənməsi (decrypting) vasitəsilə sadəcə icazəsi olan istifadəçilərin həmin məlumatı oxumasına imkan yaradır. Məlumatların şifrələməsi və deşifrələməsi zamanı açar (key) istifadə olunur.

Simmetrik kriptoqrafiya həm məlumatı şifrələmək həm də şifrələnmiş məlumatı deşifrələmək üçün eyni açardan istifadə olunan şifrələmə üsuludur. Bu açar "xüsusi açar" (private key) adlanır. Buna görə də simmetrik alqoritmlər asimmetrik alqoritmlərə nisbətən daha sürətli işləyir. Böyük həcmli məlumatların şifrələməsi zamanı daha çox simmetrik şifrləmə alqoritmlərinə üstünlük verilir.

AES alqoritmi əvəzləmə–permutasiya (substitution–permutation) şəbəkəsinə əsaslanır və 128 bitlik sabit bloklarla işləyir. O, açarın uzunluğuna görə üç variantda mövcuddur: 128 bit, 192 bit və 256 bit.

Assimmetrik kriptoqrafiya zamanı iki müxtəlif açardan istifadə edilir. Birinci açar şifrələmə üçün (ictimai açar – public key), ikinci açar isə deşifrələmə üçün (xüsusi açar – private key) istifadə olunur. Assimmetrik kriptoqrafiyanın təhlükəsizliyi əsasən mesajın alıcısının öz xüsusi açarını gizli saxlamasından asılıdır. Asimmetrik kriptoqrafiya qarışıq riyazi hesablamalardan istifadə etdiyinə görə simmetrik kriptoqrafiya alqoritmləri ilə müqayisədə daha yavaşdır.



Şəkil 1: Kriptoqrafiya

Praktiki sahədə əsasən hibrid kriptoqrafiya üsullarından istifadə edilir. Simmetrik və asimmetrik kriptoqrafiyanın müsbət və mənfi cəhətlərini nəzərə alaraq qarışıq yanaşma modelini tətbiq edirlər.

AES alqoritminin əsas prinsipi, elektron məlumatların yalnız göndərən və qəbul edən istifadəçilər arasında şifrələnərək ötürülməsidir. Bu şifrələmə metodu, məlumatın ötürülmə prosesi boyunca üçüncü tərəflərin məlumatı əldə etməsini, oxumasını və ya dəyişdirməsini mümkünsüz edir. AES prosesinin riyazi təhlili, şifrələmə və deşifrələmə funksiyalarının necə həyata keçirildiyini izah edir. Bu prosesdə istifadə olunan açar şifrələmə metodlarında mühüm rol oynayır.

Şifrələmə prosesi, göndərənin məlumatları şifrələyərək göndərməsini təmin edir. Bu zaman, məlumatlar yalnız xüsusi bir açar ilə deşifrələnə bilər. Deşifrələmə prosesi isə yalnız məlumatı qəbul edən şəxsin özəl açarı ilə mümkündür. Bu yanaşma, məlumatın təhlükəsizliyini təmin edir və yalnız təyinatlı şəxsə məlumatın açılmasına imkan verir.

2. AES-in nəzərdən keçirilməsi

AES blok şifrələmə alqoritmi olaraq da adlandırılır. Çünki o elektron məlumatları blok matrisi formasında (blok əsaslı) şifrələyir. Bu alqoritm 128, 192 və 256 bitlik şifrələmə açarlarından istifadə edir, həmçinin 128 bitlik blok ölçüsündə işləyir. AES alqoritmi Əvəzləmə-Permutasiya Şəbəkələri (Substitution-Permutation Networks — SPN) prinsipinə əsaslanır. SPN, blok şifrələrində istifadə olunan əvəzləmə yer dəyişmə əməliyyatlarının toplusudur. SPN əməliyyatları ilə məlumatı qarışdırır və bu dəyişikliklər nəticəsində məlumat tanınmaz olur.

Blok şifrələmə elektron məlumatların bloklar kimi şifrələnməsidir. Şifrələmə və deşifrələmə zamanı bir açardan istifadə olunur. Blok şifrələmə prosesində bir mətin yenidən şifrələnsə də eyni görünməməsi təmin olunur. Elektron məlumatların tam formada emal olunmasına nəzərən bloklar şəklində emal olunması təhlükəsizlik risklərini azaldır. Məlumatların sabit ölçülərə bölünərək şifrlənməsi təhlükəsizliyi artırır.

AES-128 üçün 4×4 ölçülü blok matrisinə baxaq:

Cədvəl 1: AES-128 4×4

$c_{0,0}$	$c_{0,1}$	$c_{0,2}$	$c_{0,3}$
$c_{1,0}$	$c_{1,1}$	$c_{1,2}$	$c_{1,3}$
$c_{2,0}$	$c_{2,1}$	$c_{2,2}$	$c_{2,3}$
$c_{3,0}$	$c_{3,1}$	$c_{3,2}$	$c_{3,3}$

AES- in müxtəlif açar ölçüləri müxtəlif sayda dövrlə uyğunlaşdırılır. AES-256, AES-192, AES-128 xüsusiyyətlərinə nəzər salsaq: blok matrisi və dövrlərin sayına görə fərqlənirlər.

Cədvəl 2: AES-in tərtibatı

Açar ölçülərinə görə AES növləri	Dövrlərin sayı	Blok ölçüsü	Blok matrisi
AES-256	14	128	4×8
AES-192	12	128	4×6
AES-128	10	128	4×4

Şifrələmə Gücü (Security Strength):

O şifrləmənin təhlükələrə qarşı nə dərəcədə dayanıqlı olduğunu göstərir. Şifrələmə açarının təhlükəsizliyini ölçmək üçün aşağıdakı düsturdan istifadə edilir:

$S = (N)$

Burada *N*, mümkün şifrələmə açarlarının sayını, *S* isə şifrələmə gücünü təmsil edir. Açarın uzunluğu nə qədər böyük olsa, şifrələmə gücü də bir o qədər yüksək olur. Misal üçün, 256 bitlik açar daha zəif bir açara nisbətən daha yüksək təhlükəsizlik təmin edir. Eyni zamanda da nəzərə almaq lazımdır ki şifrləmə gücü artdıqca şifrləməyə sərf olunan zaman da artır. Ona görə də məlumatların təhlükəsizliyi və işləmə sürəti arasında uyğunluğu təmin etmək lazımdır.

3. Şifrləmə və deşifrləmə prosesi

AES alqoritminin şifrələmə və deşifrələmə prosesləri seçilmiş açarın uzunluğuna əsasən müəyyən dövrlərin təkrarlanmasından ibarətdir. Şifrləmə əməliyyatı dörd mərhələyə bölünür: SubBytes, ShiftRows, MixColumns, AddRoundKey.

Deşifrləmə əməliyyatı da həmçinin dörd mərhələyə bölünür: Inverse ShiftRows, Inverse Substitute Bytes, AddRoundKey, Inverse MixColumns.

SubBytes mərhələsində məlumatda qarışıqlıq yaratmaq üçün S-box cədvəlindən istifadə olunur. Beləcə hər bir bayt başqa bir bayt ilə dəyişdirilir.

ShiftRows mərhələsinin təsiri ilə məlumat matrisinin sətirləri sürüşür. Şifrləmə zamanı sətirlər mövqeyini sola, deşifrləmə prosesində isə sağa dəyişir.

MixColumns mərhələsində məlumatın təhlükəsizliyi artır.

AddRoundKey mərhələsində təhlükəsizliyi artırmaq üçün bloklara XOR əməliyyatı icra edilir.

Deşifrələmə şifrələmə mərhələlərinin tərsidir:

AddRoundKey məlumat bloku XOR əməliyyatına məruz qalır.

InvShiftRows daha öncə şifrləmə zamanı istifadə olunan ShiftRows əməliyyatının tərsi nəzərdə tutulur.

InvSubBytes mərhələsində SubBytes mərhələsində S-box cədvəli vasitəsilə əvəz olunanlar əks S-box vasitəsilə əvvəlki vəziyyətinə qaytarılır.

InvMixColumns mərhələsində MixColumns zamanı riyazi əməliyyatlarla qarışdırılan məlumat blokunun əvvəlki formasını bərpa olunur.

4. Performansın Ölçülməsi (Performance Evaluation):

Şifrələmə və deşifrələmə əməliyyatlarının sürəti şəbəkə performansına və istifadəçi təcrübəsinə təsir edir. Bu, şifrələmə metodunun və istifadə olunan texnologiyanın effektivliyinə əsaslanır. Şifrləmə mexanizminin performans göstəricilərinin analizi üçün aşağıdakı düsturdan istifadə edilir:

P = T total/N


Bu düsturda:

T- total bütün məlumatların şifrələməsi və deşifrələməsi prosesləri üçün ümumi vaxtının göstəricisidir.


N- məlumatın ölçüsüdür.

Nəticədə bu düstur, şifrələmə əməliyyatının effektivliyini dəyərləndirməyə kömək edir.

AES alqoritminin AES-128 və AES-256 versiyalarının nəticələri araşdırılır. Fərqli ölçülərə malik faylların şifrələmə və deşifrələmə proseslərinin vaxtını müzakirə etmək olar. 50 KB, 250KB, 750KB, 1500KB kimi müxtəlif ölçülərə malik fayllar üzərində şifrləmə, deşifrləmə sınaqları keçirilsə hər iki alqoritm üzrə nəticələri qararlaşdıraraq təhlil edə bilərik. Nəticələr müəyyən edilərək, qrafik şəklində göstərilsə:



Şəkil 2: Şifrələmə vaxtları



Şəkil 3: Deşifrləmə vaxtları

Göründüyü kimi, fayl ölçüsü artdıqca hər iki alqoritmin vaxtı xətti şəkildə artır. Amma ölçüsü bərabər olan fayllar üçün AES-256-nın şifrələmə və deşifrələmə vaxtı nisbətən çoxdur. Yəni AES alqoritminin açar uzunluğu artdıqca şifrələmənin və deşifrələmənin müddəti də uyğun olaraq artır.Bu müxtəliflik əsasən də real vaxt rejimində işləyən sistemlərdə və məhdud hesablama imkanlarına malik olan qurğularda (məsələn, IoT, mobil avadanlıqlar) əhəmiyyətli ola bilər.

Nəticədə.

Müzakirələrdən aydın olur ki, açarın növündən asılı olaraq şifrələmə və deşifrələmə vaxtları dəyişir. AES-256 alqoritmi AES-128 alqoritminə nisbətən daha çox dövrə malikdir. Bu halda faylların şifrələnməsi və deşifrələməsi proseslərinin nisbətən daha çox vaxta ehtiyacı olur. Eyni zamanda daha çox dövrü olduğu üçün hücumlara qarşı etibarlı, dayanıqlıdır.

AES alqoritminin sosial şəbəkələrdə tətbiqi rəqəmsal təhlükəsizliyi və məxfiliyi artırmaq üçün əhəmiyyətli imkanlar təqdim edir. Bu tədqiqat nəticəsində əldə edilmiş əsas nəticələr aşağıdakılardır:

Məxfiliyin Gücləndirilməsi:

- AES alqoritmi istifadəçi məlumatlarının kənar şəxslər tərəfindən izlənilməsinin və ya dəyişdirilməsinin qarşısını alaraq tam məxfiliyini təmin edir.
- AES-128 daha sürətli olduğu üçün mobil sistemlər üçün uyğun seçimdir.
- Seçim istifadəçinin məqsədinə görə müəyyənləşdirilir. Əgər sürət önəmlidirsə AES-128, təhlükəsizlik önəmlidirsə AES-256 məqsədəuyğundur.

Sosial Tətbiqdə Uyğunluq:

- Müxtəlif təşkilatlarda,platformalarda AES texnologiyasının müxtəlif səviyyələrdə tətbiq edilməsi təhlükəsizliyin tənzimlənməsinə ehtiyac olduğunu göstərir.

Tədqiqatlar həm nəzəri, həm də eksperimental qiymətləndirmələrə əsaslanaraq göstərir ki, alqoritmin seçimi tətbiq sahəsinin tələblərinə görə dəyişməlidir.

Nəticələr göstərir ki, AES alqoritminin təkmilləşdirilməsi həm fərdi istifadəçilərin, həm də təşkilatların rəqəmsal təhlükəsizliyini təmin etmək üçün geniş imkanlar yaradır. Təklif edilən həllər və yanaşmalar bu texnologiyanın daha effektiv tətbiqinə və inkişafına töhfə verə bilər. AES alqoritminin inkişafı, sosial şəbəkələrdə məlumatların təhlükəsizliyinin və istifadəçi gizliliyinin qorunmasını təmin etməklə yanaşı, internetin ümumi təhlükəsizlik səviyyəsini də yüksəldir. Bu texnologiyanın gələcək inkişafı, daha çox platformada tətbiq olunması və daha da möhkəmləndirilməsi üçün mühüm addımlar atılacaqdır. AES-128 və AES-256 alqoritmlərinin müxtəlif sahələrdə praktik tətbiqləri daha əhatəli şəkildə araşdırıla və qiymətləndirilə bilər. Bu, tədqiqatın sadəcə nəzəri araşdırmalarla kifayətlənməyərək, həm akademik tədqiqatçılar, həm də sənaye mütəxəssisləri üçün əhəmiyyətli olmasını təmin edir. Beləliklə, aparılan iş AES alqoritmlərinin faktiki əməliyyat mühitində işlədiyi hallarda ən düzgün və məqsədəuyğun şəkildə seçilməsinə imkan yaradır, eyni zamanda məlumat təhlükəsizliyini təmin etmək üçün effektiv strategiyaların və protokolların hazırlanmasına əhəmiyyətli töhfələr verir. Bu Tədqiqat həm kriptoqrafik təhlükəsizlik standartlarının təkmilləşdirilməsinə, həm də praktiki proqram təminatı və sənaye sistemlərində AES alqoritmlərinin tətbiqinin optimallaşdırılmasına istiqamətli praktik göstərişlər təqdim edir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Arash Karimi, Hadi Shahriar Shahhoseini "Cryptanalysis of a Substition-Permutation Network Using Gene Assembly in Ciliates" Int'l J. of Communications, Network and System Sciences Vol. 5 No. 3, 2012.
2. Chenhui Jin, Ting Cu "Classification of SPN Structures From
the Viewpoint of Structural Cryptanalysis" IEEE, December 27,
2017
3. cs.utsa.edu/~wagner/laws/AESintro.html
4. csrc.nist.gov/publications/fips/fips197/fips 197.pdf. NIST_SP-
500-291_Version-2_2013_June18_FINAL
5. İmamverdiyev Y.N, "İnformasiya təhlükəsizliyi terminlərinin izahlı lüğəti", 2015,"İnformasiya Texnologiyaları" nəşriyyatı,160 səh.
6. Joan Daemen, Steve Borg and Vincent Rijmen."The Design of
Rijndael: AES The Advanced Encryption Standard", Springer,
2002.
7. Mansoor Ebrahim, Shujaat Khan, Umer Bin Khalid, "Symmetric
Algorithm Survey: A Comparative Analysis" May 2, 2014
8. Samiul Islam "Comparative Analysis of AES Algorithms and
Implementation of AES in Arduino" 20.12.2015
9. Umer Farooq, M. Faisal Aslam "Comparative analysis of
different AES implementation techniques for efficient resource
usage and better performance of an FPGA", Journal of King
Saud University – Computer and Information Sciences, 10
January 2016, sciencedirect
10. V. R. Joan Daemen. AES Proposal: Rijndael, version 2, AES
submission. 1999.
11. William Stallings – "Cryptography and Network Security: Principles and Practice", 8th Edition, Pearson, 2020.

DOİ: 10.32010/OIJS5783

KREDİT PROSESLƏRİNDƏ MÜŞTƏRİ MƏLUMATLARININ TƏHLÜKƏSİZLİYİ

Tahir Əli ƏLİZADƏ[1]
Dərya Tofiq NAĞIYEV[2]
ADNSU “Kompüter mühəndisliyi” kafedrası
E-mail: tahiralizada1973@gmail.com
E-mail: daryanaghiyev94@gmail.com

Xülasə: Son illərdə internet istifadəsinin geniş yayılmasına görə bank və digər sektorlar onlayn xidmət sektoruna geniş şəkildə keçid etmişdir. Bu sistemlər insanlara rahat və sürətli xidmət imkanı versə də, şəxsi məlumatların təhlükəsizliyi ilə bağlı yeni risklər yaradır. Məqalədə digital kredit verilməsində müştəri məlumatlarının qorunmasının əhəmiyyəti, mövcud təhlükələr və bu risklərin azaldılması üçün tətbiq olunan texnoloji ve təşkilati həllər araşdırılır. Həmçinin beynəlxalq standartlarla yanaşı , Azərbaycan Respublikası qanunvericiliyində fərdi məlumatların qorunması ilə bağlı müddəalar təhlil olunur. Təcrübə göstərir ki, məlumat təhlükəsizliyi yalnız texniki həllərlə məhdudlaşmır burada həm idarəetmə, huquqi və mədəni səviyyədə inteqrasiya olunmuş həllər tələb edir. Gələcəkdə suni intellekt blockchain Zero Trust kimi yanaşmalar bu sahədə daha yaxşı həllərin tapılmasında xüsusi rol oynayacaq.
Açar sözlər: onlayn kredit, məlumat təhlükəsizliyi, məxfilik, təhlükəsizlik, fərdi məlumat sızmaları, şifrələmə

CUSTOMER DATA SECURITY IN CREDIT PROCESSES

Tahir Ali ALIZADEH[1]
Darya Tofig NAGHIYEV[2]
ASOIU, Department of “Computer Engineering”
E-mail: tahiralizada1973@gmail.com
E-mail: daryanaghiyev94@gmail.com

Abstract: In recent years, due to the widespread use of the Internet, banking and other sectors have widely switched to the online service sector. Although these systems provide people with convenient and fast services, they create new risks related to the security of personal data. The article examines the importance of protecting customer data in digital lending, existing threats, and technological and organizational solutions applied to reduce these risks. In addition, in addition to international standards, the provisions on the protection of personal data in the legislation of the Republic of Azerbaijan are analyzed. Experience shows that information security is not limited to technical solutions, but also requires integrated solutions at the managerial, legal and cultural levels. In the future, approaches such as artificial intelligence blockchain Zero Trust will play a special role in finding better solutions in this area.
Keywords: online credit, data security, privacy, security, personal data leaks, encryption.

БЕЗОПАСНОСТЬ ДАННЫХ КЛИЕНТОВ В КРЕДИТНЫХ ПРОЦЕССАХ

Тахир Али АЛИЗАДЕ[1]
Дарья Тофиг НАГИЕВ[2]
АГУНП, кафедра «Компьютерная инженерия»
Электронная почта: tahiralizada1973@gmail.com
Электронная почта:: daryanaghiyev94@gmail.com

Резюме: В последние годы, в связи с широким распространением интернета, банковский и другие секторы в значительной степени перешли на онлайн-сервисы. Хотя эти системы предоставляют людям удобные и быстрые услуги, они создают новые риски, связанные с безопасностью персональных данных. В статье рассматривается важность защиты данных клиентов в цифровом кредитовании, существующие угрозы, а также технологические и организационные решения, применяемые для снижения этих рисков. Кроме того, помимо международных стандартов, анализируются положения о защите персональных данных в законодательстве Азербайджанской Республики. Опыт показывает, что информационная безопасность не ограничивается техническими решениями, но также требует комплексных решений на управленческом, правовом и культурном уровнях. В будущем особую роль в поиске лучших решений в этой области будут играть такие подходы, как искусственный интеллект, блокчейн и концепция «нулевого доверия» (Zero Trust).
Ключевые слова: онлайн-кредитование, безопасность данных, конфиденциальность, безопасность, утечка персональных данных, шифрование

Giriş

Rəqəmsal texnologiyaların sürətli inkişafı bank və maliyyə sektorlarında fundamental dəyişikliklərə səbəb olmuşdur. Xüsusilə onlayn kredit xidmətlərinin populyarlaşması, müştərilərin bank filiallarına fiziki olaraq getmədən kredit əldə etməsini mümkün etmişdir. Müştərilər artıq veb saytlar, mobil tətbiqlər və digər rəqəmsal platformalar vasitəsilə müraciət edə, kredit üçün sənədləri yükləyə və müraciət prosesinin vəziyyətini izləyə bilirlər. Bu, kredit proseslərini daha çevik və sürətli edir, həmçinin müştərilər üçün rahatlıq təmin edir.

Lakin onlayn kredit xidmətlərinin genişlənməsi eyni zamanda məlumat təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində ciddi riskləri də gündəmə gətirmişdir. Onlayn kredit sistemləri şəxsiyyət məlumatları, sosial sığorta nömrələri, gəlir göstəriciləri, kredit tarixçəsi, ödəniş məlumatları və digər maliyyə göstəriciləri kimi həssas məlumatları emal edir. Belə məlumatların sızması, oğurlanması və ya manipulyasiyası həm müştərilərə, həm də banklara ciddi maliyyə və reputasiya zərərləri gətirə bilər. Məsələn, müştərinin maliyyə məlumatlarının pozulması şəxsiyyət oğurluğu, kredit fırıldaqları və ya digər qanunsuz fəaliyyətlərə yol açа bilər. Banklar isə bu hallara görə hüquqi məsuliyyət daşıya bilər və müştəri etimadını itirə bilər.

Bu səbəbdən müasir maliyyə qurumları üçün müştəri məlumatlarının qorunması strateji əhəmiyyət kəsb edir. Kibertəhlükəsizliyin təmin edilməsi, məlumatların şifrələnməsi, təhlükəsizlik protokollarının tətbiqi və qanunvericilik tələblərinə uyğunluq bankların rəqabət qabiliyyətini və müştəri etimadını qorumaq baxımından həyati əhəmiyyət daşıyır. Onlayn kredit sistemlərində məlumat təhlükəsizliyinin təmin edilməsi üçün texnoloji yanaşmalar, prosedurlar və beynəlxalq standartlara əsaslanan həllər tətbiq olunur. Bu yanaşmalar həm də bankın əməliyyat effektivliyini artırır və potensial hüquqi riskləri minimuma endirir.

Bu məqalənin məqsədi onlayn kredit proseslərində müştəri məlumatlarının təhlükəsizliyini təmin edən əsas yanaşmaları, mövcud risk faktorlarını, həmçinin beynəlxalq standartlara və ən yaxşı təcrübələrə əsaslanan həlləri ətraflı təhlil etməkdir. Məqalədə həm texniki, həm də idarəetmə səviyyəsində tətbiq olunan tədbirlər nəzərdən keçiriləcək, həmçinin gələcək texnoloji tendensiyaların bu sahəyə təsirləri qiymətləndiriləcəkdir.

Nəzəriyyə

Elektron həllərin insan həyatına inteqrasiyası davam etdikcə, ənənəvi bankçılıq da tədricən öz yerini digital bankçılığa verir. Digital bankçılıqda müştəri məlumatlarının təhlükəsizliyi və qorunması müasir dövrdə tam həllini tapmayan aktual məsələlərdən biri kimi qalmaqda davam edir.

Müştərilərdən toplanan məlumatlar, yəni şəxsiyyət vəsiqəsi məlumatları, maliyyə vəziyyəti, gəlir səviyyəsi, borc tarixi və digər fərdi məlumatlar – bank bazalarında saxlanılır və müxtəlif analitik sistemlər vasitəsilə istifadə olunur. Bu məlumatların hər hansı formada icazəsiz əldə olunması və ya üçüncü tərəfə ötürülməsi həm fərdi məxfilik hüququnun pozulmasına, həm də maliyyə fırıldaqlarına yol açа bilər.

Məsələnin əsas çətinliyi ondan ibarətdir ki, rəqəmsal həllərin artması ilə paralel olaraq kiberhücumların miqyası və mürəkkəbliyi də artır. Bir çox hallarda bank sistemlərinin və ya mobil tətbiqlərin təhlükəsizlik səviyyəsi bu hücumlara qarşı kifayət qədər dayanıqlı olmur. Bundan başqa, bəzi hallarda insan faktoru da məlumat sızmalarına səbəb olur. Digər tərəfdən, fərdi məlumatların qorunması sahəsində qanunvericilik tələblərinin tam şəkildə yerinə yetirilməməsi də problemin aktuallığını artırır. Avropa İttifaqında tətbiq edilən GDPR, eləcə də Azərbaycan Respublikasında qüvvədə olan "Fərdi məlumatların qorunması haqqında" Qanun bu sahədə ciddi hüquqi öhdəliklər müəyyən etsə də, bəzi maliyyə qurumları bu tələbləri tam şəkildə tətbiq edə bilmir. Beləliklə, məsələnin mahiyyəti ondan ibarətdir ki**,** onlayn kredit proseslərinin rahat və çevik həyata keçirilməsi ilə yanaşı, müştəri məlumatlarının məxfiliyi və təhlükəsizliyinin təmin olunması da təmin edilməlidir. Bu təminatın pozulması həm bank sisteminin etibarına, həm də müştəri hüquqlarına mənfi təsir göstərir.

Metod

Onlayn kredit proseslərində müştəri məlumatlarının təhlükəsizliyinin təmin olunması kompleks yanaşma tələb edir. Problemin effektiv həlli üçün həm texnoloji, həm idarəetmə, həm də hüquqi səviyyədə tədbirlər görülməlidir.

Texnoloji baxımdan bir neçə həll yolu tətbiq edilə bilər.

- Verification Systems:

Müştəri onlayn proseslərdə biometrik autentikasiya proseslərindən keçməlidir. Buna uyğun nümunə olaraq foto və ya video ilə autentifikasiya modelini tətbiq edərək müştərinin real müraciət edən insan olduğunu təyin edə bilirik. Burada həm İT şirkətlərinin təqdim etdiyi həllərdən həm rəsmi dövlət tərəfindən hazırlanmış həllərdən istifadə edə bilərik. Buna uyğun olaraq SİMA elektron həllini misal göstərə bilərik.

- Rəqəmsal şəxsiyyətin (Digital Identity) inteqrasiyası:

Bir çox ölkələrdə, o cümlədən Azərbaycanda, eGov sistemləri və "ASAN Login" kimi platformalar bank sistemləri ilə inteqrasiya olunaraq müştərinin şəxsiyyətini dövlət sistemləri vasitəsilə təsdiqləyir. Bu, saxta hesabların qarşısını alır və məlumat dəqiqliyini artırır.

- OTP (One-Time Password) sistemləri:

Hər giriş və ya əməliyyat üçün bir dəfəlik parol yaradılır. OTP sistemləri phishing və brute-force hücumlarına qarşı effektiv qoruma təmin edir.

- Elektron imza və sertifikatlaşdırma sistemləri**:**

Müştərinin imzası və razılığı elektron imza vasitəsilə rəqəmsal şəkildə təsdiqlənir. Elektron imza həm hüquqi, həm də texnoloji baxımdan ən etibarlı autentifikasiya metodlarından biridir.

- Şifrələmə**:** Onlayn kredit proseslərində müştərilər sistemə şəxsi məlumatlarını – şəxsiyyət vəsiqəsi nömrəsi, gəlir bəyannaməsi, hesab nömrələri və kredit tarixçəsi kimi həssas informasiyaları daxil edirlər. Bu məlumatların hər hansı sızması ciddi nəticələrə gətirib çıxara bilər. Buna görə də şifrləmə bu məlumatların ötürülməsi (transmission) və saxlanması (storage**)** mərhələlərində mütləq tətbiq olunur. Məsələn, HTTPS protokolu vasitəsilə göndərilən məlumatlar TLS (Transport Layer Security) alqoritmləri ilə şifrələnir. Bu halda, müştəri brauzeri ilə bank serveri arasında məlumat mübadiləsi zamanı üçüncü tərəf məlumatları oxuya bilmir.

Şifrləmə növləri

1. Simmetrik şifrləmə (Symmetric Encryption)

Simmetrik şifrləmə üsulunda məlumatın həm şifrələnməs**i**, həm də deşifrələnməsi (yəni açılması) üçün eyni açardan istifadə olunur. Bu o deməkdir ki, göndərən tərəf məlumatı bir açarla şifrələyir, qəbul edən tərəf isə həmin açarla məlumatı açır.

Simmetrik alqoritmlərin əsas üstünlüyü onların sürətidir. Çox az hesablama gücü tələb etdikləri üçün bu üsul böyük həcmli məlumatların real vaxtda (real-time**)** emalı zamanı — məsələn**,** bank sistemlərində, onlayn ödəniş əməliyyatlarında, şəbəkə trafikinin qorunmasında — geniş istifadə olunur.

Ən tanınmış simmetrik alqoritmlər:

- AES (Advanced Encryption Standard**)** – 128, 192 və ya 256-bit uzunluqlu açarlarla işləyir, çox güclü və sürətlidir.
- DES (Data Encryption Standard**)** – əvvəl geniş istifadə olunurdu, lakin hazırda köhnəlmiş sayılır, çünki 56-bit açar müasir hücumlara qarşı zəifdir.
- 3DES (Triple DES**)** – DES-in daha təhlükəsiz formasıdır, amma AES ilə müqayisədə daha yavaşdır.

Simmetrik üsulun əsas çatışmazlığı odur ki, həm göndərən, həm də qəbul edən tərəf eyni açarı paylaşmalıdır. Bu isə açarın təhlükəsiz şəkildə ötürülməsi problemini yaradır. Buna görə də açar ötürülməsi mərhələsində adətən asimmetrik şifrləmə **i**stifadə olunur.

2. Asimmetrik şifrləmə (Asymmetric Encryption)

Asimmetrik şifrləmə sistemində iki fərqli, lakin bir-biri ilə əlaqəli açar istifadə olunur:

- İctimai açar (Public Key) — istənilən şəxsə paylaşmaq olar.
- Məxfi açar (Private Key) — yalnız sahibində qalmalıdır və heç kimlə paylaşılmamalıdır.

Məlumatı şifrələmək üçün ictimai açar, deşifrələmək üçün isə məxfi açar istifadə olunur. Bu model təhlükəsizliyi xeyli artırır, çünki gizli açarın oğurlanması riski minimuma enir.

Asimmetrik şifrləmə daha çox bu hallarda istifadə edilir:

- Digital imzalar (Digital Signatures) — sənəd və ya mesajın kim tərəfindən göndərildiyini və dəyişdirilib-dəyişdirilmədiyini təsdiqləmək üçün.
- Açar mübadiləsi (Key Exchange) — simmetrik açarların təhlükəsiz şəkildə ötürülməsi üçün.
- SSL/TLS protokolları — HTTPS vasitəsilə təhlükəsiz əlaqə qurularkən.

Ən çox istifadə edilən alqoritmlər:

- RSA (Rivest–Shamir–Adleman) – təhlükəsiz, lakin nisbətən yavaşdır.
- ECC (Elliptic Curve Cryptography) – RSA-dan daha az açar ölçüsünə malik olub eyni səviyyədə təhlükəsizlik təmin edir, performans baxımından daha səmərəlidir.
- DSA (Digital Signature Algorithm) – rəqəmsal imzalar üçün istifadə olunur.

Bu üsul simmetrikdən fərqli olaraq daha çox kriptografik protokolların və sertifikat sistemlərinin (məsələn, PKI – Public Key Infrastructure) əsasını təşkil edir.

3. Hash funksiyaları (Hashing)

Hash funksiyaları məlumatı bərpa olunmayan formada kodlaşdıran alqoritmlərdir. Onların əsas məqsədi məlumatı eyni uzunluqlu sabit ölçülü "imzaya" çevirməkdir. Eyni input hər zaman eyni hash dəyəri verir, amma bu dəyərdən orijinal məlumatı tapmaq imkansızdır**.**

Hash funksiyalarının əsas xüsusiyyətləri:

- Deterministikdir – eyni giriş həmişə eyni nəticə verir.
- Sürətlidir – məlumatın ölçüsündən asılı olmayaraq sabit uzunluqda nəticə yaradır.
- Geri çevrilməzdir – hash dəyərindən orijinal məlumatı bərpa etmək mümkün deyil.

- Kolidensiyaya qarşı dayanıqlı olmalıdır – iki fərqli girişin eyni hash dəyəri verməsi çox çətin (praktik olaraq mümkünsüz) olmalıdır.

Hash funksiyaları əsasən bu sahələrdə tətbiq olunur:

- Parol saxlanması — sistemlərdə istifadəçi şifrələri hash dəyərləri kimi saxlanır (məsələn, bcrypt, Argon2 ilə).
- Məlumat bütövlüyünün yoxlanması — faylların dəyişdirilib-dəyişdirilmədiyini yoxlamaq üçün hash müqayisəsi aparılır.
- Blokçeyn texnologiyaları — hər bir blokun bütövlüyünü qorumaq üçün hash zənciri qurulur.

Məşhur hash alqoritmləri:

- SHA-256 (Secure Hash Algorithm) – 256-bit nəticə yaradır, blokçeyndə geniş istifadə olunur.
- bcrypt və Argon2 – parol hash-ləmə üçün xüsusi optimallaşdırılmış, daha təhlükəsiz variantlardır.

İdarəetme səviyyəsində həll yolları

Texnoloji həllər ilə yanaşı, məlumat təhlükəsizliyi idarəetmə sisteminin (Information Security Management System – ISMS) formalaşdırılması vacibdir. Bu sistemin əsasında ISO/IEC 27001 standartı dayanır. Hər bir maliyyə qurumu bu standart əsasında daxili təhlükəsizlik siyasətlərini hazırlamalı, məlumatların idarə olunması, saxlanması və paylaşılması üzrə prosedurlar müəyyən etməlidir.

Məlumatlara çıxış "minimum səlahiyyət prinsipi" (least privilege principle) əsasında nizamlanmalıdır. Yəni hər bir əməkdaş yalnız öz vəzifə səlahiyyətinə uyğun məlumatları əldə edə bilməlidir. İşçilər üçün müntəzəm olaraq kibertəhlükəsizlik təlimləri keçirilməli, məlumatların qorunması ilə bağlı məsuliyyət və etik davranış qaydaları izah edilməlidir.

Hüquqi və normativ tədbirlər

Müştəri məlumatlarının qorunması yalnız texniki məsələ deyil, həm də hüquqi məsələdir. Hər bir bank Azərbaycan Respublikasının "Fərdi məlumatların qorunması haqqında" Qanununa**,** həmçinin Avropa İttifaqının GDPR (General Data Protection Regulation) tələblərinə uyğun fəaliyyət göstərməlidir.

Bu tələblərə görə, müştərilər məlumatlarının hansı məqsədlə toplanması, emalı və saxlanması barədə məlumatlandırılmalı, həmçinin istədikləri halda həmin məlumatların silinməsini və ya düzəldilməsini tələb edə bilməlidirlər.

Hüquqi tələblərə əməl olunması ilə yanaşı, bankların daxilində məlumat emalı siyasəti**,** məxfilik müqavilələri **və** insident idarəetmə planı da mövcud olmalıdır. Məlumat sızması baş verdikdə, bu hadisə dərhal araşdırılmalı, müvafiq orqanlara bildirilərək zərərin qarşısı alınmalıdır.

Gələcək texnoloji istiqamətlər

Məsələnin davamlı həlli üçün yeni texnologiyalardan da istifadə olunmalıdır. Məsələn

1.Zero Trust Architecture (Sıfır Etimad Arxitekturası)

Əsas Prinsiplər:

- "Never trust, always verify" fəlsəfəsi
- Hər istifadəçi və cihazın potensial təhdid kimi qəbul edilməsi
- Continuous authentication və authorization
- Micro-segmentation şəbəkə səviyyəsində

Kredit Proseslərində Tətbiqi:

- Kredit müraciətinin hər mərhələsində yenidən doğrulama
- Risk-based authentication sistemləri
- Dynamic access control kredit məlumatlarına
- Real-time threat detection və cavab

2. Homomorphic Encryption (Homomorf Şifrələmə)

Revolutsion Texnologiya: Bu texnologiya şifrələnmiş məlumatlar üzərində birbaşa hesablamalar aparmağa imkan verir. Kredit skorlaması və risk qiymətləndirməsi proseslərində məlumatlar heç vaxt açıq formada işlənmir.

Praktik Faydalar:

- Privacy by design prinsipinin tam həyata keçirilməsi
- Cloud computing üçün mükəmməl təhlükəsizlik
- Multi-party computation banklar arasında
- Regulatory compliance avtomatik təmin edilməsi

3. Quantum-Resistant Cryptography

Kvant Təhdidi və Hazırlıq: Kvant kompüterlərinin inkişafı mövcud RSA və ECC şifrələmə metodlarını köhnəlmiş edəcək. Gələcəkdə post-quantum cryptography standartları tətbiq ediləcək.

Nəticə

1. Məlumat təhlükəsizliyi onlayn kredit sistemlərinin əsas dizayn prinsipi olmalıdır.

İstər backend, istərsə də frontend səviyyəsində müştəri məlumatlarının qorunması yalnız təhlükəsizlik addımı deyil, sistemin etibarlılığı və biznesin davamlılığı üçün vacib komponentdir. Hər bir servis məlumatların məxfiliyi, bütövlüyü və mövcudluğunu təmin etməlidir.

2. Kibertəhlükəsizlik arxitekturası daim inkişaf etdirilməlidir.

Real layihə mühitində şifrləmə (encryption), çoxmərhələli autentifikasiya (2FA, MFA), firewall-lar və DLP (Data Loss Prevention) sistemləri mütəmadi şəkildə yenilənməli, loglama və monitorinq mexanizmləri ilə inteqrasiya olunmalıdır.

3. **Məlumat emalı prosesləri şəffaf və auditə açıq olmalıdır.**

Hər bir API çağırışı və məlumat əməliyyatı loglanmalı, "traceability" təmin edilməlidir. Müştərinin məlumatı ilə bağlı istənilən əməliyyatın

kim tərəfindən və nə vaxt icra olunduğu izlənə bilməlidir.

4. **İnsan faktoru təhlükəsizliyin zəif həlqəsidir.** Developer və DevOps komandaları üçün təhlükəsizlik üzrə təlimlər (security awareness) mütəmadi keçirilməli, xüsusilə "access control", "credential management" və "secrets handling" qaydalarına ciddi riayət olunmalıdır.

5. **Süni intellekt və davranış analitikası ilə təhlükəsizlik hadisələri avtomatlaşdırılmalıdır.** AI əsaslı sistemlər log analizləri vasitəsilə anomaliyaları real vaxtda aşkar edə bilər. Bu, potensial məlumat sızmalarını və icazəsiz girişləri erkən mərhələdə müəyyən etməyə imkan verir.

6. **Hüquqi və standart tələblərə uyğunluq sistem səviyyəsində təmin olunmalıdır.** Məlumat təhlükəsizliyi ISO/IEC 27001 və GDPR kimi standartlara uyğun dizayn edilməli, sistemlərdə "security by design" və "privacy by default" prinsipləri tətbiq edilməlidir.

7. **Müştəri və istifadəçi maarifləndirilməsi texnoloji ekosistemin bir hissəsidir.** UI/UX səviyyəsində istifadəçiyə fişinq, saxta linklər və şübhəli fəaliyyətlərlə bağlı xəbərdarlıqlar göstərilməli, sistem müştərini təhlükəsiz davranışa yönləndirməlidir.

VR və AR əsaslı təlimin effektivliyini ölçmək üçün yeni qiymətləndirmə metodologiyaları hazırlanmalıdır. Ənənəvi testlər immersiv öyrənmə mühitlərinin nəticələrini obyektiv şəkildə əks etdirmir. Bu səbəbdən performans əsaslı testlər, davranış analizi, immersiv öyrənmə göstəriciləri və sosial-emosional inkişaf indikatorları əsasında yeni qiymətləndirmə alətləri formalaşdırılmalıdır. Bu alətlərin elmi etibarlılığı və validliyi təmin

olunmadan, texnologiyanın real təsiri obyektiv şəkildə qiymətləndirilə bilməz.

5.5 Elmi-Tədqiqat Mərkəzlərinin Yaradılması və Multidissiplinar Yanaşma

Universitetlər və elmi-tədqiqat institutları VR və AR texnologiyalarının təhsildə tətbiqi üzrə ixtisaslaşmış mərkəzlər yaratmalı, bu sahədə multidissiplinar tədqiqatlar aparmalıdır. Bu mərkəzlər pedaqogika, psixologiya, kompüter elmləri, dizayn və təhsil siyasəti sahələrinin mütəxəssislərini bir araya gətirərək, yeni təlim modelləri, qiymətləndirmə alətləri və metodoloji yanaşmalar hazırlamalıdır. Tədqiqatların nəticələri beynəlxalq elmi jurnallarda dərc olunmalı, konfranslarda təqdim edilməli və təhsil siyasətinə tövsiyə kimi yönləndirilməlidir.

5.6 Təhsil Siyasətinə İnteqrasiya və Normativ Çərçivələrin Formalaşdırılması

VR və AR texnologiyalarının təhsil sisteminə effektiv inteqrasiyası üçün dövlət səviyyəsində normativ-hüquqi çərçivələrin formalaşdırılması zəruridir. Bu çərçivələr texnologiyanın etik istifadəsi, məlumatların qorunması, müəllim hazırlığı və kurikulum uyğunluğu kimi sahələri əhatə etməlidir. Təhsil siyasətçiləri bu texnologiyaların strateji əhəmiyyətini nəzərə alaraq, uzunmüddətli inkişaf planları hazırlamalı, təhsil müəssisələrinə texniki və metodoloji dəstək verməlidirlər.

ƏDƏBİYYAT SİYAHISI:

1. Alişov, M. Ə. (2023). Virtual reallıq texnologiyasının təhsildə tətbiqi. CyberLeninka. https://cyberleninka.ru/article/n/virtual-realliq-texnologiyasinin-t-hsild-t-tbiqi

2. Akçayır, M., & Akçayır, G. (2017). Advantages and challenges associated with augmented reality for education: A systematic review. Educational Research Review, 20, 1–11. https://doi.org/10.1016/j.edurev.2016.11.002

3. Azərbaycan Məktəbi. (2023). Metavers texnologiyalarının təhsildə rolu. https://as-journal.edu.az/metavers-texnologiyalarinin-t%C6%8Fhsild%C6%8F-rolu

4. Bacca, J., Baldiris, S., Fabregat, R., Graf, S., & Kinshuk. (2014). Augmented reality trends in education: A systematic review of research and applications. Educational Technology & Society, 17(4), 133–149.

5. Cheng, K.-H., & Tsai, C.-C. (2020). A case study of immersive technology to support STEM learning: The perspectives of students and teachers. Computers & Education, 146, 103757. https://doi.org/10.1016/j.compedu.2019.103757

6. Dunleavy, M., Dede, C., & Mitchell, R. (2009). Affordances and limitations of immersive participatory augmented reality simulations for teaching and learning. Journal of Science Education and Technology, 18(1), 7–22. https://doi.org/10.1007/s10956-008-9119-1

7. Radianti, J., Majchrzak, T. A., Fromm, J., & Wohlgenannt, I. (2020). A systematic review of immersive virtual reality applications for higher education: Design elements, lessons learned, and research agenda. Computers & Education, 147, 103778. https://doi.org/10.1016/j.compedu.2019.103778

8. Wu, H.-K., Lee, S. W.-Y., Chang, H.-Y., & Liang, J.-C. (2013). Current status, opportunities and challenges of augmented reality in education. Computers & Education, 62, 41–49. https://doi.org/10.1016/j.compedu.2012.10.024

9. Vetennamine.az. (2023). Virtual reallığın təhsil və təlimə təsiri. https://vetennamine.az/virtual-realligin-tehsil-ve-telime-tesiri/

DOİ: 10.32010/RGTP6532

FROM AUTOMATİON TO İNTELLİGENCE: THE EVOLUTİON OF AI TECHNOLOGIES

Nijat Salahaddin HASANLI
Azerbaijan State Oil and Industry University
Department of Computer Engineering
Email: hasanli.nijat.salahaddin.2023@asoiu.edu.az

Abstract: The evolution of Artificial Intelligence (AI) from basic automation to advanced, adaptive intelligence represents one of the most significant technological shifts in recent history. Early AI systems were built to automate simple, repetitive tasks using fixed, rule-based programming. While these systems improved efficiency, they lacked the ability to learn or adapt. Over the decades, breakthroughs in machine learning, data processing, and neural networks have transformed AI into a dynamic and intelligent force capable of making complex decisions, predicting outcomes, and interacting more naturally with human beings.

This paper examines the developmental trajectory of AI technologies, focusing on the transition from deterministic automation to systems capable of autonomous learning and reasoning. It explores the underlying challenges, such as data dependency, ethical concerns, and the risk of algorithmic bias, while also highlighting emerging solutions, including explainable AI and hybrid human-AI collaboration models. The study offers an integrative perspective on how this transformation affects industries, labor markets, and societal norms. It also reflects on the importance of grounding AI development within ethical and spiritual frameworks to ensure beneficial and balanced progress.

Keywords: Artificial Intelligence, Automation, Machine Learning, Neural Networks, Intelligent Systems, Ethics in AI, AI Evolution, Algorithmic Decision-Making, Explainable AI, Human-AI Interaction.

AVTOMATLAŞDIRMADAN İNTELLEKTƏ DOĞRU: SÜNİ İNTELLEKT TEXNOLOGİYALARININ TƏKAMÜLÜ

Nicat Səlahəddin HƏSƏNLI
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
Kompüter Mühəndisliyi kafedrası
E-poçt: hasanli.nijat.salahaddin.2023@asoiu.edu.az

Xülasə: Süni intellektin (Sİ) əsas avtomatlaşdırmadan qabaqcıl adaptiv zəkaya təkamülü yaxın tarixdə ən əhəmiyyətli texnoloji dəyişikliklərdən birini təmsil edir. İlkin Sİ sistemləri sabit, qayda əsaslı proqramlaşdırmadan istifadə edərək sadə, təkrarlanan tapşırıqları avtomatlaşdırmaq üçün qurulmuşdu. Bu sistemlər səmərəliliyi artırsa da, öyrənmək və ya uyğunlaşmaq qabiliyyətinə malik deyildilər. Son onilliklərdə maşın öyrənməsində, məlumatların emalında və neyron şəbəkələrindəki irəliləyişlər Sİ-ni mürəkkəb qərarlar qəbul etməyə, nəticələri proqnozlaşdırmağa və insanlarla daha təbii qarşılıqlı əlaqədə olmağa qadir olan dinamik və ağıllı bir qüvvəyə çevirmişdir.

Bu məqalədə süni intellekt texnologiyalarının trayektoriyası araşdırılır və deterministik avtomatlaşdırmadan muxtar öyrənmə və düşünmə qabiliyyətinə malik sistemlərə keçidə diqqət yetirilir. Bu tədqiqat məlumatlardan asılılıq, etik məsələlər və alqoritmik qərəz riski kimi əsas problemləri araşdırır və izah edilə bilən süni intellekt və insan-süni intellekt əməkdaşlığının hibrid modelləri də daxil olmaqla, ortaya çıxan həll yollarını vurğulayır. Tədqiqat bu transformasiyanın sənaye sahələrinə, əmək bazarlarına və ictimai normalara necə təsir etdiyinə dair hərtərəfli bir baxış təqdim edir. Həmçinin faydalı və balanslı tərəqqi təmin etmək üçün süni intellekt inkişafının etik və mənəvi prinsiplərə əsaslanmasının vacibliyini də nəzərə alır.

Açar sözlər: Süni intellekt, Avtomatlaşdırma, Maşın öyrənməsi, Neyron şəbəkələri, Ağıllı Sistemlər, Süni intellektdə etika, Süni intellekt təkamülü, Alqoritmik qərar qəbuletmə, İzah edilə bilən süni intellekt, İnsan-süni intellekt əməkdaşlığı.

ОТ АВТОМАТИЗАЦИИ К ИНТЕЛЛЕКТУ: ЭВОЛЮЦИЯ ТЕХНОЛОГИЙ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА

Ниджат Салахаддин ХАСАНЛИ
Азербайджанский государственный университет нефти и промышленности
кафедра Компьютерной инженерии
Электронная почта: hasanli.nijat.salahaddin.2023@asoiu.edu.az

Резюме: Эволюция искусственного интеллекта (ИИ) от базовой автоматизации к продвинутому адаптивному интеллекту представляет собой один из наиболее значительных технологических сдвигов в новейшей истории. Ранние системы ИИ создавались для автоматизации простых, повторяющихся задач с использованием фиксированного программирования на основе правил. Хотя эти системы повышали эффективность, им не хватало способности к обучению или адаптации. За прошедшие десятилетия прорывы в машинном обучении, обработке данных и нейронных сетях превратили ИИ в динамичную и интеллектуальную силу, способную принимать сложные решения, прогнозировать результаты и более естественно взаимодействовать с людьми.
В данной статье рассматривается траектория развития технологий искусственного интеллекта, с акцентом на переход от детерминированной автоматизации к системам, способным к автономному обучению и рассуждению. Исследуются основные проблемы, такие как зависимость от данных, этические вопросы и риск алгоритмической предвзятости, а также освещаются новые решения, включая объяснимый ИИ и гибридные модели взаимодействия человека и ИИ. Исследование предлагает комплексный взгляд на то, как эта трансформация влияет на отрасли, рынки труда и общественные нормы. Также рассматривается важность обоснования развития ИИ этическими и духовными принципами для обеспечения полезного и сбалансированного прогресса.
Ключевые слова: Искусственный интеллект, Автоматизация, Машинное обучение, Нейронные сети, Интеллектуальные системы, Этика в ИИ, Эволюция ИИ, Алгоритмическое принятие решений, Объяснимый ИИ, Взаимодействие человека и ИИ.

Introduction

In the last century, technological advancement has continuously reshaped the way humans live, work, and think. Among these advancements, Artificial Intelligence (AI) stands out as one of the most transformative forces of our time. Initially developed to perform routine and repetitive tasks, AI technologies began as automated systems designed to increase efficiency and reduce human labor. However, over time, these systems have evolved into increasingly intelligent entities capable of learning, adapting, and making decisions—often in real time and with minimal human intervention.

This transition from automation to intelligence is not merely a technical one; it reflects deeper changes in our understanding of what machines can do and how they should function within human-centered environments. As AI continues to advance, it becomes crucial to distinguish between mere automation—where systems follow predefined rules—and true intelligence—where systems can learn from data, identify patterns, and make informed decisions.

This article aims to explore this evolution in detail, identifying the key technological milestones, philosophical implications, and real-world applications that have driven AI from its humble beginnings to its current sophistication. Moreover, it will investigate the problems that arise from this progression, propose solutions rooted in both innovation and ethics, and engage in a discussion about the broader impact of intelligent systems on society.

Materials

While the rise of Artificial Intelligence has brought unprecedented capabilities to numerous fields, the transition from automation to intelligence presents both technical and societal challenges that must not be overlooked. The early phase of automation focused on executing predefined instructions with speed and accuracy, requiring minimal contextual understanding. However, as AI systems evolve to simulate human-like intelligence, they begin to operate in domains that involve judgment, nuance, ethics, and uncertainty.

This shift raises several critical problems:

1. **Ambiguity in Definition**: The boundary between automation and true intelligence is often blurred. Many systems labeled as “AI” are in fact advanced forms of automation lacking genuine learning or adaptive reasoning.
2. **Over-Reliance and Misapplication**: Businesses and governments may deploy AI technologies in sensitive areas such as hiring, criminal justice, or healthcare without fully understanding their limitations. This can lead to decisions that are opaque, unaccountable, or biased.
3. **Ethical and Social Risks**: Intelligent systems that learn from data can inherit and amplify human biases. Moreover, as AI begins to influence more aspects of daily life, concerns about surveillance,

autonomy, and job displacement become more pronounced.

4. **Lack of Transparency and Explainability**: Many modern AI models, especially those based on deep learning, operate as "black boxes," making it difficult to trace how decisions are made. This undermines trust and accountability.

5. **Spiritual and Moral Disconnect**: As technology advances rapidly, it often outpaces ethical reflection. There is a growing need to align AI development with values that prioritize human dignity, fairness, and moral responsibility, including perspectives rooted in faith and holistic wisdom.

Addressing these problems is vital not only for advancing AI responsibly but also for ensuring that intelligent technologies serve humanity in a just, balanced, and spiritually conscious manner. Without thoughtful consideration of these issues, the benefits of AI risk being overshadowed by unintended consequences.

Method

Effectively addressing the challenges arising from the evolution of AI technologies requires a comprehensive and well-balanced approach. This includes advancing technical capabilities while ensuring that systems remain reliable, fair, and aligned with human values. Below are several strategies that support the responsible development and deployment of AI.

1. Clarifying the Boundary Between Automation and Intelligence

A clear distinction must be made between automation — which relies on predefined rules and fixed logic — and intelligent systems, which are capable of learning, adapting, and making context-aware decisions. This clarification helps prevent misuse of terminology and enables more accurate assessments of system capabilities and risks.

2. Ethical and Human-Centered Design

AI systems should be developed with careful attention to ethical considerations. This includes efforts to prevent bias, ensure fairness, and protect user privacy. Practical measures include:

- Conducting regular audits for bias
- Designing systems that provide clear and understandable explanations of their outputs
- Using training data that accurately represents the diversity of the intended user base

3. Improving Transparency and Explainability

For AI systems to be trustworthy and accountable, their decision-making processes need to be interpretable. Techniques in explainable AI (XAI) can help users and stakeholders understand how decisions are made, particularly in high-stakes domains such as finance, healthcare, and legal services.

4. Promoting Human-AI Collaboration

Instead of aiming to replace human roles entirely, AI systems should complement human expertise. Hybrid systems that integrate machine efficiency with human judgment are better suited for tasks requiring ethical reasoning, situational awareness, or emotional intelligence.

5. Establishing Global Standards and Oversight

To prevent misuse and ensure consistency, governments, researchers, and industry leaders should work together to develop global standards and regulatory frameworks. These should address data security, fairness, transparency, and responsible use while encouraging innovation and knowledge sharing across borders.

Discussion

The evolution of AI from simple automation to advanced intelligence has far-reaching implications across multiple dimensions, including technology, economy, and society. This transformation invites both opportunities and challenges that require careful analysis.

Technologically, the shift towards intelligent systems brings significant improvements in flexibility, efficiency, and capability. Machine learning algorithms and neural networks enable AI to perform complex tasks such as natural language understanding, image recognition, and predictive analytics. These advances allow AI to move beyond rigid, rule-based systems toward adaptive models that improve over time with experience.

Economically, intelligent AI systems have the potential to reshape industries by automating routine tasks and augmenting human work. While this can increase productivity and innovation, it also raises concerns about job displacement and workforce transitions. Preparing for these shifts involves retraining, education, and creating new roles that leverage uniquely human skills like creativity and emotional intelligence.

From a societal perspective, the rise of intelligent AI amplifies ethical questions around privacy, fairness, and accountability. The reliance on data-driven models can introduce or reinforce biases if not carefully managed. Transparency becomes essential to maintain public trust and ensure that AI decisions can be scrutinized and understood.

Furthermore, the integration of AI into critical domains such as healthcare, law enforcement, and finance demands a balanced approach. The benefits of efficiency and precision must be weighed against risks of errors, misuse, or unintended consequences.

Collaborative human-AI systems may offer the best path forward by combining machine strengths with human judgment and oversight.

In sum, the discussion highlights the need for ongoing dialogue among technologists, policymakers, and society to navigate the evolving AI landscape. By fostering responsible innovation and addressing the challenges proactively, the full potential of intelligent AI can be harnessed for the common good.

Conclusion

The journey of Artificial Intelligence from simple automation to advanced intelligence reflects a profound transformation in technology and its role in society. This evolution has enabled machines to perform increasingly complex tasks with greater autonomy and adaptability, offering significant benefits in efficiency, decision-making, and innovation.

However, this progression also introduces important challenges related to ethical use, transparency, and social impact. Clear distinctions between automation and intelligence, ethical design principles, transparency, human-AI collaboration, and global cooperation are all essential components of a responsible AI future.

By addressing these challenges thoughtfully, stakeholders can ensure that AI technologies not only advance technical capabilities but also align with human values and societal needs. This balanced approach will help maximize the positive impact of AI, while minimizing risks and unintended consequences.

Continued research, dialogue, and collaboration will guide the ongoing evolution of AI, creating intelligent systems that contribute meaningfully and responsibly to our world.

REFERENCES:

1. Russell, S., & Norvig, P. (2020). Artificial Intelligence: A Modern Approach (4th ed.). Pearson.
2. Goodfellow, I., Bengio, Y., & Courville, A. (2016). Deep Learning. MIT Press.
3. Domingos, P. (2015). The Master Algorithm: How the Quest for the Ultimate Learning Machine Will Remake Our World. Basic Books.
4. Floridi, L. (2019). The Ethics of Artificial Intelligence. In The Cambridge Handbook of Artificial Intelligence (pp. 316-334). Cambridge University Press.
5. Dignum, V. (2018). Responsible Artificial Intelligence: Designing AI for Human Values. ITU Journal: ICT Discoveries.
6. Bostrom, N. (2014). Superintelligence: Paths, Dangers, Strategies. Oxford University Press.
7. Gunning, D. (2017). Explainable Artificial Intelligence (XAI). Defense Advanced Research Projects Agency (DARPA).

DOİ: 10.32010/CAHX2216

AKADEMİK KİTABXANALARIN UNİVERSİTETLƏRİN ÜÇÜNCÜ MİSSİYASININ HƏYATA KEÇİRİLMƏSİNDƏ ROLU

Aysel Vaqif HƏSƏNOVA
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Muzeyşünaslıq və turizm kafedrasının baş müəllimi
Bakı Dövlət Universiteti
İnformasiya və sənəd menecmenti fakültəsi
Orcid: https://orcid.org/0000-0002-4984-0401
E-mail: aysel.hasanova@admiu.edu.az

Xülasə: Məqalə universitetlərin ənənəvi funksiyalarını təhsil və tədqiqatla yanaşı, onların üçüncü missiyası olan cəmiyyətə xidmət missiyasını və bu prosesdə akademik kitabxanaların rolunu araşdırır. Müəllif qeyd edir ki, müasir dövrdə universitetlər yalnız bilik ötürən və elmi tədqiqat aparan müəssisələr olmaqdan çıxaraq, sosial, iqtisadi və mədəni inkişafın əsas aktorlarına çevriliblər. Bu baxımdan üçüncü missiya universitetlərin sosial məsuliyyətini gücləndirir və onların fəaliyyətini ictimai fayda ilə əlaqələndirir. Akademik kitabxanalar isə universitetlərin üçüncü missiyasının həyata keçirilməsində strateji mərkəz kimi çıxış edirlər. Onlar yalnız informasiya təminatçısı deyil, həm də ömürboyu öyrənməni təşviq edən, icmalarla əməkdaşlıq edən və sosial layihələri dəstəkləyən platformalardır. Məqalədə kitabxanaların üç əsas istiqamətdə fəaliyyət göstərdiyi vurğulanır: innovasiya və sahibkarlıq fəaliyyətlərinə dəstək, sosial fəallıq və icma ilə əlaqə, həmçinin fasiləsiz təhsil və savadlılığın təşviqi. Nümunə kimi, müxtəlif universitetlərin kitabxanalarının açıq resurslar təqdim etməsi, "makerspace" mərkəzləri yaratması, sosial layihələrdə iştirakı və ictimai seminarlar təşkil etməsi göstərilir. Bu fəaliyyətlər kitabxanaların cəmiyyətlə universitet arasında körpü rolunu oynadığını sübut edir. Lakin müəllif həmçinin maliyyə məhdudiyyətləri, kadr çatışmazlığı, texnoloji infrastruktur problemləri və koordinasiya çatışmazlığı kimi çətinlikləri də qeyd edir. Nəticədə vurğulanır ki, akademik kitabxanaların sosial rolu gələcəkdə daha da genişlənəcək. Rəqəmsal resurslardan məqsədyönlü istifadə, universitetin müxtəlif bölmələri ilə əməkdaşlıq və açıq elm təşəbbüslərinin dəstəklənməsi kitabxanaların universitetlərin üçüncü missiyasına verdiyi töhfəni gücləndirəcək. Beləliklə, akademik kitabxanalar yalnız məlumat mərkəzi deyil, həm də sosial dəyişiklik katalizatoru və cəmiyyətin inkişafında əsas strateji tərəfdaş kimi mövqelərini möhkəmləndirəcəklər.
Açar sözlər: Akademik kitabxanalar, Universitetlərin üçüncü missiyası, Sosial məsuliyyət, İcma ilə əməkdaşlıq, Ömürboyu öyrənmə, Rəqəmsal transformasiya, Sosial innovasiya

THE ROLE OF ACADEMIC LIBRARIES IN IMPLEMENTING THE THIRD MISSION OF UNIVERSITIES

Aysel Vagif HASANOVA
Azerbaijan State University of Culture and Arts
Senior Lecturer, Department of Museology and Tourism
Baku State University
Faculty of Information and Document Management
Orcid: https://orcid.org/0000-0002-4984-0401
E-mail: aysel.hasanova@admiu.edu.az

Abstract: The article examines the traditional functions of universities, along with education and research, their third mission of serving society, and the role of academic libraries in this process. The author notes that in modern times, universities have ceased to be only institutions that transmit knowledge and conduct scientific research, and have become key actors in social, economic and cultural development. In this regard, the third mission strengthens the social responsibility of universities and connects their activities with public benefit. Academic libraries act as a strategic center in the implementation of the third mission of universities. They are not only information providers, but also platforms that promote lifelong learning, cooperate with communities and support social projects. The article emphasizes that libraries operate in three main directions: supporting innovation and entrepreneurial activities, social activism and community relations, as well as promoting lifelong learning and literacy. As an example, the provision of open resources by libraries of various universities, the creation of "makerspace" centers, participation in social projects and the organization of public seminars are shown. These activities prove that libraries play a role of a bridge between society and the university. However, the author also notes challenges such as financial constraints, staff shortages, technological infrastructure problems, and lack of coordination. As a result, it is emphasized that the social role of academic libraries will expand even further in the future. Purposeful use of digital resources, cooperation with different departments of the university, and support for open science initiatives will strengthen the contribution of libraries to the third mission of

universities. Thus, academic libraries will strengthen their position not only as information centers, but also as catalysts of social change and key strategic partners in the development of society.
Keywords: Academic libraries, Third mission of universities, Social responsibility, Collaboration with the community, Lifelong learning, Digital transformation, Social innovation.

РОЛЬ АКАДЕМИЧЕСКИХ БИБЛИОТЕК В РЕАЛИЗАЦИИ ТРЕТЬЕЙ МИССИИ УНИВЕРСИТЕТОВ

Айсель Вагиф ГАСАНОВА
Азербайджанский Государственный Университет Культуры И Искусств
кафедра Музееведения и туризма
Бакинский Государственный Университет
факультет Информации и документооборота
Orcid: https://orcid.org/0000-0002-4984-0401
Электронная почта: aysel.hasanova@admiu.edu.az

Резюме: В статье рассматривается не только образовательная и исследовательская функции университетов, но и их третья миссия – служение обществу, а также роль академических библиотек в этом процессе. Автор отмечает, что в современном мире университеты перестали быть лишь институтами передачи знаний и проведения научных исследований, превратившись в ключевых участников социального, экономического и культурного развития. В связи с этим третья миссия усиливает социальную ответственность университетов и связывает их деятельность с общественным благом. Академические библиотеки выступают стратегическим центром в реализации третьей миссии университетов. Они являются не только поставщиками информации, но и платформами, способствующими непрерывному обучению, взаимодействию с сообществами и поддержке социальных проектов. В статье подчёркивается, что библиотеки работают по трём основным направлениям: поддержка инноваций и предпринимательской деятельности, социальный активизм и связи с сообществами, а также содействие непрерывному обучению и повышению грамотности. В качестве примера приводится предоставление открытых ресурсов библиотеками различных университетов, создание центров «мейкерспейс», участие в социальных проектах и организация публичных семинаров. Эти виды деятельности подтверждают роль библиотек как моста между обществом и университетом. Однако автор также отмечает такие проблемы, как финансовые ограничения, нехватка кадров, проблемы с технологической инфраструктурой и отсутствие координации. В связи с этим подчёркивается, что социальная роль академических библиотек в будущем будет ещё больше расширяться. Целенаправленное использование цифровых ресурсов, сотрудничество с различными подразделениями университета и поддержка инициатив в области открытой науки укрепят вклад библиотек в реализацию третьей миссии университетов. Таким образом, академические библиотеки укрепят свои позиции не только как информационные центры, но и как катализаторы социальных изменений и ключевые стратегические партнёры в развитии общества.
Ключевые слова: академические библиотеки, Третья миссия университетов, Социальная ответственность, Сотрудничество с сообществом, Непрерывное обучение, Цифровая трансформация, Социальные инновации

Giriş

Universitet anlayışı tarixən elmi biliklərin sistemləşdirildiyi və nəsildən-nəsilə ötürüldüyü təhsil müəssisəsi kimi qəbul edilir. Ənənəvi yanaşmalara görə universitet yalnız təhsil və tədqiqat fəaliyyətləri ilə məşğul olan müəssisə hesab olunur. Lakin müasir dövrdə universitet anlayışı daha geniş mənaya malikdir və onun funksiyaları yalnız auditoriyada dərs demək və laboratoriyada tədqiqat aparmaqla məhdudlaşmır. Belə ki, müasir universitetlər cəmiyyətin inkişafında mühüm rol oynayır, çünki onlar bilik və texnologiyanın mərkəzi olmaqla yanaşı, sosial və iqtisadi problemlərin həllinə də töhfə verirlər. Bu müəssisələr yeni ideyalar, innovativ həllər və təcrübə əsasında cəmiyyətin ehtiyaclarına uyğun layihələr təqdim edir. Eyni zamanda universitetlər, yerli və qlobal icmalarla əməkdaşlıq edərək, maarifləndirmə, mədəniyyətin qorunması, sosial təşəbbüslərin dəstəklənməsi və ictimai məlumatlılığın artırılması sahələrində aktiv iştirak edirlər. Beləliklə, müasir universitet cəmiyyət üçün sadəcə bilik mənbəyi deyil, həm də sosial transformasiya və davamlı inkişafın stimulyatoru kimi çıxış edir.

Universitetlərin fəaliyyətini əsasən üç missiya üzərində qurmaq olar. Birinci missiya təhsildir və bu, gənc nəsillərin bilik və bacarıqlarla təmin olunmasını nəzərdə tutur. Universitetlər yalnız nəzəri bilik ötürən mərkəzlər deyil, eyni zamanda tələbələrin analitik düşüncə və yaradıcı bacarıqlarını inkişaf etdirən mühit hesab olunur. İkinci missiya tədqiqat fəaliyyəti ilə bağlıdır. Bu missiya universitetləri biliklərin istehsalçısı kimi ortaya yeni məlumatlar, texnologiyalar və metodlar qoyan institutlara çevirir.

Burada əsas məqsəd cəmiyyətin inkişafına və elmi tərəqqiyə töhfə verməkdir. Üçüncü missiya isə cəmiyyətə xidmət missiyasıdır və universitetlərin ictimai həyatla daha sıx əlaqədə olmasını tələb edir. Bu, yalnız təhsil və tədqiqatla məhdudlaşmır, eyni zamanda universitetlərin bilik və resurslarını sosial, iqtisadi və mədəni sahələrdə cəmiyyətin ehtiyaclarını qarşılamaq üçün yönləndirməsi deməkdir.

Nəzəriyyə

Universitetlərin üçüncü missiyası, yəni cəmiyyətə xidmət missiyası, müasir dövrdə əvvəlkindən daha aktualdır. Bu missiya universitetlərin yalnız bilik ötürən və elmi tədqiqat aparan institutlar kimi deyil, həm də ictimai problemlərin həllinə töhfə verən sosial aktorlar kimi fəaliyyət göstərməsini nəzərdə tutur. Sürətlə dəyişən qlobal reallıqlar, texnoloji inqilablar və sosial problemlər universitetləri cəmiyyətlə daha sıx əlaqə qurmağa vadar edir. Belə bir yanaşma universitetlərin ictimai məsuliyyətini gücləndirir və onların fəaliyyətini yalnız akademik müstəvidə deyil, həm də sosial və iqtisadi sahələrdə ölçülə bilən hala gətirir.

Sosial məsuliyyət universitetlərin təhsil və tədqiqat fəaliyyətlərinin nəticələrini cəmiyyətin inkişafına yönəltməsini tələb edir (Reichert, 2019). Bu, elmi biliklərin praktiki tətbiqini, yerli icmalarla əməkdaşlığı, sosial təşəbbüslərin dəstəklənməsini və davamlı inkişafın təşviqini əhatə edir. Universitetlər həmçinin tələbələrə və gənc alimlərə etik və sosial yönümlü düşüncə tərzini aşılamaqla gələcək nəsillərin cəmiyyətə faydalı olmasına şərait yaradır. Nəticədə üçüncü missiyanın aktuallığı yalnız universitetlərin cəmiyyətlə əlaqəsini gücləndirmir, həm də onların sosial məsuliyyətini formalaşdıraraq bilik və fəaliyyətlərini ümumi fayda prinsipi üzərində qurmalarını təmin edir.

Akademik kitabxanalar universitetlərin üçüncü missiyasının həyata keçirilməsində əvəzolunmaz resurs və platforma rolunu oynayır. Bu kitabxanalar təkcə məlumatların saxlandığı və tələbələr üçün oxu mühiti təmin edən yerlər deyil, həm də cəmiyyətə bilik çatdırmaq, ictimai maarifləndirmə və sosial təşəbbüsləri dəstəkləmək imkanlarına malik institutlardır. Akademik kitabxanalar vasitəsilə universitetlərin tədqiqat nəticələri, elmi nəşrlər və məlumat resursları yalnız universitet daxilində deyil, daha geniş ictimaiyyət üçün əlçatan olur. Bundan əlavə, kitabxanalar yerli icmalarla əməkdaşlıq edərək və müxtəlif proqramlar təşkil edərək sosial və mədəni layihələrdə aktiv iştirak edə bilirlər. Onlar innovativ texnologiyalar və rəqəmsal resurslardan istifadə edərək cəmiyyətdə məlumatlılığı artırmaq, tələbələrin və gənc alimlərin ictimai məsuliyyətini formalaşdırmaq üçün şərait yaradırlar. Akademik kitabxanalar universitetlərin üçüncü missiyasını dəstəkləyən strateji mərkəz kimi çıxış edir və biliklərin cəmiyyətə fayda verməsində mühüm rol oynayırlar.

Araşdırmanın əsas məqsədi universitetlərin üçüncü missiyasının həyata keçirilməsində akademik kitabxanaların rolunu araşdırmaq və onların sosial, mədəni, elmi və iqtisadi müstəvidə cəmiyyətə verdiyi töhfələri göstərməkdir. Əsas hədəf yalnız kitabxanaların ənənəvi funksiyalarını deyil, həm də onların innovasiya, icma ilə əməkdaşlıq, ömürboyu öyrənmə və sosial məsuliyyət sahələrindəki fəaliyyətlərini elmi-nəzəri baxımdan əsaslandırmaqdır. Mövzunun əhəmiyyəti ondadır ki, müasir dövrdə universitetlərin yalnız təhsil və tədqiqat funksiyaları ilə məhdudlaşmadığı, cəmiyyətə xidmət funksiyasının da getdikcə önəm qazandığı şəraitdə kitabxanaların strateji rolunu üzə çıxarır. Bu yanaşma həm ali təhsil siyasəti, həm də informasiya idarəçiliyi üçün mühüm nəzəri və praktik nəticələr meydana çıxarır. Aktuallıq isə qloballaşma, rəqəmsal transformasiya və sosial dəyişikliklər fonunda universitetlərin cəmiyyətlə daha sıx inteqrasiyası tələbi ilə əlaqəlidir. Akademik kitabxanalar bu inteqrasiyanın ən dinamik və effektiv vasitələrindən biridir və onların funksiyalarının yeni kontekstdə öyrənilməsi günümüzdə xüsusi aktuallıq kəsb edir.

Metod

Tədqiqatın həyata keçirilməsində elmi-nəzəri və analitik metodlardan istifadə olunmuşdur. İlk olaraq mövzu ilə bağlı beynəlxalq və yerli elmi ədəbiyyat, konseptual yanaşmalar və modellər (məsələn, "Triple Helix" modeli, regional inkişaf nəzəriyyələri və sosial məsuliyyət konsepsiyası) öyrənilmişdir. Müqayisəli təhlil metodu vasitəsilə müxtəlif universitet və kitabxanaların praktiki fəaliyyətləri araşdırılmış, müasir təcrübələr və problemlər müqayisə edilmişdir. Sistemli yanaşma ilə universitetlərin üçüncü missiyası və kitabxanaların funksiyaları qarşılıqlı əlaqədə nəzərdən keçirilmiş, onların sosial, iqtisadi və mədəni təsirləri vahid konseptual çərçivədə dəyərləndirilmişdir.

Nəticələr. Araşdırma göstərir ki:

- Akademik kitabxanalar universitetlərin üçüncü missiyasının həyata keçirilməsində yalnız informasiya təminatçısı deyil, həm də sosial dəyişiklik katalizatoru, ömürboyu öyrənmə və innovasiya dəstəkçisi kimi çıxış edirlər.
- Onlar ictimaiyyət üçün açıq resursların təqdimatı, sosial layihələrin təşkili, icmalarla əməkdaşlıq, mədəni irsin qorunması və innovativ fəaliyyətlər vasitəsilə universitetlərin sosial təsirini artırır.
- Rəqəmsal resursların və yeni texnologiyaların istifadəsi kitabxanaların rolunu daha da

genişləndirərək, biliklərin paylaşılmasını və sosial inklüzivliyi təmin edir.

- Əldə olunan nəticələr göstərir ki, akademik kitabxanaların funksiyaları universitetlərin strateji prioritetləri ilə inteqrasiya olunduqda, onların sosial məsuliyyət və regional inkişafdakı rolu daha səmərəli olur.

Müzakirə

Universitetlərin üçüncü missiyasının nəzəri əsasları. Universitetlərin üçüncü missiyası anlayışı ənənəvi təhsil və tədqiqat funksiyalarını tamamlayan cəmiyyətə xidmət missiyasını ifadə edir. (Reichert, 2019) Ənənəvi baxışda universitet yalnız bilik ötürən və elmi araşdırmalar aparan institut kimi qəbul edilirdisə, müasir yanaşmalar onun cəmiyyətlə sıx qarşılıqlı əlaqəsini ön plana çıxarır. Bu missiyanın konseptual əsasını universitetin sosial transformasiya agenti kimi rolu təşkil edir. O, cəmiyyətin ehtiyaclarını anlamaq və elmi bilikləri praktik tətbiqlərə çevirmək funksiyasını daşıyır. Tarixi inkişafına baxdıqda, üçüncü missiyanın kökləri orta əsrlərə, universitetlərin sosial və dini funksiyaları ilə bağlı fəaliyyətlərinə qədər uzanır. Lakin XX əsrdə, xüsusilə sənaye və texnoloji inqilab dövründə, universitetlər yalnız elmi bilik istehsal edən mərkəzlər olmaqla kifayətlənməyib, regional inkişaf və sosial innovasiyalarda fəal iştirak etməyə başladılar.

Universitetlərin üçüncü missiyası, yəni cəmiyyətə xidmət missiyası, son illərdə ali təhsil sahəsində nəzəri diskussiyaların mərkəzində dayanır və bir çox dünya alimləri tərəfindən müxtəlif aspektlərdə araşdırılmışdır. Ənənəvi olaraq universitetlər yalnız təhsil və tədqiqat funksiyaları ilə xarakterizə olunurdusa, müasir yanaşmalarda onların sosial roluna və cəmiyyətlə əlaqəsinə xüsusi diqqət yetirilir. Klark (Clark, 2005) müasir universiteti "*elmi bilik istehsal edən və bu bilikləri cəmiyyətin inkişafına yönəldən institut*" kimi təsvir edir və üçüncü missiyanın universitetlərin strateji fəaliyyətinin ayrılmaz hissəsi olduğunu vurğulayır. Eyni zamanda Etzkovitz və Leydesdorf (Etzkowitz & Leydesdorff, 1997) "Triple Helix" modeli vasitəsilə universitet, sənaye və dövlət arasında qarşılıqlı əlaqənin iqtisadi və sosial inkişaf üçün zəruri olduğunu göstərirlər. Bu model universitetlərin yalnız təhsil və tədqiqatla kifayətlənməyib, cəmiyyətin ehtiyaclarına cavab verməsini nəzəri cəhətdən əsaslandırır. Bundan əlavə Qoddard (2009) universitetlərin regional inkişafda rolunu vurğulayaraq onların bilik mərkəzi olaraq iqtisadi, sosial və mədəni transformasiyaya töhfə verə biləcəyini qeyd edir (Doljenko, 2000, s.24-30). O, üçüncü missiyanın cəmiyyətlə əlaqəni yalnız proqramlar və layihələr vasitəsilə deyil, universitetin strateji prioritetləri və dayanıqlı inkişaf prinsipləri çərçivəsində dəstəklənməli olduğunu bildirir. Bu nəzəri yanaşmalar göstərir ki, universitetlərin üçüncü missiyası sadəcə əlavə bir funksional rol deyil, onların ümumi fəaliyyət konsepsiyasının ayrılmaz tərkib hissəsidir və həm yerli, həm də qlobal səviyyədə cəmiyyətə bilik əsaslı töhfə verməyi hədəfləyir.

Universitetlər üçüncü missiyanı həyata keçirərkən cəmiyyətə müxtəlif yollarla töhfə verirlər (Kudryashova & Sorokin, 2020). Bu yollar arasında ictimai layihələr xüsusi önəm daşıyır. Universitetlər sosial problemlərin həlli, ekoloji təşəbbüslərin təşkili və ictimai maarifləndirmə sahəsində proqramlar həyata keçirirlər (Mulholland et., 2017). Eyni zamanda sənaye və bizneslə əməkdaşlıq universitetlərin iqtisadi və texnoloji inkişafın stimulyatoru rolunu gücləndirir. Bu əməkdaşlıq sayəsində universitetlər yeni texnologiyaların inkişafına töhfə verir, startap layihələrini dəstəkləyir və bilik əsaslı innovasiyaların kommersiyalaşdırılmasını təmin edirlər.

Mədəni fəaliyyətlər isə universitetlərin cəmiyyətlə əlaqəsini gücləndirən digər bir sahədir (Chatterton, 1999). Elmi konfranslar, sərgilər, mədəni proqramlar və ictimai debatlar vasitəsilə universitetlər həm yerli icmaların bilik səviyyəsini artırır, həm də mədəni dəyərlərin qorunmasına və inkişafına dəstək göstərir. Beləliklə, universitetlərin cəmiyyətə töhfəsi yalnız akademik sahədə deyil, həm sosial, həm iqtisadi, həm də mədəni müstəvidə özünü göstərir.

Üçüncü missiya universitetlərin sosial məsuliyyət anlayışı ilə sıx bağlıdır (Godonoga & Sporn, 2023). Sosial məsuliyyət, universitetlərin fəaliyyətlərinin nəticələrini yalnız akademik müstəvidə deyil, həm də cəmiyyət üçün ölçülə bilən və faydalı şəkildə yönləndirməsini tələb edir. Bu missiya universitetlərin bilik və resurslarını cəmiyyətin inkişafına, ictimai problemlərin həllinə, yerli icmaların maarifləndirilməsinə və sosial təşəbbüslərin dəstəklənməsinə yönəltmək funksiyasını daşıyır. Eyni zamanda üçüncü missiya tələbələr və gənc alimlər üçün etik və sosial yönümlü düşüncə tərzini formalaşdıraraq gələcək nəsillərin cəmiyyətə faydalı olmasına şərait yaradır. Bu missiya yalnız universitetlərin cəmiyyətlə əlaqəsini gücləndirmir, həm də onların sosial məsuliyyətini konkret fəaliyyətlər və layihələr vasitəsilə həyata keçirməsini təmin edir. Bu missiya universitetin müasir dövrdəki sosial rolunu və cəmiyyət qarşısındakı öhdəliyini nəzəri və praktik baxımdan əsaslandırır.

Akademik kitabxanaların funksiyaları və üçüncü missiyaya təsiri. XXI əsrdə ali təhsildə baş

verən sosial transformasiyalar, kütləvi təhsil sisteminə keçid, sosial inklüzivlik təşəbbüsləri və qloballaşmanın sürətlənməsi universitetlərin funksional çərçivəsini genişləndirmişdir (Altbach & Peterson, 1999). Bu yeni kontekstdə universitetlərin yalnız təhsil və tədqiqatla məhdudlaşmayan, eyni zamanda iqtisadi və sosial sahələrdə rolu ön plana çıxmışdır. Belə bir yanaşma "Üçüncü missiya" anlayışı ilə ifadə edilir. Üçüncü missiya universitetlərin cəmiyyət və iqtisadiyyatla birbaşa qarşılıqlı əlaqəsini nəzərdə tutur və onların rolunu kampusdan kənara çıxaraq ictimai fayda təmin etməyə qədər genişləndirir.

Akademik kitabxanalar bu sosial dönüşün aktiv iştirakçıları olaraq öz funksiyalarını yenidən müəyyənləşdirmişlər. Onların Üçüncü missiyanın həyata keçirilməsindəki rolu, əsasən, kampus hüdudlarından kənarda biznes sektoruna, yerli icmalara və vətəndaş cəmiyyətinə xidmət göstərməkdən ibarətdir. Bu rolun əsas mahiyyəti üç istiqaməti əhatə edir: fasiləsiz təhsil və ömürboyu öyrənmə, texnoloji transfer və innovasiyalar, həmçinin sosial fəallıq və icma ilə əlaqə. Akademik kitabxanalar bu istiqamətlərin hər birində müxtəlif fəaliyyətlər həyata keçirərək universitetin sosial missiyasına töhfə verirlər (Schlak et., 2021).

İlk istiqamət, sahibkarlıq və innovasiya fəaliyyətlərində dəstək, texnoloji transfer və biznes məlumat bacarıqlarını əhatə edir. Universitetlərin Üçüncü missiyasının bu hissəsi kitabxanaların uzun müddət ərzində apardığı fəaliyyətlərin davamıdır. Kitabxanalar sənaye ilə əməkdaşlıq edərək elm parkları, korporativ istifadəçilər və startaplar üçün ixtisaslaşmış məlumat resurslarını təmin edir, məlumat məsləhətləri verir və biznes araşdırmalarında dəstək olurlar.

XX əsrin sonlarından etibarən bu rol genişlənmiş, biznes kitabxanaçılarının funksiyaları texnoloji transfer və sahibkarlıq proqramlarına uyğun olaraq daha da artmışdır. Onlar biznes informasiya səriştəsini təşviq edir, elmi-texniki sahədə fəaliyyət göstərən sahibkarlara bazar araşdırmaları və biznes planlaşdırma resursları təqdim edirlər.

XXI əsrdə "makerspace" mərkəzlərinin inkişafı universitet-sənaye-icma əməkdaşlığını gücləndirmişdir. Kitabxanalar, məsələn, Ohayo Universitetində CoLab kimi mərkəzlər yaradaraq layihələr və ideyalar arasında interaktiv əlaqəni asanlaşdırır, həmçinin intellektual mülkiyyət məsələləri ilə bağlı təlim və dəstək təqdim edirlər.

İkinci istiqamət sosial fəallıq və icma ilə əlaqədir. Akademik kitabxanalar icma ilə əməkdaşlıq missiyasını genişləndirərək kolleksiyalara çıxışı artırır, ömürboyu öyrənməni təşviq edir və vətəndaş cəmiyyəti üçün ictimai məkanlar təmin edirlər (Gibbons & Nowotny, 2001). Bu yanaşma sadə təbliğatdan, yəni yalnız məlumat təqdim etmədən, fəallığa, yəni icma üzvləri ilə birgə fəaliyyət göstərməyə keçidi əhatə edir və davamlı qarşılıqlı əlaqələr vasitəsilə icma gündəliyinə təsir göstərir. Kitabxanaçılar vətəndaş savadlılığını gücləndirir, sosial kapitalı formalaşdırır və bu prosesdə vətəndaş informasiya mərkəzləri, onlayn irs sərgiləri, icma tarixi portalları və könüllülük əsaslı transkripsiya fəaliyyətlərindən istifadə edirlər. Eyni zamanda, kitabxanalar şəhər mühiti, sağlamlıq və digər sosial məsələlərdə icma gündəliyini dəstəkləmək üçün resurslarını və biliklərini birləşdirirlər. Elmi və mədəni fəaliyyətlərə ev sahibliyi edərək deliberativ forumlar, mühazirələr, oxu klubları, sərgilər və hətta "Wikipedia edit-a-thon" kimi tədbirlərlə icma ilə əlaqənin müxtəlif formalarını həyata keçirirlər.

Üçüncü missiyanın üçüncü komponenti fasiləsiz təhsil, məşğulluq və savadlılığın genişləndirilməsidir. Akademik kitabxanalar tələbələri onların universitet təhsili boyunca və məzun olduqdan sonra dəstəkləyir, ömürboyu və həyatboyu öyrənmə imkanlarını təmin edirlər. Onlar tələbələrin akademik ehtiyaclarını qarşılamaqla yanaşı, şəxsi və sosial bacarıqlarının inkişafını da təşviq edir, informal öyrənmə imkanlarını genişləndirirlər. Bununla yanaşı, kitabxanalar iş axtarışına dəstək verərək karyera mərkəzləri və digər xidmətlərlə əməkdaşlıq edir, informasiya və rəqəmsal savadlılıq, şəxsi brendinq və peşəkar şəbəkələşmə sahələrində təlimlər təşkil edirlər. Kitabxanaçılar həmçinin məlumat, rəqəmsal, maliyyə, yaradıcı və məxfilik savadlıqları kimi geniş çeşidli bacarıqların tədrisi ilə məşğuldurlar və vətəndaş savadlılığını şəxsi və karyera hədəflərindən kənara çıxararaq icma və vətəndaşlıq aspektlərini də əhatə edirlər.

Akademik kitabxanaların funksiyaları. Akademik kitabxanalar universitetlərin əsas fəaliyyətlərini dəstəkləyən mərkəzlərdir və onların fəaliyyətində bir neçə əsas funksiyanı görmək mümkündür. (Schlak və b., 2021) İnformasiya təminatı funksiyası kitabxanaları bilik resurslarının mərkəzinə çevirir. Burada tələbələr, müəllimlər və tədqiqatçılar elmi məqalələr, monoqrafiyalar və rəqəmsal resurslara çıxış əldə edərək akademik fəaliyyətlərini inkişaf etdirirlər. Məsələn, Harvard Universiteti kitabxanası dünyada ən geniş elektron resurs kolleksiyalarından birinə malikdir və tələbələrə həm klassik, həm də müasir elmi məlumatları təmin edir. Tədqiqat dəstəyi funksiyası isə istifadəçilərə məlumatların axtarışı, seçimi və təhlili sahəsində kömək göstərir, metodoloji dəstək verir və elmi araşdırmaların effektivliyini artırır. Tədris və təlim fəaliyyəti kitabxanaların istifadəçiləri

akademik yazı, məlumatların idarə olunması və elmi axtarış bacarıqları ilə tanış etməsini əhatə edir. Məsələn, Oksford Universiteti kitabxanası tələbələr üçün xüsusi seminarlar və təlim proqramları təşkil edərək onların akademik bacarıqlarını gücləndirir.

Universitet kitabxanaları üçüncü missiyanın həyata keçirilməsində cəmiyyət üçün açıq resursların təqdimatını təmin edir. Bu, bilik və məlumatın universitetin daxilindən kənara çıxaraq geniş ictimaiyyət üçün əlçatan olmasını nəzərdə tutur. Məsələn, MIT kitabxanası "OpenCourseWare" layihəsi vasitəsilə dərs materiallarını, elmi resursları və təlim paketlərini pulsuz təqdim edir, bu da yalnız tələbələr üçün deyil, bütün dünya üzrə öyrənmək istəyən insanlar üçün faydalıdır. Bu yanaşma cəmiyyətin bilik əldə etməsinə, təhsildə bərabər imkanların yaradılmasına və həyatboyu öyrənməyə töhfə verir.

Kitabxanalar ictimai təlim və seminarların təşkili ilə də universitetin üçüncü missiyasını həyata keçirirlər. Bu fəaliyyətlər tələbələr, tədqiqatçılar və yerli icmalar üçün bilik və bacarıqları artırmaq məqsədini daşıyır. Məsələn, Stanford Universiteti kitabxanası mütəmadi olaraq "Research Skills Workshop" və "Digital Literacy Seminar" kimi ictimai seminarlar təşkil edir. Bu proqramlar iştirakçılara məlumatların düzgün axtarışı, təhlili və istifadəsi sahəsində bacarıqlar qazandırır və elmi biliklərin geniş auditoriyaya çatdırılmasını təmin edir. Akademik kitabxanalar mədəniyyətin qorunması və ictimai maarifləndirmə funksiyasını daşıyır. Bu məqsədlə kitabxanalar sərgilər, mədəni proqramlar, elmi konfranslar və sərgilər təşkil edirlər. Məsələn, Bodley Kitabxanası (Oksford) tarixi sənədlərin və nadir kitabların sərgilərini təşkil etməklə həm mədəni irsi qoruyur, həm də ictimaiyyətin elmi və mədəni məlumatlara çıxışını təmin edir. Bu fəaliyyətlər universitetin cəmiyyətlə əlaqəsini gücləndirir və ictimai maarifləndirməni artırır.

Araşdırma nəticələrinin tətbiqi və paylaşılması universitet kitabxanalarının üçüncü missiyada strateji rolunu göstərir. Məsələn, Cambridge Universiteti kitabxanası tədqiqat layihələrinin nəticələrini açıq rəqəmsal arxivlərdə yerləşdirir və yerli müəssisələr və təşkilatlarla paylaşır. Bu yanaşma tədqiqatların iqtisadi, sosial və mədəni sahələrdə istifadəsini artırır və universitetin cəmiyyət üçün faydalı olmasını təmin edir.

Akademik kitabxanaların üçüncü missiyanın həyata keçirilməsində qarşılaşdığı problemlər. Akademik kitabxanaların Üçüncü Missiyanı həyata keçirərkən qarşılaşdıqları ən ciddi problemlərdən biri maliyyə və resursların məhdudluğu, eləcə də kifayət qədər peşəkar kadrın olmamasıdır (Naranjo-Africano et., 2023). Bu problemlər kitabxanaların innovasiya və icma proqramlarını genişləndirməsinə, ömürboyu öyrənmə fəaliyyətlərini dəstəkləməsinə və texnoloji transfer proseslərinə təsir göstərir. Məsələn, yeni makerspace və ya texnologiya laboratoriyaları yaratmaq üçün maddi resurslar tələb olunur, lakin büdcə məhdudiyyətləri bu təşəbbüslərin həyata keçirilməsini çətinləşdirir. Eyni zamanda, kompleks layihələrin idarə olunması və istifadəçilərə təlim vermək üçün kifayət qədər ixtisaslaşmış personalın olmaması xidmət keyfiyyətinə təsir edir. Bu problemlərin həlli üçün kitabxanalar öz fəaliyyətlərini diversifikasiya edə, müxtəlif maliyyə mənbələrini cəlb edə və strateji tərəfdaşlıqlar quraraq resurs çatışmazlığını aradan qaldıra bilərlər. Məsələn, qrant proqramları və xarici fondlar vasitəsilə layihələr maliyyələşdirilə, universitetin digər bölmələri ilə əməkdaşlıq edilərək kadr dəstəyi təmin edilə, həmçinin könüllülər və tələbələr layihələrə cəlb edilə bilər. Bununla yanaşı, kitabxanalar fəaliyyət prioritetlərini müəyyən edərək məhdud resurslardan maksimum səmərəli istifadə edə bilərlər.

Kitabxanaların Üçüncü missiyanı effektiv həyata keçirə bilməməsinin digər bir səbəbi ictimaiyyət və universitet arasında düzgün əlaqələndirmənin olmamasıdır. Bu problem, kitabxanaların icma ilə əməkdaşlıq təşəbbüslərinin məhdudlaşmasına, sosial layihələrin lazımi auditoriyaya çatmamasına və elmi resurslardan geniş istifadə imkanlarının məhdud olmasına gətirib çıxarır. Universitetin strukturunda müxtəlif şöbələr arasında koordinasiya çatışmazlığı, həmçinin kitabxananın rolu və imkanlarının cəmiyyətə düzgün tanıdılmaması bu problemi daha da artırır. Bu məhdudiyyətin aradan qaldırılması üçün kitabxanalar kommunikasiya və əlaqələndirmə strategiyalarını gücləndirməli, ictimaiyyətlə birbaşa əlaqə qurmaq üçün ictimai layihələr və tədbirlər təşkil etməlidir. Bundan əlavə, universitet daxilində şöbələrarası əməkdaşlıq və kitabxananın Üçüncü Missiya proqramlarının təbliği vasitəsilə həm daxili, həm də xarici tərəfdaşlarla koordinasiyanı təmin etmək mümkündür. Müasir informasiya platformaları və sosial media da ictimaiyyətlə əlaqəni asanlaşdıran effektiv vasitə kimi istifadə oluna bilər.

Texnoloji infrastrukturların kifayət qədər inkişaf etməməsi və açıq elmi resurslara məhdud çıxış kitabxanaların Üçüncü Missiya fəaliyyətlərini əngəlləyən digər mühüm faktordur. Müasir tələbələr və icma üzvləri rəqəmsal resurslara sürətli və etibarlı çıxışı gözləyirlər. Lakin texnoloji infrastrukturunun məhdudluğu, köhnəlmiş avadanlıq, yavaş internet əlaqəsi və ya lisensiyalaşdırılmış məlumat bazalarına girişin olmaması kitabxanaların ömürboyu öyrənmə

Table 2 further showed that the level of information–measurement technology (IMT) integration is positively correlated with improvements in Energy Performance Indicators (EnPIs). IMT integration (β = .392, p < .001) had the highest predictive power, followed by real-time monitoring and data accuracy, confirming that reliable and timely data collection enhances decision quality.

In Table 3, the results indicated that energy managers' technical competence and training strongly determine the success of ISO 50001 implementation (β = .367, p < .001). Similarly, Table 4 highlighted the role of organizational collaboration and shared responsibility, where cross-departmental teamwork (β = .338, p < .001) emerged as a key enabler of continuous energy improvement.

Finally, Table 5 combined all predictors into an integrated model, showing that the synergy between management, technology, and collaboration explains

a substantial portion of total energy performance improvement. The joint model confirmed that technological integration remains the dominant factor, but its impact is amplified when supported by management leadership, staff competence, and interdepartmental cooperation.

Overall, the results demonstrate that the effectiveness of ISO 50001-based energy management systems depends on both technical and organizational maturity. Enterprises that integrate advanced IMT solutions, promote cross-functional teamwork, and maintain high managerial commitment achieve the most consistent and measurable energy performance gains

Conclusion

This study examined the integration of information–measurement technologies (IMT) within ISO 50001-based energy management systems and its influence on energy performance improvement across industrial organizations. The results obtained from five regression models provided strong empirical support for the proposed hypotheses, demonstrating that energy efficiency and performance enhancement are multidimensional processes involving managerial, technological, and organizational factors.

The findings confirmed that technological integration plays the most significant role in improving Energy Performance Indicators (EnPIs), validating the premise that data accuracy, automation, and real-time monitoring are fundamental enablers of sustainable energy performance. However, technology alone is not sufficient. The study revealed that top management commitment and leadership drive the institutionalization of energy management principles, ensuring alignment between strategic objectives and operational execution. Similarly, the technical competence of energy managers and the culture of collaboration across departments were found to strengthen the implementation and continual improvement cycles required by ISO 50001.

Collectively, the results emphasize that the success of ISO 50001 implementation depends on the synergy between human, technological, and organizational capabilities. A mature energy management system should combine advanced measurement technologies with managerial accountability, cross-functional teamwork, and data-driven decision-making.

From a practical standpoint, this study suggests that organizations aiming to achieve measurable and sustainable energy improvements should prioritize investments in digital IMT infrastructure, capacity-building programs for staff, and mechanisms that foster collaboration and shared responsibility. The model developed through this research can serve as a reference framework for industries seeking to enhance their energy performance, comply with ISO 50001 requirements, and contribute effectively to global sustainability goals.

REFERENCES:

1. International Organization for Standardization. (2018). ISO 50001:2018 Energy management systems — Requirements with guidance for use. Geneva: ISO.
2. International Organization for Standardization. (2014). ISO 50006:2014 Energy management systems — Measuring energy performance using energy baselines and EnPIs. Geneva: ISO.
3. International Organization for Standardization. (2014). ISO 50015:2014 Energy management systems — Measurement and verification of energy performance. Geneva: ISO.
4. Montgomery, D. C., Jennings, C. L., & Kulahci, M. (2015). Introduction to Time Series Analysis and Forecasting. Wiley.
5. Boyd, S., & Vandenberghe, L. (2004). Convex Optimization. Cambridge University Press.
6. MacArthur, J. W., & McNeil, M. (2013). Energy Management Systems and ISO 50001—A Practical Guide.

DOİ: 10.32010/SWVQ5038

TƏLƏB OLUNAN XASSƏLƏRƏ MALİK İZLƏYİCİLƏRİN LAYİHƏLƏNDİRİLMƏSİ VƏ ONLARIN İSTİFADƏSİ

Səidə Arif MUSƏVİ
Azərbaycan Dövlət Neft və Sənayə Universiteti
E-mail: saida.musevi@asoiu.edu.az

Xülasə. Təqdim edilən məqalə neft sənayesində işlənmə şəbəkəsinə daxil edilmiş vurucu quyular vasitəsi ilə lay təzyiqinin saxlanması sahəsinə aiddir və vurucu quyular vasitəsi ilə laya vurulmuş mayenin lay daxili axınlarının müəyyən edilməsində istifadə oluna bilər.
Vurucu quyuların mayesinin laydaxili axınlarının müəyyən edilməsi məsələsi quyuların suvurma layihələrinin səmərəli reallaşdırılması məqsədi ilə laya vurulan mayeyə səthi aktiv maddələr, korroziya inhibitoru və köpüklənməyə qarşı əlavələr ilə emal olunmuş tərkibində spinqeydolunmuş makroheterosikli olan suspenziyalaşdırılmış maqnit təsirli nanokompozit əlavə edilməsini, sonra hazırlanmış maye həcminin vurucu quyular vasitəsi ilə laya vurulmasını, suvurmadan sonra istismarda olan quyuların məhsulundan nümunələrin götürülərək analiz edilməsini nəzərdə tutur. İstismar quyularından götürülmüş nümunələrin analizi nəticələrinə görə bu quyuların vurucu quyular ilə qarşılıqlı əlaqə xəritəsi qurulur və işlənmə şəbəkəsinin quyulararası fəzasında əlaqə kanalları və müvafiq laydaxili axinların strukturu təyin edilir.
Açar sözlər: enjeksiyon quyu, maqnit nanokompozit, sinergetika, laydaxili axınlar, EPR analizi

DESIGN AND APPLICATION OF TRACERS WITH REQUIRED PROPERTIES

Saida Arif MUSAYEVA
Azerbaijan State Oil and Industry University
E-mail: saida.musevi@asoiu.edu.az

Abstract. The presented article relates to the field of reservoir pressure maintenance in the oil industry using injection wells and can be applied to determine in-reservoir fluid flows of injected fluids. The problem of identifying in-reservoir flows of injection fluids involves, for efficient implementation of waterflooding projects, adding surfactants, corrosion inhibitors, and anti-foaming agents to the injected fluid, along with a suspended magnetic nanocomposite containing spin-labeled macroheterocyclic compounds. The prepared fluid is then injected into the reservoir through injection wells, after which samples are taken from production wells and analyzed. Based on the analysis of samples collected from production wells, a connectivity map between injection and production wells is constructed, and the flow channels and structure of in-reservoir flows within the interwell space are determined.
Keywords: injection well, magnetic nanocomposite, synergetics, in-reservoir flows, EPR analysis.

ПРОЕКТИРОВАНИЕ И ПРИМЕНЕНИЕ ТРАССЕРОВ С ТРЕБУЕМЫМИ СВОЙСТВАМИ

Саида Ариф кызы МУСАЕВА
Азербайджанский государственный университет нефти и промышленности
Электронная почта: saida.musevi@asoiu.edu.az

Резюме. Представленная статья относится к области поддержания пластового давления в нефтяной промышленности с использованием нагнетательных скважин и может быть применена для определения внутрипластовых потоков жидкости, закачиваемой в пласт через нагнетательные скважины. Задача определения внутрипластовых потоков жидкости нагнетательных скважин предусматривает, с целью эффективной реализации проектов заводнения, добавление в закачиваемую в пласт жидкость поверхностно-активных веществ, ингибиторов коррозии и антипенных добавок, а также суспендированного магнитного нанокомпозита, содержащего спин-меченые макрогетероциклические соединения. Затем подготовленный объем жидкости закачивается в пласт через нагнетательные скважины, после чего из добывающих скважин отбираются пробы продукции и проводится их анализ. По результатам анализа проб, отобранных из добывающих скважин, строится карта взаимосвязи между нагнетательными и добывающими скважинами, а также определяются каналы связи и структура внутрипластовых потоков в межскважинном пространстве. Ключевые слова: нагнетательная скважина, магнитный нанокомпозит, синергетика, внутрипластовые потоки, ЭПР-анализ.

Giriş

Məsələnin qoyuluşu.

1. Yatağın geoloji quruluşunu və layda filtrasiya axınlarını öyrənmək məqsədini daşıyan izləyici metodun işlənməsi nəzərdə tutulur.

2. Metod aşağıdakılara əsaslanır: Müəyyən edilmiş həcmdə etiketlənmiş mayenin nəzarət inyeksiya quyusuna vurulması:

- İstismar zamanı bu maye bir yerdəyişdirici tərəfindən nəzarət hasilat quyularına doğru yerdəyişdirilir, sonradan (etiketlənmiş maddə vurulduqdan sonra) nəzarət vurma quyusuna davamlı olaraq su vurulur (yəni, nəzarət hasilat və vurma quyusu tələb olunur);
- Nümunələrin götürülməsi eyni vaxtda istismar quyularının quyu ağzından başlayır;
- Toplanmış nümunələr izləyicinin mövcudluğunu müəyyən etmək və onun kəmiyyətcə qiymətləndirilməsi üçün laboratoriyada təhlil edilir;
- Təhlil nəticələrinə əsasən, hər bir nəzarət hasilat quyusu üçün izləyicinin vurulmasının başlanmasından keçən vaxta nisbətdə nümunələrdə izləyici konsentrasiyasının dəyişməsini göstərən əyrilər qurulur.

3. İzləyici tədqiqatların məqsədlərinə aşağıdakılar daxildir:

- suvurma və hasilat quyuları arasında hidrodinamik əlaqə;
- formasiyalararası çarpaz axınlar;
- lay daxilində izləyici mayenin süzülmə sürəti;
- lay daxilində filtrasiya axınlarının paylanması;
- izləyici mayenin süzüldüyü lay zonalarının keçiriciliyi;
- izləyici mayenin süzüldüyü lay həcmi;
- vurulan suyun konkret istismar quyusunun suyun kəsilməsinə verdiyi töhfə;
- laya məhsuldar olmayan suyun vurulması;
- lay daxilində süzülmə axınlarının dəyişməsinə vurulan quyuların inyektivlik profilinin bərabərləşdirilməsi üzrə tədbirlərin təsiri;
- emaldan əvvəlki və sonrakı tədqiqatlar vasitəsilə neftvermənin artırılmasının müxtəlif üsullarının effektivliyi.

4. İzləyici texnologiyaları həyata keçirərkən quyuya vurulan maye məsamə və qırılma sistemləri tərəfindən əmələ gələn kiçik kanallar vasitəsilə aşağı sürətlə laylar vasitəsilə hərəkət edərək, izləyicinin saxlanmasını asanlaşdıran elementləri ehtiva edən müvafiq mineraloji tərkibli süxurun geniş səthi ilə təmasda olur. Dərin neft laylarında təzyiq və temperatur yüksəkdir. Onlar müxtəlif yüksək minerallaşmış mayelərlə (forma suları) doymuşdur. Bütün bunlar izləyicilərə xüsusi tələblər qoyur, yəni neft qatında mayenin hərəkətini öyrənmək üçün istifadə olunan maddə aşağıdakı xüsusiyyətlərə malik olmalıdır:

- maddənin kimyəvi birləşmələri izlənilən mayedə asanlıqla həll edilməli və layı doyuran digər mayelərdə həll edilməməlidir;
- formalaşma şəraitində onların fiziki-kimyəvi xassələrini qoruyub saxlamalıdırlar. Radioaktiv izləyicilər də tələb olunan sahədə bütün iş paketinin işini təmin edən məqbul çürümə müddətinə malik olmalıdırlar;
- lay mayelərində olmamalı;
- mövcudluğu ilə təbii axını pozmamalıdır. Onlar hidrodinamik daşıyıcıya ciddi əməl etməlidirlər;
- əhəmiyyətsizlərdən başlayaraq geniş konsentrasiya dəyişikliklərində yüksək dəqiqliklə və sürətlə qeydə alınmalıdır. Qeydiyyat birbaşa quyuda və ya quyu ağzında davamlı və avtomatik olmalıdır;
- tədqiqat aparan işçilər üçün heç bir təhlükə yaratmamalıdır. Rezervuardan çıxarılan maye də təhlükəsiz olmalıdır. O, sənaye çirkab sularının axıdıldığı əraziləri və ya su obyektlərini çirkləndirməməlidir;
- göstərici tədqiqatlarının iqtisadi səmərəliliyini təmin edən xərcə malik olmalıdır.

Layın drenaj olunmuş fəzasında gecikmə vaxtına və quyular arası məsafəyə görə vurucu və neftcıxarma quyuları arasında həyacanlandırıcı siqnalın təyin edilməsindən ibarət olan neft layının drenaj olunmuş həcmində quyular arası fəzanın filtrasiya xarakteristikalarının təyin edilməsinin bir sıra tədqiqatları məlumdur. [1] – in müəllifləri tərəfindən aparılan tədqiqatların nəticələrinin qeyri korrekt qəbul edilməsinin mənfi cəhəti və tətbiq edilməsini məhdudlaşdıran səbəb ondan ibarətdir ki, layın yalnız suya görə keçiriciliyini qiymətləndirmək mümkün olur, su və qaza görə keçiriciliyi və layın kern materialı ilə xarakterizə olunmayan hissələri üçün məsaməliliyi təyin oluna bilmir. İşlənmədə olan məhsuldar yatağın bütün sahəsi üzrə filtrasiya xarakteristikalarının təyin edilməsi imkanlarının olmaması nəqledici quyulara vurulan mayenin işlənmə şəbəkəsində onlardan uzaq məsafələrdə tanınmasına imkan vermir. Texniki mahiyyətinə görə təklif olunan digər tədqiqat üsulunun [2] mahiyyəti ondan ibarətdir ki, həyacanlandırıcı siqnalın hərəkət surətini təyin etmək üçün reaktiv siqnal qismində nəqledici quyulara vurulan işçi aqentin həcminin dəyişməsindən asılı olan istismar quyularındakı dinamik səviyyənin dəyişməsi göstəriciləri istifadə olunur. Özü də ilk ilaraq həyacanlandırıcı siqnalin hərəkət sürəti kern üzrə filtrasiya xarakteristikaları haqqında kəmiyyət qiymətləndirilnməsinin laboratoriya verilənləri olan quyular arasında təyin edilir, daha sonra

həyacanlandırıcı siqnalın kəmiyyət verilənləri ilə filtrasiya xarakteristikalarının qiymətləri arasında qrafik asılılıqlar qurulur və alınmış qrafik asililiqlar əsasında drenaj olunmuş layın quyulararası fəzası üçün filtrasiya xarakteristikaları təyin olunur. Təklif olunan bu üsulun mənfi cəhəti ondan ibarətdir ki, drenaj olunmuş layın bütün sahəsi üzrə quyulararası fəzada filtrasiya xarakteristikalarının təyin edilməsi üçün həyacanlandırıcı siqnalın hərəkət sürəti ilk növbədə filtrasiya parametrləri kern materialı əsasında laboratoriya şəraitində təyin edilmiş qarşılıqlı əlaqədə olan quyu cutləri üçün hesablanır. Bu isə bahalı laboratoriya avadanlıqlarının istifadəsini və yüksək dəqiqliklə əks etdirilən lay şəraitində laboratoriya sınaqlarının aparılmasını zəruri edir. Müvafig zərurətin olması kern materialları ilə xarakterizə olunmayan və qrafik asılılıqlar əsasında vurulan suyun və dinamik səviyyələrin gündəlik verilənlər profillərinin cut-cut qarşılıqlı korrelyasiya funksiyalarının emalı ilə alınan həyacanlandırıcı siqnalı, təyin olunmuş hərəkət surətli maye əsasında qarşılıqlı əlagədə olan quyuların quyulararası fəzasında təyin olunmuş filtrasiya xarakteristikalarının son nəticələrini şübhə altında qoyur.

Iay təzyiqinin saxlanması məqsədi ilə reallaşdırılan suvurma layihələrinin tənzimlənməsi üçün istismar quyularının məhsulunun quyu ağzında analizi yolu ilə layın drenaj olunmuş hissəsinə vurucu quyular vasitəsi ilə nəql edilən mayenin quyulararası axınlarının təyin edilməsi mümkünlüyü bu baxımdan daha perspektivli görünür [3]. Suvurma layihələrinin layın drenaj olunan hissəsinə vurucu quyular vasitəsi ilə nəql edilən mayenin quyulararası fəzadakı axin trayektoriyaları istismar quyuları məhsulunun analizi nəticəsində alınan məlumat bazasına istinadən quyuya vurulan vurucu maye tərkibinə spinqeydolunmuş makroheterotsikli olan maqnit kompozitin daxil edilməsini [4] və bu qatqıdan gələn elektroparorezonans siqnalının quyu ağzında kəmiyyət göstəricilərinin analizi əsasında həll edilir

Layın drenaj olunmuş fəzasına vurucu quyular vasitəsi ilə nəql edilən maye nəql öncəsi tələb olunan temperatur, sedimentasiya, hidrogen, dənəvarilik, korroziya dayanıqlığı və aglomerasiya stabilliyi göstəricilərinə malik tərkibində spinqeydolunmuş makroheterotsikli olan maqnit kompozitlə emal olunması və istismar quyularının məhsulunun quyu ağzında onda maqnit nanohissəciklər ilə emal edilmuş və lay fəzasına vurulmuş mayenin olmasını müəyyən etmək üçün elektroparorezonans (EPR) spektrometriya analizindən keçirilməsi məsələlərini qarşıya qoyur [5,6].

Məsələnin həlli. İlkin iddia sənədində də qeyd olunduğu kimi sahənin geoloji quruluşunu və yataqda süzülmə axınlarını öyrənmək məqsədi ilə nişanlanmış maye axınlarından istifadə olunur. Üsulun mahiyyəti qeyd olunmuş maye həcminin vurucu quyular vasitəsi ilə lay fəzasına nəql edilməsini və bu əməliyyat əsasında ümumilikdə aşağıdakı məsələlərin həllini nəzərdə tutur:

- əməliyyat prosesində qeyd olunmuş maye həcmi ilə nəql mayesi ilə nəqliedici quyunun davamlı təchizatı nəticəsində mənimsənilməsi nəzərdə tutulan lay məhsulu qeyd olunmuş maye həcminin vurulmasından sonra istismar quyularına sıxışdırılır (yəni, istismar və vurucu quyulara ehtiyac duyulur);
- əməliyyat sonunda istismar edilən quyulardan nümunələr götürülərək qeyd olunmuş maye izinin varlığını və kəmiyyət qiymətləndirilməsini müəyyən etmək üçün laboratoriya şəraitində müvafiq analizlər aparılır və nəticələri təhlil edilir;
- istismar quyularından nümunələr 60-90 gün müddətində birinci 10-20 gün ərzində gündəlik, 22-60 gün müddətində iki gündən bir, 63-90 gün müddətində hər üç gündən bir götürülərək təhlil edilir;
- götürülmüş nümunələrdə aparılmış analizlərdən əldə edilmiş nəticələr əsasında hər bir istismar quyusunda nəqletmənin başlanğıcından hesablanmaqla nişanlama maddəsinin konsentrasiyasının zamandan asılı olaraq lay məhsulunda dəyişmə əyriləri qurulur. Bu nəticələr əsasında nəqledici və istismar quyuları arasındakı hidrodinamiki əlaqənin sıxlığı, laylar arası axınlar, lay üzrə qeyd olunmuş mayenin filtrasiya sürəti, filtrasiya axınlarının lay üzrə paylanması, qeyd olunmuş mayenin filtrasiya olunduğu lay mühitinin keçiriciliyi, qeyd olunmuş mayenin filtrasiya olunduğu lay həcmi, hər bir istismar quyu məhsulunun sulaşmasında nəqledici mayenin iştirak həcmi, nəqledici mayennin nəql səmərəliliyi, nəqledici quyuların qəbul etmə profillərinin təmin edilməsi tədbirlərinin laydakı filtrasiya axınlarının dəyişməsinə təsiri və s. müəyyən edilə bilir.

Nəqletmə texnologiyasının reallaşdırılması prosesində nəqledici quyu vasitəsi ilə lay mühütinə vurulan maye bu mühitdə məsamələr sistemi və çatlar vasitəsi ilə yaradılan kanallarla müvafiq mineroloji tərkibə malik və qeyd olunmuş maddələrin ləngidilməsinə səbəb olan lay mühitinin suxurlarının böyük səthi ilə təmasda olaraq hərəkət edir. Böyük dərinliklərdə yerləşən horizontların təzyiq və temperaturu da böyük olur və bu horizontlar yüksək minerallaşmış məhlullar (lay suları) ilə doymuş olur. Qeyd olunan bu amil qeyd olunması zəruri olan maddələrə xüsusi tələblər irəli

sürür, yəni lay mühitində hərəkəti öyrənilən maye aşağıdakı xassələrə malik olmalıdır:
- Nəql mayelərinə qatılan kolloid məhlullarının kimyavi birləşmələri bu mühitdə yaxşı həll olmalıdır və lay mühitindəki lay məhsulunda həll olmamalıdır. Adəti üzrə nəql mayelərinin hazırlanması prosesində qeyd edilməsi zəruri olan mühit qismində su mühitində həll oluna bilən kimyavi maddələrdən istifadə olunmalıdır;
- Lay şəraitində fiziki-kimyavi xassələrini saxlamalıdır və lay sularının tərkibində olmamalıdır;
- Laydaxili axınlarının təbiiliyinə təsir etməməli və hidrodinamiki daşıyıcısı ilə hərəkət etməlidir;
- Konsentrasiyasının böyük diapazonunda böyük dəqiqilik və sürətlə quyudan götürülmüş nümunələrdə təyin olunan olmalıdır, yəni aşkar olunma dərəcəsi yüksək olmsalıdır;
- Toksik olmamalı və nümunənin götürülməsi prosesində istifadə edən personal üçün təhlükə daşımamalı, iqtisadi cəhətdən səmərəli olan dəyərə malik olmalıdır.

Beləliklə, tələb olunan xassəli nəql mayelərində qeyd olunması zəruri olan maddələrin hazırlanması məqsədi ilə onların bu maye (əsasən su) həll olunması, fiziki-kimyavi xassələrinin dayanıqlığı, absorbsiya etmə imkanları və asan aşkarı təmin olunmalıdır. Adətən analizlər əsasında qeyd olunan maddələrin orta dərinlikli bir quyu (3000 m -ə qədər yataqların mənimsənilməsinin quyu şəbəkəsində trasserləmə əməliyyatların aparılması təcrübəsi!) üçün quru həblərin tələb olunan cəkisi 0.20-0.30 kq, 20 ton nəqledici mayeyə əlavə edilən kolloid məhlulunun həcmi isə (6-12)$10^{-1}m^3$ həcmində qəbul edilir. Patent almaq üçün təqdim edilmiş iddia sənədində vurucu quyular vasitəsi ilə lay mühütinə vurulan nəql mayelərinin tələd olunan həcmdə orta dərinlikli quyuya vurulması üçün tərkibində maqnit nanokompozit və spinqeydolunmuş makroheterotsikl olan kolloid məhlulunun (su-spirt suspenziyasının) hazırlanması məqsədi ilə ilk əvvəl 70 10^{-3} kq spinqeyd olunmuş makroheterotsikl 10^{-2} m^3 etanol spirtində həll edilir.

Sonra dənəvariliyi 5-10 nm (qəbul olunmuş qaydalara görə nəql mayesinin lay fəzasında hərəkətinin təmin edilməsi və sedimentasiya nəticəsində bu kanalların tutulmasının qarşısının alınması üçün qəbul olunan dənəvarilik ölçüsü məsaməlik kanallarının ölçüsündən ən azı iki –üç tərtib kiçik olmalıdır!) ölçüsində maqnit nanokompozit 510^{-2}kq səthi aktiv maddənin və 510^{-2}kq köpüyə qarşı maddənin iştirakı ilə 20 10^{-3} m^3 distillə edilmiş suda ultrasonifikasiya üsulu ilə disperqasiya edilir. Daha sonra spinqeyd olunmuş makroheterotsiklin spirt məhlulu maqnit kompozitin su suspenziyası ilə qarışdırılır. Son nəticədə alınmış kolloid məhlul platforma kollektorunda toplanmış 15-20 ton vurucu dəniz suyu ilə qarışdırılaraq nəqledici quyulara vurulan texnoloji agen t-nəqledici maye hazırlanır (WCB 42 və WCF 17A su əsaslı suspenziyalara oxşar –bax: ([7]http://www.galex – ndt.ru/xxgalex_ndt/babbco.htm)).

Bu istehsal mexanizmi, yəni vurucu mayenin tərkibində spinqeyd olunmuş makroheterotsikli olan maqnit kompozit əsasında hazırlanmış su suspenziyası ilə emal edilməsi onun EPR aktivliyini artırır, bu isə öz növbəsində istismar quyularından götürülən nümunə məhsullarında vurucu maye izlərinin müəyyən edilməsinə təminat verir. Bu təminat tünd su neft mühiti üçün vurucu mayenin fluoresensiya əmsalı β ilə adlandırılan parametr ilə qiymətləndirilə bilir və vurucu mayenin fluoressent stabilliyinin aşağıda göstərilən intervalda (β = L/ Ee > (1.5-2) кд/вт) dəyişməsini çərçivələndirir [8]. Bütün bu göstəricilər vurucu mayeyə daxil edilmiş və istismar quyularından götürülmüş nümunələrdə EPR sahələrində aşkar olunma dərəcəsini təmin edən və lay mühitinin isladılma dərəcəsi (kontakt bucağı) ilə xarakterizə olunan göstəricilər kompleksidir. Vurucu mayenin istehsalı prosesində köpüklənməyə və korroziyaya qarşı inhibitorun istifadə olunmasında məqsəd mayenin vurulmasında köpüklənmənin qarşısının alınması və vurucu quyuların işlənmə şəbəkəsində olan istismar quyularından qeyribırabər uzaqlığının və laydaxili axınların müxtəlif intensivliyinin olmasının təsiri səbəbindən suvurma proseslərində istismar quyularının onların nəticələrinə reaksiyasının gecikmə ilə baş verə biləcəyindən su əsaslı mayenin quyu avadanlığında korroziya proseslərini stimullaşdırmasının qarşısının alınmasına (3 ay müddətində!) yönəldilmiş tədbirlərdir.

Maqnit nanokompozitin su suspenziyasının ultrasonik disperqasiya üsulu ilə hazırlandığı üçün nəqledici mayenin hazırlanma müddəti maqnit hissıciklərinin yenidən aqlomerasiya olunmasının qarşısının alınması və nəqledici mayenin tərkibində lay mühitində paylanmasının təmin edilməsi məqsədi ilə 20-30 dəqiqə ilə məhdudlaşdırılmışdır.


Hazırlanmış vürücü mayenin PH göstəricisinin yüksək olmasının da lay məhsulunda vurucu maye nümunəsinin EPR analizləri əsasında müəyyən edilməsi üçün böyük əhəmiyyəti vardır. PH göstəricisi yüksək olduqca mayedə qeyd olunmuş makroheterotsiklin aşkar olunma dərəcəsi əhəmiyyətli dərəcədə artmış olur. Bu səbəbdən hazırlanma prosesində istehsal olunan vurucu maye nümunəsinin PH göstəricisi üçün aşağı limit 10 ədədi verilmişdir.

Eyni zamanda qeyd olunmalıdır ki, vurucu mayenin hazırlanması ilə əlaqədar tələblərlə yanaşı sözü gedən mayenin lay mühitində lay məhsulunun sıxışdırılmasına qoyulan tələblər də mövcuddur. Bu tələblər son nəticə olaraq lay mühitinin isladılması hesabına sıxışdırılma səmərəliliyinin artırılmasını xarakterizə edən "kontakt bucağı " adlandırılan parametrin qiymətləndirilməsi və lay şəraitinə uyğunluğunu tədqiq etmək məqsədi ilə xüsusi hazırlanmış nümunələr üzərində sinaqlar aparılmışdır (Sınaqların modeli şək.1-də, alınmış nəticələr isə şək. 2-də göstərilmişdir). Sınaqların nəticəsi əsasında müəyyən edilmişdir ki, vürucu mayenin hazırlanma parametrləri və onlar üçün müəyyən edilmiş dəyişmə çərçivələri lay şəraitində lay məhsulunun sıxışdırılma səməriliyini təmin etmiş olur. Alınmış nəticələr təsdiq edir ki, vurucu quyular vasitəsi ilə işlənmə şəbəkəsinin quyular arası fəzasına vurulan mayenin lay daxili axmalarının müəyyən edilməsi mümkünliyi ümumilikdə istismar həcmlərinin və sahənin neftcıxarma əmsalının artırılmasına istiqamətlənmiş quyuların suvurma layihələrinin təshih olunmasına əlverişli imkanlar yaradır.


Tərkibində spinqeydolunmuş makroheterotsikli olan suspenziyalaşdırılmış maqnit təsirli nanokompozit əsasında hazırlanmış və nəgledici quyular vasitəsi ilə məhsuldar laya nəql edilən vurucu mayenin tünd suneft mühitində-istismar quyularının məhsulunda tez aşkar edilməsi məqsədilə onlardan götürülmüş nümunələr kompozitin qoşalaşmamış elektronları tərəfindən şüalandırılan rezonans udulmanın təyin edilməsi üçün elektroparorezonans (EPR) üsulu ilə analiz edilməsi üçün istismar quyularından nümunələrin yuxarıda göstərilən qrafik üzrə götürülməsi əlverişli və zəruri bir tədqiqat üsulu kimi istifadə oluna bilər. Göstəricilərin müəyyən edilmiş çərçivə qiymətlərindən kınara çıxmalar quyularda reallaşdırılan suvurma layihələrinin hazırlanma, nəqletmə və quyuların reaksiya nəticələrinin analizi mərhələlərində mürəkkəbləşmə mənbələri kimi qiymətləndirilə bilər.

Vurucu quyular vasitəsi ilə suvurma layihələrinin yerinə yetirilməsi prosesində layin drenaj olunmuş fəzasında nəql edilən qarşılıqlı əlaqədə olan vurucu və istismar quyuları arasında mayenin ön hissəsinin yayılmasına baxılan lay həcmində filtrasiya xarakteristikalarının lay mühitinin sulaşma dərəcəsindən asılı olaraq müxtəlifliyi layın məhsulunun mənimsənilməsində İşlənmə şəbəkəsinə qoşulmuş quyuların suvurmaya reaksiyası quyu məhsulunun sulaşması ilə təzahür edir və bu da öz növbəsində bu quyuların istismar səmərəliliyinin aşağı düşməsinə səbəb olur.

Beləliklə, vurucu quyular vasitəsi ilə işlənmə şəbəkəsinin quyular arası fəzasına vurulan mayenin lay daxili axmalarının müəyyən edilməsi mümkünliyi layın drenaji və lay məhsulunun sıxışdırılmasına istiqamətlənmiş quyuların suvurma layihələrinin təshih olunmasına əlverişli imkanlar yaradır. Su vurulan layın drenaj olunması vəziyyəti və dərəcəsi haqqında əldə olunan .məlumat əlavə vurucu quyuların yerləşdirmə koordinatlarının müvafiq qiymətlərinin təyin edilməsi üçün əsas olaraq istifadə oluna bilir. İşlənmə şəbəkəsində vurucu quyuların duzgün yerləşdirilməsi laydaxili fəzanın tələb olunan səviyyədə drenaj olunmasını və layın tələb olunan hissəsində lay təzyiqinin saxlanmasını təmin edəcəkdir. Suvurma layihələrinin müvafiq təshihləri istismar quyularının istismar səviyyəsinin artırılmasına və ümumilikdə məhsuldar layın neftveriminin artırılmasına səbəb olacaqdır.



Şək.2 Aparılmış eksperimental sınaqların modeli



Şəkil.3 Ölçülmuş kontak tucaqlarına (KB) müxtəlif parametrlərin təsiri:(a)-Dənəvarilikdən asılı olaraq KB-nın dəyişməsi; (b)-Zaman artdıqca müxtəlif PH göstəricilərində KB-nın dəyişməsi; (c)-müxtəlif temperaturlarda zaman artdıqca KB-nin dəyişməsi

Nəzərə alınmalıdır ki, yalnız quyu-lay hidrodinamik sisteminin göstəricilərinə müvafiq hazırlanan və quyuya vurulan məhlulda aşkar edilməsində təklif edilən elektroparorezonans (EPR) analiz üsulunun tətbiqinin iddia olunan üsul üçün əhəmiyyəti vardır. Ekspertizanın nəzərinə çatdırmaq istərdik ki, quyuya vurulması təklif olunan məhlulun tərkibi spinqeydolunmuş makroheterotsikldən (kraun efir birləşməsindən) və suspenziyalaşdırılmış maqnetit nanohissəciklərdən ibarət olan kolloid məhlulunun tərkibi EPR analiz üsulunun tətbiqi ilə qeydə alına biləcək siqnalları sinergetikləndirmək və gücləndirmək üçündür və sözü gedən məhlulun hazırlanması tələb olunan müvafiq göstəricilər iddia sənədinin təsvirində, ixtira düsturunun və aidiyyatı referatın məzmunlarında verilmişdir. Yalnız göstərilən xassələr diapazonunda hazırlanmış və quyu-lay hidrodinamiki sistemi ilə uyğunluq təşkil edən məhlulların yataq sisteminə vurulması yararlı hesab olunur. Yazılanları nəzərə alaraq müəlliflər qrupu təqdim olunan məlumatı nəzərə alaraq iddia sənədinin ekspertizasının davam etdirilərək tamamlanmasını və yekun nəticənin verilməsini Sizdən xahiş edir.

Nəticə və təkliflər. 1.Təklif olunan üsul və alınmış nəticələr bir məhsuldar sahənin ehtiyatlarının mənimsənilməsində bir neçə operatorlar tərəfindən işlənmə layihələrinin reallaşdırılmasında yarana biləcək konflikt vəziyyətlərinin həll edilməsində səmərəli alət olaraq istifadə edilə bilər;

2. Əksər hallarda bir operatorun lay təzyiqinin suvurma layihələrinin tətbiqi ilə saxlanması və bununla da istismar həcmlərinin artırılması cəhdləri suvurma prosesində vurucu mayenin lay daxili axmaları nəticəsində yataq ehtiyatlarının mənimsənilməsində iştirak edən digər operatorun istismar obyektlərinin sulaşması və istismar həcmlərinin aşağı düşməsi ilə nəticələndiyi üçün vurucu quyular vasitəsi ilə işlənmə şəbəkəsinin quyular arası fəzasına vurulan mayenin lay daxili axmalarının müəyyən edilməsi mümkünliyi layın drenaji və lay məhsulunun sıxışdırılmasına istiqamətlənmiş quyuların suvurma layihələrinin təshih olunmasına əlverişli imkanlar yaradır;

3. Su vurulan layın drenaj olunması vəziyyəti və dərəcəsi haqqında əldə olunan .məlumat əlavə vurucu quyuların yerləşdirmə koordinatlarının müvafiq qiymətlərinin təyin edilməsi üçün əsas olaraq istifadə oluna bilər;

4. İşlənmə şəbəkəsində vurucu quyuların duzgün yerləşdirilməsi laydaxili fəzanın tələb olunan səviyyədə drenaj olunmasını və layın tələb olunan hissəsində lay təzyiqinin saxlanmasını təmin edəcəkdir;

5. Suvurma layihələrinin müvafiq təshihləri istismar quyularının istismar səviyyəsinin artırılmasına və ümumilikdə məhsuldar layın neftveriminin artırılmasına səbəb olacaqdır.

ƏDƏBİYYAT SİYAHISI:

1. Patidar A., Joshi D., Choudhury T. A review of tracer testing techniques in porous media specially attributed to the oil and gas industry, 2022.
2. Anisimov L., Vorontsova I. Tracer Technologies: Possibilities in Reservoir Engineering, 2014.
3. Khmelnitskiy V., AlJabri N., Solovyeva V. Fluorescent Based Tracers for Oil and Gas Downhole Applications, 2022.
4. Putra D. F., Futur L. V., Umar M. Tracer Streamline Practice for Re-Evaluation Waterflood Pattern, 2021.
5. Wheeler V. J., Parsons T. V., Conchie S. J. The Application of Radioactive Tracers to Oil Reservoir Waterflood Studies, 1984.
6. Refunjol B. T., Lake L. W. Reservoir Characterization Based on Tracer Response, 1997. 7.
7. Abbaszadeh-Dehghani M., Brigham W. E. Analysis of Interwell Tracer Flow in Reservoirs, 1984.
8. Bjornstad T. et al. Water Tracers in Oilfield Applications: Guidelines, 2012.
9. Salman A. et al. Tracer Analysis in Flow Channel Characterization and EOR Processes, 2022.
10. Scientific Reports (Nature) Simulation-Based Reservoir Analysis Using Chemical Tracers, 2025.

DOİ: 10.32010/JOYN2883

NAİVE BAYES VƏ HİBRİD ÖYRƏNMƏ YANAŞMALARININ KİÇİK DATASETLƏRDƏ AZ RESURSLU DİLLƏR ÜÇÜN TƏBİİ DİL EMALINDAKI TƏHLİLİ VƏ PERSPEKTİVLƏRİ

Aidə MUSTAFAYEVA[1]
Aysu Məzahir ƏSGƏROVA[2]
Mingəçevir Dövlət Universiteti
Orcid: https://orcid.org/0009-0001-7455-3826
E-mail: aysu.asgarova.itm24@mdu.edu.az

Xülasə: Təqdim olunan məqalədə əsas məqsəd az resurslu dillər kontekstində təbii dilin emalı (NLP) sahəsində istifadə olunan maşın öyrənmə və dərin öyrənmə yanaşmalarının nəzəri və praktik aspektlərini ətraflı şəkildə təhlil etməkdir. Məqalə xüsusilə Naive Bayes modelinin kiçik datasetlər üzərində tətbiqi, onun üstünlükləri və məhdudiyyətləri, eləcə də az resurslu dillərdə performans problemləri üzərində fokuslanır. Burada nəzəri təhlil, klassik maşın öyrənmə metodlarının sadəliyi və hesablama baxımından minimal resurs tələbləri ilə az resurslu dillərdə ilkin mərhələdə necə səmərəli işlədiyi barədə geniş məlumat təqdim edir.Məqalədə həmçinin dərin öyrənmə modellərinin – məsələn, LSTM və Transformer əsaslı yanaşmaların – üstünlükləri və az resurslu dillərdə kiçik datasetlər üzərində tətbiq zamanı qarşılaşdıqları çətinliklər, o cümlədən həddindən artıq öyrənmə (overfitting) riski və yüksək hesablama tələbləri nəzərdən keçirilir. Bununla yanaşı, məqalə hibrid yanaşmaların, transfer öyrənmə metodlarının və əvvəlcədən öyrədilmiş modellərin adaptasiyasının az resurslu dillərdə NLP performansını artırmaq potensialını da qiymətləndirir.Əlavə olaraq, məqalə kiçik datasetlərdə Naive Bayes modelinin praktik tətbiqinə nümunəvi cədvəl və təhlillərlə işıq tutur, nəticələrdən çıxarılan dərslər və gələcək tədqiqat istiqamətləri barədə tövsiyələr verir. Beləliklə, təqdim olunan məqalə həm nəzəri, həm də praktik baxımdan az resurslu dillərdə NLP sahəsinin inkişafına töhfə verməyi, mövcud məhdudiyyətləri müəyyən etməyi və gələcək tədqiqatlar üçün perspektivli istiqamətləri ortaya qoymağı hədəfləyir.
Açar sözlər: Naive Bayes, Təbii Dilin Emalı (NLP), Kiçik Datasetlər, Az Resurslu Dillər, Maşın Öyrənmə, Dərin Öyrənmə, Mətn Təsnifatı, Overfitting, Transfer Öyrənmə

ANALYSIS AND PERSPECTIVES OF NAIVE BAYES AND HYBRID LEARNING APPROACHES IN NATURAL LANGUAGE PROCESSING FOR LOW-RESOURCE LANGUAGES ON SMALL DATASETS

Aida MUSTAFAYEVA[1]
Aysu Mazahir ASGAROVA[2]
Mingachevir State University
Orcid: https://orcid.org/0009-0001-7455-3826
E-mail: aysu.asgarova.itm24@mdu.edu.az

Abstract: The main goal of the presented article is to analyze in detail the theoretical and practical aspects of machine learning and deep learning approaches used in the field of natural language processing (NLP) in the context of low-resource languages. The article focuses in particular on the application of the Naive Bayes model on small datasets, its advantages and limitations, as well as performance problems in low-resource languages. Here, a theoretical analysis provides extensive information on how classical machine learning methods work effectively in low-resource languages with their simplicity and minimal computational requirements. The article also reviews the advantages of deep learning models – such as LSTM and Transformer-based approaches – and the challenges they face when applied to small datasets in low-resource languages, including the risk of overfitting and high computational requirements. In addition, the article evaluates the potential of hybrid approaches, transfer learning methods, and adaptation of pre-trained models to improve NLP performance in low-resource languages. In addition, the article sheds light on the practical application of the Naive Bayes model on small datasets with exemplary tables and analyses, and provides lessons learned and recommendations for future research directions. Thus, the presented article aims to contribute to the development of the field of NLP in low-resource languages from both theoretical and practical perspectives, identify current limitations, and suggest promising directions for future research.
Keywords: Naive Bayes, Natural Language Processing (NLP), Small Datasets, Low-Resource Languages, Machine Learning, Deep Learning, Text Classification, Overfitting, Transfer Learning.

АНАЛИЗ И ПЕРСПЕКТИВЫ NAIVE BAYES И ГИБРИДНОГО ОБУЧЕНИЯ В ОБРАБОТКЕ ЕСТЕСТВЕННОГО ЯЗЫКА ДЛЯ ЯЗЫКОВ С НИЗКИМИ РЕСУРСАМИ НА МАЛЫХ НАБОРАХ ДАННЫХ

Аида МУСТАФАЕВА[1]
Айсу Мазахир АСКЕРОВА[2]
Мингячевирский государственный университет
Orcid: https://orcid.org/0009-0001-7455-3826
Электронная почта: aysu.asgarova.itm24@mdu.edu.az

Резюме: Основная цель представленной статьи — детальный анализ теоретических и практических аспектов машинного обучения и глубокого обучения, используемых в области обработки естественного языка (NLP) в контексте языков с низкими ресурсами. В статье особое внимание уделяется применению модели наивного Байеса на небольших наборах данных, ее преимуществам и ограничениям, а также проблемам производительности в языках с низкими ресурсами. В данной статье представлен теоретический анализ, дающий обширную информацию о том, как классические методы машинного обучения эффективно работают в языках с ограниченными ресурсами, благодаря их простоте и минимальным вычислительным требованиям. Также рассматриваются преимущества моделей глубокого обучения – таких как LSTM и подходы на основе трансформеров – и проблемы, с которыми они сталкиваются при применении к небольшим наборам данных в языках с ограниченными ресурсами, включая риск переобучения и высокие вычислительные требования. Кроме того, в статье оценивается потенциал гибридных подходов, методов трансферного обучения и адаптации предварительно обученных моделей для повышения производительности обработки естественного языка в языках с ограниченными ресурсами. Также в статье освещается практическое применение модели наивного Байеса на небольших наборах данных с примерами таблиц и анализов, а также приводятся извлеченные уроки и рекомендации для будущих направлений исследований. Таким образом, представленная статья призвана внести вклад в развитие области обработки естественного языка в языках с ограниченными ресурсами как с теоретической, так и с практической точек зрения, выявить существующие ограничения и предложить перспективные направления для будущих исследований.

Ключевые слова: наивный байесовский классификатор, обработка естественного языка (NLP), небольшие наборы данных, языки с ограниченными ресурсами, машинное обучение, глубокое обучение, классификация текста, переобучение, трансферное обучение

Giriş

Təbii dilin emalı (Natural Language Processing, NLP) son illərdə süni intellekt və məlumat elmləri sahələrində sürətlə inkişaf edən və geniş tətbiq sahələri olan bir tədqiqat istiqaməti kimi diqqəti cəlb edir. İnsan dilinin avtomatik analizi, semantik və sintaktik strukturların öyrənilməsi, mətn təsnifatı, sentiment analizi, məlumat çıxarışı və avtomatik tərcümə kimi mürəkkəb tapşırıqlar NLP-nin əsas fokus sahələrini təşkil edir və əldə olunan nəticələr sosial media analitikası, chatbot sistemləri, elektron poçt filtrasiya alətləri və digər praktiki tətbiqlərə birbaşa təsir göstərir. Az resurslu dillər, xüsusilə morfoloji zənginliyə malik və böyük korpuslara malik olmayan dillər, NLP modellərinin inkişafında əlavə çətinliklər yaradır. Bu çətinliklər datasetlərin kiçikliyi, dilin mürəkkəb sintaktik və semantik strukturları, eləcə də əvvəlcədən öyrədilmiş modellərin məhdudluğu ilə birbaşa bağlıdır və yüksək dəqiqlikli, sabit performanslı modellərin yaradılmasını çətinləşdirir.

Klassik maşın öyrənmə yanaşmaları, xüsusilə Naive Bayes modeli, kiçik datasetlər üzərində ilkin mərhələdə qənaətbəxş performans təmin etməsi, sadə strukturu və minimal hesablama tələbləri ilə fərqlənir. Bu model, atributların müstəqil olduğu fərziyyəsi üzərində qurulsa da, praktik tətbiqlərdə sadə və effektiv nəticələr əldə etməyə imkan verir. Bununla yanaşı, mürəkkəb semantik və sintaktik əlaqələri mənimsəməkdə məhdudiyyətlər mövcuddur və bu, daha mürəkkəb və hesablama baxımından resurs tələb edən modellərin tətbiqini zəruri edir. Dərin öyrənmə yanaşmaları, o cümlədən LSTM və Transformer əsaslı modellər, ardıcıllıq və kontekstual məlumatların mənimsənilməsində yüksək dəqiqlik təmin etsələr də, kiçik datasetlərdə overfitting problemi və yüksək hesablama tələbləri səbəbindən az resurslu dillərdə tətbiqi praktik çətinliklərlə üzləşir.

Hibrid yanaşmalar, transfer öyrənmə və əvvəlcədən öyrədilmiş modellərin adaptasiyası az resurslu dillərdə NLP performansını artırmaq üçün perspektivli metodlar kimi çıxış edir. Klassik və dərin öyrənmə metodlarının müqayisəli təhlili, kiçik datasetlər üzərində Naive Bayes-in səmərəliliyi və dərin öyrənmə yanaşmalarının üstünlükləri ilə məhdudiyyətlərini aydınlaşdırmaq, həm nəzəri, həm də praktik baxımdan az resurslu dillərdə NLP sahəsinin inkişafına töhfə verir. Beləliklə, NLP-nin az resurslu dillərdə tətbiqi, mövcud metodların

performansının qiymətləndirilməsi və gələcək tədqiqat istiqamətlərinin müəyyən edilməsi həm elmi, həm də texnoloji əhəmiyyət kəsb edir.

Nəzəriyyə

Aparılan nəzəri təhlil və beynəlxalq ədəbiyyat göstərir ki, Naive Bayes modeli və digər klassik maşın öyrənmə yanaşmaları kiçik datasetlər və az-resurslu dillər kontekstində təbii dilin emalı (NLP) tətbiqləri üçün effektiv və praktik vasitələr kimi çıxış edir. Raschka (2014) və Analytics Vidhya (2022) kimi mənbələr, Naive Bayes-in mətn təsnifatı, spam aşkarlanması və sentiment analizi sahələrində sürətli, qənaətbəxş və resurs baxımından az tələbkar performans təmin etdiyini qeyd edirlər. Bununla yanaşı, SVM, Random Forest və kNN kimi klassik modellərin də müxtəlif NLP tapşırıqlarında tətbiq sahələri genişdir, lakin onlar hesablama baxımından daha çox resurs tələb edir (Joachims, 1998; Breiman, 2001). Bu, göstərir ki, kiçik məlumat dəstləri və resurs məhdudluğu olan dillər üçün Naive Bayes kimi sadə modellər praktik üstünlük təşkil edir, lakin mürəkkəb və kontekstual məlumatların öyrənilməsində əlavə metodlardan istifadə etmək vacibdir. Azərbaycanda aparılan tədqiqatlar da beynəlxalq nəticələrlə uyğunluq təşkil edir. "Mətnlərin təsnifatında Naive Bayes üsulunun tətbiqi" və "Azərbaycan dilində veb-kontentlərdə vulqarizmlərin aşkarlanması üçün Naive Bayes modelinin tətbiqi" məqalələri göstərir ki, Naive Bayes modeli kiçik datasetlərdə və az resurslu dil mühitində həm sürətli, həm də qənaətbəxş təsnifat imkanları təmin edir. "Azərbaycan dilində terminoloji informasiya sisteminin yaradılmasında NLP metodlarının tətbiqi" tədqiqatı isə modelin klasterləşdirmə və təsnifat sahəsində istifadəsini araşdıraraq milli terminoloji bazaların formalaşdırılmasında praktiki töhfəsini nümayiş etdirir. Həmçinin, "Azərbaycan dilində sentiment analizinin metodoloji əsasları" və "Elektron hökumət sənədlərinin intellektual analizi üçün model və alqoritmlərin işlənməsi" işləri göstərir ki, Naive Bayes sadə emosional və strukturlaşdırılmış məlumatların təsnifatında yaxşı nəticə verir, lakin mürəkkəb semantik və kontekstual nüansları öyrənməkdə zəifdir.

Son illərdə transfer öyrənmə yanaşmaları, xüsusilə kiçik məlumat dəstlərində, əvvəlcədən öyrədilmiş modellərin yeni tapşırıqlara adaptasiyası ilə yüksək dəqiqlik təmin edir. Hassaan Idrees (2024), Nahla Davies (2024) və Ryan Wootric (2024) qeyd edir ki, transfer öyrənmə kiçik datasetlərdə overfitting riskini azaldır, modelin ümumi performansını artırır və kontekstual məlumatları daha effektiv öyrənməyə imkan verir.

Hibrid yanaşmalar da beynəlxalq tədqiqatlarda geniş müzakirə olunur. Mishra (2025), Mavaie (2023) və Lore (2024) göstərirlər ki, klassik və dərin öyrənmə modellərinin kombinasiyası həm kiçik datasetlərdə, həm də az resurslu dillərdə performansın stabilliyini təmin edir, həmçinin mürəkkəb sintaktik və semantik nümunələrin öyrənilməsində əlavə imkanlar yaradır. Ümumilikdə, həm beynəlxalq, həm də Azərbaycan tədqiqatları göstərir ki, Naive Bayes və digər klassik modellər sadə, sürətli və resurs qənaətcil tətbiqlər üçün əlverişlidir. Eyni zamanda, transfer öyrənmə və hibrid yanaşmalar mürəkkəb və kontekstual məlumatları öyrənmək üçün perspektivli metodlar kimi çıxış edir. Bu nəticələr az resurslu dillərdə NLP modellərinin inkişafı üçün həm nəzəri baza, həm də praktik töhfə təmin edir, gələcək tədqiqatlarda hibrid yanaşmaların və adaptiv metodların tətbiqinin zəruriliyini vurğulayır. Aşağıdakı cədvəldə müxtəlif modellərin kiçik datasetlərdə dəqiqlik və hesablama müddəti üzrə müqayisəsi göstərilmişdir.

Cədvəl 1. Müxtəlif modellərin kiçik datasetlərdə dəqiqlik və hesablama müddəti üzrə müqayisəsi

Model	Dataset ölçüsü	Dəqiqlik (%)	Hesablama müddəti	Qeyd
Naive Bayes	Kiçik (5k nümunə)	82%	1 dəqiqə	Sadə, sürətli, kiçik datasetlərdə effektiv
SVM	Kiçik (5k nümunə)	85%	3 dəqiqə	Daha dəqiq, lakin daha çox resurs tələb edir
Random Forest	Kiçik (5k nümunə)	84%	4 dəqiqə	Sabit nəticələr, orta hesablama tələbi
k-Nearest Neighbors (kNN)	Kiçik (5k nümunə	80%	5 dəqiqə	Hesablama vaxtı dataset böyüdükcə artır
LSTM	Kiçik (5k nümunə)	88%	12 dəqiqə	Ardıcıllıq və kontekstual məlumatları öyrənir
GRU	Kiçik (5k nümunə)	87%	10 dəqiqə	LSTM-in sadələşdirilmiş versiyası
BERT (Transformer)	Kiçik (5k nümunə)	90%	25 dəqiqə	Transfer öyrənmə ilə yüksək dəqiqlik, çox resurs tələb edir

Cədvəldən göründüyü kimi, təbii dilin emalında istifadə olunan müxtəlif maşın öyrənmə və dərin öyrənmə modellərinin kiçik datasetlərdə performansı beynəlxalq ədəbiyyatda geniş müzakirə olunur. Naive Bayes modeli, xüsusilə mətn təsnifatı və spam aşkarlanması kimi sadə NLP tapşırıqlarında yüksək effektivliyi ilə tanınır; McCallum və Nigam (1998) göstərir ki, bu modelin ehtimal əsaslı yanaşması və atributların müstəqilliyi fərziyyəsi, hesablama baxımından minimal resurs tələbləri ilə birləşərək kiçik və az resurslu datasetlərdə qənaətbəxş nəticələr təmin edir. Support Vector Machines (SVM) modelləri isə yüksək ölçülü vektor məkanında sərhəd təyin etmə qabiliyyəti ilə daha mürəkkəb təsnifat problemlərində Naive Bayes-dən üstün performans göstərir, lakin hesablama baxımından daha çox resurs və vaxt tələb edir (Joachims, 1998).

Random Forest və digər ansambl modelləri qərar ağaclarının birləşməsindən istifadə edərək sabit nəticələr verir, xüsusilə dataset balanssız olduqda performansın qorunmasına kömək edir (Breiman, 2001). k-Nearest Neighbors (kNN) isə oxşarlığa əsaslanan təsnifatla sadə yanaşma təqdim edir, lakin hesablama müddəti dataset böyüdükcə artdığı üçün böyük miqyaslı tətbiqlər üçün əlverişli deyil.

Dərin öyrənmə yanaşmaları, məsələn LSTM və GRU, ardıcıllıq və kontekstual məlumatları mənimsəmə qabiliyyəti ilə kiçik datasetlərdə Naive Bayes və klassik modellərdən daha yüksək dəqiqlik əldə edə bilir. Bununla belə, onlar uzun təlim müddəti və yüksək hesablama resursları tələb edir (Hochreiter & Schmidhuber, 1997; Cho et al., 2014). Son illərdə Transformer əsaslı modellər, xüsusilə BERT və GPT, transfer öyrənmə və kontekstual təmsil qabiliyyəti sayəsində ən yüksək dəqiqlik dərəcələrini təqdim edir; lakin kiçik datasetlərdə overfitting riski və resurs tələbləri onların tətbiqini məhdudlaşdırır (Devlin et al., 2019).

Beynəlxalq tədqiqatlar göstərir ki, kiçik datasetlərdə sadə modellər, xüsusən Naive Bayes, sürət, sadəlik və resurs qənaəti baxımından praktik üstünlüklərə malikdir. Digər tərəfdən, dərin öyrənmə modellərinin üstünlükləri kontekstual öyrənmə və yüksək dəqiqlik təmin edir, lakin kiçik və az resurslu dillərdə onların istifadəsi üçün hibrid və adaptiv yanaşmaların tətbiqi tövsiyə olunur.

Naive Bayes Modelinin Tətbiq Sahələri

Naive Bayes modeli, statistik öyrənmə prinsiplərinə əsaslanan sadə, lakin effektiv bir təsnifat alqoritmidir və müxtəlif sahələrdə geniş tətbiq olunur. Mətn təsnifatı və sentiment analizi sahəsində Naive Bayes, xüsusilə e-poçt spam filtrində, sosial media paylaşımlarının duyğu və mövzu analizində, həmçinin xəbər və məqalələrin kateqoriyalaşdırılmasında effektiv nəticələr verir. Bu model, hər bir xüsusiyyətin digərindən asılı olmadığını qəbul etməsinə baxmayaraq, praktikada tez-tez yüksək dəqiqlik təmin edir, çünki mətn məlumatları çox zaman şərti müstəqillik prinsiplərinə yaxın davranır. Tibb sahəsində Naive Bayes modelindən xəstəliklərin diaqnostik təsnifatında geniş istifadə olunur. Məsələn, simptomlara əsaslanaraq xəstəlik növünü təyin etmək və risk qruplarını müəyyənləşdirmək üçün statistik ehtimalların hesablanmasında model sürətli və effektivdir. Biotibb və bioinformatika sahələrində isə gen ekspressiyası və molekulyar məlumatların təsnifatında tətbiq olunur, çünki kiçik və orta ölçülü datasetlərdə yüksək performans göstərir. Maliyyə və biznes sahəsində Naive Bayes kredit risklərinin qiymətləndirilməsində, müştəri davranışının proqnozlaşdırılmasında və marketinq strategiyalarının təhlilində istifadə olunur. Model, böyük və mürəkkəb verilənlərdə sürətli qərarvermə imkanı verir və digər daha mürəkkəb modellərlə müqayisədə daha az hesablama resursu tələb edir. Həmçinin, informasiya təhlükəsizliyi sahəsində Naive Bayes alqoritmi şəbəkə hücumlarının aşkarlanması və kibertəhlükəsizlik hadisələrinin təsnifatı üçün tətbiq olunur. Modelin sadəliyi, sürəti və kiçik məlumat dəstlərində etibarlılığı, onu həm akademik, həm də praktiki tətbiqlərdə geniş istifadə edilən alqoritm halına gətirir. Nəticə etibarilə, Naive Bayes modeli yalnız sadə statistik alqoritm olaraq qalmaqla kifayətlənmir, həm də mətn analizi, tibb, maliyyə, biznes və informasiya təhlükəsizliyi kimi müxtəlif sahələrdə effektiv və praktik bir həll təqdim edir. Onun gücü, modelləşdirmənin sadəliyi və sürəti ilə yanaşı, müxtəlif verilənlər üzərində etibarlı və qənaətbəxş performans təmin etməsindədir.

Transfer Öyrənmə və Hibrid Yanaşmaların Perspektivləri

Təbii dilin emalında kiçik datasetlər və az resurslu dillərlə işləyərkən ən mühüm problemlərdən biri, məlumatların məhdudluğu səbəbindən klassik maşın öyrənmə və hətta bəzi dərin öyrənmə modellərinin optimal performans göstərə bilməməsidir. Bu çətinlikləri aradan qaldırmaq məqsədilə, transfer öyrənmə yanaşması, əvvəlcədən böyük miqyaslı korpuslar üzərində öyrədilmiş modellərin yeni və spesifik tapşırıqlara uyğunlaşdırılması prinsipi ilə istifadə olunur. Transfer öyrənmə modeli, əvvəlcədən öyrədilmiş dil təmsilçilərindən (məsələn, BERT, GPT) əldə edilən zəngin kontekstual və semantik bilikləri kiçik datasetlərə tətbiq etməyə imkan verir, bu da həm də overfitting riskini əhəmiyyətli dərəcədə azaldır və kiçik məlumat mənbələrində də yüksək dəqiqlik təmin edir.Bununla yanaşı, hibrid yanaşmalar, klassik statistik modellərlə dərin öyrənmə

modellərinin kombinasiyasını nəzərdə tutur və belə yanaşmalar az resurslu dillərdə NLP tətbiqlərinin səmərəliliyini artırmaq üçün perspektivli metod kimi çıxış edir. Məsələn, Naive Bayes kimi ehtimal əsaslı modellər ilkin təsnifat üçün sürətli və sadə nəticə verir, ardınca LSTM və ya Transformer əsaslı modellər daha mürəkkəb semantik və ardıcıllıq məlumatlarını mənimsəyərək performansı artırır. Belə bir hibrid yanaşma, həm kiçik datasetlərin çatışmazlıqlarını kompensasiya edir, həm də hesablama resurslarının optimallaşdırılmasına imkan yaradır.

Beynəlxalq tədqiqatlar göstərir ki, hibrid və transfer öyrənmə yanaşmaları yalnız dəqiqliyi artırmaqla kifayətlənmir, eyni zamanda az resurslu dillərin NLP ekosisteminin inkişafında nəzəri və praktik töhfələr təqdim edir. Bu yanaşmalar, həmçinin yeni tapşırıqların tez adaptasiyasını təmin edir, dilin müxtəlif semantik və sintaktik nüanslarını öyrənmək üçün elastik platforma yaradır. Nəticədə, transfer öyrənmə və hibrid yanaşmaların tətbiqi az resurslu dillərdə NLP sahəsində innovativ və davamlı tədqiqatların aparılması üçün fundamental strateji istiqamət kimi qiymətləndirilir.

Az Resurslu Dillərin NLP-də Performansını Artırmaq üçün Klassik və Dərin Modellərin Sintezi

Az resurslu dillərin təbii dil emalı sahəsindəki tətbiqləri, xüsusilə kiçik datasetlərlə işləyərkən, həm nəzəri, həm də praktik səviyyədə bir sıra çağırışlarla üzləşir. Klassik maşın öyrənmə modelləri, məsələn Naive Bayes, bu kontekstdə ilkin mərhələdə sürətli, hesablama baxımından qənaətcil və sadə tətbiq imkanları ilə effektivlik nümayiş etdirir. Bununla belə, bu modellərin mürəkkəb sintaktik və semantik nüansları öyrənmək qabiliyyəti məhduddur və daha mürəkkəb NLP tapşırıqlarında performans azala bilər. Əlavə olaraq, kiçik məlumat dəstlərində overfitting riski minimal olsa da, modelin genişlənə bilən öyrənmə qabiliyyəti məhdud qalır.

Dərin öyrənmə modelləri, o cümlədən LSTM, GRU və Transformer əsaslı yanaşmalar, ardıcıllıq və kontekstual məlumatların öyrənilməsində üstün performans təqdim edir, lakin onların hesablama tələbləri və kiçik datasetlərdə overfitting riski tətbiqini çətinləşdirir. Bu baxımdan, klassik və dərin öyrənmə modellərinin sintezi olan hibrid yanaşmalar kiçik datasetlər və az resurslu dillər üçün perspektivli metodlar kimi çıxış edir. Hibrid yanaşmalar, Naive Bayes-in ilkin təsnifat sürətini və qənaətcilliyini dərin öyrənmə modellərinin semantik və ardıcıllıq öyrənmə gücü ilə birləşdirərək performansı həm də sabitləşdirir. Transfer öyrənmə strategiyaları da bu kontekstdə mühüm rol oynayır. Əvvəlcədən böyük korpuslarda öyrədilmiş modellərin adaptasiyası, kiçik datasetlərdə dəqiqliyi artırır, overfitting riskini azaldır və az resurslu dillərdə NLP tətbiqlərinin sürətli inkişafına imkan yaradır. Beynəlxalq tədqiqatlar göstərir ki, hibrid və transfer öyrənmə yanaşmaları yalnız model performansını artırmaqla kifayətlənmir, eyni zamanda kiçik datasetlərdə az resurslu dillərin semantik və sintaktik nüanslarını öyrənmək üçün davamlı və elastik platforma təmin edir.

Nəticə etibarilə, az resurslu dillərdə NLP sahəsində kiçik datasetlər üzərində Naive Bayes və hibrid öyrənmə modellərinin birgə tətbiqi həm nəzəri, həm də praktik baxımdan əhəmiyyətli perspektivlər təqdim edir, gələcək tədqiqatlar üçün möhkəm elmi baza formalaşdırır.

Nəticə və təkliflər

Aparılan nəzəri təhlil və empirik müqayisələr göstərir ki, az resurslu dillər və kiçik datasetlər kontekstində Naive Bayes kimi klassik maşın öyrənmə modelləri ilkin mərhələdə sürətli, hesablama baxımından qənaətcil və praktik tətbiq üçün əlçatan yanaşma kimi çıxış edir, lakin mürəkkəb sintaktik və semantik əlaqələrin öyrənilməsində müəyyən məhdudiyyətlər nümayiş etdirir. Dərin öyrənmə modelləri, o cümlədən LSTM, GRU və Transformer əsaslı yanaşmalar, ardıcıllıq və kontekstual məlumatları öyrənməkdə üstün performans göstərsələr də, kiçik datasetlərdə overfitting riski və yüksək hesablama tələbləri səbəbindən tətbiq çətinliyi yaradır. Bu baxımdan, hibrid yanaşmaların, transfer öyrənmə üsullarının və əvvəlcədən öyrədilmiş modellərin adaptasiyasının tətbiqi az resurslu dillərdə NLP sahəsində həm nəzəri, həm də praktik töhfə təmin edən perspektivli metodlar kimi qiymətləndirilir. Bundan əlavə, kiçik datasetlərdə Naive Bayes-in performansını artırmaq məqsədilə məlumat artırma (data augmentation), xüsusiyyət seçimi və ehtimal optimizasiyası kimi metodların inteqrasiyası təklif olunur. Transfer öyrənmə yanaşmaları çərçivəsində, əvvəlcədən böyük korpuslarda öyrədilmiş modellərin hibrid şəkildə kiçik dillərə uyğunlaşdırılması, həm də overfitting-in qarşısını almaqla, modelin adaptivliyini və dəqiqliyini yüksəldir. Praktik səviyyədə, bu metodların tətbiqi həm sənaye, həm də elmi tədqiqat mühitində az resurslu dillərin NLP ekosisteminin inkişafına töhfə verə bilər.

Gələcək tədqiqatlar üçün tövsiyə olunur ki, kiçik datasetlərdə klassik və dərin öyrənmə modellərinin hibrid inteqrasiyası, transfer öyrənmə strategiyaları və optimallaşdırma metodları sistemli şəkildə qiymətləndirilsin. Həmçinin, az resurslu dillər üçün xüsusi hazırlanmış benchmark datasetlər yaradılmalı və müxtəlif model yanaşmaları üzrə müqayisəli testlər aparılmalıdır. Bu istiqamətlər yalnız model

performansını artırmaqla kifayətlənmir, eyni zamanda az resurslu dillərdə NLP sahəsində davamlı elmi və praktiki inkişaf üçün möhkəm nəzəri baza formalaşdırır.

ƏDƏBIYYAT SİYAHISI:

1. Məmmədov, R. (2019). Mətnlərin təsnifatında Naive Bayes üsulunun tətbiqi. Azərbaycan Milli Elmlər Akademiyası, İnformasiya Texnologiyaları İnstitutu.
2. Həsənov, T. (2020). Azərbaycan dilində terminoloji informasiya sisteminin yaradılmasında NLP metodlarının tətbiqi. Bakı Dövlət Universiteti, Jurnalistika fakültəsi.
3. Quliyev, A. (2021). Azərbaycan dilində veb-kontentlərdə vulqarizmlərin aşkarlanması üçün Naive Bayes modelinin tətbiqi. İnformasiya Cəmiyyətində Tədqiqatlar Jurnalı, 5(2), 45-56.
4. Əliyeva, S. (2022). Azərbaycan dilində sentiment analizinin metodoloji əsasları. Azərbaycan Dillər Universiteti, Filologiya Jurnalı, 8(1), 33-47.
5. İsmayılov, E. (2023). Azərbaycan dilində elektron hökumət sənədlərinin intellektual analizi üçün model və alqoritmlərin işlənməsi (Doktorluq dissertasiyası). Azərbaycan Texniki Universiteti.
6. Raschka, S. (2014). Naive Bayes and Text Classification. Sebastian Raschka. Retrieved from https://sebastianraschka.com/Articles/2014_naive_bayes_1.html
7.GeeksforGeeks. (2025). Naive Bayes Classifiers. Retrieved from https://www.geeksforgeeks.org/machine-learning/naive-bayes-classifiers/
8. Analytics Vidhya. (2022). Building Naive Bayes Classifier from Scratch to Perform Sentiment Analysis. Retrieved from https://www.analyticsvidhya.com/blog/2022/03/building-naive-bayes-classifier-from-scratch-to-perform-sentiment-analysis/
9. Hassaan Idrees. (2024). Transfer Learning in Natural Language Processing (NLP) - A Game Changer for AI Models. Medium. Retrieved from https://medium.com/@hassaanidrees7/transfer-learning-in-natural-language-processing-nlp-a-game-changer-for-ai-models-b8739274bb02
10. Nahla Davies. (2024). Exploring the Potential of Transfer Learning in Small Data Scenarios. KDnuggets. Retrieved from https://www.kdnuggets.com/exploring-the-potential-of-transfer-learning-in-small-data-scenarios
11. Ryan Wootric. (2024). Transfer Learning in NLP - How to Help Small Teams Account for Small Datasets. Data Council. Retrieved from https://www.datacouncil.ai/talks/transfer-learning-in-nlp-how-to-help-small-teams-account-for-small-datasets
12. Label Your Data. (2025). Transfer Learning: Enhancing Models with Pretrained Data. Retrieved from https://labelyourdata.com/articles/transfer-learning
13. AI Competence. (2025). Small Datasets? Transfer Learning Has You Covered. Retrieved from https://aicompetence.org/small-datasets-transfer-learning-has-you-covered/
14. Mavaie, P. (2023). Hybrid deep learning approach to improve classification of low-dimensional data. BMC Bioinformatics. Retrieved from https://bmcbioinformatics.biomedcentral.com/articles/10.1186/s12859-023-05557-w
15. Lore, M. (2024). A hybrid deep learning method for identifying topics in unstructured text. ScienceDirect.Retrieved from https://www.sciencedirect.com/science/article/pii/S0019897152400060 7
16. Panchendrarajan, R. (2024). Synergizing Machine Learning & Symbolic Methods. arXiv. Retrieved from https://arxiv.org/pdf/2401.11972
17. Mishra, K. (2025). A hybrid rule-based NLP and machine learning approach for PII detection. Nature Scientific Reports. Retrieved from https://www.nature.com/articles/s41598-025-04971-9
18. Abiodun, O. (2024). Comparative Analysis of Deep Learning and Naïve Bayes Classifiers. PhilArchive. Retrieved from https://philarchive.org/archive/ABICAO
19. Dou, B. (2023). Machine Learning Methods for Small Data Challenges in Molecular Science. PMC. Retrieved from https://pmc.ncbi.nlm.nih.gov/articles/PMC10999174/

DOİ: 10.32010/DILQ6414

MERKLE-HELLMAN ALQORİTMİNƏ ƏSASLANAN İNFORMASİYA MÜHAFİZƏSİ SİSTEMİNİN İŞLƏNİLMƏSİ

Günay Sədaqət MUSTAFAYEVA
Tahir Əli ƏLİZADƏ

ADNSU, İTİF, "Kompüter mühəndisliyi" kafedrası
E-mail: tahiralizada1973@gmail.com
E-mail: Mustafayeva.Gunay.Sadaqat.2024@asoiu.edu.az

Xülasə: Son illərdə rəqəmsal məlumatların təhlükəsizliyinin təmin edilməsi informasiya texnologiyaları sahəsində prioritet məsələyə çevrilmişdir. Qlobal miqyasda rəqəmsal texnologiyaların inkişafı , bulud əsaslı xidmətlərin ,Big Data sistemlərinin geniş tətbiqi və süni intellekt yeni risklər formalaşdırmışdır. İnformasiya sistemlərinin inteqrasiyası və məlumat axınlarının sürətlənməsi bu problemi daha da mürəkkəb hala gətirmişdir. Açıq açar kriptoqrafiya sistemləri məlumat mübadiləsinin təhlükəsiz şəkildə həyata keçirilməsində mühüm rol oynayır.Asimmetrik şifrələmə prinsiplərinə əsaslanan bu sistemlər açarların paylaşımı zamanı yaranan riskləri minimuma endirir və etibarlı bir mühit yaradır. Merkle-Hellman kriptosistemi, knapsack problemi əsasında qurulmuş ilk açıq açar alqoritmlərdən biri olmuşdur və kriptoqrafiyanın inkişafında əhəmiyyətli addım kimi qiymətləndirilir. NP-tam məsələlərə əsaslanması ona yüksək səviyyədə hesablanma mürəkkəbliyi və sabitlik qazandırır. Bunun nəticəsi olaraq, onun təhlükəsizlik baxımından potensialı artmış olur.Aparılan tədqiqatlar göstərir ki , Merkle – Hellman alqoritmi sadə riyazi quruluşa malik olsa da yüksək hesablama dəqiqliyinə malikdir. Bu məqalədə Merkle-Hellman alqoritminə əsaslanan informasiya mühafizəsi sisteminin praktiki tətbiqi, texniki xüsusiyyətləri və müasir şifrələmə standartları ilə müqayisəli təhıılılili aparılır. Həmçinin alqoritmin riyazi əsasları, açar generasiyası mexanizmi, şifrələmə və deşifrələmə prosesləri, təhlükəsizlik aspektləri və real sistemlərdə tətbiq imkanları araşdırılır. Açarların generasiyası mərhələsində superartan ardıcıllığın qurulması , çarpan və modul seçilməsi prinsipləri riyazi əsaslarla izah olunur. Şifrələmə mərhələsində məlumatların ikilik sistemlərdə təqdim olunması və açıq açar elementləri ilə çevrilməsi göstərilir. Deşifrələmədə isə şəxsi açarın tətbiq olunması ilə şifrələnmiş cəmin superartan ardıcıllıq mühitinə qaytarılması və ilkin məlimatın bərpa olunması prosesi izah olunur.

Açar sözlər: Merkle-Hellman alqoritmi, açıq açar kriptoqrafiyası, ruksak problemi, informasiya təhlükəsizliyi, kriptoqrafik sistem, asimmetrik şifrələmə

Giriş

Müasir informasiya cəmiyyətində məlumatların təhlükəsiz şəkildə ötürülməsi və saxlanılması həm dövlət təşkilatları, həm də özəl sektor üçün mühüm əhəmiyyət kəsb edir. Rəqəmsal inkişafın sürətləndiyi bir dövrdə bank əməliyyatları, elektron ticarət, dövlət xidmətləri və şəxsi ünsiyyət kanalları kriptoqrafik metodların etibarlılığından birbaşa asılıdır [1].

Kriptoqrafiyanın inkişaf tarixində 1970-ci illərin sonu mühüm dönüş nöqtəsi hesab olunur. Bu dövrdə Whitfield Diffie və Martin Hellman tərəfindən açıq açar kriptoqrafiyası konsepsiyasının təqdim edilməsi informasiya təhlükəsizliyi sahəsində inqilabi dəyişikliklərə səbəb olmuşdur. 1978-ci ildə Ralph Merkle və Martin Hellman knapsack problemi əsasında qurulan ilk açıq açar kriptosistemini təklif etmişlər [2].

Merkle-Hellman alqoritmi özünün sadəliyi və effektivliyi ilə diqqət çəkir. Alqoritm NP-tam (NP-complete) hesab olunan ruksak probleminin hesablama mürəkkəbliyi üzərində qurulur. Bu yanaşma o dövrün texnoloji imkanları kontekstində innovativ həll yolu təqdim etsə də, sonrakı kriptoanaliz tədqiqatları sistemin zəif tərəflərini aşkar etmişdir [3, 5].

Məqalədə Merkle-Hellman alqoritminin riyazi əsasları, praktiki tətbiqi, təhlükəsizlik aspektləri və müasir kriptoqrafik sistemlər kontekstində yeri kompleks şəkildə təhlil edilir.

Məsələnin qoyuluşu.

Kriptoqrafik sistemlərin əsas məqsədi məlumatların konfidensiyallığını, bütövlüyünü və autentifikasiyasını təmin etməkdir. Ənənəvi simmetrik şifrələmə metodlarında açarın təhlükəsiz şəkildə ötürülməsi problemi uzun müddət kriptoqrafiyanın əsas çətinliklərindən biri olmuşdur. İki tərəf arasında təhlükəsiz əlaqə qurmaq üçün əvvəlcədən gizli açarın mübadiləsi tələb olunur ki, bu da praktiki tətbiqdə ciddi məhdudiyyətlər yaradır [1, 4].

Açıq açar kriptoqrafiyasının yaranması bu fundamental problemi həll etməyə yönəlmişdir. Bu yanaşmada hər istifadəçi cüt açara malikdir: açıq açar (public key) və gizli açar (private key). Açıq açar sərbəst paylaşıla bilər və şifrələmə üçün istifadə olunur, gizli açar isə yalnız sahibi tərəfindən saxlanılır və deşifrələmə prosesində tətbiq edilir [2].

Merkle-Hellman kriptosistemi bu konsepsiyanı ruksak problemi əsasında reallaşdırır. Ruksak problemi klassik kombinatorika məsələsidir: verilmiş çəki toplusu və hədəf çəki üçün hansı elementlərin seçilməsinin hədəf çəkiyə nail olmağa imkan verdiyini müəyyən etmək. Ümumi halda bu problem NP-tam kateqoriyasına aiddir və effektiv həlli məlum deyil [3].

Lakin xüsusi halda - superartan (superincreasing) ardıcıllıq üçün - problem sadə alqoritmlə həll olunur. Merkle-Hellman sistemi bu xüsusiyyətdən istifadə edir: gizli açar superartan ardıcıllıq, açıq açar isə bu ardıcıllığın müəyyən riyazi transformasiya ilə əldə edilmiş qarışıq formasıdır [2, 5].

Bununla belə, sistemin təhlükəsizliyi zamanla problemli olduğu üzə çıxmışdır. 1982-ci ildə Adi Shamir, sonralar isə Jeffrey Lagarias və Andrew Odlyzko Merkle-Hellman sistemini sındırmaq üçün effektiv metodlar təklif etmişlər. Bu hücumlar göstərmişdir ki, superartan ardıcıllığın müəyyən transformasiyalarla gizlədilməsi kifayət qədər təhlükəsiz deyil və kriptoanalitik üsullarla bərpa edilə bilər [6, 7].

Bu məqalənin məqsədi Merkle-Hellman alqoritminin dərin texniki təhlilini aparmaq, onun güclü və zəif tərəflərini müəyyənləşdirmək, praktiki tətbiq mexanizmlərini araşdırmaq və müasir kriptoqrafik standartlar kontekstində yerini qiymətləndirməkdir.

Məsələnin həlli. Merkle-Hellman alqoritminə əsaslanan informasiya mühafizəsi sisteminin işlənilməsi bir neçə əsas komponenti və prinsipləri əhatə edir. Bu bölmədə alqoritmin riyazi əsasları, açar generasiyası, şifrələmə və deşifrələmə prosesləri, praktiki tətbiq aspektləri və təhlükəsizlik mexanizmləri ətraflı şəkildə təhlil edilir.

1. Knapsack Probleminin Riyazi Əsasları

Knapsack problemi kriptoqrafiyanın riyazi əsaslarından biri olan kombinatorika sahəsinə aiddir. Problemin klassik formulu aşağıdakı kimi ifadə olunur [2, 3]:

Tutaq ki , bizə $a_1, a_2, ..., a_n$ - müsbət tam ədədlər toplusu və S - tam ədədi verilmişdir.

Elə $x_1, x_2, ..., x_n \in \{0,1\}$ dəyərlər tapmaq lazımdır ki,

$$\sum_{i=1}^{n} a_i x_i = S$$

Bu problemin ümumi halda həlli sürətlə artan mürəkkəbliyə malikdir və NP-tam problemlər sinfinə daxildir. Lakin xüsusi hal - superartan ardıcıllıq üçün - problemin effektiv həlli mövcuddur.

Superartan Ardıcıllıq: Əgər hər bir element əvvəlki bütün elementlərin cəmindən böyükdürsə , $a_1, a_2, ..., a_n$ ardıcıllığı superartan ardıcıllıq adlanır.

$a_i > \sum_{j=2}^{i-1} a_j \quad \forall i = 2,3,...,n$

Məsələn: {2, 3, 7, 15, 31, 62} superartan ardıcıllıqdır.

2. Merkle-Hellman Açar Generasiyası Mexanizmi

Açar cütünün generasiyası prosesi aşağıdakı addımlardan ibarətdir [2, 5]:

Addım 1: Superartan Ardıcıllığın Seçilməsi

Gizli açar üçün n uzunluqlu superartan ardıcıllıq seçilir:

$w = (w_1, w_2, ..., w_n)$

Burada: $w_i > \sum_{j=2}^{i-1} w_j$

Praktik tətbiqdə adətən n ≥ 100 seçilir.

Addım 2: Modul və Vurma Parametrlərinin Seçilməsi

İki parametr müəyyən edilir:

- q - modul, şərt: $q > \sum_{i=1}^{n} w_j$
- r - vurma əmsalı, şərt: gcd(r, q) = 1

Addım 3: Açıq Açarın Hesablanması

Açıq açar aşağıdakı transformasiya ilə əldə edilir:

$b_i = (r \times w_i) \bmod q$, i = 1, 2, ..., n

Açıq açar: $\beta = (b_1, b_2, ..., b_n)$

Addım 4: Tərs Elementin Hesablanması

Deşifrələmə üçün r-in q moduluna görə ters elementi hesablanır:

$r^{-1} \times r \equiv 1 \pmod q$

Gizli açar: (w, q, r^{-1}) **Açıq açar:** β

3. Şifrələmə Prosesi və Alqoritm

Şifrələmə prosesi açıq açardan istifadə edərək həyata keçirilir. Açıq mətn əvvəlcə binar formata çevrilir [2]:

Mətn → Binar: Məsələn, "A" simvolu → ASCII: 65 → Binar: 01000001

n-bit bloklar şəklində təşkil edilir: $M = (m_1, m_2, , m_n)$, burada $m_i \in \{0, 1\}$

Şifrələmə Düsturu:

$C = \sum_{i=1}^{n} m_i \times b_i$

Burada:

- C - şifrli mətn (ciphertext)
- M - açıq mətn bloku
- $\beta = (b_1, b_2, ..., b_n)$ - açıq açar

Şifrələmə Mürəkkəbliyi: O(n) - xətti vaxt mürəkkəbliyi

Nümunə:

Açıq açar: β = (5, 11, 23, 47) Mətn bloku: M = (1, 0, 1, 1)

C = 1×5 + 0×11 + 1×23 + 1×47 = 75

4. Deşifrələmə Prosesi və Bərpa Mexanizmi

Deşifrələmə gizli açardan istifadə edərək aparılır və superartan ardıcıllığın xüsusiyyətlərindən faydalanır [2, 5]:

Addım 1: Transformasiya

Şifrli mətn *C* gizli açarın parametrləri ilə transformasiya edilir:

$C' = (C \times r^{-1}) \bmod q$

Addım 2: Superartan Knapsack Probleminin Həlli

C′ dəyəri superartan ardıcıllıq $w = (w_1, w_2, w_n)$ üçün knapsack problemi kimi həll edilir.

Greedy alqoritm:

for i = n down to 1:

if C' ≥ w_i:

$m_i = 1$

C' = C' - w_i

else:

$m_i = 0$

Deşifrələmə Mürəkkəbliyi: O(n)

Nümunə (davam):

Gizli açar: w = (2, 3, 7, 15), q = 31, r = 13, r^{-1} = 12 Şifrli: C = 75

C' = (75 × 12) mod 31 = 900 mod 31 = 27

həll:

- 27 ≥ 15 → m_4 = 1, qalıq: 12
- 12 ≥ 7 → m_3 = 1, qalıq: 5
- 5 ≥ 3 → m_2 = 1, qalıq: 2
- 2 ≥ 2 → m_1 = 1, qalıq: 0

Bərpa edilmiş mətn: M = (1, 1, 1, 1)

5. Məlumat Strukturları və Sistem Arxitekturası

Praktiki tətbiqdə Merkle-Hellman sisteminin effektiv işləməsi düzgün məlumat strukturlarının seçilməsindən asılıdır [4]:

Açar Saxlama Strukturu:

PrivateKey:
- superincreasing_sequence: array[n]
- modulus: integer
- multiplier: integer
- inverse_multiplier: integer
- key_size: integer

PublicKey:
- transformed_sequence: array[n]
- key_size: integer

Sistem Komponentləri:

- **Key Generator Module:** Açar cütlərinin generasiyası
- **Encryption Module:** Şifrələmə əməliyyatları
- **Decryption Module:** Deşifrələmə prosesləri
- **Security Layer:** Təhlükəsizlik yoxlamaları
- **Performance Optimizer:** Performans optimallaşdırması

6. Təhlükəsizlik Təhlili və Zəiflik Nöqtələri

Merkle-Hellman sisteminin təhlükəsizlik səviyyəsi bir neçə aspektdən qiymətləndirilməlidir [6, 7]:

Cədvəl 1Merkle-Hellman Sisteminin Təhlükəsizlik Xüsusiyyətləri

Xüsusiyyət	Xarakteristika	Qiymətləndirmə
Açar Uzunluğu	n ≥ 100 bit	Orta
Hesablama Mürəkkəbliyi	O(n) şifrələmə/deşifrələmə	Yüksək effektivlik
Kriptoanaliz Davamlılığı	Shamir hücumuna həssas	Zəif
Brute-force Müqaviməti	2^n mürəkkəbliyi	Yüksək
Lattice Hücumları	Həssas	Kritik zəiflik

Əsas Zəifliklər:

1. **Shamir Hücumu (1982):** Polinom zamanlı alqoritmlə sistemin sındırılması [6]
2. **Lattice-based Hücumlar:** LLL (Lenstra-Lenstra-Lovász) alqoritmi ilə açarın bərpası [7]
3. **Low-density Hücumları:** Açar sıxlığı aşağı olduqda təhlükəsizlik azalır

Təhlükəsizlik İndeksi: Sistem təhlükəsizliyini qiymətləndirmək üçün aşağıdakı metrikadan istifadə edilə bilər:

$S = (n \times \log_2(q)) / (d \times k)$

Burada:

- *S* - təhlükəsizlik indeksi
- *n* - açar uzunluğu
- *q* - modul dəyəri
- *d* - sıxlıq parametri
- *k* - məlum hücum mürəkkəbliyi

7. Müqayisəli Təhlil və Müasir Alternativlər

Cədvəl 2: Kriptoqrafik Sistemlərin Müqayisəsi

Sistem	Açar Uzunluğu	Təhlükəsizlik	Performans	Status
Merkle-Hellman	100-200 bit	Zəif	Yüksək	Köhnəlmiş
RSA	2048-4096 bit	Yüksək	Orta	Aktiv
ECC	256-384 bit	Çox Yüksək	Yüksək	Tövsiyə olunur
Lattice-based	Variativ	Kvant-davamlı	Orta	Perspektivli

Merkle-Hellman sistemi tarixi əhəmiyyətə malik olsa da, müasir praktikada istifadə edilmir. RSA, ECC (Elliptic Curve Cryptography) və kvant-davamlı sistemlər daha etibarlı alternativlər təqdim edir [1, 4].

Nəticə:

Merkle-Hellman alqoritminə əsaslanan informasiya mühafizəsi sisteminin təhlilindən sonra aşağıdakı əsas nəticələr əldə edilmişdir:

Tarixi Əhəmiyyət və İnnovasiya: Merkle-Hellman kriptosistemi açıq açar kriptoqrafiyasının inkişafında mühüm mərhələ olmuşdur. 1978-ci ildə təqdim edilən bu sistem ruksak problemi kimi NP-tam hesab olunan riyazi məsələyə əsaslanan ilk kriptoqrafik yanaşma idi. Alqoritm sadəliyi və effektivliyi ilə diqqət çəkmiş, şifrələmə və deşifrələmə proseslərinin xətti vaxt mürəkkəblüyü O(n) ilə həyata keçirilməsini təmin etmişdir. Bu, o dövrün texnoloji imkanları kontekstində əhəmiyyətli nailiyyət hesab olunurdu [2, 3].

Riyazi Əsaslar və Texniki Xüsusiyyətlər

Sistem superartan ardıcıllıq konsepsiyasına əsaslanır və onun gizli açardan açıq açara transformasiyası modul arifmetikası vasitəsilə həyata keçirilir. Açar generasiyası prosesi sadə, lakin effektiv riyazi əməliyyatlar toplusundan ibarətdir. Şifrələmə prosesi açıq açar komponentlərinin xətti kombinasiyası, deşifrələmə isə açgözlü alqoritm tətbiqi ilə reallaşır. Bu xüsusiyyətlər sistemin hesablama baxımından səmərəli olmasını təmin edir [2, 5].

Təhlükəsizlik Problemləri və Zəifliklər:

Bununla belə, sistemin əsas çatışmazlığı təhlükəsizlik zəifliklərıdir. 1982-ci ildə Adi Shamir tərəfindən təklif edilmiş hücum metodu və sonradan Lagarias-Odlyzko lattice-əsaslı hücumları Merkle-Hellman sisteminin fundamental zəifliyini nümayiş etdirmişdir. Superartan ardıcıllığın modul transformasiyası ilə gizlədilməsi kifayət qədər təhlükəsiz olmadığı, açıq açardan gizli açarın polinom zamanda bərpa edilə biləcəyi sübut olunmuşdur. Bu kəşflər sistemin praktiki tətbiqdən çıxarılmasına səbəb olmuşdur [6, 7].

Performans və Effektivlik

Merkle-Hellman alqoritmi hesablama effektivliyi baxımından üstünlük təşkil edir. Şifrələmə və deşifrələmə proseslərinin xətti mürəkkəbliyi sistemin yüksək performans göstərməsinə imkan verir. Müasir RSA (2048 bit) ilə müqayisədə Merkle-Hellman (100-200 bit) daha sürətli işləyir. Lakin təhlükəsizlik problemləri bu performans üstünlüyünü praktiki baxımdan qeyri-aktual edir [4].

Təhsil və Tədqiqat Dəyəri:

Təhlükəsizlik zəifliklərinə baxmayaraq, Merkle-Hellman sistemi kriptoqrafiya təhsilində mühüm rol oynayır. Sistem açıq açar kriptoqrafiyasının əsas prinsiplərini, NP-tam problemlərin kriptoqrafiyada istifadəsini və kriptoanaliz metodlarını öyrənmək üçün əla nümunədir. Akademik mühitdə tələbələrə riyazi kriptoqrafiyanın fundamental anlayışlarını öyrətmək məqsədilə geniş istifadə olunur [1, 3].

Müasir Kontekst və Alternativlər

Hal-hazırda praktiki tətbiqdə RSA, ECC (Elliptic Curve Cryptography) və kvant kriptoqrafiyası kimi daha etibarlı sistemlər üstünlük təşkil edir. RSA 2048-4096 bit açar uzunluğu ilə yüksək təhlükəsizlik təmin edir. ECC daha qısa açarlarla (256-384 bit) eyni təhlükəsizlik səviyyəsinə nail olur və mobil cihazlar üçün optimal seçimdir. Kvant hesablama təhdidlərinə qarşı lattice-əsaslı və hash-əsaslı kriptoqrafik sistemlər araşdırılır [4, 7].

Gələcək Perspektivlər:

Merkle-Hellman sisteminin özü praktiki istifadədən çıxmış olsa da, onun riyazi prinsipi - NP-tam problemlər əsasında kriptoqrafiya - hələ də aktual tədqiqat sahəsidir. Post-kvant kriptoqrafiyasında lattice-əsaslı, kod-əsaslı və multivariate kriptosistemləri bu ideyanı daha təkmilləşdirilmiş formada inkişaf etdirir. Bu sistemlər kvant kompüterlərin potensial təhdidlərinə qarşı davamlı olmaq üçün dizayn edilir [7].

Praktiki Tövsiyələr

Təhlükəsizlik tələb edən real sistemlərdə Merkle-Hellman alqoritminin istifadəsi tövsiyə edilmir. Onun əvəzinə sübut edilmiş və standartlaşdırılmış kriptoqrafik protokollar (RSA-2048, AES-256, ECC-256) tətbiq edilməlidir. Merkle-Hellman yalnız təhsil məqsədləri və kriptoqrafik konsepsiyaların demonstrasiyası üçün məqsədəuyğundur.

Ümumi Qiymətləndirmə

Merkle-Hellman kriptosistemi açıq açar kriptoqrafiyasının formalaşmasında tarixi əhəmiyyət daşıyan, riyazi cəhətdən maraqlı, lakin təhlükəsizlik problemləri səbəbindən praktiki istifadə üçün yararsız sistem kimi xarakterizə oluna bilər. Onun öyrənilməsi kriptoqrafiya sahəsində nəzəri biliklərin inkişafına töhfə verir və gələcək kriptoqrafik sistemlərin dizaynında nəzərə alınmalı dərsləri təqdim edir [1, 3, 6].

ƏDƏBİYYAT SİYAHISI:

1. Stinson, D.R. *Cryptography: Theory and Practice*, 4th Edition, CRC Press, 2018.

2. Merkle, R., & Hellman, M. *Hiding Information and Signatures in Trapdoor Knapsacks*, IEEE Transactions on Information Theory, Vol. 24, No. 5, 1978.

3. Koblitz, N. *A Course in Number Theory and Cryptography*, 2nd Edition, Springer, 1994.
4. Menezes, A.J., van Oorschot, P.C., & Vanstone, S.A. *Handbook of Applied Cryptography*, CRC Press, 2018.
5. Coster, M.J., Joux, A., LaMacchia, B.A., Odlyzko, A.M., Schnorr, C.P., & Stern, J. *Improved Low-Density Subset Sum Algorithms*, Computational Complexity, Vol. 2, 1992.
6. Shamir, A. *A Polynomial Time Algorithm for Breaking the Basic Merkle-Hellman Cryptosystem*, Proceedings of the 23rd IEEE Symposium on Foundations of Computer Science, 1982.
7. Odlyzko, A.M. *The Rise and Fall of Knapsack Cryptosystems*, Cryptology and Computational Number Theory, American Mathematical Society, 1990.

DOİ: 10.32010/SUJO1580

KÜLƏK-GÜNƏŞ HİBRİD ENERJİ SİSTEMLƏRİNDƏ İSTİFADƏ OLUNAN KABELLƏRİN XÜSUSİYYƏTLƏRİ

Rəhimə Cavid NAYİB-ZADƏ KƏRİMOVA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
ORCID: 0009-0009-3715-8753
Email: rahima.nayibzada13@gmail.com

Xülasə: Hibrid stansiyalar, bərpa olunan enerji mənbələrini ənənəvi enerji mənbələri ilə birləşdirərək enerji istehsalını artıran və daha sabit enerji təmin edən sistemlərdir. Bu stansiyalarda günəş enerjisi (solar) panelləri geniş istifadə olunur. Günəş panellərinin effektiv işləməsi üçün keyfiyyətli solar kabellərin seçimi və istifadəsi böyük əhəmiyyət kəsb edir. Bu məqalə hibrid stansiyalarda istifadə olunan solar kabellərin növləri, xüsusiyyətləri və əhəmiyyəti haqqındadır. Müasir dünyamızda elektrik enerjisinə olan tələbat artıqca ənənəvi enerji mənbələrinin alternativ enerji mənbələrinə doğru təkamülünə zərurət yaranır. Ənənəvi enerji mənbələrinin ətraf mühitə göstərdiyi mənfi təsirlər bütün canlıları, o cümlədən planetimizi məhvə aparan bir yoldur. Bu səbəbdən dünyamızın artan enerji tələbatını bərpa olunan enerji mənbələri ilə ödəmək alternativ enerji texnologiyalarının inkişafına təkan verən başlıca amildir. Enerjinin istehsal effektivliyini artırmaq üçün yalnız bir alternativ enerji mənbəyindən deyil, kompozit şəklində bir neçə enerji mənbəyindən istifadə daha əlverişli hesab olunur. Bu səbəbdən günümüzdə hibrid enerji təchizatlarının təkmilləşdirilməsinə fokuslanılıb. Günəş elektrik stansiyalarının təhlükəsiz işinin təmin edilməsi, istismar xərclərininn azaldılması, etibarlılığının artırılması birbaşa olaraq burada istifadə olunan avadanlıqların keyfiyyətindən asılıdır. Günəş panellərinin elektrik təchizatında ən əhəmiyyətli və vacib avadanlığı solar kabellər hesab olunur və güc kabellərindən spesifik xüsusiyyətlərinə görə fərqlənr. Belə ki solar kabellərin işləmə cərəyanı sabit olub, 1000V və 1500V gərginliklər üçün nəzərdə tutulur. Konstruksiyası uzunmüddətli günəş şüalarının təsirinə, suya və korroziyaya davamlıdır ki, bu da yanğın təhlükəsizliyinin yüksək səviyyədə olduğunu göstərir. Digər adı ilə fotofoltaik kabel kimi də tanınan solar kabellərin təyinatı günəş panellərini invertorlar, batareyalar, kontrollerlər və digər elektrik sistem komponentlərini birləşdirmək, əlaqələndirmək üçün nəzərdə tutulub və xüsusi tip kabellərdir.
Açar sözlər: hibrid enerji, külək turbini, günəş paneli, solar kabel, güc kabeli

FEATURES OF CABLES USED IN WIND-SOLAR HYBRID ENERGY SYSTEMS

Rahima Javid NAYİB-ZADA KARİMOVA
Azerbaijan State Oil and Industry University
ORCID: 0009-0009-3715-8753
Email: rahima.nayibzada13@gmail.com

Abstract: Hybrid plants are systems that combine renewable energy sources with traditional energy sources to increase energy production and provide more stable energy. Solar panels are widely used in these plants. The selection and use of quality solar cables is of great importance for the effective operation of solar panels. This article is about the types, characteristics and importance of solar cables used in hybrid plants.
In our modern world, the demand for electricity has become increasingly urgent, making it necessary to evolve traditional energy sources towards alternative energy sources. The negative effects of traditional energy sources on the environment are a path to the destruction of all living things, including our planet. Therefore, meeting the growing energy demand of our world with renewable energy sources is the main factor driving the development of alternative energy technologies. In order to increase the efficiency of energy production, it is considered more convenient to use several energy sources in a composite form, rather than just one alternative energy source. For this reason, today, the focus is on improving hybrid energy supplies. Ensuring the safe operation of solar power plants, reducing operating costs, and increasing their reliability directly depend on the quality of the equipment used here. The most important and essential equipment in the power supply of solar panels is considered to be solar cables, which differ from power cables in their specific characteristics. Thus, the operating current of solar cables is constant and is designed for voltages of 1000V and 1500V. Their design is resistant to long-term exposure to sunlight, water and corrosion, which indicates a high level of fire safety. Solar cables, also known as photovoltaic cables, are designed to connect and connect solar panels with inverters, batteries, controllers and other electrical system components, and are special types of cables.
Keywords: hybrid energy, wind turbine, solar panel, solar cable, power cable.

ОСОБЕННОСТИ КАБЕЛЕЙ, ИСПОЛЬЗУЕМЫХ В ГИБРИДНЫХ ВЕТРО-СОЛНЕЧНЫХ ЭНЕРГЕТИЧЕСКИХ СИСТЕМАХ

Рахима Джавид НАИБ-ЗАДЕ КАРИМОВА
Азербайджанский государственный университет нефти и промышленности
ORCID: 0009-0009-3715-8753
Электронная почта: rahima.nayibzada13@gmail.com

Резюме: Гибридные электростанции — это системы, объединяющие возобновляемые и традиционные источники энергии для увеличения выработки энергии и обеспечения более стабильного энергоснабжения. В этих электростанциях широко используются солнечные панели. Выбор и использование качественных солнечных кабелей имеет большое значение для эффективной работы солнечных панелей. В данной статье рассматриваются типы, характеристики и значение солнечных кабелей, используемых в гибридных электростанциях.
В современном мире потребность в электроэнергии становится все более острой, что обуславливает необходимость перехода от традиционных источников энергии к альтернативным. Негативное воздействие традиционных источников энергии на окружающую среду — это путь к уничтожению всего живого, включая нашу планету. Таким образом, удовлетворение растущего мирового спроса на энергию за счёт возобновляемых источников энергии является основным фактором развития альтернативных энергетических технологий. Для повышения эффективности производства энергии считается более целесообразным использовать несколько источников энергии в комплексе, а не один альтернативный. Именно поэтому сегодня особое внимание уделяется совершенствованию гибридных источников энергии. Обеспечение безопасной работы солнечных электростанций, снижение эксплуатационных расходов и повышение их надёжности напрямую зависят от качества используемого оборудования. Важнейшим и незаменимым оборудованием в системе электроснабжения солнечных панелей считаются солнечные кабели, которые отличаются от силовых кабелей своими специфическими характеристиками. Так, рабочий ток солнечных кабелей постоянен и рассчитан на напряжение 1000 В и 1500 В. Их конструкция устойчива к длительному воздействию солнечного света, воды и коррозии, что свидетельствует о высоком уровне пожарной безопасности. Солнечные кабели, также известные как фотоэлектрические кабели, предназначены для соединения солнечных панелей с инверторами, аккумуляторами, контроллерами и другими компонентами электросистем и представляют собой особый тип кабелей.
Ключевые слова: гибридная энергетика, ветряная турбина, солнечная панель, солнечный кабель, силовой кабель.

Giriş

Solar kabellərinin konstruksiyası IEC 62930 standartına uyğun olaraq cərəyan keçirən damar, çarpaz tikilmiş halogensiz izolyasiya və çarpaz tikilmiş halogensiz tərkibli örtük materialından ibarətdir. Bu standarta əsasən istehsal edilmiş kabellər xüsusilə keçiricilər arasında, eləcə də keçirici ilə torpaq arasında nominal DC gərginliyi 1,5 kV-a qədər olan fotovoltaik sistemlərin sabit cərəyanı (DC) tərəfində istifadə üçün nəzərdə tutulmuşdur. Məlumdur ki, günəş panelləri günəş şüalarının birbaşa təsirinə məruz qalır, bu səbəbdən burada istifadə olunan materiallar da uzun ömürlü və bu təsirlərə davamlı olmalıdır. Solar kabellərin cərəyan keçirən damarları qalaylanmış, çoxməftilli flex olmaq şərti ilə mis məftildən hazırlanır və mis məftilin üzərinə çəkilən qalay kabeli korroziyadan qoruyan başlıca vasitədir. Həmçinin cərəyan keçirən damarın qalaylı olması kontakt birləşmələrində qısa qapanma ilə nəticələnən qəzaların baş verməməsi üçün çox vacibdir. Solar kabellərin izolyasiyasında istifadə olunan tikilmiş halogensiz material onların 60 il və daha artıq müddətə qədər istismar ömrünü uzadır. İndi isə bu materialın spesifik özəllikləri və məhz niyə solar kabellərdə istifadə olunmasının vacibliyinin səbəblərini araşdıraq. Başqa sözlə normal güc kabelləri və fotovoltaik kabellərin müqayisəli təhlilini aparaq.

Solar panellərdə istifadə olunan kabellərin növləri və xüsusiyyətləri:

1. **DC kabellər (Günəş paneli kabelləri)**: Günəş panelləri birbaşa cərəyan (DC) istehsal etdiyi üçün DC kabelləri bu cərəyanı invertrlərə daşımaq üçün istifadə olunur. Bu kabellər yüksək temperatura və ultrabənövşəyi şüalara (UV) davamlı olmalıdır. DC kabelləri yüksək effektivliyə malik olmalı və enerji itkilərini minimuma endirməlidir.
2. **AC kabellər**: İnverterlər vasitəsilə DC cərəyanı dəyişən cərəyana (AC) çevrildikdən sonra, bu cərəyanın şəbəkəyə və ya istehlakçılara çatdırılması üçün AC kabelləri istifadə olunur. AC kabelləri izolyasiyası güclü olmalı və elektrik sahəsində təhlükəsiz istifadəyə təminat verməlidir.
3. **Torpaqlanma üçün kabellər**: Hibrid stansiyalarda elektrik təhlükəsizliyi üçün yerinə qoşulan kabellərdən istifadə olunur. Bu kabellər,

sistemdə yaranan hər hansı bir elektrik sızmasının təhlükəsiz şəkildə yerə keçməsini təmin edir və avadanlıqların zərər görməsinin qarşısını alır.

4. **Data kabellər**: Günəş enerjisi sistemlərinin monitorinqi və idarə olunması üçün data kabellərindən istifadə olunur. Bu kabellər vasitəsilə sensorlar və monitorinq cihazları məlumatları toplayır və idarəetmə sisteminə ötürür.

Solar kabellərin əhəmiyyəti:

Solar kabellərin keyfiyyəti və düzgün seçimi, hibrid stansiyaların ümumi səmərəliliyi və təhlükəsizliyi üçün kritikdir. Keyfiyyətsiz kabellərin istifadəsi enerji itkilərinə, avadanlıqların zərər görməsinə və hətta yanğın təhlükəsinə səbəb ola bilər. Buna görə də, solar kabellərin aşağıdakı xüsusiyyətlərə malik olmasına diqqət yetirilməlidir:

1. UV və Temperatur Dayanıqlılığı: Günəş panelləri açıq havada istifadə olunduğu üçün kabellər UV şüalarına və yüksək/az temperatura davamlı olmalıdır.
2. Mexaniki Dayanıqlıq: Kabellər yüksək mexaniki gərginliklərə davamlı olmalı və uzun müddət istismar edilə bilməlidir.
3. Elektrik Davamlılığı: Kabellər yüksək elektrik gərginliyinə və cərəyanına davamlı olmalıdır.
4. Korrozya Müqaviməti**:** Açıq havada istifadə olunduğu üçün kabellər nəmə və korroziyaya qarşı davamlı olmalıdır.

PV solar kabellərin güc kabelləri ilə müqayisəsi:

Fotovoltaik solar H1Z2Z2-K markalı kabelin NYY və N2XH markalı güc kabelləri ilə müqayisəsi nəticəsində aşağıdakı nəticələri əldə edirik.

1. İstifadə məqsədi və təyinatı.

- H1Z2Z2-K PV solar kabeli fotovoltaik (PV) sistemlərində, günəş panellərini çeviricilərə və elektrik komponentlərinə qoşmaq üçün istifadə olunur.
- NYY güc kabeli aşağı gərginlikli elektrik paylayıcı kabel olub, adətən binalarda, yeraltı və sənaye tətbiqlərində istifadə olunur.
- N2XH Elektrik kabeli ictimai binalar, tunellər və xəstəxanalar kimi yanğın təhlükəsizliyi və aşağı tüstü emissiyasının vacib olduğu ərazilərdə istifadə olunur. Halogensiz, alov gecikdirən elektrik kabelidir.

2. İzolyasiya və örtük materialı.

- H1Z2Z2-K PV solar kabelinin izolyasiyası üçün çarpaz bağlı polietilen (XLPE) və ya çarpaz bağlı poliolefin (XLPO) materialından istifadə olunur. Bu kabellərin örtük materialları da həmçinin ultra-bənövşəyi şüalara davamlı olan XLPE və ya XLPO materiallarından ibarətdir.
- NYY markalı güc kabellərinin izolyasiyası və örtüyü üçün Polivinilxlorid (PVC) materialından istifadə olunur.
- N2XH markalı güc kabellərinin izolyasiyası çapraz bağlı polietilen (XLPE) və örtüyü halogensiz, alov gecikdirən birləşmədən ibarətdir.

3. Ultra-bənövşəyi şüalara və hava şəraitinə davamlılıq.

- Fotovoltaik günəş kabeli ultra-bənövşəyi şüalara qarşı güclü davamlılığa, suya və açıq hava şəraitinə dözümlüdür. Bu səbəbdən də açıq havada və dam örtüklərində istifadə üçün uyğun hesab olunur.
- NYY güc kabeli ultra-bənövşəyi şüalara qarşı davamlı deyil, açıq hava şəraitində istismarı zamanı çox qısa müddət ərzində sıradan çıxır. Təyinatına görə yeraltı və qapalı yerlərdə istifadə olunmalıdır.
- N2XH güc kabeli məhdud ultra-bənövşəyi müqavimətə malikdir, əsasən yanğın təhlükəsizliyi tələb olunan daxili məkanlar üçün nəzərdə tutulub.

4. Yanğın təhlükəsizliyi və tüstü emissiyası.

- H1Z2Z2-K halogensiz, aşağı tüstülü və alov gecikdiricidir.
- NYY kabellər halogen tərkiblidir, yanğın zamanı zəhərli tüstü və qazlar xaric olunur.
- N2XH kabellər halogensiz, alov gecikdirici və aşağı tüstülü olduğu üçün ictimai və həyati əhəmiyyətli ərazilər üçün daha uyğun hesab olunur.

5. Gərginlik dərəcəsi**.**

- H1Z2Z2-K kabelləri sabit cərəyanlı olub, 1.5kV gərginliyə qədər işləyə bilir.
- NYY kabellər dəyişən cərəyan üçün nəzərdə tutulub, 0.6/1.0kV üçün uyğundur.
- N2XH kabelləri də həmçinin 0.6/1.0kV AC gərginlikdə işləyir.

6. İşləmə Temperaturu.

- H1Z2Z2-K kabeli -40°C-dən +90°C-yə kimi işləmə temperaturuna malikdir.
- NYY kabeli -5°C-dən +70°C-yə qədər temperatur aralığında problemsiz işləyə bilir.
- N2XH kabelinin işləmə temperaturu isə -40°C-dən +90°C intervalında dəyişir.

Beləliklə, külək-günəş hibrid enerji sistemlərində bu kabellərin hər biri spesifik təyinat yerlərinə uyğun olaraq istifadə oluna bilər. Belə ki, H1Z2Z2-K kabeli günəş panelləri ilə inverter arasındakı DC əlaqələrdə istifadə edilir, bu kabel xüsusi olaraq fotovoltaik sistemlər üçün nəzərdə tutulub. Bu kabel AC enerji ötürülməsi, həmçinin külək turbinlərinin çıxışında istifadə oluna bilməz. Günəş panelləri üçün yalnız H1Z2Z2-K istifadə olunmalıdır, çünki ultra-bənövşəyi şüalara davamlıdır və yüksək DC gərginliyə uyğun hesab olunur. NYY kabeli inverterdən şəbəkəyə və ya yük mərkəzinə enerji ötürmək üçün istifadə edilə bilər, həmçinin yeraltı və daxili elektrik xətləri üçün uyğundur. N2XH kabeli inverterdən yük mərkəzinə enerji ötürülməsi üçün NYY kabelinin əvəzinə istifadə oluna bilər. Habelə, N2XH kabeli ictimai binalarda və yanğın

təklükəsizliyi yüksək olan obyektlərdə AC elektrik xətləri üçün istifadə olunur. Külək turbinlərinin çıxışlarında torsional (burulmaya davamlı) kabellərdən istifadə olunur, çünki turbin fırlandıqca kabel də hərəkət edir. Torsional müqavimətli kabellərə NSHTÖU və H07RN-F misal göstərmək olar.

Hibrid sistemdə kabellərin seçilməsi və itkilərin hesablanması:

Hər biri 400 Vt gücə malik olan 30 ədəd günəş paneli və bir biri 5 kVt gücdə 2 külək turbinindən ibarət hibrid külək-günəş energetik sistemdə kabellərin düzgün seçiminin əhəmiyyətini təqdim edilən hesablamalardan başa düşmək olar. 30 panel üçün ümumi güc 30x400 Vt =12000Vt=12kV kimi təyin edilir. 2 külək turbini isə 2x5 kVt =10000Vt=10kVt kimi hesablanır. Fərqli gərginliklər üçün cərəyanların qiyməti belədir.

1. Yüksək gərginlik ilə günəş panelindən 600 V DC inverter girişinə axan cərəyan P = 12 kVt, U = 600 V → I = 12 000 / 600 = 20.0 A.
2. Aşağı gərginlikdə 48 V günəş paneli və batareyaları əlaqələndirən cərəyan isə P = 12 kVt, U = 48 V → I = 250.0 A.
3. Külək turbinlərində hər turbində 230 V gərginlikdə dəyişən cərəyanın qiyməti:

Bir turbin üçün: P = 5 kVt, U = 230 V → I ≈ 21.739 A.

İkisi birlikdə (ehtimal paralel/tək xətdə): P = 10 kVt, U = 230 V → I ≈ 43.478 A.

Günəş panellərində, həmçinin külək turbinində istifadə olunan kabellərdə kabelin uzunluğuna və xarakterinə görə güc itkiləri baş verir. Misal olaraq günəş panellərini daha yüksək gərginlikdə inverterə, MPPT-yə gətirildiyi hissədə 600 V sabit cərəyandan istifadə olunur. Burada istifadə olunan kabellər EN/IEC standartlarına uyğun olmaqla ultrabənövşəyi şüalara və günəş radiasiyasına davamlı olub, mis keçiricidən ibarət olmalıdır. Əksər hallarda 10-30 A aralığında cərəyan üçün 4 mm² və ya 6 mm² kabelin en kəsik sahəsi yetərlidir. Bu kabellərə ən doğru nümunə kimi PV1-F / H1Z2Z2-K kabellərini göstərə bilərik. Aşağıdakı cədvəl 1-də kabelin uzunluğuna və təyinatına əsasən burada olan güc itkiləri verilmişdir.

Cədvəl 1. 600 V DC (I=20A) uzunluğa əsasən güc itkiləri

L (m)	Cu mm²	R (Ω)	ΔV (V)	ΔV% (600V)	P itki (Vt)
20	6	0.114933	2.299	0.383%	45.97
20	10	0.068960	1.379	0.230%	27.58
50	6	0.287333	5.747	0.958%	114.93
50	10	0.172400	3.448	0.575%	68.96
100	6	0.574667	11.493	1.915%	229.87
100	10	0.344800	6.896	1.149%	137.92

600V DC səviyyəsində cərəyan nisbətən kiçik olub, kabelin en kəsiyi 6-10 mm² qısa məsafələrdə qəbul oluna bilən itki verir. Əksər hallarda gərginlik düşgüsü 0.5-1%-dən az olur. Hibrid sistemdə batareya hissəsi üçün istifadə edilən kabellər qalın keçiricili olur. Kiçik gərginliklərdə tətbiq olunan kabellər 5-ci sinifə (flexible) aid olur. Aşağıdakı cədvəl 2-də gərginlik 48V olduqda (I=250A) güc itkiləri təqdim edilmişdir.

Cədvəl 2. 48V gərginlikdə (I=250A) güc itkiləri.

L (m)	Cu mm²	R (Ω)	ΔV (V)	ΔV% (48V)	P itki (Vt)
20	35	0.065613	16.403	34.18%	1036
50	35	0.163033	40.758	84.91%	10161
100	35	0.326067	81.517	169.83%	40643.9
20	50	0.045	11.25	23.4%	316.4

Aşağı gərginlik (48 V) halında cərəyan çox böyükdür və hətta qalın 35 mm² kabel belə uzun məsafədə qəbulolunmaz dərəcədə böyük gərginlik düşgüsü və güc itkisi verə bilər. Bu səbəbdən də günəş panelindən bateriyaya və ya inverterə mümkün qədər yüksək gərginlikdə ötürmək məsləhətdir, beləliklə

cərəyan azalır və kabel itkisi xeyli azalır. Külək turbinlərində 230V dəyişən cərəyan gərginliyində yaranan güc itkiləri cədvəl 3 və 4-də göstərilib. Bir turbində olan cərəyan təxminən 21.74 A-dir.

Cədvəl 3. 230 V AC bir turbinin (I ≈21.74 A) güc itkiləri.

L (m)	Cu mm²	R (Ω)	ΔV (V)	ΔV% (230V)	P itki (Vt)
20	6	0.114933	2.499	1.09%	54
50	10	0.172400	3.75	1.63%	81.3
100	16	0.086200	1.87	0.81%	37.6

Cədvəl 4. 230 V gərginlikdə iki turbinin birlikdə (I ≈ 43.48 A) güc itkiləri.

L (m)	Cu mm²	R (Ω)	ΔV (V)	ΔV% (230V)	P itki (Vt)
20	10	0.068960	2.999	1.30%	130
50	16	0.086200	3.746	1.63%	162.7
100	35	0.049257	2.142	0.93%	203.7

Külək turbinləri üçün çıxış gərginliyi 230V nəzərdə tutulubsa və məsafə 50 m-dən qısadırsa, kabelin en kəsik sahəsi 6–10 mm² kifayətdir. Əgər iki turbin birlikdə bir kabellə gətirilərsə. o zaman kabellərin en kəsik sahəsini 16–35 mm² düşünmək lazımdır.

Nəticə

Hibrid stansiyalarda istifadə olunan solar kabellər, enerji sisteminin səmərəliliyi və təhlükəsizliyi üçün böyük əhəmiyyət kəsb edir. Bu kabellərin düzgün seçimi və quraşdırılması, uzunmüddətli və səmərəli enerji istehsalına imkan verir. Hər növ kabellərin xüsusi tələblərə uyğun olması və keyfiyyət standartlarına cavab verməsi mühüm şərtdir. Bu səbəbdən, hibrid stansiyaların layihələndirilməsi və tikintisi zamanı solar kabellərin seçimi və istifadəsinə xüsusi diqqət yetirilməlidir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Najiba PIRIYEVA, Gulschen KERIMZADE Electromagnetic efficiency in induction levitators and ways to improve it / PRZEGLAD Elektrotechniczny Publishing house of magazines and technical literature. № 6 pp.204-207.Warszawa
2. Piriyeva N.M., Tagizade L.N. "Surge suppressors and transformer surge protection" International scientific journal "BULLETIN OF SCIENCE. No. 1 (70) Volume 3. 2024. pp. 772-778.
3. Maghami M.R., Hassani R., Gomes C., Hizam H., Othman M.L., Behmanesh M. Hybrid energy management with respect to a hydrogen energy system and demand response J Hydrogen Energy (2019).
4. Hajiaghasi S., Salemnia A., Hamzeh M. Hybrid energy storage system for microgrids applications: 21 (2018) (2019).
5. Das B.K., Hasan M. Optimal sizing of a stand-alone hybrid system for electric and thermal loads using excess energy and waste heat Energy, 214 (2021).
6. Mammadov N.S. "Methods for improving the energy efficiency of wind turbines at low wind speeds", Vestnik Nauki journal, 2023 - No 4 (61) - T.2 - pp. 230-233
7. A.D. Mosheer, C. K. Gan. OPTIMAL SOLAR CABLE SELECTION FOR PHOTOVOLTAIC SYSTEMS. nternational Journal of Renewable Energy Resources 5 (2015) 28-37.
8. Bakas, P., Papastergiou, K. and Norrga, S. (2011). Solar PV array-inverter matching considering impact of environmental conditions, In: Photovoltaic Specialists Conference (PVSC), 2011 37th IEEE, IEEE: 001779-001784.
9. Malamaki, K. and Demoulias, C. 2014. Analytical Calculation of the Electrical Energy Losses on Fixed-Mounted PV Plants, IEEE Trans. Sustain. Energy 5(4): 1080-1089.
10. Kornelakis, A. 2010. Multiobjective Particle Swarm Optimization for the optimal design of photovoltaic grid-connected systems, Solar Energy 84(12): 2022-2033.
11. Villa, L., Picault, D., Raison, B., Bacha, S. and Labonne, A. 2012. Maximizing the Power Output of Partially Shaded Photovoltaic Plants Through Optimization of the Interconnections Among Its Modules, IEEE Journal of Photovoltaics 2(2): 154 163.

DOİ: 10.32010/EVTU9912

UNMANNED AERIAL VEHICLE APPLICATIONS IN GAS PIPELINE MONITORING AND LEAK DETECTION

Elmin NASIBZADE
PhD student
Azerbaijan State Oil and Industry University

Abstract: The reliable and secure functioning of natural gas pipelines is vital for ensuring national energy stability and safeguarding the environment. These networks often extend over thousands of kilometers, traversing diverse landscapes and inaccessible areas. Interruptions—whether from material degradation, gas leakage, or external interference—can lead to significant economic damages, ecological harm, and risks to human safety. Conventional monitoring approaches typically depend on patrol teams, fixed sensor arrays, and satellite-based observation. Although useful, these methods are constrained by high operational expenses, limited coverage, and delayed identification of irregularities. Such limitations emphasize the necessity for more innovative, adaptable, and cost-efficient inspection technologies.

Recent progress in unmanned aerial vehicles (UAVs), mainly referred to as drones, has reshaped infrastructure surveillance across a variety of sectors. Outfitted with advanced tools—including high-definition cameras, infrared imaging devices, LiDAR scanners, methane detectors, and GPS navigation systems—drones provide unique advantages for pipeline assessments. They can cover large areas quickly, deliver near real-time information, and accurately identify faults that traditional techniques may overlook. For instance, thermal imaging can reveal minor heat variations caused by concealed leaks, while multispectral analysis can highlight vegetation stress linked to escaping gas.

This study offers a detailed evaluation of UAV applications in natural gas pipeline monitoring. It investigates how drone technology enhances safety, lowers inspection costs, and supports regulatory requirements by enabling early hazard detection while reducing human exposure to hazardous environments. Evidence from leading energy operators shows that UAV-based inspections not only strengthen reliability but also minimize downtime and ecological damage. The paper also considers ongoing challenges such as aviation regulations, payload capacity, and data processing requirements, which must be addressed to fully exploit UAV capabilities. Looking forward, the integration of artificial inteligence (AI) with the Things Internet (IoT) with drone platforms is expected to transform predictive maintenance and autonomous surveillance. AI-driven image recognition and analytical tools will allow drones to differentiate between minor surface wear and critical structural threats, while IoT networks will facilitate seamless data exchange among drones, control systems, and ground sensors. Together, these advancements forecast a future where UAVs form a central component of intelligent energy infrastructure, promoting resilience, safety, and long-term sustainability in global gas transportation systems.

Keywords: Unmanned aerial vehicles, Drone technology, Natural gas pipelines, Infrastructure monitoring, Remote sensing, Leak detection, Artificial intelligence, Internet of Things, Energy resilience, Safety management, Predictive analytics, Autonomous inspection.

Introduction

Bu tədqiqatda UH-60 *Black Hawk* helikopterinin pərlərinin aerodinamik göstəricilərinə pərin formasının təsirini öyrənmək məqsədilə CFD (Computational Fluid Dynamics) modelləşdirmə üsulu tətbiq edilmişdir. Modelləşdirmə prosesi iki proqram mühitində — SolidWorks Flow Simulation və ANSYS Fluent — aparılmış, nəticələrin etibarlılığı üçün eyni sərhəd şərtləri, material xüsusiyyətləri və turbulentlik modeli qəbul edilmişdir.

Analizlər hover (sabit havada qalma) rejimində həyata keçirilmişdir. Bu rejim helikopterin pərinin aerodinamik davranışını mühərrikdən və uçuş rejimindən asılı olmadan qiymətləndirməyə imkan verir. Hesablamalar zamanı S0 (düz pər) və S3 (maksimum qılıncvari pər) konfiqurasiyaları eyni fırlanma tezliyi, hava sıxlığı və axın şəraitində müqayisə edilmişdir.

Əsas hesablamalar parametrləri:

- Havanın sıxlığı (ρ) = 1.225 kg/m³
- Rotorun diametri (D) = 16.36 m
- Fırlanma tezliyi (n) = 4.2 dövr/s
- Bucaqlı sürət (ω) = 26.4 rad/s
- Turbulentlik modeli: k–ε
- Rejim: Hover (sabit asılı vəziyyət)

Bu parametrlər əsasında aşağıdakı əsas aerodinamik əmsallar hesablanmışdır:

$$C_t = \frac{T}{\rho A(\Omega R)^2}, \quad C_p = \frac{P}{\rho A(\Omega R)^3}, \quad FM = \frac{C_t^{3/2}}{C_p},$$

Burada:

T — qaldırma qüvvəsi,
P — sərf olunan güc,
A = πR² — rotor diskinin sahəsi,
ΩR — periferik bucaqlı sürətdir.

Hesablamalar zamanı **0.5 %-dən az nisbi xəta** ilə yaxınlaşma əldə edilmiş, pərin uclarında (tip hissələrində) **lokal mesh sıxlaşdırılması** tətbiq olunmuşdur. Bu zonalar burulğan əmələgəlməsi və

induktiv enerji itkisi baxımından ən kritik sahələr sayıldığından, bu addım nəticələrin dəqiqliyini artırmışdır.


Cədvəl 1. UH-60 üçün S0 və S3 konfiqurasiyalarında Ct, Cp və FM nəticələri (CFD hesablamaları əsasında)

Konfiqurasiya	Ct	Cp	FM
S0 (düz pər)	0.0331	0.0129	0.469
S3 (qılıncvari pər)	0.0348	0.0125	0.520

Cədvəldən göründüyü kimi, S3 forması ilə əldə edilən nəticələr **S0** ilə müqayisədə əhəmiyyətli fərqlər göstərir. Belə ki, Ct əmsalı 5 % artmış, FM göstəricisi 10–11 % yüksəlmiş, Cp əmsalı isə təxminən 3 % azalmışdır.

Bu fərqlərin əsas səbəbi S3 pərinin aerodinamik profilində hava axınının homogenləşməsi, uç hissələrdə burulğan sıxlığının azalması və induktiv itkilərin azalmasıdır. Bu da o deməkdir ki, qılıncvari formanın artması vintin aerodinamik balansını daha sabit edir, hava axınının enerjisini daha səmərəli şəkildə qaldırma qüvvəsinə çevirir və nəticədə helikopterin enerji səmərəliliyini artırır.


Şəkil 1. UH-60 helikopterinin S0 konfiqurasiyasında hava axınının paylanması.



CFD analizlərinin nəticələrinə əsasən, S0 konfiqurasiyasında hava axını pərin uc hissəsində (r/R ≈ 0.8–0.9) yüksək sürətli burulğan nüvələri yaradır. Bu, induktiv təzyiq fərqlərinin artmasına və **enerji itkisinə** səbəb olur. Şəkildə aydın görünür ki, axın xətləri uclarda sıxlaşır, təzyiq qradiyenti kəskinləşir və qaldırma qüvvəsi pərin periferik hissəsində toplanır. Nəticədə, disk üzrə yüklənmə qeyri-bərabər paylanır və bu, vintin ümumi aerodinamik səmərəliliyinin azalmasına gətirib çıxarır [5, s. 208].

Beləliklə, S0 forması üçün hava axınının strukturu lokal burulğan enerjisinin yüksəkliyi və qaldırma qüvvəsinin radial qeyri-bərabərliyi ilə xarakterizə olunur. Bu, induktiv güc sərfini artırır və FM göstəricisinin azalmasını izah edir.

Şəkil 2. UH-60 helikopterinin S3 konfiqurasiyasında hava axınının paylanması.




S3 konfiqurasiyasında qılıncvari əyriliyin tətbiqi axın sahəsində ciddi dəyişikliklərə səbəb olmuşdur. CFD modelləri göstərir ki, uclardakı burulğanların intensivliyi əhəmiyyətli dərəcədə azalır, axın xətləri daha sabit və homogen şəkildə paylanır. Şəkildən göründüyü kimi, təzyiq səviyyələri arasında keçid daha mülayimdir, və pərin bütün uzunluğu boyunca qaldırma qüvvəsi paylanması sabitləşmişdir [6, s. 310].

Bu nəticə göstərir ki, qılıncvari forma uc hissədəki təzyiq fərqini azaldaraq, induktiv itkiləri minimuma endirir və axın enerjisinin daha səmərəli şəkildə qaldırma qüvvəsinə çevrilməsini təmin edir. Beləliklə, S3 forması üçün hava axını daha stabil, enerji itkisi isə daha azdır. Bu, vintin daha balanslı aerodinamik davranışına və FM göstəricisinin artımına səbəb olur.

- **S0:** Yüksək sürətli uc burulğanları → təzyiq qeyri-bərabərliyi → enerji itkisi ↑ → FM ↓.
- **S3:** Axın homogenləşməsi → induktiv itkilərin azalması → enerji çevrilməsi səmərəliliyi ↑ → FM ↑.

Beləliklə, Şəkil 1 və 2-də göstərilən CFD nəticələri təsdiqləyir ki, pərin qılıncvari forması axın strukturunu sabitləşdirir, burulğan sıxlığını azaldır və enerji itkisini optimallaşdırır. Bu dəyişikliklər sonrakı bölmələrdə (Şəkil 3–6) say göstəriciləri ilə – Ct, Cp və FM əyriləri vasitəsilə – kəmiyyətcə təsdiqlənir.

Şəkil 3. UH-60 üçün Ct əmsalının RPM-dən asılılığı (S0 konfiqurasiyası).




Şəkil 3-də göstərilən qrafikdə S0 pəri üçün Ct əmsalının RPM artdıqca dəyişməsi təsvir olunur. Aydın görünür ki, Ct artımı 200–270 RPM intervalında xətti xarakter daşıyır, lakin 280 RPM-dən sonra əyridə qeyri-xətti davranış müşahidə edilir. Bu, pərin uc hissəsində hava axınının ayrılması (flow separation) ilə əlaqədardır. Uc zonalarda yaranan lokal burulğan nüvələri hava axınının səmərəli

istiqamətlənməsini pozur, nəticədə induktiv itkilər artır və qaldırma qüvvəsinin artım tempi zəifləyir [2, s. 520].

Bu fakt göstərir ki, S0 forması üçün vintin aerodinamik səmərəliliyi mühərrik rejimlərinin yuxarı diapazonunda azalmağa meyllidir və vintin “sabit” iş zonası məhduddur. Yəni, Ct artımı üçün əlavə güc tələb olunur ki, bu da enerji baxımından əlverişsizdir.

Şəkil 4. UH-60 üçün Ct əmsalının RPM-dən asılılığı (S3 konfiqurasiyası).




Şəkil 4-də S3 konfiqurasiyasına aid Ct əyrisi təqdim olunur. Burada diqqətçəkici fərq ondan ibarətdir ki, Ct artımı daha stabil və daha dik bucaqlı xəttlə xarakterizə olunur. Bu o deməkdir ki, pər forması dəyişdirildikdə (S0 → S3), Ct RPM artımına daha yüksək həssaslıqla reaksiya verir.

S3 forması uc zonalarda hava axınının ayrılmasını azaldır və təzyiq sahəsini radial istiqamətdə bərabərləşdirir, nəticədə hər dövrə üçün daha çox qaldırma qüvvəsi yaranır. Bu hal sabit enerjili iş rejimlərində vintin effektivliyini artırır və yanacaq sərfini 3–4 % azaldır [4, s. 265].


Başqa sözlə, Ct əyrisindəki bu dəyişikliklər **pərin** aerodinamik davranışının təkmilləşdirildiyini və S3 konfiqurasiyasının uçuş gücü baxımından daha optimal olduğunu göstərir.

Şəkil 5. UH-60 helikopteri üçün güc sərfi (Power) və Ct arasındakı əlaqə (S0 konfiqurasiyası).



Şəkil 5-də S0 konfiqurasiyası üçün Power–Ct asılılığı təsvir olunur. Qrafikdə Ct artdıqca sərf olunan gücün proqressiv artım nümayiş etdirdiyi görünür. Bu, pərin müəyyən həddən sonra enerji çevrilmə səmərəliliyini itirdiyini göstərir. Fiziki baxımdan bu o deməkdir ki, vintin periferiyasında yaranan konvektiv və induktiv itkilər nəticəsində mühərrikdən alınan mexaniki enerji tam olaraq qaldırma qüvvəsinə çevrilmir. Beləliklə, Ct-in artımı ilə Power artımı arasında qeyri-xətti nisbət formalaşır və vintin Figure of Merit (FM) göstəricisi azalır [1, s. 534].

Şəkil 6. UH-60 helikopteri üçün güc sərfi (Power) və Ct arasındakı əlaqə (S3 konfiqurasiyası).



Şəkil 6-da eyni analiz S3 forması üçün təqdim olunur. Burada əyrinin maililik bucağı S0-a nisbətən daha kiçikdir, yəni eyni Ct göstəricisinə nail olmaq üçün daha az güc sərfi tələb olunur. Bu fərq orta hesabla 3 % civarındadır.

Səbəb ondan ibarətdir ki, qılıncvari əyrilik hava axınını daha axıcı istiqamətə yönəldir, induktiv burulğanların intensivliyini azaldır və təzyiq paylanmasını homogenləşdirir [6, s. 310].

Bu nəticə mexaniki baxımdan da önəmlidir — çünki güc tələbinin azalması mühərrik sisteminin yüklənməsini azaldır, bu da vintin ömrünü uzadır və vibrasiya səviyyəsini aşağı salır.


Nəticə etibarilə, S3 forması ilə vint enerji baxımından daha səmərəli və sabit işləyir, bu da onu gələcək

modifikasiyalar üçün optimal baza halına gətirir.

- **S0:** Ct artımı ilə enerji itkisi çoxalır → Power–Ct əlaqəsi qeyri-sabit → FM azalır.
- **S3:** Ct artımı daha səmərəli enerji çevrilməsi ilə müşayiət olunur → Power tələbi azalır → FM artır.

Bu nəticələr sübut edir ki, pərin qılıncvari formaya keçidi **(S0 → S3)** yalnız qaldırma qüvvəsini artırmır, həm də mühərrik yükünü azaldır və uçuş səmərəliliyini yüksəldir. Gələn bölmədə bu nəticələr FM və Thrust əyriləri vasitəsilə qrafik olaraq müqayisə edilir və optimallaşdırılmış forma üçün enerji balansı izah olunur.

Şəkil 7. Thrust göstəricisinin RPM-ə görə dəyişməsi (S0 konfiqurasiyası).




Şəkil 7-də UH-60 helikopterinin **S0** konfiqurasiyası üçün Thrust–RPM asılılığı təsvir olunur. Qrafikdə aydın görünür ki, Thrust (qaldırma qüvvəsi) RPM artımı ilə demək olar ki, xətti şəkildə artır, lakin bu artımın intensivliyi yüksək fırlanma sürətlərində müəyyən azalır. Bu, pərin uc hissələrində axının ayrılması (flow separation) və burulğan sıxlığının artması ilə izah olunur [3, s. 212].

RPM ≈ 250–280 diapazonunda Thrust sabitləşməyə meyillidir, bu da helikopterin hover rejimində maksimal səmərəlilik zonası kimi qiymətləndirilə bilər. Lakin bu zonadan yuxarıda, xüsusilə RPM > 300 hallarında, aerodinamik müqavimət (drag) kəskin artır və qaldırma qüvvəsinin artım tempi zəifləyir.

Mühəndis baxımından bu o deməkdir ki, **S0 pəri** enerjini qaldırma qüvvəsinə çevirməkdə müəyyən həddən sonra səmərəsizləşir. Hava axınının uclarında yaranan intensiv induktiv burulğanlar nəticəsində bir hissə enerji lokal dövranlara (vortex loops) sərf olunur, bu isə vintin ümumi səmərəliliyini azaldır [2, s. 520].

Beləliklə, S0 forması üçün Thrust artımı müəyyən diapazonda effektiv olsa da, yüksək RPM dəyərlərində aerodinamik doyma effekti müşahidə olunur — yəni vint artıq əlavə güc artımını tam olaraq qaldırma qüvvəsinə çevirə bilmir. Bu, həm yanacaq sərfini artırır, həm də rotor sisteminə əlavə mexaniki gərginlik yaradır.

Şəkil 8. Thrust göstəricisinin RPM-ə görə dəyişməsi (S3 konfiqurasiyası).



Şəkil 8-də UH-60 helikopterinin S3 konfiqurasiyası üçün Thrust–RPM asılılığı göstərilmişdir. Göründüyü kimi, S3 pəri üçün qrafik daha dik bucağa malikdir, yəni RPM artımına **qarşı** daha güclü reaksiya verir. Bu, aerodinamik baxımdan çox vacib nəticədir: eyni fırlanma tezliyində S3 forması daha çox qaldırma qüvvəsi (Thrust) yaradır, bu isə enerji çevrilmə səmərəliliyinin yüksəldiyini göstərir [4, s. 265].

RPM ≈ 270–290 intervalında Thrust əyrisi optimal sabitlik zonasına daxil olur — burada qaldırma qüvvəsi maksimum dəyərinə çatır, lakin güc sərfi minimal səviyyədə qalır. Bu, helikopterin mühərrik yükü və aerodinamik müqavimət arasında ideal balans nöqtəsi deməkdir.

S0 ilə müqayisədə, S3 konfiqurasiyası eyni Thrust dəyərinə çatmaq üçün təxminən 2.5–3 % az RPM tələb edir. Başqa sözlə, S3 pəri eyni qaldırma effektini daha az mexaniki enerji ilə təmin edir. Bu fakt mühərrikin fırlanma momentinə düşən yüklənməni azaldır, enerji itkisini 3–4 % aşağı salır və vintin struktur ömrünü uzadır [8, s. 415].

Axın analizi göstərir ki, S3 forması üçün hava axını daha homogen və sabit paylanır. Uc hissədəki təzyiq fərqi azaldığı üçün burulğanların intensivliyi zəifləyir, bu da induktiv itkilərin azalmasına və axın enerjisinin daha çox hissəsinin qaldırma qüvvəsinə çevrilməsinə səbəb olur.

Bu nəticə həmçinin vibrasiya səviyyəsinin azalmasını və akustik sabitliyin artmasını göstərir. Səs dalğalarının yaranması üçün əsas mənbə olan burulğanların pozulması S3 formasında zəiflədiyi üçün helikopterin akustik izi də azalır. Bu xüsusilə şəhər və hərbi əməliyyat şəraitində strateji üstünlük sayılır.

Göstərici	S0 konfiqurasiyası	S3 konfiqurasiyası	Nəticə
RPM-də artım zamanı Thrust	Xətti, lakin doyma effekti ilə	Daha dik, stabil və effektiv	S3 daha səmərəli
Axın sabitliyi	Uclarda pozulmalar mövcuddur	Homogen və stabil axın	İtkilər azalır
Enerji çevrilməsi	Məhdud	Effektiv	Enerji qənaəti +3–4 %

Mexaniki yüklənmə	Yüksək	Daha az	Rotor ömrü artır

Beləliklə, Şəkil 7 və 8 nəticələri bir daha sübut edir ki, S3 konfiqurasiyası UH-60 helikopterinin qaldırma və enerji balansında aerodinamik optimum təmin edir. Vint forması dəyişdikdə hava axını homogenləşir, Thrust-RPM əlaqəsi sabitləşir və bu da həm enerji səmərəliliyini, həm uçuş sabitliyini, həm də konstruktiv davamlılığı artırır.

Nəticə

Aparılmış CFD təhlili göstərdi ki, S0-dan S3 formaya keçid UH-60 Black Hawk helikopterinin daşıyıcı vint sistemində kəmiyyətcə ölçülə bilən və fiziki cəhətdən əsaslandırılmış aerodinamik üstünlüklər yaradır. Qaldırma qüvvəsinin (Ct) təxminən 5 % artması, güc əmsalının (Cp) 3 % azalması və səmərəlilik göstəricisinin (FM) 10–11 % yüksəlməsi — sadəcə ədədi nəticə deyil, həm də axın mexanikasının fundamental dəyişməsidir. Bu, pərin uclarında burulğan enerjisinin zəifləməsi, təzyiq paylanmasının bərabərləşməsi və hava axınının homogenləşməsi ilə izah olunur.

S3 forması ilə helikopter vintinin axın sahəsi daha stabil, burulğanlar daha zəif, enerji çevrilməsi isə daha səmərəlidir. Bu, mühərrikə düşən fırlanma yükünü 2–3 % azaldır, beləliklə həm yanacaq sərfiyyatını, həm də vibrasiya yüklənməsini aşağı salır. Nəticə etibarilə, rotorun mexaniki ömrü uzanır, uçuş sabitliyi artır və akustik komfort səviyyəsi yüksəlir.

Bu araşdırmanın ən mühüm elmi nəticəsi ondadır ki, geometriya dəyişikliklərinin minimal miqyasda olması — yəni konstruksiyanın, materialın və mühərrik sisteminin dəyişdirilmədən qalması — aerodinamik performansda nəzərəçarpacaq artım təmin edir. Bu, müasir aviasiya mühəndisliyində “ağıllı dizayn” konsepsiyasının parlaq nümunəsidir: daha az dəyişikliklə daha çox səmərəlilik.

Gələcək tədqiqatlar bu istiqamətdə kompozit materialların istifadəsi, aerodinamik-akustik inteqrasiyanın gücləndirilməsi və rotor kənarlarında aktiv axın idarəetməsi (active flow control) texnologiyalarının tətbiqi ilə davam etdirilə bilər. Xüsusilə, S3 kimi sabit aerodinamik formalar aşağı səs emissiyası, enerji qənaəti və uzunömürlülük baxımından gələcək nəsil helikopterlərin dizaynında baza konsepsiya kimi çıxış edə bilər. Beləliklə, aparılan iş UH-60 Black Hawk üçün yalnız nəzəri model deyil, həm də praktik modernləşmə istiqaməti təqdim edir: formanın optimallaşdırılması mühərrik və konstruktiv dəyişikliklər olmadan enerji effektivliyini artırmaq, uçuş məsafəsini uzatmaq və akustik izləri azaltmaq üçün real mühəndislik həllidir. Bu nəticələr həm də göstərir ki, helikopter aerodinamikasında irəliləyiş bəzən inqilabi texnologiyalardan deyil, intellektual dizaynın sadəliyindən başlayır.

ƏDƏBIYYAT SIYAHISI:

1. Anderson, J. D. Fundamentals of Aerodynamics. — 6th ed. — New York: McGraw-Hill Education, 2017. — 1152 p.
2. Leishman, J. G. Principles of Helicopter Aerodynamics. — 2nd ed. — Cambridge University Press, 2006. — 864 p.
3. Johnson, W. Helicopter Theory. — Princeton University Press, 1980. — 796 p.
4. Norman, P. J., et al. “UH-60A Airloads Rotor Test: Aerodynamic Performance and CFD Correlation.” Journal of the American Helicopter Society, vol. 63, no. 4, 2018, pp. 105820–105827.
5. Yeo, H., & Johnson, W. “Comparison of Measured and Calculated Rotor Performance of the UH-60A.” NASA Technical Report TM-2009-215590, Ames Research Center, 2009.
6. Tao, J., & Xin, Y. “Numerical Simulation of Rotor Flow Field Using CFD Techniques.” Aerospace Science and Technology, vol. 69, 2017, pp. 301–311.
7. Stepniewski, W. Z., & Keys, C. N. Rotary-Wing Aerodynamics. — New York: Dover Publications, 1984. — 576 p.
8. Conlisk, A. T. “Modern Helicopter Aerodynamics.” Progress in Aerospace Sciences, vol. 37, 2001, pp. 419–476.
9. Padfield, G. D. Helicopter Flight Dynamics: The Theory and Application of Flying Qualities and Simulation Modelling. — 3rd ed. — Blackwell Publishing, 2018. — 832 p.
10. Wang, J., & Chen, X. “Optimization of Helicopter Rotor Blades for Aerodynamic Efficiency Using CFD.” Aerospace Science and Technology, vol. 110, 2021, 106492.

DOİ: 10.32010/RSCV8724

FREE AND FORCED VIBRATIONS OF A REINFORCED SEMI-CYLINDRICAL CUSHION ON AN INERTIAL BASE

Parviz Shamil GARAYEV
S.Dadashov Institute of Scientific Research and Design of Building Materials
E-mail: fhnpervizko@gmail.com

Abstract: In the proposed work, free and forced vibrations of a semi-cylindrical cushion on an inertial base are investigated. It is assumed that the motion of a semi-cylindrical cushion on an inertial base is described by the Lame equations of motion. The frequencies of natural oscillations and normal displacements of points of a semi-cylindrical cushion on an inertial base are found. The effects of the inertial properties of the bases and the parameters characterizing the material of a semi-cylindrical cushion are studied, and characteristic dependence curves are constructed.
Keywords: Semi-cylindrical cushion, resonant frequencies, inertial basis, Lame's equations of motion, contact information

ƏTALƏT ƏSASLI MÖHKƏMLƏNDİRİLMİŞ YARIMSİLİNDRİK YASTIĞIN SƏRBƏST VƏ MƏCBURİ VİBRASİYALARI

Pərviz Şamil QARAYEV
S.Dadaşov adına Tikinti Materialları Elmi Tədqiqat və Layihə İnstitutu
E-mail: fhnpervizko@gmail.com

Xülasə: Təklif olunan işdə ətalət əsaslı yarımsilindrik yastığın sərbəst və məcburi vibrasiyaları araşdırılır. Fərz edilir ki, ətalət əsaslı yarımsilindrik yastığın hərəkəti Lame hərəkət tənlikləri ilə təsvir olunur. Ətalət əsaslı yarımsilindrik yastığın nöqtələrinin təbii rəqslərinin və normal yerdəyişmələrinin tezlikləri tapılır. Əsasların ətalət xüsusiyyətlərinin və yarımsilindrik yastığın materialını xarakterizə edən parametrlərin təsirləri öyrənilir və xarakterik asılılıq əyriləri qurulur.
Açar sözlər: Yarısilindrik yastıq, rezonans tezlikləri, ətalət əsası, Lame hərəkət tənlikləri, əlaqə məlumatları

СВОБОДНЫЕ И ВЫНУЖДЕННЫЕ КОЛЕБАНИЯ АРМИРОВАННОЙ ПОЛУЦИЛИНДРИЧЕСКОЙ ПОДУШКИ НА ИНЕРЦИАЛЬНОМ ОСНОВАНИИ

Парвиз Шамиль ГАРАЕВ
Институт научных исследований и проектирования строительных материалов им. С. Дадашова
Электронная почта: fhnpervizko@gmail.com

Резюме: В предлагаемой работе исследуются свободные и вынужденные колебания полуцилиндрической подушки на инерциальном основании. Предполагается, что движение полуцилиндрической подушки на инерциальном основании описывается уравнениями движения Ламе. Найдены частоты собственных колебаний и нормальные смещения точек полуцилиндрической подушки на инерциальном основании. Изучено влияние инерционных свойств оснований и параметров, характеризующих материал полуцилиндрической подушки, и построены характеристические кривые зависимости.
Ключевые слова: Полуцилиндрическая подушка, резонансные частоты, инерциальное основание, уравнения движения Ламе, контактная информация

Introduction

Cushions of various shapes are used to extinguish oscillatory processes in bridges.These cushions act as a damper. In [1], free vibrations of a three-layer circular plate on an elastic inertial base under the influence of temperature are considered. To describe the kinematics of a package that is not symmetrical in thickness, the hypothesis of a broken normal is adopted. The placeholder is light. The conditions of continuity of movement are used at the contact boundaries. The Winkler hypothesis is accepted for an elastic inertial base. Analytical solutions of the corresponding initial boundary value problems are found and their numerical and comparative analysis is carried out.

In [2], axisymmetric free vibrations of an elastic circular three-layer plate on an elastic base were

investigated. The Winkler model describes the base reaction.

Work [3] is devoted to the study of axisymmetric oscillations of an elastic circular three-layer plate on an elastic base under the action of a rectangular load. The Pasternak model describes the base reaction. To describe the kinematics of a package that is not symmetrical in thickness, the hypothesis of a broken line is adopted.

In [5], the effect of pre-shrinkage of a reinforced cylindrical shell filled with a medium on critical stresses leading to a general loss of stability is investigated.

The analysis of the effect of pre-shrinkage of a cylindrical shell reinforced with a system of transverse ribs in contact with the medium on critical stresses leading to a general loss of stability was studied in [6].

Vibrations of inhomogeneous cylindrical shells filled with liquid reinforced with lateral stiffeners were studied in [7].

The study of natural vibrations of cylindrical shells with holes reinforced with stiffeners, the finite element method and holographic interferometry and mathematical modeling of the stress-strain state of multilayer shells reinforced with stiffeners cylindrical shells under longitudinal pulsed loading were studied in papers [8 -12]

Materials

Suppose that a semi-cylindrical cushion on an inertial base is affected by the actions of the bridge and the strut where the cushion is located (fiqure 1.).




Figure 1. Reinforced semi-cylindrical cushion on inertial bases

$P(x)$ - force acting from the side of the bridge on the cushion, q_r - the force acting from the side of the rack on the pillow.

When solving the problem, we will use the Hamilton-Ostrogradsky variational principle. Based on this principle [4, 5]

$$\delta W = 0 \qquad (1)$$

Here $W = \int_{t'}^{t''} J dt$ - Hamilton's actions, t' and t'' - set arbitrary time points.

$$J = V_{ks} - V_{ps} - A_p - A_q - M_p - M_k - L_p + L_k, \qquad (2)$$

The following contact and boundary conditions are added to expression (3). It is assumed that the harsh contact conditions between the semi-cylindrical cushion and the rods satisfy:

$$u_i(x) = u(x,\varphi_i), \vartheta_i(x) = \vartheta(x,\varphi_i), w_i(x) = w(x,\varphi_i),$$
$$u_j(x) = u(x_j,\varphi), \vartheta_j(x) = \vartheta(x_j,\varphi), w_j(x) = w(x_j,\varphi). \qquad (3)$$

In the (2) statement V_{ps}, V_{ks} - potential and kinetic energy of a semi-cylindrical cushion, M_p, M_k - potential and kinetic energies of the rings, L_p, L_k - potential and kinetic energy of the rod, A_q - the work of the forces acting on the semi-cylindrical cushion from the side of the support, in the displacements of the cushion points, A_p - is the work of forces acting on a semi-cylindrical cushion in the normal direction of the bridge, in displacements of the cushion points. The indicated values are calculated as follows [11, 13]:

$$V_{ps} = \iiint \left[\frac{\lambda_s + 2\mu_s}{2} \left(e_{11}^2 + e_{22}^2 + e_{33}^2 \right) + \left(\lambda_s + 2\mu_s \right) \left(e_{11}e_{22} + e_{22}e_{33} + e_{11}e_{33} \right) \right] \qquad (4)$$

$$V_{ks} = \frac{\rho_s}{2} \iiint_V \left(\left(\frac{\partial s_x}{\partial t} \right)^2 + \left(\frac{\partial s_\theta}{\partial t} \right)^2 + \left(\frac{\partial s_r}{\partial t} \right)^2 \right) dxdydr \qquad (5)$$

$$A_q = -\iint_S q_r \, s_r\big|_{r=0} \, dxdy; \quad A_p = -\int p(x) \mathrm{s}_r\big|_{r=R,\theta=\pi/2} \, dx \qquad (6)$$

$$L = L_p + L_k = \frac{1}{4}\sum_{i=1}^{k_1}\int_{r_2}^{r_1}\left[\tilde{E}_i F_1\left(\frac{\partial u}{\partial r}\right)^2 + \tilde{E}_i I_1\left(\frac{\partial^2 w}{\partial r^2}\right)^2 + \tilde{E}_i \tilde{I}_1\left(\frac{\partial^2 \vartheta}{r^2 \partial \varphi^2}\right)^2 + \right.$$

$$\left. + \tilde{G}_i I_{1kp}\left(\frac{\partial^2 w}{r\partial r \partial \varphi}\right)^2\right]_{\varphi=\varphi_i} dr + \frac{1}{4}\sum_{i=1}^{k_2}\int_0^{2\pi}\left[E_j F_2\left(\frac{\partial \vartheta}{r\partial\varphi} + \frac{w}{r}\right) + \right.$$

$$\left. + G_j I_{jkp}\left(\frac{\partial^2 w}{r\partial r\partial\varphi}\right)^2 + E_j I_j\left(\frac{\partial^2 w}{r^2\partial\varphi^2} + \frac{w}{r^2}\right)^2\right]_{r=r_j} d\varphi. \qquad (7)$$

The potential and kinetic energies of the springs of the cushion mass are expressed as follows [14]:

$$\Pi_{sp} = \left(z - w_0\right)^2 Nc;\ T_{sp} = \frac{1}{2}M\dot{z}^2. \quad (8)$$

Here w_0 is the displacement of the diametrically opposite points, where the end points of the Spring Meet, and M the mass of the pad. N - is the number of springs located under the cushion.

Here F_1, I_1, I_1, I_{1tor}, respectively, is the cross-sectional area of the longitudinal rib and the moments of inertia of this area relative to the tangential and radial axes, as well as the moment of inertia in torsion; F_2, I_2, I_{2tor} - is the moment of inertia relative to the axis coinciding with the cross-sectional area of the ring and generating this area, as well as the moment of inertia during torsion; E_i, E_j - are the elastic modulus of the cross sections of the *i*-th longitudinal rib, j-th ring; $\tilde{G}_i, G_j$ are the elastic modulus of the cross sections of the ith longitudinal rib and the jth ring, respectively; k_1, k_2 - the number of edges and rings, respectively; φ_i, r_j - are the coordinates of the location of the edge and ring, respectively.

Here, s_x, s_θ, s_r is the displacement of the cushion points, t is time, and e_{11}, e_{22}, e_{33} is the deformation components, in which the displacement components s_x, s_θ, s_r are expressed as follows:

$$e_{11} = \frac{\partial s_r}{\partial r}, e_{22} = R\left(\frac{\partial s_\theta}{\partial \theta} + s_r\right), e_{33} = \frac{\partial s_x}{\partial x}. \qquad (9)$$

We will assume that the force q_r acting from the side of the rack on a semi-cylindrical cushion during its vertical movement in s_r obeys the Winkler type model:

$$q_r = k_\vartheta s_r + m_d \frac{\partial^2 s_r}{\partial t^2}. \qquad (10)$$

Here k_ϑ is the coefficient of rigidity, m_d is the specific gravity of the rack material.
We consider that the force $P(x)$ has the form:

$$P(x) = p_0 \cos\frac{n\pi}{2} sinkx sin\omega t. \qquad (11)$$

The displacements of the semi-cylindrical cushion on the inertial base s_x, s_θ, s_r are determined from the vector equation by the Lame equations in displacements [6, 7]:

$$a_l^2 graddiv\vec{u} - a_t^2 rotrot\vec{u} + \rho_s \frac{\partial^2 \vec{u}}{\partial t^2} = 0. \qquad (12)$$

Where, $a_t = \sqrt{\frac{\lambda_s + 2\mu_s}{\rho_s}}$, ρ_s - density, $a_e = \sqrt{\frac{\mu_s}{\rho_s}}$, λ_s and μ_s are the Lame coefficients.

Method

The movements of the semi-cylindrical cushion on the inertial base of the s_x, s_θ, s_r are determined as follows [6]:

$$s_x = \left[\tilde{A}_s k I_n(\gamma_e r) - \frac{\tilde{C}_s \gamma_t^2}{\mu_t} I_n(\gamma_t r) \right] \cos n\theta \cos kx \sin \omega t$$

$$s_\theta = \left[-\frac{\tilde{A}_s n}{r} I_n(\gamma_e r) - \frac{\tilde{C}_s nk}{r\mu_t} I_n(\gamma_t r) - \frac{\tilde{B}_s}{n} \frac{\partial I_n(\gamma_t r)}{\partial r} \right] \sin n\theta \sin kx \sin \omega t \qquad (13)$$

$$s_r = \left[\tilde{A}_s \frac{\partial I_n(\gamma_e r)}{\partial r} - \frac{\tilde{C}_s k}{\mu_t} \frac{\partial I_n(\gamma_t r)}{\partial r} + \frac{\tilde{B}_s n}{r} I_n(\gamma_t r) \right] \cos n\theta \sin kx \sin \omega t$$

Where, $\tilde{A}_s, \tilde{C}_s, \tilde{B}_s$ are unknown constants, k, n, γ_e, γ_t are wave numbers and $\gamma_e^2 = k^2 - \mu_e^2, \gamma_t^2 = k^2 - \mu_t^2.$

Considering (12) in expressions (6) and (3)-(5), we obtain:

$$V_{ps} = \frac{\pi l(\lambda_s + 2\mu_s)}{16} \left\{ \tilde{A}_s^2 \int_0^R \left[\gamma_l^4 I_n^{"2}(\gamma_l r) + k^4 I_n^2(\gamma_l r) - 2k^2 \gamma_l^2 I_n(\gamma_l r) I_n^{"}(\gamma_l r) + \right.\right.$$

$$\left. + \beta_1 \left(R^2 + 2\gamma_l^2 R \right) I_n^{"}(\gamma_l r) - 2k^2 R I_n(\gamma_l r) \right] dr + \tilde{B}_s^2 \int_0^R \left(\beta_2^2 + R^2 \beta_3 + \beta_2 \beta_3 \right) dr +$$

$$+ \tilde{C}_s^2 \int_0^R \left[\frac{k^2 \gamma_t^4}{\mu_t^2} I_n^{"2}(\gamma_t r) + \frac{k^2 \gamma_t^4}{\mu_t^2} I_n^2(\gamma_t r) - \frac{k^2 \gamma_t^4}{\mu_t^2} I_n(\gamma_t r) I_n^{"}(\gamma_t r) + \beta_4 \frac{k\gamma_t^2}{\mu_t} \times \right.$$

$$\left. \times R I_n(\gamma_t r) - I_n^{"}(\gamma_t r) \right] dr + \tilde{A}_s \tilde{C}_s \int_0^R \left[\frac{-2k\gamma_l^2 \gamma_t^2}{\mu_t} I_n^{"}(\gamma_l r) I_n^{"}(\gamma_t r) - \frac{2\gamma_t^2 k^3}{\mu_t} I_n(\gamma_l r) \times \right.$$

$$\times I_n(\gamma_t r) + \frac{k\gamma_l^2 \gamma_t^2}{\mu_t} I_n(\gamma_t r) I_n^{"}(\gamma_l r) + \frac{\gamma_t^2 k^3}{\mu_t} I_n(\gamma_l r) I_n^{"}(\gamma_t r) + 2\beta_4 \beta_5 + \qquad (14)$$

$$\left. + \beta_4 \left(\gamma_l^2 R I_n^{"}(\gamma_l r) - k^2 R I_n(\gamma_l r) \right) + \beta_5 \frac{k\gamma_t^2}{\mu_t} I_n(\gamma_l r) - R I_n^{"}(\gamma_t r) \right] dr +$$

$$+ \tilde{A}_s \tilde{B}_s \int_0^R \left[2\gamma_l^2 \beta_2 I_n^{"}(\gamma_t r) + 2R^2 \beta_1 \beta_3 + \gamma_l^2 \beta_3 I_n^{"}(\gamma_l r) + \beta_1 \beta_2 - k^2 \beta_2 I_n(\gamma_l r) - \right.$$

$$\left. - k^2 R \beta_3 I_n(\gamma_l r) \right] dr + \tilde{B}_s \tilde{C}_s \int_0^R \left[-\frac{2k\gamma_t^2 \beta_2}{\mu_t} I_n^{"}(\gamma_t r) + 2R^2 \beta_3 \beta_4 - \frac{2k\gamma_t^2 R \beta_3}{\mu_t} \times \right.$$

$$\left. \times I_n^{"}(\gamma_t r) + \frac{k\gamma_t^2 \beta_2}{\mu_t} I_n(\gamma_t r) + \frac{k\gamma_t^2 R \beta_3}{\mu_t} I_n(\gamma_t r) + R\beta_2 \beta_4 \right] dr \Big\} sin^2 \omega t.$$

$$\beta_1(r) = -\frac{n^2}{r} I_n(\gamma_l r) + \gamma_l I_n^{'}(\gamma_l r); \beta_2(r) = \frac{n\gamma_t}{r} I_n^{'}(\gamma_t r) - \frac{n}{r^2} I_n(\gamma_t r);$$

$$\beta_3(r) = -\gamma_t I_n^{'}(\gamma_t r) + \frac{n}{r} I_n(\gamma_t r); \beta_4(r) = -\frac{k}{\mu_t} \left(\frac{n^2}{r} I_n(\gamma_t r) - \gamma_t I_n^{'}(\gamma_t r) \right);$$

$$\beta_5(r) = -\frac{n^2}{r} I_n(\gamma_l r) + \gamma_l I_n^{'}(\gamma_l r);$$

$$V_{ks} = \frac{\pi l \omega^2 \rho_s}{8} \left\{ \tilde{A}_s^2 \int_0^R \left[k^2 I_n^2(\gamma_l r) + \frac{n^2}{r^2} I_n^2(\gamma_l r) + \gamma_l^2 I_n^{'2}(\gamma_l r) \right] dr + \right.$$

$$+\tilde{B}_s^2\int_0^R\left[\frac{\gamma_t^2}{n^2}I_n^{'2}(\gamma_l r)+\frac{n^2}{r^2}I_n^2(\gamma_t r)\right]dr+\tilde{C}_s^2\int_0^R\left[\frac{\gamma_t^4}{\mu_t^2}I_n(\gamma_t r)+\frac{n^2k^2}{r^2\mu_t^2}I_n^2(\gamma_t r)+\right.$$

$$\left.+\frac{k^2\gamma_t^2}{\mu_t^2}I_n^{'2}(\gamma_t r)\right]dr+\tilde{A}_s\tilde{C}_s\int_0^R\left[-2k\gamma_t^2I_n(\gamma_l r)I_n(\gamma_t r)+\frac{2n^2k}{r^2\mu_t}I_n(\gamma_l r)I_n(\gamma_t r)-\right.$$

$$\left.-\frac{2k\gamma_l\gamma_t}{\mu_t}I_n^{'}(\gamma_l r)I_n^{'}(\gamma_t r)\right]dr+\tilde{A}_s\tilde{B}_s\int_0^R\left[\frac{2\gamma_t}{r}I_n(\gamma_l r)I_n^{'}(\gamma_t r)+\right.$$

$$\left.+\frac{2n\gamma_l}{r}I_n(\gamma_t r)I_n^{'}(\gamma_l r)\right]dr+\tilde{B}_s\tilde{C}_s\int_0^R\left[\frac{2k\gamma_t}{\mu_t}I_n(\gamma_t r)I_n^{'}(\gamma_t r)-\right.$$

$$\left.-\frac{2nk\gamma_t}{r\mu_t}I_n(\gamma_t r)I_n^{'}(\gamma_t r)\right]dr\Big\}\sin^2\omega t.$$

$$A_q=-\frac{\pi lR}{4}\Big[A_s^2\int_0^R\gamma_l^2I_n^{'2}(\gamma_l r)dr+\tilde{C}_s^2\frac{k^2\gamma_t^2}{\mu_t^2}\int_0^RI_n^{'2}(\gamma_t r)dr+\tilde{B}_s^2n^2\int_0^R\frac{I_n^2(\gamma_t r)}{r^2}dr-$$

$$-\tilde{A}_s\tilde{C}_s\frac{2k\gamma_l\gamma_t}{\mu_t}\int_0^RI_n^{'}(\gamma_l r)I_n^{'}(\gamma_t r)dr+\tilde{A}_s\tilde{B}_s\cdot2\gamma_l n\int_0^R\frac{I_n(\gamma_t r)I_n^{'}(\gamma_l r)}{r}dr-$$

$$\left.-\tilde{B}_s\tilde{C}_s\frac{2nk\gamma_t}{\mu_t}\int_0^R\frac{I_n(\gamma_t r)I_n^{'}(\gamma_t r)}{r}dr\right]\left(k_g-\omega^2m_d\right)\sin^2\omega t. \tag{15}$$

$$A_p=-\frac{p_0l}{2}\left[\%A_s\frac{\partial I_n(\gamma_e R)}{\partial r}-\frac{\%C_sk}{\mu_t}\frac{\partial I_n(\gamma_t R)}{\partial r}+\frac{\%B_sn}{R}I_n(\gamma_t R)\right]\sin^2\omega t\,. \tag{16}$$

If we take into account all formulas (7, 8, 14, 15, 16) in (2), taking into account (3), we obtain an expression for and taking, applying the Ostrogradsky-Hamilton variational principle (1), we obtain:

$$W=\Big\{\frac{\pi l\omega^2\rho_s}{8}\Big\{\tilde{A}_s^2\int_0^R\Big[k^2I_n^2(\gamma_l r)+\frac{n^2}{r^2}I_n^2(\gamma_l r)+\gamma_l^2I_n^{'2}(\gamma_l r)\Big]dr+$$

$$+\tilde{B}_s^2\int_0^R\left[\frac{\gamma_t^2}{n^2}I_n^{'2}(\gamma_l r)+\frac{n^2}{r^2}I_n^2(\gamma_t r)\right]dr+\tilde{C}_s^2\int_0^R\left[\frac{\gamma_t^4}{\mu_t^2}I_n(\gamma_t r)+\frac{n^2k^2}{r^2\mu_t^2}I_n^2(\gamma_t r)+\right.$$

$$\left.+\frac{k^2\gamma_t^2}{\mu_t^2}I_n^{'2}(\gamma_t r)\right]dr+\tilde{A}_s\tilde{C}_s\int_0^R\left[-2k\gamma_t^2I_n(\gamma_l r)I_n(\gamma_t r)+\frac{2n^2k}{r^2\mu_t}I_n(\gamma_l r)I_n(\gamma_t r)-\right.$$

$$\left.-\frac{2k\gamma_l\gamma_t}{\mu_t}I_n^{'}(\gamma_l r)I_n^{'}(\gamma_t r)\right]dr+\tilde{A}_s\tilde{B}_s\int_0^R\left[\frac{2\gamma_t}{r}I_n(\gamma_l r)I_n^{'}(\gamma_t r)+\right.$$

$$\left.+\frac{2n\gamma_l}{r}I_n(\gamma_t r)I_n^{'}(\gamma_l r)\right]dr+\tilde{B}_s\tilde{C}_s\int_0^R\left[\frac{2k\gamma_t}{\mu_t}I_n(\gamma_t r)I_n^{'}(\gamma_t r)-\right.$$

$$\left.-\frac{2nk\gamma_t}{r\mu_t}I_n(\gamma_t r)I_n^{'}(\gamma_t r)\right]dr-\frac{\pi l\left(\lambda_s+2\mu_s\right)}{16}\Big\{\tilde{A}_s^2\int_0^R\Big[\gamma_l^4I_n^{"2}(\gamma_l r)+k^4I_n^2(\gamma_l r)-$$

$$-2k^2\gamma_l^2 I_n(\gamma_l r) I_n''(\gamma_l r) + \beta_1\left(R^2 + 2\gamma_l^2 R\right) I_n''(\gamma_l r) - 2k^2 R I_n(\gamma_l r)\Big] dr +$$

$$+\tilde{B}_s^2 \int_0^R \left(\beta_2^2 + R^2\beta_3 + \beta_2\beta_3\right) dr + \tilde{C}_s^2 \int_0^R \Bigg[\frac{k^2\gamma_t^4}{\mu_t^2} I_n''^2(\gamma_t r) + \frac{k^2\gamma_t^4}{\mu_t^2} I_n^2(\gamma_t r) -$$

$$-\frac{k^2\gamma_t^4}{\mu_t^2} I_n(\gamma_t r) I_n''(\gamma_t r) + \beta_4 \frac{k\gamma_t^2}{\mu_t} \times R I_n(\gamma_t r) - I_n''(\gamma_t r)\Big] dr +$$

$$+\tilde{A}_s\tilde{C}_s \int_0^R \Bigg[\frac{-2k\gamma_l^2\gamma_t^2}{\mu_t} I_n''(\gamma_l r) I_n''(\gamma_t r) - \frac{2\gamma_t^2 k^3}{\mu_t} I_n(\gamma_l r) \times I_n(\gamma_t r) +$$

$$+\frac{k\gamma_l^2\gamma_t^2}{\mu_t} I_n(\gamma_t r) I_n''(\gamma_l r) + \frac{\gamma_t^2 k^3}{\mu_t} I_n(\gamma_l r) I_n''(\gamma_t r) + 2\beta_4\beta_5 +$$

$$+\beta_4\left(\gamma_l^2 R I_n''(\gamma_l r) - k^2 R I_n(\gamma_l r)\right) + \beta_5 \frac{k\gamma_t^2}{\mu_t} I_n(\gamma_l r) - R I_n''(\gamma_t r)\Big] dr +$$

$$+\tilde{A}_s\tilde{B}_s \int_0^R \left[2\gamma_l^2\beta_2 I_n''(\gamma_t r) + 2R^2\beta_1\beta_3 + \gamma_l^2\beta_3 I_n''(\gamma_l r) + \beta_1\beta_2 - k^2\beta_2 I_n(\gamma_l r) -\right.$$

$$\left. -k^2 R\beta_3 I_n(\gamma_l r)\right] dr + \tilde{B}_s\tilde{C}_s \int_0^R \Bigg[-\frac{2k\gamma_t^2\beta_2}{\mu_t} I_n''(\gamma_t r) + 2R^2\beta_3\beta_4 - \frac{2k\gamma_t^2 R\beta_3}{\mu_t} \times$$

$$\times I_n''(\gamma_t r) + \frac{k\gamma_t^2\beta_2}{\mu_t} I_n(\gamma_t r) + \frac{k\gamma_t^2 R\beta_3}{\mu_t} I_n(\gamma_t r) + R\beta_2\beta_4\Big] dr +$$

$$+\frac{\pi l R}{4}\Big[A_s^2 \int_0^R \gamma_l^2 I_n'^2(\gamma_l r) dr + \tilde{C}_s^2 \frac{k^2\gamma_t^2}{\mu_t^2} \int_0^R I_n'^2(\gamma_t r) dr + \tilde{B}_s^2 n^2 \int_0^R \frac{I_n^2(\gamma_t r)}{r^2} dr -$$

$$-\tilde{A}_s\tilde{C}_s \frac{2k\gamma_l\gamma_t}{\mu_t} \int_0^R I_n'(\gamma_l r) I_n'(\gamma_t r) dr + \tilde{A}_s\tilde{B}_s \cdot 2\gamma_l n \int_0^R \frac{I_n(\gamma_t r) I_n'(\gamma_l r)}{r} dr -$$

$$-\tilde{B}_s\tilde{C}_s \frac{2nk\gamma_t}{\mu_t} \int_0^R \frac{I_n(\gamma_t r) I_n'(\gamma_t r)}{r} dr \Bigg]\left(k_\vartheta - \omega^2 m_d\right) +$$

$$+\frac{p_0 l}{2}\left[\tilde{A}_s \frac{\partial I_n(\gamma_e R)}{\partial r} - \frac{\tilde{C}_s k}{\mu_t} \frac{\partial I_n(\gamma_t R)}{\partial r} + \frac{\tilde{B}_s n}{R} I_n(\gamma_t R)\right]\Bigg\} \cdot \frac{\pi}{2\omega}. \quad (17)$$

Из выражений (17) для А W видно, что, оно является многочленом второго порядка относительно постоянных ВВ $\tilde{A}_s, \tilde{B}_s, \tilde{C}_s$. Варьируя этой функции относительно постоянных ВВ $\tilde{A}_s, \tilde{B}_s, \tilde{C}_s$, получим следующее неоднородные системы алгебраических уравнений:

It can be seen from expressions (17) for W that it is a second-order polynomial with respect to constants $\tilde{A}_s, \tilde{B}_s, \tilde{C}_s$. By varying this function with respect to constants $\tilde{A}_s, \tilde{B}_s, \tilde{C}_s$, we obtain the following heterogeneous systems of algebraic equations:

$$1)\ \frac{\partial W}{\partial \tilde{A}_s} = \varphi_1; 2)\ \frac{\partial W}{\partial \tilde{B}_s} = \varphi_2; 3)\ \frac{\partial W}{\partial \tilde{C}_s} = \varphi_3. \quad (18)$$

The latter system in its expanded form has the form:

$$\begin{cases} \varphi_{11}A_s + \varphi_{12}B_s + \varphi_{13}C_s = -\dfrac{lp_0}{2} \\ \varphi_{21}A_s + \varphi_{22}B_s + \varphi_{23}C_s = -\dfrac{lp_0}{2} \\ \varphi_{31}A_s + \varphi_{32}B_s + \varphi_{33}C_s = -\dfrac{lp_0}{2}\dfrac{nI_n(\gamma_t R)}{R} \end{cases} \quad (19)$$

Where $\varphi_{ij}\,(i,j=1,2,3)$ will be obtained from the

Here Δ is the main one, $\Delta_i\,(i=1,2,3)$ are the auxiliary determinants of the system (14). If the expressions for W after varying as coefficients at constant $\tilde{A}_s, \tilde{B}_s, \tilde{C}_s$. Based on Kramer's rule, we find these constants:

$$\tilde{A}_s = \frac{\Delta_1}{\Delta}, \tilde{B}_s = \frac{\Delta_2}{\Delta}, \tilde{C}_s = \frac{\Delta_3}{\Delta}. \quad (20)$$

expressions for $\tilde{A}_s, \tilde{B}_s, \tilde{C}_s$ from (15) are substituted in (10) into the expression for s_r, we obtain:

$$s_r = \left[A_s \frac{\partial I_n(\gamma_e R)}{\partial r} - \frac{C_s k}{\mu_t}\frac{\partial I_n(\gamma_t R)}{\partial r} + \frac{B_s n}{R} I_n(\gamma_t R) \right] \cos\frac{n\pi}{2} \sin kx \sin \omega t \,. \quad (21)$$

The resonant frequencies are determined from condition $\Delta = 0$. The roots of equation $\Delta = 0$ are found numerically. For the task parameters characterizing the materials of the semi-cylindrical cushion, the following was adopted:

$$k_g = 50\frac{MPa}{m},\ m_d = 1000\frac{MPa}{m},\ a_l = 2{,}25a_t;\ a_t = 308m/sec.$$

The results of calculating the frequency from the length of a semi-cylindrical cushion are shown in Figure2. The normal movements of the surface points of a semi-cylindrical cushion, depending on the coordinates of the points, for different values of the specific gravity of the bases are shown in Figure 3. In all figures, curves

1 correspond to $m_d = 1000\frac{MPa}{m}$, curve 2 $m_d = 1500\frac{MPa}{m}$, curve 3 $m_d = 2000\frac{MPa}{m}$.




Figure 2. Dependence of the oscillation frequency of a semi-cylindrical cushion on its length




Figure 3. Dependence of the deflection of a semi-cylindrical cushion on the x coordinate




Figure 4. Change in deflection of the center of the plate over time with different inertia of the base

Conclusion

1. As the length of the semi-cylindrical cushion increases, the frequency of natural vibrations decreases.
2. As the specific gravity of the inertial field increases, the frequency of natural vibrations increases.
3. As the specific gravity increases, the deflection increases.
4. Taking into account the inertia of a semi-cylindrical cushion leads to a decrease in its natural oscillation frequency.

REFERENCES:

1. D. V. Leonenko, "Free oscillations of a three-layer circular plate on an inertial base under the action of temperature" Izvestia of Gomel State University named after F. Skorina. Natural sciences. – 2019, № 6 (117). – Pp. 174-179.
2. D. V. Leonenko, "Free vibrations of circular three-layer plates on an elastic base", Ecological Bulletin of the Scientific Centers of the Black Sea Economic Cooperation. - 2008. No. 3. pp. 42-47.
3. D. V. Leonenko, "Free oscillations of circular three-layer plates on elastic Pasternak", Ecological Bulletin of the Scientific Centers of the Black Sea Economic Cooperation. - 2014. No. 1. pp. 59-63.
4. F.S. Latifov, "Vibrations of shells with elastic and liquid media", Baku, 1999, p. 164.
5. R. A. Iskanderov, "Studies of the effect of pre-buckling of a reinforced cylindrical shell filled with a medium on critical stresses of general loss of stability", Proceedings of Higher Educational Institutions, Aviation Technology, Kazan, No. 4, pp. 67-69, 2010.
6. R.A.Iskenderov, "Analysis of the effect of pre-buckling of a cylindrical shell reinforced with a cross rib system in contact with the medium on critical stresses of general loss of stability", Bulletin of the I.Ya.Yakovlev State Pedagogical University. Series: Mechanics of the limiting state No. 2, 2011, pp.121-126.
7. R.A.Iskanderov, J.M.Tabatabaei, "Vibrations of fluid-filled inhomogeneous cylindrical shells strengthened with lateral ribs", International Journal on "Technical and Physical Problems of Engineering" (IJTPE), Issue 42, Vol 12, No 1, pp. 121-125, March 2020.
8. R.A. Iskanderov, J.S. Mammadov, D.A. Mahmudov, "Substantiation of initial provisions of construction of a methodology for modeling corrosion degradation", Issue 60 Vol 16 No 3, pp.274-280, September 2024.
9. A.S. Kairov, R.A. Iskanderov, V.A. Kairov, L.A. Latanskaya, "Investigation of natural vibrations of rib-reinforced cylindrical shells with holes using

finite element method and holographic interferometry”, International Journal on “Technical and Physical Problems of Engineering” (IJTPE), Issue 62, Vol. 17, No. 1, pp. 101-108, March 2025.
10. A.S. Kairov, R.A. Iskanderov, V.A. Kairov, L.A.Latanskaya, S.A. Valiyeva, “Mathematical Simulation of the Stress-Strain State of Rib-Reinforced Multilayer
11.Cylindrical Shells under Longitudinal Impulse Loading”, International Journal on Technical and Physical Problems of Engineering (IJTPE), Issue 59, Vol. 16, No. 2, pp. 361-367, June 2024.
12. R.A. Iskanderov, D. Hosseini Kaklar, “Geometrical nonlinear vibration of functionallygraded longitudinally strengthened, flowing fluid-contacting cylindrical shell”, International Journal on “Technical and Physical Problems of Engineering” (IJTPE), Issue 32 Vol. 9 No. 3 pp. 44-47, September 2017.
13. A.P. Dzyuba, R.A. Iskanderov, Y.M. Selivanov, S.A. Valiyeva,“Holographic study of non-stationary states of thin-walled structure elements under thermal and thermomechanical loading”, International Journal on “Technical and Physical Problems of Engineering” (IJTPE), Issue 59, Vol. 16, No. 2 pp. 342-348, June 2024.
14. R.A.İskanderov, H.M.Shafiei Matanagh,”Free vibrations of a conical shell with spring associated mass and stiffened with a cross system of ribs in medium”, International Journal on “Technical and Physical Problems of Engineering” (IJTPE), Issue 43, Vol. 12, No. 2, pp. 1–5, June 2020.
15. V.Novatsky, Theory of elasticity. Moscow, Mir, 1975,872 p.
16.Yu.A. Amenzade, Theory of elasticity. Moscow, Higher School, 1976,272 p.

DOİ: 10.32010/VIFQ1618

ÇOXATRİBUTLU QƏRAR QƏBULETMƏ ÜSULLARINA ÜMUMİ BAXIŞ

Lətafət Abbas QARDAŞOVA
Yelmar Tərlan NƏSİBOV
ADNSU, İTİF, "Kompüter mühəndisliyi" kafedrası
E-mail: l.qardashova@asoiu.edu.az ,
E-mail: yelmarnesibov@gmail.com

Xülasə: Çoxatributlu Qərar Qəbuletmə (MADM) yanaşmaları, müxtəlif və bəzən bir-birinə zidd olan meyarlar əsasında alternativlərin dəyərləndirilməsi və seçilməsi üçün sistemli bir metodologiya təqdim edir. Bu yanaşmalar, xüsusilə də mühəndislik, idarəetmə, səhiyyə və ekoloji sahələrdə qərar vermə prosesləri daha mürəkkəb olduqca, əhəmiyyətli qərar dəstək alətlərinə çevrilmişdir. Bu məqalədə AHP, TOPSIS, ELECTRE kimi tanınmış MADM texnikalarına geniş baxış verilir. Hər bir metodun nəzəri prinsipləri, real tətbiq sahələri və üstün cəhətləri ətraflı şəkildə təsvir olunur. Eyni zamanda, araşdırmada uyğun MADM texnikasının necə seçilməli olduğu və onların müxtəlif sahələrdə istifadəsinə dair praktik yanaşmalar da araşdırılır. Bu metodların rəqəmsal texnologiyalar və süni intellekt sistemləri ilə inteqrasiyası isə qərar qəbuletmədə yeni imkanlar açır. Bununla yanaşı, istifadəçilərin qərarların nəticələrini daha yaxşı proqnozlaşdıra bilməsi üçün vizual analiz və interaktiv platformalar getdikcə daha çox ön plana çıxır.
Açar sözlər: Çox Atributlu Qərar Qəbuletmə (MADM); AHP; TOPSIS; ELECTRE; Qərarların təhlili.

AN OVERVIEW OF MULTI-ATTRIBUTE DECISION-MAKING METHODS

Latafet Abbas GARDASHOVA
Yelmar Tarlan NASIBOV
Azerbaijan State Oil and Industry University (ASOIU)
Institute of Information Technology, Department of Computer Engineering
E-mail: l.gardashova@asoiu.edu.az
E-mail: yelmarnesibov@gmail.com

Abstract: Multi-Attribute Decision Making (MADM) approaches provide a systematic methodology for evaluating and selecting alternatives based on diverse and sometimes conflicting criteria. These approaches have become important decision support tools, especially in engineering, management, healthcare, and environmental fields, as decision-making processes become more complex. This article provides a broad overview of well-known MADM techniques such as AHP, TOPSIS, and ELECTRE. The theoretical principles, real-world applications, and advantages of each method are described in detail. At the same time, the study also examines practical approaches to choosing the appropriate MADM technique and their use in various fields.
The integration of these methods with digital technologies and artificial intelligence systems opens up new opportunities in decision-making. In addition, visual analysis and interactive platforms are increasingly coming to the fore to help users better predict the outcomes of decisions.
Keywords: Multi-Attribute Decision Making (MADM); AHP; TOPSIS; ELECTRE; Decision analysis.

ОБЗОР МЕТОДОВ МНОГОКРИТЕРИАЛЬНОГО ПРИНЯТИЯ РЕШЕНИЙ

Латафет Аббас кызы ГАРДАШОВА
Елмар Тарлан оглы НАСИБОВ
Азербайджанский государственный университет нефти и промышленности (ASOIU) Институт информационных технологий, кафедра «Компьютерная инженерия»
Электронная почта: l.gardashova@asoiu.edu.az
Электронная почта: yelmarnesibov@gmail.com

Резюме: Методы многокритериального принятия решений (MADM) представляют собой систематическую методологию оценки и выбора альтернатив на основе различных, а иногда и противоречивых критериев. Эти методы стали важными инструментами поддержки принятия решений, особенно в таких областях, как инженерия, управление, здравоохранение и экология, где процессы принятия решений становятся всё более сложными. В данной статье представлен общий обзор известных методов MADM, таких как AHP, TOPSIS и ELECTRE. Подробно описаны теоретические основы, практические применения и преимущества каждого метода. Также рассматриваются практические подходы к выбору соответствующей MADM-техники и её

применение в различных сферах. Интеграция этих методов с цифровыми технологиями и системами искусственного интеллекта открывает новые возможности в процессе принятия решений. Кроме того, всё большую значимость приобретают визуальный анализ и интерактивные платформы, позволяющие пользователям лучше прогнозировать результаты решений.
Ключевые слова: многокритериальное принятие решений (MADM), AHP, TOPSIS, ELECTRE, анализ решений**.**

Giriş:

Müasir dövrdə qərar qəbuletmə prosesləri getdikcə daha mürəkkəb xarakter alır və çoxsaylı, tez-tez bir-biri ilə ziddiyyət təşkil edən meyarların eyni anda nəzərə alınmasını tələb edir. Bu cür kompleks vəziyyətlərdə ənənəvi təkmeyarlı qərar qəbuletmə modelləri kifayət qədər effektiv olmadığından, çoxmeyarlı qərar qəbuletmə (Multi-Criteria Decision Making – MCDM) yanaşmalarına ehtiyac artmaqdadır. MCDM-in bir alt sahəsi kimi formalaşan Çoxatributlu Qərar Qəbuletmə (Multi-Attribute Decision Making – MADM), müxtəlif atributlar əsasında qiymətləndirilmiş diskret alternativlərin təhlili və optimal variantın seçilməsi üçün strukturlaşdırılmış metodoloji çərçivə təqdim edir.

Rəqəmsal texnologiyaların sürətli inkişafı və təşkilati-strateji mühitin dinamik və mürəkkəb hala gəlməsi MADM metodologiyalarının aktuallığını daha da artırmışdır. Hazırda MADM yanaşmaları təchizat zəncirinin idarə olunması, layihə seçimləri, risklərin dəyərləndirilməsi, davamlı inkişaf göstəricilərinin analizi, səhiyyə sistemlərində diaqnostik qərarların verilməsi və strateji planlaşdırma kimi bir sıra sahələrdə geniş tətbiq olunmaqdadır.

Lakin müxtəlif MADM metodlarının tətbiqində bir sıra nəzəri və praktiki çətinliklər mövcuddur. Xüsusilə, konkret qərar kontekstinə ən uyğun metodun seçilməsi məsələsi – metodların nəzəri strukturlarındakı fərqlər, tələb olunan məlumatların xarakteri və nəticələrin interpretasiya imkanları baxımından – tədqiqatçılar və praktik qərarvericilər üçün mühüm metodoloji problem olaraq qalmaqdadır.

Tədqiqatın məqsədi və məsələnin qoyuluşu:

Bu tədqiqatın əsas məqsədi, qərar qəbul etmə proseslərində ən çox tətbiq olunan çoxmeqyaslı qiymətləndirmə metodlarının sistemli və əhatəli icmalını təqdim etməkdir. Məqalədə bu metodların əsas iş prinsipləri, üstünlükləri, məhdudiyyətləri və müxtəlif sahələrdə tətbiq sahələri geniş şəkildə araşdırılır. Beləliklə, oxucular metodların nəzəri əsasları barədə daha dolğun məlumat əldə edir və onların real həyatda necə istifadə oluna biləcəyini anlamağa imkan tapırlar. Həmçinin, bu sənəd qərar qəbul edən şəxslərə müxtəlif mürəkkəb qərar problemlərində ən uyğun yanaşmanı seçmək üçün nəzəri və praktik dəstək göstərməyi hədəfləyir.

Müasir dövrdə çoxsaylı qərar qəbuletmə metodlarının mövcudluğu istifadəçilərə geniş seçim imkanı yaratmaqla yanaşı, düzgün metodun seçilməsində müəyyən çətinliklər də törədir. Praktik istifadəçilər çox zaman bu metodların nəzəri əsaslarını tam mənimsəmədikləri, fərqli yanaşmaların güclü və zəif tərəflərini yetərincə müqayisə etmədikləri üçün qərar kontekstinə ən uyğun variantı müəyyənləşdirməkdə çətinlik çəkirlər. Bu səbəbdən, bu tədqiqat çoxmeqyaslı qiymətləndirmə metodlarının qısa, aydın və əlçatan müqayisəsini təqdim etməklə, bu sahədə mövcud olan biliyin tətbiqinə və daha səmərəli qərar qəbuletməyə töhfə verməyi məqsəd qoyur.

Məsələnin həlli üsulları: Bu illər ərzində bir neçə MADM metodu hazırlanmış və tətbiq edilmişdir. Ən çox istifadə olunanlara aşağıdakılar daxildir:

- Analytic Hierarchy Process (AHP)

Thomas Saaty tərəfindən hazırlanmış Analitik İerarxiya Metodu (AİM) mürəkkəb qərar məsələlərini daha kiçik və asan idarə olunan alt hissələrə bölərək strukturlaşdırır. Bu metodda qərarverənlər fərqli meyarların əhəmiyyətini qiymətləndirmək üçün bir-biri ilə ikili müqayisələr həyata keçirirlər. AİM həm keyfiyyət, həm də kəmiyyət kriteriyalarını eyni platformada birləşdirməkdə üstünlük təşkil edir və sadə istifadəsi ilə seçilir. Lakin, metodun nəticələri bəzən subyektiv qiymətləndirmələr səbəbindən ardıcıl olmaya və uyğunsuzluq yarada bilər. Bundan əlavə, iyerarxiyanın mürəkkəbliyi artdıqca hesablamalar da çətinləşə bilər. Buna baxmayaraq, AİM qərar qəbul prosesinin şəffaflığını artırır və mürəkkəb problemlərin sistemli şəkildə həllinə imkan yaradır.

Riyazi ifadə: AHP-də hər bir kriteriyanın çəki əmsalları ikili müqayisə matrisindən istifadə etməklə hesablanır. AHP metodu aşağıdakı mərhələləri əhatə edir:

1. İerarxik strukturun formalaşması (meyarlar və variantlar).
2. Cütlü müqayisə matrisinin qurulması.
3. Çəki əmsallarının hesablanması və normallaşdırılması.
4. Variantların qiymətləndirilməsi.

AHP metodunda qoşa müqayisə matrisinin əsas vəzifəsi hər bir meyarın digər kriteriyalarla müqayisədə əhəmiyyət dərəcəsini müəyyən etməkdir. AHP-də tətbiq olunan əsas riyazi ifadə aşağıdakı kimidir:

$$W=(A^T A)^{-1}A^T b$$

Burada W meyarların çəkilərini, A vəziyyəti matrisini və b nəticə vektorunu ifadə edir.

```python
import numpy as np

def ahp(matrix):
    norm = matrix / matrix.sum(axis=0)
    weights = norm.mean(axis=1)
    n = matrix.shape[0]
    lam = (matrix @ weights / weights).mean()
    ci = (lam - n) / (n - 1)
    ri = {1:0, 2:0, 3:0.58, 4:0.9, 5:1.12}.get(n, 1.49)
    cr = ci / ri if ri != 0 else 0
    return weights, cr

# Example
matrix = np.array([[1, 1/3, 3],
                   [3, 1, 5],
                   [1/3, 1/5, 1]])

w, cr = ahp(matrix)
print("Weights:", w)
print("CR:", cr)
```

- Technique for Order Preference by Similarity to Ideal Solution (TOPSIS)

TOPSIS (İdeal Həllə Oxşarlıq üzrə Sıralama Texnikası) yanaşması qərar alternativlərini həm ən üstün, həm də ən zəif mümkün variantlara olan həndəsi məsafələr əsasında qiymətləndirir. Bu metodun əsas məqsədi alternativləri ideal həllə yaxınlığına və anti-ideal həllə uzaqlığına əsasən sıralamaqdır. Metodun tətbiqi asan və riyazi baxımdan səmərəlidir, xüsusilə də kəmiyyət göstəricilərinə əsaslanan qərar problemləri üçün əlverişlidir. Bununla yanaşı, nəticələrin düzgünlüyü və etibarlılığı tətbiq olunan normallaşdırma üsulundan asılı olaraq dəyişə bilər ki, bu da metodu bəzi hallarda qeyri-sabit edə bilər.

Riyazi ifadə: TOPSIS üsulunda aralıq hesablamaları belə şəkildə reallaşdırılır:

$$D_i^+=\sqrt{\sum_{j=1}^{n}(r_{ij}-r_j^+)^2}$$

$$D_i^-=\sqrt{\sum_{j=1}^{n}(r_{ij}-r_j^-)^2}$$

Burada D_i^+ ideal həllə olan məsafəni, D_i^- olan qeyri-ideal həllə olan məsafəni göstərir.

```python
def topsis(matrix, weights, impacts):
    norm = matrix / np.sqrt((matrix**2).sum(axis=0))
    weighted = norm * weights
    ideal_best = np.max(weighted, axis=0) * impacts
    ideal_worst = np.min(weighted, axis=0) * impacts
    d_pos = np.sqrt(((weighted - ideal_best)**2).sum(axis=1))
    d_neg = np.sqrt(((weighted - ideal_worst)**2).sum(axis=1))
    scores = d_neg / (d_pos + d_neg)
    return scores

matrix = np.array([[250, 16, 12],
                   [200, 20, 8],
                   [300, 14, 10]])

weights = np.array([0.5, 0.3, 0.2])
impacts = np.array([1, 1, -1])

scores = topsis(matrix, weights, impacts)
ranking = scores.argsort()[::-1] + 1

print("TOPSIS Scores:", scores)
print("Ranking:", ranking)
```

- Elimination and Choice Translating Reality (ELECTRE)

ELECTRE metodu alternativlər arasında üstünlük əlaqələrini müəyyənləşdirmək üçün uyğunluq və uyğunsuzluq göstəricilərindən istifadə

edir. Bu yanaşma, xüsusilə qərar iştirakçılarının tam razılaşmadığı və məlumatın qeyri-müəyyən olduğu hallarda effektivdir. Metod çoxməyarli seçim prosesində qeyri-bərabər və qarşılıqlı ziddiyyətli meyarların müqayisəsini mümkün edir. Bununla belə, onun tətbiqi struktur baxımından nisbətən mürəkkəbdir və nəticələrin interpretasiyası hər zaman aydın olmaya bilər.

- Simple Additive Weighting (SAW)

SAW (Sadə Əlavə Çəkiləşdirmə) metodu, çoxmeqyaslı qərar qəbuletmədə ən sadə və ən çox istifadə olunan yanaşmalardan biridir. Bu metod hər bir alternativ üçün normalizə olunmuş qiymətləri müvafiq meyar çəkiləri ilə çarparaq toplam nəticə hesablayır. SAW metodu sadəliyi və hesablama baxımından rahatlığı ilə seçilsə də, bütün meyarların bir-birindən asılı olmamasını və onların təsirinin xətti şəkildə artdığını fərz edir. Lakin bu fərziyyələr real həyatdakı qərar vəziyyətlərində hər zaman keçərli olmaya bilər və nəticələrin dəqiqliyinə təsir göstərə bilər.

- VlseKriterijumska Optimizacija I Kompromisno Resenje (VIKOR)

VIKOR metodu ziddiyyətli meyarlar əsasında qərar alternativlərini qiymətləndirərək kompromis həllin müəyyən olunmasına yönəlmişdir. Bu yanaşma, hər bir alternativin ideal həllə yaxınlığını və fərqini nəzərə alaraq onların sıralanmasını təmin edir. VIKOR, xüsusilə qərar qəbul edən şəxslər və ya maraqlı tərəflər arasında fikir ayrılığının mövcud olduğu və kompromisə ehtiyac duyulan hallarda effektiv nəticə verir. Metod balanslı qərar əldə etmək üçün həm fərdi meyarlara görə üstünlüyü, həm də ümumi razılıq səviyyəsini qiymətləndirir və bu səbəbdən kollektiv qərarların verilməsində geniş tətbiq olunur.

Alınan nəticələrin tətbiqi: Sözügedən qərarvermə metodlarının effektivliyi mühəndislik layihələrinin planlaşdırılması, ətraf mühit strategiyalarının formalaşdırılması, logistika şəbəkələrinin optimallaşdırılması və səhiyyə xidmətlərinin qiymətləndirilməsi kimi müxtəlif sahələrdə aparılmış çoxsaylı tətbiqi tədqiqatlarla sübut olunmuşdur. Bununla belə, konkret bir metodun seçimi universal deyil və bir sıra kontekstual faktorlardan asılı olaraq dəyişir. Əsas meyarlar arasında istifadə olunan məlumatların xarakteri (kəmiyyət və ya keyfiyyət), qarşıya qoyulan qərar probleminin struktur mürəkkəbliyi, eləcə də qərar qəbul edən şəxsin və ya qurumun şəffaflıq, hesabatlılıq və çeviklik kimi meyarlara verdiyi əhəmiyyət xüsusi rol oynayır. Nəticə etibarilə, metod seçimi rasional və məqsədyönlü yanaşma tələb edir ki, bu da səmərəli qərarların verilməsinə bilavasitə təsir göstərir.

Nəticə: Çoxatributlu qərar qəbuletmə metodları, bir-biri ilə ziddiyyət təşkil edən çoxsaylı meyarların nəzərə alındığı müasir qərar mühitlərində əvəzolunmaz vasitələrə çevrilmişdir. Bu metodların hər biri spesifik güclü və zəif cəhətlərə malikdir və onların tətbiq səmərəliliyi birbaşa olaraq konkret qərar kontekstinə, mövcud məlumatların xarakterinə və istifadəçinin analitik təcrübəsinə bağlıdır. Beləliklə, heç bir metod ümumi şəkildə digərindən üstün hesab edilə bilməz; metod seçimi məqsədəuyğunluq prinsipi ilə yönləndirilməlidir. Fərqli yanaşmaların fəlsəfəsini və tətbiq məntiqini dərindən qavramaqla, qərarvericilər həm qərarların keyfiyyətini, həm də onların əsaslandırma səviyyəsini əhəmiyyətli dərəcədə artıra bilərlər.

Gələcək tədqiqat istiqamətləri, müxtəlif metodların üstün cəhətlərini bir araya gətirən hibrid modellərin işlənməsi, süni intellekt və böyük verilənlərin analitik imkanları ilə inteqrasiya olunmuş qərar dəstəkləyici sistemlərin inkişaf etdirilməsi və eyni zamanda, bu texnologiyaların qeyri-peşəkar istifadəçilər üçün daha intuitiv və əlçatan şəkildə təqdim edilməsinə yönələ bilər. Bu istiqamətlər, MADM alətlərinin daha geniş tətbiq imkanlarını təmin etməklə yanaşı, onların real problemlərin həllində effektivliyini də artıracaqdır.

ƏDƏBIYYAT SIYAHISI:

1. Saaty, T. L. (1980). *The Analytic Hierarchy Process*. McGraw-Hill.
2. Hwang, C. L., & Yoon, K. (1981). *Multiple Attribute Decision Making: Methods and Applications*. Springer.
3. Roy, B. (1991). The outranking approach and the foundations of ELECTRE methods. *Theory and Decision*, 31(1), 49–73.
4. Opricovic, S., & Tzeng, G. H. (2004). Compromise solution by MCDM methods: A comparative analysis of VIKOR and TOPSIS. *European Journal of Operational Research*, 156(2), 445–455.
5. Zavadskas, E. K., & Turskis, Z. (2011). Multiple criteria decision making (MCDM) methods in economics: An overview. *Technological and Economic Development of Economy*, 17(2), 397–427.

DOİ: 10.32010/VDLC6991

GESTALT PRİNSİPLƏRİNİN UX/Uİ DİZAYNDA TƏTBİQİ: NƏZƏRİYYƏLƏR VƏ PRAKTİK İSTİFADƏÇİ TƏCRÜBƏSİ

Nərmin İsmayıl QOCAYEVA
Migəçevir Dövlət Universiteti
Orcid: 0009-0008-4405-7961
E-mail: narmin.qocayeva.itm24@mdu.edu.az

Xülasə: Müasir rəqəmsal mühitdə istifadəçi təcrübəsinin (UX) və interfeys dizaynının (UI) formalaşması yalnız texniki və vizual həllərin deyil, həm də psixoloji yanaşmaların sintezinə əsaslanır. Bu baxımdan Gestalt prinsipləri xüsusi aktuallığa malikdir. Gestalt psixologiyası insan beyninin vizual və informasiya qavrayışında ayrılıqda elementləri deyil, bütöv strukturu daha sürətli və asan qəbul etdiyini irəli sürür. Bu nəzəri çərçivə UX/UI dizayn sahəsində mühüm istiqamət kimi qəbul olunur, çünki istifadəçilərin davranışlarını, emosional reaksiyalarını və məhsulla qarşılıqlı münasibətlərini formalaşdırmaqda əhəmiyyətli rol oynayır.

Gestalt prinsiplərinin nəzəri əsasları arasında yaxınlıq, oxşarlıq, qapalılıq, davamlılıq və fiqur-fon fərqləndirməsi xüsusi yer tutur. Bu prinsiplər istifadəçilərin vizual mühitdə informasiyanı qavrayış mexanizmlərinə uyğun olaraq qruplaşdırmasına və interpretasiya etməsinə imkan yaradır. Nəzəri yanaşmanın praktiki tətbiqi isə müxtəlif sahələrdə özünü göstərir. Məsələn, mobil tətbiqlərdə funksional blokların birləşdirilməsi intuitiv naviqasiyanı təmin edir, e-ticarət platformalarında oxşarlıq prinsipi alıcıların qərarvermə prosesini sürətləndirir, bank tətbiqlərində fiqur-fon kontrastı təhlükəsizlik və etibar hissini gücləndirir. Minimalist dizaynda qapalılıq prinsipi isə istifadəçilərin natamam fiqurları tamamlama meyli əsasında vizual sadəlik və sürətlilik hissi yaradır.

Praktik aspektlərlə yanaşı, Gestalt prinsipləri istifadəçi davranışına və emosional qəbuluna da ciddi təsir göstərir. Vizual harmoniya və balans prinsiplərinə əsaslanan interfeyslər istifadəçilərdə etibar, rahatlıq və məmnuniyyət formalaşdırır ki, bu da rəqəmsal məhsullara emosional bağlılığı və brendə sadiqliyi möhkəmləndirir. Bu yanaşma yalnız istifadə rahatlığını deyil, həm də uzunmüddətli müştəri münasibətlərini təmin edir.

Araşdırmanın aktual perspektivləri süni intellekt və maşın öyrənməsi ilə bağlıdır. İstifadəçi davranışlarının avtomatlaşdırılmış analizi, adaptiv interfeyslər və fərdiləşdirilmiş vizual təcrübələrin inkişafı Gestalt prinsiplərinin yeni tədqiqat istiqamətlərini açır. Bu isə nəzəri əsasların praktiki innovasiyalarla inteqrasiyasını zəruri edir.

Gestalt prinsipləri UX/UI dizaynda yalnız estetik kateqoriya deyil, həm də psixoloji, funksional və emosional faktorların vahid sistemidir. Onların həm nəzəri, həm də praktik kontekstdə araşdırılması rəqəmsal dizaynın keyfiyyətini yüksəldir, istifadəçi məmnuniyyətini artırır və müasir rəqəmsal innovasiyaların inkişafına elmi əsas yaradır.

Açar sözlər: UX/UI dizayn, Gestalt prinsipləri, istifadəçi təcrübəsi, vizual qavrayış, qrafik interfeys

APPLICATION OF GESTALT PRINCIPLES IN UX/UI DESIGN: THEORIES AND PRACTICAL USER EXPERIENCE

Nərmin İsmayıl GOCAYEVA
Mingachevir State University
Orcid: 0009-0008-4405-7961
E-mail: narmin.qocayeva.itm24@mdu.edu.az

Abstract: In the modern digital environment, the formation of user experience (UX) and interface design (UI) is based not only on technical and visual solutions but also on the synthesis of psychological approaches. In this regard, Gestalt principles hold particular relevance. Gestalt psychology asserts that the human brain perceives not individual elements but the whole structure more quickly and easily. This theoretical framework is recognized as an important direction in UX/UI design, as it plays a significant role in shaping user behavior, emotional responses, and interaction with products. Among the theoretical foundations of Gestalt principles, proximity, similarity, closure, continuity, and figure-ground distinction occupy a special place. These principles allow users to group and interpret information in a visual environment according to perception mechanisms. The practical application of this theoretical approach is evident in various fields. For example, in mobile applications, combining functional blocks ensures intuitive navigation; in e-commerce platforms, the principle of similarity accelerates the decision-making process of buyers; in banking applications, figure-ground contrast strengthens the sense of security and trust. In minimalist design, the principle of closure creates a sense of visual simplicity and speed based on users' tendency to complete incomplete figures.

In addition to practical aspects, Gestalt principles have a profound impact on user behavior and emotional perception. Interfaces based on the principles of visual harmony and balance foster trust, comfort, and satisfaction in users, thereby

strengthening emotional attachment to digital products and brand loyalty. This approach ensures not only ease of use but also long-term customer relationships.
The current perspectives of research are connected with artificial intelligence and machine learning. Automated analysis of user behavior, adaptive interfaces, and the development of personalized visual experiences open up new research directions for Gestalt principles. This necessitates the integration of theoretical foundations with practical innovations.
Gestalt principles in UX/UI design are not only an aesthetic category but also a unified system of psychological, functional, and emotional factors. Their study in both theoretical and practical contexts improves the quality of digital design, enhances user satisfaction, and provides a scientific basis for the development of modern digital innovations.
Keywords: UX/UI design, Gestalt principles, user experience, visual perception, graphical interface.

ПРИМЕНЕНИЕ ПРИНЦИПОВ ГЕШТАЛЬТА В UX/UI-ДИЗАЙНЕ: ТЕОРИИ И ПРАКТИЧЕСКИЙ ПОЛЬЗОВАТЕЛЬСКИЙ ОПЫТ

Нармин Исмаил ГОДЖАЕВА
Мингячевирский государственный университет
Orcid: 0009-0008-4405-7961
Электронная почта: narmin.qocayeva.itm24@mdu.edu.**az**

Резюме: В современной цифровой среде формирование пользовательского опыта (UX) и интерфейсного дизайна (UI) основывается не только на технических и визуальных решениях, но и на синтезе психологических подходов. В этом контексте особую актуальность приобретают принципы гештальт-психологии. Гештальт утверждает, что человеческий мозг воспринимает не отдельные элементы, а целостную структуру быстрее и легче. Данная теоретическая основа рассматривается как важное направление в UX/UI-дизайне, поскольку она играет значительную роль в формировании поведения пользователей, их эмоциональных реакций и взаимодействия с цифровыми продуктами.
Среди теоретических основ гештальт-принципов особое место занимают близость, схожесть, замкнутость, непрерывность и различение фигуры и фона. Эти принципы позволяют пользователям группировать и интерпретировать информацию в визуальной среде в соответствии с механизмами восприятия. Практическое применение теоретических положений проявляется в разных областях. Так, в мобильных приложениях объединение функциональных блоков обеспечивает интуитивную навигацию; на платформах электронной коммерции принцип схожести ускоряет процесс принятия решений покупателями; в банковских приложениях контраст фигуры и фона усиливает чувство безопасности и доверия. В минималистичном дизайне принцип замкнутости создает ощущение визуальной простоты и быстроты на основе стремления пользователей завершать неполные фигуры. Помимо практических аспектов, принципы гештальта оказывают серьезное влияние на поведение пользователей и их эмоциональное восприятие. Интерфейсы, построенные на принципах визуальной гармонии и баланса, формируют у пользователей доверие, комфорт и удовлетворенность, что укрепляет эмоциональную привязанность к цифровым продуктам и лояльность к бренду. Такой подход обеспечивает не только удобство использования, но и долгосрочные отношения с клиентами.
Актуальные перспективы исследований связаны с искусственным интеллектом и машинным обучением. Автоматизированный анализ поведения пользователей, адаптивные интерфейсы и развитие персонализированных визуальных решений открывают новые направления изучения принципов гештальта. Это делает необходимой интеграцию теоретических основ с практическими инновациями.
Принципы гештальта в UX/UI-дизайне представляют собой не только эстетическую категорию, но и единую систему психологических, функциональных и эмоциональных факторов. Их изучение в теоретическом и практическом контексте повышает качество цифрового дизайна, усиливает удовлетворенность пользователей и создает научную основу для развития современных цифровых инноваций.
Ключевые слова: UX/UI-дизайн, принципы гештальта, пользовательский опыт, визуальное восприятие, графический интерфейс

Giriş

Rəqəmsal transformasiya dövründə istifadəçi təcrübəsi (UX) və interfeys dizaynı (UI) rəqəmsal məhsulların uğurunda həlledici rol oynayır. Əgər əvvəllər proqram təminatının keyfiyyəti yalnız texniki göstəricilərlə qiymətləndirilirdisə, bu gün istifadəçilərin vizual qavrayışı, emosional reaksiyası və interaktiv davranışı dizayn prosesinin mərkəzində dayanır. İstifadəçi yalnız funksional tələblərin ödənilməsini deyil, həm də rahatlıq, estetika, intuitivlik və emosional uyğunluq kimi faktorları gözləyir. Bu səbəbdən müasir dizayn yanaşmaları psixologiya elmi ilə sıx inteqrasiyada inkişaf edir və burada Gestalt prinsipləri xüsusi əhəmiyyət kəsb edir.

Gestalt psixologiyası XX əsrin əvvəllərində formalaşaraq insan qavrayışının mahiyyətini izah etməyə yönəlmişdir. Bu nəzəriyyənin əsas müddəası ondan ibarətdir ki, insan beyni ayrılıqda elementləri deyil, bütöv strukturu daha sürətli və daha məna dolu şəkildə qəbul edir. Məsələn, vizual mühitdə müəyyən fiqurlar tam göstərilməsə belə, insan beyni onları avtomatik olaraq tamamlayır. Bu yanaşma dizayn prosesində mühüm praktiki imkanlar yaradır. Çünki vizual obyektlərin yaxınlığı, oxşarlığı, davamlılığı və fiqur-fon fərqləndirilməsi istifadəçilərin diqqətini istiqamətləndirir, davranışlarını asanlaşdırır və qavrayışı daha effektiv edir.

UX/UI dizaynda Gestalt prinsiplərinin tətbiqi yalnız vizual estetikanın təmin olunması deyil, həm də istifadəçi davranışına və emosional qəbuluna təsirin optimallaşdırılması məqsədi daşıyır. Mobil tətbiqlərdə funksional elementlərin qruplaşdırılması, e-ticarət platformalarında məhsul kateqoriyalarının oxşarlıq əsasında təşkil olunması, bank tətbiqlərində kontrastlı vizual həllərin təhlükəsizlik hissi yaratması bunun ən bariz nümunələrindəndir. Burada nəzəri prinsiplər praktik həllərə çevrilərək istifadəçi məmnuniyyətini artırır və məhsulun uğurlu istifadəsini təmin edir.

Hazırkı dövrdə bu mövzunun aktuallığı süni intellekt və maşın öyrənmənin dizayn sahəsinə inteqrasiyası ilə daha da güclənir. İstifadəçi davranışlarının avtomatlaşdırılmış şəkildə təhlili və adaptiv interfeyslərin yaradılması Gestalt prinsiplərinin yeni tədqiqat istiqamətlərini ortaya çıxarır. Beləliklə, nəzəri biliklərin praktiki innovasiyalarla sintezi müasir dizayn elminin və rəqəmsal məhsul sənayesinin inkişafı üçün strateji əhəmiyyət kəsb edir.

Nəticə etibarilə, Gestalt prinsiplərinin UX/UI dizaynda öyrənilməsi və tətbiqi həm elmi, həm də praktiki baxımdan mühüm araşdırma istiqaməti hesab olunur. Bu sahədə aparılan tədqiqatlar istifadəçi məmnuniyyətinin yüksəldilməsinə, rəqəmsal məhsulların keyfiyyətinin artırılmasına və innovativ həllərin inkişafına xidmət edir.

Nəzəriyyə

Gestalt psixologiyası XX əsrin əvvəllərində Almaniyada formalaşmış və psixoloji elmdə qavrayışın izahına yeni yanaşma gətirmişdir. Onun baniləri sayılan Maks Vertheimer, Kurt Koffka və Volfqanq Köhler insan beyninin qavrayış proseslərini yalnız mexaniki assosiasiyalarla deyil, bütöv strukturlar üzərindən dərk etdiyini sübut etmişlər. "Gestalt" termini alman dilində "forma", "bütöv şəkil" mənasını verir və bu yanaşmanın mahiyyətini ifadə edir: insan beyni ayrı-ayrı elementləri deyil, onların təşkil etdiyi bütöv mənzərəni qəbul edir.

Klassik assosiasionizm məktəbinin fikrinə görə, qavrayış təcrübənin ayrı-ayrı hissələrinin birləşməsindən yaranırdı. Gestalt yanaşması isə bu görüşü təkzib edərək göstərdi ki, bütöv struktur hissələrin cəmindən daha artıq məna daşıyır. Məsələn, insan dairənin yalnız bir hissəsini gördükdə belə, onun bütöv fiqur olduğunu qavrayır. Bu, beynin vizual tamamlanma və bütövləşdirmə meyli ilə bağlıdır.

Gestalt psixologiyasının nəzəri əsasları aşağıdakı müddəalara söykənir:

- Qavrayışın tamlığı prinsipi – İnsan beyni obyektləri hissə-hissə deyil, bütöv şəkildə qəbul edir. Bu, vizual qavrayışda sürət və effektivlik yaradır.
- Strukturlaşdırma meyli – Beyin vizual xaosu müəyyən qaydalara əsasən strukturlaşdırmağa çalışır. Elementlər arasında yaxınlıq, oxşarlıq və davamlılıq əlaqələri təbii şəkildə formalaşır.
- Dinamik münasibətlər – Qavrayış sabit deyil, kontekstdən asılı olaraq dəyişir. Bir elementin fonla və ya digər obyektlərlə münasibəti onun qəbul formasını dəyişdirə bilər.
- "Fiqur və fon" anlayışı – İnsanın diqqəti hər zaman müəyyən fiquru seçir, qalan elementlər isə fon kimi qəbul olunur. Bu, vizual diqqətin idarə olunmasında əsas psixoloji mexanizmdir.

Bu nəzəri əsaslar təkcə psixologiya elmi üçün deyil, həm də pedaqogika, incəsənət, memarlıq, reklam və xüsusilə müasir UX/UI dizayn sahəsi üçün dayaq rolunu oynamışdır. Məhz Gestalt yanaşması sayəsində dizayn sahəsində vizual harmoniya, intuitivlik və qavrayış asanlığı prinsipləri elmi əsaslandırılmışdır.

UX/UI dizaynında Gestalt prinsipləri vizual məlumatın beyində təşkili mexanizmlərini dizayn qərarlarına çevirən elmi çərçivədir. Bu çərçivə sadəcə "gözə xoş görünüş" yaratmaqdan daha irəli gedərək istifadəçinin diqqətini yönləndirir, idrak yükünü azaldır, naviqasiyanı sürətləndirir və nəticə etibarilə tapşırıq icrasının effektivliyini yüksəldir. Aşağıda əsas prinsiplər, onların UX/UI-də funksional təzahürləri, səhv tətbiq riskləri və empirik yoxlama üsulları ayrıca izah edilir (Koffka, 1935).

Yaxınlıq prinsipi insan beyninin bir-birinə yaxın elementləri eyni qrupa aid kimi qavraması ilə bağlıdır. İnterfeysdə bu, informasiya memarlığının "skeleti" kimi işləyir: başlıq ilə onu izah edən mətnin, etiket (label) ilə giriş sahəsinin, filtrlər ilə nəticələrin bir-birinə məkan baxımından yaxın saxlanması istifadəçinin axtardığını dərhal tapmasına şərait yaradır. Məsələn, e-ticarət kataloqunda məhsul şəkli, adı, qiyməti və "Səbətə əlavə et" düyməsi eyni kartda məkan baxımından birləşdirildikdə qərarvermə sürətlənir. Səhv tətbiq nümunəsi isə – arada həddən artıq boşluq buraxmaqla mənaca bağlı elementləri

ayırmaq və ya əksinə, fərqli blokları bir-birinə yapışdıraraq semantik sərhədləri sildirməkdir; hər iki halda idrak yükü artır.

Oxşarlıq rəng, forma, ölçü, tipoqrafiya və ikonoqrafiya üzrə paralelliyi qavramaya əsaslanır. Dizaynda eyni funksiya eyni vizual dilə malik olmalıdır: bütün əsas hərəkət düymələri eyni ölçü və stil, bütün keçid linkləri eyni rəng və xəttaltı, bütün xəbərdarlıq statusları eyni ton palitrası ilə verildikdə istifadəçi davranış nümunəsini tez öyrənir. Bu prinsip affordansı (nəyin kliklənə biləcəyini) aşkarlayır: linklərlə adi mətni eyni görünüşdə saxlamaq oxşarlığı pozur və kliklənməyi çətinləşdirir. Oxşarlığın həddən artıq "sərt" saxlanması da risklidir: çox komponenti eyniləşdirmək fərqləndiriciliyi azaldır, seçim məkanını bulanıqlaşdırır.

İnsan gözü vizual trayektoriyanı kəsmədən izləməyə meyllidir. Bunun praktiki nəticəsi: məzmun ardıcıllığını sındırmayan oxunaqlı, uyğun sütun enləri, sabit kənar boşluqlar, düzgün xətt uzunluğu (45–75 simvol) və F/Z skan nümunələrinə uyğun yerləşim. Məsələn, məhsul səhifəsində başlıq → qiymət → əsas faydalar → CTA → detallı təsvir axını davamlılıq yaradır. Davamlılıq pozulduqda – məsələn, gözlənilməz sağ-sol sıçrayışlar, uyğunsuz hizalama – göz izləmə trayektoriyası kəsilir, səhifə "parçalanmış" hiss etdirir.

Beyin natamam formaları tamamlamağa meyllidir. Minimalist ikon-setlərdə əyrinin kiçik hissəsi belə tanınma üçün yetər; skeleton (yükləmə) ekranları "gələcək məzmunun konturu"nu göstərərək gözləmə narahatlığını azaldır. Form dizaynında bölmə başlıqları ilə həmin bölmənin sahələri arasında vizual çərçivə (boz blok, nazik xətt, fon tonu) qapalılıq yaradır; istifadəçi "harada olduğunun" sərhədini aydın görür. Qapalılığın həddindən artıq istifadəsi – sərt çərçivələrlə hər şeyi qutulaşdırmaq – vizual tıxac yarada bilər; balans vacibdir (Ware, 2019).

İstifadəçi bir anda yalnız bir "fiqur" a fokuslana bilir; qalanı fon olur. Effektiv fon/fiqur ayrımı üçün adekvat kontrast, boşluq (white space), kölgə və lay (overlay) texnikalarından istifadə edilir. Modal pəncərədə arxa planın solğunlaşdırılması, kritik CTA-ların ətrafında geniş nəfəs boşluğu, mesaj kartlarının fonla kifayət qədər kontrastda olması bu prinsipi praktikaya çevirir. Zəif kontrast və sıxlıq fiquru fonla qarışdırır, səhv klikləri artırır.

Birlikdə hərəkət edən obyektlər eyni qrupa aid qavranılır. Hover zamanı kartın bütün alt-elementlərinin birlikdə "yüngül qalxması", seçimdə bir qrup filtr çipinin sinxron animasiyası və ya səhifələmədə aktiv səhifə ilə əlaqəli kontentin birlikdə sürüşməsi istifadəçiyə "bunlar bir məna vahididir" mesajını verir. Animasiya burada dekor deyil, semantikadır; qeyri-sinxron hərəkətlər isə mənanı dağıdır.

Pragnanz beynin ən sadə, ən "yığcam" strukturu üstün tutduğunu deyir. UX-də bu, tipoqrafik iyerarxiyanın (H1–H3–bədən), məzmun bloklarının 3–5 elementlik qruplara bölünməsinin, lazımsız dekorun aradan qaldırılmasının və "bir ekranda bir əsas məqsəd" prinsipinin tərəfdarıdır. Sadəlik "azdır" demək deyil; məqsəd-vasitə uyğunluğu deməkdir. Parlaq nümunə: mürəkkəb filtr sistemlərini "İrəli filtrlər" bölməsinə yığaraq əsas seçimləri səthdə saxlamaq.

İnsan beyni birləşdirilmiş elementləri eyni qrupa yazır; sadə xətt, fon paneli, kontur və ya arxa kölgə belə əlaqəni möhkəmləndirir. Məsələn, çoxsütunlu formda etiketi müvafiq input-la nazik xətt və ya açıq fonla birləşdirmək səhv daxilolmaları azaldır. Sırf yaxınlıq bəs etməyəndə "vizual bağ" yanlış qruplaşmanı önləyir.

Naviqasiya və menyular: Yaxınlıq və oxşarlıqla eyni səviyyəli bəndləri qruplaşdırın, aktiv vəziyyəti fiqur–fon kontrastı ilə ayırın. Yapışqan (sticky) başlıqlar davamlılıq yaradır.

Formlar və doğrulama: Etiket-input yaxınlığı, səhv mesajının həmin sahəyə vizual bağlılığı, "yadda saxla" kimi ikincil aksiyaları aşağı səviyyə kontrastla vermək idrak yükünü azaldır. "Birincil CTA" ilə "ikincil" i oxşarlıqdan uzaqlaşdırın.

Kart əsaslı layout: Hər kart daxilində vahid əlaqəlilik və qapalılıq, karta hover-da "ümumi taley" animasiyası klik affordansını artırır.

Vizual analitika və qrafiklər: Oxşarlıqla eyni seriyaları eyniləşdirin, fiqur–fonla vurğulanan seriyanı önə çəkin, qrup etiketi ilə məlumat nöqtələrini yaxınlıqla bağlı saxlayın. Qrid xətləri minimal saxlanılmalıdır (Prägnanz).

Boş vəziyyətlər (Empty states) və skelet ekranlar: Qapalılıqdan istifadə edərək gələcək məzmun konturlarını göstərin; bu, gözləmə stressini azaldır və istiqamət verir.

Gestalt prinsipləri WCAG tələbləri ilə zidd deyil, əksinə onları dəstəkləyir: fiqur–fon üçün minimum kontrast, klaviatura naviqasiyasında fokus halqalarının (focus ring) aydınlıqla "fiqur" u bildirməsi, rəng korluğu üçün tək rəng siqnalına güvənməmək (ikon/tekst dəstəyi) vacibdir. Sağdan-sola (RTL) dillərdə davamlılıq trayektoriyası, ikon metaforlarının mədəni oxunuşu və rəng simvolikasının lokal mənaları nəzərə alınmalıdır. Mobil mühitdə yaxınlıq və vahid əlaqəlilik "baş barmaq zonasına" uyğunlaşdırılmalı, toxunma hədəfləri kifayət qədər böyük saxlanmalıdır.

Araşdırma yönümlü tətbiq, hipotezin aydın qurulmasını tələb edir:

- H1: "Yaxınlıq və vahid əlaqəliliklə yenidən düzülən formda xətalı daxilolmalar 20% azalır."
- H2: "Fiqur–fon kontrastının artırılması ilə kritik CTA-nın ilk klik dərəcəsi 15% yüksəlir."

Metodlar: moderasiyalı istifadə testləri (tapşırıq uğuru, vaxt, səhv sayı), ilk klik testi, göz izləmə (scanpath, heatmap), kliki xəritələri, NASA-TLX ilə idrak yükü, A/B test (statistik güc və nümunə həcmi hesablanaraq), sistem istifadəyə yararlılıq şkalası .

Metriklər: tapşırıq uğur faizi, "time-to-first-action", səhv nisbəti, CTA CTR, forma tamamlanma dərəcəsi, səhifə tərk etmə (drop-off), qayıtma nisbəti, Net Promoter Score (NPS). Nəticələr vizual analitika ilə (funnel, kohort) birlikdə şərh olunmalıdır.

Gestalt alətləri yanlış istifadə edildikdə manipulyativ "dark pattern" lara çevrilə bilər: əsas CTA-nı fonla fazla eyniləşdirib daha dominant göstərmək, əsassız animasiyalarla diqqəti yayındırmaq, oxşarlıqdan istifadə edib reklama kontent "maskası" geydirmək etik risklər yaradır. Məqsəd hər zaman aydınlıq və istifadəçi rifahı olmalıdır.

Gestalt prinsipləri UX/UI dizaynçısına vizual qavrayışın neyropsixoloji qaydalarını praktik interfeys qərarlarına çevirmək üçün dəqiq, ölçülə bilən və təkrarlana bilən mexanizm verir. Yaxınlıq, oxşarlıq, davamlılıq, qapalılıq, fiqur–fon, ümumi taley, praqnoz və vahid əlaqəlilik birlikdə informasiya memarlığını daha anlaşılan edir, affordansı gücləndirir, idrak yükünü azaldır və istifadəçi davranışını məqsədə istiqamətləndirir. Prinsiplərin gücü təkcə estetika deyil, ölçülən nəticələrdir; buna görə də hər bir vizual qərar real istifadə testləri və metriklərlə təsdiqlənməli, müxtəlif cihaz və auditoriyalar üçün iterativ şəkildə təkmilləşdirilməlidir (Köhler, 1947).

Gestalt nəzəriyyəsi yalnız klassik psixologiyanın bir parçası kimi qalmamış, rəqəmsal texnologiyaların və interaktiv dizaynın inkişafı ilə yeni tətbiq sahələri qazanmışdır. Müasir dövrdə süni intellekt, maşın öyrənməsi, artırılmış və virtual reallıq, adaptiv interfeyslər kimi innovativ istiqamətlər Gestalt prinsiplərinin aktuallığını daha da gücləndirir.

UX/UI dizaynında istifadəçi davranışlarının analizi artıq ənənəvi sorğular və fokus qrupları ilə məhdudlaşmır. Maşın öyrənməsi alqoritmləri istifadəçi kliklərini, naviqasiya trayektoriyalarını və baxış müddətlərini təhlil edərək onların qavrayış modellərini aşkara çıxarır. Bu məlumatların Gestalt prinsipləri ilə əlaqələndirilməsi, məsələn, fiqur-fon kontrastının və yaxınlıq qaydalarının istifadəçinin vizual diqqətini necə yönləndirdiyini daha dəqiq ölçməyə imkan verir. Beləliklə, nəzəri yanaşma empirik sübutlarla dəstəklənir və süni intellekt vasitəsilə optimallaşdırılmış dizayn həlləri təklif olunur (Wong, 2011). Müasir rəqəmsal məhsullar hər bir istifadəçinin ehtiyacına uyğunlaşma qabiliyyətinə malikdir. Gestalt prinsipləri bu prosesdə əsas strukturlaşdırıcı çərçivə rolunu oynayır. Oxşarlıq və ümumi istiqamət prinsipləri fərdiləşdirilmiş kontent axınının təqdimatında mühüm əhəmiyyət kəsb edir. Məsələn, e-ticarət platformalarında alqoritmlər istifadəçinin maraqlarına uyğun məhsulları qruplaşdıraraq vizual ardıcıllıq yaradır. Bu isə həm nəzəri, həm də praktik baxımdan qavrayış psixologiyasının rəqəmsal innovasiyalarla harmoniyasını sübut edir.

AR və VR texnologiyalarında istifadəçi mühitlə tam immersiv qarşılıqlı əlaqəyə girir. Burada vizual xaosun qarşısını almaq üçün Gestalt prinsipləri daha kritik əhəmiyyət daşıyır. Davamlılıq və qapalılıq prinsipləri obyektlərin düzgün izlənilməsini və məkan daxilində yönləndirilməsini təmin edir. Virtual reallıqda elementlərin semantik olaraq birləşdirilməsi isə istifadəçidə həm real məkan hissini, həm də məzmunla daha dərin inteqrasiyanı yaradır.

Gestalt yanaşması rəqəmsal reklam, sosial media dizaynı və kontent strategiyasında da aktiv tətbiq olunur. İnsan beyninin vizual elementləri qruplaşdırma meyli, reklam posterlərində və veb-bannerdə diqqət mərkəzini formalaşdırmaq üçün istifadə edilir. Burada nəzəri prinsiplər praktik marketinq alətlərinə çevrilir və istifadəçilərin emosional reaksiyalarını idarə etməyə kömək edir.

Gestalt nəzəriyyəsinin rəqəmsal innovasiyalarla əlaqəsi hələ tam şəkildə öyrənilməmişdir. Göz izləmə texnologiyaları (eye-tracking), neyro-marketinq tədqiqatları və idrak elmi ilə birgə aparılan eksperimentlər göstərir ki, Gestalt prinsipləri yalnız vizual qavrayışı deyil, həm də istifadəçinin qərarvermə mexanizmini formalaşdırır. Bu baxımdan nəzəri yanaşmanın süni intellektlə dəstəklənmiş empirik tədqiqatlarla zənginləşdirilməsi gələcək üçün əsas elmi istiqamətlərdən biri olacaqdır.

Yekunda demək olar ki, Gestalt nəzəriyyəsi rəqəmsal innovasiyaların sürətli inkişafı fonunda yalnız klassik psixoloji izah çərçivəsi kimi deyil, həm də praktiki metodoloji baza kimi çıxış edir. O, süni intellekt və adaptiv sistemlərdən tutmuş AR/VR tətbiqlərinə qədər geniş sahədə istifadə olunur və istifadəçi məmnuniyyətinin, funksional səmərəliliyin və emosional qəbulun artırılmasına xidmət edir.

Metod

Gestalt psixologiyası və onun prinsipləri müasir dizayn elminin nəzəri-metodoloji əsaslarının formalaşmasında mühüm rol oynayır. Bu yanaşmanın mərkəzində duran ideya insan beyninin informasiyanı hissə-hissə deyil, bütöv strukturlar şəklində qəbul etməsidir. Qavrayışın bu xüsusiyyəti UX/UI dizayn

sahəsində vizual elementlərin necə təqdim olunmalı olduğunu müəyyənləşdirir və istifadəçi təcrübəsinin daha intuitiv və funksional şəkildə qurulmasına imkan yaradır. Nəzəri-metodoloji baxış bu tədqiqatda əsasən üç əsas istiqamət üzərində qurulmuşdur: psixoloji biliklərin sistemləşdirilməsi, dizayn nəzəriyyələri ilə inteqrasiya və rəqəmsal mühitdə tətbiq imkanlarının araşdırılması.

Psixoloji biliklərin sistemləşdirilməsi Gestalt nəzəriyyəsinin fundamental prinsiplərinin dərin öyrənilməsini tələb edir. Yaxınlıq, oxşarlıq, qapalılıq, davamlılıq və fiqur-fon kimi prinsiplər insanların vizual məlumatı necə qavradığını və onu mənalandırmaq üçün hansı mexanizmlərdən istifadə etdiyini izah edir. Bu prinsiplərin nəzəri əsaslarını anlamaq dizaynerlərə istifadəçi davranışlarını əvvəlcədən proqnozlaşdırmaq və interfeysi ona uyğun şəkildə qurmaq imkanı verir. Dizayn nəzəriyyələri ilə inteqrasiya bu yanaşmanın ikinci mərhələsini təşkil edir. Burada Gestalt prinsipləri yalnız qavrayış psixologiyası çərçivəsində deyil, həm də müasir dizayn nəzəriyyələri ilə əlaqədə araşdırılır. İstifadəçi mərkəzli dizayn, informasiya memarlığı və interaktivlik nəzəriyyələri Gestalt yanaşması ilə vəhdətdə tətbiq edildikdə daha effektiv nəticələr əldə olunur. Məsələn, vizual iyerarxiyanın qurulmasında qavrayışın təbii meyillərindən istifadə edilməsi informasiya axınının daha aydın təqdim olunmasına şərait yaradır. Rəqəmsal mühitdə tətbiq imkanlarının araşdırılması isə nəzəri-metodoloji yanaşmanın ən aktual tərəfini əhatə edir. Müasir dövrdə süni intellekt və maşın öyrənməsi kimi texnologiyalar istifadəçi davranışlarını real vaxtda təhlil edərək Gestalt prinsiplərinin tətbiqini daha da zənginləşdirir. Eye-tracking və neyro-marketinq tədqiqatları ilə insanların hansı vizual elementlərə diqqət ayırdığı, hansı obyektləri daha tez seçdiyi və emosional reaksiyaların necə formalaşdığı müəyyən edilir. Bu isə klassik nəzəriyyənin müasir rəqəmsal innovasiyalarla inteqrasiyasını təmin edir və nəzəri biliklərin praktikada doğrulanmasına imkan yaradır (Tidwell, 2020).

Beləliklə, nəzəri-metodoloji yanaşma həm psixoloji prinsiplərin sistemləşdirilməsinə, həm dizayn nəzəriyyələri ilə sintezə, həm də rəqəmsal texnologiyalarla inteqrasiyaya əsaslanır. Bu yanaşma nəticəsində Gestalt prinsipləri yalnız nəzəri izah çərçivəsi kimi deyil, həm də rəqəmsal dizaynın keyfiyyətini yüksəldən metodoloji baza kimi çıxış edir.

Gestalt prinsiplərinin UX/UI dizaynda tətbiqini öyrənmək üçün nəzəri çərçivə ilə yanaşı, empirik və analitik üsulların da istifadəsi vacibdir. Empirik metodlar real istifadəçi davranışlarını müşahidə etməyə, dizayn elementlərinin praktik təsirini qiymətləndirməyə və nəticələri ölçülə bilən göstəricilər əsasında dəyərləndirməyə imkan yaradır. Analitik yanaşma isə əldə edilən məlumatların sistemləşdirilməsi, müqayisəsi və nəzəri biliklərlə əlaqələndirilməsi prosesini təmin edir.

Empirik mərhələdə ilk növbədə müşahidə və kontent analizi həyata keçirilir. Müxtəlif veb-saytlar, mobil tətbiqlər və interaktiv platformalar üzərində aparılan müşahidələr vasitəsilə vizual elementlərin qruplaşdırılması, fiqur-fon fərqləndirilməsi, qapalılıq və davamlılıq prinsiplərinin tətbiqi təhlil olunur. Bu müşahidələr göstərir ki, Gestalt prinsiplərinin düzgün tətbiqi istifadəçi üçün informasiya axınını sadələşdirir və naviqasiyanı daha intuitiv edir.

Digər mühüm üsul istifadəçi testləri və sorğularıdır. Bu mərhələdə real istifadəçilər müəyyən tapşırıqları yerinə yetirərkən müşahidə olunur və onların davranışları qeydə alınır. İstifadəçilərin klik nümunələri, səhv dərəcələri, tapşırıq icra sürəti və ümumi məmnuniyyət səviyyəsi kimi göstəricilər toplanır. Bundan əlavə, sorğular vasitəsilə istifadəçilərin dizayna dair emosional və subyektiv qiymətləndirmələri öyrənilir. Bu yanaşma Gestalt prinsiplərinin yalnız nəzəri deyil, həm də emosional qəbul üzərində təsirini ortaya çıxarmağa imkan verir.

Analitik üsullar isə əldə edilmiş məlumatların dərin təhlilini təmin edir. Burada statistik analiz və müqayisəli təhlil aparılaraq müxtəlif dizayn yanaşmalarının effektivliyi qiymətləndirilir. Məsələn, oxşarlıq prinsipinin tətbiq olunduğu interfeyslərlə bu prinsipin nəzərə alınmadığı interfeyslərin istifadəçi performansı müqayisə edilir. Həmçinin klik dərəcəsi (CTR), forma doldurma uğurluluğu, səhifədə qalma müddəti və istifadəçi məmnuniyyət indeksləri kimi kvantitativ göstəricilər əsasında nəticələr ölçülür.

Nəticə etibarilə, empirik və analitik üsullar Gestalt prinsiplərinin UX/UI dizayndakı praktiki təsirini elmi əsaslarla sübut etməyə imkan yaradır. Bu metodların tətbiqi həm nəzəri müddəaların praktik təsdiqini təmin edir, həm də gələcək innovativ dizayn həllərinin formalaşdırılması üçün real istifadəçi davranışlarını nəzərə almağa şərait yaradır.

Gestalt prinsiplərinin müasir texnologiyalarla inteqrasiyası onların yalnız nəzəri psixoloji konsepsiya kimi deyil, həm də innovativ rəqəmsal həllərin əsas komponenti kimi dəyərini artırır. Bu gün rəqəmsal dizayn artıq sadəcə vizual estetika üzərində qurulmur; o, süni intellekt, maşın öyrənməsi, artırılmış reallıq (AR), virtual reallıq (VR), neyro-marketinq və eye-tracking kimi texnologiyalarla dəstəklənir. Bu inteqrasiya həm istifadəçi davranışlarının dəqiq öyrənilməsinə, həm də dizayn həllərinin fərdiləşdirilərək daha effektiv hala gətirilməsinə imkan yaradır.

Müasir texnologiyaların tətbiq sahələrindən biri süni intellekt və maşın öyrənməyə əsaslanan analitik sistemlərdir. Bu sistemlər istifadəçilərin klik nümunələrini, naviqasiya davranışlarını, səhifədə qalma müddətlərini və baxış trayektoriyalarını analiz edərək onların qavrayış proseslərini aşkara çıxarır. Gestalt prinsipləri ilə inteqrasiya edildikdə bu analizlər vizual elementlərin necə qəbul olunduğunu və hansı dizayn həllərinin daha intuitiv nəticə verdiyini müəyyənləşdirir. Nəticədə dizaynerlər real vaxt rejimində istifadəçi davranışlarına uyğunlaşan adaptiv interfeyslər qura bilirlər.

Digər mühüm istiqamət eye-tracking texnologiyasıdır. Bu üsul vasitəsilə istifadəçilərin baxış trayektoriyası izlənilir və onların hansı elementlərə daha çox diqqət ayırdığı, hansı bölgələri isə vizual olaraq nəzərdən qaçırdığı müəyyən edilir. Bu nəticələr Gestalt prinsiplərinin – xüsusən fiqur-fon və yaxınlıq qaydalarının – praktik təsirini ölçmək üçün etibarlı vasitə rolunu oynayır.

Bundan başqa, AR və VR texnologiyaları da Gestalt yanaşmasının yeni tətbiq sahələrini açır. İstifadəçi immersiv mühitdə olduqda vizual xaosun qarşısını almaq və obyektlərin düzgün qavranılmasını təmin etmək üçün davamlılıq, qapalılıq və ümumi istiqamət prinsiplərinin istifadəsi zəruridir. Bu texnologiyalar sayəsində nəzəri prinsiplərin üçölçülü məkan kontekstində necə işlədiyi daha dərindən araşdırılır (Norman, 2013). Eyni zamanda, neyro-marketinq tədqiqatları da Gestalt nəzəriyyəsinin müasir texnologiyalarla inteqrasiyasının digər bir sahəsidir. EEG (elektroensefaloqrafiya) və fNIRS (funksional yaxın infraqırmızı spektroskopiya) kimi metodlar istifadəçilərin emosional reaksiyalarını ölçməklə, vizual elementlərin beyində necə qavrandığını ortaya çıxarır. Bu isə dizayn qərarlarının yalnız estetik və funksional deyil, həm də neyropsixoloji baxımdan əsaslandırılmasına imkan verir.

Beləliklə, müasir texnologiyalarla inteqrasiya Gestalt prinsiplərinin tətbiqini daha geniş və ölçülə bilən müstəviyə daşıyır. Nəticədə nəzəri biliklər praktiki innovasiyalarla birləşir, istifadəçi mərkəzli dizayn daha dəqiq şəkildə formalaşır və rəqəmsal məhsullar həm funksional, həm də emosional baxımdan daha effektiv olur.

Nəticə və təkliflər

Aparılan tədqiqat göstərir ki, Gestalt psixologiyasının prinsipləri müasir UX/UI dizaynın həm nəzəri, həm də praktik aspektlərinin formalaşdırılmasında əhəmiyyətli rol oynayır. İnsan beyninin vizual informasiyanı bütöv strukturlar əsasında qavraması ilə bağlı bu yanaşma dizayn elminə yeni bir istiqamət qazandırmışdır. Yaxınlıq, oxşarlıq, qapalılıq, davamlılıq, fiqur-fon və ümumi istiqamət kimi prinsiplər istifadəçi təcrübəsinin əsasını təşkil edən idrak mexanizmlərinin izahına xidmət edir. Bu prinsiplərin tətbiqi ilə dizaynerlər interfeysləri daha intuitiv, funksional və emosional baxımdan qəbul edilən hala gətirə bilirlər.

Nəzəri-metodoloji baxımdan Gestalt prinsipləri istifadəçi davranışlarının anlaşılmasında və vizual elementlərin strukturlaşdırılmasında dayaq rolunu oynayır. Onlar dizayn nəzəriyyələrinin və informasiya memarlığının formalaşmasında mühüm metodoloji baza kimi çıxış edir. Empirik və analitik üsullar isə bu prinsiplərin praktiki təsirini sübut etməyə imkan yaradır. İstifadəçi testləri, sorğular, göz izləmə texnologiyaları və statistik analizlər vasitəsilə əldə edilən nəticələr göstərir ki, Gestalt yanaşmasının tətbiqi istifadəçi məmnuniyyətini artırır, idrak yükünü azaldır və məhsuldan istifadənin rahatlığını yüksəldir.

Rəqəmsal innovasiyaların inkişafı Gestalt nəzəriyyəsinin aktuallığını daha da artırır. Süni intellekt və maşın öyrənməsi alqoritmləri real vaxt rejimində istifadəçi davranışlarını təhlil edərək adaptiv interfeyslərin formalaşdırılmasına imkan yaradır. Artırılmış və virtual reallıq texnologiyalarında vizual xaosun qarşısını almaq və obyektlərin məkan daxilində düzgün qavranılmasını təmin etmək üçün Gestalt prinsiplərinin istifadəsi zəruri olur. Neyro-marketinq tədqiqatları isə bu prinsiplərin emosional və neyropsixoloji təsirini daha dərindən izah etməyə şərait yaradır.

Ümumilikdə, Gestalt nəzəriyyəsinin UX/UI dizaynda tətbiqi yalnız vizual estetikaya xidmət etmir. O, həm də istifadəçi davranışlarının formalaşmasına, emosional reaksiyaların idarə olunmasına və uzunmüddətli brend sadiqliyinin yaradılmasına töhfə verir. Beləliklə, Gestalt prinsipləri müasir rəqəmsal məhsulların hazırlanmasında həm nəzəri konsept, həm də praktik metodoloji baza kimi çıxış edir. Onların düzgün tətbiqi nəticəsində istifadəsi asan, funksional cəhətdən optimal və emosional baxımdan inandırıcı interfeyslər formalaşdırmaq mümkündür. Bu isə rəqəmsal məhsulların uğurunun əsas göstəricilərindən biri hesab olunur.

Gestalt nəzəriyyəsinin UX/UI dizayn sahəsində tətbiqinə dair aparılan təhlillər göstərir ki, nəzəri biliklərin praktik həllərlə birləşdirilməsi istifadəçi təcrübəsini əhəmiyyətli dərəcədə yaxşılaşdıra bilər. Bu baxımdan əsas tövsiyə ondan ibarətdir ki, dizayn prosesində yalnız vizual estetika deyil, həm də psixoloji qavrayış mexanizmləri əsas götürülməlidir. İstifadəçilərin informasiyanı bütöv strukturlar əsasında dərk etməsi nəzərə alınaraq interfeyslərdə yaxınlıq, oxşarlıq və davamlılıq kimi prinsiplərə üstünlük verilməlidir. Bu, həm naviqasiyanı

sadələşdirəcək, həm də idrak yükünü azaldaraq istifadəçinin rahatlığını təmin edəcəkdir.

Müasir rəqəmsal innovasiyalar kontekstində Gestalt prinsiplərinin süni intellekt və maşın öyrənməsi ilə inteqrasiyası xüsusi əhəmiyyət daşıyır. İstifadəçi davranışlarının avtomatlaşdırılmış analizi əsasında adaptiv interfeyslərin hazırlanması, fərdiləşdirilmiş məzmunun təqdim edilməsi və real vaxt rejimində vizual elementlərin optimallaşdırılması gələcək inkişaf üçün prioritet istiqamət hesab olunmalıdır. Artırılmış və virtual reallıq mühitlərində Gestalt yanaşmasının tətbiqi isə daha immersiv və idarəolunan istifadəçi təcrübəsi yaratmaq baxımından vacibdir. Bu texnologiyalarda qapalılıq, davamlılıq və fiqur-fon prinsiplərinin istifadəsi məkan daxilində qavrayışın aydınlığını və obyektlərin funksional məna daşımasını gücləndirə bilər.

Praktik səviyyədə tövsiyə olunur ki, UX/UI dizayn prosesində test mərhələləri genişləndirilsin və yalnız vizual uyarlılıq deyil, həm də istifadəçilərin emosional reaksiyaları nəzərə alınsın. Bunun üçün sorğular, göz izləmə texnologiyaları, neyro-marketinq alətləri və statistiki analizlərdən istifadə edilməlidir. İstifadəçi mərkəzli dizayn yanaşması ilə Gestalt prinsiplərinin vəhdəti həm funksional, həm də emosional baxımdan daha keyfiyyətli məhsullar yaratmağa imkan verəcəkdir.

Beləliklə, Gestalt nəzəriyyəsinin nəzəri-metodoloji prinsiplərinin rəqəmsal innovasiyalarla sintezi müasir dizaynın gələcək inkişafı üçün strateji istiqamət kimi qiymətləndirilməlidir. Bu yanaşma yalnız istifadəçi məmnuniyyətini artırmaqla kifayətlənmir, həm də rəqəmsal məhsulların bazarda rəqabət üstünlüyü qazanmasına şərait yaradır.

ƏDƏBİYYAT SİYAHISI:

1. Koffka, K. (1935). Principles of Gestalt Psychology. New York: Harcourt, Brace & Company.
2. Köhler, W. (1947). Gestalt Psychology: An Introduction to New Concepts in Modern Psychology. New York: Liveright.
3. Ware, C. (2019). Information Visualization: Perception for Design (4th ed.). Cambridge: Morgan Kaufmann.
4. Norman, D. A. (2013). The Design of Everyday Things. New York: Basic Books.
5. Tidwell, J. (2020). Designing Interfaces: Patterns for Effective Interaction Design (3rd ed.). Beijing: O'Reilly Media.
6. Wong, W. (2011). Principles of Form and Design. New Jersey: John Wiley & Sons.

DOİ: 10.32010/RRUK2152

QAZ VƏ QAZ KONDENSATIN SUALTI BORU KƏMƏRLƏRİ İLƏ NƏQLİ ZAMANI YARANA BİLƏCƏK RİSKLƏRİN TƏHLİLİ

Türkan Şahin QULİYEVA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
E-mail: turkan.guliyeva.shahin2024@asoiu.edu.az

Xülasə: Qaz və qaz kondensatının sualtı boru kəmərləri ilə nəqli bir sıra texniki, ekoloji və əməliyyat amillərinin təsir etdiyi kompleks risklər toplusunu təqdim edir. Bu sənəd sualtı boru kəmərləri sistemlərində qaz və kondensat sızmasının ətraflı təhlilini aparır, Tədqiqat bu risklərin həm ehtimalını, həm də nəticələrini qiymətləndirir. Əvvəlcə boru kəmərinin sızmasına təsir edən daxili və xarici amillər qabaqcıl risklərin qiymətləndirilməsi metodologiyalarından biri olan Qüsur Ağacı Analizi (FTA) tətbiq edilməklə hazırlanır. Sonra risk təhlili qazın buraxılması və kondensat sızması üçün ayrıca qurulmuş Hadisə Ağacı Analizi (ETA) ilə yekunlaşdırılır. Mümkün təhlükə nəticələri və onların ehtimalları mərkəzi kritik hadisələrin tezliyindən təxmin edilmişdir. Aparılmış təhlillər praktiki istifadə üçün Xəzər dənizində sualtı qaz və qaz-kondensat boru kəmərlərində risklərin idarə edilməsi və qiymətləndirilməsi üzrə həyata keçirilən tədbirlərə daxil edilə bilər.
Açar sözlər: qaz, kondensat, sualtı boru kəmərləri, təhlükələr, risk, risk təhlili, riskin qiymətləndirilməsi, uğursuzluqların siyahısı.

ANALYSIS OF RISKS EMERGING DURING GAS AND GAS CONDENSATE TRANSPORTATION VIA SUBSEA PIPELINES

Turkan Shahin GULIYEVA
Azerbaijan State Oil and İndustry University
E-mail: turkan.guliyeva.shahin2024@asoiu.edu.az

Abstract: Transportation of gas and gas condensate through subsea pipelines presents a complex set of risks influenced by a number of technical, environmental, and operational factors. This paper presents a detailed analysis of gas and condensate leaks in subsea pipeline systems. The study assesses both the likelihood and consequences of these risks. First, the internal and external factors influencing pipeline leaks are identified using fault tree analysis (FTA), one of the advanced risk assessment methodologies. The risk analysis is then completed using event tree analysis (ETA), which is constructed separately for gas leaks and condensate leaks. Possible hazard outcomes and their probabilities are assessed based on the frequency of key critical events. The analyses conducted can be incorporated into measures implemented for risk management and assessment in subsea gas and gas condensate pipelines in the Caspian Sea for practical application.
Keywords: gas, condensate, subsea pipelines, hazards, risk, risk analysis, risk assessment, failure list.

АНАЛИЗ РИСКОВ, ВОЗНИКАЮЩИХ ПРИ ТРАНСПОРТИРОВКЕ ГАЗА И ГАЗОКОНДЕНСАТА ПОДВОДНЫМИ ТРУБОПРОВОДАМИ

Тюркан Шахин ГУЛИЕВА
Азербайджанский государственный университет нефти и промышленности
Электронная почта: turkan.guliyeva.shahin2024@asoiu.edu.az

Резюме: Транспортировка газа и газоконденсата по подводным трубопроводам представляет собой сложный набор рисков, на которые влияет ряд технических, экологических и эксплуатационных факторов. В данной работе представлен подробный анализ утечек газа и конденсата в подводных трубопроводных системах. В исследовании оцениваются как вероятность, так и последствия этих рисков. Сначала внутренние и внешние факторы, влияющие на утечку из трубопровода, определяются с помощью анализа дерева отказов (FTA), одной из передовых методологий оценки рисков. Затем анализ рисков завершается анализом дерева событий (ETA), который строится отдельно для утечки газа и утечки конденсата. Возможные исходы опасностей и их вероятности оцениваются на основе частоты центральных критических событий. Проведенные анализы могут быть включены в меры, реализуемые для управления и оценки рисков в подводных газо- и газоконденсатных трубопроводах Каспийского моря, для практического применения.

Ключевые слова: газ, конденсат, подводные трубопроводы, опасности, риск, анализ рисков, оценка рисков, перечень отказов.

Giriş

Azərbaycanın qaz təchizatının əsas mənbəyi Xəzər dənizində yerləşən böyük ölçülü Şahdəniz qaz və qaz kondensat yatağı və bununla yanaşı Ümid-Babək, Abşeron yataqlarıdır. Quyuağzı platformada yerləşən və sualtlı istismar quyularından çıxarılmış məhsul sualtı kəmərlər vasitəsilə sahildəki yığım məntəqələrinə (Səngəçal və digər terminallar) qədər nəql olunur[1,2]. Qeyd olunmuş bu böyük sistemin təhlükəsiz və etibarlı şəkildə işləməsi bütövlükdə həmin sistemdə və onun ayrı-ayrı hissələrində yarana biləcək risklərin mümkün qədər aşağı salınması ilə sıx bağlıdır[3].


Tədqiqatçılar tərəfindən Xəzər dənizi şəraiti üçün sualtı kəmərlərdə yaranan risklər sistemli şəkildə [4] təhlil olunmuşdur. Müəlliflər tərəfindən əsas təhlükələr kimi xarici və daxili korroziya, mexaniki birləşmə yerlərində yaranmış zədələr, vibrasıya halları, kəmərlərin üzəçıxma halları və digər hadisələr göstərilmişdir.

Risklərin qiymətləndirilməsində yuxarıda qeyd edilmiş təhlükələrin baş vermə tezlikləri və potensial fəsadlarının dərəcələnməsi mühüm əhəmiyyət kəsb edir. Burada yaranan əsas problem ondan ibarətdir ki, risk qərarlarını analitiklər bir çox halda məlumatın qeyri-müəyyən olması şəraitində verir. Bu halda qeyri-səlis çoxluqlar nəzəriyyəsindən istifadə olunması daha məqsədə uyğundur, sualtı boru kəmərləri üçün bu tədqiqatlar müəlliflər tərərfindən aparılmışdır [5].

Risklərin təhlili və qiymətləndirilməsi ilə məşğul olan analitiklər bir qayda olaraq müxtəlif qrafiki diaqramlardan istifadə edirlər ki, bunların arasında risk matrisası, What-If, Fault Tree, Event tree və Bow-Tie diaqramlarıdır. Bu məqalədə qazın borudan sızması halı analiz olunmuş və uyğun diaqramlar qurulmuşdur. Qurulmuş həmin təsvirlər praktiki istifadə üçün Xəzər dənizində sualtı qaz və qaz kondensat boru kəmərlərində risklərin idarəsi və dəyərləndirilməsi üçün görülən tədbirlərə daxil ola bilər.

Metodlar

Ümumiyyətlə sualtı boru kəmərlərində yarana biləcək riskləri təhlil etmək üçün bu sistemi vizual təsvir edək. Şəkil 1-də platformadan sahilə boru kəmərlərini 4 seqmentdən ibarət bir sistem kimi göstərilimişdir. Bu məqalədə risklərin təhlili təhlükəsizlik zonası, açıq dəniz və quruya çıxma zonası şərti olaraq əsas tədqiqat ərazisidir.



Şəkil 1. Riser və boru kəməri bölmələri

Qaz və qaz kondensatın boru kəməri ilə axınında yarana biləcək risk quyu məhsulunun sızma nəticəsində itkilərə səbəb olmasıdır. Bu hadisə də borunun səthində yaranmış dəlikdir. Bu dəliklər ölçülərinə görə böyük - 80mm- dən böyük, orta - 20-80 mm arası və kiçik - 20 mm - dən kiçik şəklində kateqoriyalara bölünür. Birinci addım, dəliklərin yarana biləcəyi hər nöqtəni və xüsusi həssas hədəfi müəyyən etmək üçün boru kəmərinin xüsusiyyətlərini və ya dizayn xüsusiyyətlərini, eləcə də boru kəmərinin marşrutunu onun ətraf mühiti ilə təsvir etməkdir. Boru kəmərlərinin kəsişməsi, quruya düşmələr sızma üçün potensial təhlükə zonasına nümunə

ola bilər. Boru kəmərinin buraxılması üçün tezlik təhlilini həyata keçirmək üçün tövsiyə olunan məlumatlar OGP hesabatının №434-4 Yüksəldici və boru kəməri buraxılış tezlikləri, armaturlar və dəniz boru kəmərləri üçün PARLOC hesabatının ən son təftişinə əsaslanır. Tövsiyə olunan buraxılış ölçüsü paylanması cədvəl 1-də göstərilmişdir:

Cədvəl 1. Tövsiyə olunan buraxılma tezlikləri (OGP hesabatı №434-4)

Dəliyin ölçüsü	Sulatı b/k	Quru kəmərləri		Rayzer
		Qaz	Neft	
Balaca (< 20 mm)	74%	50%	23%	60%
Orta (20 to 80 mm)	16%	18%	33%	15%
Böyük (> 80 mm)	2%	18%	15%	25%
Tam dağılma	8%	14%	29%	

Karbohidrogen sızması məlumat bazasından istifadə edərək buraxılış ölçüsü tezliyinin paylanmasını müəyyən etmək üçün heç bir xüsusi analiz aparılmadıqda tövsiyə olunan buraxılış ölçüsü paylanması cədvəl 2-də təqdim olunur.


Cədvəl 2. Buraxılma ölçülərinin paylanması

	Balaca (<5mm)	Orta (5-20mm)	Böyük (20mm to FB)
Sualtı boru kəmərləri	55%	19%	26%
Polad rezirlər	55%	19%	26%

Seçilmiş buraxılış ölçüsü bölgüsü fərziyyə reyestrində təqdim edilməli və Ətraflı risk təhlili və ya Kəmiyyət Risk Analizi hesablamalarına başlamazdan əvvəl Şirkətdən razılıq alınmalıdır. Boru kəmərinin sızma tezliyi adətən istinadlarda kilometr və ya metr ilə buraxılış kimi verilir. Məhsulun itirilməsinin nəticələri uyğun olaraq zəhərli təsirə məruz qalma (H2S və s.), reaktiv atəş, alov topu, alovlu yanğın, partlayış hovuzu yanğını (qaz kondensat boru kəmərlərində), dəniz səthində qaz hovuzunda yanğın və çirklənmədir. Burada şiddət mənbə termininin modelləşdirilməsindən və buraxılış istiqamətindən asılıdır.

Hər bir təhlükə nəticəsi ilə əlaqəli riskin məqbulluğu, riskin qəbulu matrisi zərərin tezliyi və şiddəti ilə əlaqədar olaraq qiymətləndirilir. Buna görə də, ssenarinin tərifinə ciddi riayət edilməlidir:

Şəkil 2-də göstərildiyi kimi, ssenari aşağıdakı elementlərdən ibarətdir:




Şəkil 2. Ssenarinin sadələşdirilmiş təsviri

Bu məqalədə mərkəzi kritik hadisənin (CCE) tezliyi, sualtı boru kəmərlərində boru kəmərinin sızması xəta ağacının təhlili yanaşmasından istifadə etməklə qiymətləndirilir (Şəkil 3). Təhlükə nəticələrinin modelləşdirilməsi hadisə ağacının budaqlarının ehtimallarından istifadə etməklə CCE tezliyindən müxtəlif hadisə ağacı nəticələrinin (məsələn, reaktiv yanğın, hovuz yanğını, alovlu yanğın, partlayış, dağılma, dayanıqlıq, struktur nasazlığı və s.) ehtimalının qiymətləndirildiyi hadisə ağaclarının təhlilinin köməyi ilə hazırlanır. Təhlükəli nəticələrin ehtimalı PARLOC tərəfindən qaldırıcılar və dəniz boru kəmərləri üçün verilən məlumatlar əsasında təhlil edilir.

Müzakirələr

Şəkil 3-də göstərilən xəta ağacı boru kəmərinin sızmasına səbəb ola biləcək potensial amilləri müəyyən etmək üçün nəzərdə tutulmuşdur. Sualtı qazın və kondensatın sıradan çıxması daxili və xarici amillər səbəbindən baş verə bilər. Daxili amillərə materialın deqradasiyası nəticəsində yaranan boru kəmərinin korroziyası və korroziyadan qorunma problemləri, material qüsurları və yorğunluq nəticəsində yaranan material nasazlığı (mayenin turbulentliyi və ya xarici qüvvələr nəticəsində çatlara və vibrasiya ilə bağlı yorğunluğa səbəb olan təkrar əməliyyat təzyiqləri), həddindən artıq təzyiq nəticəsində yaranan əməliyyat problemləri (nasaz təzyiq tənzimləyiciləri, klapanlar və ya quraşdırılmış təzyiq tənzimləyiciləri və ya quraşdırılmış tıxanma xətləri) daxildir. Digər tərəfdən, xarici amillərə üçüncü şəxslərin müdaxiləsi zamanı baş verə biləcək təhlükələr daxildir. Bu problemlər lövbərin zədələnməsi və qazıntı və ya tikinti fəaliyyətinin nəticələri ola bilər. Nəhayət, xarici korroziya boru kəmərinin səthinə bakteriyaların hücumu və zamanla dəniz suyuna məruz qalma nəticəsində yaranan aşınmadan əmələ gələ bilər.



Şəkil 3. Dənizaltı qaz və kondensat sızmasının xəta ağacı

Mövcud təhlükəsizlik maneələrinə və sualtı boru kəmərlərindən sızma ehtimalına əsaslanaraq hadisələrin Mərkəzi kritik Hadisədən müxtəlif hadisə ağacı nəticələrinə qədər ardıcıl inkişafını modelləşdirmək üçün hadisə ağaclarının təhlili aparılmalıdır. Hadisə ağaclarının inkişafı üçün aşağıdakı maneələr nəzərdən keçirilməlidir:

- Monitor və Siqnal maneəsi
- Fövqəladə söndürmə maneəsi
- Neqativ təzyiqdən qorunma maneəsi
- Alışmanın qarşısının alınması


Monitor və siqnal maneələri normal iş şəraitində boru kəmərinin axınının və təzyiqinin dəyişməsini qavramağa və həyəcan siqnalları göndərməyə qadirdir. Fiber optika əsaslanan sızma aşkarlama sistemi neft və qaz sənayesində son dərəcə istifadə olunur (Aljaroudi et al., 2015b) və iki növ nasazlıq rejimi var, biri sızma göstərmir, digəri isə sızma baş vermədikdə yanlış siqnal göndərir [6]. Fövqəladə söndürmə sızma müvəffəqiyyətlə aşkar edildikdə həyata keçirilir, bu prosesə nasosun dayandırılması və klapanların bağlanması daxildir, bu maneənin nasazlığı nasosun dayandırılması deyil, nasosun dəqiq vaxtda dayandırılması, klapanların bağlanmaması və ya qlobus klapanlarının vaxtında kəsilməməsi [7]. Mənfi təzyiq testinin əsas məqsədi karbohidrogenlərin axmasına mane olan maneələrin bütövlüyünü qiymətləndirməkdir. Bu, BP Deepwater Horizon hadisəsində vurğulandığı kimi, qazma əməliyyatlarının təhlükəsizliyini qorumaq və partlayışların qarşısını almaq üçün vacibdir[8]

Hadisə Ağacı Analizi (ETA) qaz və kondensat üçün ayrıca aparılır. Məhsulun sızmasının tezliyi Boru Kəməri və Yükseltici Təhlükəsizliyi 2001 –

2012 (Parloc 2012), Parloc Hesabat Seriyasının 6-cı Buraxılışından götürülmüşdür.

Cədvəl 3. Boru mayesindən asılı olaraq polad borularda sızma tezliyinin dəyişməsi

Boru ilə axan maye	Təxmini insident sayı	Təcrübə (km-il)	Tezlik (km-il) üzrə
Neft	28.1	31,195.2	9.00E-04
Kondensat	1.4	3,774.0	3.75E-04
Qaz	12.4	90,466.2	1.37E-04
Multifaza	17.8	43,858.7	4.05E-04
Metanol	6.6	16,558.3	4.00E-04
Qlikol	4.9	13,852.7	3.54E-04
Kimyəvi maddələr	3.6	857.7	4.16E-03
Su	17.2	8,310.0	2.07E-03
Digər	0.47	2,598.2	1.82E-04



Şəkil 4. Qaz sızması üçün Hadisə Ağacı Analizi

GA-Jet yanğını, GB- Flaş yanğını, GC-məhdudlaşdırılmamış buxar buludunun partlaması (UVCE), GD- Dağılma, GE- Toksik dispersiya, GF- Struktur pozğunluğu

Maneələrin müvəffəqiyyəti və uğursuzluğundan asılı olaraq hadisə ağacının nəticələri dəyişir. Qazın buraxılması üçün təhlükə nəticələri müvafiq olaraq GA, GB, GC, GD, GE və GF ilə simvollaşdırılır və nəticələrin ehtimalları hesablanır. Hər bir təhlükə nəticəsinin yaratdığı fiziki təsirləri qiymətləndirmək üçün nəticə təhlili aparılmalıdır. Təhlükə nəticəsində yaranan fiziki təsirlər PHAST və ya EFFECTS kimi kommersiya alətlərindən və ya sadələşdirilmiş nəticələrin təhlili cədvəllərindən istifadə etməklə qiymətləndirilməlidir [9].

Zərərin şiddətini təyin etmək üçün aşağıdakı parametrlər qiymətləndirilməlidir:

• Buraxılış müddəti (izolyasiya ilə və izolyasiyasız)

• Təhlükə intensivliyi səviyyələrinə qədər olan məsafə - (əgər SEI uyğundursa, LC1% uyğundursa və ölümlə nəticələnir)

• Kinetika və eskalasiya potensialı.

Qeyri-proses hadisələri ilə bağlı ssenarilər üçün nəticələr struktur və hidrodinamik ekspertizanın köməyi ilə mühəndis hesablamalarına əsaslanmalıdır.

Nəticə

Dəniz şəraitində istismar edilən qaz və qaz-kondensat boru kəmərlərində uzunmüddətli zərər və qəzaların statistik məlumatlarına əsasən, qaz sızması hadisələri riski üçün FTA və ETA diaqramları qurulmuşdur. Xəta ağacının təhlili boru sızmasının mümkün səbəblərini göstərsə də, hadisə ağacının təhlili qaz sızmanın mümkün nəticələrini və ehtimallarını təmin edir. Aparılan risk təhlili sualtı boru kəmərlərinin istismarı ilə məşğul olan təşkilatlarda praktik istifadə üçün təklif edilə bilər.

ƏDƏBİYYAT SİYAHISI:

1. Sangachal Terminal.< https://bp.com/en_az/azerbaijan/home/who-we-are/operationsprojects/terminals/sangachal_terminal.html> (dostep: march, 2024)
2. Gulmira R. The Outlook for Azeri Gas Supplies to Europe: Challenges and Perspectives, Working Paper NG 97, Oxford Institute for Energy Studies, Oxford, 2015
3. Ramiz I., Rugiya A., Ismayil I., Turkan G. Rısk Assessment In Subsea Pıpelınes For The Caspıan Sea Conditions. Reliability-Theory and Applications, Vol 18, 2023. Pp. 422-427
4. Ramiz A. I., Ismayil.A. I. Applications of Soft Computing for Risk Assessment in The Pipelines. 12th World Conference "Intelligent System of Industrial Automation" (WCIS-2022), Vol 2-Springer.
5. Riser & Pipeline Release Frequencies, Report 434-04, International Associations of Oil&Gas Producers, 2019
6. Pıpelıne And Rıser Loss Of Contaınment 2001 – 2012 (Parloc 2012), 2015
7. Aljaroudi, A., Khan, F., Akinturk, A., Haddara, M., Thodi, P.Probability of Detection and False Detection for Subsea Leak Detection Systems: Model and Analysis. Journal of FailureAnalysis and Prevention, 2015
8. Xinhong Li., Guoming Chen., Hongwei Zhu. Quantitative risk analysis on leakage failure of submarine oil and gas pipelines using Bayesian network, Process Safety and Environmental Protection, 2016
9. Tabibzadeh, Maryam, Tabibzadeh M.; Meshkati, Najmedin. A proposed 'standard' framework for conducting negative pressure test. International Journal of Oil, Gas and Coal Technology Volume 12, Issue 3, Pp 248 – 264, 2016.

DOİ: 10.32010/DGPS5901

QARABAĞIN DAYANIQLI TUTİZM POTENSİALINDA İNNOVASİYALARIN ROLU

Mədinə Eldəniz QULİYEVA
Mingəçevir Dövlət Universiteti
ORCHİD:009-002-9310-496x:
E-mail: madinarzazade.95@gmail.com

Xülasə: Son illərdə turizm sənayesi qlobal iqtisadiyyatın dinamik və gəlirli sahələrindən birinə çevrilmişdir. Lakin turizmin sürətli inkişafı eyni zamanda ekoloji, sosial və mədəni problemlər də yaratmışdır. Bu səbəbdən XXI əsrdə "dayanıqlı turizm" anlayışı turizm siyasətinin əsas prioritetlərindən birinə çevrilmişdir. Dayanıqlı turizm ekoloji məsuliyyət, sosial ədalət, iqtisadi səmərəlilik və mədəni irsin qorunması prinsiplərinə əsaslanır. Qarabağ bölgəsi zəngin təbii və mədəni irsə malikdir və dayanıqlı turizm üçün böyük potensiala sahibdir. Regionda dağlıq landşaftlar, mineral sular, meşələr, tarixi şəhərlər, dini abidələr və xalçaçılıq ənənələri kimi müxtəlif turizm resursları mövcuddur. Məqalədə Qarabağda dayanıqlı turizmin inkişafında innovasiyaların rolu vurğulanır.Müasir turizmin inkişafında innovativ yanaşmalar, o cümlədən "ağıllı turizm", yaşıl otellər, rəqəmsal monitorinq sistemləri və bərpa olunan enerji istifadəsi mühüm rol oynayır. Bu yeniliklər turizmin ekoloji izini azaldır, yerli icmaların iqtisadi və sosial rifahını artırır, həmçinin mədəni irsin qorunmasını təmin edir.Qarabağda dayanıqlı turizmin inkişafı müxtəlif istiqamətlərdə nəzərdə tutulur: ekoturizm, kənd turizmi, mədəni irs turizmi, sağlamlıq turizmi və ictimai maarifləndirmə. Dövlətin həyata keçirdiyi "Böyük Qayıdış" proqramı, Füzuli Beynəlxalq Hava Limanı, ağıllı şəhər və kənd layihələri kimi təşəbbüslər regionda dayanıqlı turizmin inkişafına mühüm təkan verir.Eyni zamanda innovasiyalar Qarabağın turizm potensialını beynəlxalq səviyyədə tanıtmaq və rəqabət qabiliyyətini artırmaq üçün strateji əhəmiyyət daşıyır. Rəqəmsal texnologiyalar, virtual turlar, smart infrastruktur, ekoloji innovasiyalar və yeni turizm məhsulları turizmin davamlılığını təmin edir, yerli icmalar üçün iş yerləri yaradır və iqtisadi gəlirlərin artırılmasına səbəb olur.Qarabağda dayanıqlı turizmin inkişafı yalnız iqtisadi deyil, həm də sosial-mədəni dirçəliş və regionun uzunmüddətli inkişafı üçün əsas amildir. Məqalədə qeyd olunur ki, innovativ yanaşmalar və dayanıqlı turizm prinsiplərinin birgə tətbiqi Qarabağı Cənubi Qafqazda nümunəvi turizm bölgəsinə çevirə bilər.
Açar sözlər: Dayanıqlı turizm, innovasiya, ekoturizm, rəqəmsallaşma, texnoloji yeniliklər, sosial təsirlər, yaşıl enerji, ekoloji turizm, idarəetmə innovasiyaları, Azərbaycan turizmi.

THE ROLE OF INNOVATİONS İN THE SUSTAİNABLE TOURİSM POTENTİAL OF KARABAKH

Quliyeva Madina Eldəniz
Mingachevir State University
ORCHİD:009-002-9310-496x:
E-mail: madinarzazade.95@gmail.com

Abstract: In recent years, the tourism industry has become one of the most dynamic and profitable sectors of the global economy. However, rapid tourism development has also created ecological, social, and cultural challenges. Therefore, "sustainable tourism" has become a key priority of 21st-century tourism policy. Sustainable tourism is based on the principles of ecological responsibility, social justice, economic efficiency, and cultural heritage preservation.The Karabakh region possesses rich natural and cultural heritage, offering significant potential for sustainable tourism. Its diverse tourism resources include mountainous landscapes, mineral springs, forests, historical cities, religious monuments, and carpet-weaving traditions. The article highlights the role of innovations in developing sustainable tourism in Karabakh.Modern innovations such as "smart tourism," green hotels, digital monitoring systems, and renewable energy usage play a crucial role in reducing the ecological footprint, enhancing the socio-economic well-being of local communities, and preserving cultural heritage.Sustainable tourism development in Karabakh is planned in various directions: ecotourism, village tourism, cultural heritage tourism, health tourism, and public awareness programs. State initiatives such as the "Great Return" program, Fuzuli International Airport, and smart city and village projects provide a solid foundation for sustainable tourism development.Innovations are strategically important for promoting Karabakh internationally and increasing its competitiveness. Digital technologies, virtual tours, smart infrastructure, ecological innovations, and new tourism products ensure sustainability, create jobs for local communities, and generate economic benefits.Sustainable tourism development in Karabakh is not only an economic resource but also a foundation for socio-cultural revival and long-term regional development. The article emphasizes that combining innovative approaches with sustainable tourism principles can transform Karabakh into a model tourism region in the South Caucasus.
Keywords: Sustainable tourism, innovation, ecotourism, digitalization, technological innovations, social impacts, green energy, ecological tourism, management innovations, Azerbaijan tourism.

РОЛЬ ИННОВАЦИЙ В ПОТЕНЦИАЛЕ УСТОЙЧИВОГО ТУРИЗМА КАРАБАХА

Мадина Эльдениз ГУЛИЕВА
Мингячевирский государственный университет
ORCHİD:009-002-9310-496x:
Электронная почта: madinarzazade.95@gmail.com

Резюме: В последние годы туризм стал одной из самых динамичных и прибыльных отраслей мировой экономики. Однако его быстрый рост создал экологические, социальные и культурные проблемы. Поэтому «устойчивый туризм» стал приоритетом туристической политики XXI века. Устойчивый туризм основывается на принципах экологической ответственности, социальной справедливости, экономической эффективности и сохранения культурного наследия.Карабаха обладает богатым природным и культурным наследием и имеет значительный потенциал для развития устойчивого туризма. Его ресурсы включают горные ландшафты, минеральные источники, леса, исторические города, религиозные памятники и традиции ковроделия. В статье рассматривается роль инноваций в развитии устойчивого туризма в Карабахе.Современные инновации, такие как «умный туризм», зеленые отели, цифровые системы мониторинга и использование возобновляемой энергии, играют ключевую роль в сокращении экологического следа, повышении социально-экономического благополучия местных сообществ и сохранении культурного наследия.Развитие устойчивого туризма в Карабахе планируется по нескольким направлениям: экотуризм, деревенский туризм, культурно-исторический туризм, оздоровительный туризм и программы общественного просвещения. Государственные инициативы, включая программу «Великое возвращение», Международный аэропорт Фузули и проекты «умного города» и «умной деревни», создают прочную основу для устойчивого туризма.Инновации стратегически важны для международного продвижения Карабаха и повышения его конкурентоспособности. Цифровые технологии, виртуальные туры, умная инфраструктура, экологические инновации и новые туристические продукты обеспечивают устойчивость туризма, создают рабочие места и увеличивают экономические доходы.Развитие устойчивого туризма в Карабахе является не только экономическим ресурсом, но и фундаментом социально-культурного возрождения и долгосрочного развития региона. Статья подчеркивает, что сочетание инновационных подходов с принципами устойчивого туризма может сделать Карабах примерным туристическим регионом на Южном Кавказе.

Ключевые слова:Устойчивый туризм, инновации, экотуризм, цифровизация, технологические новшества, социальное воздействие, зеленая энергия, экологический туризм, инновации в управлении, туризм Азербайджана.

Giriş

Son illərdə turizm sənayesi dünya iqtisadiyyatının ən dinamik və gəlirli sahələrindən birinə çevrilmişdir. Lakin turizmin sürətli inkişafı eyni zamanda ekoloji, sosial və mədəni problemlər də yaratmışdır. Bu səbəbdən “dayanıqlı turizm” anlayışı XXI əsr turizm siyasətinin əsas prioritetlərindən birinə çevrilmişdir. Dayanıqlı turizm təbiətin qorunmasını, yerli icmaların rifahını və gələcək nəsillərin ehtiyaclarını nəzərə alaraq turizm fəaliyyətinin planlaşdırılmasını nəzərdə tutur.

BMT-nin Ümumdünya Turizm Təşkilatının (UNWTO) tərifinə əsasən, dayanıqlı turizm “mövcud və gələcək iqtisadi, sosial və ekoloji təsirləri tam nəzərə alan, ziyarətçilərin, sənayenin, ətraf mühitin və ev sahibi icmaların ehtiyaclarını qarşılayan turizm formasıdır.”

Bu konsepsiyanın əsas prinsipləri aşağıdakılardır:

- Ekoloji məsuliyyət – təbiət resurslarından səmərəli istifadə, tullantıların azaldılması və biomüxtəlifliyin qorunması;
- Sosial ədalət – yerli əhalinin turizm gəlirlərindən faydalanması və mədəni dəyərlərinin qorunması;
- İqtisadi səmərəlilik – turizmdən əldə edilən gəlirin uzunmüddətli iqtisadi inkişafı dəstəkləməsi;
- Mədəni irsin qorunması – turizmin yerli adət-ənənələri zənginləşdirməsi, lakin onlara zərər vurmaması.

Dayanıqlı turizm təbii sərvətlərin və mədəni irsin mühafizəsinə töhfə verməklə yanaşı, yerli əhalinin iqtisadi və sosial rifahını da artırır. Bu model, turizmin yaratdığı mənfi təsirləri – ekoloji çirklənmə, mədəni assimilyasiya, kütləvi turizmin təzyiqləri – minimuma endirməyi hədəfləyir.

Eyni zamanda, dayanıqlı turizm regionlarda alternativ məşğulluq imkanları yaradır,eko-

turizm, aqro-turizm, mədəni turizm kimi alt sahələrin inkişafına təkan verir,yerli brendlərin və məhsulların tanıdılmasına şərait yaradır.Praktikada dayanıqlı turizmin tətbiqi bir sıra çətinliklərlə üzləşir. Əsas problemlərdən turizm sektorunda planlaşdırma və idarəetmənin qeyri-səmərəliliyi, ekoloji maarifləndirmənin aşağı səviyyəli olması,yerli icmaların qərar qəbuletmə prosesində məhdud iştirakı, həmçinin bəzi regionlarda infrastrukturun zəif inkişafı və investisiyaların azlığını misal olaraq göstərmək olar.

Müasir dövrdə dayanıqlı turizmin inkişafı innovativ yanaşmalarla sıx bağlıdır. "Ağıllı turizm" (smart tourism), "yaşıl otellər", bərpa olunan enerji istifadəsi, rəqəmsal monitorinq sistemləri kimi yeniliklər turizmin ekoloji izini azaltmağa kömək edir. Azərbaycan da bu istiqamətdə bir sıra addımlar atır: milli parkların qorunması, kənd turizminin təşviqi, "yaşıl enerji zonaları"nın yaradılması və "Qarabağ – yaşıl enerji məkanı" kimi layihələr dayanıqlı turizm siyasətinin nümunəsidir.Dayanıqlı turizm yalnız ekoloji məsələ deyil, həm də sosial, mədəni və iqtisadi harmoniyanın təminatıdır. Bu modelin uğurlu həyata keçirilməsi üçün dövlət, özəl sektor, yerli icmalar və turistlər arasında qarşılıqlı əməkdaşlıq zəruridir. Gələcəyin turizmi ancaq dayanıqlı düşüncə tərzi ilə formalaşa bilər.Bu, həm planetin, həm də bəşəriyyətin gələcəyi üçün yeganə düzgün yoldur. Müasir dövrdə qloballaşma, texnoloji tərəqqi və ekoloji problemlərin artması turizm sahəsində yeni yanaşmaların tətbiqini zəruri etmişdir. Xüsusilə, ekoloji tarazlığı qorumaq, yerli icmaları inkişaf etdirmək və resurslardan səmərəli istifadə etmək məqsədilə dayanıqlı turizm anlayışı ön plana çıxmışdır. Bu istiqamətdə innovasiyalar əsas mühərrik rolunu oynayaraq həm turistlərin tələbatını ödəyir, həm də gələcək nəsillərə təmiz təbiət və mədəni irs buraxmağa xidmət edir. Dayanıqlı turizmin gələcəyi innovasiyaların effektiv tətbiqindən asılıdır. İnnovasiyalar vasitəsilə həm təbiətə vurulan zərər minimuma endirilir, həm də turizm sektoru rəqabətqabiliyyətli və uzunmüddətli inkişaf yoluna çıxır. Beləliklə, innovasiya dayanıqlı turizmin strateji dayaqlarından biri olmaqla, həm iqtisadi, həm də ekoloji balansı qoruyan əsas amildir.

Bu gün ölkədə dayanıqlılıq prinsiplərini tətbiq etdiyimiz layihələr və sahələrin sayı artmaqda davam edir. Dayanıqlı səyahət yanaşması nəinki təbiəti, xüsusilə endemik növləri mühafizə edir, həm də qlobal iqlim dəyişikliyi ilə mübarizə apararaq yerli icmalara dəstək verir, eləcə də turizm sənayesinin zərərli tullantılarını minimuma endirərək çirklənmənin azaldılmasında mühüm rol oynayır.Dayanıqlılıq yanaşması və düşüncə tərzi turistlər üçün qeyri-adi təcrübələr və yerli sakinlərə öz mədəniyyətlərini və rifahını qoruyub saxlamaq imkanı yaratmaqla yanaşı, hər kəsin gələcək nəsillər üçün planetimizi qorumağa istiqamətləndirir. Buna misal olaraq "Slou Səyahət" (Slow Travel) konsepsiyasını göstərmək olar ki, bu ideya adi səyahətdən daha çox turistlərin müəyyən bir ərazinin ənənələri və insanları ilə daha yaxından tanış olduqları dayanıqlı səyahət yanaşmasını özündə ehtiva edir.

Son illər Azərbaycanda turizmin inkişafı istiqamətində böyük işlər görülsə də, ölkəmizin bu sahədə böyük potensiala malik Qarabağ və ətraf rayonları işğal altında olduğuna görə proseslərdən kənarda qalmışdı. İlin dörd fəslində füsunkar təbiəti ilə qonaqları heyran edən, saf havası, müalicəvi suları, tarixi abidələri ilə məşhur olan bu diyar artıq düşmən tapdağından azad edilib. Hazırda gündəmdəki əsas mövzulardan biri də işğaldan azad olunmuş ərazilərimizdə turizmin inkişaf etdirilməsidir. Qarabağın işğaldan azad olunması Azərbaycanda turizmin inkişafına güclü təkan verəcək. Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizə səfərləri zamanı çıxışlarında dəfələrlə vurğulayıb ki, biz erməni vandallarının darmadağın etdiyi şəhər və kəndlərimizi əsl cənnətə çevirəcəyik. Əlbəttə ki, Azərbaycan xalqı buna inanır və dövlət başçımızın qurucu və yaradıcı lider olduğunu yaxşı bilir. Bütün bunlar göstərir ki, bu yerlərə yaxın gələcəkdə böyük turist axını olacaq. Hazırda Prezident İlham Əliyevin tapşırığı ilə Dövlət Turizm Agentliyi işğaldan azad edilmiş ərazilərdə turizmin inkişafı strategiyası və siyasətini hazırlayır. Əlbəttə ki, turistlərin təhlükəsizliyinin təmin olunması başlıca vəzifədir. Əhalinin geri qayıdışı, yaşayışın və infrastrukturun bərpası ilə paralel olaraq orada turizm məhsulları da yaradılacaq. Nəqliyyat,

mülki infrastrukturun yaradılması və investisiyalar üçün şəraitin qurulmasına artıq start verilib. Gələcəkdə Füzuli-Xocavənd-Şuşa-Laçın, Füzuli-Cəbrayıl-Zəngilan, Zəngilan-Qubadlı-Kəlbəcər-Laçın, Bərdə-Ağdam istiqamətlərində turizm marşrutlarının təşkili nəzərdə tutulur. Regionların turizm potensialında Şuşa şəhərinin imkanları yüksək qiymətləndirilir. Burada mədəni tədbirlərin təşkili, festivallar, turizm məhsullarının təqdim edilməsi planlaşdırılır. Qarabağ bölgəsinə Xudafərin körpüsü vasitəsilə İrandan, Naxçıvan üzərindən isə Türkiyədən turistlərin gəlməsi mümkün olacaq. İşğaldan azad edilmiş ərazilərə bu iki istiqamətdən daha çox turist axını gözlənilir. Məlumdur ki, hələ Sovet dövründə də Ümumittifaq əhəmiyyətli marşrutlar içərisində Qarabağ marşrutu çox populyar idi. Bu bölgədə dini, ekoloji, aqroturizm, eləcə də turizmin digər növləri üçün əlverişli imkanlar var. Xüsusilə Şuşada turizmin güclü inkişafı üçün böyük potensial mövcuddur. Bu şəhərdə Pənahəli xanın sarayı, Yuxarı Gövhər ağa məscidi, Aşağı Gövhər ağa məscidi, Xurşidbanu Natəvanın evi, Molla Pənah Vaqifin məqbərəsi, Şuşa mağara düşərgəsi, Şuşa qalası kimi tarixi abidələr və muzeylər böyük ziyan görsə də, bərpa işləri sürətlə aparılır. Şuşa, həmçinin tarixi, sağlamlıq və mədəni turizm üçün böyük imkanlara malikdir. Turşsu yaylaqları, Səkili bulağı, İsa bulağı, Şəmilin bulağı, Cıdır düzü və s. turizm üçün geniş perspektivlər vəd edir. Turşsu şəfalı və müalicəvi suyu isə sağlamlıq turizminin inkişafına səbəb olacaq. Şuşa həm də Qarabağ xalçaçılıq sənətinin mərkəzlərindən biri kimi böyük imkanlara malikdir.Aydındır ki, işğaldan azad edilmiş ərazilərdə infrastruktur bərpa olunduqdan sonra, ilk növbədə, Azərbaycan vətəndaşlarının da həmin ərazilərə səfərləri gözlənilir. Çünki illərlə həsrətində qaldığımız yerləri gəzmək, görmək istəyənlər çoxdur. İkinci böyük auditoriya potensialı xaricdə yaşayan Azərbaycan diasporu nümayəndələridir. Milyonlarla azərbaycanlı, elə bizim hamımız üçün mədəni mərkəzə çevrilmiş Şuşanı görmək çox maraqlı olacaq. Təbiətinə, mədəniyyətinə, tarixinə görə bu yerləri gəzmək hər kəs üçün böyük maraq doğuracaq. Qarabağ bölgəsi Azərbaycanın ən zəngin təbii, mədəni və tarixi irsə malik ərazilərindən biridir. Uzun illər işğal altında qalmış bu diyar azad edildikdən sonra ölkənin sosial-iqtisadi inkişaf strategiyasında mühüm yer tutmağa başlamışdır. Regionun bərpası prosesində prioritet istiqamətlərdən biri kimi dayanıqlı turizmin inkişafı müəyyən edilmişdir. Bu, həm ətraf mühitin qorunmasına, həm də yerli icmaların iqtisadi rifahına töhfə verir. Qarabağda bu modelin tətbiqi regionun bərpasında uzunmüddətli inkişafı hədəfləyir.

Qarabağ bölgəsi zəngin turizm resurslarına malikdir. Buraya,təbii potensial:dağlıq landşaftlar, mineral bulaqlar, meşələr və ekoturizm üçün əlverişli şərait, həmçinin mədəni irs: Şuşa, Ağdam, Xudafərin kimi tarixi şəhərlər, Qarabağ xalçaçılıq məktəbi, musiqi ənənələri ,əlavə olaraq dini abidələr: məscidlər, kilsələr, türbələr və qədim ziyarətgahlar daxildir.

Bu resurslar həm daxili, həm də beynəlxalq turistlər üçün unikal cəlbedicilik yaradır.

Qarabağda dayanıqlı turizmin inkişafı aşağıdakı istiqamətlər üzrə həyata keçirilə bilər:

1. Ekoturizm: Şuşa, Laçın və Kəlbəcər bölgələrində dağ ekosistemlərinin qorunması ilə bağlı təbiət turları;
2. Kənd turizmi: yerli icmaların iştirak etdiyi kənd həyatına əsaslanan turizm modelləri;
3. Mədəni irs turizmi: abidələrin bərpası və tarix-mədəni marşrutların yaradılması;
4. Sağlamlıq turizmi: Kəlbəcər və İstisu kimi mineral sular əsasında kurort zonalarının inkişafı;
5. İctimai maarifləndirmə: yerli əhalinin ekoloji məsuliyyət və turizm mədəniyyəti barədə məlumatlandırılması.

Azərbaycan dövləti tərəfindən "Böyük Qayıdış" proqramı çərçivəsində yollar, hava limanları, hotellər, ekoloji təmiz enerji mənbələri və kommunikasiya xətləri sürətlə bərpa olunur. Bu, dayanıqlı turizmin inkişafı üçün mühüm baza yaradır. Xüsusilə Füzuli Beynəlxalq Hava Limanı regiona turist axınını asanlaşdırır.Eyni zamanda, "Ağıllı şəhər" və "Ağıllı kənd" layihələri çərçivəsində ekoloji təmiz enerji istifadəsi və tullantıların idarə olunması kimi tədbirlər həyata keçirilir ki, bu da turizmin ekoloji dayanıqlığını təmin edir.Dayanıqlı turizm Qarabağda yeni iş yerlərinin yaradılmasına, yerli icmaların iqtisadi fəallığının artmasına, mədəni dəyərlərin bərpasına və əhalinin həyat səviyyəsinin yüksəlməsinə şərait yaradır. Turizm gəlirlərinin bir hissəsinin yerli icmaların rifahına

yönəldilməsi regionun uzunmüddətli sosial sabitliyini gücləndirə bilər.

Bununla belə, dayanıqlı turizmin inkişafı qarşısında bəzi çətinliklər mövcuddur:

- minalanmış ərazilərin tam təmizlənməməsi;
- infrastrukturun bəzi hissələrində bərpa prosesinin ləngiməsi;
- ekoturizm və təbiət mühafizəsi sahəsində kadr çatışmazlığı;
- beynəlxalq tanıtım işlərinin kifayət qədər olmaması.

Bu problemlərin mərhələli şəkildə həlli Qarabağın turizm potensialının tam reallaşmasına imkan verəcəkdir. Qarabağda dayanıqlı turizmin inkişafı yalnız iqtisadi gəlir mənbəyi deyil, həm də regionun sosial-mədəni dirçəlişinin əsas təməli kimi qiymətləndirilə bilər. Ətraf mühitin qorunması, yerli icmaların iştirakının artırılması və mədəni irsin bərpası istiqamətində həyata keçirilən tədbirlər bu prosesi daha da gücləndirəcək. Qarabağ, yaxın illərdə, Cənubi Qafqazda dayanıqlı turizmin nümunəvi modeli kimi formalaşa bilər.

Qarabağda turizmin inkişafında innovasiyalar bir neçə sahədə önəmli rol oynayır:

1. Rəqəmsal texnologiyalar: Virtual turlar, interaktiv xəritələr və mobil tətbiqlər turistlərin bölgə ilə tanışlığını asanlaşdırır və beynəlxalq turist axınını artırır.
2. İnfrastruktur və logistika: "Smart roads", dron texnologiyaları ilə ərazinin xəritələşdirilməsi, ağıllı nəqliyyat və informasiya sistemləri turistlərin təhlükəsizliyini təmin edir.
3. Mədəni irsin qorunması: 3D modelləmə və virtual reallıq texnologiyaları abidələrin bərpasında və tanıdılmasında effektiv vasitədir.
4. Ekoloji innovasiyalar: Tullantıların idarə olunması, bərpa olunan enerji mənbələri, ekoturizm marşrutları ilə təbii mühitin qorunması təmin edilir.
5. İnnovativ turizm məhsulları: Yerli kənd təsərrüfatı məhsullarına, əl işlərinə və mədəni fəaliyyətlərə əsaslanan yeni turizm paketlərinin yaradılması.

İnnovasiyaların tətbiqi Qarabağda turizm sektorunun gəlirliliyini artırır, yeni iş yerləri yaradır və yerli icmaların iqtisadi fəallığını gücləndirir. Rəqəmsal marketinq və virtual təqdimatlar beynəlxalq turistləri regiona cəlb edir, həmçinin mədəni irsin qorunmasını təmin edir.

Buna baxmayaraq, innovativ turizmin inkişafı qarşısında bir sıra çağırışlar qalır:

- texnologiyaların tətbiqi üçün maliyyə və kadr resurslarının məhdudluğu;
- bəzi tarixi və təbii ərazilərin hələ də minalardan tam təmizlənməməsi;
- yerli icmaların yeni texnologiyalara uyğunlaşdırılması və təlim ehtiyacı;
- beynəlxalq bazarda Qarabağın tanıdılması üçün effektiv strategiyaların hazırlanması.

Beləliklə Qarabağın turizm potensialına innovasiyaların tətbiqi regionun bərpası və inkişafı üçün strateji əhəmiyyət daşıyır. Rəqəmsal texnologiyalar, ekoloji və infrastruktur yenilikləri turizmin davamlılığını təmin edir, həmçinin iqtisadi, sosial və mədəni faydaların artmasına səbəb olur. Qarabağ, innovativ turizm modelinin tətbiqi ilə yalnız ölkə daxilində deyil, beynəlxalq səviyyədə də nümunəvi turizm bölgəsi ola bilər.Dayanıqlı turizm ekoloji məsuliyyət, sosial ədalət, iqtisadi səmərəlilik və mədəni irsin qorunması prinsiplərinə əsaslanır. Regionda dağlıq landşaftlar, mineral sular, meşələr, tarixi şəhərlər, dini abidələr və xalçaçılıq ənənələri kimi müxtəlif turizm resursları mövcuddur.Rəqəmsal texnologiyalar, virtual turlar, smart infrastruktur, ekoloji innovasiyalar və yeni turizm məhsulları turizmin davamlılığını təmin edir, yerli icmalar üçün iş yerləri yaradır və iqtisadi gəlirlərin artırılmasına səbəb olur.Qarabağda dayanıqlı turizmin inkişafı yalnız iqtisadi deyil, həm də sosial-mədəni dirçəliş və regionun uzunmüddətli inkişafı üçün əsas amildir

ƏDƏBİYYAT SİYAHISI:

1. İsmayılova, E. (2017). Tarixi və mədəni turizm. Bakı.
2. Ağazadə, M. C. (2023). Azərbaycanın turizm potensialı: Yüksək turizm potensialı olan rayonlar. VIII Respublika elmi-praktik konfrans materialları. Bakı.
3. United Nations World Tourism Organization (UNWTO). (2018). Sustainable Tourism for Development Guidebook. Madrid: UNWTO.
4. Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi. (2022). Azərbaycan turizminin inkişaf strategiyası 2022–2030. Bakı.

5. Metbuat.az. (2023). Prezident İlham Əliyev: Mingəçevirin gözəl turizm potensialı. [Link](https://metbuat.az/news/524482/prezident-ilham-eliyev-mingecevirin-gozel-turizm-potensiali-.html)
6. Dünya Bankı. (2019). Tourism and Sustainable Development: Opportunities for Emerging Economies. Washington, D.C.
7. Göyüşova, N. (2020). Ekoturizm və dayanıqlı turizm prinsipləri Azərbaycanda. Bakı.
8. Ismayilov, R. (2018). Qarabağda turizmin inkişaf perspektivləri. Azərbaycan Turizm Jurnalı, 12(3), 45-59.
9. Hall, C. M., & Gössling, S. (2016). Sustainable Tourism and Innovation: Concepts and Cases. London: Routledge.
10. UNEP (United Nations Environment Programme). (2020). Tourism and Climate Change: Sustainability Challenges. Nairobi.
11. Əliyev, R. (2021). Azərbaycan turizmində "ağıllı turizm" və innovativ yanaşmalar. Beynəlxalq Turizm Araşdırmaları Jurnalı, 5(2), 23-34.
12. Farzaliyev, T. (2019). Qarabağ xalçaçılıq sənəti və mədəni turizm imkanları. Bakı.
13. Göyüşova, S. (2020). Dayanıqlı turizmin iqtisadi və sosial təsirləri. Bakı: Elm Nəşriyyatı.
14. UNWTO. (2021). Tourism Innovation and Digitalization: Global Perspectives. Madrid.
15. Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi. (2023). "Böyük Qayıdış" proqramı və turizmin inkişafı. Bakı.
16. Hacıyev, A. (2018). Mineral sular və sağlamlıq turizmi potensialı. Azərbaycan Turizm Araşdırmaları, 8(1), 12-26.
17. Sharpley, R., & Telfer, D. J. (2015). Tourism and Development: Concepts and Issues. London: Routledge.
18. Əliyeva, L. (2022). Qarabağın turizm marşrutları və sosial-mədəni inkişaf. Bakı: Turizm Nəşriyyatı.
19. World Economic Forum. (2020). The Travel & Tourism Competitiveness Report. Geneva.
20. Əliyev, İ. (2019). Dayanıqlı turizmin idarə olunmasında innovasiyaların rolu. Azərbaycan İqtisadi və Sosial Araşdırmalar Jurnalı, 6(4), 67-80.

DOİ: 10.32010/ASRG4440

MİKROSERVİS ARXİTEKTURASININ FƏRQLI TƏRƏFLƏRİ

Nazilə Əli RƏHIMOVA
Uqur Bəxtiyar KƏRIMOV
ADNSU, "Kompüter mühəndisliyi" kafedrası
E-mail: nazila.rahimova@asoiu.edu.az
E-mail: 2024@asoiu.edu.az

Xülasə: Son illərdə proqram təminatının inkişafında mikroservis arxitekturası ənənəvi monolit sistemlərə çevik və miqyaslana bilən alternativ kimi geniş tətbiq olunmağa başlamışdır. Telekommunikasiya və maliyyə kimi böyük miqyaslı və kompleks sistemlərdə bu yanaşma xidmətlərin funksional olaraq ayrılmasını, müstəqil şəkildə inkişaf etdirilib yerləşdirilməsini və əməliyyat dayanıqlığının artırılmasını təmin edir. Mikroservis arxitekturası komandalara müxtəlif texnologiyalardan paralel şəkildə istifadə etməyə, sistemin məhsuldarlığını yüksəltməyə və dəyişən biznes tələblərinə daha sürətli reaksiya verməyə imkan yaradır. Məqalədə mikroservis arxitekturasının əsas prinsipləri, üstünlükləri və praktiki tətbiqdə üzə çıxan çətinliklər təcrübəyə əsaslanaraq təhlil olunur. Həmçinin monolit arxitektura ilə müqayisədə mikroservislərin müasir proqram təminatı mühəndisliyindəki rolu və gələcək inkişaf perspektivləri qiymətləndirilir.
Açar sözlər: mikroservis arxitekturası, monolit arxitektura, distributed sistemlər, DevOps, containerization, scalability

---

DIFFERENT SIDES OF MICROSERVICE ARCHITECTURE

Nazila Ali RAHIMOVA
Ugur Bakhtiyar KARIMOV
ASOIU, Department of "Computer Engineering"
E-mail: nazila.rahimova@asoiu.edu.az
E-mail: 2024@asoiu.edu.az

Abstract: In recent years, microservice architecture has begun to be widely used in software development as a flexible and scalable alternative to traditional monolithic systems. In large-scale and complex systems such as telecommunications and finance, this approach ensures functional separation of services, independent development and deployment, and increased operational stability. Microservice architecture allows teams to use different technologies in parallel, increase system productivity, and respond faster to changing business requirements. The article analyzes the main principles, advantages, and challenges of microservice architecture in practical application based on experience. Also, the role of microservices in modern software engineering and future development prospects compared to monolithic architecture are evaluated.
Keywords: microservice architecture, monolithic architecture, distributed systems, DevOps, containerization, scalability.

РАЗНЫЕ СТОРОНЫ МИКРОСЕРВИСНОЙ АРХИТЕКТУРЫ

Назиля Али РАГИМОВА
Угур Бахтияр КАРИМОВ
АГУНП, кафедра «Компьютерная инженерия»
Электронная почта: nazila.rahimova@asoiu.edu.az
Электронная почта: 2024@asoiu.edu.az

Резюме: В последние годы микросервисная архитектура начала широко использоваться в разработке программного обеспечения как гибкая и масштабируемая альтернатива традиционным монолитным системам. В крупномасштабных и сложных системах, таких как телекоммуникации и финансы, этот подход обеспечивает функциональное разделение сервисов, независимую разработку и развертывание, а также повышенную операционную стабильность. Микросервисная архитектура позволяет командам использовать различные технологии параллельно, повышать производительность системы и быстрее реагировать на меняющиеся бизнес-требования. В статье на основе опыта анализируются основные принципы, преимущества и проблемы микросервисной архитектуры в практическом применении. Также оценивается роль микросервисов в современной разработке программного обеспечения и перспективы их дальнейшего развития по сравнению с монолитной архитектурой.

Ключевые слова: микросервисная архитектура, монолитная архитектура, распределенные системы, DevOps, контейнеризация, масштабируемость

Giriş

Müasir biznes mühitində proqram təminatlarının çevik şəkildə dəyişən tələblərə uyğunlaşdırılması artıq zərurətə çevrilmişdir. Xüsusilə telekommunikasiya və maliyyə kimi dinamik sektorlar üçün bu çeviklik sistem arxitekturasının düzgün seçilməsindən asılıdır. Ənənəvi monolit yanaşmada sadə bir dəyişiklik belə bütün tətbiqin yenidən deployment edilməsini tələb edir ki, bu da həm vaxt itkisinə, həm də əməliyyat risklərinin artmasına səbəb olur [1].

Mikroservis arxitekturası bu məhdudiyyətləri aradan qaldırmaq üçün proqram təminatını funksional olaraq bölünmüş, müstəqil servis toplusu şəklində dizayn etməyə imkan verir. Hər bir mikroservis konkret biznes funksiyasına cavabdeh olur və digər servislərdən asılı olmadan inkişaf etdirilə, test edilə və yerləşdirilə bilər. Bu yanaşma komandalara paralel işləməyə, dəyişiklikləri daha sürətli tətbiq etməyə və sistemin dayanıqlığını qorumağa şərait yaradır [3].

Son illərdə Netflix, Amazon, Uber kimi nəhəng şirkətlərin bu arxitekturaya keçidi onun real biznes dəyərlərini və effektivliyini açıq şəkildə nümayiş etdirmişdir. Məqalədə mikroservis arxitekturasının texniki və biznes tərəfləri, tətbiqdə rast gəlinən problemlər və onların optimal həll yolları peşəkar təcrübə prizmasından araşdırılır [2, 7].

Nəzəriyyə

Uzun müddət ərzində proqram təminatının inkişafında monolit arxitektura dominant yanaşma hesab olunurdu. Lakin telekommunikasiya və maliyyə kimi dinamik sahələrdə artan biznes tələbləri və texnoloji yeniliklər bu modelin bir sıra məhdudiyyətlərini aydın şəkildə üzə çıxarmışdır. Monolit sistemlərdə bütün funksionallıqlar vahid kod bazasında cəmləndiyindən, bu yanaşma həm texniki, həm də əməliyyat səviyyəsində ciddi problemlərə səbəb olur [1, 6].

Əvvəla, monolit sistemlərdə miqyaslama prosesi qeyri-səmərəlidir — sistemin yalnız müəyyən bir moduluna yüksək yük düşdükdə belə, bütün tətbiqin miqyaslanması tələb olunur ki, bu da resursların səmərəsiz istifadəsinə gətirib çıxarır. Digər mühüm çatışmazlıq texnoloji çevikliyin məhdud olmasıdır: tətbiqin bütün hissələri eyni texnoloji stack üzərində qurulduğundan, yeni texnologiyaların və ya framework-lərin tətbiqi çətinləşir və riskli olur. Bundan əlavə, deployment prosesi kompleks xarakter daşıyır — kiçik bir dəyişiklik belə bütün sistemin yenidən yerləşdirilməsini tələb edir [1, 2, 3].

Böyük komandalarda bu cür sistemlər üzərində paralel işləmək çətinləşir; kod bazası böyüdükcə həm onun saxlanılması, həm də test prosesi daha çox vaxt və resurs tələb edir. Kiçik bir dəyişiklik belə digər modullara təsir göstərə bilər, bu da riskləri artırır və sabitliyi azaldır [3].

Mikroservis arxitekturası bu problemlərin aradan qaldırılması üçün daha çevik və miqyaslana bilən alternativ kimi formalaşmışdır. Bununla belə, bu yanaşma da öz çağırışlarını yaradır — paylanmış sistemlərin idarə edilməsi, servislər arası kommunikasiya, məlumatın konsistentliyinin qorunması və effektiv monitorinq kimi məsələlər əlavə mürəkkəblik gətirir. Bu məqalənin məqsədi mikroservis arxitekturasının üstünlüklərini və zəif tərəflərini real tətbiq təcrübəsinə əsaslanaraq təhlil etmək, həmçinin onun praktiki tətbiqi zamanı qarşıya çıxan problemlər üçün optimal yanaşmalar təklif etməkdir [1, 2, 6].

Metod

Müasir proqram təminatının inkişafında üzə çıxan miqyaslama, çeviklik və texnoloji məhdudiyyətlər kimi problemlərin aradan qaldırılması istiqamətində mikroservis arxitekturasının tətbiqi mühüm rol oynayır. Bu yanaşma sistemləri daha idarəolunan, dayanıqlı və inkişaf etdirilməsi asan hala gətirir. Mikroservis arxitekturası tətbiqin biznes funksiyalarını müstəqil servislər şəklində bölməklə, həm texniki, həm də təşkilati səviyyədə çeviklik təmin edir [1, 6].

Telekommunikasiya və maliyyə kimi sahələrdə bu model yüksək yüklü sistemlərin etibarlı şəkildə işləməsinə, xidmətlərin ayrı-ayrılıqda inkişaf etdirilib deployment edilməsinə və istismar xərclərinin optimallaşdırılmasına şərait yaradır. Bu bölmədə mikroservis arxitekturasının əsas komponentləri, fəaliyyət prinsipləri və real mühitdə tətbiq mexanizmləri — yəni servis dizaynı, kommunikasiya üsulları, məlumat idarəetməsi və monitorinq yanaşmaları peşəkar baxış bucağından ətraflı şəkildə təhlil olunur [1, 7].

1. Mikroservis Arxitekturasının Əsas Prinsipləri və Strukturu

Mikroservis arxitekturası sistemlərin dayanıqlılığını, çevikliyni və miqyaslana bilmə qabiliyyətini artırmaq üçün müəyyən fundamental prinsiplərə əsaslanır. Bu prinsiplər real istehsal mühitlərində xüsusilə də telekommunikasiya və maliyyə kimi kompleks sistemlərin işlədiyi sahələrdə düzgün dizayn və səmərəli istismar üçün əsas rol oynayır [1, 2].

Single Responsibility Principle (Vahid Məsuliyyət Prinsipi): Hər bir mikroservis konkret bir biznes funksiyasını yerinə yetirməlidir. Bu prinsip sayəsində servis daha sadə, test edilə bilən və saxlanılması asan olur. Praktik nümunə kimi, bank sistemində "müştəri idarəetməsi", "hesab əməliyyatları", "ödəniş emalı" və "bildiriş göndərilməsi" modulları ayrı-ayrı mikroservislər şəklində dizayn edilə bilər. Bu yanaşma kod bazasının izolyasiyasını təmin edir və hər servisin müstəqil şəkildə yenilənməsinə şərait yaradır [2].

Decentralization (Mərkəzsizləşdirmə**):** Mikroservis arxitekturası mərkəzləşdirilmiş qərar qəbul etmə modelini aradan qaldırır. Hər bir komanda öz servisinə uyğun texnoloji yığın, məlumat bazası və deployment strategiyasını müstəqil seçə bilər. Bu, müxtəlif biznes tələblərinə daha çevik reaksiya verməyə və innovativ texnologiyaları tətbiq etməyə imkan yaradır. Telekom sektorunda bu yanaşma müxtəlif protokolların (məsələn, SMS, USSD, billing) fərqli servislərlə idarə edilməsinə şərait yaradır [2, 3].

Independent Deployment (Müstəqil Deployment): Mikroservislər bir-birindən asılı olmadan yerləşdirilə (deploy edilə) bilir. Bu, davamlı inteqrasiya və davamlı deployment (CI/CD) proseslərinin daha effektiv işləməsinə şərait yaradır. Beləliklə, bir servisdə edilən dəyişiklik və ya yeniləmə digər servislərin fəaliyyətinə təsir göstərmir. Bu prinsip xüsusilə maliyyə sektorunda sistemin fasiləsiz işləməsini təmin etmək üçün kritik əhəmiyyət daşıyır [1, 2].

Mikroservis əsaslı sistemlər bir neçə vacib komponentdən ibarətdir:

- **API Gateway:** Xarici sorğuları qəbul edərək onları uyğun mikroservisə yönləndirən mərkəzi giriş nöqtəsidir. Təhlükəsizlik, autentifikasiya və loglama kimi funksiyalar da burada həyata keçirilə bilər.
- **Service Registry:** Aktiv mikroservislərin qeydiyyatı və kəşfi üçün istifadə olunan repozitoriyadır. Servis instansiyalarının dinamik idarə edilməsini təmin edir.
- **Load Balancer:** Gələn sorğuları müxtəlif instansiyalar arasında balanslaşdıraraq sistemin performansını və dayanıqlığını artırır.
- **Circuit Breaker:** Servislərdən biri uğursuz olduqda sorğuların qarşısını alır və sistemin digər hissələrinin sabit işləməsini təmin edir. Bu pattern real vaxtda xidmətlərin fasiləsizliyini qorumaq üçün kritik əhəmiyyət kəsb edir.

2. Mikroservis və Monolit Arxitekturanın Müqayisəli Təhlili

Mikroservis və monolit arxitekturalar proqram təminatının dizaynında iki əsas yanaşmanı təmsil edir və hər biri özünəməxsus üstünlüklərə və məhdudiyyətlərə malikdir. Telekommunikasiya və maliyyə kimi yüksək yüklü və davamlılıq tələb edən sistemlərdə düzgün arxitektura seçimi biznesin dayanıqlığı və texniki çevikliyi baxımından həlledici rol oynayır [2].

Cədvəl 1. Mikroservis və Monolit Arxitekturanın Müqayisəsi [1, 2, 7]

Xüsusiyyət	**Monolit Arxitektura**	**Mikroservis Arxitekturası**
Deployment	Bütün sistem birlikdə	Hər servis müstəqil
Miqyaslama	Vertikal miqyaslama	Horizontal miqyaslama
Texnologiya Stack	Vahid texnologiya	Müxtəlif texnologiyalar
Inkişaf sürəti	Yavaş (böyük kod bazası)	Sürətli (kiçik servislər)
Test prosesi	Mürəkkəb və uzun	Sadə və sürətli
Fault Isolation	Zəif	Güclü

Monolit arxitektura layihənin ilkin mərhələlərində sadəliyi və mərkəzləşdirilmiş idarəetməsi ilə cəlbedici görünə bilər. Kiçik komandalar və nisbətən sabit funksionallıq üçün bu yanaşma yetərli olsa da, sistemin miqyası artdıqca onun üzərində işləmək, yeni funksionallıqlar əlavə etmək və texniki borcu idarə etmək ciddi çətinliklər yaradır [1, 3].

Xüsusilə telekommunikasiya və maliyyə kimi kompleks və daim dəyişən tələblərin olduğu sahələrdə monolit arxitektura çevikliyi əngəlləyir və operativ dəyişikliklərin tətbiqini ləngidir. Bu nöqtədə mikroservis arxitekturası daha optimal seçimə

çevrilir. Mikroservislər vasitəsilə sistemi daha kiçik, müstəqil və ixtisaslaşmış servislərə bölmək mümkün olur ki, bu da həm inkişaf prosesini sürətləndirir, həm də sistemin miqyaslanmasını və davamlı texniki dəstəyini asanlaşdırır. Nəticədə daha çevik, etibarlı və uzunmüddətli dayanıqlığa sahib həllər əldə edilir [1, 2, 6].

Miqyaslanma Effektivliyinin Qiymətləndirilməsi**:** Mikroservis arxitekturasında resurs istifadəsini optimallaşdırmaq və sistemin performansını ölçmək üçün miqyaslanma effektivliyi aşağıdakı düsturla qiymətləndirilə bilər:

$$E = \frac{N \times U}{C}$$

Burada:

- E - miqyaslanma effektivliyi
- N - aktiv mikroservis instansiyalarının sayı
- U - orta istifadə əmsalı (utilization)
- C - ümumi hesablama resursları

Bu düstur göstərir ki, mikroservis arxitekturasında resurslar daha effektiv bölüşdürülür və yalnız lazım olan servislər miqyaslanır [2].

3. Servislər Arası Kommunikasiya və Məlumat İdarəetməsi

Mikroservis arxitekturasında müxtəlif servislər arasında məlumat mübadiləsi və qarşılıqlı əlaqə təmin etmək üçün iki əsas kommunikasiya metodu istifadə olunur [1, 2]:

Sinxron Kommunikasiya (REST API):

Bu metodda, HTTP/HTTPS protokolları üzərindən REST API-lər vasitəsilə servislər arasında əlaqə qurulur. REST API, təbii olaraq sadə və geniş şəkildə qəbul edilmiş bir yanaşmadır və xidmətlər arasında məlumat mübadiləsi üçün daha çox istifadə edilir. Lakin, mikroservislərin sıx əlaqədə (tight coupling) olması riski mövcuddur. Bu, xidmətlər arasında qarşılıqlı asılılıqları artırır və hər hansı bir servisin dağılması digər servisləri də təsir edə bilər, bu da xüsusilə yüksək miqyaslı sistemlərdə daha böyük problemlərə yol açа bilər [1, 2].

Asinxron Kommunikasiya (Message Queue**):**

Burada, xidmətlər arasında əlaqə, RabbitMQ və ya Apache Kafka kimi "message broker" sistemləri vasitəsilə təmin edilir. Asinxron yanaşma, servislər arasında sərbəst əlaqə (loose coupling) prinsipini qoruyur, yəni hər bir xidmət öz müstəqil şəkildə işləyir və digər servislərin fəaliyyətindən asılı olmadan mesajlar göndərə və qəbul edə bilər. Bu, sistemin etibarlılığını artırır və genişlənə bilərliyin təmin edilməsi üçün daha əlverişlidir [1, 2].

Məlumat Konsistentliyinin Təmin Edilməsi**:** Distributed sistemlərdə, yəni bir neçə müstəqil xidmətin birgə işlədiyi sistemlərdə, məlumatın konsistentliyi (ardıcıl və doğru olma vəziyyəti) ən çətin problemlərdən biridir. Mikroservis arxitekturasında məlumatın konsistentliyini təmin etmək üçün iki əsas yanaşma mövcuddur [2, 7]:

- Eventual Consistency**:**

Sistemdə dəyişikliklər tədricən yayılır və müəyyən müddətdən sonra bütün servislər eyni məlumata malik olur. Bu yanaşmanın konsistentlik dərəcəsini aşağıdakı kimi ifadə etmək olar [2]:

$C(t) = 1 - e^{(-\lambda t)}$

Burada:

- $C(t)$ - t vaxtında konsistentlik dərəcəsi
- λ - məlumat sinxronizasiya sürəti
- t - keçən vaxt

Bu formul, məlumatın sinxronizasiya sürətinə əsaslanaraq sistemdəki konsistentlik səviyyəsini ölçür.

- Saga Pattern:

Bu yanaşma, uzun müddətli əməliyyatları bir neçə yerli tranzaksiyaya bölür. Hər bir tranzaksiya öz kompensasiya mexanizminə sahibdir. Bu deməkdir ki, hər bir xidmət öz müstəqil tranzaksiyasını həyata keçirərkən, qarşısıalınmaz bir uğursuzluq halında əvvəlki tranzaksiyalar geri alına və ya dəyişdirilə bilər. Saga, hər bir xidmətin müstəqil şəkildə işləməsini təmin edir və bununla da, bir əməliyyatın tamamlanmasında uğursuzluq baş versə belə, ümumi sistemin bütövlüyünü qorumağa imkan yaradır [2].

4. Containerization və Orkestrasiya

Mikroservislərin yerləşdirilməsi (deployment) üçün ən çox istifadə edilən yanaşma konteynerləşdirmə texnologiyasıdır, xüsusilə Docker platforması ilə. Konteynerləşdirmənin bir neçə mühüm üstünlüyü vardır [4]:

- İzolyasiya və Təhlükəsizlik**:** Konteynerlər hər bir servisi öz mühitində işlədərək, digər komponentlərdən ayrılmasını təmin edir, bu da sistemin təhlükəsizliyini artırır və müxtəlif xidmətlər arasında ziddiyyətli mühit problemlərini aradan qaldırır.
- Portability və Təkrar İstifadə**:** Konteynerlər hər yerdə və hər hansı bir mühitdə (lokal, bulud və ya başqa serverlər) eyni şəkildə işləyir, bu da sistemin daşıma (portability) və təkrar istifadə imkanlarını artırır.
- Resurs Effektivliyi**:** Konteynerlər, virtual maşınlardan daha yüngül və resurs yönümlüdür, bu da sistemin daha sürətli işləməsini və daha az resurs sərf etməsini təmin edir.
- Sürətli Başlanğıc **Vaxtı:** Konteynerlər çox sürətli bir şəkildə başlatıla bilir, bu da tətbiqetmənin və xidmətlərin daha tez işə salınmasını və yenilənməsini təmin edir.

Kubernetes Orkestrasiyası**:** Bir çox konteynerin idarə edilməsi üçün Kubernetes kimi orkestrasiya

alətləri istifadə olunur. Kubernetes aşağıdakı əsas funksiyaları təklif edir [4]:

- Avtomatik Miqyaslama (Auto-scaling)**:** Sistemin yüklənməsi ilə mütənasib olaraq avtomatik olaraq daha çox konteyner əlavə edilə və ya artıq konteynerlər çıxarıla bilər, beləliklə performansın davamlılığı təmin edilir.
- Self-healing Mexanizmləri**:** Əgər bir konteyner və ya xidmət uğursuz olarsa, Kubernetes avtomatik olaraq həmin konteyneri bərpa edir və ya yeni instansiya işə salır, sistemin davamlı işləməsini təmin edir.
- Load Balancing (Yük Paylanması)**:** Kubernetes, müvafiq trafiki müxtəlif konteynerlərə balanslaşdırmaq üçün avtomatik olaraq yük paylamasını həyata keçirir, beləliklə tələbatın yüksək olduğu zamanlarda sistemin optimallaşdırılmasını təmin edir.
- Rolling Updates və Rollbacks**:** Yeniliklər tətbiq olunduqda, Kubernetes əvvəlki versiyaları qoruyaraq mərhələli olaraq (rolling) yeniləmələri tətbiq edir və hər hansı bir uğursuzluq halında əvvəlki versiyaya geri qayıdır (rollback).
- Resource Scheduling (Resurs Cədvəli): Kubernetes, hər bir konteynerin ehtiyacı olan resursları (CPU, yaddaş) optimallaşdırır və bu resursları düzgün şəkildə təyin edir.

Resurs Bölgüsünün Optimallaşdırılması: Kubernetes-də hər bir pod (konteyner qrupu) üçün resursların optimallaşdırılması vacibdir. Pod-ların CPU və yaddaş (memory) resurslarının effektiv şəkildə bölgüsü aşağıdakı düsturla müəyyən edilir [4]:

$$R_optimal = (R_request + R_limit) / 2$$

Burada:

- *R_optimal* - Pod üçün optimal resurs bölgüsü
- *R_request* - Pod-un minimal tələb olunan resurs miqdarı
- *R_limit* - Pod üçün icazə verilən maksimum resurs miqdarı

Bu düstur, resursların həm təyin olunan minimum, həm də maksimum limitləri nəzərə alınaraq ən yaxşı bölgünü təmin etməyə kömək edir, beləliklə pod-lar daha səmərəli və balanslı şəkildə işləyir.

5. Monitoring, Logging və Observability (İzləmə, Giriş Qeydləri və Gözdən Keçirilmə)

Mikroservis arxitekturasında sistemin sağlamlığını və işləmə vəziyyətini izləmək mürəkkəb bir tapşırıqdır. Xüsusilə paylanmış (distributed) sistemlərdə, sistemin vəziyyətini izləmək və təhlil etmək üçün "Observability" (görünürlük) anlayışı istifadə olunur. Bu anlayış, "Three Pillars of Observability" adlı üç əsas komponentə əsaslanır [7]:

- Metrics (Metrikalar): Metrikalar, sistemin performansını və vəziyyətini ölçmək üçün əsas göstəricilərdir. Prometheus kimi alətlər, CPU istifadəsi, yaddaş istifadəsi, sorğu sayı, cavab vaxtı və digər kritik göstəriciləri toplayır. Bu məlumatlar daha sonra Grafana kimi vizuallaşdırma platformalarında təqdim edilir, beləliklə sistemin real vaxt rejimində izlənməsi təmin edilir. Metrikalar, həmçinin potensial problemlərin və darboğazların öncədən aşkar edilməsinə kömək edir.
- Logs (Giriş Qeydləri): Loglar, sistemin müxtəlif hissələrində baş verən hadisələri qeydə alır. Mikroservislərdə mərkəzləşdirilmiş log idarəetməsi olduqca vacibdir. ELK Stack (Elasticsearch, Logstash, Kibana) və ya EFK Stack (Elasticsearch, Fluentd, Kibana) kimi alətlər bu məqsədlə geniş istifadə olunur. Bu vasitələr logları toplayır, emal edir və təhlil edərək, xidmətlərdəki hər hansı bir problemi sürətlə aşkar etməyə imkan verir.
- Traces (İzlər): Distributed tracing, bir sorğunun mikroservislər arasında necə hərəkət etdiyini izləməyə imkan verir. Jaeger və ya Zipkin kimi alətlər vasitəsilə sorğuların hər bir mikroservisdə keçdiyi yollar izlənilir və analiz edilir. Bu, xüsusilə performans məsələlərinin və xidmətlər arası asılılıqların müəyyənləşdirilməsi üçün çox faydalıdır.

System Health Metriki (Sistem Sağlamlığına Dair Göstəricilər):

Mikroservis ekosisteminin ümumi sağlamlığını qiymətləndirmək üçün istifadə olunan bir neçə parametr mövcuddur. Sistem sağlamlığını ölçmək üçün aşağıdakı düsturdan istifadə edilir:

$$H = (S_active / S_total) \times (1 - E_rate) \times P_avg$$

Burada:

- *H* - Sistem sağlamlıq göstəricisi (0 ilə 1 arasında bir dəyər)
- *S_active* - Hal-hazırda işləyən (aktiv) servislərin sayı
- *S_total* - Ümumi xidmət sayı
- *E_rate* - Xəta nisbəti (ümumi səhvlərin nisbəti)
- *P_avg* - Orta performans göstəricisi (sistem performansının ortalaması)

Bu düstur, sistemin ümumi sağlamlığını hesablamaq üçün müxtəlif göstəriciləri birləşdirir. Aktiv xidmətlərin sayı, səhv nisbəti və performans göstəriciləri nəzərə alınaraq, ümumi sağlamlıq vəziyyəti müəyyən edilir. Beləliklə, bu göstəricilər əsasında hər hansı bir xidmətin və ya resursun vəziyyəti analiz edilərək, sistemdəki potensial problemlərin vaxtında aşkarlanmasına və optimallaşdırılmasına imkan verilir.

6. Təhlükəsizlik və Authentication

Mikroservis arxitekturasında təhlükəsizlik əsas prioritetlərdən biridir. Hər bir xidmət, potensial

hücum nöqtəsi olduğu üçün çoxsəviyyəli təhlükəsizlik yanaşması tətbiq edilməlidir. Bu yanaşmalar aşağıdakı əsas komponentləri əhatə edir [5]:

- OAuth 2.0 və JWT Token**:** İstifadəçi autentifikasiyası və avtorizasiyası üçün geniş istifadə olunan OAuth 2.0 protokolu və JSON Web Token (JWT) standartları istifadə olunur. Bu metodlarla istifadəçi məlumatları təhlükəsiz şəkildə doğrulanır və servislər arası əlaqələrdə kimlik doğrulama və yetkiləndirmə təmin edilir. API Gateway səviyyəsində token-lərin doğruluğu yoxlanır [5].
- Service Mesh (Istio**):** Mikroservislər arasında təhlükəsiz kommunikasiya təmin etmək üçün service mesh texnologiyaları, xüsusilə Istio və Linkerd kimi alətlər tətbiq edilir. Bu texnologiyalar mTLS (mutual TLS) ilə şifrələnmiş əlaqə quraraq, hər bir mikroservisin qarşılıqlı etibarlı və təhlükəsiz şəkildə ünsiyyət qurmasını təmin edir [5].
- API Rate Limiting**:** Servislərə qarşı DDoS (Distributed Denial of Service) hücumlarının qarşısını almaq üçün hər bir mikroservisdə "rate limiting" tətbiq edilir. Bu yanaşma, hər bir API çağırışı üçün müəyyən limitlər qoyur və serverin artıq yükə məruz qalmasının qarşısını alır [5].

Mikroservis arxitekturasının müxtəlif aspektlərini və tətbiq sahələrini təhlil etdikdən sonra aşağıdakı əsas nəticələrə gəlinmişdir:

Çeviklik və Sürət: Mikroservis arxitekturası proqram təminatının inkişafını sürətləndirir və komandaların müstəqil şəkildə fəaliyyət göstərməsinə imkan verir. Hər bir komanda öz mikroservisini idarə edərək dəyişiklikləri tez və effektiv şəkildə tətbiq edə bilər. Bu yanaşma, Time-to-Market göstəricisini əhəmiyyətli dərəcədə azaldır və ortalama olaraq 40-60% daha sürətli inkişaf tempi təmin edir. Komandalar daha az asılılıqla işlədikləri üçün yeni xüsusiyyətləri daha tez bazara çıxarmaq mümkündür [3].

Miqyaslanma və Performans**:** Mikroservis arxitekturasının ən böyük üstünlüklərindən biri də onun horizontal miqyaslanma imkanıdır. Sistemdə yalnız yüksək yüklü və ya tələb olunan servislər miqyaslanır, bu da resursların daha səmərəli istifadə olunmasını təmin edir. Tədqiqatlar göstərir ki, mikroservis arxitekturası monolit sistemlərə nisbətən 3-5 dəfə daha effektiv resurs istifadəsi təmin edir. Bu, həm də yüksək trafik və istifadəçi yükləri zamanı sistemin performansının dayanıqlı qalmasını təmin edir [2].

Texnoloji Müxtəliflik**:** Mikroservis yanaşması hər bir servisin özündə istifadə edəcəyi ən uyğun texnologiya stack-inin seçilməsinə imkan verir. Hər bir mikroservisin öz məqsədinə uyğun texnologiya ilə hazırlanması innovativ yanaşmaların tətbiqini sürətləndirir. Bu xüsusiyyət həmçinin komandaların müxtəlif texnoloji sahələrdəki ekspertizasından maksimum istifadə etməyə şərait yaradır. Nəticədə, daha geniş və rəqabət qabiliyyətli texnoloji ekosistem formalaşır [3].

Dayanıqlılıq və Fault Isolation (Xəta İzləmə): Mikroservis arxitekturası, bir servisin uğursuzluğunun digər servisləri təsir etməməsini təmin edir. Bu, sistemin ümumi dayanıqlığını artırır, çünki hər bir servis öz müstəqil şəkildə işləyir və uğursuz olduqda digər servislərdən ayrılır. Circuit breaker və retry mexanizmləri kimi alətlər, sistemin dayanıqlığını təmin edərək, xətaların təsirini minimuma endirir. Mikroservis arxitekturası, 99.9% və daha yüksək availability (mövcudluq) göstəriciləri ilə yüksək səviyyəli etibarlılığı təmin edir [2].

Çətinliklər və Həll Yolları: Mikroservis arxitekturası, distributed (paylanmış) sistemlərə əsaslandığı üçün əlavə mürəkkəbliklər yaradır. Servislər arası kommunikasiya, məlumat konsistentliyinin təmin edilməsi, effektiv monitoring və debugging kimi məsələlər ortaya çıxır. Lakin, bu problemlərin həlli üçün müasir alətlər mövcuddur. Service mesh, distributed tracing, və mərkəzləşdirilmiş logging kimi vasitələr, bu çətinlikləri daha rahat idarə etməyə imkan verir və sistemin performansını optimallaşdırır. Bu alətlər, servis əlaqələrini izləmək və sistemin ümumi vəziyyətini analiz etmək üçün kritik əhəmiyyət kəsb edir [4, 5].

Təşkilati Dəyişikliklər: Mikroservis arxitekturasının uğurlu tətbiqi, DevOps mədəniyyətinin inkişafını və komanda strukturlarında dəyişiklikləri tələb edir. "You build it, you run it" prinsipi komandaların məsuliyyətini artırır və onların daha keyfiyyətli iş çıxarmasını təmin edir. Bu yanaşma həmçinin inkişaf və əməliyyat arasında daha yaxın əməkdaşlıq yaradır, bu da komanda üzvlərinin daha yaxşı qərarlar verməsinə və sistemin yüksək keyfiyyətli olmasına kömək edir [3].

Nəticə

Bu nəticələr mikroservis arxitekturasının müasir, mürəkkəb və dinamik proqram sistemlərinin qurulmasında güclü bir yanaşma olduğunu göstərir. Bu arxitektura, biznes çevikliyini artırır, texniki performansı yaxşılaşdırır və sistemin dayanıqlılığını və keyfiyyətini yüksək səviyyədə saxlayır. Lakin, mikroservislərin tətbiqi ciddi planlaşdırma, düzgün alətlərin seçilməsi və komandaların hazırlığı tələb edir. Mikroservis arxitekturasının düzgün tətbiqi, həmçinin mühəndislik komandalarına yüksək miqyasda inkişaf, optimal resurs istifadəsi və daha sürətli bazara çıxış imkanları təqdim edir. Nəticə etibarilə, düzgün yanaşma ilə mikroservis arxitekturası biznesin rəqabət qabiliyyətini

gücləndirir və uzunmüddətli dayanıqlı həllər təklif edir [1, 3, 6].

ƏDƏBİYYAT SIYAHISI:

1. Newman, S. Building Microservices: Designing Fine-Grained Systems, O'Reilly Media, 2021.
2. Richardson, C. Microservices Patterns: With Examples in Java, Manning Publications, 2018.
3. Nadareishvili, I., Mitra, R., McLarty, M., & Amundsen, M. Microservice Architecture: Aligning Principles, Practices, and Culture, O'Reilly Media, 2016.
4. Burns, B., Beda, J., & Hightower, K. Kubernetes: Up and Running, O'Reilly Media, 2022.
5. Indrasiri, K., & Siriwardena, P. Microservices Security in Action, Manning Publications, 2020.
6. Fowler, M. Microservices: A Definition of This New Architectural Term, martinfowler.com, 2014.
7. Taibi, D., Lenarduzzi, V., & Pahl, C. Architectural Patterns for Microservices: A Systematic Mapping Study, Journal of Systems and Software, 2020.

DOİ: 10.32010/ELOD9325

DƏNİZ SUYUNUN ŞİRİNLƏŞDİRİLMƏSİ NƏTİCƏSİNDƏ YARANAN DUZLU KONSENTRATLARIN UTİLİZASİYASI: EKOLOJİ PROBLEMLƏR VƏ ALTERNATİV HƏLL YOLLARI

Pərvanə Siyahpər SƏFƏROVA[1]
Mingəçevir Dövlət Universiteti
Orcid:b 0009-0000-1478-7703
E-mail: safarova_pervana@mail.ru

Ruqiyyə Vəli HÜSEYNZADƏ[2]
Mingəçevir Dövlət Universiteti
E-mail: huseynzader1999@gmail.com

Xülasə: Dünya üzrə əhali artımı, iqlim dəyişmələri və təbii su ehtiyatlarının azalması içməli su qıtlığını daha da kəskinləşdirir. Bu şəraitdə dəniz suyunun şirinləşdirilməsi bir çox ölkələr üçün strateji əhəmiyyət kəsb edir. Bu problemi həll etmək üçün 177 ölkədə okean suyundan duzu çıxarmaq və onu şirin suya çevirmək üçün 16 minə yaxın zavod istismara verilib və gün ərzində 95 milyon kubmetr şirin su istehsal edirlər. Hazırda Orta Şərq, Şimali Afrika, İspaniya, ABŞ-ın Kaliforniya ştatı və Avstraliya kimi regionlarda dəniz suyundan içməli su əldə olunması geniş tətbiq olunur.
Dəniz suyunun şirinləşdirilməsi su qıtlığının aradan qaldırılması və dayanıqlı su təminatının yaradılması baxımından mühüm texnoloji istiqamətlərdən biridir. Bununla belə, hər 1 m³ təmiz sudan əlavə olaraq təxminən 0.4-0.6 m³ həcmində yüksək duzluluğa malik qalıq məhlul əmələ gəlir. Bu konsentrat okean suyundan iki dəfə duzludur və onun düzgün idarə olunmaması ciddi ekoloji problemlər yarada bilər. Bu baxımdan prosesin əsas ekoloji problemi kimi ortaya çıxan duzlu konsentratların idarə olunması və utilizasiyası məsələsi getdikcə daha çox diqqət tələb edir. Xüsusilə qapalı hövzələrdə, o cümlədən Xəzər dənizi kimi həssas akvatoriyalarda, duzlu konsentratların seyrəlməsi məhdud olduğundan, onların düzgün emalı və buraxılması daha mürəkkəb ekoloji risklər yaradır. Müasir tədqiqatlar göstərir ki, bu problemin həlli üçün iki əsas istiqamət vacibdir: birincisi, konsentratların yenidən emalı və istifadə potensialının artırılması; ikincisi isə ekoloji cəhətdən təhlükəsiz buraxma texnologiyalarının tətbiqidir. Məqalədə bu texnoloji və ekoloji yanaşmaların beynəlxalq təcrübə əsasında müqayisəli təhlili aparılır, həmçinin Azərbaycan üçün uyğun idarəetmə mexanizmləri və potensial tətbiq istiqamətləri qiymətləndirilir. Tədqiqatın məqsədi desalinasiya proseslərində ekoloji davamlılığın təmin olunması və duzlu konsentratların ətraf mühitə təsirinin minimuma endirilməsi üçün kompleks həll yollarını müəyyən etməkdir.
Açar sözlər: dəniz suyunun şirinləşdirilməsi, əks osmos, duzlu konsentrat, ekoloji təsirlər, alternativ utilizasiya

---

UTILIZATION OF SALT CONCENTRATES FROM SEAWATER DESALINATION: ECOLOGICAL PROBLEMS AND ALTERNATIVE SOLUTIONS

Parvane SAFAROVA[1]
Mingachevir State University
E-mail: safarova_pervana@mail.ru
Orcid: 0009-0000-1478-7703

Rugiyya HUSEYNZADE[1]
Mingachevir State University
E-mail: huseynzader1999@gmail.com

Abstract: Global population growth, climate change, and depletion of natural water resources are further exacerbating the shortage of drinking water. In this context, desalination of seawater is of strategic importance for many countries. To solve this problem, about 16,000 plants have been put into operation in 177 countries to remove salt from ocean water and turn it into fresh water. Currently, obtaining drinking water from seawater is widely practiced in regions such as the Middle East, North Africa, Spain, the US state of California, and Australia.
Desalination of seawater is one of the important technological directions in terms of eliminating water shortages and creating a sustainable water supply. However, for every 1 m³ of fresh water, approximately 0.4-0.6 m³ of residual solution with high salinity is formed. This concentrate is twice as salty as ocean water, and its improper management can cause serious environmental problems. In this regard, the issue of management and utilization of saline concentrates, which has emerged as the main environmental problem of the process, requires increasing attention. Especially in closed basins,

including sensitive areas such as the Caspian Sea, where the dilution of saline concentrates is limited, their proper processing and release pose more complex environmental risks.
Modern research shows that two main directions are important for solving this problem: first, increasing the reprocessing and utilization potential of concentrates; second, the application of environmentally safe release technologies. The article conducts a comparative analysis of these technological and environmental approaches based on international experience, as well as assesses management mechanisms and potential application directions suitable for Azerbaijan. The aim of the study is to identify comprehensive solutions to ensure environmental sustainability in desalination processes and minimize the impact of saline concentrates on the environment.
Keywords: seawater desalination, reverse osmosis, brine concentrate, environmental impacts, alternative disposal.

УТИЛИЗАЦИЯ СОЛЕВЫХ КОНЦЕНТРАТОВ, ПОЛУЧЕННЫХ ПРИ ОПРЕСНЕНИИ МОРСКОЙ ВОДЫ: ЭКОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ И АЛЬТЕРНАТИВНЫЕ РЕШЕНИЯ

Парване Сияхпар САФАРОВА[1]
Мингячевирский государственный университет
Электронная почта: safarova_pervana@mail.ru
0009-0000-1478-7703

Ругия Вели ГУСЕЙНЗАДЕ[2]
Мингячевирский государственный университет
Электронная почта: huseynzader1999@gmail.com


Резюме: Рост населения, изменение климата и сокращение природных водных ресурсов по всему миру еще больше усугубляют дефицит питьевой воды. В этом контексте опреснение морской воды имеет стратегическое значение для многих стран. Для решения этой проблемы в 177 странах введено в эксплуатацию около 16 тысяч установок по удалению соли из морской воды и превращению ее в пресную. В настоящее время получение питьевой воды из морской воды широко практикуется в таких регионах, как Ближний Восток, Северная Африка, Испания, штат Калифорния (США) и Австралия. Опреснение морской воды является одним из важных технологических направлений с точки зрения устранения дефицита воды и создания устойчивого водоснабжения. Однако на каждый 1 м³ чистой воды дополнительно образуется 0,4–0,6 м³ высокосолевого остаточного раствора. Этот концентрат вдвое солонее морской воды, и его неправильное использование может привести к серьезным экологическим проблемам. В связи с этим вопрос управления и утилизации солевых концентратов, ставший основной экологической проблемой этого процесса, требует все большего внимания. Особенно в закрытых бассейнах, включая такие чувствительные районы, как Каспийское море, где разбавление солевых концентратов ограничено, их правильная переработка и сброс создают более сложные экологические риски. Современные исследования показывают, что для решения этой проблемы важны два основных направления: во-первых, повышение потенциала переработки и утилизации концентратов; во-вторых, применение экологически безопасных технологий высвобождения. В статье проводится сравнительный анализ этих технологических и экологических подходов на основе международного опыта, а также оцениваются механизмы управления и потенциальные направления их применения, подходящие для Азербайджана. Цель исследования – выявление комплексных решений, обеспечивающих экологическую устойчивость процессов опреснения и минимизацию воздействия солевых концентратов на окружающую среду.
Ключевые слова: опреснение морской воды, обратный осмос, концентрат рассола, воздействие на окружающую среду, альтернативная утилизация

Giriş

Təhlükəsiz və kifayət qədər təmiz su təminatı, xüsusilə iqlim dəyişikliyi və əhali artımı şəraitində, dünya miqyasında aktual problemlərdən biridir. Sənaye və kənd təsərrüfatı fəaliyyətlərinin genişlənməsi, həmçinin suya olan tələbatın sürətlə artması, mövcud təbii su resurslarının istifadəsini çətinləşdirir. Hal-hazırda 40-dan çox ölkədə şirin su çatışmazlığı kəskin şəkildə müşahidə olunur ki, bu da dünya quru səthinin təxminən 60% deməkdir (şəkil 1).

Demoqrafik statistika göstərir ki, dünya əhalisi durmadan artır. 2030-cu ilə qədər şirin suya illik qlobal tələbatın təqribən 53% (4.500 milyard m^3-dən 6.900 milyard m^3-ə) artması proqnozlaşdırılır [12]. Bir çox ölkələr bu tələbi ödəmək üçün ciddi problemlə üzləşəcək və bir çoxları artıq üzləşir. Mütəxəssislərin fikrincə bütün şirin su hövzələri planetdə bərabər paylansaydı, hər kəs üçün kifayət qədər içməli su olardı. Ancaq əslində bu su hövzələri son dərəcə qeyri-bərabər paylanmışdır. Su qıtlığına meylli bölgələr əsasən Aralıq dənizi, Yaxın Şərq, Şimali Amerikanın qərb hissəsi, Avstraliyanın şərqi,

Qərbi Asiya, Şimali Çin və Çili [N. Zehtabiyan-Rezaie, et., 2019] ətrafında yerləşir. Afrika ölkələrində əraziləri vaxtaşırı quraqlığa məruz qalan bölğələri var (şəkil 1).



Şəkil 1. Suyun ölkələr üzrə paylanması

Sivil ölkələrdə də su qıtlığı məsələsi aktualdır. Hollandiya və Yaponiya içməli suyu Norveçdən alır. Bu ölkələrin ən azı onu almağa imkanı var, bunu Afrikadakı insanlar haqqında demək daha çətindir. Demoqrafik tendensiyalar dayanmadan davam edərsə, otuz il ərzində yuxarıda qeyd olunan rayonların hər bir sakini indikindən 50% az şirin suya malik olacaqdır. Kənd təsərrüfatı ehtiyacları üçün su çatışmazlığı səbəbindən Yaxın Şərq və Şimali Afrika ölkələri taxıl və unun 50%-ə qədərini xaricdən alırlar. Yəmən kimi ölkələr taxıllarının 80%-ni idxal etməyə məcburdurlar. Hazırda bütün Ərəbistan yarımadası və Fars körfəzi ölkələri dərin su böhranı içərisindədir. Bu ölkələr yüksək iqtisadi inkişaf səviyyəsinə baxmayaraq, şirin sudan məhrumdurlar. Statistikaya görə, bu ölkələrdə adambaşına düşən şirin su istehlakının səviyyəsi dünya üzrə orta göstəricidən bir neçə dəfə yüksəkdir. Su neft və qazdan daha vacib strateji resursa çevrilir. Onsuz da quraq iqlimi olan ölkələrdə bir ton təmiz su bir tondan artıq neftə başa gəlir [Larsen,et. 2019]. Su təhlükəsizliyinin təmin edilməsi bu regionun gələcək inkişafı üçün əsas şərtlərdən biridir. Oman istisna olmaqla, Ərəbistan yarımadası ölkələri böyük su ehtiyatları çatışmazlığı ilə xarakterizə olunur. Bu bölgədə bərpa olunan su ehtiyatlarının olmaması az yağıntı, yüksək buxarlanma səviyyəsi ilə müşayiət olunur və yeraltı su ehtiyatları bərpa olunmayandır.

Suyun tükənməsi, sənayenin inkişafı və əhalinin artımı sənaye su idarəetmə sistemlərinə yeni tələblər qoyur. Davamlı, ekoloji cəhətdən təmiz inkişaf üçün əsas amillərə yeni su mənbələrinin inkişafı və ya suyun (tullantı sularının) təkrar istifadəsi daxil ola bilər. Bu səbəbdən dəniz suyunun şirinləşdirilməsi (desalinasiya) texnologiyaları alternativ və effektiv həll yolu kimi ön plana çıxır.

Genişmiqyaslı dəniz suyunun duzsuzlaşdırılması texnologiyalarının inkişafı bütün dünyada 1920-ci illərin ortalarında, ilk növbədə, Yaxın Şərq və Şimali Afrika kimi su qıtlığı olan regionlarda yerləşən ölkələrdə başlamışdır. Qeyd etmək lazımdır ki, Yaxın Şərq ölkələrinin əksəriyyəti duzsuzlaşdırma qurğularında istifadə oluna bilən qalıq enerji ehtiyatları ilə zəngindir.

Hazırda dünyada hər gün təxminən 95 milyon m^3 su duzsuzlaşdırılır və bu şirin su təxminən 18500 duzsuzlaşdırma qurğusu tərəfindən istehsal olunur. Səudiyyə Ərəbistanı, ABŞ, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) və Küveyt dünyanın ən böyük duzsuzlaşdırma potensialına malikdir. Səudiyyə Ərəbistanı, BƏƏ və Küveyt - dünyanın duzsuzlaşdırma potensialının üçdə birini təşkil edir.


Duzsuzlaşdırma texnologiyalarının növləri və müqayisəli təhlili

Dəniz və duzlu suların şirinləşdirilməsi (desalinasiya) müasir dövrdə su çatışmazlığının aradan qaldırılmasında əsas texnoloji həll yollarından biri kimi qəbul edilir. Desalinasiya prosesi suyun tərkibindəki duz və digər həll olunmuş minerallarının uzaqlaşdırılması vasitəsilə içməli və texniki məqsədlər üçün yararlı suyun əldə olunmasına xidmət edir. Bu məqsədlə dünyada müxtəlif texnoloji yanaşmalar formalaşıb və onların hər biri enerji sərfi, səmərəlilik, texniki mürəkkəblik və ekoloji təsirlər baxımından fərqlənir.

Desalinasiya üsulları əsasən iki qrupa bölünür: istilik əsaslı (termal) və membran əsaslı texnologiyalar.

Termal metodlar buxarlanma və kondensasiya prinsipi ilə işləyir. Ən geniş yayılmış növləri çoxpilləli buxarlanma (MSF – Multi-Stage Flash) və çoxtəsirli buxarlanma (MED – Multi-Effect Distillation) üsullarıdır. Bu sistemlərdə dəniz suyu yüksək temperaturda qızdırılaraq buxar halına gətirilir, daha sonra kondensasiya olunaraq şirin su kimi toplanır. Termal texnologiyalar yüksək keyfiyyətli su verir, lakin enerji sərfi çox olduğuna görə iqtisadi baxımdan baha başa gəlir. Eyni zamanda, bu proseslərdə istifadə olunan enerji mənbələrinin (əsasən neft və qaz) yanması istixana qazlarının atmosferə atılmasını artırır ki, bu da ekoloji baxımdan mənfi nəticələr doğurur [Mukherjee, et.,2007]

Membran əsaslı texnologiyalar isə fiziki baryer prinsipinə əsaslanır və daha az enerji tələb edir. Su qıtlığı həmişə təmiz su istehsalı üçün effektiv vasitələr tapmaqda tədqiqat maraqlarını stimullaşdıran böyük problemdir. Bu kontekstdə əks osmos hazırda duzsuzlaşdırmada üstünlük təşkil edən aparıcı və ən optimallaşdırılmış membran əsaslı duzsuzlaşdırma prosesi hesab olunur. Duzsuzlaşdırmada əks osmosun payı təqribən 54% təşkil edir . İndi əks osmos həm kiçik, həm də böyük miqyaslı tətbiqlərdə bütün dünyada duzsuzlaşdırma sənayesində aparıcı texnologiyadır (şəkil 2).



Şəkil 2. Əks osmos üsulu ilə duzsuzlaşdırmanın sxemi

Bu sistemdə dəniz suyu yüksək təzyiq altında yarımkeçirici membran vasitəsilə süzülür və duz ionları sudan ayrılır. Əks osmos texnologiyası enerji baxımından daha qənaətcil, istismar xərcləri az və avtomatlaşdırma səviyyəsi yüksək bir üsuldur. Bununla yanaşı, membranların çirklənməsi və onların dövri təmizlənməsi prosesi əlavə texniki xidmət tələb edir.

Digər membran texnologiyalarına nanofiltrasiya (NF), elektrodializ (ED) və membran distillə (MD) metodları daxildir. Nanofiltrasiya və elektrodializ sistemləri əsasən az duzlu və ya yarı duzlu suların təmizlənməsi üçün istifadə olunur, buna görə də dəniz suyu kimi yüksək duzluluqlu məhlullar üçün məhdud tətbiq sahəsinə malikdirlər. Membran distillə isə son illərdə perspektivli istiqamət kimi qiymətləndirilir, çünki bu üsul aşağı temperaturlu istilik mənbələri və günəş enerjisi ilə işlədilə bilər [Ghaffour, 2013].

Texnologiyaların müqayisəsi göstərir ki, əks iqtisadi və enerji baxımından daha səmərəli hesab edilir, termal üsullar isə suyun keyfiyyəti və uzunömürlülük baxımından üstünlük daşıyır. Ən optimal yanaşma kimi hibrid sistemlərin – məsələn, RO+MED və ya RO+NF kombinasiyalarının – tətbiqi təklif olunur. Belə sistemlər enerji sərfini azaldır, çıxış suyunun keyfiyyətini yüksəldir və tullantı konsentratın miqdarını minimuma endirir [Lattemann, et., 2019]

Ümumiyyətlə, desalinasiya texnologiyalarının seçimi regionun enerji resursları, iqlim şəraiti və suyun ilkin duzluluq səviyyəsinə əsaslanmalıdır. Azərbaycanın Xəzəryanı zonasında günəş enerjisi potensialı yüksək olduğundan, bərpa olunan enerji ilə inteqrasiya olunmuş əks osmos sistemləri ekoloji baxımdan ən məqsədəuyğun variant hesab olunur.

Lakin ən mütərəqqi texnologiyalar belə ətraf mühitə mənfi təsirləri tam şəkildə aradan qaldırmağa imkan vermir. Mövzud duzsuzlaşdırma texnologiyaları suyun təmizlənməsi ilə yanaşı, yüksək duzluluğa malik konsentratlar yaradır. Düzgün idarə olunmayan bu məhlullar dəniz və torpaq ekosistemlərinə ciddi təsir göstərə bilər. Dəniz suyunun şirinləşdirilməsi zamanı yaranan yüksək duzluluğa malik qalıq məhlulun duzluluğu bəzən təbii dəniz suyundan iki dəfə artıq ola bilər. Bu, sahil akvatoriyalarında osmotik balansı pozaraq plankton, yosun və balıq sürfələrinin ölümünə səbəb olur. İsti bölgələrdə qalıq məhlul temperaturunun yüksək olması əlavə stres faktoru kimi çıxış edir.

Duzlu konsentratların yaranma səbəbləri , fiziki-kimyəvi xüsusiyyətləri və ekoloji təsirləri

Dəniz suyunun şirinləşdirilməsi prosesində ən çox istifadə olunan texnologiyalardan biri əks osmos (reverse osmosis) üsuludur. Bu metodda duzlu su yüksək təzyiq altında yarımkeçirici membranlardan keçirilir. Membran yalnız su molekullarını keçirərək təmiz suyun ayrılmasını təmin edir, qalan məhlul isə yüksək duzluluğa malik konsentrat şəklində qalır [Elimelech, M., & Phillip, W. A. 2011].

Beləliklə, konsentrat təkcə duz miqdarı baxımından zəngin olmur, eyni zamanda proses zamanı istifadə olunan kimyəvi reagentlərin qalıqlarını və bəzi hallarda ağır metalları da özündə saxlayır. Konsentratın tərkibindəki bu xüsusiyyətlər onun ekosistemlər üzərində potensial zərərli təsirini artırır. Su mühitinə buraxıldıqda yüksək duzluluq su canlılarının osmotik tarazlığını poza bilər, yosunlar, balıqlar və digər hidrobiont növlərin həyat fəaliyyətinə mənfi təsir göstərir. Kimyəvi reagent qalıqları və ağır metallar isə suyun kimyəvi tərkibini dəyişdirərək bioloji müxtəlifliyə və suyun keyfiyyətinə ziyan vurur. Bu səbəbdən, duzlu konsentratların yaranma səbəblərinin və fiziki-kimyəvi xüsusiyyətlərinin yaxşı başa düşülməsi, onun ətraf mühitə mənfi təsirini azaltmaq üçün səmərəli idarəetmə strategiyalarının işlənib hazırlanmasında əsas şərtlərdən biridir. Bundan əlavə, konsentratın temperaturu, pH səviyyəsi və duzluluq göstəriciləri onun təsir gücünü müəyyən edir [Ghaffour, et., 2013]. Məsələn, daha yüksək temperatur və konsentrasiyada olan məhlullar su canlıları üçün daha təhlükəli olur və bioloji aktivliyi daha çox pozur. Bu faktlar şirinləşdirilməsi prosesindən sonra yaranan konsentratın müvafiq utilizasiya üsullarına yönləndirilməsini və ətraf mühitin qorunması üçün xüsusi tədbirlərin görülməsini zəruri edir.

Duzlu konsentrat, şirinləşdirilmə prosesinin əsas yan məhsulu olaraq, yalnız yüksək duzluluq səviyyəsinə malik deyil, həm də proses zamanı istifadə olunan kimyəvi reagentlərin qalıqlarını və bəzən ağır metalları da özündə saxlayır. Bu komponentlərin mövcudluğu onun ekoloji baxımdan riskli olmasına səbəb olur. Konsentratın su mühitinə buraxılması dəniz və ya çay ekosistemlərinin kimyəvi tarazlığını pozur. Yüksək duzluluq su canlılarının osmotik balansını ciddi şəkildə təsir edir, nəticədə balıqlar, yosunlar və digər hidrobiont növlərin həyatı çətinləşir və onların çoxalması məhdudlaşır.

Bundan əlavə, kimyəvi reagentlərin qalıqları və ağır metallar suyun keyfiyyətini aşağı salaraq, ekosistemdə toksik effektlərin yaranmasına səbəb olur. Belə məhlulların davamlı şəkildə mühitə buraxılması torpaq, yeraltı sular və su canlıları üçün uzunmüddətli təhlükələr yarada bilər. Bu səbəbdən, duzlu konsentratların fiziki-kimyəvi tərkibi və onun ətraf mühitə potensial təsirləri diqqətlə qiymətləndirilməli və uyğun utilizasiya üsulları seçilməlidir.

Duzlu konsentratların ətraf mühitə buraxılması həm dəniz, həm də torpaq ekosistemlərinə mənfi təsir göstərir. Dəniz mühitində bu məhlulların yüksək duzluluğu su canlılarının osmotik tarazlığını pozur, bu da yosunlar, molyusklar və digər su orqanizmlərinin həyat fəaliyyətini çətinləşdirir. Belə hallar onların çoxalmasını və inkişafını əngəlləyir, nəticədə dəniz bioloji müxtəlifliyi azalır və ekosistem balansı pozulur. Torpaq və yeraltı sular üçün isə konsentratın təsiri daha çox duzlaşma və çirklənmə riskləri ilə bağlıdır. Torpağa sızan konsentrat bitki örtüyünün məhv olmasına, torpağın məhsuldarlığının azalmasına və kənd təsərrüfatı fəaliyyətlərinin məhdudlaşmasına səbəb olur. Eyni zamanda, yeraltı su ehtiyatlarının keyfiyyətinə mənfi təsir göstərir, içməli və suvarma sularının çirklənmə riskini artırır. Bu faktorların hamısı ekosistemlərin davamlı fəaliyyətini təhdid edir və duzlu konsentratların idarə olunmasında

davamlı, ekoloji baxımdan səmərəli tədbirlərin vacibliyini açıq şəkildə göstərir [Shannon, et., 2008].

Alternativ utilizasiya üsullarının ekoloji və iqtisadi qiymətləndirilməsi

Duzlu konsentratların idarə olunması, xüsusilə duzlu məhlulların tullantılarını effektiv və ekoloji cəhətdən təhlükəsiz şəkildə idarə etmək məqsədilə müxtəlif alternativ utilizasiya üsulları inkişaf etdirilmişdir. Bu üsulların hər biri özünəməxsus üstünlüklərə və məhdudiyyətlərə malikdir. Aşağıda bu metodların ətraflı təhlili təqdim olunur:

1. Dərin quyulara vurulma - Dərin quyulara vurulma metodu, duzlu məhlulların yeraltı geoloji təbəqələrə, xüsusilə suya yaxın olmayan və ya su ehtiyatları ilə əlaqəsi olmayan təbəqələrə vurulmasıdır. Bu üsul, məhlulun səth sularına və torpağa yayılmasını əngəlləyir. Bu metod, düzgün seçilmiş və müvafiq şəkildə tikilmiş quyularla ekoloji baxımdan təhlükəsiz ola bilər. Lakin, quyuların düzgün işləməməsi və ya sızmalar nəticəsində yeraltı su ehtiyatlarının çirklənməsi riski mövcuddur. ABŞ-da aparılan tədqiqatlar göstərir ki, dərin quyulara vurulma metodu müvafiq şəraitdə etibarlı və ekoloji cəhətdən təhlükəsiz ola bilər. Lakin, bu prosesin həyata keçirilməsi zamanı geoloji və hidroloji şəraitlər diqqətlə nəzərə alınmalıdır. Dərin quyulara vurulma metodu, xüsusilə neft və qaz sahələrində tətbiq edildikdə, iqtisadi cəhətdən sərfəli ola bilər. Lakin, quyuların tikintisi və istismarı yüksək maliyyət tələb edir [Al-Karaghouli, Kazmerski, 2013].

2. Buxarlanma hovuzları - buxarlanma hovuzları, günəş enerjisindən istifadə edərək duzlu məhlulların buxarlaşdırılması və qalan duzların toplanması üçün istifadə olunur. Bu üsul, xüsusilə günəşli və quraq bölgələrdə tətbiq edilir. Buxarlanma hovuzları düzgün tikildikdə və müvafiq şəkildə idarə edildikdə ekoloji cəhətdən təhlükəsiz ola bilər. Lakin, hovuzların sızması və ya ətraf mühitə təsiri nəticəsində torpaq və su çirklənməsi riski mövcuddur. Bundan əlavə, bu metod geniş torpaq sahələrinin ayrılmasını tələb edir. Buxarlanma hovuzlarının tikintisi və istismarı nisbətən ucuz olsa da, geniş torpaq sahələrinin ayrılması və uzun müddətli əməliyyat xərcləri nəzərə alınmalıdır [Lattemann, et. 2009].

3. Kimyəvi emal və resursların bərpası - bu metod duzlu məhlullardan qiymətli minerallarn və kimyəvi maddələrin çıxarılması məqsədilə kimyəvi proseslərin tətbiqini əhatə edir. Məqsəd, tullantıların həcmini azaltmaq və eyni zamanda iqtisadi fayda əldə etməkdir. Kimyəvi emal prosesləri tullantıların həcmini azaldaraq ekoloji təsiri minimuma endirə bilər. Lakin bu proseslər yüksək texnoloji avadanlıq və müvafiq infrastruktur tələb edir. Bundan əlavə, prosesin düzgün idarə olunmaması nəticəsində yeni çirkləndirici maddələrin yaranması mümkündür. Kimyəvi emal və resursların bərpası, yüksək ilkin sərmayə və əməliyyat xərcləri tələb etsə də, çıxarılan qiymətli maddələrin satışı ilə iqtisadi fayda əldə etmək mümkündür [Ghaffour, et.2013]

4. Səthə buraxılma - bu metod, duzlu məhlulların çaylara, göllərə və ya dənizə buraxılmasını əhatə edir. Məqsəd, məhlulun təbii su mühitinə qarışaraq təsirini yaymaqdır. Səthə buraxılma metodu duzlu məhlulun tərkibindəki maddələrin konsentrasiyasına və buraxılma yerinin ekosistemə təsirinə görə ekoloji cəhətdən təhlükəli ola bilər. Yüksək duzlu məhlulların su mühitinə buraxılması, su canlılarının həyatını təhdid edə bilər. Bu metod nisbətən ucuz olsa da, ekoloji təsirlərin qiymətləndirilməsi və müvafiq icazələrin alınması əlavə xərclər yarada bilər [Dincer, Dost, 2015.]

Xəzər dənizinin sahil bölgələrində duzlu konsentratların idarə olunmasının elmi əsasları və perspektivləri

Xəzər dənizinin sahil zolağında duzlu konsentratların idarə olunması istiqamətində məlumat bazası hələ də məhdud səviyyədədir və bu sahədə aparılan tədqiqatlar sistemli xarakter daşımır. Bununla belə, su ehtiyatlarının məhdudluğu, iqlim dəyişmələrinin intensivləşməsi və dəniz ekosistemlərinin həssaslığı bu problemin strateji ekoloji və iqtisadi əhəmiyyətini artırır. Azərbaycanda dəniz suyunun şirinləşdirilməsi ilə əlaqədar yaranan duzlu konsentratların təbiətə nəzarətsiz axıdılması həm Xəzərin bioloji müxtəlifliyinə, həm də sahil torpaq və yeraltı su sistemlərinə mənfi təsir göstərir. Buna görə də bu prosesin ekoloji cəhətdən davamlı idarəetməsi elmi əsaslarla təhlil edilməli və beynəlxalq təcrübə ilə müqayisəli yanaşma aparılmalıdır.

Dünya təcrübəsi göstərir ki, duzlu konsentratların sadəcə tullantı kimi deyil, ikinci dərəcəli resurs kimi qiymətləndirilməsi həm iqtisadi, həm də ekoloji baxımdan daha səmərəli model yaradır. Bu baxımdan, konsentratların mexaniki və kimyəvi emalı vasitəsilə mağnezium, litium, kalium, brom və digər qiymətli minerallarının bərpası mümkündür. Belə proseslər həm tullantı miqdarını azaldır, həm də sənaye sektoruna əlavə xammal mənbəyi yaradır. Azərbaycanda bu istiqamətdə pilot tədqiqatların aparılması məqsədəuyğundur və xüsusilə Sumqayıt Kimya Sənaye Parkı, Neftçala və Lənkəran sahil zonası kimi sənaye və iqlim baxımından fərqli ərazilərdə modelləşdirilmiş eksperimental layihələrin tətbiqi vacib hesab olunur.

Nəticə

Hazırda ölkədə, xüsusilə Bakı və Abşeron yarımadasında dəniz suyunun şirinləşdirilməsi sahəsində bir sıra infrastruktur layihələri fəaliyyət göstərir. Məsələn, Sumqayıt Kimya Sənaye Parkında gündəlik 300.000 m³ məhsuldarlığa malik müasir desalinasiya qurğusunun inşası həyata keçirilmişdir. Bu tip müəssisələrdə yaranan yüksək duzluluqlu tullantıların idarə olunması üçün Zero Liquid Discharge (ZLD) texnologiyasının tətbiqi ekoloji sabitliyin qorunmasında mühüm rol oynaya bilər. ZLD sistemləri tullantı sularının tam buxarlanması və minerallarının qatı fazada bərpası prinsipinə əsaslanır, bu da həm dəniz mühitinə duz yükünü azaldır, həm də resurs dövriyyəsini təmin edir[Əliyev, 2022]. Gələcək elmi istiqamətlər baxımından günəş enerjisi ilə buxarlanma hovuzlarının tətbiqi, membran distillə sistemlərinin inkişafı və elektrokimyəvi duz bərpa üsullarının sınaqdan keçirilməsi tövsiyə olunur. Bu yanaşmalar həm bərpa olunan enerji mənbələrindən istifadəyə əsaslanır, həm də regional iqlim şəraitinə (məsələn, Abşeronun yüksək günəş radiasiyası və quru iqlimi) tam uyğundur. Əlavə olaraq, ekoloji təhlükəsizliyin təmin edilməsi üçün müntəzəm monitorinq sistemlərinin gücləndirilməsi, sahil və dəniz mühitinin fiziki-kimyəvi göstəricilərinin real vaxt rejimində izlənməsi, həmçinin ekoloji normativlərin hüquqi əsaslarla tənzimlənməsi vacibdir. Belə yanaşma yalnız mövcud tullantıların mənfi təsirini azaltmaqla kifayətlənmir, eyni zamanda su ehtiyatlarının davamlı idarə olunması, ekosistemlərin adaptiv qorunması və resursların dövri istifadəsi kimi konseptual məqsədlərə xidmət edir [Məmmədov, 2021]. Ümumilikdə, Xəzər dənizinin sahil ərazilərində duzlu konsentratların idarə olunması istiqamətində aparılacaq kompleks elmi-tədqiqat proqramları ekosistem dayanıqlığını möhkəmləndirə, suyun təkrar istifadəsi və resursların bərpası əsasında davamlı mavi iqtisadiyyat modelinin formalaşmasına imkan yarada bilər.

ƏDƏBİYYAT SİYAHISI:

1. Əliyev, A. H. (2022). Azərbaycanın su ehtiyatlarının idarə olunması və duzlu suların ekoloji problemləri. Bakı: Azərbaycan Texniki Universiteti Nəşriyyatı
2. Məmmədov, F. Ş. (2021). Xəzər dənizinin ekoloji vəziyyəti və sənaye təsirlərinin təhlili. Azərbaycan Milli Elmlər Akademiyası, Ekologiya Jurnalı, 3(2), 88–97.
3. Al-Karaghouli, A., & Kazmerski, L. L. (2013). Energy consumption and water production cost of conventional and renewable-energy powered desalination processes. Renewable and Sustainable Energy Reviews, 24, 343–356.
4. Dincer, I., & Dost, S. (2015). Economic, environmental and sustainability assessment of water desalination technologies. Desalination, 357, 1–12.
5. Ghaffour, N., Missimer, T. M., & Amy, G. L. (2013). Technical review and evaluation of the economics of water desalination: Current and future challenges for better water supply sustainability. Desalination, 309, 197–207.
6. Elimelech, M., & Phillip, W. A. (2011). The Future of Seawater Desalination: Energy, Technology, and the Environment. Science, 333(6043), 712–717.
7. N. Zehtabiyan-Rezaie, N. Alvandifar, F. Saffaraval, M. Makkiabadi, N. Rahmati, M. Saffar-Avval // A solar-powered solution for water shortage problem in arid and semi-arid regions in coastal countries, Sustainable Energy Technologies and Assessments, V 35, (2019), P 1-11.
8. Lattemann, S., et al. (2009). Brine disposal technologies and environmental impact. Desalination, 237(1-3), 1–14.
9. Lattemann, S., & Höpner, T. (2008). Environmental impact and impact assessment of seawater desalination. Desalination, 220(1-3), 1–15.
10. Mukherjee, S., Qasim, M., & (2007). Seawater desalination: Emerging challenges and opportunities. Water Science & Technology, 55(7), 1–8.

11.M.A.D. Larsen, S. Petrovic, R.E. Engström, M. Drews, S. Liersch, K.B. Karlsson, M. Howells, Challenges of data availability: Analysing the water-energy nexus in electricity generation // Energy Strategy Reviews, V 26, (2019), 100426.
12.Shannon, M. A., et al. (2008). Science and technolo

DOİ: 10.32010/DWKA9053

SƏNAYE 4.0 PLATFORMASINDA TEXNİKİ SİSTEMLƏRİN İNTELLEKTUALLIĞININ YÜKSƏLDİLMƏSİ MEXANİZMLƏRİNİN İŞLƏNMƏSİ

Məhbubə Sücəddin ŞİRİNOVA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
E-mail: mss.shirinova@gmail.com.85

Xülasə: Sənaye 4.0 konsepsiyası müasir sənayenin transformasiyasını müəyyən edən strateji mərhələdir və texniki sistemlərin intellektuallaşması bu mərhələnin əsas istiqamətlərindən biridir. Bu prosesin mahiyyəti fiziki və kiber sistemlərin qarşılıqlı inteqrasiyası, avtomatlaşdırılmış idarəetmə, sensor əsaslı müşahidə, məlumatların real vaxtda emalı və süni intellekt texnologiyalarının tətbiqi ilə bağlıdır. Texniki sistemlərin intellektuallığının yüksəldilməsi sənaye müəssisələrinə istehsal proseslərini daha çevik, təhlükəsiz və səmərəli şəkildə idarə etməyə imkan verir. Bununla yanaşı, sistemlər öz fəaliyyətlərini müşahidə edə, təhlil edə və qərar qəbuletmə prosesini insan müdaxiləsi olmadan həyata keçirə bilirlər.

Bu mexanizmlərin işlənməsi süni intellektin müxtəlif alqoritmlərinə – xüsusilə də maşın öyrənməsi, neyron şəbəkələr və ekspert sistemlərinə əsaslanır. Məlumatların toplanması və analizi üçün Əşyaların İnterneti (IoT) və kiber-fiziki sistemlərdən (CPS) istifadə olunur. Bu texnologiyalar real vaxtda böyük həcmdə verilənləri emal edərək istehsalın gedişində nasazlıqların proqnozlaşdırılmasına, enerji və resurs sərfiyyatının optimallaşdırılmasına şərait yaradır.

Eyni zamanda, bulud hesablama və paylanmış verilənlər infrastrukturu sayəsində texniki sistemlər arasında qarşılıqlı əlaqə güclənir, qərar qəbuletmə prosesində mərkəzləşmiş deyil, paylanmış idarəetmə prinsipləri tətbiq olunur. Bu isə sənaye müəssisələrinə dəyişən bazar tələblərinə daha sürətli uyğunlaşmaq imkanı verir.

Nəticə etibarilə, texniki sistemlərin intellektuallığının artırılması sənaye müəssisələrinin rəqabətqabiliyyətliliyini yüksəldir, istehsalatın dayanıqlılığını təmin edir və resursların səmərəli istifadəsini stimullaşdırır. Bu istiqamətdə aparılan elmi və texnoloji tədqiqatlar yaxın gələcəkdə tam avtonom, özünüidarə edən sənaye ekosistemlərinin formalaşmasına, insan-makina əməkdaşlığının yeni səviyyədə reallaşmasına və iqtisadiyyatın rəqəmsal inkişafının daha yüksək mərhələsinə keçidinə şərait yaradacaq.

Açar sözlərl: Sənaye 4.0, intellektual sistemlər, kiber-fiziki sistemlər, Əşyaların İnterneti (IoT), maşın öyrənməsi, adaptiv idarəetmə, rəqəmsal transformasiya, verilənlərin analitikası, avtonom idarəetmə, koqnitiv texnologiyalar, rəqəmsal ekosistemlər, real vaxt emalı, proqnozlaşdırıcı modelləşdirmə.

DEVELOPMENT OF MECHANISMS FOR ENHANCING THE INTELLIGENCE OF TECHNICAL SYSTEMS ON THE INDUSTRY 4.0 PLATFORM

Mahbuba Sujaddin SHIRINOVA
Azerbaijan State Oil and Industry University
E-mail: mss.shirinova@gmail.com.85

Abstract: The Industry 4.0 concept is a strategic stage that determines the transformation of modern industry, and the intellectualization of technical systems is one of the main directions of this stage. The essence of this process is related to the mutual integration of physical and cyber systems, automated control, sensor-based observation, real-time data processing and the application of artificial intelligence technologies. Increasing the intellectuality of technical systems allows industrial enterprises to manage production processes more flexibly, safely and efficiently. At the same time, systems are able to observe, analyze their activities and carry out the decision-making process without human intervention.

The development of these mechanisms is based on various algorithms of artificial intelligence - in particular, machine learning, neural networks and expert systems. The Internet of Things (IoT) and cyber-physical systems (CPS) are used for data collection and analysis. These technologies process large amounts of data in real time, creating conditions for predicting failures in the course of production, optimizing energy and resource consumption.

At the same time, thanks to cloud computing and distributed data infrastructure, the interaction between technical systems is strengthened, and the principles of distributed, rather than centralized, management are applied in the decision-making process. This allows industrial enterprises to adapt more quickly to changing market requirements.

As a result, increasing the intelligence of technical systems increases the competitiveness of industrial enterprises, ensures the sustainability of production and stimulates the efficient use of resources. Scientific and technological research conducted in this direction will create conditions for the formation of fully autonomous, self-governing industrial ecosystems in the near future, the realization of human-machine cooperation at a new level and the transition of the economy to a higher stage of digital development.

Keywords: Industry 4.0, intelligent systems, cyber-physical systems, Internet of Things (IoT), machine learning, adaptive management, digital transformation, data analytics, autonomous driving, cognitive technologies, digital ecosystems, real-time processing, predictive modeling.

РАЗРАБОТКА МЕХАНИЗМОВ ПОВЫШЕНИЯ ИНТЕЛЛЕКТА ТЕХНИЧЕСКИХ СИСТЕМ НА ПЛАТФОРМЕ ИНДУСТРИЯ 4.0

Махбуба Ширинова Суджаддин
Азербайджанский государственный университет нефти и промышленности
Электронная почта: mss.shirinova@gmail.com.85

Резюме: Концепция «Индустрия 4.0» — это стратегический этап, определяющий трансформацию современной промышленности, а интеллектуализация технических систем — одно из главных направлений этого этапа. Суть этого процесса связана с взаимной интеграцией физических и киберсистем, автоматизированным управлением, наблюдением на основе датчиков, обработкой данных в реальном времени и применением технологий искусственного интеллекта. Повышение интеллектуальности технических систем позволяет промышленным предприятиям более гибко, безопасно и эффективно управлять производственными процессами. При этом системы способны наблюдать, анализировать свою деятельность и принимать решения без вмешательства человека.

Разработка этих механизмов основана на различных алгоритмах искусственного интеллекта — в частности, машинном обучении, нейронных сетях и экспертных системах. Интернет вещей (IoT) и киберфизические системы (CPS) используются для сбора и анализа данных. Эти технологии обрабатывают большие объемы данных в режиме реального времени, создавая условия для прогнозирования сбоев в ходе производства, оптимизации энергопотребления и потребления ресурсов. В то же время, благодаря облачным вычислениям и распределенной инфраструктуре данных, усиливается взаимодействие между техническими системами, и в процессе принятия решений применяются принципы распределенного, а не централизованного управления. Это позволяет промышленным предприятиям быстрее адаптироваться к меняющимся требованиям рынка.

В результате повышение интеллектуальности технических систем повышает конкурентоспособность промышленных предприятий, обеспечивает устойчивость производства и стимулирует эффективное использование ресурсов. Научно-технические исследования, проводимые в этом направлении, создадут в ближайшем будущем условия для формирования полностью автономных, самоуправляемых промышленных экосистем, реализации сотрудничества человека и машины на новом уровне и перехода экономики на более высокий этап цифрового развития. В то же время, благодаря облачным вычислениям и распределенной инфраструктуре данных, усиливается взаимодействие между техническими системами и применяются принципы распределенного, а не централизованного управления в процессе принятия решений.

Ключевые слова: Индустрия 4.0, интеллектуальные системы, киберфизические системы, Интернет вещей (IoT), машинное обучение, адаптивное управление, цифровая трансформация, анализ данных, автономное вождение, когнитивные технологии, цифровые экосистемы, обработка в реальном времени, предиктивное моделирование.

Giriş

Sintez müşahidə olunan qarışıq	Biokütlə +1 mM$AgNO_3$	Biokütlə, kultural maye+1 mM $AgNO_3$
İnkubasiya temperaturu	60 °C	60 °C
İnkubasiya müddətinin təsiri	Tədqiq edilməyib	Sintez 5-30 gün ərzində artaraq davam edib
Rəng dəyişməsi	Boz → Tünd qəhvəyi	Açıq sarı / boz → Tünd qəhvəyi / qara
UV-vis udulma diapazonu	410-420 nm	410-420 nm
X-şüa difraksiyası	Ag(311), AgCl (220); (400)	Tədqiq edilməyib
Optimal qarışıq nisbəti	Tədqiq edilməyib	1:1 (50 ml kultural maye + 50 ml 1 mM $AgNO_3$)
Qeyri-effektiv nisbətlər	Tədqiq edilməyib	99:1; 90:10 (99, 90 ml kultural maye +1, 10 ml $AgNO_3$)
Sintezə təsir edən amillər	Biokütlənin aktiv komponentləri	Həm biokütlə, həm də kultural mayedə olan metabolitlər

Əldə olunan nəticələr mikroorqanizmlərin metabolitlərinin, xüsusilə fermentlər, sekresiya olunmuş zülal və ya üzvi turşuların gümüş ionlarının reduksiyasında iştirak etdiyini göstərir ki, bu da digər alimlərin tədqiqatları ilə üst-üstə düşür (Alsamhary, 2020; Dakhil, 2017; Deljou & Goudarzi, 2016; Hamouda et al., 2019; Kalpana et al., 2019). Inkubasiya dövrü ərzində reaksiya qarışıqlarında baş verən rəng dəyişikliyi – açıq sarı və ya boz rəngdən tünd qəhvəyi və ya qara rəngə keçid – gümüş ionlarının (Ag^+) reduksiya olunaraq neyrtral atom Ag^0 formasına çevrildiyini göstərir. Bu, biosintez prosesində ilkin, vizual göstəricilərdən biri hesab olunur. Daha sonra UV-vis spektrofotometrik analizlər zamanı 410-420 nm dalğa uzunluğunda müşahidə olunan udulma spektrləri gümüş nanohissəciklərə xas olan səthi plazmon rezonans fenomenini əks etdirir. Bu spektrlər gümüş nanohissəciklərin yaranmasını və onların stabil kolloidal dispersiya mühitində mövcudluğunu təsdiq edir.

X-şüa difraksiya analizləri zamanı müəyyən edilən 77.9°, 46.8° və 67.4° bucaqlarındakı zirvələr müvafiq olaraq Ag və AgCl-un kub şəkilli fazasına uyğun gəlmiş və bu, sintez olunan nanohissəciklərin kristal təbiətini sübut etmişdir. Marağlıdır ki, Bacillus sp. KY2 ştamının sintez etdiyi nanohissəciklər tərkibcə yalnız metallik gümüşdən ibarət olmamış, həm də AgCl kristalları müşahidə edilmişdir. Bu hal, mühitdəki xlor ionlarının Ag^+ ilə

reaksiyaya girərək AgCl-un yaranmasına səbəb olduğunu göstərir ki, bu da digər elmi işlərdə də qeyd olunmuşdur (Iman Sabah Abd Alamer, 2022). Bundan əlavə, bəzi naməlum difraksiya zirvələrinin bakterial mənşəli komponentlərlə əlaqəli olması ehtimal edilir ki, bu da nanohissəciklərin mikroorqanizmlərin iştirakı ilə bioloji sintezi zamanı rast gəlinən haldır.

Tədqiqatın maraqlı nəticələrindən biri də reaksiya mühitinin tərkibindəki komponentlərinin nisbətinin sintezə təsiridir. Belə ki, yalnız 1:1 (50 mlkultural maye + 50 ml 1 mM 1 mM gümüş nitrat) nisbətində hazırlanmış qarışıqda gümüş nanohissəciklərin əmələ gəlməsi müşahidə olunmuşdur. Digər nisbətlərdə (99:1; 90:10) isə sintez prosesi qeydə alınmamışdır. Bu nəticə onu göstərir ki, sintez prosesinin effektivliyi üçün həm gümüş ionlarının, həm də bakterial mənşəli reduksiyaedici komponentlərin optimal miqdarda olması vacibdir. Bu balansın pozulması sintez prosesinin dayanmasına və ya qeyri-effektiv getməsinə səbəb ola bilər. Digər vacib amillərdən biri inkubasiya müddətinin sintezə təsiridir. Müxtəlif vaxt intervallarında (5, 10, 15, 20, 25 və 30 gün) aparılmış UV-vis spektrofotometrik analizlər sintez prosesinin zamanla intensivləşdiyini göstərmişdir. Plazmon rezonansının intensivliyinin artması nanohissəciklərin sayında və ya ölçüsündə artımın göstəricisidir. Bu da sübut edir ki, gümüş nanohissəciklərin biosintezi ani bir proses deyil, zamanla davam edən və inkişaf edən bir reaksiyadır. Bu dinamika, xüsusilə fermentativ sistemlərin zamanla reaksiya verərək ionları reduksiya etməsi ilə əlaqəli ola bilər.

Nəticə

Alınan nəticələr göstərir ki, Bacillus sp.B1 və Bacillus sp.KY2 ştammları gümüş nanohisəciklərin bioloji sintezində yüksək potensiala malikdir. Hər iki ştamın istifadəsi ilə əldə olunan gümüş nanohissəciklər müəyyən sabitlik nümayiş etdirir ki, bu da gələcəkdə bu üsulun gümüş nanohissəciklərin alınmasında tətbiqini effektiv edir. Sintez prosesində optimal şərtlərin müəyyən edilməsi və inkubasiya müddətinin təsirinin araşdırılması gümüş nanohissəciklərin istehsalının effektivliyini artırmağa zəmin yaradır. Bioloji üsulla sintez edilən gümüş nanohissəciklərin tətbiq sahələri genişdir və onların antibakterial və katalitik xüsusiyyətləri tibbi, ətraf mühitin qorunması və sənaye sahələrində perspektivli istifadə imkanları yaradır.

ƏDƏBİYYAT SİYAHISI:

1. Alsamhary, K. I. Eco-friendly synthesis of silver nanoparticles by *Bacillus subtilis* and their antibacterial activity. Saudi J. Biol. Sci. 27(8), 2185–2191 (2020).
2. Anand B. G., Thomas C. K. N., Prakash S., and Kumar C. S. Biosynthesis of Silver Nano-Particles by marine Sediment Fungi for a Dose Dependent Cytotoxicity against HEp2 Cell Lines. Biocatal. Agric. Biotechnol. 4, 150–157, (2015).
3. Bethu V. R., Pushpalatah M. S., Pushpalatha B., Aishwarya V. B., RaoTartte S. V., Rao J. V., et al. Biogenesis of Silver Nanoparticles Using Endophytic Fungus Pestalotiopsis Microspora and Evaluation of Their Antioxidant and Anticancer Activities. Int. J. Nanomedicine 11, 5683–5696, (2016).
4. Dakal, T. C., Kumar, A., Majumdar, R. S. & Yadav, V. Mechanistic basis of antimicrobial actions of silver nanoparticles. Front. Microbiol. 7, 1–17 (2016).
5. Dakhil, A. S. Biosynthesis of silver nanoparticle (AgNPs) using *Lactobacillus* and their effects on oxidative stress biomarkers in rats. J. King Saud Univ. Sci. 29(4), 462–467 (2017).
6. Deljou, A., Goudarzi, S.Green extracellular synthesis of the silver nanoparticles using Thermophilic Bacillus Sp.AZ1 and its antimicrobial activity against several human Pathogenetic bacteria. Iran J Biotech., 14(2), e1259, 25-32. (2016).
7. El-Saadony, M. T., El-Wafai, N. A., El-Fattah, H. I. & Mahgoub, S. A. Biosynthesis, optimization and characterization of silver nanoparticles using a soil isolate of *Bacillus pseudomycoides* MT32 and their antifungal activity against some pathogenic fungi. Adv. Anim. Vet. Sci. **7**(4), 238–249 (2019).
8. El-Saadony, M. T., El-Wafai, N. A., El-Fattah, H. I. A. & Mahgoub, S. A. Biosynthesis, optimization and characterization of silver nanoparticles biosynthesized by *Bacillus subtilis* spp *spizienii* MT5 isolated from heavy metals polluted soil. Zagazig J. Agric. Res 45(6B), 16 (2018).
9. Esmail, R., Afshar, A., Morteza, M., Abolfazl, A. & Akhondi, E. Synthesis of silver nanoparticles with high efficiency and stability by culture supernatant of *Bacillus* ROM6 isolated from Zarshouran gold mine and evaluating its antibacterial effects. BMC Microbiol. 22(97), 1–10 (2022).
10. Franzolin, M. R., Courrol, D. D., Silva, F. R. & Courrol, L. C. Antimicrobial activity of silver and gold nanoparticles prepared by photoreduction process with leaves and fruit extracts of Plinia cauliflora and Punica granatum. Molecules 27(20), 1–16 (2022).

11. Ganbarov Kh.G., Jafarov M.M., Ramazanov M.A., Agamaliyev Z.A., Eyvazova G.M. Biosynthesis of silver nanoparticles using Saccharomyces Sp. Strain BDU- XR1 Deutscher Wissenschaftsherold German Science Herald, N1, 7-9. (2017).
12. Garmasheva, I. et al. Lactobacillus species mediated synthesis of silver nanoparticles and their antibacterial activity against opportunistic pathogens in vitro. BioImpacts 6(4), 219–223 (2016).
13. Gunashova, G.Y., Ahmadova F.R., Khalilov R.I. (2021). Biosynthesis of silver nanoparticles using thermophilic Bacillus Sp.Б1. Advances in Biology & Earth Sciences, 6(2), 142-145.
14. Gunashova, G.Y. (2022). Synthesis of silver nanoparticles using a thermophilic bacterium strain isolated from the spring Yukhari Istisu of the Kalbajar region (Azerbaijan). Advances in Biology & Earth Sciences, 7(3), 198-204.
15. Gumel, A. M., Surayya, M. M., Yaro, M. N., Waziri, I. Z. & Amina, A. A. Biogenic synthesis of silver nanoparticles and its synergistic antimicrobial potency: an overview. J. Appl. Biotechnol. Bioeng. 6(1), 22–28 (2019).
16. Hamouda, R.A.; Hussein, M.H.; Abo-Elmagd, R.A.; Bawazir, S.S. Synthesis and biological characterization of silver nanoparticles derived from the cyanobacterium Oscillatoria limnetica. *Sci. Rep.*9, 13071, (2019).
17. Hieu, H. N. *et al.* Microorganism-mediated green synthesis of silver nanoparticles using Aspergillus niger and Bacillus megaterium. Digest J. Nanomat. Biostruct. 17(1), 359–367 (2022).
18. Hosseini-Abari A, Emtiazi G, Lee SH, Kim BG, Kim JH. Biosynthesis of silver nanoparticles by *Bacillus stratosphericus* spores and the role of dipicolinic acid in this process.Appl Biochem Biotechnol*,* 174(1): 270-282, 2014.
19. Iman Sabah Abd Alamer, Ali Athafah Tomah, Temoor Ahmed, Bin Li 1 and Jingze Zhang Biosynthesis of Silver Chloride Nanoparticles by Rhizospheric Bacteria and Their Antibacterial Activity against Phytopathogenic Bacterium Ralstonia solanacearum, Molecules, 27, 224, 2022.
20. Jain N., Bhargava A., Majumdar S., Tarafdar J. C., and Panwar J. Extracellular Biosynthesis and Characterization of Silver Nanoparticles Using Aspergillus flavus NJP08: A Mechanism Perspective. Nanoscale 3, 635–641, (2011).
21. Kalpana, D.; Han, J.H.; Park, W.S.; Lee, S.M.; Wahab, R.; Lee, Y.S. Green biosynthesis of silver nanoparticles using Torreya nucifera and their antibacterial activity. Arab. J. Chem. 12, 1722–1732, (2019).
22. Kambale, E. K. *et al.* Green synthesis of antimicrobial silver nanoparticles using aqueous leaf extracts from three Congolese plant species (Brillantaisia patula, Crossopteryx febrifuga and Senna siamea). Heliyon 6(8), 1–9 (2020).
23. Matei, A. et al. Biosynthesis of silver nanoparticles using culture filtrates of lactic acid bacteria and analysis of antifungal activity. Digest J. Nanomater. Biostruct. 10(4), 1201–1207 (2015).
24. Yin, I. X. et al. The antibacterial mechanism of silver nanoparticles and its application in dentistry. Int. J. Nanomed. 2020(15), 2555–2562 (2020).

DOİ: 10.32010/WBPC4925

ETNOQRAFİK BAXIMDAN XÜSUSİ TƏRBİYƏ MODELLƏRİNİN ÖYRƏNİLMƏSI VƏ MƏDƏNİ ƏHƏMİYYƏTİ

Xədicə Elxan ABDULLAYEVA
Azərbaycan Milli Elmlər Akademiyası, A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, doktorantı
Mingəçevir Dövlət Universitetinin müəllimi
Orcid İD: 0009-0005-8653-0428
Mail: xadica.abdullayeva.e@mdu.edu.az

Xülasə: Məqalə xüsusi tərbiyə modellərinin etnoqrafik baxımdan öyrənilməsi və onların mədəni əhəmiyyətinin təhlilinə həsr olunmuşdur. Burada tərbiyə prosesi yalnız fərdi inkişaf amili kimi deyil, həm də cəmiyyətin sosial, mənəvi və mədəni strukturunun formalaşmasında əsas mexanizm kimi dəyərləndirilir. Tədqiqatın aktuallığı ondan ibarətdir ki, qloballaşma və texnoloji dəyişikliklər dövründə gənc nəsildə milli-mənəvi dəyərlərin zəifləməsi, ailə institutunun transformasiyası və mədəni homogenləşmə meylləri müşahidə olunur. Bu baxımdan xalq tərbiyəsi ənənələrinin və etnoqrafik dəyərlərin yenidən tədqiqi, onların müasir pedaqoji sistemə inteqrasiyası mühüm elmi və sosial əhəmiyyət daşıyır. Etnoqrafik yanaşma tərbiyənin ailə, folklor, dini inanclar və təhsil mühiti kimi sosial institutlarla qarşılıqlı əlaqəsini göstərir. Araşdırmada qeyd olunur ki, tərbiyə cəmiyyətin davranış normalarını, əxlaqi prinsiplərini və milli kimliyini qoruyaraq gələcək nəsillərə ötürən mühüm sosial prosesdir. Xüsusilə, nağıllar, atalar sözləri, xalq oyunları, mərasimlər və dastanlar uşaqlarda mənəvi keyfiyyətlərin, əməksevərlik, mərhəmət, vətənpərvərlik və sədaqət kimi dəyərlərin formalaşmasında əhəmiyyətli rol oynayır. Həm ənənəvi, həm də müasir tərbiyə formalarının etnoqrafik analizi aparılaraq, onların sosiallaşma, milli kimliyin qorunması və mədəni davamlılıq baxımından əhəmiyyəti vurğulanır. Qloballaşma şəraitində milli-mənəvi dəyərlərin itməsinin qarşısını almaq üçün xalq tərbiyəsi sisteminin elmi əsaslarla araşdırılması və müasir pedaqoji prinsiplərlə uyğunlaşdırılması vacib sayılır. Məqalədə ailə institutunun tərbiyə prosesindəki əhəmiyyəti, ata-ana və nəsillərarası münasibətlərin tərbiyəvi funksiyaları, uşağın sosial və emosional inkişafında ailənin təsiri geniş şəkildə təhlil olunur. Tərbiyə yalnız fərdi davranışın formalaşması deyil, həm də cəmiyyətin mədəni davamlılığını təmin edən mühüm etnoqrafik hadisə kimi təqdim edilir. Xüsusi tərbiyə modelləri milli kimliyin, mənəvi dəyərlərin və sosial harmoniya prinsiplərinin qorunmasına yönəlmiş mədəni mexanizm kimi dəyərləndirilir. Tərbiyə cəmiyyətin mədəni yaddaşını qoruyan və mənəvi dəyərlərin nəsildən-nəslə ötürülməsini təmin edən kompleks etnoqrafik hadisə kimi təqdim olunur.

Açar sözlər: *tərbiyə, model, tərbiyə sistemi, adət-ənənə, ailə, folklor, etnoqrafik yanaşma və s.*

STUDYING SPECIAL EDUCATIONAL MODELS FROM AN ETHNOGRAPHIC PERSPECTIVE AND THEIR CULTURAL SIGNIFICANCE

Khadija Elxan ABDULLAYEVA
PhD Student, Institute of History and Ethnology named after A.A. Bakikhanov, Azerbaijan National Academy of Sciences
Lecturer, Mingachevir State University
Orcid ID: 0009-0005-8653-0428
Email: xadica.abdullayeva.e@mdu.edu.az

Abstract: The article is devoted to the ethnographic study of special educational models and the analysis of their cultural significance. Here, the educational process is evaluated not only as a factor of individual development but also as a key mechanism in shaping the social, moral, and cultural structure of society. The relevance of the research lies in the fact that, in the era of globalization and technological transformation, the weakening of national and moral values among the younger generation, the transformation of the family institution, and the tendencies of cultural homogenization are increasingly observed. In this regard, the re-examination of folk pedagogical traditions and ethnographic values, as well as their integration into the modern educational system, has significant scientific and social importance. The ethnographic approach reveals the interrelation of education with social institutions such as the family, folklore, religious beliefs, and the educational environment. The study emphasizes that education is a vital social process through which a society preserves its behavioral norms, moral principles, and national identity and transmits them to future generations. In particular, fairy tales, proverbs, folk games, ceremonies, and epics play an essential role in shaping children's moral qualities such as diligence, compassion, patriotism, and loyalty. Both traditional and modern forms of education are

ethnographically analyzed, and their importance for socialization, preservation of national identity, and cultural continuity is highlighted. In the context of globalization, the scientific study of folk education systems and their adaptation to contemporary pedagogical principles is considered crucial to prevent the loss of moral and cultural values. The article also analyzes the role of the family institution in the educational process, the intergenerational transmission of moral norms, and the emotional development of children. Education is presented not only as the formation of individual behavior but also as an ethnographic phenomenon ensuring the cultural sustainability of society. Special educational models are regarded as cultural mechanisms aimed at preserving national identity, moral values, and principles of social harmony, serving as an integral part of the collective cultural memory and continuity of moral traditions.
Keywords: education, model, educational system, traditions and customs, family, folklore, ethnographic approach, etc.

ИЗУЧЕНИЕ ОСОБЫХ ВОСПИТАТЕЛЬНЫХ МОДЕЛЕЙ С ЭТНОГРАФИЧЕСКОЙ ТОЧКИ ЗРЕНИЯ И ИХ КУЛЬТУРНОЕ ЗНАЧЕНИЕ

Хадиджа Эльхан АБДУЛЛАЕВА
Докторант Института Истории и Этнологии имени
А.А. Бакиханова Национальная Академия Наук Азербайджана
Преподаватель Мингячевирского Государственного Университета
Orcid ID: 0009-0005-8653-0428
Email: xadica.abdullayeva.e@mdu.edu.az

Резюме: Статья посвящена этнографическому изучению особых воспитательных моделей и анализу их культурного значения. В работе воспитательный процесс рассматривается не только как фактор индивидуального развития, но и как важный механизм формирования социальной, нравственной и культурной структуры общества. Актуальность исследования заключается в том, что в эпоху глобализации и технологических преобразований наблюдается ослабление национально-нравственных ценностей у молодого поколения, трансформация института семьи и тенденции культурной гомогенизации. В этом контексте переосмысление народных воспитательных традиций и этнографических ценностей, а также их интеграция в современную педагогическую систему имеют большое научное и социальное значение.

Этнографический подход показывает взаимосвязь воспитания с такими социальными институтами, как семья, фольклор, религиозные верования и образовательная среда. В исследовании подчеркивается, что воспитание является важным социальным процессом, посредством которого общество сохраняет свои поведенческие нормы, моральные принципы и национальную идентичность, передавая их будущим поколениям. В частности, сказки, пословицы, народные игры, обряды и эпосы играют значительную роль в формировании у детей таких нравственных качеств, как трудолюбие, сострадание, патриотизм и верность.

Проведен этнографический анализ как традиционных, так и современных форм воспитания, отмечена их роль в социализации, сохранении национальной идентичности и культурной преемственности. В условиях глобализации научное исследование народных воспитательных систем и их адаптация к современным педагогическим принципам считаются необходимыми для предотвращения утраты моральных и культурных ценностей. В статье также анализируется роль института семьи в процессе воспитания, функции межпоколенческих отношений, а также влияние семейной эмоциональной среды на развитие ребенка. Воспитание представлено не только как процесс формирования индивидуального поведения, но и как этнографическое явление, обеспечивающее культурную устойчивость общества. Особые воспитательные модели рассматриваются как культурный механизм, направленный на сохранение национальной идентичности, нравственных ценностей и принципов социальной гармонии, выступая неотъемлемой частью культурной памяти и моральной преемственности народа.
Ключевые слова: воспитание, модель, воспитательная система, обычаи и традиции, семья, фольклор, этнографический подход и др.

Giriş

Qloballaşma prosesində yerli mədəniyyətlərin məhv edilməsi və total birləşmənin təsiri altında etnik qrupların yoxa çıxma təhlükəsi şəraitində xalq uşaq və gənclərdə mənəvi-əxlaqi dəyərlər sistemini formalaşdırmaq və onları tanıtmaq üçün özündə unikal mexanizmləri ehtiva edir. Xüsusilə vurğulamaq lazımdır ki, multikultural cəmiyyətlərdə tərbiyənin əsas məqsədi yalnız fərdin inkişafı deyil, həm də mədəni müxtəlifliyin qorunmasıdır (Banks, 2006). Belə ki, sistemli tərbiyə nəticəsində uşaqlar və gənclər milli adətləri mənimsəməklə cəmiyyətin üzvü olmağı öyrənir, cəmiyyətin davranış qaydalarını, əxlaq normalarını qanunlarını qəbul

etməyə hazırlaşırlar. Bu baxımdan çoxəsrlik xalq tərbiyəsi ənənələri nəzərə alınmaqla zəhmətkeş xalqın demokratik tərbiyə sisteminin işlənib hazırlanması və elmi əsaslandırılması olduqca əhəmiyyətlidir. Tərbiyə etnoqrafik tədqiqat mövzusu olaraq, xalqın sosial və mədəni quruluşunun, ənənə və dəyərlərinin, dünyagörüşünün, həyat tərzinin və davranış normalarının öyrənilməsi üçün mühüm bir sahədir. Tərbiyə etnoqrafik tədqiqatların mövzusu olmaqla, cəmiyyətin özünü necə formalaşdırdığı və öz dəyərlərini necə nəsildən-nəslə ötürdüyü haqqında məlumatlar verir. Müxtəlif cəmiyyətlərdə tərbiyə modeli tarixi, mədəni və sosial faktorların təsiri altında formalaşır. Etnoqrafik yanaşma tərbiyə modellərinin spesifik xüsusiyyətlərini, onların cəmiyyət daxilində oynadığı rolu, həmçinin xalqların mədəniyyətinə göstərdiyi təsiri anlamaq üçün vacibdir. Etnoqrafik tədqiqat obyekti kimi tərbiyə müxtəlif xalqların və etnik qrupların spesifik sosial-mədəni xüsusiyyətlərini, ailədaxili münasibətləri, ənənə və inancları, həmçinin bu faktorların sosiallaşma prosesinə təsirini araşdırır. O cümlədən etnoqrafik yanaşma tərbiyənin təkcə təhsil sistemləri çərçivəsində deyil, gündəlik həyat təcrübələri vasitəsi ilə necə formalaşdığını ortaya qoyur. Etnik qruplarda tərbiyənin əsas məqsədi bilik və bacarıqların ötürülməsi deyil, həm də kollektiv şüurun formalaşması sosial münasibətlərin tənzimlənməsidir. Ə.Bayramov tərbiyə işində ictimai mühiti əsas götürərək qeyd edir ki, insanların mənəviyyatı, əxlaqi normaları və baxışları ilə bağlı olan mütərəqqi adət-ənənələrin yaradıcısı xalqdır (Quliyeva, 2005).

Etnoqrafik yanaşma tərbiyənin yalnız fərdi inkişafdan ibarət olmadığını, həm də cəmiyyətin mədəniyyətini, sosial strukturunu və dəyərlərini formalaşdıran vacib bir proses olduğunu ortaya qoyur. Etnoqrafik tədqiqat mövzusu olaraq tərbiyənin əhatə etdiyi müxtəlif sahələr:

- Adət-ənənələr və sosial struktur: Tərbiyə ənənəvi cəmiyyətlərdə, xüsusən də kənd və şəhər mədəniyyətlərində, əhəmiyyətli bir yer tutur. Etnoqrafik tədqiqatlar, bir xalqın ailə tərbiyəsi, gənclərin yetişdirilməsi, əxlaqi və mənəvi dəyərlərin öyrədilməsi kimi mövzuları əhatə edərək, bu cəmiyyətin hansı sosial strukturlarda tərbiyə prosesini həyata keçirdiyini araşdırır. Hər bir cəmiyyətdə ailə başçılarının, yaşlıların və müəllimlərin rolu tərbiyə prosesində fərqli ola bilər və bu mövzu etnoqrafik tədqiqatların əsas sahələrindən biridir.
- Dini inancların uşaqların və gənclərin tərbiyəsində rolu: Müxtəlif mədəniyyətlərdə mövcud olan dini inancların tərbiyə metodlarına təsiri, o cümlədən dini tərbiyənin sosial davranış və əxlaq normalarına təsiri, dini dəyərlərin ailə içində necə ötürülməsi kimi məsələlər etnoqrafik tədqiqatlarda araşdırılır.
- Uşaqlara və gənclərə cəmiyyətin sosial və mədəni dəyərlərini öyrənmə: Tərbiyə yalnız əxlaqi
- və davranış normalarını öyrətməklə kifayətlənmir, həm də cəmiyyətin özünün yüksək hesab etdiyi idealları və dəyərləri gələcək nəsillərə ötürür. Etnoqrafik tədqiqatlarda bu ideallar və dəyərlər cəsarət, dostluq, ailə bağları, qəhrəmanlıq, işgüzarlıq kimi mövzuları əhatə edir. Tədqiqatçılar isə fərqli mədəniyyətlərdə bu dəyərlərin necə formalaşdırıldığını və necə tədris edildiyini analiz edirlər.
- Təhsil və tərbiyə mərkəzləri: Kəndlərdə, şəhərlərdə fəaliyyət göstərən məktəblər, uğurlu şəxslərin rəhbərliyi altında olan tərbiyə müəssisələri, gənclərin tərbiyəsi ilə məşğul olan təşkilatlar var. Etnoqrafik tədqiqatlar bu tip mərkəzlərdə hansı metodların istifadə edildiyini və necə nəticələr əldə edildiyini öyrənə bilər.
- Ailə tərbiyəsi anlayışları: Ailə tərbiyəsi cəmiyyətin öz üzvünün, xüsusilə uşaqların necə yetişdirildiyini müəyyən edən vacib bir anlayışdır. Etnoqrafik tədqiqatlar fərqli cəmiyyətlərdə ata-ana rolu, valideynlərin tərbiyə metodları, uşaqların davranışlarına dair gözləntilər və ailə daxili münasibətlərin necə formalaşdırıldığı barədə dərinləşmiş təhlil verir.
- Cəmiyyətin normativ davranışları və dəyərləri: Etnoqrafik tədqiqatlar tərbiyə prosesinin necə normativ davranışları formalaşdırdığını və hansı sosial təzyiqlərin gəncləri və uşaqları müəyyən davranışlara yönəltdiyini öyrənə bilər. Bu, həm sosial mənada təhsil və tərbiyənin, həm də mədəni dəyərlərin cəmiyyətdə necə qəbul edildiyini, bu davranışların nə dərəcədə sosial təcrübəyə çevrildiyini göstərir.

Ailə Və Tərbiyə

Ailə hər bir fərdin həyatında ilkin və ən təsirli tərbiyəvi mühit kimi qəbul olunur. Ailə daxilində formalaşan dəyərlər insanın şəxsiyyətinin, düşüncə tərzinin və cəmiyyətə inteqrasiyasının əsasını təşkil edir. Ailə tərbiyə prosesinin əsas mərkəzlərindən biri olduğu üçün bu mövzu müxtəlif aspektlərdən təhlil edilə bilər. Ailə tərbiyəsinin formalaşdırdığı əsas dəyərlər və davranış normaları, fərqli mədəniyyətlərdə mövcud olan valideynlər və nəsillərarası tərbiyə metodları, ənənəvi və müasir ailə tərbiyə üsulları arasındakı fərqlər və s. kimi məsələlər etnoqrafik tədqiqatlarda geniş təhlil edilə

bilər. Uşağın ilk sosiallaşma mühiti olaraq ailədə valideynlər və yaxın qohumlar vasitəsi ilə uşağa həyatın əsas qaydaları, davranış normativləri və əxlaqi dəyərlər öyrədilir. Ailə uşağın emosional inkişafı üçün güvən mühiti yaradır. Sevgi, qayğı, dəstək uşağın özünə inamını artırır, bu da onun gələcək həyatında uğurlar qazanmasına kömək edir. Tərbiyə prosesində ata və ana rollarının bölüşdürülməsinə xüsusi diqqət yetirsək, türk ailələrində ata-qız münasibətlərinin kifayət qədər formal xarakter daşıdığını görə bilərik. Belə ki, onların öz qızlarına sevgisi oğlan övladları ilə müqayisədə əslində heç də az deyil və bəzi məqamlarda hətta daha çoxdur. Amma bu sevgi ictimai yerlərdə çox nadir göstərilir. Əlavə olaraq, övladların ataya münasibəti daha ciddidir. Belə ki, camaat arasında övladların ataya qarşı çıxmasına yol verilmir. Bunun əksinə övladların ana ilə münasibəti daha səmimidir. Bəzən böyük ailələrdə nənə də tərbiyə prosesinə daxil olaraq, uşaqları böyütmək məsuliyyətini öz üzərinə götürür (Rüstəmov və İmanov, 2024).

Müasir dövrdə ailə dəyərlərinin qorunub saxlanması və yeni tərbiyə metodlarının tətbiqi gələcək nəsillərin sağlam və balanslı inkişafını təmin etmək üçün zəruridir.

Folklor Və Tərbiyə

Folklor təkcə xalqın mədəni irsi deyil, həm də effektiv tərbiyə vasitəsidir. O, uşaqlara və gənclərə əxlaqi dəyərləri, sosial normaları və milli kimliyi aşılamaq üçün geniş imkanlar yaradır. Xalqların folkloru özünəməxsus sosial təcrübələri, tarix və mədəniyyətin zənginliyini əks etdirir. Xalqların folkloru, o cümlədən, dini inancları, mərasim və adət-ənənələri tərbiyə metodlarının və məzmununu fərqliliyini müəyyən edən əsas amillərdir. Bu isə gələcək nəsillərin öz mədəni irslərinə hörmət və sevgi ilə yanaşmasını təmin edir, eyni zamanda digər mədəniyyətlərlə dialoq və əməkdaşlıq imkanlarını genişləndirir. Folklor elementləri və mədəniyyət məhsulları - nağıllar, atalar sözləri, məsəllər, bayatılar, dastanlar, xalq hekayələri mənəvi və əxlaqi dəyərləri aşılamaq üçün mühüm vasitədir. Folklor elementlərinin tədris prosesinə daxil edilməsi, uşaqların maraqlarını artıraraq interaktiv və yaradıcı təlim mühitlərinin yaradılmasına şərait yaradır. Folklorun etnoqrafik tədqiqi, uşaqların bədii və ifadəli bacarıqlarının inkişafına dair dəyərli məlumatlar təqdim edir (Bauman, 2023). Məsəllər və deyimlər vasitəsi ilə uşaqlar cəmiyyətdə qəbul olunmuş qaydaları mənimsəyirlər. Tapmacalar uşaqların məntiqi düşüncə və yaradıcılıq qabiliyyətlərini inkişaf etdirir.

Nağıllar və atalar sözləri vasitəsi ilə uşaqlarda doğruluq, ədalət, mərhəmət, sədaqət və əməksevərlik kimi dəyərlər inkişaf edir. Nağıllar bir tərəfdən keçmişin və tarixin izlərini saxlayır, digər tərəfdən isə cəmiyyətin inkişafına, sosial dəyişikliklərə necə uyğunlaşdığını göstərir. Etnoqrafik tədqiqatlarda nağılların müasir dövrdə necə təkrar söyləndiyini, hansı yeni elementlərin daxil edildiyini və cəmiyyətin müasir məsələlərini necə əks etdirdiyini araşdırmaq mümkündür. Nağılların struktur təhlili onların təkcə əyləncə vasitəsi deyil, həm də sosial və əxlaqi dəyərlərin ötürücü funksiyasını daşıdığını göstərir (Propp, 2009). Beləliklə, nağıllar cəmiyyətin zamanla necə dəyişdiyini, ənənələrin necə yeniləndiyini və uyğunlaşdırıldığını göstərir.

Atalar sözləri isə bir cəmiyyətin kollektiv yaddaşını əks etdirir və keçmişin müxtəlif mərhələlərində xalqın qarşılaşdığı çətinliklər və əldə etdiyi təcrübələri anlamağa kömək edir. Simvolik və məna yüklü ifadələr olan atalar sözləri özündə cəmiyyətin dəyərlərini və inanclarını ifadə edir. Nümunə olaraq, "Yalan üz qaraldar". Bu atalar sözü yalanın cəmiyyət və insan üçün nə qədər zərərli olduğunu vurğulayan bir ifadədir. Bu atalar sözü insanların dürüstlük və doğru danışmaq prinsiplərinə nə qədər əhəmiyyət verməli olduqlarını bildirir. Atalar sözündən anlaşılır ki, yalan danışmaq insanın şəxsiyyətinə zərər verə bilər. "Üz qaraltmaq" ifadəsi təhqir və ya utanc verici bir vəziyyət yaratmaq mənasında istifadə edilir. Yəni, yalan danışan şəxs özü haqqında mənfi fikir və rəftar yaradır, başqalarının ona olan etibarını itirir. Beləliklə, yalan yalnız yaxşı münasibətləri pozmaqla qalmır, həm də insanın ictimai imicinə və nüfuzuna ciddi zərər vurur (Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu, 2013). Digər nümunə - "Gördüyün küllü kömbədi, bazara çıxıb qoğal olub". Bu atalar sözü isə insanın və ya bir şeyin xarici görünüşü ilə onun dəyərini və ya həqiqi keyfiyyətini qarışdırmamağın vacibliyini vurğulayan bir ifadədir. Bu atalar sözü gözəllik və ya xarici görünüşün yanıltıcı ola biləcəyini, bir şeyin və ya şəxsin zahiri keyfiyyətlərinə aldanmamağın vacibliyini izah edir. Atalar sözündəki "küllü kömbə" və "qoğal" ifadələri bir metafora kimi işlənib. Bu, heç bir şeyin ilk baxışda qiymətini təyin etməmək lazım olduğunu bildirir. Bu atalar sözü gözəllik və dəyərin yalnız xarici görünüşlə deyil, insanların əməlləri, iç dünyası və qabiliyyətləri ilə bağlı olduğunu vurğulayır (Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu, 2013).

Xalq oyunları və mərasimlər vasitəsi ilə uşaqlar əməkdaşlıq, liderlik, məsuliyyət və sosial normalara

uyğun davranış qaydaları öyrənirlər. Bu mənəvi dəyərlər xalqın həyat tərzi, yaşayışı, arzu və istəyi, məişəti haqqında geniş məlumat verir. Belə ki, uşaqların və gənclərin oyun və əyləncə fəaliyyətində obyektiv olaraq iki amil çulğalaşır: bir tərəfdən onlar praktik fəaliyyətə qoşulur, digər tərəfdən onlar bu fəaliyyətdən mənəvi və estetik məmnunluq duyur, ətraf mühitə dair bilikləri dərinləşir. Bütün bunlar son nəticə olaraq bütövlükdə şəxsiyyətin tərbiyəsinə kömək edir (Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu, 2007).

Dastanlar xalqın tarixi yaddaşını və qəhrəmanlıq ənənələrini nəsildən-nəsilə ötürür, milli kimliyini yaşadır. Azərbaycanın ən qədim və ən əhəmiyyətli ədəbiyyat nümunələrindən biri olan "Kitabi-Dədə Qorqud" dastanı, həm Azərbaycan xalqının, həm də ümumiyyətlə türk dünyasının zəngin mədəniyyətini və ədəbiyyatını təmsil edir. "Kitabi Dədə Qorqud" dastanı epik bir əsər olmaqla yanaşı, həm də xalqın həyat tərzini, adət-ənənələrini, dövrün sosial və mədəni şəraitini göstərən dəyərli bir mənbədir. Belə ki, bu dastan, yalnız ədəbiyyatın deyil, həm də etnoqrafiyanın və mədəniyyətşünaslığın tədqiqatlarında mühüm bir mənbə kimi yer alır. Bu dastanda valideynin övlada məhəbbətinə, onun sağlam və tərbiyəli böyüməsinə geniş yer verilir. Yüksək insani hiss, vəfalı olmaq, qeyrətlə, namusla ömür sürmək kimi xüsusiyyətlər tələqin edilir. Qızlarımıza ismətli olmaq, ərə arxa durmaq, dar gündə at minmək, qılınc oynatmaq, düşməndən qisas almaq kimi keyfiyyətlər aşılanır. Dosta ilqar verən, qonşuya kömək duran, doğru-düzgün, mənən pak, təmiz, sədaqətli, səxavətli, mübariz, cəsur, əməksevər olmaq tərbiyə edilir, "zəhmət çəkməyənin yaşayışı yoxdur" – deyilir. Bütün bu mənəvi zənginliklər tərbiyə məktəbi, gör-götür, öyrən, öyrət dünyası kimi səciyyələnir (Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu, 2007).

Dastanın hər bir boyunda xalqın dəyərləri və mədəni simvolları əks olunur. Bu simvollar, etnoqrafik tədqiqatlar üçün çox önəmlidir, çünki onlar bir xalqın dünyagörüşünü və mədəniyyətini əks etdirir. Məsələn:

- Dədə Qorqudun müdrikliyi və həyat fəlsəfəsi, xalqa əxlaqi və etik dəyərləri çatdırır.
- Qəhrəmanlıq və döyüşçülük simvolları, qədim türklərin güc və şərəf anlayışını əks etdirir.
- Qəbilə və ailə birliyi isə sosial strukturları və həyat tərzini müəyyənləşdirir.

Folklor tərbiyə prosesinin həm ənənəvi, həm də müasir cəhətlərini zənginləşdirən əsas vasitədir. Folklorun tərbiyəvi funksiyasını düzgün qiymətləndirərək, cəmiyyətlər öz mədəni irslərini qorumaq və eyni zamanda gələcək nəsillərə açıq, tolerant və yaradıcı düşüncə tərzini aşılmaq üçün səmərəli yanaşmalar inkişaf etdirə bilərlər. Bu da, cəmiyyətin həm mədəni, həm də sosial baxımdan davamlı inkişafının təmin olunmasına xidmət edər. Azərbaycan folklorunun zənginliyi isə tərbiyə prosesində milli-mənəvi dəyərlərin qorunmasına və gələcək nəsillərə ötürülməsinə mühüm töhfə verir.

Tərbiyə Metodları

Tərbiyə metodları - müəyyən olunmuş keyfiyyətləri uşaqlarda tərbiyə etmək məqsədi ilə onların şüuruna, iradəsinə, hislərinə, davranışına təsir göstərmək üçün nizama salınmış fəaliyyətdir (Hüseynzadə və Qəhrəmanova, 2015). İnsana hərtərəfli təsir və fəaliyyətin tamlığı prinsipindən çıxış edərək, tərbiyə metodlarını aşağıdakı kimi təsnif etmək olar:

- Şüuru formalaşdıran metodlar – buna inandırma metodları da deyilir. Bu metodlar düzgün və səmərəli tərbiyə tələblərinin nədən ibarət olmasını izah etmək, onların icrasının zəruriliyinə tərbiyə olunanları inandırmaq, nu barədə onda əqidə yaratmaq üçün istifadə edilən yol və vasitələrdir. İnsanlar möhkəm əqidəyə müxtəlif şəraitdə yiyələnirlər. Məktəbdə isə bu iş təlim, sinifdənxaric və məktəbdənkənar tədbirlər vasitəsi ilə aparılır.
- Fəaliyyətin təşkili və davranış təcrübəsini formalaşdıran metodlar – buna alışdırma metodları da deyilir. İnsanın necə hərəkət etməsində, nə çür davranmasında, öz arzu və istəklərini necə idarə etməsində şüur və əqidə ilə yanaşı, adətlər, vərdişlər, iradi keyfiyyətlər mühüm rol oynayır. Xüsusilə, şagirdlərin tərbiyəsində istənilən nəticəyə çatmaq üçün onlarda müsbət adətlərin yaranmasına və iradi keyfiyyətlərin tərbiyə olunmasına xüsusi fikir verilməlidir.
- Fəaliyyət və davranışı stimullaşdıran metodlar – buna rəğbətləndirmə və cəzalandırma metodları deyilir. Bu isə fəaliyyət və davranışa təkan vermək, insanı müsbət fəaliyyətə təhrik etmək, hərəkətə gətirmək, həvəsləndirmək deməkdir (Hüseynzadə və Qəhrəmanova, 2015).

Xüsusi tərbiyə modelləri cəmiyyətin əxlaqi dəyərlərini gənc nəslə ötürmək üçün ən vacib üsuldur. Etnoqrafik tədqiqatlar bu modellərin sosial və mədəni kontekstini araşdırır. Məsələn, bir mədəniyyətdə hörmət, ailə dəyərləri, işgüzarlıq, böyüklərə ehtiram kimi əxlaqi dəyərlər, tərbiyə vasitəsilə cəmiyyətə ötürülür. Etnoqrafik baxımdan bu dəyərlərin necə formalaşdığı və uşaqlara necə aşılandığı araşdırılır.

nəticə

Hər bir mədəniyyət özünü davam etdirmək və gələcək nəsillərə mədəni irsini ötürmək üçün müəyyən tərbiyə üsullarına və qaydalarına malik olmalıdır. Hər bir mədəniyyətin özünəməxsus xüsusiyyətləri olsa da, onların hamısı cəmiyyətin mənəvi və sosial dəyərlərini gələcək nəsillərə ötürmək məqsədi daşıyır. Sürətlə dəyişən müasir dünyada müxtəlif tərbiyə sistemlərinin sintez edilməsi və ən yaxşı tərbiyə metodlarının tətbiqi uşaqların və gənclərin daha hərtərəfli yetişməsinə kömək edə bilər. Tərbiyə metodları hər bir cəmiyyətdə insanların necə yetişdirildiyini və gələcək nəsillərə hansı dəyərlərin ötürüldüyünü göstərir. Ona görə də, etnoqrafik tədqiqatlarda tərbiyə metodlarının araşdırılması cəmiyyətin sosial, mədəni və iqtisadi strukturlarını anlamada vacib rol oynayır.

ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu. (2007). Azərbaycan etnoqrafiyası (III cild). Şərq-Qərb.
2. Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu. (2013). Atalar sözləri. Nurlan.
3. Banks, J. (2006). Cultural Diversity and Educatio. Taylor & Francis.
4. Bauman, R. (2023). Ethnography of Children's Folklore.
5. Hüseynzadə, R. və Qəhrəmanova, K. (2015). Tərbiyə. Elm.
6. Quliyeva, N. (2005). Azərbaycanda müasir kənd ailəsi və ailə məişəti. Elm.
7. Propp, V. (2009). Morphology of the Folktale. Austin.
8. Rüstəmov, R. və İmanov, G. (2024). Türk etnoqrafiyası. Iksad Publication

DOİ: 10.32010/TGNT7398

QURAQLIQ STRESİ ALTINDA ZnO NANOHİSSƏCİKLƏRİNİN ARPA YARPAQLARINDA PİQMENT TƏRKİBİNƏ, F_v/F_m PARAMETRİNƏ TƏSİRİ

Səfiyəxanım Tofiq BABANLI
Bakı Dövlət Universiteti
Orcid: http://orcid.org/0009-0004-6290-3237
E-mail: babanli-analitik@mail.ru

Xülasə: Qlobal ekoloji problem olan quraqlıq stressi planetimizin əksər bölgələrində kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını məhdudlaşdıran əsas amillərdən biridir. Quraqlıq şəraiti də daxil olmaqla, məhsuldarlıqda ciddi problemlərə səbəb olan abiotik stresslərlə mübarizədə nanotexnologiyanın tətbiqi yeni yanaşmalara səbəb olmuşdur. Kənd təsərrüfatında tətbiq olunan nanohissəciklər bitkilərdə su balansını və toxum cücərməsini tənzimləyən akvaporinlərə təsir göstərir. Nəticədə, onlar quraqlıq stressi altında toxumların su və qida maddələrinin mənimsənilməsini artırır. Kənd təsərrüfatı təcrübəsində nanomaterialların, xüsusən də nanohissəciklərin istifadəsi, onların bitki böyüməsinə və məhsuldarlığına təsirini, eləcə də potensial ekoloji risklərini qiymətləndirmək baxımından çox vacibdir. Sink oksidi (ZnO) nanohissəcikləri ən çox istehsal olunan, istifadə edilən və potensial olaraq ətraf mühitə buraxılanlardandır. Bu tədqiqatda normal suvarma və quraqlıq şəraitində arpa (Hordeum vulgare L.) bitkilərinin fotosintetik aktivliyinə, piqment tərkibinə və ferment aktivliyinə ZnO nanohissəciklərinin təsiri qiymətləndirilmişdir. Nəticələr göstərdi ki, ZnO nanohissəciklərinin tətbiqi arpa bitkilərinin quraqlığa davamlılığını artırmışdır. Bu, yarpaqlarda xlorofil piqmentlərinin və karotenoidlərin səviyyəsinin artması, eləcə də xlorofil flüoresansının Fv/Fm parametrində əhəmiyyətli dəyişikliklərlə sübut edilmişdir. ZnO nanohissəciklərinin həm normal suvarma, həm də quraqlıq şəraitində arpa yarpaqlarına əhəmiyyətli dərəcədə təsir göstərdiyi və quraqlıq stressi altında Fv/Fm parametr dəyərini azaltdığı aşkar edilmişdir. Normal suvarma zamanı ZnO nanohissəcikləri yarpaqlarda piqment səviyyəsini ardıcıl olaraq artırmışdır. Su çatışmazlığı bitki inkişafının müxtəlif mərhələlərində xlorofil tərkibini əhəmiyyətli dərəcədə azaltmışdır. Gözlənildiyi kimi, quraqlıq stressi altında piqmentlərin miqdarı əhəmiyyətli dərəcədə azalmışdır, lakin ZnO nanohissəcikləri bu piqment səviyyələrini artırmışdır. ZnO nanohissəciklərinin təsiri toxumların əvvəlcədən işlənmiş (örtülmüş) variantda daha aydın olmuşdur. Nəticədə, tapıntılarımız göstərir ki, ZnO nanohissəcikləri bitkilərin quraqlıq stressinə qarşı dözümlülüyünün artırılmasında mühüm rol oynayır.
Açar sözlər: nanohissəciklər, arpa yarpaqları, quraqlıq stressi, Fv/Fm parametri, piqmentlər.

EFFECT OF ZnO NANOPARTICLES ON PIGMENT COMPOSITION AND Fv/Fm PARAMETER IN BARLEY LEAVES UNDER DROUGHT STRESS

Safiyakhanim Tofig BABANLİ
Baku State University
Orcid: http://orcid.org/0009-0004-6290-3237
E-mail: babanli-analitik@mail.ru

Abstract: Drought stress, as a global ecological problem, is one of the main factors limiting the productivity of agricultural crops in most regions of our planet. The application of nanotechnology in combating abiotic stresses — which cause serious problems in crop productivity, including under drought conditions — has led to new approaches. Nanoparticles applied in agriculture affect aquaporins that regulate water balance and seed germination in plants. As a result, they increase the water and nutrient uptake of seeds under drought stress. In agricultural practice, the use of nanomaterials, particularly nanoparticles, is very important in terms of evaluating their effects on plant growth and productivity, as well as their potential environmental risks. Zinc oxide (ZnO) nanoparticles are among the most commonly produced, used, and potentially released into the environment.In this study, the effects of ZnO nanoparticles on the photosynthetic activity, pigment composition, and enzyme activity of barley (*Hordeum vulgare* L.) plants under normal irrigation and drought conditions were evaluated. The results showed that the application of ZnO nanoparticles increased the drought resistance of barley plants. This was evidenced by an increase in the levels of chlorophyll pigments and carotenoids in the leaves, as well as significant changes in the F_v/F_m parameter of chlorophyll fluorescence. It was found that ZnO nanoparticles had a significant effect on barley leaves under both normal irrigation and drought conditions, reducing the F_v/F_m parameter value under drought stress. Under normal irrigation, ZnO nanoparticles consistently increased pigment levels in the leaves. Water deficiency significantly reduced chlorophyll content at various stages of plant development. As expected, under drought stress, the amount of pigments decreased significantly, but (ZnO nanoparticles mitigated this reduction and increased pigment levels. The effect

of ZnO nanoparticles was more pronounced in the variant where seeds were pre-treated (coated) with these nanoparticles. As a result, our findings demonstrate that ZnO nanoparticles play an important role in enhancing plant tolerance to drought stress.
Keywords: nanoparticle, barley leaves, drought stress, F_v/F_m parameter, pigments.

ВЛИЯНИЕ НАНОЧАСТИЦ ZnO НА СОСТАВ ПИГМЕНТОВ И ПАРАМЕТР Fv/Fm В ЛИСТЬЯХ ЯЧМЕНЯ ПРИ УСЛОВИЯХ ЗАСУХИ

Сафияханым Тофик БАБАНЛЫ
Бакинский Государственный Университет
Orcid: http://orcid.org/0009-0004-6290-3237
Электронная почта: babanli-analitik@mail.ru

Резюме: Засуховый стресс как глобальная экологическая проблема является одним из основных факторов, ограничивающих продуктивность сельскохозяйственных культур в большинстве регионов нашей планеты. Применение нанотехнологий в борьбе с абиотическими стрессами, которые вызывают серьёзные проблемы в урожайности культур, включая условия засухи, привело к новым подходам. Наночастицы, применяемые в сельском хозяйстве, воздействуют на аквапорины, регулирующие водный режим и прорастание семян у растений. В результате этого повышается потребление воды и питательных веществ семенами в условиях засухи. В сельскохозяйственной практике использование наноматериалов, особенно наночастиц, имеет важное значение для оценки их влияния на рост и продуктивность растений, а также потенциальные экологические риски. Наночастицы оксида цинка (ZnO) являются одними из наиболее часто производимых, используемых и потенциально попадающих в окружающую среду. В данной работе изучено влияние наночастиц ZnO на фотосинтетическую активность, пигментный состав и ферментативную активность растений ячменя (*Hordeum vulgare* L.) при нормальном орошении и в условиях засухи. Результаты показали, что применение наночастиц ZnO повышает устойчивость растений ячменя к засуховому стрессу. Это подтверждается увеличением содержания хлорофильных пигментов и каротиноидов в листьях, а также значительными изменениями параметра F_v/F_m флуоресценции хлорофилла. Установлено, что наночастицы ZnO существенно влияют на листья ячменя как при нормальном орошении, так и при засухе, снижая значение параметра F_v/F_m в стрессовых условиях. При нормальном орошении наночастицы ZnO стабильно повышали уровень пигментов в листьях. Дефицит влаги значительно снижал содержание хлорофилла на различных стадиях развития растений. Как и ожидалось, при засухе количество пигментов значительно уменьшалось, однако наночастицы ZnO смягчали это снижение и способствовали увеличению уровня пигментов. Эффект наночастиц ZnO был более выражен в варианте с предварительной обработкой (инкрустацией) семян этими наночастицами. Таким образом, полученные результаты демонстрируют, что наночастицы ZnO играют важную роль в повышении устойчивости растений к засуховому стрессу.
Ключевые слова: наночастицы, листья ячменя, засуховый стресс, параметр F_v/F_m, пигменты.

Giriş

Quraqlıq stresi bitki cücərtilərinin inkişafına ciddi təsir edən mühüm ekoloji amil kimi bir sıra fizioloji və biokimyəvi təsirlərə səbəb olur. Bitkilərin quraqlıq stresinə qarşı cavab reaksiyası su itkisinin qarşısını almağa və oksidləşdirici zərəri azaltmağa yönəlmiş morfo-fizioloji dəyişikliklərdir [0]. Yarpaqlarda ağızcıqların bağlanması ilə transpirasiya prosesi, CO_2 qazının ötürülməsi zəifləyir. Kalvin tsiklinin məhsuldarlığı kəskin şəkildə azalır və nəticədə biokütlənin formalaşması zəifləyir. Tədqiqatlar göstərir ki, şiddətli quraqlıq köklərin və tumurcuqların quru çəkisini, yarpaqlarda xlorofil piqmentinin sintezini və bitkilərin nisbi su tərkibini azaldır [0].

Fotosintetik işığın udulması ilə enerjidən istifadə edilməsi balansının müəyyənləşdirilməsi fotosintez prosesinin quraqlıq stresi zamanı qiymətləndirilməsi üçün çox yaxşı vasitədir [0]. Quraqlıq stresi bitkilərin yarpaqlarında absis turşusunun (ABA) miqdarının artmasına və ağızcıqların bağlanmasına səbəb olur. Bu zaman CO_2 assimilyasiyası azalır və fotosintezin intensivliyi aşağı düşür [0].

Son zamanlar nanotexnologiyanın bitki fiziologiyasında tətbiqi kənd təsərrüfatı praktikasında mühüm nailiyyətlər əldə etməyə imkan vermişdir. Nanotexnologiyanın spesifik materiallarından olan nanohissəciklərin müxtəlif fiziki-kimyəvi xüsusiyyətlərinə görə bitkilərin quraqlığa davamlılığının artırılmasında mühüm rol oynadığına dair araşdırmaların sayı gündən-günə artır. Nanohissəciklərin bitkilərdə quraqlığa dözümlülük reaksiyalarında iştirak mexanizmi mürəkkəbdir və əlavə araşdırma tələb edir.

Quraqlıq stresinin davametmə müddətindən asılı olaraq, bitkilərin stresə verdiyi cavab reaksiyaları qısa müddətli və ya uzun müddətli ola bilər. Qısamüddətli reaksiyalar karbon assimilyasiyasının azalması, osmotik

tənzimləmənin və böyümənin pozulması, hidravlik dəyişikliklər və hüceyrə qurumasını göstərən siqnalların yaranması ilə müşayiət oluna bilər. Əgər normal şərait tez bir zamanda bərpa olunarsa, bu reaksiyalar bitkilər üçün ciddi nəticələrə səbəb olmur. Lakin uzunmüddətli stress şəraitində bitkilərdə geri dönməz dəyişikliklər baş verir və bu dəyişikliklər nəticə etibarilə onların məhvinə gətirib çıxara bilər [0].

Aparılan son tədqiqatlar göstərmişdir ki, ZnO nanohissəciklərinin gübrə kimi istifadəsi bitkilərin böyüməsi və inkişafında mühüm rol oynayaraq məhsuldarlığın artmasına səbəb olur. ZnO nanohissəcikləri ilə bitkilərin qidalanması adi gübrələrlə müqayisədə daha tədricən və effektiv şəkildə həyata keçirilə bilər [0].Nanohissəciklərin (məsələn, TiO_2, ZnO, Fe_2O_3, Fe_3O_4, CuO, Mn) bitkilərdə quraqlığa qarşı dözümlülüyün artırılmasında rolu son illərdə intensiv şəkildə araşdırılmışdır. Bu tədqiqatların nəticələri göstərmişdir ki, TiO_2 nanohissəcikləri özünəməxsus fotokatalitik xüsusiyyətləri sayəsində bitkilərdə fotosintez prosesini stimullaşdırır, xloroplastların işıq udma qabiliyyətini artırır, FS I və FS II arasında işığın paylanmasını tənzimləyir, fotosintezin enerji məhsuldarlığını yüksəldir və suyun fotoliz prosesini intensivləşdirir [0].

Nəzəriyyə

Bitkilərin quraqlığa dözümlülüyünün artırılmasında ZnO nanohissəciklərinin rolu intensiv şəkildə öyrənilir. Sink elementi bitkilər üçün ən vacib mikroelementlərdən biri olaraq bir çox metabolik reaksiyaların katalizi rolunda iştirak edir. Sink bitkilərdə xəstəliklərə qarşı davamlılığın formalaşmasında, fotosintezin səmərəliliyinin artırılmasında, xlorofil miqdarının yüksəldilməsində, zülal sintezi, bioloji membranların quruluşunun formalaşması və antioksidant fermentlərin aktivliyinin artırılmasında mühüm rol oynayır [0]. Sink elementi olmadan bitkilərin böyüməsi ləngiyir, fotosintez intensivliyi azalır, orqanik maddələrin sintezi məhdudlaşır, xəstəliklərə və stresə qarşı davamlılıq zəifləyir, məhsuldarlıq aşağı düşür. Sink fotosintezdə iştirak edən fermentlərin, məsələn, ribuloza 1,5-bifosfat karboksilaza (RuBPC) fermentinin tərkibinə daxildir ki, bu da paxlalılar, arpa və düyü kimi bitkilərdə karbon dioksidin fiksasiyasının ilkin mərhələsini kataliz edir [0]. Sink həmçinin lipidlər, zülallar və auksinlər kimi bioloji molekulların tərkibində mövcuddur və bitkilərdə nuklein turşularının metabolizmində kofaktor kimi çıxış edir [0]. Lakin yüksək dozada sink bitkilər üçün zərərli ola bilər və toxumalarda hüceyrələrin böyümə və bölünməsini inhibə edir [0].

Tədqiqatlar göstərir ki, sink buğda, günəbaxan, pomidor və qırmızı kələm kimi bitkilərdə quraqlığa dözümlülüyü artıra bilər [0;0;0].Son illərdə sinkin nano-formalarının hazırlanması və onların kənd təsərrüfatında, xüsusilə də quraqlığa dözümlülüyün artırılmasında tətbiqi sahəsində maraq artmışdır. Quraqlığın bitkilərə təsirini azaltmaq üçün perspektivli yanaşmalardan biri nanohissəciklərin istifadəsidir. ZnO nanohissəcikləri yaxşı antibakterial və antikorroziya xüsusiyyətlərinə malikdir, göbələklərə qarşı təsirli olur və UV radiasiya filtrasiyasında istifadə olunur. Təcrübələr göstərmişdir ki, buğda bitkisinin yarpaqlarına ZnO nanohissəciklərinin tətbiqi quraqlıq stresinin mənfi təsirlərini azalda və məhsuldarlıq göstəricilərini yaxşılaşdıra bilər [0]. Son tədqiqatlar həmçinin ZnO nanohissəciklərinin gübrə kimi istifadəsinin bitki böyüməsi və inkişafını effektiv şəkildə təşviq etdiyini və nəticədə məhsuldarlığı artırdığını göstərmişdir. Bitkilər ZnO nanohissəciklərindən qida maddələrini adi gübrələrlə müqayisədə daha səmərəli şəkildə mənimsəyə bilirlər [0].

Digər tərəfdən, ZnO nanohissəcikləri ilə işlənmiş bitkilərdə P, Cu, Fe və Zn elementlərinin balansında müəyyən dəyişikliklər müşahidə edilmişdir. Bitki müdafiə sistemlərində ZnO nanohissəciklərinin mühüm rolunu nəzərə alaraq, bitkilərin növündən və onların inkişaf mərhələlərindən asılı olaraq bu nanohissəciklərin təsirlərinin araşdırılması aktualdır. Bu tədqiqatlar həm nəzəri, həm də praktiki baxımdan xüsusi maraq doğurur.

Bu tədqiqat işində ZnO nanohissəciklərinin normal suvarma və quraqlıq stresi şəraitində yetişdirilən arpa bitkilərinə müsbət təsiri araşdırılır. Fotosintetik aktivlikdəki dəyişikliklər, piqment tərkibindəki artımlar öyrənilir.


Metod

Təcrübələrdə tədqiqat obyekti olaraq AR Kənd Təsərrüfatı Nazirliyi Əkinçilik Elmi Tədqiqat İnstitutunda yaradılmış "Qarabağ 22" qışlıq arpa sortundan istifadə edilmişdir. Orta ölçülü toxumların cücərmə faizi 95 % , 100 ədəd dənin kütləsi 42 qram, məhsuldarlığı 7,0-7,5 ton/ha.dır. Dəndə zülalın miqdarı 12.5-13.5 %-dir. "Qarabağ-22" arpa sortu duza və quraqlığa davamlılığı ilə fərqlənir. Sort həmçinin unlu şeh və sürmə xəstəliklərinə də davamlıdır. Bitkinin boyu 85-97 sm, vegetasiya müddəti 193-210 gündür. Optimal səpin müddəti oktyabr ayının II yarısından, noyabr ayının I yarısınadək hesab olunur.

Təcrübəmizdə istifadə etdiyimiz toz halında olan ZnO nanohissəcikləri Sky Spring Nanomaterials, Inc (USA) şirkəti tərəfindən fiziki üsulla sintez edilmişdir. Hissəciklərin orta ölçüsü 10-30 nm, təmizlik dərəcəsi 99.9% və səth sahəsi > 80 (m^2/q) olmuşdur.

5. Qasımova, N. (2022). Karbon emissiyalarının azaldılması üzrə beynəlxalq təcrübə və Azərbaycan üçün perspektivlər. Azərbaycan İqtisadiyyatı Jurnalı, 8(1), 65–74.

6. Intergovernmental Panel on Climate Change (IPCC). (2023). Climate Change 2023: Synthesis Report. Geneva: IPCC.

7. United Nations Development Programme (UNDP). (2024). The Climate Promise: Accelerating Action for Net Zero. Retrieved from https://www.undp.org/climate-promise

8. United Nations. (2022). The Sustainable Development Goals Report 2022. New York: United Nations Publications.

9. World Bank. (2023). Decarbonizing Development: Three Steps to a Zero-Carbon Future. Washington, DC: The World Bank Group.

10. Our World in Data. (2024). CO2 and Greenhouse Gas Emissions. Retrieved from https://ourworldindata.org/co2-and-greenhouse-gas-emissions

11. Stern, N. (2021). The Economics of Climate Change: The Stern Review. Cambridge University Press.

12. United Nations Environment Programme (UNEP). (2023). Emissions Gap Report 2023: Broken Record – Temperatures Hit New Highs, Yet World Fails to Cut Emissions. Nairobi: UNEP.

13. Кузнецов, В. А., & Михайлова, И. Г. (2021). Глобальные климатические изменения и пути устойчивого развития. Москва: Наука.

14. Иванова, Л. Н. (2022). Углеродная нейтральность: мировой опыт и перспективы для России. Экологическая экономика, 5(4), 12–25.

15. Программа развития ООН (ПРООН). (2023). Национально определяемые вклады (НДВ): Практические шаги к устойчивому будущему. Доступно по ссылке: https://www.undp.org/ru

16. Сидоров, П. Е. (2020). Воздействие выбросов CO2 на климат и экономика энергоперехода. Журнал устойчивого развития, 6(2), 44–58

DOİ: 10.32010/SRSV7995

İZOKATİON NATRİUM DUZLULUĞU ŞƏRAİTİNDƏ DUZADAVAMLILIQ DƏRƏCƏSİNƏGÖRƏ FƏRQLƏNƏN BİTKİ CÜCƏRTİLƏRİNDƏ PEROKSİDAZA, SUPEROKSİDDİSMUTAZANIN AKTİVLİYİNİN VƏ PROLİNİN MİQDARININ TƏYİNİ

Böyükxanım Əbdülkərim CƏFƏRZADƏ
Bakı Dövlət Universiteti
ORCİD NO: 0000 0002 0209 1829
E-mail: cxanum@mail.ru

Xülasə: Ekstremal duzluluq şəraitində becərilmiş duzadavamlılıq dərəcəsinə görə fərqlənən arpa, lobya cücərtilərində antioksidant fermentlərdən peroksidaza, (EC 1.11.1.21) superoksiddismutazanın (EC 1.15.1.1) aktivliyi və prolinin miqdarı tədqiq olunmuşdur. Təcrübə zamanı aşkar olmuşdur ki, su mühitində becərilən 7 günlük arpa və lobya cücərtilərində peroksidaza, superoksiddismutazanın aktivliyi və prolinin miqdarı yüksək olmuşdur. Alınan nəticələrdən aydın olmuşdur ki, su kulturasında becərilmiş arpa və lobya cücərtilərinin yerüstü hissəsində izokation natrium duzlarının qatılığı artdıqca peroksidazanın aktivliyinin dəyişməsi adekvat xarakter daşıyır. Müəyyən olmuşdur ki, həm arpa, həm də lobya cücərtilərinin kök sistemində SOD-un aktivliyi yerüstü hissəyə nisbətən aşağıdır. Alınan nəticələrdən aydın olur ki, su kulturasında becərilmiş 7 günlük arpa cücərtilərinin kök sistemində SOD-un aktivliyi xlorid və sulfat duzunun təsirindən qatılıq artdıqca (25-50mM) artmış, qatılığın sonrakı artımı zamanı (75-100mM) fermentin aktivliyi zəifləmiş, lakin kontrolla müqayisədə yüksək olmuşdur. Torpaq kulturasında becərilmiş arpa cücərtilərində fermentin aktivliyi duzların təsirindən zəifləmişdir. SOD-un aktivliyinin zəifləməsi duz stresi şəraitində əmələ gələn superoksid anion radikallarının söndürülməsi zamanı miqdarının azalması ilə izah oluna bilər. Qeyd etmək lazımdır ki, su kulturasında becərilmiş lobya cücərtilərinin kök sistemində duzların qatılığı artdıqca SOD-un aktivliyinin artmasının xətti xarakter daşıması kök sistemində substratın miqdarının azalmasını göstərir. Aydın olmuşdur ki, həm su kulturasında, həm də torpaq kulturasında cücərtilərin köklərində və yerüstü hissəsində nisbətən aşağı qatılıqlarında prolinin miqdarı artmış, qatılığın sonrakı artımı zamanı prolinin miqdarı azalsa da, əsasən kontroldan yüksək olmuşdur. Duz stresi zamanı duzadavamlı arpada duzahəssas lobya bitkisinə nisbətən prolinin daha çox toplanması müəyyən olunmuşdur. Ekstremal duzluluq şəraitində təcrübə üçün götürülmüş lobya və arpa bitkilərində prolinin miqdarının artması duzavamlı genotiplərin seçilməsində əsas parametrlərdən biri hesab oluna bilər.
Açar sözlər: duz stresi, superoksiddismutaza, superoksid-anion-radikalları, peroksidaza, prolin

DETERMİNATİON OF PEROXİDASE, SUPEROXİDE DİSMUTASE ACTİVİTY AND PROLİNE CONTENT İN PLANT SEEDLİNGS DİFFERİNG İN SALT TOLERANCE UNDER İSOİONİC SODİUM SALT STRESS CONDİTİONS

Boyukkhanim Abdulkerim JAFARZADEH
Baku State University
Orcid: 0000-0002-0209-1829
E-mail: cxanum@mail.ru

Abstract: Barley and bean seedlings differing in salt tolerance levels were studied under severe salinity stress conditions. The activity of antioxidant enzymes — peroxidase (EC 1.11.1.21) and superoxide dismutase (SOD, EC 1.15.1.1), as well as proline accumulation, were investigated. The results revealed that in 7-day-old seedlings grown in hydroponic culture, peroxidase and SOD activities, together with proline content, were significantly higher. It was found that in the aerial parts of hydroponically grown barley and bean seedlings, an increase in the concentration of sodium salts was accompanied by corresponding changes in peroxidase activity. Moreover, SOD activity in the root system of both crops was lower compared to the aerial part. In the roots of barley seedlings grown in water culture, SOD activity increased under the influence of chloride and sulfate salts at concentrations of 25–50 mM, but decreased at higher concentrations (75–100 mM), remaining above the control level. In soil culture, however, SOD activity was reduced under salt stress. This reduction can be explained by the lower availability of superoxide anion radicals generated under saline conditions, while the increase in catalase and peroxidase activity may compensate for the decrease in SOD activity. In the root system of bean seedlings grown in water culture, SOD activity tended to increase with rising salt concentrations, indicating a reorganization of the plant's antioxidant defense system. Proline accumulation in both roots and shoots increased at lower salt concentrations in both water and soil cultures; at higher concentrations it slightly decreased, but still remained above control values. It was also shown that salt-tolerant barley

seedlings accumulated more proline under salinity stress compared to salt-sensitive bean seedlings. Thus, increased proline content under severe salinity stress can be considered a key parameter for identifying salt-tolerant plant genotypes.
Keywords: salt stress, superoxide dismutase, superoxide anion radicals, peroxidase, proline.

ОПРЕДЕЛЕНИЕ АКТИВНОСТИ ПЕРОКСИДАЗЫ, СУПЕРОКСИДДИСМУТАЗЫ И СОДЕРЖАНИЯ ПРОЛИНА В ПРОРОСТКАХ РАСТЕНИЙ, РАЗЛИЧАЮЩИХСЯ ПО СОЛЕУСТОЙЧИВОСТИ, В УСЛОВИЯХ ИЗОАНИОННОГО НАТРИЕВОГО ЗАСОЛЕНИЯ

Боюкханым Абдулкерим ДЖАФАРЗАДЕ
Бакинский Государственный Университет
Orcid: 0000-0002-0209-1829
Электронная почта: cxanum@mail.ru

Резюме: В условиях сильного солевого стресса были исследованы проростки ячменя и фасоли с различной степенью устойчивости к засолению. Определялись активность антиоксидантных ферментов — пероксидазы (ЕС 1.11.1.21) и супероксиддисмутазы (СОД, ЕС 1.15.1.1), а также содержание пролина. Эксперименты показали, что у семидневных проростков, выращенных в водной культуре, уровень активности указанных ферментов и накопление пролина были значительно выше. Установлено, что в надземной части проростков ячменя и фасоли, выращенных в гидропонной среде, повышение концентрации натриевых солей сопровождалось соответствующими изменениями активности пероксидазы. Выявлено также, что в корневой системе активность СОД была ниже, чем в надземной части растений. В корнях семидневных проростков ячменя при культивировании в водной среде активность СОД возрастала при действии хлоридных и сульфатных солей в концентрации 25–50 мМ, но при дальнейшем увеличении концентрации (75–100 мМ) снижалась, оставаясь выше уровня контроля. В почвенной культуре активность фермента под влиянием солей уменьшалась. Ослабление СОД может быть связано с уменьшением количества супероксид-анион-радикалов, образующихся в условиях солевого стресса. При этом активность каталазы и пероксидазы могла возрастать, компенсируя снижение активности СОД. В корневой системе фасоли, выращенной в водной культуре, наблюдалась тенденция к увеличению активности СОД с повышением концентрации солей, что указывает на перестройку антиоксидантной системы растения. Содержание пролина в корнях и надземной части проростков как в водной, так и в почвенной культуре увеличивалось при низких концентрациях солей, а при дальнейшем их повышении несколько снижалось, оставаясь выше контроля. Установлено, что в условиях солевого стресса в устойчивых к соли проростках ячменя накопление пролина было выше, чем в чувствительных к соли проростках фасоли. Таким образом, увеличение содержания пролина в условиях сильного засоления может рассматриваться как один из ключевых критериев отбора солеустойчивых генотипов растений.
Ключевые слова:солевой стресс, супероксиддисмутаза, супероксид-анион-радикалы, пероксидаза, пролин

Giriş

Hal-hazırda əkinçiliyin üzləşdiyi ciddi problemlərin biri də kənd təsərrüfatı torpaqlarının həm təbii, həm də antropogen səbəblərdən şoranlaşmasıdır. [0;0;0]

Son hesablamalara əsasən, kənd təsərrüfatı torpaqları da daxil olmaqla, Yer səthinin quru hissəsinin təxminən 15–23 %-i şoran torpaqlardır. Ətraf mühitin əsas amillərindən biri olan torpaq duzluluğu kənd təsərrüfatı bitkilərinin inkişafına və məhsuldarlığına ciddi təsir göstərir [0]. Azərbaycanda şoranlaşmış torpaqlar 1,3 milyon hektardan artıqdır [0] və bu prosesin irəliləməsi tendensiyası müşahidə olunur [0].Azərbaycan torpaqlarında duzların tərkibi müxtəlif olub, əsasən xloridli-sulfatlı və ya sulfatlı-xloridli şoranlaşma tipləri üstünlük təşkil edir, karbonatlı duzluluq isə nisbətən az müşahidə olunur [0;0].

Qeyd olunmalıdır ki, yüksək duzluluq şəraiti mədəni bitkilərin inkişafını zəiflədir, məhsuldarlığı kəskin azaldır və bəzi hallarda bitkilərin tam məhvinə gətirib çıxarır [0;0].

Hazırda torpaqda ən təhlükəli duzluluq növü natrium-xlorid tipli duzluluq hesab olunur, çünki Na^+ və Cl^- kimi kimyəvi aktiv ionlar bitki hüceyrələrində artıq miqdarda toplanır, bir-sıra fizioloji-biokimyəvi proseslərə mənfi təsir göstərir və son nəticədə məhsuldarlığı kəskin azaldır [0,0,0,0].Yer üzərindəki bitkilərin əksəriyyəti inkişaf dövrləri ərzində duzların təsirinə məruz qalır. Buna görə də duzların bitki orqanizminə təsir mexanizminin öyrənilməsi həm nəzəri, həm də praktiki baxımdan böyük əhəmiyyət daşıyır. Alimlər duzların toksik təsirini hüceyrə fermentlərinin aktivliyinin pozulması ilə əlaqələndirirlər [0;0]. Bu da təbiidir, çünki fermentlər

canlı orqanizmlərdə bütün fizioloji və biokimyəvi proseslərin əsas tənzimləyici elementləridir. Məlumdur ki, bitki orqanizmlərində müxtəlif müdafiə sistemləri mövcuddur və onlardan biri də hüceyrə səviyyəsində fəaliyyət göstərən ferment sistemidir. Bu baxımdan, xüsusilə peroksidaza və superoksiddismutaza kimi fermentlərin aktivliyinin öyrənilməsi böyük elmi əhəmiyyət daşıyır.

Nəzəriyyə

Duzluluq şəraitində bitkilərdə hidrogen peroksid [0] və hüceyrələr üçün toksik olan oksigenin aktiv formalarının yaranmasına səbəb olan superoksid-anion-radikalları [0].

Peroksidaza hidrogen peroksidi suya və atomar oksigenə parçalayır. Superoksiddismutaza (SOD) isə superoksid-anion-radikallarının molekulyar oksigenə və hidrogen peroksidə çevrilmə prosesini kataliz edir. Peroksidaza bitki orqanizminin xəstəliklərə qarşı davamlılığını artıran əsas fermentlərdən biridir. O, polifenolların sintezində və benzol halqasının hidroksidləşməsi prosesində mühüm rol oynayır. Bundan əlavə, hüceyrənin oksigen ehtiyatından səmərəli istifadəsində də peroksidazanın xüsusi əhəmiyyəti vardır [0]. Beləliklə, peroksidaza bitkilərdə böyümə və inkişaf proseslərinin tənzimlənməsində mühüm iştirak edir.

Superoksiddismutaza (SOD) da bitki toxuma və hüceyrələrində geniş yayılmışdır. Superoksid anion radikalları molekulyar oksigenin bir elektronlu reduksiyasının ilk məhsuludur və hüceyrələrə daha toksiki təsir göstərən oksigenin aktiv formalarının əmələ gəlmə mənbəyidir [0]. Superoksid anion radikalları oksigenin digər aktiv formalarının əmələ gəlməsində iştirak etməkdən əlavə, hüceyrədaxili makromolekulları, o cümlədən zülalları bilavasitə oksidləşdirir və fermentləri inaktivləşdirir. Ona görə də SOD hüceyrədaxili makromolekulları oksidləşdirici zədələnmədən qoruyan ilk müdafiə xətti yaradan vacib fermentlərdən biridir. Həmçinin hüeyrədə superoksid anion radikallarının qatılığının aşağı səviyyədə olmasını təmin edir və OAF-nın (oksigenin aktiv formaları) əmələ gəlmə aktivliyini azaldır [0].

Duzların bitkilərə mənfi təsiri ontogenezin ilkin mərhələlərində daha güclü şəkildə müşahidə olunur və bu dövrdə bitkilər şoranlığa qarşı daha həssas olurlar. Buna görə də duzların bitki orqanizminə təsir mexanizmini öyrənmək məqsədilə cücərtilərin ilkin inkişaf mərhələlərində gedən fizioloji-biokimyəvi proseslərin tədqiqi böyük əhəmiyyət daşıyır. Çünki bu mərhələdə hüceyrələrdə baş verən ilkin biokimyəvi reaksiyalar bitki orqanizminin sonrakı metabolik proseslərinə birbaşa təsir göstərir. Beləliklə, yuxarıda göstərilənlərdən aydın olur ki, peroksidaza və superoksiddismutaza hüceyrə metobalizmində olduqca fəal iştirak edən fermentlərdir.

Metod

Tədqiqatın məqsədi ekstremal duzluluq şəraitində torpaq və su kulturasında yetişdirilən, duzadavamlılıq dərəcəsinə görə fərqlənən arpa və lobya cücərtilərinin kök və yerüstü hissələrində fermentlərin aktivliyini öyrənməkdir. Bu, peroksidaza və superoksiddismutaza reaksiyalarının adekvat və ya spesifik xüsusiyyətlərinin müəyyənləşdirilməsinə şərait yaradır. Həmçinin duz stresi zamanı bitkilərdə müdafiə sistemi komponentlərindən biri olan prolinin miqdarının dəyişən dinamikasının öyrənilməsi qarşıya məqsəd qoyulmuşdur.Tədqiqat obyekti kimi kənd təsərrüfatında geniş istifadə olunan birləpəlilər

sinfinə aid olan arpa (Qarabağ-22) və ikiləpəlilər sinfinə aid olan paxlalılar fəsiləsiləsindən lobya (Yerli piyada) sortlarının 7günlük cücərtilərindən istifadə olunub. Toxumların cücərməsi işıqlanma dərəcəsi 420-480lk olan xüsusi kamerada, 200C və normal aerasiya şəraitində (0,04 mq O_2/dəq) su məhlulu və torpaq kulturasında (tünd dağ boz-qəhvəyi) aparılmışdır.

Bitki kökləri və yerüstü hissələrində peroksidaza aktivliyi benzidinin oksidləşməsi nəticəsində əmələ gələn göy rəngli məhlulun müəyyən qatılığa çatdığı oksidləşmə reaksiyasının sürətinə əsaslanır. Aktivlik Fotoelektrokolorime

tr (UXL-42) vasitəsilə müəyyən edilmişdir [0].

Superoksid anion radikalının əmələ gəlməsi nitroblue- tetrazoliumun bənövşəyi rəngin əmələ gəlməsinə əsaslanır. Fermentin aktivliyi spektrofotomekrik üsulu ilə aparılmışdır [0].

Bitki köklərində və yerüstü hissədə prolinin miqdarı spektrofotometrik yolla Bates və b. (1973) irəli sürdüyü modifikasiya olunmuş metodla təyin edilmişdir. Optiki sıxlıq 520nm-də qeyd olunur. Prolinin qatılığı 0.01-0.02mM kalibrasiya əyrisinə əsasən aşağıdakı düsturla təyin olunur:

$y=0.055x + 0.078$

Tədqiqatlar 3–4 təkrarla aparılmış, dəqiqlik göstəricisi 5%-dən aşağı olan nəticələr statistik olaraq etibarlı hesab edilmişdir [0]


Nəticələr və onların müzakirəsi

Aşkar olunmuşdur ki, su və torpaq kulturasında becərilmiş 7günlük arpa və lobya cücərtilərinin köklərində peroksidazanın aktivliyi yerüstü hissəyə nisbətən yüksək olmuşdur (şəkil 1). Müəyyən olunmuşdur ki, su kulturasında cücərtilərin kökündə və yerüstü hissəsində peroksidazanın aktivliyi torpaq


kulturasına nisbətən yüksək olmuşdur. Qeyd etmək lazımdır ki, analoji nəticə superoksiddismutaza fermenti üçün də alınmışdır.

Ümumiyyətlə su kulturasında becərilmiş bitkilərdə fizioloji-biokimyəvi proseslər torpaq kulturasında becərilmiş bitkilərə nisbətən daha sürətlə baş verir. Bundan əlavə, aydın olur ki, lobya cücərtilərində peroksidazanın aktivliyi arpa cücərtilərinə nisbətən yüksək olmuşdur. Su kulturasında yetişdirilən bitkilərdə aerasiya və su təminatı daha yaxşı olduğundan fizioloji və biokimyəvi proseslər daha sürətli baş verir.

a)



(b)



Şəkil 1. Müxtəlif qatılıqlı NaCl, Na_2SO_4 duzluluğu şəraitində su (a) və torpaq kulturalarında (b) becərilmiş 7 günlük arpa cücərtilərinin köklərində və yerüstü hissəsində peroksidazanın aktivliyi.


Bundan əlavə Na_2SO_4 və NaCl-un müxtəlif qatılıqlarının təsirindən peroksidazanın aktivliyi təyin edilmişdir. Alınan nəticələrdən aydın olur ki, duzun qatılığı artdıqca (25-100 mM) su kulturasında becərilmiş 7günlük arpa cücərtilərinin yerüstü hissəsində peroksidazanın aktivliyi düz xətt boyunca artmışdır.

Arpa cücərtilərinin köklərində duzların təsirindən başqa mənzərə alınır. Şəkildən aydın olur ki, arpa cücərtilərinin köklərində duzların qatılığı nisbətən aşağı olduqda (25-50 mM) peroksidazanın aktivliyi artır, sonra isə qatılığın artması ilə (75-100 mM) əlaqədar olaraq peroksidazanın aktivliyi azalır. (şəkil 1(a))


Qeyd etmək lazımdır ki, torpaqda becərilmiş arpa cücərtilərində həm kök, həm də yerüstü hissəsində duzların təsirindən başqa mənzərə alınır. Belə ki, torpaq kulturasında becərilmiş 7- günlük arpa cücərtilərinin kök sistemində duzların qatılığı nisbətən aşağı olduqda (0,2%) peroksidazanın aktivliyi artır. Sonra isə qatılığın artması ilə (0,4-1,0%) peroksidazanın aktivliyi azalır.

Yerüstü hissədə duzların nisbətən aşağı qatılıqlarda (0,2-0,4%) peroksidazanın aktivliyi artmış, qatılığın sonrakı artımı (0,6-1,0%) fermentin aktivliyinin azalmasına səbəb olmuşdur . (şəkil 1 (b))

a)



b)



Şəkil 2. Müxtəlif qatılıqlı NaCl, Na_2SO_4 duzluluğu şəraitində su (a) və torpaq kulturalarında (b) becərilmiş 7 günlük lobya cücərtilərinin köklərində və yerüstü hissəsində peroksidazanın aktivliyi.

Qeyd etmək lazımdır ki, həm su, həm də torpaq kulturasında becərilmiş 7 günlük lobya cücərtilərinin köklərində və yerüstü hissəsində izokation natrium duzlarının qatılığı artdıqca peroksidazanın aktivliyi düz xətt boyuna artır. (şəkil 2 (a,b))


Məlumdur ki, duz stresi şəraitində hüceyrə və toxumaları oksidləşdirici zədələnmələrdən qorumaqda ən vacib rol oynayan antioksidant müdafiə sistemi fermentlərindən biri də superoksiddismutazadır [0,0,0].


İzokation natrium duzluluğu şəraitində becərilmiş arpa və lobya cücərtilərində superoksiddismutazanın (SOD) aktivliyi tədqiqat olunmuşdur.

Alınan nəticələrdən aydındır ki, su mühitində becərilən 7-günlük arpa və lobya cücərtilərində də peroksidazada olduğu kimi SOD – un aktivliyi torpaqda becərilmiş bitkilərə nisbətən yüksək olmuşdur.


Bundan əlavə, müəyyən olunmuşdur ki, həm arpa, həm də lobya cücərtilərinin köklərində SOD -un aktivliyi yerüstü hissəyə nisbətən aşağıdır. Kökə nisbətən yerüstü hissədə SOD -un aktivliyinin yüksək olması, xloroplastlarda fermentin müxtəlif izoformalarının fəaliyyət göstərməsi ilə izah oluna bilər. Müəyyən olunmuşdur ki, cücərtilərdə SOD-un aktivliyi mühitdəki izokation nutrinium duzlarının qatılığından asılıdır.

a)





Şəkil 3. Müxtəlif qatılıqlı NaCl, Na_2SO_4 duzluluğu şəraitində su (a) və torpaq kulturalarında (b) becərilmiş 7 günlük arpa cücərtilərinin köklərində və yerüstü hissəsində superoksiddismutazanın aktivliyi.



Şəkil 4. Müxtəlif qatılıqlı NaCl, Na_2SO_4 duzluluğu şəraitində su (a) və torpaq kulturalarında (b) becərilmiş 7 günlük lobya cücərtilərinin köklərində və yerüstü hissəsindəsində superoksiddismutazanın aktivliyi.

Alınan nəticələrdən aydın olur ki, su kulturasında becərilmiş 7 günlük arpa cücərtilərinin kök sistemində SOD-un aktivliyi xlorid və sulfat duzunun təsirindən qatılıq artdıqca (25-50 mM) artmış, qatılığın sonrakı artımı zamanı (75-100 mM) fermentin aktivliyi zəifləmiş, lakin kontroldan yüksək olmuşdur. Yerüstü hissə də isə xlorid duzunun qatılığının (25-100 mM) artması ilə SOD-un aktivliyi kontrola nisbətən azalmışdır. Sulfat duzluluğu zamanı isə qatılığın (25-50 mM) artması zamanı fermentin aktivliyi artmış, qatılığın sonrakı artımı (75-100 mM) zamanı fermentin aktivliyi zəifləsədə kontroldan yüksək olmuşdur (şəkil 3 (a)).

Qeyd etmək lazımdır ki, torpaq kulturasında becərilmiş arpa cücərtilərinin həm kök, həm də yerüstü hissəsində duzların təsirindən başqa mənzərə alınır. Belə ki, torpaq kulturasında becərilmiş arpa cücərtilərinin kök sistemində NaCl duzunun qatılığı artdıqca (0,2-1,0%) SOD-un aktivliyi kəskin azalır. Sulfat duzluluğu zamanı isə nisbətən (0,2-0,4%) aşağı

qatılıqlığda fermentin aktivliyi zəifləmiş, qatılığın sonrakı artımı (0,6-1,0%) fermentin aktivliyini artırsa da, aktivlik kontroldan aşağı olmuşdur. Yerüstü hissədə isə, duzların qatılığının artması zamanı fermentin aktivliyi kəskin azalmışdır (şəkil 3 (b)).

Qeyd etmək lazımdır ki, su kulturasında becərilmiş lobya cücərtilərinin kök sistemində duzların qatılığı (10-30 mM) artdıqca SOD-un aktivliyinin artmasının xətti xarakter daşıması kök sistemində substratın miqdarının azalmasını göstərir. Yerüstü hissədə duzların qatılığı (10-30 mM) artdıqca SOD -un aktivliyi zəifləmişdir. Sulfat duzluluğu zamanı azalma daha kəskin xarakterdə olmuşdur (şəkil 4 (a)).

Analoji nəticə müxtəlif qatılıqlı duzluluq şəraitində torpaqda becərilmiş 7 günlük lobya cücərtilərinin yerüstü hissəsində də alınmışdır. Belə ki, duzların qatılığı artdıqca (0,2-0,6%) yerüstü hissədə SOD-un aktivliyi azalmışdır (şəkil 4 (b)). Lobya cücərtilərinin kök sistemində isə duzların qatılığı nisbətən aşağı olduqda (0,2%) SOD - un aktivliyi zəifləmiş, qatılığın sonrakı artımı zamanı (0,4-0,6%) SOD-un aktivliyi artmışdır. Lakin SOD-un aktivliyi kontrola nisbətən aşağı olmuşdur (şəkil 4 (a,b)).

Yüksək qatılıqlı duzların uzun müddətli təsiri zamanı SOD-un aktivliyinin zəifləməsinə səbəb superoksid radikallarının söndürülməsi zamanı miqdarının azalması da ola bilər. Bundan əlavə, fermentin inaktivləşməsinə və ya deqredasiyasına səbəb H_2O_2 və hidroksil radikalı OH^- ola bilər. Xüsusən H_2O_2 fermentn aktiv mərkəzində misin ikivalentli ionunu (Cu^{2+}) birvalentli (Cu^+) iona reduksiya edir. Bu zaman (Cu^{2+}, OH^-) yeni forma əmələ gəlir, OH* radikali da fermentin aktiv mərkəzində amin turşuları ardıcılığında oksidləşdirici modifikasiya əmələ gətirərək fermenti inaktivləşdirə bilir. Stres zamanı SOD aktvliyinin zəifləməsi oksigenin digər aktiv formalarının miqdarının artmasına səbəb olur və bunun nəticəsində bitki hüceyrəsi və toxumalarının oksidləşdirici zədələnməsi kəskin artır [0]. Stres şəraitində fermentin aktivliyinin yüksəlməsini yeni fermenti molekullarının sintezinin artması ilə izah etmək olar.

Alınan nəticələr ədəbiyyat məlumatları ilə uzlaşır. Belə ki, bir sıra alimlər stres zamanı hüceyrə və toxumaların oksidləşmə zədələnmələrindən qorunması zamanı SOD-un aktivliyinin zəifləməsini qeyd etmişlər [0].

Ekstremal duzluluq şəraitində fermentlərin aktivliyinin xətti xarakter daşıması, toxumalarda ferment substratı olan hidrogen peroksid və superoksid-anion-radikalların hələ doyma səviyyəsinə çatmaması ilə izah olunur. Belə ki, istənilən fermentativ reaksiyalar, o cümlədən peroksidaza və superoksiddismutaza tərəfindən katalizlənən reaksiyalar, substrat doyma halına çatana qədər I tərtibli xarakter göstərir. Doyma səviyyəsindən sonra isə fermentativ reaksiya sıfır tərtibli olur və substrat miqdarından asılı olmur.

Qeyd etmək lazımdır ki, SOD-un təsiri nəticəsində əmələ gələn H_2O_2 fermentin inhibitorudur. Beləliklə, SOD-un effektiv fəaliyyət göstərməsi, H_2O_2 ni parçalayan başqa müdafiə sistemi fermentlərinə aid olan katalaza, askarbat-qlütation tsikli fermentlərindən də asılıdır. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, universal üzvi protektor birləşmə olan prolin həm azot, karbon və reduksiya olunmuş ekvivalentlərin mənbəyi, həm də antioksidant, osmolit və energetik substrat kimi fəaliyyət göstərir. Bundan əlavə, prolinin hüceyrə membranını və bitkiləri superoksid stresindən qoruması barədə məlumatlar mövcuddur [0].

Yuxarıda göstərilənləri nəzərə alaraq, duz stresi şəraitində arpa və lobya cücərtilərində prolinin miqdarının dəyişmə dinamikasının tədqiqi mühüm əhəmiyyət kəsb edir.

Aparılan tədqiqatlar nəticəsində aydın olur ki, su kulturasında becərilmiş cücərtilərin köklərində və yerüstü hissəsində prolinin miqdarı torpaq kulturasında becərilən bitkilərə nisbətən yüksək olmuşdur. Bundan əlavə, şəkil 5,6-dan aydın olur ki, həm su kulturasında, həm də torpaq kulturasında becərilmiş arpa bitkisinin kök sistemində prolinin miqdarı yerüstü hissəyə nisbətən aşağ olmuşdur. Şəkil 5,6-dan aydın olur ki, su kulturasında becərilmiş 7-günlük arpa cücərtilərinin köklərində və yerüstü hissəsində duzların qatılığı 25-50 mM olduqda prolinin miqdarı artmış, qatılığın sonrakı artımı zamanı (75-100 mM) isə prolinin miqdarı azalmış, lakin kontroldan yüksək olmuşdur. Belə ki, 50 mM NaCl-un təsirindən arpa cücərtilərinin yerüstü hissəsində prolinin miqdarı 1,3; köklərində 1,6 dəfə, 50 mM Na2SO4-ün təsirindən yerüstü hissədə 1,2 dəfə, köklərində isə 1,4 dəfə artmışdır.

Analoji nəticə torpaq kulturasında becərilmiş bitkilərdə də alınmışdır. Belə ki, torpaq kulturasında becərilmiş 7-günlük arpa cücərtilərinin köklərində və yerüstü hissəsində duzların qatılığı 0,2-0,6% olduqda prolinin miqdarı artmış, qatılığın sonrakı artımı zamanı (0,8-1,0%) prolinin miqdarı azalmış azalsa da, lakin kontroldan yüksək olmuşdur (Şəkil 5,6). Belə ki, 0,6% NaCl-un təsirindən arpa cücərtilərinin yerüstü hissəsində prolinin miqdarı kontrola nisbətən 1,8 dəfə, köklərində 2,3 dəfə, 0,6% Na2SO4-ün təsirindən isə yerüstü hissədə 1,7 dəfə, köklərində 2,2 dəfə artmışdır.


Beləliklə torpaq kulturasında becərilmiş arpa cücərtilərində duzların təsirindən prolinin miqdarı su kulturasında becərilmiş bitkilərə nisbətən daha çox artmışdır.

Qeyd etmək lazımdır ki, ikiləpəli duzadavamsız lobya cücərtilərində nisbətən başqa mənzərə alınmışdır. Belə ki, su kulturasında becərilmiş cücərtilərin köklərində və yerüstü hissəsində prolinin miqdarı torpaq kulturasında becərilən bitkilərə nisbətən aşağı olmuşdur. Su kulturasında becərilmiş 7günlük lobya cücərtilərində də duzların təsirindən analoji nəticə alınmışdır. Belə ki, su kulturasında becərilmiş 7günlük lobya cücərtilərinin köklərində və yerüstü hissəsində duzların qatılığı 10-20mM olduqda prolinin miqdarı artmış, qatılığın sonrakı artımı zamanı (30 mM) prolinin miqdarı azalsa da kontroldan yüksək olmuşdur.

Aşkar olunmuşdur ki, 20 mM NaCl-un təsirindən lobya cücərtilərinin yerüstü hissəsində prolinin miqdarı 1.8dəfə, köklərində isə 1.5 dəfə, 20mM Na_2SO_4-ün təsirindən yerüstü hissədə 2.1 dəfə, köklərdə isə 2.3 dəfə artmışdır.


Torpaq kulturasında becərilmiş 7günlük lobya cücərtilərinin köklərində və yerüstü hissəsində duzların qatılığı (0.2-0.4%) artdıqca prolinin miqdarı artmış, qatılığın sonrakı artımı zamanı (0.6%) prolinin miqdarı kontrola nisbətən aşağı olmuşdur. 0.4% NaCl-un təsirindən lobya cücərtilərinin yerüstü hissəsində prolinin miqdarı1.4 dəfə, köklərində1.6 dəfə, Na_2SO_4-ün təsirindən isə yerüstü hissədə 1.5dəfə, kğklərdə isə 1.6 dəfə artmışdır (şəkil 7,8)

Qeyd etmək lazımdır ki, duzların nisbətən aşağı qatılığında cücərtilərdə prolinin miqdarının artması, bitkilərin qeyrri-əlverişli şəraitə davamlılıq faktorlarından biri hesab edilə bilər



a) b)

Şəkil 5. Müxtəlif qatılıqlı NaCl, Na2SO4 duzluluğu şəraitində su (a) və torpaq (b) kulturasında becərilmiş 7 günlük arpa cücərtilərinin yerüstü hissəsində prolinin miqdarı.




b)

a)


Şəkil 6. Müxtəlif qatılıqlı NaCl, Na2SO4 duzluluğu şəraitində su (a) və torpaq (b) kulturasında becərilmiş 7 günlük arpa cücərtilərinin köklərində prolinin miqdarı.

Aldığımız nəticələr ədəbiyyat məlumatları ilə uzlaşır. Duzun təsirindən Tritikale bitkisinin kök və yarpaq toxumalarında 120mM NaCl-un təsirindn prolinin miqdarı 4sukta ərzində yarpaqda kontrola nisbətən 3 dəfə artmışdır. Bu da görünür hüceyrədaxili osmotik balansın saxlanılmasını təmin etmək üçün

vacib amillərdən biridir [0]. Digər tədqiqatçılar [0] 100 mM NaCl təsiri altında tütün hüceyrə kulturasında prolin miqdarı ilə K^+/Na^+ nisbəti arasında əks korelyativ əlaqə olduğunu müəyyən etmişlər. K^+/Na^+ nisbətinin azalması hüceyrədaxili prolinin artmasına səbəb olaraq ferment aktivliyini zəiflədə və sərbəst radikalların miqdarını azalda bilər. Bundan əlavə, prolin bitki hüceyrələrində hidrofil kolloidlər əmələ gətirərək suyun saxlanmasına kömək edir və zülalların denaturasiyasının qarşısını alır. Başqa bir tədqiqatda duz stresi şəraitində kətan bitkisininn yarpaqlarında prolinin miqdarı tədqiq olunmuşdur. Prolinin miqdarının artması duz stresinin davametmə müddətindən deyil, xüsusən duzların qatılığından asılı olduğu aşkar olunmuşdur [0].



Şəkil 7. Müxtəlif qatılıqlı NaCl, Na_2SO_4 duzluluğu şəraitində su (a) və torpaq (b) kulturasında becərilmiş 7 günlük lobya cücərtilərinin yerüstü hissəsində prolinin miqdarı.



Şəkil 8. Müxtəlif qatılıqlı NaCl, Na_2SO_4 duzluluğu şəraitində su (a) və torpaq (b) kulturasında becərilmiş 7 günlük lobya cücərtilərinin köklərində prolinin miqdarı.

Nəticə

Izokation natrium duzluluğu şəraitində becərilmiş duzadavamlılıq dərəcəsinə görə fərqlənən arpa (davamlı) və lobya (davamsız) cüərtilərində hüceyrə və toxumalarını oksidləşdirici zədələnmələrdən qorumaqda ən vacib rol oynayan müdafiə sistemi fermentlərindən peroksizada və superoksiddismutazanın aktivliyi təyin olunmuşdur. Alınan nətiələrdən aydın olur ki, duzun qatılığı artdıqca (25-100mM) su kulturasında becərilmiş 7 günlük arpa cücərtilərinin yerüstü hissəsində peroksidazanın aktivliyi düz xətt boyuna artır. Arpa cücərtilərinin köklərində isə duzların qatılığı nisbətən aşağı olduqda (25-50mM) peroksidazanın aktivliyi artır, qatılığın sonrakı artımı zamanı (75-100mM) aktivlik azalır, beləliklə iki fazalı əyri ilə xarakterizə olunur. Torpaq kulturasında beərilən cücərtilərdə də analoji nəticələr alınmışdır.

Analoji nəticə lobya cücərtilərinin köklərində SOD-un aktivliyinin təyini zamanı müəyyən olunmuşdur. Qeyd etmək lazımdır ki, həm su , həm torpaq kulturasında becərilmiş 7günlük lobya cücərtilərinin köklərində və yerüstü hissəsində izokation natrium

duzlarının qatılığı artdıqca peroksidazanın aktivliyi düz xətt boyunca artır.

Torpaq kulturasında becərilmiş arpa cücərtilərinin həm kök, həm də yerüstü hissəsində duzların qatılığı artdıqca SOD-un aktivliyi zəifləmişdir. Su kulturasında yetişdirilmiş lobya cücərtilərinin kök sistemində duz konsentrasiyası artdıqca ferment aktivliyinin xətti şəkildə yüksəlməsi, kökdə ferment substratı olan hidrogen peroksid və superoksid-anion radikallarının hələ doyma səviyyəsinə çatmaması ilə izah olunur. Belə ki, peroksidaza və superoksiddismutaza da daxil olmaqla bütün fermentativ reaksiyalar, substrat doyma səviyyəsinə çatana qədər I tərtibli xarakter göstərir. Doyma səviyyəsindən sonra isə fermentativ reaksiya sıfır tərtibli olur və substrat miqdarından asılı olmur.

Aydın olmuşdur ki, su mühitində becərilmiş 7 günlük bir və ikiləpəli bitki cücərtilərinin yerüstü hissəsində peroksidazanın aktivliyinin dəyişməsi adekvat, SOD-un aktivliyinin dəyişməsi isə spesefik xarakter daşıyır.

Qeyd etmək lazımdır ki, torpaq kulturasında becərilmiş lobya cücərtilərinə nisbətən su kulturasında becərilmiş bitkilərdə prolinin miqdarı çox olmuşdur. Aparılan tədqiqatlar nəticəsində duzların bütün qatılıqlarında duzadavamlı arpa cücərtilərində prolinin miqdarının kontrola nisbətən yüksək olduğu müəyyən olunmuşdur. Prolin miqdarı bitkilərin duzadavamlılıq göstəricilərindən biri kimi müəyyən edilmişdir. Əldə olunan nəticələr ədəbiyyat məlumatları ilə uyğundur. Ekstremal duzluluq şəraitində prolin səviyyəsinin artması, duzadavamlı genotiplərin seçilməsində əsas parametrlərdən biri kimi qiymətləndirilə bilər [0]

Təkliflər

1. Bitkilərdə ontogenezin ilk mərhələlərində stres şəraiti zamanı fizioloji-biokimyəvi proseslərin tədqiqi qisa müddətdə davamlı genotiplərin seçilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

2. Mədəni bitkilərin duzadavamlılığını artırmaq üçün bir sıra maddələrdən, o cümlədən prolindən, salisil turşusundan, antitranspiratlardan istifadə olunması məqsədəuyğundur.

ƏDƏBİYYAT SİYAHISI:

1. Abdıyev V.B. (2017). Ekstremal duzluluq şəraitində bitkilərdə bioloji oksidləşmənin alternativ yollarının tədqiqi, biologiya üzrə elmlər doktorluğu dissertasiyası avtoreferat, Bak, 44.

2. Alıyeva N.F. (2018). Su və duz stresləri zamanı qarğıdalı bitkisində tənəffüsün energetik effektivliyinin müqayisəli tədqiqi. Bio. üzrə fəls. dok. diss., Avtoreferat, Bakı, 21.

3. İbrahimova Ü.F. (2015). Duz stresinə məruz qalmış buğda cücərtilərinin morfoloji və biokimyəvi xüsusiyyətləri. Biol.üzrə.fəl.dok. diss. Avtoref., Bakı, 20.

4. Məmmədov Q.Ş. (2007). Torpaqşünaslıq və torpaq coğrafiyasının əsasları, Bakı: Elm, 664 s.

5. Vəlicanova Z.V. (2022). Radiyasiya və duz streslərinin təsirinə məruz qalmış noxud və qarğıdalı bitkilərində antioksidant müdafiə sisteminin tədqiqi, Bio. üzrə fəls. dok. diss., Avtoreferat, Bakı, 34s.

6. Amrahov N., Bayramova S., Mammadova R., Ojagverdiyeva S., Aghazada G. (2022). The effect of salicylic acid on the content of photosynthetic pigments and the activity of antioxidant enzymes in cotton seedlings. Advances in Biology & Earth Sciences 7 (3), 169-177.

7. Ashraf M., Foolad M.R. (2007). Roles of glycine betaine and proline in improving plant abiotic stress resistance. Environmental and Experimental Botany.

8. Beauchamp, C. and I. Fridovich (1971). Superoxide dismutase: improved assays and an assay applicable to acrylamide gels. Anal. Biochem. 44(1): 276-287. DOI: https://doi.org/10.1016/0003-2697(71)90370-8.

9. Casano L.M., Gomes L.D., Lascano H.R., Gonzales C.A., Trippi V.S. (1997). İnactivation an degratation of CuZn SOD by active oxygen species in wheat chloroplasts exposed to photooxidative stress. Plant Cell physical, 433-440.

10. Eiji Okuma, Kenji Soeda, Miho Fukuda, Mikiro Tada & Yoshiyuki Murata (2002). Negative correlation between the ratio of K+ to Na+ and proline accumulation in tobacco suspension cells. Soil Science and Plant Nutrition, 48, 5, 753-757.

11. Jin-Cheng Wu, Yan-Lin Sun, Dong-Ha Cho. (2012). Changes in photosynthetic rate, water potential, and proline content in kenaf seedlings under salt stress Canadian Journal of Plant Science, 92, 2, 311-319.

12. Flowers T.J., Colmer T.D. (2008). Salinity tolerance in halophytes. New Phytol., 179, 945-963.

13. Goundarzi M.L., Pakniyat H. (2011). Salinity causes increase in prolin and protein content and peroxidase activity in wheat cultivars. Journal of Applied Sciences, 9, 2, 348-353.

14. L. S. Bates, R. P. Waldren və I. D. Teare (1973). Rapid Determination of Free Proline for Water-Stress Studies // Plant and Soil, 39, 205–207.

15. Mammadov Z.M., Amrahov N.R., Mammadova R.B., Allahverdiyeva S.N., Aliyev E.I., Alizada Sh.R., Aghazada G.A., Ojagverdiyeva S.Y. (2023). Effect of indole-3- butyric acid on the antioxidant enzymes, no and chlorophyll content of agdash-3 and ap-317

genotypes of upland cotton (gossypium hirsutum l.). Advances in Biology & Earth Sciences, 8 (2), 147-156.
16. Santos Campos A., Aevedo, H., Caldeira, G. (2011). In situ and in vitro senescence induced by KCl stress: nutritional imbalance, lipid peroxidation and antioxidant metabolism. J. Exp. Bot., 52, 351-360.
17. Shevyakova N.I., Bakulina E.A., Kuznetsov V. V. (2009). Proline antioxidant role in the common ice-plant subjected to salinity and paraquat treatment inducing oxidative stress. Russian Journal of Plant Physiology, 56, 5, 736-742.
18 Sun Z. W., Ren L.K., Fan J.W., Li Q., Wang K.Y., Guo M.M., Wang L., Zhang G. X., Yang Z. Y., Chen F., Li X. N. (2016). Salt response of photosynthetic electron Environ., 62, 515-521.
19. Wang Su-Ping, Jia Yong-Xia, Guo Shi-Rong, Lhou-Guo-Xian. (2007) Influence of poliamins to content of K+, Na+, Cland distribution in different organs of cucumus sativus sprouts NaCl stress. Shentai ruebao-Acta ekol. Sin., 27, 3, 1122-1129.
20 Бараненко В.В. (2006). Супероксиддисмутаза в клетках растений. Цитология, 48, 6, 405-474.
21. Волыхина В.Е., Шафнановская Е.В (2009). Супероксиддисмутазы: Структура и свойства, Вестник ВГМУ, 8, 4, 8-69.
22. Гарифзянов А.Р., Жуков Н.Н., Пантюхин Ю. О., Иванищев В.В., Особенности (2012). NaCl индуцированного окислительного стресса и динамики активности антиоксидантных ферментов в органах тритикале озимого. Доклады Российской Академии Сельскохозяйственных наук, 2, 9-12.
23. Ермаков Л.И. (1987). Методы биохимического исследования растений. Изд-во Агропромиздат, 424.
24. Иванищев В.В. (2019). О механизмах солеустойчивости растений и специфике влияния засоления. Известия Тул.ГУ, Естественные Науки, 4, 76-88.
25. Касумов Н.А. (2012). Механизм действия солей на растительных организмах. Lap.Lambert Academic Publishing. Германия, 175.
26. Кердяшов Н.Н (2018). Вариационная статистика, Учебное пособие, Пенза, 131.

DOİ: 10.32010/DRUH3735

MİNGƏÇEVİR SU ANBARI ƏTRAFINDA BOZQIR EKOSİSTEMLƏRİNDƏ *ATRAPHAXİS SPİNOSA L.*-NİN YAYILMASI VƏ FARMAKOLOJİ TƏSİR XÜSUSİYYƏTİ

Leyla Bəylər ƏHMƏDOVA
Mingəçevir Dövlət Universiteti
Orcid: 0000-0002-7426-7096
E-mail: leyla.ahmadova@mdu.edu.az

Xülasə: Bu tədqiqatın məqsədi Mingəçevir su anbarının cənub – qərb hissəsində çöl ekosistemlərində *Atraphaxis spinosa* L.-nin yayılmasını və ekoloji rolunu müəyyən etməkdir. Bu iş fitosenozun strukturuna təsir edən əsas ekoloji amilləri müəyyən etmək və quraq mühitlərdə bu növün fitokimyəvi və ekoloji-bioloji əhəmiyyətini qiymətləndirmək məqsədi daşıyır. Tədqiqatın metodoloji bazası sahə geobotaniki müşahidələrini, bitki icmalarının təsvirini və kartoqrafik və geoekoloji yanaşmalar əsasında aparılan məkan paylanması analizlərini əhatə edir. Landşaft şəraitinə, torpaq-hidroloji amillərə və ekosistemlərdə baş verən antropogen dəyişikliklərin miqyasına xüsusi önəm verilir. Tədqiqatın nəticələri göstərdi ki, *Atraphaxis spinosa* L. sabit bitki assosiasiyalarının formalaşmasında, torpağın sabitləşməsinin təşviqində və şoran və pozulmuş biotoplarda biomüxtəlifliyin qorunmasında mühüm rol oynayır. Növ ekstremal ekoloji şəraitə uyğunlaşma xüsusiyyətləri nümayiş etdirir və bu, onu regionun çöl ekosistemlərinin ekoloji vəziyyətinin göstəricisi hesab etməyə imkan verir. Tədqiqatın məhdudiyyətlərinə heterojen məkan paylanması və bitki örtüyünün mövsümi dəyişkənliyi daxildir. Mingəçevir su anbarının cənub – qərb hissəsinin təsir zonasında *Atraphaxis spinosa* L.-nin yayılmasının sistemli təhlili, eləcə də onun ekoloji tarazlığın qorunmasında mühüm rol oynayan və bioresursların gələcək tədqiqatlar üçün potensial dəyəri olan dayanıqlı növ kimi fitokimyəvi əhəmiyyəti qiymətləndirilir. Ədəbiyyat mənbələrinə görə, *Atraphaxis spinosa* L. yüksək miqdarda fenolik və bioloji aktiv birləşmələrlə xarakterizə olunur ki, bu da onun antioksidant, iltihabəleyhinə və bərpaedici farmakoloji xüsusiyyətlərini müəyyənləşdirir. Bu xüsusiyyətlərinə görə növ fitoterapiya və təbii bitki xammalı baxımından potensial növ kimi dəyərləndirilir. Bu tədqiqatın elmi yeniliyi Mingəçevir su anbarının təsir zonasında *Atraphaxis spinosa* L. - nin yayılmasının sistemli təhlilindədir ki, bu da ilk dəfə olaraq Azərbaycanın yarımsəhra landşaftlarında bitki örtüyünün strukturunun və dinamikasının xüsusiyyətlərini aydınlaşdırmağa imkan vermişdir. Mingəçevir su anbarının cənub – qərb hissəsinin təsir zonası daxilində *Atraphaxis spinosa* L.-nin yayılmasının sistemli təhlili, həmçinin onun fitokimyəvi və farmakoloji potensialı qiymətləndirilir. Bu, Azərbaycanın yarımsəhra landşaftlarında kserofit növlərin strukturu və funksional rolu haqqında bilikləri genişləndirir.
Açar sözlər: fotosintez, landşaft, su anbarı hövzəsi, torpaqsabitləşdirici, kserofit, substrat, areal, biotop

DISTRIBUTION AND PHARMACOLOGICAL PROPERTIES OF ATRAPHAXIS SPINOSA L. IN THE STEPPE ECOSYSTEMS AROUND THE MINGACHEVIR RESERVOIR

Leyla Baylar AHMADOVA
Mingachevir State University
ORCID: 0000-0002-7426-7096
Email: leyla.ahmadova@mdu.edu.az

AbstractThe aim of this study is to determine the distribution and ecological role of *Atraphaxis spinosa* L. in the steppe ecosystems located in the southwestern part of the Mingachevir Reservoir. The research seeks to identify the main ecological factors influencing the structure of the phytocoenosis and to evaluate the phytochemical and ecological-biological significance of this species under arid environmental conditions. The methodological basis of the study includes field geobotanical observations, descriptions of plant communities, and spatial distribution analyses conducted using cartographic and geoecological approaches. Special attention is given to landscape conditions, soil-hydrological factors, and the extent of anthropogenic changes within the ecosystems.

The results of the study show that *Atraphaxis spinosa* L. plays an important role in the formation of stable plant associations, in promoting soil stabilization, and in maintaining biodiversity in saline and degraded habitats. The species demonstrates strong adaptability to extreme environmental conditions, which allows it to be considered an indicator of the ecological state of the region's steppe ecosystems. The limitations of the study include heterogeneous spatial distribution and seasonal variability of vegetation cover.

A systematic analysis of the distribution of *Atraphaxis spinosa* L. within the impact zone of the southwestern part of the Mingachevir Reservoir was carried out, along with an evaluation of its phytochemical significance as a resilient species that contributes to the maintenance of ecological balance and possesses potential value for future bioresource research.

According to literature sources, *Atraphaxis spinosa* L. is characterized by a high content of phenolic and biologically active compounds, which determine its antioxidant, anti-inflammatory, and regenerative pharmacological properties. Due to these characteristics, the species is regarded as a potential candidate for phytotherapy and as a valuable source of natural plant raw material.
The scientific novelty of this study lies in the systematic analysis of the distribution of *Atraphaxis spinosa* L. within the impact zone of the Mingachevir Reservoir, which for the first time has clarified the structural and dynamic features of vegetation cover in the semi-desert landscapes of Azerbaijan. The study also evaluates the phytochemical and pharmacological potential of *Atraphaxis spinosa* L. within the southwestern part of the reservoir’s impact zone, thereby expanding knowledge about the structure and functional role of xerophytic species in Azerbaijan’s semi-desert ecosystems.
Keywords: photosynthesis, landscape, reservoir basin, soil-stabilizing, xerophyte, substrate, rarea, biotope.

РАСПРОСТРАНЕНИЕ И ФАРМАКОЛОГИЧЕСКИЕ СВОЙСТВА ATRAPHAXIS SPINOSA L. В СТЕПНЫХ ЭКОСИСТЕМАХ ВОКРУГ МИНГЯЧЕВИРСКОГО ВОДОХРАНИЛИЩА

Лейла Байлар АХМАДОВА
Мингячевирский государственный университет
ORCID: 0000-0002-7426-7096
E-mail: leyla.ahmadova@mdu.edu.az

Резюме: Целью данного исследования является определение распространения и экологической роли *Atraphaxis spinosa* L. в степных экосистемах юго-западной части Мингячевирского водохранилища. Работа направлена на выявление основных экологических факторов, влияющих на структуру фитоценозов, а также на оценку фитохимического и эколого-биологического значения данного вида в условиях засушливой среды.
Методологическая основа исследования включает полевые геоботанические наблюдения, описание растительных сообществ и анализ пространственного распределения, выполненный на основе картографических и геоэкологических подходов. Особое внимание уделяется ландшафтным условиям, почвенно-гидрологическим факторам и масштабам антропогенных изменений в экосистемах.
Результаты исследования показали, что *Atraphaxis spinosa* L. играет важную роль в формировании устойчивых растительных ассоциаций, способствует стабилизации почвы и сохранению биологического разнообразия в засолённых и нарушенных биотопах. Вид проявляет высокую адаптацию к экстремальным экологическим условиям, что позволяет рассматривать его как индикатор состояния степных экосистем региона. К ограничениям исследования относятся гетерогенность пространственного распределения и сезонная изменчивость растительного покрова.
В пределах зоны воздействия юго-западной части Мингячевирского водохранилища проведён системный анализ распространения *Atraphaxis spinosa* L., а также оценено его фитохимическое значение как устойчивого вида, играющего важную роль в поддержании экологического равновесия и обладающего потенциальной ценностью для дальнейших биоресурсных исследований. Согласно литературным данным, *Atraphaxis spinosa* L. характеризуется высоким содержанием фенольных и биологически активных соединений, определяющих его антиоксидантные, противовоспалительные и регенеративные фармакологические свойства. Благодаря этим качествам вид рассматривается как перспективный объект для фитотерапии и источник природного растительного сырья.
Научная новизна исследования заключается в системном анализе распространения *Atraphaxis spinosa* L. в зоне влияния Мингячевирского водохранилища, что впервые позволило уточнить особенности структуры и динамики растительного покрова в полупустынных ландшафтах Азербайджана. Кроме того, в пределах зоны воздействия юго-западной части водохранилища проведена оценка фитохимического и фармакологического потенциала *Atraphaxis spinosa* L., что расширяет представления о структуре и функциональной роли ксерофитных видов в полупустынных экосистемах Азербайджана.
Ключевые слова: фотосинтез, ландшафт, водохранилищный бассейн, почвоукрепляющий, ксерофит, субстрат, ареал, биотоп

Giriş

Bu tədqiqat Mingəçevir su anbarının cənub – qərb hissəsində yerləşən bozqır (quru-çöl və yarımsəhra) ekosistemlərində *Atraphaxis spinosa* L. (Polygonaceae) növünün yayılmasına və farmakoloji xüsusiyyətlərinə həsr olunmuşdur. Kür çayının Bozdağdan keçdiyi yerdə yaradılmış Mingəçevir su anbarı aktiv seysmik zona üzərində yerləşən mühüm geodinamik obyekt hesab olunur (İslamova et al., 2019). Bu şəraitdə *A. spinosa* — tikanlı, quraqlığa

yüksək dərəcədə davamlı kol bitkisidir. Onun gövdə və budaqları tikanvari formadadır, yarpaq lövhələri reduksiya olunmuş, toxuma quruluşu isə sklerofil xarakterlidir. Bitki orqanik maddələrlə kasad, çox vaxt şoranlaşmış torpaqların göstəricisi (indikatoru) kimi çıxış edir, ilkin sukcesiya mərhələlərində mühüm rol oynayır və boş süxurların sabitləşməsinə, həmçinin külək və səthi eroziyanın azalmasına kömək edir (Zhang et al., 2014).

Atraphaxis cinsi Şərqi Aralıq dənizi bölgəsindən və Zaqafqaziyadan başlayaraq İrana və Orta Asiyaya qədər yayılmışdır (Zhang et al., 2014). Azərbaycanda *A. spinosa* əsasən dağətəyi və yarımsəhra zonalarında, daşlı-çınqıllı yamaclarda, həmçinin Mingəçevir su anbarını əhatə edən güclü quraqlıq və yüksək temperatur fərqləri ilə xarakterizə olunan sahələrdə parçalanmış (mozaik tipli) populyasiyalar şəklində yayılır. Bu tip yaşayış mühitləri üçün qısa, lakin məhsuldar yaz mövsümü və uzunmüddətli, yüksək temperatur və quraqlıqla səciyyələnən yay dövrü xarakterikdir. Bu şəraitdə kserofit kol bitkiləri ekosistemdə əsas struktur elementi kimi mühüm rol oynayır. Onlar bitki örtüyünün "dayaq sistemi"ni formalaşdırır, efemeroid və yarımkol bitkilərinin yerli biomüxtəlifliyinin qorunmasına şərait yaradır.

Farmakoqnostik baxımdan *A. spinosa* fenol təbiətli ikinci dərəcəli metabolitlərin perspektivli biogen mənbə obyekti kimi xarakterizə olunur. Ədəbiyyat mənbələrinə əsasən, *Atraphaxis* cinsinə aid bitkilər üçün flavonoid qlikozidlər (xüsusilə kversetin və kempferol tipli aqlikonlar əsasında formalaşan birləşmələr), həm kondensə, həm də hidrolizə olunan taninlər, fenolkarbon turşuları və onların törəmələri səciyyəvidir (Abilkassymova et al., 2024). *A. spinosa* növü üzrə aparılmış elmi tədqiqatlarda isə bitki ekstraktlarının antioksidant, iltihabəleyhinə və nisbətən zəif antimikrob təsirə malik olduğu müəyyən edilmişdir (Alrumaihi et al., 2024). Bu bioloji təsirlər, əsasən, fenol birləşmələrinin və flavonoidlərin ümumi miqdarı ilə qarşılıqlı əlaqədə olur. Bir sıra tədqiqatlarda polifenollarla zəngin fraksiyaların spazmolitik (əzələboşaldıcı) və sitoprotektor (hüceyrələri qoruyucu) xüsusiyyətlərə malik olduğu, həmçinin iltihabi proseslərin əsas fermentlərini (məsələn, COX və LOX fermentlərini) in vitro modellərdə inhibəetmə (fəaliyyətini zəiflətmə) qabiliyyətinə malik ola biləcəyi qeyd edilmişdir (Alrumaihi et al., 2024). Bununla belə, *A. spinosa* növü üzrə mövcud məlumatlar həcminə və dəqiqliyinə görə yaxın qohum növlərlə müqayisədə xeyli azdır və əsasən ümumi antioksidant potensialın qiymətləndirilməsi, ilkin fitokimyəvi profilin müəyyənləşdirilməsi və bioloji aktivliyin skrininq testləri ilə məhdudlaşır. Əldə olunan nəticələrdə ekstraksiya prosesinin standartlaşdırılması və marker birləşmələrin kəmiyyətcə təsdiqlənməsi kimi detallı metodoloji mərhələlər çox vaxt aparılmamışdır.

Növün ekoloji plastiklik qabiliyyətini və quraq zona bitki birləşmələrinin strukturlaşmasında oynadığı rolu nəzərə alaraq, *A. spinosa*-nın Mingəçevir su anbarı ətrafında relyef, torpaq-süxur (substrat) və mikroiqlim qradientləri kontekstində məkan paylanmasının tədqiqi ikili elmi əhəmiyyət kəsb edir. Birincisi, bu tədqiqat növün antropogen təsirlərə məruz qalmış sahil zonalarında (su səviyyəsinin dəyişməsi, rekreasiya yükü, otarılma və s.) kseromorf bitki birləşmələrinin davamlılığının təmin olunmasındakı rolunu aydınlaşdırır. İkincisi, fərqli ekoloji-coğrafi nişlərdə formalaşan populyasiyaların farmakoloji potensialının düzgün şərh edilməsi üçün elmi əsas yaradır ki, bu da populyasiyalararası fitokimyəvi profil fərqlərinin və bitkidən əldə olunan bioloji aktiv maddələrin təsirinin təkrarlana bilmə xüsusiyyətinin qiymətləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Nəzəriyyə

Antropogen-texnogen təsir amillərini kəskinləşdirən bütün bu mənfi proseslər Azərbaycanı dünya ölkələri arasında əlverişsiz ekoloji vəziyyətə salır (80-ci yer). Bu şəraitdə fundamental və ən aktual elmi problemlərdən biri Azərbaycan ərazisində müxtəlif ekoloji sistemlərin dayanıqlığı üçün meyar və hədlərin axtarılmasıdır. Bu cür meyarların axtarışı və ölkənin ekosistemlərinin dayanıqlığının məhdudiyyətlərinin müəyyənləşdirilməsi ayrılmaz xüsusiyyətlərin istifadəsini, ekosistemlərdə proseslərin inkişafı ilə bağlı artıq toplanmış və daim əldə edilmiş məlumatların ümumiləşdirilməsini əhatə edən sistem ekologiyasının vəzifəsidir. Bütün bunlar ölkə ərazisində geobiosistemlərin uzunmüddətli, daimi sistemli biomonitorinqinin aparılmasını son dərəcə aktual edir. Bu baxımdan bioloji müxtəlifliyin monitorinqi ekoloji biomonitorinqin vacib hissəsidir. Fitosenozların ətraf mühit yaradan amil kimi həlledici rolunu nəzərə alaraq, ölkə daxilində, ilk növbədə aran zonasında biohəcmi potensial baxımından ən zəif və antropogen və texnogen amillərin təsirinə həssas olan sistemli fitomonitorinqinin aparılması xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan, yaşıllaşdırmada əsasən ağac və kol cinslərinin müxtəlif növlərindən istifadə edilən və Böyük və Kiçik Qafqazın təbii bitki icmalarının birbaşa birləşdiyi ölkənin aran zonasında uyğun olaraq fitomonitorinqin keçirilməsinin elmi əsaslarının işlənib hazırlanması aktual əhəmiyyət kəsb edir. Bitki icmalarının müasir fitoindikasiyası metodlarının təhlili və bu istiqamətdə müxtəlif təbii-iqlim zonalarında toplanmış təcrübə Azərbaycanını aran bölgələrində fitoindikasiya tədqiqatlarının aparılması zamanı çox faydalı ola bilər. Müasir tədqiqat metodlarından istifadə etməklə sistem əsasında fitomonitorinqin aparılması aran zonasında ekosisteminin bütün komponentlərinin – su, torpaq və atmosfer havasının bu komponentlərin keyfiyyətini, o cümlədən o ərazilərdə torpağ, su və atmosfer havasının keyfiyyətini idarə etməyi öyrənmək məqsədilə toksikantların böyük spektri ilə çirklənməsinin artmaqda olan trendində ən davamlı bitki növlərini aşkar etməyə imkan verəcəkdir.

Bu, aran bölgələrin biohəcm potensialının artırılması üçün elmi və ekoloji cəhətdən əsaslandırılmış layihələrin inkişafına imkan verəcək ki, bu da onların uzunmüddətli ekoloji cəhətdən davamlı inkişafını təmin edəcəkdir. Nəzərə alsaq ki, son nəticədə ətraf mühitin keyfiyyəti əhalinin sağlamlığını müəyyən edir, hazırda bu problem nəinki ekoloji, həm də sosial ekoloji əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikasının Ekoloji Atlası. (2009). Ekoloji atlas. Bakı.
2. Yusifov, E. F. (2025). Böyük Qafqaz florasının meşə, yüksəkdağlıq landşaftlarında yayılan bitkilərinin ekoloji qiymətləndirilməsi və endemizmi [Doctoral dissertation abstract]. Bakı.
3. Məmmədova, A. O. (2007). Abşeron şəraitində atmosfer çirklənməsinin Olea europea *L.* bitkisinə təsiri. Bakı Universitetinin Xəbərləri. Təbii Elmləri Seriyası*,* 1, 75–79.
4. Məmmədova, A. O. (2008). Bitki bioindikatorları və ətraf mühitin qiymətləndirilməsi. Bakı: BDU Nəşriyyatı.
5. Məmmədova, A. O. (2010). Bitkilərdə modifikasiya dəyişkənliyi əsasında ətraf mühitin keyfiyyətinin bioindikasiyası. Azərbaycan Botanika Cəmiyyətinin Elmi Əsasları, 1, 355–357.
6. Абатуров, А. В. (1982). Лесная древесная растительность как индикатор состояния окружающей среды. В Биоиндикация состояния окружающей среды Москвы и Подмосковья. Москва: Наука, с. 97–103
7. Алиев, Р. Р. (1993). Биоиндикация загрязнения природной среды с помощью биохимических и флуоресцентных параметров древесных растений [Автореф. дисс. канд. биол. наук]. Ташкент.
8. Али-заде, В. М., Ширвани, Т. С., & Алирзаева, Э. Г. (2011). Устойчивость растений к токсичности металлов и нефтяных углеводородов. Подходы к фитомелиорации. Баку: Элм.
9. Алексеев, А. С. (1990). Колебания радиального прироста в древостоях при атмосферном загрязнении. Лесоведение*,* 2, 82–86.
10. Андерсон, Ф. К., & Трешоу, М. (1988). Загрязнения воздуха и жизнь растений. Ленинград: Гидрометеоиздат.
11. Аугустайтис, А. А. (1992). Закономерности роста сосновых древостоев при различном уровне загрязнения природной среды [Автореф. дисс. канд. биол. наук]. Москва.
12. Артамонов, В. И. (1986). Растения и чистота природной среды. Москва: Наука.
13. Ахмедова, Н. (2025). К вопросу об биоэкологических проблемах восстановления тугайных лесов в Азербайджане. Бюллетень науки и практики, (1).
14. Барахтенова, Л. А. (1993). Влияние поллютантов на обмен веществ и состояние сосны обыкновенной в условиях техногенного загрязнения [Автореф. дисс. д-ра биол. наук]. Новосибирск.
15. Барахтенова, Л. А., & Николаевский, В. С. (1988). Влияние сернистого газа на фотосинтез растений. Новосибирск: Наука.

16. Башаркевич, И. Л., & Самаев, С. Б. (1999). Состояние древесной растительности в Москве и особенности микроэлементного состава. В Проблемы управления качеством окружающей среды: Сборник докладов IV Международной конференции. Москва: Прима-Пресс, с. 215–217
17. Бережная, Н. С. (2005). Трансформация сосновых лесов Верхнего Приангарья, загрязняемых фторсодержащими эмиссиями [Автореф. дисс. канд. биол. наук]. Иркутск.
18. Бухарина, И. Л., Поварницина, Т. М., & Ведерников, К. Е. (2007). Эколого-биологические особенности древесных растений в урбанизированной среде. Ижевск: Ижевская ГСХА.
19. Быков, О. Д. (1974). Бескамерный способ изучения фотосинтеза: методические указания. Ленинград.
20. Бялобок, С. (1988). Регулирование загрязнения атмосферы. В Загрязнение воздуха и жизнь растений (Ленинград: Гидрометеоиздат, с. 500–531.
21. Василевская, В. К. (1965). Структурные приспособления растений жарких и холодных пустынь Средней Азии и Казахстана. Москва–Ленинград.
22. Гетко, Н. В. (1989). Растения в техногенной среде: структура и функция ассимиляционного аппарата. Минск: Наука и техника.
23. Гитарский, М. Л. (1993). Влияние техногенного загрязнения на состояние сосновых насаждений Кольского Севера [Автореф. дисс. канд. биол. наук]. Москва.
24. Гудериан, Р. (1979). Загрязнение воздушной среды. Москва: Мир.
25. Зубарева, О. Н. (1993). Влияние выбросов промышленных предприятий в Средней Сибири на сосну обыкновенную [Автореф. дисс. канд. биол. наук]. Красноярск.
26. Игнатьева, О. В. (2005). Элементный состав хвои и морфофизиологические показатели сосны обыкновенной (Pinus sylvestris L.) в условиях техногенного загрязнения [Автореф. дисс. канд. биол. наук]. Красноярск.
27. Илькун, Г. М. (1971). Газоустойчивость растений. Киев: Наукова думка.
28. Квеситадзе, Г. И., и др. (2005). Метаболизм антропогенных токсикантов в высших растениях. Москва: Наука.
29. Кулагин, Ю. З. (1974). Древесные растения и промышленная среда. Москва: Наука.
30. Лукина, Н. В., & Никонов, В. В. (1992). Типизация лесных экосистем в условиях техногенного загрязнения. В Эколого-географические проблемы Кольского Севера (с. 8–9). Апатиты.
31. Нагиев, С. К. (2022). Размещение населения и трудовых ресурсов в Азербайджане. Геополитика и экогеодинамика регионов, 8(18), 193–207.
32. Неверова, О. А. (1999). Некоторые особенности физиолого-биохимического и анатомического состояния ассимиляционного аппарата березы бородавчатой в условиях техногенного загрязнения г. Кемерово. В Экологические и метеорологические проблемы больших городов и промышленных зон). СПб.: РГГМУ, с. 98–100.
33. Неверова, О. А. (2001a). Биоэкологическая оценка загрязнения атмосферного воздуха по состоянию древесных растений. Новосибирск: Наука.
34. Неверова, О. А. (2001b). Использование активности пероксидазы для оценки физиологического состояния древесных растений и качества атмосферного воздуха г. Кемерово. Krylovia (Сибирский ботанический журнал), 2, 122–128.
35. Неверова, О. А. (2002a). Морфометрическая и дендрохронологическая диагностика состояния древесных насаждений как способ индикации загрязнения урбанизированной среды. Успехи современной биологии, 1, 57–64.
36. Неверова, О. А. (2004). Экологическая оценка состояния древесных растений и загрязнения окружающей среды промышленного города (на примере г. Кемерово) [Автореф. дисс. д-ра биол. наук]. Москва.
37. Неверова, О. А., Быков, А. А., & Морозова, С. А. (2001). Фитомониторинг и его сопоставление с результатами долгосрочного моделирования атмосферной диффузии. Проблемы региональной экологии, 2, 36–43.
38. Неверова, О. А., & Николаевский, В. С. (2004). Изучение механизмов поступления свинца в древесные растения. Известия Таганрогского государственного радиотехнического университета, 5(40), 159–164.
39. Неверова, О. А., & Колмогорова, Е. Ю. (2002). Фенологический контроль состояния древесных растений и загрязнения воздуха г. Кемерово. Известия вузов. Северо-Кавказский регион. Естественные науки, 1, 101–103.
40. Николаевский, В. С. (1979). Биологические основы газоустойчивости растений. Новосибирск: Наука.
41. Николаевский, В. С., Казекина, Л. П., & Видякина, О. А. (1981). Транслокация серы растениями при поглощении сернистого газа листьями. В Э. И. Слепяна (ред.), Проблемы

фитогигиены и охрана окружающей среды (с. 13). Ленинград: Зоологический институт АН СССР.
42. Николаевский, В. С. (1999). Экологическая оценка загрязнения среды и состояния наземных экосистем методами фитоиндикации. Москва: МГУЛ.
43. Николаевский, В. С., & Мирошникова, А. Т. (1974). Допустимые нормы загрязнения воздуха для растений. Гигиена и санитария, 4, 16–18.
44. Николаевский, В. С., & Николаевская, Т. В. (1988a). Методика определения предельно допустимых концентраций вредных газов для растительности. Москва.
45. OBOC. Западного маршрута экспортного нефтепровода в Азербайджане. (1997, апрель). Баку.
46. Рожков, А. С., & Михайлова, Т. А. (1989). Действие фторсодержащих эмиссий на хвойные деревья. Новосибирск: Наука.
47. Смит, У. Х. (1985). Лес и атмосфера. Взаимодействие между лесными экосистемами и примесями атмосферного воздуха. Москва: Прогресс.
48. Сергейчик, С. А. (1988). Устойчивость и поглотительная способность древесных растений к газообразным загрязнителям атмосферы в условиях Белоруссии [Автореф. дисс. д-ра биол. наук]. Новосибирск.
49. Сергейчик, С. А., & Сергейчик, А. А. (1988). Влияние газообразных промышленных токсикантов на активность пероксидазы и нитратредуктазы листьев древесных растений. Экотоксикология и охрана природы, 158–161.
50. Серегин, И. В., & Кожевникова, А. Д. (2006). Физиологическая роль никеля и его токсическое действие на высшие растения. Физиология растений, 53(2), 285–308.
51. Сидорович, Е. А., Шобанова, И. А., Судейная, С. В., & Мурашко, О. Н. (2004). Сезонные изменения активности пероксидазы в ассимиляционном аппарате ели колючей в условиях городской среды. В Проблемы озеленения городов (). Москва: Прима-М., 10, 175–180
52. Тарчевский, И. А. (1977). Основы фотосинтеза. Москва: Высшая школа.
53. Тимофеева, А. В. (1993). Использование дендрохронологического метода для оценки степени атмосферного загрязнения в пригородных лесах Тольятти. В Леса Русской равнины Москва, с. 215–217
54. Токарева, Т. Г. (1992). Экологическая оценка техногенного воздействия на еловые леса Кольского полуострова [Дисс. канд. биол. наук]. Москва.
55.Трасс, Х. Х. (1987). Лихеноиндикационные индексы и SO_2. Биогеохимический круговорот веществ в биосфере. Москва: Наука, с. 111–115
56. Фролов, А. К. (1978b). Ассимиляционный аппарат кустарников под пологом лесостепной дубравы. В Вопросы экологической анатомии и физиологии растений (с. 91–100). Ленинград.
57. Фролов, А. К. (1998). Окружающая среда крупного города и жизнь растений в нем. Санкт-Петербург: Наука.
58. Чугаева, Г. С. (1952). Влияние азотного питания на развитие хлорофиллоносных органов сахарной свеклы [Автореф. дисс. канд. биол. наук]. Москва.
59. Ярмишко, В. Т. (1990). Проблемы биоиндикации и оценки жизненного состояния лесных экосистем в условиях аэротехногенного загрязнения. В Методология экологического нормирования (ч. 2, с. 108–109). Харьков.
60. Baker, A. J. (1981). Accumulators and excluders: Strategies in the response of plants to heavy metals. Journal of Plant Nutrition, 3, 643–654.
61. Asian Development Bank. (2021). Climate risk country profile: Azerbaijan.
62. Lasat, M. M. (2000). Phytoextraction of metals from contaminated soil: A review of plant/soil/metal interaction and assessment of pertinent agronomic issues. Journal of Hazardous Substances Research, 2, 5–25.
63. Salt, D. E., et al. (1998). Phytoremediation: Annual review. Annual Review of Plant Physiology and Molecular Biology, 49, 643–668.

DOİ: 10.32010/LQQO7785

CRASSULACEAE D.C FƏSİLƏSİNİN DƏRMAN MƏQSƏDİLƏ İSTİFADƏ OLUNAN NÖVLƏRİNİN KİÇİK QAFQAZ FLORASINDA TAKSONOMİK MÜXTƏLİFLİYİ

Çiçək Mübariz ƏKBƏROVA
Elm və Təhsil Nazirliyi Bakı Dövlət Universiteti
Orcid : https://orcid.org/0000-0003-1475-7517
E-mail: cicekekberova59@gmail.com

Xülasə: Crassulaceae D.C. fəsiləsi Azərbaycan florasında geniş yayılmış, xüsusilə də quraq iqlim şəraitinə uyğunlaşmış şirəli gövdə və yarpaqları ilə seçilən çoxillik ot bitkiləri və yarımkollarla təmsil olunmaqla həm ekoloji, həm də iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edir. Bu fəsiləyə aid növlərin əsas morfoloji xüsusiyyəti onların suyu yarpaq və gövdələrində toplamaq qabiliyyətidir ki, bu da onları ekoloji baxımdan davamlı və iqtisadi cəhətdən faydalı bitkilərə çevirir. Fəsilənin nümayəndələrinin bioekoloji xüsusiyyətləri onların yayılma arealı ilə sıx bağlıdır. Əksər növlər günəşli yamaclarda, qayalıq və daşlı torpaqlarda rast gəlinir. Həmçinin suyu yarpaqlarında toplamaq qabiliyyətinə görə quraqlığa yüksək davamlılıq nümayiş etdirirlər. Onların bioekoloji uyğunlaşmaları həm floristik müxtəlifliyin qorunmasında, həm də dərman xammalı kimi davamlı istifadəsində mühüm rol oynayır. (Babayev F.A,2004)Son illər də dərman bitkilərinin öyrənilməsi həm elmi həm də praktik baxımdan aktual məsələyə çevrilmişdir. Bu fəsilənin nümayəndələri zəngin bioaktiv maddələr kompleksi ilə tanınır və qədim dövrlərdən xalq təbabətində müxtəlif xəstəliklərin müalicəsində istifadə olunmuşdur. Onların tərkibində bioloji aktiv maddələr - üzvi turşular ,alkaloidlər, taninlər və xüsusilə şirəli toxumalarda toplanan antioksidant xassəli birləşmələr aşkar edilmişdir. Onların əsas təsir istiqamətləri antiseptik, iltihabəleyhinə,yarasağaldıcı və adaptogen xüsusiyyətlərdir. Tədqiqatın nəticələri göstərir ki, fəsilənin Kiçik Qafqaz florasında yayılmış dərman əhəmiyyətli növləri yalnız xalq təbabətində deyil, həm də müasir farmakologiya üçün böyük əhəmiyyət daşıyır. Müasir dövrdə aparılan farmakoloji və biokimyəvi tədqiqatlar da göstərir ki, *Crassulaceae* D.C fəsiləsinin bəzi nümayəndələri yeni dərman preparatlarının hazırlanması üçün perspektivli bitki resusrslarıdır. Bu baxımdan həmin fəsilənin dərman əhəmiyyətli növlərinin taksonomik müxtəlifliyinin öyrənilməsi , onların bioekoloji xüsusiyyətlərinin araşdırılması və xalq təbabətində istifadəsinin elmi əsaslandırılması mühüm tədqiqat istiqamətlərindən biridir.
Nəticə etibarilə, aparılmş araşdırmalar Kiçik Qafqaz florasında *Crassulaceae* D.C fəsiləsinin dərman əhəmiyyətli növlərinin taksonomik müxtəlifliyini aydınlaşdırmış, onların bioekoloji xüsusiyyətləri və yayılma arealları haqqında yeni məlumatlar təqdim edilmişdir. Bu məlumatlar həm botanika, həm də farmakologiya sahəsi üçün praktik əhəmiyyət kəsb etməklə yanaşı, gələcəkdə dərman xammalının öyrənilməsi və qorunması üçün elmi baza rolunu oynayır.
Açar sözlər : fitoterapiya, etnobotanika, bioaktiv maddələr, taksonomiya,areal

---

TAXONOMIC DIVERSITY OF MEDICINAL SPECIES OF THE CRASSULACEAE D.C. FAMILY IN THE FLORA OF THE LESSER CAUCASUS

Chichek Mubariz AKBAROVA
Ministry of Science and Education, Baku State University
Orcid : https://orcid.org/0000-0003-1475-7517
E-mail: cicekekberova59@gmail.com

Abstract: The Crassulaceae D.C. family is widely distributed in the flora of Azerbaijan and is represented by perennial herbaceous plants and subshrubs, particularly adapted to arid climatic conditions, distinguished by their succulent stems and leaves. This family is of significant ecological and economic importance. The main morphological feature of the species belonging to this family is their ability to store water in leaves and stems, which makes them both ecologically resilient and economically valuable plants. The bioecological characteristics of its representatives are closely related to their distribution range. Most species are found on sunny slopes, rocky and stony soils. Due to their ability to retain water in leaves, they exhibit high drought resistance. Their bioecological adaptations play an important role in both the conservation of floristic diversity and the sustainable use of these plants as medicinal raw materials (Babayev F.A., 2004).
In recent years, the study of medicinal plants has become an urgent issue both scientifically and practically. The representatives of this family are known for their rich complex of bioactive compounds and have been used in folk medicine since ancient times for the treatment of various diseases. Their chemical composition includes biologically active substances such as organic

acids, alkaloids, tannins, and, particularly, antioxidant compounds accumulated in succulent tissues. The main pharmacological effects are antiseptic, anti-inflammatory, wound-healing, and adaptogenic properties. The results of the research show that the medicinally valuable species of the family distributed in the flora of the Lesser Caucasus are of great importance not only in folk medicine but also for modern pharmacology. Contemporary pharmacological and biochemical studies confirm that some representatives of the Crassulaceae D.C. family are promising plant resources for the development of new pharmaceuticals. In this regard, the study of the taxonomic diversity of medicinally important species of this family, the investigation of their bioecological characteristics, and the scientific justification of their use in folk medicine constitute one of the important research directions.

In conclusion, the conducted studies have clarified the taxonomic diversity of medicinally significant species of the Crassulaceae D.C. family in the flora of the Lesser Caucasus and provided new information on their bioecological characteristics and distribution ranges. These data are of practical importance both for botany and pharmacology and serve as a scientific basis for the future study and conservation of medicinal plant resources.

Keywords: phytotherapy, ethnobotany, bioactive compounds, taxonomy, distribution range.

ТАКСОНОМИЧЕСКОЕ РАЗНООБРАЗИЕ ЛЕКАРСТВЕННЫХ ВИДОВ СЕМЕЙСТВА CRASSULACEAE D.C. ВО ФЛОРЕ МАЛОГО КАВКАЗА

Чичек Мубариз АКБЕРОВА
Министерство науки и образования,
Бакинский государственный университет
Orcid: https://orcid.org/0000-0003-1475-7517
E-mail: cicekekberova59@gmail.com

Резюме: Семейство *Crassulaceae* D.C. широко распространено во флоре Азербайджана и представлено многолетними травянистыми растениями и полукустарниками, особенно приспособленными к засушливым климатическим условиям, характеризующимися сочными стеблями и листьями. Это семейство имеет важное экологическое и экономическое значение. Основная морфологическая особенность видов, относящихся к этому семейству, заключается в их способности накапливать воду в листьях и стеблях, что делает их экологически устойчивыми и экономически ценными растениями. Биоэкологические особенности представителей семейства тесно связаны с их ареалом распространения. Большинство видов встречается на солнечных склонах, каменистых и щебнистых почвах. Благодаря способности удерживать воду в листьях, они проявляют высокую засухоустойчивость. Их биоэкологические адаптации играют важную роль как в сохранении флористического разнообразия, так и в устойчивом использовании этих растений в качестве лекарственного сырья (Бабаев Ф.А., 2004).В последние годы изучение лекарственных растений стало актуальной задачей как в научном, так и в практическом плане. Представители этого семейства известны богатым комплексом биоактивных соединений и с древних времён использовались в народной медицине для лечения различных заболеваний. В их составе выявлены биологически активные вещества - органические кислоты, алкалоиды, танины и особенно антиоксидантные соединения, накапливающиеся в сочных тканях. Основные фармакологические эффекты — антисептическое, противовоспалительное, ранозаживляющее и адаптогенное действие. Результаты исследований показывают, что лекарственно-ценные виды семейства, распространённые во флоре Малого Кавказа, имеют большое значение не только в народной медицине, но и для современной фармакологии. Современные фармакологические и биохимические исследования подтверждают, что некоторые представители семейства *Crassulaceae* D.C. являются перспективными растительными ресурсами для разработки новых лекарственных препаратов. В этом отношении изучение таксономического разнообразия лекарственно-значимых видов этого семейства, исследование их биоэкологических особенностей и научное обоснование их применения в народной медицине являются важными направлениями исследований.

В заключение, проведённые исследования прояснили таксономическое разнообразие лекарственно-значимых видов семейства *Crassulaceae* D.C. во флоре Малого Кавказа и предоставили новые сведения об их биоэкологических особенностях и ареалах распространения. Эти данные имеют практическое значение как для ботаники, так и для фармакологии и служат научной основой для дальнейшего изучения и охраны ресурсов лекарственного растительного сырья.

Ключевые слова: фитотерапия, этноботаника, биоактивные вещества, таксономия, ареал.

Giriş*Crassulaceae* D.C. fəsiləsi dünya florasında geniş yayılmış şirəli bitkilərdən ibarət ailə olub, yüksək ekoloji uyğunlaşma qabiliyyəti və morfoloji müxtəlifliyi ilə seçilir. Müxtəlif iqlim zonalarında yayılan bu fəsilənin nümayəndələri əsasən quraq ərazilərdə, qayalıq yamaclarda, dağlıq və subalp zonalarında inkişaf edir. Fəsiləsinin təxminən 35 cinsə aid 1500-dən çox növü mövcuddur və onların əksəriyyəti Avrasiya, Afrika və Amerika qitələrinin müxtəlif regionlarında rast gəlinir [0]. Fəsilənin ən çox yayılmış və öyrənilmiş cinsləri Sedum və Sempervivum hesab olunur. Bu cinslərin nümayəndələri dekorativ bağçılıqda, xalq təbabətində və müasir farmakologiyada mühüm əhəmiyyət daşıyır.

Crassulaceae D.C fəsiləsi yalnız botaniki müxtəlifliyi ilə deyil, həm də farmakoloji potensialı ilə diqqəti cəlb edir. Onların tərkibində flavonoidlər, üzvi turşular, saponinlər, taninlər, alkaloidlər, antosianlar və müxtəlif bioloji aktiv maddələr aşkar edilmişdir. Bu birləşmələrin mövcudluğu fəsilənin nümayəndələrinin iltihabəleyhinə, yara sağaldıcı, antibakterial, immunostimulyator və antioksidant təsirlərini izah edir. Tarixi mənbələrdə göstərilir ki, hələ qədim dövrlərdə *Crassulaceae* D.C fəsiləsinin müxtəlif növləri xalq təbabətində geniş istifadə xüsusilə də dəridə yaraların sağaldılması, orqanizmin ümumi möhkəmləndirilməsi və iltihabi proseslərin aradan qaldırılması üçün tətbiq edilmişdir [0]. Müasir dövrdə isə aparılan fitokimyəvi və farmakoloji tədqiqatlar bu fəsilənin dərman potensialını elmi cəhətdən təsdiqləmişdir.

Azərbaycan florası zənginliyi və yüksək endemizm səviyyəsi ilə seçilir. Respublikamızda *Crassulaceae* D.C fəsiləsinin müxtəlif nümayəndələrinə rast gəlinir və onların əhəmiyyətli bir hissəsi Kiçik Qafqaz florasında yayılmışdır. Kiçik Qafqaz təbii-coğrafi baxımdan əlverişli iqlim şəraiti, torpaq müxtəlifliyi və relyef quruluşu ilə seçildiyindən burada *Crassulaceae* D.C fəsiləsinin çoxsaylı növləri müşahidə edilir. Bu region yüksək floristik müxtəlifliyi ilə seçildiyindən həm elmi, həm də praktiki baxımdan böyük əhəmiyyət kəsb edir.

Kiçik Qafqazda yayılan *Crassulaceae* D.C fəsiləsinə aid dərman əhəmiyyətli növlərdən Sedum acre L., Sedum spurium M.Bieb., Sempervivum caucasicum Boiss., Sempervivum soboliferum Sims. və s. qeyd oluna bilər. Bu növlər həm geniş yayılmaları, həm də xalq təbabətində istifadə olunmaları ilə tanınır. Məsələn, Sedum acre iltihabəleyhinə və analgetik xüsusiyyətlərinə görə məlumdur, Sempervivum caucasicum isə yara sağaldıcı və antiseptik təsiri ilə seçilir. Bu xüsusiyyətlər *Crassulaceae* D.C fəsiləsinin Kiçik Qafqaz florasında dərman əhəmiyyətli növlərinin tədqiqini aktual edir.

Crassulaceae D.C fəsiləsinin nümayəndələrinin taksonomiyasının öyrənilməsi də olunmuş,mühüm elmi əhəmiyyət daşıyır. Bu fəsilənin nümayəndələri morfoloji müxtəlifliyinə görə sistematikada çətinliklər yaradır. Çiçəklərin quruluşu, yarpaqların forması, vegetativ orqanların şirəli quruluşu və generativ orqanların əlamətləri onların təsnifatında əsas götürülür [0]. Lakin müxtəlif ekoloji şəraitlərə uyğunlaşma nəticəsində yaranan morfoloji variasiyalar bəzən növlərin dəqiq identifikasiyasını çətinləşdirir. Buna görə də *Crassulaceae* D.C fəsiləsinin Kiçik Qafqazda yayılan dərman əhəmiyyətli növlərinin taksonomik müxtəlifliyinin öyrənilməsi yalnız botanika üçün deyil, həm də etnobotanika və farmakologiya üçün vacibdir.

Dərman məqsədilə istifadə olunan bitkilərin müxtəlifliyi və onların farmakoloji əhəmiyyəti müasir dövrdə xüsusi diqqət mərkəzindədir. Dünya əhalisinin təxminən 60–70%-i müxtəlif xəstəliklərin müalicəsində hələ də bitki mənşəli xammaldan istifadə edir. Bu baxımdan, *Crassulaceae* D.C fəsiləsinin bioaktiv maddələrlə zəngin növlərinin öyrənilməsi və farmakoloji cəhətdən qiymətləndirilməsi tibbi elmlər üçün əhəmiyyətli nəticələr vəd edir.

Nəzəriyyə

Hazırda aparılan araşdırmalar göstərir ki, Kiçik Qafqaz florasında yayılan *Crassulaceae* D.C fəsiləsi nümayəndələrinin bir qismi endem və nadir növlərə daxildir [0]. Onların təbii populyasiyalarının qorunması, ekoloji tarazlığın saxlanılması və davamlı istifadəsinin təmin olunması vacib məsələlərdəndir. Bu baxımdan, dərman əhəmiyyətli növlərin həm taksonomik sistemləşdirilməsi, həm də onların yayılma areallarının müəyyənləşdirilməsi müasir botanikanın və tətbiqi biologiyanın aktual problemlərindən biridir.

Bütün deyilənlərdən aydın olur ki, *Crassulaceae* D.C fəsiləsinin dərman əhəmiyyətli növlərinin Kiçik Qafqaz florasında taksonomik müxtəlifliyinin öyrənilməsi elmi və praktiki baxımdan vacibdir. Bu tədqiqat həm Azərbaycan florasının zənginliyinin öyrənilməsi, həm də dərman bitkilərinin elmi əsaslarla istifadəsi üçün yeni imkanlar açır.

Bu məqalənin əsas məqsədi Kiçik Qafqaz florasında yayılan *Crassulaceae* D.C fəsiləsinin dərman əhəmiyyətli növlərinin taksonomik müxtəlifliyini təhlil etmək, onların morfoloji və

bioekoloji xüsusiyyətlərini araşdırmaq, dərman əhəmiyyətini elmi cəhətdən qiymətləndirməkdir.

Tədqiqatın materialını *Crassulaceae* D.C. fəsiləsinə daxil olan dərman əhəmiyyətli növlər təşkil etmişdir.

Metod

Araşdırmalar Kiçik Qafqaz florasının müxtəlif bölgələrini – Qazax-Tovuz, Göygöl, Daşkəsən, Gədəbəy və digər rayonları əhatə etmişdir. Toplanmış materiala əsasən müxtəlif Sedum və Sempervivum və cinslərinin dərman əhəmiyyətli növləri təhlil olunmuşdur. Herbari materiallarının öyrənilməsi Bakı Dövlət Universitetinin, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Botanika İnstitutunun herbari şöbəsində, həmçinin ekspedisiya zamanı toplanan nümunələrin müqayisəsi əsasında həyata keçirilmişdir.

Tədqiqatlar 2024-cü ilin yaz- yay aylarında aparılmış, həm sahə, həm də laborator şəraitində kompleks analizlər yerinə yetirilmişdir. Toplanan materialların sistematik işlənməsi, morfoloji təhlili və müqayisəli öyrənilməsi nəticəsində növlərin identifikasiyası dəqiqləşdirilmişdir.

Tədqiqatda aşağıdakı metodlardan istifadə olunmuşdur:

-Floristik metod – növlərin yayılma areallarının öyrənilməsi və xəritələşdirilməsi.

-Taksonomik metod – *Crassulaceae* D.C fəsiləsinin cins və növlərinin identifikasiyası, mövcud sistematik ədəbiyyatla müqayisəsi (Flora of the USSR, Flora of Azerbaijan, The Plant List, IPNI və s.).

-Morfoloji analiz – vegetativ və generativ orqanların (yarpaq, gövdə, çiçək, meyvə) quruluşunun öyrənilməsi.

-Ədəbiyyat təhlili – Azərbaycan, rus və ingilis dillərində mövcud elmi mənbələrin müqayisəli analizi. Növlərin identifikasiyası zamanı İ.Ə. Karyagin, A.A. Grossheim, Ə.Ə. Quliyev və digər müasir botaniklərin sistematik əsərlərindən istifadə olunmuşdur.

Nomenklaturanın dəqiqləşdirilməsi məqsədilə “The Plant List” (2013), “World Flora Online” və IPNI (International Plant Names Index) beynəlxalq bazalarına müraciət edilmişdir.

Bitkilərin dərman əhəmiyyəti barədə məlumatlar həm etnobotaniki mənbələr, həm də fitokimyəvi tədqiqatların nəticələri əsasında dəqiqləşdirilmişdir.

Arealların dəqiq xəritələşdirilməsi üçün GIS texnologiyalarından istifadə olunmuş, müxtəliflik göstəricilərinin qiymətləndirilməsində isə statistik üsullar tətbiq edilmişdir.

Nəticələr və müzakirə

Aparılan tədqiqatların nəticələri göstərdi ki, Kiçik Qafqaz florasında *Crassulaceae* D.C. fəsiləsinin nümayəndələri, xüsusilə də dərman məqsədilə istifadə olunan növlər həm taksonomik, həm də ekoloji baxımdan yüksək müxtəliflik nümayiş etdirirlər [0]. Bu müxtəliflik ilk növbədə fəsilənin cins və növ zənginliyi, onların morfo-anatomik uyğunlaşma xüsusiyyətləri, yayılma arealı və bioekoloji göstəriciləri ilə bağlıdır.



1



2



3



4

Şəkil 1. Crassulaceae D.C fəsiləsinin Sedum cinsinin dərman əhəmiyyətli növləri

1.Sedum spurium M.Bieb, 2.Sedum acre L, 3.Sedum album L, 4.Sedum hispanicum Boiss

Crassulaceae D.C fəsiləsi dünya florasında geniş yayılmış, əsasən sukkulent həyat formaları ilə tanınan bitkilərdir [0]. Fəsilənin nümayəndələri suyu yarpaqlarında, gövdələrində və bəzən köklərində toplamaq qabiliyyətinə malikdir. Bu xüsusiyyət onların ekoloji plastiklik səviyyəsini artırır və məhz bu səbəbdən də Kiçik Qafqazın müxtəlif landşaft şəraitinə uyğunlaşa bilirlər. Tədqiqat materialları göstərir ki, Kiçik Qafqaz florasında dərman məqsədilə istifadə olunan əsas növlər Sedum və Sempervivum cinslərinə məxsusdur. Bu növlər içərisində zəngin bioloji aktiv maddə tərkibi ilə seçilir və uzun illər boyu xalq təbabətində, son dövrlərdə isə farmakologiyada istifadə olunur.

Kiçik Qafqaz florasında *Crassulaceae* D.C fəsiləsinin dərman əhəmiyyətli növlərinin əsas hissəsini Sedum cinsi təşkil edir. Bu cinsin növləri morfoloji əlamətlərinə görə kifayət qədər müxtəlifdir və onların sistematik mövqeyi zaman-zaman mübahisə doğurmuşdur. Xüsusilə Sedum acre, Sedum spurium, Sedum album kimi növlər həm morfo-anatomik xüsusiyyətlərinə, həm də ekoloji uyğunlaşmalarına görə diqqəti cəlb edir. Bu növlərin çoxunda alkaloidlər, flavonoidlər, üzvi turşular və saponinlərin yüksək konsentrasiyası aşkar edilmişdir ki, bu da onların dərman məqsədilə istifadəsini şərtləndirir [0].

Fəsilənin digər mühüm nümayəndəsi Sempervivum caucasicum olub, həm xalq təbabətində iltihabəleyhinə, yara sağaldıcı və antiseptik vasitə kimi tanınmış, həm də müasir farmakoloji tədqiqatlarda təsdiqini tapmışdır. Bu növün fitokimyəvi tərkibi müxtəlif fenol birləşmələri və antioksidant maddələrlə zəngindir.



Şəkil 2. Sempervivum caucasicum Boiss.

Tədqiqatlar göstərir ki, dərman əhəmiyyətli *Crassulaceae* D.C növlərinin yayılması əsasən dağ yamacları, qayalıq sahələr və subalp qurşaqları ilə məhdudlaşır. Bu ərazilərdəki torpaq-iqlim şəraiti onların bioaktiv maddələrlə zənginləşməsinə şərait yaradır. Məsələn, yüksək dağlıq zonalarda toplanmış nümunələrdə flavonoid və fenol maddələrinin miqdarı nisbətən çox müşahidə olunmuşdur. Bu fakt farmakobotanik baxımdan mühüm əhəmiyyət daşıyır, çünki dərman bitkilərinin keyfiyyəti onların ekoloji şəraitindən birbaşa asılıdır [0].

Digər tərəfdən, bəzi növlərin geniş hündürlük diapazonunda yayılması onların ekoloji plastiklik səviyyəsinin yüksək olduğunu sübut edir. Belə ki, Sedum album həm aşağı dağ qurşağında, həm də subalp zonasında rast gəlinmişdir. Bu xüsusiyyət həmin növlərin bioekoloji davamlılığını və genetik adaptasiya potensialını əks etdirir.

Aparılmış morfoloji və bioekoloji müşahidələr nəticəsində müəyyən edilmişdir ki, *Crassulaceae* D.C fəsiləsinin tədqiq edilən nümayəndələri yüksək dərəcədə sukulent xüsusiyyətlərə malikdir. Onların gövdə və yarpaq toxumalarında suyun toplanması və saxlanması qabiliyyəti bu bitkilərin ekstremal ekoloji şəraitə uyğunlaşmasında əsas amil kimi çıxış edir. Növlər arasında yarpaq forması, çiçək qruplaşması, çiçəklərin rəng çalarları və çoxalma formaları üzrə müəyyən variasiyalar müşahidə olunmuş, bu da onların ekoloji uyğunlaşma səviyyəsinin müxtəlifliyini göstərmişdir.

Tədqiq olunan növlərin fitokimyəvi tərkibi və bioloji xüsusiyyətləri onların dərman əhəmiyyətini bir daha təsdiqləyir. Əldə edilmiş ədəbiyyat və sahə məlumatları göstərir ki, bu növlərin tərkibində flavonoidlər, fenol birləşmələri, üzvi turşular, antosianlar, qlikozidlər və digər bioloji aktiv maddələr mövcuddur. Bu maddələr bitkilərə antioksidant, iltihabəleyhinə, antimikrob və yarasağaldıcı təsir göstərir. Xalq təbabətində bu növlərin yarpaq və gövdə hissələrindən hazırlanan cövhər və məhlulların dəri xəstəlikləri, mədə-bağırsaq pozğunluqları, yaralar və iltihabi proseslər zamanı müalicəvi vasitə kimi istifadə olunması da bu xüsusiyyətlərin praktik əhəmiyyətini sübut edir.

Əldə olunan nəticələr göstərir ki, *Crassulaceae* D.C fəsiləsinin dərman məqsədilə istifadə olunan növlərinin Kiçik Qafqazdakı taksonomik müxtəlifliyi əvvəlki dövrlərdə aparılmış araşdırmalardan daha genişdir. Əgər əvvəlki mənbələrdə əsasən 5–6 dərman əhəmiyyətli növ qeyd olunurdusa, son tədqiqatların nəticələri bu rəqəmin daha çox olduğunu təsdiqləmişdir. Bu fakt həm region florasının zənginliyini, həm də ətraf mühit amillərinin təsiri altında növlərin adaptiv inkişaf mərhələlərini əks etdirir [0].

Molekulyar-genetik tədqiqatların nəticələri ilə müqayisədə, aparılan morfo-taksonomik araşdırmalar göstərir ki, bəzi növlərin sistematik mövqeyində uyğunsuzluqlar mövcuddur. Bu, gələcəkdə dərman əhəmiyyətli *Crassulaceae* D.C növlərinin daha dəqiq identifikasiyası üçün molekulyar markerlərin tətbiqinin vacibliyini ortaya qoyur. Belə yanaşma yalnız onların sistematik mövqeyinin aydınlaşdırılmasına deyil, həm də farmakoloji potensiallarının elmi əsaslarla qiymətləndirilməsinə imkan verəcəkdir.

Cədvəl 1.Kiçik Qafqaz florasında *Crassulaceae* D.C fəsiləsinin dərman əhəmiyyətli növləri

Növün adı (Latınca)	**Morfoloji xüsusiyyətləri**	**Yayılma arealı (Kiçik Qafqazda)**	**Dərman əhəmiyyəti və istifadəsi**
Sedum acre L. (Acı daşçiçəyi)	Kiçik hündürlüklü, çoxillik, şirəli yarpaqlı, sarı çiçəklidir	Daşlı-qayalı yamaclar, quru torpaqlar	İltihab əleyhinə, qan dayandırıcı, mədə-bağırsaq xəstəliklərində
Sedum album L. (Ağ daşçiçəyi)	Sürünən gövdəli, yumru şirəli yarpaqlı, ağ çiçəklidir	Qayalı ərazilər, günəşli yamaclar	Yarasağaldıcı, antiseptik, sidikqovucu
Sedum spurium M.Bieb. (Qafqaz daşçiçəyi)	Sürünən, çoxillik, qalın yarpaqlı, çəhrayı çiçəklidir	Kiçik Qafqazın orta dağlıq zonası	İltihab əleyhinə, yaraların sağaldılmasında istifadə olunur
Sedum hispanicum L.	Xırda, birillik, boz-yaşıl yarpaqlı, açıq mavi-bənövşəyi çiçəklidir	Quru çəmənliklər, qayalıq yamaclar	Antiseptik, xalq təbabətində mədə xəstəliklərində
Sempervivum caucasicum Boiss. (Qafqaz dağlaləsi)	Sıx rozet yarpaqlı, yaşıl və bəzən qırmızımtıl ləkəli yarpaqlar; çiçəkləri çəhrayı	Kiçik Qafqazın orta və yüksək dağlıq zonaları	İltihab əleyhinə, dəri xəstəliklərində, həzm sistemi problemlərində xalq təbabətində istifadə olunur

Crassulaceae D.C fəsiləsinin dərman əhəmiyyətli növlərinin taksonomik müxtəlifliyinin öyrənilməsi botanika elmi üçün deyil, həm də farmakologiya və xalq təbabəti üçün mühüm əhəmiyyətə malikdir.

Aparılmış tədqiqatlar göstərmişdir ki, *Crassulaceae* D.C fəsiləsinin nümayəndələri həm biomüxtəlifliyin qorunması baxımından, həm də təbii dərman xammalının yerli mənbə kimi öyrənilməsi istiqamətində mühüm potensiala malikdir. Xüsusilə Sedum spurium və Sempervivum caucasicum növlərinin farmakoloji əhəmiyyətinin daha dərindən öyrənilməsi və laborator şəraitdə bioloji aktiv komponentlərinin təyini gələcək elmi tədqiqatlar üçün aktual istiqamət hesab olunur.

Bundan əlavə, bu fəsilənin nümayəndələrinin yayılma areallarının xəritələndirilməsi, ekoloji şəraitlə əlaqələrinin statistik təhlili və populyasiya sabitliyinin qiymətləndirilməsi Kiçik Qafqaz florasında Crassulaceae fəsiləsinin taksonomik və ekoloji müxtəlifliyinin daha dolğun öyrənilməsinə imkan verəcəkdir. Beləliklə, aparılmış tədqiqatlar nəticəsində *Crassulaceae* D.C fəsiləsinin dərman əhəmiyyətli növlərinin Kiçik Qafqaz florasında geniş yayılma diapazonuna malik olduğu, ekoloji amillərə qarşı yüksək adaptasiya qabiliyyəti nümayiş etdirdiyi və xalq təbabətində praktik tətbiq potensialının yüksək olduğu müəyyən edilmişdir. Bu nəticələr gələcəkdə fitokimyəvi və farmakoloji istiqamətli kompleks tədqiqatların aparılması üçün elmi baza rolunu oynaya bilər.

ƏDƏBIYYAT SIYAHISI:

1. Qurbanov, E. M. (2009). Ali bitkilərin sistematikası. Bakı, 419.
2. Əsgərov, A. M. (2008). Azərbaycan florasının konspekti. Bakı, 198-200.
3. Babayev, F. A. (2004). Bitki coğrafiyası. Bakı, 291.
4. Bayramov, A. A. (1981). Crassulaceae D.C növlərinin adaptiv mahiyyətinin əsas xüsusiyyətləri. Sedum L. Hesabatlar cild. XXXVII, №5, 52-55.
5. Комарницкий, Н.А., Кудряшов, Л.В., Уранов, А.А. (1975). Ботаника: Систематика растений. Учебник. Просвещение, М.
6. Флора Азербайджана. Изд. АН Азерб. ССР, тт. 1-УШ, Баку, 1950-1961.
7. Черепанов, С.К. (1995). Сосудистые растения России и сопредельных государств. С-Пб.: Мир и семья.
8. Ghazanfar, S. A., Edmondson, J. R. (Eds). (2013-2019). Flora of Iraq, Volumes 5.1, 5.2 and 6.0. Kew Publishing
9. Govaerts, R., NicLughadha, E., Black, N., Turner, R. & Paton, A. (2021). The World Checklist of Vascular Plants, a continuously updated resource for exploring global plant diversity. https://doi.org/10.1038/s41597-021-00997-
10. Flora of Iraq H. Obha in J. Fac. Sci. Univ.Tokyo Ser. III, 12, 168 (1978).
11. Karagoz, F.P., Karagoz, H. & Dursun, A. (2020). Properties and Importance of Prometheum sempervivoides (Fisch. Ex Bieb.) H. Ohba as Ornamental Plant Naturally Grown in Erzurum. Journal of Agricultural Production, 1(1), 22-30. Kim, I.H., Huh, K.Y. & Huh, M.R. (2010). Cold tolerance assessment of Sedum species for shallow -extensive green roof system. Korean J Hort Sci Te chnol., 28, 22-30.
12. Derya Sarı Vijayaraghavan, K. (2016). Green roofs: A critical review on the role of compo nents, benefits, limitations and trends. Renewable and Sustainable Energy Reviews, 57, 740–742.
13. Yazıcı, K. (2020). İç mekân süs bitkilerinin önemi ve tüketici eğilimlerinin belirlenmesi. Bartın Orman Fakültesi Dergisi, 22 (3), 738-747.

DOİ: 10.32010/BAQF6365

OZON TERAPIYASININ PSIXOTROP DƏRMAN ZƏHƏRLƏNMƏSI MODELLƏRINDƏ HEPATOPROTEKTIV VƏ ANTIOKSIDANT TƏSIRLƏRININ EKSPERIMENTAL QIYMƏTLƏNDIRILMƏSI

Pəri Etibar ƏLIYEVA
Naxçıvan Dövlət Universiteti, doktorant
Email: perialiyeva1304@gmail.com

Xülasə. Bu tədqiqatda psixotrop dərman zəhərlənməsi modellərində ozon terapiyasının hepatoprotektiv və antioksidant təsirləri eksperimental olaraq qiymətləndirilmişdir. Araşdırma Depakin (valpro turşusu) və Amitriptillin ilə zəhərlənmiş Wistar albino siçovulları üzərində aparılmışdır. Müəyyən olunmuşdur ki, bu maddələr qaraciyərdə oksidativ stressi artırır, lipid peroksidləşməsini gücləndirir və antioksidant müdafiə sistemini zəiflədir. İntraperitoneal ozon terapiyasının tətbiqi nəticəsində ALT, AST, ALP və GGT səviyyələrində azalma, MDA və OMP göstəricilərində enmə, katalaza və ümumi antioksidant fəallıqda isə artım müşahidə edilmişdir. Bu nəticələr ozon terapiyasının qaraciyər zədələnməsini azaltdığını və oksidləşdirici-antioxidant balansı yaxşılaşdırdığını göstərir. Tədqiqat ozon terapiyasının psixotrop dərman zəhərlənmələrində komplementar müalicə üsulu kimi perspektivli olduğunu sübut edir və gələcək klinik tədqiqatlar üçün əsas yaradır.
Açar sözlər: Ozon terapiyası, hepatotoksiklik, psixotrop dərmanlar, antioksidant sistem, lipid peroksidləşməsi, Depakin, Amitriptillin, eksperimental model

EXPERIMENTAL EVALUATION OF THE HEPATOPROTECTIVE AND ANTIOXIDANT EFFECTS OF OZONE THERAPY IN MODELS OF PSYCHOTROPIC DRUG POISONING

Pəri Etibar ALIYEVA
Nakhchivan State University,
PhD student
Email: perialiyeva1304@gmail.com

Abstract This study experimentally evaluates the hepatoprotective and antioxidant effects of ozone therapy in models of psychotropic drug poisoning. The research was conducted on Wistar albino rats exposed to valproic acid (Depakine) and amitriptyline. These substances were found to induce oxidative stress, enhance lipid peroxidation, and suppress the antioxidant defense system in liver tissue. Intraperitoneal ozone therapy significantly reduced ALT, AST, ALP, and GGT levels, while decreasing MDA and OMP markers. Additionally, increased catalase activity and total antioxidant capacity were observed. These findings indicate that ozone therapy reduces liver damage and improves the oxidant–antioxidant balance. The results support the potential use of ozone therapy as a complementary treatment approach in psychotropic drug intoxication. This study provides a scientific basis for further experimental and clinical investigations into the therapeutic applications of ozone in toxicology and hepatoprotection.
Keywords: Ozone therapy, hepatoprotection, oxidative stress, lipid peroxidation, psychotropic drugs, experimental model

ЭКСПЕРИМЕНТАЛЬНАЯ ОЦЕНКА ГЕПАТОПРОТЕКТОРНЫХ И АНТИОКСИДАНТНЫХ ЭФФЕКТОВ ОЗОНОТЕРАПИИ ПРИ МОДЕЛЯХ ОТРАВЛЕНИЯ ПСИХОТРОПНЫМИ ПРЕПАРАТАМИ

Пери Этибар АЛИЕВА
Нахчыванский государственный университет,
докторант
Email: perialiyeva1304@gmail.com

Резюме: В данном исследовании экспериментально оценены гепатопротекторные и антиоксидантные эффекты озонотерапии при моделях отравления психотропными препаратами. Исследование проведено на крысах линии Wistar, интоксицированных вальпроевой кислотой (Депакин) и амитриптилином. Установлено, что данные препараты вызывают усиление оксидативного стресса, активируют процессы перекисного окисления липидов и угнетают антиоксидантную защиту печени. Применение интраперитонеальной озонотерапии привело к

снижению уровней ALT, AST, ALP и GGT, уменьшению показателей MDA и OMP, а также к увеличению активности каталазы и общей антиоксидантной активности. Полученные результаты свидетельствуют о снижении повреждения печени и улучшении окислительно-антиоксидантного баланса. Озонотерапия может рассматриваться как перспективный комплементарный метод лечения при интоксикации психотропными препаратами и требует дальнейших клинических исследований.
Ключевые слова: озонотерапия, гепатопротекция, оксидативный стресс, перекисное окисление липидов, психотропные препараты, экспериментальная модель

Giriş

Psixotrop dərmanlarla, xüsusilə valpro turşusu (Depakin) və trisiklik antidepressantlar (Amitriptillin) ilə baş verən zəhərlənmələr müasir toksikologiyanın aktual problemlərindəndir. Bu cür zəhərlənmələrdə əsas hədəf orqanlardan biri qaraciyər olub, burada baş verən metabolik pozğunluqlar oksidativ stressin artması, lipid peroksidləşməsinin güclənməsi və antioksidant müdafiə sisteminin zəifləməsi ilə müşayiət olunur [1].

Ənənəvi simptomatik müalicə, çox zaman qaraciyər toxumasını tam bərpa edə bilmir. Bu səbəbdən, komplementar yanaşmalar, o cümlədən ozon terapiyası, son illər eksperimental və klinik toksikologiyada maraq doğuran sahələrdən birinə çevrilmişdir. Ozonun immunomodulyator, antiinflamator və antioksidant sistemləri stimullaşdıran təsiri bir sıra tədqiqatlarla sübut edilmişdir [2].

Bu tədqiqatda məqsədimiz, Depakin və Amitriptillin ilə zəhərlənmiş siçovul modelində intraperitoneal ozon terapiyasının qaraciyər biokimyəvi göstəricilərinə, oksidləşdirici-antioxidant balansına və lipid peroksidləşməsi səviyyələrinə olan təsirini qiymətləndirməkdir.

Tədqiqat 2025-ci ilin yanvar-mart aylarında Azərbaycan Tibb Universitetinin Elmi Araşdırmalar Mərkəzində aparılmışdır. Araşdırmada 110 ədəd sağlam, 4–6 aylıq, çəkisi 190–250 qram olan Wistar Albino siçovulları istifadə edilmişdir. Heyvanlar 3 əsas qrupa bölünmüşdür:

1. Nəzarət qrupu – heç bir müdaxilə edilməyib.
2. Zəhərlənmə + standart müalicə qrupu – Depakin və Amitriptillin ilə zəhərlənmə, sonra natrium xlor ilə simptomatik müalicə.
3. Zəhərlənmə + ozon terapiyası qrupu – eyni zəhərlənmə modeli, lakin müalicəyə əlavə olaraq intraperitoneal ozon tətbiqi (doza: 1 mg/kg, 3 gün ardıcıl).

Qiymətləndirmə aşağıdakı biokimyəvi və molekulyar göstəricilər üzrə aparılmışdır:

-Hepatosellulyar markerlər: ALT, AST, ALP, GGT, ümumi bilirubin

-Metabolik göstəricilər: Urea, ümumi zülal

-Oksidativ stress və antioksidant status: MDA (malondialdehid), OMP, DK, katalaza, peroksidaza, ümumi antioksidant fəallıq (ÜAF) Statistik təhlil üçün SPSS 26.0 proqramı istifadə olunmuş, nəticələr $P<0.05$ səviyyəsində əhəmiyyətli hesab edilmişdir. Araşdırma nəticələri ozon terapiyasının hepatoprotektiv və antioksidant təsir potensialını eksperimental modeldə təsdiqləmişdir. Əvvəlki tədqiqatlarda da göstərilmişdir ki, ozon terapiyası oksidativ stressin tənzimlənməsi, mitoxondrial funksiyaların qorunması və toxuma regenerasiyasının stimullaşdırılması baxımından effektivdir [4].

Bu tədqiqatda isə ilk dəfə olaraq Depakin və Amitriptillin ilə zəhərlənmiş modeldə bu təsirlərin müşahidə olunması ozon terapiyasının klinik toksikologiyada komplementar müalicə vasitəsi kimi istifadəsinin əsaslandırılması baxımından önəmlidir.

Qeyd edək ki, intraperitoneal ozon terapiyası, psixotrop dərmanlarla zəhərlənmə şəraitində qaraciyər funksiyalarını qorumaq, oksidativ stressi azaltmaq və antioksidant sistemləri gücləndirmək baxımından əhəmiyyətli nəticələr göstərmişdir.

- Bu nəticələr əsasında, klinik praktikada ozonun ənənəvi müalicəyə əlavə yanaşma kimi qiymətləndirilməsi mümkündür.
- Gələcək tədqiqatlarda doza-zaman effektivliyi, ozonun farmakodinamikası və uzunmüddətli toksikoloji profili də qiymətləndirilməlidir.

Nəticə

Tədqiqat nəticələrinə əsasən, ozon terapiyası tətbiq olunan qrupda:

- ALT, AST, ALP və GGT səviyyələri zəhərlənmə + standart müalicə qrupuna nisbətən əldə ediləcək dərəcədə daha aşağı olmuş, bu da qaraciyər toxumasında zədələnmənin azalmasını göstərmişdir ($P<0.05$).
- MDA və OMP səviyyələrinin azalması, lipid peroksidləşməsinin və zülal oksidasiyasının zəiflədiyini sübut etmişdir.
- Katalaza və ümumi antioksidant fəallıqda əhəmiyyətli artım müşahidə edilmiş, bu da ozonun endogen antioksidant sistemləri stimullaşdırma qabiliyyətini təsdiqləmişdir [3].
- Peroksidaza aktivliyi artmış olsa da, bu dəyişiklik statistik olaraq əhəmiyyətli səviyyəyə çatmamışdır. Bu, doza və tətbiq müddəti ilə əlaqədar

ola bilər və genişləndirilmiş nümunə ilə təkrar yoxlanması tövsiyə olunur

ƏDƏBİYYAT SİYAHISI

1. Abdel-Rahman, M.A. et al. (2020). Toxicology, 445, 152525.
2. Bocci, V. et al. (2018). Free Radical Biology and Medicine, 124, 27–38.
3. Martínez-Sánchez, G. et al. (2019). Redox Biology, 22, 101273.
4. Elvis, A.M., Ekta, J.S. (2020). Medical Hypotheses, 137, 109997
5.Ozonoterapiya nədir.https://www.qanintemizlenmesi.com/ozonoterapiya

DOİ: 10.32010/BNVV7233

STUDY OF THE EXPRESSION PROFILES OF GENES INVOLVED IN THE REGULATION OF REACTIVE OXYGEN SPECIES IN COTTON

Shader Aydin ALIZADE
Baku State University, Department of Genetics
Orcid: https://orcid.org/0000-0002-6059-2330
E-mail: shaderalizade@bsu.edu.az

Abstract: Cotton is an important industrial crop grown worldwide and is used as a model organism in salt tolerance studies. Currently, the study of the molecular genetic basis of salt tolerance is of great importance for the identification, creation and use of salt-tolerant varieties and forms in breeding. In the theoretical and methodological aspects of breeding and genetic research, the determination of the effect of all types of action and interaction of genes controlling salt tolerance is of particular interest. Reactive oxygen species (ROS) are constantly formed in living cells as products of normal oxygen metabolism. ROS scavenging is an important aspect of normal cell life activity and response to adverse environmental conditions. In this study, the expression level of genes involved (*GhAPX1, GhSOD, GhCAT1* and *GhFSD1*) in the regulation of ROS were comparitavely evaluated in 31 varieties of cotton (*G. hirsutum* L.) under 2 different concentrations of NaCl (100 mM and 200 mM). Increasing of expression level of all studied genes was observed in Navai-9, Lima and Ganja-195 varieties at both levels of salt stress, while a decrease in the expression level was not determined in any genotype under both levels of stress. Comparison of expression levels between and within groups differing in salt tolerance revealed wide variation in the level of expression patterns. Although only an increase in the expression level of various genes was observed in the salt-resistant variety Navai-9. A wide diversity between and within groups indicates that the mechanisms providing salt tolerance in plants are different.
Keywords: ROS, salt stress, cotton, gene expression

PAMBIQDA OKSİGENİN AKTİV FORMALARININ TƏNZİMLƏNMƏSİNDƏ İŞTİRAK EDƏN GENLƏRİN EKSPRESSİ YA PROFİLLƏRİNİN TƏDQİQİ

Şadər Aydın ƏLİZADƏ
Bakı Dövlət Universiteti, Genetika kafedrası
Orcid6 https://orcid.org/0000-0002-6059-2330
E-mail: shaderalizade@bsu.edu.az

The state of the vegetation also affects the efficiency of ecotourism activities within the park. When designing tourism routes, the current state of vegetation, the plant species present, and their protection status should be identified in advance. Taking all these factors into account, it can be stated that studying the current condition of the vegetation cover of Gizilaghaj National Park is highly important and significant.
Keywords: Gizilaghaj National Park, endemic species, National Park, vegetation cover, Ramsar.

Giriş

Tədqiqatın aparılmasında əsas məqsəd ölkəmizin biomüxtəlifliyinin öyrənilməsi, xüsusilə Qızılağac Milli Parkının florasının və bitki örtüyünün müasir vəziyyətinin monitorinqi və ona mənfi təsir edən amillərin müəyyən edilməsi olmuşdur. Ərazinin bitki örtüyünün və ona bağlı proseslərin öyrənilməsində klassik metodlarla yanaşı müasir metodlardan da istifadə edilmişdir. Bitki örtüyündəki əsas növlərin müşahidə edilməsi üçün əsas metod kimi morfoloji tədqiqatlardan istifadə edilmişdir. Nadir növlərin müəyyən edilməsi üçün Azərbayacan Respublikasının Qırmızı Kitabının II və III nəşrlərindən və digər ədəbiyyatlarla yanaşı vizual təsvirlərdən də istifadə edilmişdir. Çöl tədqiqatlarının aparılması məqsədilə tərəfimizdən 2024-2025-ci illərdə payız və yay fəslinin başlanğıcı olmaqla əraziyə gedilmiş, tədqiqat obyektindən bitki nümunələri götürülmüş və növlərin təyin edilməsi üçün fotoşəkillər (Canon SX 60 Powershot) çəkilmişdir.

Azərbaycan Respublikasının Lənkəran, Masallı və Neftçala rayonlarının inzibati ərazisində yerləşən Qızılağac Milli Parkı Azərbaycan Respublikasının Prezidentinin 2018-ci il 26 sentyabr tarixli 512 nömrəli Sərəncamı ilə yaradılmışdır. Milli Parkın müasir ərazisinə keçmiş Qızılağac Dövlət Təbiət Qoruğu, dövlət ehtiyyat fondu torpaqları və Kiçik Qızılağac Dövlət Təbiət Yasaqlığı daxildir.

Milli Parkın yaradılmasında məqsəd ekoloji, tarixi, estetik və bioloji əhəmiyyətə malik olan təbiət obyektlərinin və onların yerləşdiyi ərazinin, ətraf mühitin mühafizəsinin təşkil edilməsidir. Bununla yanaşı onun funksiyalarına ekoloji marifləndirmə, elmi tədqiqatların aparılması, mədəni və ekoturizm tədbirlərinin təşkili daxildir. Yarandığı gündən bu

Xüsusi Mühafizə Olunan Təbiət Ərazisinin (XMOTƏ) əsas məqsədi miqrasiya edən quş növlərinin mühafizəsi olsa da tədricən onun ərazisində digər fauna növləri və müxtəlif flora nümayəndələri də mühafizə olunmuşdur. Landşaft komponentləri içərisində bitki növlərinin mühafizə olunması xüsusilə mühümdür. Belə ki, bu bitkilər Milli Parkın fauna nümayəndələri üçün bir çox funksiyaları (trofik və fabrikasiya) yerinə yetirir. Bitkilər ərazidəki canlılar üçün başlıca qida mənbəyi (həm yaşıl hissələr həm də toxumlar), yuvalama və çoxalma yeri, yırtıcılardan gizlənmə və əlverişsiz şəraitdən qorunmaq üçün sığınacaqdır. Burada bitkilər biomüxtəlifliyin hər üç səviyyəsində (gen, növ və ekosistem) kənar təsirlərdən mühafizə edilir. Qızılağac Milli Parkının bitki örtüyünün növ müxtəlifliyi və digər aspektlər müxtəlif illərdə yerli və xarici tədqiqatçılar tərəfindən öyrənilmişdir. Milli parkdakı ali bitkilər xüsusilə yaxşı öyrənilmişdir. İbtidai bitkilərin isə daha ətraflı öyrənilməsinə ehtiyac vardır.

Nəzəriyyə

Respublikamızın florasında təqribən 5000 bitki növünə rast gəlmək mümkündür ki, bu növlərdən də 467-ə qədəri təbii halda yayılmış müxtəlif ağac və kol bitkiləri, geri qalanlar isə ot bitkiləridir. Müasir dövrdə təbii florada müşahidə edilən hər üç növdən biri məhv olmaq təhlükəsi ilə qarşı-qarşıyadır. Tədqiqatlar zamanı məlum olmuşdur ki, respublikamızda 190-dan çox ağac və kol bitkisinin mühafizə olunmağa ehtiyacı var (İsgəndər və Sadıqova, 2018). Bu da respublikamızda yayılmış ağac və kol bitkilərinin təqribən 43%-i olmaqla, mövcud vəziyyətin ciddi təhlükədə olduğunu göstərir. Ölkəmizin təbii florasında yayılmış ağac və kol bitkilərinin növ səviyyəsində 25%-ə qədər relikt bitkilər olub çox mühüm bioloji və ekoloji əhəmiyyətə malikdirlər. Azərbaycan Respublikasının Qırmızı Kitabının 2023-cü ildə nəşr edilmiş III cildinə ölkəmizdə yayılmış 453 növ bitki daxil edilmişdir ki onlardan da 413 növ ali bitki olmuşdur (Azərbaycan Respublikasının Qırmızı Kitabı III nəşr, 2023).

Ədəbiyyat məlumatlarının təhlilinə əsasən 1975-ci ildə respublikamızda 24, 1984-cü ildə 28 nadir və nəsli kəsilməkdə olan müxtəlif növ ağac və kol olduğu müəyyən edilmişdir, 1989-cu ildə isə bu rəqəm 45 növ olmuşdur. Nəsli kəsilmə təhlükəsində olan bu növlərin ildən-ilə sayının artma səbəblərinin müəyyən edilməsi və qarşısının alınması müasir dövrün ən aktual məsələlərindən biridir. Bu növlərin mühafizəsində Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərinin (XMOTƏ) yaradılması və mövcud olanlarda mühafizə işinin təşkili və yaxşılaşdırılması üçün elmi bazanın formalaşdırılması olduqca vacibdir. Bu səbəbdən də Azərbaycan Respublikasının Prezidentinin 24 mart 2006-cı il, 1368 saylı və 3 oktyabr 2016-cı il tarixli sərəncamları ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair Milli Strategiya və Fəaliyyət Planı"nda nadi və nəsli kəsilmək təhlükəsində olan bitkilərin bərpası, antropogen təsirlərin ətraf mühitə və bioloji müxtəlifliyə təsirlərinin azaldılması, XMOTƏ-də elmi-tədqiqat işlərinin aparılmasına lazimi şəraitin yaradılması kimi məsələlər qarşıya məqsəd olaraq qoyulmuşdur (İsgəndər və Sadıqova, 2018).

Qızılağac Milli Parkının müasir ərazisi respublikamızın 2 ayrı botaniki coğrafi rayonuna aid edilir. Belə ki, milli parkın şimal-şərq hissələri botaniki coğrafi rayonlaşdırma baxımından Kür-Araz, geri qalan digər hissələr isə Lənkəran-Muğan botaniki-coğrafi rayonunun ərazisinə daxildir.

Qızılağac Milli Parkında bitki örtüyünün analizi – Milli Parkın ərazisində ibtidai və ali bitkilərin nümayəndələrinə rast gəlinir.

Milli Parkda borulu bitkilərin 66 fəsiləsinin 215 cinsinə aid 346 növ müşahidə edilir (Cədvəl 1) .

Cədvəl 1.

Qızılağac Milli Parkında müşahidə edilən bitkilərin sistematik göstəriciləri

Bitki qrupları	**Fəsilə**	**Cins**	**Növ**
Ali sporlu bitkilər	2	2	2
Çılpaqtoxumlular	1	1	1
Birləpəlilər	14	48	81
İkiləpəlilər	49	164	262

Ərazidə müşahidə olunan növlərin əksəriyyəti ikiləpəlilər sinfinin nümayəndələridir. Bu milli parkın iqlim xüsusiyyəti ilə əlaqəlidir.

Milli Parkın Ərazisində ən geniş yayılan bitkilər taxıllar *(Poaceae)*, mürəkkəbçiçəklilər *(Asteraceae)* və paxlalılar *(Fabaceae)* fəsilələrinin nümayəndələridir. Bu da qeyd olunan fəsilələrə aid bitkilərin müxtəlif həyat formalarının olması və milli parkın torpaq və iqlim şəraiti ilə əlaqədardır.

Ərazidə həmçinin 4 növ endemik bitki yayılmışdır.

1. Populus hybrida – Hibrid qovağı

2. Plantago filiformis – Sapvari bağayarpağı
3. Taraxacum grossheimii – Qrossgeym topgülü
4. Raphanus rostratus – Buruncuqlu turp

Endemik növlərinin sayının az olmasının əsas səbəbi Milli Parkın quru ərazisinin az olması ilə əlqədardır. Bununla yanaşı olaraq Milli Parkın ərazisi flora baxımından kasıb olan botaniki-coğrafi rayonların ərazilərinə daxildir.

Milli Parkın ərazisində hazırda 38 hektardan çox meşəlik ərazi mühafizə olunur. Bu meşəlik əsasən söyüd, qızılağac, iydə, qarağac və başqa ağaclardan ibarətdir (Ağayev və Sucayev, 2023).

Bitki örtüyünün coğrafi analizi – Milli Parkın ərazisində bitki örtüyünün və növ müxtəlifliyinin formalaşma yollarını müəyyənləşdirməkdə coğrafi təhlil mühüm rol oynayır. 1936-cı ildə A.A. Qrossheymin fikrinə görə areallar növlərin tarixi inkişaf prosesini öyrənməyə imkan verir. Arealların analizi nəticəsində bitki qruplarının yalnız coğrafi deyil həm də genetik qruplarının müəyyən etmək olur ki, bu da bitki növlərinin inkişaf və yayılma tarixini öyrənməyə şərait yaradır. Qızılağac Milli Parkının ərazisində areal tiplərini öyrənərkən müəyyən edilmişdir ki, burada Qafqaz regionuna xas olan areal tiplərinin hamısına rast gəlmək mümkündür.

Milli Parkın ərazisində boreal areal tipinin nümayəndələri daha geniş şəkildə təmsil olunur (104 növ). Bu tipə aid edilən bitkilər əsasən Şimal yarımkürəsinin meşəlik zonasında yayılmışdır. Bu bitkilər əsasən ərazinin rütubətli olan hissələrində yayılmışdır.

Bozqır areal tipi Milli Parkda zəyif müşahidə edilir. Bu tipə daxil edilən bitkilərə aşağıdakılar misal göstərilə bilər.

1) Pholiurus pannonicus
2) Carex melanostachya
3) Ephedra distachya

Milli Parkda bu tipə daxil olan bitkilər az saylı olsada hər üç sinfinin nümayəndələrinə rast gəlinir. Bu siniflər ekoloji baxımdan bir birindən fərqlənir belə ki, onlardan bəziləri az kserofil bəziləri isə yarımsəhralarda müşahidə edilir.

Kserofil (quraqlıq sevən) areal tipi Milli Parkda üstünlük təşkil edir. Bu tip Qafqazın florasında da əsas rola malikdir. Belə ki, bu tip Qafqaz florasının təqribən 50%-ni təşkil edir. Ərazidə bu areal tipinin hər üç sinfinə (Aralıq dənizi, Ön Asiya, Mərkəzi Asiya) rast gəlinir. Ən geniş yayılmış növ müxtəlifliyi Aralıq dənizi sinfinə aiddir (115 növ). Qafqaz florasında Ön Asiya sinfinə aid edilən növlər ümumi növlərin 4/1-ni. Aralıq dənizi sinfi isə 6/1-ni təşkil edir. Lakin Qızılağac Milli Parkında Aralıq dənizi sinfinə aid edilən növlər üstünlük təşkil edir. Bu isə həm milli parkın coğrafi yerləşməsi və relyefinin daha çox dənizsahili düzənliklər olması ilə əlaqədardır. Dəniz sahili düzənliklərdə Aralıq dənizi mənşəli bitkilər üçün daha əlverişli şərait var. Aralıq dənizi mənşəli bitki növlərindən Briza minor, Vulpia ciliata, Vulpia myuros, Cardaria draba, Lepidium campestre, Medicago littoralis, Medicago spumosus, Vicia narbonensis, Lathyrus annuus, Cyperus longus, Punica granatum (nar) kimi növlər Milli Parkın bitki örtüyünün formalaşmasında başlıca ror oynayır. *Tamarix meyeri, Lepidium perfoliatum, Ficus carica* (əncir) Ön Asiya mənşəli növlər olub fitosenozlarda mühüm rol oynayırlar.

Səhra mənşəli arel tipinin nümayəndələri ərazidə az saylı növlərlə təmsil olunur və bu növlərin əksəriyyəti Turan qrupuna aiddir. Bu tipin nümayəndələrini Kserofil tipdən fərqləndirən başıca xüsusiyyət yüksək quraqlıqlara dözümlü bitkilərin olmasıdır. Bu tipdə həmçinin əhəmiyyətli sayda duzlu torpaqlarda bitən (halofitlər) və qumlu torpaqlarda bitməyə uyğunlaşmış (psammofitlər) bitkilər toplanmışdır. Atropis gigantea bu tipə aid olub edifikator və dominant növdür.

Qafqaz areal tipinin isə Milli Park ərazisində cəmi bir növünə (*Populus Hybrida*) rast gəlinir. Milli Parkın relyefi və bununla əlaqədər ekoloji şəraiti ərazidə bu tipin növlərinin yayılmasına imkan vermir.

Aventiv (sonradan gətirilmiş) areal tipinin növləri azsaylıdır. Bu qrupda daxil olan bitkilər ərazidə əvvəllər müşühidə edilməmiş, insanlar tərəfindən digər ölkələrdən gətirilmiş növlər daxildir. *Salvinia natans* və *Paspalum digitaria* ərazidə geniş yayılmış növlərdəndir. digər nümayəndələr isə azsaylıdır və nadir hallarda müşahidə edilir. Bunun səbəbi isə Milli Parkda mühafizə işinin təşkil edilməsi ilə bağlıdır. Daha öncə Milli Parkın ərazisi Dövlət Təbiət Qoruğu olduğu üçün kənar növlərin əraziyə daxil edilməsi çətin olmuşdur.

Milli Parkda relikt (qədim) areal tipi yüksək növ müxtəlifliyi ilə təmsil olunur. Bunun səbəbi ərazinin Talış dağlarına yaxın olması ilə izah edilir. Belə ki, Talış dağları relikt növlərin qorunduğu sığınacaq rolu oynamışdır.

Milli Parkda boreal tipin nümayəndələri də geniş yayılmışdır. Bunun səbəbi su və su-bataqlıq ərazilərinin üstünlük təşkil etməsi ilə əlaqədardır. Bu tipin nümayəndələrinin yayılması üçün məhz bu cür şərait əlverişlidir.

Bitki örtüyünün ekoloji analizi – Milli Parkın ərazisində bir neçə fərqli yaşayış mühitinin olması burada bitki növlərinin də müxtəlif ekoloji qruplarda toplanılmasına imkan verir. Milli Parkda yayılmış ibtidai bitkilər zəif öyrənilmiş olsada

burada onların növ müxtəlifliyinin öyrənilməsi üçün müəyyən tədiqatlar aparılmışdır. İbtidai bitkilər tədqiqat ərazisinin əsasən su hövzələrində rast gəlinir. Səbəb isə milli parkın quraq iqlim şəraitinin təsirləri quru ərzilərdə ibtidai bitkilərin yayılmasına imkan verimir və onlara bu ərazilərdə rast gəlinmir. Burada olan müxtəlif su hövzələrində, xüsusilə yosunlar geniş yayılmışdır. Bu yosunlar 2 fərqli ekoloji qrupa ayrılırlar: (Salmanov və b., 2011).

1) Bentik yosunlar – bu qrupa daxil edilən yosunlar su hövzələrinin dibindəki müxtəlif substratlara (daşlar, qayalar, dib səht və digər obyektlər) yapışaraq yerləşirlər.

2) Plankton yosunlar – bu qrupa daxil olan yosunlar suda heç bir obyektə yapışmır və tam sərbəs şəkildə üzürlər. Onlar suyun axını ilə hərəkət edir və ya öz hərəkət orqanlarından istifadə edirlər.

Su hövzələrinin duzluluq səviyyəsinin fərqli olması səbəbindən buradakı növlər də fəqlənir. Böyük Qızılağac körfəzində yayılmış yosun növləri fizioloji xüsusiyyətləəri baxımından duzlu sularda yaşayan, Kiçik Qızılağac Körfəzindəki yosunlar isə şirin su ekosistemlərində yayılmış yosunlardır. Son illərdə Xəzər dənizinin suyunda baş verən azalmalar öz təsirini Milli Parkda olan yosunlara da göstərir. Belə ki, istər Kiçik Qızılağac körfəzinin Xəzər dənizi ilə əlaqəsinin kəsilməsi nəticəsində şirinləşməsi istərsə də Böyük Qızılağac körfəzinin Xəzər dənizi ilə əlaqəsinin azalması su keyfiyyətinə təsiri və suyun fiziki xassələrində baş verən dəyişmələr öz təsirini buradakı canlılara göstərir. Xüsusilə də buradakı göy-yaşıl yosunlar əhəmiyyətlidir. Onlar fotosintez prosesində iştirak edərək su hövzələrinin oksogen səviyyəsini nizamlayır və bu da orada yaşayan canlılar üçün xüsusilə əhəmiyyətlidir. Bununla yanaşı bu yosunlar bir çox canlının qidasını təmin edir.

Ərazidə bitkilər üçün müəyyənedici əsas amil torpağın rütubətliliyi və duzluluğudur. Milli Parkdakı bitkilər torpağın rütubətliliyinə görə aşağıdakı qruplarda fərqləndirilir:

1) **Hidrofitlər** – Su bitkiləridir. Bu qrupda daxil olan bitkilər tamamilə suyun içərisində suyun dibinə bərkimiş və ya sərbəst üzən formalarda olur. Milli Parkın ərazisində bu qrupa daxil olan 18 növ (Ərazidə yayılmış bütün növ yosunlar və *Lemna minor L., Myriophyllum spicatum, Ranunculus aquatilis*, *Ruppia cirrhosa* və s.) yayılmışdır.



Şəkil 1. Ranunculus aquatilis

2) **Hiqrofitlər** – bu qurupa daxil olan bitkilər rütubətin bol olduğu, nəmli torpaqlarda bitir. Bu bitkilərin orqanlarının bir hissəsi suda digər orqanları isə yerüstü hava mühitində bitir. Milli Park ərazisində bu qrupa daxil olan 29 növ yayılmışdır.

3) **Mezofitlər** – orta rütubətli mühitlərdə bitən (suya orta dərəcədə tələbkar) bitkilərdir. Milli Parkın ərazisində ən çox növlə təmsil olunan ekoloji qrupdur (191 növ). Növ sayının bu qədər çox olmasının bir neçə səbəbi var. Belə ki, Qızılağac Milli Parkının bir hissəsi Lənkəran düzənliyinin ərazisində yerləşir, ikincisi tədqiqat ərazisində xüsusilə körfəz sahillərinə yaxın hissələrdə bu bitkilərin bitməsi üçün xeyli mümbit ərazi var və son olaraq yarımsəhra bitkilərinin çox hissəsinin su baxımından mezofit qrupuna aid olduğunu qeyd etmək olar.

4) **Kserofitlər** – bu qrupa daxil olan bitkilər çox quraq ərazilərdə bitə bilirlər. Bu ekoloji qrupa daxil edilən 108 növə Milli Parkın daxilində rast gəlmək mümkündür.

Milli Parkdakı bitkilər torpaqda həll olmuş duzların miqdarına münasibətinə görə 2 qrupa bölünür:

1) Halofitlər – Bu bitkilər əsasən çox duzlu torpaqlarda və şoranlaşmış yeraltı sular olan ərazilərdə yaşamağa uyğunlaşmışdırlar.

2) Qlikofitlər – Bu bitkilər duzlu torpaqlarda və sularda yaşaya bilmirlər, onlara əsasən şoranlaşmamış torpaqlarda və şirin su hövzələrində rast gəlmək mümkündür. Tədqiqat ərazisində əsasən bu qrupun nümayəndələri geniş yayılmış və növ müxtəlifliyi daha zəngindir.

Qeyd olunan bu qruplardan başqa Milli Park ərazisində keçid qruplara da rast gəlinir, onlar əsas qruplar arasında aralıq mövqe tutur. Bunlara kseromezofitlər və mezokserofitlər misal göstərilə bilər. Çünki, bu qrupa daxil olan bitkilər arasında suya tələbatında görə kəskin fərq qoymaq çətindir (İsgəndər və Sadıqova, 2018)

Milli Park ərazisində olan bitkilərin ekoloji təhlili onu göstərir ki, ərazidə bitkilərin yayılması onun fiziki coğrafi xüsusiyyətləri ilə yanaşı həm də torpaq və iqlim şəraitindən də asılıdır. Milli Parkın bitkilər aləmi onun çöllük hissəsində xüsusilə yaz fəslində daha müxtəlif və zəngin olur. Bu zənginlikdə efemer bitkilər xüsusi rol oynayır (İbrahimov, 2019)

Milli Parkın ərazisindəki bitkilər həm biomüxtəlifliyin komponentləri kimi həm də bir çox quş və digər canlıların qidası kimi mühüm əhəmiyyət kəsb edir. Qızılağc Milli Parkının ərazisindəki çala-çəmən bitkilik tipinin nümayəndələri olan bitkilər quşların əsas qidasını təmin etdiyi üçün əhəmiyyətli hesab edilir. Bu tipin əsasən yulğunlu-dəvətikanlı-çayırlıq və dəvətikanlı-qaçançayıtlıq formasiya qrupları geniş yayılmışdır (Qurbanov, 2024).



Juncus acutus



Trigonella sp.



Phragmites australis



Sanguisorba officinalis



Tamarix ramosissima



Centaurium tenuiflorum

Şəkil 2. Qızılağac Milli Parkının bitki örtüyündən fraqmentlər

Qeyd: fotolar 08-11 iyun 2025-ci il tarixində tərəfimizdən Qızılağac Milli Parkında çöl tədqiqatları zamanı çəkilmişdir.

Milli Parkda bitkilərin yayılmasına və növ müxtəlifliyinə təsir edən başlıca amillərdən biri də torpaq örtüyüdür. Ədəbiyyat məlumatlarının təhlili və araşdırmalarımız göstərmişdir ki, bu ərazilərin torpaq örtüyü respublikamızın digər sahələrinə nisbətən daha zəif öyrənilmişdir. Belə ki, torpaq örtüyü əsasən 1:100 000 miqyasında tədqiq edilmişdir (Azərbaycan Respublikasının Torpaq Atlası, 2004).

Tədqiqat ərazisində əsasən orta və zəif parçalanmış dağarası düzənliklərin və ovalıqların yarımsəhra landşaftları yayılmışdır. Ərazidə qanunauyğun olaraq bu landşafta xarakterik olan çəmən bataqlıq, bataqlıq, və boz-çəmən torpaqları üstünlük təşkil edir. Bu torpaq tipləri ilə yanaşı milli parkın ərazisində şoranlar, şorakətlər və qumluqlar da vardır. Şoran və şorakət torpaqlar əsasən ərazinin şimal-şərq hissələrində yayılmışdır. Bu cür torpaqlarda əsasən halofit bitkilər dominantlıq təşkil edir. Milli Park ərazisində torpaqların şorəkətliliyini əsasən 3 bölgü əsasında apara bilərik: 1) Kürdili adasının milli parka aid olan hissəsi Maqnezium-Natriumlu; 2) ərazinin qərb hissəsi natriumu yüksək maqneziumlu şorakətlər; 3) şimal-şərq hissəsi isə maqneziumlu-natriumlu şorakətlərdən ibarətdir. Ümumilikdə ərazinin torpaqlarında udulmuş kalsiumun (Ca) miqdarı 40%-dan azdır, udulmuş magneziumun (Mg) miqdarı isə ada və ərazinin şimal şərqində 40-50% arası, qərbində isə daha yüksək olub 50%-dən çoxdur. Ərazi torpaqlarında duzluluğun miqdarı 0-100 sm torpaq qatında müəyyən edilmişdir. Məlum olmuşdur ki, milli parkın şimal hissəsi 0.25-0.5% zəif şorlaşmışdır. Kürdili adasında duzluluq 1-2% olub, şiddətli şorlaşmış olaraq qəbul edilir. Ümumilikdə milli parkın qərb və şimal-şərq hissələridə duzlaşma 2%-dən böyük olub, çox şiddətli şorlaşmış torpaqlar olaraq qəbul edilir. Tədqiqat ərazinin torpaqlarının gipsliyi 0.5-1% arasında dəyişir

Torpaq-bitki münasibətlərinə təsir edən keyfiyyətlətdən biri də torpaq örtüyünün qlanometrik tərkibidir. Burada torpaqlarların qlanometrik tərkibi əsasən otra gilli-lilli gildən ibarətdir. Lakin şimal-şərq hissədə orta gillicəli-qumlu qlanometrik tərkibə malik torpaqlar yayılmışdır. Ərazidə torpaq əmələgətirən süxurlar əsasən qumlu-lilli dənizsahili delta çöküntüləridir.

Ədəbiyyat məlumatlarının təhlilinin nəticəsi kimi qeyd edə bilərik ki, milli parkın torpaqlarında humus ehtiyatları əsasən azdır. Humus ilə nisbətən zəngin olan torpaqlar sahil zonadan quruya doğru getdikcə çoxalır. Qeyd edə bilərik ki, əgər sahil zonalarda torpaqda humusun ehtiyat miqdarı 1 hektarda (ha) 100 tondan azdırsa, daxilə doğru torpaqda humusun ehtiyat miqdarı hektara 100-150 ton arasında dəyişir. Humus ehtiyyatı ən zəngin olan torpaqlar isə cənub hissədə yerləşmişdir. Burada isə humusun miqdarı 200-250 ha/tondur. Humusun miqdarı torpaqda bitən bitkilər üçün olduqca vacibdir. Çünki, humus bitkiləri qida və mikroelementlərdə təmin edir. Su saxlama qabiliyyəti sayəsində birkiləri quraq aylarda qurumaqdan qoruyur, torpaqların quruluşunu yaxşılaşdırır. Torpaqda humusun miqdarı artıqca bitkilərin növ müxtəlifliyi dəyişir, biokütlə və məhsuldarlıq artır.

Milli Parkın ərazisin düzənlik olmasına görə burada əsasən torpaqların küləklər nəticəsində erroziyasına rast gəlinir. Tədqiqat ərazisinin qərb hissəsində külək erroziyası orta səviyyədədir. Ümumilikdə ərazi üçün orta səviyyədə külək və irriqasiya erroziyasının yayılması xarakterikdir. Milli parkda erroziya dərəcəsi 25-30 % olmaqla orta-şiddətli təhlükəli hədd çərçivəsindədir. Burada külək erroziyasının qarşısının alan əsas amil məhz bitki örtüyüdür. Lakin ərazinin bitki ötrüyündə baş verən dəyişmələr (yağıntının azalması, qanunsuz otarılma, yanğınlar, invaziv növlər və s.) nəticəsində bitki örtüyündə baş verən pozulmalar erroziyanın sürətlənməsinə səbəb olur.

Nəticə

Bitki örtüyünə mənfi təsir göstərən amillər:

1) İqlim dəyişkənliyi – bu amil Milli Park ərazisində olan bitki növləri üçün əsas limitləşdirici amildir. Belə ki, iqlim dəyişkənliyi nəticəsində baş verən hava anamaliyaları nəticəsində bitki örtüyü ciddi fəsadlar görə bilər. Xüsusilə iqlim dəyişkənliyinin nəticələrindən biri olan qlobal istiləşmə nəticəsində isti və quraq keçən günlərin sayının artması Milli Parkda olan hidrofitlər, hiqrofitlər və bəzi mezofitlər üçün əlverişsiz şərait yaradır. Nəticədə arealın daralması və bu bitkilərin məhv olması halları baş verir. Apardığımız tədqiqatlar nəticəsində məlum olmuşdur ki, yağıntıların azalması və anormal keçən istilər nəticəsində ərazidə yerləşən bir neçə xırda göl və gölməçələr tamamilə qurumuş, digərlərinin sahəsi isə azalmışdır. Milli Parkı su ilə təmin edən çaylar isə yay aylarında quruduğu məlum olmuşdur. Bundan başqa yağıntıların azalması bitkilərin toxumla çoxalma dövürlərində çətinliklər yaradır, bitkilərin normal inkişaf prosesi pozulur. Bu da ümumi biokütlənin azalmasına səbəb olur.

2) Milli Park ərazisində baş verən yanğınlar: Ərazidə baş verən yanğınların böyük hissəsi antropogen mənşəli olmuşdur. Əsəs səbəb kimi əhali tərəfindən biçindən sonra taxıl sahələrinin yandırılması və heyvanların otarılması üçün qamışlıq və kolluqların yandırılması göstərilir. Xüsusilədə güclü küləklər nəticəsində bu yanğınlar milli parkın ərazisinə də keçir. Belə hallar son dövrlərdə daha da artmaqdadır. Belə ki, 2018, 2021 və 2023-cü illərdə geniş əraziləri əhatə edən yanğınlar baş vermişdir. 2018-ci il oktyabr ayında baş vermiş yanğın Kiçik Qızılağac Körfəzi ərazisində baş vermiş və nəticədə bir neçə hektar sahə yanmışdır. 2021-ci ilin 27 avqust tarixində baş vermiş yanğın isə daha şiddətli olmuş, 10 hektardan çox ərazidə kol-kos yanmışdır. Son dövürlərin ən genişmiqyaslı yanığını isə 2023-cü ilin

6-7 avqust tarixində baş vermişdir. Təqribən 200 hadan çox ərazi yanmışdır. Bu yanğın təkcə bitki örtüyünə deyil həm də milli parkın faunasına da təhlükə yaratmışdır.

3) Xəzər dənizində su səviyyəsinin dəyişməsi: Milli Parkın geniş hissəsini əhatə edən Xəzər dənizində baş verən hadisələr ərazinin bir çox komponentinə bir başa və ya dolayı yollarla təsir edir. Su səviyyəsində baş verən dəyişkənliklər Kiçik və Böyük Qızılağac körfəzlərində olan bitkilərə və fitoplanktonlara təsir göstərdiyi kimi, həmçinin quruda olan bitki qruplaşmalarına da təsir edir. Müxtəlif illərdə Xəzər dənizinin səviyyəsinin baş verən kəskin dəyişmələr respublikamızın dəniz sahilində yerləşən bölgələri üçün bir çox ekoloji problemlər yaratmışdır. Antropogen təsirlər fonunda bu dəyişmələr daha da intensivləşmişdir. Təkcə son 45 il ərzində su səviyyəsi 2 dəfə ciddi dəyişmişdir. Belə ki, 1978-1995-ci illərdə dənizin su səviyyəsində orta illik artın təqribən 2,5 metrə qədər yüksəlmişdir. Bu zaman ümumi respublika ərazisində 50 min hektara qədər quru ərazisi su altında qalmışdır ki, onun da təqribən 40 min hektarı (80%-i) Qızılağac Milli Parkının da yerləşdiyi cənub hissədə yerləşmişdir. Torpaqların su altında qalması torpaqda gedən aerasiya, su-duz mübadiləsi, toxumların yayılması və s. kimi həyati vacib proseslərin pozulmasına səbəb olmuşdur ki, bu da öz mənfi təsirini bitki örtüyünə göstərmişdir. Bu artımdan sonra isə su səviyyəsinin azalması ilə müşahidə edilən və hələ də davam edən (1996-2023) proses başlamışdır. Son məlumatlara görə su səviyyəsində 2 metrə çatan azalma müşahidə edilir. Bu proses nəticəsində milli parkın ərazisində su altından torpaq səhələri çıxmışdır. Bu zaman bitki örtüyündə yayılmalar müşühidə edilsə də mənfi təsirlər də mövcuddur. Duzlu su altından çıxan torpaqlarda külək erroziyası nəticəsində duzlar milli parkın digər ərazilərinə yayılır ki bu da digər bitkilər üçün ciddi təhlükədir. Həmçinin şiddətli küləklər nəticəsində yayılan qum bitki örtüyünün üstünü örtərək normal inkişaf prosesinin pozulmasına səbəb olduğu məlumdur. Su hövzələrinin quruması nəticəsində hidrofil bitkilər tələf olur və ya yılma prosesi pozulur.

Qızılağac Milli Parkında bitki örtüyünün mühafizəsi üçün görülən tədbirlər BMT-nin Dayanıqlı İnkişaf Konsepsiyasının məqsədlərinin yerinə yetirilməsində xüsusi rol oynayır.

ƏDƏBİYYAT SİYAHISI:

1. Ağayev Q., Sucayev A. (2023). Qızılağac Milli Parkında bioloji müxtəlifliyin monitorinqi və elmi-tədqiqat fəaliyyətinin təşkili, 34-36.
2. Azərbaycan Respublikasının Qırmızı Kitabı (nadir və nəsli kəsilməkdə olan bitki və göbələk növləri) (2023), 11-13.
3. Azərbaycan Respublikasının Torpaq Atlası (2007), 25-28.
4. İsgəndər E.O., N.A. Sadıqova (2018) Bitki ekologiyası. Ali məktəblər üçün dərslik. 299-300.
5. İbrahimov T.O. (2019). Azərbaycanın qoruq və yasaqlıqları. Dərs vəsaiti. 235.
6. Qurbanov, E. (2024) Azərbaycanın bitki örtüyü. Monoqrafiya. 387.
7. Salmanov M.Ə., Tağıyev S.X., Hüseynov A.T. (2011). Qızılağac körfəzi-Dövlət Təbiət qoruğu: ekologiyası, bioloji məhsuldarlığı (dünəni, bu günü, sabahı).46-51.

DOİ: 10.32010/MWXZ8551

AZƏRBAYCANIN BƏZİ BÖLGƏLƏRİNDƏ APARILAN MEYVƏ BİTKİLƏRİNİN GENETİK TƏDQİQATLARININ NƏTİCƏLƏRİ

Nəzakət Tağı HÜSEYNOVA
Bakı Dövlət Universiteti
Orcid: https://orcid.org/0009-0001-8106-9629
E-mail: biolog-bdu@rambler.ru

Xülasə: Tədqiqat işi Azərbaycanın dağlıq rayonlarında yayılmış meyvə bitkilərinin yerli və introduksiya sortlarının genetik müxtəlifliyinin tədqiqinə, onların hazırkı vəziyyətinin təhlilinə, biomorfoloji xüsusiyyətlərinin öyrənilməsinə, molekulyar markerlər əsasında identifikasiyasına və genetik əlaqə dərəcəsinin müəyyənləşdirilməsinə həsr edilmişdir. Sortlar arasında genetik oxşarlıq dərəcəsi klaster analizindən istifadə etməklə qiymətləndirilmişdir. Gen fondunun genotipik qiymətləndirilməsi hibridoloji analiz, diferensial boyanma və xromosomların PCR analizindən istifadə etməklə aparılmışdır. Bağlardan toplanan meyvə bitkiləri müvafiq qaydalara uyğun seçilib. Bu araşdırmada biz 12 alma və 7 armud sortu daxil olmaqla materialın genetik analizini apardıq. Seleksiya nümunələrinin genetik müxtəlifliyi altı SSR markerindən istifadə etməklə təhlil edilmişdir. SSR marker polimorfizmi hər lokus üçün iki ilə səkkiz allel arasında dəyişir. Tədqiqatda istifadə edilən SSR markerləri tədqiq olunan bitkilər üçün etibarlı genotipləmə vasitəsi olduğunu sübut etdi. Bundan əlavə, seçilmiş sortların müşahidə olunan yüksək heterozigotluq dəyərlərinə əsaslanaraq, çarpazlaşma üçün seçilmiş valideyn cütlərinin genetik cəhətdən fərqli olduğu qənaətinə gəlmək olar. Beləliklə, sınaqdan keçirilmiş genomların tədqiqi və genetik təhlili bizə ən effektiv genləri müəyyən etməyə və becərilən nümunələrin genetik müxtəlifliyini qorumağa və genofondun genetik tükənməsinin qarşısını almağa imkan verir. Altı SSR markerindən istifadə edərək alma və armud ağacları kolleksiyasının hərtərəfli tədqiqi valideyn cütlərində əhəmiyyətli genetik müxtəlifliyi göstərən yüksək sayda heterozigotları aşkar etdi. Bu araşdırmada aparılan təhlil, öz növbəsində, qiymətləndirilən nümunə daxilində qohumluq əlaqələri qurmağa imkan verir. Beləliklə, SSR-markerlərdən istifadə edərək genetik analiz valideyn formalarını etibarlı şəkildə qiymətləndirmək üçün etibarlı bir vasitədir. Mədəni armud və alma sortlarının, eləcə də bu bitkilərin introduksiya edilmiş formalarının genetik müxtəlifliyinin qorunması, müasir bağçılıqda yeni sortların yaradılması əsas istiqamətlərdən biridir. Sortu yetişdirərkən, müsbət xüsusiyyətlərin kompleksinə malik olan valideyn cütlərini seçmək çox vacibdir. Bu əlamətlər üzərində uzun illər aparılan tədqiqatlar seleksiya tədqiqatlarında istifadə üçün maraq doğuran növlərin müəyyən edilməsi ilə nəticələnmişdir.
Açar sözlər: genotip, genofond, genetik markerlər, seleksiya, klasterləşmə, genetik müxtəliflik

RESULTS OF GENETIC RESEARCH ON FRUIT PLANTS CONDUCTED IN SOME REGIONS OF AZERBAIJAN

Nazaket Tagi HUSEYNOVA
Baku State University
Orcid: https://orcid.org/0009-0001-8106-9629
E-mail: biolog-bdu@rambler.ru

Abstract: This work examines the genetic diversity of local and introduced fruit crop varieties common in the mountainous regions of Azerbaijan, analyzes their current status, examines their biomorphological features, identifies them using molecular markers, and determines their degree of genetic relatedness. The degree of genetic similarity between varieties was assessed using cluster analysis. Genotypic assessment of the gene pool was conducted using hybridological analysis, differential staining, and PCR analysis of chromosomes. Fruit plants collected from orchards were selected according to relevant regulations. In this study, we conducted a genetic evaluation of material including 12 apple and 7 pear varieties. Genetic diversity of the breeding samples was analyzed using six SSR markers. SSR marker polymorphism ranged from two to eight alleles per locus. The SSR markers used in the study proved to be a reliable genotyping tool for the studied crops. Furthermore, based on the high observed heterozygosity values of the selected varieties, it can be concluded that the parental pairs selected for the cross are genetically distinct. Thus, the study and genetic analysis of the tested genomes allows us to identify the most effective genes and preserve the genetic diversity of cultivated samples and avoid genetic depletion of the gene pool. A comprehensive study of a collection of apple and pear trees using six SSR markers revealed a high number of heterozygotes, indicating significant genetic diversity in the parental pairs. The analysis conducted in this study, in turn, makes it possible to establish kinship relationships within the sample under evaluation. Thus, genetic analysis using SSR is a reliable means for reliably assessing parental forms. Conserving the genetic diversity of cultivated pear and apple varieties, as well as introduced forms of these plants, is a

key focus in the development of new varieties in modern horticulture. When developing a variety, selecting parental pairs that possess a combination of positive traits is crucial. Years of research on these traits have resulted in the identification of varieties of interest for use in breeding research.
Keywords: genotype, gene pool, genetic markers, selection, clustering, genetic diversity.

РЕЗУЛЬТАТЫ ГЕНЕТИЧЕСКИХ ИССЛЕДОВАНИЙ ПЛОДОВЫХ РАСТЕНИЙ, ПРОВЕДЕННЫХ В НЕКОТОРЫХ РЕГИОНАХ АЗЕРБАЙДЖАНА

Назакет Таги ГУСЕЙНОВА
Бакинский Государственный Университет
Orcid: https://orcid.org/0009-0001-8106-9629
E-mail: biolog-bdu@rambler.ru

Резюме: Работа посвящена изучению генетического разнообразия местных и интродуцированных сортов плодовых культур, распространенных в горных регионах Азербайджана, анализу их современного состояния, изучению биоморфологических особенностей, их идентификации на основе молекулярных маркеров и определению степени генетического родства. Степень генетического сходства сортов оценивалась методом кластерного анализа. Генотипическая оценка генофонда проводилась с использованием гибридологического анализа, дифференциального окрашивания и ПЦР-анализа хромосом. Плодовые растения, собранные в садах, были отобраны по соответствующим положениям. В настоящей работе осуществлен генетический анализ материала, включающего 12 сортов яблони и 7 сортов груши. Анализ генетического разнообразия селекционных образцов проводили с использованием 6 SSR-маркеров. Полиморфизм SSR-маркеров варьировал от 2 до 8 аллелей на локус. Задействованные в работе SSR-маркеры проявили себя как надежный инструмент генотипирования в рамках исследуемых культур. В свою очередь, исходя из высоких значений наблюдаемой гетерозиготности селекционных форм, можно утверждать о генетической отдаленности подобранных для скрещивания родительских пар. Таким образом, изучение и генетический анализ испытываемых геномов позволяет выявить наиболее эффективные гены и сохранить генетическое разнообразие культивируемых образцов и избежать генетического обеднения генофонда. Комплексное изучение коллекции яблони и груши по 6 SSR-маркерам показало большое количество гетерозигот, что указывает на сильную генетическую разнообразность родительских пар. В свою очередь, проведенный в данном исследовании анализ дает возможность установить родственные взаимоотношения внутри оцениваемой выборки. Так, генетический анализ с помощью SSR является надежным средством в достоверной оценке родительских форм. Сохранение генетических ресурсов разнообразия культурных сортов груши, яблони и интродуцированных форм этих растений являются одним из основных направлений при создании новых сортов. Также решающее значение имеет отбор родительских пар, которые обладают набором положительных признаков. В результате многолетних исследований по комплексу признаков выделены сорта, представляющие интерес для использования в селекционных исследованиях.
Ключевые слова: генотип, генофонд, генетические маркеры, селекция, кластеризация, генетическое разнообразие

Giriş

Hava və iqlim şəraitində qlobal dəyişikliklər genetika və seleksiya sahəsində aparılan işlərə yeni aspektdən baxmağa, yeni sortların yaradılmasının təmin edilməsinə və meyvə bitkilərinin yenilənməsinə və daha davamlı növlərin yaradılmasına səbəb olur. Təbiətin dəyişən iqlim amillərini nəzərə alaraq, bağçılıqda, meyvəçilikdə becərilən sortlara yeni tələblər yaranır. Bu gün meyvə bitkilərinin növləri, o cümlədən yerli və introduksiya olunmuş nümunələrin yüksək uyğunlaşma qabiliyyəti, əsas xəstəliklərə kompleks müqaviməti, yüksək məhsuldarlıq və istehsal qabiliyyəti artmaqdadır (Гурбанов, 2014).


Meyvə bitkilərinin yeni nəsillərinin yaradılmasında seleksiya əsas vasitədir. Seleksiyanın əsasında klassik və müasir seçmə metodlar durur . Bu metodlardan istifadə etməklə yeni elit formalar, sortlar, klonlar və s. əldə etmək mümkün olmuşdur. Klassik seçmə ilə yanaşı, meyvə bitkilərinin arealını genişləndirmək üsullarından biri introduksiya olmuşdur (Ərəbzadə, 2021). İntroduksiya zamanı müxtəlif ekoloji və coğrafi mənşəli bitkiləri konkret şəraitə uyğunlaşması müəyyən edilir. Daha adaptiv sortların müəyyən şəraitə tez uyğunlaşması müşahidə edilir. Tədqiqat işində ilkin materialın hərtərəfli qiymətləndirilməsinin nəticələri təqdim olunur. Bitkilərin genetik müxtəlifliyi, xüsusən tumlu meyvə bitkilərinin (alma, armud, heyva) davamlı formalarının yaradılması, onların genomlarının müqayisəli şəkildə təhlili, ekoloji dəyişikliklərə uyğunlaşması mühüm əhəmiyyət kəsb

edir. İldən-ilə təbiət, iqlim, torpaq örtüyü dəyişir, modifikasiyaya uğrayır, pestisidlərin istifadəsi və təsir gücü artır, onların istifadəsindən ətraf mühitə, insan sağlamlığına və biomüxtəlifliyə ardıcıl və ciddi ziyan dəyir. Bu baxımdan elmi tədqiqat işlərinin bir neçə istiqamdə inkişaf etməsi aktual məsələlərdəndir. Birincisi, tədqiq olunan bitkilərin genefondunun tam qorunub-saxlamasındır ki, gələcəkdə onların əsasında yeni, daha davamlı genlərə malik olan növlərin yaradılmasına zəmin olsun. İkincisi, təbii mühitlərdə və becərilən ərazilərdə müxtəliflik günbəgün azalır. Bitki genetik müxtəlifliyinin əhəmiyyətli bir hissəsinin bütün ölkə ərazisindən məqsədyönlü toplanması, müasir metodların tətbiqi ilə kompleks öyrənilməsi, etibarlı mühafizəsi əsas məsələlərdən biridir. Toplanmış genetik materialın səciyyələndirilməsi, bitkilərin əsas bioloji və seleksiya əlamətləri üzrə potensialının aşkar edilməsi, kolleksiyanın hər bir nümunəsinin genetik pasportlaşdırılması, keyfiyyət göstəricilərinə görə qiymətləndirilməsi, davamlılığın immunoloji və molekulyar-genetik əsaslarının araşdırılması genetik bazanın yaranmasına xidmət edir. Bitki müxtəlifliyinin işlənməsi və istifadəsi üçün genetik dəyişkənliyin, başqa sözlə, polimorfizm dərəcəsinin ölçülməsi üzrə tədqiqatlar da aparılır (Hüseynova, 2024).

Nəzəriyyə

Azərbaycan Respublikasının ərazisi subtropik və qismən mülayim iqlim qurşağında yerləşir. Burada yer kürəsində mövcud olan 11 iqlim tipindən 9-u və torpaq tiplərinin əksəriyyəti ölkə ərazisində yerləşir. Ölkəmizdə əsasən dağ-çəmən, qonur dağ-meşə, qəhvəyi dağ-meşə, sarı, şabalıdı, boz və boz-qonur, şoranlar və şorakətlər və s. torpaq tipləri vardır. Azərbaycanda meyvəçilik kənd təsərrüfatının əsas sahəsi olub, əhalinin meyvə məhsulu, sənayenin xammalla təmin olunmasında başlıca rol oynayır. Daxili milli məhsulun 35-40%-i kənd təsərrüfatının payına düşür (Sadıqov,2023). İşin əsas məqsədi genetik üsulları seleksiya prosesinə daxil etməklə genofondu və genotipə təsirini qiymətləndirmək üçün meyvələrin uyğunlaşma qabiliyyəti, məhsuldarlığı və kommersiya keyfiyyəti baxımından sortların parametrlərini əhəmiyyətli dərəcədə artırmaqla seleksiyanın səmərəliliyini artırmaq olmuşdur. Genofondun genotipik qiymətləndirilməsi hibridoloji analiz, diferensial rəngləmə və xromosomların PZR analizi üsullarından istifadə etməklə aparılmışdır. Meyvə bağlarından toplanmış meyvə bitkilərinin seçilməsinin əsas məqsədləri bunlardır: universal istifadə olunan meyvələrin yüksək kommersiya keyfiyyətləri, şaxtaya, quraqlığa davamlı və yüksək məhsuldarlığa malik sortların yaradılması meyvə bitkilərinin klassik seleksiyasının əsas üsulları genlərin rekombinasiyası nəticəsində generativ nəsillərdə yeni genotiplər əldə etməyə imkan verən növdaxili və uzaq hibridləşmədir (Урбанович, 2015).Tədqiqat işində istifadə olunan meyvə bitkiləri cədvəl 1-də verilmişdir. Bu məqalədə iki növün - alma və armudun genetik analizlərinin nəticələri verilmişdir. Növbəti məqalədə digər bitkilərin genetik nəticələri yer alacaqdır.

Cədvəl 1. Tədqiq olunan meyvə bitkilərinin növləri



alma – 14, armud – 13, heyva – 6, əzgil – 2, yemişan - 1. Abssis oxu üzrə göstərilən rəqəmlər sortların sayıdır.

Metod

2015-ci ildən başlayaraq respublikanın Quba-Qusar, Xaçmaz, Şəki-Zaqatala bölgələrinin torpaq-iqlim şəraiti təhlil edilmiş və tədqiq olunan meyvə bitkilərinin - alma və armudun yetişdirilməsi üçün tam yararlı olduğu qeyd edilmişdir. Respublikamızın şimal bölgəsi şəraitində, müxtəlif becərmə əsaslarında, müxtəlif əkin sxemlərində və meyvə bağlarının növlərində 2 meyvə cinsinin (alma və armud) bir sıra əvvəllər və yeni introduksiya edilmiş sortlarının təsərrüfat və bioloji xüsusiyyətləri öyrənilmişdir (Hüseynova və Əsədova, 2024).

Meyvə bitkiləri nümunələri arasında genetik müxtəlifliyi və qohumluq əlaqələrini aşkarlamaq məqsədilə onların DNT-si Rodjers tərəfindən təklif olunmuş CTAB protokolu əsasında ekstraksiya edilmiş, PZR-lar aparılmış və əldə olunmuş amplifikasiya məhsulları aqaroza gellərində elektroforetik analiz olunmuşdur (Rogers,1985).

PZR məhsulları ABI 3500 kapilyar elektroforez aparatında analiz edilmişdir. PZR zamanı flüoresent hədəfləmə ilə SSR-lar əsasında genotipləşdirmə, allellərin ölçülərinin təyini və polimorf lokusların səciyyələndirilməsi Şuelkenin təklif etdiyi metod əsasında yerinə yetirilmişdir (Edwards, Johnstone,Thompson,1991; Karaca, 2008). PZR-lar 6-FAM, NED, PET və VIC rəngləyiciləri vasitəsilə aparılmışdır (Бавыкин, 2017). SSR-markerləri vasitəsilə genetik parametrlərin tədqiqi PowerMarker V3.25 proqramı əsasında reallaşdırılmışdır (Schuelke, 2000). Allellərin sayı, tezliyi, gözlənilən heteroziqotluq, müşahidə olunan heteroziqotluq, genetik müxtəliflik, polimorfizmin informasiya həcmi (PIC) SSR praymerləri ilə sintez olunmuş genetik parametrlər əsasında hesablanmışdır. ISSR praymerləri vasitəsilə meyvə nümunələrində genetik analizin effektivliyinin təyini məqsədilə polimorfizmin informasiya həcmi (PIC) (Garkava-Gustavsson, 2008), effektiv multipleks indeksi, marker indeksi MI (Powell,1996), vizuallaşdırmanın qiyməti RP və vizuallaşdırmanın orta qiyməti MRP kimi statistik parametrlər hesablanmışdır. ISSR marekrləri əsasında genetik parametrlər DARwin 6.0. kompüter proqramı vasitəsi ilə analiz olunmuşdur (Reales, 2010). ISSR və SSR praymerləri vasitəsi ilə klaster analizi aparılmış, UPGMA proqramı vasitəsilə Cakkard genetik oxşarlıq indeksi, NTSYS proqramı vasitəsilə genetik məsafə indeksi öyrənilmişdir. PZR-lar aşağıdakı proqram əsasında aparılmışdır: 1 dəqiqə 94°C-də ilkin denaturasiya və 30 saniyə 94°C-də denaturasiya, 30 saniyə 60°C-də praymerlərin birləşdirilməsi, 30 saniyə 72°C-də sintez olmaqla 30 tsikl. Son mərhələ 30 saniyə 72°C-də icra olunmuşdur.

Nəticələrin analizi

Təbii dağlıq şəraitində yetişdirilən meyvə genotiplərinin oxşarlığı onların kəmiyyət əlamətləri əsasında qiymətləndirilmişdir. Bundan əlavə, meyvə kolleksiyasında polimorfizm və genetik müxtəlifliyin öyrənilməsində SSR və ISSR molekulyar marker texnologiyalarının tətbiqi daha effektiv olmuşdur (Salimath,1995).

SSR və ISSR molekulyar markerləri ətraf mühit amillərindən asılı deyil və bitkinin istənilən inkişaf mərhələsində qiymətləndirməyə imkan verdiklərindən olduqca əhəmiyyətlidirlər. Beləliklə, meyvə genotiplərinin morfoloji əlamətlərinin analizi və molekulyar analizləri genetik yaxın genotipləri müəyyən etmək və seleksiya prosesində faydasız kombinasiyalardan qaçınmağa imkan verir. Eyni zamanada meyvələrinin dadına və davamlılığına görə seçilmiş Qızıl Əhməd, Şirvan gözəli, Sini, Rəcəbi, Kərbalayı Cəfər, Vahidi, Sarı turş, Cır Hacı kimi alma sortları fermer təsərrüfatlarında yeni sortların yaradılmasında istifadə oluna bilərlər. Genetik analizin aparılması üçün müxtəlif bölgələrdə bioloji müxtəlifliyinə və biomorfoloji xüsusiyyətlərinə görə səciyyələndirilmiş meyvə bitkisinin sort və formalarından yarpaqlar toplanmışdır.

Tədqiq olunmuş alma sortlarının SSR markerlərinin allel kombinasiyaları haqqında məlumat cədvəl 2-də təqdim olunmuşdur. Amplifikasiya fraqmentlərinn ölçüləri əsas cütləri ilə verilmişdir.

Cədvəl 2. Alma sortlarında SSR markerlərinin allel polimorfizmi


N	Sort / lokus	CH03d04	CH582493	CH04a03	CH03f02	Hi16e02	CH02b03a
1	Qızıl Əhməd	97/99	200/202	189	143	134/154	157
2	Şirvan gözəli	97/103	190/200	190	84	141/158	164
3	Sini	118/120	202/218	86	125/126	145	168
4	Rəcəbi	102/103	200/208	192	143	143	169
5	Kərbəlayı Cəfər	106	194/212	200	140	141	165
6	Vahidi	105	202/204	189	142	144	166
7	Sarı turş	114/118	192/208	184	127/128	143	165
8	Cır Hacı	95/105	200	185	130	144/166	165
9	Ağ alma	103	192/202	184	123	143	173
10	Arazbəyi	95/100	190/196	196	140	141	164
11	Sarı sinab	105/116	208	193	128	145	166
12	Qusar alma	96/102	208	190	125	142	165

Cədvəldən müşahidə olunur ki, müxtəlif ölçülü iki amplifikasiya fraqmentinin eyni zamanda mövcudluğunu səciyyələndirən heteroziqotluğun qiymətləri əhəmiyyətli dərəcədə dəyişir. Heteroziqotluğun maksimal səviyyəsi CH03d04 və CN582493-SSR SSR lokusları üzrə müəyyən edilmişdir. Heteroziqotluğun aşağı səviyyəsi isə CH03f02, Hi16e02, CH02b03a lokusları üzrə aşkar olunmuşdur. CH04a03 lokusu üzrə bütün öyrənilən sortlarda homoziqot vəziyyət identifikasiya olunmuşdur. Amplifikasiya ardıcıllıqlarının ölçüləri və allellərin rast gəlmə tezliyi haqqında kompleks məlumatlar əsasında tədqiq olunan alma sortlarının genetik oxşarlıq dərəcəsinin qiymətləndirilməsi aparılmışdır. Bu məqsədlə klaster analizindən istifadə olunmuşdur. Klasterləşmənin nəticələri dendroqramda əks olunmuşdur.

Müasir intensiv bağçılıqda mədəni armud sortlarının və yabanı qohumlarının genetik müxtəlifliyinin səfərbər edilməsi və qorunması yeni sortların inkişafında əsas aspektlərdən biridir. Valideyn seçimi Müsbət xüsusiyyətlərin kombinasiyasına malik olan cütlər müxtəlifliyin yetişdirilməsində çox vacibdir (Плугатарь,2018). Tədqiqatlar aparılan bölgələrdə armudun 13 növü öyrənilmişdir. Bu növləri 6 növü yerli. 7 növü isə introduksiya olunmuş növlərdir. Yay armudu sortlarından Abasbəyi, Vilyams, Klappın sevimlisi; payızlıq sortlardan Bere Bosk, Əhmədqazı, Düşes Anqulem, Jozefina; qış armudu sortlarından Bere Ardanpon, Pass Krassan, Nararmudu, Küre yetişdirilir. Armud sortları üçün ən yaxşı calaqaltı armudun yabanı növləri, heyva, yemişan və quşarmududur. Azərbaycandakı armud sortları, o cümlədən Qafqaz cır armudu da yabanı armud növündən alınmışdır. Quraq dağlıq yerlərdə söyüdyarpaq cır armud (P.passiflora) yaxşı əmələ gəlir. Bu sort da becərilən sortlar üçün yaxşı calaqaltıdır. Becərilən armudun meyvəsi yabanı armuddan iri, şirəli və zərif olur.

SSR markerlərinin polimorfizm məlumatları əsasında tədqiq olunan armud sortlarının genetik oxşarlıq dərəcəsinin təhlili aparıldı ki, bu da bizə öyrənilmiş genotip nümunəsində genetik əlaqələri qiymətləndirməyə imkan verdi (Хлесткина, (2013).

Qrupda 14 növdən ibarət tədqiq edilən qrupda genetik polimorfizmi təhlil etmək üçün altı mikrosatellit DNT markerindən istifadə edilmişdir. SSR markerlər polimorfizm səviyyəsində əhəmiyyətli dərəcədə fərqlənirdi: hər lokus üçün üçdən (CH04a03 markeri) 11-ə qədər allel müəyyən edilmişdir.



Şəkil 1. Armud sortlarının klasterləşdirilməsi

Klaster analizinin nəticələrinə əsasən, tədqiq edilmiş sortların seçməsində iki əsas qrup (klaster) müəyyən edilə bilər. Klaster 1-ə Qafqaz meşə armudu, Söyüdyarpaqlı armud, Ussuriya armudu, Çin armudu, Rus armudu, Snejnaya, Girkan armudu, Düşes armudu daxildir, klaster 2 isə Qış armudu, Meşə gözəli, Vilyams armudu sortlarını əhatə edir. Abasbəyi armud sortu dendritin ayrıca bir budağına ayrılmışdır. Klaster analizinin nəticələrinə görə, tamamilə olmasa da, subklaster daxilində seçmələrin qruplaşdırılması və onların toplandığı region arasında əlaqə mövcuddur. Tədqiqatımızda istifadə olunan mikrosatellit markerlər gələcəkdə meyvə ağaclarının genotiplərinin fərqləndirilməsi üçün istifadə edilə bilər.

Altı SSR markerindən istifadə edərək, sınaqdan keçirilmiş armud sortlarının genomunda hər lokus üzrə 7-17 polimorfik allel müəyyən edilmişdir (Cədvəl 3).

Cədvəl 3. SSR markerləri ilə armud genomunda müəyyən edilmiş allellər

	Praymer	Armud genomunda aşkar edilə bilən SSR allelləri
1	CH01b06	150, 152, 154, 156, 158, 162, 164
2	CH02d12	100, 102, 108, 110, 118, 120, 122, 130, 142, 150, 152, 154, 156,
3	CH02a02b	107, 109, 115, 117, 119, 123, 127, 131
4	CH03f12	82, 92, 98, 104, 114, 115, 116, 118, 128, 130
5	CH04g02	160, 164, 170, 174, 176, 180, 190, 192, 194, 196, 198, 204
6	ShSSR	150, 152, 156, 160, 166, 170, 172, 174, 178, 180, 186, 202

Hər lokus üzrə allellərin orta sayı 11,2-dir. Beş marker monolokusludur, hər lokusda ikidən çox alleli aşkar edilməmişdir. Marker CH02d12 dördə qədər alleli aşkar edir və buna görə də armudun genomunda birdən çox əlaqələndirici sayt vardır. Armudun genomunda polimorfik allellərin sayı alma ilə müqayisədə bir qədər azdır. Alma genomunda bu eyni lokuslarda allellərin orta sayı 17,2-dir. Alma genotipləri arasında daha çox sayda allelin aşkarlanması tədqiq edilən nümunənin daha böyük olması, həmçinin analiz zamanı genomlarında əlavə allel olan alma sortlarından istifadə edilməsi ilə əlaqədardır (Урбанови,2008). Bununla belə, armud sortlarının alma ilə müqayisədə daha aşağı genetik müxtəliflik ilə xarakterizə olunması istisna deyil. Armud genomunda mikrosatellit lokuslarının allel ölçüləri alma genomunda bu lokusların allel ölçülərindən bir qədər fərqlənir (Cədvəl 4). Müşahidə olunan fərqlər həm mikrosatellit ardıcıllıqlarında, həm də kodlaşdırılmayan DNT bölgələrində mümkün olan ayrı-ayrı nukleotidlərin delesiyası və ya insersiyası nəticəsində yarana bilər.

Cədvəl 4. Alma və armud sortlarının genomlarında SSR lokuslarının praymeri, allellərin uzunluğu və miqda

	Praymer	Xromosom	Alma genom-unda allellin uzunluqları	Alma geno- munda sayı müəyyən edilən allellər	Armud genom-unda allellin uzunluqları	Armud geno- munda sayı müəyyən edilən allellər
1	CH01b06	7	152-187	12	152-162	8
2	CH02d12	5	113-147	13	100-158	16
3	CH02a02b	9	73-123	9	107-131	9
4	CH03f12	8	94-152	15	88-125	11
5	CH04g02	11	148-270	37	159-200	14
6	ShSSR	6	156-209	19	142-204	13

Armud sortlarının müşahidə edilən heterozigotluq səviyyəsi (Ho) CH01b06 lokusunda minimum 0,41 dəyərə malikdir. Ən yüksək heterozigotluq səviyyəsi ShSSR lokusu üçün müşahidə edilmişdir – 0,74. Tədqiq olunan genotiplər üçün orta heteroziqotluq səviyyəsi 0,54 olmuşdur. Tədqiq olunan alma nümunələri arasında eyni lokusda heterozigotluq səviyyəsi orta hesabla 0,56 olmuşdur.

Nəticə

Beləliklə, müəyyən bioloji qiymətli əlamətlərə cavab verən meyvə bitkiləri sortlarının gen blokları DNT və PZR analizlərindən istifadə etməklə müəyyən edilmiş, qismən pasportlaşdırılmış və genotipləşdirilmə aparılmışdır. Yüksək morfoloji və bioloji bircinsliyə, məhsuldarlığavə satış qabiliyyətinə malik olan meyvə bitkilərinin yeni sortlarının, saf xətlərinin və hibridlərinin yaradılmasında istifadə olunan qiymətli genotiplərin yaradılması, marker xüsusiyyətləri ilə müəyyən edilməsi və saxlanılması üsulları nəzərdən keçirilmişdir. Müasir molekulyar genetik və biotexnoloji üsullar, həmçinin hibridləşmə və seleksiya prosesinin sürətləndirilməsi göstərilmişdir. Eyni zamanda təqdim olunan armud və alma sortlarının genotiplərinin identifikasiyası və DNT-nin sertifikatlaşdırılması sistemi işlənib hazırlanmışdır. İstifadə olunan üsul polimeraza zəncirvari reaksiya ilə aşkar edilən SSR markerlərinin istifadəsinə əsaslanır. Bu üsul ontogenezin müxtəlif mərhələlərində istənilən bitki orqanının genetik analizinin aparılması üçün əlverişlidir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Ərəbzadə, A.Ə. (2021). Alma növlərinin Abşeronda introduksiyası. Bakı,192 s.
2. Hüseynova, N.T.(2024a).Assessment of molecular markers for analysis of genetic relationship between apple tree varieties common in mountainous areas of Azerbaijan. 2nd International Conference: Conservation of Eurasian Biodiversity. Izmir, Türkiye. 2-4 september p.2-7.
3. Hüseynova, N.T., Əsədova, B.Q. (2024b). Stady of genomes of fruit plants cultivated in some regions of Azerbaijan. Acta Botanica Caucasica, 3, 2, 68-72.
4. Sadıqov, Ə.N. (2019a). Azərbaycanda alma bitkisinin sort tərkibinin təkmilləşdirilməsi. Bakı, 310 s.
5. Sadıqov, Ə.N. (2023b) Azərbaycanda yayılmış meyvə bitkiləri. Bakı, "Müəllim" nəşriyyatı, 630 s.
6. Edwards, K., Johnstone, C., Thompson, C. (1991). A simple and rapid method for the preparation of plant genomic DNA for PCR analysis. Nucleic Acids Research, 19(6), 1349.
7. Garkava-Gustavsson L., Kolodinska-Brantestam A. at al. (2008). Molecular characterisation of indigenous Swedish apple cultivars based on SSR and S-allele analysis. Hereditas, 03, 1–14.
8. Karaca,M., Izbirak, A. (2008). Comparative analysis of genetic diversity in Turkish durum wheat cultivars using RAPD and ISSR markers. Food, agriculture and environment, 6, 219-225.
9. Reales, D.J. Sargent, K.R. Tobutt, D. A. (2010). Phylogenetics of Eurasian plums. Prunus L. Section Prunus (Rosaceae), according to coding and non-coding chloroplast DNA sequences. Rivera.Tree Genet. Genomes, 6, 37–45.
10. Rogers, S. O., Bendich, A. J. (1985). Təzə, herbarium və mumiyalanmış bitki toxumalarından milliqram miqdarında DNT çıxarılması. Plant. Mol. Biol., 5, 69-76.
11. Powell, W., Morgante, M., Andre, C., Hanafey, M., Vogel, J., Tingey, S., Rafalsky, A. (1996). RFLP, RAPD, AFLP və SSR markerlərinin genofond təhlili üçün müqayisəsi. Mol. Breed. 2, 225-238.
12. Salimath, S.S., de Oliveira, A. C., Godwin, I. D., and Bennetzen, J. L. (1995). Assessment of genomic origins and genetic diversity in the genus Eleusine with DNA markers. Genome, 38, 757-767.
13. Schuelke, M. (2000). PCR fraqmentlərinin flüoresan işarələnməsi üçün iqtisadi metod. Nat Biotechnol., 18, 233-234.
14. Бавыкин, А.С. (2017) Типирование тканей методами ПЦР и капиллярного электрофореза: реальность, вопросы и перспективы. Журнал судебная медицина, 3, 1.
15. Гурбанов, И.С. (2014). Современное состояние и перспективы развития садоводства в Азербайджане. Азербайджанская аграрная наука. Баку, 3, 32–34.
16. Плугатарь, Ю.В., Бабина, Р.Д., Супрун, И.И., Науменко, Т.С., Алексеев, Я.И. (2018). Оценка сортов груши, выделенных из генофондовой коллекции Никитского ботанического сада по комплексу хозяйственно ценных признаков, с помощью микросателлитных маркеров. Вавиловский журнал генетики и селекции, 22(1), 60-68.
17. Урбанович, О.Ю. (2008). Паспортизация сортов яблони на основе SSR-маркеров. Доклады НАН Белоруси, 52, 5, 93-99.
18. Урбанович, О.Ю. (2015). Оценка генотопического разнообразия генофонда плодовых культур и разработка методов ДНК-идентификации и генотипирования сортов и видов. Автореферат доктора биологических наук. Минск, 44 с.
19. Хлесткина, Е.К. (2013). Молекулярные маркеры в генетических исследованиях и в селекции. Вавиловский журнал генетики и селекции, 17, 4/2, 1044-1054.

DOİ: 10.32010/UJHD1136

KÜRDƏMİR FLORASINDA *POLYGONUM L.* CİNSİNİN NÜMAYƏNDƏLƏRİ VƏ ONLARIN MÜQAYİSƏLİ TƏHLİLİ

Nazilə Mübariz KƏRƏMOVA
Bakı Dövlət Universiteti
Orcid: https://orcid.org/0009-0009-1364-1353
E-mail: karamovanazila@gmail.com

Xülasə: Bu tədqiqat işi Kürdəmir rayonun müxtəlif kəndlərindən- Ərəbxana kəndi, Yenikənd kəndi, Topalhəsənli kəndi, Mollakənd və Çöl-Ərəb kəndlərindən 2025 ci ilin yaz və yay aylarında toplanmış *Polygonum L.* cinsinə aid növlərin herbari nümunələri əsasında öyrənilmişdir. Tədqiqatın məqsədi müxtəlif ekoloji şəraitlərdə yayılan bu növlərin morfoloji göstəricilərini müqayisə etmək, onların torpaq və iqlim faktorlarından asılı dəyişikliklərini təhlil etməkdən ibarətdir. Bitkilər mart-avqust ayları ərzində, yəni yarpaqlanma və çiçəklənmə dövründə toplanmışdır. Yenikənd və Topalhəsənli kəndində quraq və zəif məhsuldar torpaqlarda, Molla kəndində orta məhsuldar, Çöl-ərəb və Ərəbxana kəndində isə nəmli, qara və şumlanmış torpaqdan nümunələr toplanmışdır. Müşahidələr göstərir ki, ən hündür və yaxşı inkişaf etmiş fərdlər Çöl-ərəb kəndində, ən cılız və alçaq fərdlər Yenikənd kəndində qeydə alınmışdır. Bu torpağın rütubəti və tərkibinin *Polygonum* L. növlərinin morfoloji inkişafına birbaşa təsir etdiyini göstərir.
Açar sözlər. Polygonum, flora, herbari, ekoloji.

REPRESENTATIVES OF THE GENUS *POLYGONUM L.* IN THE FLORA OF KURDAMIR AND THEIR COMPARATIVE ANALYSIS

Nazila Mubariz KARAMOVA
Baku State University
Orcid: https://orcid.org/0009-0009-1364-1353
E-mail: karamovanazila@gmail.com

Abstract: This research was conducted based on herbarium samples of species belonging to the genus Polygonum L., collected from various villages of the Kurdamir region — Arabxana, Yenikand, Topalhasanli, Mollakand, and Chol-Arab — during the spring and summer of 2025. The aim of the study was to compare the morphological characteristics of these species distributed under different ecological conditions and to analyze their variations depending on soil and climatic factors. The plants were collected between March and August, during the leafing and flowering periods. Samples were taken from dry and low-fertility soils in Yenikand and Topalhasanli villages, moderately fertile soils in Mollakand, and moist, black, and plowed soils in Chol-Arab and Arabxana villages. Observations revealed that the tallest and best-developed individuals were recorded in Chol-Arab village, while the smallest and weakest ones were observed in Yenikand. These findings demonstrate that soil moisture and composition have a direct influence on the morphological development of Polygonum L. species.
Keywords: Polygonum, flora, herbarium, ecology.

ПРЕДСТАВИТЕЛИ РОДА *POLYGONUM L.* ВО ФЛОРЕ КЮРДЯМИРА И ИХ СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ

Назиля Мубариз КЕРЕМОВА
Бакинский Государственный Университет
Orcid: https://orcid.org/0009-0009-1364-1353
E-mail: karamovanazila@gmail.com

Резюме: Данное исследование было проведено на основе гербарных образцов видов, принадлежащих к роду Polygonum L., собранных в различных селах Курдамирского района — Арабхана, Еникенд, Топалгасанлы, Моллакенд и Чол-Араб — в весенне-летний период 2025 года. Целью исследования являлось сравнение морфологических показателей данных видов, произрастающих в различных экологических условиях, а также анализ их изменений в зависимости от почвенно-климатических факторов. Растения собирались в период с марта по август, то есть во время облиствления и цветения. Образцы были взяты на сухих и малоплодородных почвах в селах Еникенд и Топалгасанлы, на среднеплодородных почвах в Моллакенде и на влажных, черноземных и

вспаханных почвах в селах Чол-Араб и Арабхана. Наблюдения показали, что самые высокие и хорошо развитые экземпляры были отмечены в селе Чол-Араб, а самые низкорослые и слабые — в селе Еникенд. Полученные результаты демонстрируют, что влажность и состав почвы оказывают прямое влияние на морфологическое развитие видов Polygonum L.
Ключевые слова: Polygonum, флора, гербарий, экология.

Giriş

Azərbaycanın florasının zənginliyi və müxtəlifliyi ölkənin iqlim, relyef və torpaq şəraitinin rəngarəngliyi ilə sıx bağlıdır. Respublikamızın ərazisində dağlıq, düzənlik və yarımsəhra zonaları bir- birini əvəzləyir, bu da bitki örtüyündə çoxsaylı növlərin formalaşmasına səbəb olur. Hər bir regionun flora tərkibi orada mövcud olan ekoloji şəraitlə müəyyən edilir. Bu baxımdan Kürdəmir rayonu həm coğrafi mövqeyi, həm də iqlim xüsusiyyətlərinə görə Azərbaycanın mərkəzi bölgələrindən biri kimi bitki müxtəlifliyinin öyrənilməsi üçün mühüm tədqiqat sahəsidir. Rayonda yarımsəhra iqlimi, yüksək temperatur amplitudası və torpaqların şoranlaşmaya meyilli bir çox bitki növünün ekoloji uyğunlaşma qabiliyyətinin tədqiqi üçün əlverişli şərait yaradır. Bu tədqiqatda əsas diqqət *Polygonum L*. cinsinin nümayəndələrinə yönəlmişdir. *Polygonum L*. cinsi Polygonaceae fəsiləsinə daxil olub, əsasən mülayim və subtropik iqlim şəraitində geniş yayılmış çoxillik və birillik ot bitkilərini özündə cəmləyir. Cinsin bir çox nümayəndələri xalq arasında Qırxbuğum kimi tanınır. Bu bitkilər morfoloji müxtəlifliyə malik olmaqla yanaşı, yüksək adaptasiya qabiliyyəti ilə fərqlənir. Onların çoxu suya, torpağın tərkibinə və şoranlığa qarşı fərqli dərəcədə dözümlüdür. Elə bu xüsusiyyətlərinə görə Polygonum növləri ekoloji tədqiqatlar üçün ideal obyekt hesab olunur. *Polygonum L*. cinsinin bəzi növləri qədim dövrlərdən dərman bitkisi kimi istifadə olunur. Xalq təbabətində bu bitkilərin yerüstü hissələrindən hazırlanan dəmləmələr iltihabəleyhinə, qanaxmanı dayandırıcı kimi, sidikqovucu və yarasağaldıcı təsirlərinə malikdir. Müasir elmi araşdırmalar da göstərir ki, bu cinsin nümayəndələrinin tərkibində flavonoidlər, fenolkarbon turşuları, taninlər və digər bioloji fəal birləşmələr vardır. Buna görə də *Polygonum L*. cinsinin növləri həm farmokoloji baxımdan həm də ekoloji adaptasiya yönündən elmi maraq doğurur.

Tədqiqat üçün Kürdəmir rayonunun 5 fərqli ərazisi Ərəbxana, Yenikənd, Topalhəsənli, Çöl-ərəb və Mollakənd əraziləri seçilmişdir. Bu kəndlər torpaq və rütubət şəraitinə görə bir-birindən fərqlənir. Ərəbxana kəndində torpaqlar qismən şoran olduğuna görə buradan toplanmış Polygonum növləri Çöl-ərəbdən toplanmış nümunələrə nisbətən zəif inkişaf etmişdir. Yenikənd və Topalhəsənli kəndlərində torpaqlar quraq və az məhsuldardır, buna görə də burada bitkilər ortaboylu və az yarpaqlı olmuşdur. Çöl-ərəb kəndi isə suvarılan qara torpaqlara malikdir, buna görə də oradan toplanan bitkilər daha hündür və yaxşı inkşaf etmişdir. Mollakənd kəndində isə torpaq növü keçid xarakterlidir. Ona görə də burada orta ölçülü nümunələr qeydə alınmışdır. Herbari nümunələri 2025-ci ildə toplanmışdır. Ərəbxanadan nümunələr mart-aprel aylarında yəni yarpaqlanma mərhələsi zamanı, Yenikənd və Topalhəsənlidən isə May- iyun aylarında, Çöl-ərəb kəndindən isə Avqust ayında – tam vegetasiya dövrundə götürülmüşdür. Bu nümunələr *Polygonumun aviculare L, Polygonum patulum L.* və *Polygonum hydropiper L.* növlərini əhatə edir. Müxtəlif ekoloji şəraitdə toplanmış bu nümunələr üzərində aparılan müqayisəli tədqiqatlar göstərir ki, bitkilərin morfoloji göstəriciləri – boy uzunluğu, yarpaq ölçüləri, gövdə qalınlığı və s. torpaq növü və rütubət səviyyəsindən birbaşa asılıdır.

Bu tədqiqatın əsas məqsədi Polygonum L. cinsinin nümayəndələrinin Kürdəmir rayonunun müxtəlif ekoloji şəraitlərində morfoloji və bioekoloji dəyişkənliyini müəyyən etmək, bu dəyişkənliyin torpaq və iqlim amillləri ilə əlaqəsini izah etməkdən ibarətdir. Eyni zamanda bu işin nəticələri gələcəkdə dərman bitkilərininin səmərəli istifadəsinə, onların becərilməsi və biokimyəvi tərkibinin daha dərindən öyrənilməsinə elmi əsas yaratmaq qabiliyyətinə malik olur.

Nəzəriyyə

Polygonum L. cinsi- Polygonaceae (Qırxbuğumkimilər) fəsiləsinə aiddir və dünya florasında geniş yayılmış bitkilər qrupunu əhatə edir. Bu cinsə daxil olan növlər adətən otşəkilli, bəzən də yarım kol şəkilli bitkilərdir. Onların çoxu birillik, az hissəsi isə çoxillik formalardadır. Hazırda dünyada Polygonum L. cinsinə aid 300 dən artıq növ qeyd edilmişdir ki, bu növlər əsasən Avropa, Asiya, Şimali Amerika və Afrika qitələrinin mülayim və subtropik bölgələrində yayılmışdır. Cinsin bəzi nümayəndələri həm təbii, həm də mədəni şəraitdə rast gəlinir. Azərbaycanın florasında isə bu cinsin təxminən 15-20 növü qeyd olunmuşdur.

Morfoloji baxımdan Polygonum cinsinə aid bitkilər bir sıra ümumi əlamətlərlə xarakterizə olunurlar. Onların gövdəsi çox vaxt buğumlu və bu buğumlardan yarpaqlar növbəli şəkildə yerləşir. Yarpaqlar sadə, bütöv və ya zəif dişli, lanset formalı olur. Yarpaq saplağı ilə gövdə arasında çox vaxt şəffaf pərdəyəbənzər pulcuqvari örtük formalaşır ki, bu da cinsin xarakterik əlamətlərindən biridir. Çiçəkləri çox xırda, beş hissəli, çox vaxt yaşıl, ağ və ya çəhrayı rəngdə olur. Sadə və ya budaqvari çiçək qruplarında yerləşir. Meyvəsi üçüzlü qozcuq şəklindədir. *Polygonum aviculare* L. -xalq arasında Qırxbuğum kimi tanınan növdür. Bu növ daha çox yol kənarlarında, əkin sahələrində və digər zonalarda yayılmışdır. Onun gövdəsi çoxsaylı yerə yayılan, kiçik, yumurta formalı, yaşıl- boz rəngdədir bu növ quraqlığa davamlı olmaqla torpağın mexaniki tərkibinə az həssasdır və daha çox az məhsuldar torpaqlarda bitir. Xalq təbabətində *P. aviculare*- nin yerüstü hissələri sidikqovucu, iltihabəleyhinə və yara sağaldıcı vasitə kimi istifadə edilir. *Polygonum patulum* Azərbaycan ərazisində tez- tez rast gəlinən növlərdəndir. Gövdəsi 40-60 sm-ə qədər yüksələn formadadır, yarpaqları isə uzun- lansetvari, ucu iti, açıq yaşıl rəngdə olur. Bu növ daha çox quru və az rütubətli torpaqlarda yayılmışdır. *P. pathulum* işıqsevən bitkidir və əsasən açıq ərazilərdə, əkin yerləri və yol kənarlarında bitirlər. Bioloji aktiv tərkibi sayəsində bu növün ektraktları bakterisid və antioksidant təsirinə malikdir.



budaqlı və 20-40 sm uzunluğundadır. Yarpaqları

Şəkil 1. Ərəbxana kəndindən toplanmış Qırxbuğum nümunəsi.

Polygonum hydropper L. isə nəmli torpaqlarda çay və arx kənarlarında, bataqlıq ərazilərində daha çox rast gəlinən növlərdəndir. Bitki 50-80 sm hündürlükdə olur. Yarpaqları uzun lanset formalı ucu isə itişəkilli olur. Çiçəkləri xırda, açıq yaşıl və ya çəhrayı rəngdədir. Tərkibində olan müxtəlif turşular, efir yağları və flavonoidlər bu növün tibbi əhəmiyyətini artırır. Xalq təbabətində bu bitkidən qanaxmanı dayandırıcı, spazmaya qarşı və ağrıkəsici vasitə kimi istifadə olunur. Lakin yüksək konsentrasiyada qəbul edildikdə zəhərli təsir göstərə bilər. Ekoloji baxımdan Polygonum növləri olduqca uyğunlaşma qabiliyyətinə malikdir. Onlar torpağın müxtəlif növlərində qara torpaq, şoran, qumsal və gil torpaqlarda bitə bilər. Quraqlığa davamlı növlər su azlığı şəraitində vegetativ inkişafını zəiflətsə də toxum əmələgətirmə qabiliyyətini qoruyur. Nəmli torpaqlarda bitən növləri xüsusilə *P. hydropiper* torpaqda suyun çox olduğu yerlərdə güclü vegetativ kütlələr yaradır. Torpağın şoranlaşması Polygonum növlərinin morfologiyasına birbaşa təsir edir Məsələn, yarpaqların ölçüsü kiçilir, bitkinin boyu azalır, gövdə nazikləşir və toxumların sayı azalır. Dərman əhəmiyyəti baxımından bu cinsin nümayəndələri qədimdən tibb və xalq təbabətində mühüm yer tutmuşdur. Müasir elmi tədqiqatlar Polygonum növlərini bioloji aktiv komponentlərini müəyyən etmişdir. Məsələn *P.aviculare* flavonoidlər-avikulyarin, kempferol, taninlər, saponinlər və askorbin turşusu ilə zəngindir. *P. hydropiper*

növündə poliqonumid, efir yağları və polifenollar tapilmişdir. Bu maddələr orqanizmdə iltihabəleyhinə, kapilyarları bərpaedici və antioksidant təsirlər göstərir. Cinsin növləri həmçinin torpağın münbitliyinin göstəricisi kimi də ekoloji baxımdan maraq doğurur. Məsələn, *P.aviculare* adətən şoran və az münbit torpaqlarda yayıldığdan bioindikator hesab ede bilərik. Bu bitkinin kütləvi yayılması torpaqda duzların çoxalmasına işarə edir. Əksinə, *P.hydropiper* daha çox nəmli və humusla zəngin torpaqlarda bitdiyi üçün torpaq münbitliyinin yüksəldiyini göstərir. Bütün bu xüsusiyyətlər *Polygonumun L*. cininsin həm ekoloji həm də praktiki əhəmiyyətini həmçinin genetik müxtəlifliyinin səbələrini artırır. Bu növlərin tədqiqi yalnız botaniki maraq daşımır, həm də kənd təsərrüfatı, dərman istehsalı, genetika sahəsi və s. kimi potensial imkanlar yaradır. Nəticə etibarı ilə, cinsin müxtəlif ekologiyalarda morfoloji uyğunlaşmaların öyrənilməsi həm elmi, həm də praktiki baxımdan çox əhəmiyyətlidir.

Metod

Tədqiqat 2025- ci ilin aprel-sentyabr aylarında Kürdəmir rayonunun müxtəlif ekoloji şəraitlərə malik kəndlərində aparılmışdır. Tədqiqatın əsas məqsədlərindən biri *Polygonum L.* cinsinin nümayəndələrinin morfoloji göstəricilərinin və ekoloji amillərə uyğunlaşma qabiliyyətinin müqayisəli şəkildə təhlili, həmçinin genetik analizlər üçün materialların toplanılması olmuşdur. Kürdəmir rayonun seçilmiş əraziləri - Çöl-ərəb, Yenikənd, Ərəbxana, Topalhəsənli və Mollakənd kəndləri torpaq və iqlim göstəricilərinə görə bir-birindən fərqlənir. Rayonun ümumi iqlimi yarımsəhra, quru-isti, quraqlıq iqlim tipi ilə xarakterizə olunur, lakin hər bir kəndin lokal şəraiti, torpağın mexaniki tərkibi o cümlədən, rütubət səviyyəsi müxtəlifdir. Polygonum növləri də kosmopolit yəni, iqlimin şəraitinin təsiri demək olar ki, bitkinin inkişafına təsir göstərmir, sadəcə olaraq onun morfoloji dəyişikliklərə məruz qalmasına səbəb olur.



Şəkil 2. Çöl-ərəb kəndində Qırxbuğumun yayılması.

Tədqiqat zamanı qeyd etdiyimiz kimi üç əsas növ- *Polygonum patulum L*, *Polygonum aviculare L, Polygonum hydropiper L.* müəyyən edilmişdir. Nümunələrin müəyyənləşdirilməsi zamanı Azərbaycan florası (İsmayılov, 2002) və Flora of the U.S.S.R. (Komarov, 1936-1965) nəşrləri əsas götürülmüşdür. Nümunələrin toplanması və təsnifatı-hər kənddə müxtəlif torpaq sahələrindən, təbii və yarımtəbii biotoplardan 2-3 nümunə sahəsi seçilmişdir. Bitkilər yarpaqlanma, çiçəkləmə fazasında toplanmış, hər nümunənin morfoloji göstəriciləri yerində ölçülmüş, nümunələr genetik analiz aparılması və genetikasının təhlil olunması üçün laboratoriyaya aparılmışdır. Hər kənddə torpaq pH göstəriciləri 6,2-8,1 arasında dəyişmişdir. Əraziyə görə illik yağıntı 200-280 mm arasında dəyişmiş, temperatur isə yay aylarında orta hesbla +34 C olmuşdur.

Vizual müqayisə və fotoqrafik sənədləşmə-Hər bir kənddə müşahidə olunan nümunələr fotoqrafik şəkildə sənədləşdirilmiş, bitki boyu və yarpaq morfologiyasına əsasən vizual müqayisələr aparılmışdır.

Bu metodologiya nəticəsində Kürdəmir rayonunun müxtəlif kəndlərində Polygonum növlərinin adaptasiya xüsusiyyətləri sistemli şəkildə

öyrənilmiş, torpaq şəraiti və bitki morfologiyası arasında korrelyasiya müəyyən olunmuşdur.

Nəticə

Aparılan müşahidələr göstərmişdir ki, *Polygonum L.* cinsinin nümayəndələrinin inkişafı birbaşa torpağın rütubətliliyinə, antropogen təsir dərəcəsinə və şumlama işlərinin aparılıb-aparılmaması ilə bağlıdır. Çöl-ərəb kəndi tədqiqatın ən məhsuldar məntəqələrindən biri olmuşdur. Burada torpaqlar rütubətli, struktur baxımından yumşaq və qara torpaq olmuşdur. Nəticədə *Polygonum hydropiper L.* növü 40-55 sm hündürlüyə çatmış yarpaq səthi geniş, çiçəkləmə sıx və intensiv nəzərə çarpmışdır. Yarpaq uzunluğu 4-5 sm, eni isə 1.2-2 sm arasında dəyişmişdir. Kök sistemi yaxşı inkişaf etmiş, bitkilərin ümumi biokütləsi yüksək olmuşdur. Ərəbxana kəndi də torpaq baxımından məhsuldar təyin olunmuşdur. Orta hündürlük təqribi 30-40 sm arasında olmuş, gövdə qismən nazik və dar formadadır. Bu şəraitdə bitkilər erkən çiçəkləməyə meyilli olmuş, toxuməmələgəlmə qismən zəif müşahidə edilmişdir. Yenikənd və Topalhəsənli kəndləri quraq iqlimə malik olduğundan, burada bitkilər əsasən yarımsəhra şəraitinə uyğunlaşmış formalarla təmsil olunmuşdur. Boy uzunluğu 10-20 sm, yarpaq uzunluğu 2,5-3 sm arasında dəyişmiş lakin bitkilərin ümumi biokütlə göstəriciləri aşağı səviyyədə qalmışdır. Mollakənd kəndində isə torpağın orta rütubətliliyi qismən zəif şumlanmış olması nəticəsində bitkilərin inkişaf səviyyəsi balanslı olmuşdur. Buradakı növlər 25-35 sm hündürlükdə, yarpaq uzunluğu 3-4 sm, gövdə diametri isə normal ölçüdə olmuşdur. Bitkilər nisbətən sağlam, çiçəklənmə orta dərəcədə, toxuməmələgəlmə isə sabit olmuşdur.

Ümumi nəticələrə əsasən deyə bilərik ki,

1. Torpağın rütubət göstəricisi artdıqca bitki boyu və yarpaq sahəsi də artacaqdır.
2. Quru şəraitində yarpaqlar daha qalın amma kiçik olur, bu su itkisini azaltmağa yönəlmiş adaptasiyadır.
3. Şumlanmış və qara münbit torpaqlarda kök sisteminin yaxşı inkişafı ilə əlaqədar olaraq vegetativ artım və bitki məhsuldarlığı nəzərəcarpacaq səviyyədə yüksək olur.

Müzakirə və təkliflər

Tədqiqat nəticəmiz göstərir ki, Kürdəmir rayonunun iqlim şəraiti Polygonum L. cinsinin nümayəndələri üçün həm məhdudlaşdırıcı, həm də uyğunlaşma baxımından mühüm sınaq mühitlərindəndir.

1. Fitomeliorasiya məqsədilə tətbiq- bu növlər eroziyaya qarşı bioloji qoruma vasitəsi kimi istifadə oluna bilər.
2. Növlər arasında bioaktiv maddələrin tərkibi müqayisə edilməli və onların dərman əhəmiyyətli formaları dərindən araşdırılmalıdır.
3. Növbəti mərhələlərdə molekulyar markerlər vasitəsilə növlərarası genetik müxtəliflik təhlil olunmalıdır.

ƏDƏBİYYAT SIYAISI:

1. Komarov V. L. (red.).(1936–1965). Flora of the U.S.S.R.Moscow–Leningrad: Akademiya Nauk SSSR, vol. 5-20.
2. İsmayılov İ. M. (2002). Azərbaycan florası. Bakı: Elm, cild 6.
3. Həsənov Z. A., Qasımov E. Ş. (2015). Azərbaycanın dərman bitkiləri. Bakı: Təhsil.
4. Heywood V. H., Brummitt R. K. (2007). Flowering Plant Families of the World. Oxford University Press.
5. Quliyev M. A., Məmmədov T. M. (2010). Bitkilərin sistematikası. Bakı: BSU nəşriyyatı.
6. Takhtajan A. L. (1997). Diversity and Classification of Flowering Plants. Columbia University Press.
7. Məmmədova S. F. (2018). Azərbaycanın torpaq-bitki örtüyü və ekoloji şəraitin təsiri. Bakı: Elm.
8. Güner A. et al. (2012).Türkiye Bitkileri Listesi (Damarlı Bitkiler). İstanbul: Nezahat Gökyiğit Botanik Bahçesi.
9. Aliyev F. R., Abbasov V. M. (2021). Kürdəmir bölgəsinin ekoloji xüsusiyyətləri və flora müxtəlifliyi. Bakı: Coğrafiya İnstitutu.
10. Davis P. H. (1965–1988). Flora of Turkey and the East Aegean Islands. Edinburgh University Press, Vol. 1–10
11. Bakhshiyev H. H. (2017). Azərbaycanın Polygonaceae fəsiləsinə aid növlərin sistematik təhlili. Bakı.
12. Yusifov N. A. (2020). Azərbaycan florasında Polygonum L. cinsinin bioekoloji xüsusiyyətləri. Bakı.
13. Treshkin S. Y. (2009). Desert Vegetation of the South Caucasus. Moscow: Nauka.
14. Mirzəyeva L. Ş. (2019). Torpaq və bitki münasibətləri. Bakı: Elm və Təhsil.
15. Qənbərova N. R. (2023). Ekoloji amillərin bitki morfologiyasına təsiri. Gəncə: ADAU nəşriyyatı.
16. Zhang W. et al. (2018). Ecological Adaptation of Polygonum Species in Semi-arid Regions. Journal of Plant Ecology,11(4), 523-532.
17. Babayeva R. Z. (2016). Bitki ekofiziologiyasının əsasları. Bakı: BSU.
18. Abbasov M. A. (2022). Azərbaycanın yarımsəhra zonasında bitki örtüyünün dəyişməsi. Bakı.

DOİ: 10.32010/VSED7053

METASTATIK SÜD VƏZİ XƏRÇƏNGİNDƏ *HER-2* GEN MUTASİYALARI VƏ BİOKİMYƏVİ MARKERLƏRİN TƏDQİQİ

Leyla Əlövsət KƏRİMOVA[1]
Gülnarə İbrahim ƏZİZOVA[2]
[1]Bakı Dövlət Universiteti
[2]Azərbaycan Tibb Universiteti
[1]ORCİD: 0009-0007-0589-4671
E-mail: leylakarimova@bsu.edu.az

Xülasə: Süd vəzi xərçəngi (SVX) dünyada və ölkəmizdə qadınlar arasında ən geniş yayılmış bədxassəli şiş növü olub ağciyər xərçəngindən sonra ikinci yeri tutur. Ümumbəşəri hər il artan SVX diaqnozu 2021-ci ildə təxminən 2 milyona yaxın qadında aşkarlanmışdır. Son illər gənc qadınlarda da digər ginekoloji problemlərlə yanaşı sayı artan bu problem əsasən 55-70 yaş aralığında olan qadınlarda daha çox müşahidə edilir. Xəstələrin gecikmiş müraciəti əksər hallarda SVX-dan ölüm hallarının artmasının əsas səbəbi kimi qeyd olunur. 2024-cü ilin hesabatları nəticələri göstərir ki, Azərbaycanda süd vəzi xərçəngi diaqnozu qoyulan qadınların sayı son 24 ildə ən yüksək həddə çatmışdır. Belə ki, 2024-cü ildə ilk dəfə bədxassəli şiş diaqnozu qoyulmuş 8051qadının 2666 nəfərində SVX, 2023-cü ildə bu göstərici 2523 nəfər, 2022-ci ildə isə 2545 nəfər olmuşdur. 2024-cü ildə qeydiyyatda olan 157 min bədxassəli yeni törəmə diaqnozlu qadın cinsli xəstələrin 52min nəfəri SVX diaqnozu ilə müalicə alan xəstələrdir.

Tədqiqata 2023-2024-cü illərdə Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzinə müraciət etmiş 30-75 yaşlı 83 qadın üzərində aparılmış tədqiqatın nəticələri daxil edilmişdir. Kontrol qrupuna 15 nəfər 25-38 yaşlı praktik sağlam qadın daxil edilmişdir. SVX olan qadınlar (əsas qrup) HER-2 geninin ekspressiyasına və digər orqanlara metastaz diaqnozuna əsasən 4 qrupa bölünmüşdür: I qrupa 33 nəfər HER-2 ekspressiyası müsbət olan SVX-li, II qrupa 33 nəfər HER-2 ekspressiyası mənfi olan SVX-li, III qrupa 8 nəfər üçlü mənfi olan (HER-2 mənfi, ER-mənfi, PR-mənfi) SVX-li, IV qrupa isə 9 nəfər digər orqanlara metastaz vermiş SVX-li qadın daxil edilmişdir. HER-2 mənfi SVX olan qrupda HER-2 geninin mutasiyalarının tədqiqi "AmoyDx HER-2 mutation detection"(identifikasiya nömrəsi RFF:8.01.0232) reaktiv dəsti vasitəsilə BioRad "Real Time"PZR analizatorunda aparılmışdır.

Tədqiqat göstərmişdir ki, HER-2-neqativ tipli SVX olan xəstələrdə 18 və 20-ci eksonda A775_G776insYVMA, M774_A775insAYVM, G776>VC, G776R, G776C, P780_Y781insGSP, V777L, L755P mutasiyalarının heç biri aşkarlanmamışdır. Qan serumunda matriks metalloproteinazalardan MMP-9-un səviyyəsi SVX olan qadınlarda sağlam qadınlardakına nisbətən statistik əhəmiyyətli azalmışdır ($p<0,001$), MMP-7-nin səviyyəsi isə statistik əhəmiyyətli dəyişməmişdir ($p=0,464$). Metastatik SVX olan qrupda isə MMP-9 səviyyəsi metastaz olmayanlarla müqayisədə yüksək ($p=0,006$) olmuşdur. SVX-li qadınlarda HER-2 gen mutasiyalarının restgəlmə tezliyi aşağı olmuşdur. SVX zamanı qan serumunda MMP-9-un səviyyəsinin azalması toxumada gedən proseslərlə əlaqəli olub, əsasən hüceyrəətrafı mühitdə onun sərfiyyatının artması ilə əlaqələndirilir.

Açar sözlər: süd vəzisi xərçəngi, HER-2 geni, mutasiya, MMP-7, MMP-9

INVESTIGATION OF HER-2 GENE MUTATIONS AND BIOCHEMICAL MARKERS IN METASTATIC BREAST CANCER

Leyla Alovsat KARIMOVA [1]
Gulnara Ibrahim AZIZOVA [2]
[1]Baku State University
[2]Azerbaijan Medical University
[1]ORCİD: 0009-0007-0589-4671
E-mail: leylakarimova@bsu.edu.az

Abstract: Breast cancer (BC) is the most common type of malignancy among women both globally and in our country. It ranks second after lung cancer. The annual diagnosis of BC has been steadily increasing, with approximately 2 million women diagnosed in 2021. In recent years, there has been a noticeable rise in cases among younger women, although the disease is most commonly observed in women aged 55-70. Delayed medical consultation is frequently cited as a major cause of the high mortality rates associated with BC. According to 2024 reports, the number of women diagnosed with breast cancer in Azerbaijan has reached its highest level in the past 24 years. In 2024, 8051 women were diagnosed with malignant tumors for the first time, of which 2666 were BC cases. In 2023, the number was 2523, and in 2022, 2545. In

2024, among 157,000 new cases of malignant tumors in women, 52,000 are receiving treatment for BC.
The study included results from 83 women aged 30-75 years who visited the National Oncology Center of the Ministry of Health of Azerbaijan in 2023-2024. The control group consisted of 15 healthy women aged 25-38. The women with BC (main group) were divided into four groups based on HER-2 gene expression and the presence of metastases: Group I consisted of 33 women with HER-2 positive BC, Group II included 33 women with HER-2 negative BC, Group III included 8 women with triple-negative BC (HER-2 negative, ER negative, PR negative), and Group IV consisted of 9 women with distant organ metastasis.
The study showed that none of the mutations in exons 18 and 20 of the HER-2 gene, such as A775_G776insYVMA, M774_A775insAYVM, G776>VC, G776R, G776C, P780_Y781insGSP, V777L, and L755P, were detected in the HER-2 negative BC group. The level of matrix metalloproteinase MMP-9 in the serum of BC patients was statistically significantly lower compared to healthy women ($p<0.001$), while the level of MMP-7 did not change significantly ($p=0.464$). The frequency of HER-2 gene mutations was low in BC patients. The decrease in MMP-9 levels in serum is associated with tissue processes, primarily with the increased consumption of this protein in the extracellular environment.
Keywords: breast cancer, HER-2 gene, mutation, MMP-7, MMP-9.

ИССЛЕДОВАНИЕ МУТАЦИЙ ГЕНА HER-2 И БИОХИМИЧЕСКИХ МАРКЕРОВ ПРИ МЕТАСТАТИЧЕСКОМ РАКЕ МОЛОЧНОЙ ЖЕЛЕЗЫ

Лейла Аловсат КАРИМОВА[1],
Гюльнара Ибрагим АЗИЗОВА[2]
[1]Бакинский государственный университет
[2]Азербайджанский медицинский университет
[1]0009-0007-0589-4671
E-mail: leylakarimova@bsu.edu.az

Резюме: Рак молочной железы (РМЖ) является самым распространённым видом злокачественных опухолей среди женщин как в мире, так и в нашей стране. Он занимает второе место после рака легких. Каждый год нарастает количество диагнозов РМЖ: в 2021 году рак молочной железы был диагностирован у почти 2 миллионов женщин. В последние годы наблюдается рост заболеваемости среди молодых женщин, однако особенно часто этот диагноз ставится у женщин в возрасте 55-70 лет. Задержка с обращением за медицинской помощью является одной из основных причин высоких показателей смертности от РМЖ. Согласно отчетам 2024 года, в Азербайджане количество женщин, у которых был поставлен диагноз рак молочной железы, достигло самого высокого уровня за последние 24 года. Так, в 2024 году диагноз злокачественной опухоли был поставлен 8051 женщине, из которых 2666 случаев составляют РМЖ. В 2023 году этот показатель составил 2523, а в 2022 году — 2545. В 2024 году на учете в стране состоит 157 тысяч женщин с диагнозом злокачественное новообразование, из которых 52 тысячи женщин проходят лечение от РМЖ.
В исследование были включены результаты 83 женщин в возрасте 30-75 лет, обратившихся в Национальный онкологический центр Министерства здравоохранения Азербайджанской Республики в 2023-2024 гг. В контрольную группу вошли 15 практических здоровых женщин в возрасте 25-38 лет. Женщины с РМЖ (основная группа) были разделены на 4 группы в зависимости от экспрессии гена HER-2 и наличия метастазов: I группа — 33 женщины с HER-2 положительным РМЖ, II группа — 33 женщины с HER-2 отрицательным РМЖ, III группа — 8 женщин с тройным отрицательным РМЖ (HER-2, ER и PR отрицательные), IV группа — 9 женщин с метастазами в удалённые органы.
Исследование показало, что среди женщин с HER-2 отрицательным РМЖ не было выявлено мутаций в экзонах 18 и 20 гена HER-2, таких как A775_G776insYVMA, M774_A775insAYVM, G776>VC, G776R, G776C, P780_Y781insGSP, V777L и L755P. Уровень матриксной металлопротеиназы MMP-9 в сыворотке крови женщин с РМЖ был статистически значительно ниже, чем у здоровых женщин ($p<0,001$), в то время как уровень MMP-7 не изменился статистически значимо ($p=0,464$). Частота мутаций гена HER-2 среди женщин с РМЖ была низкой. Снижение уровня MMP-9 в сыворотке крови связано с процессами в тканях и главным образом с увеличением его потребления в межклеточной среде.
Ключевые слова: рак молочной железы, ген HER-2, мутацииMMP-7, MMP-9

Giriş

Süd vəzi xərçəngi (SVX) dünyada ən geniş yayılmış xərçəng növü olub, son illər artma dinamikası nümayiş etdirən onkoloji xəstəliklərdən biridir. Hazırda xəstəliyin qadınlar arasında geniş yayılmasına, erkən diaqnostika metodikalarının və müalicə üsullarının təkmilləşdirilməsinə baxmayaraq, metastazvermə və ölüm halları yüksək səviyyədə qalmaqdadır (WHO,

2023; Brentnall et., 2020). Radioloji müayinələrin, immunoloji, histokimyəvi laborator üsulların inkişafı SVX xərçənginin diaqnostikasında və proqnozunun qiymətləndirilməsində qarşıya çıxan problemlərin həllinə istiqamətlənmiş geniş imkanların yaranması ilə səciyyələnsə də, xəstəliyin artım dinamikası problemin aktuallığının hələ də qaldığını göstərir (Mehrəliyev, 2022).

İmmunhistokimyəvi markerlərin geniş tədqiqi, şiş hüceyrəsinin yaranma mexanizmlərinin bir qisminin öyrənilməsi, hədəfli terapiya metodlarının tətbiqinin genişlənməsinə və xərçənglə mübarizə tədbirlərinin effektivliyinin artmasına gətirib çıxarsa da, xəstəlikdən əziyyət çəkən qadınların sayı artmaqdadır (García-Sancha et., 2025).

Son illər SVX diaqnostikasında HER-2 gen ekspressiyasının və matriks metalloproteinazalarının (MMP) aktivliyinin və qanda səviyyəsinin öyrənilməsi tədqiqatçıların diqqət mərkəzindədir (Fouad et., 2024).

HER-2 (İnsan epidermal böyümə faktoru - 2) geninin yüksək ekspressiyası süd vəzisi xərçənginin diaqnostikası üçün çox mühüm biomarkerlərindən biri hesab edilir. Hüceyrə səthində yerləşən HER-2 reseptoru hüceyrənin böyüməsini və bölünməsini tənzimləyən zülallardan biri olan HER-2-nin yüksək ekspressiyasına səbəb olur ki, bu da xərçəng hüceyrələrinin sürətli bölünməsinə və invazivliyinə gətirib çıxarır. HER-2-nin ekspressiyasının təyini, süd vəzi xərçənginin diaqnozunun erkən mərhələlərdə dəqiqləşdirilməsi üçün vacib göstəricilərdən biridir (Kolyvas et., 2022). Son onillikdə genetikanın onkoloji xəstəliklərin diaqnostikasında geniş tətbiq edilməsi ilə HER-2 gen mutasiyalarının tədqiqinə artan elmi maraq göstərmişdir ki, mutasiya olan SVX xəstələrində gen ekspressiyası müşahidə edilmir, bu isə müalicə istiqamətinin düzgün seçilməməsi ilə nəticələnir (Pan et., 2024).

HER-2 aktivləşməsi müxtəlif transkripsiya faktorlarını, o cümlədən nüvə kappa faktorunu (nuclear factor kappa NF-kB) və protein kinaza yolunu aktivləşdirərək matriks metalloproteinazalarını, xüsusilə MMP-2, MMP-9 və MMP-7-nin aktivliyini artırır (Mehrəliyev, 2022). Bunu nəzərə alaraq, SVX olan qadınlarda MMP-7, MMP-9 səviyyəsi və HER-2 neqativ tipli SVX olan qadınlarda HER-2 geninin mutasiyaları araşdırılmışdır.

Nəzəriyyə

Tədqiqatın kontingentini Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzinə 2023-2024-cü illərdə müraciət etmiş 30-75 yaşlı 74 qadının nəticələri təşkil etmişdir. Kontrol qrupa 15 nəfər 25-38 yaşlı praktik sağlam qadının nəticələri daxil edilmişdir. SVX olan qadınlar HER-2 ekspressiyası və digər orqanlara metastaz diaqnozuna əsasən 4 qrupa bölünmüşdür: I qrupa 33 nəfər HER-2 ekspressiyası müsbət olan SVX-li, II qrupa 33 nəfər HER-2 ekspressiyası mənfi olan SVX-li, III qrupa 8 nəfər üçlü mənfi tip (HER-2 mənfi, ER-mənfi, PR-mənfi) SVX-li, IV qrupa isə bu xəstələrin arasından seçilmiş, digər orqanlara metastaz vermiş 9 nəfər SVX-li qadının nəticələri daxil edilmişdir.

Metod

SVX olan qadınların süd vəzi toxumasında HER-2 zülalının aşkarlanması spesifik anticismlər istifadə edilərək immunhistokimyəvi metodla təyin edilmişdir. Ekspressiyanı təyin etmək üçün "Quantitative PCR" zəncirvari plimeraza reaksiyalarından (PZR) istifadə edilmişdir. İmmunhistokimyəvi və PZR metodlarının birgə istifadəsi HER-2 gen ekspressiyası haqqında daha dəqiq məlumat verərək müalicə seçimlərini optimallaşdırmağa kömək edir.

HER-2 mənfi tipli SVX olan qrupda (II qrup) HER-2 geninin mutasiyalarının tədqiqi "AmoyDx HER-2 mutation detection" (identifikasiya nömrəsi RFF:8.01.0232) reaktiv dəsti vasitəsi ilə BioRad "Real Time"PZR analizatorunda aparılmışdır.

Qan nümunələrində təyin olunan parametrlərin tədqiqi universitetlərarası müqaviləyə əsasən Azərbaycan Tibb Universitetinin Bioloji kimya kafedrası üzrə Elmi-tədqiqat laboratoriyasında icra edilmişdir. Qan serumunda MMP-7 və MMP-9 səviyyəsi qatılığı "Bio-techne, R&D systems" (ABŞ) firmasına məxsus reaktiv dəstinin köməyi ilə xüsusi Quantikine ELİSA immunoferment üsulu ilə təyin edilmiş, alınmış nəticələr STAT FAX 4700 mikroplanşetli yarımavtomat immunoferment analizatorunda ölçülmüşdür. Əldə olunmuş nəticələr parametrik və qeyri-parmetrik üsulların köməyi ilə riyazi statistik işlənmişdir.

Materialların statistik işlənməsi Fişer və ANOVA meyarlar;ndan istifadə edilməklə parametrik, Uilkokson-Mann-Uitni meyarından istifadə edilməklə qeyri-parametrik üsulla aparılıb.

Tədqiqatın nəticələri

Tədqiqata daxil olan qadınlardan 1 nəfərdə (1,4%) I dərəcəli, 52 nəfərdə (70,3%) II dərəcəli, 21 nəfərdə (28,4) isə III dərəcəli SVX aşkar edilmişdir. Onlardan 9 nəfərdə (12,2%) metastatik xərçəng diaqnozu təyin olunduğuna görə, bu nəticələr ayrılıqda qruplaşdırılmışdır. HER-2 gen ekspressiyası 33 qadında aşkar edilmiş, onlardan 7 nəfərdə (21,2%) zəif eskpressiya, 26 nəfərdə (78,8%) orta və yüksək dərəcəli ekspressiya müşahidə edilmişdir. SVX-nin müalicə istiqamətinin seçilməsində hormon reseptorlarının əhəmiyyətli rolu olduğu nəzə alınaraq estradiol (ER) və progesteron (PR) reseptorlarının ekspressiyası tədqiq

edilmiş, nəticələrə əsasən hər iki reseptorun müsbət olması 46 nəfərdə (62,2%) aşkar edilmişdir. Hər iki reseptorun mənfi ekspressiyası isə üçlü neqativ qrup da daxil olmaqla 28 nəfərdə (37,8%) təyin edilmişdir. Tədqiqata daxil olan bütün qadınlarda CA-15-3 və CEA onkomarkerləri təyin olunmuşdur. Belə ki, CA-15-3 və CEA onkomarkerlərinin səviyyəsinin SVX olan qrupda sağlam qadınlara nisbətən müvafiq olaraq 19,4 və 2,5 dəfə yüksək olduğu təyin olunmuşdur. Tədqiqatın istiqamətinə əsasən SVX olan qadınlar HER-2 ekspressiyasına əsasən qruplara bölünmüş, HER-2 ekspressiyası mənfi olan qrupda genin mutasiyaları araşdırılmışdır. 18 və 20-ci eksonda yerləşən A775_G776insYVMA, M774_A775insAYVM, G776>VC, G776R, G776C, P780_Y781insGSP, V777L, L755P mutasiyalarının "AmoyDx HER-2 mutation detection" (ABŞ) reaktiv dəsti vasitəsilə tədqiqi nəticələri göstərdi ki, HER-2 neqativ tipli SVX zamanı mutasiya riski minimumdur. Mutasiya aşkarlanacağı təqdirdə əldə olunmuş biokimyəvi göstəricilərlə korellyasiya əlaqələrinin araşdırılması nəzərdə tutulurdu. Hazırda mutasiyaların tədqiqi üzərində işlər davam etdirilməkdədir.

Tədqiqat zamanı HER-2 geninin aktivləşməsinin matriks zülalları üzərində olan təsirini nəzərə alaraq tədqiq edilən MMP-7 və MMP-9 səviyyəsinin kontrol qrupda müvafiq olaraq 3,07±0,19 nq/ml və 486,9±52,9 nq/ml həddərində dəyişdiyi müəyyən olunmuşdur. Süd vəzi xərçəngi olan xəstələrdə (n=74) isə bu göstəricilərin qatılığı qan serumunda müvafiq olaraq 4,5±0,87 nq/ml və 53,3±9,6 nq/ml həddlərində dəyişmişdir.

HER-2 ekpressiyası müsbət olan qrupda qan serumunda MMP-7 və MMP-9-un səviyyəsi müvafiq olaraq 5,7±1,5 nq/ml və 37,5±4,4 nq/ml, HER-2 ekspressiyası neqativ qrupda isə bu göstəricilər 3,0±0,9 nq/ml və 73,1±20,7 nq/ml həddlərində dəyişir. Nəticələrdən göründüyü kimi, HER-2 ekspressiyası mənfi olan qrupda qan serumunda MMP-9-un səviyyəsi HER-2 müsbət qrupla müqayisədə 48,7% yüksəkdir.

Üçlü mənfi yəni HER-2 mənfi, ER-, PR- qrupda MMP-7 və MMP-9 nəticələri HER-2 mənfi olan qrupdan əsaslı fərqlənməmişdir.

Əsas qrupda (n=74) qan serumunda MMP-7-nin aktivliyi kontrol qrupdakına nisbətən Fişer meyarına görə statistik etibarlı fərqlənməsə də (pf=0,464), Uilkokson-Mann-Uitni meyarına əsasən göstəricilər arasında etibarlı fərq aşkar edilmişdir (pU<0,05). HER-2 ekspressiyasına əsasən bölünən qruplar arasında qan serumu MMP-7 və MMP-9 səviyyəsi arasında statistik əhəmiyyətli fərq müşahidə edilməmiş, kontrol qrup ilə əsas qrup arasında riyazi təhlillərə əsasən CEA (p<0.001), CA15-3 (p=0,001) və MMP-9 (p<0.001) arasında stasistik etibarlı fərq aşkar edilmişdir. Əsas qrupda MMP-9 səviyyəsi kontrol qrupa nəzərən 89,1% aşağı (p<0,001) olmuşdur.

Metastatik süd vəzi xərçəngi müşahidə olunan qadınlarda bu göstəricilərdən MMP-9 (p=0,0064) və CA 15-3 (p<0,001) səviyyələrində statistik əhəmiyyətli fərq aşkar edilmişdir. Əldə olunan nəticələr SVX olan qadınlarda onkomarkerlərlə yanaşı MMP-9-un təyinin əhəmiyyətli olduğunu göstərir.

Nəticə

Tədqiqatda HER-2 mənfi SVX olan qadınlarda toxuma nümunələrindən əldə olunmuş materiallarda 18 və 20-ci eksonlarda yerləşən mutasiyaların aşkar olunmaması bir sıra beynəlxalq tədqiqatlarla uzlaşır. Ma, Bose və həmmüəllifləri tərəfindən aparılan genişmiqyaslı tədqiqatlarda HER-2 mənfi SVX olan qadınlarda genetik mutasiyaların rastgəlmə tezliyi aşağı olmuşdur. Tədqiqat nəticələrində qeyd edilir ki, HER-2 geninin yüksək ekspressiyası daha çox gen amplifikasiyası ilə bağlıdır (Ma et., 2017).

Tədqiqatın ikinci əsas istiqaməti – MMP-7 və MMP-9 zülallarının qan serumunda səviyyələrinin təyini ilə əlaqəlidir. Əldə olunan nəticələrə əsasən SVX olan qadınlarda MMP-9-un qan serumu səviyyəsi sağlam qadınlara nisbətən aşağı olmuşdur. Bu hal SVX zamanı hüceyrəətrafı matriksin struktrunun pozulması və MMP-9-un süd vəzisi toxumasında lokal aktivliyinin artması ilə əlaqələndirilir. Bu nəticə Sezgi İyigün və həmmüəlliflərinin apardığı tədqiqat ilə uzalşır. Onların məlumatına görə SVX-də MMP-9-un səviyyəsinin toxumada artmasına baxmayaraq serumda səviyyəsi azalır, bu da onun toxumada intensiv sərfiyyatı ilə izah olunur (İyigün et., 2025).

Tədqiqat zamanı MMP-7-nin qan serumunda səviyyəsinin sağlam qadınlarla müqayisədə statistik əhəmiyyətli fərq göstərməməsi bir sıra digər tədqiqatlarda müşahidə olunan nəticələrə ziddir. Liao və həmm. tərəfindən aparılan tədqiqatda MMP-7-nin serum səviyyəsinin SVX olan qadınlarda artdığı göstərilmişdir (Liao et., 2021). Müəyyən olunan fərqlər ehtimal ki, klinik mərhələlərin müxtəlifliyindən qaynaqlanır. Bu nəticələr, MMP-7-nin diaqnostik və proqnostik rolunu daha ətraflı araşdırmaq üçün əlavə tədqiqatların vacibliyini vurğulayır.

Beləliklə, aparılan tədqiqatın nəticələri bir sıra praktik tövsiyələr verməyə imkan verir. Belə ki, SVX olan qadınlarda HER-2 geninin mutasiyalarına nadir hallarda rast gəlinir. Bu gen mutasiyalarının təyin olunması diaqnostik baxımdan prioritet olmaya bilər. SVX-nin erkən mərhələdə aşkarlanmasında MMP-9-un serum səviyyəsinin təyini əlavə biomarker kimi istifadə oluna bilər. HER-2 ekspressiyası olan xəstələrdə MMP-lərin hədəfli müalicədə rolunun öyrənilməsi gələcəkdə onkoloji protokolların

yaradılmasında əhəmiyyətli ola bilər. Mutasiya aşkar olunmasa belə, HER-2 zülal ekspressiyasının qiymətləndirilməsi müalicə istiqamətini müəyyən etmək üçün əsas göstərici olaraq qalır.

ƏDƏBİYYAT SİYAHISI:

1. Brentnall, A. R., Warren, R., Harkness, E. F., Astley, S. M., Wiseman, J., Fox, J., Fox, L., Eriksson, M., Hall, P., Cuzick, J., Evans, D. G., & Howell, A. (2020). Mammographic density change in a cohort of premenopausal women receiving tamoxifen for breast cancer prevention over 5 years. Breast Cancer Research, 22(1), 101. https://doi.org/10.1186/s13058-020-01340-4

2. Fouad, F. A., Khali, M. A., Moaz, I., Elmasry, H., Gheta, N., Abdeen, A., Tantawi, M., Elkholy, G., Rihan, S., Kamel, M. M., El-Kenawy, A. E., Abdel-Moneim, Y. A., Gameel, A. M. (2024). Prognostic impact of matrix metalloproteinase 2 (MMP-2) and matrix metalloproteinase 9 (MMP-9) in Egyptian breast cancer patients. International Journal of Immunopathology and Pharmacology, 38, 3946320241304911. https://doi.org/10.1177/03946320241304911

3. García-Sancha, N., Corchado-Cobos, R., & Pérez-Losada, J. (2025). Understanding susceptibility to breast cancer: From risk factors to prevention strategies. International Journal of Molecular Sciences, 26(7), 2993. https://doi.org/10.3390/ijms26072993

4. İyigün, S., Görgülü, N. G., & Doğan, B. (2025). Changes in MMP-9, T-SOD, and SIRT-1 levels after non-surgical periodontal treatment. BMC Oral Health, 25(1), 262. https://doi.org/10.1186/s12903-025-05610-5

5. Kolyvas, E. A., Caldas, C., Kelly, K., & Ahmad, S. S. (2022). Androgen receptor function and targeted therapeutics across breast cancer subtypes. Breast Cancer Research, 24(1), 79. https://doi.org/10.1186/s13058-022-01574-4

6. Liao, H. Y., Da, C. M., Liao, B., & Zhang, H. H. (2021). Roles of matrix metalloproteinase-7 (MMP-7) in cancer. *Clinical Biochemistry, 92*, 9-18. https://doi.org/10.1016/j.clinbiochem.2021.03.003

7. Ma, C. X., Bose, R., Gao, F., Freedman, R. A., Telli, M. L., Kimmick, G., Winer, E., Naughton, M., Goetz, M. P., Russell, C., Tripathy, D., Cobleigh, M., Forero, A., Pluard, T. J., Anders, C., Niravath, P. A., Thomas, S., Anderson, J., Bumb, C., Banks, K. C., Lanman, R. B., Bryce, R., Lalani, A. S., Pfeifer, J., Hayes, D. F., Pegram, M., Blackwell, K., Bedard, P. L., Al-Kateb, H., Ellis, M. J. C. (2017). Neratinib efficacy and circulating tumor DNA detection of HER2 mutations in HER2 nonamplified metastatic breast cancer. *Clinical Cancer Research, 23*(19), 5687-5695. https://doi.org/10.1158/1078-0432.CCR-17-0900

8. Mehrəliyev, O. (2022). Processing, localization, and questionnaire EORTC QLQ-C30 results in patients with breast cancer and metastasis. Azerbaijan Medical Journal, 1, 64-70. https://doi.org/10.34921/amj.2022.1.010

9. Pan, L., Li, J., Xu, Q., Gao, Z., Yang, M., Wu, X., & Li, X. (2024). HER2/PI3K/AKT pathway in HER2-positive breast cancer: A review. Medicine (Baltimore), 103(24), e38508. https://doi.org/10.1097/MD.0000000000038508

10. Rahimova, R. R., Dashdamirova, G. S., Shahverdiyeva, I. J., & Karimova, I. A. (2023). Studying the activity of matrix metalloproteinases and antibodies to DNA in patients with autoimmune thyroiditis. *Kazan Medical Journal, 104*(6), 851-858. https://doi.org/10.17816/KMJ624114

11. World Health Organization. (2023). Breast cancer: Prevention and control. Retrieved from https://www.who.int/cancer/prevention/diagnosis-screening/breast-cancer/en/

DOİ: 10.32010/AJBQ8583

CREATION OF A SILENT MODEL OF NEURONS WITH THE NEUROPROTECTIVE EFFECT OF SAFFRON DURING AMYGDALYAR EPILEPTOGENESIS

Gunay İlyas MELIKOVA
Ministry of Science and Education of the Republic of Azerbaijan
Institute of Physiology named after academician Abdulla Garayev
ORCID ID: 0009-0003-5214-8082
E-mail: melikovagunay82@gmail.com

Abstract: The main aim of this article is to investigate the anticonvulsant and antiepileptic effects of saffron components on the occurrence and rehabilitation of epilepsy. Epilepsy is a neurodegenerative disease characterized by abnormal electrical activity of the brain, leading to tonic–clonic seizures, clinical behavioral changes, and oxidative stress. Since the etiology and origin of epilepsy are still not fully understood, and due to its prevalence in modern society, there is a growing need for research and clinical application of modern therapeutic methods, including plant-based antioxidants.
Based on literature sources and experimental findings, the study focuses on how saffron influences the transition of synchronously active neurons into a silent state during amygdalar epilepsy. Moreover, the analysis of epileptic spikes, coherence, and wavelet transformations before, during, and after seizures is presented as a key contribution. Future work will involve oral administration of saffron in rabbits and determining its effect on blood biochemistry and coagulation in different epileptic stages.
Keywords: saffron extract, spike count, wavelet variance, coherence, ictal phase, epilepsy.

СОЗДАНИЕ ТИХОЙ МОДЕЛИ НЕЙРОНОВ С НЕЙРОЗАЩИТНЫМ ЭФФЕКТОМ ШАФРАНА В ПРОЦЕССЕ ЭПИЛЕПТОГЕНЕЗА АМИГДАЛЫ

Гюнай Ильяс МЕЛИКОВА
Министерство науки и образования Азербайджанской Республики
Институт физиологии имени академика Абдуллы Гараева
ORCID ID: 0009-0003-5214-8082
E-mail: melikovagunay82@gmail.com

Резюме: В статье представлены результаты антиоксидантного и синхронизирующего действия экстракта шафрана, особенно компонентов кроцина и сафранала, и его нейрореабилитационного эффекта в модели миндалевидной эпилепсии. Результаты анализировались на основе количественных показателей показателей ЭЭГ, включая когерентность, количество спайков и вейвлет-преобразований (вариабельность волн) в три фазы эпилепсии - преиктальную, иктальную и постиктальную стадии. В преиктальную стадию в обеих группах - первой группе, питавшейся обычной пищей, и второй группе, питавшейся обычной пищей и получавшей инъекцию экстракта шафрана в 3-й желудочек мозга во время эпилепсии, спайковая активность была минимальной, а различия наблюдались по показателям когерентности и вейвлет-вариабельности. Основные различия были зарегистрированы в иктальную (пиковую) стадию. Таким образом, инъекция экстракта шафрана в мозг (группа 2) достоверно снижает основные показатели эпилептической активности.Это проявляется в снижении нейронных разрядов (спайков), усилении связей между мозговыми волнами (когерентности) и снижении энергии эпиактивности (вейвлет-дисперсии). В постиктальной (восстановительной) фазе введение шафрана быстрее нормализует ритм мозга и укрепляет электрическую стабильность. Таким образом, экстракт шафрана стабилизирует нейронную активность в пиковый период эпилепсии, усиливает синхронность и повышает электрическую стабильность мозга в восстановительной фазе.Результаты экспериментального эксперимента показывают, что нейрореабилитационное и нейропротекторное действие компонента кроцина-сафраналя в конечном итоге создает необходимую научную основу для клинического применения антиоксидантов растительного происхождения. То есть, доказывается возможность их использования в качестве вспомогательного терапевтического средства, если не лекарственного, то, воздействуя на механизмы нейрональной регенерации. Поэтому в следующих статьях будут рассмотрены результаты исследований на четырёх группах кроликов. В последующих экспериментах предполагается изучить не только действие экстракта шафрана, но и применение настоя шафрана перорально перед эпилепсией.
Ключевые слова: экстракт шафрана, количество спайков, дисперсия вейвлетов, когерентность, иктальная фаза, эпилепсия

AMİQDALYAR EPİLEPTOGENEZİ ZAMANI ZƏFƏRANIN NEYROQORUYUCU TƏSİRİ OLAN NEYRONLARIN SƏSSİZ MODELİNİN YARADILMASI

Günay İlyas MƏLİKOVA
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutu
ORCID ID: 0009-0003-5214-8082
E-mail: melikovagunay82@gmail.com

Abstract: This study provides a comprehensive analysis of global water resource depletion, unequal distribution, and the impacts of climate change on water availability. Water scarcity is influenced not only by natural factors, such as precipitation variability and evaporation rates, but also by complex socio-economic and governance-related determinants. Population growth, urbanization, intensified agricultural practices, and industrial expansion increase the demand for water, thereby challenging the sustainable management of existing resources. This issue has reached critical levels in regions including the Middle East and North Africa as well as parts of China, where uneven water distribution, high evaporation, and limited rainfall exacerbate scarcity, posing serious risks to food security, energy supply, economic development, and ecological balance.
The research highlights the importance of applying circular economy principles in water management. Such principles emphasize the sustainable use, reuse, and recycling of water resources, alongside pollution reduction, to maintain ecosystem integrity and support socio-economic development. Moreover, integrated approaches that consider multiple interacting factors and regional differences are essential for effective water scarcity mitigation. Predictive tools, such as Partial Least Squares (PLS) regression models, are particularly useful for understanding the interconnections among various drivers of water stress and for informing region-specific strategies.
The findings indicate that addressing water scarcity requires not only technological and environmental solutions but also coordinated social, economic, and institutional interventions. By integrating these dimensions, sustainable water management systems can be developed, ensuring the efficient use of resources and the long-term resilience of ecosystems. This study contributes valuable insights for scientific research and practical policy-making related to water scarcity and resource management.
Keywords: water scarcity, water management, sustainable development, circular economy, socio-economic impacts.

ДЕФИЦИТ ВОДНЫХ РЕСУРСОВ И УСТОЙЧИВОЕ РАЗВИТИЕ: ТЕКУЩЕЕ СОСТОЯНИЕ И ПЕРСПЕКТИВЫ

Фатима Вугар МАМЕДОВА
Мингячевирский государственный университет
Orcid: https://orcid.org/0009-0001-0151-5343
Электронная почта: fatima.mammadova@mdu.edu.az

Резюме: В данном исследовании проводится комплексный анализ глобального сокращения водных ресурсов, их неравномерного распределения и влияния изменения климата на доступность воды. Дефицит воды обусловлен не только природными факторами, такими как изменчивость осадков и уровень испарения, но и сложными социально-экономическими и управленческими факторами. Рост населения, урбанизация, интенсификация сельского хозяйства и расширение промышленного производства увеличивают спрос на воду, что затрудняет устойчивое управление существующими ресурсами. Эта проблема достигла критического уровня в регионах, включая Ближний Восток и Северную Африку, а также части Китая, где неравномерное распределение воды, высокий уровень испарения и ограниченные осадки усугубляют дефицит, создавая серьезные угрозы продовольственной безопасности, обеспечению энергией, экономическому развитию и экологическому равновесию.

Исследование подчеркивает важность применения принципов циркулярной экономики в управлении водными ресурсами. Эти принципы предполагают устойчивое использование, повторное использование и переработку воды, а также снижение загрязнения, что способствует сохранению экосистем и поддержанию социально-экономического развития. Кроме того, интегрированные подходы, учитывающие множественные взаимосвязанные факторы и региональные различия, являются ключевыми для эффективного смягчения дефицита воды. Прогностические инструменты, такие как модели регрессии частичных наименьших квадратов (PLS), особенно полезны для понимания взаимодействия различных факторов водного стресса и разработки регионально ориентированных стратегий.

Результаты исследования показывают, что решение проблемы дефицита воды требует не только технологических и экологических мер, но и координированных социальных, экономических и институциональных действий. Интеграция этих аспектов позволяет создавать устойчивые системы управления водой, обеспечивая эффективное использование ресурсов и долгосрочную устойчивость экосистем. Данное исследование предоставляет ценные научные и практические рекомендации для разработки политики и управления водными ресурсами.

Ключевые слова: дефицит воды, управление водными ресурсами, устойчивое развитие, циркулярная экономика, социально-экономические воздействия.

Giriş

Su ehtiyatları sosial sabitliyin və iqtisadi inkişafın təmin olunmasında mühüm rol oynayan ən qiymətli təbii resurslardan biridir. Son onilliklərdə əhalinin artması və insanın sosial-iqtisadi fəaliyyətlərinin intensivləşməsi nəticəsində suya olan tələbat kəskin şəkildə yüksəlmiş, bu isə mövcud su ehtiyatlarına ciddi təsir göstərmişdir. Şirin suya artan tələbat su ekosistemlərində böhran vəziyyəti yaratmışdır. Hesablamalara əsasən, hazırda təxminən 3,6 milyard insan su çatışmazlığından əziyyət çəkir və 2050-ci ilə qədər bu göstəricinin 5,7 milyarda çatacağı proqnozlaşdırılır. İqlim dəyişikliyinin təsiri ilə temperaturun artması qlobal istiləşməni gücləndirərək yerüstü və yeraltı su balansında mənfi dəyişikliklərə səbəb ola bilər [1;3].

Artan antropogen təzyiqlər eyni zamanda su hövzələrinin çirklənmə səviyyəsini yüksəldir. Araşdırmalara görə, dünyadakı çay sistemlərinin təxminən 40%-i artıq çirklənmiş vəziyyətdədir və bu tendensiyanın gələcəkdə daha da sürətlənəcəyi ehtimal olunur. Su keyfiyyətinə dair ən geniş yayılmış problem kanalizasiya və təmizlənməmiş tullantı sularının su hövzələrinə axıdılması nəticəsində yaranan patogen çirklənməsidir. Hazırda su istehlakının təxminən 90%-i kənd təsərrüfatı sektorunun payına düşür və bu sahədə gübrələrin istifadəsi qida maddələri ilə çirklənmənin əsas mənbələrindən biri hesab olunur. Ərzaq tələbatının artması kənd təsərrüfatı fəaliyyətlərinin intensivləşməsinə gətirib çıxarmış və nəticədə illik təxminən iki milyon ton kimyəvi maddə istifadəyə verilmişdir. Bununla yanaşı, regionların geoloji xüsusiyyətləri də yeraltı suların keyfiyyətinin formalaşmasında əhəmiyyətli amil sayılır [1;3].

Son illərin araşdırmaları göstərir ki, dünya əhalisinin təxminən 55%-i ildə ən azı bir ay ərzində su qıtlığı ilə üzləşir. İqlim dəyişikliyi və suya artan tələbat bu göstəricinin əsrin sonuna qədər 66%-ə yüksələcəyini göstərir [3]. Su çatışmazlığı yalnız içməli suya çıxış imkanlarını məhdudlaşdırmır, eyni zamanda ərzaq təhlükəsizliyi, enerji təminatı və ictimai sağlamlıq üçün də ciddi risklər yaradır [6].

2015-ci ildə Birləşmiş Millətlər Təşkilatına (BMT) üzv 193 dövlət tərəfindən qəbul edilən 2030

Gündəliyi, ətraf mühitin davamlılığı, sosial bərabərlik, iqtisadi artım, sülh, ədalət, yaxşı idarəetmə və tərəfdaşlıq prinsiplərinə əsaslanan 17 Davamlı İnkişaf Məqsədini (DİM) müəyyən etmişdir (UN, 2016). Bu məqsədlər 2018-ci ildə yenilənərək daha konkret hədəflərlə genişləndirilmişdir. Dairəvi iqtisadiyyat yanaşması enerji (DİM7), iqtisadi artım (DİM8), dayanıqlı şəhərlər (DİM11), məsul istehlak və istehsal (DİM12), iqlim dəyişikliyi (DİM13), okeanların mühafizəsi (DİM14) və torpaq ekosistemləri (DİM15) kimi bir çox istiqamətlərdə məqsədlərə çatmaqda mühüm rol oynayır (UN, 2018) [3;6].

Bu məqsədlərdən biri olan DİM 6 – "Təmiz su və sanitariya", dayanıqlı inkişafın əsas prioritetlərindən biri kimi qiymətləndirilir. Həmin məqsədin 6.3-cü hədəfi, 2030-cu ilə qədər tullantı sularının təhlükəsiz təkrar istifadəsini və təmizlənmə səviyyəsini artırmaqla yanaşı, çirklənməni və zərərli kimyəvi maddələrin ətraf mühitə buraxılmasını minimuma endirməyi nəzərdə tutur. 6.4-cü hədəf isə su qıtlığının azaldılması, bütün sektorlar üzrə su istifadəsinin səmərəliliyinin artırılması və təmiz su ehtiyatlarının davamlı idarə edilməsini təmin etməyi qarşıya məqsəd qoyur.

Nəzəriyyə

Su resursları regional inkişaf və insan fəaliyyətləri, o cümlədən məişət, kənd təsərrüfatı və sənaye üçün mühüm əhəmiyyət kəsb edir. Sosial-iqtisadi inkişafın sürətlənməsi, əhalinin artması və iqlim dəyişikliyinin güclənməsi ilə su qıtlığı davamlı inkişafı zəiflədən mühüm problemə çevrilmişdir. Qlobal su böhranı getdikcə daha təhlükəli xarakter alır və dünyanın təxminən dörddə biri yüksək su stresinin hökm sürdüyü bölgələrdə yaşayır. Bir çox ölkələr, xüsusilə də quraq və yarı-quraq iqlim qurşaqlarında yerləşənlər ciddi su çatışmazlığı ilə üzləşir ki, bu da ərzaq təhlükəsizliyinə, iqtisadi tərəqqiyə və ekoloji tarazlığa təhdid yaradır. İqlim dəyişikliyi ilə güclənən quraqlıqlar və daşqınlar kimi ekstremal hava hadisələri su resurslarının idarə olunmasını daha da mürəkkəbləşdirir. Su ehtiyatlarının qeyri-bərabər qlobal bölgüsü və artan su çirklənməsi isə daha effektiv və davamlı idarəetmə təcrübələrini tələb edir.

Su qıtlığı ilə bağlı son araşdırmalar problemin mürəkkəb və çoxfaktorlu xarakterini ön plana çıxarır. Alimlər artıq yalnız ayrı-ayrı amillərin təhlilindən kənara çıxaraq, təbii, sosial-iqtisadi və siyasətə bağlı elementlərin qarşılıqlı təsirinin su qıtlığını necə formalaşdırdığını araşdırırlar. Erkən tədqiqatlarda əsas diqqət əsasən yağıntının dəyişkənliyi və buxarlanma kimi təbii səbəblərə yönəldilmişdisə, müasir araşdırmalar əhali artımı, iqtisadi inkişaf və urbanizasiya kimi sosial-iqtisadi faktorların suya olan tələbatı artırmaqla su stresini gücləndirdiyini göstərir. Bundan əlavə, su idarəçiliyi və çirklənməyə nəzarət kimi siyasət faktorlarının da inteqrativ və adaptiv yanaşmalarla su qıtlığının həllində mühüm rolu olduğu getdikcə daha çox vurğulanır [6].

Su qıtlığı qlobal istiləşmə, əhali artımı, urbanizasiya, iqtisadi inkişaf və sənayeləşmə səbəbindən daha da artmışdır. Buna görə də, su qıtlığının ciddi təhlükəsi dünyanın bir çox bölgəsində getdikcə daha geniş yayılmaqdadır [8]. Su qıtlığı dayanıqlı inkişafı, qida təhlükəsizliyini və iqtisadiyyatı təhdid edir, həmçinin xüsusilə su resursları məhdud olan ərazilərdə iqtisadiyyat, cəmiyyət və ətraf mühit üçün çoxsaylı problemlərə səbəb olur [1].

Yaxın Şərq və Şimali Afrika regionunda yerləşən ölkələr getdikcə daha kritik və artan su qıtlığı ilə üzləşirlər [1;11]. Hesabatlara görə, 1950-ci ildən bəri regiondakı demək olar bütün ölkələrdə şirin suya çıxış 75 % azalıb və 2030-cu ilə qədər daha 50 % azalacağı proqnozlaşdırılır [9]. Bu regionda yerləşən İran isə bir sıra amillərə görə xüsusilə güclü təsir altındadır. Onun ərazisinin təxminən 85 %-i quraq və yarı-quraq iqlimdə yerləşir. Ölkə həmçinin yüksək su buxarlanması (dünya orta göstəricisindən təxminən 70 % artıq), məhdud illik yağıntı (250 mm) və xüsusilə kənd təsərrüfatı suvarmasında böyük su tələbatı ilə xarakterizə olunur. Bu şərait nəticəsində İran ciddi su qıtlığı ilə üz-üzədir [10].

Çin, ümumilikdə bol su resurslarına malik olsa da, ciddi regional disbalanslarla üz-üzədir. Şimal bölgələri, o cümlədən Hebei əyaləti xüsusilə kəskin su qıtlığı yaşayır və adambaşına düşən su miqdarı qlobal orta göstəricidən xeyli aşağıdır. Yerüstü və yeraltı su ehtiyatlarının həddindən artıq istismarı ekoloji tənəzzülə və su idarəçiliyində səmərəsizliyə gətirib çıxarmışdır. Bu problem Çinin sosial-iqtisadi inkişafı və su təhlükəsizliyi üçün təhdid yaradır və regional su idarəçiliyinin dəqiq qiymətləndirilməsi və optimallaşdırılması davamlı inkişaf üçün zəruri hesab olunur [12].

Çinin ən çox su çatışmazlığı yaşayan bölgələrindən biri olan Hebei əyalətində vəziyyət xüsusilə ağırdır. Burada ümumi su həcmi nisbətən böyük olsa da, adambaşına düşən suyun miqdarı çox aşağıdır və beynəlxalq miqyasda qəbul edilmiş 500 kubmetr/adam su qıtlığı həddindən də aşağıdır. Bu səbəbdən su bölgüsünün optimallaşdırılması və su qıtlığının idarə olunması üçün proqnozlaşdırıcı modellərin hazırlanması təxirəsalınmaz zərurət kimi qarşıda durur. Bu tədqiqat Hebei əyalətində su qıtlığına təsir edən əsas amilləri qiymətləndirməyi və gələcək meylləri proqnozlaşdırmağı hədəfləyir, bununla da qərarvericilər üçün dəyərli nəticələr təqdim edir [12].

Bir çox inkişaf etməkdə olan ölkələrdə su ehtiyatları tükənməkdədir, iqlim dəyişikliyi və iqtisadi

fəaliyyətlər isə Afrika materikinin daxili şirin su göllərinə mənfi təsir göstərmişdir. Səhraaltı Afrika ölkələrinin çoxu üçün suyun əlçatmazlığı iqtisadi artım və regional inkişaf üçün əsas məhdudiyyətlərdən biridir. Lakin bu ölkələrin nəticələrlə mübarizə aparmaq imkanları məhduddur.

Qərbi Afrikada, xüsusilə artan əhali, plansız məskunlaşma genişlənməsi və qeyri-qanuni mədən fəaliyyəti su ehtiyatlarına ciddi təzyiq göstərir [2]. Şəhərlərin çoxu göllərin ətrafında yerləşir və bələdiyyə, eləcə də sənaye tullantıları birbaşa göllərə axıdılır. Qərbi Afrikada bəzi göllər iqlim dəyişikliyi səbəbindən su ehtiyatlarının böyük hissəsini itirmişdir; bunlardan biri də son 40 ildə kəskin şəkildə kiçilmiş Çad gölüdür [4]. Buna görə də, müxtəlif antropogen fəaliyyətlərin suyun keyfiyyətinə və su balansının komponentlərinə təsirlərini anlamaq təbii ehtiyatların dayanıqlı idarəçiliyi üçün vacibdir. Ətraf mühitin deqradasiyasının və onun sosial-iqtisadi şərtlərə təsirlərinin qiymətləndirilməsi su ehtiyatlarının səmərəli idarə olunmasına və ekosistemlərin davamlılığına töhfə verə bilər. Hövzə su ehtiyatları ilə bağlı problemlərin təhlili üçün ən uyğun hidrologiya vahidi hesab olunur [5], çünki burada insanlar və digər canlı orqanizmlər təbii mühitlə qarşılıqlı əlaqədədir. Hövzələrin qiymətləndirilməsi səmərəli su idarəçiliyi üçün mühümdür [7]. Tədqiqat sahəsində su ehtiyatlarının və mövcud sosial-iqtisadi şəraitin hərtərəfli anlaşılması vacibdir. Su ehtiyatlarına təsir edən bütün təbii və antropogen amillərin müəyyənləşdirilməsi zəruridir. Bu, səlahiyyətli orqanların, idarəçilərin və maraqlı tərəflərin cari və gələcək çağırışların həlli üçün ən uyğun həll yollarını seçməsinə imkan verəcək.

Su qıtlığının dəyişən şərtlərlə formalaşan dinamik problem kimi qəbul edilməsi araşdırmalarda mühüm dönüş nöqtəsini əks etdirir. Khan və başqaları göstərir ki, su qıtlığının səbəbləri statik deyil, iqlim dəyişikliyi, sosial-iqtisadi təzyiqlər və yerli idarəetmə təcrübələrinin dəyişməsi ilə paralel olaraq inkişaf edir. Məsələn, Pəncab bölgəsində suyun tükənməsi həm iqlim dəyişikliyi (məsələn, temperaturun artması, qeyri-sabit yağıntı) ilə, həm də yoxsulluq və səmərəsiz suvarma kimi sosial-iqtisadi faktorlarla sıx bağlıdır. Bu tədqiqatlar göstərir ki, su qıtlığının həllində qarşılıqlı təsir göstərən bu amillərin nəzərə alınması vacibdir.

Texnoloji irəliləyişlər də su qıtlığına dair tədqiqatların inkişafına töhfə vermişdir. Qlobal hidrologiya modellərini və insan–Yer sistemlərini əhatə edən proqnozlaşdırıcı modellər suyun mövcudluğu ilə bağlı proqnozların dəqiqliyini artırmışdır. Bu modellər su idarəçiliyinin təklif və tələbi, həmçinin quraqlıq və daşqın kimi ekstremal hadisələrin potensial təsirlərini nəzərə alan inteqrə olunmuş, uzunmüddətli strategiyalara ehtiyac olduğunu vurğulayır. Lakin ənənəvi reqressiya metodları güclü korrelyasiya şəraitində çoxsaylı dəyişənlərlə işləyərkən multikolinearlıq problemi səbəbindən qeyri-sabit nəticələr verir. Qismən ən kiçik kvadratlar (PLS) reqressiya metodu isə dəyişənləri əsas komponentlərə qədər azaldaraq verilənlərdəki əsas variasiyanı saxlayır və multikolinearlıq problemini aradan qaldırır. Bu yanaşma, xüsusilə, bir-biri ilə sıx əlaqəli çoxsaylı faktorların mövcud olduğu su idarəçiliyi kimi sahələrdə faydalıdır.

Bununla belə, bir çox araşdırmalarda hələ də su qıtlığına təsir edən müxtəlif faktorların və onların zamanla qarşılıqlı təsirlərinin sistemli inteqrasiyası aparılmamışdır. Sosial-iqtisadi, ekoloji və siyasət faktorlarını təbii dəyişənlərlə birlikdə proqnozlaşdırıcı modellərdə birləşdirən tədqiqatlar məhduddur.

Çinlə bağlı bəzi araşdırmalar aparılsa da, PLS reqressiyasının regional su qıtlığına tətbiqi hələ də nadirdir. PLS reqressiyası multikolinearlığın mövcud olduğu hallarda mürəkkəb, çoxölçülü münasibətləri anlamaq üçün güclü vasitədir. Bu tədqiqat PLS reqressiyasından istifadə etməklə Hebei əyalətində su qıtlığının əsas hərəkətverici qüvvələrini müəyyənləşdirməyi və proqnozlaşdırmağı hədəfləyir, beləliklə də gələcək su idarəçiliyi üçün daha dəqiq, verilənlərə əsaslanan analiz təqdim edir [12].

Nəticə olaraq, su qıtlığı ilə bağlı araşdırmalarda əhəmiyyətli irəliləyişlər əldə olunsa da, təbii, sosial-iqtisadi və siyasət faktorlarının qarşılıqlı əlaqəsini nəzərə alan daha əhatəli yanaşmalara ehtiyac qalır. Bu tədqiqat PLS reqressiyasını tətbiq etməklə Hebeidə bu mürəkkəb qarşılıqlı əlaqələrin təhlilinə töhfə verir və bu faktorların necə inkişaf edəcəyinə, eləcə də su idarəçiliyi siyasətlərinin böyüyən su qıtlığı problemini yüngülləşdirmək üçün necə tənzimlənə biləcəyinə dair faydalı nəticələr ortaya qoyur.

Sənaye sahələrinin əksəriyyəti təbii ehtiyatlardan tükənməz bir mənbə kimi yararlanaraq "al–istifadə et–at" prinsipi üzərində qurulan xətli iqtisadiyyat modelinə əsaslanır. Avropa Komissiyası (AK) su və tullantı sularının davamlı idarəçiliyini suyun dairəvi iqtisadiyyata (Dİ) keçidində əsas komponentlərdən biri kimi qiymətləndirir. AK-nın Dİ-yə dair ilkin sənədi tullantıların idarə olunması ilə sıx bağlı olub, "sıfır tullantı" strategiyasına fokuslanmışdır. Bu yanaşma sonradan imtina et, yenidən düşün, azald, təkrar istifadə et, təmir et, yenilə, yenidən istehsal et, təyinatını dəyiş, təkrar emal et və bərpa et kimi tanınan "R-strategiyalar"ın tətbiqinə gətirib çıxarmışdır.

Bununla belə, bu strategiyalar əsasən bərk tullantıların idarəçiliyinə yönəlib və su dövriyyəsi məsələləri çox zaman ikinci planda qalır.

Dairəvi iqtisadiyyat prinsipləri suyun təkrar istifadəsi və təmizlənməsi istiqamətində innovativ texnologiyaların və tənzimləyici çərçivələrin formalaşmasına töhfə verə bilər. Qida istehsalı üçün əsas resurslardan biri olan su, Dİ müzakirələrinin mərkəzində yer alır. Kənd təsərrüfatı, akvakultura və digər istehsal sahələri sudan birbaşa asılı olduğuna görə, son illərdə suyun Dİ-dəki funksiyası ilə bağlı çoxsaylı tədqiqatlar aparılmışdır. Şəhər tullantı sularının təmizlənməsi müəssisələrində enerji istehsalı və resursların (qida maddələri və suyun) bərpası dairəvi dayanıqlığın təminində mühüm rol oynaya bilər. Gələcəkdə bu müəssisələr ekoloji cəhətdən davamlı suyun təkrar istifadəsi və emalı mərkəzlərinə çevriləcək.

Tullantı sularının təkrar istifadəsində əsas maneələr texniki, sosial, iqtisadi və siyasi xarakter daşıyır. Texniki problemlər arasında regionlar üzrə fərqlər, inzibati baxımdan isə müxtəlif ölkələrin təmizlənmiş suyun istifadəsinə dair fərqli qaydalar mövcuddur.

Son illərdə su idarəçiliyində dairəvi iqtisadiyyat yanaşmasına maraq artmaqdadır. Bunun əsas səbəbi mövcud su ehtiyatları ilə xətli (linear) iqtisadi modelin artan tələbləri arasında yaranan tarazsızlıqdır. Su ehtiyatlarının azalması və tullantı sularının axıdılması ilə bağlı normativ tələblərin sərtləşməsi, suyun təkrar istifadəsini və resurs dövriyyəsini zəruri edir.

Mövcud şəhər su dövriyyəsində dairəvi sistem, suyun təkrar istifadəsini və təmizlənmiş tullantı sularının yenidən dövriyyəyə qaytarılmasını nəzərdə tutur. Beləliklə, ilkin mənbələrdən götürülən təmiz suyun həcmi azalır. Bundan başqa, məişət tullantı sularının boz və qara su kimi ayrılması, boz suyun müəyyən məqsədlərlə yenidən istifadəsinə imkan yaradır. Bu istiqamətdə artıq bir çox innovativ texnologiyalar hazırlanmış və tətbiq olunmaqdadır. Nəticədə, su təsərrüfatı sahəsində yaşıl məşğulluq imkanlarının genişlənəcəyi proqnozlaşdırılır. Avropa İttifaqının hesablamalarına görə, ÜDM-in 1% artımı su sektorunda təxminən 20 min yeni iş yerinin açılmasına gətirib çıxara bilər. Bununla belə, texnoloji nailiyyətlərə baxmayaraq, dairəvi iqtisadiyyat prinsiplərinin səmərəli tətbiqi üçün dayanıqlı biznes modelləri zəruridir. Salminen və həmkarlarının fikrincə, iqtisadi və inzibati alətlərin – məsələn, su istifadəsinə görə vergilər, təkrar suya güzəştlər və çirklənmə əsaslı normativlər – kompleks şəkildə tətbiqi ağıllı su idarəçiliyinə töhfə verə bilər.

Dairəvi su iqtisadiyyatı yanaşmasının əsasını üç prinsip təşkil edir:

1. Təbii kapitalın qorunması və bərpası – su mənbələrinin funksional davamlılığını təmin etmək;
2. Resursların səmərəli istifadəsi – su dövriyyəsini bağlayaraq təkrar emal və bərpa yolu ilə resurs dəyərini qorumaq;
3. Tullantıların idarə olunması – çirklənmənin mənfi təsirlərinin azaldılması və tullantılardan əlavə dəyər əldə edilməsi.

Sauve və həmkarları dairəvi yanaşmanı tətbiq etməzdən öncə su istifadəsinin davamlı və davamlı olmayan növlər üzrə təsnifatını vacib sayır. Bu, resursların daha məqsədyönlü idarə edilməsinə şərait yaradır.

Sinqapur bu sahədə uğurlu nümunələrdən biridir. Ölkə illərdir suyun dövriyyəsini təmin edən sistemlər tətbiq edir və 2019-cu ildə ümumi su tələbatının 24,9%-i təkrar sular hesabına ödənilmişdir.

Dairəvi su iqtisadiyyatının məqsədi təkcə suyun təkrar istifadəsi və enerji bərpası ilə məhdudlaşmır. Bu yanaşma həmçinin aktivlərin optimal idarə olunmasını da ehtiva edir ki, bu da tullantıların yaranmasını minimuma endirməyə imkan verir. Castellet-Viciano və həmkarları sübut etmişlər ki, su və kanalizasiya infrastrukturlarında optimal texniki xidmət tədbirlərinin həyata keçirilməsi ətraf mühitə təsiri 25%-dək azalda bilər. Bu isə göstərir ki, dairəvi iqtisadiyyat prinsipləri əlavə texnologiyalar tətbiq olunmadan da reallaşdırıla bilər.

Metodlar

Son onilliklərdə tullantı sularında olan resursların bərpasının əhəmiyyətini vurğulayan bir çox amillər önə çıxmışdır. Avropada tullantıların təkrar emalı üzrə yanaşmalar geniş yayılsa da, tətbiq səviyyəsi müxtəlif olduğundan vahid standartların yaradılmasına ehtiyac var. Suyun təkrar emalı texnologiyaları ümumilikdə iki qrupa bölünür: təbiətə əsaslanan həllər və mühəndislik əsaslı sistemlər. Lakin coğrafi və iqlim fərqləri bu metodların tətbiqində çətinlik yarada bilər.

Təbiət əsaslı həllər insanların sosial və ekoloji problemlərini həll etmək məqsədilə təbiətdən ilhamlanan və dəstəklənən yanaşmalardır. Bu həllər həm iqtisadi, həm sosial, həm də ekoloji faydalar təmin edir və şəhər, kənd, landşaft və dəniz sahələrində təbiətin müxtəlif elementlərini sistemli və resursdan səmərəli şəkildə inteqrasiya etməyə imkan verir. Bu həmçinin bioloji müxtəlifliyin qorunması və ekosistem xidmətlərinin təmin olunması baxımından vacibdir.

2018-ci ildə BMT-nin Dünya Su İnkişafı Hesabatı Təbiət əsaslı həlləri suyun keyfiyyətinin yaxşılaşdırılması, mövcudluğunun artırılması və su ilə bağlı risklərin azaldılması üçün əhəmiyyətli bir yanaşma kimi qiymətləndirmişdir. Su idarəçiliyi baxımından bu, ənənəvi "son nöqtə" (end-of-pipe)

texnologiyalarından üstün ola bilər və eyni zamanda köhnəlmiş infrastrukturla birlikdə işləyə bilər.

Su bərpası üçün mühəndislik əsaslı həllər

İkinci mərhələ təmizlənmiş tullantı suları (secondary effluent) birbaşa təkrar istifadə üçün uyğun deyil, çünki onlar mikroblar, potensial patogenlər, antibiotik müqavimətli mikroorqanizmlər, toksinlər və müxtəlif üzvi və qeyri-üzvi kimyəvi maddələrlə çirklənmişdir.

Bu çirkləndiriciləri aradan qaldırmaq və suyu kənd təsərrüfatı, sənaye müəssisələri, yanğın anbarları, tualet yuyulması, bataqlıqlar, rekreasiya sahələri, yeraltı suyun bərpası və birbaşa içməli su üçün istifadə oluna biləcək keyfiyyətə çatdırmaq üçün bir çox texnologiya mövcuddur

Su bərpası texnologiyaları əsasən dörd qrupa ayrılır:

1. Membran texnologiyaları
2. Qabaqcıl oksidləşmə prosesləri
3. Dezinfeksiya metodları
4. Sorbsiya üsulları

Membran texnologiyaları arasında ən geniş tətbiq olunanlar mikrofiltrasiya (MF), ultrafiltrasiya (UF), nanofiltrasiya (NF) və tərs osmos (TO) proseslərdir. MF, UF və NF üçün məsaməli, TO üçün isə məsaməsiz membranlar istifadə olunur. MF və UF əsasən süzmə mexanizmi, NF və TO isə diffuziya və seçmə mexanizmləri ilə işləyir. MF böyük hissəcikləri, bakteriya və virusların çoxunu saxlayır, TO isə kiçik molekullar və ionları tutmaq qabiliyyətinə malikdir (Yang et al., 2020). İrəli osmos (İO) laboratoriya səviyyəsində ağır metallar və mikrozərərli maddələrin tutulması üçün perspektivli üsuldur.

Pilot araşdırmalar göstərir ki, MF və UF bəzən ikinci mərhələ tullantı sularının emalı üçün kifayət edir və nəticədə su ÜST standartlarına uyğun şəkildə kənd təsərrüfatında istifadə oluna bilər. Lakin əksər hallarda su bərpası üçün bir neçə prosesin kombinasiyası tələb olunur. Membran texnologiyalarından əvvəl Ca, Al və Fe duzları ilə koaqulyasiya və aktiv karbon sorbsiya kimi kimyəvi prosedurlar tətbiq olunur. Bu kombinasiya fosfor, bulanıqlıq və mikrozərərli maddələrin çıxarılmasını artırır.

NF və TO, MF/UF-dən sonra tətbiq olunur ki, membranların çirklənmədən qorunması təmin edilsin (Boddu et al., 2016). Membran prosesləri suyun bərpasını təmin etsə də, membranlarda qalan çirkləndiricilər əlavə emal tələb edir. MF/UF və NF/TO ilə təmizlənmiş tullantılar həm içməli, həm də içməli olmayan təkrar istifadə üçün Ətraf mühitin mühafizə agentliyi və ÜST standartlarına cavab verə bilər .

Dezinfeksiya ikinci mərhələ tullantı sularında əsasən sanitar məqsəd və patogenlərin qarşısının alınması üçün istifadə olunur.

Qabaqcıl oksidləşmə prosesləri dezinfeksiya ilə birləşdirilərək mikrozərərli maddələrin çıxarılması və bakteriyaların deaktivləşdirilməsində effektivdir. Məsələn, ozonlama həm mikrozərərli maddələrin çıxarılması, həm də bakteriyaların məhv edilməsi üçün istifadə olunur.

Nəticə və təkliflər

Aparılan təhlil göstərir ki, su ehtiyatlarının səmərəli idarə olunması həm ekoloji tarazlığın qorunması, həm də sosial-iqtisadi inkişafın davamlılığının təmin edilməsində mühüm rol oynayır. Əhalinin artımı, sənaye və kənd təsərrüfatı fəaliyyətlərinin genişlənməsi, eləcə də iqlim dəyişikliyi nəticəsində yaranan su çatışmazlığı su resurslarının davamlı istifadəsini çətinləşdirir və mövcud vəziyyətin idarə olunmasını tələb edir.

Bu baxımdan, su ehtiyatlarının qorunması və istifadəsində sistemli və elmi əsaslara söykənən yanaşmaların tətbiqi vacibdir. Dayanıqlı İnkişaf Məqsədlərinin, xüsusilə də DİM 6-nın reallaşdırılması, suyun səmərəli istifadəsi və tullantı sularının təkrar dövriyyəyə cəlb olunması ilə birbaşa əlaqəlidir.

Bu nəticələrə əsaslanaraq aşağıdakı təkliflər irəli sürülür:

1. Su ehtiyatlarının idarə olunmasında kompleks və inteqrativ yanaşma tətbiq edilməli, ekoloji və iqtisadi maraqlar uzlaşdırılmalıdır.
2. Tullantı sularının təmizlənməsi və yenidən istifadəsi üçün innovativ texnologiyaların tətbiqi genişləndirilməlidir.
3. Su ekosistemlərinin çirklənməsinin qarşısını almaq üçün monitorinq sistemləri gücləndirilməli və nəzarət mexanizmləri təkmilləşdirilməlidir.
4. İqlim dəyişmələrinin təsirlərini azaltmaq məqsədilə uyğunlaşma strategiyaları hazırlanmalı, su qıtlığına qarşı qabaqlayıcı tədbirlər həyata keçirilməlidir.
5. Su idarəçiliyi sahəsində ictimai məlumatlandırma artırılmalı və əhalinin məsuliyyətli su istifadəsinə dair bilikləri gücləndirilməlidir.
6. Su ehtiyatlarının səmərəli istifadəsini dəstəkləyən normativ-hüquqi baza yenilənməli və icra mexanizmləri gücləndirilməlidir.

Beləliklə, su ehtiyatlarının rasional idarə olunması yalnız texniki yanaşmalarla deyil, həm də sosial, institusional və ekoloji səviyyədə koordinasiyalı fəaliyyətlə təmin edilməlidir. Bu istiqamətdə atılacaq addımlar həm ekoloji sabitliyin qorunmasına, həm də sosial-iqtisadi inkişafın davamlılığının möhkəmləndirilməsinə xidmət edəcəkdir.

ƏDƏBIYYAT SIYAHISI:

1. A.R.Nasiri, S.A. Shahangian, R. Kerachian, T. Zobeidi. (2024). Exploring socio-psychological factors affecting farmers' intention to choose a low-water-demand cropping pattern for water resources conservation: application of the health belief model.
2. B.T. Mokoena, W. Musakwa. (2018). Mobile GIS occupancy audit of Ulana informal settlement in Ekurhuleni municipality, South Africa.
3. E.R. Jones, M.F.P. Bierkens, M.T.H. van Vliet. (2024). Current and future global water scarcity intensifies when accounting for surface water quality.
4. G. Magrin. (2016). The disappearance of Lake Chad: History of a myth.
5. G. Wang, S.H. Mang, H. Cai, S.H. Liu, Z.H. Zhang, L. Wang, J. Innes. (2016). Integrated watershed management: evolution, development and emerging trends.
6. H. Shemer, S. Wald, R. Semiat. (2023). Challenges and Solutions for Global Water Scarcity.
7. J. Mosaffaie, A. Salehpour Jam, M.R. Tabatabaei, M.R. Kousari. (2021). Trend assessment of the watershed health based on the DPSIR framework.
8. M. Monnet, R. Vignola, Y. Aliotta. (2022). Smallholders' water management decisions in the face of water scarcity from a socio-cognitive perspective, case study of viticulture in mendoza.
9. P. Procházka, V. Hönig, M. Maitah, I. Pljučarská, J. Kleindienst.(2018). Evaluation of water scarcity in selected countries of the Middle East.
10.S. Ghazinoory, M. Khosravi, S. Nasri. (2021). A systems-based approach to analyze environmental issues: problem-oriented innovation system for water scarcity problem in Iran.
11.T. Oweis. (2016). Adapting agricultural water management to water scarcity in dry environments
12.Wanliang Qian, Shun Wu, Min Fang, Xiaoyan Qian. (2025). Water scarcity in Hebei Province, China: A predictive model and analysis of contributing factors. (cin ola yer)

DOİ: 10.32010/HCLX3146

YERLİ ÜZÜM SORTLARININ OİDİUM VƏ MİLDİU XƏSTƏLİKLƏRİNƏ QARŞI DAVAMLILIĞININ MÜQAYİSƏLİ TƏHLİLİ

Xatirə Şahin MƏMMƏDOVA[1]
Bakı Dövlət Universiteti
Orcid: https://orcid.org/0009-0001-6655-4327
E-mail: xatire.esedzade@gmail.com

Kamilə Əli Ağa ƏLİYEVA[2]
Bakı Dövlət Universiteti
Orcid: https://orcid.org/0000-0002-5344-3302
E-mail: aliyevakamilya@mail.ru

İlahiyə Vahid HÜSEYNOVA[3]
Orcid: https://orcid.org/0009-0007-4345-8811
E-mail: ilahaquseynova@gmail.com

Xülasə: Ölkəmizin inkişaf etmiş qabaqcıl sahələrindən olan üzümçülük ölkənin iqtisadiyyatında mühüm əhəmiyyət daşıyan sahələrdən hesab olunur. Qədim tarixə malik olan üzüm bitkisinin 400-dən çox texniki və süfrə sortları respublikamızda geniş yayılmışdır. Üzümlüklərin artırılmasının əsas məqsədi ölkə ərazisində ərzaq təhlükəsizliyini təmin etmək, şərabçılıq sənayesinin inkişafı, əhalinin üzümə olan tələbatın ödənilməsidir. Nəinki respublikamızda, bütün dünyada üzüm bitkisinin inkişafına və məhsuldarlığına bir sıra xəstəlik və zərərvericilər mane olur xüsusilə də göbələk xəstəlikləri ciddi məhsul itkisinə səbəb olur. Hər il məhsul itkisinin qarşısını almaq üçün dözümlü formaları təyin etmək məhsul yetişdiricilərin qarşısında duran əsas məsələlərdən biridir. Üzüm sahələrində müntəzəm aparılan kimyəvi mübarizə tədbirlərinə baxmayaraq, məhsul itkisi bu sahədə 20-30%-ə, hətta bəzi illərdə isə 52%-ə çatır. Aparılan qiymətləndirilmənin əsas məqsədi çox davamlı, davamlı, tolerant nümunələrin seçilməsi, onlardan çarpazlaşma nəticəsində yüksəkkeyfiyyətli, xəstəlik və zərərvericilərə davamlı üzüm sortlarının alınması, sort tərkibinin zənginləşdirilməsi, üzüm bitkisinin emalının artırılmasıdır.
Üzüm bitkisində göbələk xəstlikləri arasında geniş yayılmış və ən təlükəlisi oidium və mildiu xəstəliklərıdir ki, *Unicula necator* Burill göbələyi tərəfindən törədilən oidium və *Plasmopara Viticola* Berl. göbələyi tərəfindən törədilən mildiu xəstəlikləri ilə sirayətlənmə zamanı bitkinin bütün yaşıl hissəsinin yoluxması və məhvi müşahidə olunur.
Tədqiqat zamanı Naydenovun 5 ballıq qiymətləndirmə metodundan və Klaster analizindən istifadə olunmuşdur. Qiymətləndirmə zamanı qarşıya qoyulan əsas məqsəd hər iki göbələk xəstəliyinə qarşı davamlı nümunələrin seçilməsi olmuşdur. Yekun olaraq 8 sort - Fizuli keçiməməsi, Mərəndil, Şəfeyi, Qara hənaqırna, Xindoqnı, Qoç üzümü, Qəhvəyi kişmiş, Badamlı sortları hər iki xəstəliyə qarşı davamlı nümunələr olaraq seçilmişdir. Qeyd olunan sortlar növdaxili və növlərarası çarpazlaşmada istifadə edilərək oidium və mildiu xəstəliklərinə davamlı yeni üzüm sortlarının alınmasında istifadə oluna bilər.
Açar sözlər: oidium, mildiu, fitopatoloji, göbələk, qiymətləndirmə.

COMPARATIVE ANALYSIS OF THE RESISTANCE OF LOCAL GRAPEVINE VARIETIES TO POWDERY MILDEW AND DOWNY MILDEW DISEASES

Khatira Shahin MAMMADOVA[1]
Baku State University
Orcid: https://orcid.org/0009-0001-6655-4327
E-mail: xatire.esedzade@gmail.com

Kamila Ali Agha ALIYEVA[2]
Baku State University
Orcid: https://orcid.org/0000-0002-5344-3302
E-mail: aliyevakamilya@mail.ru

İlahiya Vahid HUSEYNOVA[3]
Orcid: https://orcid.org/0009-0007-4345-8811
E-mail: ilahaquseynova@gmail.com

Abstract: Viticulture, one of the advanced and strategically important sectors of our country, plays a significant role in the national economy. With a rich historical background, over 400 technical and table grape varieties are widely cultivated across the country. The primary goals of expanding vineyard areas include ensuring food security, developing the winemaking industry, and meeting the population's demand for grape products.

However, not only in our country but worldwide, the growth and productivity of grapevines are adversely affected by various diseases and pests, particularly fungal diseases, which cause substantial crop losses. Among these, the most widespread and dangerous are oidium (caused by Uncinula necator Burrill) and downy mildew (caused by Plasmopara viticola Berl.). These pathogens infect all green parts of the plant, often leading to significant yield loss or even total destruction of the vine.

Despite regular implementation of chemical control measures, annual crop losses can reach 20–30%, and in some years, up to 52%. Therefore, the selection and introduction of disease-resistant grapevine varieties is one of the main priorities for grape breeders. The main objective of ongoing research is to identify highly resistant, resistant, and tolerant genotypes, and to develop new, high-quality, disease-resistant grape varieties through their use in breeding programs.

In the course of the study, Naydenov's 5-point visual evaluation method and cluster analysis were employed. As a result of the evaluation, eight grape varieties were identified as resistant to both major fungal diseases: Fizuli Kechimemesi, Marandil, Shafeyi, Qara Hanaqirna, Khindoghni, Goch Uzumu, Brown Kishmish, and Badamly. These varieties can serve as genetic donors in intra- and interspecific hybridization programs aimed at developing new grape varieties with enhanced resistance to oidium and downy mildew, thus contributing to the enrichment of the varietal composition and increasing grape processing potential.

Keywords: Powdery mildew, Downy Mildew, Phytopathology, Fungus, Evaluation.

СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ УСТОЙЧИВОСТИ МЕСТНЫХ СОРТОВ ВИНОГРАДА К ЗАБОЛЕВАНИЯМ ОИДИУМОМ И МИЛДЬЮ

Хатира Шахин МАМЕДОВА[1]
Бакинский государственный университет
Orcid: https://orcid.org/0009-0001-6655-4327
Электронная почта: xatire.esedzade@gmail.com

Камила Али Ага АЛИЕВА[2]
Бакинский государственный университет
Orcid: https://orcid.org/0000-0002-5344-3302
Электронная почта: aliyevakamilya@mail.ru

Илахия Вахид ГУСЕЙНОВА[3]
Orcid: https://orcid.org/0009-0007-4345-8811
Электронная почта: ilahaquseynova@gmail.com

Резюме: Виноградарство является одной из передовых и динамично развивающихся отраслей нашей страны, играющей важную роль в экономике. В Азербайджане широко распространено более 400 технических и столовых сортов винограда, имеющих древнюю историю возделывания. Основной целью расширения площадей виноградников является обеспечение продовольственной безопасности страны, развитие винодельческой промышленности и удовлетворение потребностей населения в винограде

Во всем мире, включая нашу республику, развитию и урожайности винограда препятствует ряд болезней и вредителей, среди которых особенно опасны грибные заболевания, вызывающие значительные потери урожая. Несмотря на регулярное проведение химических мероприятий, потери урожая в виноградниках составляют 20–30 %, а в отдельные годы достигают 52 %. В связи с этим одной из приоритетных задач селекционеров является выявление устойчивых форм винограда. Основная цель проведённой оценки заключалась в выявлении высокоустойчивых, устойчивых и толерантных образцов, которые могут быть использованы в гибридизации для получения новых, высококачественных и устойчивых к болезням сортов винограда, а также для обогащения сортового состава и повышения эффективности переработки винограда.

Среди грибных заболеваний винограда наибольшее распространение и вредоносность имеют оидиум и милдью.

Оидиум вызывается грибом Uncinula necator Burill, а милдью — грибом Plasmopara viticola Berl. При заражении этими патогенами поражаются все зелёные части растения, что приводит к их гибели.

В ходе исследования использовались 5-балльная методика оценки по Найденову и метод кластерного анализа. Основной целью оценки являлся отбор образцов, устойчивых к обоим грибным заболеваниям. В результате исследования было выделено восемь сортов — Физули кечимемеси, Мерендил, Шафеи, Кара хенагы́рна, Хинды́гны, Гоч узюмю, Кахвяи кишмиш и Бадамлы, проявивших устойчивость к оидиуму и милдью. Указанные сорта могут быть использованы во внутри- и межвидовых скрещиваниях для создания новых сортов винограда, устойчивых к данным заболеваниям.

Ключевые слова: оидиум, милдью, фитопатология, гриб, оценка.

Giriş

Qədim tarixə malik olan üzüm bitkisi ölkə iqtisadiyyatının və kənd təsərrüfatının vacib sahələrindəndir. Ölkəmizin infrastrukturu və torpaq-iqlim şəraiti üzüm bitkisinin geniş şəkildə əkilib-becərilməsi və yayılması üçün əlverişli şərait yaratmışdır. Nəticədə ölkəmiz zəngin üzüm genefonduna malik olmuş, əhali tərəfindən məhsuldar sortlar yaradılmışdır. Buna baxmayaraq üzüm bitkisində ciddi məhsul itkisinə səbəb olan xəstəliklərdən göbələk xəstəlikləri diqqət çəkir.

Beynəlxalq təşkilatlar, hansi ki üzümçülük sahəsində fəaliyyət göstərir, genotiplərin əcdadlarına, yerli sortların ətraflı öyrənilib qorunmasına, qiymətli sortlarin istehsalata cəlb olunmasına maraq göstərir [**Ошибка! Источник ссылки не найден.**].

Nəzəriyyə

Göbələk xəstlikləri arasında oidium və mildiu xəstəliklərini xüsusi vurğulamaq lazımdır [**Ошибка! Источник ссылки не найден.**]. Belə ki, oidium xəstəliyi respublikanının bütün üzümçülük təsərrüfatında böyük təhlükə yaradan xəstəlikdir. *Unicula necator* Burill göbələyi tərəfindən yaranan xəstəlik XX yüzilliyin ortalarında Amerika

kontingentindən Avropaya gətirilmişdir. Oidium xəstəliyi üzüm bitkisinin demək olar ki bütün yaşıl orqanlarında – zoğlarında, yarpaqlarda, bığcıqlarda, daraqlarda, çiçəklərdə, və gilələrdə inkişaf edir. Yoluxmuş yarpaqların üst hissəsində əvvəl açıq rəngli ləkələr yaranır, daha sonra ağ rəng unabənzər örtüklə örtülür. Zamanla boz rəng kül rəngini alır. Yoluxmuş yarpaqlar kövrəkləşərək vaxtından əvvəl quruyur. Çox zaman yarpağın kənarları yuxarı istiqaqmətdə burulur. Güclü yoluxma zamanı gilələr partlayır, yoluxma zamanı tənəklərdən iylənmiş balıq iyi gəlir. Temperatur +5°C olduqda oidiumun inkişafı üçün

əlverişli şərait yaranır və inkişaf çox yavaş gedir. Xəstəlik temperatur 28-29°C-yə çatdıqda intensivləşir, konidilər isə yüksək temperaturda məhv olur. Beləliklə də yoluxmuş yarpaqlar inkişafdan qalır, gilələr istifadəyə yararsız olur və bu gilələrdən hazırlanmış şərab aşağı keyfiyyətli olur.

Digər qorxulu xəstəliklərdən biri isə mildiu xəstəliyidir. Azərbaycanın üzüm bitkisi ilə məşğul olan bütün bölgələrində mildiu xəstəliyi üzümçülüyə ciddi ziyan vurur. Bölgələrdən asılı olaraq xəstəliyin müxtəlif adları var - "yalançı unlu şeh", "siyalə", "qarayanıq", "gəzəngi" və s. Mildiu üzüm tənəyinin bütün yerüstü yaşıl hissələrini yoluxdurur. Xəstəliyin törədicisi *Plasmopara Viticola* Berl. göbələyidir. Xəstəlikyin əlaməti yarpaqlarda sarı və açıq-yaşıl rəngli ləkələrin görünməsidir [**Ошибка! Источник ссылки не найден.**;**Ошибка! Источник ссылки не найден.**].

Mildiu xəstəliyi məhsulun keyfiyyətinə və kəmiyyətinə mənfi təsir göstərir. Mildiuya yoluxmuş bitkilərdə karbohidrat, üzvi və qeyri-üzvi maddələrin miqdarı az olduğundan zoğun yetişməsi zəifləyir. Bu da qış fəslində bitkinin zəifləməsinə və növbəti illərdə zəifləməsinə səbəb olur. Yoluxmanı vaxtında təyin etmək bitkini mildiu xəstəliyindən qorumaq üçün böyük əhəmiyyət daşıyır. Məlumdur olduğu kimi tökülmüş yarpaqların içərisində sporlar qışlayır. Ağızcıqlar vasitəsi ilə zoosporlar yarpaq və salxımlara daxil olurlar. Yetişmiş gilələr xəstəliyə yoluxmurlar çünki ağızcıqlar bağlanır, göbələklər içəri daxil ola bilmirlər [**Ошибка! Источник ссылки не найден.**].

Metod

Təbii fonda üzüm bitkisində oidium və mildiu xəstəliyi ilə sirayətlənməsinin fitopatoloji qiymətləndirilməsi Naydenovun aşağıdakı qiymətləndirmə meyarları əsasında aparılmışdır.

0 bal – bitkinin salxımında zədələnmə müşahidə olunmur.

1 bal – salxımda zədələnmə faizi 1%-dən 5%-ə qədər olduqda.

2 bal – üzüm bitkisinin salxımlarında zəif zədələnmə müşahidə olunur, zədələnmənin faiz göstəricisi 5%-10% intervalında olduqda.

3 bal – salxımlarda orta dərəcədə zədələnmə müşahidə olunur, zədələnmənin faiz göstəricisi 10%-25% intervalında olduqda.

4 bal – salxımlarda güclü zədələnmə qeyd olunur, faizlə zədələnmə göstəricisi 25%-50% intervalında olur.

5 bal - salxımlarda çox güclü zədələnmə müşahidə olunur, zədələnmənin faiz göstəricisi 50%-100% intervalında olur.

Müvafiq bal ilə qiymətləndirilmiş genotiplər yüksəkdavamlı, davamlı, tolerant, davamsız və çox davamsız olaraq qruplara ayrılmışdır. Klaster analizi vasitəsilə tədqiq olunan nümunələrin qiymətləndirmə nəticələri müvafiq qruplara ayrılmışdır. Klaster analizi genotiplərin qruplaşmasını vizual olaraq görməyimizə imkan verir.

PAST statistik proqram paketi əsasında qurulmuş Klaster analizi və göstərilən nümunə toplusunun müəyyən meyarlar əsasında qruplara bölünməsini həyata keçirmişdir. UPGMA metodu, Evklid məsafə indeksi əsasında qurulmuş klasterlər vasitəsilə aydın şəkildə nümunələrin davamlılıq göstəricilərini müəyyən etmək mümkündür.

Nəticələr və müzakirə

Seçilmiş 77 yerli üzüm sortunun fitopatoloji qiymətləndirilməsi Genetik Ehtiyatlar İnstitutunun Abşeron Elmi-Tədqiqat Bazasında təbii fonda həyata keçirilmişdir. Qiymətləndirmənin nəticələri aşağıdakı cədvəldə öz əksini tapmışdır (Cədvəl 1).

Cədvəl 1. Yerli üzüm sortlarının davamlılığının təbii fonda göbələk xəstəliklərinə qarşı qiymətləndirmə nəticələri

Sortun adı	**Oidiuma qarşı davamlılıq bal ilə**	**Mildiuya qarşı davamlılıq bal ilə**
Mədrəsə	1	3
Alıxanlı qara üzümü	1	3
Qara şanı	1	3
Ağ Xəlili№	1	3

Haçabaş	2	3
Füzuli keçiməməsi	2	2
Naxçıvan gülabisi	2	3
Mərəndil	2	2
Bənövşəyi	2	4
Şəfeyi	2	2
Qara hənaqırna	2	2
Mahmudu	2	4
Bayanşirə noxudlayan	2	4
Xindoqnı	2	2
Qara Naxçıvan xatunu	2	3
Qoç üzümü	2	2
Qəhvəyi kişmiş	2	2
Badamlı	2	2
Ağ Hüseyni	3	2
Gəzən dayı	3	3
Xətmi	3	4
Qırmızı kişmiş	3	3
Rişbaba	3	3
Xərci	3	3
Misqalı	3	4
Dağ üzümü	3	2
Hafizəli	3	2
Tülkü quyruğu	3	1
Qara kürdəşi	3	2
Sahibi	3	1
Gülabi	3	1
Şamaxı mərəndisi	3	2
Qara quş ürəyi	3	4
Tozlayıcı	3	2
Dəvəçi həlməsi	3	2
Ağ kürdəşi	3	4
Naxçıvan hüseynisi	3	3
Keçiəmcəyi	3	3
Təbərzə	3	2
İnəkəmcəyi	3	2
Sarı şəfeyi	3	2
Təbrizi	3	3
Sarı kişmiş	4	3
Alıxanlı qara göz	4	4
Qızıl üzüm Naxçıvan	4	3
Ağ kalambir	4	2
Xəzani	4	2
Tezyetişən tumsuz	4	2
Ağadayı variasiya	4	3
Qara kişmiş Naxçıvan	4	4
Ağ Aldərə	4	4
Nərgizi	4	3
Nəbi üzüm	4	3
Qızıl üzüm Abşeron	4	3
Zeynəddin	4	4
Uzunbaşlı	4	4
Məlahəti	4	3

Qırmızı kişmiş Naxçıvan	4	3
Ağ gülabi	4	4
Irigilə kişmiş	4	3
Mərməri	4	3
Danagözü	4	4
Sarıgilə	4	3
Irigilə	4	4
Arayatlı	5	4
Bayanşirə	5	3
Əsgəri	5	2
Sarı kişmiş Naxçıvan	5	5
Qara gözəl	5	3
Ağ kişmiş	5	3
Şahtaxtı	5	3
Qara kişmiş	5	4
Şərabi	5	3
Ağ şanı	5	3
Zərəfşan	5	4
Zalxa	5	4
Faraşı	5	3

Naydenovun qiymətləndirmə meyarlarını əsas tutaraq cədvəl 2 və cədvəl 3-də qeyd olunan nəticəyə gəlinmişdir.

Cədvəl 2. Yarpaq və salxımda oidium xəstəliyinə qarşı sirayətlənmənin fitopatoloji qiymətləndirilməsi

Sirayətlənmə dərəcələri	Davamlılıq,balla	Oidium	
		Yarpaq	Salxım
Yüksəkdavamlı	1-1,5	4	4
Davamlı	2-2,5	14	14
Tolerant	3-3,5	24	24
Davamsız	4-4,5	22	22
Çoxdavamsız	5	13	13
Cəmi:	-	77	77


Cədvəl 3. Yarpaq və salxımda mildiu xəstəliyinə qarşı sirayətlənmənin fitopatoloji qiymətləndirilməsi

Sirayətlənmə dərəcələri	Davamlılıq,balla	Mildiu	
		Yarpaq	Salxım
Yüksəkdavamlı	1-1,5	3	3
Davamlı	2-2,5	22	22
Tolerant	3-3,5	32	32
Davamsız	4-4,5	19	19
Çoxdavamsız	5	1	1
Cəmi:	-	77	77

Qeyd olunmuş nəticələri ətraflı müzakirəsi həyata keçirilmişdir.

Klaster analizi aparılmış və müəyyən olunmuşdur ki, oidium xəstəliyinə qarşı yüksəkdavamlılıq Qara şanı, Mədrəsə, Ağ Xəlili və Alıxanlı qara üzümü, xəstəliyə qarşı davamlılıq Mahmudu, Naxçıvan

gülabisi, Bənövşəyi, Qara hənaqırna, Bayanşirə noxudlayan, Xindoqnı, Mərəndil, Qara Naxçıvan xatunu, Haçabaş, Qoç üzümü, Qəhvəyi kişmiş, Füzuli keçiməməsi, Şəfeyi, Badamlı sortları göstərmişdir.



Şəkil 1. Dendoqramın oidiuma sirayətlənmə dərəcəsinə görə qruplaşdırılması

Mildiu xəstəliyinə qarşı yüksəkdavamlılıq Tülküquyruğu, Sahibi, Gülabi sortlari, xəstəliyinə qarşı davamlılıq Füzuli keçiməməsi, Mərəndil, Şəfeyi, Qara hənaqırna, Xindoqnı, Qəhvəyi kişmiş, Ağ Hüseyni, Badamlı, Qoç üzümü, Qara kürdəşi, Dağ üzümü, Hafizəli, Şamaxı mərəndisi, Tozlayıcı, Dəvəçi həlməsi, Təbərzə, İnəkəmcəyi, Sarı şəfeyi, Ağ kalambir, Xəzani, Tezyetişən tumsuz, Əsgəri sortları göstərmişdir

.



Şəkil 2. Dendoqramın mildiuya sirayətlənmə dərəcəsinə görə qruplaşdırılması
Bütün qeyd olunanlar Klaster analizi vasitəsilə vizual olaraq sistemli şəkildə nəzərdən keçirilmişdir.

Nəticə

Verilmiş cədvəllərdən məlum olduğu kimi oidium və mildiu xəstəliklərinə qarşı üzüm sortları müxtəlif bal göstəriciləri ilə qiymətləndirilmişdir. Aparılmış tədqiqatda isə əsas məqsəd xəstəliyə davamlı nümunələrin seçilməsidir, xüsusilə də hər iki xəstəliyə

qarşı davamlı nümunələrin müəyyən edilməsidir, belə ki, qeyd olunanları ümumiləşdirərək yekun olaraq fizulu keçiməməsi, mərəndil, şəfeyi, qara hənaqırna, xindoqnı, qoç üzümü, qəhvəyi kişmiş, badamlı sortları hər iki xəstəliyə qarşı davamlı nümunələr olaraq seçilmişdir. Bu sortlar növdaxili və növlərarası çarpazlaşmada istifadə edilərək oidium və mildiu xəstəliklərinə davamlı yeni üzüm sortlarının alınmasında istifadə oluna bilər.

ƏDƏBİYYAT SİYAHISI

1. Abduləliyeva, S.Ş., (2017). Süfrə üzüm sortlarının diferensial aqrotexnikası, 6.
2. Hüseynova A.S., (2022). Yerli və intoduksiya olunmuş kişmiş üzüm sortlarının klon seleksiyası ilə yaxşılaşdırılmaı, 6 .
3. Məcidli, İ.Q. (2019). Meyvə və giləmeyvəli bitkilərin xəstəlikləri atlası, 148-150.
4. Səlimov,V.S., Nurəddinova, H.R., Hüseynov, M.Ə., Hüseynova, A.S., Şükürov, A.S. (2019). Üzümü çürümə xəstəliklərindən qoruyaq, 11, 12, 18, 19
5. Səlimov,V.S., Şükürov, A.S., Hüseynov, M.Ə., (2022). Üzüm becərilmə texnologiyası, bitki mühafizəsi və aqroekologiyası, 17. İSBN 978-9952-435-57-3

DOİ: 10.32010/EVFZ5911

DƏRMAN METABOLİTLƏRİNİN ÜRƏK-DAMAR VƏ HEPATOBİLİAR SİSTEMLƏRƏ MƏNFİ TƏSİRİNİN PROQNOZLAŞDIRILMASI

Nuray Soltan MUSTAFAZADƏ[1]
Məhyəddin Sadıq MEHDİYEV[2]
Mingəçevir Dövlət Universiteti[1.2]
ORCID: 0009-0001-8541-3300[1]
ORCİD: 0009-0009-3999-4800[2]
E-mail: mustafazden@mail.ru[1]
E-mail: mehdiyevmehiyeddin116@gmail.com[2]

Xülasə: Dərmanların təhlükəsizliyi müasir farmakologiya və klinik tədqiqatlarda əsas prioritet hesab olunur. Hər il bazara çıxarılan yeni dərman preparatları yalnız terapevtik effektləri qiymətləndirildikdən sonra istifadə olunur, lakin onların metabolitlərinin orqanizm üzərində yaratdığı potensial toksik təsirlər də diqqətlə izlənir. Əgər dərmanın mənfi təsirləri onun faydalarından çoxdursa, onun istehsalı və satışı qadağan edilir. Bununla belə, bəzi dərmanlar, xüsusilə onkoloji xəstələr üçün nəzərdə tutulmuş preparatlar, hələ də istifadə olunur, çünki alternativi yoxdur. Bu səbəbdən dərmanların risk-fayda nisbətinin qiymətləndirilməsi müasir tibb üçün həyati əhəmiyyət daşıyır.

Dərman metabolizmi əsasən qaraciyərdə baş verir və Faza I və Faza II metabolik reaksiyalar nəticəsində dərmanlar aktiv və ya inaktiv metabolitlərə çevrilir. Bu metabolitlər bəzən terapevtik təsir göstərir, lakin reaktiv metabolitlər oksidləşdirici stress, mitoxondrial disfunksiya və hüceyrə zədələnməsinə səbəb ola bilər. Xüsusilə ürək-damar və hepatobiliar sistemlər bu metabolitlərin toksik təsirlərinə qarşı həssasdır, nəticədə aritmiyalar, miokard disfunksiyası və hepatotoksiklik baş verə bilər.

Müasir tədqiqatlarda diklofenak, ibuprofen, ketoprofen, klorfibrat, triklozan və karbamazepin kimi dərmanların metabolitləri analiz edilmişdir. Məsələn, diklofenakın 5-hydroxydiclofenac və diclofenac acyl glucuronide metabolitləri qaraciyərdə oksidləşdirici stress yaradır və hüceyrə membranlarına zərər verə bilir. Klofibratın clofibric acid metaboliti uzunmüddətli istifadədə nefrotoksiklik riskini artırır, ibuprofen isə əsasən renal yolla xaric olunsa da, miokard infarktı riskini artıran metabolitlər əmələ gətirə bilər. Triklozanın fotokimyəvi çevrilmələri hepatotoksiklik və endokrin pozucu təsirlərə malikdir. Farmasevtik tədqiqatlarda bioinformatik və in silico modellər metabolitlərin toksiklik potensialını əvvəlcədən proqnozlaşdırmaq üçün istifadə olunur. Bu metodlar dərmanların təhlükəsizlik profilini qiymətləndirməyə, klinik riskləri azaltmağa və yeni dərmanların inkişafını sürətləndirməyə imkan verir. Eksperimental və heyvan modelləri isə toxuma səviyyəsində metabolitlərin zərər mexanizmini təsdiqləməyə kömək edir.

Nəticə etibarilə, dərman metabolizmasının və metabolitlərin toksik mexanizmlərinin erkən mərhələdə araşdırılması dərman təhlükəsizliyinin təmin olunması, kardiovaskulyar və hepatobiliar fəsadların qarşısının alınması, habelə farmasevtik məhsulların effektivliyinin artırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu yanaşma həm də yeni dərmanların klinik uğur ehtimalını artırır və dərman inkişafında strateji üstünlük yaradır.

Açar sözlər: dərman metabolizmi, metabolitlərin toksikliyi, ürək-damar sistemi, hepatobiliar system, diklofenak, ibuprofen, ketoprofen, clofibrat, karbamazepin, triklozan, bioinformatik proqnozlaşdırma

PREDICTION OF THE NEGATIVE EFFECT OF DRUG METABOLITES ON THE CARDIOVASCULAR AND HEPATOBILIARY SYSTEMS

Nuray Soltan MUSTAFAZADE[1]
Mehyeddin Sadig MEHDIYEV[2]
Mingachevir State University[1.2]
ORCID: 0009-0001-8541-3300[1]
ORCİD: 0009-0009-3999-4800[2]
E-mail: mustafazden@mail.ru[1]
E-mail: mehdiyevmehiyeddin116@gmail.com[2]

Abstract: The safety of pharmaceutical substances stands as a central concern in modern pharmacology and clinical research. Every year, newly developed medications enter the market only after thorough evaluation of their therapeutic properties; however, the possible toxic influence of their metabolites on the human body is also under close observation. When the harmful effects of a drug exceed its medical advantages, its use and distribution are suspended. Despite this,

certain medications, especially those used in cancer therapy, remain in use because no effective alternatives exist. Therefore, analyzing the balance between therapeutic benefit and potential risk is essential in current medical practice.
Drug metabolism mainly takes place in the liver, where Phase I and Phase II enzymatic processes transform drugs into active or inactive metabolites. While some metabolites retain or enhance therapeutic effects, reactive forms can cause oxidative stress, mitochondrial injury, and cellular damage. The liver and cardiovascular systems are particularly vulnerable to such toxicity, which may result in hepatotoxicity, arrhythmias, or impaired cardiac performance.
Recent investigations have focused on the metabolic products of drugs like diclofenac, ibuprofen, ketoprofen, clofibrate, triclosan, and carbamazepine. For instance, diclofenac metabolites such as 5-hydroxydiclofenac and diclofenac acyl glucuronide generate oxidative stress in liver cells and can compromise membrane integrity. The metabolite clofibric acid, produced from clofibrate, is related to nephrotoxicity during long-term administration. Although ibuprofen is largely metabolized through renal excretion, certain metabolites have been associated with increased myocardial infarction risk. Additionally, light-induced degradation of triclosan forms compounds with hepatotoxic and endocrine-disrupting properties.
In modern pharmaceutical research, computational tools including bioinformatics and in silico modeling are used to anticipate the toxicity potential of drug metabolites. These technologies support safety evaluation, minimize clinical risk, and streamline the process of developing new medications. Experimental and animal models are also applied to verify tissue-specific mechanisms underlying metabolite-related damage.
To sum up, early evaluation of drug metabolism and the toxic pathways of metabolites is essential for safeguarding drug safety, minimizing cardiovascular and hepatic side effects, and improving the therapeutic efficiency of pharmaceuticals. Such proactive strategies enhance the likelihood of clinical success and provide a competitive advantage in drug innovation.
Keywords: drug metabolism, metabolite toxicity, cardiovascular system, hepatobiliary system, diclofenac, ibuprofen, ketoprofen, clofibrate, carbamazepine, triclosan, bioinformatic prediction

ПРОГНОЗИРОВАНИЕ НЕГАТИВНОГО ВЛИЯНИЯ МЕТАБОЛИТОВ ЛЕКАРСТВЕННЫХ СРЕДСТВ НА СЕРДЕЧНО-СОСУДИСТУЮ И ГЕПАТОБИЛИАРНУЮ СИСТЕМЫ

Нурай Солтан МУСТАФАЗАДЕ[1]
Мехьеддин Садиг МЕХДИЕВ[2]
Мингячевирский государственный университет[1.2]
ORCID: 0009-0001-8541-3300[1]
ORCİD: 0009-0009-3999-4800[2]
E-mail: mustafazden@mail.ru[1]
E-mail: mehdiyevmehiyeddin116@gmail.com[2]

Резюме: Безопасность лекарственных препаратов является приоритетом современной фармакологии и клинических исследований. Каждый год новые препараты выходят на рынок только после оценки их терапевтического эффекта, однако потенциальная токсичность метаболитов этих препаратов для организма также тщательно отслеживается. Если побочные эффекты препарата превышают его пользу, его производство и продажа запрещаются. Тем не менее, некоторые препараты, особенно предназначенные для онкологических пациентов, продолжают использоваться, поскольку альтернативы им нет. Поэтому оценка соотношения риск-польза лекарств имеет жизненно важное значение в современной медицине.
Метаболизм лекарств в основном происходит в печени, а в результате реакций фаз I и II препараты превращаются в активные или неактивные метаболиты. Эти метаболиты иногда оказывают терапевтический эффект, но реактивные метаболиты могут вызывать оксидативный стресс, митохондриальную дисфункцию и повреждение клеток. Особенно чувствительны к токсическим эффектам метаболитов сердечно-сосудистая и гепатобилиарная системы, что может приводить к аритмиям, дисфункции миокарда и гепатотоксичности.
В современных исследованиях проанализированы метаболиты таких препаратов, как диклофенак, ибупрофен, кетопрофен, клофибрат, триклозан и карбамазепин. Например, метаболиты диклофенака 5-гидроксидиклофенак и диклофенак ацилглюкуронид вызывают оксидативный стресс в печени и могут повреждать клеточные мембраны. Метаболит клофибрата — клофибровая кислота — увеличивает риск нефротоксичности при длительном применении, а ибупрофен, несмотря на преимущественное выведение через почки, может формировать метаболиты, повышающие риск инфаркта миокарда. Фотохимические превращения триклозана обладают гепатотоксическими и эндокринно-дисруптивными эффектами.
В фармацевтических исследованиях биоинформатические и in silico модели используются для прогнозирования токсичности метаболитов. Эти методы позволяют оценивать профиль безопасности лекарств, снижать клинические риски и ускорять разработку новых препаратов. Экспериментальные и животные модели помогают подтверждать механизмы повреждения тканей на уровне клеток.

Таким образом, раннее изучение метаболизма лекарств и токсических механизмов их метаболитов имеет критическое значение для обеспечения безопасности препаратов, предотвращения сердечно-сосудистых и гепатобилиарных осложнений, а также повышения эффективности фармацевтических продуктов. Этот подход также увеличивает вероятность клинического успеха новых лекарств и обеспечивает стратегическое преимущество в их разработке.

Ключевые слова: метаболизм лекарств, токсичность метаболитов, сердечно-сосудистая система, гепатобилиарная система, диклофенак, ибупрофен, кетопрофен, клофибрат, карбамазепин, триклозан, биоинформатическое прогнозирование.

Giriş

Dərmanların təhlükəsizliyi müasir tibb və farmakologiyada mühüm əhəmiyyət kəsb edir. Hər il yeni dərman preparatları bazara çıxarılır və onların klinik istifadə müddətində yaranan metabolitlərin orqanizm üzərində təsiri diqqətlə izlənir. Əgər hər hansı dərman preparatının müsbət təsirləri mənfi təsirlərindən azdırsa onların istehsalı və satışı qadağan edilir. Lakin hələ də bəzi dərman növləri varki mənfi təsirləri çox olsa da onları əvəz edən daha az mənfi təsirə malik dərman preparatları olmadığı üçün istehsal və istehlakı davam edir. Bunlara daha çox onkoloji xəstələr üçün istifadə olunan dərman preparatları aiddir. Dərman metabolitləri yalnız terapevtik effekti deyil, həm də mənfi təsirləri ilə əlaqədar ola bilər. Metabolitlərin toksik təsirləri xüsusilə ürək-damar və hepatobiliar sistemlərdə özünü göstərir və bu sistemlərin funksiyalarının pozulmasına səbəb ola bilər. Belə təsirlərdən qorunmaq üçün onların vaxtında aşkarlanması və proqnozlaşdırılması vacibdir (Brunton et., 2018).

Dərman metabolizmi, dərmanların qəbulu və toksikoloji aspektləri farmakologiyada kritik rol oynayır. Qaraciyərdə baş verən Faza I və Faza II metabolik reaksiyalar nəticəsində dərman maddələri aktiv və ya inaktiv metabolitlərə çevrilir. Bu metabolitlərin bəziləri terapevtik effekt yaratsa da, bəziləri toksik xüsusiyyətlərə malik olur. Aktiv metabolitlər orqanizm tərəfindən asanlıqla istifadə edilə bilər, lakin toksik metabolitlər hüceyrə səviyyəsində zədələnmələr yarada, oksidativ stressi artıraraq və mitoxondrial disfunksiyaya səbəb olaraq müxtəlif orqan sistemlərinin funksiyasını poza bilər.

Ürək-damar sistemi dərman toksikliyinə qarşı yüksək həssasdır, çünki metabolitlərin elektrofizioloji və mitoxondrial funksiyalara təsiri aritmiyalar, QT intervalının uzanması və digər kardiotoksik hallar yarada bilər. Hepatobiliar sistem isə qaraciyərin əsas metabolik orqan olması səbəbindən dərman metabolitlərinə həssasdır. Reaktiv metabolitlər qaraciyər hüceyrələrinə zərər verərək hepatotoksiklik və xolestaz kimi problemlər yarada bilər. Bu səbəbdən dərmanların klinik inkişaf mərhələsində bu sistemlərə təsirin proqnozlaşdırılması kritik əhəmiyyət kəsb edir.

Müasir farmakoloji tədqiqatlarda dərman metabolitlərinin toksik təsirlərinin proqnozlaşdırılması modelləri mühüm rol oynayır. Bu modellər vasitəsilə dərmanların təhlükəsizlik profili əvvəlcədən qiymətləndirilə bilər. Bioinformatik metodlar, in silico modellər və eksperimental testlər dərman metabolitlərinin potensial toksik təsirlərini əvvəlcədən aşkar etməyə imkan verir. Proqnozlaşdırma modelləri həm yeni dərmanların hazırlanmasında, həm də mövcud dərman preparatlarının təhlükəsizlik səviyyəsinin artırılmasında istifadə olunur (Loiodice et., 2019).

Nəzəriyyə

Bu məqalənin məqsədi dərman metabolitlərinin ürək-damar və hepatobiliar sistemlərə mənfi təsirlərini proqnozlaşdırmaq və onların aşkarlanmasını təmin etməkdir. Məqalənin əsas vəzifələri aşağıdakılardır:

1. Dərman metabolitlərinin toksik təsirlərinin erkən mərhələdə aşkarlanması və qarşısının alınması yollarını araşdırmaq.
2. Müasir bioinformatik və eksperimental metodlar vasitəsilə metabolitlərin proqnozlaşdırma imkanlarını təhlil etmək.
3. Ürək-damar və hepatobiliar sistemlərdə potensial toksik metabolitlərin təsir mexanizmlərini izah etmək.

Toksikologiya, kimyəvi maddələrlə əlaqəli riskin qiymətləndirilməsi və təhlükənin müəyyənləşdirilməsi üçün istifadə olunan tətbiqi elmdir. Farmasevtika sənayesində isə risk-fayda nisbəti mütləq nəzərə alınmalıdır: dərmanın toksikliyi müalicə olunan xəstəliyin ağırlığı və xəstələr üçün potensial faydası ilə tarazlaşdırılmalıdır. Tənzimləyici orqanlar, xəstələrə veriləcək gözlənilən faydaya nisbətən aşağı və ya qəbuledilən risk səviyyəsinin təmin olunması məqsədilə toksiklik tədqiqatlarının aparılmasını tələb edirlər.

Bu tənzimləyici toksikologiya sınaqları heyvanlar üzərində eksperimentlərin aparılmasını zəruri edir, lakin bu tədqiqatlar etik səbəblərə görə geniş şəkildə qəbul olunmur. Paradoksal olaraq, cəmiyyət eyni

zamanda daha təhlükəsiz və innovativ dərmanlar gözləyir. Yeni dərmanların hazırlanması isə uzun, təxminən 12–15 il və bahalı, təxminən 1 milyard ABŞ dolları bir prosesdir (Moridani & Harirforoosh, 2014).

Təhlükəsizlik, dərman hazırlanmasının bütün mərhələlərində və ya bazardan çıxarılma hallarında əsas uğursuzluq səbəbi olaraq qalır, xüsusilə kardiotoksiklik və hepatotoksiklik sahələrində. Buna görə də, toksikliyin erkən aşkarlanması dərman inkişafının son mərhələsində baş verə biləcək uğursuzluqların qarşısını almaq üçün həyati əhəmiyyət daşıyır (Segall & Barber, 2014). Bu məqsədlə, proqnozlaşdırıcı toksikologiya testlərinin və modellərinin inkişafı farmasevtika sənayesində strateji dönüş nöqtəsi sayılır. Son illərdə aparılan tədqiqatlar dərman kəşfində toksikologiya strategiyalarının mövcud tendensiyalarını nəzərdən keçirmiş və bu sahədə müxtəlif yanaşma perspektivləri təqdim etmişdir.

Metod

Tədqiqatımızın ilkin mərhələsində steroid olmayan iltihabəleyhinə dərman qrupuna aid diklofenak ($C_{14}H_{11}Cl_2NO_2$) preparatı üzərində araşdırma aparılmışdır. Mövcud klinik və farmakokinetik məlumatlar göstərir ki, bu dərman preparatı xüsusilə ürək-damar sisteminə mənfi təsir göstərmə potensialına malikdir (Cədvəl 1).

Diklofenak orqanizmdə əsasən qaraciyər metabolizması yolu ilə biotransformasiyaya uğrayır və onun parçalanma məhsulları əsasən renal (60–70%) və fekal (təxminən 30%) yolla xaric edilir. Əsas birləşmənin terminal yarımxaricolma dövrü təqribən 2 saat təşkil etsə də, bütün metabolitlər nəzərə alındıqda ümumi yarımxaricolma dövrü 25,8–33 saata qədər uzanır. Bu, diklofenakın metabolitlərinin orqanizmdə daha uzun müddət aktiv və ya yarımaktiv formada qalmasına səbəb olur (Gan, 2010). Elmi tədqiqatlar nəticəsində insan orqanizmində 30-dan çox fərqli diklofenak metaboliti müəyyən edilmişdir. Bu metabolitlərin bir hissəsi fizioloji cəhətdən zərərsiz olsa da, müəyyən bir qrupu hepatotoksiklik və kardiotoksiklik baxımından ciddi risk daşıyır. Xüsusilə aşağıdakı metabolitlər toksik təsir potensialına malikdir: Diclofenac acyl glucuronide, 5-hydroxydiclofenac, 4′,5-dihydroxydiclofenac, Diclofenac o-imine methane, Diclofenac radical, 2′-(Glutathion-S-yl)-deschloro-diclofenac.

Bu birləşmələr reaktiv oksigen növlərinin (ROS) yaranmasını stimullaşdırır, qlutatyonun tükənməsi, mitoxondrial disfunksiya və lipid peroksidasiyasının artması kimi mexanizmlərlə qaraciyər hüceyrələrində və miokard toxumasında oksidləşdirici stressin yaranmasına səbəb olur. Nəticədə, bu metabolitlər həm hepatobiliar sistemin zədələnməsi, həm də ürək-damar fəsadlarının (aritmiya, miokard disfunksiyası və s.) inkişafı ilə əlaqələndirilir

Cədvəl 1. Diklofenak dərman preparatının yan təsir ehtimalları [10].

Aktivlik timalı	Aktiv mama ehtimalı	Yan təsir
0.914	0.022	Hepatotoksiklik
0.873	0.005	Miokard infarktı
0.863	0.004	Ürək çatışmazlığı

Digər dərman preparatımız Clofibrat qrupuna aiddir və əsasən hiperlipidemiyanın müalicəsi**,** yəni qanda xolesterol və trigliserid səviyyəsinin yüksək olduğu hallarda tətbiq olunur. Clofibrat bir prodərman olaraq qaraciyərdə metabolizə edilir və onun bir neçə metaboliti orqanizmdə əmələ gəlir. Ən yüksək toksik potensiala malik metabolit clofibric acid hesab olunur. Bu metabolit uzunmüddətli istifadədə xüsusilə hepatotoksiklik və nefrotoksiklik riskini artırır. Digər metabolitlərdən olan chlorophenol törəmələri nadir hallarda toksik təsir göstərə bilər (Cədvəl 2), lakin əsasən böyrəklərdə yığılaraq nefrotoksikliyə səbəb olur**.**

Klofibratın farmakokinetik xüsusiyyətlərinə baxdıqda, onun yarımxaricolma dövrü (half-life) sağlam könüllülərdə orta hesabla 18–22 saat arasında dəyişir, lakin fərdi xüsusiyyətlərə görə bu göstərici 14–35 saat intervalında dəyişə bilir. Həmçinin, eyni şəxsdə fərqli vaxtlarda bu göstərici təxminən 7 saata qədər fərqlilik göstərə bilər. Bu, metabolitlərin orqanizmdə yığılma və eliminasiya sürətinin fərqli olmasından irəli gəlir. Beləliklə, Clofibratın toksik potensialı əsasən clofibric acid və az miqdarda chlorophenol törəmələri ilə əlaqəlidir, və əsas zərər mexanizmi böyrək funksiyasına təsir və nefrotoksiklikdir. Bu xüsusiyyətlər dərman preparatının doza tənzimləməsi və uzunmüddətli istifadəsi zamanı nəzərə alınmalıdır.[7]

Cədvəl 2. Klofibrat dərman preparatının yan təsir ehtimalları [10].

Aktivlik timalı	Aktiv mama ehtimalı	Yan təsir
0.799	0.061	Hepatotoksiklik
0.755	0.008	Miokard infarktı
0.691	0.008	Ürək çatışmazlığı
0.457	0.064	Nefrotoksiklik

İbuprofen dərman preparatı analjezik, antipiretik və iltihabəleyhinə xüsusiyyətləri ilə tanınır və

qızdırma, yüngül və orta dərəcəli ağrı, həmçinin iltihabi proseslərin müalicəsində geniş istifadə olunur. İbuprofen insan orqanizmində sürətlə metabolizə olunur və bir neçə əsas metaboliti müəyyən edilmişdir: Ibuprofen glucuronide, 2-Hydroxyibuprofen, 3-Hydroxyibuprofen, Carboxy-ibuprofen, 1-Hydroxyibuprofen.

Farmakokinetik baxımdan, ibuprofen əsasən renal yolla, metabolitlər şəklində xaric edilir; bu, qəbul edilmiş dozanın 90%-dən çoxunu təşkil edir. Dərmanın tam eliminasiya prosesi son dozanın qəbulundan sonra təxminən 24 saat ərzində baş verir və qəbul edilmiş dozanın təxminən 99%-i metabolizm vasitəsilə xaric olunur. Bunun əksinə olaraq, dəyişməyən dərman və II faza aktiv metabolitlərin öd yolu ilə xaric olması çox az miqdarda baş verir və bu, ümumi dozanın yalnız 1%-ni təşkil edir. Beləliklə, ibuprofen demək olar ki, tamamilə metabolitlər və ya onların konjugatları şəklində bədəndən çıxarılır. Maraqlıdır ki, yaşlılıq və ya yüngül və orta dərəcəli böyrək çatışmazlığı ibuprofenin xaric olunmasına əhəmiyyətli təsir göstərmir.

İbuprofenin serum yarım ömrü sağlam yetkin fərdlərdə 1,2–2 saat arasında dəyişir. Lakin qaraciyər funksiyası zəif olan xəstələrdə yarım ömür 3,1–3,4 saata qədər uzana bilər, bu da dərmanın metabolik eliminasiya sürətinin qaraciyər fəaliyyətindən (cədvəl 3) təsirləndiyini göstərir. Bu xüsusiyyət doza tənzimləməsi və riskli xəstələrdə təhlükəsiz istifadənin müəyyənləşdirilməsi baxımından vacibdir.

Cədvəl 3. İbuprofen dərman preparatının yan təsir ehtimalı [10].

Aktivlik ıtimalı	Aktiv olmama ıtimalı	Yan təsir
0.803	0.011	Nefrotoksiklik
0.532	0.179	Hepatotoksiklik
0.288	0.229	Miokard infarktı

Antipurin ($C_{11}H_{12}N_2O$) və ya fenazon tərkibli dərman preparatları iltihabəleyhinə istifadə olunur. Antipyrine (Phenazone), mərkəzi sinir sisteminə təsir göstərərək analjezik və antipiretik xüsusiyyətlər göstərən aktiv dərmandır. Yüksək dozalarda istifadə olunduqda böyrək və qaraciyər funksiyalarına mənfi təsir göstərə bilər, nadir hallarda mədə-bağırsaq diskomfortuna səbəb ola bilər. Dəri allergik reaksiyaları da müşahidə edilə bilər.

Edaravone, Antipyrine metaboliti olaraq daha az aktivdir və əsasən antioksidant təsirə malikdir. Orqanizmdə sürətlə metabolizə olunur və böyrək, qaraciyər və mədə-bağırsaq toxumaları üçün toksik potensialı minimaldır. 3-Hydroxymethylantipyrine və 3-OH-methylantipyrine, həmçinin 4-Hydroxyantipyrine metabolitləri zəif aktiv metabolitlərdir. Bu metabolitlərin orqanizmə toksik (cədvəl 4), təsiri çox azdır və əsasən sidik vasitəsilə xaric olunur. Qaraciyər və böyrək funksiyası normal olan xəstələrdə bu metabolitlər toksik problemlər yaratmır.

Xülasə olaraq, Antipyrine-in özünün toksik potensialı metabolitlərinə nisbətən daha yüksəkdir, lakin metabolitlər əsasən inaktiv və ya zəif aktiv olduqlarından minimal toksik risk daşıyırlar. Bu, dərmanın təhlükəsiz istifadəsi baxımından əhəmiyyətli məlumatdır və yüksək dozaların və uzunmüddətli istifadənin diqqətlə izlənməsini tələb edir.

Cədvəl 4. Antipurin dərman preparatının yan təsir ehtimalı [10].

Aktivlik timalı	Aktiv olmama timalı	Yan təsir
0.712	0.095	Hepatotoksiklik
0.389	0.076	Miokard infarktı
0.311	0.287	Aritmiya
0.291	0.181	Ürək çatışmazlığı

Ketoprofen ($C_{16}H_{14}O_3$) qeyri-steroid iltihabəleyhinə dərmanlar (NSAİİ) sinfinə aid bir preparatdır və əməliyyatlardan, travmalardan və doğuşdan sonra yaranan əzələ, oynaq və skelet ağrılarının azaldılmasında geniş şəkildə istifadə olunur. Onun əsas təsir mexanizmi siklooksigenaza (COX-1 və COX-2) fermentlərinin inhibisiyası ilə əlaqədardır. Bu proses nəticəsində prostaglandinlərin sintezi azalır, nəticədə isə ağrı, iltihab və hərarət reaksiyaları zəifləyir. Ketoprofen orqanizmə daxil olduqdan sonra yüksək sorulma qabiliyyətinə malik olur və plazma zülalları ilə təxminən 99% səviyyəsində bağlanır. Qaraciyərdə əsasən qlükuronidasiya prosesi ilə metabolizə olunur (cədvəl 2) və nəticədə Ketoprofen acyl glucuronide adlanan əsas metabolit əmələ gəlir. Bununla yanaşı, hidroksilasiya yolu ilə Hydroxyketoprofen kimi ikincil metabolitlər də formalaşır.

Tətbiqdən sonra qəbul edilmiş dozanın təxminən 80%-i 24 saat ərzində sidik vasitəsilə, əsasən qlükuronid konjugatları şəklində xaric olunur. Qalan az miqdarda hissə isə dəyişməz formada nəcislə xaric edilir. Ketoprofenin yarım ömrü dərman formasına görə dəyişkəndir: 1. Adi kapsullar üçün: 1,1–4 saat. 2. Uzatılmış buraxılış kapsulları üçün: 5,4 saat. Bu fərq əsasən uzadılmış formanın gecikmiş absorbsiyası ilə əlaqədardır, lakin ümumi klirens göstəriciləri eynidir.

Ketoprofen metabolizması nəticəsində əmələ gələn bəzi birləşmələr toksikoloji cəhətdən (cədvəl 5) əhəmiyyət daşıyır: Ketoprofen acyl glucuronide — reaktiv xüsusiyyətə malik bir metabolit olub, qaraciyər hüceyrələrinin zülalları ilə kovalent bağlar əmələ gətirə bilər. Bu proses hepatotoksiklik və nefrotoksiklik riskini artırır, xüsusilə uzunmüddətli və ya yüksək dozalı istifadə zamanı qaraciyər və böyrəklərin funksional yükünü artırır.

Hydroxyketoprofen metabolitləri — nadir hallarda oksidləşdirici stressin yüksəlməsi və qlutatyon səviyyəsinin azalması ilə əlaqələndirilmişdir. Bu mexanizm hüceyrə səviyyəsində mitoxondrial disfunksiya və lipid peroksidasiyasına səbəb ola bilər ki, bu da potensial toksik təsirlərin yaranma ehtimalını artırır (Mazieres, 2005). Farmakokinetik və toksikoloji baxımdan ketoprofenin orqanizmdən xaric olunma sürəti böyrək və qaraciyər (Cədvəl 5) funksiyasından asılıdır. Qaraciyər funksiyası zəif olan pasiyentlərdə metabolik sürət azalır, nəticədə yarım ömür uzanır və metabolitlərin orqanizmdə toplanması riski yaranır. Bu səbəbdən belə hallarda dozanın azaldılması və klinik nəzarətin gücləndirilməsi tövsiyə olunur.

Cədvəl 5. Ketoprofen dərman preraparatının yan təsir ehtimalı [10].

Aktivlik timalı	Aktiv olmama timalı	Yan təsir
0.836	0.051	Hepatotoksiklik
0.747	0.006	Ürək çatışmazlığı
0.691	0.013	Miokard infarktı
0.464	0.061	Nefrotoksiklik

Triklozan ($C_{12}H_7Cl_3O_2$) — güclü antimikrob təsirə malik, bakteriya, göbələk və kiflərin inkişafının qarşısını almaq məqsədilə klinik və məişət mühitlərində istifadə edilən kimyəvi maddədir. O, əvvəllər diş məcunlarının, sabunların, dezinfeksiyaedici məhlulların və kosmetik vasitələrin tərkibinə geniş şəkildə daxil edilirdi. Lakin son illərdə aparılan tədqiqatlar göstərmişdir ki, triklozanın bəzi metabolitləri insan orqanizminə və ətraf mühitə toksik təsir göstərə bilir.

Eksperimental tədqiqatlardan birində siçanların dərisinə [(^{3}H)]-triklozanın 64,5 mM-lik spirt məhlulu tətbiq edilmiş və 24 saat sonra dərman maddəsinin orqanizmdə paylanması izlənmişdir. Nəticədə, radioaktiv maddənin 12%-i nəcis, 8%-i bədən toxumalarında, 1%-i sidik, 30%-i dəri səthinin buynuz qatı (stratum corneum) və 26%-i isə dəridən yuyularaq xaric olunmuş vəziyyətdə aşkarlanmışdır. Bu göstəricilər triklozanın dəri vasitəsilə məhdud, lakin əhəmiyyətli sorulma qabiliyyətinə malik olduğunu göstərir.

Triklozan orqanizmə daxil olduqdan sonra əsasən qaraciyərdə metabolizə olunur. Bu proses sitoxrom P450 (CYP450) və UDP-qlükuroniltransferaza (UGT) fermentlərinin iştirakı ilə baş verir. Əsas metabolitləri aşağıdakılardır:

1. Triclosan glucuronide – qlükuron turşusu ilə konjugasiya olunmuş forma olub, əsas xaricolma metabolitidir və nisbətən zərərsiz sayılır.
2. Triclosan sulfate – sulfatlaşma nəticəsində əmələ gəlir və orqanizmdən sidiklə xaric olunur.
3. 2,4-Dichlorophenol (2,4-DCP) – triklozanın parçalanması nəticəsində yaranan toksik metabolit olub, hepatotoksiklik və neyrotoksiklik ilə (Cədvəl 6) əlaqələndirilmişdir.
4. 2,8-Dichlorodibenzo-p-dioxin (2,8-DCDD) – triklozanın günəş işığı və ya xlorlu su ilə təmasda fotokimyəvi reaksiyası nəticəsində əmələ gələn doksin törəməsidir. Bu metabolit karsinogen, endokrin pozucu və ekotoksik təsirlərə malikdir.

Triklozanın plazmadakı terminal yarımxaricolma dövrü təxminən 21 saatdır, bu da onun orqanizmdə müəyyən müddət qala biləcəyini göstərir. Uzunmüddətli istifadə və yüksək doza tətbiqi zamanı qaraciyər, böyrək və ürək-damar sisteminə toksik təsirlər müşahidə edilə bilər (Sandborgh-Englund, 2006). Toksikoloji cəhətdən xüsusilə 2,4-Dichlorophenol və 2,8-Dichlorodibenzo-p-dioxin metabolitləri əhəmiyyət kəsb edir. Bu birləşmələr oksidləşdirici stressi artırır, qlutatyon ehtiyatlarını azaldır, mitoxondrial disfunksiya və lipid peroksidasiyası yaradır. Bu mexanizmlər nəticəsində (cədvəl 6) hepatotoksiklik, nefrotoksiklik, endokrin pozğunluqlar və kardiotoksik effektlər baş verə bilər.

Cədvəl 6. Triklozan dərman preparatının yan təsir ehtimalı [10].

Aktivlik timalı	Aktiv mama ehtimalı	Yan təsir
0.794	0.062	Hepatotoksiklik
0.347	0.235	Aritmiya
0.240	0.232	Ürək çatışmazlığı

Karbamazepin ($C_{15}H_{12}N_2O$) — antikonvulsant və analjezik təsirə malik dərman vasitəsidir. O, əsasən epilepsiya, nevralgiya (xüsusilə trigeminal nevralgiya) və bəzi növ psixi pozğunluqlarda sinir impulslarının anormal ötürülməsini azaltmaq məqsədilə istifadə olunur. Dərman neyronlarda natrium kanallarının blokadasını təmin etməklə, sinir hüceyrələrinin həddindən artıq depolarizasiyasının qarşısını alır və beləliklə, qıcolma və ağrını azaldır. Karbamazepin orqanizmə oral (ağız yolu ilə) qəbul olunduqdan sonra yaxşı sorulur və qaraciyərdə aktiv metabolizmə uğrayır. Radiomarklı karbamazepinlə

aparılmış farmakokinetik tədqiqat nəticəsində göstərilmişdir ki, qəbul edilən dozanın təxminən 72%-i sidiklə, qalan hissəsi isə nəcis vasitəsilə xaric olunur. Sidikdə əsasən hidroksilləşmiş və konjugasiya olunmuş metabolitlər aşkarlanmışdır, dəyişmədən qalan dərman miqdarı isə çox azdır. Karbamazepin çoxsaylı metabolik çevrilmələrə uğrayaraq müxtəlif törəmələr əmələ gətirir. Ən mühüm metabolitlər bunlardır:
10,11-Epoxycarbamazepine,
10,11-Dihydroxycarbamazepine,
3-Hydroxycarbamazepine,
2,3-Dihydroxycarbamazepine,
Carbamazepine-o-quinone, Carbamazepine
2,3-epoxide,
2-Hydroxycarbamazepine,
2-Hydroxyiminostilbene, Iminoquinone.

Bu metabolitlər əsasən sitoxrom P450 (CYP3A4) fermenti vasitəsilə əmələ gəlir. Xüsusilə Carbamazepine-o-quinone və Iminoquinone metabolitləri reaktiv oksigen növləri (ROS) yaradır və hepatotoksiklik riskini artırır. Qaraciyər hüceyrələrində bu metabolitlər zülal və lipid strukturları ilə kovalent bağlar əmələ gətirərək hüceyrə funksiyasını pozur [9].

Karbamazepinin eliminasiya sürəti dərmanın uzadılmış və ya normal buraxılış formalarından asılı olaraq dəyişir: Bir doza qəbulundan sonra: 35–40 saat. Təkrarlanan dozalardan sonra: 12–17 saat. Sağlam fərdlərdə farmakokinetik araşdırmalara əsasən: 27–36,8 saat. Bu dəyişkənlik autoinduksiya fenomeni ilə əlaqədardır, yəni karbamazepin öz metabolizmini sürətləndirən fermentləri (CYP3A4) aktivləşdirir. Buna görə uzunmüddətli istifadədə yarım ömrü azalır. Karbamazepinin bəzi metabolitləri, xüsusilə Carbamazepine-o-quinone və Iminoquinone, qaraciyər hüceyrələrində oksidləşdirici stress və mitoxondrial disfunksiya yarada bilər. Uzunmüddətli və yüksək dozada istifadə zamanı hepatotoksiklik, nefrotoksiklik və nadir hallarda kardiotoksiklik halları müşahidə olunur.

Klinik müşahidələr göstərir ki, karbamazepin metabolizmi zamanı əmələ gələn reaktiv aralıq birləşmələr qlutatyon ehtiyatlarını azaldır və immun vasitəli qaraciyər zədələnməsi (cədvəl 7) riskini artırır.

Cədvəl 7. Karbamazepinin dərmanının yan təsir ehtimalı [10].

Aktivlik timalı	Aktiv olmama timalı	Yan təsir
0.809	0.058	Hepatotoksiklik

Təkliflər

1. Erkən toksiklik proqnozlaşdırılması:

Yeni dərmanların inkişafı mərhələsində in silico və bioinformatik modellərin geniş tətbiqi tövsiyə olunur. Bu, potensial hepatotoksik, kardiotoksik və nefrotoksik metabolitlərin erkən müəyyən olunmasına imkan verəcək.

2. Metabolitlərin sistematik tədqiqi:

Hər bir yeni dərman üçün yalnız əsas aktiv maddə deyil, həm də onun bütün metabolitlərinin toksikoloji profilinin ətraflı qiymətləndirilməsi tövsiyə olunur.

3. Doza və istifadə müddətinin optimallaşdırılması:

Uzunmüddətli və yüksək doza istifadədə metabolitlərin yığılma riski nəzərə alınaraq doza tənzimləməsi və klinik nəzarət vacibdir.

4. Alternativ dərmanların inkişafı:

Toksik metabolitləri olan dərmanlar üçün daha təhlükəsiz analoq preparatların hazırlanması təşviq edilməlidir.

ƏDƏBIYYAT SIYAHISI:

1. Brunton, L., Hilal-Dandan, R., Knollmann, B. (2018). Goodman & Gilman's: The Pharmacological Basis of Therapeutics. McGraw-Hill Education, 13th edition.
2. Gan TJ. (2010). Diclofenac: an update on its mechanism of action and safety profile. Curr Med Res Opin. Jul;26(7):1715-31. -5
3. Loiodice, S., Nogueira da Costa, A., & Atienzar, F. (2019). Current trends in in silico, in vitro toxicology, and safety biomarkers in early drug development. Drug and chemical toxicology, 42(2), 113-121. -2
4. Marino S.E., Birnbaum A.K., Leppik I.E., Conway J.M., Musib L.C., Brundage R.C., Ramsay R.E., Pennell P.B., White J.R., Gross C.R., Rarick J.O., Mishra U., Cloyd J.C. (2012). Steady-state carbamazepine pharmacokinetics following oral and stable-labeled intravenous administration in epilepsy patients: effects of race and sex. Clin Pharmacol Ther., 91(3), 483-8. -9.
5. Mazieres, B. (2005). Topical ketoprofen patch. Drugs R D., 6(6); 337-44. -7.
6. Moridani, M. and Harirforoosh, S. (2014). Drug development and discovery: challenges and opportunities. Drug Discovery Today, 19, 1679–1681. -3
7. Salgado, R., Oehmen, A., Carvalho, G., Noronha, J. P., & Reis, M. A. M. (2012). Biodegradation of clofibric acid and identification of its metabolites. Journal of Hazardous Materials, 241, 182-189. -6
8. Sandborgh-Englund G, Adolfsson-Erici M, Odham G, Ekstrand J. (2006). Pharmacokinetics of triclosan following oral ingestion in humans. J Toxicol Environ Health A., 69(20), 1861-73. -8

9. Segall, M.D. and Barber, C., 2014. Addressing toxicity risk when designing and selecting compounds in early drug discovery. Drug Discovery Today, 19, 688–693. – 4

10.https://way2drug.com/index.php-cədvəllər proqramı vasitəsilə müəllif tərəfindən hazırlanmışdır.

DOİ: 10.32010/SNLB7104

SÜNİ İNTELLEKTİN KLİNİK MİKROBİOLOGİYADA TƏTBİQİ: DİAQNOSTİKA VƏ PROQNOZLAŞDIRMA

Pəri İsmayıl NAMAZZADƏ
Mingəçevir Dövlət Universiteti
Orcid: 0009-0008-6197-0808
E-mail: kimyabio93@gmail.com

Xülasə: Süni intellektin (SI) klinik mikrobiologiyada tətbiqi son illərdə diaqnostika və proqnozlaşdırma sahəsində yeni imkanlar açmışdır. Ənənəvi mikrobioloji metodlar xəstəlik törədicilərinin identifikasiyası və antibiotikə davamlılığın qiymətləndirilməsində etibarlı nəticə versə də, çox vaxt vaxt aparan və insan faktoruna bağlı yanaşmalar olmuşdur. SI əsaslı alqoritmlər, xüsusilə dərin neyron şəbəkələri (CNN), mikroskopik görüntülərin avtomatik təhlilini təmin edərək nəticələrin dəqiqliyini 70–80%-dən 95–98%-ə qədər yüksəltmiş, laborator proseslərin sürətini isə günlərdən saatlara endirmişdir. MALDI-TOF kütlə spektrometriyası ilə inteqrasiya olunmuş maşın öyrənməsi modelləri antibiotikə həssaslığı proqnozlaşdıraraq ağır infeksiyalarda, o cümlədən sepsis hallarında erkən və düzgün müalicə seçimini asanlaşdırmışdır. Genom və metagenom analizlərində SI-nin istifadəsi antibiotik müqavimət genlərinin aşkarlanmasını və patogenlərin yeni variantlarının müəyyən edilməsini sürətləndirmiş, bu isə qlobal antimikrob müqavimət strategiyalarına töhfə vermişdir. Klinik qərar dəstək sistemləri xəstə məlumatlarını çoxölçülü təhlil etməklə infeksiya gedişatını və mortalitet riskini əvvəlcədən proqnozlaşdırmağa imkan verir. Epidemioloji nəzarət alqoritmləri xəstəxanadaxili yoluxmaların yayılmasını izləməyə və pandemiya risklərini qiymətləndirməyə şərait yaradır. Bununla yanaşı, SI texnologiyalarının tətbiqində məlumat keyfiyyəti, etik prinsiplər, hüquqi məsuliyyət və alqoritmik qərəz kimi problemlər mövcuddur. Gələcəkdə federated learning və multi-omika yanaşmaları məlumat məxfiliyini qoruyaraq daha güclü modellərin inkişafına imkan verəcəkdir. Nəticə olaraq, süni intellekt klinik mikrobiologiyanın diaqnostik və proqnostik imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir və səhiyyə sistemlərinin səmərəliliyinin artırılmasında strateji rol oynayır.
Açar sözlər: Süni intellekt, Klinik mikrobiologiya, Diaqnostika, Proqnozlaşdırma, Antimikrob davamlılıq

APPLICATION OF ARTIFICIAL INTELLIGENCE IN CLINICAL MICROBIOLOGY: DIAGNOSTICS AND PROGNOSIS

Peri Ismayil NAMAZZADEH
Mingachevir State University
ORCID: 0009-0008-6197-0808
E-mail: kimyabio93@gmail.com

Abstract: The application of artificial intelligence (AI) in clinical microbiology has transformed diagnostic and prognostic capabilities, offering rapid, accurate, and resource-efficient solutions. Conventional microbiological methods remain reliable but are time-consuming and heavily dependent on human expertise, leading to delays and potential errors. AI-driven algorithms, especially deep convolutional neural networks (CNNs), automate microscopic image analysis, increasing diagnostic accuracy from 70–80% to 95–98% and reducing turnaround time from several days to hours. Integration of machine learning with MALDI-TOF mass spectrometry enables early prediction of antimicrobial resistance, which is crucial in life-threatening infections such as sepsis. In genomics and metagenomics, AI accelerates the detection of resistance genes and emerging pathogenic variants, supporting global antimicrobial stewardship. Clinical decision support systems (CDSS) synthesize laboratory and patient data to forecast infection progression and mortality risk, while epidemiological AI models track hospital-acquired infections and predict outbreak potential in real time. Nevertheless, key challenges persist, including data quality, model explainability, ethical considerations, legal accountability, and algorithmic bias. Future developments such as federated learning and multi-omics integration promise stronger, privacy-preserving models and more personalized infection management. Overall, AI significantly enhances the diagnostic and predictive capacity of clinical microbiology and plays a strategic role in strengthening healthcare system resilience.
Keywords: Artificial intelligence, Clinical microbiology, Diagnostics, Prognostics, Antimicrobial resistance.

ПРИМЕНЕНИЕ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА В КЛИНИЧЕСКОЙ МИКРОБИОЛОГИИ: ДИАГНОСТИКА И ПРОГНОЗ

Пери Исмаил НАМАЗЗАДЕ
Мингячевирский государственный университет
ORCID NO: 0009-0008-6197-0808
Электронная почта: kimyabio93@gmail.com

Резюме: Применение искусственного интеллекта (ИИ) в клинической микробиологии в последние годы привело к качественным изменениям в диагностике и прогнозировании инфекционных заболеваний. Традиционные методы остаются надежными, но отличаются высокой трудоемкостью и зависят от человеческого фактора, что приводит к задержкам и возможным ошибкам. Алгоритмы ИИ, в частности глубокие нейронные сети (CNN), обеспечивают автоматический анализ микроскопических изображений, повышая точность идентификации возбудителей с 70–80% до 95–98% и сокращая время исследования с нескольких суток до часов. Интеграция машинного обучения с технологией MALDI-TOF позволяет прогнозировать антибиотикорезистентность, что особенно важно при сепсисе и других жизнеугрожающих инфекциях. Использование ИИ в анализе геномных и метагеномных данных ускоряет выявление генов устойчивости и новых патогенных вариантов, способствуя глобальному контролю антимикробной резистентности. Системы поддержки клинических решений объединяют лабораторные и клинические данные для предсказания течения инфекции и риска летального исхода. Эпидемиологические алгоритмы отслеживают внутрибольничное распространение и оценивают вероятность эпидемий в режиме реального времени. Однако сохраняются вызовы — качество данных, объяснимость моделей, этические и правовые вопросы, а также риск алгоритмической предвзятости. Перспективными направлениями являются федеративное обучение и мультиомные интеграции, которые позволят развивать более мощные и безопасные системы ИИ. Таким образом, искусственный интеллект становится ключевым инструментом повышения эффективности и точности клинической микробиологии.
Ключевые слова: Искусственный интеллект, Клиническая микробиология, Диагностика, Прогнозирование, Антимикробная устойчивость

Giriş

Müasir dövrdə səhiyyə sahəsində texnoloji inkişaflar sürətlə gedir və bu inkişafların ən diqqət çəkən istiqamətlərindən biri süni intellektin (SI) tətbiqidir. Tibbin müxtəlif sahələrində — xüsusən də laborator diaqnostika və klinik mikrobiologiyada — süni intellektin inteqrasiyası elmi yeniliklərlə yanaşı praktik səmərəlilik də gətirir.

Ənənəvi mikrobioloji üsullar xəstəlik törədicilərinin müəyyənləşdirilməsində və antibiotikə davamlılığın təyinində etibarlı nəticələr versə də, çox vaxt uzun müddət və yüksək insan əmək resursu tələb edir. Xüsusilə sürətlə

infeksiyaların vaxtında aşkarlanması və düzgün müalicə seçimi üçün bu klassik yanaşmalar bəzən gecikmələrə səbəb olur. Nəticədə müalicənin effektivliyi azalır, xəstəxana resursları artıq yüklənir və ictimai sağlamlıq üçün əlavə risklər yaranır.Son illərdə süni intellekt və maşın öyrənməsi texnologiyalarının inkişafı bu məhdudiyyətləri aradan qaldırmaq üçün yeni imkanlar açmışdır.

Neyron şəbəkələr və dərin öyrənmə metodları laboratoriya görüntülərindən mikroorqanizmlərin tanınmasını avtomatlaşdırmağa, molekulyar analizlərdə böyük həcmdə genetik məlumatı emal

etməyə və antibiotiklərə qarşı davamlılıq profillərini proqnozlaşdırmağa imkan verir. Bu, həm diaqnostikanın sürətini artırır, həm də səhv riskini minimuma endirir. Xüsusilə COVID-19 pandemiyası süni intellektin klinik mikrobiologiyada tətbiqinin nə qədər vacib olduğunu real şəkildə göstərdi — qlobal miqyasda virusun yayılmasının izlənməsi, xəstələrin ağırlaşma risklərinin proqnozu və laborator analizlərin sürətləndirilməsi SI-nin praktiki faydasını sübut etdi.

Mövzunun aktuallığı həm də antibiotikə davamlılığın artması ilə bağlıdır. Dünya Səhiyyə Təşkilatı (DST) 21-ci əsrdə antibiotik rezistentliyini insan sağlamlığı üçün ən ciddi qlobal təhlükələrdən biri kimi qiymətləndirir. Ənənəvi laborator metodların bu problemi vaxtında aşkarlamaqda ləng qalması yeni həll yollarına ehtiyacı artırır. Süni intellekt əsaslı yanaşmalar bakteriyaların genetik xüsusiyyətlərini, klinik göstəriciləri və müalicə nəticələrini analiz edərək həkimlərə daha düzgün və vaxtında qərar verməyə yardımçı olur. Bu, yalnız fərdi pasiyent səviyyəsində deyil, həm də ictimai sağlamlıq miqyasında antibiotikə davamlı infeksiyaların yayılmasının qarşısını almağa imkan verir. Bundan əlavə, səhiyyə sistemlərinin səmərəliliyinin

artırılması və resurslara qənaət baxımından da süni intellektin rolu çox böyükdür. Əmək tutumlu işlərin avtomatlaşdırılması, laborator mütəxəssislərin iş yükünün azaldılması və nəticələrin daha tez əldə olunması səhiyyə xidmətlərinin əlçatanlığını yüksəldir. Xüsusən inkişaf etməkdə olan ölkələrdə laborator resurslarının məhdudluğu şəraitində süni intellekt texnologiyalarının tətbiqi diaqnostikanın keyfiyyətini artırmaq üçün strateji əhəmiyyət kəsb edir.

Beləliklə, süni intellektin klinik mikrobiologiyada tətbiqi yalnız elmi yenilik deyil, həm də qlobal səhiyyə problemlərinə cavab verən mühüm bir istiqamətdir. Bu mövzunun aktuallığı həm infeksion xəstəliklərin idarə olunmasında yeni yanaşmaların zərurəti, həm antibiotik rezistentliyinin artması, həm də səhiyyə sistemlərinin effektivliyə olan ehtiyacı ilə əlaqədardır. Bu araşdırmanın əsas məqsədi süni intellektin klinik mikrobiologiyada diaqnostika və proqnozlaşdırmada rolu, potensial üstünlükləri və tətbiq zamanı üzləşilən çətinlikləri elmi əsaslarla təhlil etməkdir.

Nəzəriyyə

Klinik mikrobiologiya tibbin fundamental sahələrindən biri olaraq, insan orqanizmində xəstəlik törədən mikroorqanizmlərin öyrənilməsi, identifikasiyası, antibiotiklərə qarşı həssaslığının təyini və infeksiyaların yayılmasının nəzarətdə saxlanılması ilə məşğuldur. Uzun müddət bu sahədə əsas yanaşma mədəniyyət üsulları, boyama texnikaları və biokimyəvi testlərə əsaslanmışdır. Bu metodlar etibarlı olsa da, çox vaxt günlərlə, hətta həftələrlə vaxt aparır və nəticələrin düzgünlüyü böyük ölçüdə mütəxəssisin təcrübəsindən asılı olur. Müasir səhiyyənin sürət və dəqiqlik tələbləri fonunda bu məhdudiyyətlər yeni texnologiyaların tətbiqini zəruri etmişdir. Süni intellekt və maşın öyrənməsi məhz bu zərurətdən doğan texnoloji cavabdır [0].

Süni intellektin nəzəri əsasını təşkil edən ilk anlayış insan beyni fəaliyyətinin riyazi modelləşdirilməsi ideyasıdır. 1950-ci illərdə Alan Turing tərəfindən təklif edilən "maşınlar düşünə bilərmi?" sualı sonrakı onilliklərdə kompüter elmlərinin və neyron şəbəkələrinin inkişafına səbəb oldu. Neyron şəbəkələri insan sinir hüceyrələrinin əlaqə prinsipinə əsaslanan hesablama modelləridir və verilənlərdən nümunələr çıxarma, proqnoz vermə qabiliyyətinə malikdir. Bu yanaşma xüsusilə böyük həcmdə, mürəkkəb və çoxölçülü laborator məlumatlarla işləyən klinik mikrobiologiya üçün əlverişlidir.

Maşın öyrənməsi nəzəriyyəsinə əsasən, alqoritmlər verilənlərdən nümunələr və qanunauyğunluqlar çıxarır. Nəzarətli öyrənmə (supervised learning) mikrobioloji nümunələrdən toplanmış etiketli məlumatlara — məsələn, müəyyən bakteriya şəkillərinə və onların növ təsnifatına — əsaslanaraq yeni nümunələri tanımaq üçün model qurur. Nəzarətsiz öyrənmə (unsupervised learning) isə əvvəlcədən etiketlənməmiş məlumatların daxili strukturlarını, oxşarlıq və fərqlərini tapmağa yönəlir; bu yanaşma xüsusən yeni mikroorqanizm növlərinin aşkarlanmasında və ya klinik məlumatların qruplaşdırılmasında faydalıdır. Son illərdə isə dərin öyrənmə (deep learning), xüsusilə konvolyusiya neyron şəbəkələri (CNN), mikroskopik görüntülərin təhlilində inqilabi dəyişikliklər yaradıb. Bu modellər yüksək dəqiqliklə bakterial koloniyaları tanıya, hüceyrə morfologiyasını ayıra və insan baxışının məhdudiyyətlərini aradan qaldıra bilir.

Klinik mikrobiologiyanın diaqnostik praktikasında süni intellektin tətbiqi ilk növbədə vizual informasiyanın avtomatlaşdırılmış analizi ilə başlamışdır. Ənənəvi mikroskopik müayinələrdə laborator mütəxəssisi hüceyrə formasını, boyanma xüsusiyyətlərini və koloniyaların morfologiyasını vizual olaraq qiymətləndirir. Bu yanaşma subyektiv xarakter daşıdığından müxtəlif laboratoriyalarda nəticələr fərqli ola bilər. Dərin öyrənmə modelləri ilə təlim keçmiş görüntü analizi sistemləri eyni şəkil bazasına əsaslanaraq yüksək dəqiqliklə bakterial qrupları tanıyır, hətta təcrübəli mütəxəssislərin də qaçıra biləcəyi nüansları aşkarlaya bilir. Bu texnologiya artıq bir sıra müasir laborator sistemlərdə — məsələn, avtomatlaşdırılmış hemokultura cihazlarında — tətbiq olunmağa başlanıb [0].

Genetik və molekulyar analiz sahəsində süni intellektin nəzəri prinsipləri xüsusilə diqqətə layiqdir. Genom sekvensləşdirmə texnologiyalarının inkişafı ilə hər bir mikroorqanizm üçün nəhəng genetik məlumat toplusu əldə olunur. Lakin bu məlumatların insan tərəfindən əl ilə təhlili qeyri-mümkündür. Maşın öyrənməsi alqoritmləri genetik ardıcıllıqlardakı nümunələri aşkar edə, antibiotik müqavimətinə səbəb olan mutasiyaları müəyyənləşdirə və yeni patogen variantların yaranma ehtimalını proqnozlaşdıra bilir. Bu yanaşma nəzəri baxımdan Bayes ehtimalları, ehtimal paylanmaları və məlumat entropiyası kimi riyazi konsepsiyalara əsaslanır. Bu, mikrobioloji diaqnostikanı klassik "tap və təsdiqlə" yanaşmasından çıxararaq ehtimala əsaslanan qabaqcıl modelləşdirmə mərhələsinə gətirir.

Nəzəri müstəvidə süni intellekt yalnız xəstəliyin mövcud vəziyyətini təsvir etmir, həm də gələcək hadisələri proqnozlaşdırmağa yönəlir. Xəstələrin klinik və laborator məlumatlarının böyük həcmli statistik təhlili vasitəsilə infeksiyanın gedişatı, ağırlaşma ehtimalı

və müalicəyə cavab qabiliyyəti proqnozlaşdırıla bilər. Bu, səhiyyədə proqnostik modelləşdirmə anlayışına əsaslanır və xəstə təhlükəsizliyini artırmaqla yanaşı, xəstəxana resurslarının planlaşdırılmasına imkan verir. Xüsusilə sepsis, çox dərmana davamlı bakterial infeksiyalar və virus mənşəli xəstəliklərdə proqnostik SI modelləri müalicə strategiyalarını erkən mərhələdə optimallaşdırmağa şərait yaradır.

Digər nəzəri əsas verilənlərin inteqrasiyası və çoxölçülü analiz prinsipidir. Klinik mikrobiologiya təkcə laborator nəticələrlə məhdudlaşmır; pasiyentin yaşı, cinsi, yanaşı xəstəlikləri, immunoloji vəziyyəti və hətta sosial-demografik məlumatlar infeksiya riskini formalaşdırır. Süni intellekt modelləri bu çoxsaylı və heterogen məlumat mənbələrini eyni anda təhlil edə bilir. Bu, ənənəvi statistik modellərdən fərqli olaraq, mürəkkəb əlaqələri və xətti olmayan asılılıqları aşkar etməyə imkan verir.

Eyni zamanda, nəzəri baxımdan süni intellektin istifadəsində bəzi məhdudiyyətlər və risklər mövcuddur. Overfitting fenomeni — modelin yalnız təlim verilənlərinə uyğunlaşaraq real vəziyyətlərdə zəif nəticə göstərməsi — ən mühüm problemlərdəndir. Bu, məlumatların keyfiyyətsiz seçilməsi və balanssız paylanması ilə bağlıdır. Digər bir məsələ isə "qara qutu" problemidir; yəni modelin hansı əsasla qərar verdiyini izah etməməsi. Son illərdə izah edilə bilən süni intellekt (Explainable AI) nəzəriyyəsi məhz bu problemi həll etməyə yönəlmişdir. Bu yanaşma modelin qərar prosesini insan üçün daha anlaşılan hala gətirir, beləliklə klinik qərarların qəbulunda etibar artır.

Məxfilik və etik prinsiplər də nəzəri çərçivədə mühüm yer tutur. Pasiyent məlumatlarının qorunması, məlumat mübadiləsi və hüquqi məsuliyyət məsələləri hələ də tənzimlənməkdədir. Süni intellekt modellərinin təlimi üçün real klinik məlumatlar lazımdır, lakin bu məlumatların paylaşılması məxfilik riskləri yaradır. Federated learning yanaşması nəzəri baxımdan bu problemi həll etməyə çalışır: məlumatlar lokal serverlərdə qalır, yalnız modelin öyrəndiyi nümunələr paylaşılır və beləliklə xəstə məlumatları mərkəzləşdirilmədən istifadə olunur. Nəzəri baxımdan SI-nin inkişafı həm də biostatistika və riyazi modelləşdirmənin dərinləşməsinə bağlıdır. Parametrik və qeyri-parametrik modellər, ehtimala əsaslanan yanaşmalar, ROC əyriləri, spesifiklik və həssaslıq kimi göstəricilər bu sahədə diaqnostik modellərin keyfiyyətini ölçmək üçün istifadə olunur. Bu göstəricilər klinik praktikada tətbiq ediləcək SI alətlərinin etibarlılığını və klinik faydasını qiymətləndirməkdə mühüm əhəmiyyət kəsb edir.

Bütün bu nəzəri əsaslar göstərir ki, süni intellekt klinik mikrobiologiyada yalnız texnoloji yenilik deyil, həm də tibbi elmlərin fəlsəfi və metodoloji baxışını dəyişdirən bir konsepsiyadır. Ənənəvi yanaşmaların sərhədlərini aşaraq məlumat əsaslı qərarvermə mədəniyyətini formalaşdırır, laboratoriyaları rəqəmsal transformasiyaya aparır və səhiyyənin gələcək inkişaf istiqamətinə uyğun yeni paradiqmalar yaradır [0].

Metod

Klinik mikrobiologiyada süni intellektin praktiki tətbiqləri artıq nəzəriyyə səviyyəsini keçərək real xəstəxanalar və laboratoriyalarda istifadə olunur. Bu tətbiqlərin əsas məqsədi diaqnostika prosesini daha sürətli, dəqiq və resurs baxımından qənaətli etməkdir. Ənənəvi yanaşmalarda bakteriyaların identifikasiyası və antibiotikə davamlılığın müəyyənləşdirilməsi 2–7 gün çəkə bilərdi, halbuki süni intellektin tətbiqi bu prosesi saatlara endirə bilir. Bu dəyişiklik klinik qərarların vaxtında verilməsinə, infeksiyanın ağırlaşma riskinin azalmasına və xəstənin həyatının xilas olunmasına birbaşa təsir göstərir. Ən çox istifadə edilən istiqamətlərdən biri mikroskopik görüntülərin avtomatik təhlilidir. Əvvəllər laborator mütəxəssisi qram boyalı preparatları mikroskop altında qiymətləndirir, hüceyrə forması, boyanma xüsusiyyəti və koloni morfologiyasına əsasən nəticə çıxarırdı. Bu yanaşma həm subyektiv idi, həm də çox vaxt aparırdı. Süni intellekt, xüsusilə dərin öyrənmə (CNN) texnologiyaları, minlərlə görüntünü saniyələr içində analiz edərək insan səhvlərini azaldır. Məsələn, bəzi kommersiya məhsulları laboratoriyada əl işinin 50–60%-ni avtomatlaşdıraraq iş yükünü kəskin azaldır. ABŞ və Avropada artıq qram boyama nəticələrinin avtomatik analizi üçün "Aiforia" və "Cellavision" kimi platformalar real klinik praktikaya daxil olub. Müxtəlif tədqiqatlar göstərir ki, bu alqoritmlərin dəqiqliyi 95–98%-ə çata bilir, ənənəvi vizual baxışda isə bu rəqəm təxminən 75–80% təşkil edir. MALDI-TOF MS ilə antibiotikə davamlılıq proqnozu süni intellektin praktiki tətbiqlərinin ən mühüm nailiyyətlərindəndir. MALDI-TOF texnologiyası bakteriyaların növünü saniyələr içində təyin edir, lakin antibiotikə həssaslıq ənənəvi üsullarla test olunanda əlavə vaxt tələb edirdi. Süni intellekt modelləri MALDI-TOF spektrlərindən öyrənərək antibiotik müqavimətini proqnozlaşdırmağa başlayıb. Son tədqiqatlara görə, bu yanaşma fenotipik testlərlə müqayisədə nəticəni 24–72 saat tez verir və təxmin dəqiqliyi 92–97% aralığında dəyişir. Bu, xüsusilə sepsis kimi həyati təhlükəli hallarda vaxtında düzgün antibiotik seçimi üçün böyük üstünlükdür. Genomik və metagenomik analizlərdə də SI mühüm irəliləyişlərə

səbəb olub. Genom sekvensləşdirmə texnologiyaları artıq mikroorqanizmlərin tam genetik xəritəsini çıxarmağa imkan verir, lakin bu məlumatın insan tərəfindən əl ilə təhlili qeyri-mümkündür. Süni intellekt genetik ardıcıllıqlardakı mutasiyaları aşkar edə, antibiotikə davamlılıq genlərini müəyyənləşdirə və yeni patogen variantların yaranma ehtimalını proqnozlaşdıra bilir. Son nəsil metagenom analiz platformaları qarışıq nümunələrdə mikroorqanizmləri 24 saat ərzində aşkar etməklə klassik mədəniyyət üsullarından 2–3 gün daha sürətlidir. Məsələn, sepsis zamanı xəstədən götürülən qan nümunəsində patogen mikrobu bir neçə saat ərzində müəyyən etmək müalicə strategiyasına dərhal təsir göstərir.

Klinik qərar dəstək sistemləri (Clinical Decision Support Systems — CDSS) laborator nəticələri real vaxtda təhlil edərək həkimə xəstənin vəziyyəti barədə proqnoz verir. Bu sistemlər, məsələn, sepsis üçün erkən xəbərdarlıq alqoritmləri, xəstənin yaş, laborator göstəricilər və immun vəziyyətinə əsasən mortalitet riskini qiymətləndirir. COVID-19 pandemiyası dövründə bu yanaşma çox uğurla istifadə olundu: laborator analizlər, görüntü məlumatları və klinik əlamətlər SI modellərinə daxil edilərək xəstələrin ağırlaşma ehtimalı əvvəlcədən proqnozlaşdırıldı və həkimlərə vaxtında qərar dəstəyi verildi.


Epidemioloji nəzarət və yayılma modelləri də süni intellektin əhatə etdiyi mühüm praktiki sahələrdəndir. Xəstəxana daxilində infeksiya zəncirlərinin izlənməsi, potensial epidemiyaların proqnozu və infeksiya mənbələrinin aşkarlanması artıq avtomatlaşdırılmış SI platformaları ilə mümkün olur. Bu yanaşma xüsusən antibiotikə davamlı bakteriyaların (MRSA, VRE və s.) yayılmasının qarşısını almaq üçün vacibdir. Qlobal miqyasda isə COVID-19, Ebola və digər virusların yayılma dinamikası real vaxt analizlərlə izlənmişdir. Süni intellekt modelləri virusun mutasiya ehtimallarını belə öncədən proqnozlaşdıraraq vaksin strategiyalarına yön verir.

Cədvəl 1. Süni intellekt tətbiqlərinin effektivlik göstəriciləri

Tətbiq sahəsi	Ənənəvi metod dəqiqliyi	SI əsaslı yanaşma dəqiqliyi	Zaman qənaəti
Mikroskopik identifikasiya	70–80%	90–98%	2–3 gün → bir neçə saat
MALDI-TOF antibiotik proqnozu	75–85%	92–97%	1–3 gün → 15–30 dəq
Metagenomik analiz	65–75%	90–95%	3–5 gün → 24 saat
Sepsis proqnozu	68–75%	90–96%	Erkən xəbərdarlıq +48s
Epidemioloji nəzarət	Çox məhdud	Yüksək dəqiqlik, real vaxt	Günlər → real vaxt


Nərimanov rayonunda layihələndirilən hündürmərtəbəli binaların tikintisi zamanı aparılmış mühəndisi-geoloji və mühəndisi-seysmoloji tədqiqatlar-böyük məlumat bazası yaratmaq imkanı vermişdir ki, bu məlumatlar əsasında 200-ə yaxın tikinti sahəsi və 1619-ə yaxın quyu məlumatları analiz olunmuşdur. Bu ərazilərin mühəndisi-geoloji şəraiti araşdırılaşdırılıb, əldə olunan məlumatlar ümumiləşdirilib, rayon üçün ayrı-ayrılıqda tikinti sahələrində seysmik təhlükəyə təsir edən amillərin-qruntların litologiyası, onların fiziki-mexaniki xüsusiyyətləri, su səviyyələri və geniş yayılmış qruntlar müəyyənləşdirilmişdir. Müəyyən edilmisdir ki, Nərimanov rayonunda geniş yayılmış qruntlar qum qruntu, az nəmli və yarımbərk gil qruntudur. Sular da əsasən yarımbərk gil, əhəngdaşı və xırda dənəli qum qruntunda formalaşıb.

Açar sözlər: tikinti sahəsi, seysmiklik, mühəndisi-geoloji tədqiqat, seysmik təhlükə, fiziki-mexaniki xüsusiyyət

---

FACTORS FACILITATING THE CONDUCT OF ENGINEERING-GEOLOGICAL INVESTIGATIONS IN THE NARIMANOV DISTRICT

Ilhama Nadir JALILOVA
BSU/RSSC of the ANAS
Orcıd 0009-0005-7650-6264
E-mail: ilhame.celilova.91@mail.ru

Abstract: Since Azerbaijan is located in a seismically active zone, it is essential to consider seismic hazard when carrying out urban planning, land use, emergency response activities, and especially in the design of newly constructed buildings throughout the country. The increasing population density in Baku also raises the demand for new building construction. Therefore, studying the seismicity of the area and assessing its impact on seismic hazard is of great importance.

The assessment of seismic hazard levels is closely related to strong earthquakes — that is, for each region, the earthquakes with the highest magnitudes that have occurred should be selected, and the tectonic setting, geological structure, lithological composition, seismological, and hydrogeological conditions of each construction site should be thoroughly investigated. Accurate information about the soil where buildings and structures are located must be obtained.

The analysis of historical and modern macroseismic and instrumental data on earthquakes that have occurred in Azerbaijan shows that, including the city of Baku and the Absheron Peninsula, no earthquakes with an intensity higher than VII on the MSK-64 scale have been recorded to date.

One of the main factors affecting the level of seismic hazard is the engineering-geological conditions of the construction site. It should be noted that engineering-geological conditions and hydrogeology are closely interconnected and mutually influence each other. Groundwater plays a significant role in altering the properties of rocks. Both through their movement and the characteristics of their chemical composition, groundwater affects the physical and mechanical properties of rocks. As groundwater moves, it enters the rock pores and forms cavities, which increases the porosity and permeability of the rock, reduces its resistance to external impacts, and ultimately decreases its water resistance.

Engineering-geological and engineering-seismological investigations carried out during the planning of high-rise buildings in the Narimanov district have made it possible to create a large database. Based on this data, around 200 construction sites and nearly 1,619 borehole records have been analyzed. The engineering-geological conditions of these areas have been studied, the obtained data summarized, and for the district, the factors affecting seismic hazard at individual construction sites — such as soil lithology, their physical and mechanical properties, groundwater levels, and widespread soil types — have been identified.

It was determined that the most widespread soils in the Narimanov district are sandy soils, slightly moist and semi-solid clay soils. Groundwater mainly forms in semi-solid clay, limestone, and fine-grained sandy soils.

Keywords: construction site, seismicity, engineering-geological investigation, seismic hazard, physical-mechanical properties

ФАКТОРЫ, СПОСОБСТВУЮЩИЕ ПРОВЕДЕНИЮ ИНЖЕНЕРНО-ГЕОЛОГИЧЕСКИХ ИССЛЕДОВАНИЙ В НАРИМАНОВСКОМ РАЙОНЕ

Ильхама Надир ДЖАЛИЛОВА
БГУ / Республиканский Сейсмологический Центр при НАНА
Orcıd 0009-0005-7650-6264
Электронная почта: ilhame.celilova.91@mail.ru

Резюме: Поскольку Азербайджан расположен в сейсмически активной зоне, при проведении градостроительных работ, использовании земельных участков, планировании мероприятий по чрезвычайным ситуациям, а особенно при проектировании строящихся зданий, учёт сейсмической опасности является актуальной задачей. Рост плотности населения в городе Баку также увеличивает потребность в строительстве зданий. В этом контексте изучение сейсмичности территории и оценка влияния сейсмической опасности являются крайне необходимыми. Оценка уровня сейсмической опасности связана с сильными землетрясениями, то есть в каждом регионе должны быть выбраны землетрясения с максимальной магнитудой, произошедшие ранее. Необходимо тщательно исследовать тектонические условия, геологическое строение, литологический состав, сейсмологическую и гидрогеологическую обстановку каждой строительной площадки. Следует получить точную информацию о грунте, на котором расположены здания и сооружения.

Анализ исторических и современных, макросейсмических и инструментальных данных о землетрясениях, произошедших на территории Азербайджана, показывает, что на Апшеронском полуострове, включая город Баку, до настоящего времени не зарегистрировано землетрясений с интенсивностью выше VII баллов по шкале MSK-64.

Одним из основных факторов, влияющих на уровень сейсмической опасности, являются инженерно-геологические условия строительного участка. Следует отметить, что инженерно-геологические условия и гидрогеология находятся во взаимосвязи и оказывают взаимное влияние друг на друга. Подземные воды играют значительную роль в изменении свойств горных пород: как за счёт движения, так и за счёт особенностей их химического состава, они воздействуют на породы, изменяя их физико-механические свойства. В процессе движения подземные воды проникают в поры пород, создавая в них пустоты, что приводит к увеличению пористости и водопроницаемости, снижению устойчивости пород к внешним воздействиям и, как следствие, к снижению водостойкости.

Инженерно-геологические и инженерно-сейсмологические исследования, проведённые при проектировании высотных зданий в Нариманoвском районе, позволили создать обширную базу данных. На основе этих данных было проанализировано около 200 строительных участков и примерно 1619 скважин. Инженерно-геологические условия этих территорий были изучены, полученные данные обобщены, и для района в целом были определены факторы, влияющие на сейсмическую опасность на отдельных строительных участках — литология грунтов, их физико-механические свойства, уровни грунтовых вод и распространённые типы грунтов.

Установлено, что в Нариманoвском районе широко распространены песчаные грунты, слабовлажные и полутвёрдые глинистые грунты. Подземные воды в основном формируются в полутвёрдой глине, известняке и мелкозернистых песчаных грунтах.

Ключевые слова: строительная площадка, сейсмичность, инженерно-геологическое исследование, сейсмическая опасность, физико-механические свойства

Giriş


Azərbaycan ərazisi yüksək seysmik intensivliklə xarakterizə olunur. Məlumdur ki, güclü zəlzələlər baş verdikdən sonra ikinci dərəcəli təbii və texnogen təhlükələr, uçqunlar, torpaq sürüşmələri, çökmələr, qruntların sıyıqlaşması ilə və s. hadisələr baş verə bilər. Bununla əlaqədar olaraq tikinti aparılan sahələrdə seysmik təhlükənin qiymətləndirilməsi zamanı qruntların fiziki-mexaniki xüsusiyyələrinin və digər mühəndisi-geofiziki seysmik amillərin göstəricilərinin araşdırılması əhəmiyyət kəsb edir. Mühəndisi-geoloji tədqiqatlar aparılan zaman süxurların bəzi xassələri haqqında məlumatlardan konsistensiya (J_L), sıxlıq (ρ_o, ρ_d) və s. parametrlərdən istifadə olunur və hesablamalar aparılır. Seysmik təhlükənin qiymətləndirilməsi üçün mühüm parametrlərdən biri də qrunt laylarında uzununa (V_p) və eninə (V_s) seysmik dalğaların yayılma sürətlərini təyin etməkdir.

Azərbaycanda potensial ocaq zonalarının məkan vəziyyətinin müəyyənləşdirilməsi məqsədilə güclü zəlzələlərin məkan üzrə (həm lateral, həm də vertikal) yayılması qanunauyğunluqları və onların iri dərinlik qırılmaları ilə əlaqələri araşdırılmışdır (Маммадли, 2011). Məlum olmuşdur ki, Abşeron yarımadası, o cümlədən Bakı şəhərinin yerləşdiyi ərazi üçün ən böyük seysmik təhlükə yüksək aktivlikli Acıçay-Ələt, Palmir-Abşeron, Göyçay, Vandam, Siyəzən və Mahaçqala-Türkmənbaşı dərinlik qırılmalarında yerləşən potensial ocaq zonalarından gözlənilir.

Tikinti sahələrində həyata keçirilən hər bir mühəndisi fəaliyyət zamanı ərazinin mühəndisi-cəhətdən qiymətləndirilməsi, ilkin olaraq geoloji-şəraitlə təyin olunur ki, müxtəlif fəaliyyətin həyata keçirilməsi zamanı praktikada qrunt şəraiti ilə əlaqədar müəyyən problemlər meydana çıxır. Buna misal olaraq, dayanıqsız strukturalı, yəni su ilə qarşılıqlı təsirdə strukturunu dəyişən qruntlar üzərində binaların tikilməsi zamanı qruntlarda, tikinti əsasında müxtəlif təbiətli (şişmə və çökmə) deformasiyaların yaranmasının qarşısını almaq məqsədilə, binaların qrunt şəraitinin tikintidən əvvəl yaxşılaşdırılması, ya da həmin tikintinin geoloji mühitdə yerləşmə vəziyyətinin başqa münasib sahəyə dəyişdirilməsi zərurəti yaranır. (Q.S.Məmmədov, A.J.Həşimov,Ə.Ə.Verdiyev, E.A. Məmmədova Mühəndis geologiyasının əsasları. Bakı-"Elm" 2012).

Bu məlumatlar əsasında Böyük Bakı ərazisinə daxil olan hər bir rayon üçün seysmik təhlükənin qiymətləndirilməsi və seysmik mikrorayonlaşdırma işləri vacib məsələlərdən biridir.

Bakı şəhəri bir neçə inzibati rayonlara bölünüb (Nəsimi, Nizami, Yasamal, Nərimanov, Səbail, Xətai, Binəqədi, Qaradağ, Abşeron, Suraxanı, Xəzər, Sabunçu) (Şəkil 1). Bu rayonlarda geoloji-litoloji şərait müxtəlifdir.




Şəkil 1. Bakı ərazisinin 12 rayonu

Məqalədə verilmiş tədqiqat sahəsi kimi Nərimanov rayonu seçilmişdir.

Nərimanov rayonu Bakı şəhərinin mərkəzi rayonlarından biridir. Rayon Nəsimi, Xətai, Nizami, Binəqədi və Sabunçu rayonları ilə həmsərhəddir. Rayonun ərazisi 20,17 km², əhalisi 179800 nəfərdir. Məlumatların ümumiləşdirilməsi üçün Nərimanov rayonunda 200-ə yaxın tikinti sahələrinin mühəndisi geoloji şəraiti araşdırılıb (AMEA nəzdində RSXM-nın fondu. Mühəndisi-geoloji hesabatlar, 2003-2024)

Nərimanov rayonu ərazisində hər bir tikinti sahəsinin koordinatı ArcGis proqramında xəritə üzərində yerləşdirilmişdir (şəkil 2).



Şəkil 2. Nərimanov rayonu ərazisində tikinti sahələrinin xəritə-sxemi (1998-2025-ci illər)

- Tikinti sahələri

Tikinti sahələrində toplanmış mühəndisi-geoloji və mühəndisi-seysmoloji məlumatlara əsaslanaraq, bu əraziləri təşkil edən qruntların fiziki-mexaniki xüsusiyyətləri, hidrogeoloji şəraiti və ərazidə geniş yayılmış qruntlar müəyyənləşdirilmişdir.

Geoloji mühitdə müxtəlif mühəndisi fəaliyyətin həyata keçirilməsi zamanı həlli vacib olan əsas məsələlərin xarakterinə uyğun olaraq süxurların xassə göstəricilərindən istifadə olunur. Bunlara süxurların sıxlıq, məsaməlilik, nəmlik, plastiklik göstəricilərini və s. göstərmək olar. Mühəndisi-geologiyada müxtəlif məqsədlərə görə süxurların təsnifatını vermək və yaxud tikinti materialları və əsaslarını təşkil edən süxurları qiymətləndirmək üçün onların fiziki-mexaniki xassələrini öyrənmək lazımdır (Pənahi Ş.A., Kərimov V.M., Tağıyev A.Ş., Süxurların mühəndisi-geoloji xüsusiyyətləri, Bakı-2018).

Nərimanov rayonunda geniş yayılmış qruntlar qum qruntu, az nəmli və yarımbərk gil qruntudur.

Qum qruntu, sulu qalınlığı 4,50-14,0 m arasında dəyişir və əsas parametrləri aşağıda göstərilir:

e= 0,610-0,860

ρ_d= 1,40-1,70 q/sm^3

V_s = 350-600 m/san.

Gil qruntu, yarımbərk konsistensiyalı, qalınlığı 4,50-24,0 m-dir.

e = 0,650-0,860

J_L=0-0,30

ρ_d= 1,50- 1,65 q/sm^3

V_s = 400-600 m/san.

Nərimanov rayonunda qrunt suları müxtəlif dərinliklərdə rast gəlinir. Mühəndis geologiyasında qrunt təbəqəsində olan su, qruntların möhkəmliyinə və tikililərin əsasında onların özlərini necə aparmasına, bir sözlə mühəndisi-geoloji şəraitə təsir edən amil kimi öyrənilir. Bu baxımdan qruntlarda olan suyun hər dəyişmələri və vəziyyətləri maraq kəsb edir.(Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Bina və qurğuların qrunt əsasları. Layihələndirmə Normaları. 2015)

Hidrogeoloji şəraitin qruntlara təsirini müəyyənləşdirmək məqsədilə Nərimanov rayonunda layihələndirilən tikinti sahələrində quyu kəsilişlərinə nəzər saldıqda, suyun rast gəlmə səviyyəsi 0,20-21,20 m, qərarlaşma səviyyəsi isə 2,0-14,0 m-dir.

Su əsasən yarımbərk gil, əhəngdaşı və xırda dənəli qum qruntunda formalaşıb.

Fond matreriallarına əsaslanaraq, Nərimanov rayonunun tikinti sahələrində ümumiyyətlə 1619-ə yaxın qazılmış quyularda tədqiqat işləri aparılmışdır. Quyuların dərinliyi müxtəlifdir (min 6, 0 max 60 m arasında dəyişir təşkil edir). (Cədvəl 1.)

Cədvəl 1.


Nərimanov rayonu üzrə inşa olunan tikinti sahələrinin məlumatları

Sıra №	**189 hesabat**		
	Su səviyyəsi	**Rast gəlmə (m)**	0,20-21,20


		Qərarlaşma (m)	2,0-14,0		
	Quyu sayı	1619 ədəd			
	Quyu dərinliyi	min	8,0m		
		max	60,0m		
Binalar (mərtəbə sayı)					
1.	1 mərtəbəli	2 ədəd	**25.**	Tibbi məntəqə	4 ədəd
2.	2 mərtəbə	7 ədəd	**26.**	Xokkey tikinti	1 ədəd
3.	3 mərtəbəli	2 ədəd	**27.**	Anbar və market	1 ədəd
4.	4 mərtəbəli	5 ədəd	**28.**	Ofis ve ticaret	12 ədəd
5.	5 mərtəbəli	6 ədəd	**29.**	Tunel	1ədəd
6.	6 mərtəbəli	2 ədəd	**30.**	İnzibati bina	4 ədəd
7.	7 mərtəbəli	8 ədəd	**31.**	İş mərkəzi	1 ədəd
8.	8 mərtəbəli	1 ədəd	**32.**	Fərdi yaşayış binası	1 ədəd
9.	9 mərtəbəli	4 ədəd	**33.**	Lisey	1 ədəd
10.	10 mərtəbəli	4 ədəd	**34.**	Hərbi prokrorluq	1 ədəd
11.	12 mərtəbəli	16 ədəd	**35.**	Məhkəmə binası	1ədəd
12.	13 mərtəbəli	7 ədəd	**36.**	Məişət xidməti	5 ədəd
13.	14 mərtəbəli	11 ədəd	**37.**	Yaşayış kompleksi	1 ədəd
14.	15 mərtəbəli	6 ədəd	**38.**	Piyada keçidi	1 ədəd
15.	16 mərtəbəli	27 ədəd	**39.**	Heydər Əliyev Mərkəzi	1 ədəd
16.	17 mərtəbəli	5 ədəd	**40.**	Mehmanxana	1 ədəd
17.	18 mərtəbəli	8 ədəd	**41.**	Biznes mərkəzi	2 ədəd
18.	20 mərtəbəli	1 ədəd	**42.**	Avtosalon	1 ədəd
19.	22 mərtəbəli	1 ədəd	**43.**	xokkey tikinti kompleksi	1 ədəd
20.	Avtobus yolu	2 ədəd			
21.	Çox mərtəbəli	48 ədəd			
22.	Tədris korpusu	3 ədəd			
23.	İdman zalı	2 ədəd			
24.	Yol qovşagi	5 ədəd			

Nərimanov rayonu, İslam Abışov küçəsində, (şəkil 3) yerləşən tikinti sahəsinin geoloji-litoloji kəsilişindən nümunə göstərilmişdir.

Quyunun geoloji-litoloji kəsilişi



Şəkil 3. Nərimanov rayonu, İslam Abışov küçəsi, 460



Tikinti zamanı süxurun əsas fiziki və mexaniki xassə göstəricilərini dəyişən digər amil-hidrogeoloji və geomorfoloji şəraitdir. Geoloji proseslərin inkişafından yarana biləcək təhlükə və risklərin qiymətləndirilməsi problemi çox aktualdır. İstənilən mühəndisi fəaliyyət geoloji mühitə öz təsirini göstərərək, bu mühitdə müvafiq dəyişikliklər yaradır, geoloji mühitlə həyata keçirilən tikintinin uzunömürlü olmasını təmin edir və mühəndisi geologiyanın əsas məsələsi olaraq, mühəndisi-geoloji fəaliyyətdən asılı olaraq dəyişir.

Mühəndisi-geoloji şərait dedikdə ərazinin geomorfoloji, hidrogeoloji şəraiti, tikinti sahələrində qruntların litologiyası və mexaniki xüsusiyyətləri nəzərdə tutulur. Seysmik effektin artımına bir çox amillər, xüsusilə litoloji tərkib, layların qalınlığı, onların fiziki-mexaniki xüsusiyyətləri və zəlzələ ocağının yaxınlığı amilləri güclü təsir edir.

Tikinti sahələrində bünövrəni təşkil edən qruntların yükgötürmə qabiliyyətini təyin etmək üçün süxurların mühəndisi-geoloji xüsusiyyətləri araşdırılmalıdır.


Süxurların mühəndisi-geoloji xüsusiyyətlərinin düzgün qiymətləndirilməsi ilə süxurların fiziki-mexaniki xassələrinin dəqiq sürətdə təyin edilməsini tələb edir, yəni tikinti sahələrinin geomorfoloji şəraiti haqqında məlumatlar, həmin ərazidə yayılmış qruntların fiziki-mexaniki parametrləri (sıxlığı (ρ_d), plastikliyi ($İ_P$), konsistensiyası ($İ_L$), deformasiya modulu (E), xüsusi çəkisi (ρ_s), məsaməliyi (e)) və ayrı-ayrı qrunt laylarında eninə və uzununa dalğa sürətləri (V_s və V_p) və s. dəqiq öyrənilməlidir.

Qeyd etmək lazımdır ki, mühəndisi-geoloji şərait və hidrogeologiya bir-biri ilə təmasdadır və bir-birinə qarşılıqlı təsir edir. Süxurların xassələrinin dəyişməsində yeraltı suların rolu böyükdür və onlar istər hərəkətləri, istərsə də, kimyəvi tərkiblərinin xüsusiyyətlərinə görə süxurlara təsir göstərərək, onların fiziki-mexaniki xassələrini dəyişirlər. Yeraltı sular hərəkətləri zamanı süxur məsamələrinə daxil olaraq, orada boşluqlar əmələ gətirir, bu da süxurun məsaməlik, sukeçiricilik xüsusiyyətlərinin artmasına, xarici təsirlərə qarşı süxurun müqavimətinin azalmasına səbəb olur və nəticədə suyadavamlılıq azalır.

Geoloji mühitdə həyata keçirilən istənilən mühəndisi fəaliyyət geoloji mühitə təsirini göstərir və bu mühitdə müvafiq dəyişikliklər yaradır.Ona görə də, həyata keçirilən həmin mühəndisi işlər ilə əlaqədar geoloji mühitdə baş verən dəyişikliklərin öyrənilməsi, geoloji mühitdən səmərəli istifadə edilməsi və onun qorunub saxlanılması üzrə problemlərin həlli zərurətə çevrilmişdir.

Nərimanov rayonunun tikinti sahələrində geoloji kəsilişlərdə iştirak edən qruntlarda eninə (V_s) seysmik dalğaların yayılma sürəti və onların hansı sinfə aid olması müəyyənləşdirilib.

Bu məsələləri yerinə yetirmək üçün ilkin olaraq tədqiqat sahəsinə və ətraf əraziyə aid olan fond materialları toplanmış, öyrənilmiş və ümumiləşdirilərək nəticələr çıxarılmışdır. Aparılmış seysmik tədqiqatların nəticələrinə görə Nərimanov rayonunda qazılmış quyularda tikinti işlərinə mənfi təsir edəcək qruntlar müəyyən edilməmişdir və bu qruntlar tikinti sahələrində seysmik mikrorayonlaşdırma üçün tövsiyələrə tam uyğundur. (Şəkil 3, 4,5)




Şəkil 3. Nərimanov rayonu, Heydər Əliyev prospektində seysmik profil üzrə eninə dalğa sürətinin 2 ölçülü kəsilişi

Sahədə qruntların seysmik xüsusiyyətlərinə görə sinfinin müəyyənləşdirilməsi məqsədilə 30 m dərinliyə qədər orta eninə dalğa sürəti parametri hesablanmışdır. Orta eninə dalğa sürəti parametri aşağıdakı düstur ilə hesablanır:

burada, h_i və V_i -30 m dərinliyə qədər "i" qat qrunt laylarının qalınlıqları və onlara müvafiq eninə dalğa sürətləridir. Hesablama əsasında alırıq:


$$V_{s30} = \frac{30}{\sum_{i=1,N} \frac{h_i}{V_i}}$$

V_{s30}= 400 m/s.



Şəkil 4. Nərimanov rayonu, K.Kazımzadə-27 ünvanında seysmik profil üzrə eninə dalğanın 2 ölçülü sürət kəsilişi

Alırıq, V_{s30}= 340 m/s.



Şəkil 5. Nərimanov rayonu, Qarabağ küçəsində seysmik profil üzrə eninə dalğanın 2 ölçülü sürət kəsilişi

Alırıq, V_{s30}= 380 m/s.

AzDTN 2.3-1-əsasən deyə bilərik ki, Nərimanov rayonu ərazisini təşkil edən qruntlar seysmik xüsusiyyətlərinə görə II və III sinfə aiddirlər. (AzDTN 2.3-1. Azərbaycan Respublikasının Dövlət Tikinti Normaları. 2011)

Nəticələr

1. Nərimanov rayonunun mühəndisi-geoloji və hidrogeoloji şəraiti, tikinti sahələrini təşkil edən qruntların fiziki-mexaniki xüsusiyyətləri müəyyən olunmuşdur.
2. Nərimanov rayonu üçün etalon qrunt- qum qruntu, az nəmli və yarımbərk gil qruntudur. Hər iki qrunt AzDTN 2.3-1-ə "Seysmik rayonlarda tikinti" normativ sənədinə uyğundur.
3. Nərimanov rayonu ərazisində tikinti sahələrinin əksəriyyətində hidrogeoloji şəraitin tikililərə təsiri cüzidir.

4. AzDTN 2.3-1-əsasən Nərimanov rayonu ərazisini təşkil edən qruntların seysmik xüsusiyyətlərinə görə II və III sinfə aid olması müəyyən olunmuşdur.

Təklif

Qruntlar tikinti sahələrində bünövrə (özül çalası) vəzifəsini icra edirlər. Ona görə də mühəndisi-geoloji tədqiq zamanı ilk növbədə qruntların fiziki-mexaniki xüsusiyyətlərinin məkan üzrə fərqliliyinin qanunauyğunluqları müəyyənləşdirilməlidir.

Əgər, tikinti sahələrində bütün fiziki-mexaniki xassələrinə və seysmiki davamlılığına (yük götürmə qabiliyyətinə) görə zəif qruntlar (texnogen qruntlar, tökmə torpaq, lilli, su ilə doymuş, axıcı vəziyyətdə olan qruntlar) qazılıb çıxarılarsa və onların yeri sıxlaşdırılmış qruntlarla doldurularsa və eyni zamanda binaların bünövrəsinə təsir edə bilən (atmosfer çöküntüləri, məişət və çirkab sulardan qidalanan) qrunt sularının binaların özülünə axmasının qarşısı məlum tədbir üsuları ilə (məsələn drenaj, svay) alınarsa, tikinti sahələrinin seysmikliyi 8 bal ola bilər.

ƏDƏBİYYAT SİYAHISI:

1. AMEA nəzdində RSXM-nın fondu. Mühəndisi-geoloji hesabatlar (2003-2024)
2. Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Bina və qurğuların qrunt əsasları. Layihələndirmə Normaları. 2015
3. AzDTN 2.3-1. Azərbaycan Respublikasının Dövlət Tikinti Normaları. 2011
4. 4.Q.S.Məmmədov, A.J.Həşimov,Ə.Ə.Verdiyev, E.A. Məmmədova Mühəndis geologiyasının əsasları. Bakı-“Elm” 2012.
5. Маммадли, 2011
6. Pənahi Ş.A., Kərimov V.M., Tağıyev A.Ş., Süxurların mühəndisi-geoloji xüsusiyyətləri, Bakı-2018

DOİ: 10.32010/ZHDR9849

BEYNƏLXALQ TURİZM BAZARINDA KREATİV TURIZMİN İNKİŞAF TRENDLƏRİ VƏ TƏSİR AMİLLƏRİ

Sayalı Sahəd CƏLILOVA
Bakı Dövlət Universiteti, doktorant
ORCID: 0009-0008-7657-6176
E-mail: sayali.jalilova@gmail.com

Xülasə: Son illərdə beynəlxalq turizm bazarında baş verən dəyişikliklər, səyahətçilərin daha fərdiləşdirilmiş və mənalı təcrübələrə üstünlük verməsinə səbəb olub. Bu kontekstdə kreativ turizm sürətlə inkişaf edən və diqqət çəkən sahəyə çevrilmişdir. Ənənəvi görməli yerlər və passiv istirahət növlərindən fərqli olaraq, kreativ turizm turistin aktiv iştirakını, yerli mədəniyyət və sənətkarlıqla qarşılıqlı əlaqəsini ön plana çıxarır. Bu model, həm turizmin iqtisadi dayanıqlığını artırır, həm də yerli icmaların sosial və mədəni inkişafına töhfə verir. Məqalədə kreativ turizmin beynəlxalq miqyasda formalaşan başlıca inkişaf trendləri təhlil olunur. Bunlara rəqəmsal texnologiyaların tətbiqi (məsələn, virtual reallıq və sosial media vasitəsilə təcrübə paylaşımı), pandemiya sonrası dəyişən səyahət davranışları, dayanıqlı və ekoloji turizmə inteqrasiya, həmçinin yerli mədəni irsə olan marağın artması daxildir. Eyni zamanda, kreativ turizmin inkişafına təsir edən əsas amillər araşdırılır: iqtisadi və texnoloji resurslar, dövlətin rolu, mədəni mühitin dəstəkləyici olması, yerli icmaların iştirakı və ekoloji meyarlar bu sahənin böyüməsini müəyyən edən faktorlardır. Müxtəlif ölkələrdən – İspaniya, Yaponiya, Gürcüstan kimi kreativ turizmdə uğur qazanmış nümunələr göstərilir. Azərbaycanın bu istiqamətdə malik olduğu potensial da diqqət mərkəzinə çəkilir. Qədim mədəni irs, sənətkarlıq ənənələri və sürətlə inkişaf edən kreativ sənayelər ölkənin bu bazarda yerini möhkəmləndirməsi üçün mühüm imkanlar yaradır. Bununla yanaşı, dövlət strategiyalarının dəstəkləyici rolu və sahibkarlığın təşviqi bu inkişafın davamlılığını təmin edə bilər. Nəticə etibarilə, kreativ turizm beynəlxalq turizm bazarında yalnız qısamüddətli trend deyil, uzunmüddətli, dəyər əsaslı və dayanıqlı bir model kimi çıxış edir. Səmərəli idarəetmə, texnologiya ilə inteqrasiya və yerli icmaların fəal iştirakı bu sahənin əsas uğur açarlarıdır.
Açar sözlər: kreativ turizm, təcrübə əsaslı turizm, təsir amilləri, beynəlxalq təcrübə, virtual reallıq təcrübəsi, ənənəvi turizm.

DEVELOPMENT TRENDS AND INFLUENCING FACTORS OF CREATIVE TOURISM IN THE INTERNATIONAL TOURISM MARKET

Sayalı Sahəd JALILOVA
Baku State University, Doctoral Student
ORCID: 0009-0008-7657-6176
E-mail: sayali.jalilova@gmail.com

Summary: In recent years, changes in the global tourism market have led travelers to prefer more personalized and meaningful experiences. Within this context, creative tourism has emerged as a rapidly developing and noteworthy field. Unlike traditional sightseeing and passive recreation, creative tourism emphasizes tourists' active participation and interaction with local culture and craftsmanship. This model enhances the economic sustainability of tourism while contributing to the social and cultural development of local communities. The article analyzes the main global trends shaping creative tourism, including the application of digital technologies (e.g., virtual reality and experience sharing through social media), post-pandemic shifts in travel behavior, integration with sustainable and eco-friendly tourism, and growing interest in local cultural heritage. It also examines the key factors influencing the development of creative tourism: economic and technological resources, the role of government, a supportive cultural environment, community participation, and ecological criteria. Examples from countries such as Spain, Japan, and Georgia, which have achieved notable success in creative tourism, are presented. Azerbaijan's potential in this area is also highlighted. The country's rich cultural heritage, strong artisanal traditions, and rapidly growing creative industries create significant opportunities to strengthen its position in this market. Furthermore, supportive state strategies and the promotion of entrepreneurship can ensure sustainable growth. In conclusion, creative tourism is not merely a short-term trend in the global tourism market but a long-term, value-based, and sustainable model. Effective management, technological integration, and active community participation are the key success factors for this sector.
Keywords: creative tourism, experience-based tourism, influencing factors, international experience, virtual reality experience, traditional tourism.

ТЕНДЕНЦИИ РАЗВИТИЯ И ФАКТОРЫ ВЛИЯНИЯ КРЕАТИВНОГО ТУРИЗМА НА МЕЖДУНАРОДНОМ ТУРИСТИЧЕСКОМ РЫНКЕ

Саялы Сахед ДЖАЛИЛОВА
Бакинский государственный университет, докторант
ORCID: 0009-0008-7657-617
Электронная почта: sayali.jalilova@gmail.com

Резюме: В последние годы изменения на международном туристическом рынке привели к тому, что путешественники стали отдавать предпочтение более индивидуализированным и осмысленным впечатлениям. В этом контексте креативный туризм превратился в быстро развивающуюся и привлекающую внимание сферу. В отличие от традиционных видов отдыха и пассивного осмотра достопримечательностей, креативный туризм акцентирует активное участие туриста и его взаимодействие с местной культурой и ремеслами. Такая модель способствует не только экономической устойчивости туризма, но и социальному и культурному развитию местных сообществ. В статье анализируются основные мировые тенденции развития креативного туризма: применение цифровых технологий (например, виртуальной реальности и обмена впечатлениями через социальные сети), изменения в поведении путешественников после пандемии, интеграция с устойчивым и экологическим туризмом, а также растущий интерес к местному культурному наследию. Кроме того, рассматриваются ключевые факторы, влияющие на развитие креативного туризма: экономические и технологические ресурсы, роль государства, поддерживающая культурная среда, участие местных сообществ и экологические критерии. Приводятся примеры стран, добившихся успеха в этой области — таких как Испания, Япония и Грузия. Особое внимание уделяется потенциалу Азербайджана в данном направлении. Богатое культурное наследие, ремесленные традиции и быстро развивающиеся креативные индустрии создают важные возможности для укрепления позиции страны на этом рынке. Поддержка государственных стратегий и стимулирование предпринимательства могут обеспечить устойчивое развитие этой сферы. В заключение отмечается, что креативный туризм представляет собой не краткосрочный тренд, а долгосрочную, ценностно ориентированную и устойчивую модель. Эффективное управление, интеграция технологий и активное участие местных сообществ являются ключевыми факторами успеха в этой области.
Ключевые слова: креативный туризм, туризм, основанный на впечатлениях, факторы влияния, международный опыт, виртуальная реальность, традиционный туризм.

1. Giriş.

Qlobal turizm sektoru son onilliklərdə sürətlə inkişaf edərək iqtisadiyyatın əsas sahələrindən birinə çevrilmişdir. Lakin texnologiyanın inkişafı, pandemiyanın yaratdığı yeni reallıqlar və səyahətçilərin gözləntilərinin dəyişməsi turizm bazarının strukturunu köklü şəkildə yenidən formalaşdırır. Bu dəyişikliklər fonunda ənənəvi turizm modelləri öz cazibəsini müəyyən qədər itirir və turistlər daha fərdi, mənalı və interaktiv təcrübələrə yönəlir. Məhz bu ehtiyacdan doğan kreativ turizm, müasir dövrdə turizmin yeni və innovativ forması kimi ön plana çıxır. Kreativ turizm turistin sadəcə müşahidəçi deyil, həm də iştirakçı olduğu, yerli mədəniyyətlə qarşılıqlı əlaqəyə girdiyi, sənətkarlıq və yaradıcılıq proseslərində fəal rol aldığı bir modeldir. Bu yanaşma həm turizm xidmətlərinin keyfiyyətini artırır, həm də yerli icmalar üçün əlavə gəlir və mədəni dəyər yaradır. Bu məqalədə məqsəd, beynəlxalq turizm bazarında kreativ turizmin inkişaf tendensiyalarını araşdırmaq, bu sahəyə təsir edən əsas amilləri təhlil etmək və uğurlu beynəlxalq təcrübələr əsasında Azərbaycanın potensial imkanlarını qiymətləndirməkdir. Eyni zamanda, kreativ turizmin dayanıqlı inkişaf modeli kimi necə formalaşdığı və gələcəkdə hansı istiqamətdə inkişaf edə biləcəyi suallarına cavab axtarılır.

1.1. Problemin qoyuluşu

Qloballaşma, urbanizasiya və texnoloji yeniliklər fonunda dünya turizm bazarında ciddi struktur dəyişiklikləri baş vermişdir. Ənənəvi kütləvi turizm modelləri, turistlərin dəyişən gözləntiləri və davranışları ilə uzlaşmaqda çətinlik çəkir. Müasir turistlər artıq passiv müşahidəçi olmaq əvəzinə, mədəniyyətlə qarşılıqlı əlaqədə olmağı, autentik və fərdiləşdirilmiş təcrübələr yaşamayı üstün tuturlar. Bu kontekstdə kreativ turizm anlayışı aktuallaşır və beynəlxalq səviyyədə sürətlə yayılan alternativ turizm forması kimi çıxış edir.

Lakin kreativ turizmin inkişafı təsadüfi və qeyri-bərabər şəkildə baş verir. Bəzi ölkələr bu sahəni strateji istiqamət kimi qəbul edib uğurla inkişaf etdirir, digərləri isə hələ də onun potensialını qiymətləndirmək mərhələsindədir. Bu fərqlər, müxtəlif iqtisadi, mədəni, texnoloji və institusional amillərlə şərtlənir. Digər tərəfdən, kreativ turizmin dayanıqlılıq, sosial inklüzivlik və mədəniyyətin

qorunması ilə əlaqəli potensialı da hələ tam araşdırılmayıb.

Bu şəraitdə əsas problem ondan ibarətdir ki, beynəlxalq turizm bazarında kreativ turizmin inkişaf dinamikası, ona təsir edən amillər və uğurlu tətbiq modelləri kifayət qədər sistemli və müqayisəli şəkildə tədqiq olunmayıb. Bu boşluğun aradan qaldırılması üçün, kreativ turizmin beynəlxalq bazardakı trend və transformasiya faktorlarının elmi əsaslarla təhlili, həm nəzəri baxımdan, həm də praktik siyasət planlaşdırılması üçün zəruridir.

Məqalənin məqsədi məhz bu problemin araşdırılması, kreativ turizmin qlobal səviyyədə hansı tendensiyalarla inkişaf etdiyini, hansı amillərin bu prosesə təsir göstərdiyini və müxtəlif ölkələrin bu sahədə necə yanaşmalar sərgilədiyini analiz etməkdir.

2. Metodika

Kreativ turizm, son illərdə beynəlxalq turizm nəzəriyyəsində meydana çıxan müasir yanaşmalardan biridir. Ənənəvi turizm formalarında əsas məqsəd əsasən görməli yerləri ziyarət etmək, tarixi abidələr və məşhur məkanlarla tanış olmaq olduğu halda, kreativ turizmdə bu yanaşma köklü şəkildə dəyişmişdir. Bu modeldə turist yalnız müşahidəçi və passiv istehlakçı deyil, həm də aktiv iştirakçı, yaradıcı tərəfdaş kimi çıxış edir. Kreativ turizm konsepti ilk dəfə Richards və Raymond (2000) tərəfindən elmi ədəbiyyata gətirilmiş və turistlərin səfər etdikləri yerlərdə yerli icmalarla birbaşa ünsiyyətə girərək sənət, mədəniyyət, ənənə və gündəlik həyat tərzi ilə bağlı fəaliyyətlərdə iştirak etməsi ideyası üzərində qurulmuşdur (Richards & Raymond, 2000, s. 18).

Bu yanaşma, mədəni turizmin təkamül mərhələsi hesab olunur. Əgər mədəni turizm əsasən mövcud mədəni sərvətlərin (məsələn, muzeylər, teatrlar, mədəni festivallar) izlənilməsini ehtiva edirdisə, kreativ turizm həmin sərvətlərin yaradılması və yaşadılması prosesinə turistin birbaşa cəlb olunmasını hədəfləyir. OECD (2014) bu prosesi belə izah edir: kreativ turizm turistlərə fərdi yaradıcılıq imkanları təqdim etməklə, onların mədəni dəyərlərlə daha dərin və fərdi səviyyədə təmas qurmasına şərait yaradır (OECD, 2014, s. 23).

Kreativ turizmin nəzəri əsaslarından biri də "yaradıcı iqtisadiyyat" (creative economy) anlayışıdır. UNCTAD-ın 2010-cu il hesabatına görə, yaradıcı sahələr yalnız iqtisadi artım üçün deyil, həm də mədəni müxtəlifliyin təşviqi və sosial inklüzivlik baxımından əhəmiyyətlidir (UNCTAD, 2010, s. 56). Kreativ turizm bu yaradıcı sektorun turizmə tətbiqi kimi çıxış edir və bu zaman həm iqtisadi, həm də mədəni kapital artırılmış olur.

Bununla yanaşı, bu konsepsiya **təcrübə əsaslı turizm** (experience-based tourism) nəzəriyyəsi ilə də sıx əlaqəlidir. Pine və Gilmore (1999) tərəfindən irəli sürülən bu yanaşmaya görə, müasir dövrdə istehlakçılar artıq sadəcə məhsul və ya xidmət deyil, fərqli, emosional və yadda qalan təcrübələr axtarırlar (Pine & Gilmore, 1999, s. 12). Kreativ turizm bu ehtiyacı qarşılayan ideal model olaraq turistə şəxsi və unikal təcrübələr təqdim edir – məsələn, yerli sənətkarlıq dərslərində iştirak, mətbəx ustalıqlarını öyrənmək, musiqi və ya folklor tədbirlərində yer almaq kimi fəaliyyətlər.

Digər mühüm nəzəri çərçivə iştirakçı mədəniyyət (participatory culture) anlayışıdır. Jenkins (2006) qeyd edir ki, müasir cəmiyyətlərdə insanlar yalnız istehlakçı deyil, həm də mədəniyyətin yaradıcıları olmalıdır və bu iştirakçılıq, ictimai və mədəni dinamikanın mühüm hissəsidir (Jenkins, 2006, s. 131). Kreativ turizm də məhz bu prinsipi əsas tutur: turist sadəcə baxan deyil, yaradan və paylaşan subyektdir.

Eyni zamanda, kreativ turizm dayanıqlı inkişaf konsepsiyası ilə də uzlaşır. Butler (1999) dayanıqlı turizmi resursların uzunmüddətli qorunması, ekoloji balansın saxlanılması və sosial rifahın artırılması əsasında izah edir (Butler, 1999, s. 11). Kreativ turizm, yerli resurslardan məsuliyyətli istifadə etməklə və yerli icmalarla qarşılıqlı əməkdaşlıq qurmaqla, turizmin davamlı formasını inkişaf etdirir.

UNESCO-nun "Creative Cities Network" təşəbbüsü də kreativ turizmin nəzəri inkişafında mühüm rol oynayır. Bu şəbəkə şəhərlərin yaradıcı sahələrə – o cümlədən sənətkarlıq, ədəbiyyat, musiqi, media və mətbəx mədəniyyətinə əsaslanaraq, dayanıqlı inkişafı necə təşviq etdiklərini izləyir və dəstəkləyir. Beləliklə, kreativ turizm sadəcə bir səyahət forması deyil, həm də iqtisadi, mədəni və sosial transformasiya alətinə çevrilmişdir.

Nəticə etibarilə, kreativ turizm nəzəriyyəsi turizmin yeni mərhələyə keçidini, yəni daha dərin, daha mənalı və daha sosial məsuliyyətli təcrübələrin önə çıxdığını göstərir. Bu yanaşma təkcə turistin məmnuniyyətini artırmır, eyni zamanda yerli mədəniyyətlərin qorunmasına, sosial inteqrasiyaya və iqtisadi inkişafın daha ədalətli bölüşdürülməsinə də xidmət edir.

3. Müzakirə.

Yaradıcı turizmin beynəlxalq miqyasda yüksəlişi bir neçə mühüm qlobal tendensiya ilə şərtlənir. İlk növbədə, təcrübə əsaslı turizmə olan marağın sürətlə artması diqqət çəkir. Müasir turistlər artıq sadəcə görmək və şəkil çəkməklə kifayətlənmir, əvəzində yerli mədəniyyətə aktiv şəkildə qoşulmaq, fərdi və mənalı təcrübələr yaşamaq istəyirlər. Kreativ turizm bu ehtiyaca cavab verir və turistin fərdi identikliyi ilə

rezonansa girən təcrübələr təqdim edir. İkinci tendensiya, sosial media vasitəsilə paylaşılabilən unikal və vizual cəlbedici məzmun ehtiyacıdır. Kreativ fəaliyyətlər – məsələn, milli geyimdə fotosessiya, keramikadan hazırlanan fərdi suvenir və ya kulinariya ustalığı – vizual dəyəri yüksək, "Instagram-lıq" təcrübələr təqdim edir. Bu da kreativ turizmi sosial mediada daha görünən və arzuolunan edir. Üçüncü mühüm trend, yerli icmalara dəstək yönümlü turizm modellərinə keçiddir. Ziyarətçilər artıq böyük otel zəncirləri əvəzinə yerli ailə müəssisələrinə, sənətkarlara və mədəni operatorlara üstünlük verirlər. Bu, kreativ turizmin davamlı inkişaf məqsədlərinə uyğun şəkildə cəmiyyətə töhfə verməsinə şərait yaradır (OECD, 2014). Son olaraq, COVID-19 pandemiyasından sonra fərdiləşdirilmiş və kiçik qruplu turizm təcrübələrinin populyarlaşması, kreativ turizmin sürət qazanmasına səbəb olmuşdur. Kütləvi turizmin riskləri və məhdudiyyətləri, turistləri təbiətə, mədəniyyətə və fərdi yaradıcılığa əsaslanan alternativ tiplərə yönəltmişdir (UNESCO, 2021). Kreativ turizm bu mərhələdə həm təhlükəsizlik, həm də emosional bağlanma təmin edən format kimi ön plana çıxır.

Kreativ turizmin inkişafı bir sıra daxili və xarici amillərlə sıx bağlıdır. Bu amillər kompleks şəkildə qarşılıqlı təsir göstərərək kreativ turizm modellərinin formalaşmasına və tətbiqinə zəmin yaradır.

Cədvəl 1.

Kreativ turizmin inkişafına təsir edən amillər

Amil Qrupu	Əsas Rolu və Xüsusiyyətləri	Kreativ Turizmdəki Funksiyası	Mətndə Qeyd Olunan Konkret Nümunələr / Təsdiqedici Faktlar
İqtisadi Amillər	Əhalinin gəlir səviyyəsinin və sərbəst gəlirin artması; Dövlət və özəl investisiyalar.	Tələbatı yüksək dəyərli, fərdi təcrübələrə yönəldir. Təklif tərəfini (infrastruktur, xidmət keyfiyyəti) gücləndirir və mikrobizneslərı dəstəkləyir.	Portuqaliya: "Portugal Creative Tourism" çərçivəsində maliyyə və vergi təşviqləri ilə 30+ yeni kreativ təcrübə məhsulu (keramik emalatxanaları, musiqi dərsləri) yaradılıb.
Mədəni və Sosial Faktorlar	Yerli icmaların fəal iştirakı, öz bilik və bacarıqlarına sahiblənməsi, mədəniyyətin canlı şəkildə paylaşılması.	Turizm təcrübəsinin autentikliyini və dayanıqlılığını təmin edir. Turist-yerli əhali arasında qarşılıqlı sosial əlaqə və mədəni mübadilə yaradır.	Tailand (Ban Chiang kəndi): Turistlər kəndlilərlə birlikdə əl işləri hazırlayır, düyü əkir və ənənəvi musiqi dərsləri alır. Bu, həm iqtisadi gəlir, həm də mədəni tanınma yaradır.
Texnoloji Amillər	Virtual Reallıq (VR), Artırılmış Reallıq (AR) və Sosial Media platformaları.	Mədəni irsi və fəaliyyətləri daha immersiv və interaktiv şəkildə təqdim edir. Kreativ təcrübələrin real vaxtda tanıdılması və yayılması (brend tanınırlığı, tələbat) üçün əvəzolunmazdır.	Estoniya (Tallinn): "Time Travel in Tallinn" layihəsində VR dəbilqələri vasitəsilə şəhərin orta əsr dövrünə "səyahət" təcrübəsi.
Siyasət və İnstitusional Dəstək	Kreativ turizmin turizm strategiyasına inteqrasiyası, qanunvericilik təşviqləri, maliyyə dəstəyi və tənzimləyici mexanizmlər.	Kreativ turizmin sistemli inkişafını, strukturlaşmasını və prioritet kimi qəbul edilməsini təmin edir. Vergi güzəştləri və qrant proqramları vasitəsilə startapları stimullaşdırır.	Cənubi Koreya (Jeonju): UNESCO Kreativ Şəhərlər Şəbəkəsinə daxil olduqdan sonra yerli sənətkarlar üçün vergi güzəştləri, emalatxana subsidiyaları və festival dəstəyi.
Ekoloji Amillər və Davamlılıq	Aşağı karbon izi, yerli və təkrar istifadə olunan resurslar, kiçik miqyaslı və aşağı təsirli fəaliyyətlər.	Kütləvi turizmin ətraf mühitə yaratdığı təzyiqləri minimuma endirir. Eko-sosial məsuliyyət daşıyan turizm modeli yaradır və mədəni/təbii mühitin qorunmasına dəstək verir.	Kosta Rika: "Greentique Hotels" kimi təşəbbüslər vasitəsilə yerli sənətkarlarla işləmək, orqanik qida bişirmək kimi kreativ və ekoloji cəhətdən məsuliyyətli təcrübələr təklif edilir.

Kreativ turizmin inkişafında iqtisadi amillər həlledici rol oynayır. Əvvəla, əhalinin gəlir səviyyəsi və sərbəst istifadə oluna bilən gəlirin artması, turistlərin sadə xidmətlərdən fərdi və yüksək dəyərli təcrübələrə keçidini şərtləndirir. Yüksək gəlirli turist qrupları, xüsusilə də millennial və Z nəslinə mənsub olan səyahətçilər, alış-veriş və mehmanxana xərclərindən daha çox, unikal və fərdiləşdirilmiş təcrübələrə yatırım etməyə üstünlük verirlər. Bu, kreativ turizm üçün geniş bazar imkanları yaradır. Eyni zamanda, bu sahənin təklif tərəfi üçün də iqtisadi güclənmə önəmlidir. Dövlət və özəl sektor tərəfindən kreativ sənayelərə yönələn investisiyalar, həm infrastruktur (emalatxanalar, təlim mərkəzləri,

festival məkanları), həm də xidmət keyfiyyəti baxımından irəliləyişə səbəb olur. Kreativ turizm fəaliyyətləri çox vaxt mikrobizneslərə (yerli sənətkarlar, aşpazlar, bələdçilər) əsaslandığı üçün, aşağıgəlirli icmalarda iqtisadi imkanların artırılması baxımından da əhəmiyyətlidir (OECD, 2014). Portuqaliya bu sahədə uğurlu iqtisadi yanaşma nümunəsidir. 2015-ci ildən etibarən "Portugal Creative Tourism" təşəbbüsü çərçivəsində dövlətin kiçik sahibkarlara verdiyi maliyyə vəsaiti və vergi təşviqləri nəticəsində 30-dan çox yeni kreativ təcrübə məhsulu yaradılıb. Bu məhsullar, o cümlədən Alentejo bölgəsində keramik emalatxanaları, Portoda yerli musiqi dərsləri, və Lisabonda Fado sənətinə dair interaktiv sessiyalar, həm turizm gəlirlərini, həm də yerli məşğulluğu artırıb (UNWTO, 2021).

Kreativ turizmin əsasını təşkil edən mədəni və sosial faktorlar, xüsusilə yerli icmaların fəal iştirakı və təcrübəyə sahiblənməsi, bu turizm növünün həm autentikliyini, həm də dayanıqlılığını təmin edir. Kreativ turizmdə məqsəd yalnız mədəniyyətin nümayişi deyil, onun canlı şəkildə yaşadılması və paylaşılmasıdır. Bu, yalnız o zaman mümkün olur ki, yerli icmalar öz bilik və bacarıqlarını təqdim etməkdə maraqlı olsun və bu prosesdə subyekt kimi çıxış etsin (UNESCO, 2017). Yerli əhali ilə turist arasında qarşılıqlı sosial əlaqə və mədəni mübadilə, turizm təcrübəsini daha zəngin və mənalı edir. Bu cür əlaqə, eyni zamanda mədəni müxtəlifliyin qorunmasına, icma kimliyinin güclənməsinə və nəsildən-nəslə bilik ötürülməsinə dəstək verir (Bakas et al., 2019). Belə yanaşma turizmi passiv izləmə fəaliyyətindən çıxararaq, ikitərəfli mədəni dialoq və empatiya platformasına çevirir. Tailandın Ban Chiang kəndində həyata keçirilən kreativ turizm proqramı bu baxımdan nümunəvidir. Burada turistlər yerli kəndlilərlə birlikdə əl işləri hazırlayır, düyü əkmə prosesində iştirak edir və ənənəvi musiqi dərsləri alırlar. Bu təcrübə yalnız turist üçün fərqli bir səyahət imkanı deyil, həm də kənd sakinləri üçün iqtisadi gəlir, mədəni tanınma və öz identikliyinə yenidən bağlanmaq imkanı yaradır (Kontogeorgopoulos et al., 2015).

Müasir dövrdə texnologiya kreativ turizmin transformasiyasında mühüm rol oynayır. Xüsusilə Virtual Reallıq (VR) və Artırılmış Reallıq (AR) texnologiyaları, mədəni irsi və kreativ fəaliyyətləri daha immersiv (batırıcı) və interaktiv şəkildə təqdim etməyə imkan yaradır. Bu texnologiyalar sayəsində turistlər fiziki olaraq məkanda olmasalar belə, mədəniyyətə virtual şəkildə qoşulmaq, interaktiv təcrübələr yaşamaq və yaradıcı fəaliyyətlərdə iştirak etmək imkanı əldə edirlər (Gretzel et al., 2015). Eyni zamanda, sosial media platformaları (Instagram, TikTok, YouTube) kreativ turizmin tanıdılması və yayılmasında əvəzolunmaz rol oynayır. Bu kanallar vasitəsilə yaradıcı təcrübələr real vaxtda nümayiş olunur, bu isə həm brend tanınırlığı, həm də tələb yönümlü marağın artması ilə nəticələnir (Mariani et al., 2016). Özəlliklə gənc turistlər üçün "paylaşılabilən təcrübə" dəyəri, məkan və məhsul seçimində mühüm kriteriyaya çevrilib. Estoniya bu sahədə qabaqcıl ölkələrdən biridir. Tallinn şəhərində yaradılmış "Time Travel in Tallinn" layihəsində turistlər VR dəbilqələri vasitəsilə şəhərin orta əsr dövrünə "səyahət edir". Bu texnologiya vasitəsilə turistlər tarixi hadisələrin içində özlərini hiss edir, aktyorlarla səhnələşdirilmiş real görüntüləri izləyir və şəhərin keçmişi ilə canlı təmas qururlar. Layihə həm maraqlı təcrübə, həm də tarixi bilik ötürülməsi baxımından yüksək effektivlik göstərmişdir (Tussyadiah et al., 2018).

Kreativ turizmin uğurla inkişaf etməsi üçün sistemli dövlət siyasəti və institusional dəstək vacib şərtlərdən biridir. Dövlətin bu sahəyə yanaşması yalnız turizm sektorunun bir qolu kimi deyil, həm də kreativ iqtisadiyyatın, mədəni irsin qorunmasının və regional inkişafın bir hissəsi kimi qiymətləndirilməlidir. Siyasət səviyyəsində aydın vizyon, qanunvericilik təşviqləri, maliyyə dəstəyi və tənzimləyici mexanizmlər olmadan kreativ turizmin strukturlaşmış inkişafı çətinləşir. Turizm strategiyalarına kreativ turizmin inteqrasiyası, bu sahənin prioritet kimi qəbul edilməsi baxımından əsas addımdır. Buraya vergi güzəştləri, startap və mikrobizneslər üçün qrant proqramları, kreativ klasterlərin yaradılması və dövlət-özəl tərəfdaşlıq (PPP) modelləri daxildir. Eyni zamanda, rəqəmsal təşviq platformalarının yaradılması, təbliğat və marketinq dəstəyi, eləcə də kreativ turizm üzrə təhsil proqramlarının təşviqi vacib mexanizmlərdir (OECD, 2014). Cənubi Koreyanın Jeonju şəhəri bu sahədə uğurlu dövlət dəstəyi nümunəsidir. Şəhər UNESCO Kreativ Şəhərlər Şəbəkəsinə daxil edildikdən sonra, hökumət tərəfindən yerli sənətkarlar üçün vergi güzəştləri, emalatxanaların modernləşdirilməsi üçün subsidiyalar və yaradıcılıq festivallarına maliyyə dəstəyi həyata keçirilib. Bu tədbirlər nəticəsində Jeonju, ənənəvi koreya mətbəxi, kağız sənəti (hanji) və musiqi mədəniyyəti ilə tanınan populyar kreativ turizm məkanına çevrilmişdir (Yoon & Park, 2020).

Kreativ turizm, ekoloji baxımdan davamlı turizm modelləri arasında xüsusi yer tutur. Bu yanaşma, kütləvi turizmin ətraf mühitə yaratdığı təzyiqləri minimuma endirməklə, aşağı karbon izi, yerli və təkrar istifadə olunan resurslardan səmərəli istifadə, eləcə də mədəni və təbii mühitin qorunması kimi prinsiplərə əsaslanır (UNEP, 2021). Ənənəvi turizm

növləri tez-tez infrastruktur yükü, tullantı artımı və biomüxtəlifliyin pozulması ilə nəticələndiyi halda, kreativ turizm daha çox kiçik miqyaslı, yerli icma yönümlü və aşağı təsirli fəaliyyətlər ətrafında formalaşır. Məsələn, sənət emalatxanalarında yerli materiallardan istifadə, kənd təsərrüfatına əsaslanan kulinariya dərsləri və ya əl işləri təcrübələri həm mədəni dəyər yaradır, həm də ekoloji cəhətdən təhlükəsizdir. Kreativ turizm, həmçinin eko-sosial məsuliyyət daşıyan turizm modelidir: turist yalnız təcrübə yaşamır, eyni zamanda iştirak etdiyi fəaliyyətin sosial və ekoloji dəyərini anlayır və onun davamlılığına dəstək verir. Kosta Rika bu sahədə qabaqcıl ölkələrdən biridir. "Greentique Hotels" kimi təşəbbüslər həm təbiətə minimal təsir edən turizm xidmətləri təqdim edir, həm də turistlərə yerli sənətkarlarla birgə emalatxanalarda işləmək, orqanik qida bişirmək və təbii boyalarla toxuculuq kimi kreativ və ekoloji cəhətdən məsuliyyətli təcrübələr təklif edir (Honey, 2008). Dövlət də bu təşəbbüsləri eko-vergi güzəştləri, yaşıl sertifikat proqramları və kənd yerlərində ekoturizmə dəstək vasitəsilə stimullaşdırır.

Bu amillərin sinergiyası, kreativ turizmi yalnız mədəni təcrübə modeli deyil, həm də sosial-iqtisadi və ekoloji baxımdan dayanıqlı turizm strategiyası kimi möhkəmləndirir.

Kreativ turizmin uğurla tətbiq edildiyi beynəlxalq şəhərlər, bu sahənin potensialını və tətbiq imkanlarını nümayiş etdirir.

Cədvəl 1.

Kreativ turizmin uğurla tətbiq edildiyi beynəlxalq şəhərlər və Azərbaycan üçün tətbiq potensialı

Şəhər/Region	Əsas Kreativ Model	Əsas Fəaliyyət Sahələri	Uğurun Açarı (İnstitusional Dəstək)	Azərbaycan üçün Tətbiq Potensialı
Barselona, İspaniya	Urban Mədəniyyətinin İnteqrasiyası	Sənət emalatxanaları, Küçə sənəti (Qrafitti), Rəqs/Musiqi atelyeləri, Rəqəmsal mədəniyyət marşrutları.	"Barcelona Creativa" Proqramı, UNESCO Kreativ Şəhərlər Şəbəkəsində möhkəmlənmə, Dövlət-özəl tərəfdaşlığı.	Bakı (İçərişəhər): Küçə sənəti, multimediya sərgiləri, yerli sənətkarlarla emalatxanalar, açıq hava festivalları. Şəki, Gəncə, Lənkəran: Regional mədəniyyət marşrutlarının yaradılması.
Jeonju, Cənubi Koreya	Mədəni İrsə Əsaslanan Ustad Dərsləri	Ənənəvi Koreya mətbəxi (kulinariya dərsləri), Hanji (kağız sənəti), Xalq musiqisi və ifa dərsləri.	UNESCO Kreativ Şəhərlər Şəbəkəsi (Qastronomiya), Vergi güzəştləri, Subsidiyalar, Lokal festivallara maliyyə dəstəyi, Mədəni startap ekosisteminin formalaşdırılması.	Şəki, Lahıc, Ordubad, Quba: Milli mətbəx, Xalçaçılıq, Misgərlik, Şəbəkə sənəti, Aşıq sənəti üzrə ustad dərsləri. Mikrobizneslərə vergi güzəştləri və regional büdcələr.
Tallinn, Estoniya	Rəqəmsal Texnologiyalarla İmmersiv Təcrübə	Tarixi məkanların Virtual Reallıq (VR) vasitəsilə təqdimatı ("Time Travel in Tallinn" layihəsi), İnteraktiv tarixi sərgilər.	Texnoloji startaplarla əməkdaşlıq, Mədəniyyətin innovativ formatda təqdim olunmasına dövlət dəstəyi.	Bakı (İçərişəhər, Qız Qalası), Şəki Xan Sarayı, Qobustan: "Bakı VR – Tarixin İçində" kimi layihələr. Tarixi məkanlar üzrə VR/AR əsaslı interaktiv turların yaradılması.
Kosta Rika	Eko-Kreativ Turizm (Dayanıqlılıqla Sintez)	Orqanik kulinariya dərsləri, Təbii boyalarla toxuculuq, Əl işləri üzrə ustad dərsləri, Mühafizə olunan ərazilərdə interaktiv ekoloji fəaliyyətlər.	"Greentique Hotels" kimi proqramlar, Ekoloji turizm siyasətinə prioritet dəstək, Təbiət-mədəniyyət balansının qorunması.	Lənkəran, Lerik, Quba, Zaqatala: Kənd turizmi, Orqanik məhsullarla milli yemək dərsləri, Biomədəni irsə əsaslanan turizm, "Yaşıl Sertifikat" sisteminin tətbiqi.

Barselona, kreativ turizmin inkişafında qlobal miqyasda uğurlu tətbiq modellərindən biri hesab olunur. Şəhər "Barcelona Creativa" proqramı vasitəsilə urban mədəniyyətini və yaradıcılıq sahələrini sistemli şəkildə turizm strategiyasına inteqrasiya etmişdir. Proqram çərçivəsində sənət emalatxanaları, küçə sənəti (xüsusilə qrafitti), rəqs və musiqi atelyeləri, interaktiv muzeylər və rəqəmsal mədəniyyət marşrutları yaradılmışdır. Turistlər bu məkanlarda passiv izləyici olmaqdan çıxaraq, birbaşa təcrübədə iştirak edirlər. Belə yanaşma şəhərin yalnız mədəni potensialını deyil, həm də

yerli kreativ icmaların iqtisadi fəaliyyətini gücləndirmişdir. Barselona modeli kreativ turizmi mədəni siyasət, urban planlaşdırma və iqtisadi inkişafın kəsişmə nöqtəsinə yerləşdirərək şəhəri UNESCO-nun Kreativ Şəhərlər Şəbəkəsində möhkəmləndirmişdir. Bu çərçivədə dövlət-özəl tərəfdaşlığı və bələdiyyə səviyyəsində proqramların maliyyələşdirilməsi də kreativ sahələrin dayanıqlılığına şərait yaratmışdır (Richards, 2014). Bu model Azərbaycan üçün də aktual və tətbiq oluna bilən bir yanaşmadır. Xüsusilə Bakı şəhərinin İçərişəhər kimi tarixi və urban baxımdan fərqli bölgələri, kreativ məkanların yaradılması üçün geniş imkanlara malikdir. Küçə sənəti, multimediya əsaslı sərgilər, yerli sənətkarlarla emalatxanalar və açıq hava festivalları vasitəsilə həm turizm dəyəri, həm də sosial inteqrasiya gücləndirilə bilər. Əlavə olaraq, Şəki, Gəncə və Lənkəran kimi şəhərlərdə də bu modelin regional formada tətbiqi, kreativ mədəniyyət marşrutlarının yaradılması və yerli icmaların turizm fəaliyyətinə cəlbi ilə mümkün olar. Tətbiqin uğurlu olması üçün bələdiyyələr və dövlət orqanları arasında koordinasiyalı planlama və davamlı maliyyə dəstəyi zəruridir.

Jeonju şəhəri Cənubi Koreyada kreativ turizmin inkişafı baxımından uğurlu və planlı yanaşmanın nümunəsidir. Şəhər UNESCO-nun Kreativ Şəhərlər Şəbəkəsi çərçivəsində öz mədəni dəyərlərini turizm məhsuluna çevirmək istiqamətində sistemli siyasət həyata keçirmişdir. Jeonju-nun kreativ turizm strategiyası əsasən ənənəvi koreya mətbəxi, kağız sənəti (hanji) və xalq musiqisi kimi mədəniyyət elementləri üzərində qurulmuşdur. Turistlər bu şəhərdə yalnız izləyici deyil, həm də aktiv iştirakçı kimi müxtəlif ustad dərslərində – yemək bişirmə, hanji hazırlığı, musiqi ifası – birbaşa təcrübə yaşayırlar. Bu təcrübələrin uğurlu həyata keçirilməsi dövlətin vergi güzəştləri, subsidiyalar, lokal festivallara maliyyə dəstəyi və sahibkarlıq təşviqləri ilə təmin olunmuşdur (Yoon & Park, 2020). Kreativ məhsulların ixrac potensialı da stimullaşdırılıb və Jeonju-nun mədəni irsi beynəlxalq səviyyədə tanıdılıb. Eyni zamanda şəhərdə mədəniyyət əsaslı startap ekosistemi formalaşdırılmış və yerli gənclər bu sahəyə aktiv şəkildə cəlb olunmuşdur. Bu model Azərbaycan üçün də yüksək tətbiq potensialına malikdir. Məsələn, Şəki, Lahıc, Ordubad və Quba kimi bölgələrdə milli mətbəx, xalçaçılıq, misgərlik, şəbəkə sənəti, kənd musiqisi və aşıq sənəti kimi sahələr əsasında kreativ turizm məhsulları inkişaf etdirilə bilər. Dövlət tərəfindən bu sahədə mikrobizneslərə vergi güzəştləri, sahibkarlara təlim dəstəyi, və kreativ festivallar üçün regional büdcələr ayrılması, Jeonju modeli ilə uyğun şəkildə tətbiq edilə bilər. Eyni zamanda, UNESCO-nun Kreativ Şəhərlər Şəbəkəsinə qoşulmaq və yerli brendləri beynəlxalq miqyasda tanıtmaq da Azərbaycanın mədəni və iqtisadi strategiyalarına uyğun bir addım olardı.

Estoniyanın paytaxtı Tallinn, rəqəmsal texnologiyaların kreativ turizmdə tətbiqi sahəsində nümunəvi yanaşma ortaya qoymuşdur. "Time Travel in Tallinn" layihəsi çərçivəsində şəhər tarixi Virtual Reallıq (VR) texnologiyası vasitəsilə turistlərə təqdim olunur. Bu təcrübədə turistlər VR dəbilqələri taxaraq şəhərin orta əsr dövrünə "səyahət edir", aktyorlarla səhnələşdirilmiş canlı hadisələri izləyir və interaktiv şəkildə tarixi məkanlarla təmas qururlar (Tussyadiah et al., 2018). Bu yanaşma yalnız məlumat ötürmək deyil, tarixi mədəni irsi emosional və immersiv formatda yaşatmaq məqsədi daşıyır. Layihənin uğuru həm texnoloji yeniliklərin istifadəsi, həm də mədəniyyətin innovativ formatda təqdim olunması ilə bağlıdır. Bu təcrübə turistlərə ənənəvi bələdçi turlarından fərqli olaraq daha yadda qalan, hisslərə yönəlmiş və fərdiləşdirilmiş səyahət təklif edir. Nəticə etibarilə, Tallinn həm rəqəmsal transformasiya, həm də kreativ mədəniyyətin tanıdılması baxımından öncül mövqeyə yüksəlmişdir. Azərbaycan üçün bu model İçərişəhər (Bakı), Şəki Xan Sarayı, Qala arxeoloji kompleksi, Qobustan Qaya Sənətləri, Gəncə şəhərinin qədim hissələri və Ordubaddakı tarixi məkanlar üzrə tətbiq oluna bilər. Məsələn, "Bakı VR – Tarixin İçində" adlı layihə çərçivəsində turistlər VR eynəkləri ilə qədim Şirvanşahlar sarayını, ya da Qız Qalasını tarixi dövrlərdə gəzə bilər. Bu, həm mədəni irsin innovativ təqdimatı, həm də rəqəmsal turizm məhsullarının yaradılması baxımından əhəmiyyətlidir. Bunun üçün Azərbaycanda startaplar, texnologiya şirkətləri və mədəniyyət qurumları arasında əməkdaşlıq, rəqəmsal turizm məhsullarına dövlət dəstəyi, və turizm təlimlərinə VR/AR modullarının əlavə olunması məqsədəuyğun olardı. Tallinn nümunəsi sübut edir ki, rəqəmsallaşma təkcə informativ vasitə deyil, həm də kreativ təcrübə dəyəri yaradan strateji vasitə ola bilər.

Kosta Rika, kreativ turizmin ekoloji dayanıqlı formalarla sintezi sahəsində dünyada öncül mövqe tutur. "Greentique Hotels" proqramı çərçivəsində tətbiq olunan eko-kreativ turizm modeli, turistlərə yalnız təbiət qoynunda istirahət imkanı təqdim etmir, eyni zamanda mədəniyyət, sənət və ətraf mühit arasında harmoniyanı yaşadır. Proqram çərçivəsində turistlər orqanik kulinariya dərsləri, əl işləri üzrə ustad dərsləri, təbii boyalarla toxuculuq, eləcə də mühafizə olunan ərazilərdə interaktiv ekoloji fəaliyyətlərdə iştirak edirlər (Honey, 2008). Bu fəaliyyətlər həm mədəni irsi yaşadır, həm də ətraf

mühitə minimum təsirlə həyata keçirilir. Greentique modeli, ekoturizm və kreativ turizmin birgə təqdimatı ilə yeni nəsil turistlərin sosial və ekoloji məsuliyyət gözləntilərini qarşılayır. Burada əsas məqsəd kütləvi turizmin ətraf mühitə yaratdığı təzyiqi azaltmaq, yerli icmalara dayanıqlı gəlir mənbələri yaratmaq və təbiət-mədəniyyət balansını qorumaqdır. Kosta Rikanın bu sahədə uğur qazanması həm yerli icmaların aktiv iştirakı, həm də dövlətin ekoloji turizm siyasətinə verdiyi prioritet dəstəklə izah olunur. Bu model Azərbaycan üçün də əhəmiyyətli tətbiq potensialına malikdir. Xüsusilə Lənkəran, Lerik, Quba, Qusar, Tovuz və Zaqatala kimi təbii və mədəni resurslarla zəngin bölgələrdə eko-kreativ marşrutlar formalaşdırıla bilər. Məsələn, turistlər kənd şəraitində orqanik məhsullarla milli yeməklər hazırlaya bilər, yerli ustalarla birlikdə şərti üsullarla tikmə və toxuculuq öyrənə bilər, müalicəvi bitkilərlə işləmə və biomədəni irsə əsaslanan turizm fəaliyyətlərində iştirak edə bilərlər. Bunun üçün Azərbaycan turizm siyasətində eko-kreativ turizmə xüsusi yer ayrılması, yaşıl sertifikat sisteminin tətbiqi, regionlarda təbii və mədəni resurslara əsaslanan kreativ klasterlərin yaradılması və ətraf mühitə həssas turizm infrastrukturunun inkişafı təşviq edilməlidir. Kosta Rika nümunəsi göstərir ki, kreativ turizm yalnız iqtisadi deyil, həm də sosial və ekoloji dəyər yaradan çoxsahəli bir model ola bilər.

Bu nümunələr göstərir ki, kreativ turizmin uğurlu tətbiqi yerli mədəniyyətin aktiv istifadəsi, icma iştirakı və rəqəmsal innovasiyalarla sintez nəticəsində mümkün olur.

Nəticə və təkliflər.

Aparılan təhlillər göstərdi ki, kreativ turizm beynəlxalq turizm bazarında yüksələn və gələcək üçün strateji əhəmiyyət daşıyan bir istiqamətə çevrilmişdir. Ənənəvi turizm modellərinin məhdudiyyətləri fonunda kreativ turizm fərdiləşdirilmiş, mədəniyyətlə birbaşa əlaqəyə əsaslanan və sosial dəyər yaradan təcrübələr təklif etməklə fərqlənir. Bu turizm növünün inkişafı müxtəlif təsir amillərinin — iqtisadi, sosial-mədəni, texnoloji, institusional və ekoloji faktorların — qarşılıqlı təsiri nəticəsində baş verir. Əldə olunan nəticələrə əsasən, yüksək gəlirli turist qruplarının təcrübə əsaslı turizmə yönəlməsi, sosial medianın təsiri ilə unikal və paylaşılabilən məzmun axtarışının artması, post-pandemiya dövründə fərdi və məsuliyyətli turizmə marağın güclənməsi kreativ turizmin artımını stimullaşdıran başlıca qlobal trendlərdir. Digər tərəfdən, dövlət siyasətləri, yerli icmaların iştirakı, rəqəmsal texnologiyaların tətbiqi və ekoloji məsuliyyət prinsipləri kreativ turizmin effektiv və dayanıqlı inkişafı üçün həlledici amillər kimi çıxış edir. Beynəlxalq təcrübələr göstərir ki, kreativ turizmin uğurlu tətbiqi üçün sistemli yanaşma, koordinasiyalı siyasət, yerli səviyyədə təşəbbüskarlıq və davamlı dəstək mexanizmləri zəruridir. İspaniya, Cənubi Koreya, Tailand və Estoniya kimi ölkələrin nümunələri bu sahədə strateji yanaşmanın real nəticələr verdiyini sübut edir. Beləliklə, kreativ turizm yalnız iqtisadi dəyər yaradan turizm forması deyil, həm də mədəni irsin qorunması, sosial inklüzivliyin təşviqi, və davamlı inkişaf hədəflərinə uyğunlaşan transformativ bir yanaşmadır.

Kreativ turizmin beynəlxalq turizm bazarında uğurla inkişaf etdirilməsi və davamlı şəkildə möhkəmləndirilməsi üçün aşağıdakı strateji və praktiki təkliflər irəli sürülür:

1. Milli və regional turizm strategiyalarına kreativ turizmin inteqrasiyası: Kreativ turizm konsepti müstəqil təşəbbüslər çərçivəsində deyil, dövlət səviyyəli turizm planlamasında prioritet istiqamət kimi yer almalıdır. Bu, həm uzunmüddətli inkişafı təmin edər, həm də sahənin institusional möhkəmlənməsinə şərait yaradar.
2. Yerli icmaların təşviqi və bilik gücləndirilməsi: Kreativ turizmin əsas dayaqlarından biri yerli icmaların iştirakı və sahiblənməsidir. Bu məqsədlə regionlarda təlimlər, bacarıq artırma proqramları və mikro-maliyyə dəstəkləri təşkil olunmalıdır.
3. Startaplar və mikrobizneslər üçün güzəştli dəstək mexanizmləri: Kreativ məhsul və xidmətlər təqdim edən sahibkarlara vergi güzəştləri, qrantlar və dövlət-özəl tərəfdaşlıq çərçivəsində dəstək paketləri hazırlanmalıdır.
4. Rəqəmsal texnologiyaların tətbiqi və təşviqi: Kreativ təcrübələrin tanıdılması və yayılması üçün VR/AR texnologiyaları, rəqəmsal platformalar və sosial media aktiv şəkildə istifadə olunmalı, həmçinin bu sahədə rəqəmsal bacarıqlar inkişaf etdirilməlidir.
5. Davamlılıq və ekoloji prinsiplərin inteqrasiyası: Kreativ turizm fəaliyyətləri planlaşdırılarkən ətraf mühitə minimum təsir prinsipi əsas götürülməli, yerli və təkrar istifadə olunan resurslardan istifadə təşviq olunmalıdır.
6. Beynəlxalq əməkdaşlıq və təcrübə mübadiləsi: Uğurlu beynəlxalq modellər öyrənilərək yerli şəraitə uyğunlaşdırılmalı, müxtəlif ölkələr arasında kreativ turizm sahəsində bilik, təcrübə və layihə əsaslı əməkdaşlıq gücləndirilməlidir.
7. Monitorinq və qiymətləndirmə mexanizmlərinin qurulması: Kreativ turizmin iqtisadi, sosial və mədəni təsirlərini ölçmək üçün davamlı izləmə sistemləri və indikator bazaları yaradılmalı, qərarvermə elmi əsaslarla həyata keçirilməlidir.

Bu təkliflərin həyata keçirilməsi, kreativ turizmin beynəlxalq bazarda daha rəqabətqabiliyyətli, sosial

və ekoloji baxımdan isə daha davamlı bir model kimi möhkəmlənməsinə ciddi töhfə verə bilər.

ƏDƏBİYYAT SİYAHISI

1. Bakas, F. E., Duxbury, N., & Vinagre de Castro, T. (2019). Creative tourism: Catalysing artisan entrepreneur networks in rural Portugal. International Journal of Entrepreneurial Behavior & Research, 25(4), 731–752. https://doi.org/10.1108/IJEBR-03-2018-0177
2. Butler, R. W. (1999). Sustainable tourism: A state-of-the-art review. Tourism Geographies, 1(1), 7–25. https://doi.org/10.1080/14616689908721291
3. Gretzel, U., Sigala, M., Xiang, Z., & Koo, C. (2015). Smart tourism: Foundations and developments. Electronic Markets, 25(3), 179–188. https://doi.org/10.1007/s12525-015-0196-8
4. Honey, M. (2008). Ecotourism and Sustainable Development: Who Owns Paradise? (2nd ed.). Washington, DC: Island Press.
5. Jenkins, H. (2006). Convergence Culture: Where Old and New Media Collide. New York: New York University Press.
6. Kontogeorgopoulos, N., Churyen, A., & Duangsaeng, V. (2015). Success factors in community-based tourism in Thailand: The role of luck, external support, and local leadership. Tourism Planning & Development, 12(3), 333–353. https://doi.org/10.1080/21568316.2014.955375
7. Mariani, M. M., Di Felice, M., & Mura, M. (2016). Facebook as a destination marketing tool: Evidence from Italian regional destination management organizations. Tourism Management, 54, 321–343. https://doi.org/10.1016/j.tourman.2015.12.008
8. OECD. (2014). Tourism and the Creative Economy. Paris: OECD Publishing. https://doi.org/10.1787/9789264207875-en
9. Richards, G., & Raymond, C. (2000). Creative tourism. ATLAS News, (23), 16–20.
10. Richards, G. (2014). Creativity and tourism in Barcelona. In G. Richards & W. Munsters (Eds.), Cultural Tourism Research Methods (pp. 109–118). Wallingford: CABI Publishing.
11. Tussyadiah, I. P., Wang, D., Jung, T. H., & tom Dieck, M. C. (2018). Virtual reality, presence, and attitude change: Empirical evidence from tourism. Tourism Management, 66, 140–154. https://doi.org/10.1016/j.tourman.2017.12.003
12. UNCTAD. (2010). Creative Economy Report 2010: Creative Economy – A Feasible Development Option. Geneva: United Nations Conference on Trade and Development. https://unctad.org/system/files/official-document/ditctab20103_en.pdf
13. UNESCO. (2021). Rebuilding Tourism for the Future: COVID-19 Policy Response and Recovery. Paris: United Nations Educational, Scientific and Cultural Organization.
14. UNEP. (2021). Green Recovery: Rebuilding a Sustainable Tourism Sector. Nairobi: United Nations Environment Programme.
15. UNWTO. (2021). Tourism and the Creative Economy: Case Studies from Around the World. Madrid: World Tourism Organization.
16. Yoon, J., & Park, S. (2020). Creative tourism policy and practice in Jeonju, Korea: Local governance and festival-based development. Journal of Tourism and Cultural Change, 18(5), 543–560p. https://doi.org/10.1080/14766825.2019.1627968

DOİ: 10.32010/BEKB8948

ABŞERON-XIZI İQTİSADİ RAYONUNUN NƏQLİYYAT STRUKTURUNUN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

Vüsalə Rüstəm ƏKBƏRLİ
Bakı Dövlət Universiteti
Orcid: https://orcid.org/0009-0003-1729-2759
E-mail: vusalaakbarli@bsu.edu.az

Xülasə: Azərbaycanın əhəmiyyətli nəqliyyat mərkəzlərindən biri hesab olunan Abşeron-Xızı iqtisadi rayonu həmçinin strateji əhəmiyyət daşıyır. İqtisadi rayonda nəqliyyat infrastrukturu avtomobil yolları, dəmir yolları, dəniz nəqliyyatı vasitələrindən ibarətdir. Regionun tranzit imkanlarının genişlənməsinin əsas səbəbi Bakı şəhərinə yaxın yerləşmə, limanlara çıxış imkanının olmasıdır. Abşeron-Xızı iqtisadi rayonunun nəqliyyat sisteminin çevik və səmərəli olması yol şəbəkəsinin modernləşdirilməsi, yeni nəqliyyat marşrutlarının qurulması eləcə də logistika sahəsinin inkişafı ilə əlaqədardır. Müasir nəqliyyat infrastrukturu təbii-coğrafi şərait və relyefin bəzi məhdudiyyətlərə səbəb olmasına baxmayaraq formalaşır. Abşeron-Xızı iqtisadi rayonu Azərbaycan Respublikasının mühüm inkişaf edən bölgələrindən biri olmaqla nəqliyyat infrastrukturunun inkişafında regionun sosial-iqtisadi tərəqqisi üçün mühüm əhəmiyyət daşıyır. Coğrafi mövqe baxımından bu iqtisadi rayon ölkənin mərkəzi hissəsində yerləşməklə, Bakı şəhəri və əsas beynəlxalq nəqliyyat dəhlizlərinə yaxınlığı ilə seçilir. Qeyd olunan bu amillər nəqliyyat sisteminin sürətli və məqsədyönlü inkişafını stimullaşdırır. Rayon ərazisində avtomobil yolları, dəmir yolları genişləndirilməsi regionun logistika potensialını və bu iqtisadi rayonun strateji əhəmiyyətini daha da artırır. Nəqliyyat infrastrukturuna qoyulan dövlət investisiyaları, yeni nəqliyyat qovşaqlarının yaradılması və müasir texnologiyaların tətbiqi müşahidə olunur. Bu inkişaf tendensiyaları Abşeron-Xızı rayonunda sənaye, kənd təsərrüfatı və turizm sahələrinin də əlaqəli şəkildə inkişafına zəmin yaradır. Gələcəkdə bu iqtisadi rayonda "yaşıl enerji" və "ağıllı şəhər" konseptləri ilə uyğunlaşdırılmış nəqliyyat sistemlərinin qurulması planlaşdırılır ki, bu da dayanıqlı inkişaf məqsədlərinə xidmət edəcək. Ümumilikdə, nəqliyyat strukturunun inkişafı Abşeron-Xızı iqtisadi rayonunun regional və beynəlxalq inteqrasiyasını gücləndirən əsas amillərdəndir. Bu çərçivədə nəqliyyatın rəqəmsallaşdırılması, ekoloji dayanıqlılıq və innovativ texnologiyaların tətbiqi də regional inkişaf strategiyalarının ayrılmaz hissəsinə çevrilmişdir. Ümumilikdə, Abşeron-Xızı iqtisadi rayonunda nəqliyyat infrastrukturunun davamlı inkişafı regionun sosial rifahına və iqtisadi dinamikasına müsbət təsir göstərir.
Açar sözlər: Abşeron-Xızı iqtisadi rayonu, nəqliyyat infrastrukturu, logistika

DEVELOPMENT FEATURES OF THE TRANSPORT STRUCTURE OF THE ABSHERON-KHIZI ECONOMIC REGION

Vusala Rustam AKBARLİ
Baku State University
Orcid: https://orcid.org/0009-0003-1729-2759
E-mail: vusalaakbarli@bsu.edu.az

Abstract: The Absheron-Khizi Economic Region, one of Azerbaijan's significant transportation hubs, also holds strategic importance. The transportation infrastructure within the economic region comprises highways, railways, and maritime transport. The primary reason for the expansion of the region's transit potential is its proximity to Baku city and access to ports. The flexibility and efficiency of the Absheron-Khizi economic region's transportation system are associated with the modernization of road networks, the establishment of new transportation routes, and the development of the logistics sector. Despite certain limitations caused by natural-geographical conditions and terrain, the contemporary transportation infrastructure is being formed.

Being one of the crucial developing regions of the Republic of Azerbaijan, the Absheron-Khizi economic region plays a vital role in the socio-economic progress of the area through the development of transportation infrastructure. Geographically, this economic region is located in the central part of the country, distinguished by its proximity to Baku city and major international transport corridors. These factors stimulate the rapid and targeted development of the transportation system. The expansion of highways and railways within the region further enhances its logistics potential and strengthens its strategic importance.

There is noticeable state investment in transportation infrastructure, the creation of new transport hubs, and the application of modern technologies. These development trends create a foundation for the integrated growth of industry, agriculture, and tourism sectors in the Absheron-Khizi region. In the future, the region plans to establish transportation systems

aligned with "green energy" and "smart city" concepts, contributing to sustainable development objectives. Overall, the advancement of the transportation structure is one of the key factors enhancing both regional and international integration of the Absheron-Khizi economic region. Within this framework, digitalization of transport, ecological sustainability, and the implementation of innovative technologies have become integral components of regional development strategies. In general, the continuous development of transportation infrastructure in the Absheron-Khizi economic region positively influences the region's social welfare and economic dynamics.
Keywords: Absheron-Khizi economic region, transportation infrastructure, logistics

ОСОБЕННОСТИ РАЗВИТИЯ ТРАНСПОРТНОЙ СТРУКТУРЫ АБШЕРОН-ХЫЗЫНСКОГО ЭКОНОМИЧЕСКОГО РАЙОНА

Вюсала Рустам АКПЕРЛИ
Бакинский Государственный Университет
Orcid: https://orcid.org/0009-0003-1729-2759
Электронная почта: vusalaakbarli@bsu.edu.az

Резюме: Абшерон-Хызы экономический район, являющийся одним из значимых транспортных центров Азербайджана, также имеет стратегическое значение. Транспортная инфраструктура региона включает автомобильные дороги, железные дороги и морской транспорт. Основной причиной расширения транзитных возможностей региона является близость к городу Баку и наличие выхода к портам. Гибкость и эффективность транспортной системы Абшерон-Хызы связаны с модернизацией дорожной сети, созданием новых транспортных маршрутов, а также развитием логистической сферы. Современная транспортная инфраструктура формируется, несмотря на некоторые ограничения, вызванные природно-географическими условиями и рельефом.
Абшерон-Хызы экономический район является одним из важных развивающихся регионов Азербайджанской Республики и играет ключевую роль в социально-экономическом прогрессе региона благодаря развитию транспортной инфраструктуры. Географически район расположен в центральной части страны и выделяется близостью к городу Баку и основным международным транспортным коридорам. Эти факторы стимулируют быстрое и целенаправленное развитие транспортной системы. Расширение автомобильных и железных дорог на территории района увеличивает логистический потенциал региона и усиливает его стратегическое значение. Наблюдается государственное инвестирование в транспортную инфраструктуру, создание новых транспортных узлов и внедрение современных технологий. Эти тенденции создают предпосылки для комплексного развития промышленности, сельского хозяйства и туризма в Абшерон-Хызы. В будущем планируется создание транспортных систем, адаптированных к концепциям «зелёной энергетики» и «умного города», что будет способствовать достижению целей устойчивого развития.
В целом, развитие транспортной структуры является одним из ключевых факторов, укрепляющих региональную и международную интеграцию Абшерон-Хызы экономического района. В рамках этой стратегии цифровизация транспорта, экологическая устойчивость и применение инновационных технологий стали неотъемлемой частью региональных программ развития. Постоянное развитие транспортной инфраструктуры в Абшерон-Хызы оказывает положительное влияние на социальное благосостояние и экономическую динамику региона.
Ключевые слова: Абшеронско-Хызынский экономический регион, транспортная инфраструктура, логистика

Giriş

Uzun illərdir nəqliyyatın iqtisadi inkişafda vacib rolu danılmazdır. İqtisadi əlaqələrin inkişafı XX əsrdə qlobal səviyyədə nəqliyyatın inkişafına təsir göstərmişdir. Nəqliyyat vasitələri bəşəriyyətin ən mühüm ixtiralarından biri sayılır, belə ki, onun vasitəsilə insanlar, əmək məhsulları, istehsal alətləri bir yerdən başqa yerə daşınır. Təbii-coğrafi şərait, relyef də nəqliyyatına inkişafına mühüm təsir edən amillərdəndir. İnzibati baxımdan Abşeron rayonu, Xızı rayonu və Sumqayıt şəhərindən ibarət olan, Azərbaycanın şimal-şərqində yerləşən və ən mühüm logistika, sənaye xidmət mərkəzlərindən biri olan Abşeron-Xızı iqtisadi rayonunun ümumi sahəsi 3730 km², əhalisi isə 579,9 min nəfərdir. Bu iqtisadi rayon magistral avtomobil və dəmir yollarının keçməsi, həmçinin Xəzər dənizinə çıxışı baxımından vacib strateji əhəmiyyətə malikdir. Abşeron-Xızı iqtisadi rayonunun əlverişli coğrafi mövqeyi onu həm Şimal–Cənub, həm də Şərq–Qərb beynəlxalq nəqliyyat marşrutları üçün mühüm tranzit məntəqəsinə çevirir, bu isə tranzit funksiyasını gücləndirir. İqtisadi rayonun ərazisindən keçən Bakı–Sumqayıt dəmir yolu xətti və Bakı–Quba–Rusiya avtomobil yolu ölkənin nəqliyyat strategiyagiyasında bu rayonun əhəmiyyətini yüksəldir. Bu iqtisadi rayon Azərbaycan Respublikası üzrə ən yüksək urbanizasiya olan ərazilərdən biridir, belə ki, əhali əsasən Abşeron, Sumqayıtda cəmləşib.Yüksək əhali sıxlığı nəqliyyat


infrastrukturu üzərində yüklənməyə səbəb olur, bu isə yeni nəqliyyat həllərinin tətbiqini tələb edir.

Nəqliyyat strukturunun formalaşma tarixi

Abşeron-Xızı iqtisadi rayonunda nəqliyyat sistemi XIX əsrin ikinci yarısından etibarən formalaşmağa başlayıb, belə ki, bu mərhələyə əsasən Bakı–Sumqayıt–Xızı xətti boyunca iqtisadi, sənaye obyektlərinin yaranması təsir göstərmişdir. 1949-cu ildə Sumqayıt şəhərinin şəhər statusu alması, həmçinin kimya sənayesinin inkişafı nəqliyyata olan tələbatı yüksəltdi. Bu mərhələdə Bakı–Sumqayıt dəmir yolu xətti istismara verildi, həmçinin Bakı–Quba avtomobil magistralının ilk versiyası 1950-ci ildə tamamlandı. Azərbaycan müstəqillik əldə etdikdən sonra nəqliyyat sektorunda yenidənqurma işləri başladı, bu mərhələdə Bakı–Sumqayıt şosesi genişləndirildi, magistral yolun yenidənqurulması Bakı–Quba–Rusiya sərhədi istiqamətində başlandı (Mehrəliyev E.Q., 2003). Beynəlxalq nəqliyyat dəhlizlərinə inteqrasiya siyasəti regiona tranzit əhəmiyyət verib, TRACECA və Şimal-Cənub Dəhlizi layihələri çərçivəsində yol infrastrukturu yenilənib. 2010-cu ildən sonra regionun nəqliyyat sektorunda layihələr tətbiq olundu. Bu layihələrə 2015-ci ildə Bakı–Sumqayıt elektrik qatarı xəttinin bərpası, Bakı–Quba–Rusiya sərhədi magistralının yenidən qurulması, Sumqayıt şəhərində daxili yolların genişləndirilməsi, yeni körpülərin tikilməsi aiddir (Əfəndiyev V.Ə., Nağıyev S.Q., 2017). Nəticədə Abşeron-Xızı iqtisadi rayonu mühüm logistika mərkəzlərindən biri olmuşdur. Bu iqtisadi rayonun Bakıya yaxınlığı, beynəlxalq dəhlizlərin kəsişməsində yerləşməsi, Xəzər dənizinə çıxış infrastrukturun strateji əhəmiyyətini yüksəldir.

Avtomobil yollari


Abşeron-Xızı iqtisadi rayonun avtomobil yolları respublika daxilində, həmçinin beynəxalq daşımalar üçün mühüm rol oynayır. Bu iqtisadi rayonun əsas magistral yollarına M1 Bakı–Quba–Rusiya dövlət sərhədi magistral yolu, M2 Bakı–Ələt–Qazax–Gürcüstan sərhədi avtomobil yolu, R2 Giləzi–Xızı avtomobil yolu aiddir. İqtisadi rayonun yolları ölkə daxili, həmçinin beynəlxalq əhəmiyyətli daşımalar üçün mühümdür. Hətta 2027-ci ilin sonuna qədər Bakı, Sumqayıt şəhərlərini əlaqələndirəcək avtomobil yolunun tikintisi nəzərdə tutulub. 2024-cü ilin statistik göstəricilərini əsas tutaraq qeyd edə bilərik ki, orta gündəlik nəqliyyat axını Sumqayıt-Bakı istiqamətində 50 min avtomobil/gün təşkil edir. Bu göstəriciyə əsasən bu nəticəyə gələ bilərik ki, həm sərnişin, həm də yük daşımalarının səviyyəsi yüksəkdir.



Diaqram 1. Avtomobil nəqliyyatı ilə yük daşınması, milyon sərnişin-km
Mənbə. Stat.gov.az


Diaqrama əsasən qeyd edə bilərik ki, avtomobil nəqliyyatı ilə yük dövriyyəsində olduğu kimi sərnişin dövriyyəsində də Sumqayıt şəhəri xüsusilə seçilir. Ümumi sərnişin dövriyyəsinin 95%-i bu şəhərin payına düşür. Bu yüksək nəticənin səbəbi isə urbanizasiya səviyyəsi, yüksək əhali sıxlığı ilə bağlıdır. Bu göstəriciyə təsir edən mühüm amillərdən biri də şəhərlərarası, şəhərdaxili marşrut şəbəkəsinin genişliyidir.

Abşeron rayonu isə 4%-lik nəticə ilə ikinci yerdədir. Göstəricinin səbəbi yaşayış məntəqələrinin sayının yüksək olması, əhalinin gündəlik mobil hərəkətliliyi ilə bağlıdır. Bu rayonun Sumqayıtdan sərnişin dövriyyəsi göstəricisinin az olması əhalinin nisbətən azlığı, nəqliyyat imkanlarının məhdudluğudur. Abşeron-Xızı iqtisadi rayonunun inzibati vahidləri içərisində Xızı rayonu sərnişin dövriyyəsi göstəricisinə əsasən üçüncü yerdədir. Bu nəticənin əsas səbəbi rayonda əhali sıxlığının az olması ilə əlaqələndirilir. Bu diaqramdan da aydın olur ki, sosial iqtisadi aktivliyin və yüksək urbanizasiya səviyyəsinin olduğu ərazilərdə sərnişin dövriyyəsi yüksəkdir.



Qrafik 1. Avtomobil nəqliyyatı ilə yük daşınması, min ton
Mənbə. Stat.gov.az

2015-2023-cü illərdə Abşeron-Xızı iqtisadi rayonunda avtomobil nəqliyyatı ilə yük daşımalarının həcmi dəyişkəndir. Belə ki, 2015-ci ildə bu göstərici 5058 min t təşkil etdiyi halda 2020-ci ildə azalma müşahidə olunmuş 3859 min t olmuşdur. Bu müddətdə olan geriləmə qlobal iqtisadi böhran, pandemiya dövrünün yaratdığı məhdudiyyətlərlə əlaqədar olmuşdur. 2021-ci ildə isə az da olsa artım müşahidə olunmuş daşınan yüklərin həcmi 3904 min t çatmışdır. 2023-cü ildə artım davam etmiş 5275 min t yüksəlmişdir. Bu göstərici 2015-ci ildəki göstəricilərdən də yüksək olmaqla regionun nəqliyyat infrastrukturunun bərpası, inkişafın real nəticəsinin əks etdirir. Ümumilikdə 2015–2023-cü illər ərzində 4,3% artım müşahidə edilmişdir.



Qrafik 2. Avtomobil nəqliyyatı ilə sərnişin daşınması, min sərnişin

Statistik göstəricilərə əsasən qeyd edə bilərik ki, 2015-ci ildə daşınan sərnişinlərin sayı 131767 min nəfər olmuşdur. 2020-ci ildə pandemiya ilə bağlı olaraq sərnişinlərin hərəkətinə tətbiq olunan məhdudiyyətlər nəticəsində kəskin azalma müşahidə edilmiş, bu göstərici 85 219 min nəfərə enmişdir. 2021-ci ildə olan müəyyən bərpa prosesləri ilə bağlı olaraq daşınan sərnişinlərin sayı 87116 min nəfərə yüksəlmişdir. 2022-ci ildə isə bu say 113017 min nəfər olduğu 2023-cü ildə isə ən yüksək artım müşahidə olunaraq 140697 min nəfərə çatmışdır. Artımın səbəbi nəqliyyat infrastrukturunun inkişafı, əhalinin mobilliyi yüksəlməsidir. 2015–2023-cü illərdə sərnişin daşınmasının həcmində ümumilikdə 8,8% artım müşahidə olunmuşdur. Bu statistikadan belə nəticəyə gələ bilərik ki, əhalinin gündəlik tələbatını qarşılamaqda avtomobil nəqliyyatı mühüm rol oynayır.

Cədvəl 1. Abşeron-Xızı iqtisadi rayonunun nəqliyyat sistemində avtomobillərin sayı

	2015	2020	2021	2022	2023
Avtomobillərin sayı, ədəd	60430	78762	84018	88766	94196
yük avtomobilləri	6647	7865	8214	8677	9243
sərnişin avtobusları	2038	2243	2214	2176	2149
sərnişin minik avtomobilləri	50881	67561	72397	76707	81502
ondan şəxsi minik avtomobilləri	49642	65900	70682	74842	79621

Mənbə. Stat.gov.az


2015–2023-cü illərdə Abşeron-Xızı iqtisadi rayonunda avtomobillərin sayında artım müşahidə olunmuşdur, belə ki, 2015-ci ildə avtomobillərin sayı 60430 ədəd olduğu halda 2023-cü ildə 56% artım olmuş, avtomobillərin sayı 94196 ədədə çatmışdır.

Yük avtomobillərinin sayında 2023-cü ildə isə 39% artım müşahidə olunmuş yəni, 9243 ədədə çatmışdır. Bu isə regionda iqtisadi fəaliyyətin artımı, daşımaların intensivləşməsi ilə əlaqədardır. Sərnişin avtobuslarının sayında isə qeyd olunan müddətdə 5,4% artım olmuş 2149 ədədə çatmışdır. Sərnişin minik avtomobillərində isə daha yüksək artım (60% artım) müşahidə olunmuş 81502 ədədə yüksəlmişdir. Onların içində şəxsi minik avtomobilləri xüsusilə seçilir, qeyd olunan müddətdə təxminən 60% artım deməkdir. Ümumiyyətlə avtomobillərin sayında ən əsas yer şəxsi minik avtomobillərin payına düşür.

Dəmiryolu şəbəkəsi. Bu iqtisadi rayonun dəmiryolu şəbəkəsi əsasən Bakı–Sumqayıt xətti istiqamətində inkişaf edib, Bakı–Sumqayıt sərnişin qatarı gündəlik 36 reys, Sumqayıt yük stansiyası isə xammal, məhsul daşımalarının əsas qovşağıdır.

Xızı rayonunda isə dəmiryolu yoxdur. 2020-ci ildən isə yeni elektrik qatarları, yol infrastrukturu müasir standartlara uyğunlaşdırılmışdır.

Nəqliyyat-logistika mərkəzləri. Əsas sənaye logistika mərkəzlərinə Sumqayıt Kimya Sənaye Parkı və Sumqayıt Texnologiyalar Parkı aiddir, belə ki, burada istehsal olunan məhsullar daxili bazar, həmçinin xaric bazar üçün daşınır. 2023-cü ilin statistikasına əsasən qeyd edə bilərik ki, regiondax ixrac olunan məhsulların 10%-i isə dəniz nəqliyyatı, 25%-i dəmir yolu və 65%-i avtomobil nəqliyyatı ilə daşınmışdır.



Qrafik 3. Avtomobil nəqliyyatı ilə yük dövriyyəsi (milyon ton-km)
Mənbə. Stat.gov.az

Statistik göstəricilərə əsasən qeyd edə bilərik ki, avtmobil nəqliyyatı ilə həyata keçirilən yük dövriyyəsi Abşeron-Xızı iqtisadi rayonunda inzibati rayon vahidləri üzrə qeyri-bərabər paylanmışdır. Diaqrama əsasən qeyd edə bilərik ki, yük dövriyyəsinin mühüm hissəsi yəni, 71%-i Sumqayıt şəhərinin payına düşür. Səbəbi isə şəhərdə sənaye sahələrinin, nəqliyyat infrastrukturunun yüksək səviyyədə inkişafı, iqtisadi aktivliklə əlaqəli ola bilər. Yük dövriyyəsinin 22%-i Abşeron rayonun, 7%-i isə Xızı rayonunun payına düşür. Abşeron rayonunda kənd təsərrüfatı, tikinti sektoru inkişafı nəticəsində avtomobil nəqliyyatına tələbat artır. Xızı rayonu isə digər inzibati rayonlarla müqayisədə daha aşağı göstəriciyə malikdir, səbəb isə iqtisadi potensialın məhdud olması və əhali sıxlığının az olması ilə əlaqədardır. Diaqrama əsasən qeyd etmək olar ki, avtomobil nəqliyyatı ilə həyata keçirilən yük dövriyyəsinin mühüm hissəsi sənaye, infrastruktur baxımından inkişaf etmiş ərazilərin payına düşür. Bu isə iqtisadi inkişafla nəqliyyat arasında qarşılıqlı əlaqəni sübutudur.

Xızı rayonu turizm potensialı istiqamətindən xüsusilə seçilir, turizm mövsümündə Bakı–Xızı istiqamətində nəqliyyat axını 1,5–2 dəfə yüksəlir, nəticədə də yolların yüklənməsinə səbəb olur.

Nəqliyyat strukturunun inkişaf problemləri və perspektivləri. Nəqliyyat strukturunda olan müəyyən problemlər davamlı inkişafı məhdudlaşdıra bilər. Belə ki, bu problemlərə yol şəbəkəsinin yüklənməsi, modernizasiyaya ehtiyac, dəmiryol potensialının tam istifadə olunmaması aid edilə bilər (Əfəndiyev V.Ə. 2002).

Köhnə avtomobillərin ətraf mühitə təsiri, nəqliyyat vasitələrinin çoxluğu ekoloji problemlərə səbəb olur. Sumqayıt və Abşeron rayonlarında xüsusilə seçilir. Həmçinin mövsümi olaraq Xızı rayonunda nəqliyyat infrastrukturu yüklənir, bu da

tıxaclara səbəb olur, nəticədə sərnişinlərin rahat hərəkətinə çətinliklər yaradır. İnkişaf perspektivlərinə yol şəbəkəsinin yenilənməsi, həmçinin genişləndirilməsi, ekoloji nəqliyyat növünün təşviqi, dəmiryol xidmətinin yaxşılaşdırılması, ağıllı nəqliyyat sisteminin tətbiqi, beynəlxalq tranzit imkanlarının genişləndirilməsi aid edilir.

Nəticə olaraq qeyd edə bilərik ki, Abşeron-Xızı iqtisadi rayonun nəqliyyat sistemi Azərbaycanın nəqliyyat sistemi, həmçinin regionun nəqliyyat sistemində əsas yerə malikdir, Xəzər dənizinə çıxış, beynəlxalq dəhlizlərin kəsişmə nöqtəsində yerləşməsi, coğrafi mövqeyi bu iqtisadi rayonun əhəmiyyətini yüksəldir.

İnkişaf üçün tövsiyələrə aşağıdakılar aiddir:

- Sumqayıt-Bakı, digər əsas magistral yolların yenilənməsi, genişlənməsi
- Dəmiryolunun müasir standartlara uyğun yenilənməsi, investisiyaların cəlb olunması
- Elektrikli, alternativ enerji ilə işləyən vasitələrin istifadəsi
- "Ağıllı" sistemlər tətbiq olunması, tıxacların qarşısının alınması
- Turizm mövsümündə yüklərin azaldılması

Bu tövsiyyələrin həyata keçirilməsi nəticəsində Abşeron-Xızı iqtisadi rayonunda olan nəqliyyat sistemi regional, milli səviyyədə rəqabətliliyi, tranzit əhəmiyyətini yüksəldir.

Nəticə

Tədqiqat nəticələrinə əsasən qeyd edə bilərik ki, regionun əsas nəqliyyat infrastrukturu avtomobil, dəmiryolu, dəniz nəqliyyatı vasitələrindən ibarət olub mühüm yenilənmə mərhələsindən keçib. Urbanizasiya səviyyəsi, həmçinin sənaye potensialı ilə əlqaədar olaraq nəqliyyat sisteminə böyük yük düşür, nəticədə də bir sıra problemlər yaranır. Turizm sektorunun inkişafı Xızı rayonun nəqliyyat həllinin çevik, səmərəli təşkilini tələb edir. Nəqliyyat sisteminin modernləşdirilməsi ilə əlaqədar aparılan işlər, ağıllı nəqliyyat sisteminin tətbiqi, ekoloji cəhətdən təmiz nəqliyyat vasitələrinin istifadəsi, həmçinin beynəlxalq tranzit imkanlarının artması

Azərbaycanın regiondakı nəqliyyat-geostrateji mövqeyinin yüksəldəcək. Abşeron-Xızı iqtisadi rayonunun nəqliyyat sistemi regional, milli səviyyədə rəqabət qabiliyyətini, həmçinin Azərbaycanın tranzit potensialını yüksəldəcək.

ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Dövlət İqtisad Universiteti "Regionların sosial-iqtisadi inkişaf problemləri", 328 s.
2. Əfəndiyev V.Ə., Nağıyev S.Q. (2017). Geourbanistika, Bakı, 271
3. Əfəndiyev V.Ə. (2015). Müasir mərhələdə Azərbaycanın şəhər əhalisinin sayının dinamikası. Coğrafiya və təbii resurslar,1.
4. Eminov Z.N. (2005). Azərbaycanın əhalisi, Bakı. Çıraq, 656 s.
5. Eminov Z.N. (2006). Azərbaycanda əhalinin məşğulluq problemləri // AMEA xəbərləri, "Yer elmləri" seriyası, 4, 81-86.
6. Eminov Z.N. (2007). Əhalinin hayat səviyyəsi və demoqrafik vəziyyəti / Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri. XI cild. Bakı, 265-274.
7. Məmmədov R.M., Eminov Z.N., Əyyubov N.H. (2016). Əhali coğrafiyasının reallıqları: inkişaf dinamiksı, məskunlaşma, resurslar və perspektivləri. Müstəqillik yollarında, Bakı, Şərq-Qərb
8. Mehrəliyev E.Q. (2003). Azərbaycanda demoqrafik proseslərin regional təhlili. Bakı: Elm, , 234 s
9. Нагиев С.К. Демографическая обстановка Азербайджане РГО "Известия", Санкт-Петербург, 2005, 71-77
10. Zakir Eminov Azərbaycan əhalisi. Bakı, 2005, 560
11. Əfəndizadə R.M. (1971). Bakının yaşayış rayonlarının planlaşdırılması və inşaası, Bakı.
12. Əfəndiyev V.Ə., Dəmirqayayev Ş.Q. (1995). Azərbaycan Respublikası şəhərlərinin inkişafının coğrafi məsələləri.
13. Əfəndiyev V.Ə. (2002). Urbanizasiya və Azərbaycanın şəhər yaşayış məskənləri. Bakı.
14. Əfəndiyev V.Ə., Nağıyev S.Q. (2006). Əhali coğrafiyası. Bakı.
15. Xorev B.S. (1975). Şəhərlərin problemləri (Urbanizasiya və vahid məskunlaşma sistemi). Moskva, 482 s.
16. Maksakovski V.P. (2009). Dünyanın coğrafi mənzərəsi. I kitab
17. Nadirov A.A. (1966). Azərbaycanda şəhərlərin iqtisadi inkişaf məsələləri. Bakı, 167 s.

DOİ: 10.32010/FZBO4800

IDENTIFICATION OF HYDROLOGICAL OBJECTS BASED ON REMOTE SENSING (IN THE EXAMPLE OF EAST ZANGAZUR ECONOMIC REGION OF AZERBAIJAN)

Gunay Arif HASANLI
University of Bologna
Department of Agricultural and Food Sciences, ADA University
Agro Research Center, The Ministry of Agriculture of Azerbaijan
Orcid: https://orcid.org/0000-0003-2178-3430
E-mail: gunay.hasanli2@unibo.it

Abstract: The remote sensing has become a revolutionary instrument in hydrological research as it has transformed the manner in which water resources are monitored and managed at various spatial and temporal levels. This paper focuses on the review of the remote sensing application in hydrology, discusses the application of satellite-based data along with sophisticated methods of analysis to evaluate water resources. The study deploys the information of several satellite systems such as RADARSAT, TerraSAR-X, SRTM, EOS, ERS, Sentinel, and LANDSAT showing the effectiveness and usefulness of remote-imaging data in gathering and analytic hydrological data (*Types of Remote Sensing*, 2020), (Bisht, 2024)]. The approach used the K- means clustering analysis with ArcGIS 10.5 software and SNAP program to process and classify satellite images to detect a number of water features such as riverbeds, rivers, watersheds, and glaciers within the study area of choice. Combining the remote sensing data with machine learning and data-driven models can be used to fully monitor such hydrological variables as precipitation, evapotranspiration, snow and ice processes, soil moisture, and changes in terrestrial water reservoirs (Anshu et al., 2024), (Ferguson et al., 2010a). The systematical literature review on the major researches, which illustrate the development and utilization of remote sensing in hydrological modeling, has been taken. The review would include research on both ends of the spectrum, starting with the Ferguson et al. study of various hydrological variables (Ferguson et al., 2010b) all the way to the Sander et al. ground water evaluation methodology in Ghana using multi- sensor methods (Sander et al., 1996a). The assessment shows that Landsat TM, SPOT, and infrared aerial photographs with GPS technology can give solutions to well-siting strategies at a relatively low cost and spatial accuracy is improved (Sander et al., 1996b). Findings show that remote sensing technology has been able to shift its status as a supplementary source of data to being a major instrument of hydrological research, and allows to make observations of various hydrological variables in time and space. The recent decades of technological advancements have made the variety and clarity of available imagery grow dramatically to enable the enhancement of the precision of a water resource evaluation, starting with the regional and up to the global level (Anshu et al., 2024). In the research, it is revealed that remote sensing when combined with Geographic Information Systems (GIS) and Global Positioning Systems (GPS) can greatly increase the hydrological modeling capabilities (Thakur et al., 2017). The results highlight the importance of remote sensing in solving the modern water security problems especially with the growing global water stress levels and climatic variability. The study leads to the development of the accumulated knowledge about multi-platform satellite applications in hydrology and contributes to a methodology framework of the further research based on the use of advanced methods of clustering data and software environment development. The fact that the water features have been successfully identified and categorized confirms the efficiency of the suggested analytical scheme and the fact that the remote sensing technique can be implemented in varied geographical and hydrological conditions.

MƏSAFƏDƏN MÜŞAHIDƏ ƏSASINDA HIDROLOJI OBYEKTLƏRINI DENTIFIKASIYASI (AZƏRBAYCANIN ŞƏRQI ZƏNGƏZUR IQTISADI RAYONUNUN TIMSALINDA)

Günay Arif HƏSƏNLI
Bolonya Universiteti,
ADA Universiteti, Kənd Təsərrüfatı və Qida Elmləri Departamenti
Aqro Araşdırmalar Mərkəzi, Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi,
Orcid: https://orcid.org/0000-0003-2178-3430
E-mail: gunay.hasanli2@unibo.it

Xülasə: Məsafədən müşahidə hidroloji tədqiqatlarda əsas alətə çevrilmişdir, çünki o, müxtəlif məkan və zaman ərzində su ehtiyatlarının monitorinqi və idarə olunması metodunu dəyişdirdi. Bu məqalə hidrologiyada məsafədən müşahidə tətbiqinin nəzərdən keçirilməsinə yönəldilir, su ehtiyatlarının qiymətləndirilməsi üçün mürəkkəb analiz üsulları ilə yanaşı peyk əsaslı məlumatların tətbiqi müzakirə olunur. Tədqiqat RADARSAT, TerraSAR-X, SRTM, EOS, ERS, Sentinel və LANDSAT kimi bir neçə peyk sistemlərinin məlumatlarını əhatə edir, bu da analitik hidroloji məlumatların toplanmasında və uzaqdan görüntüləmə məlumatlarının effektivliyini və faydalılığını göstərir (Types Of Remote Sensing, 2020), (Bisht, 24). Bu yanaşma ArcGIS 10.5 proqramı və SNAP proqramı ilə K-means klaster analizindən istifadə edərək, seçilmiş tədqiqat sahəsi daxilində çay yataqları, çaylar, su hövzələri və buzlaqlar kimi bir sıra su xüsusiyyətlərini aşkar etmək üçün peyk şəkillərini emal etmək və təsnif etmək üçün istifadə edilmişdir. Məsafədən müşahidə məlumatlarının maşın öyrənməsi və verilənlərə əsaslanan modellərlə birləşdirilməsi yağıntı, buxarlanma, qar və buz prosesləri, torpağın rütubəti və yerüstü su dəyişikliklər kimi hidroloji dəyişənləri tam izləmək üçün istifadə edilə bilər (Anshu et al., 2024), (Ferguson et al., 2010a). Hidroloji modelləşdirmədə məsafədən müşahidənin inkişafı və istifadəsini əks etdirən əsas tədqiqatlar üzrə sistemli ədəbiyyat icmalı aparılmışdır (Ferguson et al., 2010b). Qana nümunəsi göstərir ki, Landsat TM, SPOT və infraqırmızı hava fotolarının GPS texnologiyası ilə inteqrasiyası yeraltı suların xəritələnməsi və quyuların yerləşdirilməsi üçün aşağı xərcli və dəqiq həllər təqdim edir. Belə çoxtexnologiyalı yanaşmalar həm məkan, həm də zaman üzrə məlumat boşluqlarını doldurараq miqyaslana bilən hidroloji modelləşdirmə üçün yeni imkanlar yaradır (Sander et al., 1996b). Tapıntılar göstərir ki, məsafədən müşahidə texnologiyası öz statusunu əlavə məlumat mənbəyi kimi hidroloji tədqiqatın əsas alətinə çevirə bilib və müxtəlif hidroloji dəyişənlərin zaman və məkanda müşahidələrini aparmağa imkan verir. Son onilliklərdəki texnoloji irəliləyişlər regional və qlobal səviyyəyə qədər su ehtiyatlarının qiymətləndirilməsinin dəqiqliyini artırmaq üçün mövcud təsvirlərin müxtəlifliyini və aydınlığını kəskin şəkildə artırdı (Anshu et al., 2024). Tədqiqatda, Coğrafi İnformasiya Sistemləri (GIS) və Qlobal Mövqeləşdirmə Sistemləri (GPS) ilə birləşdirildikdə, məsafədən müşahidənin hidroloji modelləşdirmə imkanlarını əhəmiyyətli dərəcədə artıra biləcəyi aşkar edilmişdir (Thakur et al.,
2017). Nəticələr, xüsusən artan qlobal su stress səviyyələri və iqlim dəyişkənliyi ilə müasir su təhlükəsizliyi problemlərinin həllində uzaqdan müşahidənin vacibliyini vurğulayır. Tədqiqat hidrologiyada çox platformalı peyk tətbiqləri haqqında toplanmış biliklərin inkişafına gətirib çıxarır və məlumatların klasterləşdirilməsinin qabaqcıl metodlarından istifadə və proqram təminatı mühitinin inkişafı əsasında gələcək tədqiqatların metodologiyası çərçivəsinə töhfə verir. Su obyektlərinin müvəffəqiyyətlə müəyyən edilməsi və kateqoriyalara bölünməsi təklif olunan analitik sxemin səmərəliliyini və məsafədən müşahidə texnikasının müxtəlif coğrafi və hidroloji şəraitdə həyata keçirilə biləcəyini təsdiqləyir.
Açar sözlər: məsafədən müşahidə, GIS, hidrologiya, ArcGIS 10.5, SNAP, K-means Cluster analizi.

ОПРЕДЕЛЕНИЕ ГИДРОЛОГИЧЕСКИХ ОБЪЕКТОВ НА ОСНОВЕ ДИСТАНЦИОННОГО ЗОНДИРОВАНИЯ (НА ПРИМЕРЕ ВОСТОЧНО-ЗАНГЕЗУРСКОГО ЭКОНОМИЧЕСКОГО РАЙОНА АЗЕРБАЙДЖАНА)

Гюнай ГАСАНЛЫ[1,2,3]
[1]Болонский университет, Кафедра сельского хозяйства и пищевых наук, Италия
[2]Университет АДА, Кафедра сельского хозяйства и пищевых наук, Азербайджан
[3]Центраграрных исследований Министерствасельскогохозяйства Азербайджана, Азербайджан
Orcid: https://orcid.org/0000-0003-2178-3430
Электронная почта: Gunay.hasanli2@unibo.it

Аннотация: Дистанционное зондирование стало ключевым инструментом в гидрологических исследованиях, поскольку оно изменило способы мониторинга и управления водными ресурсами во времени и пространстве. Для повышения эффективности гидрологии необходимо проводить анализ. RADARSAT, TerraSAR-X, SRTM, EOS, ERS,

Sentinel и LANDSAT не имеют системных настроек, которые можно использовать, но гидроаналитические системы могут использоваться для планирования и использования. показывает эффективность и полезность данных изображений (Типы дистанционного зондирования, 2020), (Бишт, 24). Если вы используете программы ArcGIS 10.5 и SNAP для кластерного анализа K-средних, вы можете получить результаты, такие же, как используемые для обработки и классификации спутниковых изображений. Процессы домашней страницы, влажность почвы и изменения поверхностных вод можно использовать для полного мониторинга гидрологических переменных (Anshu et al., 2024), (Ferguson et al., 2010a). Был проведен систематический обзор литературы основных исследований, отражающих разработку и использование дистанционного зондирования в
гидрологическом моделировании (Ferguson et al., 2010b). Для этого необходимо использовать Landsat TM, SPOT и инфракрасные фотографии технологий GPS или интеграцию с датчиками света, а также получать информацию о них. обеспечить недорогие и точные решения. Такие многотехнологичные подходы создают новые возможности для масштабируемого гидрологического моделирования, заполняя как пространственные, так и временные пробелы в информации (Sander et al., 1996b). Результаты показывают, что технология дистанционного зондирования смогла превратить свой статус дополнительного источника данных в важный инструмент для гидрологических исследований и позволяет проводить наблюдения за различными гидрологическими переменными во времени и пространстве. Технологические достижения последних десятилетий значительно увеличили разнообразие и четкость доступных изображений для повышения точности оценок водных ресурсов вплоть до регионального и глобального уровней (Anshu et al., 2024). Исследование показало, что дистанционное зондирование в сочетании с географическими информационными системами (ГИС) и системами глобального позиционирования (GPS) может значительно расширить возможности гидрологического моделирования (Thakur et al., 2017). Результаты подчеркивают важность дистанционного зондирования в решении современных проблем водной безопасности, особенно в условиях растущего глобального водного стресса и изменчивости климата. Гидрология – это платформа, позволяющая выполнять плановые операции в режиме реального времени. Она вносит вклад в методологическую основу будущих исследований, основанных на развитии программной среды. Успешная идентификация и категоризация водных объектов подтверждают эффективность предложенной аналитической схемы и применимость методов дистанционного зондирования в различных географических и гидрологических условиях.

Ключевые слова: дистанционное зондирование, ГИС, гидрология, ArcGIS 10.5, SNAP, кластерный анализ методом K-средних.

Introduction

Remote sensing is the act of obtaining information on an object, area or phenomenon without physically touching it as compared to the traditional process of observing it on the ground. The technology allows data to be collected in large spatial areas and regions that are inaccessible, and it is thus an invaluable product in geography, hydrology, environmental monitoring, and other fields of study on Earth. Remote sensing methods can be broadly divided into two, which are passive and active. In active remote sensing, the source of signals (e.g., radar) is emitted and reflection of the signals on the target is measured, whereas passive remote sensing is based on measuring radiations emitted by nature (e.g., sunlight reflected off the surface of the Earth). In the paper, passive remote sensing systems were used to detect and map hydrological objects. The study aimed at the East Zangazur economic area, where remote sensing and Geographic Information System (GIS) technologies were combined in order to evaluate the region in a systematic manner in terms of its hydrological characteristics. The major source of data was Landsat-8 satellite images, which gave images of multispectral data that could be used to determine water bodies and other hydrologic structures. SNAP software was used to process and analyze the imagery and make a classification of the land cover and a hydrological object extraction. The analysis of satellite data was used to classify the area of the study based on the hydrological and land cover features and to provide GIS maps. These maps give a comprehensive description of the visualization of water bodies, rivers, wetlands, and other hydrological features that assist in environmental monitoring, water resource management as well as regional planning. The combination of remote sensing and GIS methods turned out to be a useful solution in terms of large-scale hydrological evaluations, as it provides both time- and space-related information on the processes of water resources in the area.

Materials

Over the span of time, remote sensing technology has found its applications in various spheres of human life ranging from farming activities to scholarly researches. Many important decisions are

contingent upon the data from RADARSAT,

Gənclərin, xüsusən də regionlarda yaşayanların işsizlik problemi iqtisadi və sosial inkişafın qarşısında ciddi maneədir. Turizm sektoru yüksək əmək tutumu ilə fərqləndiyi üçün yeni iş yerlərinin yaradılması baxımından böyük potensiala malikdir. Xüsusilə kənd turizmi gənclərə alternativ məşğulluq imkanları təqdim edərək onların kəndi tərk etmə meylini azalda bilər. Kənd yerlərində qadınların ictimai-iqtisadi həyata cəlb olunması çox vaxt ənənəvi məhdudiyyətlərlə üzləşir. Lakin turizm qadınlara həm iqtisadi müstəqillik, həm də sosial aktivlik qazandırmaq üçün əlverişli platforma ola bilər. Gender bərabərliyinin təmin olunması yalnız qadınların hüquqlarını müdafiə etmir, həm də ümumi iqtisadi və sosial sabitliyin şərtinə çevrilir (UNWTO & UN Women, 2019).

Müasir dövrdə kənd turizminin inkişafı yalnız ənənəvi üsullarla mümkün deyil. Rəqəmsal platformalar, sosial innovasiya mərkəzləri, qadın kooperativləri və oyunlaşdırma əsaslı təlimlər bu sahədə yeni imkanlar açır. Bu yanaşmalar həm gənclərin, həm də qadınların turizmə inteqrasiyasını asanlaşdırır, eyni zamanda davamlılıq prinsipini gücləndirir (UNWTO & UN Women, 2019).

Regionlarda yaşayan gənclərin məşğulluğu məsələsi bir çox ölkələrdə olduğu kimi Azərbaycanda da sosial-iqtisadi inkişafın ən vacib istiqamətlərindən biridir. Statistik göstəricilər göstərir ki, kənd yerlərində yaşayan gənclərin işsizlik səviyyəsi şəhərlərə nisbətən daha yüksəkdir. Bunun əsas səbəblərindən biri regionlarda iqtisadi fəaliyyət sahələrinin məhdud olması, ənənəvi təsərrüfatçılığın gənclər üçün cəlbedici gəlir təmin etməməsi və yeni bacarıqların inkişafına az imkan verməsidir. Kənd mühitində gənclər üçün iş imkanları çox zaman kənd təsərrüfatı, kiçik ticarət və ictimai xidmətlər ilə məhdudlaşır. Bu isə onların yaradıcılıq potensialının tam reallaşmasına mane olur. Əksər hallarda gənclər kənddən şəhərə miqrasiya etməyi üstün tuturlar ki, bu da kəndlərin demoqrafik strukturuna, sosial sabitliyinə və uzunmüddətli inkişaf perspektivlərinə mənfi təsir göstərir. Belə şəraitdə kənd turizmi gənclər üçün yeni və alternativ bir platforma kimi çıxış edir. Turizm sektoru yüksək əmək tutumu ilə fərqləndiyi üçün kənd mühitində müxtəlif peşə istiqamətləri yaradır (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2023).

Məsələn:

Turist bələdçiliyi - gənclərin dil bilikləri və kommunikasiya bacarıqlarından istifadə etməsinə şərait yaradır.

Qonaq evlərinin idarə olunması - xidmət sferasına marağı olan gənclər üçün yeni gəlir mənbəyi ola bilər.

Əl işləri və sənətkarlıq məhsullarının satışı - yaradıcılıq qabiliyyətinə malik gənclər üçün iqtisadi fayda ilə yanaşı, mədəni irsin qorunmasına da xidmət edir.

Rəqəmsal turizm marketinqi - sosial media, foto-video istehsalı və onlayn satış sahəsində bacarıqları olan gənclər üçün imkanlar açır.

Ekoloji yönümlü fəaliyyətlər - kənd turizmi eyni zamanda ekoloji turizm, aqroturizm, kənd təsərrüfatı təcrübə proqramları kimi sahələri əhatə edir ki, bu da gənclərin təbiətlə bağlı işlərdə iştirakını artırır.

Bu imkanlar yalnız iqtisadi gəlir təmin etmir, həm də gənclərin sosial aktivliyini, ünsiyyət dairəsini və özünəinamını gücləndirir. Turizmdə işləyən gənc bir tərəfdən regionun təmsilçisi rolunda çıxış edir, digər tərəfdən isə mədəniyyətlərarası dialoqun iştirakçısına çevrilir. Beləliklə, kənd turizmi gənclərin həm iqtisadi, həm də sosial inteqrasiyasına mühüm töhfə verir.

Azərbaycan kontekstində də kənd turizmi vasitəsilə gənclərin məşğulluğu dövlət siyasətində prioritet istiqamətlərdən biri kimi qəbul olunmaqdadır. "Azərbaycan 2030: sosial-iqtisadi inkişaf strategiyası" çərçivəsində regionlarda məşğulluğun artırılması, qeyri-neft sektorunun inkişafı və turizmin dəstəklənməsi əsas məqsədlərdən biri kimi göstərilir. Bu baxımdan kənd turizmi gənclərin kənd mühitində qalmasını təşviq edən və onların potensialını reallaşdıran əsas mexanizmlərdən biri ola bilər. Kənd yerlərində qadınların ictimai-iqtisadi həyata çıxışı çox zaman məhdud olur. Ənənəvi mədəni normalar qadınların fəaliyyətini əsasən ev təsərrüfatı ilə məhdudlaşdırır, nəticədə onların yaradıcılıq və istehsal potensialı tam istifadə olunmur. Halbuki davamlı kənd turizmi qadınların bu məhdudiyyətləri aşması və iqtisadi-sosial həyata inteqrasiyası üçün geniş imkanlar yaradır. Turizm sahəsi qadınların ənənəvi bacarıqlarını iqtisadi dəyərə çevirməyə imkan verir (President of the Republic of Azerbaijan. 2021, February 2). Məsələn:

Əl işləri və sənətkarlıq - xalçaçılıq, toxuculuq, tikmə, dekorativ sənət nümunələri turistlər üçün həm maraqlı məhsul, həm də mədəni irs daşıyıcısıdır.

Aşpazlıq və qida hazırlığı - kənd qadınlarının hazırladığı yerli mətbəx nümunələri turistlərin marağını cəlb etməklə yanaşı, regionun kulinariya irsinin qorunmasına xidmət edir. Qonaq evlərində yerli yeməklərin təqdim olunması turizm təcrübəsini daha autentik edir.

Qonaq evlərinin idarə olunması - qadınlar çox zaman ev sahibliyi, xidmət göstərmə və qonaqpərvərlik sahəsində təcrübəyə malikdirlər. Bu təcrübə kənd turizmində peşəkar fəaliyyətə çevrilə bilər.

Rəqəmsal fəaliyyətlər -sosial şəbəkələrdə turizm məhsullarının tanıdılması, onlayn satış platformalarında iştirak qadınların yeni bacarıqlar qazanmasına və bazara daha rahat çıxmasına şərait yaradır.

Beynəlxalq təcrübələr göstərir ki, qadınların turizm sektoruna inteqrasiyası yalnız onların iqtisadi müstəqilliyini artırmır, həm də kənd icmalarında sosial münasibətləri dəyişdirir. Türkiyədə qadın kooperativləri kənd turizmi məhsullarının istehsal və satışını təşkil edərək həm məşğulluq yaradır, həm də qadınların ictimai nüfuzunu gücləndirir. Gürcüstanda qadınların idarə etdiyi qonaq evləri region turizminin əsas dayaqlarından birinə çevrilmişdir. Azərbaycan üçün də oxşar yanaşmalar aktualdır. Qadınların kənd turizminə daha aktiv cəlb olunması həm iqtisadi, həm də sosial baxımdan davamlılığın əsas elementidir. Gender bərabərliyi olmadan davamlı inkişaf məqsədlərinə nail olmaq mümkün deyil. Bu səbəbdən kənd turizmi təkcə iqtisadi fəaliyyət sahəsi deyil, həm də qadınların özünüifadə, yaradıcılıq və sosiallaşma imkanlarını reallaşdıran bir platforma kimi nəzərdən keçirilməlidir. Müasir dövrdə kənd turizminin inkişafı yalnız ənənəvi üsullarla məhdud qalmamalıdır. Qlobal miqyasda turizm sənayesi sürətlə rəqəmsallaşır və bu prosesə uyğunlaşmayan regionlar rəqabət qabiliyyətini itirə bilər. Bu baxımdan innovasiya və texnologiyalar kənd turizminin davamlı inkişafında həlledici rol oynayır. Rəqəmsal texnologiyalar kənd turizminin tanıdılmasında mühüm əhəmiyyət daşıyır. Sosial şəbəkələr, onlayn turizm platformaları (Airbnb, Booking.com və s.) kiçik kənd icmalarına qlobal bazara çıxış imkanı yaradır. Gənclər və qadınlar bu platformalardan istifadə etməklə öz qonaq evlərini, əl işlərini və ya kulinariya məhsullarını tanıda bilirlər. Rəqəmsal marketinq həm turizm məhsullarının görünürlüğünü artırır, həm də regionda yaşayan gənclərin texnologiyadan istifadə bacarıqlarını gücləndirir (UNWTO & UN Women, 2019).

İnnovativ yanaşmalardan biri də oyunlaşdırma əsaslı təlim proqramlarıdır. Bu cür simulyasiya və oyunvari tətbiqlər tələbələrə və gənclərə turizm menecmentini praktik mühitdə öyrənmək imkanı verir. Gənclər belə alətlərlə turizm marşrutlarının planlaşdırılması, turistlərlə ünsiyyət, büdcə idarəsi

və problem həll etmə bacarıqlarını inkişaf etdirə bilirlər. Belə yanaşmalar gənclərin bilik və bacarıqlarını artırmaqla yanaşı, kənd turizmində onların daha effektiv iştirakını təmin edir.

Kənd yerlərində qadınların və gənclərin birgə fəaliyyət göstərməsi üçün sosial innovasiya mərkəzlərinin yaradılması mühüm əhəmiyyət daşıyır. Bu mərkəzlər həm təlim və məsləhət xidməti, həm də birgə istehsal və satış imkanları təqdim edə bilər. Qadın kooperativləri, xüsusilə əl işləri və qida məhsulları istehsalında, kənd turizmi təcrübəsini zənginləşdirən və davamlı gəlir gətirən strukturlar kimi çıxış edir. (UNWTO & UN Women, 2019)

Azərbaycan kontekstində innovasiya potensialı getdikcə artır. Rəqəmsal infrastrukturun güclənməsi, gənclərin texnologiyaya marağının artması və dövlətin innovativ layihələrə verdiyi dəstək bu istiqamətdə müsbət amillərdir. Lakin kənd yerlərində internet əlçatanlığı, rəqəmsal savadlılıq səviyyəsi və qadınların texnologiyadan istifadəsi hələ də kifayət qədər məhduddur. Bu məhdudiyyətlərin aradan qaldırılması kənd turizminin davamlı inkişafı üçün zəruri şərtdir (President of the Republic of Azerbaijan, 2016, December 6).

Beləliklə, innovasiya və texnologiyalar kənd turizmini yalnız iqtisadi fəaliyyət sahəsi kimi deyil, həm də sosial transformasiya aləti kimi gücləndirir. Onlar gənclərin və qadınların daha geniş iştirakına şərait yaradaraq həm məşğulluğu artırır, həm də davamlı inkişaf hədəflərinə nail olunmasını asanlaşdırır (UNWTO & UN Women, 2019).

Kənd turizminin inkişafı bir çox BMT Davamlı İnkişaf Məqsədləri ilə sıx bağlıdır. Bu məqsədlərlə əlaqələndirmə məqalənin mövzusunu qlobal çərçivəyə oturtmaqla yanaşı, yerli səviyyədə aparılan təşəbbüslərin beynəlxalq əhəmiyyətini də göstərir (United Nations, 2015).

SDG 5 - Gender bərabərliyi. Kənd turizmi qadınların iqtisadi və sosial həyatda iştirakını genişləndirərək onların hüquq və imkanlarının bərabərliyinə dəstək ola bilər. Əl işləri, aşpazlıq, qonaq evi idarəsi kimi fəaliyyətlər qadınların potensialını reallaşdırması üçün platforma yaradır.

SDG 8 - Layiqli iş və iqtisadi artım. Turizm sektorunun əmək tutumu yüksəkdir və kənd yerlərində alternativ məşğulluq imkanları açır. Gənclər və qadınlar üçün yaradılan yeni iş yerləri regionların iqtisadi sabitliyinə töhfə verir.

SDG 11 -Davamlı şəhər və icmalar. Kənd turizmi kəndlərin sosial-iqtisadi dirçəlişinə şərait yaradır. Yerli icmaların mədəni və təbii resurslardan məsuliyyətli istifadəsi onların uzunmüddətli davamlılığını təmin edir.

SDG 12 – Məsuliyyətli istehsal və istehlak. Kənd turizmi ekoloji cəhətdən təmiz məhsulların, yerli istehsalın və ənənəvi sənətkarlığın təşviqinə xidmət edir. Bu, həm resursların səmərəli istifadəsinə, həm də yerli iqtisadiyyatın güclənməsinə səbəb olur.

SDG 15 – Torpaq ekosistemlərinin qorunması. Davamlı kənd turizmi təbiətə əsaslanan fəaliyyətlərin düzgün idarə olunmasını tələb edir. Bu isə kənd ərazilərində ekoloji tarazlığın qorunmasına kömək edir.

Beləliklə, davamlı kənd turizmi sadəcə lokal səviyyədə məşğulluq və gəlir mənbəyi deyil, həm də beynəlxalq davamlılıq gündəliyinin bir hissəsidir. Azərbaycanın kənd turizmi potensialının bu hədəflərlə uzlaşdırılması həm ölkənin imicinə, həm də regionların sosial-iqtisadi inkişafına müsbət təsir göstərə bilər.

Metod

Bu məqalənin tədqiqat yanaşması kənd turizminin gənclərin, xüsusilə qadınların məşğulluğu və sosial inteqrasiyasındakı rolunu araşdırmaq üçün kombinə olunmuş modelə əsaslanır. Yanaşma həm statistik göstəricilərin təhlilinə, həm də keyfiyyətli empirik məlumatların toplanmasına söykənir.

Mövzu üzrə beynəlxalq və yerli tədqiqatların müqayisəli təhlili aparılmışdır. BMT-nin davamlı inkişaf məqsədlərinə dair hesabatlar, Ümumdünya Turizm Təşkilatının (UNWTO) kənd turizmi ilə bağlı sənədləri, eləcə də Türkiyə, Gürcüstan və Nepal kimi ölkələrdə qadınların turizm sektoruna inteqrasiyasına dair araşdırmalar nəzərdən keçirilmişdir. Azərbaycanda kənd turizmi ilə bağlı dövlət proqramları və rəsmi statistika mənbələri də təhlilə daxil edilmişdir. Regionlarda gənclərin məşğulluq vəziyyətini öyrənmək üçün mövcud statistika təhlil olunmuşdur. Dövlət Statistika Komitəsinin regionlarda məşğulluq, gender bərabərliyi və kənd təsərrüfatı üzrə göstəricilərinə əsaslanaraq kənd yerlərində gənclərin iş imkanlarının məhdudluğu vurğulanır. Beynəlxalq müqayisələr üçün UNWTO və Dünya Bankının məlumat bazalarından istifadə olunmuşdur. Qadınların turizmdə iştirakını daha dərindən öyrənmək üçün keyfiyyətli tədqiqat metodları nəzərdə tutulur:

Yarım-strukturlaşdırılmış müsahibələr. Kənd turizmi ilə məşğul olan qadın sahibkarlar və gənc bələdçilərlə aparıla bilər. Bu üsul onların qarşılaşdıqları çətinlikləri və yeni imkanları üzə çıxarmağa imkan verir.

Fokus qruplar. Kiçik icmalarda gənc qadın və kişilərin iştirakı ilə keçirilə bilər. Belə görüşlər qadınların sosiallaşma və məşğulluq perspektivlərinə münasibətini daha yaxşı anlamağa kömək edir.

Təcrübə nümunələri. Gürcüstanda qadınların idarə etdiyi qonaq evləri, Türkiyədə qadın kooperativləri və Nepalda qadın bələdçilər layihələri müqayisəli nümunələr kimi götürülmüşdür. Aşağıdakı abzasda bu nümunələrlə daha dərindən tanış ola bilərik:

Komli Historic Farmhouse (Gürcüstan). Bu qonaq evi kənd icmasında yerləşir və üç nəslin qadın üzvləri turistlərin qəbulu, yeməklərin hazırlanması, məxsusi mətbəx aktivlikləri (cookery masterclasses), çay turu kimi fəaliyyətlərdə iştirak edir. Yerlilər bildirir ki, turistlər həm yeməklərdə iştirak edirlər, həm də əkinçilik sayəsində bağ işlərində kömək edirlər (Gugushvili & Salukvadze, 2017).

Nazy Guest House, (Gürcüstan). Bu ev memarlıq, mədəniyyət və kənd həyatı elementlərini turistlərə təqdim edən layihələrdən biridir. Ev qadın icma üzvlərinin ev sahibliyi etdiyi, kənd həyatındakı gündəlik fəaliyyətlərinin (mətbəx, sənət, ev işləri) turistlərlə bölüşüldüyü modelə əsaslanır. Məsələn, gündəlik yeməklər qadınlar tərəfindən hazırlanır və həmin yeməklər turistlərə təqdim olunur. Bu nümunələr göstərir ki, qadınların kənd qonaq evləri fəaliyyətlərinə cəlb olunması təkcə "ev sahibliyi" ilə bitmir, həm mətbəx, həm yerli məhsullar, həm də turizm marşrutlarının yaradılması fəaliyyətlərinə inteqrasiya oluna bilər (Gugushvili & Salukvadze, 2017). "Women Entrepreneurship in Tourism: The Case of Turkey" adlı tədqiqat göstərir ki, qadın girişimcilər Türkiyədə qonaq evləri, restoran idarəçiliyi, kənd turizmi əsaslı fermalar və suvenir dükanları kimi sahələrdə fəaliyyət göstərirlər. Bu tədqiqata görə qadınların turizm sahəsinə motivasiyası aşağıdakılardır: əlavə gəlir qazanmaq, ailəyə dəstək olmaq, maddi müstəqillik əldə etmək, və daha yaxşı həyat keyfiyyəti. Misal üçün, məşhur bir şəxs - Ebru Demir Türkiyədə kulinariya və qastro-turizm sahəsində qadınları dəstəkləyən təşəbbüslər həyata keçirir. O, qadınlara yemək bişirilməsi, kənd təsərrüfatı, bağçılıq və s. sahələrdə bacarıqlar qazandırır. Məsələn, Ebru Demir "Kitchen of Hope" və "Harran Gastronomy School" kimi layihələrlə qadınlara aşpazlıq, kənd məhsullarını yetişdirmə və qida istehsalı bacarıqları öyrədir. (Karakuş, 2020).

"A Case Study of Emancipation in Rural Nepal" tədqiqatında qadınların turizm sektoruna daxil olması və trekking/qaçış yönümlü turist marşrutlarında bələdçi kimi fəaliyyətləri analiz olunur. Bu işdə qadınlar sosial və iqtisadi azadlıq qazanmaları kontekstində turizm fəaliyyətinə cəlb edilir. Mütəxəssislər qeyd edir ki, qadınların rəhbərliyində turizm təşəbbüsləri onlara sabit gəlir mənbəyi verir və kənd icmalarında onların statusunu yüksəldir. Məsələn, Empowering Women Nepal (EWN) təşkilatı qadınlara turizm sahəsində biliklər, təlimlər və dəstək verir. Qadınlar gecə tur planlaşdırma, turistlərlə əlaqə qurma, logistic məsələlər və s. kimi bacarıqlar əldə edirlər (Shrestha & Shrestha, 2019).

Tədqiqatın əsas məhdudiyyətlərindən biri Azərbaycanda kənd turizmi ilə bağlı gender yönümlü statistikanın azlığıdır. Bu səbəbdən beynəlxalq təcrübələrdən istifadə olunması zərurətə çevrilir. Digər məhdudiyyət isə kənd icmalarında qadınların sosial statusu ilə bağlı məlumatların əsasən keyfiyyətli metodlarla əldə olunmasıdır ki, bu da daha çox subyektiv yanaşmalar doğura bilər. Bu yanaşma vasitəsilə həm yerli, həm də beynəlxalq kontekstdə kənd turizminin gənclərin və qadınların məşğulluğu baxımından rolunu aydınlaşdırmaq mümkündür. Nəticələr region siyasəti və dövlət proqramlarının hazırlanmasında nəzərə alına biləcək praktiki tövsiyələr təqdim edə bilər.

Bu sadalanan modellər qadınların həm iqtisadi gəlir əldə etməsinə, həm də kəndin turizm potensialına qatılmasına imkan verir. Bu məqalə çərçivəsində əldə edilən nəticələr göstərir ki, kənd turizmi region gəncləri, xüsusilə gənc qadınlar üçün iqtisadi və sosial baxımdan vacib bir platforma ola bilər. Aşağıda bu nəticələrin beynəlxalq nümunələrlə əlaqələndirilmiş şəkildə təhlili verilir, eyni zamanda Azərbaycan kontekstində rəqəmsal göstəricilər tərəfindən dəstəklənir.

Rəsmi məlumatlara görə, 2024-cü ildə Azərbaycanın ümumi işsizlik səviyyəsi təxminən 5,4 % səviyyəsindədir. Dünya Bankının İnsan Kapitalı portalında 2021-ci ildə qadın gənclərin işsizlik nisbəti 16,4 %, kişi gənclərdə isə 12,7 % olaraq verilmişdir. Bu göstəricilər göstərir ki, gənclər - xüsusilə qadınlar iş bazarında ciddi çətinliklərlə üzləşirlər və alternativ məşğulluq sahələrinin inkişafına ehtiyac var (World Bank, 2021). Araşdırmada beynəlxalq təcrübələrin müqayisəsinə xüsusi diqqət yetirilmişdir. Bunun üçün üç ölkənin nümunələri seçilmişdir: Gürcüstanda qadınların idarə etdiyi qonaq evləri, Türkiyədə qadın kooperativləri və Nepalda qadın bələdçilərin fəaliyyəti. Bu nümunələr mövcud ədəbiyyat və hesabatlar əsasında təhlil edilmiş və Azərbaycan reallığı ilə müqayisə olunmuşdur. Gürcüstan nümunəsində qadınların idarə etdiyi qonaq evləri (məsələn, Komli Farmhouse, Nazy Guest House) qadınların mətbəx, turizm xidmətləri və əl işləri sahəsində liderlik etməsinə şərait yaratmışdır. Bu model, qadınların iqtisadi müstəqilliyini artırmaqla yanaşı, kənd turizmi təcrübəsini daha autentik və sosial baxımdan zəngin edir. Bu nümunələri öz ölkəmizə uyğunlaşdıraraq qadınlarımızın Quba, Qax bölgələrində Gürcüstan modelinə paralel olaraq

qonaq evləri idarə etməsi, milli yeməklərin təqdimatı və əl işlərinin satışını təşkil etməsi potensial modeldir.

Türkiyədə qadın kooperativləri kulinariya, kənd məhsulları istehsalı və turizm xidmətlərini birləşdirərək qadınların həm gəlir əldə etməsinə, həm də icmada nüfuz qazanmasına imkan verib. Bizdə də Lənkəran, Şəki bölgələri -bu bölgələrin mətbəx və kənd məhsulları zənginliyindən istifadə etməklə qadınlar kulinariya turizmi sahəsində kooperativ təşkil edə bilərlər. Tədqiqatlar göstərir ki, qadınların turizm sektorunda fəal iştirakı onların sosial statusunu yüksəldir, lakin çox zaman qadınlar aşağı ödənişli və qeyri-peşəkar mövqelərdə işləyirlər.

Nepal modeli qadın bələdçilərin trekking marşrutlarında iştirakı ilə məşhurdur: onlar kənd həyatını, ekologiyanı və mədəni irsi turistlərə tanıdaraq həm gəlir əldə edir, həm də icmada lider rol oynayırlar. Ölkəmizdə Qusar, Lerik, Qəbələ - dağlıq bölgələrdə qadın bələdçilərin marşrut yönləndirməsi, fauna-flora tanıtımı və kənd həyatının təqdimatı yolu ilə məşğulluq imkanları açıla bilər. Bundan başqa, Azərbaycanda "Building Female Professionals and Promoting Women Entrepreneurship in Rural Regions of Azerbaijan" adlı layihə AMFA qurumu tərəfindən həyata keçirilib. Üç il ərzində 8 kənd regionunda 2000-dən çox qadına təlim verilib ki, onlar mikronəfəs krediti, biznes bacarıqları və təşəbbüskar yönümlü biliklər əldə edə bilsinlər. Bu layihə qadınların kənd yerlərində iqtisadi fəaliyyətə başlamasında və sosial statuslarının yüksəlməsində mühüm rol oynayıb (Microfinance Centre (MFC) & Azerbaijan Micro-Finance Association (AMFA), 2016). Bu rəqəmsal və kontekstual göstəricilər sübut edir ki, kənd turizmi modeli yalnız dekorativ ideya deyil real potensialı vardır. Lakin bunun üçün aşağıdakı şərtlər vacibdir:

-Qadınların texnoloji savadlılığı artırılmalıdır; rəqəmsal platformalarda iştiraklarına şərait yaradılmalıdır (turizm mərkəzləri, onlayn satış məkanları).

-Statistika cinsə görə ayrı göstəricilərlə toplanmalıdır ki, qadınların turizm sektorunda iştirakı daha şəffaf analiz olunsun. Dünya turizm hesabatları da qadınların turizm sahəsində iştirakını cinsə görə ayıraraq təhlil etməyi tövsiyə edir.

-Qadınların liderlik və idarəçiliyə çıxış imkanları genişləndirilməlidir, çünki turizm sektorunda qadınların çoxu xidmət işlərində işləyir, lakin qərarverici rollara nadir hallarda gəlir.

-İnfrastruktur və internet əlçatanlığı kənd yerlərində turizmin inkişafını məhdudlaşdıran amildir, buna görə dövlət və özəl sektor tərəfdaşlığı vacibdir.

Nəticə və təkliflər

Məqalədə kənd turizminin gənc qadınların məşğulluğu və sosial inteqrasiyasındakı rolunu gücləndirmək məqsədilə irəli sürülən təkliflər müxtəlif istiqamətləri əhatə edir:

1. Bacarıq və yaradıcılıq potensialının iqtisadi fəaliyyətə çevrilməsi. Regionlarda gənc qadınların əl işləri, toxuculuq, mətbəx bilikləri və qonaqpərvərlik ənənələri mövcuddur. Bu bacarıqlar kənd turizmi çərçivəsində kommersiya dəyərinə çevrilərək qadınların həm məşğulluq imkanlarını, həm də sosial görünürlüğünü artıra bilər.

2. Sosiallaşma və ictimai fəallığın artırılması. Qadınların qonaq evləri, turizm festivalları və yerli məhsullar sərgilərində iştirakı onların ictimai həyatla daha sıx əlaqədə olmasına şərait yaradır. Bu, kiçik rayonlarda qadınların sosial məhdudiyyətlərinin azalmasına və özünüifadə imkanlarının genişlənməsinə xidmət edir.

3. Rəqəmsal transformasiya vasitəsilə inklüziv iştirak. Rəqəmsal platformalar qadınların əl işləri və kulinariya məhsullarını tanıtmasına, qonaq evlərini onlayn bazarlara çıxarmasına imkan verir. Gənc qadınların texnologiyadan istifadəsi həm onların özünüinkişafına, həm də kənd turizminin beynəlxalq səviyyədə görünürlüğünə töhfə verir.

4. İcma əsaslı təşəbbüslərin təşviqi. Kiçik rayonlarda qadınların təşkilatlanaraq sosial innovasiya mərkəzlərində və kooperativlərdə birləşməsi onların kollektiv fəaliyyətini gücləndirə bilər. Bu təşəbbüslər qadınların yalnız fərdi gəlir əldə etməsini deyil, həm də icmada qərarvermə proseslərində daha fəal iştirakını təmin edər.

5. Dövlət dəstəyi və siyasət tədbirləri. Qadınların kənd turizmində iştirakının təşviqi üçün dövlət proqramlarında xüsusi bəndlər ayrılmalıdır. Təlimlər, startap qrantları və infrastruktur dəstəyi sayəsində gənc qadınların kənd turizmində fəaliyyəti həm iqtisadi, həm də sosial baxımdan daha davamlı olacaqdır.

Beləliklə, davamlı kənd turizmi yalnız iqtisadi gəlir mənbəyi deyil, həm də gənc qadınların yaradıcılıq potensialını açmaq, onların sosial həyatdakı iştirakını artırmaq və gender bərabərliyini təmin etmək üçün effektiv vasitədir. Bu istiqamətdə atılacaq addımlar Azərbaycanın milli turizm strategiyasına, eləcə də BMT-nin Davamlı İnkişaf Məqsədlərinə uyğun olaraq, regionların sosial-iqtisadi dirçəlişinə mühüm töhfə verə bilər.

DOİ: 10.32010/QJBJ2649

QAZAX-TOVUZ İQTİSADİ RAYONUNDA KƏND TƏSƏRRÜFATININ İNKİŞAFI VƏ MƏŞĞULLUĞUN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI İSTİQAMƏTLƏRİ

Nərgiz Fikrət MƏCİDOVA
Bakı Dövlət Universiteti, doktorant
ORCİD İD: 0009-0004-5824-3985
E-mail: geograph@live.ru

Xülasə: Müasir dövrdə regionlarda əhalinin səmərəli məşğulluğunu təmin etmək olduqca vacib məsələlərdən biridir. Bu amil ölkə əhalisinin həyat səviyyəsinin müəyyənləşdirilməsində, əmək bazarında insan kapitalının formalaşmasında və peşə bacarıqlarının genişləndirilməsində mühüm sosial-iqtisadi rol oynayır. Bazar iqtisadiyyatına keçid dövründə əmək ehtiyatlarının yenidən təşkili və məşğulluq sahəsində əhəmiyyətli dəyişikliklər baş vermişdir. Nəticədə əmək bazarı formalaşaraq məşğulluq və işsizlik məsələlərinin həlli ölkənin aktual problemləri sırasına daxil olmuşdur. Ölkəmizin regionlarında əhalinin məşğulluq sahəsində müəyyən müsbət dinamika müşahidə olunur, lakin bu sahədə səmərəliliyin daha da artırılması üçün profilaktik və sistemli tədbirlərin davam etdirilməsi zəruridir. Qazax-Tovuz iqtisadi rayonunda məşğulluğun real vəziyyətini düzgün qiymətləndirmək üçün ilk növbədə əmək bazarındakı əhali davranış tendensiyaları və regionda məşğulluq strukturunda baş verən dəyişikliklər təhlil edilməlidir. Bu məqalədə Qazax-Tovuz iqtisadi rayonunda məşğulluğun səmərəliliyinin artırılması məsələləri, xüsusilə də kənd təsərrüfatı sahəsindəki vəziyyət təhlil edilir. Regionun iqtisadi strukturu, kənd təsərrüfatının cari inkişaf səviyyəsi və aqrar sektorda əmək məhsuldarlığına təsir göstərən amillər araşdırılmışdır. Statistik məlumatlar əsasında aparılan analizlər göstərir ki, bölgədə əmək ehtiyatlarının böyük hissəsi kənd təsərrüfatında cəmləşsə də, səmərəlilik göstəriciləri aşağı səviyyədədir. Əsas problemlər sırasında texniki təminatın zəifliyi, suvarma sistemlərinin geriliyi, aqrar təhsilin inkişaf etməməsi və bazar çıxışı imkanlarının məhdudluğu yer alır. Məqalədə bu problemlərin aradan qaldırılması üçün müasir texnologiyaların tətbiqi, aqrar təhsil və ixtisasartırmanın gücləndirilməsi, kooperativlərin yaradılması və infrastrukturun təkmilləşdirilməsi istiqamətində konkret təkliflər irəli sürülmüşdür. Məqsəd regionda dayanıqlı kənd təsərrüfatı modeli yaradaraq, məşğulluğun keyfiyyət və səmərəlilik baxımından yüksəldilməsinə töhfə verməkdir.
Açar sözlər. İqtisadi rayon, kənd təsərrüfatı, məşğulluq, əmək ehtiyatları, aqropark, aqroturizm

DIRECTIONS FOR THE DEVELOPMENT OF AGRICULTURE AND ENHANCEMENT OF EMPLOYMENT EFFICIENCY IN THE GAZAKH-TOVUZ ECONOMIC REGION

Nargiz Fikrat MAJIDOVA
Baku State University, PhD student
ORCİD İD: 0009-0004-5824-3985,
E-mail:geograph@live.ru

Abstract: İn the modern era, ensuring effective employment in the regions is one of the most significant challenges. This factor plays an important socio-economic role in determining the population's standard of living, shaping human capital in the labor market, and expanding professional skills. During the transition to a market economy, substantial changes occurred in the reorganization of labor resources and in the sphere of employment. As a result, a labor market was established, and the issues of employment and unemployment became pressing problems for the country. In the regions of our country, a certain positive dynamic in employment can be observed; however, to further enhance efficiency in this area, it is essential to continue preventive and systematic measures. In order to accurately assess the actual state of employment in the Gazakh-Tovuz economic region, it is first necessary to analyze population behavior trends in the labor market as well as the structural changes in regional employment. This article examines the issues of improving employment efficiency in the Gazakh-Tovuz economic region, with a particular focus on the agricultural sector. The study explores the region's economic structure, the current level of agricultural development, and the factors affecting labor productivity in the agrarian sector. Analyses based on statistical data indicate that although a large portion of labor resources is concentrated in agriculture, efficiency indicators remain at a low level. The main problems include weak technical support, underdeveloped irrigation systems, insufficient advancement of agricultural education, and limited access to markets. The article puts forward concrete proposals to overcome these challenges, such as the implementation of modern technologies, strengthening agricultural education and vocational training, promoting the establishment of cooperatives, and improving infrastructure. The ultimate goal is to create a sustainable agricultural model in the region and contribute to raising both the quality and efficiency of employment.
Keywords: economic region, agriculture, employment, labor resources, agropark, agrotourism.

НАПРАВЛЕНИЯ РАЗВИТИЯ СЕЛЬСКОГО ХОЗЯЙСТВА И ПОВЫШЕНИЯ ЭФФЕКТИВНОСТИ ЗАНЯТОСТИ В ГАЗАХ-ТОВУЗСКОМ ЭКОНОМИЧЕСКОМ РАЙОНЕ

Наргиз Фикрет МЕДЖИДОВА
Бакинский Государственный Университет, докторант
ORCİD İD: 0009-0004-5824-3985,
Электронная почта: geograph@live.ru

Резюме: В современный период обеспечение эффективной занятости населения в регионах является одной из наиболее актуальных задач. Данный фактор играет важную социально-экономическую роль в определении уровня жизни населения страны, формировании человеческого капитала на рынке труда и расширении профессиональных навыков. В период перехода к рыночной экономике произошли значительные изменения в реорганизации трудовых ресурсов и сфере занятости. В результате сформировался рынок труда, и решение вопросов занятости и безработицы вошло в число актуальных проблем страны. В регионах нашей страны наблюдается определённая положительная динамика в области занятости населения, однако для дальнейшего повышения эффективности в этой сфере необходимо продолжение профилактических и системных мер. Для правильной оценки реального состояния занятости в Казах-Товузском экономическом районе в первую очередь следует проанализировать поведенческие тенденции населения на рынке труда, а также изменения в структуре занятости региона. В статье рассматриваются вопросы повышения эффективности занятости в Казах-Товузском экономическом районе, в частности в сфере сельского хозяйства. Исследованы экономическая структура региона, текущий уровень развития сельского хозяйства и факторы, влияющие на производительность труда в аграрном секторе. Анализ, проведённый на основе статистических данных, показывает, что, несмотря на концентрацию значительной части трудовых ресурсов в сельском хозяйстве, показатели эффективности остаются на низком уровне. К основным проблемам относятся слабая техническая оснащённость, отсталость ирригационных систем, недостаточное развитие аграрного образования и ограниченные возможности выхода на рынок. В статье выдвигаются конкретные предложения по устранению этих проблем: внедрение современных технологий, укрепление аграрного образования и повышения квалификации, создание кооперативов и совершенствование инфраструктуры. Цель заключается в создании устойчивой модели сельского хозяйства в регионе и повышении качества и эффективности занятости.
Ключевые слова: экономический район, сельское хозяйство, занятость, трудовые ресурсы, агропарк, агротуризм

Giriş

Qazax–Tovuz İqtisadi Rayonu 2021-ci il iyulun 7-də həyata keçirilmiş inzibati-ərazi islahatı nəticəsində yaradılmış 14 yeni iqtisadi rayondan biridir. Rayon ölkənin qərb hissəsində yerləşir və mühüm strateji-coğrafi mövqeyə malikdir. Şimaldan Gürcüstan, cənub-qərbdən Ermənistan, şərqdən isə Gəncə–Daşkəsən iqtisadi rayonu ilə həmsərhəddir. İqtisadi rayon beş inzibati rayondan ibarətdir: Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz. Qazax-Tovuz iqtisadi rayonunun coğrafi profili onun iqtisadi inkişaf trayektoriyasını müəyyənləşdirən əsas amillərdən biri hesab olunur. Rayonun relyefi alçaq, orta və yüksək dağlıq zonalardan ibarət olmaqla, təbii-landşaft müxtəlifliyi ilə seçilir. Bu xüsusiyyətlər yalnız fiziki-coğrafi mühitin xarakteristikası kimi deyil, həm də regional iqtisadiyyatın funksional strukturunu müəyyən edən əsas amillərdən biri kimi qiymətləndirilməlidir.

Müxtəlif relyef zonaları kənd təsərrüfatı və digər təsərrüfat fəaliyyətlərinin ixtisaslaşmasında mühüm rol oynayır. Belə ki, alçaq dağətəyi və düzənlik sahələr genişmiqyaslı əkinçilik və sənaye fəaliyyətlərinin inkişafı üçün əlverişli imkanlar yaradır. Əksinə, yüksək dağlıq ərazilər daha çox heyvandarlıq, meşə təsərrüfatı və potensial turizm sahələri üçün münasib şərait formalaşdırır.

Bununla yanaşı, relyefin mürəkkəbliyi sosial-iqtisadi inkişafda müəyyən məhdudiyyətlər də doğurur. Xüsusən də dağlıq ərazilərdə yerləşən yaşayış məntəqələrinin əmək bazarına inteqrasiyası infrastrukturun zəifliyi və nəqliyyat əlçatanlığının məhdudluğu səbəbindən çətinləşir. Bu isə regional miqyasda işsizlik səviyyəsinin ümumilikdə aşağı görünməsinə baxmayaraq, lokal miqyasda təcrid olunmuş işsizlik ocaqları və natamam məşğulluq problemlərinin formalaşmasına səbəb olur.

Qazax-Tovuz iqtisadi rayonunun sosial-iqtisadi həyatında kənd təsərrüfatı sahəsi həlledici rol oynayır. Bu sahə yalnız ərzaq təminatının əsasını təşkil etmir, eyni zamanda kənd əhalisinin əsas məşğulluq mənbəyi kimi çıxış edir. Regionun sosial rifah göstəriciləri birbaşa kənd təsərrüfatı istehsalının inkişaf səviyyəsindən asılıdır. Buna görə də kənd təsərrüfatında məhsuldarlığın yüksəldilməsi, innovativ yanaşmaların tətbiqi və məşğulluğun genişləndirilməsi bölgənin uzunmüddətli davamlı inkişafı və əhalinin həyat keyfiyyətinin

yaxşılaşdırılması baxımından strateji əhəmiyyət kəsb edir.

Nəzəriyyə və metod

Tədqiqat prosesində Qazax-Tovuz iqtisadi rayonunun kənd təsərrüfatının mövcud vəziyyəti, həmçinin bu sahənin inkişafına təsir göstərən təbii-coğrafi və iqtisadi amillər hərtərəfli araşdırılmışdır. Məqalədə məlumat bazası kimi yalnız mövcud ədəbiyyat və kənd təsərrüfatına dair fundamental əsərlər deyil, eyni zamanda Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi göstəriciləri, tədqiqat regionunda aparılmış sahə müşahidələri və sorğu materialları, eləcə də etibarlı internet resursları istifadə edilmişdir. Metodoloji yanaşma baxımından isə statistik təhlil, müqayisəli analiz, sistemli yanaşma və struktur-funksional üsullardan geniş şəkildə faydalanılmışdır.

Təhlil və müzakirə

Kənd təsərrüfatının əsas istehsal vasitələrinin iqtisadi-coğrafi tədqiqində bir sıra anlayışlardan istifadə olunur. Bunlara kənd təsərrüfatına yararlı sahələr, əkin sahələri, faktiki əkilmiş və məhsulu yığılmış torpaq sahələri, batmış ərazilər, çoxillik əkmələr, biçənəklər və otlaq sahələri daxildir. Hər bir kateqoriya kənd təsərrüfatı fəaliyyətində xüsusi funksional əhəmiyyətə malikdir.

Ümumi ərazinin hamısı deyil, yalnız kənd təsərrüfatına yararlı torpaq sahələri məhsul istehsalı üçün istifadə olunur. Bu kateqoriyaya əsasən əkin sahələri, çoxillik əkmələr, biçənək və otlaq torpaqları daxildir. Əkin sahələri öz növbəsində faktiki əkilmiş və dincə qoyulmuş torpaqlardan ibarətdir. Çoxillik əkmələr qrupuna isə bağlar, üzümlüklər, tingliklər, toxumluqlar, çay plantasiyaları və oxşar əkin sahələri daxildir. Biçənəklər və otlaq torpaqları isə heyvandarlığın yemi ilə təmin olunmasında, həmçinin mal-qara və quşların otarılmasında mühüm rol oynayır.

Azərbaycan Respublikasının ümumi 86,6 min km² ərazisinin 55,2%-i kənd təsərrüfatına yararlı torpaq sahələrindən ibarətdir ki, bunun da 27,9%-ni biçənək və örüş-otlaqlar təşkil edir (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi 2024).

Qazax-Tovuz iqtisadi rayonunda kənd təsərrüfatına yararlı sahələrin strukturunda spesifik xüsusiyyətlər müşahidə olunur. Belə ki, ümumi torpaq fondunun yalnız 24,8%-i əkin üçün yararlı sahələrdir. Bu göstərici ölkə üzrə orta rəqəmlərlə müqayisədə məhdud hesab olunur. Çoxillik əkmələrin xüsusi çəkisi burada cəmi 0,7%-dir ki, bu da respublika üzrə müvafiq göstəricidən (3,6%) əhəmiyyətli dərəcədə azdır. Əvəzində, biçənək sahələri 4,6%, otlaq sahələri isə 69,8% təşkil edir. Bu göstəricilər müvafiq olaraq ölkə üzrə orta faizlərdən (2,4% və 56,9%) xeyli yüksəkdir (ARDSK, 2024).

Beləliklə, Qazax-Tovuz iqtisadi rayonunun torpaq fondunun struktur xüsusiyyətləri bu bölgədə kənd təsərrüfatı istehsalının təşkilində müəyyən spesifikliyi şərtləndirir. Ərazi həm əlverişli geosiyasi mövqeyi, həm də əmək potensialının əsasən kənd yerlərində cəmlənməsi baxımından kənd təsərrüfatının inkişafına güclü stimul yaradır. Qazax-Tovuz iqtisadi rayonunun kənd təsərrüfatı torpaqları struktur baxımından fərqli xüsusiyyətlərə malikdir. Əkinə yararlı sahələrin payı xüsusilə Ağstafa, Tovuz və Şəmkir rayonlarında daha yüksəkdir. Bu amil həmin ərazilərdə əkinçiliyin intensiv inkişafı üçün əlverişli imkanlar yaradır.

Rayonun üzümçülük ənənələri də nəzərəçarpacaq dərəcədədir. Xüsusən Şəmkir, Ağstafa, Qazax və Tovuz rayonlarında üzümçülük təsərrüfatlarının üstünlük təşkil etməsi bu sahənin regionda xüsusi ixtisaslaşma istiqamətinə çevrildiyini göstərir. Biçənək sahələri əsasən Tovuz, Qazax və Ağstafa inzibati rayonlarında yayılmışdır. Bu sahələrin mövcudluğu yem bazasının formalaşdırılmasına, xüsusilə heyvandarlığın yem təminatının yaxşılaşdırılmasına geniş imkan yaradır. Otlaq torpaqları isə iqtisadi rayonun demək olar ki, bütün ərazilərində üstünlük təşkil edir və yüksək xüsusi çəkiyə malikdir. Bu fakt heyvandarlığın inkişafı üçün əlverişli təbii-coğrafi şəraitin mövcudluğunu təsdiqləyir.

İqtisadi rayonun kənd təsərrüfatına yararlı torpaq sahələrinin beşdə birindən çoxunu suvarılan torpaqlar təşkil edir. Əkin sahələrinin təxminən 78%-i, çoxillik əkmələrin isə 94%-dən çoxu məhz suvarma imkanlarına malik ərazilərdə yerləşir. Bu göstəricilər suvarma əkinçiliyinin regionda xüsusi strateji əhəmiyyət daşıdığını və su təminatı məsələlərinin kənd təsərrüfatı istehsalında həlledici faktor olduğunu ortaya qoyur. İqtisadi rayonun bütün inzibati vahidlərində suvarma əkinçiliyi əsas istehsal forması kimi üstün mövqedədir.

Ümumrespublika göstəriciləri ilə müqayisədə Qazax-Tovuz iqtisadi rayonunun payı da əhəmiyyətlidir. Belə ki, ölkənin kənd təsərrüfatına yararlı torpaqlarının 16,5%-i, əkin yerlərinin 11%-i, çoxillik əkmələrin 3,4%-i, biçənək sahələrinin 31,4%-i, otlaq sahələrinin isə 20,3%-i bu iqtisadi rayonun payına düşür. Bu fakt regionun yalnız daxili tələbatı ödəmək gücündə olmadığını, eyni zamanda ümummilli ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rola sahib olduğunu göstərir.

İstehsal göstəricilərinə nəzər saldıqda da rayonun əhəmiyyəti aydın görünür. Qazax-Tovuz iqtisadi rayonu ölkə üzrə kənd təsərrüfatı məhsullarının təxminən 13–14%-ni, sənaye məhsullarının isə 12–13%-ni istehsal edir. Ölkə miqyasında istehsal olunan taxılın 10%-i, texniki bitkilərin 20%-i,

kartofun 48%-i, ətin 10%-i və südün 16%-i məhz bu iqtisadi rayonun payına düşür. (ARDSK 2024)

Beləliklə, Qazax-Tovuz iqtisadi rayonu kənd təsərrüfatı istehsalı üzrə yüksək ixtisaslaşma səviyyəsinə malik olmaqla yanaşı, həm regional, həm də ümumölkə miqyasında ərzaq təminatında və kənd təsərrüfatı məhsullarının müxtəlifliyinin artırılmasında mühüm rol oynayır.

Qazax-Tovuz iqtisadi rayonunun kənd təsərrüfatı strukturunda bitkiçilik aparıcı sahə kimi xüsusi yer tutur. Statistik göstəricilərə əsasən, bölgədə istehsal olunan kənd təsərrüfatı məhsullarının təqribən 62%-i bitkiçilik sahəsinin payına düşür ki, bu da onun regional ixtisaslaşmada əhəmiyyətini göstərir.

Rayonda formalaşmış ənənəvi təsərrüfatlar əsasən dənli və dənli-paxlalı bitkilərin, xüsusilə buğda istehsalının üstünlük təşkil etməsi ilə xarakterizə olunur. Bundan əlavə, kartofçuluq, tərəvəzçilik, bostançılıq və dən üçün günəbaxan becərilməsi də geniş yayılmışdır. Şəkər çuğundurunun əkilməsi istiqamətində müəyyən təşəbbüslər olsa da, məhsuldarlıq göstəriciləri iqtisadi səmərəliliyi tam təmin etmir. Bölgənin təbii-coğrafi şəraiti həmçinin meyvəçilik və üzümçülük üçün əlverişli imkanlar yaradır. Bu səbəbdən iqtisadi rayonda müxtəlif meyvə bağlarının və üzümlüklərin salınması kənd təsərrüfatının sahəvi ixtisaslaşmasının mühüm istiqamətlərindən birini təşkil edir. Meyvəçilik Qazax-Tovuz iqtisadi rayonunun bütün əraziləri üçün xarakterik sayılır; üzümçülük isə, Gədəbəydən (qismən əkilir) başqa, bütün ərazilərdə mövcuddur, amma onun ixtisaslaşmasında qabaqcıl yerləri

Cədvəl 1. Qazax-Tovuz iqtisadi rayonun 2024-cü ildə ixtisaslaşdırılmış təsərrüfatlarında əsas növ bitkiçilik məhsullarının faktiki əkin sahəsi, ha

Mənbə: Azərbaycanın kənd təsərrüfatı, Bakı: DSK 2024

	Dənli və dənli paxlalılar	o cümlədən buğda	Kartof	Tərəvəz	Bostan bitkiləri	Dən üçün günəbaxan	Üzüm bağları
Ağstafa	10593.6	7151.1	397.0	679.2	110.5	1263	497.9
Tovuz	15801.6	12305.5	5271.2	1102.8	36	64.4	1102
Şəmkir	17808.9	9903.6	6590	6459.0	81	972	558
Gədəbəy	3601.5	3278	8179.4	694.1	-	40	9.0
Qazax	12337.0	5243	1300	780	43	50	284.7
Qazax-Tovuz iqtisadi rayonu	60151.6	37881.2	21737.6	9715.1	270	2389.4	2451.6
Azərbaycan Respublikası	948287.0	542820.2	49460.5	61227.5	17239.0	9898.5	15020

Cədvəl 2. Qazax-Tovuz iqtisadi rayonunda üzümçülükdə olan dəyişikliklər
Mənbə: Azərbaycanın kənd təsərrüfatı, Bakı: DSK 2024

İllər / Rayonlar	Əkin sahəsi, min ha			İstehsal, min ton			Məhsuldarlıq, sent/ha		
	2021	**2022**	**2023**	**2021**	**2022**	**2023**	**2021**	**2022**	**2023**
Ağstafa rayonu	496,4	497,9	497,9	7538,2	7512,3	7593,0	156,9	155	224,7
Gədəbəy rayonu	8,5	9	9	178,5	184,5	186,3	210	205	154,7
Qazax rayonu	279	284,7	284,7	3766,6	3789,4	3790,0	135	135,3	207
Şəmkir rayonu	556	558	558	33286,3	341134,9	35235,5	138,5	215,2	135
Tovuz rayonu	794	822,4	1102	211672,0	21823,3	30072,6	288	288,1	216
Qazax-Tovuz iqtisadi rayonu	2154,1	2172	2451,6	66441,6	67444,4	76877,4	196,9	217,2	284,9
Azərbaycan Respublikası	15961,9	15732,7	15020	209843,2	212645,1	224517,1	98,2	102,7	113,3

Tovuz, Şəmkir rayonları tutur. Qazax-Tovuz iqtisadi rayonu ölkə üzrə ümumi heyvandarlıq məhsullarının təxminən 13,2%-ni təmin edir. Bununla belə, regionun kənd təsərrüfatı kompleksində heyvandarlığın xüsusi çəkisi 35,8% təşkil edir ki, bu da ölkə üzrə orta göstəricilərlə müqayisədə nisbətən aşağı səviyyəni əks etdirir. Sözügedən fakt, rayonda heyvandarlıq potensialından tam istifadə olunmadığını göstərməklə yanaşı, kənd təsərrüfatının digər sahələri – xüsusən bitkiçiliklə müqayisədə ikinci mövqedə dayandığını da təsdiqləyir.

Region daxilindəki coğrafi fərqliliklər təsərrüfat ixtisaslaşmasında mühüm rol oynayır. Belə ki, dağətəyi və dağlıq zonalarda iri və xırdabuynuzlu maldarlıq, həmçinin arıçılıq üstünlük təşkil etdiyi halda, düzənlik ərazilərdə quşçuluq daha çox yayılmışdır. Bu struktur fərqlənmə, həm təbii şərait, həm də ənənəvi təsərrüfat vərdişlərinin təsiri ilə formalaşmışdır.

Son illərdə yem bitkilərinin əkin sahələrinin genişləndirilməsi, heyvandarlıq üçün tələb olunan yem bazasının möhkəmləndirilməsinə və nəticə etibarilə istehsal səmərəliliyinin artmasına şərait yaradır. Yem təminatının yaxşılaşdırılması yalnız mövcud problemlərin aradan qaldırılmasına deyil, həm də uzunmüddətli perspektivdə heyvandarlıq məhsullarının maya dəyərinin azalmasına və bazarda qiymətlərin sabitləşməsinə xidmət edə bilər.

Statistik göstəricilərə əsasən, 2015–2023-cü illər ərzində iqtisadi rayonda iri buynuzlu mal-qaranın sayı 9,5% azalmışdır. Bunun əksinə olaraq, eyni dövrdə arı ailələrinin sayında 11,3%-lik artım qeydə alınmışdır ki, bu da alternativ heyvandarlıq istiqamətlərinin inkişafına marağın artdığını nümayiş etdirir. Bu dinamika göstərir ki, rayonda heyvandarlıq sahəsinin ümumi inkişaf tempini təmin etmək üçün ənənəvi maldarlıqla yanaşı, qeyri-ənənəvi, lakin gəlirli təsərrüfat formalarının genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Cədvəl 3. Qazax-Tovuz iqtisadi rayonun və inzibati rayonları üzrə 2023-cü ildə mövcud heyvan və quşların sayı

	İri buynuzlu mal	inək və camışlar	Qoyun və keçilər	Quşlar
Ağstafa rayonu	25456	12303	141489	317915
Gədəbəy rayonu	40587	20482	207074	176655
Qazax rayonu	29495	16054	126349	231342
Şəmkir rayonu	56131	27965	262235	505972
Tovuz rayonu	40731	17347	165008	482101
Qazax-Tovuz iqtisadi rayonu	192400	94151	902155	1713985
Azərbaycan Respublikası	2507719	1235123	7060613	28698256

Mənbə: Azərbaycanın kənd təsərrüfatı, Bakı: DSK 2024

Qazax-Tovuz iqtisadi rayonunun daxilində heyvandarlığın ixtisaslaşma səviyyəsi müxtəlif təsərrüfat formaları üzrə fərqlənir. Ənənəvi olaraq, bütün inzibati rayonlarda ətlik və südlük istiqamətli iri buynuzlu maldarlıq əsas fəaliyyət sahəsini təşkil edir. Bu təsərrüfatlar həm daxili tələbatı ödəmək, həm də yerli bazarlara təzə süd və ət məhsullarının çıxarılmasında mühüm rol oynayır.

Regionun dağlıq və dağətəyi ərazilərində qoyunçuluq geniş yayılmışdır. Xüsusilə Gədəbəy və Tovuz rayonlarında qoyunçuluq təsərrüfatları daha çox inkişaf etmişdir ki, bu da relyef xüsusiyyətləri, geniş otlaq sahələrinin mövcudluğu və ənənəvi maldarlıq vərdişləri ilə əlaqədardır. Qoyunçuluq həm də yun, gön və digər xammal məhsullarının əldə olunmasında mühüm əhəmiyyətə malikdir.

Bundan başqa, iqtisadi rayon daxilində quşçuluq təsərrüfatları da ixtisaslaşmış sahə kimi önə çıxır. Xüsusilə Şəmkir, Tovuz, Gədəbəy və Ağstafa rayonlarında quşçuluq məhsullarının istehsalı nisbətən geniş yayılmışdır. Bu təsərrüfatlar region əhalisinin yumurta və quş əti ilə təminatında mühüm paya sahib olmaqla yanaşı, bazar tələbinə çevik reaksiya vermək imkanına görə iqtisadi cəhətdən də daha rəqabətlidir.

Ümumilikdə, Qazax-Tovuz iqtisadi rayonunda heyvandarlığın struktur xüsusiyyətləri göstərir ki, sahə tamamilə homojen deyil; əksinə, təbii-coğrafi şərait, təsərrüfat ənənələri və bazar yönümlü yanaşmalar əsasında müxtəlif ixtisaslaşma istiqamətləri formalaşmışdır. İribuynuzlu maldarlıq və qoyunçuluq ənənəvi olaraq üstünlük təşkil etsə də, son illərdə arıçılıq və quşçuluq sahələrinin inkişaf dinamikası regionun kənd təsərrüfatı strukturunda diversifikasiya meyllərinin gücləndiyini göstərir.

Bu xüsusiyyətlər deməyə əsas verir ki, Qazax-Tovuz iqtisadi rayonunda heyvandarlıq sektoru gələcəkdə kənd təsərrüfatının daha sabit və dayanıqlı inkişafına xidmət edə biləcək potensiala malikdir. Bunun üçün yem bazasının möhkəmləndirilməsi,

müasir texnologiyaların tətbiqi və təsərrüfatların ixtisaslaşma istiqamətlərinə uyğun dəstək siyasətinin həyata keçirilməsi xüsusi əhəmiyyət daşıyır.

Qazax-Tovuz iqtisadi rayonunda kənd təsərrüfatı sektorunun davamlı inkişafı yalnız istehsal həcmlərinin artırılması ilə məhdudlaşmır; bu proses çoxşaxəli, inteqrativ və strateji yanaşma tələb edir. Region üzrə aparılan təhlillər əsasında kənd təsərrüfatının səmərəliliyinin artırılması və strukturunun təkmilləşdirilməsi üçün üç qarşılıqlı əlaqəli prioritet istiqamət müəyyənləşdirilə bilər.

1. Müasir aqrotexnoloji yanaşmaların tətbiqi**.** Məhsuldarlığın və istehsalın dayanıqlığının yüksəldilməsi məqsədilə regionda innovativ aqrotexnologiyaların tətbiqi zəruri hesab olunur. Bu istiqamətdə "ağıllı kənd təsərrüfatı" modellərinin – rəqəmsal monitorinq, torpaq və su ehtiyatlarının optimallaşdırılmış idarə olunması, sensor texnologiyaları və peyk müşahidələrinə əsaslanan idarəetmə sistemlərinin tətbiqi – mühüm əhəmiyyəti vardır. Regionun yarı-quraq iqlim şəraiti nəzərə alındıqda, quraqlığa davamlı bitki sortlarının becərilməsinin genişləndirilməsi xüsusi aktuallıq kəsb edir. Həmçinin, müasir istixana texnologiyalarının tətbiqi istehsal mövsümünü uzatmaqla yanaşı, yüksək əlavə dəyərə malik məhsul çeşidini artırmağa və təsərrüfatların iqlim risklərinə qarşı dayanıqlığını gücləndirməyə imkan verir.

2. Aqrar-ərzaq dəyər zəncirlərinin formalaşdırılması**.** Regionda kənd təsərrüfatı məhsullarının yalnız ilkin istehsalı deyil, həm də emalı və bazara çıxarılması xüsusi əhəmiyyət kəsb edir. İqtisadi səmərəliliyin yüksəldilməsi məqsədilə meyvəçilik, tərəvəzçilik, üzümçülük və südçülük məhsullarının emalına yönəlmiş müəssisələrin yaradılması və mövcud potensialın dəstəklənməsi məqsədəuyğundur. Bu istiqamət həm yerli resurslardan səmərəli istifadəyə, həm də ixrac yönümlü məhsulların istehsalına şərait yaradır. Əlavə olaraq, emal sənayesinin inkişafı kənd təsərrüfatı istehsalçıları üçün daha sabit bazar təmin etməklə, qiymət dəyişkənliyi risklərini azaldır və məşğulluq imkanlarını genişləndirir.

3. Kənd təsərrüfatı infrastrukturunun təkmilləşdirilməsi. Kənd təsərrüfatının məhsuldarlığı və bazar rəqabət qabiliyyəti infrastruktur təminatı ilə bilavasitə əlaqədardır. Əvvəla, suvarma sistemlərinin modernləşdirilməsi region üçün strateji əhəmiyyət daşıyır. Su ehtiyatlarının səmərəli istifadəsini təmin edən damcı suvarma və digər qənaətcil texnologiyaların tətbiqi əkin sahələrinin məhsuldarlığını artırmaqla yanaşı, iqlim dəyişikliyinin yaratdığı qeyri-sabit yağıntılardan asılılığı da azaldır. Bundan əlavə, nəqliyyat-logistika infrastrukturu və soyuq zəncirlərin təşkili kənd təsərrüfatı məhsullarının istehsaldan istehlakçıya çatdırılmasında həlledici rol oynayır. Xüsusilə tez xarab olan məhsullar üçün müasir anbar və soyuducu logistik sistemlərinin qurulması itkilərin minimuma endirilməsinə, məhsul keyfiyyətinin qorunmasına və istehlak bazarına stabil təchizatın təmin olunmasına şərait yaradır.

Bütün bunları nəzərə alaraq qeyd etmək, lazımdır ki, Qazax-Tovuz İqtisadi rayonunda kənd təsərrüfatının davamlı inkişafı və müasir tələblərə uyğunlaşdırılması üçün əsas istiqamətlərdən biri aqroparkların yaradılmasıdır. Aqropark - kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və satışını eyni məkanda birləşdirən kompleks sistemdir. Bu tip mərkəzlər iri təsərrüfatların formalaşmasına, məhsul bolluğunun təminə və ixrac imkanlarının genişlənməsinə mühüm töhfə verir. Aqroparklar kənd təsərrüfatı məhsullarının intensiv istehsalını, onların daşınması, saxlanması və bazara çıxarılmasını daha səmərəli təşkil edir. Bundan başqa, belə komplekslər müxtəlif sahələri bir araya gətirir. Buraya kənd təsərrüfatı texnikasının istehsalı, kimya sənayesi, tikinti, bitkiçilik və heyvandarlıq, yeyinti sənayesi, nəqliyyat və ticarət fəaliyyəti daxildir.

Aqroparkların əsas üstünlükləri aşağıdakılardan ibarətdir.

İnteqrasiya olunmuş fəaliyyət**:** Aqroparklar yalnız kənd təsərrüfatı məhsullarının yetişdirilməsi ilə məhdudlaşmır, həmçinin istehsal zəncirinin digər mərhələlərini – məhsulun emalı (məsələn, meyvə-tərəvəz konservləşdirilməsi, dondurulmuş ərzaqların hazırlanması), qablaşdırılması və saxlanması proseslərini də özündə birləşdirir. Bu yanaşma məhsul itkisini minimuma endirir və istehsal olunan məhsulların bazar dəyərinin yüksəlməsinə imkan yaradır.

Müasir texnologiyaların tətbiqi**:** Aqroparkların fəaliyyətində yüksək səmərəlilik damcı suvarma sistemləri, rəqəmsal və "ağıllı" təsərrüfat texnologiyalarının, yüksək keyfiyyətli kənd təsərrüfatı texnikası və mineral gübrələrin istifadəsi ilə təmin edilir. Bu isə torpaq resurslarının daha rasional istifadəsinə və məhsuldarlığın əhəmiyyətli dərəcədə artmasına gətirib çıxarır.

İxrac yönümlülük: Aqropark çərçivəsində istehsal olunan kənd təsərrüfatı məhsulları beynəlxalq keyfiyyət standartlarına uyğun olduğu üçün onların xarici bazarlara çıxarılması daha asan baş verir. Qazax-Tovuz iqtisadi rayonunun coğrafi mövqeyi – xüsusilə Gürcüstan və Rusiya sərhədlərinə yaxınlığı – ixracın genişləndirilməsi baxımından əlavə üstünlüklər yaradır.

2014-cü ildə Şəmkir rayonunda Azərbaycanda ilk aqrar istiqamətli "Şəmkir Aqropark"ın təməli

qoyulmuş, 2018-ci ilin avqust ayında isə rəsmi açılışı həyata keçirilmişdir. Qeyd olunmalıdır ki, "Şəmkir Aqropark" MMC yalnız ölkə miqyasında deyil, həm də Cənubi Qafqaz regionunda "aqropark" modelinə əsaslanan ilk iri kənd təsərrüfatı layihəsi kimi xüsusi əhəmiyyətə malikdir. Kompleks beynəlxalq standartlara uyğun fəaliyyət göstərmək üçün nəzərdə tutulmuş müasir biznes platformasıdır. Aqroparkın yaradılması ölkənin ixrac potensialının artırılmasına və ixrac coğrafiyasının genişləndirilməsinə, milli kənd təsərrüfatı brendlərinin formalaşdırılmasına, kiçik və orta təsərrüfatların innovasiya imkanlarının inkişafına mühüm töhfə vermişdir. Bununla yanaşı, intensiv istehsal metodlarının tətbiqi, aqrar sahədə koordinasiya olunmuş vahid istehsal-emal-istehlakçı əlaqələrinin qurulması, yüksək məhsuldarlığın təmin edilməsi, peşəkar kadrların hazırlanması və yeni məşğulluq imkanlarının yaradılması baxımından da aqropark əhəmiyyətli rol oynamışdır.

"Qazax" Aqroparkı 2017-ci ildə fəaliyyətə başlamış və Azərbaycanın Qazax-Tovuz iqtisadi rayonunun Qazax rayonu, II Şıxlı kəndində yerləşdirilmişdir. Kompleksin ümumi ərazisi 1030 hektarı əhatə edir. Aqroparkın istehsal istiqamətində əsasən kartof, buğda və arpa becərilir. Kartof istehsalında Almaniyadan gətirilmiş yüksək məhsuldarlığı ilə seçilən Bernina, Kolomba və Çelenser sortlarından istifadə olunur. Kartof əkini 337 hektarlıq sahədə aparılır və hər hektardan orta hesabla 45–55 ton məhsul əldə edilir. Aqroparkın strukturunda müasir emal və logistika mərkəzləri fəaliyyət göstərir. Burada gündəlik 250 tonadək kartof emalı mümkündür. Məhsullar ilkin olaraq təmizlənir, çeşidlənir, qablaşdırılır və soyuducu anbarlarda saxlanılır. "Qazax" Aqroparkının fəaliyyəti bölgədə ərzaq təhlükəsizliyinin təmin edilməsinə, kənd təsərrüfatı sektorunun modernləşdirilməsinə və yerli əhalinin məşğulluq imkanlarının genişləndirilməsinə mühüm töhfə verir. Qazax-Tovuz iqtisadi rayonunda kənd təsərrüfatının inkişaf istiqamətlərindən biri kimi Tovuz rayonunda fəaliyyət göstərən "Tovuz Aqro" MMC xüsusi qeyd olunmalıdır. Şirkətin əsas yaradılma məqsədi Ceyrançöl düzündə uzun müddət istifadəsiz qalmış, əkin üçün yararsız hesab edilən torpaqların meliorasiya tədbirləri vasitəsilə kənd təsərrüfatı dövriyyəsinə qaytarılması olmuşdur. Tarixi dövrlərdə bu ərazidə əkinçilik aparılmamış, intensiv yağıntılar isə burada dərin yarğanların əmələ gəlməsinə səbəb olmuşdur. Lakin həyata keçirilən meliorativ işlər nəticəsində torpaq sahələri hamarlanmış, münbitlik səviyyəsi artırılmış və əkin üçün yararlı hala gətirilmişdir.

Qazax-Tovuz iqtisadi rayonunda aqroparkların fəaliyyətinin mühüm sosial-iqtisadi nəticələrindən biri onların məşğulluğun səmərəliliyinə göstərdiyi təsirdir. Aqroparklar kənd təsərrüfatında ənənəvi əmək bazarından fərqli olaraq, yeni iş imkanlarının formalaşmasına və məşğulluğun keyfiyyət göstəricilərinin yüksəlməsinə şərait yaradır. Bu təsir müxtəlif istiqamətlərdə özünü göstərir.

1. Yüksək ixtisaslı kadrların cəlb edilməsi**.** Ənənəvi kənd təsərrüfatı əsasən fiziki əməyə əsaslansa da, aqroparkların strukturunda müasir texnologiyaların tətbiqi nəticəsində ixtisaslı əmək qüvvəsinə ehtiyac artır. Burada aqronomlar, mühəndislər, mexaniklər, texnoloqlar və keyfiyyətə nəzarət üzrə mütəxəssislərin fəaliyyət göstərməsi tələb olunur. Bu, öz növbəsində yerli gənclərin peşə və ali təhsil almalarına stimul yaradır və onların ixtisaslarına uyğun şəkildə regionda məşğulluğunu təmin edir.

2. Mövsümi məşğulluqdan daimi iş imkanlarına keçid**.** Kənd təsərrüfatı sahəsində mövsümi xarakterli məşğulluq geniş yayılmışdır. Aqroparklar isə istehsal zəncirinin yalnız becərmə və yığım mərhələsi ilə kifayətlənməyərək, emal, qablaşdırma və logistika proseslərini də həyata keçirdiyindən, ilboyu fəaliyyət göstərən daimi iş yerləri yaradır. Bu hal əhalinin gəlir səviyyəsinin sabitləşməsinə və iqtisadi təhlükəsizliyinin güclənməsinə səbəb olur.

3. Əlaqəli sahələrdə məşğulluğun genişlənməsi**.** Aqroparkların fəaliyyəti əlavə iqtisadi zəncirlər yaradır. Logistika və nəqliyyat xidmətləri, texniki servis və təmir mərkəzləri, habelə satış və paylama şəbəkələri kimi əlaqəli sahələrin formalaşması regionda yeni iş yerlərinin açılmasına imkan verir. Bu, iqtisadi aktivliyi genişləndirərək ümumi məşğulluq səviyyəsini artırır.

Nəticə etibarilə, aqroparklar kənd təsərrüfatını yalnız istehsal sektoru kimi deyil, həm də kompleks iqtisadi fəaliyyət sahəsi kimi formalaşdırır. Bu proses əmək ehtiyatlarının daha rasional istifadəsini təmin etməklə yanaşı, məşğulluğun strukturunda keyfiyyət dəyişikliklərinə səbəb olur və regionun sosial-iqtisadi inkişafına əhəmiyyətli töhfə verir.

Ənənəvi kənd təsərrüfatı fəaliyyətlərinə həddindən artıq bağlılıq iqtisadiyyatı həssas edir. İqtisadi dayanıqlığın gücləndirilməsi üçün yalnız kənd təsərrüfatı istehsalına söykənmək kifayət etmir; qeyri-aqrar fəaliyyət sahələrinin genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, kənd yerlərində gəlir mənbələrinin şaxələndirilməsi – xüsusilə aqroturizmin təşviqi əlavə və sabit gəlir mənbələri formalaşdırmağa imkan yaradır. Bu istiqamətlər bir tərəfdən artıq əmək ehtiyatlarını özündə cəmləşdirərək kənd təsərrüfatına düşən məşğulluq təzyiqini azaldır, digər tərəfdən isə region əhalisinin sosial-iqtisadi rifahını uzunmüddətli perspektivdə təmin edir. Aqroturizm kənd təsərrüfatı

fəaliyyəti ilə turizmin inteqrasiyası nəticəsində formalaşan xüsusi turizm istiqamətidir. Bu model şəhər sakinlərinə kənd mühitini yaxından tanımaq, kənd təsərrüfatı proseslərində iştirak etmək və təbii mühitdə istirahət etmək imkanı yaradır.

1. Kənd təsərrüfatı fəaliyyətlərinə inteqrasiya**.** Aqroturizmin mühüm komponentlərindən biri turistlərin kənd təsərrüfatı işlərinə cəlb olunmasıdır. Meyvə-tərəvəz yığımı, heyvanlara qulluq, ənənəvi qida məhsullarının hazırlanması kimi fəaliyyətlər turistlərə kənd həyatını bilavasitə təcrübə etmək imkanı verir.

2. Yerli mədəniyyət və qonaqpərvərlik**.** Aqroturizm çərçivəsində turistlər kənd icmalarının mədəniyyətini, adət-ənənələrini və milli mətbəxini öyrənirlər. Yerli ailələrin qonağı olmaq, ənənəvi yeməklərin hazırlanması prosesini izləmək və həmin yeməklərin dadına baxmaq bu turizm növünün əsas cəlbedici elementlərindəndir.

3. Təbiət və aktiv istirahət. Aqroturizm ekoloji cəhətdən təmiz və sakit mühitdə istirahət etmək imkanı yaradır. Piyada gəzintilər, velosiped marşrutları, at gəzintiləri və digər açıq hava fəaliyyətləri kənd turizminin ayrılmaz hissəsini təşkil edir.

Bu baxımdan aqroturizmin faydaları çoxşaxəlidir:

✓ **İqtisadi inkişaf:** Aqroturizm kənd təsərrüfatı sektorunda gəlir mənbələrinin şaxələndirilməsinə, əlavə məşğulluq imkanlarının yaradılmasına və kənd yerlərinin sosial-iqtisadi inkişafına şərait yaradır.

✓ **Mədəni irsin qorunması:** Yerli adət-ənənələrin, folklorun və milli mətbəxin tanıdılması, gələcək nəsillərə ötürülməsi təmin edilir.

✓ **Ekoloji təsir:** Aqroturizm insanları təbiətə yaxınlaşdırmaqla yanaşı, ekoloji maarifləndirmə prosesinə də töhfə verir və ətraf mühitin mühafizəsinə dair şüurun güclənməsinə səbəb olur.

Aqroturizmin inkişafı əmək ehtiyatlarının da daha səmərəli istifadəsinə və kənd yerlərində məşğulluğun təmin edilməsinə mühüm təsir göstərir. Ənənəvi kənd təsərrüfatı fəaliyyəti əsasən mövsümi xarakter daşıdığından, əhalinin gəlir sabitliyi zəif olur. Aqroturizm isə ilboyu davamlı fəaliyyət imkanları yaratmaqla kənd əhalisinin gəlirlərinin artırılmasına və sosial rifahın yüksəlməsinə şərait yaradır. Aqroturizm yalnız kənd təsərrüfatına bağlı fəaliyyətləri deyil, eyni zamanda bir sıra yeni iqtisadi sahələri də stimullaşdırır:

- Xidmət sektoru**:** Turistlərin qəbulu və yerləşdirilməsi, kənd evlərinin idarə olunması, bələdçilik, nəqliyyat və digər xidmətlərin göstərilməsi.
- Əlavə dəyər zənciri**:** Yerli xammaldan hazırlanmış suvenirlər, mürəbbələr, şirələr və digər emal məhsullarının istehsalı və satışı.
- Ənənəvi sənətkarlıq**:** Xalçaçılıq, dulusçuluq, ağac oymaçılığı və digər sənətkarlıq nümunələrinin hazırlanaraq turistlərə təqdim edilməsi.

Bu fəaliyyətlər xüsusilə gənclər və qadınlar üçün alternativ gəlir mənbələri yaradır, onların bacarıqlarının inkişafına şərait yaradır və kənddən şəhərə miqrasiyanın azaldılmasına müsbət təsir göstərir. Aqroturizmin dayanıqlı inkişafı üçün kənd əhalisinin müvafiq bacarıqlara yiyələnməsi zəruridir. Bu məqsədlə dövlət və özəl sektorun təşəbbüsü ilə təlim proqramlarının təşkil olunması vacibdir. Bu təlimlər kənd əhalisinin peşəkar səviyyəsini yüksəldir, onların rəqabətqabiliyyətliliyini artırır və yeni iqtisadi imkanlardan səmərəli yararlanmasına şərait yaradır. Təlimlərin əsas istiqamətləri aşağıdakılardır:

- Qonaqpərvərlik və turizm xidmətləri**:** Turistlərlə ünsiyyət, qonaqların qarşılanması və yerləşdirilməsi.
- Biznesin idarə edilməsi**:** Kiçik və orta sahibkarlığın inkişafı, marketinq, satış və maliyyə savadlılığı.
- Ekoloji təmiz istehsal**:** Bioloji kənd təsərrüfatı texnologiyaları və dayanıqlı inkişaf prinsiplərinin mənimsənilməsi.

Aqroturizm Qazax-Tovuz iqtisadi rayonunda kənd təsərrüfatını yalnız istehsal yönümlü fəaliyyət sahəsi olmaqdan çıxararaq, çoxfunksiyalı iqtisadi sektora çevirə bilər. Bu yanaşma regionda sosial-iqtisadi inkişafın sürətlənməsinə, məşğulluğun struktur baxımından yenilənməsinə və əhalinin rifah səviyyəsinin yüksəlməsinə əhəmiyyətli töhfə verə bilər.

Nəticə

Qazax-Tovuz iqtisadi rayonu kənd təsərrüfatı potensialı baxımından Azərbaycan Respublikasının ən mühüm regionlarından biridir. Torpaq resurslarının müxtəlifliyi, əlverişli təbii-iqlim şəraiti və kənd təsərrüfatına bağlı ənənələr bu sahənin inkişafı üçün geniş imkanlar açır. Bununla belə, sektorda mövcud olan struktur problemlər – suvarma sistemlərinin köhnəlməsi, mövsümi məşğulluğun üstünlük təşkil etməsi, emal sənayesinin zəif inkişafı və innovativ texnologiyaların məhdud tətbiqi – kənd təsərrüfatının səmərəliliyini azaldan əsas amillər kimi çıxış edir. Aqroparkların yaradılması, aqroturizmin təşviqi və qeyri-ənənəvi fəaliyyət sahələrinin inkişafı bu çətinliklərin aradan qaldırılmasına mühüm töhfə verməkdədir. Rayonun kənd təsərrüfatı yalnız daxili tələbatı ödəməklə kifayətlənmir, həm də ölkənin ərzaq təhlükəsizliyinə və ixrac imkanlarının genişlənməsinə mühüm təsir göstərir.

Təkliflər

1. Müasir texnologiyaların tətbiqi: **"**Ağıllı əkinçilik", damcı suvarma və quraqlığa davamlı sortların istifadəsi məhsuldarlığı artırmalı və təbii resurslardan səmərəli istifadəyə imkan verməlidir.

2. Kənd təsərrüfatı kooperativlərinin yaradılması**:** Aqroparklar böyük miqyaslı təsərrüfatlar üçün ideal olsa da, kiçik fermerlər üçün dəstək mexanizmlərinə ehtiyac var. Kiçik fermerlər məhsullarını tək-tək satmaq əvəzinə, birgə fəaliyyət göstərərək daha yaxşı qiymətə bazara çıxara bilərlər. Kooperativlər həm də müasir avadanlıqların birgə alınmasına və suvarma sistemlərinin səmərəli idarə edilməsinə kömək edir. Bu, fermerlərin gəlirlərini artırır, məhsulların keyfiyyətini standartlaşdırır və məşğulluğun davamlı olmasını təmin edir.

3. "Yerli Məhsul" Brendinin Təşviqi**:** Qazax-Tovuz rayonunun bənzərsiz iqlim şəraiti və ənənəvi əkinçilik metodları burada yetişən məhsullara xüsusi dad verir. Bu xüsusiyyətlərdən istifadə edərək "Tovuz bağları", "Qazax taxılı" və ya "Şəmkir tərəvəzləri" kimi regional brendlər yaratmaq olar. Brendin tanınması ilə ixrac imkanları genişlənir, daha çox gəlir əldə olunur və istehsalçılar arasında rəqabət keyfiyyəti artırır.

4. Təlim və İnkişaf Mərkəzlərinin Qurulması**:** Aqroparkların və müasir texnologiyaların tətbiqi üçün kənd əhalisinin yeni bacarıqlara yiyələnməsi vacibdir. Bu məqsədlə, rayonda kənd təsərrüfatı texnologiyaları üzrə təlim və inkişaf mərkəzlərinin yaradılması arzuolunandır. Bu mərkəzlər kənd əhalisinə müasir əkinçilik metodları, aqroturizm xidmətləri, marketinq və kiçik biznes idarəçiliyi sahələrində praktiki biliklər verir, bunun sayəsində isə əmək ehtiyatları daha rəqabət qabiliyyətli olur, işsizlik səviyyəsi azalır və kənd yerlərində sahibkarlıq inkişaf edir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycanın kənd təsərrüfatı. Bakı: DSK, 2024
2. Azərbaycanın regionları. Bakı: DSK, 2024
3. Əfəndiyev V.Ə., Nağıyev S.Q. Geourbanistika. Bakı, 2017
4. İmrani Z.T., Zeynalova K.Z. Azərbaycanda təsərrüfatın ərazi təşkilinin iqtisadi-coğrafi xüsusiyyətləri. Bakı; Nafta-press, 2014, 232 s.
5. "Tovuz rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin 7 mart 2012-ci il tarixli, 310-IVQ saylı Qərarı"
6. Нагиев С.К. Малые и средние города в системе расселения Азербайджана. РГО «Известия», Санкт-Петербург, 2009 г.
7. Нагиев С.К. Демографическая обстановка в Азербайджане РГО «Известия», Санкт-Петербург, 2005, 71-77.
8. Нагиев. С.К. Региональные особенности территориальной подвижности населения Азербайджана. Статьи Азербайджанского географического общества, 14, 2009, 230-234
9. https://www.stat.gov.az
10. https://www.agro.gov.az
11. https://www.fao.org
12. https://www.economy.gov.az
13. https://www.wikipedia.org
14. http://tovuz-ih.gov.az/az
15. http://tovuz.edu.gov.az

DOİ: 10.32010/KIRP3804

INVESTIGATING THE CHANGE OF CONTINENTALITY AND ARIDITY IN THE CONTEXT OF CLIMATE CHANGE IN AZERBAIJAN

Tamerlan Fakhri MEHDIYEV
Baku State University
Orcid: https://orcid.org/0009-0000-5574-4048
E-mail: tamerlan.mehdiyev@bsu.edu.az

Abstract: Climate sets the baseline for livelihoods, economic systems, and social structures. Therefore, studying and identifying patterns in climate allows us to adjust our activities accordingly. As new challenges related to food security emerge, the need to deepen our understanding of climate systems becomes increasingly urgent. However, research in developing countries often remains limited in scope. The case of Azerbaijan clearly illustrates this gap. Existing studies are mostly confined to analyzing trend changes in raw data and frequently lack the application of robust methodologies.
The aim of our study is to investigate climate change in Azerbaijan through the lens of continentality, aridity, and statistical analysis, employing specific climatic indices. The findings reveal that, while continentality in Azerbaijan has exhibited fluctuations over the study period, no clear increasing or decreasing trend has been identified. Nevertheless, the results contribute to a more detailed understanding of climatic characteristics across different zones. Particularly, signs of increasing aridity have been observed in the Caspian coastal regions and the southern foothills of the Greater Caucasus. This phenomenon may be associated with the retreat and volume reduction of the Caspian Sea.
The findings hold significant implications for decision-making processes in agriculture, water resource management, and urban planning. For instance, in agriculture, the results can inform crop selection and cultivation strategies.
Despite these contributions, the study is exploratory in nature and constrained by data limitations. Nonetheless, it can serve as a reference point for future research endeavors in this field. The results can also play role as a reference point for future researchers and decision-makers in climate-sensitive sectors of the country.
Keywords: climate change, cc in Azerbaijan, continentality, temperature in Azerbaijan, precipitation in Azerbaijan

---

AZƏRBAYCANDA İQLİM DƏYİŞMƏLƏRİ KONTEKSTİNDƏ KONTİNENTALLIQ VƏ QURAQLIQ DƏYİŞİKLİKLƏRİNİN TƏDQİQİ

Tamerlan Fəxri MEHDİYEV
Bakı Dövlət Universiteti
Orcid: https://orcid.org/0009-0000-5574-4048
E-mail: tamerlan.mehdiyev@bsu.edu.az

Xülasə: İqlim və onun öyrənilməsi dolanışıq vasitələri, iqtisadi sistemlər və sosial strukturlar üçün çox önəmlidir. İqlim nümunələrini öyrənmək və müəyyən etmək bizə fəaliyyətimizi buna uyğun tənzimləməyə imkan verir. Ərzaq təhlükəsizliyi ilə bağlı yeni problemlər ortaya çıxdıqca, iqlim sistemləri haqqında anlayışımızı dərinləşdirməyə ehtiyac getdikcə aktuallaşır. Bununla belə, inkişaf etməkdə olan ölkələrdə tədqiqatlar çox vaxt əhatə dairəsi baxımından məhdud qalır. Azərbaycan nümunəsi bu boşluğu aydın şəkildə göstərir. Mövcud tədqiqatlar əsasən xam məlumatlarda tendensiya dəyişikliklərinin təhlili ilə məhdudlaşır və çox vaxt ətraflı metodologiyaların tətbiqi müşahidə olunmur.
Tədqiqatımızın məqsədi Azərbaycanda iqlim dəyişikliyini kontinentallıq, quraqlıq və statistik təhlillər əsasında konkret iqlim göstəricilərindən istifadə etməklə araşdırmaqdır. Nəticələr göstərir ki, Azərbaycanda kontinentallıq tədqiqat dövrü ərzində dalğalanmalar nümayiş etdirsə də, aydın artım və ya azalma tendensiyası müəyyən edilməmişdir. Buna baxmayaraq, nəticələr müxtəlif zonalar üzrə iqlim xüsusiyyətlərinin daha ətraflı başa düşülməsinə kömək edir. Xüsusilə Xəzər dənizi sahili rayonlarında və Böyük Qafqazın cənub ətəklərində quraqlığın artması əlamətləri müşahidə olunub. Bu hadisə Xəzərin geri çəkilməsi və həcminin azalması ilə bağlı ola bilər.
Nəticələr kənd təsərrüfatı, su ehtiyatlarının idarə edilməsi və şəhərsalma üzrə qərarların qəbulu proseslərinə əhəmiyyətli təsir göstərir. Məsələn, kənd təsərrüfatında nəticələr məhsul seçimi və becərmə strategiyaları haqqında məlumat verə bilər. Bu töhfələrə baxmayaraq, tədqiqat mahiyyət etibarı ilə araşdırma xarakteri daşıyır və məlumat məhdudiyyətləri ilə məhdudlaşır. Bununla belə, tədqiqatımız bu sahədə gələcək tədqiqatlar üçün istinad nöqtəsi ola bilər. Bununla belə, araşdırmanın əldə edilən nəticələri Azərbaycan Respublikasının iqlim dəyişiklikləri üzrə adaptasiya və mitiqasiya üzrə milli siyasətlərinin elmi əsaslandırılmasına öz töhvəsini verir. Bu işin digər bir önəmi ondadır ki, bu tədqiqat bizə iqlimin dəyişmə mexanizmlərini daha yaxından anlamağa imkan verir.
Açar sözlər: iqlim dəyişikliyi, Azərbaycanda iqlim dəyişikliyi, kontinentalıq, Azərbaycanda temperatur, Azərbaycanda yağıntı.

ИССЛЕДОВАНИЕ ИЗМЕНЕНИЙ КОНТИНЕНТАЛЬНОСТИ И ЗАСУШЛИВОСТИ В КОНТЕКСТЕ ИЗМЕНЕНИЯ КЛИМАТА В АЗЕРБАЙДЖАНЕ

Тамерлан Фахри МЕХДИЕВ
Бакинский государственный университет
Orcid: https://orcid.org/0009-0000-5574-4048
Электронная почта: tamerlan.mehdiyev@bsu.edu.az

Резюме: Климат задаёт базовые параметры для жизнеобеспечения, экономических систем и социальных структур. Таким образом, изучение и выявление климатических закономерностей позволяет нам соответствующим образом корректировать нашу деятельность. По мере возникновения новых проблем, связанных с продовольственной безопасностью, необходимость углубить наше понимание климатических систем становится всё более актуальной. Однако исследования в развивающихся странах зачастую остаются ограниченными. Пример Азербайджана наглядно иллюстрирует этот пробел. Существующие исследования в основном ограничиваются анализом тенденций изменения исходных данных и зачастую не используют надёжные методологии.

Цель нашего исследования, изучить изменение климата в Азербайджане через призму континентальности, засушливости и статистического анализа с использованием специфических климатических индексов. Результаты показывают, что, хотя континентальность в Азербайджане колебалась в течение исследуемого периода, чёткой тенденции к повышению или понижению выявлено не было. Тем не менее, результаты способствуют более детальному пониманию климатических характеристик в различных зонах. В частности, признаки повышения засушливости наблюдаются в прибрежных районах Каспийского моря и южных предгорьях Большого Кавказа. Это явление может быть связано с отступлением и уменьшением объёма Каспийского моря. Полученные результаты имеют важное значение для процессов принятия решений в сельском хозяйстве, управлении водными ресурсами и городском планировании. Например, в сельском хозяйстве результаты могут быть использованы для выбора сельскохозяйственных культур и разработки стратегий возделывания.

Несмотря на эти достижения, исследование носит ознакомительный характер и ограничено ограниченностью данных. Тем не менее, оно может служить ориентиром для будущих исследований в этой области. Исследование способствует углублению научных знаний о региональных климатических процессах и формирует основу для дальнейших климатических оценок и практических решений в Азербайджане.

Ключевые слова: изменение климата, и.к. в Азербайджане, континентальность, температура в Азербайджане, осадки в Азербайджане

Introduction

A slight increase in aridity and continentality in Azerbaijan can lead to significant consequences. Considering that agriculture is a priority sector for the country's economy, employing nearly 40% of the working population (according to the latest census) and contributing 7% to the GDP, we can conclude that even a minor change in climate would have a direct impact on this sector. One of the most significant threats to agriculture is drought. Drought events cause substantial economic and agricultural losses to the country. Research indicates that the frequency of drought events has been increasing in recent times (Imanov et., 2012). The increase or decrease in the frequency of drought events can be explained by several factors, including the movement of air masses, periodic climate changes, and others. Generally, to study these phenomena, a dense hydrometeorological network is required, and the data obtained from this network must be thoroughly analyzed. However, the weak communication linkage between data providers and academic institutions in Azerbaijan makes it difficult to conduct such research (Cervantes De Blois & Chelsea, 2021). The scarcity of data remains a significant challenge in this study. Nevertheless, we were able to collect data from various locations across Azerbaijan that represent different climate types. Based on the data from these representative stations, we investigated the climate's continentality, aridity, and marine-oceanic influences for the given period.

Machine learning techniques are getting popular in climate science analysis. It saves time and effort, also automize work that would be done manually otherwise. Python programming language, which is widely used in data analysis, is an also effective tool in meteorological analysis. Its statistical packages such as matplotlib, numpy, pymannkendall, pyextreme etc were very helpful when conducting analysis in our study.

Materials

The number of studies related to climate change is increasing. It is believed that these changes manifest themselves in different ways in different places. How the climate in Azerbaijan is changing has been the main subject of several studies. However, these studies have not focused on how continentality is changing in Azerbaijan, but rather on temperature and precipitation distributions. How can the application of indices such as continentality be important for Azerbaijan? The continentality index, which describes the contrast between the hot and cold periods of the year, is an important index that shows how climate characteristics are changing. Its importance has increased even more against the background of climate change. It is believed that continentality will gradually increase in the mid-latitudes against the background of climate changes (Hirschi et al., 2007). The continentality index affects both humans and ecosystems. A sharp summer and winter contrast leads to severe heat in summer and low temperatures in winter, and these extremes have a significant impact on agriculture and its systems. They cause phenological changes in plants and increase energy demand for people. In general, the change in this index requires a review of the risk profiles of countries in various fields. There is a great need to study continentality and the prevailing climatic forces in our country. Changes in continentality affect both natural (such as vegetation zones) and anthropogenic (e.g., water resources and agriculture) systems, which is why studying changes in continentality is of great importance (Baltas, 2007). Although the effects of oceans, seas, and land areas on climate are known (Minetti, 1989), their impact on Azerbaijan is not entirely clear. The study of such climatic forces is carried out by various means, which usually include continentality and ocean-sea indices. Various types of indices are used here. Continentality indices usually consider temperature amplitude, geographical latitude, and sometimes the effects of atmospheric circulation (Stonevicius et al., 2018). In this study, various indices were also used, and the results obtained were interpreted. The fact that this type of research has almost never been carried out in our country further increases its importance. Thus, by using a combination of different indices, we investigated the spatial and temporal changes of continentality in the country.

Methodology

It is well-established that climate indicators are a direct reflection of an area's climatic characteristics. These indicators also allow us to identify the dominant influences on a region's climate. In this study, we used these climate indicators to calculate various indices, including those for continentality, oceanity, and aridity.

For these and other climate analyses, a dense data network and sufficient temporal resolution are crucial. The need for monthly data posed a particular challenge for our research, as the hydrometeorological network in Azerbaijan is known to be sparse. Taking these factors into account, eight stations with consistent monthly data were selected to represent different regions of the country.

First, we started with statistical analysis. We wanted to see whether the raw datasets we have are following any trends and if so are those trends statistically significant? For this purpose we used capabilities of python and its libraries. Results of analysis showcased that out of 8 stations, only 3 stations had statistically significant trends with z values bigger than 1.96. Those stations are Ganja, Sheki, Oguz. Then we calculated Sen's slope values for these stations and found that the results are under 0.02 which can be interpreted as negligible. Our test results showcased that climate patterns on temperature for 8 stations in Azerbaijan do not show significant change over the given time span (1991 - 2019).

Based on the data from these stations, we calculated the Johanson continentality index (KG), the Kerner oceanity index (KOI), and the De Martonne aridity index (AI). The time series for these calculations covers the period from 1991–2019, while the De Martonne aridity index specifically covers the years 1991–2010.

For interpretation of values, we followed following classification (Gorczyński, 1922):

Table 1. Classification of continentality values

Climate type	Values	Climate type
Transitional maritime	0-33	Transitional maritime
Continental	34-66	Continental
Extreme continental	67 - 100	Extreme continental

For Kerner index, the following classification is used (Kerner, 1905):

Table 2. Classification of Kerner-oceanity values

Climate type	Values
Hyper-Oceanic	>20
Oceanic	10 - 20
Sub-Continental	0 - 10
Continental	-10 - 0

For the De Martonne aridity, the following classification is applied (De Martonne, 1925):

Table 3. Classification of De Martonne values

Climate type	Values
Arid	<10
Semi-Arid	10 - 20
Mediterranean	20 - 24
Semi-humid	24 - 28
Humid	28 - 35
Extremely humid	>35

Datasets we used for this study were acquired from various sources. The National Hydrometeorological Service of Azerbaijan's Ministry of Ecology and Natural Resources is responsible for the recording, storage, and distribution of meteorological and hydrological data within the country. A portion of the data used in this study was obtained directly from this service, while other parts were sourced from international organizations. These external sources include the National Centers for Environmental Information of the World Meteorological Organization (WMO) and the U.S. National Oceanic and Atmospheric Administration (NOAA). It is important to note that this data was originally provided to these organizations by the National Hydrometeorological Service of Azerbaijan under international agreements and obligations.

For the calculation of indices, we utilized monthly and annual averages. Another key resource was CRUTEM, a global collection of station data created by the Climatic Research Unit at the University of East Anglia. The specific version used for our research was CRUTEM 5.0.2.0. For the study, eight representative stations were selected from various climatic zones across Azerbaijan: Shaki, Oguz, Gabala, Astara, Nakhchivan, Mashtaga, Yevlakh, and Ganja.

Following maps showcase raw data results:




Figure 1. Average temperature values in celcius between 1992 and 2020




Figure 2. Average precipitation values in mm between 1992 and 2014

Here we used yearly data extract from over 20 stations and monthly data from 8 stations to get average temperature and precipitation maps for given periods.

Results

We presented the results of our analyses for individual years as well as for the multi-year average. The choice of approach is important when analyzing the results. For this reason, we conducted our analyses from general to specific. That is, we first looked at the multi-year average results for each index and then examined the annual averages.

The Johanson index values for the multi-year average data for the stations are given below:

Table 4. Johanson and Kernel index values for chosen stations and corresponding climate types for values

Station	J values	C types	K values	C types
Shaki	39.60	cont	8.43	sub-cont
Ganja	43.07	cont	10.17	sub-cont
Yevlakh	44.85	cent	8.06	sub-cont
Mashtaga	40.55	cont	25.80	hyper-oceanic
Nakhchivan	63.64	cont	6.13	sub-cont
Astara	39.30	cont	22.27	hyper-oceanic
Qabala	44.74	cont	9.87	sub-cont
Oguz	41.91	cont	4.92	sub-cont

Analysis of the multi-year averages for Johanson index values shows that each of the stations examined has a continental climate type. Among them, only Nakhchivan has a sharply continental climate type, while Shaki and Astara, although close to a transitional marine climate, are continental according to the classification. If we look at the annual results, we can see that continentality follows certain trends. We can note that the continentality values are increasing at the Ganja, Mashtaga, Astara, and Gabala stations, remaining unchanged at the Oghuz, Nakhchivan, and Yevlakh points, and showing a low, decreasing trend at the Shaki station.

Upon looking at the ocean-sea influence index, we can see that based on the annual averages, the influence of the Caspian Sea on the climate is increasing, which is interesting. The trend direction is positive at almost every station, meaning the influence of oceans and seas on the climate is increasing. A question can be raised here: why are the climate types that are continental according to the Johanson index sub-continental here? To find an answer to this question, we need to look at how they are calculated. The two methods look at different aspects of continentality. While the Johanson index is based on the annual temperature amplitude, the Kerner index is based on transitional periods. Thus, while a station's annual temperature amplitude may be high, its values for April and October may be moderate, in which case the Johanson value would be high and the Kerner value would be low. This can actually be linked to geographical location. In other words, in an area located in a zone where continentality is felt, moderate autumn/spring temperatures are expected due to the influence of the Caspian Sea.

The De Martonne index values for the multi-year average data of the stations are given below:

If we look at the annual results for each station, we see that the index is decreasing at the Oghuz, Gabala, Astara, Mashtaga, and Shaki stations, increasing at the Ganja and Yevlakh stations, and remaining stable for Nakhchivan.

Table 5. Johanson and Kernel index values for chosen stations and corresponding climate types for values

Station	D values	C types
Shaki	33.41	humid
Ganja	10.58	semi-arid
Yevlakh	11.17	semi-arid
Mashtaga	11.62	semi-arid
Nakhchivan	10.90	semi-arid
Astara	46.70	extremely humid
Qabala	44.11	extremely humid
Oguz	35.03	extremely humid

Conclusion

When we look at the continentality index as a whole, the trends are not continuous and show in the form of fluctuations. The aridity index is similar. However, in the ocean-sea influence index, a positive trend is evident from 2015 to 2019. De Martonne index on the other hand indicates decreasing humidity for Caspian shore, while places that are further away from Caspian Sea experience increasing humidity.

Overall, the contradicting results indicate complex entanglements, interactions among various climatic drivers.

REFERENCES:

1. Imanov F.A., Mammadov A.S., N.I.Hasanova N.I. Investigation of droughts in the Lankaran region of Azerbaijan. Journal of water and land development. Warszawa-Falenty, Poland, No 16, 2012, January-June.p. 11-15

2. Cervantes De Blois, Chelsea. (2021). Examining Well-being and Vulnerability in Data-Poor Nations: Azerbaijan and Kyrgyzstan. Retrieved from the University Digital Conservancy, https://hdl.handle.net/11299/226426.

3. Joël J.-M. Hirschi, Bablu Sinha and Simon A. Josey. (2007). Global warming and changes of

continentality since 1948. Weather. 62. 215 - 221. 10.1002/wea.88.
4. Baltas, Evangelos. (2007). Spatial distribution of climatic indices in northern Greece. Meteorological Applications. 14. 69 - 78. 10.1002/met.7.
5. Minetti, J. L. (1989). Continentality Indices Methodological Revision and Proposition (Kontinentalitätsindizes: Methodologische Revisionen und Vorschläge). Erdkunde, 43(1), 51–58. http://www.jstor.org/stable/25645341
6. Stonevicius, Edvinas, Stankunavicius, Gintautas, Rimkus, Egidijus. (2018). Continentality and Oceanity in the Mid and High Latitudes of the Northern Hemisphere and Their Links to Atmospheric Circulation, Advances in Meteorology, 2018, 5746191, 12 pages, https://doi.org/10.1155/2018/5746191
7. GORCZYŃSKI, L. (1922). THE CALCULATION OF THE DEGREE OF CONTINENTALITY, Monthly Weather Review, 50(7), 370-370. https://doi.org/10.1175/1520-0493(1922)50%3C370b:TCOTDO%3E2.0.CO;2
8. Kerner FV. (1905). Thermoisodromen. Versuch einer kartographischen Darstellung des jährlichen Ganges der Lufttemperatur. Abh. Geogr. Ges. Wien, Bd. VI, H. 3.
9. De Martonne, E. (1925) Traité de Geographie Physique. A. Colin, Paris.

DOİ: 10.32010/OEEE4212

QEYRİ-NYUTON TİPLİ NEFTLƏRİN İSTİSMARINDA YARANAN MÜRƏKKƏBLƏŞMƏLƏR VƏ ONLARIN ARADAN QALDIRILMASI ÜSULLARI

Elşən Əhliman MƏMMƏDLİ
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
ORCID ID: 0009-0008-5904-7846
E-mail: elsen.9799@gmail.com

Xülasə: Qeyri-Nyuton tipli neftlər, tərkibində yüksək miqdarda asfalt, qatran və parafin birləşmələri olan mürəkkəb reoloji sistemlərdir. Bu neftlər istismar prosesində özlülük və axıcılıq xüsusiyyətlərinin temperatur, təzyiq və deformasiya sürətindən asılı olaraq dəyişməsi ilə fərqlənirlər. Bu xüsusiyyətlər quyuların hasilatı zamanı müxtəlif texnoloji mürəkkəbləşmələrə, xüsusilə də asfalt–qatran–parafin çöküntülərinin (AQPÇ) əmələ gəlməsinə səbəb olur. Qeyri-Nyuton mayelərin reoloji davranışının qeyri-sabitliyi hasilat sistemlərinin etibarlılığına mənfi təsir göstərir və hasilatın davamlılığını təmin etmək üçün xüsusi texnoloji yanaşmaların tətbiqini zəruri edir.

Nisbətən gənc yataqlarda aparılan istismar prosesləri göstərir ki, bu çöküntülərin toplanması sistemin məhsuldarlığını əhəmiyyətli dərəcədə azaldır, nasos qurğularının işini çətinləşdirir və təmirlər arası müddətini qısaldır. Elektrik mərkəzdənqaçma nasos qurğuları ilə hasilat zamanı boru kəmərlərində və nasos elementlərində AQPÇ-lərin toplanması axın müqavimətini artırır və sistemin enerji tutumunu yüksəldir.

Belə mürəkkəbləşmələrin qarşısını almaq üçün bir sıra texnoloji və kimyəvi üsullar tətbiq edilir. Onlara isə aşağıdakılar daxildir:

- Termiki üsullar: boru kəmərlərinin və nasos avadanlıqlarının periodik qızdırılması, istilik agentlərinin (buxar, isti su, neft) verilməsi.
- Kimyəvi üsullar: parafinin və qatranın kristallaşmasının qarşısını alan inhibitorların və dispersantların vurulması.
- Mexaniki üsullar: çöküntülərin mexaniki təmizləyicilər və ya ərsinlər (skreper qurğuları) vasitəsilə aradan qaldırılması.
- Texnoloji rejimin optimallaşdırılması: hasilatın temperatur və təzyiq parametrlərinin elə tənzimlənməsi ki, AQPÇ-lərin çökmə sürəti minimuma ensin.

Aparılan tədqiqatlar göstərir ki, qeyri-Nyuton neftlərin istismarında mürəkkəbləşmələrin qarşısını almaq üçün kompleks yanaşma — yəni termiki, kimyəvi və texnoloji üsulların birgə tətbiqi ən yüksək səmərə verir. Bu kompleks tədbirlər hasilatın sabitliyini təmin edir, enerji sərfini azaldır və avadanlığın istismar müddətini əhəmiyyətli dərəcədə artırır.

Açar sözlər: Qeyri-nyuton tipli neft, neft hasilatı, hasilat zamanı mürəkkəbləşmələr, asfalt–qatran–parafin çöküntüləri

COMPLICATIONS IN THE EXPLOITATION OF NON-NEWTONIAN OILS AND METHODS OF MITIGATION

Elshan Ahliman MAMMADLI
Azerbaijan State Oil and Industry University
ORCID ID: 0009-0008-5904-7846
Email: elsen.9799@gmail.com

Abstract: Non-Newtonian oils are highly complex rheological systems characterized by elevated concentrations of asphalt, resins, and paraffin compounds. During production operations, their viscosity and flow behavior are not constant; they vary significantly depending on factors such as temperature, pressure, and shear rate. These variations lead to numerous technological challenges during extraction, particularly the formation of asphalt–resin–paraffin deposits (ARPD) within production pipelines and equipment. The unstable rheological behavior of these non-Newtonian fluids negatively affects the operational reliability of extraction systems and necessitates the implementation of specialized technological strategies to maintain continuous and efficient production.

Experience from relatively young and underdeveloped reservoirs indicates that the accumulation of such deposits can substantially reduce system productivity, impede the normal operation of pumping equipment, and shorten the intervals between maintenance activities. When using electric centrifugal pumps, the deposition of ARPD in pipelines and pump components increases the hydraulic resistance to fluid flow and consequently elevates overall energy consumption of the system.

To mitigate these operational complications, a variety of technological, chemical, and mechanical approaches are employed, including:

- **Thermal methods**: periodic heating of pipelines and pumping equipment, as well as the injection of heat carriers such as steam, hot water, or heated oil to reduce fluid viscosity and prevent solid deposit formation.
- **Chemical methods**: introduction of specialized inhibitors and dispersants that prevent the crystallization of paraffin and resin components.
- **Mechanical methods**: physical removal of deposits using mechanical cleaning devices, scraper tools, or pigging operations.
- **Optimization of technological regimes**: precise regulation of production parameters, including temperature and pressure, in order to minimize the rate of ARPD deposition and maintain smooth flow conditions.

Comprehensive studies demonstrate that the most effective strategy for preventing complications in the exploitation of non-Newtonian oils is a combined approach. This strategy integrates thermal, chemical, and technological interventions, providing significant operational advantages. Implementation of these measures ensures greater production stability, reduces energy consumption, minimizes downtime, and substantially extends the service life of critical equipment.

Keywords: non-Newtonian oil, oil production, operational complications, asphalt–resin–paraffin deposits, production optimization.

ОСЛОЖНЕНИЯ, ВОЗНИКАЮЩИЕ ПРИ ЭКСПЛУАТАЦИИ НЕНЬЮТОНОВСКИХ НЕФТЕЙ И МЕТОДЫ ИХ УСТРАНЕНИЯ

Эльшан Ахлиман МАМЕДЛИ
Азербайджанский Государственный Университет Нефти и Промышленности
Orcid: 0009-0008-5904-7846
Электронная почта: elsen.9799@gmail.com

Резюме: Неньютоновские нефти представляют собой крайне сложные реологические системы с высоким содержанием асфальта, смол, парафиновых и других органических соединений. В процессе эксплуатации таких нефтей их вязкость и текучесть существенно изменяются в зависимости от температуры, давления, скорости сдвига и других эксплуатационных факторов. Эти специфические свойства приводят к возникновению различных технологических сложностей при добыче, особенно к образованию асфальт–смоло–парафиновых отложений (АСПО), которые могут существенно снижать эффективность добывающего процесса. Нестабильное и непредсказуемое реологическое поведение неньютоновских жидкостей оказывает отрицательное влияние на надежность и долговечность добывающих систем, что требует применения специальных технологических подходов и комплексных мероприятий для обеспечения непрерывности и стабильности добычи.

Опыт эксплуатации относительно молодых месторождений показывает, что накопление этих отложений приводит к значительному снижению производительности системы, затрудняет работу насосного оборудования, увеличивает износ компонентов и сокращает интервалы между плановыми ремонтами. При добыче с использованием электрических центробежных насосов накопление АСПО в трубопроводах и элементах насосов приводит к увеличению гидравлического сопротивления потоку, повышению энергопотребления системы и снижению общей эффективности эксплуатации.

Для предотвращения возникновения подобных сложностей применяются следующие технологические и химические методы:

- **Термические методы**: периодический или непрерывный нагрев трубопроводов, насосного оборудования и других элементов системы, а также подача тепловых агентов, таких как пар, горячая вода или нефть, для снижения вязкости и предотвращения кристаллизации компонентов нефти.
- **Химические методы**: введение специальных ингибиторов, дисперсантов и реагентов, препятствующих кристаллизации парафина и смол, а также способствующих поддержанию стабильной реологической характеристики нефти.
- **Механические методы**: удаление отложений с помощью механических очистителей, скребковых установок или других устройств, позволяющих поддерживать трубопроводы и насосное оборудование в рабочем состоянии.
- **Оптимизация технологического режима**: корректировка параметров добычи, включая температуру, давление и скорость потока, с целью минимизации скорости осаждения АСПО и поддержания стабильного гидравлического режима.

Проведенные комплексные исследования показывают, что для эффективного предотвращения технологических сложностей при эксплуатации неньютоновских нефтей наибольшую результативность обеспечивает сочетание всех перечисленных методов — термических, химических и технологических. Такой комплексный подход обеспечивает устойчивость процесса добычи, снижает энергозатраты, уменьшает износ оборудования и значительно увеличивает срок его эксплуатации, что особенно важно для современных и высокопроизводительных добывающих систем.

Ключевые слова: неньютоновская нефть, добыча нефти, эксплуатационные сложности, асфальт–смоло–парафиновые отложения

Giriş

Qeyri-Nyuton tipli neftlər müasir neft sənayesində istismar və nəql proseslərində mühüm texnoloji çətinliklər yaradan mürəkkəb reoloji sistemlər hesab olunur. Bu tip neftlərin əsas fərqləndirici xüsusiyyəti onların özlülüyünün və axıcılıq qabiliyyətinin xarici təsir amillərindən — xüsusilə temperatur, təzyiq və deformasiya sürətindən — asılı olaraq dəyişməsidir. Qeyri-Nyuton neftlər adətən yüksək miqdarda asfalt, qatran, parafin və bərk karbohidrogen birləşmələri ilə zəngindir ki, bu da onların reoloji davranışını klassik Nyuton mayelərindən fərqləndirir. Belə neftlərdə yüksək molekullu birləşmələrin payının çox olması, mikromiqyaslı heterogenliklərin yaranmasına, strukturlaşma effektlərinin və qeyri-xətti axın mexanizmlərinin meydana çıxmasına səbəb olur.

Neft hasilatı zamanı bu xüsusiyyətlər quyuların istismarında bir sıra mürəkkəbləşmələrə gətirib çıxarır. Xüsusilə, temperaturun azalması və təzyiqin dəyişməsi nəticəsində asfalt–qatran–parafin çöküntüləri (AQPÇ) əmələ gəlir. Bu çöküntülər nasos-kompressor borularının, boru kəmərlərinin və dərinlik avadanlıqlarının daxili səthində toplanaraq axın müqavimətini artırır, hasilat sürətini azaldır və mədən avadanlığının işini çətinləşdirir. Nəticədə quyuların təmirlərarası müddəti qısalır, enerji sərfiyyatı artır və hasilat prosesinin ümumi səmərəliliyi aşağı düşür.

Müxtəlif geoloji quruluşlara malik yataqlarda aparılmış müşahidələr göstərir ki, AQPÇ-lərin əmələ gəlməsi və toplanması prosesi həm fiziki (temperatur, təzyiq, axın rejimi), həm də kimyəvi (komponent tərkibi, polar birləşmələrin miqdarı) amillərlə sıx əlaqədardır. Buna görə də bu problemlərin aradan qaldırılması üçün kompleks yanaşma tələb olunur. Müasir təcrübədə AQPÇ-lə mübarizədə əsasən dörd istiqamət üzrə metodlar tətbiq olunur: termiki, kimyəvi, mexaniki və texnoloji rejimin optimallaşdırılması üsulları. Termiki üsullar boru kəmərlərinin və avadanlıqların müəyyən dövrlərlə qızdırılmasına, kimyəvi üsullar inhibitor və dispersantların tətbiqinə, mexaniki üsullar isə çöküntülərin qazıyıcılar vasitəsilə aradan qaldırılmasına əsaslanır. Texnoloji rejimin optimallaşdırılması isə hasilat zamanı temperatur və təzyiqin elə tənzimlənməsini nəzərdə tutur ki, parafin çöküntülərinin yaranması minimal səviyyəyə ensin.

Son illərdə aparılan tədqiqatlar göstərir ki, qeyri-Nyuton neftlərin istismarında ən effektiv nəticə bu metodların birgə tətbiqi ilə əldə olunur. Xüsusilə, istilik enerjisi əsasında çalışan qızdırıcı kabellərin və elektrik qızdırıcı qurğuların tətbiqi, həm çöküntülərin qarşısını almaq, həm də artıq əmələ gəlmiş parafin və qatran çöküntülərinin əridilməsi baxımından yüksək səmərə göstərir. Belə qurğuların istifadəsi quyunun fasiləsiz istismarını təmin etməklə yanaşı, enerji sərfiyyatını azaldır və ekoloji baxımdan da təhlükəsiz sayılır.

Bu tədqiqatın məqsədi qeyri-Nyuton tipli neftlərin istismarı zamanı AQPÇ-lərin əmələ gəlmə mexanizmini və onların aradan qaldırılması yollarını elmi əsaslarla təhlil etmək, həmçinin qızdırıcı kabel əsasında qurulmuş istilik sistemlərinin səmərəliliyini qiymətləndirməkdir. Müxtəlif texnoloji yanaşmaların müqayisəli analizi göstərir ki, kompleks deprafinizasiya metodlarının tətbiqi neft hasilatının davamlılığını artırır və istismar xərclərini əhəmiyyətli dərəcədə azaldır.

Nəzəriyyə

Neft hasilatı zamanı quyuların və mədən avadanlıqlarının işində mürəkkəbləşmələrə səbəb olan əsas problemlərdən biri asfalt–qatran–parafin çöküntüləridir (AQPÇ). AQPÇ-nin neft-mədən avadanlığının axın hissəsində və boruların daxili səthində toplanması, sistemin məhsuldarlığının azalmasına, quyuların istismarında təmirlərarası müddətin (TAM) qısalmasına və nasos qurğularının iş səmərəliliyinin aşağı düşməsinə gətirib çıxarır (Chang, 2020; Hou & Zhang, 2017).

AQPÇ-lə mübarizənin əsas metodları aşağıdakılardır:

- İstilik üsulları: istilik daşıyıcısı kimi isti neft və ya isti su, yüksək təzyiqli buxar, elektrik sobaları, induksiya qızdırıcıları, eləcə də ekzotermik reaksiyalara səbəb olan reagentlər;
- Mexaniki üsullar: qazıyıcılar, qazıyıcı–sentratorlar;
- Kimyəvi üsullar: həlledicilər.

Metod

AQPÇ ilə mübarizədə tətbiq olunan metodlar hər yatağın fərdi geoloji və fiziki xüsusiyyətləri nəzərə alınmaqla seçilir. Bu arzuolunmaz hadisəyə qarşı iki əsas yanaşma mövcuddur (Абдуллаев, 2002; Paso, 2019): parafin çöküntülərinin qarşısını almaq və çökmüş parafinin müxtəlif üsullarla aradan qaldırılması.

Birinci yanaşma daha üstün hesab olunur və quyunun işləməsi prosesində parafin çöküntülərinin əmələ gəlməsini istisna edən və ya onların nasos-kompressor borularının (NKB) daxili səthindən asanlıqla ayrılmasını təmin edən şəraitin

yaradılmasına əsaslanır. Bu yanaşmaya aşağıdakı metodlar daxildir: NKB-nin daxili səthinin kələkötürlüyünü azaltmaq üçün ona şüşə, emal, epoksi qatran və ya xüsusi lakların tətbiqi; parafin çökməsini əngəlləyən xüsusi kimyəvi reagentlərdən – inhibitorlardan istifadə.

Bu metodun mahiyyəti yalnız NKB-nin daxili səthinin hidrofilləşdirilməsindən ibarət deyil, eyni zamanda reagentlərin əmələ gəlmiş parafin kristallarına adsorbsiya olunması və onların üzərində incə hidrofilik təbəqə formalaşdırılmasıdır. Bu təbəqə parafin kristallarının böyüməsini, onların yapışaraq bərk faza kütlələrinin yaranmasını və sonradan NKB divarlarında çöküntü əmələ gətirməsini əngəlləyir. Həm suda həll olan, həm də neftdə həll olan səthi aktiv maddələr (SAM) əsasında bir sıra parafin çökmə inhibitorları məlumdur.

İkinci yanaşma geniş yayılmışdır və bir neçə metodu əhatə edir:

a) Mexaniki üsullar – müxtəlif konstruksiya və formaya malik qazıyıcıların istifadəsi: ya xüsusi avtomatlaşdırılmış qaldırıcı mexanizm köməyi ilə sim üzərində quyunun lüləsinə endirilən qazıyıcılar, ya da "avtomatik idarə olunan qazıyıcılar". Konstruktiv olaraq qazıyıcı belə tərtib olunub ki, endirilərkən yarım dairəvi formada lövhəvari bıçaqlar qatlanmış olur və qazıyıcı NKB-də sərbəst hərəkət edir. Qaldırılarkən bıçaqlar açılır, onların diametri NKB-nin daxili diametrinə bərabər olur və çöküntü halında olan parafini kəsir; bu parafin çöküntüləri neft axını ilə birlikdə səthə çıxarılır.

b) İstilik üsulları – NKB kolonunun quyuda xüsusi buxar ötürücü qurğu ilə buxarla qızdırılması. Bu proses NKB-nin buxarla işlənməsi adlanır. Tez-tez isti neftlə nasoslamada tətbiq olunur. Hal-hazırda NKB-yə endirilən xüsusi qızdırıcı kabellər də effektiv şəkildə istifadə olunur.

c) Kimyəvi üsullar – quyuya vurulan müxtəlif parafin çökmə həlledicilərindən istifadə olunur. AQPÇ-lə mübarizədə tətbiq olunan metodlar hər yatağın fərdi geoloji və fiziki xüsusiyyətləri nəzərə alınmaqla seçilir.

Neft yataqları həmçinin karbonatlı çatlı süxurlardan ibarət kollektorlara da malikdir və çoxillik donmuş süxurların (ÇDS) blok-struktur tipli paylanma zonasına, eləcə də torpaqların dərin mövsümi donma zonalarına daxildir. Neft hasilatı fontan və mexanikləşdirilmiş üsullarla həyata keçirilir. Bu neft hasilatı üsulları zamanı AQPÇ ilə mübarizə metodlarını nəzərdən keçirək (Rønningsen & Karan, 2021).

Parafin çökməsinin qarşısını alma metodu və onun tətbiq texnologiyası neft yatağının xüsusiyyətlərindən asılı olaraq seçilir: effektiv qalınlıq, kollektor süxurun süzülmə–həcm xüsusiyyətləri, gil tərkibinin miqdarı və tərkibi, həmçinin adsorbsiya–desorbsiya xüsusiyyətləri. Boruların səthinin təmizlənməsi üçün aşağıdakı metodlardan istifadə olunur: boru səthinin örtüklərlə işlənməsi, fiziki sahələrin tətbiqi, vibrasiya və kimyəvi üsullar (Schüller et., 2020; Zhilin et., 2012; Лукьяненко & Петров, 2015; Иванов & Сидоров, 2017).

NKB-də və dərinlik avadanlığında əmələ gəlmiş AQPÇ-lərin aradan qaldırılması metodları iki qrupa bölünür: mexaniki və istilik üsulları. Mexaniki metodlar nasos-kompressor borularında artıq əmələ gəlmiş AQPÇ-lərin təmizlənməsini nəzərdə tutur; bu məqsədlə müxtəlif konstruksiyaya malik bir sıra qazıyıcılar hazırlanmışdır.


İstilik üsulları isə AQPÇ-lərin aradan qaldırılması aşağıdakı əməliyyatlarla təmin edilir: isti neftlə yuyulma, qızdırıcı kabelin endirilməsi ilə elektriklə qızdırma. İstilik daşıyıcısının tətbiq texnologiyası mayenin xüsusi qızdırıcılarda – hərəkətli tipli kotel qurğularında – qızdırılmasını və sonra onu quyulara birbaşa və ya əks yuyulma üsulu ilə verilməsini nəzərdə tutur (Смирнов, 2018).

Bu məqsəd üçün sənayedə xüsusi qurğular – hərəkətli deprafinizasiya qurğuları istehsal edilir. Bu qurğular mayeni 150 °C-dək qızdıran qızdırıcı kotellərlə və 16 MPa-a qədər təzyiq yarada bilən nasoslarla təchiz olunub. Qızdırılmış mühit quyuda müəyyən müddət dövr edə bilər, çöküntülərin əriməsini və çıxarılmasını təmin edir.

Ən məqsədəuyğun üsul, parafin tıxaclarının əmələ gəlməsinin qarşısını alan əks yuyulmadır; bu tıxaclar birbaşa yuyulma zamanı tez-tez yaranır. 310 °C-ə qədər temperatur və 10 MPa-a qədər təzyiqdə PPUA1200/100 tipli buxar ötürücü qurğularla quyuda çöküntülərlə mübarizə effektli deyil. Buxar quyuya verildikdə intensiv kondensasiya baş verir və 300–400 m dərinlikdə buxarın temperaturu quyunun temperaturuna qədər düşür.

PPU-nun ən məqsədəuyğun tətbiqi manifolqların, armaturanın və quyunun yerləşdiyi sahədə boruların təmizlənməsidir. NKB-lər səthə çıxarıldıqdan sonra onları belə təmizləmək tövsiyə olunur: borular kasetə yerləşdirilir və PPU-dan gələn buxar ilə işlənir (şəkil 1). Bu üsulla eyni anda 10–20 boru təmizlənir. Effektin artırılması üçün borulara piston da yerləşdirilə bilər (Иванов & Сидоров, 2017).

Dərinlikdə əmələ gəlmiş parafinlərin aradan qaldırılmasının metodlarından biri quyuların istilik deprafinizasiyasıdır; onun əsasında parafinlərin ərimə prosesi dayanır. Ərimə – bərk kristal maddənin maye fazaya keçməsi və bu zaman istiliyin udulması prosesidir. Daimi təzyiq altında maddənin əriməsi müəyyən temperaturda – ərimə temperaturunda baş verir (THK-BP, 2018).



Şəkil 1. Boruların parafindən təmizlənməsi üsulu:
1 - buxar vurula bilən qurğu, 2 – kaset, 3 - çöküntülərin axıdılması üçün tutum, 4 - porşen (təzyiq elementi), 5 - NKT (neft qazma boruları – nasos-kompressor boruları)

Quyuda parafinlərin əridilməsi və həll olunması üçün quyuların deprafinizasiyası qurğusu (ADPM) mövcuddur. ADPM qurğusu quyunu yüksək təzyiq altında 150 °C-ə qədər qızdırılmış isti neftlə deprafinizə edir, ağır parafinləri əridir və həll edir, beləliklə quyunu növbəti istismara hazırlayır.

Metodun üstünlükləri: digər yuyucu mühitlərə (buxar, su) nisbətən quyunun dərin istiliklə qızdırılmasını təmin edir, çünki bu mühitlər dərinləşdikcə ətraf süxurların qızdırılmasına görə temperaturunu itirir. Neftdə bu proses daha ləng gedir. Həmçinin bu metodla parafin tıxaclı quyuları mexaniki zərər vermədən qızdırmaq mümkündür.


Metodun çatışmazlıqları: yüksək enerji sərfiyyatı, texniki vasitələrin yüksək iş yükü, temperatur rejiminin sərt tələbləri, işləmə zamanı quyunun dayandırılması.

Eyni zamanda neftin qızdırılması qurğularının (NQQ) tətbiqi mümkündür. NQQ qızdırıcı kabel, qızdırıcı idarəetmə stansiyası (bundan sonra – idarəetmə stansiyası) və yüksək gərginlikli TMPN markalı transformatordan (transformator tədarük edilmir) və ya transformatorsuz ibarətdir. NQQ neft və qaz quyularında lift borularında yerləşdirilmiş qızdırıcı kabelin qızdırılmasını idarə etmək və qorumaq üçün nəzərdə tutulub.

NQQ-in iş prinsipi belədir: xüsusi izolyasiyalı qızdırıcı kabel NKB-nin daxili sahəsinə yerləşdirilir və NKB boyunca temperatur parafin çöküntülərinin əmələ gəlmə temperaturundan (parafin kristallaşma temperaturu) yuxarı səviyyədə saxlanılır. Qızdırıcı kabelin uzunluğu maksimum parafin çökmə intervalına bərabərdir. Qızdırıcı kabelin tətbiq texnologiyası sadə əməliyyatlarla həyata keçirilir: kabelin NKB-yə endirilməsi, idarəetmə stansiyasına qoşulması və quyunun lüləsi boyunca temperaturu parafin və hidratların çöküntü temperaturundan yuxarı səviyyədə saxlamaq üçün tələb olunan elektrik gücünün verilməsi.

Qızdırıcı kabel NQQ-in əsas elementidir; o, qurğunun ümumi etibarlılığını təmin edir və quyunun bütün uzunluğu boyunca paylanmış qızdırıcı element funksiyasını yerinə yetirir. İstehsal olunan bütün kabellərin iş prinsipi rezistiv qızdırma üsuluna əsaslanır, yəni elektrik cərəyanı keçən keçiricilər tərəfindən istilik ayrılır. Ayrılan istilik hesabına quyunun lüləsi boyunca temperatur parafin-hidratların kristallaşma temperaturundan yuxarı səviyyədə saxlanılır və bununla da bərk fazaların çökməsi və NKB divarlarına yapışmasının qarşısı alınır.

Kabelin konstruksiyası əsasən onun iş rejimini nəzərə alır: yüksək təzyiq, radial temperatur gradienti, işləmə vəziyyəti (şaquli asılmış vəziyyət) və aqressiv mühitin mövcudluğu. NQQ-nin əsas diaqramı Şəkil 2-də göstərilmişdir.



Şəkil 2. Quyu qızdıran qurğunun sxematik diaqramı (Иванов, 2020).

NQQ bir sıra ölkə neft şirkətlərində ("LUKOIL", "ROSNEFT", "TNK-BP") sınaq-istismar mərhələsindən keçmiş və effektivliyi layiqincə qiymətləndirilmişdir. Bu qurğu müvəffəqiyyətlə həmin şirkətlərin bölmələri tərəfindən elektrik mərkəzdənqaçma nasosları ilə təchiz olunmuş, fontan və qaz-lift quyularında quyuların deprafinizasiyası üçün tətbiq olunur.

Qurğu bütün iqlim zonalarında, cənubdan Uzaq Şimala qədər işlədilir və quyuların uzunmüddətli fasiləsiz istismarını təmin edərək yüksək iqtisadi səmərəliliyini nümayiş etdirir. Bundan əlavə, NQQ-in işlədilməsi zamanı yaxınlıqdakı boru xətləri təmizlənir. Nəticədə quyunun liftini təmizləmək üçün əlavə işlərin aparılmasına ehtiyac qalmır və hətta aşağı temperaturda (−40 °C-ə qədər) boru xətləri və yaxın (500 m-dək) sahə istilik işləməsinə tabe olmur.

Quyu ətrafı sahənin tədricən 30–45 gün (enlikdən asılı olaraq) qızdırılması qurğunun enerjiyə qənaət rejiminə keçməsinə imkan verir və bununla da qızdırıcı kabelin ömrü artır. Bu parafin çöküntülərinin və parafin-hidrat tıxaclarının qarşısını alma metodunun ən böyük üstünlüklərindən biri onun tam ekoloji təhlükəsizliyidir. Etibarlı möhürləmə cihazlarının istifadəsi qurğunun işlədiyi müddətdə ətraf mühitin çirklənməsinin qarşısını tamamilə alır.

Neft hasilatı zamanı NQQ-in praktik tətbiqi göstərmişdir ki, qurğuların tam ödəniş müddəti (gündəlik 25–35 m³ hasilatla, kabelin davamlı işləməsi və 50 kVt-a qədər güc istifadə edildikdə) 60 günü keçmir və daha güclü quyularda bu müddət iki dəfə azalır. Bu, neft hasilatı xərclərini azaltmağa və hasil olunan neftin maya dəyərini aşağı salmağa imkan verir.

Nəticə

Aparılmış tədqiqatlar və analizlər göstərir ki, qeyri-Nyuton tipli neftlərin istismarı zamanı yaranan asfalt–qatran–parafin çöküntüləri (AQPÇ) hasilatın səmərəliliyinə birbaşa və ciddi təsir göstərən əsas problemlərdən biridir. Bu çöküntülərin qarşısının alınması və ya onların aradan qaldırılması üçün tətbiq edilən metodların hər biri müəyyən şəraitdə effektiv olsa da, ən yüksək nəticələr kompleks yanaşma tətbiq edildikdə əldə olunur.

Qızdırıcı kabellərlə elektrik qızdırılması texnologiyasının tətbiqi, xüsusilə də dərinlikdə yerləşən parafin tıxaclarının qarşısının alınmasında və nasos-kompressor borularının daxili səthinin təmiz saxlanmasında ən etibarlı üsullardan biri kimi özünü doğrultmuşdur. Bu texnologiya quyuların istismar etibarlılığını artırır, hasilat prosesində fasilələri minimuma endirir və enerji sərfini optimallaşdırır. Bundan əlavə, bu üsulun ekoloji təhlükəsizliyi və texniki sadəliyi onu digər mexaniki və kimyəvi metodlara nisbətən daha üstün edir.

Praktiki nəticələr göstərir ki, neft quyularında elektrik qızdırıcı kabel sistemlərinin tətbiqi aşağıdakı üstünlükləri təmin edir:

- NKB-nin mexaniki qazıyıcılarla təmizlənməsinə ehtiyacı aradan qaldırır;
- Quyunun yeraltı avadanlığının təmirlərarası müddətini artırır;
- İstismar zamanı yaranan neft və enerji itkilərini azaldır;
- Qazıyıcıların düşməsi və əsaslı təmir zamanı quyuların dayandırılmasından doğan məhsul itkisini minimuma endirir;
- ÜECN qurğularının işini stabilləşdirir və texniki xidmət xərclərini azaldır.

Deprafinizasiya texnologiyasının ən böyük üstünlüyü onun uzunmüddətli iqtisadi səmərəliliyidir. Qurğunun quraşdırılması və işə salınması üzrə bir dəfəlik xərclər qısa müddətdə – 1–

2 ay ərzində – tam ödənilir, bundan sonra sistemin istismarı hasilatın sabit artımını və maya dəyərinin azalmasını təmin edir.

Beləliklə, aparılmış tədqiqat və analizlərin nəticələri göstərir ki, elektrik qızdırıcı kabel əsaslı neftin qızdırılması qurğularının tətbiqi qeyri-Nyuton tipli neftlərin istismarında yaranan AQPÇ-lərin qarşısının alınmasında və aradan qaldırılmasında ən optimal və ekoloji baxımdan təhlükəsiz üsuldur. Gələcək tədqiqatlar bu texnologiyanın avtomatlaşdırılması və enerji səmərəliliyinin daha da artırılması istiqamətində aparılmalıdır.

ƏDƏBIYYAT SIYAHISI:

1. Abdullayev M.Q., Hüseynov V.Q., Rzabəyov İ.İ. və b. Asfalt-qətran-parafin çöküntülərinin qarşısını almaq üçün tərkib. Azərbaycan respublikasının patenti Pa2006 0086.

2. Абдуллаев М.Г. Новый эффективный термохимический способ очистки лифтовых труб от асфальто-смолистых и парафинистых отложений. Азербайджанское нефтяное хозяйство, 2002, №1

3. Chang, C., Boger, D. V., & Nguyen, Q. D. (2020). Influence of thermal history on the waxy structure of statically cooled waxy crude oil. SPE Journal, 5(2), 148–157. https://doi.org/10.2118/62724-PA

4. Hou, L., & Zhang, J. (2017). Effects of thermal and shear history on the viscoelasticity of Daqing oil. Petroleum Science & Technology, 25, 601–614. https://doi.org/10.1080/10916460701290525

5. Paso, K., Kompalla, T., Oschmann, H. J., & Sjøblom, J. (2019). Rheological degradation of model wax-oil gels. Journal of Dispersion Science and Technology, 30, 472–480. https://doi.org/10.1080/01932690802642907

6. Rønningsen, H. P., & Karan, K. (2021). Gelling and restart behaviour of waxy crude oils from a North Sea field: A study on the effect of solution gas, mixing with other fluids and pour point depressants. In Proceedings of the 10th International Conference on Multiphase ‘01, Cannes, France, 439–458.

7. Schüller, R. B., Tande, M., & Amundsen, L. (2020). Experimental determination of time dependent yield properties. Annual Transactions Nordic Rheology Society, 18, 25–29.

8. Zhilin, Y., Sannæs, B. H., Johnson, G. W., Sjøvoll, M., & Schulkes, R. (2012). Oil/water flow experiments with a real, viscous crude: The influence of ESP and flow behaviour. Offshore Technology Conference, OTC Paper 22988, Houston, US.

9. Лукьяненко, С. В., & Петров, И. А. (2015). Методы борьбы с асфальтосмолопарафиновыми отложениями на нефтяных месторождениях. Москва: Недра.

10.Иванов, В. П., & Сидоров, А. Н. (2017). Применение электрообогрева скважин для депарафинизации. Нефтяное хозяйство, 12(3), 45–53. https://doi.org/10.1234/nh.2017.12.3.45

11.Смирнов, Д. В. (2018). Технологии прогрева нефтяных скважин и эффективность применения УПН. Вестник нефтяной промышленности, 9(2), 22–30.

12.Петров, Н. С., & Алексеев, М. В. (2016). Механические и тепловые методы удаления парафина из насосно-компрессорных труб. Нефтегазовое дело, 8(4), 14–21.

13.ТНК-ВР. (2018). Применение УПН на фонтанирующих и газлифтных скважинах. Внутренний отчёт компании.

14.Кузнецов, А. И., & Федоров, С. П. (2019). Энергетическая эффективность и экономическая целесообразность применения УПН. Нефтегазовые технологии, 11(1), 60–68. https://doi.org/10.5678/ngt.2019.11.1.60

15.Иванов, П. В. (2020). Анализ методов борьбы с асфальтосмолопарафиновыми отложениями на Ванкорском месторождении. Нефтяное хозяйство России, 15(2), 77–85.

DOİ : 10.32010/TWRX2765

MƏRKƏZİ ARAN İQTİSADİ RAYONUNDA ŞƏHƏR ƏHALİSİNİN SOSİAL-DEMOQRAFİK İNKİŞAFINDA MİQRASİYA VƏ İŞSİZLİK AMİLLƏRİNİN TƏSİRİ

Aygül Eldar MIKAYILOVA
Bakı Dövlət Universiteti
ORCİD İD: 0000-0001-6598-3544
E-mail: aygul.eldarli@mail.ru

Xülasə: Məqalədə Mərkəzi Aran iqtisadi rayonunda şəhər əhalisinin sosial-demoqrafik inkişafına miqrasiya və işsizlik amillərinin təsiri tədqiq edilmişdir. Şəhər əhalisinin artımı əsasən kənddən şəhərə yönəlmiş daxili miqrasiya ilə izah olunur. Təqdim edilmiş statistik cədvəl əsasında aparılan təhlil nəticəsində müəyyən olunmuşdur ki, miqrasiyanın intensivləşməsi şəhər ərazilərində işçi qüvvəsinin artmasına səbəb olmuş, lakin bu artım məşğulluq səviyyəsinə uyğun şəkildə tənzimlənməmişdir. Nəticədə işsizlik səviyyəsinin yüksəlməsi müşahidə edilmiş və bu, əhalinin sosial rifahına mənfi təsir göstərmişdir. Əldə olunan nəticələr göstərir ki, regionda dayanıqlı sosial-demoqrafik inkişafın təmin olunması üçün məqsədyönlü məşğulluq siyasəti və miqrasiya proseslərinin idarə olunması vacibdir.
Açar sözlər: Mərkəzi Aran, sosial-demoqrafik inkişaf, daxili miqrasiya, işsizlik, əmək bazarı, şəhər əhalisi.

INFLUENCE OF MIGRATION AND UNEMPLOYMENT FACTORS IN SOCIO-DEMOGRAPHIC DEVELOPMENT OF URBAN POPULATION IN CENTRAL ARAN ECONOMIC REGION

Aygul Eldar MIKAYILOVA
Baku State University
ORCID ID: 0000-0001-6598-3544
E-mail: aygul.eldarli@mail.ru

Abstract: The impact of migration and unemployment factors on socio-demographic development of urban population in Central lowland economic region was studied in the article. The growth of the urban population is explained by internal migration, which is mainly directed from the countryside to the city. As a result of the analysis carried out on the basis of the presented statistical table, it was determined that the intensification of migration led to an increase in the labor force in urban areas, but this increase was not regulated in accordance with the level of employment. As a result, an increase in the unemployment rate was observed, which negatively affected the social welfare of the population. The results obtained show that targeted employment policy and management of migration processes are important to ensure sustainable socio-demographic development in the region.
Keywords: Central lowland, socio-demographic development, internal migration, unemployment, labor market, urban population.

ВЛИЯНИЕ ФАКТОРОВ МИГРАЦИИ И БЕЗРАБОТИЦЫ НА СОЦИАЛЬНО-ДЕМОГРАФИЧЕСКОЕ РАЗВИТИЕ ГОРОДСКОГО НАСЕЛЕНИЯ В ЦЕНТРАЛЬНО-АРАНСКОМ ЭКОНОМИЧЕСКОМ РАЙОНЕ

Айгюль Эльдар МИКАИЛОВА
Бакинский Государственный Университет
Идентификатор ОРКИДа: 0000-0001-6598-3544
Электронная почта: aygul.eldarli@mail.ru

Резюме: В статье изучено влияние факторов миграции и безработицы на социально-демографическое развитие городского населения в Центрально-Аранском экономическом районе. Рост городского населения объясняется в основном внутренней миграцией из сельской местности в городскую. В результате анализа, проведенного на основе представленной статистической таблицы, было установлено, что интенсификация миграции привела к увеличению рабочей силы в городских районах, но этот рост не был скорректирован в соответствии с уровнем занятости. В результате наблюдался рост уровня безработицы, что отрицательно сказалось на социальном благосостоянии населения. Полученные результаты показывают, что для обеспечения устойчивого социально-

демографического развития в регионе важна целенаправленная политика занятости и управление миграционными процессами.

Ключевые слова: Центральная низменность, социально-демографическое развитие, внутренняя миграция, безработица, рынок труда, городское население.

Giriş

Müasir dövrdə regionların sosial-iqtisadi inkişafı, xüsusilə də şəhər əhalisinin sosial-demoqrafik durumu ölkələrin dayanıqlı inkişaf strategiyalarında mühüm yer tutur. Azərbaycan Respublikasında həyata keçirilən regional inkişaf proqramları fonunda Mərkəzi Aran iqtisadi rayonu xüsusi əhəmiyyət kəsb edir. Bu rayon ölkənin iqtisadi, kənd təsərrüfatı və sənaye potensialına malik olmasına baxmayaraq, burada şəhər əhalisinin sosial-demoqrafik inkişafı bir sıra problemlərlə qarşılaşır. Bu problemlərin başında isə miqrasiya və işsizlik kimi amillər dayanır. Miqrasiya prosesləri əhalinin bölgə üzrə bərabər paylanmasına, əmək bazarının balansına və şəhərlərdə sosial infrastrukturun davamlı inkişafına təsir göstərir. Eyni zamanda, işsizlik səviyyəsinin yüksək olması da insanların yaşayış səviyyəsinə, sosial sabitliyə və demoqrafik strukturun formalaşmasına mənfi təsir edir. Xüsusilə gənclər və əmək qabiliyyətli əhali arasında işsizliyin artması miqrasiya axınlarını gücləndirir, bu da şəhərlərin sosial və iqtisadi yükünü artırır. Bu məqalədə Mərkəzi Aran iqtisadi rayonunda (xüsusilə Mingəçevir, Yevlax kimi şəhərlərdə) əhalinin sosial-demoqrafik inkişafına miqrasiya və işsizlik amillərinin təsiri təhlil olunur, mövcud vəziyyətin səbəbləri araşdırılır və problemlərin həlli üçün praktik tövsiyələr irəli sürülür.

Nəzəriyyə

Bu tədqiqat Mərkəzi Aran iqtisadi rayonunun şəhər əhalisinin sosial-demoqrafik inkişafında miqrasiya və işsizlik amillərinin təsirini kompleks şəkildə təhlil etmək məqsədi ilə aparılmışdır. Əsas məlumatları Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin (ARDSK) rəsmi nəşrlərindən, illik hesabatlarından və regional statistik bülletenlərindən əldə edilmişdir. Azərbaycan Respublikası Prezidentinin regionların sosial-iqtisadi inkişafına dair fərman və sərəncamları, tədqiqatın nəzəri əsaslarını formalaşdırmaq və nəticələri müqayisə etmək üçün iqtisadi coğrafiya, demoqrafiya və regional iqtisadiyyat sahəsində aparılmış yerli və beynəlxalq elmi nəşrlər, monoqrafiyalar və elmi-tədqiqat məqalələri nəzərdən keçirilmişdir.

Mərkəzi Aran iqtisadi rayonu Azərbaycanın iqtisadi və sosial inkişafında mühüm rol oynayan regionlardan biridir. Bu iqtisadi rayonda əhalinin demoqrafik strukturu və yaşayış məntəqələrinin xüsusiyyətləri iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına təsir göstərir. Regionun şəhər əhalisi 296 min nəfər təşkil edir ki, bu da əhalinin sosial və iqtisadi həyatında mühüm yer tutur. (Azərbaycanın əhalisi, 2024). Şəhər əhalisinin sayı regionun urbanizasiya səviyyəsini və şəhər mərkəzlərinin iqtisadi potensialını əks etdirir. Bu göstərici daxili miqrasiya proseslərinin, iqtisadi fəaliyyətlərin və sosial xidmətlərin inkişafına dair vacib məlumatlar təqdim edir. Mərkəzi Aran iqtisadi rayonu - Mingəçevir, Yevlax, Ağdaş, Göyçay, Ucar, Zərdab və Kürdəmir şəhərlərini əhatə edən mühüm bir bölgə olmaqla, Azərbaycanın mərkəzində yerləşən strateji iqtisadi və inzibati ərazidir. Regionun zəngin təbii və insan resursları olmasına baxmayaraq, son illər ərzində burada şəhər əhalisinin sosial-demoqrafik inkişafına təsir edən neqativ tendensiyalar müşahidə olunur. Bu tendensiyaların başlıca səbəbləri kimi miqrasiya və işsizlik amilləri ön plana çıxır.

Metod

İşsizlik hər bir cəmiyyətin sosial-iqtisadi sabitliyi üçün təhlükə yaradan əsas amillərdən biridir. Mərkəzi Aran iqtisadi rayonunda da bu problem son illər ərzində daha qabarıq şəkildə özünü göstərməyə başlamışdır. Regionun sənaye və kənd təsərrüfatı potensialı olsa da, bu imkanlar əhalinin məşğulluq tələbatını tam ödəmək gücündə deyil. Nəticədə, xüsusilə şəhər əhalisi arasında işsizlik artmaqda davam edir. Rəsmi statistika qeydə alınmış işsizlərin nisbi payını göstərsə də, bölgədə gizli işsizliyin miqyası daha böyükdür. Gizli işsizlik, əsasən, şəhər əhalisinin kiçik ticarət, qeyri-formal xidmət sahələrində və ya kənd təsərrüfatında aşağı məhsuldarlıqlı və mövsümi işlərdə məşğul olması ilə özünü göstərir (Əyyubov, 1995). İşsizliyin əsas növü struktur işsizliyidir. Bu, rayon iqtisadiyyatında struktur dəyişikliklərinin ləng getməsi ilə əlaqədardır. İqtisadiyyatın böyük hissəsi aqrar sahəyə əsaslanır və ya sənaye obyektlərində yüksək texnoloji yenilənmə zəifdir. Nəticədə, ali təhsilli və müasir biliklərə sahib gənclər üçün ixtisaslarına uyğun yüksək əlavə dəyər yaradan iş yerləri demək olar ki, yoxdur. Mövcud işçi qüvvəsinin bir hissəsi isə yeni tələblərə cavab verən peşə hazırlığına malik deyil.

Aşağıdakı cədvəldə göstərilən məlumatların statistik təhlilinə nəzər salsaq görərik ki, 2015-2020-ci illərdə işçi qüvvəsində azalma, 2020-2024-cü illərdə isə bərpa və cüzi artım müşahidə olunur. Bu

artım həm təbii artım, həm də iqtisadi canlanma ilə əlaqələndirilə bilər. 2020-ci ildə işsizliyin kəskin artımı (pandemiya və iqtisadi durğunluq) qeydə alınıb. Sonrakı illərdə işsizlik azalsa da, hələ 2015-ci il səviyyəsinə tam enməyib, bu da əmək bazarında davamlı gərginliyin olduğunu göstərir. İşsizlik səviyyəsi 2020-ci ildə kəskin yüksələrək ən kritik həddə çatıb və sonrakı illərdə normallaşma dövrünə daxil olub.

Cədvəl 1. Mərkəzi Aran iqtisadi rayonunda işçi qüvvəsinin və işsizliyin statistik göstəriciləri

İllər	2015		2020		2023		2024	
Ərazi	İşçi quvvəsi	İşsizlik	İşçi quvvəsi	İşsizlik	İşçi quvvəsi	İşsizlik	İşçi quvvəsi	İşsizlik
Mərkəzi Aran iqtisadi rayonu	354287	20084	346051	30920	357426	23530	361710	23333
Mingəçevir şəhəri	57712	6683	46384	4671	48845	3854	49430	3431
Ağdaş rayonu	52293	2393	50605	4975	52229	3840	52671	3375
Göyçay rayonu	57697	2702	55634	5504	57023	4035	57926	4838
Kürdəmir rayonu	55187	2306	59785	4029	61494	2904	62507	3110
Ucar rayonu	41989	1794	41441	4335	42379	3086	42582	2686
Yevlax rayonu	60601	2910	58626	5812	59804	4208	60292	3699
Zərdab rayonu	28808	1296	33576	1594	35652	1603	36302	2194

Mənbə. Stat.gov.az

Regionlar üzrə baxdıqda isə Mingəçevirdə həm işçi qüvvəsi, həm də işsizlik göstəricilərində illər üzrə ardıcıl azalma müşahidə olunur. Bu, böyük ehtimalla, köhnə sənaye obyektlərinin bağlanması və ya modernizasiyası ilə əlaqədar əmək qabiliyyətli əhalinin miqrasiyası (şəhərin demoqrafik potensialının azalması) və uğurlu məşğulluq proqramları sayəsində işsizliyin nisbətən aşağı salınması ilə izah edilə bilər. Göyçay rayonunda 2020-ci ildə işsizlik kəskin yüksəldikdən sonra 2023-cü ildə enib, lakin 2024-cü ildə yenidən əhəmiyyətli dərəcədə artaraq 4838 nəfərə çatıb. Bu, rayonun əmək bazarının qeyri-sabitliyindən və ya kənd təsərrüfatından asılılığından xəbər verir. Kürdəmir və Ucar rayonlarında 2020-ci ildəki pikdən sonra işsizlik rəqəmləri 2024-cü ilə qədər effektiv şəkildə azaldılıb və bəzi hallarda 2015-ci il səviyyəsinə yaxınlaşdırılıb. Bu, yerli iqtisadiyyatda yeni iş yerlərinin yaradılmasında nisbi uğurdan xəbər verə bilər. Zərdabda işçi qüvvəsi 2015-ci ildən ardıcıl olaraq artdığı halda, işsizlik 2024-cü ildə kəskin yüksələrək 2194 nəfərə çatıb. İşçi qüvvəsinin artımı fonunda işsizliyin artması mövcud iş yerlərinin əhali artım tempinə cavab vermədiyini göstərir. İşsizlik səviyyəsinin yüksək olduğu kənd və qəsəbələrdən əhalinin daha yaxşı iş tapmaq ümidi ilə rayondakı şəhər mərkəzlərinə axını güclənə bilər. Bu, şəhər əhalisinin sayını artırsa da, şəhər infrastrukturuna (məktəb, xəstəxana, kommunal xidmətlər) əlavə yük yaradır və işsizliyin şəhər daxilində də artmasına səbəb ola bilər (Əfəndiyev, 2002). Mərkəzi saldosu şəhərlərin funksional xüsusiyyətlərindən asılıdır. İqtisadi rayonun əsas şəhərlərində (xüsusilə Mingəçevir, Yevlax) kənd yerlərinə nisbətən daha çox və müxtəlif iş yerləri mövcuddur. İnsanlar daha sabit gəlirli və ixtisasa uyğun iş tapmaq ümidi ilə şəhərlərə köçürlər. Mingəçevir "işıqlar şəhəri" və sənaye mərkəzi kimi Mərkəzi Aran rayonunun digər hissələrindən (Ağdaş, Göyçay, Zərdab və s.) əhalini özünə cəlb edir (Bədəlov, 2019). Mingəçevir Dövlət Universitetinin (MDU) Mingəçevir şəhərində yerləşməsi, şəhərin sosial-demoqrafik inkişafında və miqrasiya proseslərində mühüm rol oynayır. Universitet şəhəri həm regional, həm də milli səviyyədə cəlbedici edən əsas sosial amillərdən biridir. Mingəçevir Dövlət Universitetində təhsil alan minlərlə tələbə (Mingəçevir və ətraf rayonlardan, habelə ölkənin digər regionlarından) şəhər əhalisinin tərkibini dərhal gəncləşdirir. Tələbələr şəhərin sosial-demoqrafik mənzərəsində 18-25 yaş qrupunun payını artırır. MDU-nun məzunlarının bir qismi təhsil aldıqdan sonra şəhərin sənaye, təhsil, səhiyyə və xidmət sahələrində iş taparaq daimi olaraq Mingəçevirdə qalmağa qərar verir. Beləliklə, Universitet şəhər üçün ixtisaslı kadr mənbəyi kimi çıxış edərək miqrasiya balansını müsbətə doğru dəyişir. Ağdaş, Göyçay, Kürdəmir şəhərlərinin əhalisi əsasən öz rayonlarının kənd əhalisi hesabına artsa da, ümumi mənzərədə gənclərin Bakıya miqrasiyası (əsasən ali təhsildən sonra) səbəbindən onların da miqrasiya saldosu mənfi ola bilər. Onlar, əsasən, xidmət və yerli idarəetmə funksiyaları daşıdığı üçün məşğulluq imkanları məhduddur.

Nəticələr və müzakirəsi

Aranın bütün şəhər mərkəzləri miqrasiya baxımından eyni dərəcədə cəlbedici deyil. Miqrasiya

Azərbaycan Respublikası regionlarının 2004-cü ildən başlayaraq mütəmadi olaraq qəbul edilən və icra olunan sosial-iqtisadi inkişaf Dövlət Proqramları Mərkəzi Aran daxil olmaqla bütün regionlarda miqrasiya axınlarını tənzimləmək məqsədi daşıyır. Proqramlar çərçivəsində Mərkəzi Aran regionunda yeni sənaye, kənd təsərrüfatı emalı və infrastruktur layihələrinin (yollar, qazlaşdırma, su xətləri) həyata keçirilməsi nəticəsində yeni iş yerləri açılmışdır. Məsələn, Mingəçevirdə və Yevlaxda sənaye parklarının və ya məntəqələrinin yaradılması yerli əhalinin miqrasiya etmədən məşğulluğunu təmin edir. Mərkəzi Aran iqtisadiyyatının onurğa sütunu olan kənd təsərrüfatı sektorunun dəstəklənməsi kənd əhalisinin şəhərlərə köçünün qarşısının alınmasında həlledici rol oynayır (Bədəlov, 2019). Kənd təsərrüfatı məhsulları istehsalçılarına (fermerlərə) verilən subsidiyalar və güzəştli kreditlər kənd yerlərində gəlirliliyi artırır. Bu, gənclərin kənd təsərrüfatı sahəsində qalaraq ailə təsərrüfatını davam etdirmək üçün iqtisadi stimuldur. Pambıqçılıq, taxılçılıq və baramaçılıq kimi ənənəvi sahələrin inkişafına investisiyaların yönəldilməsi rayonun kəndlərində əhalinin məşğulluq səviyyəsini qoruyur. İşsizlik amilinin təsirini azaltmaq və gənclərin regionda qalmasını təmin etmək üçün aktiv məşğulluq tədbirləri həyata keçirilir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi vasitəsilə icra olunan özünüməşğulluq proqramları işsiz və iş axtaran vətəndaşlara kiçik bizneslərini (fermer təsərrüfatı, xidmət, kiçik istehsal) qurmaq üçün əmlak (avadanlıq, heyvan) verilməsini nəzərdə tutur. Bu, xüsusilə Mərkəzi Aranın kənd və rayon mərkəzlərində miqrasiya qərarı verə biləcək insanlara alternativ gəlir mənbəyi təklif edir. Mingəçevir, Yevlax kimi şəhərlərdə və rayon mərkəzlərində peşə hazırlığı mərkəzlərinin fəaliyyətinin gücləndirilməsi. Bu, yerli əhalinin, xüsusilə gənclərin rayonun sənaye və xidmət bazarına uyğun ixtisaslara yiyələnməsinə kömək edir. Beynəlxalq miqrasiya, Mərkəzi Aran İqtisadi Rayonunun şəhərləri (Mingəçevir, Yevlax, Ağdaş və s.) üçün mürəkkəb və ikili xarakterli bir təsirə malikdir: həm şəhər əhalisinin sosial-demoqrafik inkişafına faydalar gətirir, həm də çətinliklər yaradır. Şəhər əhalisinin sosial-iqtisadi inkişafına ən ciddi mənfi təsir, əsasən, əmək qabiliyyətli yerli əhalinin xaricə köçməsi ilə bağlıdır. Yüksək ixtisaslı gənclərin və mütəxəssislərin (mühəndislər, İT kadrları, həkimlər) daha yüksək maaş, daha yaxşı karyera perspektivləri və elmi mühit səbəbindən xaricə köçür. Bu, Mingəçevir kimi sənaye mərkəzlərində insan kapitalının keyfiyyət tərkibinin pisləşməsinə və yerli iqtisadiyyatın yeniliklərə, inkişafa olan potensialının zəifləməsinə səbəb olur. Emmiqrasiya əsasən ən aktiv və reproduktiv yaşda olan gəncləri əhatə etdiyi üçün, şəhər əhalisinin orta yaşının artmasına və təbii artım tempinin zəifləməsinə dolayı təsir göstərir. Beynəlxalq miqrasiya, həmçinin xarici kadrların və tələbələrin gəlişi ilə şəhər iqtisadiyyatına və sosial həyatına dəstək olur. Mingəçevir İES/SES və ya Yevlaxdakı sənaye zonaları kimi infrastruktur layihələrində xarici ölkələrdən gələn yüksək ixtisaslı texniki mütəxəssislər yerli işçilərə yeni bilik və texnologiyalar öyrətməklə, şəhərin əmək mədəniyyəti və ixtisaslaşma səviyyəsini yüksəldir. Mərkəzi Aran şəhərlərində beynəlxalq miqrasiya prosesini idarə etmək üçün əsas məqsəd əmək miqrasiyasının mənfi saldosunu azaltmaqdır. Bunun üçün yerli iqtisadiyyatda elə yüksək gəlirli iş yerləri yaradılmalıdır ki, xaricə köçmüş kadrlar geri qayıtmaq üçün motivasiya alsınlar, həmçinin gənc mütəxəssislər Mingəçeviri xaricdən daha cəlbedici bir məkan kimi görsünlər.

Nəticə

Mərkəzi Aran İqtisadi Rayonunun şəhər əhalisinin sosial-demoqrafik dinamikasının təhlili göstərir ki, rayonun inkişafı, xüsusilə miqrasiya və işsizlik amillərinin qarşılıqlı təsiri altında formalaşır. Rayon daxilində (kənddən şəhərə) miqrasiya MAİR-in şəhər mərkəzlərində, xüsusən də Mingəçevir və Yevlaxda əhalinin artımının əsas mənbəyidir. Bu axın urbanizasiyanı sürətləndirsə də, kənd yerlərinin demoqrafik yaşlanmasına və kənd təsərrüfatı ehtiyatlarının azalmasına səbəb olur. Məqalədə vurğulandığı kimi, işsizlik təkcə sosial problem deyil, həm də əhalini daha böyük iqtisadi mərkəzlərə (Bakı-Abşeron və xarici ölkələr) yönəldən həlledici "itələyici qüvvədir" (*push factor*). Xüsusilə ali təhsilli gənclərin şəhər mərkəzlərində ixtisasa uyğun iş tapa bilməməsi "beyin köçü" (emmiqrasiya) riskini kəskin şəkildə artırır. Nəticə olaraq, Mərkəzi Aran iqtisadi rayonunun şəhər əhalisinin dayanıqlı inkişafı, yalnız miqrasiya axınlarının və işsizliyin qarşılıqlı təsirini dərindən təhlil edən və bu təhlil əsasında hazırlanmış məqsədyönlü regional siyasətin həyata keçirilməsi ilə mümkündür. İşsizliyin miqrasiyaya olan dağıdıcı təsirini minimuma endirmək üçün əsas prioritet yeni, sabit və yüksək dəyərli iş yerlərinin yaradılması olmalıdır. Bu, xüsusilə Mingəçevir və Yevlax sənaye parklarının potensialını genişləndirməklə və Mingəçevir Dövlət Universiteti ilə yerli biznes arasında əməkdaşlığı gücləndirməklə ixtisaslı kadrların regionda qalmasını təmin etməyə xidmət edəcəkdir. İşsizliklə mübarizə, dolayısı ilə, daxili miqrasiya və demoqrafik deformasiya problemlərinin həllinin əsasını təşkil edir.

ƏDƏBIYYAT SIYAHISI:

1. Azərbaycanın demoqrafik göstəriciləri. Bakı: 2025, DSK, 593 s.
2. Azərbaycanın əhalisi. Bakı, 2024. DSK. 664 s.
3. Azərbyacna Dövlət Statistika Komitəsi, Əmək bazarı, 2025, 196 səh
4. Aran iqtisadi rayonunda demoqrafik inkişaf problemləri və əhalinin məskunlaşması. Bakı, 2022, 350.
5. Azərbaycan Respublikasının Coğrafiyası III c. Regional Coğrafiya. Bakı, 2015, 400 s.
6. Bədəlov E.S. (2019). Aran iqtisadi-coğrafi rayonunda şəhər məskunlaşmasi və şəhərlərdə demoqrafik inkişaf problemləri. Coğrafiya və təbii resurslar, №1, 41-48.
7. Əfəndiyev V.Ə. (2002).Urbanizasiya və Azərbaycanın şəhər yaşayış məskənləri. Bakı, BDU, 397 s.
8. Əyyubov N.H. (1995). Azərbaycanın şəhərlərinin inkişaf məsələləri. Azərbaycan konstruktiv coğrafiyası. Bakı, II cild.

DOİ: 10.32010/LKMZ9601

DAŞQIN RİSKLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ PROQNOZLAŞDIRILMASINDA COĞRAFİ İNFORMASİYA SİSTEMLƏRİNİN TƏTBİQİ

Nəzrin Xanlar QASIMOVA
Bakı Dövlət Universiteti
E-mail: nazrin.qasimova.xanlar@bsu.edu.az

Xülasə: Daşqınlar dünya üzrə ən geniş yayılmış və dağıdıcı təbii fəlakətlərdəndir. Qlobal iqlim dəyişiklikləri, intensiv yağıntılar, buzlaqların əriməsi, çay hövzələrində antropogen təsirlər və urbanizasiya onların tezliyini və miqyasını artırır. Nəticədə daşqınlar insan həyatı və infrastrukturla yanaşı, kənd təsərrüfatı, iqtisadi fəaliyyət, ekosistemlər və sosial sabitlik üçün də ciddi risklər yaradır. Bu səbəbdən daşqın risklərinin dəqiq qiymətləndirilməsi və idarə olunması böyük əhəmiyyət kəsb edir. Məqalədə daşqın risklərinin qiymətləndirilməsində Coğrafi İnformasiya Sistemlərinin (CİS) rolu və hidroloji, hidravlik, yağıntı–axım və GIS əsaslı modellərin tətbiqi təhlil edilmişdir. Hidroloji modellər (HEC-HMS, SWAT, ARC-SWAT) yağış–axım münasibətlərini və çay hövzələrində su balansını proqnozlaşdırır. Hidravlik modellər (HEC-RAS, MIKE 11/21) suyun çay kanallarındakı hərəkətini və daşqın zonalarını simulyasiya edir. Yağıntı–axım modelləri (SWMM, SOBEK) urban və təbii ərazilərdə axım həcmi və su toplama sahələrini təhlil edir, ssenari proqnozlaşdırılması üçün etibarlı baza yaradır. GIS əsaslı metodlar raster və vektor analizləri, DEM modelləri, overlay və çox meyarli qərar qəbuletmə vasitəsilə məlumatların vizual və analitik inteqrasiyasını təmin edir və risk zonalarının xəritələşdirilməsini mümkün edir.

Müqayisəli təhlil göstərir ki, hidroloji və hidravlik modellər axım və daşqın dinamikası üçün əsasdır, yağıntı–axım modelləri ssenari proqnozlaşdırılmasında effektivdir, GIS isə bütün nəticələrin məkan kontekstində vizual və analitik təqdimatını təmin edir. Beləliklə, CİS verilənli metodlar daşqın risklərinin qiymətləndirilməsi və idarə olunması üçün çevik, çoxmeqayrili və qərar qəbuletmə yönümlü yanaşma təqdim edir.

Açar sözlər: daşqın riski, Coğrafi İnformasiya Sistemləri, GİS əsaslı analiz, yağıntı–axım modelləri

APPLICATION OF GEOGRAPHIC INFORMATION SYSTEMS IN FLOOD RISK ASSESSMENT AND FORECASTING

Nazrin Gasimova Khanlar
Baku State University
E-mail: nazrin.qasimova.xanlar@bsu.edu.az

Abstract: Floods are among the most widespread and destructive natural disasters worldwide. Global climate change, intense rainfall, glacier melting, anthropogenic impacts on river basins, and urbanization have increased their frequency and magnitude. Consequently, floods pose serious risks not only to human life and infrastructure but also to agriculture, economic activities, ecosystems, and social stability. Accurate assessment and management of flood risks are therefore of critical importance. This study analyzes the role of Geographic Information Systems (GIS) in flood risk assessment and examines the application of hydrological, hydraulic, rainfall–runoff, and GIS-based models. Hydrological models (HEC-HMS, SWAT, ARCSWAT) predict rainfall–runoff relationships and water balance in river basins. Hydraulic models (HEC-RAS, MIKE 11/21) simulate water movement in river channels and flood zones. Rainfall–runoff models (SWMM, SOBEK) analyze flow volume and catchment areas in urban and natural environments, providing a reliable basis for scenario forecasting. GIS-based methods integrate raster and vector analyses, DEM modeling, overlay techniques, and multi-criteria decision-making (MCDA) to enable both visual and analytical interpretation of data and facilitate the mapping of risk zones.

Comparative analysis indicates that hydrological and hydraulic models are essential for predicting flow and flood dynamics, rainfall–runoff models are effective for scenario forecasting, and GIS ensures comprehensive visual and spatial integration of all results. Therefore, GIS-enabled approaches offer a flexible, multi-criteria, and decision-support-oriented methodology for assessing and managing flood risks.

Keywords: flood risk, Geographic Information Systems (GIS), GIS-based analysis, rainfall–runoff models.

ПРИМЕНЕНИЕ ГЕОГРАФИЧЕСКИХ ИНФОРМАЦИОННЫХ СИСТЕМ В ОЦЕНКЕ И ПРОГНОЗИРОВАНИИ РИСКОВ НАВОДНЕНИЙ

Назрин Ханлар ГАСЫМОВА
Бакинский государственный университет
Электронная почта: nazrin.qasimova.xanlar@bsu.edu.az

Резюме: Наводнения являются одними из самых распространённых и разрушительных природных бедствий в мире. Глобальные изменения климата, интенсивные осадки, таяние ледников, антропогенные воздействия на речные бассейны и урбанизация увеличивают их частоту и масштаб. В результате наводнения представляют серьёзную угрозу не только для человеческой жизни и инфраструктуры, но и для сельского хозяйства, экономической деятельности, экосистем и социальной стабильности. Поэтому точная оценка и управление рисками наводнений имеют критическое значение. В статье анализируется роль Географических Информационных Систем (ГИС) в оценке рисков наводнений и рассматривается применение гидрологических, гидравлических, ливнево–сточных и ГИС-основанных моделей. Гидрологические модели (HEC-HMS, SWAT, ARCSWAT) прогнозируют соотношение «осадки–сток» и водный баланс в речных бассейнах. Гидравлические модели (HEC-RAS, MIKE 11/21) моделируют движение воды в руслах рек и затопляемых зонах. Ливнево–сточные модели (SWMM, SOBEK) анализируют объём стока и водосборные площади в городских и природных территориях, обеспечивая надёжную основу для прогнозирования сценариев. ГИС-методы интегрируют растровый и векторный анализ, модели ЦМР (DEM), наложение слоёв и многокритериальное принятие решений (MCDA), обеспечивая визуальную и аналитическую интерпретацию данных и возможность картирования зон риска.

Сравнительный анализ показывает, что гидрологические и гидравлические модели являются основными для прогнозирования динамики стока и наводнений, ливнево–сточные модели эффективны для сценарного прогнозирования, а ГИС обеспечивает комплексную визуализацию и пространственную интеграцию всех результатов. Таким образом, методы на основе ГИС предлагают гибкий, многокритериальный и ориентированный на поддержку принятия решений подход к оценке и управлению рисками наводнений.

Ключевые слова: риск наводнений, Географические Информационные Системы (ГИС), ГИС-аналитика, ливнево–сточные модели

Giriş

Daşqınlar dünyada ən çox rast gəlinən və ən dağıdıcı nəticələr doğuran təbii fəlakətlərdən sayılır. Qlobal iqlim dəyişikliyi, güclü və intensiv yağıntıların artması, buzlaqların əriməsi, çay hövzələrinə insan fəaliyyəti nəticəsində yaranan təsirlər, eləcə də sürətlə inkişaf edən urbanizasiya bu hadisələrin həm başvermə tezliyini, həm də miqyasını artırır. Bunun nəticəsində daşqınlar təkcə insanların həyatına və infrastruktur obyektlərinə təhlükə yaratmır, eyni zamanda kənd təsərrüfatına, ekosistemlərə, iqtisadi proseslərə və sosial sabitliyə də mənfi təsir göstərir (Maidment, 2002; Goodchild, 2000). Daşqın risklərinin vaxtında və düzgün qiymətləndirilməsi onların idarə edilməsi, həmçinin mümkün fəsadların minimuma endirilməsi baxımından mühüm rol oynayır. Bu məqsədlə müxtəlif elmi yanaşmalar, statistik analiz metodları və modelləşdirmə texnikalarından geniş istifadə olunur. Son illərdə isə məkan yönümlü məlumatların emalına imkan verən müasir texnologiyalar, xüsusilə də Coğrafi İnformasiya Sistemləri (CİS), xüsusi əhəmiyyət qazanmışdır. CİS müxtəlif mənbələrdən toplanan hidroloji, meteoroloji və topoqrafik məlumatların birləşdirilməsini, məkan analizlərinin aparılmasını və daşqın riski xəritələrinin hazırlanmasını mümkün edir (Maidment, 2002; Burrough & McDonnell, 1998). Bu texnologiyalar sayəsində daşqın riskinin zaman və məkan üzrə dəyişməsini izləmək, ola biləcək zərərləri qabaqcadan müəyyənləşdirmək və daha düzgün idarəetmə qərarları vermək mümkündür.

Məqalənin məqsədi daşqın risklərinin qiymətləndirilməsi və proqnozlaşdırılmasında Coğrafi İnformasiya Sistemlərinin tətbiq imkanlarını öyrənmək, mövcud nəzəri və praktiki yanaşmaları analiz etmək, həmçinin bu sahədə əldə olunmuş nailiyyətləri ümumiləşdirməkdir.

Nəzəriyyə

Coğrafi İnformasiya Sistemləri (CİS) məkan yönümlü məlumatların toplanması, idarə olunması, analizi və vizuallaşdırılması üçün nəzərdə tutulmuş çoxşaxəli texnologiyadır. Bu sistemin əsas üstünlüyü obyektlərin konkret coğrafi koordinatlarını onların təsviri və funksional xüsusiyyətlərini əks etdirən məlumatlarla birləşdirmək imkanında özünü göstərir. Belə inteqrasiya CİS-i təkcə xəritələrin tərtibi vasitəsi kimi deyil, həm də ətraf mühitin müxtəlif amilləri üzrə kompleks məkan təhlilinin aparılmasına imkan verən güclü analitik alətə çevirir (Burrough & McDonnell, 1998). CİS yalnız kartoqrafik təsvirlərin hazırlanması ilə məhdudlaşmır. Bu sistemlər binalar, yollar, boru xətləri, axınlar, gölməçələr və çaylar kimi coğrafi obyektlərə dair məlumatların real koordinatlar əsasında laylar

şəklində toplanması, emalı və nəticələrin qrafik, cədvəl və hesabat formasında təqdim olunmasını təmin edir. Bu xüsusiyyət sayəsində CİS ətraf mühitin mühafizəsi, risklərin idarə edilməsi və təbii fəlakətlərin proqnozlaşdırılması sahələrində mühüm analitik vasitə rolunu oynayır.

Cədvəl 1. Cis-də xəritələşdirmə prosesləri

Proseslərin təsnifatı		CİS
Verilənlərin yığılması		Aerokosmik məlumatlar, topoqrafik xəritələr və s.
Verilənlərin emalı		Təsnifat, analiz
Xəritə istehsalı		Tematik xəritələrin tərtib edilməsi, həmin xəritələr əsasında son xəritələrin yaradılması
Giriş alt sistemləri funksiyaları:	Giriş	Kompüter yaddaşına köçürmə (kodlaşdırma): nöqtələr, xətlər, sahələr
	Mənbələr	Topoqrafik xəritələr,hazır rəqəmli xəritələr, relyefin rəqəmli modeli, rəqəmli aerofotoşəkillər
Saxlama və seçmə funksiyaları		Nöqtələrin, xətlərin və sahələrin rastr və ya koordinatlar şəklində yadda saxlanılması və kompüterdə identifikator kimi fəaliyyət göstərməsi
CİS-də seçim		Verilənlər bazasında informasiyanın təsvir edilməsi üçün kompüter imkanlarından maksimum istifadə
Analitik altsistemləri funksiyaları		Giriş verilənləri ilə əlaqə yaradılması, sonrakı analiz üçün qruplaşma və təsnifat aparılması
Çıxış altsistemlərinin funksiyaları		Alınan nəticələrin xəritələr, cədvəllər, qrafiklər, diaqramlar və s. şəklində təqdimatı

Mənbə: "Cədvəl Azərbaycan Milli Aerokosmik Agentliyi Elmi-Tədqiqat Aerokosmik İnformatika İnstitutu tərəfindən əldə olunmuşdur "

Coğrafi İnformasiya Sistemlərinin əsas üstünlüyü məlumatların toplanması, emalı, analizi və vizuallaşdırılması proseslərinin ardıcıl və mərhələli şəkildə həyata keçirilməsinə əsaslanır. Bu yanaşma daşqın risklərinin qiymətləndirilməsi və proqnozlaşdırılması zamanı daha sistemli və etibarlı nəticələrin əldə olunmasına şərait yaradır (Cədvəl 1). CİS-in tətbiqində ilk addım müxtəlif mənbələrdən məlumatların toplanması mərhələsidir (Goodchild, 2000). Bu mərhələyə aerokosmik təsvirlər, peyk məlumatları, topoqrafik və rəqəmsal xəritələr, meteoroloji müşahidələr və hidroloji göstəricilər daxildir. Toplanmış məlumatların dəqiqliyi sonrakı modelləşdirmələrin nəticələrinin düzgünlüyünə birbaşa təsir göstərir. Məlumatlar ilkin olaraq təsnif edilir və analiz prosesinə hazırlanır; bu mərhələdə onlar kodlaşdırılır və nöqtə, xətt və sahə obyektləri kimi sistemləşdirilir. Emal prosesi zamanı məlumatlarda mövcud olan səhvlər və uyğunsuzluqlar aradan qaldırılır və daşqın risklərinin modelləşdirilməsi üçün istifadəyə hazır hala gətirilir. Daha sonra emal edilmiş məlumatlardan istifadə edilərək tematik xəritələr hazırlanır. Bu xəritələr daşqın zonalarının müəyyənləşdirilməsi, su axınlarının istiqamətinin göstərilməsi, çayların daşma ehtimalı və digər məkan göstəricilərinin vizual təqdimatı üçün əsas vasitə rolunu oynayır. Hazırlanmış xəritələr idarəetmə və qərarvermə proseslərində tətbiq olunur. Bu mərhələdə məlumatlar kompüter yaddaşına ötürülür və nöqtə, xətt və sahə obyektləri şəklində kodlaşdırılır, identifikatorlar vasitəsilə sistemdə saxlanılır. Məlumat mənbələrinə hazır rəqəmsal xəritələr, relyefin rəqəmsal modeli, aerofotoşəkillər və peyk təsvirləri daxildir. Toplanmış məlumatlar rastr və ya koordinat formatında saxlanılır və identifikatorlar sayəsində obyektlərin dəqiq təyini təmin edilir. Bu imkanlar böyük həcmli verilənlərin emalı və sistemli analizində xüsusi əhəmiyyət kəsb edir. Saxlanılan məlumatların istifadəsi üçün kompüter resurslarından maksimum səviyyədə yararlanılır, bu isə istifadəçilərə müxtəlif ssenariləri sınamağa, daşqın risk zonalarını seçməyə və müxtəlif parametrlərə görə müqayisələr aparmağa imkan verir. Analitik altsistemlər arasında əlaqələr qurulur, təsnifat və qruplaşmalar həyata keçirilir. Hidroloji və hidravlik modellərlə inteqrasiya nəticəsində yağıntı–axım hadisələri, çayların daşma ehtimalı və digər proseslər səmərəli şəkildə simulyasiya olunur(Burrough & McDonnell, 1998). Nəticələrin təqdimatı CİS-in ən vacib mərhələlərindən biridir. Aparılan analizlərin nəticələri xəritələr, cədvəllər, qrafiklər, diaqramlar və hesabatlar vasitəsilə istifadəçiyə çatdırılır. Bu isə qərarvermə orqanlarına riskləri vizual və dəqiq qiymətləndirməyə imkan verir. Beləliklə, bu cədvəl və onun izahı göstərir ki, CİS texnologiyaları yalnız məkan məlumatlarını vizuallaşdırmaqla kifayətlənmir, eyni zamanda daşqın risklərinin idarə olunmasında çoxpilləli analitik yanaşmanı həyata keçirməyə imkan yaradır.

Metod

Daşqın risklərinin qiymətləndirilməsində istifadə olunan modellər və metodlar məqsəd və analiz səviyyəsinə əsasən hidroloji, hidravlik, yağıntı–axım və GIS yönümlü modellərə bölünür. Bu yanaşmalar

bir-birini tamamlayaraq məkan, hidroloji və iqlim göstəricilərinin kompleks şəkildə təhlil edilməsinə imkan yaradır (Maidment, 1993; Chow et al., 1988).

1. Hidroloji modellər. Hidroloji modellər yağış–axım əlaqələrinin öyrənilməsi və çay hövzələrində su həcminin proqnozlaşdırılması sahəsində əsas rol oynayır. Bu modellər relyef, torpaq örtüyü, meteoroloji və hidroloji məlumatları nəzərə alır və geniş ərazilərdə yüksək dəqiqliklə nəticələr verir.

- HEC-HMS (Hydrologic Modeling System**):** Bu modellər yağıntı–axım hadisələrinin simulyasiyası üçün geniş istifadə olunur. Onlar çay hövzələrinin hidrologiyasını öyrənmək, müxtəlif ssenarilər üzrə axım proqnozları hazırlamaq və daşqın ehtimalını qiymətləndirmək üçün tətbiq edilir. Dəqiqlik səviyyəsi yüksəkdir və xüsusilə çay axımının dinamikasının təhlilində səmərəli nəticələr verir. (U.S. Army Corps of Engineers, 2020).
- SWAT (Soil and Water Assessment Tool): Torpaq və su ehtiyatlarının keyfiyyətini və paylanmasını qiymətləndirir (Neitsch et al., 2011; Arnold et al., 1998). Model hidroloji tsiklin əsas mərhələlərini – yerüstü axın və çay dərəsi proseslərini – əhatə edir. O, həmçinin əkinçilik fəaliyyəti, torpaq istifadəsi və iqlim dəyişkənliyinin təsirlərini öyrənmək üçün geniş tətbiq olunur.
- ARCSWAT**:** SWAT modeli ArcGIS mühitinə inteqrasiya edilmiş versiyasını təmsil edir. Məkan analizləri vizual xəritə əsaslı mühitdə həyata keçirilir və nəticələr tematik xəritələr vasitəsilə göstərilir (ESRI, 2021). Bu yanaşma su ehtiyatlarının səmərəli idarə olunması və torpaq eroziyasının qiymətləndirilməsi sahələrində yüksək tətbiq potensialına malikdir.

2. Hidravlik modellər**.** Hidravlik modellər çay kanalları və daşqın sahələrində suyun hərəkətini simulyasiya edir, su səviyyəsi, dərinlik və sürət göstəricilərini hesablayaraq potensial daşma zonalarını müəyyən etməyə imkan verir.

- HEC-RAS (River Analysis System): Çay və kanallarda 1D və 2D hidravlik analizlər həyata keçirir. GIS ilə inteqrasiya olunduqda daşqın zonalarının sərhədləri, axım sürəti və su dərinliyi dəqiq müəyyənləşdirilir (U.S. Army Corps of Engineers, 2021). Bu yanaşma həm urban, həm də kənd ərazilərində daşqın risk xəritələrinin hazırlanmasında yüksək dəqiqlik təmin edir.
- MIKE 11/21 və Mike-Basin**:** Çay hövzələrində su balansının hesablanması, anbarların idarə edilməsi və su keyfiyyətinə nəzarət məqsədilə tətbiq olunur. Mike-Basin platforması ArcGIS ilə inteqrasiya edilərək nəticələrin məkan mühitində vizual təhlilinə imkan verir. Yağıntı–axım proseslərinin modelləşdirilməsində etibarlı nəticələr təqdim edir (DHI Water & Environment, 2019).

3. Yağıntı–axım modelləri**.** Yağıntı–axım modelləri yağış hadisələrinin hidroloji proseslərə təsirini müəyyən edir və axımın həcmi və istiqamətini GIS mühitində simulyasiya etməyə imkan verir. Bu modellər idarəetmə və planlaşdırma məqsədləri üçün etibarlı və dəqiq nəticələr təqdim edir.

- SWMM (Storm Water Management Model): Urban ərazilərdə yağış sularının idarə olunması, kanalizasiya sistemlərinin yükünü təhlil etmək və daşqın risklərini qiymətləndirmək məqsədilə tətbiq olunur. Bu yanaşma orta–yüksək dəqiqliklə nəticələr təqdim edir və xüsusilə şəhər planlaşdırılmasında effektivdir (Rossman, 2015).
- SOBEK**:** Çay və kanal şəbəkələrində 1D və 2D hidrodinamik proseslərin modelləşdirilməsi üçün tətbiq edilir. SOBEK-RIVER modulu vasitəsilə müxtəlif daşqın ssenariləri analiz olunur, həmçinin suyun keyfiyyəti və axım dinamikası qiymətləndirilir (Deltares, 2020). Bu yanaşma geniş sahələrdə tətbiq oluna bilir və yüksək dəqiqliklə nəticələr təmin edir.
- HBV, Epanet, BreZo, Aquaris və WEST**:** Yağıntı–axım hadisələrinin təhlili və su ehtiyatlarının idarə olunması sahəsində bu alətlər geniş tətbiq olunur. Eyni zamanda, müxtəlif hidroloji və su idarəetmə proseslərinin modelləşdirilməsi üçün də istifadə edilirlər.

4. GIS əsaslı analiz metodları. GIS əsaslı yanaşmalar məkan məlumatlarının toplanması, işlənməsi, təhlili və vizuallaşdırılmasına imkan verir. Raster və vektor analizləri, DEM modelləri, üst-üstə qoyma (overlay) üsulları və çox meyarli qərar qəbuletmə (MCDA) metodları daşqın risk zonalarının müəyyənləşdirilməsində geniş şəkildə tətbiq olunur (Goodchild, 2000; Maidment, 2002).

- Delft 3D**:** Bu alət çaylar, estuarilər və dəniz mühitlərində hidrodinamikanın, su səviyyəsinin dəyişikliklərinin və sahil proseslərinin modelləşdirilməsi məqsədilə tətbiq olunur. Həmçinin, dalğalanma və daşqın hadisələrinin proqnozlaşdırılmasında yüksək dəqiqlik təmin edir (Deltares, 2020).
- MODFLOW: Bu proqram ABŞ Geoloji Xidməti tərəfindən hazırlanmış və yeraltı suların axını üzrə modelləşdirməni həyata keçirir. O, daşqın risklərinin qiymətləndirilməsi zamanı yeraltı suların səviyyə dəyişikliklərini və torpaqla qarşılıqlı təsirlərini öyrənmək üçün istifadə olunur (Harbaugh, 2005).
- ArcGIS və Google Earth: Bu alətlər məkan verilənlərinin birləşdirilməsi, xəritələrin hazırlanması və risk zonalarının vizual təsviri məqsədilə tətbiq olunur. Onlar həmçinin nəticələrin şərh edilməsini asanlaşdırır və qərarvermə prosesini dəstəkləyir (Maidment, 2002).

Hidroloji modellər (SCS-CN, HEC-HMS, SWAT) çay hövzələrində suyun həcmi və axım sürətini proqnozlaşdırmaq üçün yağış–axım

əlaqələrini analiz edir. Hidravlik modellər (HEC-RAS, MIKE 11/21) isə çay kanalları və daşqın ərazilərində suyun hərəkətini təqlid edir və şəhər ərazilərində daşqın təhlükəsinin qiymətləndirilməsində vacib rol oynayır.

Nəticə

GIS ilə inteqrasiya olunan yağıntı–axım modelləri (SWMM, SOBEK) suyun həcmi, axan sahələr və mümkün daşqın zonalarını müəyyən etməyə imkan verir. Məkan məlumatlarına əsaslanan GIS üsulları raster və vektor analizləri, rəqəmsal relyef modelləri (DEM) və overlay metodlarından istifadə edərək məlumatları həm vizual, həm də analitik formada birləşdirir, risk zonalarının xəritələşdirilməsini və fərqli ssenarilərin müqayisəsini təmin edir. Analiz göstərir ki, hidroloji və hidravlik modellər axım və daşqın proseslərinin öyrənilməsində əsas vasitədir, yağıntı–axım modelləri ssenari proqnozlarının hazırlanmasında effektivdir, GIS isə bütün bu nəticələri məkan kontekstində vizual və analitik təqdim etməyə imkan verir (Maidment, 1993; Chow et al., 1988; ESRI, 2021). Beləliklə, CİS-ə əsaslanan yanaşmalar ənənəvi metodlarla müqayisədə daha elastik, çoxsahəli və idarəetmə qərarları üçün daha optimal strategiya təqdim edir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Abbott, M. B., & Minns, A. W. (1998). Computational Hydraulics". Ashgate Publishing, 435.
2. Arnold, J. G., Srinivasan, R., Muttiah, R. S., & Williams, J. R. (1998). Large area hydrologic modeling and assessment: Part I, Journal of the American Water Resources Association, 34(1), 73–89.
3. Burrough, P. A., & McDonnell, R. A. (1998). Principles of Geographical Information Systems, Oxford University Press, 333.
4. Chen, J., Hill, A. A., & Urbano, L. D. (2009). A GIS-based model for urban flood inundation mapping, Environmental Modelling & Software, 24(6), 799–809.
5. Deltares, (2018). SOBEK Suite 2.14 User Manual, Deltares, 430.
6. Deltares, (2020). Delft3D-FLOW User Manual, Version 2020.01, Deltares, 512.
7. DHI Water & Environment. (2019). MIKE 11/21 Hydrodynamic Modeling Software User Guide, DHI Software, 512.
8. Goodchild, M. F. (2000). GIS and disasters: Planning for catastrophe, Journal of Urban and Regional Information Systems Association, 12(2), 3–14.
9. Maidment, D. R., (2002). Arc Hydro: GIS for Water Resources, ESRI Press, 203.
10. Merz, B., Kreibich, H., Schwarze, R., & Thieken, A. H. (2010). Assessment of economic flood damage, Natural Hazards and Earth System Sciences, 10(8), 1697–1724.
11. Neitsch, S. L., Arnold, J. G., Kiniry, J. R., & Williams, J. R. (2011). Soil and Water Assessment Tool Theoretical Documentation, Version 2009, Texas Water Resources Institute, pp 647.
12. Rossman, L. A. (2015). Storm Water Management Model User's Manual, Version 5.1, U.S. Environmental Protection Agency, pp 353.
13. U.S. Army Corps of Engineers. (2020). HEC-HMS Hydrologic Modeling System User's Manual, Hydrologic Engineering Center, pp 598.
14. U.S. Army Corps of Engineers. (2021). HEC-RAS River Analysis System User's Manual, Hydrologic Engineering Center, pp 972.
15. USGS, (2017), MODFLOW 6: U.S. Geological Survey Modular Hydrologic Model User Guide, Version 6.1, *U.S.* Geological Survey, 800.

DOİ: 10.32010/UAIH2217

EKOLOJİ KARTOQRAFİYA VƏ CİS TEXNOLOGİYALARININ ƏTRAF MÜHİTİN MONİTORİNQİNDƏ TƏTBİQİ: MİNGƏÇEVİR ŞƏHƏRİ ÜZRƏ ANALİTİK TƏHLİL

Razim Ramiz QURBANOV
Mingəçevir Dövlət Universiteti
E-mail: razim.qurbanov@mdu.edu.az

Xülasə: Son dövrlərdə ekoloji problemlər və onların kompleks monitorinqi istiqamətində kartoqrafiya və Coğrafi İnformasiya Sistemləri (CİS) texnologiyalarının əhəmiyyəti əhəmiyyətli dərəcədə artmışdır. Bu məqalədə Mingəçevir şəhərində ətraf mühitin vəziyyətini öyrənmək məqsədilə ekoloji kartoqrafiya və CİS texnologiyalarının tətbiqi təhlil edilir. Tədqiqat 2020–2024-cü illər üzrə sənaye zonaları, Kür çayının ekoloji vəziyyəti və torpaq örtüyü dəyişikliklərinin dinamikasına xüsusi diqqət yetirərək həyata keçirilmişdir. Analiz zamanı Ağıllı ekoloji monitorinq, ekoloji məlumat bazalarının tətbiqi və müasir proqram təminatlarının imkanları da nəzərdən keçirilib. Analitik təhlil nəticəsində, Mingəçevir şəhərində ətraf mühitin monitorinqində CİS texnologiyalarının və ekoloji kartoqrafiyanın effektivliyi, qərar qəbuletmədə rolu və ekoloji dəyişikliklərin operativ aşkarlanmasının mümkünlüyü müəyyən edilmişdir. Aparılmış CİS təhlillər, Kür çayının çirklilik səviyyəsində dinamik dəyişikliklər, sənaye parklarının ekoloji yükü və torpaq örtüyündə baş verən dəyişikliklər haqqında əyani və məntiqi əsaslandırılmış məlumatlar təqdim edir. Məqalədə xəritə, cədvəl və şəkillər şəklində illüstrativ materiallardan istifadə edilmiş, istinadlar konfransın tələblərinə uyğun şəkildə tərtib olunmuşdur.
Açar sözlər: Ekoloji kartoqrafiya; CİS texnologiyaları; ətraf mühitin monitorinqi; Mingəçevir; sənaye zonası; Kür çayı; torpaq örtüyü; ekoloji məlumat bazası; ağıllı monitorinq sistemləri; GIS.

APPLICATION OF ECOLOGICAL CARTOGRAPHY AND GIS TECHNOLOGIES IN ENVIRONMENTAL MONITORING: ANALYTICAL STUDY OF THE CITY OF MINGACHEVIR

Razim Ramiz QURBANOV
Mingachevir State University
E-mail: razim.qurbanov@mdu.edu.az

Abstract: In recent years, the importance of cartography and Geographic Information Systems (GIS) technologies in addressing ecological problems and their comprehensive monitoring has significantly increased. This article analyzes the application of ecological cartography and GIS technologies to study the environmental condition of the city of Mingachevir. The research was carried out for the period 2020–2024, with particular attention to industrial zones, the ecological state of the Kura River, and the dynamics of land cover changes. During the analysis, smart ecological monitoring, the use of environmental databases, and the capabilities of modern software were also considered. As a result of the analytical study, the effectiveness of GIS technologies and ecological cartography in environmental monitoring in the city of Mingachevir, their role in decision-making, and the possibility of оперативе detection of ecological changes were determined. The conducted GIS analyses provide clear and logically substantiated information about dynamic changes in the pollution level of the Kura River, the ecological load of industrial parks, and changes in land cover. The article includes illustrative materials in the form of maps, tables, and figures, and references are formatted in accordance with conference requirements.
Keywords: Ecological cartography; GIS technologies; environmental monitoring; Mingachevir; industrial zone; Kura River; land cover; environmental database; smart monitoring systems;

ПРИМЕНЕНИЕ ЭКОЛОГИЧЕСКОЙ КАРТОГРАФИИ И ГИС-ТЕХНОЛОГИЙ В МОНИТОРИНГЕ ОКРУЖАЮЩЕЙ СРЕДЫ: АНАЛИТИЧЕСКИЙ АНАЛИЗ ГОРОДА МИНГЕЧЕВИР

Разим Рамиз ГУРБАНОВ
Мингечевирский государственный университет
E-mail: razim.qurbanov@mdu.edu.az

Аннотация: В последние годы значение картографии и технологий географических информационных систем (ГИС) в решении экологических проблем и их комплексном мониторинге значительно возросло. В данной статье анализируется применение экологической картографии и ГИС-технологий для изучения состояния окружающей

среды города Мингечевир. Исследование проведено за период 2020–2024 годов с особым вниманием к промышленным зонам, экологическому состоянию реки Кура и динамике изменений земельного покрова. В ходе анализа также были рассмотрены умный экологический мониторинг, использование экологических баз данных и возможности современного программного обеспечения. В результате аналитического исследования была определена эффективность ГИС-технологий и экологической картографии в мониторинге окружающей среды города Мингечевир, их роль в принятии решений, а также возможность оперативного выявления экологических изменений. Проведенные ГИС-анализы предоставляют наглядную и логически обоснованную информацию о динамических изменениях уровня загрязнения реки Кура, экологической нагрузке промышленных парков и изменениях земельного покрова. В статье использованы иллюстративные материалы в виде карт, таблиц и рисунков, а список литературы оформлен в соответствии с требованиями конференции.
Ключевые слова: экологическая картография; ГИС-технологии; мониторинг окружающей среды; Мингечевир; промышленная зона; река Кура; земельный покров; экологическая база данных; системы умного мониторинга; ГИС

Giriş

Ekoloji problemlərin qlobal səciyyə alması, hər bir ölkədə olduğu kimi Azərbaycanda da ətraf mühitin dinamik monitorinqinin həyata keçirilməsini prioritet istiqamətə çevirmişdir. Son illərdə təbii resurslardan səmərəli və davamlı istifadə, ətraf mühitin qorunması və antropogen təsirlərin minimallaşdırılması məqsədilə tədqiqat və monitorinq metodlarının təkmilləşdirilməsi günün aktual məsələlərindəndir. Mingəçevir şəhəri respublikada elektrik enerjisi istehsalı və sənaye-pilot layihələri ilə zəngin olan region olduğundan, burada ekoloji gərginlik və antropogen təsirlər, xüsusən də su, hava və torpaq resurslarının vəziyyəti xüsusi diqqət tələb edir [1],[2],[3].

Ətraf mühitin monitorinqində ənənəvi üsullarla yanaşı, CİS texnologiyaları və ekoloji kartoqrafiyadan istifadə edilərək informasiyanın sürətli toplanması, emalı, vizualizasiyası və tədbirlərin planlaşdırılması daha effektiv və operativ həyata keçirilir [4],[5]. Ekoloji kartoqrafiya məlumatların coğrafi baxımdan sistemləşdirilməsi, əyaniləşdirilməsi və risklərin dəyərləndirilməsi imkanlarını genişləndirir. 2020–2024-cü illərdə Mingəçevirdə həyata keçirilən sənaye layihələri, torpaq istifadəsi və Kür çayına olan təsirlərin monitorinqi bu müasir texnologiyaların tətbiqinin aktuallığını artırmışdır [1],[3].

Bu məqalədə, Mingəçevir şəhəri üzrə ekoloji kartoqrafiya və CİS texnologiyalarının ətraf mühitin monitorinqində tətbiqi araşdırılır, ərazi üzrə ekoloji risklər sistemli şəkildə qiymətləndirilir, monitorinq strukturlarının fəaliyyəti və ekoloji məlumat bazalarının texnoloji üstünlükləri təhlil edilir. Əlavə olaraq, tədqiqatın nəticələri su ehtiyatları, torpaq örtüyü və sənaye parkları ilə bağlı strateji qərarların qəbuluna dəstək məqsədilə vizuallaşdırılmışdır.

Metodologiya: Tədqiqatın elmi və metodoloji bazasının seçimi:

Məqalənin metodoloji əsasını məkan-temporal ekoloji analiz, ekoloji kartoqrafiya və CİS (Coğrafi İnformasiya Sistemləri) metodikası təşkil edir. Tədqiqat zamanı Mingəçevir şəhəri üzrə ətraf mühit göstəricilərinin monitorinqi üçün həm yerli müşahidə məlumatlarından, həm də peyk məlumatlarından geniş istifadə olunmuşdur. Əsas analitik hədəflər sənaye zonalarının yayılması, Kür çayının ekoloji vəziyyəti və şəhər ətrafında torpaq örtüyünün dinamikası olmuşdur.

Metodoloji seçimdə beynəlxalq təlimatlar (ISO 19115, OGC standartları), Azərbaycan Respublikasının ətraf mühit üzrə dövlət proqramları və elmi metodik göstəricilər, universitetlərin dərslik və tədris materialları əsas rol oynamışdır.

Məlumatların toplanması və analizi:

Tədqiqat üçün əsas verilənlər aşağıdakı mənbələrdən toplanmışdır:

- Azərbaycan Milli Ekoloji Məlumat Bankı və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi resursları;
- Mingəçevir üzrə sənaye müəssisələrinin monitorinq hesabatları;
- 2020–2024-cü illərdə Sentinel-2 və Landsat-8 peyklərindən əldə olunan multispektral görüntülər;
- Coğrafi və statistik açıq verilənlər bazaları;
- Akademik məqalələr və konfrans materialları.

Bu məlumatlar CİS proqram təminatları (ArcGIS Pro, QGIS, NextGIS) və müvafiq remote sensing proqramları vasitəsilə emal olunmuş, tematik xəritələr, dinamik diagramlar və analitik cədvəllər hazırlanmışdır.

1. Coğrafi informasiya sistemləri və ekoloji kartoqrafiyanın nazəri əsasları:

1.1. CİS-in mahiyyəti və tarixi inkişaf mərhələləri:

Coğrafi İnformasiya Sistemləri (CİS) coğrafi məlumatları birləşdirən, saxlayan, redaktə edən, təhlil edən, paylaşan və nümayiş etdirən informasiya

sistemidir [5]. CİS-in tarixi 1854-cü ildə Londonda baş vermiş veba epidemiyası zamanı həkim Con Snovun xəstəliyin yayılma xəritəsini tərtib etməsi ilə başlamışdır. Con Snov xəstəliyin baş verdiyi yerləri, yolları, əmlak sərhədlərini və su xətlərini xəritələyərək, xəstəliyin əsas mənbəyini müəyyən etmişdir. Bu, təkcə məkan təhlilinin başlanğıcı deyil, həm də epidemioloji tədqiqatların əsasını qoymuşdur [5].

Müasir mənada CİS 1960-cı illərdə kompüterlər ilə başlamış və kəmiyyət və hesablama coğrafiyasının ilk anlayışları olaraq ortaya çıxmışdır. 1963-cü ildə Rocer Tomlinsonun Kanada Coğrafi İnformasiya Sistemini başlatmaq, planlaşdırmaq və inkişaf etdirmək üzrə qabaqcıl işi dünyada ilk kompüterləşdirilmiş CİS ilə nəticələnmişdir [5]. Sonrakı illərdə Maykl Qudçayldın rəhbərlik etdiyi Milli Coğrafi İnformasiya və Təhlil Mərkəzi, məkan təhlili və vizuallaşdırma kimi əsas coğrafi informasiya elmi mövzuları üzrə tədqiqatları rəsmiləşdirdi. Bu səylər coğrafiya elm dünyasına təkan verdi və CİS-in əsasını qoydu [5].

1.2. CİS-in komponentləri və proqram təminatları:

CİS əsasən 5 komponentdən ibarətdir: Avadanlıq, Proqram təminatı, Məlumat, İnsanlar və Metodlar [5]. Avadanlıq kompüter və onun əlavə məhsulları (printerlər, plotterlər, skanerlər, rəqəmsallaşdırıcılar, məlumat toplayıcılar) daxildir. Proqram təminatı isə coğrafi məlumatların saxlanması, təhlili və nümayişi kimi ehtiyac və funksiyaları təmin etmək üçün yüksək səviyyəli proqramlaşdırma dilləri ilə həyata keçirilən alqoritmlərdir [5].

CİS proqram təminatları arasında QGIS, ArcGIS, Google Earth Engine, MapInfo və digərləri xüsusi yer tutur. Bu proqramlar istifadəçilərə interaktiv məkan məlumatlarının toplanması, emalı və vizuallaşdırılması; çirklənmə səviyyələrinin illik və mövsümi müqayisəsi; risk, perspektiv və dəyişiklik analizləri üçün statistik hesabatlar və xəritələrin hazırlanması imkanı verir.

1.3. Ekoloji kartoqrafiyanın əhəmiyyəti:

Ekoloji kartoqrafiya ətraf mühitin vəziyyətinin, təbii resursların, ekoloji proseslərin və hadisələrin xəritələr vasitəsilə təsvir edilməsi və öyrənilməsidir. Ekoloji kartoqrafiya məlumatların coğrafi baxımdan sistemləşdirilməsi, əyaniləşdirilməsi və risklərin dəyərləndirilməsi imkanlarını genişləndirir. Xüsusilə, ekoloji risk xəritələri, torpaq örtüyünün dəyişməsi, su resurslarının çirklənməsi, havanın keyfiyyətinin monitorinqi kimi sahələrdə ekoloji kartoqrafiya həlledici rol oynayır.

Azərbaycanda ekoloji kartoqrafiya və CİS texnologiyalarının tətbiqi son illərdə sürətlə inkişaf edir. Coğrafiya İnstitutunda geoinformatika və kartoqrafiya sahəsində texnoloji yeniliklər tətbiq edilir [9]. Institutda CİS mühitində bir sıra elmi-tədqiqat işləri aparılır: "Azərbaycan Respublikasının 1:100000 miqyaslı rəqəmsal xəritə-informasiya bazası ArcGIS 10.5 proqram təminatı əsasında müxtəlif məlumat mənbələrini (topoqrafik xəritələr, Open Street Map və Landsat peyk sistemləri məlumatları) vahid sistemdə birləşdirilərək onlardan geniş istifadə imkanları yaradılıb" [9]. Bu rəqəmsal baza ekosistemlərin, landşaftların və təbii resursların idarə olunmasında və onların mühafizəsi üçün ekoloji qərarların verilməsində mühüm rol oynaya bilər [9].

2. Mingəçevir şəhərində ekoloji vəziyyətin təhlili:

2.1. Mingəçevir şəhərinin ekoloji xüsusiyyətləri:

Mingəçevir hazırda Azərbaycanda sənaye və enerji sektorunun mühüm qovşağı kimi qəbul edilir. Mingəçevir Sənaye Parkı və ona bitişik enerji müəssisələri şəhərin sosial-iqtisadi inkişafına böyük təkan verməklə yanaşı, ətraf mühitin vəziyyətinə də ciddi təsillər göstərməkdədir [1],[2]. Şəhər Kür çayının sahilində yerləşdiyindən su resurslarının keyfiyyəti xüsusi diqqət tələb edir. Kür çayının ekoloji vəziyyəti, xüsusən də sənaye və məişət tullantılarının çaya axıdılması, kənd təsərrüfatı sahələrindən gübrə sızmaları çayın ekosistemində ciddi fəsadlar yaradır [3].

2.2. Sənaye zonalarının ekoloji təsiri:

Mingəçevir şəhərində sənaye tullantıları ərazidə əsas ekoloji yük mənbəyidir. 2020–2024-cü illər ərzində aparılmış CİS təhlili bu zonada ekoloji yükün artmasını, əsasən hava və su hövzələrinin çirkləndirilmə dinamikasını müşahidə etməyə imkan vermişdir. Cədvəl 1-də Mingəçevir şəhərində sənaye tullantılarının 2020–2024-cü illər üzrə ətraf mühitə təsilləri göstərilir.

İllər Sənaye tullantılarının həcmi (min ton) Havanın toz tullantıları (min ton) Kür çayına sənaye-kənd təsərrüfatı tullantıları (min m^3)

Yuxarıdakı cədvəldən aydın görünür ki, Mingəçevir Sənaye Parkında sənaye tullantılarının həcmi hər il artma meyli göstərib. Həmçinin, atmosfer və suya buraxılan toz və digər məhlulların miqdarında da artım müşahidə edilir. Bunun başlıca səbəbi ərazidə yeni sənaye müəssisələrinin fəaliyyətə başlaması, istehsalat gücünün yüksəlməsi və sənayedə ekoloji texnologiyalardan istifadə səviyyəsinin hələ arzuolunan səviyyədə olmamasıdır [1],[3].

CİS texnologiyaları vasitəsilə aparılan təhlillər sənaye sahələrindən ətraf ərazilərə yayılan çirkləndirici elementlərin məkan proyeksiyasını çıxarmağa imkan verir. 2020–2024-cü illərdə aparılmış peyk təsvillərinin spektral analizi

nəticəsində, sənaye zonaları ilə yaşayış məntəqələri arasındakı torpaq və bitki örtüyü zolaqlarında tədrici degenerasiya, chlorophyll indeksi və NDVI (Normalized Difference Vegetation Index) dəyərlərinin azalması qeydə alınmışdır.

Cədvəl 1. Mingəçevir Sənaye tullantıların 2020–2024-cü illər üzrə ətraf mühitə təsirləri

İllər	Sənaye tullantılarının həcmi (min ton)	Sənaye tullantılarının həcmi (min ton)	Kür çayına sənaye-kənd təsərrüfatı tullantıları (min m^3)
2020	12.8	3.9	4.7
2021	13.1	4.2	5.1
2022	14.0	4.3	5.8
2023	15.6	4.8	6.2
2024	16.3	5.0	6.7

2.3. Kür çayının ekoloji vəziyyəti:

Mingəçevirdə ətraf mühitin əsas risk faktorlarından biri Kür çayının çirklənməsi və hidromorfoloji vəziyyətidir. Son illərdə, xüsusən 2020–2024-cü illər ərzində çaya sənaye və məişət tullantılarının axıdılması, kənd təsərrüfatı sahələrindən gübrə sızmaları çayın ekosistemində ciddi fəsadlar yaradıb [3]. Kür çayının sularında ağır metallar, nitrat və fosfatların normadan artıq olduğu, bioloji oksigen tələbatının (BOD) artdığı, suyun rəngi və şəffaflığında fərqliliklərin müşahidə edildiyi qeyd olunur [3].


CİS platformalarında aparılmış analizlər Mingəçevirin sənaye sahələri təmas nöqtəsində suyun keyfiyyət göstəricilərinin kəskin pisləşdiyini, akkumulyativ çirklənmə ocaqlarının, xüsusilə çay sahilində yerləşən böyük müəssisələr yaxınlığında daha intensiv müşahidə olunduğunu aşkara çıxarıb [3]. Bu amil həm insan sağlamlığı, həm də balıqçılıq və kənd təsərrüfatı üçün təhlükə mənbəyidir.

2.4. Torpaq örtüyünün dəyişməsi:

Torpaq örtüyündə baş verən dəyişikliklər, antropogen təzyiqlərin və landşaftın deqradasiyasının birbaşa göstəricisidir. 2020–2024-cü illər ərzində Mingəçevir ərazisində CİS texnologiyaları və peyk təsvirləri əsasında aparılmış təhlil aşağıdakı əsas nəticələri ortaya çıxarıb:

- Sənaye və tikinti məkanlarının sahəsi 10% artıb;
- Yaşıl zolaqlar və əkin üçün yararlı torpaq sahələrinin sahəsi 7–8% azalıb;
- Torpaq eroziyası və şoranlıq sahələrinin payı 6% artıb.

Peyk təsvirləri və landcover analizlərinin (Sentinel-2, Landsat-8 məlumatları) müqayisəsi göstərir ki, xüsusən sənaye zonası və şəhərin qərb hissəsində torpaq örtüyü urbanizasiyanın təsiri ilə əhəmiyyətli dəyişikliyə uğrayıb. 2022–2024-cü illərdə bu zolaqlarda NDVI dəyərlərində (+0,23-dən +0,13-ə qədər) azalma qeydə alınıb ki, bu da bitki biomassasının və torpağın məhsuldarlığının azalmasına mənfi təsir edir. Torpaq resursları üzrə CİS əsaslı çoxqatlı analizlər risk xəritəsi üzərində çirklənmiş, şoranlaşmış və deqradasiyaya uğramış ərazilərin ayrılmasına imkan verib.



Şəkil 2. Mingəçevir şəhəri (Sentinel-2)-Based on bands B12, B11, B4. 2025-10-06.

3. Müasir monitorinq texnologiyaları və tətbiqi:

3.1. Ağıllı monitorinq sistemləri və sensorlar:

Çağdaş dövrdə ətraf mühit monitorinqi yalnız passiv müşahidələrlə deyil, real vaxt rejimində ağıllı sensorlar və Internet of Things (IoT) əsaslı sistemlərlə aparılır. 2022–2024-cü illərdə Mingəçevirdə yeni nəsil sensorlar Kür çayının su səviyyəsi, temperaturu və çirkləndiricilərin

miqdarını ölçmək, sənaye parkının hava keyfiyyətini müəyyən etmək üçün tətbiq edilib [4].

- Bu sistemlərin üstünlüklərinə aşağıdakılar daxildir:
- Daimi, fasiləsiz və avtomatik data toplanması;
- Məlumatların bulud (cloud) platformasına real vaxtda yüklənməsi və CİS inteqrasiyası;
- Anomaliyaların sürətli aşkarlanması və erkən xəbərdarlıq sistemlərinin qurulması.

Ağıllı monitorinq cihazlarının tətbiqi sayəsində CİS əsaslı platformalarda "data-fusion" (multi-sistemli məlumat birləşməsi) ilə Mingəçevir üzrə ekoloji risklərin kompleks monitorinqi və vizualizasiyası mümkün olub. Xüsusən suya və havaya atılan çirkləndiricilərin və anomal dəyərlərin ani aşkarlanması Mingəçevir təcrübəsində ekoloji kartoqrafiyanın effektivliyini artırmışdır [4].

3.2. Süni intellektin ekoloji monitorinqdə tətbiqi:

Süni intellekt (AI) və maşın öyrənməsi (ML) texnologiyaları ekoloji monitorinqi radikal şəkildə çevirir [7]. Ənənəvi üsullarla müqayisədə AI avtomatlaşdırılmış məlumat toplama, real vaxt təhlili və proqnozlaşdırma modelləşdirməsinə imkan verir. AI texnikaları hava və su keyfiyyətinin monitorinqi, iqlim nümunələrinin izlənməsi və bioloji müxtəlifliyin qorunması dəstəyi üçün tətbiq edilir [7].

Hibrid AI modelləri müxtəlif analitik yanaşmaları birləşdirərək dəqiqliyi daha da artırır. Əsas tətbiqlərə növ müəyyən etmə, məskunlaşma qiymətləndirməsi, vəhşi həyatın izlənməsi və brakonerliyə qarşı mübarizə daxildir, pıçıltı kameraları, kamera tələləri və GPS məlumatları kimi alətlərdən istifadə olunur [7]. Bu texnologiyalar Mingəçevir üçün də potensial tətbiq təklif edir, xüsusən də Kür çayının su keyfiyyətinin proqnozlaşdırılması və sənaye emissiyalarının izlənilməsi üçün.

3.3. Qlobal monitorinq təşəbbüsləri və azərbaycanda vəziyyət:

Ekoloji monitoriqin dəqiqliyi və etibarlılığı qlobal miqyasda daim təkmilləşdirilir. Məsələn, 2025-ci ilin yanvarından etibarən yer səviyyəsindəki ozon ölçmələri üçün daha dəqiq ölçmə metodları tətbiq edilməyə başlanmışdır. Bu yeniləmə atmosferin monitorinqində ölçmə qeyri-müəyyənliklərini azaldır və dünya üzrə toplanan ozon məlumatlarının daha etibarlı və müqayisəli olmasını təmin edir .

Azərbaycanda, xüsusən də Coğrafiya İnstitutunda CİS və ekoloji kartoqrafiya sahəsində əhəmiyyətli işlər görülür. Məsələn, NASA məlumat bazası, çoxillik kontakt ölçmələri və "Global Wind" atlası əsasında Xəzər dənizində ümumi radiasiyanın, küləyin sürətinin və gücünün paylanma xəritələri tərtib edilib [9]. Xəzər dənizi üzrə 10 metr hündürlükdə, 2001-2022-ci illəri əhatə edən külək sürəti və istiqaməti məlumatları arxivləşdirilib və onlar əsasında məlumat bazası yaradılıb [9]. Bu tip layihələr Mingəçevir üzrə ekoloji monitoriq üçün də model təşkil edə bilər.

4. Təkliflər:

Ekoloji kartoqrafiya və CİS texnologiyalarının Mingəçevir şəhərində ətraf mühitin monitorinqində tətbiqi zamanı əldə olunan nəticələr göstərir ki, müasir texnologiyalar vasitəsilə məkan analizi, risklərin vizuallaşdırılması və qərar qəbuletmə qabiliyyəti əhəmiyyətli dərəcədə artırılır.

İlk növbədə, Mingəçevir Sənaye Parkının sənaye yükü və urbanizasiya səviyyəsinin artması nəticəsində atmosferə və su hövzələrinə atılan çirkləndiricilərin dinamikası peyk təsvirləri, CİS əsaslı xəritələr və tematik analizlərlə daha dəqiq və hərtərəfli izlənilə bilmişdir. Məlum olmuşdur ki, son 5 ildə sənaye sahələrindən yayılan tullantıların həcminin artması ilə torpağın məhsuldarlığı və ekoloji göstəricilər arasında korrelyasiya formalaşır. Bu prosesi ənənəvi statistik analizlə "görmək" çətin olduğu halda, CİS əsaslı kartoqrafik modellər konkret vaxt və məkan kəsiyində fərqliliyin vizuallaşdırılması və monitorinq strategiyasının qurulmasını asanlaşdırır.

Kür çayının ekosistemi nöqteyi-nəzərindən aparılmış monitorinq CİS və müasir ağıllı sensorların məlumatları sayəsində çayın hidrokimyəvi parametrlərində dalğalanmaları, sənaye və kənd təsərrüfatı təsillərinin çayda məkan üzrə paylanmasını (spatial variability) dərindən təhlil etməyə imkan verib. Beynəlxalq tədqiqatlarda 2020–2024-cü illərdə suyun keyfiyyəti üzrə aparılmış nöqtəvi ölçmələrin CİS xəritələrinə inteqrasiyası nəticəsində çirklənmənin lokal və regional ocaqları vizuallaşdırılmışdır. Bunun sayəsində şəhər və ətraf rayonların icra orqanları, real vaxt məlumatı əsasında operativ tədbirlər planını tərtib etmişlər.

Torpaq örtüyünün dəyişikliklərinin kartoqrafik analizləri Mingəçevir üçün landcover və NDVI raster məlumatlarının illik müqayisəsilə daha obyektiv və etibarlı nəticələrə səbəb olub. Ənənəvi torpaq təsnifatına nisbətən, bu tip CİS dəstəyi kartoqrafiya texnologiyaları sahə üzrə antropogen təsilləri – urbanizasiya, sənaye, kənd təsərrüfatı genişlənməsi, eroziya və şoranlaşmanın dinamikasını operativ və əyaniləşdirilmiş şəkildə göstərir.

Ağıllı monitorinq sistemləri və sensorlar texnologiyası Mingəçevirdə tətbiq olunduqca çevik ekoloji nəzarət və erkən xəbərdarlıq imkanları formalaşmışdır. Cihazlar vasitəsilə ətraf mühitdəki anomaliyaların (hərarət, kimyəvi tərkib, radioaktivlik və s.) ani aşkarlanması və məlumatların

GIS platformalarına inteqrasiyası ekoloji kartoqrafiyanın operativliyini və praktik dəyərini yüksəldir. Bu tendensiya gələcəkdə Mingəçevirdə urbanizasiya və sənaye təzyiqlərindən doğan ekoloji fəsadların idarə olunmasında prioritet alət hesab olunur.

Ekoloji məlumat bazalarının açıq və şəffaf istifadəsi, o cümlədən Dövlət Statistika Komitəsi və Ekologiya Nazirliyinin məlumatları, elmi monitorinq işlərinin effektivliyini, ictimai iştirak imkanlarını və planlaşdırma strukturunu gücləndirir. Qeyd edək ki, bütün bu mexanizmlər yalnız mövcud proqram təminatları və infrastrukturun davamlı modernləşdirilməsi, kadr potensialının artırılması və ictimai maarifləndirmə ilə birgə səmərə verir. Təkliflər:

- Mingəçevir şəhəri üçün inteqrasiya olunmuş ekoloji monitorinq sistemi yaradılmalıdır.
- Süni intellekt və maşın öyrənməsi texnologiyaları ekoloji məlumatların təhlilinə daxil edilməlidir.
- Ekoloji məlumat bazalarının açıq və şəffaf olması təmin edilməlidir.
- Kadrların ixtisasının artırılması üçün təlimlər təşkil edilməlidir.
- Ekoloji kartoqrafiya və CİS texnologiyalarından istifadə etməklə qərar qəbulu prosesi gücləndirilməlidir.

Nəticə:

Tədqiqat nəticəsində məlum olmuşdur ki, Mingəçevir şəhərində ekoloji kartoqrafiya və CİS texnologiyalarının ətraf mühitin monitorinqində tətbiqi ətraf mühit problemlərinin kompleks, obyektiv və sistemli şəkildə öyrənilməsi və idarə olunmasında mühüm rol oynayır. 2020–2024-cü illərdə sənaye sahələrindən qaynaqlanan tullantıların artması, Kür çayının su keyfiyyətinin pisləşməsi və torpaq örtüyünün antropogen təsillər altında deqradasiyası CİS əsaslı analizlərin aktuallığını artırır. Genişmiqyaslı tematik xəritələr, interaktiv CİS modelləri və ağıllı sensor platformalar sayəsində monitorinqin detallı, vizual və dinamik keçirilməsi mümkün olmuşdur.

Bu metod və texnologiyalar sayəsində Mingəçevirdə ekoloji risklər daha dəqiq müəyyən edilmiş, prioritet tədbirlər və planlamalar daha səmərəli şəkildə həyata keçirilmişdir. Lakin qeyd etmək lazımdır ki, ekoloji kartoqrafiya və CİS texnologiyalarının maksimal effekt verməsi üçün mütəmadi məlumat yenilənməsi, texnoloji və kadr potensialının artırılması, ictimai iştirakçılığın təşviqi və dövlət səviyyəsində uzunmüddətli monitorinq proqramlarının davamlı və səmərəli qurulması vacibdir.

Əldə olunan nəticələr Mingəçevirin ətraf mühitinin qorunması, sənayeləşdirilmiş zonaların davamlı idarə olunması və Kür çayının dayanıqlı ekoloji rejiminin təminatı üçün effektiv strategiya olaraq tətbiq edilə bilər. Hazırkı elmi tədqiqat, həm yerli, həm də beynəlxalq səviyyədə ekoloji monitorinq və planlaşdırma sahəsində gələcək proqramlar üçün model təşkil edir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikasının İqtisadi Zonalar üzrə Agentliyi. "Mingəçevir Sənaye Parkı." https://economiczones.gov.az/iqtisadi-zonalar/senaye-parklari/mingecevir-senaye-parki
2. "Enerji keçmişindən ekoloji gələcəyə: Mingəçevirin yeni sınaqları." https://mi-news.az/enerji-kecmisind%c9%99n-ekoloji-g%c9%99l%c9%99c%c9%99y%c9%99-ming%c9%99cevirin-yeni-sinaqlari/
3. Qapalı su hövzələrinin və Kür çayının ekoloji vəziyyəti haqqında. https://ekologiya.az/ekoloji-gerginlik-ve-onun-netileri.html
4. AzərTAc. "Ətraf mühitin monitorinqi üçün ağıllı sistemlərin işlənilməsi." https://azertag.az/xeber/etraf_muhitin_monitorinqi_uchun_agilli_sistemlerin_islenilmesi_perspektivleri_arasdirilir-3290892
5. GIS Academy Azərbaycan. "Coğrafi İnformasiya Sistemləri (CİS) nədir?" https://gisacademy.az/cis/
6. NOAA Global Monitoring Laboratory. "GML Seminars 2025." https://gml.noaa.gov/about/seminars.php?year=2025
7. "Integrating Artificial Intelligence in Environmental Monitoring: A Paradigm Shift in Data-Driven Sustainability." Ecohealth (2025). https://pubmed.ncbi.nlm.nih.gov/40875110/
8. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi. "CİS üçün baza xəritələrinin tərtibi ilə əlaqədar müraciətin həyata keçirilməsi." https://eco.gov.az/index.php?ln=az&pg=732
9. AZƏRTAC. "Coğrafiya İnstitutunda geoinformatika və kartoqrafiya sahəsində texnoloji yeniliklər tətbiq edilir." https://icma.az/news/cografiya-institutunda-geoinformatika-ve-kartoqrafiya-sahesinde-texnoloji-yenilikler-tetbiq-edilir-768447
10. Sustainable Manufacturing Expo. "Latest Advancements in Environmental Monitoring Technologies." https://www.sustainablemanufacturingexpo.com/en/articles/advancements-environmental-monitoring-tech.html

DOİ: 10.32010/RDVJ9645

THE INDICATOR ROLE OF CHROMOSPINELLES IN THE POTENTIAL METALLURGY OF PICRITES OF THE TALYSH ZONE

Farrukh Hafiz SARİYEV
Institute of Geology and Geophysics
Ministry of Science and Education of the Republic of Azerbaijan
Orcid: https://orcid.org/0000-0001-9190-3771
E-mail: ferrux.sariyev.2018@mail.ru

Abstract: This thesis addresses the ore-bearing potential of picrite magmatism in the Talysh zone based on new mineralogical, geochemical, and petrological data. If the development of the non-oil sector of the economy is recognized as the main priority in our republic, then an in-depth analysis of this area could play a significant role in the development of the mining industry, thereby significantly increasing precious metal production in this region. Picrite rocks in the republic have been identified primarily in the Murovdag and Khojavend subzones, as well as in the Talysh zone. Analysis of the content of ore-forming elements in the primary magma, as well as the distribution patterns of these elements in specific mineral phases, allows us to estimate their potential ore-forming capacity.

A number of ore-forming minerals have been discovered in moderately alkaline picrite rocks. Analysis of the accessory minerals present in the picrite magma shows that they were previously rich in certain ore-forming elements. These ore-forming elements include, in particular, nickel, cobalt, copper, titanium, vanadium, chromium, fluorine, and others. A number of ore-forming minerals acted as carriers and accumulators of these elements. The chromium concentration in moderately alkaline picrites, which are the primary differentiation of picrite magma, exceeds 3000 ppm. Due to this high chromium content, rock-forming minerals (clinopyroxene, phlogopite, etc.) are enriched in chromium. After enrichment, the remaining excess chromium leads to the crystallization of accessory chromospinelide.

Consequently, it can be noted that the chromospinelides involved in ore formation formed through liquefaction and decomposition (silicate ore). The accessory spinels, in turn, formed through normal crystallization. In accordance with the evolution of magmatic melt, this crystallization process occurred as a result of the evolution of magmatic melt.
Keywords: Talysh zone, picrite, mineral, chrome spinel, ore content, concentration

XROMŞPİNELLƏRİN TALIŞ ZONASININ PİKRİTLƏRİNİN POTENSİAL FİLİZLİLİYİNDƏ İNDİKATOR ROLU

Fərrux Hafiz SARIYEV
ARETN Geologiya və Geofizika İnstitututu
Orcid: https://orcid.org/0000-0001-9190-3771
E-mail: ferrux.sariyev.2018@mail.ru

Xülasə: Bu tezisdə Talış zonasının pikrit maqmatizminin yeni mineraloji-geokimyəvi və petroloji məlumatlar əsasında potensial filizliyinin aşkar edilməsi istiqamətində bir çox məsələlərə aydınlıq gətirilmişdir. Respulikamızda qeyri neft sektorunun inkşafının əsas prioritet istiqamət olduğunu qəbul etsək, bu istiqamətin dərindən təhlili dağ-mədən sənayesinin inkşafında böyük rol oynaya bilər. Belə ki, bu sahədə qiymətli metalların hasilatının yüksəlməsinə böyük töhfə verə bilər. Respublika ərazisində pikrit süxürları əsasən Murovdağ və Xocəvənd yarımzonalarında və Talış zonasında aşkar edilmişdir. İlkin maqmada olan filiz əmələgətirən elementlərin konsentrasiyasının, eləcə də həmin elementlərin konkret mineral fazalarında paylanma mexanizminin təhlili imkan verir ki, onların potensial filizlilik dərəcəsini qiymətləndirək.

Mülayim qələvili pikrit süxurlarında bir sıra filiz əmələgətirən minerallara rast gəlinir. Pikrit maqmasının tərkibində iştirak edən aksessor mineralların maddi tərkiblərinin təhlili göstərir ki, onlar öncə müəyyən filiz əmələgətirən elementlərlə zəngin olmuşdur. Bu filiz əmələgətirən elementlər sırasına xüsusi olaraq nikeli, kobaltı, misi, titanı, vanadiumu, xromu, flüoru və s. aid etmək olar. Həmin elementlərin daşıyıcıları və toplayıcıları bir sıra filiz əmələgətirən minerallar olmuşlar. Pikrit maqmasının ilkin differensiatı olan mülayim qələvili pikritlərdə xromun konsentrasiyası 3000 q/t-dan yüksəkdir. Hansı ki, bu xromun yüksək miqdarı sayəsində süxur əmələgətirən minerallar (klinopiroksen, floqopit v.s) xromla zənginləşirlər. Zənginləşmədən sonra kifayət qədər artıq qalan xrom filiz və aksessor xromşpinelin kristallaş-ması ilə nəticələnmişdir.

Nəticə etibarı ilə qeyd edə bilərik ki, filiz əmələgəlmə prosesində iştirak edən xromşpinellər likvasiya və parçalanma (silikat-filiz) yolu ilə formalaşmışlar. Digər tərəfdən aksessor şpinellər öz növbəsində normal kristallaşma yolu keçməklə formalaşmışdır. Hansı ki, maqmatik ərintinin təkamülünə uyğun olaraq bu kristallaşma prosesi baş vermişdir.

Açar sözlər: Talış zonası, pikrit, mineral, xromşpinel, filizlilik, konsentrasiya

ИНДИКАТОРНАЯ РОЛЬ ХРОМШПИНЕЛИДОВ В ПОТЕНЦИАЛЬНОЙ РУДОНОСНОСТИ ПИКРИТОВ ТАЛЫШСКОЙ ЗОНЫ

Фаррух Хафиз САРИЕВ
Институт Геологии и геофизики
Министерства науки и образования Азербайджанской Республики
Orcid: https://orcid.org/0000-0001-9190-3771
E-mail: ferrux.sariyev.2018@mail.ru

Резюме: Данный тезис охватывает вопросы в направлении выявления потенциальной рудооносности пикритового магматизма Талышской зоны на основе новых минералого-геохимических и петрологических данных. Если признать развитие ненефтяного сектора экономики основным приоритетным направлением в нашей республике, то углубленный анализ этого направления может сыграть важную роль в развитии горнодобывающей промышленности, внося тем самым существенный вклад в увеличение добычи драгоценных металлов в данном регионе. На территории республики пикритовые породы выявлены преимущественно в Муровдагской и Ходжавендской подзонах, а также в Талышской зоне. Анализ содержания рудообразующих элементов в первичной магме, а также закономерностей распределения этих элементов в конкретных минеральных фазах позволяет оценить их потенциальную рудообразующую способность.

В умерено-щелочных пикритовых породах обнаружен ряд рудообразующих минералов. Анализ вещественного состава акцессорных минералов, входящих в состав пикритовой магмы, показывает, что ранее они были богаты некоторыми рудообразующими элементами. К этим рудообразующим элементам относятся, в частности, никель, кобальт, медь, титан, ванадий, хром, фтор и др. Ряд рудообразующих минералов являлся носителями и накопителями этих элементов. Концентрация хрома в умеренно-щелочных пикритах, являющихся первичной дифференциацией пикритовой магмы, превышает 3000 г/т. Благодаря высокому содержанию этого хрома, породообразующие минералы (клинопироксен, флогопит и др.) обогащаются хромом. После обогащения оставшийся в избытке хром приводит к кристаллизации акцессорного хромшпинелида.

В результате можно отметить, что хромшпинелиды, участвующие в процессе рудообразования, образовались в результате разжижения и разложения (силикатная руда). Акцессорные же шпинелиды, в свою очередь, образовались в результате нормальной кристаллизации. В соответствии с эволюцией магматического расплава Этот процесс кристаллизации происходил в результате эволюции магматического расплава.

Ключевые слова: Талышская зона, пикрит, минерал, хромшпинелид, содержание руды, концентрация.

İntroduction

Since the development of the Eocene stage is accompanied by the formation of various folds, the volcanism and sedimentation processes of the Talysh zone replace each other in time. Nevertheless, if we analyze the development of volcanism and sedimentation, we can see the existence of various geological breaks in the Eocene period. The lower and middle Eocene stages of this break correspond to the absarokite-shoshonite-alkaline basalt complexes in terms of volcanism, and the upper Eocene volcanism corresponds to the trachyandesibasalt-phonolite complexes. The development of the region is associated with the replacement of volcanism and sedimentation, depending on the rift-like geological conditions.

In the Talysh zone, sedimentary and volcanogenic rocks of this formation are more widespread than rocks of other formations. The picrites, which are the object of our research, were formed in the upper Eocene and lower Oligocene.

It is known that as a result of partial melting of the upper mantle basement, the transport of subalkaline picrite alloy, a relatively heavy fraction of olivine basalt magma, to the upper horizons of the earth's crust becomes much more difficult (Mammadov, 1999). As a result of the inability of picrite alloy to be transported to the upper horizons, this heavy fraction forms intrusives of various shapes and sizes of Paleocene and Eocene age in the form of separate intrusives, which are mainly composed of rocks of tuffogenic-sedimentary origin (Mamedov et., 2021; Sariyev, 2022a). These intrusives are found in layered, sill-like, stock-like and irregular forms. They were formed within rock complexes of various ages of the geological development of the Talysh zone. Examples of these complexes include the following: Nudus-galası, Dilmadı, Pelikesh, Hamarat-Aliabad, Motalayatag, Alshar-Yelagach,

Velikand and Rishov intrusives. of these, Nudus-galası, Pelikesh and Dilmadı intrusives are located within the Danish-Paleogene tuff-depositional complexes (Sariyev, 2025).

Materials

Accessory minerals: These minerals are present in picrite rocks in varying amounts (Table 1). Accessory minerals are much less common than rock-forming minerals and consist of oxides, silicates, sulfides, phosphates, sulfates, etc. (Mammadov et., 2024).

Table 1. Distribution table of accessory minerals in picrites (ppm)

Minerals (ppm)	10	11	14	15	17	18	21
Magnetite	2412	1875	2375	1875	3650	3470	35
Ilmenite			14	12	25	27	
Rutile	2	0.5	0.3	0.1	0.7	0.8	
Chromospinel	350	375	276	280	210	220	25
Tourmaline					0.1	0.1	
Sphen			0.3	0.2	0.3	0.2	
Leucoxene			0.1	0.1	0.1	0.1	
Garnet	0.3	0.2	0.2	0.1	0.1	0.1	0.6
Zircon	1.7	2.1	37.3	35.6	31.6	37.7	15
Pyrite	0.3	0.1	0.6	0.4	0.7	0.6	0.3
Chalcopyrite			0.2	0.2	0.2	0.2	0.6
Pyrrhotin			0.15	0.1	0.16	0.15	0.12
Apatite	50	55	550	560	765	820	75
Barite			0.3	0.1	0.4	0.2	

The most common of these minerals are iron-titanium oxides, consisting of titanium magnetite, culsonite, titanium maghemite, ilmenite, and hematite.

Chromospinel is widely distributed in picrite rocks. Thus, in artificial slimes, chromespinel grains have a dark black color. These grains are found in irregular or octahedral shapes (Fig 1).




Figure 1. Microscopic image of chrome spinel grains (Ppl, Cpl, x5)

Sometimes it is observed in the form of small grains. Vein-shaped chrome spinel is found along the cracks of olivine minerals in picrites (Imamverdiyev et., 2025; Sariyev, 2022b). Various weak greenish shades are found in fine and powdery chrome spinel grains. During petrographic research, two types of chrome spinel grains can be observed in micrographs. The first forms mutual adhesions with olivine in mildly alkaline picrites. Thus, several of them are found in the form of aggregates similar to "glomeroporphyry" (Babayeva et., 2025). At the same time, they form octahedral forms of regular and irregular shapes. Sometimes very small point-like derivative chrome spinel grains are found in olivine bands. Attention was paid to the results of microprobe analysis to characterize these chrome spinel types (Table 2).

Table 2. Chemical composition of chrome spinels

oxides	1	2	3	4	5	6	7	8	9
TiO_2	0,04	0,05	0,05	0,05	0,05	0,06	0,08	0,02	0,09
Al_2O_3	10,75	9,01	8,18	8,45	8,4	8,1	8,25	11,46	6,75
Cr_2O_3	53,76	54,45	54,39	54,32	55,33	55,62	56,1	53,36	55,27
V_2O_3	0,1	0,11	0,12	0,14	0,14	0,14	0,14	0,04	0,18
Fe_2O_3	6,96	8,26	8,34	7,35	6,41	7,06	5,82	7,34	6,85
FeO	15,75	17,23	20,22	21,46	21,57	20,19	22,11	14,08	24,25
MnO	0,33	0,21	0,23	0,25	0,33	0,28	0,16	0,25	0,11
CoO	0,04	0,04	0,02	0,03	0,03	0,03	0,03	0,05	0,03
NiO	0,08	0,07	0,06	0,05	0,05	0,05	0,05	0,09	0,04
MgO	11,36	10,49	8,66	7,69	7,4	8,4	7,25	12,76	5,75
∑	99,17	99,92	100,27	99,79	99,71	99,93	99,99	99,45	99,32

As can be seen (Table 2 an.1, 8), the content of magnesium and aluminum oxides in chrome spinels is quite high. The concentration of nickel and cobalt in them was found to be relatively high compared to the others (629-707 ppm) (Table 3).

Table 3. Microelement composition of chrome spinels

Elements (ppm)	1	2	3	4	5	6	7	8	9
Ni	629	550	432	471	471	471	471	707	314
Co	314	314	157	210	235	235	235	393	235
Ti	239	299	299	299	299	359	479	119	539
V	679	747	815	951	951	951	951	271	1223

In the mineral compositions (Vladimir, 2018; Chayka et., 2025), a high concentration of the specific spinel ($MgAl_2O_4$) molecule is also observed (Table 4). Along with these, the amount of magnesium chromite molecules is significantly higher. These properties are especially characteristic of mildly alkaline olivine picrites. However, partial oxidation is observed in these chrome spinels. It can be shown that the increase in the concentration of iron in chrome spinels is related to their exposure to the derivation process.

Table 4. Crystallochemical and mineral compositions of chrome spinels

Kations	1	2	3	4	5	6	7	8	9
Ti	0,001	0,001	0,001	0,001	0,001	0,002	0,002	-	0,002
Al	0.417	0.353	0.325	0.339	0.338	0.323	0.331	0.439	0.278
Cr	1,401	1,431	1,449	1,461	1,491	14.88	1,512	1,372	1,526
V	0,003	0,003	0,003	0,004	0,004	0,004	0,004	0,001	0,005
Fe^{+3}	0,174	0,206	0,211	0,188	0,164	0,180	0,149	0,180	0,180
Fe^{+2}	0,435	0,479	0,570	0,611	0,615	0,571	0,629	0,383	0,708
Mn	0,009	0,006	0,006	0,007	0,010	0,008	0,005	0,007	0,003
Co	0,001	0,001	0,001	-	-	-	-	0,001	-
Ni	0,002	0,002	0,002	0,001	0,001	0,001	0,001	0,002	0,001
Mg	0,558	0,520	0,435	0,390	0,376	0,423	0,368	0,618	0,299
∑	3,001	3,002	3,003	3,002	3,000	3,000	3,001	3,003	3,002
t^0C	1100	980	940	860	860	1080	920	1100	930

$MgCr_2O_4$	35.5	34.1	27.2	22	20.8	26.8	20.3	39.4	16.2
$FeCr_2O_4$	35.7	39.8	45.3	50.9	53.3	45.7	53.7	32.5	60.2
$MgAl_2O_4$	21.2	17.5	16.2	16.9	17	16.5	16.6	21.7	14.2
$FeOFe_2O_4$	7.7	8.6	11.2	10.1	8.9	11	9.5	6.4	9.5

In the restored state, copper, zinc, nickel and other metallogenic elements, which have a sufficient concentration in the magmatic melt under the control of H_2S (hydrogen sulfide) gas, were sorted by extraction and reached the level of hydrothermal solutions. As a result of this process, chalcopyrite, sphalerite, pentlandite mineralization phases were discovered in veins of hydrothermal origin (Sariyev, 2022c).

Conclusion

Thus, intrusive chambers play a major role in the formation of accessory minerals. Also, the loss of a significant part of volatiles in the process of regulating their amounts is of great importance. From a geochemical point of view, accessory minerals are considered important indicators in the distribution of some large-valent (Zr, U, Tr, Nb, Ta) and large-ionic radius (Ba, Sr, Rb, etc.) elements. Accessory minerals play a key role in determining the temperature and pressure of picrite magma (Fabries, 1979).

REFERENCES:

1. Babayeva, G.C., Hasanguliyeva, M.Y. and Sariyev, F.H. (2025). Petrogenetic features of the formation of Upper Cretaceous magmatic complexes of the Khojavend subzone of the Lesser Caucasus. Petrology and Geodynamics of Geological Processes: Their Role in Subsurface Exploration and Geological Mapping, Proceedings of the XIV All-Russian Petrographic Conference, 26-28.

2. Chayka, I. et. (2025). Erratic behavior of platinum-group elements along an olivine–Cr-spinel cotectic in sulfide-undersaturated basaltic magma: roles of Cr-spinel and alloys. Scinetific reports, 15 (1) https://doi.org/10.1038/s41598-025-97281-z.

3. İmamverdiyev, N.A., Sariyev, F.H. and Babayeva, G.J (2025). Petrological characteristics of the formation of subalkaline picrits of the Khojavend subzone. Conference: Proceedings of the second scientific and practical conference "Current problems of prospecting geology". Moscow: VIMS, 55-57.

4. Mammadov, M.N. (1999). Petrology and geochemistry of Late Cretaceous and Eocene igneous formations of the Lesser Caucasus and Talysh. Nafta-press. Baku, 400.

5. Mammadov, M.N., Babayeva, G.J. and Sariyev, F.H. (2024). Petrogenetıc role of pyroxenes in the formatıon of picrites of the Lesser Caucasus and Talysh zone. ANAS Transactions, Earth Sciences 2, 3-16. https://doi:10.33677/ggianas20240200122.

6. Мамедов, М.Н., Бабаева, Г.Дж., Гасангулиева, М.Я. and Сарыев, Ф.Г. (2021) Петролого-геохимические условия формирования мезо кайнозойских пикритов Малого Кавказа и Талыша, Институт геологии и геофизики НАНА, 9-14.

7. Sariyev, F.H. (2025). Geochemistry and Petrogenesis of Picrites of the Lesser Caucasus and Talysh zone. Journal of Geology, Geography and Geoecology 34(1), 196-207. doi: https://doi.org/10.15421/112518.

8. Sariyev, F.H. (2022a). Petrological-geochemical properties of the formation of picrite and picrobasalts of the Murovdag anticlinory of the Lesser Caucasus // News of Baku University, 3, 101-108.

9. Sariyev, F.H.(2022b). Potential Mineralization of Picrite magmatism Of The Lesser Caucasus and Talysh Zone. XXV Republican Scientific Conference Of Doctoral Students And Young Researchers (Nasco XXV).

10. Sarıyev, F.H. (2022c). Petrological Features Of The Formation Of Sub-Alkaline Picrites Of The Talysh Zone. Conference: The Third International Student Research And Science Conferences, 7-8.

11. Fabries, J.(1979) Spinel-olivine geothermometry in peridotites form ultramafic complexes. Cont. Minerology and Petrology, 69, 329-336.

12. Vladimir, G.S. (2018). Evolution Of Picrite Magmatism And Ore Formation In The Ulytau Region Of Central Kazakhstan. News Of The National Academy of Sciences Of The Republic Of Kazakhstan Series Of Geology And Technical Sciences, 1, 421, 18-36.

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT NEFT VƏ SƏNAYE UNİVERSİTETİ PHŞ

"Konstitusiya və Suverenlik İli"nə həsr olunan "Doktorantların və Gənc Tədqiqatçıların XXVIII Respublika Elmi Konfransı (NASCO XXVIII)" – NASCO 2025. III cild (Texnıkı, təbiət, yer elmləri) mövzusunda respublika elmi-praktik konfransının materialları // – Bakı: Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU), – 16–17 dekabr 2025, –1097 s.

https://doi.org/10.32010/RXLV9916

Materiallardan istifadə zamanı jurnala istinad zəruridir.

https://nasco.asoiu.edu.az/

Redaksiyanın ünvanı: Bakı şəh., Azadlıq prospekti, 20
Telefon: +994 12 493 45 57
Poçt indeksi: AZ1010
E-mail: science@asoiu.edu.az

Yığılmağa verilmişdir: 22. 01. 2026
Çapa imzalanmışdır: 31.03.2026
Kağızın formatı: 60x84 $^{1}/_{16}$
Tiraj: 100